AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜĞƏTİ

A-Z



LÜĞƏT VƏ ENSİKLOPEDİYALAR

Ш163
А 99

246202

AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜĞƏTİ

A-Z

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB

BAKI 2007

Tərtib edəni: **Nəriman Seyidəliyev**
filologiya elmləri namizədi

Redaktoru: **İsmayıl Məmmədov**
filologiya elmləri doktoru, professor

ISBN 978-9952-34-109-6

494.36131-dc22
Azərbaycan dili – Sinonimlər – Lüğətlər

Azərbaycan dilinin sinonimlər lüğəti
Bakı, "Şərq-Qərb", 2007, 424 səh.

Lüğətdə 11 minə qədər eyni və yaxın mənaları əks etdirən sinonim söz və ifadə verilmişdir ki, bunlardan 4 mini dominant sözdür. Sinonimlər lüğətinin tərtibində ədəbi dilimizin öz lüğət fondundan, başqa dillərdən alınmalardan, danışıqda işlənən sözlərdən, o cümlədən məhəlli və dialekt sözlərindən və bəzi terminlərdən istifadə edilmişdir. Sinonim sözlərin əksəriyyəti Azərbaycan yazıçılarının əsərlərindən götürülmüş nümunələrdə öz əksini tapmışdır.

© "Şərq-Qərb", 2007

ÖN SÖZ

Sinonimlik geniş anlayışdır və dilçiliyin bir sıra bölmələrində – leksikologiyada, üslubiyyatda, semasiologiyada və s.-də tədqiq olunur. Sinonimlər dilin lüğət tərkibini zənginləşdirməklə digər dil vahidlərinin bir-birinə yaxın variantlarını reallaşdıran, semasiologiyada isə yaxın, incə məna çalarları yaradan, eyni zamanda sözün semantik nüvəsinin parçalanması və genişlənməsi prosesinə xidmət edən bir vasitə kimi öyrənilir.

Sinonimlər dil vahidi kimi dilimizin məna zənginliyini əks etdirir. İstər ana dilimizdə, istərsə də əcnəbi dillərdə sinonimlərin xidməti həmin dillərin bilavasitə fəaliyyətini aktivləşdirir.

Sinonimlər leksik-semantik kateqoriya olub: a) danışıq dilini zənginləşdirir; b) dili incələşdirir; c) mənanı qüvvətləndirir; ç) dildə emosiya yaradır; d) nitq mədəniyyətində həlledici rol oynayır; e) fikri ifadə etmək üçün onu daha da aydınlaşdıraraq dəqiqləşdirir; ə) yersiz təkrarın qarşısını alır; f) təsirliliyi artırır və s.

Dilimizdə işlənən bütün sinonimlər məna və üslubca da fərqlənirlər. Hər bir sinonim söz müəyyən məna çalarlarına malikdir. Bəzi sözlər eyni məfhumu ifadə edir, bəziləri isə eyni məfhumları deyil, bir-birinə yaxın mənanı bildirir: *ayrılıq – hicran – fəraq, qış – zimistan, yaz – bahar, eynək – gözlük – çeşmək* və s. kimi sinonim sözlər eyni məfhumu ifadə etdiyi halda, *külək – meh – yel, baş – kəllə – qafa, soyuq – şaxta, nəm – sulu – höyüş – yaş* və s. bu kimi sinonimlər bir-birinə yaxın mənaları ifadə edirlər.

Məhz dildə işlənən bütün sinonim sözlər məna və üslubca bir-birindən fərqləndiyinə görə iki qrupa bölünür: 1) ideoqrafik sinonimlər (yəni semantik sinonimlər); 2) üslubi sinonimlər.

İdeoqrafik sinonimlərin işlədilməsində məqsəd dildə fikri dəqiq ifadə etməkdir. Onlar aşağıdakı mənaları ifadə edirlər: a) ifadənin əlamət dərəcəsini; b) sözlərin geniş, yaxud dar mənada işlənməsini; c) mücərrədliyi, yaxud konkretliyi və s.

Üslubi sinonimlər digər sinonimlərdən yalnız öz üslubi xüsusiyyətlərinə görə fərqlənir. Məsələn, *üz – çöhrə – sima – rüxsar – camal, hədiyyə – ərməğan – peşkəş – töhfə* sinonim cərgələrin birinci tərəfi üslubi neytral, sonrakı sözlər isə müxtəlif üslubi yaradıcılıqla bağlıdır. *Üz, sima, çöhrə* sözləri ədəbi dildə və danışıqda işləndiyi halda, *rüxsar* və *camal* sözləri isə yalnız poetik üslubda işlənir. *Ərməğan, peşkəş* və *töhfə* sözləri də üslubi söz kimi ədəbi dildə işlənir.

Ümumiyyətlə, üslubi sinonimlər dilçilikdə aşağıdakı kimi qruplaşdırılır: a) üslubi çalarlarına görə müxtəlif sözlər: – hamı tərəfindən işlədilən sözlər, ədəbi dil, danışıq dili, loru sözlər, yaxud da vulqarizmlər; b) dilin tarixən mövcud olduğu vaxtdan müxtəlif əlaqələrdə olan sözlər: köhnə və yeni sözlər; c) ümumxalq danışıq dilində

və dialektlərdə olan sözlər, sənət-peşə ilə əlaqədar olan sözlər, jarqon sözlər; ç) əmələ gəlməsinə görə müxtəlif sözlər: ərəb, fars, rus, Avropa və başqa dillərdən alınma sözlər; d) əşyanın ifadə etdiyi həqiqi mənalı sözlər və evfemizmlər; e) söz və frazeologizm.

Lüğətdə sinonim sözlərin bir-birinə daha yaxın və eyni məna kəsb etməsini dəqiq göstərmək üçün hər bir sözə aid misallar verilmişdir. Nümunələr İ.Nəsimidən başlamış müasir dövrə qədər – 150-yə yaxın şair və yazıçının əsərlərindən, atalar sözlərindən, aşıq yaradıcılığından, qəzet və jurnallardan, bəziləri isə dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti"ndən götürülmüşdür. Lakin bununla bərabər, bəzi sözlərə aid nümunələr verməyə ehtiyac duyulmadı.

Azərbaycan dilindəki sinonimlər müxtəlif sahələrdə işlənir və hər bir sözün məna çalarları vardır: coğrafi adlar bildirən sinonimlər; bitki adları bildirən sinonimlər; heyvan adları bildirən sinonimlər; quş adları bildirən sinonimlər; yemək adları bildirən sinonimlər; meyvə-tərəvəz adları bildirən sinonimlər; əşya adları bildirən sinonimlər; rəng adları bildirən sinonimlər; iş-hərəkət bildirən sinonimlər; əlamət və keyfiyyətə görə əmələ gələn sinonimlər; yaraq-əslahə və alət adları bildirən sinonimlər; bədən üzvləri bildirən sinonimlər; dini ayinlə bağlı əmələ gələn sinonimlər; geyim adları bildirən sinonimlər; adət-ənənə adları bildirən sinonimlər; zaman və məkanla əlaqədar olan sinonimlər; planet adları ilə əlaqədar olan sinonimlər və s.

Bütün bunlarla yanaşı, lüğətdə aşağıdakı hallar da öz əksini tapmışdır: a) çoxmənalılıq yolu ilə əmələ gələn sinonimlər; b) alınma sözlər və terminlər vasitəsilə əmələ gələn sinonimlər; c) evfemizmlə əlaqədar düzələn sinonimlər; ç) məcazi məna bildirən sinonimlər; d) emosional-ekspressiv sözlərdən ibarət sinonimlər; e) arxaizmlə düzələn sinonimlər; ə) omonimlərdən ibarət olan sinonimlər; f) müxtəlif qrup sözlərdən yaranan sinonimlər və s.

LÜĞƏTİN QURULUŞU

1. Lüğətdə verilmiş sözlər əlifba sırası ilə düzülmüşdür.

2. Lüğətdə çox işlənən sözlər daha geniş yer tutur.

3. Sözlər tək şəkildə verilmişdir.

4. Baş sözlər (dominant) əsas götürülmüşdür.

5. Lüğətdə həm əsli, həm də nisbi sinonimlər əhatə olunmuşdur.

6. Lüğət tərtib olunarkən ədəbi dildə işlənən sözlərdən, alınma sözlərdən, danışıq dilində işlənən sözlərdən, məhəlli və dialekt sözlərdən və s. istifadə olunmuşdur.

7. Qeyri-əsas söz dominant sözə *bax* ilə yönəldilir:
zülf *bax* saç
bürkü *bax* isti

8. Çoxmənalı sözlərin sinonimliyində 1-ci və yaxud 2-ci məna əsas götürülərsə, digər mənalar uyğun gəldiyi əsas sözə yönəldilir:
1. KÖK, YOĞUN, DOLUBƏDƏNLİ, DOLĞUN
2. kök *bax* rişə
1. KÖLGƏ, SAYƏ, KÖLGƏLİK
2. kölgə *bax* kabus, xəyal

9. Lüğətdə verilmiş sözlərin qarşısında mötərizədə həmin sözün işlənmə sahəsi göstərilir:
ANA, CİCİ (*dial.*), **MADƏR** (*arx.*)
ARVAD, ÖVRƏT (*köhn.*), **ZÖVCƏ** (*köhn.*)
GÖZƏL, DİLBƏR (*kl.əd., şair.*) və s.

10. Lüğətdə sözlərin yalnız müstəqil mənaları deyil, bəzilərinin məcazi mənaları da verilmişdir; bəzi sözlərin isə yalnız məcazi mənaları göstərilmişdir:
HİYLƏGƏR, TÜLKÜ (*məc.*)
İGİD, QOÇ (*məc.*), **DƏLİ** (*məc.*)
acılıq (*məc.*) *bax* fəlakət və s.

11. Sözlərin şəkilçi ilə işlənən variantlarında şəkilçi mötərizə içərisinə alınmışdır:
ALÇAQBOY(LU), BƏSTƏBOY(LU)

12. Əsas söz kimi götürülməyən çoxmənalı və omonim sözlərin mənası sinonimik cərgə təşkil edən dominant sözə yönəldilir:

I. çalmaq *bax* oğurlamaq
2. çalmaq *bax* biçmək
I sərf *bax* xərc
II sərf *bax* morfologiya

13. Çoxmənalı sözlərin bütün mənası deyil, ən çox işlənən bir, bəzən də iki, üç... mənası götürülmüşdür.

14. İrihəcmli cümlələr tam yazılmayaraq orada olan ixtisarlar iki nöqtə [..] ilə əvəz edilmişdir.

15. Klassik ədəbiyyatda işlənən sözlər də əsas sözə sinonim kimi verilmişdir.

16. Sinonimik rabitə yalnız sözlərdə deyil, sözlər və frazeoloji vahidlər arasında da mövcuddur:

AĞLAMAQ, GÖZ YAŞI AXITMAQ/TÖKMƏK
ÖLMƏK, CANINI TAPŞIRMAQ, ÖMRÜNÜ BİTİRMƏK

17. Sinonimləri daha dəqiq anlayışda izah etmək üçün hər bir söz bədii ədəbiyyatdan götürülmüş sitatlarda verilmişdir.

18. Omonim sözlər bir qayda olaraq ayrı-ayrılıqda Roma rəqəmləri ilə göstərilir:

I KÖK, YOĞUN
II KÖK, YERKÖKÜ

19. Sinonimlər öz cərgələrində böyük hərflərlə verilməklə bir-birindən vergül [,], nümunələrdə nöqtəli vergül [;] vasitəsi ilə ayrılır.

20. Sözlərin aid olduğu sinonim cərgəyə yönəldilməsi "*bax*" sözündən sonra verilmiş rəqəmlərdə göstərilir:

aralanmaq *bax* ayrılmaq **I**
dolğun *bax* kök **I**

21. Bəzi sözlərin hansı termin sahəsinə aid olduğu mötərizədə verilir:

VƏBA (*tib.*) ...
TƏKƏR (*tex.*) ... və s.

LÜĞƏTDƏ GEDƏN İXTİSARLAR

ADDL – Azərbaycan dilinin dialektoloji lüğəti
ADİL – Azərbaycan dilinin izahlı lüğəti
arx. – arxaik söz
astr. – astronomiya
Ata. sözü – atalar sözü
biol. – biologiyada
bot. – botanikada
coğr. – coğrafiyada
dan. – danışıqda işlənən söz
dəniz. – dənizçilikdə
dial. – dialektdə
dilç. – dilçilikdə
din. – dini söz
etn. – etnoqrafiyada
evf. – evfemizm
ədəb. – ədəbiyyatşünaslıqda
fəls. – fəlsəfədə
fiziol. – fiziologiyada
fiz. – fizikada
folk. – folklorda
fr.v. – frazeoloji vahid
hüq. – hüquqşünaslıqda
idm. – idmanda
iqt. – iqtisadiyyatda
istəh. – istehza ilə işlənir
kl.əd. – klassik ədəbiyyatda işlənən söz
köhn. – köhnəlmiş söz
k.t. – kənd təsərrüfatında
qəd. – qədim söz
qram. – qrammatikada
məc. – məcazi mənada
məh. – məhəlli söz
mətb. – mətbəədə
mus. – musiqidə
nifr. – nifrətlə
riyaz. – riyaziyyatda
şair. – şairanə
tar. – tarixdə
tex. – texnikada
tənt. – tontənəli söz
təşb. – təşbehlərdə
tib. – tibdə
vulq. – vulqar söz
zar. – zarafatla
zool. – zoologiyada

AZƏRBAYCAN ƏLİFBASI

A *a*	**B** *be*	**C** *ce*	**Ç** *çe*	**D** *de*	**E** *e*	**Ə** *ə*	**F** *fe*
G *ge*	**Ğ** *ğe*	**H** *he*	**X** *xe*	**I** *ı*	**İ** *i*	**J** *je*	**K** *ke, ka*
Q *qe*	**L** *el*	**M** *em*	**N** *en*	**O** *o*	**Ö** *ö*	**P** *pe*	**R** *er*
S *se*	**Ş** *şe*	**T** *te*	**U** *u*	**Ü** *ü*	**V** *ve*	**Y** *ye*	**Z** *ze*

Aa

ab *bax* su

I ABA (*müsəlman ruhanilərinin üstdən geydikləri qolsuz və ya gödəkqollu, yaxası açıq uzun paltar, xalat*) ..üçüncü günü Molla Rəcəbi küçə ilə qayət qəmgin və ayaqları *abasının* ətəyinə dolaşa-dolaşa gedən görərsən (Talıblı); **LƏBBADƏ** (*köhn.*) [Axund] qara keçə *ləbbadəsini* ehmalca çiyninə salıb, dəhlizə çıxdı (Mir Cəlal).

II aba *bax* ata-baba

ABAD (*həmişə tikintisi, yaşayış üçün hər şeyi olan*) Şuşanın "Hamamqabağı" küçəsi öz-özlüyündə, enli və *abad* küçələrdən hesab edilirdi (B.Bayramov); **ABADAN** *Abadan* mədənləri, işsiz qalan fəhlələr; Qolları, ayaqları zəncirli dustaq İran (M.Rahim); **MƏMUR** (*kl.əd.*) Cümlə *məmur* oldu viranə (M.Ə.Sabir).

abadan *bax* abad

abadanlaşmaq *bax* abadlaşmaq

abadanlıq *bax* **1.** abadlıq; **2.** avadanlıq

abadıstan *bax* abadlıq

ABADLAŞDIRMAQ O, iş başına gəloli xeyli təzə bina tikdirib küçələri *abadlaşdırıb* (M.Hüseyn); **ABAD ETMƏK/ELƏMƏK** Amma burada işlər tərsinədir, yuxarıdan aşağı *abad edirlər* (Ə.Haqverdiyev); **ABADANLAŞDIRMAQ.**

ABADLAŞMAQ ..Qəsəbə salınacaq, bu yerlər *abadlaşacaq*, yol çəkiləcək.. (B.Bayramov); **ABAD OLMAQ** May ayının birindən sentyabrın ortasınadək şəhər şənlik və *abad olur* (Ə.Haqverdiyev); **MƏMUR OLMAQ** (*kl.əd.*) Qoy cahan elm ilə pürnur olsun; Vətən o sayədə *məmur olsun* (A.Səhhət); **ABADANLAŞMAQ.**

ABADLIQ (*müxtəlif mənalarda: kənd, şəhər, məskən, şənlik, yaşayış üçün şərait*) [Atabəy:] Sən Şimali Azərbaycan xalqının səadəti və məmləkətin *abadlığı* üçün hər nə ki istəyirsən həyata keçirmək mümkündür (M.S.Ordubadi); **ABADANLIQ** Hərə bir əl qoysa *abadanlığa;* Kəndimiz böyüyüb bir şəhər olar (S.Vurğun); **ABADISTAN** (*köhn.*).

ABASBƏYİ, AĞAGÖRMƏZ, BALARMUDU (*şirin, ətirli yay armudu növü*)

ABBAT (*din.*), **RAHİB**

ABBATLIQ (*din.*), **RAHİBLİK**

abco *bax* pivə

abdal *bax* sərsəri; dərviş **1**

abdəstxana *bax* ayaqyolu

abgərdən *bax* çömçə

abgüst *bax* bozbaş

ab-hava *bax* iqlim **1**

ABI (*rəng*) Üstünə qalın *abı* kağızdan süfrə salınmış balaca stolun qırağında elektrik çayniki paqqıldayırdı (M.Hüseyn); **AÇIQ-GÖY.**

abır *bax* **1.** həya; **2.** paltar

abır-həya *bax* həya

abırlı *bax* həyalı

abırsız *bax* həyasız

abırsızlıq *bax* həyasızlıq

abi-bəqa *bax* abi-həyat

abid *bax* ibadətçi

1. ABİDƏ, YADİGAR (*diqqətəlayiq iş, əsər*) Gərək bunun qabağı alına, saraylara yığılmış olub-qalan qiymətli şeylər, dədə-baba *yadigarlar*, əlyazmaları, digər *abidələr* buradan çıxmaya (Ə.Cəfərzadə).

2. abidə *bax* heykəl **1**

abi-heyvan *bax* abi-həyat

ABİ-HƏYAT (*kl.əd.*) (*Zülmətdə bir bulağın suyu olub ki, onu içən ölməzmiş*) Odur səni oğul kimi cəbhələrdən keçirən; Odur səni əllərilə *abi-həyat* içirən (M.Rahim); **ABİ-BƏQA** (*kl.əd.*) Bu zülməti-zülfündə ləbin – *abi-bəqamız;* Yüz çeşməyi-heyvan ola, könlüm səni istər (S.Ə.Şirvani); **ABİ-HEYVAN** (*kl.əd.*) Əzib ləli qatıb *abi-heyvana;* Qənd ilə yoğrulub dil-dodaq çəkib (Q.Zakir); **ABİ-ZİNDƏGANİ** (*kl.əd.*) Peyvəndi gül eylə ərğəvani; Xızrə yetir *abi-zindəgani* (Füzuli); **DİRİLİK SUYU** Hər şey *dirilik suyunu* içib, omrə ilk dəfə qədəm

atırdı... (Çəmənzəminli); **SUYİ-HEYVAN** (*kl.ad.*) *Suyi-heyvan* üçün zülmət içində; Xətayi Xəzrü İskəndər gölübdür (Xətayi).

abi-niyxan *bax* neysan

abi-zindəgani *bax* abi-həyat

abqora *bax* qorasuyu

abstrakt *bax* mücərrəd

ABYEŞİK [Rüstəm:] Bu meşə *abyeşiyinin* ağzını əzən vaxtım da olubdur (S.Rəhimov); **MEŞƏ GÖZƏTÇİSİ (KEŞİKÇİSİ)** *Meşə keşikçisindən* yadigar qalmış qovluğu açdı, içindəki təzə və köhnə xatirələri, məktubları oxumağa başladı (Ə.Yusifoğlu).

1. AC (*vəməyə ehtiyacı olan*) A kəndlilər; Səhəri *ac*, axşamı ac; Qatlaşmayın əziyyətə (M.Rahim); Çığırma, yat, ay *ac* toyuq, yuxunda çoxca darı gör (M.Ə.Sabir); **QARNI-BOŞ** ətrafda yığışıb uşaq, böyük; *Qarnıboş*, əl boş (R.Rza); **NAHARSIZ** Soxuldu quyruğu yerdən götürə; Neçə gündü *naharsızdı*, götürə (Q.Zakir); **QARNI AC, QURSAĞI BOŞ.**

2. ac *bax* tamahkar, acgöz(lü)

3. ac *bax* yoxsul

ac-acına *bax* acqarına

acgödən *bax* qarınqulu

ACGÖZ(LÜ) (*heç nədən, heç şeydən gözü doymayan*) *Acgözdür*, hərisdir, başqalarından pay umandır (M.Rahim); **TAMAHKAR** Əbülfət Mirzənin və ümumiyyətlə qacar şahzadələrinin *tamahkar* və rüşvətxor olduqlarını bilirdim (M.S.Ordubadi); **AC, DOYMAZ, GÖZÜAC, GÖZÜDOYMAZ, QARINQULU** (*bax*), **LƏLÖYÜN** (*dan.*).

ACI, TƏLX (*kl.ad.*), **ZƏHƏR** (*məc.*), **ZƏHƏR KİMİ** (*çox acı*), **ZƏQQƏTO** (*çox acı*).

ACIDİL (*acı söz deyən*) Ya da ki, çox sevirəm, eşqimiz şiddətlidir; Ya mən *acıdilam* çox, ya da qız hiddətlidir (M.Rahim); **ƏZVAY** (*məc.*) Bəli, dünyada *əzvay* adam az deyil (Anar); **DİLİACI.**

ACIQ (*nəyəsə qarşı oyanan psixi bir narahatlıq*) Comil... güləndə *acığından* Tahirin əlləri titrəməyə başladı (M.Hüseyn); **HİRS** Məmməd boyin qan beyninə vurdu, *hirsindən* titrədi... (Çəmənzəminli); **QƏZƏB** Mən... həya və *qəzəbdən* boğular kimi olub söz tapa bilmədim (M.İbrahimov); **QEYZ** Pası yırğalana-yırğalana *qeyz* və istehza ilə: – Mən neyləmişəm?! – dedi (S.Rəhimov); **HİKKƏ** Bu gülüş, yamanca dəydi hədəfə; Dala da baxmadı o *hikkəsindən* (B.Vahabzadə); **KİN** [Həmid] məcrasına sığmayan çay kimi, *kini*, hiddəti coşub-daşırdı (H.Abbaszadə); **HİDDƏT** (*bax*).

1. ACIQLANMAQ Dedim gözəl, bir buso ver o xaldan; *Acıqlandı*, dedi, al, sənə qurban (Aşıq Abbas); **QABARMAQ** Göyərçin Xudaverdini görüb qapıdan cəld çıxaraq, Maroya *qabardı* (S.Rəhimov); **BİRİNİN ÜSTÜNƏ QIŞQIRMAQ, SƏRT SÖZ DEMƏK, TƏPİNMƏK.**

2. acıqlanmaq *bax* hirslənmək

ACILAMAQ (*acı sözlər demək*) [İmamqulu:] Adamlarla hesablaşmamağım, yaxşı təkliflə gələnləri *acılayıb* yola salmağım.. bunun nəticəsidir (M.İbrahimov); **İYNƏLƏMƏK** (*məc.*) [Əlyarov:] Əvvəldən vardı hüsnü camalı, indi olub dəli Bayramalı! – deyə o yenə Xəlili *iynələdi* (M.Hüseyn); **QƏLBİNƏ DƏYMƏK** Sallanıb – sallanıb özünü öymə; Elə süzgün baxıb *qəlbimə dəymə* (Aşıq Əlosgər); **QƏLBİNƏ TOXUNMAQ** Ninani məhəbbətlə saxla, onun *qəlbinə toxunma* (M.S.Ordubadi); **SANCMAQ** (*məc.*) Elman Rafiqi qızışdırır, Rafiq Ədhəmi *sancır* (Ə.Kərim).

acılı *bax* zəhərli

acılıq (*məc.*) *bax* fəlakət

I ACIMAQ [Zeynal:] Əgər vəziyyətimə *acıyırsınızsa*, sözümü kəsməyin (B.Bayramov); **QƏLBİ YANMAQ** (*fr.v.*) *Qəlbim yanır*, ona deyərəm: "Ay yazıq çocuq! Sən sevgili vətəncigimin gül fidanısan (A.Səhhət); **RƏHMİ GƏLMƏK** Rəhmin gəlsin, ay nənə; Rəhmin gəlsin, ay nənə; Qapıda duran oğlana; *Rəhmin gəlsin*, ay nənə (Xalq mahnısı); **YAZIĞI GƏLMƏK** ..Balaca

quşcuğazlara *yazığın gələrsə*, analarını buraxarsan.. (S.S.Axundov).

II ACIMAQ (*xəmir haqqında*), **GƏLMƏK, QICQIRMAQ, KÖPMƏK**

III acımaq *bax* heyfsilənmək

acışmaq *bax* göynəmək

acıtma *bax* maya II

aciz *bax* **1.** zəif **1**; **2.** bacarıqsız

acizlik *bax* zəiflik

ACQARINA (*ac halda, heç bir şey yemədən*) [Gülzar Könülo:] Ay qız, onu *acqarına* iç, sinən üçün də yaxşıdır, boğazın üçün də (X.Hasilova); **AC-ACINA** [Solim:] *Acacına* yatıblar (C.Cabbarlı); **AC-SUSUZ** [Sitarə:] ..mənim üçün Fərhadın evində *acsusuz* dolanmaq, Nosrəddin şahın loziz toamlarından yaxşıdır (C.Cabbarlı).

ac-susuz *bax* acqarına

açıq *bax* aşkar

açıq-aşkar *bax* aşkar

açıqfikirli *bax* tərəqqipərvər

açıq-göy *bax* abı

açılmaq *bax* çiçəklənmək **1**

açun *bax* dünya

1. AD, İSİM (*kl.ad.*) [Sərxan:] Bağışlayım *isminizi* bilmirəm. Cavad tez *adını* dedi (Ə.Vəliyev); **NAM** Koroğlu *namını* götürən; Yurdunda can olan yoxdu ("Koroğlu").

2. ad *bax* ad-san

3. ad *bax* sərlövhə

ADA (*hər tərəfdən su ilə əhatə olunmuş quru sahə*) [Geoloq:] Mənə elə gəlir ki, quruda qazılan bəzi quyuların neft yataqları bu *adaya* qədər uzanır (M.Hüseyn); **CƏZİRƏ** (*köhn.*) Çin bəhrində bir *cəzirə* var idi; Ziyadə basəfa ələfsar idi (Q.Zakir).

adax *bax* nişan **1**

adaxlamaq *bax* nişanlamaq **1**

adaxlandırmaq *bax* nişanlamaq **1**

adaxlanmaq *bax* nişanlanmaq

adaxlı *bax* nişanlı

adaxlıbazlıq *bax* nişanlıbazlıq

adam *bax* **1.** insan; **2.** havadar; **3.** oynaş

ADAMAYOVUŞMAZ (*adamlarla ünsiyyət bağlamayan*) [Xədicə:] Tərs Tahir ətiacının, könəyin, *adamayovuşmazın* biridir (Anar); **QANISOYUQ** Şəhərimizdə yaxşı və namuslu adamlarla bərabər, üzüdönük və *qanisoyuq* adamların da olduğunu boynumuza almalıyıq (M.S.Ordubadi); **QARAQABAQ** Sülh zamanı *qaraqabaq* olanlar belə mehribanlaşır, bir-birinə təsəlli verir (Ə.Əbülhəsən); **ADAMDANQAÇAN, ADAMSEVMƏZ, İNSANDANQAÇAN, İNSANSEVMƏZ, İNSANGİRİZ, MƏRDİMGİRİZ, MİZANTROP.**

adamdanqaçan *bax* adamayovuşmaz

adamiyyət *bax* insanlıq

adamoynadan *bax* masqaraçı

adamsatan *bax* xain **1**; xəbərçi; satqın

adamsevməz *bax* adamayovuşmaz

ADAŞ, HƏMAD (*adları eyni olan adam*)

ADDIM Ağacın kölgəsindən beş *addım* aralanmamışam ki, Ulduzun səsini eşidib döndüm (M.İbrahimov); **QƏDƏM** (*dan.*) ...atlı və Hacı Namazalı girdilər kəndə və Kərbəlayı Mirzəli düzəlib bir-iki *qədəm* qabağa yeriyib söylədi: "Allah axırın xeyir elosin!" (C.Məmmədquluzadə).

ADDIM-ADDIM Gözməsəm də *addım-addım;* Koroğlu, Bənəresi; Hindli qardaş, öz səsindir; Şərimdəki üsyan səsi (M.Rahim); **QƏDƏM-QƏDƏM** Gözəcəkdir *qədəm-qədəm* bağımı; Görəcəkdir üzümlü çardağımı (A.Səhhət); **YAVAŞ-YAVAŞ** (*bax*).

ADDIMLAMAQ Alo kişi köynəkcək və ayaqyalın onun [Gülsənəmin] arxasınca *addımladı* (S.Rəhimov); **ADDIM ATMAQ** [Əbülhəsən bəy:] O, mənə söykənərək *addım atırdı* (M.S.Ordubadi); **YERİMƏK** ...Kərbəlayı Mirzəli düzəlib bir-iki qədəm qabağa *yeriyib* söylədi: "Allah axırın xeyir elosin!" (C.Məmmədquluzadə).

1. ADƏT, ƏNƏNƏ Connət deyil; Xeyr, hər el-obanın; Öz *mənəsi* var, öz *adəti* var (M.Rahim); **DƏB, QAYDA** Sizin tədbirinizlə, sizin tələbinizlə; Bu köhnə *qaydanızla*, bu köhnə *dəbinizlə* (M.Rahim); **RƏSM** (*köhn.*) Rəsmdir kim, şəhlar viranədən olmaz xərac (S.Ə.Şirvani).

2. adət *bax* vərdiş
3. adət *bax* xasiyyət
adətkərdə *bax* vərdişli
adıbilinməz *bax* namolum

ADINA (*həftənin 4-cü günü*) [Cavad:] Bu gün təkdir, sabah yox biri gün *adınadır*.. (Ə.Vəliyev); **CÜMƏ AXŞAMI** Bir *cümə axşamı* işin axırında Mirmehdi Həmidi çağırıb dedi: – Baloğlan, zorsan, gücünə söz yoxdur (H.Abbaszadə); **PƏNCŞƏNBƏ** [Vəli:] *Pəncşənbə* günü qızmış bir buğa beş-altı adam yaraladı.. (A.Şaiq).

adi *bax* sadə
adil *bax* ədalətli
adilik *bax* sadəlik
adlı *bax* adlı-sanlı

ADLI-SANLI (*ad qazanmış adam*) Qoca Mərdana təzə bağ qonşusu gəlmişdi. *Adlı-sanlı* bəstəkardı (X.Hasilova); **ADLI** [İskəndər:] Dünyada ən *adlı* bir tacidardı; Dağları titrədən ordusu vardı (A.Şaiq); **MƏŞHUR** Elə *məşhur* bir ixtisas sahibinin nə üçün səhv etdiyini başa düşə bilmirdi? (Y.Əzimzadə); **ŞÖHRƏTLİ** [Səməd:] Onlar varlı, *şöhrətli*, böyük adamlardır (C.Cabbarlı); **TANINMIŞ** [Fərman] ölkənin məşhur, *tanınmış* qızı ilə yarışa girmişdi (Ə.Sadıq); **ALİŞAN** (*köhn.*) Ey Həsənbəy, əmiri-*alişan*; Elmi-hikmətdə sâniyi-Loğman (S.Ə.Şirvani); **NAMDAR** (*kl.əd.*) [Qərib:] Haqq səni dünyada *namdar* eyləsin.. ("Aşıq Qərib").

adres *bax* ünvan

AD-SAN, ŞÖHRƏT Çalışma-vuruşma *ad-san* üçün sən; *Şöhrət*, layiq olsa tapacaq səni (D.Nəsib); **AD** Uymaram şöhrətə; Nə *ada* mən (D.Nəsib); **ŞAN** Mən nə var-dövlət üçün; Nə *şan*, nə şöhrət üçün; Həsrət çəkməyirəm bil (M.Rahim); **SAN** Nə isə, qardaşının adına, *sanına* da layiq deyildi ki, meymun oynatsın (N.Nərimanov); **NÜFUZ** (*bax*).

1. ADSIZ, NAMSIZ (*adı olmayan*)
2. adsız *bax* imzasız
advokat *bax* vəkil **1**
ADYUTANT, YAVƏR
aerobus *bax* təyyarə

AERODROM Budur, biz artıq *aerodromdayıq* (M.Hüseyn); **AEROPORT** [Valeh:] *Aeroportdan* gəlirik.. (İ.Əfəndiyev); **AEROMEYDAN** Küçə! Bayır! Meydan! Dörd motorlu uçaq! *Aeromeydan!* (R.Rza); **TƏYYARƏ MEYDANI (LİMANI)** Rəfiqə qapıdan çıxdı. Evlərinin tinindəki dayanacaqda taksiyə əyləşib şoferdən *təyyarə meydanına* sürməyi xahiş etdi (H.Abbaszadə); Təyyarənin yerə enməyinə bir saat qalmışdı. *Təyyarə limanına* getməyi qərara aldı (M.Rahim).

aeromeydan *bax* aerodrom
aeroplan *bax* təyyarə
aeroplançı *bax* təyyarəçi
aeroport *bax* aerodrom

AFƏRİN, ƏHSƏN (*tərif ifadə edir*) Eşq olsun, ay xanım, *afərin, əhsən* (M.Rahim); **BƏRƏKALLA(H)** [Püstəbanu bəyim:] Ha qoçaq, ha qoçaq, *barakallah*, afərin! (N.Vəzirov); **MAŞALLA(H)** [Nəsrulla:] Bərəkalla, xanım qız, *maşalla* xanım qız (M.S.Ordubadi); **MƏRHƏBA** Hər tərəfdən – *Mərhəba* turanlılar! Əhsən turanlılar! Aferin turanlılar! – səsi meydanı ağzına aldı (M.S.Ordubadi); **YAŞA** [Koxa:] Mətləb üstə gəldin, afərin, *yaşa* (S.Rüstəm).

afət *bax* fəlakət
affiks *bax* şəkilçi **1**
afişa *bax* elan
afiyət *bax* sağlamlıq
aftab *bax* günəş

AFTAFA/AFTABA (*su üçün lüləkli və qulplu qab*) Nənəxanım suyu gətirib, *aftafada* küncə qoydu və palazları geri qatladı (Çəmənzəminli); **LÜLƏYİN** (*dan.*) [Molla Salman:] Nuru, sənin qiyasına görə mən gərək Qarun olaydım; bəs mən niyə bir həsir və *lüləyindən* qeyri bir zada malik deyiləm?! (M.F.Axundzadə).

agah *bax* xəbərdar
agent *bax* **1.** casus; **2.** müvəkkil
agentlik *bax* **1.** casusluq; **2.** müvəkkillik

1. AĞ (*rəng*) *Ağ* köpək, qara köpək, ikisi də köpəkdir (Ata. sözü); **BƏYAZ/BAYAZ** (*şair.*) Buludlar, buludlar, *bəyaz* buludlar (M.Rahim); **SÜDRƏNGİ** Qayanın böyürlərini deyirdin bəs *südrəngi* sapla tikmişdilər (M.Aslan).

2. ağ *bax* kəfən
3. ağ *bax* döşəkağı
4. ağ *bax* çal

1. AĞA (*köhn.*) (*hakim istismarçı siniflərə mənsub adam*) *Ağanın* dediyinə gərək dinməz-söyləməz əməl eləyəsən (Ə.Vəliyev); **BƏY** *Bəyin* tapşırığını sözsüz-sovsuz yerinə yetirərsən (Ə.Vəliyev); **MÜLKƏDAR** (*bax*); **ZADƏGAN** (*bax*).

2. AĞA Sən *ağa*, mən *ağa*, inəkləri kim sağa?! (Ata. sözü); **BƏY** (*məc.*) Dərə xəlvət, tülkü *bəy* (Ata. sözü); **ALLAH** (*məc.*) [Tacir:] Mən Qacar nəsliyəm, şahlar şahıyam; Mən də yer üzünün bir *allahıyam* (S.Vurğun); **HAKİM, SAHİBKAR** (*bax*).

3. ağa *bax* cənab

1. AĞAC (*köhn.*) (*Təxminən 5-7 kilometrə bərabər məsafə ölçüsü*) [Kərim baba:] Kənd ilə pələngin arası təxminən bir *ağac* olardı (A.Şaiq); **FƏRSƏNG/FƏRSƏX** [Odabaşı:] Şəhərdən on-on beş *fərsəng* kənara sağ-sol göz işlədikcə ağanın əmlakı idi (Ə.Haqverdiyev).

2. ağac *bax* əsa
ağacdeşən *bax* ağacdələn

AĞACDƏLƏN (*zool., quş*) Hardasa taqqataqla; *Ağacdələn* ağac dəlir (M.Rzaquluzadə); **DƏLƏYƏN** Uşaqlıqda ağaclara dırmaşıb *dələyən* balaları çıxardığı irigövdəli palıd ağaclarının dövrəsində dolanacaqdır (S.Rəhimov); **AĞACDEŞƏN** (*dial.*).

ağagörməz *bax* abasbəyi
ağalanmaq *bax* yiyələnmək

AĞAPPAQ (*tamamilə ağ*) Mizə dirsəklənən Davud əvvəl qolundakı saata, sonra otağın qar kimi *ağappaq* divarında taqqataqla işləyən xoruzlu saata baxdı (H.Abbaszadə); **BƏMBƏYAZ** Simaş *bəmbəyaz* olmuşdu, gözləri dərinliyə düşmüşdü.. (M.İbrahimov); **DÜMAĞ** Soldatın rəngi *dümağ* oldu (M.Hüseyn); **QAR KİMİ** Murad cavan bir oğlandır, gur saçları *qar kimi*; Keşməkeşdə ağartmışdır aqil atalar kimi (M.Rahim).

AĞARANTİ (*süd məhsulu*) Sabah, birisi gün uşaqların *ağarantısı* da çıxacaqdır (Mir Cəlal); **AĞARTI** Ana.. həmişə bir-iki sağmal inəyə sahib olmuş, uşaqlarını *ağartıdan* korluq çəkməyə qoymamışdı (S.Rəhimov).

1. AĞARMAQ, BƏYAZLANMAQ (*ağ rəng almaq*)

2. AĞARMAQ (*saç, saqqal və başa dən düşmək*) O, indi artıq qocaldığından saçı, saqqalı *ağarmış*, çalışmaq qabiliyyətini xeyli itirmiş olduğundan ağır işləri oğlu Səfərə buraxmış, özü bir az istirahətə başlamışdı (A.Şaiq); **ÇALLAŞMAQ/ÇALLANMAQ** İndi Rüstəmin qara gur saçları çoxdan seyrəklənmiş və *çallaşmışdı* (M.İbrahimov); **DƏN DÜŞMƏK** (*fr.v.*) Saçıma *dən düşsə*, qoy düşsün, nə qəm (R.Rza).

3. AĞARMAQ Xosrov onun kağız kimi *ağardığını* gördü və özünü irəli atdı.. (M.İbrahimov); **RƏNGİ SOLMAQ (QAÇMAQ), SOLMAQ** (*bax*).

ağartı *bax* **1.** ağarantı; **2.** pudra
ağbaş(lı) *bax* çalbaş(lı)
ağboxt *bax* xoşbəxt
ağboxtlik *bax* xoşbəxtlik

AĞBƏNİZ(Lİ) Uzunboy, *ağbəniz*, alagöz Gülbadamı qız ikən kənddə çox adamlar istəyirdi (N.Nərimanov); Abbas uzun boylu, nazik bədən, *ağbənizli*.. bir uşaq idi (S.S.Axundov); **AĞSİFƏT(Lİ)** Yanında təzə kostyum geyinmiş, qıvrımsaçlı, *ağsifətli*, dolğun bir gənc dururdu (M.Hüseyn); **AĞÜZLÜ** Olya hündürboylu, uzunsaçlı, *ağüzlü*, xumargözlü və dolu bədənli bir qız idi (Q.İlkin).

1. AĞBİRÇƏK(Lİ) (*yaşlı qadın haqqında*) [Fatma:] Elə eləmə ki, bu *ağbirçək* vaxtımda küçələrə düşüm, ona-buna əl açıb, dilənim (H.Abbaszadə); **QOCA O** [Fatma] ..düşünürdü ki, Bakıda, Ali Məhkəmədən hakimin *qoca* anaya ürəyi yanacaq (H.Abbaszadə).

2. AĞBİRÇƏK, AĞCANƏNƏ (*dan.*) (*evin, ailənin ən yaşlı və hörmətli qadını*) Evin *ağbirçəyi* Nubar.. tündməcaz, dərgöz və deyingən bir qarı idi (S.Rəhimov).

ağca *bax* **1.** pul; **2.** pulcuq

AĞCAQANAD [Mərdan:] Bürkü cəhənnəmə, *ağcaqanad* göz yummağa qoymurdu ki... (X.Hasilova); **DİTDİLİ** (*dial.*) Qarvənd çox *ditdili* və mılçək olan yerdir (Ə.Haqverdiyev); **HÜNÜ** Ancaq *hünü*, mılçəklərin vız-vızı. Bu sükutu pozur... (A.Səhhət); **MİĞMİĞA** (*məh.*) Nə olın incidər, sənin insan. Nə dərin *miğmiğa* sinəkdən qaç (M.Ə.Məcuz).

AĞCAQAYIN (*bot.*), **İSFƏNDAN, QAYIN, QAYINAĞACI**

ağcanəmə *bax* ağbırçək 2

ağciyər *bax* qorxaq

ağgünlü *bax* xoşbəxt

ağgünlülük *bax* xoşbəxtlik

1. AĞI *(ölü üstündə söylənən yanıqlı sözlər)* Ağıçı da hərdəm yanıqlı bir *ağı* dedikdə evi hönkürtü götürmüşdü (Çəmənzəminli); **NÖVHƏ** Məhərrəmin birindən başlayaraq, onun qədər davam edən imam təziyyəsi, mərsiyə, *növhə*, dəstə təpmə, məhəllələr arasında adət şəkli almış dalaşmalardan sonra bütün bu həngamə aşura hüsatı ilə bitirdi (Çəmənzəminli).

2. ağı *bax* zəhər

I AĞIL Lakin insan *ağlının* məhdudluğunu duyaraq zəifimdən kədərlənirdim (Çəmənzəminli); **KAMAL** Vaqif, öyünmə ki, *kamalımız* var. Allaha şükür ki, *kamal* da yoxdur (M.P.Vaqif), **DÜŞÜNCƏ** *Düşüncə*, tərbiyə, zəka zinəti, Budur qədrinliyin, mənco, qiyməti (S.Vurğun); **DƏRRAKƏ** Xanpəri indi hər işi *dərrakə* ilə görürdü (Ə.Vəliyev); **ZƏKA** [Məhsəti:] ..Nizamini dağlar qədər əzəmətli göstərən də onun *zəkasıdır* (M.Hüseyn); **ƏQL** [Orxan:] Səbrim tükənmiş, qərarım kəsilmiş, Hüşum, *əqlim* uçmuş, uyqum çəkilmiş (H.Cavid); **İDRAK** *(bax)*

II AĞIL *(içərisində mal-qara, davar saxlamaq üçün yeri)* Qarıca Çoban qoyunların yerləndiyi *ağılların* qapısını bərkitdi... (Anar); **QAHAL** Bu gün Bəxti də evdə yatmayıb, özünü mal-qaranın *qahalına* verdi (S.Rəhimov).

ağılanmaq *bax* **1.** zəhərlənmək; **2.** yemək **1**

ağılkəsən *bax* ağlabatan

AĞILLANDIRMAQ, BAŞINA AĞIL QOYMAQ, DOĞRU YOLA SÖVQ ETMƏK, PİS YOLDAN ÇƏKİNDİRMƏK

AĞILLANMAQ, AĞLI BAŞINA GƏLMƏK, AĞLINI BAŞINA YIĞMAQ, DÜZƏLMƏK *(məc., dan.)*

1. AĞILLI [Malik:] Bəhlul baba, deyirlər siz çox *ağıllı* bir adamsınız (A.Şaiq); **DÜŞÜNCƏLİ** [Vahid:] Gözəldir, təmizdir, *düşüncəlidir*, amma hikkolidir.. (M.İbrahimov); **KAMALLI** [Pirı baba:] Çingiz çox ağıllı, *kamallı* cavandır (S.S.Axundov); **DƏRRAKƏLİ, MÜDRİK** [Uşaq Leonardo:] Axı insan ağıllıdır, *dərrakəlidir, müdrikdir* (R.Rza); **AQİL** Qiylü qalə düşmoz kim olsa *aqil* (Q.Zakir); **ƏHLİ-KAMAL** Vardır hor guşədə yüz *əhli-kamal* (S.Ə.Şirvani); **BAŞIDOLU** *(dan.)* [Mustafa boy:] ..Çünki doğrudan da *başıdolu* oğlansan (Ə.Haqverdiyev).

2. ağıllı *bax* ağlabatan

AĞILSIZ, AĞLIKƏM, BAŞSIZ *(məc.)*, **GİC, KƏMAĞIL, KƏMSƏR**

ağımsov *bax* ağımtıl

AĞIMTIL *(ağ rəngə çalan, azacıq ağ)* Ildırım çaxdıqca hörümçək toru kimi bütün meşəni, ağacların yarpaqlarını, budaqlarını sarmış bu tor *ağımtıl* bir şəfəqlə parıldayırdı (M.Ənvər); **AĞIMSOV** *Ağımsov* tüstü onun [Cahandar ağanın] enli dodaqlarının üstünə enmiş qalın bığlarının arasına doldu (İ.Şıxlı); **AĞIMTRAQ.**

ağımtraq *bax* ağımtıl

1. AĞIR *(çəkisi ağır olan)* *Ağır* sandıq seçmə parçalarla dolu idi (Mir Cəlal); **VƏZNLİ** Ilk məşq kiçik *vəznli* millərlə başlar, get-gedə ağır *vəznli* millərə keçirdilər (Çəmənzəminli); **SANBALLI** Gecəm belə keçdi, səhərim gəlsin! Dadıma *sanballı* sözlərim gəlsin! (M.Müşfiq).

2. AĞIR *(yara haqqında)* ..*Ağır* yaralanmış bir müsəlman süvarisi Gürcüstan milli xalq qvardiyasının xəstəxanasında müalicə

edilməkdədir (M.Hüseyn); **BƏRK** O, *bərk* yaralanmışdı (M.Hüseyn).

3. ağır *bax* çətin; gorgin **2**

4. ağır *bax* ağırtorponon; yavaş

5. ağır *bax* ağırtəbiətli

ağır-ağır *bax* yavaş-yavaş

1. AĞIRAYAQ *(avaşı uğursuz)*, **AYAĞIAĞIR, BƏDQƏDƏM, BƏDSÜKÜM, QARADABAN** *(dan.)*

2. ağırayaq *bax* hamilə

ağırbaşlı *bax* ciddi **1**

AĞIRLAŞDIRMAQ *(vəziyyət haqqında)*, **ÇƏTİNLƏŞDİRMƏK, GƏRGİNLƏŞDİRMƏK** *(məc.)*, **MÜRƏKKƏBLƏŞDİRMƏK**

1. AĞIRLAŞMAQ, ÇƏKİSİ ARTMAQ

2. AĞIRLAŞMAQ, ÇƏTİNLƏŞMƏK, GƏRGİNLƏŞMƏK *(məc.)*, **MÜRƏKKƏBLƏŞMƏK** *(bax)*

ağırlıq *bax* **1.** vüqar **1**; **2.** qəm; **3.** çəki **1**; yük **2**

AĞIRTƏBİƏTLİ Nurəddin... *ağırtəbiətli* bir uşaq olur (S.S.Axundov); **AĞIR** *(məc.)* *Ağır* torpon, *ağır* dur (Ata. sözü); **CİDDİ** Tanıyanlar bilir, yeddi yaşında; *Ciddi* bir qız idin, oqli başında (Ə.Cavad); **VÜQARLI** [Möhsün:] Neco ola bilər ki, o *vüqarlı* müəllim, ..birdən-birə sönsün? (S.Rəhimov).

AĞIZ ..ağsaqqal və qarasaqqal kişilər məllanın *ağzından* belə-belə boş vədləri eşidib inanırlar.. (C.Məmmədquluzadə); **DƏHAN/DƏHƏN** *(kl.sd.)* Ey *dəhanı* şəkər, ləhləri badə; Gül camalın eşq əhlinə ayinə (M.V.Vidadi); Qönçə *dəhani* çəməndə xəndan; Gülməkdən onar açıldı dəndan (Xətayi).

AĞIZBAAĞIZ *(lap dolu)* Geco çənlər *ağızbaağız* nefilə dolardı (Sanlı); **LƏBƏLƏB** Coşqun dağ selləri *ləbələb* daşan Kürün, Arazın sahillərini dolaşıb, Alazan çayı boyunca gəzdik (B.Bayramov); **DOPDOLU.**

ağızdan *bax* **1.** şifahi; **2.** ozbərdən

ağızdolusu *bax* həvəslə **1**

AĞIZLAŞMAQ *(mübahisələri düşmək)* Mən ömrümdə söyüşməmişəm. Birisi ilə *ağızlaşmamışam* (Mir Cəlal); **SÖZLƏŞMƏK** Kərimov Aydınla *sözləşəndən* sonra özünü qalib hiss edir (H.Seyidbəyli).

ağızsürütməsi *bax* ağızucu

AĞIZUCU Doktor harasa tələsirmiş kimi *ağızucu* dedi: - Göstəriş vermişəm (H.Abbaszadə); **AĞIZSÜRÜTMƏSİ** Həmzə *ağızsürütməsi* bir neçə söz dedi (Ə.Əbülhəsən); **BAŞDANSOVDU** Mehmanın *başdansovdu* sözündən, soyuq söhbətindən sonra adamlar dağılışıb getdilər (S.Rəhimov).

AĞQIZIL, PLATİN

AĞLABATAN *(inanıla bilən, mümkün olan)* Sənin sözün *ağlabatan* sözdür (M.İbrahimov); **BAŞABATAN** [Mehman:] Hələ özü ilə *başabatan* bir söz demir (S.Rəhimov); **AĞLASIĞIŞAN** [Heydər boy:] *Ağlasığışan* iş deyil (S.S.Axundov); **AĞILLI** [Malik:] Nə *ağıllı* fikirdir, ay Sona!.. (M.İbrahimov); **AĞILKƏSƏN, MƏQSƏDYÖNLÜ.**

ağlabatmaz *bax* ağlasığmaz

ağlagəlməz *bax* fövqəladə **1**

AĞLAĞAN Çoxlarının bezdiyi və uzaq qaçdığı.. *ağlağan* uşaqları Nazim sanki ofsun ilə ələ alar, sakit edərdi.. (Mir Cəlal); **GİRYAN** *(kl.sd.)* Məni bu məhnət yerə qoydu didəsi *giryan* (Natovan); **KÜR.**

AĞLAMAQ Tural üçün qırx qadın *ağlayırdı* (Anar); **BOZLAMAQ** *(arx.)* *(yanayana, uca səslə ağlamaq)* ..üç kərə şahnofiri *bozluyub*, dağa-daşa sos salıb (M.F.Axundzadə); **GÖZ YAŞI AXITMAQ (TÖKMƏK)** *(fr.v.)* [Gülüş:] Ay qızım, əziz balam, belə mısmırıq töküb, *göz yaşı axıtmaq* da yaxşı deyil (X.Hasilova); [Vəzir:] Aman; Bizans torpağına qayıdan zaman; *Göz yaşı tökürdü* (S.Vurğun); **ZARILDAMAQ** *(zarzar ağlamaq)* ..bir dükanın qabağında üç uşaq durub *zarıldayırdı* (Çəmənzəminli).

ağlamalı *bax* pis; facioli

ağlamsınmaq *bax* doluxsunmaq

AĞLASIĞMAZ ..bu nohonq addımını; *Ağlasığmaz* bu qoşonq addımını.. (S.Rüstəm); **MƏNTİQSİZ** O, yenə ərəbir *məntiqsiz* sözlər deyir (A.Şaiq).

ağlaşma *bax* matəm

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

AĞLIQ (*bir şeyin ağ rəngi*) Əvvəl gözəllərdə gərəkdir çağlıq; Ondan sonra ola sadəlik. *ağlıq* (M.P.Vaqif); **BƏYAZLIQ.**

ağrı *bax* **1.** sancı; **2.** qəm.

AĞRIMAQ (*bədənin bir yerində ağrı hiss etmək*) [Gülüş:] Sevil, nə üçün belə solğunsan, yoxsa bir yerin *ağrıyır?* (C.Cabbarlı); **GİZİLDƏMƏK** (*yorğunluqdan və s.-dən ağrımaq*) Dişin bir-birinə çarpıb dəyincə; Gömgöy ayaqların *gizildəyincə;* Bir odun parçası tapmayacaqsan (M.Müşfiq); **GÖYNƏMƏK** [Rüstəmin] qutunun üstündə uzatdığı qolu və çiyni indi bayaqkından daha artıq *göynəyirdi* (H.Abbaszadə) **ZOQQULDAMAQ** (*dan.*) (*bərk ağrımaq*) [Mürsəl] ufuldayırdı, çünki yarası *zoqquldayırdı* (Ə.Vəliyev); **SANCMAQ** (*sanki bir şey batır kimi ağrımaq*).

AĞRITMAQ, AĞRI VERMƏK, ƏZİYƏT VERMƏK, İNCİTMƏK (*bax*)

ağsaç(lı) *bax* ağbaş(lı)

1. AĞSAQQAL (*müxtəlif mənalarda*) [Dekan:] Demək, sizin köhnə *ağsaqqalınız* başqa instituta keçdi (Ə.Kərim); **BAŞBİLƏN** [Tahirzadə:] Bu camaatın bir *başbilənı,* bu ölkənin bir sahibi yoxdurmu, ilahi? (Mir Cəlal); **BAŞÇI** Qazmaçı işləyən, daşçı işləyən: Bütün bu işlərə *başçı* işləyən; Bir gündə yüz günah yapdı əliniz... (M.Araz); **RƏHBƏR** [Kipiani] hiss edirdi ki, *rəhbəri* olduğu məktəbin sükanı əlinin altında ağırlaşır, onu idarə etmək getdikcə çətinləşir (İ.Şıxlı); **SÖZÜKEÇƏN** (*dan.*).

2. ağsaqqal *bax* çalsaqqal(lı)

3. ağsaqqal *bax* qoca

ağsifət(li) *bax* ağbəniz(li)

ağu *bax* zəhər

ağulamaq *bax* zəhərləmək

ağulanmaq *bax* zəhərlənmək

ağulu *bax* zəhərli

ağuş *bax* qucaq

ağüz(lü) *bax* ağbəniz(li)

ağyol *bax* kəhkəşan

1. AĞZIBİR (*dan.*), **SÖZÜBİR, HƏMRƏY** (*bax*)

2. ağzıbir *bax* həbsxana

ağzıboş *bax* **1.** ağzıyırtıq; **2.** naqqal

ağzıboşluq *bax* **1.** ağzıyırtıqlıq; **2.** naqqallıq

ağzıdualı *bax* dindar

ağzıgöyçək *bax* naqqal

ağzıgöyçəklik *bax* naqqallıq

ağzıhədəli *bax* ağzıyelli

ağzıköpüklü *bax* azğın **1**

ağzıqəşəng *bax* naqqal

ağzıqəşənglik *bax* naqqallıq

AĞZIYELLİ (*dan.*) (*yekə-yekə ağzına nə gəldi danışan*) [Gülcamal:] *Ağzıyellinin* gərək ağzının üstündən elə vurasan ki, bir də dodağını tərpədib söz deyə bilməsin (M.İbrahimov); **BAŞIYELLİ** [Sənəm:] Qanmır da, qadan alım, cavandır, *başıyellidir* (M.İbrahimov); **AĞZIHƏDƏLİ.**

AĞZIYIRTIQ (*sirr saxlaya bilməyən*) ..Kəlbiyev bu görüşlər zamanı Mina xanımla əylənməkdən çox, onun əri ilə maraqlanır, işi, vəziyyəti, fikri-niyyəti haqqında hərcayi və *ağzıyırtıq* arvaddan söz çəkirdi (M.İbrahimov); **AĞZIBOŞ** "O olmasın, bu olsun" musiqili komediyasında satirik osmanlı, millətçi, qoçu, *ağzıboş* ziyalı surətləri və başqa surətlər yaradılmışdır (Ü.Hacıbəyov); **BOŞBOĞAZ** Yusifzadə bütün bu söz-söhbətləri eşidəndə lovğalanır. Danışır ki, Qənbər Quliyevlə Misirxanov aciz və *boşboğaz* adamlardı (Ə.İldırımoğlu).

AĞZIYIRTIQLIQ, AĞZIBOŞLUQ, BOŞBOĞAZLIQ

AĞZIYUXARI (*yuxarıya doğru istiqamət*) [Fətəli xan] o döşən tutmuş bu Şuşa dərələrini qoşunu ilə doldurmuşdu.. *Ağzıyuxarı* qalaya tərəf dırmaşmışdılar (Çəmənzəminli); **BAŞIYUXARI** Lado.. *başıyuxarı* Cəbrayılın evinə tərəf getməyə başladı (S.Rəhimov); **ÜZÜYUXARI** Boz ürgə çayı keçib, *üzüyuxarı* dikləməyə başladı (İ.Əfəndiyev).

ahən *bax* dəmir

1. AHƏNG, UYĞUNLUQ

2. ahəng *bax* səs

3. ahəng *bax* **1.** mahnı; melodiya **1**

ahənrüba *bax* maqnit

ahəstə *bax* yavaş

ahəstə-ahəstə *bax* yavaş-yavaş

ah-fəryad *bax* fəryad

ahıl *bax* qoca **1**

ahıllaşmaq *bax* qocalmaq

ah-nalə *bax* fəryad

ahu *bax* ceyran

ah-zar *bax* inilti, fəryad

axar *bax* səlis

axar-baxar *bax* **1.** mənzərə **1**; **2.** suayrıcı

axar-baxarlı *bax* mənzərəli

axarlıq *bax* səlislik

axıcı *bax* səlis

axıcılıq *bax* səlislik

axın *bax* **1.** cərəyan **1**; **2.** izdiham **1**

axır *bax* son

axırdakı *bax* axırıncı

AXIRINCI O, *axırıncı* dəfə qarını danlayıb evindən qovmuşdu (S.Rəhimov); **SONUNCU** Mən *sonuncu* dəfə bu küçə ilə nə vaxt getmişəm? – yadıma gəlmir... (Elçin); **AXIRDAKI, XATƏM** (*ən sonuncu*).

axıtmaq *bax* tökmək **1**

I AXMAQ (*müxtəlif mənalarda*), **SIZMAQ, TÖKÜLMƏK**

II axmaq *bax* səfeh

AXMAQ-AXMAQ, GİC-GİC, KƏMSƏR-KƏMSƏR, SƏFEH-SƏFEH

axmaqlamaq *bax* səfehləmək

axmaqlıq *bax* səfehlik

AXSAQ, TAYTAQ, YEMSƏK (*məh.*), **ÇOLAQ** (*bax*)

AXSAMAQ (*ayağını çəkə-çəkə yerimək*) [Vəzir:] ..Zordan mənim də ombam bərk ağrıyıb, indi *axsayıram* (M.F.Axundzadə); **TAYTAMAQ** (*dial.*) Naxırda inəyə nolufsa, yazıx heyvan *taytayır* (ADDL); **YEMSƏMƏK** (*məh.*).

AXŞAM [Səlimə:] *Axşam* şər qarışardı (İ.Əfəndiyev); **MƏSA** (*kl.əd.*) Mailəm, cümlə bilir, dövləti didarına mən; Ki, baxım sübhü *məsa* şövq ilə rüxsarına mən (M.Ə.Sabir).

AXŞAMÇAĞI (*günbatana yaxın vaxt*) İki gün sonra isə *axşamçağı* qapının zəngi çalındı (M.İbrahimov); **AXŞAMTƏRƏFİ** Şəhər küçəsi, *axşamtərəfi,* yağış havası.. (Ə.Haqverdiyev); **AXŞAMÜSTÜ** *Axşamüstü,* gün batar-batmaz, öz sevgilisinin görüşünə gedən bir gəncə rast gələn hər kəs, onun çiçəkləri haradan dərdiyini bilərdi (M.Hüseyn); **AXŞAMVAXTI** [Usta Segah Mürşüdə:] *Axşamvaxtı* burada tək oturmağınızdan məqsəd nədir? (S.Rəhman).

1. AXŞAMLAMAQ, AXŞAM OLMAQ (DÜŞMƏK), HAVA QARALMAQ (*dan.*)

2. axşamlamaq *bax* gecələmək

axşamtərəfi *bax* axşamçağı

axşamüstü *bax* axşamçağı

axşamvaxtı *bax* axşamçağı

axtarılmaq *bax* aranmaq

AXTARMAQ Dənizlərdə inci yox, səni gəzdim üzərək; Tək səni *axtarmışam,* möhnətlərə dözərək (M.Rahim); **ARAMAQ** (*tapmağa çalışmaq*) Qartal gəlir, ov *arayır,* ağlı gedir, qanadları gərilir (B.Bayramov); **ARAŞDIRMAQ** (*yoxlayaraq axtarmaq*) Kərim bəy əlini cibinə salıb *araşdırdı* (Mir Cəlal); **GƏZMƏK** (*gəzərkən soraqlayıb tapmaq*) [Koxa:] Yenə gözlərindən yağır qəzəb, kin; De görüm, meşədə kimi *gəzirdin?* (S.Rüstəm); **ARAŞMAQ** (*qəd.*) Kimin kim eşq bağlar əl-ayağı, dəxi açılmaz; Bu müşkül *mənini* çox kimsədən Qövsi *araşıbdır* (Qövsi).

AİD (*aid olan*) [Nadir bəy:] Məncə gözəllik zövqə *aid* bir şeydir (H.Cavid); **RACE** (*arx.*) Doğrudur ki, Xaqani və Nizami kimi müqtədir şairlərimiz fars lisanında tərəddüdləri bədiələr şərəfi yenə də bizlərə *racedir* (A.Şaiq); **MƏNSUB** Öz vətəninə *mənsub* olmayan şəxs insanlığa da mənsub deyildir (V.Q.Belinski); **MƏXSUS** (*bax*).

AİDİYYƏT, MƏNSUBİYYƏT, AİDLİK, ƏLAQƏ

aidlik *bax* aidiyyət

AİLƏ [Kərim] özünün, *ailəsinin,* dostlarının taleyini fikirləşirdi və nəmərd zəmanəyə lənət oxuyurdu (M.Hüseyn); **KÜLFƏT**

(*dan.*) Bərk ayaqda, çətin vaxtda İbrahim bəy Vəlişin *külfətinə* əl tutub kömək durmuşdu (Ə.Vəliyev); **ARVAD-UŞAQ** (*dan.*) Hətta Həsən pəncərənin tıqqıltısına dik atılıb, hirsli evdən çıxdı, dalınca da *arvad-uşağı* yetirən kimi Kərbəlayı Fərəcin saqqalından yapışıb küncə basdı (Çəmənzəminli); **ƏYAL** (*köhn.*) İndi əgərçi ona zəhmət olar; Qışda *əyali*, özü qarət olar (M.Ə.Sabir); Para nədir? Üzünü gördüyüm bir il yoxdur; Fəqət *əyal* yanında xəcalət çoxdur (Ə.Nəzmi); **ƏHLİ-ƏYAL** (*köhn.*) *Əhli-əyali* ibarətdir bir anasından, bir arvadından və yeddi-səkkiz yaşlı bir oğlundan (C.Məmmədquluzadə); **ÖVRƏT-UŞAQ** (*köhn.*) [Xan:] Bir həftəyədək, ümidvaram, İrəvana gəlim *övrət-uşaq* ilə (C.Məmmədquluzadə); **FAMİLİYA** [Səmədxan:] ..hökumətinin bu həqirə həvalə etdiyi böyük vəzifə mənim və mənim *familiyamın* hamısını sərəfraz buyurdu.. (M.S.Ordubadi); **ƏHLİ-BEYT** (*kl.əd.*) İnsan öz *əhli-beytindən* kənar oldu, onun üçün bir növ narahatlıq hasil olacaq (C.Məmmədquluzadə); **URUQ** *Uruğun* olsun, Urumda olsun (Ata. sözü); **EV** [Məşədi Səttar:] Əhvalın necədir, *ev*, uşaq salamatdırmı? (Ə.Haqverdiyev).

ajan *bax* polis **I**

akrobat *bax* canbaz

akrobatlıq *bax* canbazlıq

aksioner *bax* səhmdar

I aksiya *bax* səhm

II AKSİYA (*siyasi*). **ÇIXIŞ, İŞ, HƏRƏKƏT**

AKT, PROTOKOL

aktiv *bax* fəal

aktivləşmək *bax* fəallaşmaq

aktivlik *bax* fəallıq

aktrisa *bax* aktyor

aktyor *bax* artist

aktyorluq *bax* artistlik

akuşka *bax* pəncərə **I**

aqibət *bax* son

aqibətsiz *bax* sonsuz **I**

aqil *bax* ağıllı **1**; müdrik

I AL (*rəng*) [Cavahir] Sənin sinəni təzə *al* qanıma boyadım (M.Hüseyn); **QIRMIZI** Qəlbimizdən asmışıq beş güşəli ulduzu; Bayrağımız *qırmızı*, bu gün yer, göy qırmızı (S.Rüstəm); **ƏHMƏR** (*kl.əd.*) Boyu bağ içrə sərvi-nazə bənzər; Yanağı həmçü vərdi-*əhmərdir* (Xətayi); **QIZIL** Köhnə bəy evinin üstündə *qızıl* bayraq yellənən gündən, kəndin həyatı dəyişdi, yeni səmtə, yeni yola düşdü (M.İbrahimov).

II al *bax* hiylə

III al *bax* qulyabanı

1. ALA (*qarışıq rəngdə olan; açıq-mavi göz haqqında*) Çevrilib *ala* gözləriylə mənə baxdı (N.Xəzri); **ŞƏHLA** Küsmüş qızlar kimi kirpiklərini bir-biri üzərinə tökən nərgiz gülü də *şəhla* gözlərini açıb qızılgülün çöhrəsindəki qırmızılığa baxırdı (M.S.Ordubadi).

2. ala *bax* ala-bula

ala-babat *bax* babat

ala-bəzək *bax* ala-bula

ALA-BULA (*müxtəlif rənglərdən ibarət olan*) Ağaclar *ala-bula* rəng alırdı (M.Hüseyn); **ALA** Fısıltıqdan fışıldayıb çıxan *ala* ilan Dədə Qorqudun ayağına yanaşdı, başını qaldırıb onu çalmaq istədi (Anar); **ALACA** [Dilbər:] ..gündə 3-4 manat faytona verəndə özünü itirir, elə bil mən də onun üçün çit-*alaca* geyəcəkdim (C.Cabbarlı); **ALA-BƏZƏK** Bir dəfə bağda *ala-bəzək* bir qurdu yarpağa büküb gətirdim (S.S.Axundov); **ƏBLƏĞ** [Fəxrəddin:] *Əblağ* at meydanda topla bərabər firlanırdı (M.S.Ordubadi).

alaca *bax* ala-bula

ALAÇIQ (*çubuqla qurulmuş köçəri mənzili*) Üçüncü gün Pəsigilin *alaçığının* qabağında toy vurulmuş yenə belə şənliklər olmuşdu (S.Rəhimov); **ÇADIR** Atam *çadırımızın* yanındakı armud ağacı altında oturub Kərim baba ilə söhbət edirdi (A.Şaiq); **XEYMƏ** (*köhn.*) ..Xalq geniş meydana toplanır, ortada *xeymə* qurulur, tarixi libas geymiş şəbihlər gəlir.. (Çəmənzəminli).

ALAF, YEM (*heyvanlar üçün*)

alaqapı *bax* darvaza

ALA-QARANLIQ(DAN) Mən səhər *ala-qaranlıqdan* çöllərdə işləmişdim (M.İbrahimov); İshaq kişinin arvadı səhər tezdən *ala-qaranlıq* qayğanaq bişirib gətirdi (M.Hüseyn); **TÜLKÜDURMAZDAN** (*dan.*) [Ata:] Ala-qaranlıqdan, *tülküdurmazdan* gedəcəm (Q.Xəlilov); **OBAŞDAN** Elə bil, səhər *obaşdan* işə getməyəcək (Ə.Qasımov); **SÜBHDƏN** [Aytəmiz:] Anamla *sübhdən* oyanıb həyəti süpürür, güllərə su verirdik (Ə.Qasımov); **SÜBH TEZDƏN** Mərdan neçə dəfə *sübh tezdən* yerindən qalxıb onu (bəstəkarı) görmək istəməmişdi.. (X.Hasilova); **İŞIQLANMAMIŞ** O [Cəfərqulu], həftədə bir axşam, qaranlıq düşəndən sonra gələr, qəpik-quruşdan anama verib *işıqlanmamış* çıxıb gedərdi (H.Mehdiyev); **XORUZ BANI** (*fr.v.*) Səhər [yolçu] *xoruz banında* ayıldı (Ə.Məmmədxanlı); **TORAN** (*bax*).

ALANA (*içinə qoz ləpəsi, badam və s. doldurulmuş quru meyvə, qax*) ..Məşədi Rəhim cəld qaçdı dükanın mətaından əvvəl bir neçə *alana* gətirdi (C.Məmmədquluzadə); **MİYANPUR** (*köhn.*) Süfrədə tut qurusu, *miyanpur*, innab.. da olardı (H.Sarabski).

alaşa *bax* yabı

ala-toranlıq *bax* ala-qaranlıq

1. ALAY Diviziyanın alayları, hər *alayın* bölgüləri kənd aralarında, meşəlikdə, dağdadaşda yerləşmişdi (S.Rəhimov); **POLK** (*köhn.*) Firudunu *polk* qərargahının qarşısında saxlamışdılar (Mir Cəlal).

2. alay *bax* camaat

alay-alay *bax* dəstə-dəstə

albalı *bax* gilənar

alçaq *bax* **1.** gödək **1**; **2.** alçaqboy(lu); **3.** əclaf

ALÇAQBOY(LU) (*boyca alçaq olan*) Direktor *alçaqboylu*, arıq kişiydi (X.Hasilova); **ALÇAQ** Heç yadımdan çıxmır, konsul özü bir uca adamdır, amma mən *alçaq* adamam (C.Məmmədquluzadə); **BƏSTƏBOY(LU)** Həm də *bəstəboylu*, qara qıvrım saçlı Səkinəni yadına saldı, sanki qızın surəti gəlib gözünün qabağında durdu (M.İbrahimov); **GÖDƏKBOY(LU)** Kürəkənlə küsülü olan *gödəkboy*, sarıbəniz, göygöz, saçı pırtdaşıq arvad qızının ayağının altına daş qoyub danladı (Ə.Vəliyev); **QISABOY(LU)** Ə gözün kor ha deyil, bax odur dayna! – deyə [qara oğlan] sağ qolunu havada oynatdı, kooperativ dükanının eşik divarına söykənmiş *qısaboylu*... qoca bir kişini göstərdi (M.Hüseyn); **GÖDƏK** (*bax*).

ALDANMAQ [Göyərçin:] Əvvəlləri tovlandığım, gedərək *aldandığım* ağzı iyli adam tərəfindən qonaq yanında gecələr evdə tək buraxıldığım vaxtlar indi yadıma düşür (S.Rəhimov); **UYMAQ** [Xuraman:] *Uydum* bu dünyada nazü nemətə; Özüm də bilmədim *uydum* şöhrətə (S.Vurğun); **BAŞDAN ÇIXMAQ** (*fr.v.*).

ALDATMAQ [Sona:] Bura bax, birdən məni *aldadarsan* ha.. (M.İbrahimov); **BAŞDAN ÇIXARMAQ** (*fr.v.*) Hansı müflislər sizi *başdan çıxardıblar?* (C.Məmmədquluzadə); **BAŞINI PİYLƏMƏK** (*fr.v.*) [Güləndam:] İndi buna kələk qur, onun *başını piylə* (N.Vəzirov); **KƏLƏK GƏLMƏK** [Salamov:] Adə, ..son də mənə *kələk* gəlirsən? (C.Cabbarlı); **YALAN DANIŞMAQ (DEMƏK)** Sandı ki, aldadır, qız *yalan deyir*.. (M.Rahim).

aləm *bax* **1.** dünya; **2.** camaat

aləmşümul *bax* cahanşümul

alıcı *bax* **1.** müştəri **I**; yırtıcı **1**

ALIN Bu torpaqla, bu Tərtərlə; *Alnımızdan* axan tərlə (M.Müşfiq); **NASİYƏ** (*köhn.*) Münəvvər xanım bir ay müddətdir ki, anasını görməmiş, kəsrəti-sürurunda çöhrəsi getdikcə qızarır, parlaq *nasiyəsindən* həya təri yuvarlanıb səssiz bir şrapnel parçası kimi qabağında partlayır (M.S.Ordubadi).

alışdırıcı *bax* xarə

I ALIŞDIRMAQ (*kibritlə bir şeyi yandırmaq*) Veysəl bir də kibriti *alışdıranda* Ziynət dik atıldı, Ulduzu götürdü, koridora çıxartdı (B.Bayramov); **ÇATMAQ** Odun topladılar, ocaq *çatdılar* (Ə.Kərim); **ODLAMAQ** [Vəzir:] Bütün tənbəlləri şəhərin

kənarında xaraba samanlığa yığıb *odlamaq* lazımdır (S.Rəhimov); **YAXMAQ** (*kl.əd.*) [Qərib:] ..Bu qərib ellərdə *yaxdı* nar məni ("Aşıq Qərib"); **YANDIRMAQ** Kibritin alovu çubuğun ləzzətini aparır, - deyə [Məşədi Kazım] əlini bürküsün toposino aparıb bir az qov çıxardı, çaxmaq daşı ilə *yandırıb* çubuğun başına qoydu... (M.S.Ordubadi).

II alışdırmaq *bax* öyrətmək

alışqan *bax* kibrit

I ALIŞMAQ, YANMAQ, ALOVLANDIRMAQ, ODLANMAQ (*od tutub yanmaq*)

II alışmaq *bax* öyrəşmək

alış-veriş *bax* alver

alış-verişçi *bax* alverçi

1. ALİ (siyasi), **ƏN BAŞ, ƏN YUXARI**

2. ali *bax* **1.** uca **1**; **2.** ülvi **1**

alicənab *bax* nəcib

alicənablıq *bax* nəciblik

1. ALİM (*müəyyən bir elm sahəsində mütəxəssis olan, çox bilikli, elmli olan şəxs*) [Şəkərlinski:] Allaha şükür, özün *alim* adamsan, hər şeyi başa düşürsən! (M.İbrahimov); **DANA** (*kl.əd.*) Ey Həsən bəy, müəllimi-*dana*! Ey edən aləmi ehya! (S.Ə.Şirvani); **ƏLLAMƏ** (*məc.*) (*yalançı alim*) [Tutubuyım:] Göyün qırmızısını neynirsən, ay *əllamə*! (Cəmənzəminli).

2. alim *bax* bilikli

alişan *bax* adlı-sanlı

ALKOQOL, SPİRT

alkoqolçu *bax* əyyaş

ALKOQOLLU, SPİRTLİ

ALKOQOLSUZ, SPİRTSİZ

ALQIŞLANMAQ (*birini təbrik etmək üçün və ya bir şeyi bəyənmə ifadəsi olaraq əl çalmaq*) Qızlar oynamaqlarını bitirdilər, hər tərəfdən onları *alqışladılar* (S.S.Axundov); **ÇƏPİK ÇALMAQ (VURMAQ)** [İskəndər:] Gərək onda görərdiniz necə *çəpik vururdular*.. (S.Qədirzadə); **ƏL ÇALMAQ** Yenə də *əl çaldılar* (S.Qədirzadə).

1. ALLAH [Hacı Qulu:] Ay arvad, *Allah* bu muzdurnan səni bizim kəndə bəla göndərib, əl çəkin məndən (M.İbrahimov); **ÇƏLƏB** (*kl.əd.*) *Çələb* Nəsimiyə çün əskik eyləməz şəl (Nəsimi); **GÖZƏGÖRÜNMƏZ** (*dan.*) [Şərəfniso:] Ay *gözəgörünməz* gördüm bu uşaq hara gedir, kimə qoşulur? (Ə.Cəfərzadə); **HAQQ** (*kl.əd.*) Bu müşkülü gəl səni həll; *Haqq* tuta əlin ki, tutasan əl (Xətayi); **XUDA** [Dərviş:] Xanım can, şükür olsun *xudaya*.. (N.Vəzirov); **XUDAVƏND** [Qafar:] Mən ki, bu xanənin xeyirxahı olduğumu *xudavənd* özü bilir (S.Rəhimov); **XUDAVƏNDİ-ALƏM** [Seyid Əhməd:] *Xudavəndi-aləm* bu camaatın qulağını bir az da uzatsın (Ə.Haqverdiyev); **İLAHİ** O gözəllik *ilahidən* verilmiş; Əvvəldəndi gözlərinin qarası (Aşıq Əmrah); **PƏRVƏRDİGAR** [İbrahim bəy:] Əlacımız təkcə *pərvərdigara* qalıb (Ə.Vəliyev); **RƏBB** (*kl.əd.*) [Sona:] Mən Qurana and içdim! Ah, *rəbbim*! Ay mənim *Allahım*! (N.Nərimanov); **TANRI** Bir an könlüm yaşamaz səndən ayrı; Hər bəladan saxlasın səni *tanrı* (A.Səhhət).

2. allah *bax* ağa **2**

allahlıq *bax* hökmdarlıq, ağalıq

allahpəyi *bax* sədəqə

1. ALLAHSIZ (*Allaha, dinə inanmayan şəxs*) ...Bu adam kafir və *allahsız* idi (Anar); **ATEİST** Əlbəttə, Nəsimi bizim anlamda *ateist* deyildi [düşmənləri onu *allahsız* adlandırsalar da] (Anar); **BİDİN** [Ağa Bəşir:] Pərvərdigara, dünyada nəcə *bidin* adamlar yaradıbsan! (M.F.Axundzadə); **DİNSİZ** [Molla Qafar:] Mənim məqsədim dini-islamı bu *dinsizlər* arasında intişar etməkdən ibarət idi (S.Rəhimov); **KAFİR** İndi beş ildir tamam dinimə əl atmısız; Sevgili övladımı *kafirə* oxşatmısız (M.Ə.Sabir); **MÜRTƏD** (*söyüş kimi də işlədilir*) [Güləndam:] Ay *mürtəd* oğlu, *mürtəd*! Adamı da çimdiklərlərmi? (N.Vəzirov).

2. allahsız *bax* insafsız

ALLAHSIZLIQ (*Allaha inanmama*) [Qarabəy:] Dediyimizdən belə çıxır ki,

kommunistlərin *allahsızlığı* barəsində söz danışanların ağzına qıfıl vuraq (Ə.Vəliyev); **ATEİZM** "Kamalüddövlə məktubları"nın əsas və mərkəz ideyası, leytmotivi *ateizmdən*, dinə və islam fanatizminə qarşı koskin və şiddətli mübarizədən ibarətdir (F.Qasımzadə); **KÜFR** Nəhayət, islahat təşəbbüslərinə bir *küfr* təşkilatı kimi baxılır (M.S.Ordubadi); **DİNSİZLİK** (*bax*).

1. ALLANMAQ Bəzəklənir, düzəklənir, bağın fəzası rənglənir; Yaşıllanır, həm *allanır* şükufələr çiçəklənir (A.Səhhət); **AL GEYMƏK** (*məc.*) Kəndimiz bəzənib, süsən, sünbüllər; Bağlar *geyib al*, başına döndüyüm ("Qoşma"); **BƏZƏNMƏK** Təbiət *bəzənir* hünərimizdən; Axan şəlalələr bizə əl çalır (S.Vurğun).

2. ALLANMAQ (ALLAŞMAQ), QIZARMAQ (*qırmızı olmaq*) Nazlı pıqqıldayıb güldü, sifəti əvvəlcə yavaş-yavaş alatala *qızardı*, sonra tamamilə *allanıb* yandı (Ə.Kərim).

1. ALMAQ, GÖTÜRMƏK

2. almaq *bax* tutmaq **1**

3. almaq *bax* bürümək

4. almaq *bax* evlənmək

almaçıq *bax* namuslu

aloe *bax* əzvay **1**

alovlanmaq *bax* alışmaq **1**

alovlu *bax* **1.** odlu **1**; atəşin **1**

altdan-üstdən *bax* yalan

altun *bax* qızıl

aludə *bax* mübtəla **1**; vurğun

aludəlik *bax* mübtəlalıq, vurğunluq

ALVER (*ticarət işi*) [Səba:] Məni əcnəbi məmləkətlərindən gələn tacirlərin *alver* etdiyi bazar tərəfinə apara bilərsənmi? (M.S.Ordubadi); **ALIŞ-VERİŞ** [Yelkənçi:] Onların hamısında da əcnəbi tacirləri *alış-veriş* edir (M.S.Ordubadi); **ALĞI-SATQI** [Məşədi İman:] Sənətimiz *alğı-satqıdır* (Ə.Haqverdiyev); **SÖVDƏ** [Səba:] Əlverişli bir *sövdə* düzəldərsək, sizin üçün də, mənim üçün də dəyərli bir pay düşər (M.S.Ordubadi); **TİCARƏT** ..23-cü ildə yenə əli-qolu açıldı, *ticarəti* genişləndi (M.Hüseyn); **VERAL** Bu rəmazanlıqda nə *ver-aldı* bu? Ax! Nə qazetdi, bu nə jurnaldı bu (S.Ə.Şirvani); **BİZNES.**

ALVERÇİ (*alverlə məşğul olan adam*) [Zabit:] Bolşeviklər deyirlər ki, *alverçi* sovloçdur, onlar zəhmətkeşlərin qanını sorurlar (S.Rəhimov); **ALIŞ-VERİŞÇİ** [Allahqulu:] Golib bir yerə çıxdıq *alış-verişçilər* həndəvərimizi aldı (Çəmənzəminli); **MÜHİTƏKİR** (*böyük qazancla mal alıb satan*) [Müqim bəy:] İstismarçı sinfin *möhtəkir* nümayəndəsinin ölümünə acıyırsınız? (S.Rəhimov); **SÖVDƏGƏR** (*parça alverçisi*) [Hacı Saleh:] ..bu şəhərin *sövdəgərlərinin* əksərini mən pullu etmişəm (S.S.Axundov); **TACİR** [Sultan bəy:] Səni bir *tacir* oğlana verirəm ki, həmi cavan, həmi pullu, həmi malı.. (Ü.Hacıbəyov); **TİCARƏTÇİ** Nemətullayev illər uzunu bir mahir *ticarətçi* kimi bu işlə yaşırdı (S.Rəhimov).

ALVERÇİLİK, MÜHİTƏKİRLİK, TİCARƏTÇİLİK, SÖVDƏGƏRLİK

ALYANAQ(LI) (*yanaqları al, qırmızı olan*) *Alyanaq* uşaq yenə də qaçaraq poçtalyonu qarşıladı (M.İbrahimov); **QIRMIZIYANAQ(LI)** Musa kişi boydan uca, qolluqanadlı, yaşı olli beşi keçmiş, çalsaqqallı, *qırmızıyanaqlı* bir kişi idi (B.Bayramov); **LALƏYANAQ(LI)** Görmüşü lalə dağı *laləyanaq* el gözəli; "Olar"a bəli demir, nazlanır "olmaz" ilə yar (Şəhriyar).

amac *bax* hədəf

amadə *bax* hazır

amal *bax* məqsəd, arzu

aman *bax* **1.** kömək; **2.** güc; **3.** rəhm; **4.** imkan **1**; **5.** əmin-amanlıq

amansız *bax* zalım

AMİL, SƏBƏB, VASİTƏ, FAKTOR

AMMA (*bağlayıcı*) [Aydın:] Yaxşı şəkildir, *amma* hayıf ki, istidən rəngi pozulub (C.Cabbarlı); **ANCAQ** Söhbət genişlənir, *ancaq* Şuşadan o yana adlamırdı (Ə.Vəliyev); **FƏQƏT** (*kl.əd.*) [Aydın:] Doğrudur, bir az mənliyimiz çeynənir, şərəfimiz tapdanır,

fəqət əvəzində altun alırsınız (C.Cabbarlı); **LAKİN** İzzət qarı obaya yaxınlaşıb dincini almaq istədisə də, *lakin* üfüqdə qızartı işarəsi görüb fikrini dəyişdi (Ə.Məmmədxanlı); **LEYK** (*kl.əd.*) *Leyk* dövri-zəmanə eylədi qədr: Kım, sənə layiqincə qoymadı qədr (A.Səhhət); **VƏLİ** (*köhn.*) Diridirlər əgərçi surətdə; Ölüdürlər, *vəli*, həqiqətdə (A.Səhhət).

amnistiya *bax* əfv-ümumi

AN (*ən cüzi vaxt, zaman*) Gözünü uşaqdan, anadan bir *an*; Ayıra bilmirdi Növrəstə qarı (R.Rza); **DƏM** [Malik:] Amma nə şirin *dəmlər* idi.. (A.Şaiq); **LƏHZƏ** Xoləq ağzın sirrini hərdəm qılır izhar söz; Bu sirdir kim, olur hər *ləhzə* yoxdan var söz (Füzuli).

ANA [Pərvız:] *Anam* mənim sözümə inanmayıb çantama baxdı (M.İbrahimov); **CİCİ** (*dial.*) [Muxtar:] Ay *cici*, sən burada neyləyirsən? (M.Hüseyn); **MADƏR** (*ərz.*) Didə məxmur, özü misli-mələk; *Mədəri* ondə edər böylə dilək (A.Səhhət); **MAMA** (*dan.*) [Zeynal:] *Mamanı* da maşına mindirəcəm (İ.Məlikzadə); **MƏMƏ** (*məh.*) [Yaşar:] *Məmə*, bu kaftar məni çox incidəcək? (S.Rəhman); **NƏNƏ** (*dan.*) [Gülbətin:] Həmzə necədir, *nənə*, işləri yaxşıdırmı? (M.İbrahimov); **VALİDƏ** (*ərz.*) *Validəsi* oğurluğu anladı; Yavrusunu nə qarğıdı, nə danladı (A.Səhhət).

anadandoğma *bax* anadangəlmə **1**

1. ANADANGƏLMƏ (*lap doğulandan xas olan*) Əlbəttə, bu hisslər onun ürəyində *anadangəlmə* deyildi (M.İbrahimov); **ANADANDOĞMA** (Kərbəlayı Qədim:] ..on beş yaşında, *anadandoğma* kor oğlunu gətirib yıxdı məscidin qapısına (Ə.Haqverdiyev).

2. anadangəlmə *bax* **1.** fitri; **2.** çılpaq **1**

3. anadangəlmə *bax* çılpaq **1**

ANAKONDA (*ilan*), **SU UDAVI** A.Uellesin verdiyi məlumata görə, Sen Con adlı bir tədqiqatçı Cənubi Amerikanın Kalimantan (Borneo) adasında rast gəldiyi *anakondanın* (*su udavı*) uzunluğu 7 metrdən artıq olmuşdur ("Elm və həyat").

1. ANALIQ (*ana vəzifəsini görən*) [Şamxal] anasına haqq versə də atası ilə necə rəftar edəcəyini, ona nə deyəcəyini, evə təzə gətirilmiş *analığı* ilə necə oturub-duracağını aydınlaşdıra bilmirdi (İ.Şıxlı); **ÖGEY ANA** (Əlibəy:) Bunda qalmamışdır nə namus, nə ar; Vəfasız olurmuş *ögey analar* (S.Vurğun).

2. ANALIQ (*ananın öz uşaqlarına olan münasibəti, ana vəzifəsi*) Comilənin *analıq* vəzifəsi də vardır (S.Rəhimov); **NƏNƏLİK** [Hacı Murad:] Durub təzədən ona *nənəlik* edə bilmərəm ki... (S.S.Axundov).

analiz *bax* təhlil

anarxiya *bax* hərc-mərclik

ANBAR (*mal, məhsul və s. saxlamaq üçün yer*) [Səfərəli xan:] Bənd-bərəni bağlayıb, hər yerdə adamlar qoydum ki, kəndlərdən şəhərə ərzaq buraxmasınlar, hökumətə lazımdır deyə başını bağlayıb *anbarlara* vursunlar (A.Şaiq); **BAZA** Dairəittifaq sədri Nemətullayev əmtəə *bazasında* olduğundan bu səfərbərlikdə qalmışdı (S.Rəhimov); **NƏMİ** (*məh.*) Qəhrəman alaçıqdakı *nəmidə* gizləndi (Ə.Vəliyev).

ancaq *bax* amma

AND (*bir şey haqqında verilən vəd, söz*) Sevgi yollarında ucuz adlara; Yalan təvbələrə, yalan *andlara* (S.Rüstəm); **QƏSƏM** Genə haman and və *qəsəm*, genə bir-birinin üstünə atmaq, gecə göz yaşı... (C.Məmmədquluzadə); **YƏMİN** (*köhn.*) Noldu söylə, o *yəminlər*, peymanlar? Ah, nə qədər riyakarmış insanlar? (A.Şaiq).

andır *bax* sovxa

anektod *bax* lətifə **1**

anış *bax* arzu

anlaq *bax* **1.** düşüncə **1**; **2.** idrak; **3.** şüur

anlaqlı *bax* şüurlu

anlaqsız *bax* şüursuz

ANLAMAQ, QANMAQ, BAŞA DÜŞMƏK [Talıbxan:] Vəli, sən hərəkətsiz daş üstündə oturub muşqurursan, ancaq *qan, başa düş, anla* ki, yerimək lazımdır (S.Rəhimov); **BAŞ AÇMAQ** Vəli yenə hadisələrdən *baş açmırdı* (Mir Cəlal); **BAŞ ÇIXARMAQ** [Məhərrəm:] Məgər sənin işindən mən *baş çıxarıram?* (N.Vəzirov); **BAŞ TAPMAQ** [Süsən:] Hə, bağışlayınız, *baş tapmadım* (M.S.Ordubadi); **DƏRK ETMƏK** Zeynal Şərifənin] nələr dediyinə və nə istədiyini eşidib *dərk edə* bilməyirdi (M.Hüseyn); **DÜŞÜNMƏK** Şirzad *düşündü* ki, Yarmommədi bu qədər eybəcər edən qorxudur (M.İbrahimov); **QAVRAMAQ** [Mişa:] Cavan oğlansan, zehnin itidi, tez *qavrayırsan* (H.Abbaszadə).

anlamaz *bax* qanmaz

ANLAŞILMAZ O, yenə müəmmalı və *anlaşılmaz* sözlər danışmağa başladı (M.S.Ordubadi); **QARANLIQ** O hansı *qaranlıq* məsələdir? (M.S.Ordubadi); **QARIŞIQ-DOLAŞIQ** *Qarışıq-dolaşıq* yazıların içində kitabın adını tapa bilmədim (C.Məmmədquluzadə); **QARMA-QARIŞIQ** [Narınc:] Gecə elə *qarma-qarışıq* yuxular görmüşəm ki! (M.İbrahimov); **QƏLİZ** [Mürvət:] Elə də *qəliz* adı var ki... (H.Abbaszadə); **MÜƏMMALI** [Zeynal:] Əmrümdə birinci dəfə idi ki, belə *müəmmalı* intizar çəkirdim (B.Bayramov).

anlaşmaq *bax* razılaşmaq

ANLATMAQ Bu xüsusda müdirlə görüşüb əhvalatı otraflı olaraq ona *anlatdı* (A.Şaiq); **AYDINLAŞDIRMAQ** Rasim Mirzocanlı bacısı oğlunun yaralanmasını xəbər verəndən sonra hakim müttəloq məsələni *aydınlaşdırmalı* idi (H.Abbaszadə); **BAŞA SALMAQ** Bəzi kəndlərdə kimin ləhinə, kimin əleyhinə, nəyə qarşı əl qaldırmağı *başa salmaq* özü böyük hünər idi (Mir Cəlal); **İZAH ETMƏK** [Səlimə:] Sonra mən bu üsulun bütün elmi əsaslarını *izah elədim* (İ.Əfəndiyev); **QANDIRMAQ** Necə təhlükəli bir oyuna girişdiyini Rasimə *qandırmaq* mümkündür? (M.İbrahimov).

1. ANLAYIŞ, DƏRKETMƏ, DÜŞÜNMƏ, İDRAK (*bax*)

2. anlayış *bax* məfhum

anmaq *bax* xatırlamaq

anons *bax* elan

ansızın *bax* birdən

anşlaq *bax* elan

antaqonist *bax* zidd

antaqonizm *bax* ziddiyyət **1**

ANTİK (*ədəb.*), **QƏDİM, KÖHNƏ**

antiteza *bax* təzad **1**

antrakt *bax* fasilə **1**

aorta *bax* şəhdamar

APARAT (*tex.*), **ALƏT, CİHAZ, QURĞU**

aparmaq *bax* **1.** daşımaq; **2.** oğurlamaq; **3.** udmaq **II**

APTEK (*dərman satan müəssisə*) Nazim *aptekdə* işləyirdi, çox təkəbbürlü adamdı (S.Vəliyev); **ƏCZAXANA** *Əczaxanaya* getmək, həkim yanına yüyürmək, kotan islatmaq və sairə (Ə.Haqverdiyev); **DƏRMANXANA** (*köhn.*) Həkimlərin nüsxəsini heç *dərmanxanaya* aparmadım (Mir Cəlal); **DAVAXANA** (*köhn.*) Məhmud doruni aləmin qorq bir halda sol küçəyə döndü və *davaxanaya* yaxınlaşdıqda dönüb dala baxdı (Çəmənzəminli).

APTEKÇİ (*aptekdə dərman satan adam*) Axırda *aptekçinin* ona yazığı gəlib, üstündə zəhər adı yazılmış bir şüşədə bir qədər gülab töküb ona [Züleyxaya] verdi (C.Cabbarlı); **DAVAÇI** Sottarxandan sonra Əli *davaçı* ilə danışmağa başladı (A.Makulu); **ƏCZAÇI, FARMASEVT** Bu nədir? Türk *farmasevt-əczaçılarının* buraxılışı (C.Məmmədquluzadə); **PROVİZOR.**

1. ar (*utanılacaq şey*) Məndə *ar* olsaydı ölmək ixtiyar etməzmidim? (M.Ə.Sabir); **AYIB** [Həpir:] Mənə *ayıb* olardı ki, atam bu qoca vaxtında güzəran qeydi çoko (Mir Cəlal).

2. ar *bax* həya, namus

ara *bax* **1.** fasilə **2**; **2.** məsafə; **3.** aralıq

ARABİR [Yelena:] Zoki *arabir* bizi yad edir (A.Şaiq); **ARA-SIRA** Binanın kiçik dəhlizi və iclas otağı işdən-gücdən danışan və *ara-sıra* zarafat edib gülən adamlarla dolmuşdu (M.İbrahimov); **BƏZƏN** Qətibə *bəzən* Hüsaməddindən şübhələnir və onun Toğrul tərəfinə keçdiyini zənn edərək rabat-

sız olurdu (M.S.Ordubadi); **GAHBAGAH** Aşiqəm dərdiməndə; Dərd dedim dərdimənda; Gah dərd məni aparır; *Gahbagah* dərdi mən də (Bayatı); **GAH-GAH** Açaq üzdən, gözdən tamam niqabi; *Gah-gah* içib sərxoş olaq şərabı (M.P.Vaqif); **HƏRDƏNBİR** [Leyla:] Yenə etibarlıdır, *hərdənbir* məktub-zad yazır.. (B.Bayramov); **NÜDRƏTƏN** Alış-veriş *nüdrətən* olur (Ə.Haqverdiyev).

araçı *bax* vasitəçi

araçılıq *bax* vasitəçilik

ARAHƏKİMİ (*təhsilsiz, qeyri-elmi üsullarla müalicə edən adam*) Gülbacı *arahəkimi* idi (H.Abbaszadə); **TÜRKƏÇARƏ** Hökimlərə verməyə pulu olmayan məhəllə kasıbkusubunu *türkəçarə* ilə ucuz qiymətə müalicə eləyirdi (H.Abbaszadə).

araqarışdıran *bax* fitnəkar

ARAQÇIN (*üstü zərli baş geyimi*) Başında göy *araqçın;* Duruşunda əzəmət (B.Vahabzadə); **TƏSƏK** (*toxunmuş və ya parçadan tikilmiş araqçın*) Başında bir kirli, bir əski *təsək;* Dünyada qazancı bir budur desək... (S.Vurğun).

1. aralanmaq *bax* ayrılmaq I

2. aralanmaq *bax* çatlamaq

3. aralanmaq *bax* uzaqlaşmaq

aralaşdırmaq *bax* uzaqlaşdırmaq I

1. ARALI (*bir az açıq*), **YARIQAPALI, YARIÖRTÜLÜ**

2. aralı *bax* uzaq

ARALIQ, ARA, ORTA, ORTALIQ, MİYAN

aramaq *bax* axtarmaq

aram-aram *bax* yavaş-yavaş

aramla *bax* yavaş

1. ARAMSIZ Göz yaşları *aramsız* axan Natəvan dayana-dayana sözlərini deyirdi (H.Abbaszadə); **BİLAARAM** ..qaragöz şofer *bilaaram* öz istəklisi və bu səfərdən ona edəcəyi söhbətlər haqqında düşünürdü (İ.Əfəndiyev); **BİARAM** Oturub yan-yana beş-altı adam; Danışırlar qəzəblə *biaram* (S.Rüstəm).

2. aramsız *bax* səbirsizliklə, səbirsiz

3. aramsız *bax* dalbadal; birbaşa

4. aramsız *bax* narahat

aran *bax* düzəngah

ARANMAQ Orda hər şey alın təri və zəhmətdən yaranardı; Yaşamaqçın ən müqəddəs, təmiz yollar *aranardı* (M.Dilbazi); **AXTARILMAQ** Alman komandanlığının əmrinə görə, bütün evlər, zirzəmilər *axtarılırdı* (M.Hüseyn).

ara-sıra *bax* arabir

1. ARAŞDIRMAQ, TƏDQİQ ETMƏK, TƏHLİL ETMƏK

2. araşdırmaq *bax* axtarmaq

araşmaq *bax* axtarmaq

ARAYIŞ, SƏNƏD (*yazılı məlumat*)

arayiş *bax* bəzək

arbitr *bax* hakim I

ARDIC (*bot.*) (*ağac*) Qəmər *ardıcın* yaşıl qanadlarına baxdı.. (S.Rəhimov); **ƏR-ƏR** [Əbülhəsən bəy:] Ətrafında *ər-ər* ağacları düzülmüş geniş xiyabanda bir neçə dəqiqə yol getdik (M.S.Ordubadi).

ARX Çinar altı, *arx* kənarı; Axar sular nəğmə deyir (M.Rahim); **CU** (*kl.əd.*) Sərvət, dilərəm yanımda bir *cu;* Gülzari-cəmalimə gərək su (Xətayi); **QAC** (*məh.*) Gəl yoldaş, çalışaq, eyləyək birlik; Arada xəndək, *qac* daha olmasın (Miskin Əli); **QANOV** "Jiquli"nin altından tozlu sel axıb darvazanın qırağındakı *qanova* tökülürdü (H.Abbaszadə).

1. ARXA Tutulanların ikisinin *arxasında* iri şələ vardı (Ə.Vəliyev); **BEL** Yasavul əyilmiş *belini* düzəltməyə çalışaraq, "mən tapmışam" – dedi (S.Rəhimov); **DAL** Şahmar zülfü *dal* gərdəndə ilantək; Hərdən tərpənəndə bulunmaq gərək (M.P.Vaqif); **KÜRƏK** O, hərdən Cəbini *kürəyinə* alır, gəzdirir, bəzi günlər axşama qədər yerə qoymur.. (S.Rəhimov); **MİYAN** (*kl.əd.*) *Miyanında* saçın ucun hörməyi; Bütün dünyada bu yarı sevmişəm (M.P.Vaqif).

2. arxa *bax* kömək, havadar

ARXAİK (*dilç.*), **QƏDİM, KÖHNƏLMİŞ** (*arxaik sözlər*) Müxtəlif tarixi, iqtisadi

səbəblər nəticəsində bəzi söz və ifadələr dildə işlənməkdən çıxır. Belə sözlər *köhnəlmiş* və ya *arxaik* sözlər adlanır (N.Məmmədov, A.Axundov); **KÖHNƏ** *Köhnə,* doğma sözləri; Bircə-bircə yazırıq; Onların dəftərində (Ə.Kərim).

ARXALANMAQ [Tahir:] Fərəc də hazırlıq edir, çünki dalında adamı var, o Sobzəliyevə *arxalanır* (Anar); **GÜVƏNMƏK** Xalqıma *güvənib, arxalanmışam;* Arxamda alınmaz minbir qala var (H.Hüseynzadə); **BEL BAĞLAMAQ** (*fr.v.*) ...Azadlıq uğrunda vuruşmalara; Sənə *bel bağlayıb* girmişəm.. (M.Rahim); **ÖYÜNMƏK** Qovğa günü *öyündüyüm* nər dəlilər yerindəmi? ("Koroğlu").

1. ARXAYIN, ARXAYINCA, DİNC, ƏMİN, XATİRCƏM, QAYĞISIZ, RAHAT, SAKİT

2. arxayın *bax* asudə

3. arxayın *bax* əmin 1

ARXAYINLAŞMAQ [Qəndab:] Mən bu qədər *arxayınlaşdımsa* da üröyimin çırpıntısı azalmadı (B.Bayramov); **ARAM OLMAQ** [Molla Qafar:] Kərbəlayı, bir *aram ol* (S.Rəhimov); **ARXAYIN OLMAQ** Mahmud *arxayın ola* biləcəyini yəqin etdi (Ə.Əbülhəsən); **ƏMİN OLMAQ** Qəlbim, üröyim də *əmin* ol səfdir; Neyləyim ki, fələk çox biinsafdır (Ə.Cavad); **XATİRCƏM** Bir yaxın gəlmədi, bilməm, necə *xatircəm olum;* Çox kəmənd atmışam ol zülfi-pərişanım üçün (Ə.Vahid); **RAHAT OLMAQ** [Pəri:] Bir növ ilə Saranı da bu evdən çıxara bilsəydim, onda daha *rahat olardım* (C.Cabbarlı).

ARXAYINLIQ, ASUDƏLİK, DİNCLİK, XATİRCƏMLİK, RAHATLIQ, SAKİTLİK (*bax*)

arxitektor *bax* memar

arxitektorluq *bax* memarlıq

I ARI Birdən onun [ayının] lap yanından; Vız-z-z! – edib bir *arı* keçdi (M.Rahim); **ZƏNBUR** (*kl.əd.*) Hər bir çiçək üstə qondu *zənbur;* Döşürməyə çıxdı danəsin mur (Xətayi).

II arı *bax* təmiz 1

ARIQ Uzunboy, *arıq* zabit möhkəm geyinmişsə də dişi dişinə dəyir və şaqqıldayırdı (S.Rəhimov); **CANSIZ** (*dan.*) Emma *cansız,* arıq, nazik, lətif bir alman qadını idi (E.Sultanov); **CILIZ** (*dan.*) Şahpolonq nə düşündüsə dilənçi qızı içəri çağırdı, bu, qaraçı uşağına oxşar balacaboylu, *cılız,* qarayanız bir qız uşağı idi (M.İbrahimov); **ÇƏLİMSİZ** (*dan.*) [Vahid:] Həncəri, xanım, deyəsən gəyimin nəcədirsə, torpənişin də elədir; *çəlimsiz,* yaraşıqsız (M.İbrahimov); **ƏTSİZ** [Quş] ..qarının *ətsiz* barmaqları arasından çıxa bilmədi (M.Hüseyn); **QAYIŞBALDIR** (*qıçları nazik*) Mən də o meydanlarda vuruşanlardan biri; Mən də o ölməzlərin *qayışbaldır* şairi (S.Rüstəm); **SISQA** (*dan.*) [Qəndab:] Onların yanında doğrudan da *sısqa* uşağa oxşayırdım (B.Bayramov); **SKELET** (*məc.*) Analar *skeletdir* acılıqdan! Dözə bilmoz bu dərdə hər insan (S.Rüstəm); **SÜDDƏN YANIQ** Gülə üç aylıqdan anasını itirmiş və *süddən yanıq* qalmışdı (S.Rəhimov); **ZƏİF** (*xəstəlikdən arıq*) [Hacı Mehdi:] And olsun Allaha, vuraram, *zəif,* cansız canın çıxar (Ə.Haqverdiyev).

ARIQLAMAQ Bir saatın ərzində *arıqlamış,* balacalanmış, ordları batmış, gözləri çuxura düşmüş Güləbətinə baxan ananın üröyi tel-tel oldu (M.İbrahimov); **BİR DƏRİ, BİR SÜMÜK OLMAQ** (*fr.v.*) [Kazım:] Aşna, *bir dəri, bir sümük olmusan* ki... (Çənənzəminli); **DÜŞKÜNLƏMƏK** (*dan.*) [Xosrovun atası] xeyli *düşkünləmişdi* (M.İbrahimov); **QUPQURU QURUMAQ** (*məc.*) (*həddindən çox arıqlamaq*) [Ələsgər:] İkinci arvadı al, bir gün olar hərəsi bir tərəfdən ağızlarını açıb ac qurd kimi səni yeyərlər, *qupquru quruyarsan..* (Ə.Haqverdiyev); **SINIXMAQ** (*dan.*) Həmid anasını qucağına götürdü, arvad necə də *sınıxmışdı..* (H.Abbaszadə); **ZƏİFLƏMƏK** (*dan.*) [Zərif] Göz qapaqlarını qaldıra bilmirdi. Çox *zəifləmişdi* (Ə.Kərim).

ari *bax* **1.** bəli; **2.** çılpaq 1; **3.** məhrum

aristokrat *bax* zadəgan

ariyətən *bax* müvəqqəti
ariz *bax* **1.** ərizəçi; **2.** yanaq
arizə *bax* ongol
arizəli *bax* ongolli

1. ARQADAŞ Ballının oğlu "Vico" Qasım bir neçə *arqadaşları* ilə birabər hücum edib, Hacı Kərimin qızını qaçırdılar (Çəmənzəminli); **KÖMƏKÇİ** Bu məlaikələrin yetmiş min *köməkçiləri* – türküsü – qorodovoyları var (Çəmənzəminli).

2. arqadaş *bax* dost, yoldaş **1**
arlanmaq *bax* utanmaq
arlı *bax* həyalı, utancaq
arpasuyu *bax* pivə
arsız *bax* həyasız
arsızlıq *bax* həyasızlıq
ARPACIQ, QARQVUL (*silahda*)
1. ARŞINLAMAQ, ÖLÇMƏK (*arşınla*)
2. arşınlamaq *bax* veyllənmək
arşınmalı *bax* parça
artıq *bax* **1.** daha; **2.** çox; **3.** artıq-əskik
ARTIQ-ƏSKİK [Solmnaz xanım:] Mən bu cavan canımdan xeyir görməyim, balam, əgər mən ona *artıq-əskik* söz demişəmsə (N.Vəzirov); **ARTIQ** [Poricahan:] Bu qız buradan gedəsidir, *artıq* söz lazım deyil (S.S.Axundov); **LÜZUMSUZ** Naşad ofəndi heç bir motlobə doxli olmayan *lüzumsuz* sözlər ilə [Mehribanın] canını çıxardı (S.Hüseyn).
artıqtamah *bax* tamahkar
artıqtamahlıq *bax* tamahkarlıq
artırma *bax* eyvan

1. ARTIRMAQ, ƏLAVƏ ETMƏK, ÜSTÜNƏ GƏLMƏK

2. artırmaq *bax* çoxaltmaq
ARTİKULYASİYA (*dilç.*); **MƏXRƏC**
ARTİST (*incəsənət əsərlərini ifa edən şəxs*) [Səkinə:] Kişi indiyəcən deyir, Həmidə bacı oxumağın dalıyca getsəydi, indi lap məşhur *artist* idi (Anar); **AKTRİSA** (*qadın aktyor*) Biz hər dəfə dram teatrının tamaşalarına gedib, hamının tanıdığı, sevdiyi məşhur *aktrisanın* oyununa baxanda.. bəzən xəyalən ifa etdiyim rolun iztirabları ilə göz yaşı tökərdim (İ.Əfəndiyev); **AKTYOR** (*yalnız teatr tamaşalarında rolları ifa edən sənətkar*) [Firəngiz:] Ox, Nadya, mən həmişə sən deyən kimi yadımda saxlayıram ki, *aktyorlara* ancaq səhnədə baxmalı, onları həyatda görməlidir (C.Cabbarlı).

ARTİSTLİK [Xosmommod:] *Artistliyim artistlik*, şairliyim də üstəlik (C.Cabbarlı); **AKTYORLUQ** ..Dram dərnəyində *aktyorluq* etmək həvəsinə düşdüm (Ə.Vəliyev).

1. ARTMAQ, BOL OLMAQ, BOLLAŞMAQ

2. artmaq *bax* çoxalmaq

1. ARVAD (*ərli qadın*) İldırım Atəşoğlunun *arvadı* Bayaz qoyun qaymağının üstünə şəkər səpdi (Ə.Vəliyev); **ƏYAL** [Mərsiyəxan:] ..şəhərimizdə həm *əyalım*, həm də sığə kənizlərim var (Çəmənzəminli); **HƏRƏM** (*köhn.*) [Həsən:] Söz ilə mənim *hərəmimi* aldılar apardılar (C.Cabbarlı); **HƏYAT YOLDAŞI** *Həyat yoldaşıdır* Gülyaz; Dağlarda boşlanmış bu gül (A.Şaiq); **XATİN** (*köhn.*) [Aydoğdu:] ..mənim bir *xatınım* var, ilan qılıqlı, köpək xoylu... (A.Şaiq); **KÜLFƏT** (*köhn.*) Namaz kişinin *külfətiyəm*, – deyə qarı könülsüz cavab verdi (M.Hüseyn); **QADIN** Mirzə bu sözləri dedikdə onun *qadını* Şeydabəyim xanım da suçlarını daramaqda idi (M.S.Ordubadi); **QARI** [Vidadi:] Gəl, gəl yaxın otur, vəfalı *qarım;* Sondə yuva salmış ilk arzuların (S.Vurğun); **ÖMÜR YOLDAŞI** [Rübabə:] Oğul, sənin evlənmək, özünə *ömür yoldaşı* tapmaq vaxtın çatıb (H.Abbaszadə); **ÖVRƏT** (*köhn.*) Lakin nə doktor, nə də *övrəti* Liza xanım çay içmək istəmirdilər (M.S.Ordubadi); **UŞAQLARIN ANASI** (*dan.*) [Axund Molla Nəsrəddin:] Gecənin bilmirəm nə vaxtı idi; gördüm *uşaqların anası* öz-özünə mırtdanır (C.Məmmədquluzadə); **YASTIQ YOLDAŞI** [Məşədi Haşım:] *Yastıq yoldaşı* ki, sahibini sevmədi, onun faydası yoxdur (M.S.Ordubadi); **YOLDAŞ** [Güllü ərinə:] Gözüvə su verr, Zəki. Görürsən *yoldaşının* qaydına necə qalır! (Anar); **ZƏNƏN** Günlərin bir günündə gənə

də padşahın *zənəni* həmli olur (Nağıl); **ZÖVCƏ** [Molla:] Sən indi Xudayar bəyin *zövcəsisən* (C.Məmmədquluzadə).

2. arvad *bax* qadın **1**

ARVADBAZ, QADIN DÜŞKÜNÜ [Soba:] Mən hər sənin kimi *qadın düşkünlərinə* öz qəlbimin açarını versəydim Soba xanım ola bilməzdim (M.S.Ordubadi); **MƏŞUQƏBAZ** (*köhn.*) Sənə layiq deyil, sənə layiq deyil; Seyyid, dəxi *məşuqəbaz* olmaz (S.Ə.Şirvani); **ŞEYDABAZ** (*köhn.*) Molla şeytan idi, axund *şeydabaz*.. (Aşıq Ələsgər); **SORĞÖZ** (*vulq.*) [Nazlı Əliyə:] Bura bax, ay *şorgöz*, qonaqlıq vermeyə gəlmisən, ya arvadları reviziya eləməyə (Anar); **AŞNABAZ** (*köhn.*); **ÖVRƏTBAZ** (*köhn.*).

ARVADBAZLIQ (*qadın düşkünlüyü*) Şikayətçilər bu məsələyə bir yaxşı ad qoyurlar, onlar deyirlər ki, bu "*arvadbazlıqdır*" (C.Məmmədquluzadə); **AŞNABAZLIQ** (*vulq. köhn.*) ..Xorquşov kimi conablar gedib *aşnabazlıqdan*, dolloklikdən, halvaçılıqdan... bir peşəyə məşğul olub camaatın yaxasını oldon qoyalar (Ə.Haqverdiyev); **ÖVRƏTBAZLIQ** (*köhn.*) ..Mənim belə yadıma gəlir ki, [türk padşahlarının] arzu və məşğələləri *övrətbazlıq* idi (C.Məmmədquluzadə); **ŞORGÖZLÜK** (*vulq.*) [Göyərçin:] *Şorgözlükdən* yığışıb nə yaxşı atıla-atıla gəlmisən (S.Rəhimov); **MƏŞUQƏBAZLIQ** (*köhn.*).

arvad-uşaq *bax* ailə
arvana *bax* maya **1**

ARZU Sona danışdıqca Malik ürəkdən sevinir, sanki çoxdan xəyalında bəslənən *arzuları* çiçək açırdı (M.İbrahimov); **AMAL** (*təxt.*) [Ruzbeh:] Bizi bir soxulcana çevirib ki, yemək-yemək və sürünməkdən başqa bir *amalımız* qalmayıb (M.İbrahimov); **ANIŞ** (*qəd.*) Gecə-gündüz *anışım* budur; Gözüm hüri Pəhləvandan ayrılsın (Qoşma); **ARZUMAN** (*köhn.*) Şükr Allaha *arzumana* yetişdim (M.P.Vaqif); **DİLƏK** Onların hər birinin *diləyi* ova rast gəlmək idi (S.Rəhimov); **EŞQ** (*şiddətli arzu*) Sözün *eşqilə*, qəlbilə yaşayar aləmdə insanlar (S.Vurğun); **ƏMƏL** (*şiddətli arzu*) Mən bir *əməl* arxasınca qaçmağı; Dürlü-dürlü üzəklərdən öyrəndim (M.Müşfiq); **İLLƏT** Dedik, qoy yaşasın, nə minnəti var? Bəlkə çil toyuğun bir *illəti* var! (S.Vurğun); **İSTƏK** Çıraq tutdu, qədim şəhər; Muradına, *istəyinə* (M.Rahim); **KAM** *Kamına* çatmayaydı; Səni yaradırdısa, məni yaratmayaydı (M.Rahim); **MƏQSƏD** [Zöhra:] *Məqsədimə* çatdım (A.Şaiq); **MƏRAM** Qoy nə olur olsun, qızım, oğlum, o balaca balalarım açıq çöksinlər, qoy mən *mərəmimə* yetişməyim (N.Nərimanov); **NİYYƏT** ..Üzəyindən keçən *niyyət* gözlərindən oxundu (Ə.Cəmil); **TƏMƏNNA** Süleyman Rüstəmin sondən budur ancaq *təmənnası:* "Oyan xalqım!" – deyib Təbrizdə çək eşq ilə car bülbül (S.Rüstəm).

ARZULAMAQ (*arzusunda olmaq*) Azad... vətənimizin bu gözəlliklərini seyrə daldıqca, ilk baharı *arzulayıram* (S.Rüstəm); **ARZU ETMƏK** [Səlimə:] Sizə gözəl xoşbəxtlik *arzu edirəm* (İ.Əfəndiyev); **ARZUSUNDA OLMAQ, DİLƏMƏK** [Firəngiz:] Mən də cavab məktubu yazdım, razılıq elədim, ona müvəffəqiyyət *dilədim* (B.Bayramov); **İSTƏMƏK** [Süleyman:] Əsgərin dediyi odur ki, sənin qohum olmaq *istəyir* (Ü.Hacıbəyov).

arzuman *bax* arzu
arzusuz *bax* həvəssiz

ASAN (*çətin olmayan*) [Umur baba:] Nə danışırsan... bu vədə bu fitnə-fəsadda dənizə çıxmaq, o qədər yolu getmək sənə *asan* gəlir? (H.Abbaszadə); **QOLAY** [Sitarə:] O mənim üçün çox güvərə, çox *qolay* idi (A.Şaiq); **SƏHL** (*kl.ed.*) Xaliqindən utan, məndən utanma; Şəcərətil-mövti heç *səhl* sanma (Aşıq Ələsgər); **YÜNGÜL, SADƏ.**

ASANLAŞDIRMAQ, SADƏLƏŞDİRMƏK, YÜNGÜLLƏŞDİRMƏK, QOLAYLAŞDIRMAQ

asayiş *bax* əmin-amanlıq
asıb *bax* tabe
asıblıq *bax* tabelik
asılqan *bax* paltarasan **1**

asi *bax* **1.** üsyançı; **2.** günahkar **1**
asiləndirmək *bax* hiddətləndirmək
asiman *bax* göy **1**
asimani *bax* təmiz **1**
asket *bax* güşənişin
aşqı *bax* paltarasan **1**

ASQIRIQ Adam üzünü silib dəsmalı cibinə qoymamış Salman kişinin yeni *asqırıq* yaylımı başlayır (R.Rza); **SƏBİR** Ta gəlirik biz də bir az anlayaq; Məhzəri-irfanda vurur tək *səbir* (M.Ə.Sabir); **ASQIRTI.**

ASQIRMAQ Xəstəxanaya çatanacan o nə öskürdü, nə də *asqırdı* (Mir Cəlal); **SƏBİR GƏTİRMƏK (VURMAQ)** Arvad qanov qıraği ilə gedirdi, birdən *səbir gətirdi* ("Qaraqaşın nağılı").

asqırtı *bax* asqırıq
aslan *bax* **1.** şir; **2.** igid

1. ASMAQ Qudurğan hitlerçilər; ..kəndlilərdən; *Asmışdılar* üç nəfər (M.Rzaquluzadə); **DAR AĞACINA ÇƏKMƏK** [Fəxrəddin:] ..Günahsız qardaşlarımızı və əziz vətəndaşlarımızı *dar ağacına* çəkmişdilər (M.S.Ordubadi); **DARA ÇƏKMƏK** [Fəxrəddin:] Əmir İnancı da, onun vəziri Toxtamışı da *dara çəkdilər* (M.S.Ordubadi); **EDAM ETMƏK** [Səfiyə:] ..Hobs olunanların hamısını *edam etmişdilər* (M.S.Ordubadi).

2. ASMAQ, QARMAĞA KEÇİRMƏK
3. asmaq *bax* sərmək **2**
asta *bax* yavaş
asta-asta *bax* yavaş-yavaş

ASTANA (*qapının girəcəyi*) [Gülöbətin] tez dönüb içəri girmək istəyəndə *astanada* arıq, uzunboylu atası ilə qarşılaşdı... (M.İbrahimov); **GİRƏCƏK** Ziynət qayıtdı, *girəcəkdə* dayandı (B.Bayramov); **KANDAR** ..Mümtaz Mötəbərov qardaşların bir-birini duz kimi yaladıqlarını görəndə, dümağ ağardı və qəfildən qapının *kandarında* üzüstə sərildi (M.Hüseyn); **QAPININ AĞZI** Şahnigar gözü alışana qədər *qapının ağzında* dayandı (İ.Şıxlı).

astma *bax* sinəgirlik
astronavt *bax* kosmonavt
astronavtika *bax* kosmonavtika

ASUDƏ Alır *asudə* nəfəs; Bax, bu məhəbbət, bu həvəs (S.Rüstəm); **ARXAYIN(CA)** Otuz-qırx addımlıqda iki atlı *arxayınca* söhbət edərək gəlirdi (Çəmənzəminli); **DİNC** Elə ki azacıq *dinc* olur yerim; İstəsəm gecədən bir çimir dadam... (M.Araz); Ac başım, *dinc* başım, səbr, təvəkkül; Çırpınmaq bilməyən xəstə bir könül... (M.Müşfiq); **RAHAT** *Rahat* nəfəs çəkə bilmir uyquda (A.Səhhət).

ASUDƏLİK [Əli:] Aşna, dərvişlikdə də *asudəlik* yoxmuş (Çəmənzəminli); **ARXAYINLIQ** Lakin *arxayınlıq* şəraitində nə qədər olsa belə, ən xırda şey... əsgəri narahat edir (Ə.Əbülhəsən); **AZADLIQ, DİNCLİK, RAHATLIQ** Uşaqlığım, gəncliyim; *rahatlığım, dinclıyim;* Mənim *Azadlığımdır* (B.Vahabzadə).

aş *bax* **1.** plov; **2.** xörək
aşçı *bax* aşpaz
aşxana *bax* yeməkxana

AŞIQ (*sazla çalıb oxuyan, həm də söz qoşan şair*) *Aşıq*, bu yerləri sən xəbər alsan; Ayıldı dünyanın şöhrəti insan (S.Vurğun); **OZAN** (*arx.*) [Dədə Qorqud:] Ata ayağı iti, *ozan* dili çevik olar (Anar); **YANŞAQ** (*arx.*) [Cəfər Paşa Koroğluya:] *Yanşaq*, indi də sən özün kimsən? Kimin yanşağısan? ("Koroğlu").

AŞIRIM (*dağın aşılacaq yeri*) Orxan yamacı qalxıb, *aşırımın* üstündə dayandı. Dağın o biri ətəyinə səpələnmiş naxırı gördü (İ.Məlikzadə); **GƏDİK** Dəvə boynu kimi əyri dağ *gədiklərini* Murad dəfələrlə Əzizə toriflləmişdir (Ə.Vəliyev).

1. AŞIRMAQ, ÇEVİRMƏK, YIXMAQ
2. aşırmaq *bax* yemək **1**
aşiq *bax* vurğun
aşiyan *bax* yuva **1**

AŞKAR (*gizli olmayan*) [Hatəmxan:] Bu ki hamıdan qabaq sənə *aşkardır* (S.Rəhimov); **AÇIQ** Nədir günahınız, *açıq* danışın; Üstümə qayıdan yazılarım, siz! (M.Araz); **AÇIQ-AŞKAR** [Musa:] Görürəm ki, *açıq-aşkar* özbaşınalıq edir (B.Bayramov); **AYDIN** [İran qızı:] İndi də oğluna məhz Ulduzu namizəd seçməsinin səbəbi mənə *aydın* idi (M.İbrahimov); **BARİZ** Atanın bu xüsusiyyətləri

qızı ilə qarşılaşdığı zaman daha *bariz* bir şəkildə meydana çıxır (M.Arif); **BƏLLİ** [1-ci kəndli:] Dinirik cəza, dinmirik cəza. Bizim sözümüz *bəllidir* (M.F.Axundzadə); **ƏYAN** [Zəki Əfəndi:] Əgər yaxşı yazdın və sənin loyaqətin bizə aşkar və *ayan* oldu... (C.Məmmədquluzadə); **MƏLUM** [Nurməhəmməd:] Belə isə cəsarət edib soruşuram: bir yolun ki, indiki şəraitdə heç bir yerə çıxmadığı *məlumdur*, o yol ilə getməyin ki xeyri nədir? (M.İbrahimov); **NÜMAYAN** (*kl.əd.*) Tavus kimi cilvələnir o canan; Göz önündə dərhal olur *nümayan* (A.Şaiq); **VAZEH** [Vəzir:] Qərəzin budur ki, mən mətləbi *vazeh* açıb sənə danışam (M.F.Axundzadə); **ZAHİR** Tahir, *zahir* hünərlərin var; Bahir, *zahir* səmərlərin var (M.Ə.Sabir).

aşna *bax* **1.** dost; **2.** oynaş
aşnabaz *bax* arvadbaz
aşnabazlıq *bax* arvadbazlıq; eşqbazlıq
aşnalaşmaq *bax* dostlaşmaq

AŞPAZ Noxudu bozbaşa salanda *aşpazı* qoyub axund ilə məsləhət eləyirik (C.Məmmədquluzadə); **AŞÇI** *Aşçı* Nataşa borş gətirdi.. (Çəmənzəminli); **XÖRƏKBİŞİRƏN** Gecənin qaranlığında şəfəqlər oynaşır, çuqun qazanlarda *xörəkbişirənlərin* kölgəsi bir nəhəng kimi uzanıb zəmilərin ortasında gəzişirdi (İ.Şıxlı).

aşpazxana *bax* mətbəx
aşüftə *bax* pərişan **1**
aşüftəhal *bax* pərişan **1**
aşüftəlik *bax* pərişanlıq

AT (*ev heyvanı*) Göy ot xımırtladan *atların* fınxırtısından və gecə böcəklərinin həzin səslərindən başqa heç nə eşidilmirdi (İ.Şıxlı); **MADYAN** (*dişi at*) Oruc ata yanaşmaq, tutmaq istədi. Lakin *madyan* fınxırıb dərhal aralandı (Q.Xəlilov); **SƏMƏND** Deyirsən deməli şikəstdir sənin; Məhəbbət yolunda mindiyin *səmənd* (Ə.Kürçaylı).

ATA, DƏDƏ "Soyuqluq" sözünün mənasını hələ də başa düşməyən Qaraş, bir dəfə *dədəsindən* xəbər aldı, *atasının* əvəzindən anası cavab verdi (Ə.Vəliyev); **PAPA** (*dan.*) *Papam* da mamama həmişə Mila xanım deyir (Ə.Qasımov); **PƏDƏR** (*kl.əd.*) Bihörmət olubdur *pədərə* pəsər; Yüzdə biri yaxşı olur ittifaq (Q.Zakir); **VALİD** (*kl.əd.*) Mədərləriniz etdi sizə mehrü məhəbbət; Ağuşi-şəfəqqətdə sizi bəslədi rahət; *Validələriniz* xərcinizə etdi kəfalət... (M.Ə.Sabir).

ata-ana *bax* valideyn
ata-anasız *bax* yetim

ATA-BABA (*nəslin ilk banilərı*) Lakin Xalıqovun ləqəbi *ata-babasının* əldən-ələ keçən peşəsi ilə əlaqədardır (B.Bayramov); **ABAVÜ ƏCDAD** [Həmzə:] Adə, ay şeytan oğlu şeytan, ürəyim düşdü ki, vay sənin *abavü əcdadın* gorbagor olsun (C.Cabbarlı); **DƏDƏ-BABA** Bunlar *dədə-baba* ayran tapanda çörək, çörək tapanda ayran tapmazlar (S.Rəhimov); **ƏCDAD** [Qürbət Kərim:] Ondan tək mən qorxmuram, Allah göstərməsin, əlinə girəvə düşsə, *əcdadımızı* qəbirdən çıxardar (M.Hüseyn); **ABA.**

atabaxan *bax* mehtər
ata-baba *bax* dədə-baba
ATALI, DƏDƏLİ (*atası olan*)

ATALIQ (*həqiqi atanın əksi*) ..Məlcəyko bütün əhvalatı açıb Könülə danışdı, məlum oldu ki, təqsir *atalığındadır* (X.Hasilova); **DƏDƏLİK** Amma Nəcəfqulunu da hərdən bir döyərdim və bu da qaçardı *dədəliyinə* şikayətə (C.Məmmədquluzadə); **ÖGEY ATA** Şərifin doğma atası da, *ögey atası* da müharibədə həlak olmuş, anası xərçəng xəstəliyindən ölmüşdü (Ə.Kərim).

ataman *bax* dəstəbaşı
ATASIZ, DƏDƏSİZ (*atası olmayan*)
atçapan *bax* minici **1**
atdanmaq *bax* döyünmək
ateist *bax* allahsız **1**
ateizm *bax* allahsızlıq
atəş *bax* od

ATƏŞBAZLIQ (fişənglərlə keçirilən şənlik) Bəli, bu gecə kənddə; *Atəşbazlıq* olacaq (M.Rzaquluzadə); **ATƏŞFƏŞANLIQ** Qaynaq şamlarının gözqamaşdırıcı qığılcımları ətrafa sıçradıqca, bayram günləri düzələn *atəşfəşanlığı* xatırlayırdı (Əlizadə); **FİŞƏNGBAZLIQ.**

ATƏŞBÖCƏYİ (*zool.*) (*üst qabığı işıq saçan böcək*) Körük çalındıqca kömür qızarır, dükan qısmən işıqlanır, otrafa minlərlə qığılcımlar, qoralar sıçrayır, *atəşböcəkləri* kimi uçuşur.. (Ə.Cəfərzadə). **ATƏŞQURDU** İsti tərəflərin dəryalarında çox kiçik, şəfəqli heyvanlar *atəşqurdları* olur (H.Zərdabi).

atəşfəşanlıq *bax* atəşbazlıq

ATƏŞGAH (*atəşpərəstlərin ibadətgahı*) Tam bu sirada solmaz *atəşgah* qapısında görünür (C.Cabbarlı); **ATƏŞGƏDƏ** [Odabaşı:] Bu səbəbdən də hər şəhərdə və kənddə bir və ya bir neçə *atəşgədə* var idi (Ə.Haqverdiyev); **AZƏRGƏDƏ** (*q.sd.*); **MƏBƏDGAH** (*bax*).

atəşgədə *bax* atəşgah, məbədgah

ATƏŞİ-HİCRAN Şirin göftarın, dür xoyalların, *Atəşi-hicranə* yan, gedor oldu (M.P.Vaqif); **AYRILIQ ODU** *Ayrılıq oduna* könül dayanmaz (M.Rahim); **HİCRAN ATƏŞİ** Bizim bu dövranın yeni qızları; *Hicran atəşinə* yanmasın gorək (S.Rüstəm).

1. ATƏŞİN (*məc.*), **ALOVLU, COŞQUN, EHTİRASLI, HƏRARƏTLİ, QIZĞIN, ODLU** (*atəşin salam, atəşin nitq və s.*).

2. atəşin *bax* odlu 1

atəşqurdu *bax* atəşböcəyi

ATİCİ (*yaxşı tüfəng atan*) [Koxa:] Əqlim var, başım var, deyiləm qanmaz; Mən də *aticiyam*, yaxşı qulaq as (S.Rüstəm); **NİŞANÇI** Dəstədə on nəfər əla *nişançı*, iki də şəfəqət bacısı vardı (M.Hüseyn); **SNAYPER** (*əla atıcı, yaxşı nişançı*) Mahir *snayper* kimi, hədəfini həmişə, sərrast vurandır Həsən (M.Rzaquluzadə).

atılmaq *bax* hoppanmaq

atıl *bax* tənbəl

atıllık *bax* tənbəllik

atlas *bax* xəritə

ATLI (*ata minmiş adam*) Dərənin o biri tayında yoxuşun başında bir *atlı* dayanmışdı (Ə.Məmmədxanlı); **ÇAPAR** Kəblə Bəybala *çaparı* hörmətlə qarşıladı (H.Abbaszadə); **MİNİCİ** At, *minicini* tanıyar (Ata. sözü); **SÜVARİ** *Süvarilər* Tülkü təpəsindəki camaatın nəvvor:] Ancaq məni dilgir edən camaatın *cahilliyidir* (M.S.Ordubadi); **CƏHALƏT** Işıq saçdın boğman üçün qalın, qatı qaranlığı; Işıq saçdın məhv etməyə *cəhaləti*, nadanlığı (M.Rahim); **QƏFLƏT** Din yoxsullar üçün bir tiryəkdir ki, onları həmişə *qəflətdə* saxlayıb oyanmalarına mane olmuşdur (S.S.Axundov); **GERİLİK** (*dan.*) Həyatda gördüyün *geriliklərin;* Demə ki, hamısı ənənədəndir!.. (B.Vahabzadə); **NADANLIQ** [Məmməd ağa:] *Nadanlıq* gözlərini bir mərtəbədə kor edibdir ki, namümkündür söz, nəsihət ilə bunlara bir şey qandırasan (N.Nərimanov).

avantüra *bax* macəra

avantüraçı *bax* macəraçı; şarlatan

avantürist *bax* macəraçı

AVAR Şamil bütün qüvvəti ilə *avar* çoxorək, qayığı gölün o biri sahilinə doğru sürürdü (A.Şaiq); **KÜRƏK** [Zərnigar xanım] oğlunu tanıdı. Şamxal qabaqda oturub *kürək* çəkirdi (İ.Şıxlı).

1. AVARA (*heç bir işlə məşğul olmayan, iş-güc görməyən adam*) [Əli:] Mən sənətsiz-peşəsiz *avaraya* qız vermərəm (M.İbrahimov); **BAMBILI** (*dan.*) [Gövhərtacın anası:] O axmaq *bambılıda* sən nə görübsən? (Ə.Haqverdiyev); **HƏPƏND** (*köhn.*) (*söyüş kimi də işlənir*) [Əhməd bəy:] A godo, *həpənd* uşağı, mən çeşmək oğrusu idim? (Ə.Haqverdiyev); **SƏRSƏRİ** [Zeynalı] belə *sərsəri* həyata ..bozi arqadaşları.. sürükləmişdi (S.Hüseyn).

2. avara *bax* veyl

avaralanmaq *bax* veyllənmək

avariya *bax* qəza 1

avaz(ə) *bax* səs

aviator *bax* təyyarəçi

avizə *bax* qəndil

avto *bax* avtomobil

avtobioqrafiya *bax* tərcümeyi-hal

avtomaşın *bax* avtomobil

AVTOMOBİL Bax, bir *avtomobil* gəlir (C.Məmmədquluzadə); **ATSIZ ARABA** (*dan.*) Bir neçə dəqiqədən sonra *atsız araba* əvvəlkindən daha kimi özünü soxdu həyətə (C.Məmmədquluzadə); **AVTO** Üroklor, nəbzlər sürətlə vurur... Qatarlar, *avtolar* gəlir dalbadal (S.Vurğun); **AVTOMAŞIN** Bəzi traktor hissələri və *avtomaşın* üçün rezin təkərlər almaq lazım idi (İ.Əfəndiyev); **MAŞIN** (*dan.*) [Fariz:] Fikrət, narahat olma, mən sənə *maşın* taparam (H.Abbaszadə).

avtor *bax* müəllif

avtoritet *bax* nüfuz

AY (*göy cismi, planet*) Yırtaraq *Ay* gecənin örtüyünü; Məhv qılmışdı o zülmət yuxunu (M.Müşfiq); **QƏMƏR** (*şair.*) Sən günəşlə ayılan, *qəmərlə* yatanların; Balıqçı gürcülərin, Kürə tər atanların... (M.Rahim); **MAH** (*şair.*) Dedim ki, diriğ, neyləyim ah! Mən zərrə ilən nə ol *mah?* (Xətayi).

ayağıağır *bax* ağırayaq 1

ayağısürüşkən *bax* oxlaqsız 1

ayağıyüngül *bax* xəşqədəm(li)

I 1. AYAQ Fikrət bir an arvadın onun *ayaqlarını* qucaqlayıb, yalvarması səhnəsini sanki uzaqdan seyr etdi (H.Abbaszadə); **QƏDƏM** [Fatma:] *Qədəmlərinin* altında ölüm, qurbanın olum, başıma dönüm, ay hakim, məni oğulsuz, nəvələrimi atasız qoyma (H.Abbaszadə); **PAY** (*kl.sd.*) Mərhəbə, sən bizə, ey türfə cavan, xoş gəldin! *Payinə* peşkəş ola baş ilə can, xoş gəldin (M.P.Vaqif).

2. ayaq *bax* sən

3. ayaq *bax* dəfə

II ayaq *bax* piyalə

AYAQQABI [Aytəmiz:] Nə istəsən, nə fasən istəsən paltar, *ayaqqabı* qalanıb birbirinə (Ə.Qasımov); **BAŞMAQ** (*köhn.*) Həsən tüklü ayaqlarını yumayıb, elə o cür *başmağın* içinə saldı.. (M.İbrahimov); **QONDARA** (*köhn.*) [Sitarə:] Yaşıl, lotif otlar üzərində almas paraları kimi parlayan şəbnəmlərdən ətəklərimiz, *qondaralarımız* bütünbütünə islanaraq yüyürdük (A.Şaiq); **POSTAL** (*dial.*) Bütün müridlər kimi guya ani zikrə gedən Hacı Əmrah əfəndi dua oxuduqdan sonra üstü biçaqla kəsilmiş *postallarını* qapının ağzında soyundu (İ.Şıxlı).

AYAQQABIÇI, BAŞMAQÇI (*ayaqqabı ustası*)

ayaqqabısız *bax* ayaqyalın 1

ayaqla *bax* piyada
ayaqlamaq *bax* tapdalamaq
ayaqüstü *bax* tələsik

1. AYAQYALIN Alo kişi köynəkcək, *ayaqyalın* onun [Gülsənəmin] arxasınca addımladı (S.Rəhimov); **YALINAYAQ** *Yalınayaq* yeriyən, yol gedən bövlnak; Andırır keçən Bakı (M.Rahim); **AYAQQABISIZ.**

2. ayaqyalın *bax* yoxsul

AYAQYOLU Hacı durana qədər heç olmasa səkilər süpürülməsəydi, deyinməyə bəhanə tapıb qanlarını qaraldacağını bildiyindən cəld tərpənib evin qapısından *ayaqyoluna* və küçəyə gedən səkiləri təmizlədi (M.İbrahimov); **TUALET** [Aytəmiz:] Sürəyanın bozək qutusunu açıb göz qaraldan karandaşını atdım *tualetə* (Ə.Qasımov); **SUBAŞI** (*dan.*) İçəridən ayaq tappıltısı eşidildi. Kimsə əlbət *subaşına* çıxırdı (H.Abbaszadə); **ABDƏSTXANA, RAHATXANA** (*köhn.*), **ZİRAB** (*köhn.*)

AYAQYOLUNA DÜŞMƏK, İSHALA DÜŞMƏK, QARNI İŞLƏMƏK

ayama *bax* ləqəb
ayaz *bax* şaxta **1**

AYBAŞI (*həddi-büluğa çatmamış qızlarda, həmçinin qadınlarda hər ay müəyyən vaxtlarda uşaqlıqdan qan ifrazı*); **HEYZ** *Heyz*, ər ilə arvadın əlaqəsi, doğmaq, balanın cismani tərbiyəsi – bunların hamısının sirlərinə agah olmağa tibbə dair geniş məlumat lazımdır (Çəmənzəminli).

ayçöhrəli *bax* ayüzlü
aydın *bax* **1.** aylı; **2.** aşkar; **3.** səlis
aydınlaşdırmaq *bax* anlatmaq
aydınlaşmaq *bax* bilinmək
ayıb *bax* **1.** ar **1**; **2.** nöqsan **1**
ayıbalası *bax* **1.** kərpic; **2.** pota **1**
ayıblamaq *bax* məzəmmətləmək

1. AYIQ (*yuxuda olmayan, oyanıq*); **SƏRVAXT** Yatsan; Yuxuda da ol *ayıq, sərvaxt* (D.Nəsib).

2. AYIQ, AĞLI BAŞINDA

3. ayıq *bax* sayıq
4. ayıq *bax* oyaq **1**
ayıqlıq *bax* sayıqlıq

1. AYILMAQ Gülsüm qarı yuxudan gülə-gülə *ayılıb*, yatağının üstə oturdu (Çəmənzəminli); **DURMAQ** [Gülbadam:] Cəbi! Anan sənə qurban, Cəbi! Oyan, *dur*, gedək (N.Nərimanov); **OYANMAQ** Rübabə yatmışdı, qalxdı əkizlər də *oyandılar* (H.Abbaszadə).

2. AYILMAQ, AĞLI BAŞINA GƏLMƏK, HUŞA GƏLMƏK, ÖZÜNƏ GƏLMƏK

ayıltmaq *bax* oyatmaq
ayışmaq *bax* gicişmək
ayıtmaq *bax* demək **1**

1. AYİN, QANUN, QAYDA

2. ayin *bax* ibadət
ayqabaq(lı) *bax* ayüz(lü)
aylanmaq *bax* fırlanmaq **1**

AYLI (*Ay işığı ilə işıqlanmış*) *Aylı* gecə, sərin külək, göy çəmən; Dörd yanımız otlar saçan yasəmən (H.Hüseynzadə); **AYDIN** *Aydın* bir gecədir, ulduzlar həsrətlə yerə baxır (S.Rüstəm); **MAHTAB** (*kl.ad.*) *Mahtab* gecə. Göydə ulduzlar axır (A.Şaiq).

ayhq *bax* maaş
ayna *bax* **1.** güzgü; **2.** pəncərə **1**; **3.** şüşə **2**; **4.** şəffaf
aynabənd *bax* şüşəbənd
aynabəndli *bax* şüşəbəndli
aypara *bax* hilal
ayrı *bax* başqa **1**

AYRILIQ, HİCRAN Nə *hicran*, nə *ayrılıq*, nə iztirab; Yox, bunun adı yoxdur! (Ə.Kürçaylı); **FƏRAQ** (*kl.ad.*) [Gövhərtac:] İllərcə *fəraqını* çəkməkdən canım dərdə düşdü (Ə.Haqverdiyev); **FİRQƏT** (*kl.ad.*) Yıxılmış şəhri xəraba dönmüş; *Firqətin* damu tək ozaba dönmüş (M.P.Vaqif); **HİCR** (*kl.ad.*) Sənsiz ömrüm bənzəyər bir zavallı yetimə; Dedim ki, son qoyarsan *hicrimə*, həsrətimə (M.Rahim).

1. AYRILMAQ (*aralı düşmək*) Fərəc Məzahir altı il idi ki, teatrdan *ayrılmışdı*. Əslinə qalanda o özü *ayrılmamışdı*, xəstəlik qocanı həyatı qədər sevdiyi sənət məbədindən ayrı salmışdı (H.Abbaszadə); **ARALANMAQ** Mən getməliyəm, – deyə Şamo Qəmərdən *aralanmağa* başladı (S.Rəhimov);

QOPARILMAQ Şamo Qəmərdən *qoparıla* bilmirdi (S.Rəhimov).

2. ayrılmaq *bax* uzaqlaşmaq
3. ayrılmaq *bax* vidalaşmaq
aysberq *bax* buzdağı

AYÜZLÜ (*üzü, sifəti ağ gözəl, qəşəng*) [Mərsiyoxanım:] *Ayüzlü* gözəl, zalımlıqdan nə çıxar (Çəmənzəminli); **AYQABAQLI** Bulud üzlü, *ayqabaqlı* gözəlin; Duruban başına dolanmaq gərək (M.P.Vaqif); **QƏMƏRÜZLÜ** (*kl.ad.*) Ey şəmsü *qəmərüzlü*, didarına müştaqam (Nəsimi); **MAHCAMAL** (*kl.ad.*) Müsəlsəl keysələr ruxi-al üzrə; Bir buluda bənzər *mahcamal* üzrə (Q.Zakir); **MAHLİQA** (*kl.ad.*) Vaqifa, bir *məhliqayi*-mehribanə meyl qıl; Ta kəmali-eşqə ondan zərrə nöqsan olmaya (M.P.Vaqif); **MAHRU** (*kl.ad.*) Sənin layiqin osri-şöhdir müdam; Konizin ola *mahrular* tamam (M.Ə.Sabir); **AYÇÖHRƏLİ.**

AZ Camaatda beşaçılan, üçaçılan, Türkiyə mauzeri var idi. Ancaq *az* idi (Ə.Vəliyev); **QƏHƏT** [Fərəc:] Başına əd *qəhət* idi? Mustafa! (Anar); **MƏHDUD** [Həmid:] Hörmətinizə görə minnətdaram, mənim vaxtım çox *məhduddur* (H.Abbaszadə); **KƏM.**

AZACIQ *Azacıq* məvacibə qənaət edən muzdur öz boğazından qəpik-qəpik kəsib, on ilin ərzində altı yüz manat pul oldə etmişdi (Qantəmir); **AZCA** Onun başı *azca* yana əyilmişdi (İ.Əfəndiyev); **CÜZİ** Bu *cüzi* pulla Qəzənfəri həbsxanadan qurtarmaq mümkün deyildi (S.Vəliyev); **BİR AZ** Sabah gələsən *bir az* söhbət edək? (C.Məmmədquluzadə); **AZ-MAZ** Bu şeylərі *az-maz* mən də bilirəm (A.Şaiq).

AZAD *Azad*, xoşbəxt xalqımın əzmindən vüsət alır; Mənə balam tək əziz könlümün dilələri (S.Rüstəm); **AZADƏ** Bunlar asudə fikirli, *azadə* ruhlu bir insan olurlar (Çəmənzəminli); **HÜRR** (*kl.ad.*) [Səyahətçi:] Mənçə *hürr* yaranmış Şərq qadınını bu halda xilas etməyə yeni bir peyğəmbər zühuru lazımdır (S.S.Axundov); **MUXTAR** (*kl.ad.*) Buna kim yol verəcəkdir ki, qız olsun *muxtar* (C.Cabbarlı); **SƏRBƏST** [Firəngiz:] Kaş mən sənin kimi *sərbəst* olaydım (C.Cabbarlı); **MÜSTƏQİL, SUVEREN.**

azadə *bax* azad
azadəlik *bax* azadlıq
azadiyyət *bax* azadlıq

AZADLIQ Həkimlər bilmədi, dərdli şairin; Dərmanı – *azadlıq*, ləğmanı – eldir (B.Vahabzadə); **AZADƏLİK** Sənin müqəddəs arzun, *azadəlik*, səadət; Bəxş etmək idi, dostum, bizim doğma ellərə (H.Billuri); **AZADİYYƏT** (*köhn.*) Bir tərəfdə qız-qadın yetmədə *azadiyyətə;* Bir tərəfdə Şahnisə pəbəstə vədi-connətə (M.S.Ordubadi); **HÜRRİYYƏT** [Həsən:] Qoy məni necə istəyir, elə də gözsin. Bəs *hürriyyət*, azadlıq hərdə qaldı (M.İbrahimov); **SƏRBƏSTLİK** (Nikolay Petroviç:) Bu xüsusda sözə *sərbəstlik* verilir (A.Şaiq); **MÜSTƏQİLLİK, SUVERENLİK.**

AZADLIQSEVƏN Qafqaz, şahinlərin yuvası, *azadlıqsevən* insanların doğma yurdu (R.Rza); **AZADPƏRƏST** Xalqın *azadpərəst* oğlu silinməz yaddan (S.Rüstəm); **AZADPƏRVƏR** ..bunların hamısından sonra *azadpərvər* insanlarda da belə bir düşüncə, yəni üstün olmaq düşüncəsi vardır (M.S.Ordubadi); **HÜRRİYYƏTPƏRƏST** (*köhn.*) ..Hal-hazırda hürriyyətə çalışınız, *hürriyyətpərəstləri* dost tutunuz.. (N.Nərimanov).

azadpərəst *bax* azadlıqsevən
azadpərvər *bax* azadlıqsevən

AZANÇI Getdikcə *azançının* səsi ucalır, güclənir və yeganə bir səs kimi bütün kəndi bürüyür... (M.İbrahimov); **MÜƏZZİN** (*köhn.*) *Müəzzin* uca səslə azan verirdi (Çəmənzəminli); **AZANVERƏN.**

azansevən *bax* azançı
azar *bax* xəstəlik
azar-bezar *bax* azar
azarxana *bax* xəstəxana

AZARKEŞ (*idm.*) Oyun yaman qızışıb, yağış nə, palaş nədir; *Azarkeşlər* bilirlər sevinc nə, təlaş nədir... (M.Rahim); **HƏVƏSKAR, XƏSTƏ** (*məc., dan.*).

azarlamaq *bax* xəstələnmək
azarlı *bax* xəstə
azarlıxana *bax* xəstəxana
azaylanmaq *bax* gileylənmək
azca *bax* azacıq

1. AZDIRMAQ, DÜZ YOLDAN ÇIXARMAQ, PİS YOLA SÖVQ ETMƏK.

2. azdırmaq *bax* sapdırmaq

AZƏRBAYCANCA (*Azərbaycan dilində*) [Nizami:] Sizə də, bizə də məlumdur ki, Şirvan sarayında yaşayanlar da, xaqanın özü də *azərbaycanca* danışa bilmirlər (M.S.Ordubadi); **AZƏRİCƏ** O, *azəricə* məndən yaxşı danışırdı (M.Hüseyn).

AZƏRBAYCANLI Əliyevin briqada üzvləri arasında rus, *azərbaycanlı*, belorus, lozgi və tatar vardır (M.Hüseyn); **AZƏRİ** Osman içəri girər-girməz, onu gülər üzlü cavanlar qarşıladı, tanıdığı *azəri* tələbələrindən bir neçəsi burada idi (Çəmənzəminli); **AZƏRİ ÖVLADI** (*tənt.*) Nə sən onsuz, nə o, sənsiz yaşamaz; *Azəri övladı* vətənsiz yaşamaz (S.Rüstəm).

azərgədə *bax* atəşgədə
azəri *bax* azərbaycanlı
azəricə *bax* azərbaycanca

1. AZĞIN, QUDURMUŞ (*məc.*) Qan içməkdən doymazdı *azğın, qudurmuş* itlər; Makgini öldürdülər, qorxu yaradır deyə (S.Rüstəm); **AĞZIKÖPÜKLÜ** (*dan.*). Dağətəyi kəndi.. *ağzıköpüklü* ağalarına qarşı baş qaldırmış deyildi (S.Rəhimov); **DƏLİQUDURMUŞ** Görəsən yenə hansı *dəliqudurmuşa* rast gəldi (M.F.Axundzadə); **QUDURĞAN** *Qudurğan* dövlətli cavanları arvada latayır söz qoşub oxuyur.. (Ə.Əbülhəsən); **QUDUZ** (*məc.*) *Quduz* düşmənin qılıncı cəngavərin qolunu kəsib atdı (M.Hüseyn); **VƏHŞİ** (*bax*).

2. AZĞIN, AZMIŞ, HARIN (*məc.*), **YOLUNU İTİRMİŞ**

AZĞINLAŞMAQ Kişi başı ilə: – Bəli, – dedi, – hər yana baxıb görürsən ki, gədəgüdələr *azğınlaşıblar* (S.Rəhimov); **QUDURMAQ** [Nazlı:] Eybi yox. Bu mono borc olsun. Gör nə *qudurub* e.. (Anar); **ARPASI ÇOX (ARTIQ) DÜŞMƏK** (*f.v.*) [Musa:] Ay Eldar! Doğrudan da boylor ki, var; Bir azca *arpası çox düşən* zaman; Yabı cinsi kimi şıllaq atırlar (S.Vurğun).

azğınlıq *bax* vəhşilik

AZLIQ (*sayca az olan*) [Uğur:] Bizdə *azlıq* çoxluğa tabedir (İ.Əfəndiyev); **ƏQƏLİYƏT** Oxumaq istəyən *əqəliyyətdə* qaldığı üçün məktəbi açmadılar (Çəmənzəminli); **QƏHƏTLİK** Bəylərin düzəltdiyi dəstələrdə kişi çox olsa da, silah *qəhətliyi* idi (Ə.Vəliyev).

AZMAQ Mövlanverdi baba bir qış gecəsi qar basmış meşədə *azdığı* zaman bir dərviş peyda olaraq onu gətirib kəndin kənarına çıxarandan sonra özü necə qeybə çəkilib (İ.Əfəndiyev); **YOLU İTİRMƏK** Pəri xanım bir vədə gördü ki, *yolu itirib*.. ("Beykəsin nağılı").

azman *bax* böyük **1**
azmanlıq *bax* böyüklük

AZUQƏ (*ərzaq ehtiyatı, yeyəcək ehtiyatı*) İndi Həsi çaqqıldayan dəyirmanın unluğu qabağında çalışır, böylik üçün *azuqə* hazırlayırdı (S.Rəhimov); **ƏRZAQ** Hissə irəli getdikcə, mən yük maşınında döyüşçülər üçün *ərzaq* daşıyır, səyyar mətbəxlərə çatdırırdım (Y.Əzimzadə); **MƏKULAT** (*köhn.*) ..Evin illik *məkulatı* ayrıca göndərilirdi.. (Çəmənzəminli); **RİZQ** (*köhn.*) [Cavan Bəzirgan:] Qanlı dərədə heyrətli bir quldur yolumuzu kəsdi.. Malımızı, *rizqimizi* aldı.. (Anar); **RUZİ** [Sevil:] İndi Allah bizim üçün bir parça *ruzi* yetirmişdir... (C.Cabbarlı); **SURSAT** (*hərbi ərzaq*) Bu maşınların çoxu ön xətto hərbi *sursat* daşıyır (X.Hasilova); **YEYİNTİ** (*dan.*) [Molla Zaman arvadına:] Bir az *yeyinti* al gətir (Ə.Haqverdiyev).

AZYAŞLI Fəhləliyə gedən *azyaşlı* uşaqlara xozeyinlər heç bir zaman istirahət günü verməzdilər (H.Sarabski); **KİÇİKYAŞLI** Məktəbdə *kiçikyaşlı* uşaqların konserti idi (Mir Cəlal).

Bb

I 1. bab *bax* fəsil **2**
2. bab *bax* qapı **1**
II bab *bax* tay **1**
III bab *bax* babi **1**
babadanqalma *bax* miras
babal *bax* günah

BABAT / BABƏT (*nə yaxşı, nə pis, alabatat*) [Balağa:] Kimdən narazı deyilsən, qazancım da *babatdır* (H.Abbaszadə); **ALABABAT** [Tapdıq] şəkillori də *alababat* çəkib qurtardı (Ə.Vəliyev); **MİYANƏ** Qarabirçək *miyanə* süfrə hazırladı (Ə.Vəliyev); **ORTABAB** Əlikram gətirdiyi iki dənə *ortabab* Quba almasını qozətdən açıb təbərrük kimi çıxartdı (B.Bayramov).

I babat *bax* babat
II babat *bax* vəziyyət **1**

1. BABİ (*babi məzhəbinə mənsub olan*) [Molla Qafar:] Amma bu rusihayi-Azərbaycanidə xəlayiq *babi* məzhəb olub yezdano boyun əymirlər (S.Rəhimov); **BAB** [Seyidsədulla:] Siz *bab* və bəhailik aləmi barəsində uzun və uzadı mütalio etməlisiniz (M.S.Ordubadi).

2. babi *bax* dinsiz, kafir **2**
bac *bax* **1.** rüsum; **2.** vergi **1**; intiqam
bacaq *bax* qıç

BACARIQ, HÜNƏR (*bax*); **QABİLİYƏT, TƏCRÜBƏ**

BACARIQLI, QABİL (*əlindən hər iş gələn, hər işdən başı çıxan*) [Leyla:] Ağalarov məndən çox *qabil* həkimdir (B.Bayramov); **İQTİDARLI** ..və "Gəlinlər homayili" adlı kitabçalar Qənizadənin *iqtidarlı* bir ədib olduğunu bildirir (F.Köçərli); **QABİLİYƏTLİ** Yaxşı, *qabiliyyətli* ustalarımız vardır. Hamısı da mebelçiliyi burda öyrənib (H.Abbaszadə) **QOÇAQ** Mürsəlov Bəstiyə *qoçaq* qızlardan bir manqa düzəltməyi məsləhət gördü (Ə.Sadıq); **LƏYAQƏTLİ** Qafar.. zehinli, *ləyaqətli* uşaqlar böyüdüb yetirən arvadına güldən ağır söz deyilməsinə dözməyəcəkdi (Ə.Əbülhəsən); **MAHİR** O həm də mahir bir ovçu idi (M.Hüseyn); **ZİRƏK** [Şəkərəliyev:] Bizə cəld, *zirək*, əlindən iş gələn adam lazımdır (M.İbrahimov).

BACARIQSIZ (*bir işi görə bilməyən*) [Sitaro:] Onu sevdiyini söylə! Ah, *bacarıqsız* söyləsən ə... (A.Şaiq); **ACİZ** Bizim söhbətimizə göldikdə tələbə Əbdülhüsənzadə Xəlil, necə ki, axırda məlum oldu, heç də *aciz* deyilmiş (C.Məmmədquluzadə); **ƏFƏL** [İskəndər:] Əmioğlu, sən xəm və *əfəl* adama oxşayırsan, – deyib müsahibinin qolundan yapışdı (Ə.İldırımoğlu); **KİRDARSIZ** [Göyərçin:] Ay heysiz qarı, *kirdarsız* qarı (S.Rəhimov); **QABİLİYYƏTSİZ** [Məsmə:] Zəhmətə *qabiliyyətsiz* idi; buna baxmayaraq, anam, dayılarım məni ona verdilər, çünki onlar kəndə nüfuzlu, kəramət sahibi "seyidlər" hesab olunurdular (S.Hüseyn); **MİSKİN** [Rəhim bəy:] ..öz doğma oğlunun da... yanında xırda, *miskin* bir xəbərçi kimi biabır olmuşdu (M.Hüseyn); **BİQABİLİYƏT.**

bac-xərc *bax* vergi **1**; rüsum

BACI Dayım Səfərəli Vəlibəyov [Zaqafqaziya seminariyasının müəllimi] *bacısının* bu ağır vəzifəsini bir qədər yüngülləşdirmək məqsədilə böyük qardaşım Rüstəmi, altı yaşında uşaq ikən, yaşadığı Qori şəhərinə apardı (S.S.Axundov); **HƏMŞİRƏ** [Sitaro:] Gözəl *həmşirəm*, bu halına acıyaraq, get-gedə sevməyə başlayaraq tanımadığımız bir zat kim bilir necə adamdır? (A.Şaiq); **XAHƏR** (*arx.*) Məktəbi-nisvan lüzumu hər kəsə məlum olar; Şeyxzadəm açmaz isə, *xahərim* Gövhər açar (M.Ə.Sabir).

1. BACILIQ Qız onun *bacılığıdır*, bunu qızın özü söyləyir (M.S.Ordubadi); **ÖGEY BACI** [Sara:] Pəri mənim *ögey bacım* isə də mən onu min doğma bacıdan artıq sevirəm... (C.Cabbarlı).

2. bacılıq *bax* rəfiqə
bad *bax* yel **1**

1. BADALAQ (*güləş zamanı ayağı-ayağa dolaşdırıb yıxmaq*) Mən onu üzəndə dostum *badalaq* vurub məni üzü üstə yıxır ki, laləni özü dərsin (M.Hüseyn); **PİŞLİNG** (*arx.*) [Vəzir:] ..ayağa durub tutuşduq, qeyrət mənə əl verib, bir dəqiqə çəkməyib Teymur ağanı çəkdim *pişlinqə*, dəxi bilmirəm necə yerə vurmuşam... (M.F.Axundzadə).

2. badalaq *bax* hiylə

badə *bax* **1.** çəxir; **2.** piyalə

badənuş *bax* əyyaş

badəpərəst *bax* əyyaş

1. BADKEŞ, DƏMKEŞ, KÜLBƏ

2. badkeş *bax* həcəmət

I BAĞ, AĞACLIQ

II bağ *bax* bənd **I, 2**

bağa *bax* tısbağa

bağabaxan *bax* bağban

BAĞBAN (*bağa qulluq edən şəxs*) Bir gün qoca *bağban*: soruşdu uşaqlardan (M.Rzaquluzadə); **BAĞABAXAN** [Zərif:] Bəs bu *bağabaxan* haradadır? (Ə.Kərim); **BAĞÇI** *Bağçı* bağı ilə, qarpız tağı ilə (Ata. sözü).

bağbaşı *bax* hədiyyə

bağça-bağ *bax* güllük

bağçı *bax* bağban

1. BAĞIR (*anat., biol.*), **QARA CİYƏR**

2. bağır *bax* ürək

3. bağır *bax* ciyər

bağırmaq *bax* **1.** çığırmaq; **2.** böyürmək

bağırtı *bax* çığırtı

bağıryaran *bax* qorxulu **1**

1. BAĞIŞLAMAQ Axırıncı gün Samarski bir afişanın üstünü yazıb yadigar olaraq Həmidə *bağışladı* (H.Abbaszadə); **BƏXŞİŞ ETMƏK** [Rəhim xan:] Qızın əvəzinə isə şah yəqin mənə bir kənd *bəxşiş edəcək* (C.Cabbarlı); **HƏDİYYƏ ETMƏK** [Rəhim xan:] Səni Mirzə Rzanın köhnə daxmasından alıb Nəsrəddin şah Qacara *hədiyyə eləmişəm*, bunamı sən zülm deyirsən? (C.Cabbarlı); **PEŞKƏŞ ETMƏK** [Namaz:] Onu mənə peşkəş elərmi? (M.F.Axundzadə); **VƏQF ETMƏK** (*din.*) Amma bu bədbəxt də Molla Seyidin kələyinə düşüb cəmi dövləti məscidə *vəqf etmişdi* (S.S.Axundov).

2. BAĞIŞLAMAQ [Kərim:] Könül, məni *bağışla*, o gün qızışmışdım (X.Hasilova); **ƏFV ETMƏK (BUYURMAQ)** [Aşıq Vəli:] Hacı, bir az baş ağrısı verəcəyəm, *əfv buyurasınız*... (N.Vəzirov); Mən rica edirəm ki, bu dəfəlik bəy *əfv elasin* (H.Nəzərli); **GÜNAHINDAN KEÇMƏK** [Uşaqlar:] Düz deyir, müəllim, bu dəfə *günahından keç!* (M.İbrahimov).

bağlama *bax* **1.** boğça; **2.** sovqat

1. bağlamaq *bax* sarımaq **1**

2. bağlamaq *bax* kilidləmək

bağlanmaq *bax* **1.** kilidlənmək; **2.** vurulmaq **1**

bağlaşma *bax* müqavilə

bağlaşmaq *bax* **1.** şərtləşmək; **2.** şeirləşmək

bağlı *bax* **1.** kilidli; **2.** əlaqədar; **3.** vurğun

baha *bax* **1.** qiymət; **2.** bahalı

bahadır *bax* igid, qəhrəman

bahadırlıq *bax* igidlik, qəhrəmanlıq

BAHALI [Aytəmiz:] Qadın da var ki, *bahalı* parçadan lap elə bu dəbdə olan kremplindən tikdirdiyi paltar oynindən tökülüb itir... (Ə.Qasımov); **BAHA** [Gözəl:] ..özü heç bir şeydən ibarət olan taxt-tac, çox *baha* qiymətə mal olur (M.S.Ordubadi); **DƏYƏRLİ** [Səba:] Əlverişli bir sövdə düzəldərsən sizin üçün də *dəyərli* pay düşər (M.S.Ordubadi); **GİRANBAHA** Bəli, Sabir əfəndi millətinə soltanlara müyəssər ola bilməyən *giranbaha* cəvahirat ilə məmləvü-xəzineyi-nayab buraxdı da getdi (A.Şaiq); **QİYMƏTLİ** [Rübabə] birini də ehmalca büküb sandıqda ən *qiymətli* şeylərin arasına qoydu ki, yaxşı qalsın (H.Abbaszadə); **PÜRQİYMƏT** (*kl.əd.*) Tacir də bir xeyli *pürqiymət* parçanı bir xonçaya qoyub, padşahın hüzuruna apardı (Nağıl); **ZİQİYMƏT** ...qızıl cəngavərlərin geri atdığı hər bir ev öz qoynunda *ziqiymət* dəfinə gizlədən böyük saraydan belə əzəmətli görünürdü (M.Hüseyn).

bahar *bax* **1.** yaz; **2.** gənclik

baharıstan *bax* **1.** gənclik; **2.** güllük

bahəm *bax* birlikdə

baxəbər *bax* xəbərdar

baxımsız *bax* nəzarətsiz, sahibsiz

1. BAXIŞ Bu təsərrüfat Aslanın diqqətli *baxışlarından* yayınmadı (M.Hüseyn); **NƏZƏR** [Aslan:] Həddindən artıq sərt danışdığımı duymuş kimi, zəhmli *nəzərlərini* Rəhimzadənin üzündən çəkdi (M.Hüseyn); **NİGAH** (*kl.əd.*) Vaqif qurban zənəxdanın çahına; Şirin gülüşünə, xoş *nigahına* (M.P.Vaqif); **BAXMA.**

2. BAXIŞ *bax* fikir **2**

1. BAXMAQ [Vahid:] Başımı onun ilıq sinəsindən qaldırıb, altdan yuxarı *baxdım* (B.Bayramov); **SEYR ETMƏK (ELƏMƏK)** (*bir yerdə gəzməklə həmin yerin quruluşuna baxıb gözdən keçirmək*) [Sitarə:] *Seyr edirmisən*, Sitarə? (A.Şaiq); **TAMAŞA ETMƏK (ELƏMƏK)** [Mansur] məhəccərə söykənib buxtaya *tamaşa elədi* (H.Abbaszadə).

2. BAXMAQ Sultan bu sözlərdən sonra Bahadıra *baxıb*, onun bu barədə sözünü kəsdi (N.Nərimanov); **NƏZƏR YETİRMƏK.**

3. BAXMAQ, DİQQƏT YETİRMƏK, FİKİR VERMƏK, QULAQ ASMAQ

4. BAXMAQ, XİDMƏT GÖSTƏRMƏK, QAYĞISINA QALMAQ, QULLUQ ETMƏK

baxtalamaq *bax* uduzmaq **1**

baxüsus *bax* xüsusilə

bais *bax* səbəb **1**; səbəbkar

baiskar *bax* səbəbkar

bak *bax* qorxu

bakal *bax* piyalə

BAKENBARD [Aytəmiz:] Hələ bunlar bəs deyilmiş kimi lopa *bakenbardlarını* da yayıb üzünə (Ə.Qasımov); **YARIMSAQQAL** Görsən tanımazsan *yarımsaqqalı*; Çıxıb əndazədən dövləti, malı (Q.Zakir).

bakirəlik *bax* bəkarət

bakteriya *bax* mikrob

baqaj *bax* yük **1**

baqi *bax* daimi

baqqal *bax* dükançı

I 1. BAL [Ayı] Aha... harda arı varsa; Demək orda *bal* da var (M.Rzaquluzadə);

ƏSƏL (*kl.əd.*) Təşnədildir bu Xətayi, can veribdir lolinə; Necə kim lolin *əsəldir*, dil ona zənbur olur (Xətayi); **ŞƏHD** (*şan balı*) Möhtəşəm Nizaminin ölməyən sənətindən; Mənim həmən sərvətim öz *şəhdini* alıbdır (M.Rahim).

2. bal *bax* şirin

II bal *bax* qanad

1. BALA Gurultunu bir könül nəğməsi yardı: "Bağçada güllər; Sarı bülbüllər; Duyğusuz ellər; Bu *balama* qurban! (M.Müşfiq); **YAVRU** Yanında bir *yavrusu* var, yorulmadan çalıyor... (M.Müşfiq) **ÖVLAD** (*bax*); **UŞAQ** (*bax*).

2. bala *bax* balaca

bala-bala *bax* yavaş-yavaş

balaban *bax* tütək

balabançı *bax* tütəkçi

BALACA Qocanın *balaca* pəncərəsi qalın meşəyə tərəf açılırdı (S.Rəhimov); **BALA** Tamam ağ bədənin güldən oladır; Qamətindir sonubərdən, *bala* qız (M.P.Vaqif); **CIQQILI** (*dan.*) Kiçikdir hələ qız, boyu *cıqqılı;* Amandır, axund, söylənə "vaqqulu" (M.Ə.Möcüz); **XIRDA** *Xırda* təpələri sellər oyanda; Əsər bu həmləyə dağlar da zağ-zağ (B.Vahabzadə); **KİÇİK** Qapıçı *kiçik* pəncərədən [Nəbinin] nə istədiyini xəbər alır ("Qaçaq Nəbi"); **UFAQ** ..*Ufaq* daxmada Qızxanım adlı bir qadın yaşayırdı (S.S.Axundov).

BALACALAŞ(N)MAQ [Xəlil:] Başın hər gün *balacalaşır*, qarnın böyüyür.. (M.Hüseyn); **KİÇİLMƏK** Bu həzin, bu qəmli, bu dərdli səsdən; Xan *kiçildi*, yaman, *balacalandı* (M.Rahim).

balaxəndək *bax* qarın **1**

BALAQ (*zool.*) Qafur alovun içinə şığıdı, bir dəqiqə keçməmiş yarımcan *balaqla* bayıra atılanda, səhər açılırdı (T.Cəfərova); **CAMIŞ BALASI** ...kimsə körpə *camış balasını* yaddan çıxarıb içəridə qoymuşdu (T.Cəfərova); **KƏLÇƏ** Kosaoğlu doluxsundu... Sədr olandan sonra aldığı bu heyvanlarla halallaşmağa gəlib. Onun əli titrədi,

təpəl *kəlçəni*, qızıl inəyi sığalladı... (İ.Şıxlı); **XÖTƏK.**

balalamaq *bax* doğmaq **I**

balalıq *bax* bətn

balarmudu *bax* abasbəyi

balınc *bax* balış

BALIŞ (*yumşaq başaltı*) [Ana] yumşaq *balışa* söykəndikdən sonra daş kimi yatmışdı (M.İbrahimov); **BALINC** Dirsəkləndi o *balınca* bir qədər; Dodağında gül açanda gülüşlər (M.Rahim); **MÜTƏKKƏ** (*uzunsov girdə balış*) Səndən vəfalıdır, səndən istidir bəlkə; Sənin baş qoyduğun bu qu *mütəkkə*... (S.Tahir); **NAZBALIŞ** Sən gah gedib oyna, gah dərsə çalış; Otur dalındaca pərqu *nazbalış* (M.Rahim); **YASTIQ** Kiçik qardaşım *yastığından* sonsor qayırır, arxasına uzanıb guya tüfəng atırdı (Çəmənzəminli).

BALIŞÜZÜ, YASTIQÜZÜ

BALİNA (*zool. dəniz heyvanı*) Mənə elə gəlirdi ki, nəhəng bir *balina* sükut içində dayanıb şüşə kimi parlaq və soyuq gözləri ilə mənə baxır (İ.Əfəndiyev); **KİT** Dalğa var – naqqa balıq; Dalğa var – *kit* kimi (R.Rza).

balkon *bax* eyvan

BALQABAQ (*boranı növü*) [Xoca Zığzığ:] O qədər *balqabağı* hara aparırsan, a kişi?! (Anar); **KUDU** Kənd arvadları qışın tədarükünü qurtarırdı: kimi hazırladığı unu kəndiyə doldurur, kimisi yarmanı kisəyə yığır, kimisi yaman günün köməyi olan *kudu* və *balqabaqları* gizlədirdi (M.İbrahimov); **QABAQ** *Qabaq* tağı şamama vermoz (Ata. sözü).

ballınənə *bax* bədrənc

BALTA Bitkilərdə başlayan xəstəliklərdən ilk dəfə mən xəbər tutmalı, zərərli sarmaşıqları axtarıb tapmalı və oğru *baltasının* səsini gündüz də, gecə də lap uzaqdan eşitməliyəm (Ə.Yusifov); **TƏBƏR** (*arx.*) Söydəyi-sərim etdi məni taci-zərimdən; Rişəm kəsilimiş demə kəskin *təbərimdən* (M.Ə.Sabir).

bambazı *bax* pamazı

bambılı *bax* **1.** ləyaqətsiz; **2.** avara

bamәzə *bax* **1.** məzəli; **2.** zarafatcıl

bandaj *bax* toqqa

bandit *bax* soyğunçu

1. BANİ, TƏSİSÇİ

2. bani *bax* səbəbkar

banka *bax* börnü

banket *bax* ziyafət

bant *bax* lent **I**

bantlı *bax* lentli

banu *bax* xanım **I**

I BAR (*kiçik yeməkxana*), **QƏLYANALTIXANA** (*bax*)

II bar *bax* meyvə, məhsul

III bar *bax* yük **I**

baraban *bax* təbil

barabançı *bax* təbilçi

BARAMA Tut ağacın darama; Əldən çıxar *barama;* Halal zəhmətlə gələr; Haram gedər harama (Bayatı); **KÜM** (*dan.*) Toxmacarlar açılandan sonra qurdlar dirilir; *Küm* tutan kümçülərin işləri tüğyana gəlir (R.Əfəndiyev).

BARAMAÇI, KÜMÇÜ, KÜMDAR (*bax*)

BARAMAQURDU (*barama hörən qurd*) Hətta evlərə də *baramaqurdu* payladım (Y.Əzimzadə); **İPƏKQURDU** [Sona:] ...Biz indiyə kimi barama içində dustaq yatan *ipəkqurduna* bənzəyirdik (S.S.Axundov); **QURD** (*dan.*) [Heydər bəy:] Guya ki, mən... lənbəranlıyam ki, *qurd* bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm (M.F.Axundzadə).

baran *bax* yağış

barbar *bax* vəhşi **I**

barbarlıq *bax* vəhşilik

BARDAQ (*su və ya başqa maye tökmək üçün qulplu, yaxud qulpsuz darboğaz qab*) Adama belə gəlirdi ki, bu qız su ilə dolu bir *bardağı* başında aparsa, bardaq yırğalanmaz (Ə.Sadıq); **CÜRDƏK** Fikrin budu, atan yerişi yeriyəsən son; Xüm çayını haşa tuta *cürdək*, köpək oğlu (Q.Zakir); **KUZƏ** O torpağa axıtdı *kuzənin* ayranını (M.Rahim); **SƏNƏK** *Sənəkdən* piyaloyə ayrançı ayran süzür; Əfsəri bir anlığa dərindən baxıb süzür (M.Rahim).

bardan *bax* xaral

barəsində *bax* haqqında

bargah *bax* saray

barxana *bax* avadanlıq

I BARI [Kərbəlayı:] *Barı* gecə olanda xarabaya tez qayıtsın (Çəmənzəminli); **HEÇ OLMASA** [Qafar:] Gəl *heç olmasa* meşənin içərisində bir az gəzək, sonra geri dönərik (H.Abbaszadə).

II barı *bax* hasar

bariqə *bax* şimşək

bariz *bax* aşkar

barışıq *bax* sülh **I**

barkəş *bax* hambal

1. BARLI (*barı, meyvəsi olan*) Ağaclar müxtəlif: *barlı,* barsız olurlar; İnsanlarçın yararlı, karlı, karsız olurlar (M.Rahim); **MEYVƏLİ** *Meyvəli* ağaca daş atan çox olar (Ata. sözü), **MƏHSULLU** Nə gözəl ellərim var; Ördəkli göllərim var; Şirvan, Muğan düzündə; *Məhsullu* çöllərim var (Bayatı), **BƏHƏRLİ, BƏHRƏLİ.**

2. barlı *bax* xeyirli

barmaqlıq *bax* üzük

BAROMETR, MİZANÜLHƏVA (*arx.*) Ruzgarın pişəvoqt dəyişilməsini bilməkdən ötrü bir alət ixtira ediblər ki, adına *mizanülhəva* (*barometr*) deyirlər (H.Zərdabi); **HAVAÖLÇƏN** [Molla:] Bir hökmdarın ki, münəccimi naxırçı oldu, *havaölçəni* də qatırın quyruğu, elə belə sənin kimi cumculuq olar da... (M.N.lət.).

1. BARSIZ Ağaclar müxtəlif: barlı, *barsız* olurlar (M.Rahim); **BİBAR** Həmişə sərvü səhinin budağı *bibar* olur; Görün bu sərvi ki, susən bitər budağında (Nəsimi); **BİBƏHRƏ** Bilmirəm mən nə yazım bəlkə bəyənsin bu müdir; Nə ki zəhmət çəkirəm hamısı *bibəhrə* gedir (C.Cabbarlı); **MEYVƏSİZ, MƏHSULSUZ.**

2. barsız *bax* faydasız

BASABAS Arıq kişi *basabasda* onun yanına keçə bilmirdi (H.Abbaszadə); **BASIRIQ** O, adamları itələyə-itələyə kassanın pəncərəsinə çatdı və növbəsiz bilet alıb *basırıqdan* tər içində çıxdı (H.Abbaszadə); **QƏLƏBƏLİK** Böyük *qələbəlik* içində Rüxsarə onların hər ikisini gözdən itirir (S.Rəhimov); **TÜNLÜK** "Vulka"nın kassası qarşısında *tünlük* idi (H.Abbaszadə).

basdalamaq *bax* tapdalamaq

1. BASDIRMAQ Mehralı bəyi imarətin həyətində, atası Pənah xanın yanında *basdırdılar* (Çəmənzəminli); **DƏFN ETMƏK (ELƏMƏK)** [Fəxrəddin bəy:] Ağlama, mərdanə ol, qəza işidir, təzə bağda *dəfn eyləyin,* qan tökmək kifayətdir (N.Vəzirov); **GÖMMƏK** Mən çocuqdum yerə *gömdülər* səni (S.Vurğun); **QUYLAMAQ** [Dayı:] Sən mənə gündə belə anasının əmcəyini kəsənlərdən yüzünü ver, gör mən necə *quylayıram!* (S.Rəhimov); **TORPAĞA TAPŞIRMAQ (GÖMMƏK)** Bir ana gətirdik dəfn eləməyə; Gətirdik *torpağa tapşırmaq* üçün... (N.Kəsəmənli); **TORPAĞA TƏSLİM ETMƏK** (*tənt.*) Pərini *torpağa təslim edəndən* sonra bütün oba... ovçunu da lələli dərənin kənarına qədər ötürdü (Ə.Məmmədxanlı).

2. basdırmaq *bax* əkmək **I, 1**

basəfa *bax* səfalı

basəvad *bax* savadlı

basılmaq *bax* uduzmaq **1**

basılmaz *bax* məğlubedilməz

basırıq *bax* basabas

basqın *bax* **1.** hücum; **2.** soyğunçuluq

basqınçı *bax* soyğunçu

basqınçılıq *bax* soyğunçuluq

basmaxana *bax* mətbə

basmaq *bax* **1.** tapdalanmaq; **2.** soxmaq; **3.** yıxmaq; **4.** udmaq **II**

basmaqəlib *bax* bayağı

1. BAŞ (*müxtəlif mənalarda: burada yalnız insan bədən üzvü nəzərdə tutulur*) [Connətəli ağa:] Sən çox qələt elədin, *başını* daşdan-daşa döydün (N.Vəzirov); **KƏLLƏ** [Feyzi Muxtara:] Arvaddan qorxan oğraş, sən öləsən, *kəlləni* qarpız kimi şaqqalaram (B.Bayramov); **QAFA** (*köhn.*) Çar zabitinin *qafasında* iki şey hökm sürürdü (M.S.Ordubadi); **SƏR** (*kl.əd.*) Alıbdı əqlimi *sərdən,*

qərarımı dildən; Edib bəlaya fələk, gör neco həvalə məni (Natəvan); **TƏPƏ** [Vəli:] Birindən tutarsan, o biri qayıdar öz *təpənə* doyor (M.İbrahimov).

2. BAŞ (*heyvanları saymaq üçün hesab vahidi*) Beş yüz *başdan* artıq mal-qara aclıq qorxusu altındadır (İ.Əfəndiyev); **RƏS** [Dərviş:] ..mənə iltifat edərsiniz bir *rəs* at, bir dənə cübbə, bir saat və bir qədər cib xərcliyi (N.Vəzirov).

3. baş *bax* rəhbər

4. baş *bax* təpə **1**

5. baş *bax* başlanğıc **1**

6. baş *bax* nəfər

7. baş *bax* dəfə

başabatan *bax* ağlabatan

başaq *bax* sünbül

I baş-ayaq *bax* kəlləpaça

II baş-ayaq *bax* tərsinə **1**

başbilən *bax* ağsaqqal

başçı *bax* **1.** rəhbər, sədr **2; 2.** ağsaqqal **1**

başçılıq *bax* rəhbərlik

başdan-ayağa *bax* başdan-başa

BAŞDAN-BAŞA Yaxşılıq insana bir sənət olsun; Dünya *başdan-başa* qoy cənnət olsun (S.Vurğun); **BAŞDAN-AYAĞA** O ki qaldı axund Molla İman, onun fikri *başdan-ayağa* yanlış və xatadır (S.S.Axundov); **SƏRASƏR** *Sərasər* əlvana batsın gül bədən; Siyah zülfün töksün qamətin tən (Q.Zakir); **SƏRPA** Amma bu miskin aşiqi; *Sərpa* soyarlar, ağlamaz (Nəsimi); **BÜSBÜTÜN** (*bax*); **TAMAMİLƏ** (*bax*).

başıaşağı *bax* **1.** utancaq; **2.** sakit

başıboş *bax* səfeh, kütbeyin

başıdaşlı *bax* bədbəxt, yazıq **1**

başıdolu *bax* **1.** ağıllı **1; 2.** sərxoş

başıətli *bax* varlı

başıküllü *bax* bədbəxt

başıqapazlı *bax* bədbəxt

başıpapaqlı *bax* kişi **1**

başısoyuq *bax* laqeyd

başısoyuqluq *bax* laqeydlik

başıuca *bax* vüqarlı

başıucalıq *bax* vüqar **1**

başıyelli *bax* ağzıyelli

başıyuxarı *bax* ağzıyuxarı

başkəsən *bax* **1.** cəllad; **2.** zalım

1. BAŞQA, ÖZGƏ (*bu yox, digəri*) Deyirlər *özgə* yerin ohlı hüsni-zibadır; Bu şuxlərdə vəli *başqa* bir məlahət var (S.Ə.Şirvani); **AYRI** [Zeynəb xanım:] Allahı sevərsən, Ağa Məmdan, bir *ayrı* toklif elə (M.F.Axundzadə); **DİGƏR** Adamlar ağacların arasından çıxmaq üçün yol axtarır: bir ağacdan tutub *digərinə* keçir (S.Rəhimov); **QEYRİ** [Bahadır:] ...siz məni *qeyri* aləmə dəvət edirsiniz... (N.Nərimanov).

2. başqa *bax* savay(ı)

3. başqa *bax* yad **I**

BAŞLAMAQ Sona oxumağa 8 yaşında *başladı* (N.Nərimanov); **AĞAZ ETMƏK** Gündə bir şəbədə *ağaz etdin;* Çox olan lütfü bizə az etdin (S.Ə.Şirvani); **GİRİŞMƏK** Bu yol ilə o işə *girişmiş* və Şamo ilə sökkiz aydan sonra görüşə bilmişdir (S.Rəhimov); **İQDAM ETMƏK** (*kl.ədb.*) [Mirzə ağa xan:] Qibleyi-aləm, madam ki, siz heç bir işə qarışmırsınız, o zaman məmləkətin xeyrinə hər nə lazımsa, ona *iqdam etməyə* borcluyam (C.Cabbarlı); **QOŞULMAQ** [Naçalnik:] Heydər bəy, sən mənim nəsihətimi eşitməyib gena yaman işə *qoşuldun*? (M.F.Axundzadə); **ŞÜRU ETMƏK** (*dan.*) Bu gündən qoca yazıçı ilə gənc maşinistka işə *şüru etdilər* (S.S.Axundov).

BAŞLANĞIC (*bir işin, hadisənin ilk anı*) Birinin sonu, o birinin *başlanğıcı* olur (Ə.Kərim); Ancaq *başlanğıc* üçün bu heç də pis deyildi (Ə.Əbülhəsən); **BAŞ** [Hacı Kərim zərgər:] Gərəkdir ki, gələn həftənin *başında* pullar hazır ola (M.F.Axundzadə); **BİDAYƏT** ..yəni neco ki, məkanın *bidayət* və nihayəti yoxdur... (M.F.Axundzadə); **İBTİDA(İ)** [Murad:] bu məqsədlə 1921-ci ilin *ibtidasında* Bakıdan çıxmışdı (S.Hüseyn).

2. başlanğıc *bax* müqəddimə

başlı *bax* bilikli

başlı-başına *bax* nəzarətsiz, özbaşına

başlı-başınalıq *bax* nəzarətsizlik

1. BAŞLIQ (*gəlin bəzəyi*), **CIQQA, CÜTQABAĞI, GƏLİNTACI**

2. başlıq *bax* sərlövhə

başmaq *bax* ayaqqabı

başmaqçı *bax* çəkməçi

1. BAŞSIZ, QAFASIZ, KƏLLƏSİZ

2. başsız *bax* sahibsiz

3. başsız *bax* ağılsız, sofeh

BATAQLIQ [*lüğ. palçıq, bataq çox olan yer*] [Ruzbeh:] Yol ağırdır, qabaq uçurumdur, qaranlıqdır, – deyə biz *bataqlıqda,* üfunət içində çapalayıb ölək? (M.İbrahimov); **SUCUQ, QARAMALIQ** *Sucuq* olmasın ki? – deyə o (Mustafa), əlini irəli atıb getmək istədi. Bir az çapaladıqdan sonra *qaramalığın* içindən dilləndi (S.Rəhimov).

BATALYON (*hərbi*), **TABOR**

batil *bax* yalan

batin *bax* daxil

batinən *bax* daxilən

1. BATMAQ (*günəş haqqında*) [Pərviz:] Tələmiz hazır olanda gün təzəcə *batmışdı* (M.İbrahimov); **QÜRUB ETMƏK** (*yalnız Ayın və Günəşin batması*) Gün *qürub etməyə* enirdi şitab; Kainata enirdi bir zülmət (C.Cabbarlı); **SANCILMAQ** Axşam gün *sancılanda* Qədim dayı özünü şəhərə çatdırdı (S.Rəhimov).

2. BATMAQ (*suya dalmaq*) [Vəli:] Bəy çox qaşqabaqlı görünür. Elə bil dəryada gəmiləri *batıb* (M.İbrahimov); **QƏRQ OLMAQ** [Cəvahir xanım:] ...İndi deyirlər ki, Qara dəryada gəmi *qərq olub*... (N.Vəzirov).

3. BATMAQ [Qəhrəman] ..dərs kitablarının tozuna *batır* (S.Rəhimov); **BULAŞMAQ (BULANMAQ)** Ayaqdan *bulaşan* tozu süpürgə ilə təmizləmək mümkündür (Ə.Haqverdiyev); Yıxılıb torpağa *bulanmış* idim (A.Səhhət).

4. BATMAQ (*ucu iti şeylər haqqında*) Tikan olub ayağa *batınca,* gül ol yaxaya sancıl (Ata. sözü); **SANCILMAQ** Neco olursa, stokan qırığının bir parçası dabanına *sancılır* (İ.Hüseynov).

BAYAĞI [Firəngiz:] Mərdliklə namərdlik haqqındakı fikrin də ərlə-arvad barəsindəki düşüncələrin nə qədər *bayağıdır* (B.Bayramov); **ÇEYNƏNMİŞ** Qəzəllərdə zülf, üz, göz haqqında süni təşbeh, istiarələrlə söylənə-söylənə *çeynənmiş,* əskimiş olan və ruhumuza heç bir şey söyləməyən adi sözlər Vaqifin bu parçasında nə qədər təbii və munis klişelərə girmişdir (A.Şaiq); **ŞABLON** [Firəngiz:] Nə vaxt bu *şablondan* əl çəkəcəksiniz? (B.Bayramov); **BASMAQƏLİB.**

BAYAT (*köhnəlmiş çörək*) Adəda *bayat* çörək yeyən yoxdur (M.Hüseyn); **QURU** (Əsgərin) yediyi, içdiyi həmişə dişlənə çay ilə *quru* çörək idi (B.Talıblı); **KÖHNƏ.**

bayaz *bax* **1.** dəftərçə; **2.** ağ **I**

BAYĞIN (*özündən getmiş*) Səfər bu səsə əhəmiyyət vermədi, *bayğın* gözləri səyrışan ulduz arasında dolaşırdı (Ə.Haqverdiyev); **BAYILMIŞ** Burjuylar *bayılmış* qadınların faytona qoyub qaçmaq istəyirdilər (M.S.Ordubadi); **BİHUŞ** Sevil *bihuş* halda yatırdı (Ə.Sadıq); **HUŞSUZ** Sevdimi *huşsuz* halda evə apardılar (Ə.Vəliyev).

bayğınlıq *bax* qəşş

bayğırmaq *bax* çığırmaq

BAYILMAQ Beyrək zarıdı, Banıçiçək səsə gəldi, Beyrəyi qanına qəltan görüb *bayıldı* (Anar); **BİHUŞ OLMAQ** Huşa getmiş uşaq xoyal içrə; Kəsrəti-qüssədən *olub bihuş* (C.Cabbarlı); **HUŞDAN GETMƏK** Katibin də *huşdan getmiş* bədənini meşin xalçanın üstündən götürüb dışarı çıxartdılar (M.S.Ordubadi); **HUŞUNU İTİRMƏK** [Gülnisə:] Oğlan əvvəlcə sanki *huşunu itirdi* (İ.Əfəndiyev); **QƏŞŞ ETMƏK (ELƏMƏK)** [Cənnətəli ağa:] ...getsin xəbər aparsın, gülməkdən *qəşş eləyərsən* (N.Vəzirov); **ÖZÜNDƏN GETMƏK** Onun başı yastığın üstünə düşdü. Elə bildim ki, *özündən getdi* (M.İbrahimov); **ÜRƏYİ GETMƏK** Özü də cürətsizlik elədi, iradəsini toplaya bilmədi, *ürəyi getdi* (Anar).

BAYIR, ÇÖL (*bax*), **EŞİK, XARİC**

BAYQUŞ (*zool.*), **KOR YAPALAQ**

BAYRAQ Mən oyanıb, gördüm səhər; Gün boylanıb şəfəq yanır; Coşur-daşır bizim şəhər; Al *bayraqlar* dalğalanır (M.Seyidzadə); **ƏLƏM** Bir qədər sonra Qarabağ qapısının üstündə ağ *ələm* göründü (Çəmənzəminli); **VIMPEL** (*kiçik bayraq*) Məgər sən deyilmisən; Zöhrəyə *vimpel* taxan (R.Rza).

bayraqçı *bax* **bayraqdar**

BAYRAQDAR [Əjdər] *bayraqdar* olduğuna fərəhlənir(di).. (S.Rəhman); **BAYRAQÇI** [Elxan:] Qorxmaz, mübariz məqsədən, *bayraqçı* bayraqdan daha əvvəl doğur (C.Cabbarlı); **BAYRAQDAŞIYAN** *Bayraqdaşıyanlar* qızıl bayrağı möhkəm tutmuşdular (M.S.Ordubadi); **BAYRAQTUTAN, ƏLƏMDAR** Həmin şeri yazmaqdan qabaq bilmək gərəkdir ki, "*ələmdar*" nə deməkdir? Yəni *bayraqtutan*... (A.Səhhət).

bayraqdaşıyan *bax* bayraqdar

bayraqtutan *bax* bayraqdar

1. BAYRAM Və məhz bu səbəbə ramazan *bayramı* islam ümməti üçün əziz bir bayramdır (C.Məmmədquluzadə); **EYD** (*köhn.*) Ey pulluların səfası, novruz; Tacirlərin aşinası, novruz; Biz millətə *eyd* ikən, nədən bəs; Oldun füqəra əzası, novruz?! (M.Ə.Sabir); **TƏNTƏNƏ** Özgə *tantənədir*... Kabab, mey, məzə (M.Rahim).

2. bayram *bax* şənlik **1**

BAYRAMYEMİŞİ (*bayramlarda süfrəyə qoyulan şirniyyat*) [Novruz bayramında] dükanların qapısı üstündən bir zəng asardılar və *bayramyemişi* satıldıqca, o zəngi vurardılar (H.Sarabski); **XUŞGƏBAR** Ağa Hüseyn bir dövlətmənd şəxs idi. İranla böyük *xuşgəbar* alış-verişi edirdi (Ə.Haqverdiyev).

BAYTAR Xidmətində əl-ələ üstədir; sağıcı, sanitar; Yaxın otaqda hər ehtimala qarşı; Hazır dayanıb *baytar* (R.Rza); **MAL HƏKİMİ** Böyük bacım hələ Təbrizə gəlmədən belə bir nəfər gürcü knyazı *mal həkimini* sevib getdi (M.S.Ordubadi).

baz *bax* tərlan

bazə *bax* **1.** anbar; **2.** bünövrə

I BAZAR (*alış-veriş yeri*) Nökərlərdən biri dünən *bazarda* gördüyü bir əhvalatı nağıl edirdi (Çəmənzəminli); **ÇARŞI** (*örtülü bazar*) [Xudayar bəy:] *Çarşı* ilə gedib.. girdi bir böyük dükana (C.Məmmədquluzadə); **HƏFTƏBAZAR** (*həftədə bir dəfə – bazar günü olan bazar*) Şose yolla karvansara arxasındakı meydanda *həftəbazarı* olardı (Çəmənzəminli); **MARKET.**

II BAZAR (*həftənin bazar günü*) [Sənəm:] *Bazar* günü axşamçağı nə iş, nə idarə (M.İbrahimov); **YEKŞƏNBƏ** (*köhn.*) *Yekşənbə* günü "İftira" qəzetəsində operetta xüsusunda belə bir tənqid çap olunmuşdu (Ə.Haqverdiyev).

bazburud *bax* boy **I**

bazburudlu *bax* boy-buxunlu

bazı *bax* hoqqa **I, 1**

baziçə *bax* oyuncaq

bazirgan *bax* tacir

bazu *bax* qol **I**

bazubənd *bax* bilərzik

becərmək *bax* yetişdirmək

becid *bax* yeyin

BEÇƏ (*cavan xoruz*) Dan açınca xoruz, *beçələr* banlar (A.Şaiq); **ÇOLPA** [Məsimov:] Adamın *çolpa* kəsməyə əli gəlmir (H.Abbaszadə); **XORUZBEÇƏ** Yeyərdik, içərdik, *xoruzbeçələrlə* əylənərdik, nəhayət, gözəl həftə gəlib keçər, zavallı atamın pulu qurtarardı və şənbə günü yenə kəndə yola düşərdi (Çəmənzəminli).

beçədan *bax* bətn

behişt *bax* cənnət

I BEL (*yer qazmaq üçün alət*) Cövdət *beli* torpağa sancıb qapıya doğru getdi (H.Abbaszadə); **KÜRƏK** Çöldə işləmək üçün külüng, *kürək* və kisə hazırlamalısınız (Y.Şirvan); **LAPATKA** (*dan.*) [Məsmə:] Biz *lapatka* ilə Hitlerə qəbir qazacağıq (X.Hasilova).

II 1. BEL Yasavul əyilmiş *belini* düzəltməyə çalışaraq; "Mən tapmışam" – dedi (S.Rəhimov); **QAMƏT** Buna şahid qocalsam da bükülməyən *qamətimdir* (S.Vurğun); **QƏDD** Meydanda "mənəm" deyibdi; Bu dərd ələsgərin *qəddin* əyibdi (Aşıq Ələsgər).

2. bel *bax* arxa **1**

3. bel *bax* qurşaq **2**

belbağı *bax* qurşaq **1**

BELƏ [Suraxanski:] *Belə* təvəqqe ancaq mənə əskiklik gətirib, mənim şənimə toxunar (Ə.Haqverdiyev); **BU CÜR** Pəs *bu cür* mənfəətli sövdədən hansı axmaq qaçar (C.Məmmədquluzadə); **BU QAYDA İLƏ** Rəis *bu qayda ilə* bir xeyli gəzindi. Sonra kürsünü çəkib direktorla üz-üzə oturdu (İ.Şıxlı); **BU SAYAQ** ..*bu sayaq* güləşmək olmaz... (H.Abbaszadə); **BU TƏRZDƏ.**

BELLƏMƏK, TƏPMƏK (*torpağı, yeri*)

BELLƏNMƏK, TƏPİLMƏK (*torpaq, yer*)

BENZİN, PETROL

berkut *bax* qartal

BEŞ (*ali və orta məktəblərdə verilən ən yüksək qiymət*) [Qiyas:] Yaxşı, mən üç uşağı kəsəcəm, Şamxalın oğluna *beş* verəcəm, özüm də ərizə verib institutdan çıxacam (Anar); **ƏLA** Adilə qəbul imtahanlarının hamısından *əla* qiymət aldığı üçün onu qrup nümayəndəsi təyin etmişdilər (İ.Şıxlı).

beşbetər *bax* pis

BEŞİK (*çağalara məxsus yırğalanan yatacaq yeri*) Balam yatır *beşikdə;* Bülbül oxur eşikdə; Sən yat yuxun algilən; Mən durmuşam keşikdə (Bayatı); **NƏNNİ** Bir saat keçdi, körpə yenidən yuxuya getdi, *nənni* dayandı, Ziyətin fikri cəmləndi (B.Bayramov); **YÜYÜRÜK** (*dial.*) [Ana:] Sonra çığırdı ki, Gülər, geyindir; Gəl çıxar uşağı *yüyürükdə* çölə (M.Rahim).

betər *bax* pis

BEYİN Çox zaman özgəyə qulluq eylədik; *Beyin* bizim oldu, əsər özgənin (B.Vahabzadə); **DİMAĞ** (*kl.əd.*) Həpsi fikir yürütmədə; Hər *dimağda* bir təlaş; Biri deyir: – Məni yazma! Biri deyir: – Məni yaz! (M.Müşfiq).

BEYNƏLMİLƏL [Əbülhəsən bəy:] Rusların *beynəlmiləl* qanunları pozmasından şikayət etməyə lüzum yoxdur (M.S.Ordubadi); **İNTERNASİONAL** [Tofiq:] A kişi, eşqin nə ruscası, nə azərbaycancası! Eşq *internasionaldır* (M.İbrahimov).

beytləşmə *bax* şeirləşmə

beytləşmək *bax* şeirləşmək

BEZDİRİCİ Payız gecəsinin *bezdirici* uzunluğu sanki Şehli kəndinin üstündən çəkilmək istəmirdi (S.Rəhimov); **BIQDIRICI** [Günəş:] Özünün ilıq və munis şüasını otrafa salmaqla, qışın *bıqdırıcı* və soyuq havasına qələbə çalmaqda idi (S.Hüseyn); **ÇÜRÜKÇÜ** [Həmidə:] Əşi, *çürükçü* olma, bir stəkan çay içsək dünya dağılmaz (Anar); **QARAYAXA** (*dan.*) İlk görüşdən *qarayaxa* təsiri bağışlayan Mirzə Vahid getdikcə Mişanın, elə Həmidin özünün də rəğbətini qazanırdı (H.Abbaszadə); **USANDIRICI, CANSIXICI** Hər şey *cansıxıcıdır, usandırıcıdır,* yorucudur (M.İbrahimov); **ZƏHƏNDƏ** (*məh.*) Nə *zəhəndə* adamdu bu (ADDL); **ZƏHLƏTÖKÜCÜ** Onun daş hasarları, tikanlı məftilləri, hündür qüllələri, sərt simalı nəzarətçiləri dustaq üçün *zəhlətökücüdür* (S.Vəliyev); **ZIQQI** (*məh.*) *Zıqqı* adam çox danışır, uzun danışır (ADDL); **BEZİKDİRİCİ, ZƏHLƏAPARAN, ZƏHLƏTÖKƏN.**

BEZDİRMƏK Şehli kəndinin dedi-qoduları, dağlarda gedən yersiz səngəri atışmaları Şamonu son dərəcə *bezdirmişdi* (S.Rəhimov); **BAŞAĞRISI VERMƏK** (*dan.*) [Sənəm:] Sağ ol, ay oğlum, daha bizi bağışla, hər şey oldu, qaçırıq üstünə, *başağrısı* veririk (M.İbrahimov); **BEZAR ETMƏK** Şəfqət bacısı yaxınlaşıb, hamını qışqırıq ilə *bezar eyləyən* bu əsgəri qaldırmaq istədi (Ə.Əbülhəsən); **BIQDIRMAQ** [Tamara:] Siz romanlarla danışırsınız. Məni də roman *bıqdırıb* (S.Rəhimov); **CANA GƏTİRMƏK, BEZİKDİRMƏK** Onun ruhunu əzmək, *bezikdirmək, cana gətirmək* və istənilən kağızlara qol çəkdirmək fikri ilə müəntiq çox vasitələrə əl atdı... (M.İbrahimov); **ÇƏRLƏTMƏK** [Bərbərzadə:] Məni qocaltdınız, daha bəsdir, məni *çərlətdiniz*, daha bəsdir (S.Rəhman); **QIR-SAQQIZ OLUB YAPIŞMAQ** (*fr.v.*) Bir ağızucu söz demək,

bir də *qır-saqqız olub yapışmaq* var (A.Şaiq); **TƏNGƏ GƏTİRMƏK** [Bəstəkar:] Vallah, Yusif müəllim, bizim qız məni *təngə gətirib* (X.Hasilova); **USANDIRMAQ** Məni candan *usandırdı*, cəfadan yar usanmazmı; Folklor yandı ahımdən, muradım şəmi yanmazmı? (Füzuli); **ZARA GƏTİRMƏK** Külək məni *zara gətirdi* (S.Rəhimov); **ZƏHLƏSİNİ TÖKMƏK** [Qəndab:] Dedim yəqin *zəhləsini tökmüşəm* (B.Bayramov); **ZİNHARA GƏTİRMƏK** Bu uzun gecə Mədətovu lap *zinhara gətirmişdi* (Ə.Əbülhəsən).

bezikdirici *bax* bezdirici

bezikdirmək *bax* bezdirmək

bezikmək *bax* bezmək

BEZMƏK Vəzifəmdən, a dostlar, *bezməmişəm* həlalik; Aşır sahillərini dalğa-dalğa sözlərim (S.Rüstəm); **BEZAR OLMAQ** Bu saat camaat dünya davasından *bezar olmuşdur* (Ə.Vəliyev); **BIQMAQ** [Firəngiz:] Cahangir, bala, doğrusu evdən *bıqmışam* (Çəmənzəminli); **TƏNGƏ GƏLMƏK** [Qulu:] Bilmirəm bu kıyazlar yazıqdan nə istəyirlər eyy! Vallah, *təngə gəlmişik* (N.Vəzirov); **USANMAQ, BEZİKMƏK** Deyib bəzən özümü çox boxtəvər sanırdım; Bəzən də bu halımda *bezikir, usanırdım* (M.Rahim); **ZARA GƏLMƏK** Ürək ağrısından *gəlmişdi zara*; Evdə qol çəkirdi gəlir-çıxara (B.Vahabzadə); **ZİNHARA GƏLMƏK** Vallah, bu gədənin əlindən lap *zinhara gəlmişəm* (M.Süleymanov).

bəbə *bax* **1.** çağa; **2.** gəlincik

1. BƏBƏK Yenə də onun *bəbəkləri* göz yaşlarının içində üzməyə başladı (M.S.Ordubadi); **QARA GİLƏ** Ağacın biri atın gözünü tutdu, *qara giləsini* pırtlatdı (Q.Xəlilov).

2. bəbək *bax* çağa

bəd *bax* pis

BƏDBƏXT [Nağı:] Dünyada məndən *bədbəxt* adam yoxdur (M.İbrahimov); **BAŞI-DAŞLI** ...bəs toxumluğu aparırsınız, biz *başıdaşlı* nə əkək? (Çəmənzəminli); **BAŞI-KÜLLÜ** [Yasavul:] Axı, mən *başıküllü* bu payızın-qışın sümük donduran qarında-şaxtasında baş götürüb haraya gedim? (S.Rəhimov); **BAŞIQAPAZLI** Qorxaq, *başıqapazlı*, üzüdanlaqlı, qatır kimi cəbrə dözümlü, üzüyola olur (G.Hüseynoğlu); **BƏXTİKƏM** [Zeynal:] Elə o gündən mənim həm bəxtəvər, həm də *bəxtikəm* günlərim başlandı (B.Bayramov); **BƏXTİQARA** Dərin nəfəs alıb dayandı bir az; Dedi: "Gör nə sayaq *bəxtiqarayam*" (M.Rahim); **BƏXTSİZ** Ucalır göylərə elin avazı; Gülür *bəxtsizlərin* ömrünün yazı (S.Rüstəm); **BƏLALI** O şair məhv edir min bir gülxarı; *Bəlalı* aşiqi, sevdalı yarı (S.Vurğun); **GÜNÜQARA** [Xanımana:] Sənə zəhmət verirəm, tez o *günüqara* qızı çağır (A.Şaiq); **KÜLBAŞ** ...mən *külbaş* dünən gedib dörd saat bufetdə oturmuşam (Y.Şirvan); **QARABƏXT** [Alagöz:] Mən çox bədbəxtəm, yer üzündə *qarabəxtəm* xanım! (S.Rəhman); **QARAGEYMİŞ** (*dan.*) [Mamaça:] *Qarageymiş*... heç xəbərüvüz var ki, bizim kənddə Kəblə Qayxanım doğub (H.Sarabski); **QARAGÜN** (*dan.*) [Nəbi:] Od tutaram Həcər düşəndə yada; Mən *qaragün*, gün görmədim dünyada (S.Rüstəm); **MİSKİN** [Şəfiqə:] Sənin mən yetimə, mən *miskinə*, mən bikəsə rəhmin gəlsin (R.Əfəndiyev); **SƏADƏTSİZ** Bir fransız qızı söykənib məhəccərə, dayanıb; Gözlərində *səadətsiz* gəncliyinin ağrısı (R.Rza); **TALESİZ** [Mirzə Cavad:] Boşluq mənim *talesiz* ürəyimdi (C.Cabbarlı).

1. BƏDBƏXTLİK [Bahadır:] Sonanın *bədbəxtliyi*, ata-anasının bədbəxtliyi (N.Nərimanov); **İDBAR** (*kl.əd.*) Bax düşün, gör onların *idbarını*, iqbalını (Ə.Qəmküsar); **NƏZƏR** (*məc.*) [Qadın:] Mat-məəttəl qalmışam ki, bu nə bəladı, *nəzərdi*, gözdü, sifətdi (Mir Cəlal); **NİKBƏT** (*kl.əd.*) Qıldıqca nəzər millətə heyrət görəcəksən; Çək başına yorğanını, *nikbətdan* ayılma! (M.Ə.Sabir); **TALESİZLİK** [Mələk:] Həm də ki, neçə dəfə anası ilə görüşmüşdü, *talesizliyindən* şikayət etmiş, yumşaq ürəkli ananın təskin dolu nəvazişlərini görmüşdü (M.İbrahimov); **SƏADƏTSİZLİK, GÜNÜQARALIQ.**

2. bədbəxtlik *bax* folakət

bədbilməsab *bax* haqsız

bədcins *bax* nacins

bəddua *bax* qarğış

bəddüaçı *bax* qarğışçı

bədətiqad *bax* dinsiz

bədəfkar *bax* cani

bədəxlaq *bax* oxlaqsız **1**

bədəxlaqlıq *bax* oxlaqsızlıq

bədəməl *bax* oxlaqsız **1**

BƏDƏN İnsanın *bədəni* nə qədər möhkəm ola bilər, nələrə dözə bilər (M.İbrahimov); **CƏMDƏK** [Məmmədoğlu:] Bacıoğlu! Yatırdıb ağzı yerdə o qədər goparam *cəmdəyinə*, şişib dama dönərsən (N.Vəzirov); **CƏSƏD** Ta *cəsədin* cida olmayıb candan; Bil özünü artıq sultandan, xandan (M.P.Vaqif); **CİSİM** Oğlan, sən uşaqsan, cavansan hələ; Yenicə *cisminə* düşüb vəlvələ (M.P.Vaqif); **ƏNDAM** [Mələk] otaqda bir neçə dəfə fırlanıb, kürəyinə tökülmüş saçına, qırçınlı donunun içində quzu quyruğu kimi yırğalanan *əndamına* baxdı (İ.Şıxlı); **ƏYİN** (*baş-dan-başa bütöv bədən*) ...Vəliqulu, *əynində* cındır gödək arxalıq və başında köhnə boz papaq küroklə peyin sərirdi (Qantomir); **GÖVDƏ** (*dan.*) Göyərçin iri, ağır *gövdəsini* düzəldərək, o yandan boriyo qabardı (S.Rəhimov); **TƏN** (*kl.əd.*) Can əgər çıxsa *tənimdən* əsəri-məhrin ilə... (Füzuli); **VARLIQ** Fəqət bu dəfə öylə deyildi, bütün *varlığını* müdhiş bir həyəcan bürümüşdü (C.Cabbarlı); **VÜCUD** Bağır bu kəlmələri tutqun bir səslə dedi, onun *vücudu* titrədi, gözləri yaşardı (M.Hüseyn).

BƏDƏNNÜMA (*güzgü, ayna*) Həmzə *bədənnüma* güzgünün qabağına keçib özünə ötəri bir nəzər saldı (Ə.Qasımov); **TRÜMO.**

bədəsil *bax* nacins

bədəvi *bax* köçəbə

bədheybət *bax* eybəcər

BƏDXASİYYƏT (*xasiyyəti pis, heç kəslə yola getməyən adam*) Bələsi Mədinə kimi saf və təmiz ürəkli arvadın yox, hərcayinin, *bədxasiyyətin* əlinə düşsə, başına nə oyun açar.. (M.İbrahimov); **BƏDXU** (*kl.əd.*) Ol zalimi-*bədxui* sitəmkar; Zakirin halından deyil xəbərdar (Q.Zakir); **BƏDQILIQ** Qalxan kimi tutmuşam dost yolunda sinəmi; Kimin həddi var, mənə deyə ki, *bədqılıqdır* (R.Rza); **BƏDRƏFTAR** Qocaqurd mahalının bəylori naçalnik Vinokurovun əlindən zara gəlib, yığılıb bir yerə məsləhət tökürlər ki, gərək bu zülmkarın əlindən böyüyünə bir şikayət verək. Yoxsa bunun zülmü və *bədrəftarı* axırda camaatı tar-mar edəcəkdir (Ə.Haqverdiyev); **KƏCRƏFTAR** (*köhn.*) Görəsən fələyə kim ömr etdi ki; Sevən ürəklərlə *kəcrəftar* olsun? (M.Rahim); **QILIQSIZ** [Firuzə:] Özləri kimi *qılıqsız*, adamayovuşmaz insanlar bir də özləridir... (Anar); **PİS-RƏFTAR, RƏFTARSIZ, TÜNDXASİYYƏT(Lİ), YOLAGETMƏZ.**

bədxu *bax* bədxasiyyət

bədiman *bax* imansız **1**

bədqədəm *bax* ağırayaq **1**

bədqılıq *bax* bədxasiyyət

bədməst *bax* sərxoş

bədməstlik *bax* sərxoşluq

bədnamçılıq *bax* biabırçılıq

bədrəftar *bax* bədxasiyyət

BƏDRƏNC (*bot.*) Şərq ələmində *bədrənc* çoxdan məlumdur. Bəzən bu bitkiyə ürəkotu da deyilir (Qəzetlərdən); **BALLİNƏNƏ, LİMONOTU, ÜRƏKOTU.**

bədsifət *bax* eybəcər

bədyüküm *bax* **1.** ağırayaq **1**; **2.** uğursuz **1**

bəduğur *bax* uğursuz **1**

bəduğurluq *bax* uğursuzluq

bədzat *bax* nacins

1. BƏHANƏ [Könül] demeyə söz tapmadı. Axırda *bəhanə* ilə onların sorğu-suallından canını qurtara bildi (X.Hasilova); **DƏSTAVÜZ** (*köhn.*) Fotoli xanın adamlarına da *dəstavüz* lazım idi (Çəmənzəminli); **VƏSİLƏ** Bu otaqda oyləşən möhtərəm vücudun yanında mən şərmsar olmuşam və bilmirəm nə *vəsilə* ilə ondan üzrxahlıq edim (C.Məmmədquluzadə).

2. bəhanə *bax* yalan

bəhcət *bax* sevinc
bəhər *bax* meyvə, məhsul
bəhərli *bax* barlı I
I bəhr *bax* vəzn 1
II bəhr *bax* dəniz
bəhrə *bax* meyvə, məhsul
bəhrəli *bax* barlı I
bəhri *bax* dənizçi
bəhriyyəçi *bax* dənizçi
bəhs *bax* **1.** söhbət 1; **2.** mübahisə I
bəxil *bax* **1.** paxıl; **2.** xəsis
bəxşeyiş *bax* hədiyyə
bəxşiş *bax* hədiyyə

BƏXT "*Bəxt*", "qismət" kimi olfazı unut; Səy ilə bazuyi-iqbalını tut (A.Səhhət); **İQBAL** (*kl.ed.*) O deyirdi: "Bu ulduz ki, sanki indi sönəcək; Yazıq, yoxsul bir kimsənin *iqbalıdır* yanır tək (M.Rahim); **QİSMƏT** [Falçı qarı:] Sənin *qismətində* deyəsən bir gözəl var (Çəmənzəminli); **TALE** [Gimən:] Qarşıda ən böyük səadət var; Səni bu yurda *taleyin* çəkmiş (A.Şaiq); **UĞUR** [Cavanşir:] *Uğurumuz* xoş olarsa, yenə burada görüşərik (M.Hüseyn).

bəxtəvər *bax* xoşbəxt
bəxtəvərlik *bax* xoşbəxtlik
bəxtiqara *bax* bədbəxt
bəxtiyar *bax* xoşbəxt
bəxtiyarlıq *bax* xoşbəxtlik
bəxtsiz *bax* bədbəxt

BƏKARƏT Qaçırılan qızın *bəkarətinin* pozulmadan geri qayıtması oğlan üçün ölüm sayılırdı (İ.Şıxlı); **BAKİRƏLİK** Salatın hoyadan qızardı. Qızlıq ismətinin *bakirəliyini* saxlamağın çox çətin olduğunu bildiyindən, Gülsərin halına acıdı (İ.Şıxlı); **QIZLIQ** [Əbülhəsən bəy:] Lakin son hər şeydən qiymətli olan *qızlıq* namusunu mənə etibar edərkən, ..vəzi fəni məndən gizlətdin (M.S.Ordubadi).

bəkçi *bax* gözətçi
bəkləmək *bax* **1.** gözləmək 1; **2.** qorumaq
BƏKMƏZ (*şirin meyvələrdən, xüsusən tutdan hazırlanmış şirə*) Könül çay süzüb gətirdi. Süfrəyə *bəkməz* riçalı, əncir qurusu, qoz və quru meyvə qoydu (X.Hasilova);

DOŞAB (*dan.*) [Dostoli:] Boxtovər başına, ay Eynəli, *doşab* almısan, bal çıxıb! (Ə.Vəliyev).

bəqa *bax* ölməzlik
bəla *bax* **1.** fəlakət; **2.** qəda; **3.** qəm
bəladidə *bax* bəlakeş
BƏLAÇƏT (*gözəl və aydın danışmaq qabiliyyəti, natiqlik məharəti*) [Rəhim xan:] Sənin oql, kamal, fərasət və *bəlağətin* mənim nəzərimi cəlb etdi (C.Cabbarlı); **FƏSAHƏT** (*kl.ed.*) Doğrudan da, dostumun *fəsahətinin* qəlizliyindən ağzının köpüyü stəkan-nəlbəkiyə sıçrayırdı (C.Məmmədquluzadə).

BƏLAKEŞ (*başına bəla gəlmiş*) Hər yan dedilər ki, ey *bəlakeş*! Gül çağıdır, olmagil müşəvvəş (Füzuli); **BƏLADİDƏ.**

bəlalı *bax* **1.** qadalı; **2.** bədbəxt
bəlad *bax* **1.** bələdçi; **2.** xəbərdar
BƏLƏDÇİ (*müxtəlif məmalarda*) [Eşik ağası:] Oğlumu sənə *bələdçi* verirəm, gedin gəzin (Çəmənzəminli); **BƏLƏD** Xidmətçi gedib bir tərlan və bir *bələd* gətirdi ("Abbas və Gülgəz"); **RƏHİNÜMA** [Şəkərlinski:] Siz cavanlara gərək biz *rəhnüma* olaq (M.İbrahimov); **YOLGÖSTƏRƏN** (*yol bələdçisi*) [Kamil:] Sağ olun! Siz mənim *yolgöstərən* ülkərlərim (A.Şaiq).

bələdiyyət *bax* **bələdlik**
bələdlik *bax* **tanışlıq**

BƏLƏK [Safo:] Doğrusu mənim gözüm lap son *bələkdə* ikən Alonun evində idi (S.Rəhimov); **QUNDAQ** [Sonəm:] Birco bunnan o Zöhrədən sarı sakit olmur, elə mənə yeyən vaxtında *qundağa* sığmazdılar (M.İbrahimov).

BƏLƏKBAĞI, QUNDAQBAĞI (*bələyi bağlamaq üçün bağ*)

BƏLƏKLİ, QUNDAQLI (*bələyə bükülmüş*)

BƏLƏMƏK (*bələyə bükmək*) Sona Məryəmi *bələdi*, iki əli ilə qaldırıb qarşısına gətirdi və bəbə kimi atıb-tutmağa başladı (A.Şaiq); **QUNDAQLAMAQ** Adını Leyla qoyub, qızı *qundaqladılar*; Boxtinə, taleyinə ümidlər bağladılar (S.Rüstəm).

BƏLİ (*təsdiq ədatı*) [Voli:] *Bəli*, bu keçəl onuca ad-sən çox lazımdır! (M.F.Axundzadə); **ARİ** (*məh.*) Dedi: – *Ari*, bu Məhəmməd o Məhəmməddir ki; Xoborin verdi bizə rəmz ilə şahi-Botha (S.Ə.Şirvani); **ƏVƏT** (*türkcə*) [Rauf:] *Əvət*, şəşqınlar daim əsəbi və bədbin olurlar (H.Cavid); **HƏ** *Hə*, burada nə işin var? (Ü.Hacıbəyov); **HƏRİ** (*dan.*) [Ağa Qurban:] Siz yoqin bəkılısınız? Dedim: – *Həri* (Ə.Haqverdiyev).

bəlirmək *bax* görünmək

BƏLKƏ [Qiyas:] *Bəlkə* hər halda mənə bir stəkan çay verəsən (Anar); **OLMAYA** *Olmaya*, sən məni biiqrar sandım... (M.P.Vaqif); **ŞAYƏD** (*köhnə*) Əgər mən Məşədi Qulamhüseyni yaxşı tanımamış olsaydım, xəyalıma gələrdi ki, *şayəd* yalan deyir... (C.Məmmədquluzadə); **YOXSA** [Gülnar anasına:] Nə olub, ana? *Yoxsa* atamdan pis bir xəbər var? (M.İbrahimov).

bəllətmək *bax* bildirmək
bəlli *bax* aşkar
bəmbəyaz *bax* ağappaq

I 1. BƏND (*anat. skelet sümüklərinin oynaq yerləri*) Qazan xan başında, bədəninin *bəndlərində* bir ağırlıq və sızıltı duyurdu (M.Rzaquluzadə), **BUĞUM, MƏFSƏL.**

2. BƏND, BAĞ, DÜYÜN, İP, SAP

II BƏND (*ədəb., mus., şeirdə*); **KUPLET** *Kuplet*lər bir-birindən nəqarət vasitəsilə ayrılır, hər *bənddən* sonra təkrar edilən nəqaratın musiqisi və bəzən sözləri də dəyişdirmədən olduğu kimi saxlanır (Ə.Bədəlbəyli); **YARPAQ** [Rəsul:] Güləğlana dörd *yarpaq* söz deyəcəyəm ("Aşıq Qərib").

III bənd *bax* vurğun
IV bənd *bax* maddə I
bəndə *bax* **1.** insan; **2.** qul I, I
bəndəlik *bax* qulluq I
bəndfərman *bax* buyruqqulu
bəniz *bax* üz

BƏNÖVŞƏYİ (*bənövşə rəngi*) [Qızların] ağ, qırmızı və *bənövşəyi* kolağayıları... havada çırpınır (İ.Əfəndiyev); **MOR** Onun *mor* rəngli gözəl gözlərinin gülüşündə nə isə sirayətedici dərin və xoş bir ifadə var idi (İ.Əfəndiyev).

bənzəmək *bax* oxşamaq I
bənzər *bax* **1.** tay 1; **2.** oxşar
bənzərlik *bax* oxşarlıq
bənzətmək *bax* oxşatmaq
bənzəyiş *bax* oxşarlıq

I. BƏRABƏR Siyah zülfün qəddin ilə *bərabər;* Nazik ağ ondamın boyaz qar, gəlin! (M.P.Vaqif); **TARAZ** Sariban tayları etmək-çin *taraz;* Yolun üstündəki bu daşı aldı (M.Rahim); **TƏN** Qalxdım şahin kimi üfüqlərə *tən...* (N.Xəzri).

2. BƏRABƏR (*bərabərhüquqlu*) [Cahan:] İndi bizim hüququmuz kişilərlə *bərabərdir* (Ə.Haqverdiyev); **TƏN** Ona görə də həmişə gərək *tən* olaq (İ.Əfəndiyev).

3. bərabər *bax* tay I
4. bərabər *bax* ön
5. bərabər *bax* birlikdə

I. BƏRABƏRLİK Bəli burada nəfəs alır fəhlə mühəndis; *Bərabərlik* beşiyidir bizim ölkəmiz (S.Rüstəm); **MÜSAVAT** Fəqr ilə qina əhlinə kim verdi *müsavat?* Mənadə də, surətdə də var bunda münafət... (M.Ə.Sabir).

2. TARAZLIQ, MÜVAZİNƏT, TƏNLİK

bəradər *bax* qardaş
bəratəlqövl *bax* protokol
bərbər *bax* dəllək I
bərbərxana *bax* dəlləkxana
bərbəriyyət *bax* vəhşilik
bərbərlik *bax* dəlləklik
bərbəzək *bax* bəzək

I BƏRƏ (*dənizçilikdə və çayda üzən nəqliyyat vasitəsi, yaxud gəmi, körpü*) Dalğalar axıb gedir; üstü köpüklü; Elə bil ağ saçlı bir qoca; göy rəngli *bərə* çəkir (R.Rza); **KEÇİD** Bu *keçid* nadir *keçiddir.* Bərə nəqliyyatı sahəsində dünya təcrübəsində buna oxşar bir *keçid* yoxdur (Qəzetlərdən); **SAL** Uğuldayır uzaqda – o tayda torpaq; *sal* üstündə üzərəm o taya mən də (Ə.Cəmil); **PAROM.**

II bərə *bax* pusqu

BƏRƏÇİ, SALÇI (*bərəni idarə edən şəxs*)

bərəkalla(h) *bax* aferin

1. BƏRƏKƏTLİ, ARTIMLI (*bərəkəti, artımı olan*)

2. bərəkətli *bax* məhsuldar

bərəks *bax* əksinə **1**

bərəksinə *bax* ziddinə

bərəkslik *bax* ziddiyyət **1**

bərg *bax* **1.** vərəq **1**; **2.** yarpaq **1**

1. BƏRK; QATI, MƏTİN, MÖHKƏM (*bax*), **SƏRT**

2. bərk *bax* sürətlə

3. bərk *bax* tünd **1**

4. bərk *bax* xəsis

5. bərk *bax* ağır **2**

bərkdən *bax* ucadan

bərq *bax* parıltı

bərqəsd *bax* qəsdən

BƏRNİ (*silindrşəkilli qab*) Firəngiz başını qaldırdı. Suya qoyduğu bənövşə dəstəsini *bərni* ilə qarışıq özünə tərəf çəkdi (B.Bayramov); **BANKA** *Bankanın* ağzı açılanda ətir qoxusu evi başına götürdü (Ə.Haqverdiyev).

bərrü biyaban *bax* səhra

1. BƏRZƏX (*coğr.*), **ZOLAQ**

2. bərzəx *bax* cəhənnəm

bəsit *bax* sadə

bəsitlik *bax* sadəlik

1. bəsləmək *bax* yedirmək

2. bəsləmək *bax* böyütmək

bəstaboy(lu) *bax* alçaqboy(lu)

bəstəçi *bax* bəstəkar

bəstəçilik *bax* bəstəkarlıq

BƏSTƏKAR (*musiqi əsərlərini yaradan şəxs*) Qoca Mərdana təzə bağ qonşusu gəlmişdi. Adlı-sanlı *bəstəkardı* (X.Hasilova); **BƏSTƏÇİ** *Bəstəçilər* bəstələsin nəğməsini; Məktəblilər düz bağlasın düyməsini (X.Rza); **KOMPOZİTOR** [Yavər:] Necə bilirsən, Rasim, deyəsən bəzi *kompozitorlar* xalq musiqimizə xor baxırlar... (M.İbrahimov).

BƏSTƏKARLIQ, BƏSTƏÇİLİK, KOMPOZİTORLUQ

bəstər *bax* yorğan-döşək

BƏSTİ (*içərisinə şərab, su, yağ, yemək və s. tökülən saxsı qab*) [Zeynəb:] Mən də bir *bəsti* şərab alıb ora gedərəm (M.S.Ordubadi); **DOPU** (*məh.*) Qaraqaşlının arvadı saxsı *dopularda* piti gətirdi (Ə.Kərim); **KÜPƏ** (*böyük bəsti*) [Sadıq:] İçi kərə yağla dolu şirəli *küpəni* döşəməyə qoydu (Mir Cəlal).

bəşarət *bax* muştuluq

bəşər *bax* insan

bəşəri *bax* insani

bəşəriyyət *bax* insanlıq **1**

bət-bəniz *bax* üz

BƏTN (*qadınlarda: ana qarnı, ana bətni*) Firəngiz qoflətən *bətnində* bir də tərpəniş hiss etdi (B.Bayramov); **BALALIQ** (*adətən heyvanlarda*); **BEÇƏDAN** (*köhn.*).

bəy *bax* ağa **1, 2**

bəyan *bax* izah

BƏYANNAMƏ Tərəflər bu *bəyannamənin* məqsədləri ilə bir araya sığmayan hər hansı saziş bağlamayacaq... (Qozetlərdən); **XİTABNAMƏ** (*köhn.*) Arabir divarlarda *xitabnamələr* yapışdırırdılar (Çəmənzəminli); **MANİFEST** [Mirzə Əsgər:] Keçən əsr hara, indiki hara... Amma *manifesti* hamı danışır (N.Vəzirov); **MÜRACİƏTNAMƏ** [Əbülhəsən bəy:] Yanından keçdiyimiz bir divarda da Hacı Səməd xan Şücaiddövlə tərəfindən buraxılmış belə bir *müraciətnamə* oxuduq (M.S.Ordubadi); **PROKLAMASİYA** [Mister Tirey:] Kommunist firqəsi tərəfindən nəşr olunmuş *proklamasiyadır*, son o firqənin gizli üzvüsən və oyun çıxarmaq ilə onun fikrini burada yeridirsən (S.S.Axundov); **DEKLARASİYA.**

bəyaz *bax* **1.** ağ **1**; **2.** dəftərçə

bəyazlanmaq *bax* ağarmaq **1**

bəyazlıq *bax* ağlıq

bəyəm *bax* məgər

BƏYƏNMƏK [Cahandar ağa] bu işə bir tərəfdən sevinir, oğlunun öz atasına belə boyun əymədiyini, kişi kimi sözünün üstündə durduğunu *bəyənirdi* (İ.Şıxlı); **XOŞLAMAQ** [Gülçöhrə Əsgərə:] Bəs son məni bir kərə

görməklə *xoşladın?* (Ü.Hacıbəyov); **XOŞUNA GƏLMƏK** Təzə qırmızı donu Nərgizin çox *xoşuna gəldi* (Ə.Məmmədxanlı); **SEÇMƏK** [Əsgər:] ...xalamı dəxi buraya göndərim ki, baxsın görsün necə qız *seçmişəm* (Ü.Hacıbəyov).

BƏZƏK Neyliyirdim *bəzəyi*, ya düzəyi? Dama, divarə yapardım təzəyi (M.Ə.Sabir); **ARAYİŞ** (*kl.əd.*) Olub *arayişi*-bağı-səadət cəhl-pərvərlər (M.Hadi); **BƏRBƏZƏK** Təbriz qadınları *bərbəzək*, xüsusilə qızıl zinət şeylərin aşiqidirlər (M.Hacıyev); **BƏZƏK-DÜZƏK** [Aytəmiz:] *Bəzək-düzəkdən* danışdım, Süreyyə ilə aramızdakı bir söhbət yadıma düşdü (Ə.Qasımov); **DEKOR** (*teatrda*) Açıq meydanlarda.. heç bir *dekordan* istifadə etməsən oyun çıxaran.. sehrbazlar.. kütlənin diqqətini həmişə cəlb etmişdilər (Ə.Haqverdiyev); **SÜS** [Əntiqofüruş:] Bu daş-qaşlar, bu *süslər* sənə bir zərrə qədər; Əsər etmədi ancaq (B.Vahabzadə); **TUALET** ...xanımlar geyim və *tualetlərinə* son dərəcə əhəmiyyət verirdilər (Çəmənzəminli); **YARAŞIQ** Bu necə *yaraşıqdı*, bu nə sayaq bədəndi? Qız, vücudun nədəndi? (M.Rahim); **ZİNƏT** [Füzuli:] *Zinətə* çox vurulma, zinət dünya malıdır; İnsan özü dünyanın *zinəti* olmalıdır (B.Vahabzadə); **ZİVƏR** (*kl.əd.*) Yaraşdırdı məşşatələr *zivəri*; Bəzəndirdilər ol məlokmənzəri (M.Ə.Sabir).

1. BƏZƏKÇİ (*etn.*) (*Gəlin köçürülən qızları bəzəndirib geyindirmək*) *Bəzəkçi* qadınlar içəri girdilər (Çəmənzəminli); **MƏŞŞATƏ** [Kərbəlayı Qurban:] Mən palazı salım, sən də sabah *məşşatələri* tap, götür get qız axtarmağa (Çəmənzəminli); **ZİNƏT VERƏN QADIN** Saçlarının üstünə vurulmuş almas çıqqanı çıxarıb bir tərəfə atdı, *zinət verən qadınların* hər birisini bir tərəfə itələyib öz yataq otağına qaçdı (M.S.Ordubadi).

2. bəzəkçi *bax* noqqaş

bəzək-düzək *bax* bəzək

1. BƏZƏKLİ (*bəzək vurulmuş*) ...Bayram mərasimini andıran *bəzəkli* qatar gəldi (Mir Cəlal); **MÜZƏYYƏN** [Sitarə:] Mən istədiyim səadəti bu sarayın əlvan bağçalarının on *müzəyyən* guşəsində də dözə bilmərəm (C.Cabbarlı); **SÜSLÜ** [Sönməz:] Solmaz atoşgahın *süslü* bir gəlinidir (C.Cabbarlı); **ZƏRLİ-ZİBALI** *Zərli-zibalı* bir otaq qayırmışdılar (S.Rəhman); **ZİBA** Əsrimizdə nazənin, *ziba* gözəllər az deyil; Gəlməmiş bənzər atoşgahın sənə aləmdə dilbər, Rahilə (Ə.Vahid); **ZİNƏTLİ** Həmzə *zinətli*, amma tör-töküntülü otağın yuxarı başında dayandı (Ə.Əbülhəsən).

2. bəzəkli *bax* naxışlı

BƏZƏMƏK (*müxtəlif mənalarda*) Göy üzünü *bəzər* parlaq ulduzlar (H.Cavid); **GEYİNDİRİB-KECİNDİRMƏK** ...Onu *geyindirib-kecindirib* məclisə gətirmişdilər (Ə.Məmmədxanlı); **SÜSLƏMƏK** O səhəni rəngli çiçəklərlə, kölgəli ağaclarla *süsləmək* artıq ondan sonra gələcək gənc şairlərimizin öhdəsinə düşür (A.Şaiq); **ZİNƏTLƏNDİRMƏK** Elə bil vaxtilə buranı *zinətləndirən* insanlar çoxdan hara isə köçüb getmişdi (A.Şaiq).

bəzən *bax* arabir

bəzənib-düzənmək *bax* bəzənmək

BƏZƏNMƏK *Bəzənirəm* ağadan qorxuram, bəzənmirəm xanımdan (Ata. sözü); **BƏZƏNİB-DÜZƏNMƏK** Görənlər tanıyır bu almayanaq; *Bəzənib-düzənmək* bilirdi ancaq (M.Rahim); **GEYİNİB-KECİNMƏK** *Geyinib-kecinirik* yurdumuzun varından (S.Vurğun); **KECİNMƏK** Sən demə (qız) geyinirmiş, *kecinirmiş* (Mir Cəlal); **TUALETİNİ DÜZƏLTMƏK** Şübhəsiz ki, o, *tualetini düzəltmək*, paltarını dəyişdirmək istəyirdi (M.S.Ordubadi); **ZİBALANMAQ** Ala gözlər nərgisi-məstanə tək şəhlalənir; Elə ki, süzgünlənir, yüz mərtəbə *zibalənir* (M.P.Vaqif); **ALLANMAQ** (*bax*).

bəzm *bax* məclis **1**

bəzmgah *bax* məclis **1**

bəzzaz *bax* tacir, parçaçı

bəzzaziyyə *bax* parça **1**

BIÇAQ, QƏMƏ [Valeh:] Mən oyilib yerdən həmin bu oğlanın *bıçağını* götürərək Sarıköynəyə verib dedim: – Dayan bunun yanında! Tərpənsə, *qəmələ*sini sox qarnına (İ.Əfəndiyev); **QƏMƏLTİ** (*iri bıçaq*) Göyərçin indi *qəmə*lti dediyi qara saplı iri *bıçağı* o ili Gorusdan təzə almışdı (Ə.Vəliyev).

bıçqı *bax* mişar

bıqdırıcı *bax* bezikdirici

bıqdırmaq *bax* bezikdirmək

bıqmaq *bax* bezmək

BİABIRÇILIQ [Nəsirov:] Bərbərzadə, elə etmək lazımdır ki, bu *biabırçılıq* kütlənin içərisinə yayılmasın (S.Rəhman); **BƏDNAMÇILIQ** [Hamı:] Yox, belə iş ola bilməz, bu nə hərəkətdir, bu nə *bədnamçılıqdır?!* (Ü.Hacıbəyov); **RÜSVAYÇILIQ** [Cahandar ağa:] Qəmər, sən kişnəyəndə ürəyim dağa dönürdü. Şahə qalxıb firlananda elə bilirdim yeri, göyü mənə bağışlayırlar. Qəmər, indi mən nə edim, sənin *rüsvayçılığına* necə dözüm? (İ.Şıxlı).

biar *bax* arsız

biaram *bax* aramsız **1**

biarlıq *bax* arsızlıq

bibak *bax* qorxusuz

bibar *bax* barsız **1**

bibəhrə *bax* barsız **1**

bibər *bax* istiot

BİBİ (*atanın bacısı*) [Səkinə xanım:] Gülsaba, get *bihimi* bura çağır (M.F.Axundzadə); **ƏMMƏ** (*kl.əd.*) [Pəricahan xanım:] Uğrunda göz yaşı tökməkdən kor olan xəstə *əmmə*min fəryadına yetiş (S.S.Axundov).

biblioqraf *bax* kitabşünas

biblioqrafiya *bax* kitabşünaslıq

I 1. BİC (*qeyri-qanuni cinsi əlaqədən doğulan uşaq*) [Hordəmxəyal:] ..yəqin *bicdir* və atasından xəbəri yoxdur (Anar); **QEYRİ-QANUNİ (DOĞULMUŞ)** [Vahid:] Mənə belə gəlirdi ki, anamı cavan ikən kimsə alıb. Mən də ondan *qeyri-qanuni* doğulmuşam (İ.Bayramov).

2. bic *bax* hiyləgər

II BİC (*bot., dan.*) Əncir ağacının *bici* çoxalıb (ADDL); **BİC-QIC.**

bica *bax* **1.** mənasız **1**; **2.** əbəs

bicəngənə *bax* hiyləgər

bic-haramzadə *bax* şarlatan

biclik *bax* hiylə

biçarə *bax* yazıq **1**

biçim *bax* boy **1**

biçimsiz *bax* eybəcər

biçiz *bax* yoxsul

biçizlik *bax* yoxsulluq

1. BİÇMƏK (*ot və s. biçmək*) Ot *biçməsəm*, qırılmazmı qoyunlar? Hardan olar hasil o vaxtı yunlar? (A.Səhhət); **ÇALMAQ** Şamxal bir az sakitləşdi... Onun kərənti çəkib, ot *çalmaqdan* qolları gizildəyirdi (İ.Şıxlı).

2. BİÇMƏK (*paltara aid*). Bir dəfə Zərəfşan adlı şən, zarafatcıl qarağöz gəlin... çit və qayçı çıxarараq onun üçün don *biçməyi* məndən xahiş etdi (İ.Əfəndiyev); **ÜLGÜLƏMƏK.**

bidad *bax* əzab

bidamaq *bax* kefsiz **1**

bidar *bax* oyaq **1**

bidayət *bax* başlanğıc **1**

bideh *bax* vergi **1**

bidəlil *bax* dəlilsiz

bidərman *bax* dərmansız

bidəva *bax* dərmansız

bidin *bax* dinsiz, allahsız **1**

biehtiramlıq *bax* hörmətsizlik

bielm *bax* elmsiz

bietibar *bax* etibarsız

biədəb *bax* ədəbsiz

biədəblik *bax* ədəbsizlik

bielac *bax* əlacsız **1**

biəndazə *bax* ölçüsüz

biəndazəlik *bax* **1.** ölçüsüzlük; **2.** nizamsızlıq **1**

bifayda *bax* faydasız **1**

bifər *bax* fərsiz

biganə *bax* yad **1**

bigüman *bax* şübhəsiz **1**

bigünah *bax* günahsız

bigünahlıq *bax* günahsızlıq

bihal *bax* halsız

bihalət *bax* halsız

bihallıq *bax* halsızlıq

bihesab *bax* **1.** hesabsız; **2.** saysız-hesabsız

bihədd *bax* hədsiz **1**

bihəya *bax* həyasız

bihəyalıq *bax* həyasızlıq

bihiss *bax* hissiz

bihörmət *bax* hörmətsiz

bihörmətçilik *bax* hörmətsizlik

bihörmətlik *bax* hörmətsizlik

bihudə *bax* əbəs

bihuş *bax* **1.** bayğın; **2.** huşsuz

bihuşluq *bax* **1.** bayğınlıq; **2.** huşsuzluq

bihüdud *bax* ucsuz-bucaqsız

bixəb *bax* yuxusuz

bixəbər *bax* xəbərsiz

bixtiyar *bax* ixtiyarsız

biiman *bax* imansız **1**

biimanlıq *bax* imansızlıq

biinsaf *bax* insafsız

biinsaflıq *bax* insafsızlıq

biintəha *bax* nəhayətsiz

biirz *bax* binamus

biizn *bax* izinsiz

BİKAR *Bikar* vaxtlarında Şəndə də onunla gəzişir, dərdləşirdi (B.Bayramov); **BOŞ** *Boş*, bikar gəzməyin nə mənası var? (S.Rüstəm); **BOŞ-BİKAR** [Firuz:] *Boş-bikar* oturub qalır (M.Ənvər); **MƏŞĞULİYYƏTSİZ, İŞSİZ** (*bax*).

bikara *bax* **1.** vecsiz; **2.** veyl

bikef *bax* kefsiz **1**; qəmli

bikəs *bax* kimsəsiz **1**

biqabiliyyət *bax* **1.** istedadsız; **2.** bacarıqsız

biqanun *bax* qanunsuz

biqeyrət *bax* qeyrətsiz

biqeyrətlik *bax* qeyrətsizlik

biqəm *bax* qəmsiz

bilaaram *bax* aramsız **1**

bilcümlə *bax* ümumiyyətlə

bilaixtiyar *bax* ixtiyarsız

bilasəbab *bax* səbəbsiz **1**

bilaşübhə *bax* şübhəsiz **1**

bilatəxir *bax* təxirsiz

BİLAVASİTƏ Nəhayət, bu haqda *bilavasitə* Mahirənin özü ilə danışmaq qərarına gəldi (Y.Şirvan); **BİRBAŞA** Yazıq muzdur qolu boynunda sınıqçıdan qayıdıb *birbaşa* öz kəzeyninin yanına gəldi (S.Qənizadə); **VASİTƏSİZ OLARAQ.**

bilayiq *bax* ləyaqətsiz

BİLDİR *Bildir* yedim bir incir, indi də qarnım incir (Ata. söz); **KEÇƏN İL** Yainki çoyirtkə yedi bostanını, neylim? Verdin *keçən il* borcuma yorğanını, neylim? (M.Ə.Sabir); **ÖTƏN İL** *Ötən il* yaz səhəri gördüm ki, şəhərin gur yerində topa saqqalına erkən don düşmüş qaynar gözlü, nimdaş geyimli bir cavan kişi yovşan satır (H.Abbaszadə).

bildiriş *bax* elan, məlumat **2**; xəbərdarlıq

BİLDİRMƏK [Pyotr Anisimoviç:] Bura gəlməyini özün bizə niyə yazıb *bildirməmisən?* (H.Abbaszadə); **AGAH ETMƏK** Zamanı eşikağası işdən *agah etdi*, biçarə xanın ayağına yıxıldı və gözlərinin yaşını tökdü (Çəmənzəminli); **BƏLLƏTMƏK** [Nəriman] təkrar güllə atıb yerini *bəllətməkdən* qorxdu (Mir Cəlal); **ELAN ETMƏK (ELƏMƏK)** (*elan vasitəsilə bildirmək*) *Elan edib* qeyzini aləmə türk dövləti; Çıxarmış təbəəlikdən şair Nazim Hikmət (M.Rahim); **XƏBƏR VERMƏK** [Heybət:] Bir də mümkün etsən anamgilə *xəbər verərsən*... (S.Rəhimov); **XƏBƏRDAR ETMƏK** [Şölə xanım:] ..ogor vəzir görünsə, tez bizi *xəbərdar etsin* (M.F.Axundzadə); **MƏLUM ETMƏK** [Zöhrə xanım:] O səfərki kimi Züleyxa xalama qonaq getmək bəhanəsi ilə dönüb *məlum etmək* lazımdır (S.S.Axundov).

bilet *bax* pasport

bilə-bilə *bax* qəsdən

biləks *bax* oksimo **2**

bilən *bax* bilici

biləndər *bax* bilici

bilərəkdən *bax* qəsdən

BİLƏRZİK (*yaraşıq üçün biləklərə qızıl, gümüş və sairədən qayrılmış halqa*) [Feliçe:] Cavanşirə deyirdi ki, bizdə Azorbaycanda

adətdir oğlan sevgilisinə qızıl şey bağışlamalıdı; üzük, boyunbağı, sırğa, *bilərzik* (H.Abbaszadə); **BAZUBƏND** (*kl.ad.*) Xədəmələr durar sağu solunda; Cavahır bazubənd iki qolunda (Nəbati); **QOLBAĞI** [Feliçe:] [Cavanşir] gələn həftə qayıdanda cibindən bir *qolbağı* çıxarıb, qoluma taxdı (H.Abbaszadə).

biləyaqət *bax* ləyaqətsiz

biləzzət *bax* ləzzətsiz

bilgi *bax* bilik

bilxassə *bax* xüsusilə

BİLİCİ (*çox bilən adam*) Qoy el ağsaqqalı, yurdun müdrik *bilicisi* Dədə Qorqud gəlsin... (Anar); **BİLƏN** ...başqa bir uşaq da söhbətə girişərək *bilən* adamlar kimi... izahat verdi (B.Talıblı); **DANƏNDƏ** (*kl.ad.*) [Xalid:] O cür *danəndə* kişiyə divanə deyirsən (A.Şaiq); **ƏLLAMƏ** Şeir – burda *əllaməd*i, bilicidir; Nəsr – ona aydın-açıq əl içidir (R.Rza); **BİLƏNDƏR** (*dan.*), **BİLİKLİ** (*bax*).

BİLİK Məktəbimiz ürfan bağı; Əməkyurdu, nur ocağı; *Bilik*, səadət qaynağı (A.Şaiq); **BİLGİ** *Bilgi* də verən ən əvvəl məktəb olar (Çəmənzəminli); **BİLİŞ** Aşınayi bilməmişsən ey *bilişdən* yad olan; Mərifətdən dəm vurursan, neyləyim biganəsən (Nəsimi); **ELM** Oxumaq *elm* oxumaqlıq dəmidir; İndi aləm dəxi *elm* aləmidir (A.Səhhət).

BİLİKLİ, BAŞLI (*məc.*) Dünən Abbasın evinə gələn kim imişsə, *başlı* adam imiş (Mir Cəlal); **ALİM, ELM DƏRYASI** (*çox bilikli*) [Heydər:] Maşallah, cənab *elm dəryasıdır*; Mən belə *alim* görməmişəm (C.Məmmədquluzadə); **ELMLİ** [Əbülmüzəffər:] Mən indiyə qədər Qızıl Arslan qədər mərhəmətli, adil, mülayim, biliklı və *elmli* bir hökmdar görməmişəm (M.S.Ordubadi).

BİLİNMƏK Dağlarının başı qardır; Ağ örpəyin buludlardır; Böyük bir keçmişin vardır, *Bilinməyir* yaşın sənin; Nələr çəkmiş başın sənin (S.Vurğun); **AŞKAR OLMAQ** Zənn edirəm ki, mətləb burada *aşkar olur* (C.Məmmədquluzadə); **AYDIN OLMAQ** Bu mənzərəni görərkən hər şey *aydın oldu* (Ə.Məmmədxanlı); **AYDINLAŞMAQ** O doğiqə də *aydınlaşdı* ki, onları Qaraqaşlı demişdir (Ə.Kərim); **BƏLLİ OLMAQ** Şəhərdən gətirdiyim toyuğumun balaları böyümüş, tüklənmiş, xoruzu, fərəsi *bəlli olmuşdu* (A.Şaiq); **AGAH OLUNMAQ.**

bilittifaq *bax* birlikdə

bilküllıyyə *bax* büsbütün

billah *bax* vallah

bilməcə *bax* tapmaca

1. BİLMƏK (*hər şey haqqında məlumatı, xəbəri olmaq*) *Bilməsən*, bir biləndən sor (Ata. sözü); **AGAH OLMAQ** Ta *olmaya* kimsə ondan *agəh*; Bu şeri oxurdu əksər oldu mah (Məsihi); **BAXƏBƏR OLMAQ** [Mirzə Qərənfil:] *Baxəbər olmamışam*, mənim kobutərim (S.Rəhman).

2. BİLMƏK Bağışla, *bilmişəm* biganələrlə aşinasənmiş (S.Ə.Şirvani); **EŞİTMƏK** [Həsən ağa:] ...*eşitdim* uşaqların məktəbi qurtarıblar, gözün aydın (Ə.Haqverdiyev); **AGAH OLMAQ** Əgər bilməmişsən indi bil bunu; Sonra unudarsan, yaxşı *agah ol*; Cavanlıq getdimi qayıdan deyil... (O.Sarıvəlli); **DUYUQ DÜŞMƏK** [Molla Sadıq:] Deyəsən, sənin gözünü qan örtüb. Demirsənmi *duyuq düşərlər*, iri tikəni qulağın boyda eləyərlər? (İ.Şıxlı); **XƏBƏR TUTMAQ** Gəldi könlüm təngə, Vahid, qüsseyi-dövrandən; Yoxdu bir kimsə *xəbər tutsun* məni-nalandən... (Ə.Vahid).

3. BİLMƏK, HESAB ETMƏK, ZƏNN ETMƏK

bilümum *bax* ümumiyyətlə

bimar *bax* xəstə

bimarxana *bax* xəstəxana

bimarıstan *bax* xəstəxana

bimarlaşmaq *bax* xəstələnmək

bimarlıq *bax* xəstəlik

bimana *bax* mənasız **1**

bimərhəmət *bax* zalım

bimərifət *bax* qanacaqsız

biminnət *bax* minnətsiz

bimümkün *bax* qeyri-mümkün

1. BİNA Üç ildir ki, şəhərimizin dağlıq hissəsində yeni *binaya* köçmüşəm (Y.Əzimzadə); **DAM-DAŞ** Bir neçə müsəlman *damdaş* tikdirib bir balaca kənd salıblar (C.Məmmədquluzadə); **EV** Şose yolu konarında, sarı kirəmitli bir *ev* görünürdü (M.Hüseyn); **TİKİLİ** Bundan başqa evin baş tərəfində üç balaca otaqdan ibarət qədim bir *tikili* də vardır (S.S.Axundov).

2. bina *bax* bünövrə

binaən *bax* üçün **1**

binagüzarlıq *bax* tədbir

BİNAMUS [Muradzadə:] Binamus! On səkkiz yaşında fəhlə bir qız uzaq Azərbaycan kəndindən şikayətə gəlir, sən də onunla o cür rəftar eləyirsən?! (İ.Əfəndiyev); **NAMUSSUZ** [Cavad xan:] İndi burada sən mənə *namussuz* deyirsən, namussuz sənsən ki, namizədini aparmışam (N.Vəzirov); **BİİRZ** (*arx.*) [Aşıq Vəli:] Qulaq as, xanımcan, bir-bir ərz eləyim; Əvvəla, kişilərin *biirzinə* lənət! (N.Vəzirov); **DƏYYUS** (*bəzən söyüş kimi işlədilir*) [Kəbirlinski:] Xəbər göndərmişdi ki, gedin deyin o *dəyyus* bir də arvad tumanı geyib mütrüblük eləsə, ... onu da qıracağam, bütün artist tayfasını da (Anar); **İSMƏTSİZ, QEYRƏTSİZ** (*bax*).

BİNAMUSLUQ, DƏYYUSLUQ, İSMƏTSİZLİK, QEYRƏTSİZLİK, NAMUSSUZLUQ

binəhayət *bax* nəhayətsiz

binəsib *bax* məhrum

binəva *bax* **1.** yazıq **1**; **2.** yoxsul

binəvalıq *bax* yoxsulluq

binizam *bax* nizamsız **1**

binokl *bax* durbin

bint *bax* sarğı

binur *bax* nursuz

bioqrafiya *bax* tərcümeyi-hal

bipayan *bax* ucsuz-bucaqsız

bipərva *bax* laqeyd

BİRADAMLIQ, BİRYERLİ, BİRNƏFƏRLİK

birbaşa *bax* **1.** bilavasitə; **2.** düz **1**

bircə *bax* yeganə 3; dayanmadan

birçək *bax* saç **1**

birçəkləmək *bax* saçlamaq

BİRDƏFƏLİK [Vaqif:] Bu işi *birdəfəlik* yoluna qoymalıyıq (Çəmənzəminli); **BİRDİBLİ** [Feyzi:] İndi ki belədir, deyirəm elə *birdibli* boşan get (Ə.Haqverdiyev); **BİRKƏRƏLİK** Lakin *birkərəlik* zərbəni osasa vurmaq istədiyi üçün müvəffəq ola bilmədi (M.S.Ordubadi); **BİRYOLLUQ** [Əbu Übeyd:] O dinsiz tez və *biryolluq* məhv olmalıdır (C.Cabbarlı); **HƏMİŞƏLİK** [Polad:] Kiçikliyindən qolları arasında sevə-sevə oynatdığı qəlbi qədər sevdiyi Almasdan *həmişəlik* ayrılacağını düşündükdə isə həyat gözünə nuru sönmüş günəş kimi görünürdü (A.Şaiq).

BİRDƏN O [Fərzəli] *birdən* əlini atıb Qaçayın qolundan tutdu (S.Rəhimov); **ANSIZIN** Xanın Naxçıvan sofəri nəticəsində sakit görünən çöhrəsi, *ansızın* qopan bir küləkdən dalğalanan meşə kimi soyrildi, qırışdı, bığlarını ağzına doldurub, hirsindən çeynəməyə başladı (Çəmənzəminli); **GÖZLƏNİLMƏDƏN** *Gözlənilmədən* verilən bu sual Şahinin başında ildırım kimi çaxdı (B.Bayramov); **XAN** (*dial.*) Oturmuşdux öydə, Vəli *xan* girdi içəri (ADDL); **İTTİFAQƏN** [Rəşad:] *İttifaqən* Qurbanqulunun bacısı azarlayır (T.Ş.Simurğ); **QƏFLƏTƏN** Həmən yay sarsıldı, o silkələndi; Rüstəmin *qəflətən* tutulmasından (B.Vahabzadə); **LAPDAN** Artıq o [Kazım], aydın görürdü ki, *lapdan* yaxalanıb boğulan gözətçi, özü kimi dünən muzdur olub... (B.Bayramov); **NAGAH** Fitnəyiblisi-məlun oldu *nagəh* aşikar (M.Ə.Sabir); **QƏFİLDƏN** Kişi *qəfildən* onun başının üstünü kəsdirən adamı əvvəlcə tanıya bilmədi (İ.Şıxlı).

birdibli *bax* birdəfəlik

birelli *bax* həmyerli

birəğbət *bax* eybəcər

birəhm *bax* rəhmsiz

birəhmlik *bax* rəhmsizlik

birgə *bax* birlikdə

birikmək *bax* yığışmaq **1**

birinc *bax* düyü

birinci *bax* **1.** əvvəlinci; **2.** ilk **1**

BİRJA [Aslan:] Mən pullarımı neft *birjasında* aksiya almağa buraxmışam (A.Şaiq); **BURSA** [Murad:] Heç bir ittifaqın üzvü deyildi. Əmək *bursasında* qeyd edilməmişdi (S.Hüseyn).

BİRJAÇI, BURSAÇI

birkərəlik *bax* birdəfəlik

1. BİRLƏŞMƏK [Qaplan:] Düşmənlər bir-birə şəhərdə *birləşir* (A.Şaiq); **QOVUŞMAQ** Turşsu çayların içi ilə Araza axır, Kürə *qovuşur* (S.Rəhimov).

2. BİRLƏŞMƏK, İTTİFAQ BAĞLAMAQ, HƏMRƏY OLMAQ

1. BİRLİK Bizi ruhlandıran bu şanlı *birlik*. Bu qüdrət, bu qüvvət, məhəbbət olmuş (M.Rahim); **İTTİFAQ** Bu ordunun gücü, hər şeydən əvvəl, köhnə qvardiya ilə gənc qvardiya arasında yaranmış möhkəm *ittifaqdır* (M.Hüseyn); **VƏHDƏT** [Qızıl Arslan:] *Vəhdət* təşkil edən bir xalqı əsirlikdə saxlamaq və yabancı bir nüfuza bağlamaq çox çətindir (M.S.Ordubadi); **İTTİHAD** (*kl.ed.*) Əsrimiz xahiş edərkən ittifaqü *ittihad:* Cümləmiz əmniyyət içrə almaq istərkən murad (M.Ə.Sabir); **BÖLÜNMƏZLİK, BÜTÖVLÜK, SAZİŞ, UNİON, UNİYA.**

2. BİRLİK (*bir, vahid, tək olma*) [Qoca:] Vallah, and olsun Allahın *birliyinə* bu işdən mənim xəbərim yoxdur (M.Hüseyn); **TƏKLİK, VAHİDLİK.**

BİRLİKDƏ [Nəbi:] Həcər, yadındamı, bir baharda biz, *Birlikdə* çıxardıq dağa ikimiz (S.Rüstəm); **BAHƏM** Xəlil ağa Hüseyn *bahəm* varid oldular İran torpağına (Ə.Haqverdiyev); **BƏRABƏR** Şeirdir, nəğmədir şairə bəzək; Gəl, ey ilhamım, gəl, *bərabər* gəzək (S.Rüstəm); **BİLİTTİFAQ** Xah sultan, xah dərvişi gəda *bilittifaq:* Özlərin qılmış girifтari-qəmü dərdü fəraq (M.P.Vaqif); **BİR YERDƏ** O gün fəhlə yoldaşları axşama kimi Həmdlə *bir yerdə* yeyib-içdilər, söhbət elədilər... (H.Abbaszadə); **BİRGƏ** Gənclik kitabının yarpaqlarını: İki il onunla *birgə* çevirdim (M.Müşfiq); **ƏLBİR** Şıxbabalı kəndində kommunistlər boyların üzünə düşüb onların Muradbəyli bəyləri ilə *əlbir* fəaliyyətləri üzərində ciddi nəzarət qoyurdular (Ə.Vəliyev); **QOŞA** Gəl mənimlə gəzək *qoşa:* Hər yan otdur başdan-başa (M.Rahim).

birnəfərlik *bax* biradamlıq

birnəfəsə *bax* dayanmadan

birrəng(li) *bax* saya

biryerli *bax* **1.** həmyerli; **2.** biradamlıq

biryolluq *bax* birdəfəlik

bisahib *bax* sahibsiz

bisavad *bax* savadsız

bisavadlıq *bax* savadsızlıq

bisəbəb *bax* səbəbsiz **1**

bisəmər *bax* faydasız **1**

biş-düş *bax* xörək

bişək *bax* şübhəsiz **1**

bişərəf *bax* şərəfsiz

bişkin *bax* təcrübəli

bişmiş *bax* xörək

bişüur *bax* şüursuz **1**

bişübhə *bax* şübhəsiz **1**

bişümar *bax* saysız-hesabsız

bitab *bax* halsız

bitablıq *bax* halsızlıq

bitəcrübə *bax* naşı

bitəcrübəlik *bax* naşılıq

bitaqsir *bax* günahsız

bitəqsirlik *bax* günahsızlıq

bitərbiyə *bax* tərbiyəsiz

bitərbiyəlik *bax* tərbiyəsizlik

I bitirmək *bax* yetişdirmək

II bitirmək *bax* qurtarmaq **1**

BİTKİ Bir də ki, ağaclara su verilsə, lazımi qulluq göstərilsə, torpağı ağac *bitkilərinin* elə özləri əmələ gətirər (H.Əliyev); **NƏBAT** (*kl.ed.*) [Adolf:] O da [Rudolf] səyahət zamanı etnoqrafik məlumat toplamaq, rast gələn heyvan, *nəbat* və sairə barəsində material yığmaq və bunlar kimi comiyyətə lazım olan kolleksiya düzaltmək idi (S.S.Axundov).

I BİTMƏK, YETİŞMƏK

II bitmək *bax* qurtarmaq **2**

bittəmam *bax* tamamilə

büzr *bax* üzrsüz

bivahimə *bax* qorxusuz

bivaxt *bax* gec

bivec *bax* vecsiz

bivəfa *bax* vəfasız

bivəfalıq *bax* vəfasızlıq

bivicdan *bax* vicdansız

biyaban *bax* səhra

bizarafat *bax* zarafatsız

bizəban *bax* lal **1**

1. BİZNES, İŞ, MƏŞĞULİYYƏT

2. biznes *bax* alver **1**; ticarət

biznesmen *bax* **1.** tacir; **2.** işbaz; **3.** fırıldaqçı

bizzat *bax* şəxsən

blokada *bax* mühasirə

boçka *bax* çəlləк

boçkaqarın *bax* yekəqarın

boğanaq *bax* isti **2**

I BOĞAZ (*anat.*) Saldı *boğazına* sıçanlar tənəb; Vəhşət edib etdi iztirab (S.Ə.Şirvani); **HÜLQUM** [Cəlil:] ...atılıb yapışdım onun nazik *hülqumundan,* Balağa gəlib bizi ayırmasaydı, kim bilir nə olacaqdı (H.Abbaszadə); **XİRTDƏK** [Qəndab:] Hər günün öz poçtu var. Bu gün gələni sabaha saxlasaq, sahibləri *xirtdəyimizi* üzərlər, nə danışırsan (B.Bayramov); **BOYUN** (*bax*).

II BOĞAZ (*heyvanlar haqqında: balası olan*) Əmniyyələr *boğaz* inəyi, eşşəyi və qoyunları tövlədən çıxardılar (M.İbrahimov); **İKİCANLI** Yazağzı molla bazardan bir *ikicanlı* keçi alır ki, südü ilə uşaqlarını dolandırsın (M.N.lot.).

BOĞAZLAMAQ (*boğazından yapışmaq*) Tutub *boğazladı* nəhayət onu; Qanrıldı çalmağa, çala bilmədi (M.Rahim); **XIRPALAMAQ** Əsəd tələsik qapını açan kimi Nəbi onu *xırpaladı* ("Qaçaq Nəbi"); **XİRTDƏKLƏMƏK** Səmənnaz qarı qapını açanda atılılardan biri qəflədən onu *xirtdəklədi* (Ə.Vəliyev); **YAXALAMAQ** Cəllad Qəmər*i yaxalayanda* vəzir, vəkil... padşahın ayağına düşüb dedilər: – Şah, qəzəbini söndür! (Nağıl); **HÜLQUMLAMAQ.**

BOĞÇA Səriyyə xala geri qayıtdı, onun qoltuğunda yamaqlı bir *boğça* var idi (M.İbrahimov); **BAĞLAMA** [Göyüşoğlu] əlində tutduğu xırdaca *bağlamanı* dalında gizlətmişdi (M.Hüseyn).

BOĞMAQ, BOĞMALAMAQ

boğmalamaq *bax* **1.** boğmaq; **2.** qarğımaq; **3.** yedirtmək

boğmalanmaq *bax* yemək **1**

boğmalıq *bax* xörək

1. BOĞUŞMAQ, QAPIŞMAQ (*itlər haqqında*)

2. boğuşmaq *bax* dalaşmaq

bol *bax* çox, çoxlu

bollaşdırmaq *bax* çoxaltmaq

bollaşmaq *bax* çoxalmaq, artmaq **1**

bolluca *bax* çoxlu

bolluq *bax* **1.** çoxluq; **2.** rifah

BORAN, ÇOVĞUN Başqa cür keçərdi həyatını qışda; *Boranda, çovğunda,* qarda, yağışda (S.Rüstəm); **BORANLIQ** Çulğayıb Zəngəzuru indi *boranlıq,* bizə nə? (M.Ə.Sabir); **TUFAN, QASIRĞA** Mən azəldən *tufanların* qoynunda bir ötən quşam; Fırtınalar, *qasırğalar* qucağında doğulmuşam (S.Vurğun).

boranlıq *bax* boran

1. BORC Zavallı kişi beş il bu *borcun* altından çıxa bilmədi... (Çəmənzominli); **BORC-XƏRC** Aslan *borc-xərc* pul düzoldib onu Kiyevə instituta göndərdi (C.Cabbarlı); **ƏLBORCU** (*tez ödənmək şərti ilə olan borc*) [Mirzə Qərənfil:] *Əlborcu* istəmirəm, həmişəlik bağışla (S.Rəhman); **HESAB** [Hafizə xanım:] Rəhim kişi, *hesabını* gətiribsənmi? (Ə.Haqverdiyev); **QƏRZ** (*köhn.*) [Rüstəm] axır ayağa qalxıb Əkbərdən üç günlük müddətinə yüz manat *qərz* alıb yola düşdü (Ə.Haqverdiyev).

2. borc bax vəzifə **1**

borc-xərc bax borc **1**

BORŞ, KƏLƏM SUPU Canım, allahın *kələm supu – borşu* istəyirsən, içindən sosiska çıxır (S.S.Axundov); **Şİ.**

BORU, KƏMƏR (*neft, qaz borusu*).

BOSTAN (*tərəvəz, qarpız-yemiş, xiyar, pomidor və s. əkilən sahə*) Atası hər gün onu özü ilə bərabər *bostana* gətirir, rəncbərlərlə

birlikdə işlədirdi (A.Şaiq); **DİRRİK** (*göygöyərti, səbzəvat əkilən kiçik bostan*) Yaz cütləri işləyir, holavarlar çağırılır, bəzi adamlar da öz *dirrik* yerlərində çalışırdı (S.Rəhimov); **XIR** (*dial.*) Zəmilər işlənir, toxum səpilir; Qız, qadın əlləşib əkirlər *xır* (M.S.Ordubadi).

BOSTANÇI (*bostançılıqla məşğul olan şəxs*) *Bostançı* tez öz yerinə çəkilib durdu (A.Şaiq): **DİRRİKÇİ** [Fəxrəddin bəy:] ..cənab Fəxrəddin bəy də özü həmi bağban, həmi *dirrikçi*, həmi məktəbxanada müəllim... Pis əmür deyil... (N.Vəzirov).

1. BOŞ (*içində heç bir şey olmayan*) *Boş* torba ilə at tutulmaz (Ata. sözü); **XALİ** (*kl.ədˈ*) Axırda olub həsrəti-didari-cəmali; Qal kisəsi *xali* (M.Ə.Sabir).

2. boş *bax* əbəs

3. boş *bax* bikar

4. boş *bax* mənasız **I**

BOŞAMAQ (*arvadından ayrılmaq*) [Zinyət Eyvaza:] Mən getmirəm, sən məni *boşamalısan* (B.Bayramov); **DALINDAN DƏYMƏK** (*fr.v.*) [Məcid arvadına:] Onu bil ki, mən səni o uşaqlara görə saxlayıram. Yoxsa çoxdan *dalından dəymişdim* (H.Abbaszadə); **KAĞIZINI VERMƏK** (*fr.v.*) [Güllü:] *Kağızımı ver*, kəbinim halal, canım azad (Ə.Haqverdiyev); **TALAĞINI VERMƏK** [Nəbi:] Yox, Hacı, sən gəl elə bu qızın *talağını ver*, başına çevir, tək qızdır, uşaqsızzadsız (Ə.Haqverdiyev).

BOŞANMAQ [Kərim:] Heç ağlına gətirməzdi ki, Könül özü *boşanmaq* barədə məsələ qaldıra (X.Hasilova); **AYRILMAQ** (*dan.*) [Zinyət:] Tamam bir ay minnət elədi, gördüm ki, bəlkə də mənə elə gəlirdi *ayrılmaq* istəmir (B.Bayramov); **KAĞIZINI ALMAQ** (*fr.v., dan.*).

boş-bikar *bax* bikar, işsiz **I**

boşboğaz *bax* **1.** naqqal; **2.** ağzıyırtıq

boşboğazlıq *bax* **1.** naqqallıq; **2.** ağzıyırtıqlıq

boş-boşuna *bax* **1.** əbəs; **2.** mənasız **I**

boşqab *bax* nimçə

BOTANİK, NƏBATATÇI, NƏBATATŞÜNAS (*botanika mütəxəssisi*)

BOTANİKA, NƏBATAT (*bitkilər haqqında elm*)

I BOY (*insanın, heyvanın və s.-nin bədən quruluşu*) *Boyun* sürahıdır, bədənin büllur; Gərdənin çəkilmiş minadan, Pəri (M.P.Vaqif); **BAZBURUD** (*dan.*) Yəhyanın dili gödək olacaq, "Nə bilim" deyəcək, – *bazburuduna* inandım (Mir Cəlal); **BİÇİM** [Bədircahan:] ..bu *biçimdə* mən ömrümdə adam görməmişəm (N.Vəzirov); **BOY-BUXUN** Səməd... Nadirin *boy-buxununa* baxırdı (B.Talıblı); **ƏNDAM** (*kl.ədˈ*) Bunların şirin ləhcələri... mütənasib *əndamları* və alıcı, xumar gözləri vardır (M.S.Ordubadi); **QAMƏT** Bahadır ilkiydi Rüstəm kişinin; *Qamətdə*, cüssədə sanki özüydü (B.Vahabzadə); **QAVARA** (*məh.*) [Hacı Nuru şair:] Əgər qatırçılıq etsəydin, bu *qavara* və zor ilə ildə yüz əlli manata pul deməzdin (M.F.Axundzadə); **QƏDD** Zorbadı horçənd ki, *qəddin* sənin; Yox mənə tay olmağa həddin sənin (M.Ə.Sabir).

II boy *bax* fəsil **2**

boya *bax* rəng, boyaq **I**

1. BOYAQ, BOYA, RƏNG (*bax*)

2. boyaq *bax* ənlik

boy-buxun *bax* boy **I**

BOY-BUXUNLU Bir enlikürək, *boy-buxunlu* oğlan iclası açdı (Mir Cəlal); **BAZBURUDLU** [Qulu:] Pulu götürüb belə xəsisə verir ki, sandığı doldurub gecə-gündüz keşiyini çəkir və mənim kimi *bazburudlu* oğlanı da ona nökər edir... (S.S.Axundov); **BOYLU** [Kompozitor] *boylu*... bir adamla qarşılaşdı (İ.Əfəndiyev); **BOYLU-BUXUNLU** O [Eldar] indi xeyli ciddi, *boylu-buxunlu* bir oğlan olmuşdu (M.Hüseyn); **ƏNDAMLI** [Xavər] qızların üst-başına nəzər saldı, *əndamlı* xanım xalatə oxşar, qırmızı güllü, sarı paltar geymişdi (M.İbrahimov); **QAMƏTLİ** [İran qızı:] Balaca addım da irəli atanda ucaboylu, *qamətli* bir adamla üz-üzə gəlib heyrətə düşdüm (M.İbrahimov); **QƏDD-QAMƏTLİ**

Dürdanə xanım yaşı altmışa yaxın *qədd-qamətli* bir arvad idi (Ə.Əbülhəsən); **TƏNUMƏND** İki *tənumənd* kişi qarşı-qarşıya dayanmışdı (B.Bayramov).

I boylu *bax* **1.** boy-buxunlu; **2.** uca **I**

II boylu *bax* hamilə

BOYUN (*başı bədənə birləşdirən hissə*) Fərid *boynundakı* qalstuku açdı, Qaragiloyə uzatdı (M.İbrahimov); **BOĞAZ** [Həmzə:] Çox bədəbəd eləsə, sallam ipi *boğazına*, tullaram quyuya – nə dil bilər, nə də dodaq (C.Cabbarlı); **GƏRDƏN** (*köhn.*) Siyah zülfün dal *gərdəndə* hörəsən; Əl uzadıb, qönçə gülün dərəsən (Aşıq Ələsgər).

BOYUNARDI [Qapıçı] cavab vermədən qabaq ikiqat baş əyib, iki barmağı ilə boynunun ardını qaşıdı. *Boynardı* qaşımaq Rusiyada bir zobani-haldır. Bunun mənası budur ki, "buraya gəlib-gedəndə kasıb-kusubu unutma!" (Ə.Haqverdiyev); **PEYSƏR** [Müqim bəy:] Sözümün əvvəlincisi budur ki, mən səndən ötrü bizim əmioğlu Göray deyiləm ki, atılıb mənim *peysərimə* minəsən (S.Rəhimov); **SÜYSÜN** Elə bil onun *süysünündən* vurdular (Q.Xəlilov).

1. BOYUNBAĞI (*zinət üçün muncuq və s. düzümü*) [Feliçe:] Cavanşirə deyirdi ki, bizdə – Azərbaycanda adətdir oğlan sevgilisinə qızıl şey bağışlamalıdır; üzük, *boyunbağı*, sırğa, bilərzik.. (H.Abbaszadə); **GƏRDƏNBƏND** [Bibixatun:] Bu *gərdənbəndi* boynuna keçirt. Bəh, bəh, nə gözəldir! (Ə.Haqverdiyev); **GƏRDƏNLİK** [Nəbi:] Bir ağ gün görmədin mənə gəlsi; Nə *gərdənlik* taxdın, nə üzük taxdın (S.Rüstəm); **HƏMAİL** Ay qız, sənə mailəm; Boynunda *həmailəm*; Dost payı şirin olar; Hər nə versən qailəm (Bayatı).

2. boyunbağı *bax* qalstuk

1. BOZ (*rəng.*) Tövləmizdə *boz* eşşəkdən başqa bir şeyimiz qalmadı (M.İbrahimov); **KÜLRƏNGİ** qırmızı lapar-lapar gördüm; torpağı *külrəngi* (R.Rza).

2. BOZ Sarılır ağ mitilə *boz* dərə, çöllər, dağlar (A.Şaiq); **ÇILPAQ** (*məc.*) Bir-birinə söykənib yastı, *çılpaq* təpələr (B.Vahabzadə); **BİTKİSİZ.**

3. BOZ, TUTQUN (*dumanlı hava haqqında*)

bozaraq *bax* bozumtul

1. BOZARMAQ, TUTQUNLAŞMAQ (*hava haqqında*)

2. bozarmaq *bax* solmaq

BOZARTMA (*aşp. yemək növü*) O, ... kəsilmiş toğlunun ətindən *bozartma* hazırlamaqda Pasıya kömək edirdi (S.Rəhimov); **BOZQOVURMA.**

BOZBAŞ (*ət, noxud, kartof ilə bişirilən sulu xörək*) Bir gün Məşədi Məmmədliyo sifariş elədim ki, cümə axşamı gələcəyəm *bozbaş* yeməyə (C.Məmmədquluzadə); **ABGÜŞT** (*köhn.*) Məşədi getdi *abgüştü* öz əlində buğlana-buğlana gətirdi, çörək doğradı, qarışdırdı və mənə "buyur" deyib təklif etdi (C.Məmmədquluzadə); **PİTİ** [Məmməd:] A bacı, kabab var? *Piti* var? (Ə.Qasımov).

bozqovurma *bax* bozartma

bozlamaq *bax* ağlamaq

bozumsov *bax* bozumtul

bozumtraq *bax* bozumtul

BOZUMTUL [Rəhimzadənin] üzündəki *bozumtul* ləkələr indi daha aydın seçilirdi (M.Hüseyn); **BOZARAQ** *Bozaraq* pərdə çox qalın olduğu üçün oturanlar çətin... seçilirdi (Ə.Əbülhəsən); **BOZUMTRAQ** Birbirinə rəqib kəsilən və sönük piltənin *bozumtraq* alovunu qucaqlamaq istəyən qısqanc pərvanələrin son dəstələri qırılır və dəli bir sevgiyə qurban verilirdi (M.S.Ordubadi); **BOZTƏHƏR, BOZUMSOV.**

boztəhər *bax* bozumtul

BÖHTAN (*birinə ləkə yaxmaq üçün haqsız olaraq ona pis şey isnad etmə*) Yalanları şişirdən, *böhtanları* artıran; Hiyləgər alçaqların vardır çox sifətləri (M.Rahim); **İFTİRA** İnsaf elə bu qədər yalan macəra demə; Peyğəmbərə, imana bu növ *iftira* demə (Ə.Qəmküsar); **ŞƏR** Orda uzaq olarsan satqınların *şərindən*; Xəbis hiylələrindən... (M.Rahim).

BÖHTANÇI [İvanov:] Bir də belə şeylər yazsanız, *böhtançı* kimi məsuliyyətə alınacaqsınız! (M.İbrahimov); **İFTİRAÇI** O gözəl olduğu qədər də macəraçı və *iftiraçı* idi (M.S.Ordubadi); **ŞƏRÇİ** Bağır Balabəyovun da adı qəzetlərə düşür və "tarixləşir". Əlbəttə, məşhur "yazan" və ya *şərçi*, böhtançı kimi... (Ə.İldırımoğlu).

1. BÖLÜK (*hərbi: əsgəri hissə*) İstehkam *bölüyü* Kornilovka yaxınlığında qatardan töküldü (Mir Cəlal); **ROTA** [Quliyev] gecə ikən *rotalara*, vzvodlara getdi (Ə.Vəliyev).

2. bölük *bax* tikə

bölük-bölük *bax* dəstə-dəstə

bölünməz *bax* bütöv

bölünməzlik *bax* birlik **1**

bölüşmək *bax* paylaşmaq

börk *bax* papaq

BÖV (*hörümçəyə oxşar zəhərli cücü*); **BÜVƏ** Hər daş altında əqrəb qaynadığını, *büvə* yatdığını, qışda canavar uladığını deyim (Mir Cəlal); **TARANTUL** Ölkəmizdə çöl və səhralarında *böv*, yaxud *tarantul* adlanan iri hörümçəklərə də rast gəlmək olar ("Zoologiya").

bövl *bax* sidik

1. BÖYÜK (*kiçik olmayan, müxtəlif mənalarda*) Orta əsrlərdən qalma bir saray; Yan-yana düzülmüş *böyük* salonlar (S.Vurğun); **AZMAN** İri səbətlərdə iki, hətta yüz *azman* erkək cəmdəyi qaldıra bilən kirli moşhur hamballar vardı (B.Bayramov); **İRİ** (*lap böyük*) Şələləli qayalar dəli bir hiddətlə *iri* daşları, kökü qurumuş ağacları yerindən qoparıb axıdırdı (M.Hüseyn); **NƏHƏNG** (*son dərəcə böyük, yekə*) Buğlana-buğlana *nəhəng* maşınlar; Qar təpələrinə hücum çəkdi bax! (S.Vurğun); **ZIRPI** (*isteh.*) [Gileygüzarov:] Mən boyda *zırpı* adibi burada qoyub gör kimləri çap eləyirlər (S.Rüstəm); **ZORBA** (*dan.*) Qəbir içinə uzatdılar; *Zorba*, yekə qayaları (M.Rahim); **YEKƏ** (*dan.*) Deyilənə görə, dünya malından [Əhmədin] bir sandığı, bir dəst yorğan-döşəyi və *yekə* bir kürkü vardı (İ.Şıxlı); **ZIRI** (*məh.*).

2. böyük *bax* dahi

3. böyük *bax* əzəmətli

1. BÖYÜKLÜK, AZMANLIQ, NƏHƏNGLİK, YEKƏLİK, ZIRILIQ (*məh.*), **ZIRPILIQ, ZORBALIQ**

2. böyüklük *bax* dahilik

3. böyüklük *bax* əzəmət **1**

1. BÖYÜMƏK, BOY ATMAQ Aslan bu gözəl kəndə; *Böyümüş, boy atmışdı* (M.Rzaquluzadə); **BOYA-BAŞA ÇATMAQ** *Boya-başa çatan* cavan... faşistlərin əlində əsir olub qalacaqdımı? (Ə.Əbülhəsən); **İRİLƏNMƏK** Mərziyə xalanın... səsi çıxmasa da aydın görünürdü ki, ağlayır. Arabir dodaqları ehmalca əsir, burun pərləri *irilənir*, kiçilirdi (H.Abbaszadə).

2. BÖYÜMƏK (*kəmiyyətcə, ölçücə artmaq*) Al rənglər getdikcə artır, *böyüyür*... (M.İbrahimov); **İRİLƏŞMƏK** Əvvəl xırda, get-gedə *irilaşan* quşbaşı dolu yağdı (M.Rzaquluzadə); **YEKƏLMƏK** (*bax*).

BÖYÜR, TƏRƏF, YAN

BÖYÜRMƏK (*heyvan haqqında*) Çomaq camışın belində şappıltı qoparırdı, camış *böyürürdü*. Orxan başa düşürdü ki, Dəmir onun hayfını camışdan alır (İ.Məlikzadə); **BAĞIRMAQ** Cöngə *bağıraraq* daha artıq soncuqladı (S.Rəhimov).

BÖYÜTMƏK Mən səni boş yerə *böyütməmişəm;* Aslanlar boşlomək olubdur peşəm (S.Rüstəm); **BƏSLƏMƏK** Madorloriniz etdi sizə mehrü məhəbbət; Ağuşi-şəfoqqətdə sizi *bəslədi* rahət (M.Ə.Sabir); **BOYA YETİRMƏK** [Hacı Xəlil:] Yüz zəhmətlə səni mən *boya yetirmişəm*, lazım olan tərbiyəmi sənə vermişəm (Ə.Haqverdiyev); **BOYA-BAŞA ÇATDIRMAQ** [Hacı Murad:] Budur, on iki ildir ki, sən ata-anasız yetimi... *boya-başa çatdırmışam* (S.S.Axundov).

broşüra *bax* kitabça **1**

brovhabrov *bax* dəbdəbə

bucaq *bax* künc

BUDAQ (*ağac və kolların gövdəsindən ayrılan hissələri*) Payız çağında hər səhər soyuq-soyuq külək əsər; Ağaclara, *budaqlara* dəyəndə yarpağın tökər (A.Səhhət); **DAL** (*kl.əd.*) Təbiət bəzənərdi xələt geyib çiçəkdən; *Dallar* yarpaq açardı atlaz kimi ipəkdən (M.Rahim); **QANAD** (*dan.*) Qarğalar uçur, sağsağanlar sırsıra bağlamış *qanadlarda* oturub cükküldoyirdilər (S.Rəhimov); **QOL-BUDAQ** Hündür, dümdüz şam ağaclarının *qol-budaqları* üşüyürmüş kimi qar ləpələri altında titrəşirdi (M.İbrahimov); **ŞAX** ..Oturdum, quşlar da *şaxlarda* yatdı; Qız bu an üstümə bir qab su atdı (M.Rahim); **ŞAXƏ** Qızılgülün *şaxələri* bir-birinə qarışmışdı... (M.S.Ordubadi).

1. BUDAMAQ, ARITLAMAQ (*ağac haqqında*), **KƏSMƏK**

2. budamaq *bax* döymək **1**

budka *bax* köşk **1**

buğ *bax* buxar

buğa *bax* kələ **1**

1. BUĞUM (*zool., bəzi heyvanların bədənlərinin bölündüyü hissələrdən hər biri*); **SEQMENT** Çay xərçənginin bədəninin quruluşu ayrı-ayrı *seqmentlərdən* (*buğumlardan*) ibarətdir ("Zoologiya").

2. buğum *bax* bənd **I, 1**

BUXAR İra bakın *buxarı* üzünə vura-vura qaynayan paltarı ağacla qarışdırdı və ərinə dedi: – Mişa, bu da sondan çıxdı? (H.Abbaszadə); **BUĞ** (*dan.*) *Buğ* və sabun iyi veron anasının boynuna sərildi və elə o dəqiqə düşündü ki, yoqin nənəm paltar yuyur... (M.İbrahimov).

BUXARLANMAQ, BUĞA ÇEVRİLMƏK, BUĞLANMAQ, BUXAR OLMAQ

BUXOV (*köhn. Keçmişdə məhbusların əl və ayaqlarına keçirilən damir halqa*) Çatıb əzilonlorin *buxovu* qırmaq vaxtı; Nə Marşallın planı, nə Atlantika paktı (S.Rüstəm); **QANDAL** (*köhn.*) [2-ci aşıq:] Deyirlər *qandalı* açıbdır Nəbi; Minib boz atına qaçıbdır Nəbi (S.Rüstəm); **QANDALAQ** (*köhn.*) [Nəbi:] Qazamat istidir, yata bilmirəm; Qubernat güclüdür bata bilmirəm; Ayaqda *qandalaq* qaça bilmirəm (S.Rüstəm); **ZƏNCİR** [Bahadır:] Xristian aləmi müdam belə bir müharibədə olarkən özünü ruhanilərin *zəncirindən* yavaş-yavaş xilas edibdir (N.Norimanov).

BUXOVLAMAQ, QANDALLAMAQ

BUXOVLU (*əl və ayaqları buxovlanmış*) Atlıların qabağınca əli ardından bağlı, ayağı *buxovlu* bir piyada gedirdi (Anar); **QANDALLI** Araz dəhlizdəki ayağı *qandallı* dustaqlara baxırdı (A.Şaiq); **PAYBƏSTƏ** (*kl.əd.*) Qəm evində *paybəstə* olduğum; Hal pərişan, dilşikəstə olduğum (Q.Zakir); **ZƏNCİRLİ** Qolları *zəncirlilər* dedilər: "İnsanları burada saxlayırlar nura, gündüzə həsrət" (M.Rahim).

buxta *bax* körfəz

buket *bax* güldəstə

BUQƏLƏMUN (*cildinin rəngini mühitə görə dəyişən heyvan; məcazi mənada "hər dona girən adam"a da deyilir*) Bu siyasi *buqələmunlardan* cümhuriyyət miqyasında neçəsi vardır (Ə.Əbülhəsən); **XAMELEON** Afrikada, Hindistanda və Aralıq dənizi sahillərindəki ölkələrdə yaşayan *xameleonlar* daha maraqlı heyvanlardır ("Zoologiya").

BULAQ Kazım *bulağın* başında oturdu... (M.İbrahimov); **ÇEŞMƏ** O, *çeşməyə* baxdı bir də; Dedi söylə sən, ey *bulaq;* Könlün neçin düşmüş dərdə? (A.Şaiq); **QAYNAQ** Ağbulaq kəndinin aşağı somtində, yaşıl meşəliyin içində qaynayan Turşsu *qaynağı* hamının diqqətini cəlb etməyə başladı (S.Rəhimov); **MƏNBƏ** İndi o, milli ixtilafları qızışdıran, şəhəri müxtəlif şəyiə və böhtanlarla dolduran adamları su içdiyi bulanıq *mənbəyə* gəlib çıxmışdı (M.İbrahimov); **SU QAYNAĞI** Bu dərə başdan-başa *su qaynağı* idi (A.Şaiq).

bulaşmaq *bax* batmaq **3**

BULUD *Buludlar* dağılmış, yenə Təbrizdə mülayim, xoş, işıqlı günəş çıxmışdı (M.İbrahimov); **ƏBR** (*kl.əd.*) Məni ağlar görünco sən gül, gül! Çünki *əbr* ağlayar, gülər sünbül (A.Şaiq); **SƏHAB** (*kl.əd.*) Bu göyüş həm sevinc verir, həm əzab; Nazənin qız kimi süzürdü Ay; Üstünə kölgə salmış idi *səhab* (A.Şaiq).

1. BULUNMAQ, TAPILMAQ
2. bulunmaq *bax* olmaq
bumaze *bax* pamazı
bund *bax* üsyan
bundçu *bax* üsyançı
burağan *bax* tufan
burc *bax* tumurcuq
bursa *bax* birja
bursaçı *bax* birjaçı
1. BURUQ (*neft quyusu*) Gəmimiz açıq dənizdəki tozə *buruqlardan* birinə yan aldı (M.Hüseyn); **VIŞKA** Söylə hər gün boy atan *vişkaların*. Ən nəhayət başı doymişdi göyə? (S.Rüstəm).
2. buruq *bax* qıvrım
burulğan *bax* girdab
1. BURULMAQ, BURUQ DÜŞMƏK, QIVRILMAQ
2. burulmaq *bax* dönmək **1**
burunlaşmaq *bax* dalaşmaq
BURUNOTU (*tənbəki tozu*) [Safo:] sonra səliqə ilə gilizi ovcunun içinə vuraraq bir atım *burunotu* çəkdi (S.Rəhimov); **ƏNFİYƏ.**
busə *bax* öpüş
bustan *bax* güllük
buta *bax* **1.** qönçə; **2.** naxış
buterbrod *bax* yaxmac
butulka *bax* şüşə **1**
buyruq *bax* əmr **1**
BUYRUQQULU (*hər bir əmr və hökmü yerinə yetirən*) [Kəmalüddövlə:] Beləliklə biz din rəhbərinin *buyruqqulu* olaraq azadlıq nemətlərindən məhrumuq (M.F.Axundzadə); **BƏNDƏRMAN** (*köhn.*) Əsəd dər: hökmündə *bəndərmanam*: Sənsən mənə sultan, Pəri, can Pəri (Aşıq Əsəd).
buyuxmaq *bax* **1.** çaşmaq; **2.** üşümək
2. buyurmaq *bax* demək
3. buyurmaq *bax* gəlmək
1. BUZ, DON (*donmuş su haqqında*)
2. buz *bax* soyuq **1**
BUZDAĞI, AYSBERQ
buzlamaq *bax* donmaq **1, 2**
büğz *bax* kin
büxi *bax* paxıllıq
bükak *bax* dalda **1**

BÜLBÜL Saçdıqca ətrini hər səfalı gül; Ötürdü şaxlarda sevdalı *bülbül* (M.Rahim); **ƏNDƏLİB** (*kl.əd.*) Çəkilmiş guşəyə *bülbül*, foğanü nalələr eylər; Düşən gül üstə damə *əndəlibi*-zaro bonzətdim (Natəvan).
bülənd *bax* uca **1**
BÜLÖV (*kəsər alətləri itiləmək üçün daş*) [Həmidə:] Konarda hırıldaya-hırıldaya xəncərinin ağzını *bülövə* çəkən kobud qəssaba hirsi tutdu (H.Abbaszadə); **ƏZMƏ** (*məh.*) *Əzmiyə* çəkirəm, pıçağın ağzı itilənir (ADDL); **QART** (*dan.*).
BÜNÖVRƏ (*müəyyən bir tikilinin əsası və müxtəlif mənalarda*) [Nağı:] Eh, dünyanın *bünövrəsi* düz qoyulmayıb (M.İbrahimov); **BAZA** [Sumqayıtda] metallurgiyanın *bazası* qoyulur (Mir Cəlal); **BİNA** (*dan.*) Mahalım Göynükdür, şəhərim Şəki; Layiski kəndinin *binasıyam* mən (Molla Cümə); **TƏMƏL** Sülhün, eşqin, ağ günün, əbədi azadlığın; *Təməli* möhkəm olsun (M.Rahim).
bürhan *bax* dəlil
bürkü *bax* isti **2**
bürkülü *bax* bürkü
bürqə *bax* rübənd
bürokrat *bax* rəsmiyyətçi
bürokratizm *bax* bürokratlıq
bürokratlıq *bax* rəsmiyyətçilik
bürudət *bax* şaxta **1**
büryan *bax* isti **1**
BÜRÜMƏK ...Gördüm bir şölə asimana bülənd olub, işığı hər yeri *bürüyübdür* (Ə.Haqverdiyev); **ALMAQ** Çən *alıb* dağlar başını; Bağ başın, bağlar başını (Bayatı); **SARMAQ** Birdən qara buludlar *sarmış* göyün qatını (M.Rahim); **TUTMAQ** Simfoniyanın şöhrəti; *tutdu* Azərbaycanı; *Tutdu* bütün dünyanı (Ə.Kərim).
BÜRÜNMƏK Qaydasıdır, qara çarşat *bürünür*; Siyah zülfün ucu yerdən sürünür (Q.Zakir); **SARINMAQ** Molla əbasına bərk *sarındıqdan* sonra məktubu Qurbana oxudu (A.Şaiq); **ÖRTÜNMƏK.**
büsat *bax* dəbdəbə
büsatlı *bax* dəbdəbəli

BÜSBÜTÜN [Kəkilbəyov:] Xosrov bəy Soltanovun dediklori *büsbütün* düzdür (Ə.Vəliyev); **BAŞDAN-BAŞA** Bu dərə *başdan-başa* su qaynağı idi (A.Şaiq); **BİLKÜLLİYYƏ** (*köhn.*) [Şölə xanım:] Əlbəttə, gərəkdir vəzir bu işləri bilməyə, yoxsa xana bildirər, iş *bilkülliyyə* pozular (M.F.Axundzadə); **BÜTÜN** Hakim nəzərini güzgüdən çəkən kimi özünü *bütün* unutdu (B.Bayramov); **TAMAM** Otaqda adam xarici aləmi, sükutu, soyuğu *tamam* unudur (Mir Cəlal); **YEKSƏR** (*kl.əd.*) [Elm:] Qəti ümmid etmişəm, *yeksər* bu qövmi atmışam (M.Ə.Sabir); **TAMAMİLƏ** (*bax*).
büst *bax* heykəl **1**
BÜTÖV ...qorxaq olan adamların da qəlbində *bütöv*, kamil olan hər şeyə soyumaz bir həvəs yaşayır... (M.İbrahimov); **KÜLL** Görürsən bir yerdə tək-tük inkişaf etdiyi halda, başqa bir yerdə *küll* şəklində təşəkkül tapır (Ş.Fərzəliyev); **BÖLÜNMƏZ** Gəl, haqq sözü bölüşdürək sonrılo; *Bölünməzi* bölüşdürək sonrılə (M.Araz)

bütövlük *bax* birlik **1**
1. BÜTÜN Demoli, *bütün* qonşu uşaqları mərasimin dalınca gediblər (M.İbrahimov); **CƏMİ** O yerdir ki, orda *cəmi* dünyanın qeydi yadından çıxır... (Ə.Haqverdiyev); **CÜMLƏ** [Məhərrəm bəy:] Atamın siyahı dəftəri olmə düşdü. Baxıb gördüm ki, *cümlə* borcların üstünə öz xətti ilə qələm çəkilmişdi (S.S.Axundov); **HAMI** [Yusif:] Qızım, hirslənmə, mən *hamı* arvadları demirəm (N.Nərimanov); **HƏP** (*köhn.*) [Şeyx Sənan:] *Həp* cinayət, qadın cinayəti! *Həp* qadın cürmi-chtirası (H.Cavid); **KÜLL** [Fürüz:] Mən *küll* Azərbaycanda yeganə adamam ki, Şekspiri başdan-ayağa əzbərdən oxuyuram, ingilisco ha! (Anar); **TAMAM** Məhz vaxt keçirtmək üçün xərc çəkib qonaqlıqlar düzəldirdilər və *tamam* şəhərin axundlarını, tacirlərini dəvət edib, xörəkdən sonra ortalığa bir dini mübahisə salardılar... (Ə.Haqverdiyev).
2. bütün *bax* büsbütün
büvə *bax* böv

Cc

caddə *bax* prospekt

1. CADU [Xırda:] Ağa dərviş, deyirlər siz *cadu* ilə məcüzələr görkəzirsiniz, doğrudurmu? (N.Vəzirov); **ƏFSUN** [Əbülhəsən bəy:] Onun səsində də bir cadu və bir *əfsun* hiss edərək şaşırdım (M.S.Ordubadi); **FÜSUN** (*arx.*) Sehri, *füsunu* xoşlayın; Şairi, şeri başlayın (M.Ə.Sabir); **OVSUN** Ovsunçu *ovsun* eylər; Təşnəyə o su neylər? Yarsız dirilməz Səməd; Təbib yüz ovsun eylər (Bayatı); **SEHR** [Şahmar:] Bu qoca başqa qocadır, hər işi *sehrdir*, cadudur (A.Şaiq); **TİLSİM** [Qardaşxan:] Onu bil ki, mənim əlimdə ata-ana hökmündən də güclü *tilsim* var (M.İbrahimov).

2. cadu *bax* dua

cadubaz *bax* sehrbaz

cadubazlıq *bax* sehrbazlıq

caduçu *bax* sehrbaz

caduçuluq *bax* sehrbazlıq

cadugər *bax* sehrbaz

cadugərlik *bax* sehrbazlıq

cadukün *bax* sehrbaz

cadulamaq *bax* sehrləmək

cahan *bax* dünya

cahandar *bax* hökmdar

cahandarlıq *bax* hökmdarlıq

cahangir *bax* **1.** işğalçı; **2.** cahanşümul

cahangirlik *bax* işğalçılıq

cahannüma *bax* xəritə

CAHANŞÜMUL (*bütün dünyaya şamil olan*) [Nizami:] *Cahanşümul* şair olmaq üçün cahanın hadisələri içərisindən süzülüb çıxmaq lazımdır (M.S.Ordubadi); **ALƏMŞÜMUL** [Atabəy:] Məhsəti xanım kimi *aləmşümul* şöhrətə malik olan bir qadın nəzərimə dəyməmişdir (M.S.Ordubadi); **CAHANGİR** [Atabəy Qətibəyə:] Sənin atan hökmranlıq etdiyi bir məmləkətdə iki *cahangir* şair bir arıq inəyin südü ilə yaşayır (M.S.Ordubadi).

cah-calal *bax* dəbdəbə

cah-calallı *bax* dəbdəbəli

cahıl *bax* cavan

cahıllaşmaq *bax* cavanlaşmaq

cahıllıq *bax* cavanlıq

cahil *bax* avam

cahillik *bax* avamlıq

CALAQ Xülasə bu alma ağacı elə bir şöhrət qazandı ki, hər yerdən gəlib ondan qələm aparıb *calaq* caladılar (R.Əfəndiyev); **PEYVƏND** Dənələrim – *peyvənd* gilənar; otirli, meyxoş; Nə yeyib doymaq olurdu; nə yerə qoymaq olurdu (R.Rza); **DÖYCƏ** (*məh.*).

calaqlamaq *bax* calamaq **1**

calal *bax* əzəmət **1**; şövkət

1. CALAMAQ [Dədilər:] Ey baba, sənin yüz yaşın var, toxumdan çıxan cırı *calayıb* əmələ gətirəndən sonra meyvəsini görməyə çox ömür istər, zəhmət çəkmə, bu sənə çatmaz (R.Əfəndiyev); **CALAQ ETMƏK (ELƏMƏK)** Qaratikan dedi: – Məni *calaq edin* palıda; Qoruyaram gövdəsini; Başı dəyər buluda (H.Ziya); **PEYVƏND ETMƏK (ELƏMƏK)** [Baba:] Bu toxumdan xırda alma ağacı bitəcəkdir, sonra *peyvənd edəcəyəm* (R.Əfəndiyev); **CALAQLAMAQ, PEYVƏNDLƏMƏK.**

2. CALAMAQ ...Südü yerə *calayırdılar* (C.Məmmədquluzadə); **CARLAMAQ** Eskalatorda elə bil onu vurğun vurdu. Başına qaynar su *carladılar* (Ə.Mustafayev); **ƏNDƏRMƏK** [Aytəmiz:] Elə axırıncı vedrəni *əndərib* təzəcə başlamışdım ki, üçüncü dəfə yumağa, Mila xanım girdi içəri (Ə.Qasımov); **TÖKMƏK** (*bax*).

cam *bax* piyalə

CAMAAT Daş oynatmağı öyrənməyini və Həştərxanda *camaat* qabağında çıxışlarını Həmid heç anasına da deməmişdi (H.Abbaszadə); **ALAY** Zeynal matəm *alayını* tələb edənlərə məxsus məyus addımlarla sahil boyu ilə evə qayıdırdı (M.Hüseyn); **ALƏM** (*dan.*) Şerim bu hikməti *aləmə* bildir; Xəyal ölənləri bəzən dirildir (M.Rahim); **XALQ** (*bir yerin, bir ölkənin camaatı*) Demə, özizimdir ev adamları; De, mən bu *xalqınan*

xalq da mənimdir (B.Vahabzadə); **EL** Palaza bürün, *el* ilə sürün (Ata. sözü); **ELAT** (*köhn.*) [Firəngiz:] Yığıncaqda bu barədə danışarıq, *elatın* fikrin öyrənirik (B.Bayramov); **EL-OBA** *El-oba* Nəbini öz gözünün didəsi kimi qoruyub saxlasa da, Sarımsaqoğlu kimi şeytan-şuğul bu qızıl vədindən ötrü işə girişdi (S.Rəhimov); **EL-ULUS** Muğana su gəlir, Milə su gəlir; Axışıb öz *eli-ulusu* gəlir (S.Vurğun); **ƏHALİ** *Əhalinin* artıq bu cür işlərə əhəmiyyət vermədiyini göstərdim (M.S.Ordubadi); **FÖVC** (*köhn.*) [Ağa Məhəmməd şah Qacar:] Mirzə Cəfər xan, çıx binagüzarlıq et, bir neçə gün Əli xanı bargahda saxlasınlar və bir şəxs onun gözlərinin çıxdığını bilməsin və əlavə binagüzarlıq edərsən Əli xanın qoşununun bir hissəsini azad eləsinlər və qalanını sair *fövclərə* paylasınlar (Ə.Haqverdiyev); **İZDİHAM** Körpüdə *izdiham* çox idi (T.Ş.Simürğ); **KÜTLƏ** Musa kişi maraqla *kütlənin* içərisinə girmək istəyən Firidunu gördü (M.İbrahimov).

camadar *bax* hamamçı

camaxatan *bax* taxça

camal *bax* **1.** üz; **2.** gözəllik

camaşır *bax* paltar; dəyişək

came *bax* məscid

can *bax* **1.** ruh; **2.** bədən; **3.** insan

CANAMAZ Atam namaz qılmazdı. Bir səhər evimizdə qonaq qalmış bir hacı namaza başlar-başlamaz, atam da *canamazı* çıxarıb namaza durdu (Çəmənzəminli); **SƏCCADƏ** Yolun üstündə sala canımı *səccadə* mənə; Bütün aşiqlərə bu barədə fərman edəcəm! (A.Şaiq); **NAMAZLIQ.**

canan *bax* sevgili **1**

1. CANAVAR (*yırtıcı çöl heyvanı*) Tülkü dedi: – *Canavar;* Bu yaxında bir at var... (M.Seyidzadə); **QURD** Bir zaman tülkü, *qurd*, həm aslan; Hər üçü bağladı belə peyman; Ki bu gündən olə nə düşsə şikar; Üç yerə qismət eyləsin onlar (A.Şaiq); **YALQUZAQ** (*tək gəzən canavar*) Söhbət yaxşı məqsədlər naminə özünü oda-alova atan kişilərdən, qış gecələrində kəndə soxulan *yalquzaqlarla* vuruşan igidlərdən, qorxulu keçidlərdə tək-tənha pusquda duraraq ac yırtıcılara atəş açan qoçaqlardan düşəndə bilərsiniz (M.İbrahimov).

2. canavar *bax* vəhşi **1**

canavarcasına *bax* vəhşicəsinə

canavarlıq *bax* vəhşilik

CANBAZ [Alo:] Məzarət uşaqları ortalığı vurdurub camaatı *canbaza* çıxardılar (S.Rəhimov); **KƏNDİRBAZ** *Kəndirbazın* keçə papaq adlanan (sirklərdəki klounları xatırladırlar) köməkçisi vardır (Ə.Haqverdiyev); **AKROBAT.**

CANBAZLIQ [Səlbnaz xanım:] Bir gün olmaz ki, bu xarabada dava *canbazlıq* olmasın (N.Vəzirov); **KƏNDİRBAZLIQ** [Paşa:] O xocalət çəkən olsaydı, belə *kəndirbazlıq* eləməzdi (N.Vəzirov); **AKROBATLIQ.**

canfəşanlıq *bax* səy

CANİ Bu gün o [Fikrət], yenə ağır cinayət işlətmiş *canini* mühakimə eləməyə gəlmişdi (H.Abbaszadə); **BƏDƏFKAR** (*köhn.*) [Çəpurov:] Kəlbalı naməlum bir *bədəfkar* tərəfindən qəflətən vurulmuşdu (S.Rəhimov); **CİNAYƏTKAR** Şəhər valisi bəzi müqəssir və *cinayətkarlara* qanuni cəza vermək əvəzinə, onları Ərk həbsxanəsində dustaq edib. Zorla tiryək çəkməyə alışdırdı (A.Şaiq); **QANLI** *Qanlı* pıçıldadı, görərkən sonı; Cürət eləmədən dodaq altında (M.Rahim); **QANTÖKƏN** (*yalnız adamöldürən cinayətkar*) [Odabaşı:] Hər bir cani, *qantökən*, yolkəsən ki, divan əlindən qaçıb onun [Əhmədağanın] evinə girməyi... özünə mümkün elədi, daha bir siyasətində özünü (azad) hesab edərdi (Ə.Haqverdiyev); **QATİL** (*qatı cinayətkar*) [Xanımana:] Hara gedirsən, *qatil*, bura gəl! (A.Şaiq); **QƏTLKAR** (*arx.*) "Minbərdə molla yerdə də ciburü *qətlkar* (Ə.Nəzmi); **MÜQƏSSİR.**

CANİŞİN (*köhn., hökmdarı əvəz edən və s.*) Çar tərəfindən təyin edilmiş *canişin* burada yerləşir, Zaqafqaziya ilə birlikdə Dağıstan vilayətini də o idarə edirdi (A.Şaiq); **NAİB** (*köhn.*) Axşamlar dağları alınca duman,

Bir təpə başında, yanında köpək; Xan, *naib* əlində çəkərək aman; Yanıqlı-yanıqlı çalırdı tütək... (A.Şaiq); **SƏRDAR** Gorus naçalnikindən başlayıb.. Tiflisdəki *sərdara* qədər padşaha hey xəbər yazırlır.. (S.Rəhimov).

canlı *bax* diri

cansağlığı *bax* sağlamlıq

CANSIXICI Hər şey *cansıxıcıdır* (M.İbrahimov); **ƏTTÖKƏN** Sonra əlavələr başlandı. Cansıxıcı, *əttökən* əlavələr... (Ş.Qurbanov); **QƏMAVƏR** Badkubənin *qəmavər* işlərindən qaçıb bir qədər təsəlli tapmaq istədim, o da belə çıxdı; **YEKNƏSƏQ** (*məc.*) Dərədə çayın boğunuq və *yeknəsəq* uğultusundan başqa bir səs eşidilmirdi (M.Hüseyn); **YEKRƏNG** (*məc.*) [İblis:] Səni pək aldatıyor hissiyyat; Öylə *yekrəng* olaraq keçsə həyat (H.Cavid).

cansız *bax* arıq

cantıraq *bax* kök **1**

canyandıran *bax* səyli

canyandıranlıq *bax* səy

CARİ (*vəziyyətə dair*) Səttarxan.. qısa olaraq *cari* vəziyyət və gələcək vəzifələr haqqında danışmaq üçün Əli Səhlanlıya söz verdi (A.Makulu); **HAZIRKI** [Qızıl Arslan Toğrula:] Sənə çox gözəlcə məlumdur ki, *hazırkı* hökmdarlıq atamız Eldənizin qılıncı və rəhmətlik anamız Türkan xatunun tədbirləri sayəsində düzəlmişdir (M.S.Ordubadi); **İNDİKİ** Nə edəsən ki, Safo *indiki* ağır vəziyyətini.. özü üçün səfalı bir aləm kimi görürdü (S.Rəhimov).

cariyə *bax* qarabaş, xidmətçi **1**

carlamaq *bax* calamaq **2**

carubkeş *bax* süpürgəçi

CASUS Ən satqın *casus* sənsən (M.Hüseyn); **AGENT** *Agentlər* qayığı Qaraşəhər körpüsündə gözləyirmişlər (A.Şaiq); **SPİON** [Vəli Hüseyn:] Bu nə sözdür, biz məgər *spionuq*? (Ə.Haqverdiyev).

CASUSLUQ [Alo:] Demək *casusluq* eyləyirmiş it oğlu! (S.Rəhimov); **SPİONLUQ** [Mozalan:] Hər yerdə gördünüz səy edin, çalışın, verin, *spionluq* eləmolidir eloyin... (Anar); **AGENTLİK.**

CAVABDEH (*bir işə məsul olan*) [Mirhadi:] Allah eləməmişkən sənə bir şey olsa, qol-qıçın sınsa, day mən *cavabdeh* deyiləm (H.Abbaszadə); **CAVABDƏHƏNDƏ** [Molla Qafar:] Hər bir gəda bir mərəkə açacaq, Molla Qafar *cavabdəhəndə* olacaq... (S.Rəhimov); **MƏSUL** Mirzağa [Cəmiloni] istirahət evinin bir xidmətçisi və ya *məsul* bir işçisi zənn etdi (S.Hüseyn).

CAVABDEHLİK Təmirin bütün *cavabdehliyi* Ümidin üzərində idi (B.Bayramov); **CAVABDƏHƏNDƏLİK** Ümumun qarşısında danışdığı *cavabdəhəndəlik* onu ancaq belə tərpənməyə məcbur edirdi (S.Rəhimov); **MƏSULİYYƏT** Haşım bəyin özü olduqca qaba bir adamdı.. heç bir *məsuliyyət* duymazdı (Çəmənzəminli).

cavabdəhəndə *bax* cavabdeh

cavabdəhəndəlik *bax* cavabdehlik

cavahir(at) *bax* daş-qaş

CAVAN Oğlan, sən uşaqsan, *cavansan* hələ; Yenicə cisminə düşüb volvolə (M.P.Vaqif); **CAHİL** (*dan.*) [Nənəxanım:] Qoy *cahildır* gəzsin! (Çəmənzəminli); **GƏNC** Mən vücudca qocalsam da qəlbim *gəncdir* (A.Şaiq); **MALAY** (*köhn.*) (Balaqardaş:) ..Sənin bir *malay* nökərin var idi, o necə oldu? (N.Vəzirov); **NÖVCAVAN** ..Ahisəhərimdən asibü zərər; Qorxuram yetişə, *növcavan*, sana (Q.Zakir); **YENİYETMƏ** Uzunboylu, *yeniyetmə*, növcavan; Məni bu dərdlərə salan oynasın (M.P.Vaqif).

CAVANLAŞ(N)MAQ Xeyli *cavanlaşır*... ər də ki ancaq; Belə şux arvada əsir olacaq (M.Rahim); Yaşadıqca *cavanlana*, enlənə; Bir hicabda, bir pərdədə əylənə (M.P.Vaqif).

CAHILLAŞMAQ Çünki kərbəlayi Hatəmxan gözləri çıxarılan, daha doğrusu, gözləri torpaqlanan Hacı Səfiqulunun, onun oğlu Səyavuşun, yaxud dağ boyda pristav sayılan Talıbxanın kökünə düşməkdən çəkinirdi, bir gecə Göyərçinin ıştıyaqında olub *cahilləşmaq*, cavanlaşmaq arzusunda olsa da qorxurdu (S.Rəhimov); **GƏNCLƏŞMƏK**

[Eldar İsmayıllı:] Mən *gənc*ləşmək, bundan sonra on, iyirmi, bəlkə də otuz il yaşamaq... Mən gənclıqdıyimi hiss edirdim, mən, mən *gəncləşirdim*... (M.Hüseyn).

cavanlıq *bax* gənclik

cavid *bax* ölməz **1**

cavidani *bax* cavid

caydaq *bax* ucaboylu

caydaqlanmaq *bax* uzanmaq **2**

1. CAYNAQ (*quşlarda*) Basqın etdi birdən-birə; Soxuldu el torpağına; Qırğın saldı o ellərə; Aldı quzğun *caynağına* (A.Şaiq); **QAYNAQ** (*məh.*) O necə quş idi qayada sakər; *Qaynağı* neştərdir, qanımı tökər... (Xəstə Qasım).

2. CAYNAQ (*heyvanlarda*) [Tülkü] qabaq caynaqları ilə torpağı eşib tökdü (İ.Hümmətov); **CIRNAQ** Tülkü yenə bir möhkəm gorneşdi, *cırnaqları* ilə torpağı eşələdi (İ.Hümmətov).

cazibədir *bax* caziboli

CAZİBƏLİ (*hamını özünə cəlb edən*) O, yalnız indi yoqin etdi ki, Gülcamal, füsunkar bir mələk qədər *cazibəli* görkəmi ilə qapıya gəlməyəcək (M.Hüseyn); **CAZİBƏDAR** Gözləri nə qədər *cazibədar* idi (Ə.Qasımov); **CƏLBEDİCİ** [Ruzbeh:] Tutaq ki, mən sabahkı xoş güzəran naminə, sizin təsəvvür etdiyiniz kimi gələcək *cəlbedici* mənzərə naminə bütün varlığımla nifrət etdiyim və nifrətlərini duyduğum adamlarla sazişə gəldim... (M.İbrahimov); **CƏZBEDİCİ** O, yetişmiş gözəl bir qız kimi *cəzbedici* idi (S.Vəliyev); **DİLFİRİB** (*kl.əd.*) [Şeyx Sənan:] O bulutlar nə, öylə rəngarəng?! Bu nə qüdrət! Nə *dilfirib* ahəng! (H.Cavid); **MƏLAHƏTLİ** Bu *məlahətli* baxışlar quzu, ceyranda olur (Ə.Vahid); **SEVİMLİ** Onun ən gözəl və *sevimli* xüsusiyyətlərdən birisi zahiri görünüşündə olan məhcubluğu, həyalılığı .. idi (M.S.Ordubadi).

CEHİZ [Turac:] Demək, özünə əlaltından *cehiz* düzəldirmişsən? (İ.Əfəndiyev); **DƏDƏMALI** (*məh.*) [Molla Nəsrəddin:] Bu qızılları ki, sayırdım, o mənim arvadımın *dədəmalısıdır* (M.N.İot.); **DƏDƏVERDİ** (*məh.*) Ay balam, o, arvadın *dədəverdisidir* (S.Rəhimov); **QALAN** (*köhn.*) *Qalan* haqqında fikrini öyrənmək istədik, qızlarını *qalanstz* ərə vermiyəcəyini söylədi (Çəmənzəminli).

CEYRAN ...Söz qoşub *ceyranın* qara gözünə; Dincini aldınmı bir göy çəməndə? (S.Vurğun); **AHU** İttifaqən, bir gün gəlməyib *ahu;* Aldı yoldaşların canını qayğu (Q.Zakir); **ÇÖLLƏR QIZI** (*şair.*) Ovçu insaf elə, keçmə bu düzdən! O *çöllər qızını* ayırma bizdən; Qoyma ağrı keçə ürəyimizdən; Qoyma öz qanına boyana *ceyran!* (S.Vurğun).

cəbarut *bax* əzəmət **1**

CƏBHƏ Odur səni oğul kimi *cəbhələrdən* keçiron; Odur sənə olloriylə abu-həyat içiron (M.Rahim); **CƏDƏLGAH** Bizi bu *cədəlgaha;* Atar-atmaz anamız; Başlar mühitinizdə; Coşmaya fırtınanız (M.Müşfiq); **DAVA MEYDANI** Gültəkin deyir: "Mən hələ indiyə qədər *dava meydanında* basılmamışam, hansı igid mənimlə vuruşmada qalib gəlsə, mən onunam.." (Çəmənzəminli); **MÖVQE** Moskva müdafiəsinin şanlı günlərində bir *mövqeyimiz* üzərinə onlarca tank gəlirdi (M.Hüseyn); **VURUŞMA MEYDANI** Evlərin damına çıxmış alagözlü, şümşadboylu qızlar.. mahnı oxuyub *vuruşma meydanına* yola düşənlərə xeyir-dua verirdilər (M.Hüseyn).

I CƏBR (*riyaz.*), **HESAB**

II cəbr *bax* güc

cəbrən *bax* güclə

cəbri *bax* məcburi

cədəlgah *bax* cəbhə

cədid *bax* təzə

cəfa *bax* əzab; zəhmət **2**

cəfakar *bax* zalım

cəfalı *bax* əzablı

CƏFƏNG(İYAT) Vəliyev onun [Xələfin] yazdığını oxuyub *cəfəngiyat* adlandırmış, ondan "ağlını toplayıb adam kimi" işləməyi tələb etmişdi (Y.Şirvan); **BOŞ DANIŞIQ** [Kəlbiyev:] Bu quyu barədəki *boş danışıqlar*

məni cana gotirib (M.İbrahimov); **HƏDYAN** (*dan.*) [Səlim bəy:] Mən də gərək acısusuz bu *hədyana* qulaq asam (N.Vəzirov); **HƏRZƏ** (*dan.*) [Bənövşə:] Bu *hərzə* mənim ciyərimi yandırdı (M.İbrahimov); **YALANPALAN** [Mirzə:] *Yalan-palandan* sonə sonra söyləyərəm.. (Ə.Haqverdiyev).

CƏFTƏ (*qapının arxa tərəfində düzəldilən qarmaq*) Daxmanın boz divarları, *cəftəsi* qırılmış qapısı, birtaylı pəncərəsi həsrətlə Pərini çağırırdı (M.İbrahimov); **MANDAL** (*məh.*) *Mandal* qapıda olar (ADDL); **RƏZƏ** (*dan.*) Ağca xanım qanının *rəzəsini* vurdu (Mir Cəlal).

cəhalət *bax* avamlıq
cəhd *bax* səy
cəhdli *bax* səyli

CƏHƏNNƏM (*din.*) [Vaqif:] Canım, nə *cəhənnəm*, nə cənnət vardır; Bunlar da bir cürə uydurmalardır (S.Vurğun); **AXİRƏT DÜNYASI** [Vidadi:] Axırda qismətin olacaq cənnət; *Axirət dünyası* qalacaq bizə (S.Vurğun); **DUZƏX** (*köhn.*) Və bir gün məscidə əsnayi moizədə Axund Molla Tağı deyərdi ki, Həqq-təala cəlli-cəlala buyurur ki, *duzəxdə* bir ilan var ki, uzunluğu altmış fərsəxdir (C.Məmmədquluzadə); **NAR** (*kl.ed.*) Ey ümmət-i-Məhəmmədə rəhm etməyən kişi; *Nar* əhlisən, güvənmə nəmazü təharətə (M.Ə.Möcüz); **SƏQƏR** (*arx.*) Mənzilinizdir *səqər*, oxutmuram əl çəkin! Eyləməyin dəngəsər, oxutmuram əl çəkin! (M.Ə.Sabir).

cəhət *bax* **1.** xüsusiyyət; **2.** tərəf **1**
cəlal *bax* əzəmət **1**
cəlbedici *bax* cazibədar
cəld *bax* **1.** çeyin, əlüstü; **2.** çevik **1**; zirək
cəldlik *bax* zirəklik
cələ *bax* tələ
cələsə *bax* iclas

CƏLLAD [Xan:] *Cəllad* çağırıb əmr elədim ki, Alı kişinin boynunu vursun ("Koroğlu"); **BAŞKƏSƏN** [Salman:] Mən o evyıxanları, o *başkəsənləri* deyirəm ki.. quzğun kimi tökülüblər Koreyaya (Mir Cəlal); **MİRQƏZƏB** [Mollayev] bir gün mehriban görünür, adamı torifləyib göyə qaldırır, o biri gün *mirqəzəb* kimi başını korş balta ilə kəsir (M.Hüseyn).

cəmdək *bax* **1.** leş; **2.** bədən

CƏMDƏKYEYƏN (*zool.*), **LEŞYEYƏN**
cəmən *bax* elliklə
cəmi *bax* **1.** bütün **1**; **2.** vur-tut
cəmi-cümlətən *bax* vur-tut

CƏMİYYƏT Bir qütbdə Əzim osgorilori ehtiyacın poncosinə verib horisliyə, acgözlüyə sövq edən *cəmiyyət*, o biri qütbdə ya insan iztirablarına qarşı kar və kor olan qansızlar yetirir, ya da orada namuslu no varsa bu biri qütbə keçməyə məcbur edirdi (M.İbrahimov); **SİNİF** [Müqim bəy:] İstismarçı *sinfin* möhtəkir nümayəndəsinin ölümünə acıyırsınız (S.Rəhimov).

cəmləmək *bax* yığmaq, toplamaq **1**

CƏNAB (*müraciət forması*) [Nəbi Kəxaya:] Sən mənim adımdan, *cənab*, zəhmət çok; Səlim bəyə de ki, toyun mübarək (S.Rüstəm); **AĞA** [Güləbotin yuxuda:] məni bağışla *ağayi*-kapitan, keç günahımdan, qələt eləmişəm (M.İbrahimov); **MİSTER** Tez əlimi salıb cibimə; mən də bir şəkil çıxarıram: – Bunlar da mənim uşaqlarımdır, *mister!* (R.Rza); **SER** Deyəcəklər buraya ayaq basıbdır nədən; *Serlərə*, misterlərə no söyləyim onda mən? (M.Rahim).

cənazə *bax* meyit; tabut

CƏNCƏL [Mina xanım:] Xahiş edirəm, bu *cəncəli* axıra çatdır, sənınki keçib, belə şeylərə öyrənmisən (M.İbrahimov); **DAVALI** Məcməyidə gavalı; Yedim, oldum havalı; Qonşuda bir qız sevdim; O da çıxdı *davalı* (Bayatı); **XATALI** [Balağa:] *Cəncəl, xatalı* adamdan gen dolanmaq məsləhətdi (H.Abbaszadə); **QƏNBƏRQULU** [Xaspolad:] İnsanın gərək zatı *qənbərqulu* olmasın (C.Cabbarlı); **ƏNGƏL** (*bax*); **QALMAQALLI.**

I cəng *bax* müharibə
II cəng *bax* pas
cəngavər *bax* döyüşçü; cosarətli

CƏNNƏT (*din.*) *Cənnətin* onbərin qapıları usta Ağabalanın üzünə açıldı (Çəmənzəminli); **BEHİŞT** [Cavad:] İkinci budur ki, istəyirəm savab iş görəm ki, dünyada *behiştə* gedəm (Ə.Vəliyev); **RİZVAN** (*məc.*) Vahid, zəmanə xublori keçdi connəti; Zahid hənuz rövzeyi-*rizvanə* bağlanıb (Ə.Vahid); **UÇMAQ** (*arx.*) Oldur bu gecə ki, ohli iman; *Uçmaq* ilə cavidan qovuşdu (Xətayi).

CƏNUB Bizim aynabənd *cənuba* baxdığından yayda çox isti olur, qışda isə o qədər də soyuq olmur (M.İbrahimov); **GÜNEY** [Hüseyn:] Gərək o adamın dədosino od vurasan və elə vurasan ki, heç bilməsin ki, bəla *güneydən* gəldi, ya quzeydən (N.Vəzirov); **QİBLƏ** (*köhn.*) Ağıçı Bədircahanın evi şəhərin *qiblə* tərəfində, qayanın üstündə, çox başəfa olan yerdədir (N.Vəzirov).

cərəs *bax* zınqırov

1. CƏRƏYAN, AXIN Belə bir zoruri *axına – cərəyana* qoşulan Bəktaşi Bəybala oğlu, istəsin-istəməsin öz maşınlarını da bu yeniləşən, gündən-günə əfsanələşən döyüşdə öz yanında .. görürdü (S.Rəhimov).

2. CƏRƏYAN (*fiz.*) Keçirici mühitdə əmələ gətirilən elektrik sahəsi *cərəyan* əmələ gətirir (Z.Kazımzadə); **TOK** (*dan.*) [Toğrul:] Sən ölməsən, məsləkino and olsun ki, *tok* altında ölməsən, yaşılburun qurbağanı sənə alacağam.. (C.Cabbarlı); **ELEKTRİK ENERJİSİ.**

cərgə *bax* sıra **1**; nizam **2**
cəridə *bax* qəzet

CƏSARƏT Bu fikir onu qorxutmadı, əksinə qəribə bir *cəsarət* verdi, bir sıçrayışda ayağa qalxıb Sərdarın gözünün içino baxdı (M.İbrahimov); **CÜRƏT** *Cürət* yox kimsədə düz yol getməyə; Haqqı, həqiqəti inkar etməyə... (M.Rahim); **ƏZM** Donizlər söndürə bilmədi səndəki odu; Nə *əzm* qırıldı, nə də soyudu (M.Rahim); **QƏTİYYƏT** Onun simasında ağır iztirabların izi və bir *qətiyyət* vardı (M.Hüseyn); **RİSK** Mühəndis.. böyük *risklər* noticəsində başa gələn ən çətin işləri də görüb qurtarmağı bacaran ustaların soviyyəsini o zamankı neftçilərin soviyyəsi ilə tutuşduranda uğunub getdi (M.Hüseyn); **ŞÜCAƏT** Eldənsən, unutma el adətini; Göstər cürətini, *şücaətini* (S.Rüstəm); **HÜNƏR** (*bax*); **İGİDLİK** (*bax*).

CƏSARƏTLİ [Firəngiz Şahino:] Bu cəsarət deyildir, özünü *cəsarətli* göstərməkdir (B.Bayramov); **ƏZMLİ** [Qadının] zahiri gözəlliyindən daha dərin təsir edən qoti cürətli, *əzmli* danışığı idi (T.Ş.Simürğ); **ÜRƏKLİ** İşdə qüvvətli oğlanlarda, *ürəkli* kişilərdə bu qədər cürət tapılmaz ikən, nə əcəb son bu işi dərəhdə etdin (N.Nərimanov); **CƏNGAVƏR, CÜRƏTLİ, HÜNƏRLİ** (*bax*); **İGİD** (*bax*).

CƏSARƏTSİZ (*cürəti, cəsarəti olmayan*) Student həlim və *cəsarətsiz* sözlə: – Bağışlayım, sizə əziyyət verirəm (Çəmənzəminli); **CÜRƏTSİZ** [Zeynəb:] Oğlan *cürətsiz* olsa, qızlar onun başına oyun açar (İ.Şıxlı); **QORXAQ** Üzü uçurıma durmuşdum; *Qorxaq*, xəbərin olmadı (M.Araz); **KƏMCÜRƏT** Gözəlin bəzisi bədniyyət olur; ..O ki bir parası *kəmcürət* olur (Q.Zakir).

cəsəd *bax* **1.** meyit; **2.** bədən
cəsur *bax* **1.** igid; **2.** şanlı
cəsurluq *bax* igidlik

CƏZA [Elxan:] Mən, verilocək *cəzanı* gözləyirəm (C.Cabbarlı); **ƏCR** Zülm edən kimsələrin *əcri* budur (M.Rahim); **QULAQBURMASI** (*dan., yüngül cəza*) [Dayısı Nadiro:] Bacıoğlu, görünür *qulaqburması* yadından çıxıb hə? (B.Talıblı); **TƏNBƏH** [Hacı Həsən:] Nə *tənbəh* lazımdır, mən eləyim.. (C.Məmmədquluzadə).

CƏZALANDIRMAQ [Pavluşa:] Qoy təşkilat məni *cəzalandırsın* (M.S.Ordubadi); **AŞININ SUYUNU VERMƏK** (*fr.v.*) Bəhmənin əlləri gicişirdi. Əgər bu həyasız kişi Qəni əminin doğma oğlu olmasaydı ayaqlarının altına yıxıb, onun *aşının suyunu verərdi* (H.Abbaszadə); **ATASINI YANDIRMAQ** [Xəlil:] Qoy bir işlərim yoluna düşsün, mən onun *atasını* necə *yandıraram*, özüm bilirəm (M.Hüseyn); **BURNUNU OVMAQ** [İbra-

him xan:] Kolboli qudurub, məni tanımaq istəmir. Onun *burnunu ovmaq* lazımdır (Çəmənzəminli); **DƏRİSİNİ SOYMAQ** (*fr.v.*) [Aslan bəy:] Tarverdi get uşaqlara söylə ki, odun yığıb qayanın başında bir çıraqban etsinlər ki, bütün mahal işığını görməsə, *dərilərin soyaram* (C.Cabbarlı); **DİVAN TUTMAQ** [Kosaoğlu:] İndiyə qədər mən üzüyumşaqlıq elomişəm, bundan sonra kolxozun işinə mane olanlara *divan tutmaq* mənim boynuma! (İ.Şıxlı); **GÖNÜNÜ ALMAQ** [Ağa Kərim:] Tez ol, yoxsa, vallah, *gönünü allam* (N.Vəzirov); **GÖNÜNÜ SOYMAQ** (*fr.v.*) [Yaxşı:] Qayının.. monim *gönümü soyardı* (C.Cabbarlı); **QULAQBURMASI VERMƏK** [Mirzə Əsgər:] Lazımdır ki, bir *qulaqburması verib*, sonra bir iş üstə qoyasız, bikar gozməsin (N.Vəzirov); **TƏNBEH ETMƏK (ELƏMƏK)** [Mürtəzaqulu xan:] Amma gorək Ağa Məhəmməd əsir olub əlimə keçə, and olsun Allaha, ona bir elə *tənbeh edəcəyəm* ki, min baş kəsmiş cəllad ağlasın.. (Ə.Haqverdiyev).

cəzbedici *bax* cəzibəli
cəzirə *bax* ada
cıdırçı *bax* mimici **1**
cığa *bax* kökil
cığalı *bax* kökilli
cığır *bax* yol **1**
cığnamaq *bax* tapdalamaq
1. cıqqa *bax* başlıq **1**
2. cıqqa *bax* kökil
cıqqılı *bax* balaca
cılız *bax* arıq
cında *bax* əsgi

CIR Bu zaman Səlim əyri və yarpaqları tökülmüş, başında bir neçə *cır* qayısı olan ağacı göstərib güla-güla dedi: – Salam dayı, bu qayısılar da sizindir? (A.Şaiq); **VƏHŞİ** Çınara dırmanmış *vəhşi* meymunlar; Qaralmış göyəmlər, deyir məni dor (A.Şaiq); **YABANI** [Valeh:] Meşədəki *yabanı* alça, alma, armud çiçəklərinin hər biri parlaq günəş işığında bir rəng çalırdı (İ.Əfəndiyev).

cır-cında *bax* cır-cındır

CIR-CINDIR (*gərəksiz, qeymayə yaramayan*) [Bəhram:] Nəsildən nəslə *cır-cındır* içində yaşamaq olmaz, ay bala (Anar); **CIR-CINDA** [Eyvaz arvadına:] Dur *cır-cındanı* yığ, gedək qazının yanına, soni boşuyuram (Çəmənzəminli); **ƏSGİ-ÜSGÜ** [Hacı Murad:] Di gəl bax, gör burada *əsgi-üsgüdən* başqa nə var (S.S.Axundov); **ŞƏLTƏ** .."Ey, bu *şaltələri* topla!" – deyə bar-bar bağırır (A.Şaiq).

CIRIQ Görünür övcunda kondir izləri; *Cırıq* şalvarından çıxmış dizləri (S.Vurğun); **ÇAK** (*kl.əd., arx.*) Hər neçə cəhd etdim, əlyim damonino yetmədi; Payi-busin həstətindən eylərəm yaxamı *çak* (Xətayi); **YIRTIQ** ... özü çirkli, *yırtıq* və kirli paltar geyirdi (Ə.Sadıq).

cırnaq *bax* caynaq **2**; dırnaq **1**
cız *bax* cızıq

CIZIQ Sultan ayağa qalxanda kreslonu elə qəzəblə itələdi ki, parket döşəmədə ağ qoşa *cızıqlar* düşdü (İ.Hüseynov); **XƏTT** Kağızda dikino çəkilən *xətlərin* sayı indi beş idi (Ə.Əbülhəsən); **CIZ** [Bədircahan:] Bu *cızılardan* yüz iyirmi iki görünür (N.Vəzirov).

CİB ..Əziz əlimi *cibinə* atdı (S.Rəhman); **KİSƏ** (*dan. zar.*) Nisyo, girmoz *kisəyə* (Ata. sözü).

cibəgirən *bax* cibgir

CİBGİR (*cib oğrusu*) ..dükan yaranlara, *cibgirlərə*, adam öldürənlərə açıq nifratlo baxardılar (M.İbrahimov); **CİBƏGİRƏN** [Direktor:] Bolko sonin övvol işlədiyin yerdo cibəgirənlər olub.. (M.Hüseyn); **CİBKƏSƏN** [Paşa:] Adları boy, özləri *cibkəsənlər*. dəlləklər, quldurlar!.. (N.Vəzirov).

cibkəsən *bax* cibgir
cibləmək *bax* oğurlamaq
cici *bax* ana
cida *bax* nizə
cidd-cəhd *bax* səy
ciddən *bax* doğrudan

1. CİDDİ *Ciddi* bir qız idin ağlı başında! (Ə.Cavad); **AĞIRBAŞLI** (*çox ciddi*); **TƏMKİNLİ.**

2. ciddi *bax* tələbkar **1**
3. ciddi *bax* zarafatsız
4. ciddi *bax* ağırtəbiətli
cift *bax* cüt **1**

CİN Dəllallar ilə hiyləgə şeytan da bacarmaz! Şeytan nəçidir, *cin* nədi, xortdan da bacarmaz! (Ə.Vahid); **ƏCİNNƏ** [Nocof:] Tovuz dorosi *əcinnə* yeridir: şoyatin yığıncağına rast golibsiniz? (M.F.Axundzadə).

CİNAH (*hərbi*) Qoca durduğu toponin sağ *cinahında* qaralan ağaclığı nişan verdi (H.Abbaszadə); **TƏRƏF** (*cəbhənin, qoşunun, sıranın sol və ya sağ tərəfi*).

CİNAS, KALAMBUR (*təlaffüzcə birbirinə yaxın, mənaca müxtəlif olan sözlər*)

cinayətkar *bax* cani
cindar *bax* səhrbaz
cindarlıq *bax* səhrbazlıq
cinlənmək *bax* hiddətlənmək
cinlətmək *bax* hiddətləndirmək

1. CİNS Bir də orob *cinsindən* on iki ağ at apar (M.Rahim); **DİŞİ** [Müsyö Jordan:] ..Qarabağın olyetməz *dölündən* köhlən at altında golib sizo qonaq olan xoşboxt adam ..bu qədər dövləti haradan olə salardı? (M.F.Axundzadə).

2. CİNS, ÇEŞİD (*mal cinsi*); **NÖV**
3. cins *bax* soy

CİNSLİK, DÖLLÜK, DİŞİ, DAMAZLIQ

cisim *bax* **1.** şey; **2.** bədən

CİVAR (*ətraf yerlər, yaxın yerlər*) ..şəhər *civarında* çöllükdə atılmış kağız, qəzet parçaları da belocə torpağa yapışıb, daha doğrusu mıxlanıb qalmışdı.. (Anar); **HƏVALİ** (*köhn.*) ..bütün ol *həvalini* qorğeyi-nur və ziya etmoklo hər kos bu keyfiyyoti təyənmün və istisad edib, ziyadosilo fərəhnak oldular.. (Çəmənzəminli); **ƏTRAF** Qərənfil xalə balkonda durub bir müddət kəndo, onun *ətrafındakı* dağlara, meşələrə baxdı (Ə.Vəliyev).

CİYƏR, BAĞIR

ciyərguşə *bax* ciyərparə

CİYƏRPARƏ (*çox sevimli övlad*) [Gövhər xanım:] Tam üç ildir ki, gözlərimin nuru, *ciyərparəm*, yurdumun çırağı, tək bir övladımın həsrotini çəkirəm (S.S.Axundov); **CİYƏRGUŞƏ** [Vəzir:] Hələ mənə bir möhlət ver ki, özümü xanım yanına yetirib sənin *ciyərguşənin* axırına çıxım.. (M.F.Axundzadə).

cizyə *bax* vergi **1**
comərd *bax* nəcib **1**

1. COŞQUN Harəyə uçacaq balaca bir quş? *Coşqun* ümmanları keçə bilərmi? (M.Rahim); **TƏLATÜMLÜ** Bu gün Adriatik donizi son dorocə *təlatümlü* idi (S.Vəliyev); **DALĞALI.**

2. COŞQUN (*məc.*), **QIZĞIN, EHTİRASLI**

3. coşqun *bax* atəşin **1**

COŞQUNLUQ, EHTİRAS, HƏYƏCAN, RUH YÜKSƏKLİYİ, VƏCD

1. COŞMAQ, DAŞMAQ, KÜKRƏMƏK, ŞİDDƏTLƏNMƏK (*təbiət hadisələri haqqında*)

2. COŞMAQ (*özündən çıxmaq*) Qaraca qız elo *coşmuşdu* ki, orada olan adamlar onun gözündən itmişdi (S.S.Axundov); **QƏLYANA GƏLMƏK** Sonra "Tozo hoyat" qəzetindo izahat nəşr edərək *qəlyana gələnləri* toskin etdi (Çəmənzəminli); **QIZMAQ** Şəhərin *qızdığı* qərxunc bir zaman; Atəb külfətini golmiş İrandan (S.Vurğun); **HİDDƏTLƏNMƏK** (*bax*).

cövr *bax* əzab
cövüz *bax* qoz
cu *bax* su; arx

CUHUD, VƏHUDİ

culfa *bax* toxucu

cummaq *bax* **1.** qaçmaq **1**; **2.** şığımaq

CUNA Dirsəkdən yuxarı isə çoxlu *cuna* ilə sarınmışdı (M.İbrahimov); **CUNAYI** [Rəfiqim] çamadanı açıb *cunayını* çıxartdı və üzünü onunla örtdü ki, hünüləri ona əziyyət verməsin (S.S.Axundov); **TƏNZİF** Kirayənişinin kosmolisi varsa, sallaqxanada ruhlanar, təmizlənər, şaqqalanar, tortəmiz *təmizlə* bükülüb gələr (B.Bayramov).

cunayı *bax* cuna

CURULDAMAQ (*qarın haqqında*) Öküz inildəməkdən qarnı *curuldayır* (Ə.Vəliyev); **QURULDAMAQ** Acından Həmidin qarnı *qurulдayır* (H.Abbaszadə).

cübbə *bax* xalat **1**

CÜCƏRMƏK (*ağacların, otların yenicə göyərməsi*) Skamyanın bir küncündən körpəcə çayır *cücərmişdi* (Ə.Kərim); **DİŞƏRMƏK** Dağlar, çöllər *dişərdi*; Novruzgülü göyərdi (A.Səhhət).

cücü *bax* həşərat

cümhuriyyət *bax* respublika

cümlə *bax* hamı **1**; bütün **1**

cümlətani *bax* vur-tut

cünbüş *bax* kef **1**

cünun *bax* dəli **1**

cünunluq *bax* dəlilik

cür *bax* növ **1**

CÜRBƏCÜR Mədinəyə xoş gəlmək, Mədinəni razı salmaq həvəsi daima kişinin fikrini oynadır, *cürbəcür* hərəkətlərə sövq edirdi (M.İbrahimov); **DÜRLÜ** Pisliyə həm *dürlü* cəzalar olar (A.Səhhət); **ƏNVA** (*köhn.*) Nökər Səfi stolun üstünə boşqablar və *ənva* məşrubat düzür (Ə.Haqverdiyev); **MÜXTƏLİF** Xörəklər *müxtəlif*, şərablar rəngbərəng; Zəncinin, həbəşin qarnıdır onlar (S.Vurğun); **NÖVBƏNÖV** [Qiyas:] Həmidən qabaq Ağarəfi peyda olur; onun hər iki qoluna dirsəyindən biləyinəcən saatlar bağlanıb, ciblərindən, kəmərindən də *növbənöv* saatlar sallanıb (Anar); **NÖV-NÖV** Kitab da *növ-növdür* insanlar kimi; Bədsifət, acıdil olur bir çoxu (S.Vurğun); **RƏNGARƏNG** Pişxidmətlər *rəngarəng* taamlar hazır etdilər (M.F.Axundzadə).

cürdək *bax* bardaq

cürcəna(k) *bax* yapıncı

cürət *bax* cəsarət

cürətli *bax* cəsarətli

cürətsiz *bax* cəsarətsiz

cürm *bax* günah

I CÜT Çox güvənmə gəl özünə; Mil salaram *cüt* gözünə; Bir damcı qan ovəzinə; Qoç Koroğlu min qan elər (M.Rahim); **CİFT** [Bədircahan bəyim:] Onda izin ver sifariş eləyim Hacı Osmana, bir *cift* qoç göndərsin, bir *cift* qara köpək, iki də qızmış nər (Ə.Haqverdiyev); **İKİ** Suğra səssizcə yatır, bir cüt kişi ilə *iki* arvad söz güləşdirdilər... (Ə.Vəliyev); **QOŞA** Sərf edəydim yar yolunda *qoşa* mən! Çevriləydim bir qanadlı quşa mən (M.Rahim).

II cüt *bax* xış

cütavazlı *bax* diftonq

cütçü *bax* əkinçi

cütçülük *bax* əkinçilik **1**

CÜTDIRNAQ(LI) (*zool.*), **İKİDIRNAQ(LI), QOŞADIRNAQ(LI)**

cütqabağı *bax* başlıq **1**

cüvəllağı *bax* hiyləgər

CÜYÜR (*zool.*) Gəlir qulağına bayaqdan bəri; Ceyranın, *cüyürün* ayaq izləri (B.Vahabzadə); **ƏYLİK.**

CÜZ (*din.*) Quranın bir *cüzünü* də əmmamə mollacıqdan istədim və açdım, başladım oxumağa (C.Məmmədquluzadə); **HİSSƏ** Həmin surəni oxudum və Quranın *hissəsini* öpdüm.. (C.Məmmədquluzadə).

cüzi *bax* azacıq

Çç

çadır *bax* alaçıq

ÇADRA (*köhn.*) (*baş örtüyü*) [Gülüş:] Onun kölgəsi bu qara *çadradır*, o sənin başında durduqca, sən yaxşı olacaqsan (C.Cabbarlı); **ÇARŞAB** (*köhn.*) Bəziniz də *çarşabı* yandırıb sevindiniz; Fəqət bunu başında daşıyan daha çox var (M.Müşfiq).

ÇADRALI (*çadra ilə örtülmüş*) Çadranın üleyhinə, yeni əlifbanın lehinə barmağını qaldırar, arvadı [Əliqulunun arvadı] həmişə *çadralı* (Qantomir); **ÇARŞABLI** Moscid dolusu savadsız, *çarşablı* müsəlman qadınları hamısı oruc imişlər (C.Məmmədquluzadə).

ÇADRASIZ (*çadra ilə bürünməyən*) Zöhra *çadrasız*, qapıdan çıxıb hara isə yollandı (M.İbrahimov); **ÇARŞABSIZ** Onlar rəsmi olaraq evləndiklərі müsəlman qadınlarına bir koniz kimi baxır, onları hamıdan gizlədir, çarşab altında gəzdirir, *çarşabsız* gəzməyi böyük həqarət sayır, digər tərəfdən qıraqda başqa arvad saxlayır, günlərini saxlanclarla keçirirdilər (A.Şaiq).

I ÇAĞ Kölgədə keçmişdir uşaqlıq *çağım* (S.Rüstəm); **DÖVRAN** Xoşbəxt bir *dövranın* övladıyıq biz (Ə.Cəmil); **SAAT** [Cavadın] dərələrdən quzuqulağı yığıb yediyi *saatlar* gözləri qabağında canlandı (Ə.Vəliyev); **VAXT** *Vaxt* bir *vaxt* idi ki, şəhərlərdə məktəb az tapılırdı (N.Nərimanov); **ZAMAN** [Əziz bəy:] İndi ki vüsləт *zamanı* yaxınlaşıb, arzuma çatmaq ümmidilə xoyalımı xoş edib aram tutmuşam.. (M.F.Axundzadə).

II çağ *bax* sağlam

ÇAĞA (*körpə uşaq*) Gəlinlər, qocalar, qızlar, qarılar; Beşikdə *çağalar*, ömrü yarılar (S.Vurğun); **BƏBƏ** (*dan.*) Qundaqda ikən bir qızı ad eyləmişəm mən; Nazlı *bəbədən* könlümü şad eyləmişəm mən (M.S.Ordubadi); **BƏBƏK** (*köhn.*) O gözəl sevimli, ol nurlu *bəbək*; Yuxusundan oyanar əsnəyərək (A.Səhhət); **KÖRPƏ** Əlində *körpəni* oynadır qarı; Göstərir uzanan dilsiz yolları (S.Vurğun); **QUNDAQ** (*dial.*) [Ağa Mərdan:] Hacı Qafurun qapısından ötəndə gördük durubdur, qucağında bir *qundaq* (M.F.Axundzadə); **MÖVLUD** (*köhn.*) Qazi dua oxuyub, əlini uşağın alnına çəkəndən və təzə *mövludi* tobrik edəndən sonra iroli gəlib uşağı Atabəyin qucağına verdi... (M.S.Ordubadi); **SÜDƏMƏR** ..Allahın nəzərini "cəlb" etmək üçün o günü *südəmər* uşaqlara süd vermək-dən analar "mən" olmuşdu (Çəmənzəminli); **TİFİL** (*dan.*) [Salman bəy:] Əstoğfürullah eyləyin, gedin işinizin dalınca bəs o biçarə *tifillər* nəcə olacaqlar (N.Vəzirov).

çağdaş *bax* müasir

1. ÇAĞIRMAQ Artıq eyvanda olan xanım Gülöbətini *çağırdı* (M.İbrahimov); **HARAYLAMAQ** [Lütfi Məsimov:] Kimsə həyətdəki köpəkdən qorxub içəri girmədən həsərin dalından məni *harayladı* (H.Abbaszadə); **SƏSLƏMƏK** Qəfildən, kimsə yavaşcadan Softər dayını *səslədi* (Anar); **ÜNLƏMƏK** (*kl.əd.*) *Ünnədim*, ünnədim ünüm çatmadı; Dönüb geri xoş ixtilat çatmadı (Aşıq Əhməd).

2. ÇAĞIRMAQ Qış tətilinə gələn bacısı qızı Zərifəni Qafar qonaq *çağırmışdı* (Ə.Əbülhəsən); **DƏVƏT ETMƏK** ..qonaqlıqlar düzəldirdilər və tamam şəhərin axundlarını, tacirlərini *dəvət edib*, xörəkdən sonra ortalığa bir dini mübahisə salardılar... (Ə.Haqverdiyev).

ÇAXIR (*içki növü*) [Dilbər xanım:] *Çaxır* içmisən, yoxsa qarğa beyni yemisən, məni evdən qovursan? (N.Vəzirov); **BADƏ** (*şair.*) Könül, meyxanə connot, *bada* kövsər, saqidir qılman; Gedib vaiz deyən nisyə sözə ümidvar olma (S.Ə.Şirvani); **MEY** (*şair.*) Saqiya, mən ta əzəldən düşmənəm sərxoşluğa; *Mey* içib uçmaq nədir bilməz bu könlüm boşluğa (S.Rüstəm); **PEYMANƏ** (*kl.əd., məc.*) ..İçilir hər yerdə *peymanə*, gəlsin (Q.Zakir); **SƏHBA** (*məc., arx.*) Məstlikdir səbəbi-hürməti gər *səhbanın*.. (S.Ə.Şirvani); **ŞƏRAB** Gəlin *şərab* içib məst olmayaq biz; Məst olaq mənalı düşüncələrdən (B.Vahabzadə).

çak *bax* cırıq

çaqıl *bax* çınqıl

ÇAQQAL (*zool.*) Görmüşəm nüsxədə bir türfə misal; Əyyamı-sabaqdə bir qurd, bir *çaqqal* (Q.Zakir); **ŞƏĞAL** (*arx.*) Qurd isə, *şəğal* isə biyabanda olurdu; Şəhr içrə bu heyvanlarına şükr, xudaya! (M.Ə.Sabir).

1. ÇAL Yorulmuş idi, yatırdı, yataqda xəstə yağı; Qoca o *çal* başını dikdi bir qədər aşağı (A.Şaiq); **AĞ** *Ağ* saçlı arvad sözünü qurtarmamış Mina xanım top kimi açıldı (M.İbrahimov); **AĞARMIŞ** Yasəmən ərinin seyrək saçlarının çallaşmış və *ağarmış* tüklərini qarışdırırdı... (Ə.Vəliyev); **ÇALLAŞMIŞ** Qələmdar axırıncı cümlələri oxuyanda atası əllərini *çallaşmış* bığlarına çəkib istehza ilə gülümsündü (Ə.İldırımoğlu); **QIR** Çal qış! Buyur, uyğur olsun! *Qır* saçlarını cinlər yolsun (Ə.Cavad).

2. ÇAL, BOZUMTUL (*rəng.*)

çalançı *bax* musiqiçi

ÇALBAŞ(LI) (*saçı çal olan*) [Etibar:] Üzr istəyirəm, ağayı-müdir, – deyə salam verib arıq, uzun, *çalbaş* adama tərəf getmək istədi (F.Kərimzadə); **AĞBAŞ(LI)** Ey zəka dünyasında doğan *ağbaş* sənətkar; İzin ver deyim sənə ölməz yoldaş sənətkar! (M.Rahim); **AĞSAÇ(LI)** ..minlərlə ürəklərin döyüntüsünə qulaq asmış, ağrısını sağaltmış, *ağsaçlı* alimlər belə çox zaman aciz qalırlar (M.İbrahimov); **ÇALSAÇ(LI)** [Cəlil] ..pəncərə səmtində.. *çalsaçlı* bir şəxsi oturmuş gördü (S.S.Axundov).

çaldıran *bax* səsyazan

1. ÇALĞI (*həyət süpürmək üçün böyük süpürgə*) Xidmətçi qadın əlindəki iri *çalğı* ilə küçəni təmizləyirdi (Ə.Qasımov); **HƏYƏT SÜPÜRGƏSİ** Güləbətin *həyət süpürgəsini* yerə qoyub, ev süpürgəsini, xəkəndazı götürdü, hacının otağına tərəf yollandı (M.İbrahimov); **SÜPÜRGƏ** (*bax*).

2. çalğı *bax* musiqi

ÇALĞIÇI *Çalğıçılar* çaldılar, Ağca xanım da oynamağa başladı (S.S.Axundov); **SAZƏNDƏ** (*köhn.*) Xanəndə və *sazəndələr* isə çalğı taqımını buraxıb bir tərəfə gedərlər (H.Cavid); **MUSİQİÇİ** (*bax*).

ÇALI Çadırımızın dörd bir yanı açıqlıq, çalılıq olduğundan toyuq cücələri ilə o açıqlıqda gəzişir, qurd-quş, çəyirtkə tutub yeyər, *çalıların* altında eşələnirdi (A.Şaiq); **ƏNCÜM** (*kl.əd.*) Şaftalu deyərdi: Padişahəm; Fıstıq ki; – *Əncüm* içrə şahəm (Füzuli); **KOL-KOS** Əsər qalmamışdır köhnə *kol-kosdan*. Hər yer bağ-bağatdır, hər tərəf bostan (R.Rza).

çalışqan *bax* fəal, səyli

çalışqanlıq *bax* fəallıq, səy

çalışma *bax* tapşırıq **2**

1. ÇALIŞMAQ [Azər:] Sən hər işdə birinci olmaq istəyirsən və *çalışıb* olursan da (A.Şaiq); **CANFƏŞANLIQ ELƏMƏK (ETMƏK)** [Nurcahan:] Sənə nə düşüb belə *canfəşanlıq* eləyirsən?! Meynənin hamısını aşağı buraxım, onsuz da bir azdan böyüyüb yenə ora qalxacaq (H.Abbaszadə); **SƏY ETMƏK (ELƏMƏK)** Pirverdi bəy çox *səy* elədi, amma camaatı bir qaydaya sala bilmədi (C.Məmmədquluzadə).

2. çalışmaq *bax* işləmək **I**

çallaşmaq *bax* ağarmaq **2**

çalma *bax* əmmamə

I ÇALMAQ (*musiqi alətində səsləndirmək*) Mən bir aşiqəm ki, bu *çaldığım* saz; Dumanlı dağlara səs salacaqdır (Ə.Cavad); **SƏSLƏNDİRMƏK** Sən də alıb ələ bir qızıl rübab; İncə tellərini *səsləndir*, a qız! (M.Müşfiq).

II ÇALMAQ [Əlikram Gülüyo:] İlanın quyruğunu basdalayarsan, qayıdar baldırını *çalar* (B.Bayramov); **DİŞLƏMƏK** Hər kəs məndən səni yaman qandırsa; Ya oğrəb *dişləsin*, ya ilan, Pərim! (Aşıq Abbas); **SANCMAQ** İlanın quyruğunu basmasan səni *sancmaz* (Ata. sözü); **VURMAQ** [Səadət xanım:] İlan *vuran* yatar, amma mənim yuxum gəlməz (N.Vəzirov).

III çalmaq *bax* biçmək **1**

IV çalmaq *bax* oğurlamaq

çalmalı *bax* əmmaməli

çalsaç(lı) *bax* çalbaş(lı)

ÇALSAQQAL(LI) (*saqqalı çal olan*) Bu vaxt təzəcə ayaq açmış totuq bir oğlan qabaq sıradan "baba, baba" deyə qıçı qıçına dolaşa-dolaşa Covanninin yanında əyləşən *çalsaqqallı*, motalpapaqlı kişinin üstünə gəldi (H.Abbaszadə); **AĞSAQQAL** [Bayraməli bəy:] Belə tərbiyət sahibloridirlər ki, *ağsaqqal* ataları gəlir otağa, birisi kor öküz təki yıxılıb taxtın üstündə, biri də əyləşib xanzadə kimi... (N.Vəzirov).

çanaq *bax* **1.** ləyən; **2.** qın **2**

çanaqlıbağa *bax* tısbağa

1. ÇANTA (*məktəbli sumkası*) [Xasay] məktəbdən evə gəlincə kitab *çantasını* yerindən asıb həyətə qaçırdı (A.Şaiq); **PORTFEL** [Rocabin] başında qiymətli şlyapa, boynunda qalstuk, əlində kitab və dəftərlə dolu bir *portfel* var idi (A.Şaiq).

2. ÇANTA, KİSƏ

1. ÇAPAR Arslanın vəziri Şəmsəddin təcili *çaparla* Təbrizə belə bir məktub göndərdi.. (M.S.Ordubadi); **QASİD, ELÇİ** (*məc.*) [Cavahir xatun:] O, Cavanşirin *elçisidir*. Çox keçmədi Cavanşirin *qasidi* özünü yetirdi (M.Hüseyn).

2. çapar *bax* atlı

çapçı *bax* mətbəəçi

çapxana *bax* mətbəə

çapqınçı *bax* soyğunçu

1. ÇAPMAQ (*atı iti sürmək*) *Çapır* qızıl atlılar, öndə o gənc qəhrəman (Ə.Cəmil); **SƏYİRTMƏK** Atını dördnala *səyirdərək* mən; Nəhayət, Boz dağa gəlib yetişdim (H.Hüseynzadə).

2. çapmaq *bax* talamaq

çapovul *bax* soyğunçuluq

çar *bax* padşah

çardaq *bax* talvar

çarə *bax* **1.** müalicə; **2.** tədbir

çarəsiz *bax* **1.** əlacsız **1**; **2.** sağalmaz

çargül *bax* dördkünc(lü)

çarhovuz *bax* hovuz

çarx *bax* təkər

çarizm *bax* padşahlıq

ÇARQAT (*qadın baş örtüyü*) Səlmə xanım qızın donundan dartıb yerə oturtdu və başındakı *çarqatı* da aldı, altına qoyub oturdu (M.S.Ordubadi); **SƏRƏNDAZ** (*köhn.*) *Sərəndaz* pozula, bəzək dağıla; Əfşan ola siyah tellər, açıla (Q.Zakir).

çarlıq *bax* padşahlıq

çar-naçar *bax* əlacsız **1**

ÇARPAYI Cövdətin qəzəblə vurduğu şillə Qulamı *çarpayıdan* yerə yıxdı (H.Abbaszadə); **KROVAT** (*dan.*) Doktor əyləşib Rzaquluxanın *krovatının* qarşısında boş bir səndəldə Münəvvərin başına əl çəkir (M.S.Ordubadi); **QARAYOLA** (*arx.*) [Sitaro:] *Qarayolada* uzanıb gözlərim bir nöqtəyə dikilmiş olduğu halda onu düşünür, onunla qovuşur, onunla sevişirdim (A.Şaiq); **TAXT** (*taxta çarpayı, köhn.*) Əli çörək yeyəndən sonra *taxtın* üstündə uzandı... (M.Hüseyn).

çarpışmaq *bax* **1.** vuruşmaq **1**; **2.** dalaşmaq

ÇARSU (*iki tərəfi dükan olan üstüörtülü və ya açıq bazar*) Mən üz qoydum bazara tərəf, xoyalımda qoymuşdum gedəm düz bəqqal *çarsusuna* və buzu alam gətirəm (C.Məmmədquluzadə); **RASTA** (*köhn.*) (*dükanlar sırası*) Buzu aldım olimə və sonra bəqqal *rastasından* çıxdım günün qabağına (C.Məmmədquluzadə); **ÇARŞI.**

çarşab *bax* çadra

çarşablı *bax* çadralı

çarşabsız *bax* çadrasız

çarşı *bax* bazar **I**, çarsu

çaş *bax* **1.** çaşbaş; **2.** çopgöz(lü)

ÇAŞBAŞ, ÇAŞ, ÇAŞQIN, DOLAŞIQ, QARIŞIQ

ÇAŞDIRMAQ Uşaqlar hamı him-cimlə onu başa salmaq istəyən yerdə daha da *çaşdırmışdılar* (M.İbrahimov); **KARIXDIRMAQ** [Fərido:] Küçədən tapdım. Yağış islatdıb *karıxdırmışdı* (M.İbrahimov); **QARIXDIRMAQ** [Həsən bəy:] Xam uşaqdır, teatr görməyib, o yazıq hürkür, siz də onu lap *karıxdırırsınız* (H.Sarabski).

ÇAŞMAQ Axı İlyas kişidən də gənc və qüvvətli adamlar olub ki, cəld, zirək və tənbəl hərəkət edən ayıya rast gələndə özlərini itiriblər, *çaşıblar* (M.İbrahimov); **BAŞINI İTİRMƏK** *(fr.v.)* [İbişli:] *Başımı itirmişəm.* Öz adım yadımdan çıxıb (Anar); **BUYUXMAQ** Vahid, düşün, öz qədrini, çox olma meyalud: Axır rəhi-meyxanədə bir gün *buyuxarsan* (Ə.Vahid); **DURUXMAQ** Hüseyn *duruxdu,* nə cavab vermək lazım gəldiyini bilmədi (S.Rəhman); **KARIXMAQ, ÖZÜNÜ İTİRMƏK** [Namiq:] Mən lap *karıxmışam,* ata, *özümü itirmişdim* (Anar); **QARIXMAQ** [Yasavul:] Mən kürənin boynundan tutub təntitməsəydim, bəlkə kürən *qarıxmazdı..* (S.Rəhimov); **YANILMAQ** Elsevər qəti qərar verdi, amma o, yamanca *yanılırdı...* (Ə.Qasımov).

ÇATDIRMAQ [Rəşid:] Kəndin otirli meyvəsini şəhərə, şəhərin maşınını, al-əlvan parçasını kəndə *çatdırıram* (M.İbrahimov); **VARDIRMAQ, VASİL ETMƏK** Müjdə ki, muradım oldu hasil; Məqsudə səni haq *etdi vasil* (Füzuli); **YETİRMƏK** Saçı uzun Suray xanım; Boynu uzun Buray xanım; Düşübdür su çuxuruna; Tez özünü *yetir* ona (A.Şaiq).

ÇATLAMAQ, ARALANMAQ, AYRILMAQ

I 1. ÇATMAQ *(nəzərdə tutulan yerə gedib çatmaq)* Onlar söhbət eləyə-eləyə təzəcə gəlib evə çatmışdılar ki, qapının zəngi çalındı (Ə.Qasımov); **HAQLAMAQ** *(tez çatmaq)* Dönüb qaçmaq istədi girən kimi o məni; Mənsə macal verməyib tez *haqladım* düşməni (B.Vahabzadə); **VARİD OLMAQ** Günəş dağlar arasına keçərək qayıb olduqda mən də şəhərə *varid oldum* (S.S.Axundov); **VARMAQ** *(köhn.)* Səba, əhvalımı bir-bir; *Varıb* ol yarə ərz eylə... (M.V.Vidadi); **VASİL OLMAQ** Daha başqaları həqiqətə *vasil olmadan* bütün sərf edilən tələşləri mənfəətsiz görür (M.S.Ordubadi); **VÜSUL OLMAQ** [Nəcəf bəy:] (məktubu oxuyur) Boradərim Nəcəf! Kağız yazıb Cavadnan göndərmişdin, gəldi *vüsul oldu* (Ə.Haqverdiyev); **YETİŞMƏK** [Zeynal:] Həmin vaxtda ikimiz də ora *yetişdik* (B.Bayramov).

2. çatmaq *bax* qovuşmaq **I**

II çatmaq *bax* **1.** yükləmək; **2.** alışdırmaq

ÇAY *(axar su)* Gecə güclü yağış yağdığına görə *çayda* su çox idi (S.S.Axundov); **İRMAQ** Siz ey könlüm kimi coşan *irmaqlar;* Günahsız göz yaşım sel kimi axır (S.Rüstəm); **NƏHR** *(kl.əd.)* Kür *nəhri* tobii halında axdığı zaman tam ortasında kiçik bir adacıq görünürdü (A.Şaiq).

çaybaşı *bax* mənbə **I**

1. ÇAYDAN *(çay qaynatmaq və dəmləmək üçün qab)* Piri kişi də süfrəni salıb pendir, çörək və yağ qoydu, sonra *çaydandan* iki fincan çay töküb süfrəyə qoydu (S.S.Axundov); **ÇAYNİK** [Xurşid:] Gülsabah da qapır qaynar *çayniki,* bir dənə qızın təpəsinə (C.Cabbarlı).

2. çaydan *bax* çayqabı

ÇAYQABI, ÇAYDAN *(quru çayı saxlamaq üçün qutu)*

çaynik *bax* çaydan **1**

çervon *bax* onluq

ÇEŞİD Abico, şampan, araq, hər *çeşid* nazü nemət; Ürəyində qəzəb, kin baxırsan həsrət-həsrət (M.Rahim); **NÖV** Məsələn, biyan, cır, nar, acı yovşan, sumaq... dazıotu, razyana, qaraqınıq, qatırquyruğu, yemişan və s. kimi mühüm dərman bitki *növləri* daha geniş yayılmışdı (İ.Dəmirov); **ASSORTİMENT** Aptekdə olan dərman *assortimentinin,* demək olar ki, 40 faizini dərman bitkiləri təşkil edir (Əliyev); **CİNS** *(bax).*

çeşm *bax* göz

çeşmə *bax* bulaq

ÇEŞMƏK Mahmud bəy *çeşməyi* masanın üstündə görməyib, güman edir ki, Əhməd bəy çeşməyi səhvən özü ilə aparmış ola (Ə.Haqverdiyev); **EYNƏK** Matros eynəyinin altından onu süzərək çox soyuq salamlaşdı (H.Abbaszadə); **GÖZLÜK** [Kişi] gözlərinə qara rəngli bir *gözlük* taxırdı (S.Hüseyn); **PENSNE** *(qulpsuz eynək)* "Van" dedikdə araba yırğalanıb rəfiqimin *pensnesini* yerə atır.. (S.S.Axundov).

ÇEŞMƏKLİ *(çeşmək taxmış)* Adamlar otaqlarda yerboyer olandan sonra *çeşmakli* bir müəllim cavanların hamısının imtahan vərəqini alır.. (Mir Cəlal); **EYNƏKLİ** *Eynəkli* qoca qılıncı götürüb söylənə-söylənə getdi (H.Abbaszadə); **GÖZLÜKLÜ** Mən sükut içində baxıram sənin; *Gözlüklü* gözünə, ensiz alnına (X.Rza).

çeşni *bax* naxış

1. ÇEVİK O [Şubay] qısaboylu, yumru, kiçik sifətli, iti gözlü, hər kəsi həyrətdə buraxan *çevik* bir gənc idi (M.Hüseyn); **CƏLD** Axı İlyas kişidən də gənc və qüvvətli adamlar olub ki, *cəld,* zirək və tənbəl hərəkət edən ayıya rast gələndə özlərini itiriblər, çaşıblar (M.İbrahimov); **GÜMRAH** Partizanlıq Anatolini *gümrah* etmişdi (Ə.Vəliyev); **QIVRAQ** [Qəhrəman yüzbaşı:] Əziz atı döy, sənin atın *qıvraqdır* (C.Məmmədquluzadə); **ZİRƏK** *(bax).*

2. çevik *bax* yeyin

çeviklik *bax* ziroklik

çevrilmək *bax* dönmək **I**

I ÇƏKİ [Molla:] *Çəki* ilə alınan şeyi çəki ilə də yeyərlər (M.N.İot.); **VƏZN** [Səlimə:] Elə bil ki, mən *vəzni* olmayan, üfürsən uçub gedəcək boş bir şeyəm... (İ.Əfəndiyev); **AĞIRLIQ, MİZAN.**

II ÇƏKİ *(balıq növü),* **ÇƏKİBALIĞI, SAZAN.**

çəkibalığı *bax* çəki **II**

çəkingən *bax* qorxaq

çəkinmək *bax* **1.** qorxmaq; **2.** utanmaq

ÇƏKMƏÇİ *Çəkməçi* gözlüyün üstündən Həsənə baxdı və gülümsünərək salamını aldı; yer göstərdi (Çəmənzəminli); **BAŞMAQÇI** *Başmaqçı* usta Ağabala Vəlibəd şəhərində beş kişinin biri idi (Çəmənzəminli); **KƏFŞDUZ** *(arx.)* Usta Ağabala *kəfşduz* bir imperial və iki cüt başmaq verdi (Çəmənzəminli).

I. ÇƏKMƏK *(müəyyən bir əşyanın ağırlığını və s.)* Molla bazardan şaftalı alıb gətirir, misqal-tərəzinin qabağına qoyub şaftalıları birə-birə *çəkib* yeyir (M.N.İot.); **VƏZNLƏMƏK** Məmur *vəznləyib* balağı, dərhal; Yönəldi evinə eləyib xoyal (M.Rahim).

2. ÇƏKMƏK *(şəkil, rəsm və s.)* [Rəhgüzar:] Yox, özünçün *çəkməkdən* bir şey çıxmaz, Elmoddin. Xalq üçün *çəkmək* lazımdır, qərdaşım (Ə.Hacızadə); **RƏSM ETMƏK** [Elmoddin] qələmi götürüb ağ sohifə üzərində təsovvüründə canlandırdığı bağanı *rəsm etdi,* boynuna bir qalstuk taxdı (Ə.Hacızadə).

3. ÇƏKMƏK *(papiros)* Boxtiyar qabaqda quş kimi səkir; Murad bir tərəfdə papiros *çəkir* (S.Vurğun); **FISQIRTMAQ** *(dan.)* Belçikaya tərəf hərəkət edən qatarın bir kupesində "Pari-Midi" müxbiri Müsyo Çujon və İngiltərə qəzetlərindən "Yorkşayer Yunknyus" müxbiri mister Leyton biri siqara və o biri çubuq *fısqırdaraq* Şuralar mətbuatından qızğın surətdə bəhs edirlərdi (S.S.Axundov).

4. çəkmək *bax* dartmaq

5. çəkmək *bax* oxşamaq **I**

çələb *bax* Allah **I**

1. ÇƏLƏNG *(hökmdarların başlarına qoyduqları bəzəkli tac)* Birə-birə gün də unutmadım əsla sizi mən; *Çələng* hördüm başınıza şeir gülündən (M.Rahim); **TAC** Yuxusunda gördü o bar gətirib ağaclar; Yanındakı yarıdır; Başlarında çiçəkdən hörülmə təzə *taclar* (M.Rahim).

2. çələng *bax* oklil

çəlik *bax* osa

çəlimsiz *bax* arıq

ÇƏLLƏK [Məmiş:] Paxmeləm son öl, başım boşalmış *çəlləyə* dönüb (B.Bayramov); **BOÇKA** Məgər bir *boçka* su olli iki nəfər fəhləyə azdır? (C.Məmmədquluzadə); **ÇƏN** [Fatma:] Motor qoyun, *çən* qoyun vursun yuxarı, işlədin (M.İbrahimov); **FIÇ** *(köhn.)* Bazarın başına getdim, iki boş neft *fıçı* yüklənmiş bir ağ araba gedirdi, altı şəhi verib mindim (Çəmənzəminli); **GƏD** *(məh.)* Həsən

irəlilədi. Toz və zibilli həyətdə köhnə *god* və paslı təneklər arası ilə keçib, üfunətli pillakənə yanaşdı (Çəmənzəminli).

çəltik *bax* düyü

çəm *bax* üsul

çəməngah *bax* çəmənlik

ÇƏMƏNLİK Onu [Firəngizi] heyrət götürdü, bayaqdan bəri yamyaşıl otdan başqa heç bir şey görünməyən *çəmənliyə* elə bil sarı naxışlı məxmər çəkilmişdi (B.Bayramov); **ÇƏMƏNGAH** Kim etdi səni dərd ilə həmkənar? Kim etdi *çəməngahını* xaksar? (M.S.Ordubadi); **ÇƏMƏNZAR** (*şair.*) Nə zaman ki *çəmənzarə* gedərdi; Lalələrin bağrını qan edərdi (M.Rahim).

çəmənzar *bax* çəmənlik

ÇƏMKİRMƏK (*kobudcasına cavab vermək, üstünə qışqırmaq*) [Mina:] Bir söz deyirəm, it kimi üzümə *çəmkirir* (A.Şaiq); **ÇIMXIRMAQ** [Baloğlan:] [Almaz] əvvəl bir *çımxırdı* üstümə.. (C.Cabbarlı).

I çən *bax* çöllək

II çən *bax* duman **I**

I. ÇƏNBƏR, QURŞAQ (*çəlləkdə və s.-də*)

2. çənbər *bax* sağanaq

çənbərquyruq *bax* əqrəb **II**

ÇƏNƏ [Cavan fəhlə:] Əh... Cəhənnəmə, göra ki, *çənə* üzümündü (H.Abbaszadə); **ZƏNƏX** (*kl.ad.*) İndi deyirlər ki, çahə salıbdı; *Zənəx* kənarında, tel qabağında (Q.Zakir).

I çəng *bax* əl **I**

II çəng *bax* dırmıq

ÇƏPƏKİ Qız *çəpəki* oturaraq başını anasının dizinin üstünə qoydu, gözlərini yumdu (M.İbrahimov); **ÇƏPİNƏ** Matros Həbib eynəyini taxıb Həmidə *çəpinə* baxdı. (H.Abbaszadə); **ƏYRİ** Tikanlı tel uzanır hər yana, *əyri*, qıyqac (R.Rza); **GƏC** İri, tutqun gözü, acıqlı qaşı; Etinasız, qürurlu, *gəc* baxışı (A.Səhhət); **QIYQAC** Dağ başından günəş baxınca *qıyqac*; Quşlar durmaz sərsəm kimi bağırır. (A.Şaiq).

çəpər *bax* hasar

ÇƏPGÖZ(LÜ) (*gözü çəp olan*) *Çəpgöz*, qorxaq dovşanlar; Yırtıcılar, nəhənglər; Ancaq nə bir canavar; Cüyürüno gec-gec baxdı (M.Rzaquluzadə); **ÇAŞ** *Çaş* biri iki görər (Ata. sözü); **GƏCBİN** (*köhn.*).

çəpinə *bax* çəpəki

ÇƏPİŞ (*keçi balası*) [Hatəmxan] yumşaq cəza tədbirləri olaraq körpə buzov və *çəpişləri* günlərlə ziyanlıq tövləsində saxlardı (S.Rəhimov); **KEÇİ BALASI** [Forman:] Ahudur, quzudur, oynaq *keçi balasıdır* (S.Rəhman); **OĞLAQ** [Pəhləvan] əyilib, *oğlağın* peysərindən yapışıb alır qucağına, yumşaq tükünü sığallayıb, atı məhmizləyir (B.Bayramov).

çəpişqulaq *bax* uzunqulaq **I**

ÇƏRÇİVƏ Kimi taxta rəndələyir, kimi *çərçivə* qayırır, kimi biçqı ilə ağac kəsirdi (İ.Əfəndiyev); **ÇƏRƏNGÛLƏ** Buna görə idi ki, Bobirovun arvadı ərinin evdə nahar etməsinə baxmayaraq, qapının *çərəngüləsində* yapışıb: – Evdə yoxdur, – dedi (Y.Şirvan).

çərəngi *bax* naqqal

ÇƏRƏNLƏMƏK (*həddindən artıq çox danışmaq*) O qımışdı, irişdi və *çərənlədi* yenə.. (Ə.Cəmil); **ƏNGİNİ YORMAQ** Başla, xala, cəfəngini; Müftəxə *yorma əngini* (Ə.Nəzmi); **YANŞAMAQ** [Ağa bəy Zeynala:] Yaxşı, *yanşadın* bəsdi, gedək Bülöndgilin yanına (Ə.Əbülhəsən); **ZƏVZƏMƏK** Arvad tayfasının hülqumu yoxdur, nə qədər *zəvzəyirlər*, qoy *zəvzəsinlər* (İ.Əfəndiyev); **NAQQALLAMAQ** (*bax*) .

çərənlik *bax* naqqallıq

ÇƏRƏZ (*tər meyvə, şirniyyat və s.*) Mirzənin cibləri *çərəzdən* boş olmazdı (Ə.Haqverdiyev); **MƏZƏ** [Əbülhəsən bəy:] Salondakılar bir-bir, iki-iki bufetin qarşısında durub əllərində çəngəl, *məzə* nimçələrini qurdalayır və konyak içirdilər (M.S.Ordubadi).

çərxi-dövran *bax* dünya

çərxi-fələk *bax* dünya

çərlətmək *bax* bezdirmək

ÇƏTİN (*müxtəlif mənalarda*) Yay zamanı İsa bulağından kef üstündən qayıdanlardan qorunmaq *çətin* işdir (B.Bayramov); **AĞIR** O bilir ki, qurtuluşun doğru, çətin yolu budur; *Ağır* illər keçəcəkdir; Fırtınalar sovuşacaq (R.Rza); **QƏLİZ** (*çox çətin*) [Dilarə:] Əmin təmənnasız filan operasiya edir, özü də on *qəliz*, on mürəkkəb əməliyyatları şəxsən özü edir (Anar); **MƏŞƏQQƏTLİ** Uşaqlarla bir yerdə böyümüş, əzab-əziyyətli, *məşəqqətli* bir yol keçmişdir (Ə.Qasımov); **MÜRƏKKƏB** Sonə bu həyatdır ən böyük məktəb; O həm sadədir, həm də *mürəkkəb* (A.Şaiq); **MÜŞKÜL** (*çox çətin*) [Vəzir:] Bəhlulu yox etmək *müşkül* işdir (A.Şaiq).

çətinləşmək *bax* mürəkkəbləşmək, ağırlaşmaq **2**

çətinlik *bax* əngəl

çətinliklə *bax* güclə

ÇƏTİR Yamyaşıl bir düzəngah, düzəngahda al-əlvan çadırlar, alaçıqlar, köşklər, *çətirlər* qurulmuşdur (Anar); **GÜNLÜK** Birinin əlində yekə bir *günlük* vardı (M.İbrahimov); **ŞƏMSİYYƏ** (*köhn.*) O da gözəl olduğunu duymuş olduğundandır ki, zadəganlara məxsus qürur və ədа ilə əlindəki al *şəmsiyyəni* oynada-oynada hamının qabağından sallanaraq keçir... (A.Şaiq); **ZONTİK** Pəncərənin birində açıq qadın *zontiki* qoyulmuşdu (S.Rəhimov).

ÇƏVİRDƏK (*meyvənin içərisində olan toxumu*) Gülsüm xala uşağın ağzını əli ilə örtüb, üzündən üflədi; sonra barmağını uşağın ağzına salıb, özgil *çəyirdəyindən*, gavalı *çəyirdəyindən*, kömür qırığından çıxardı (Ə.Haqverdiyev); **DƏNƏ** (*dan.*) Gilas *dənələri*, üzüm giləsləri; qabarıq şişə altında; damcı-damcı göz yaşı (R.Rza).

çığır-bağır *bax* səs-küy

ÇIĞIRMAQ [Qaçay] dönüb bütün gücü ilə *çığırmaq* istərkən səsi çıxmadı (S.Rəhimov); **BAĞIRMAQ** (*hərkdən qışqırmaq*) Aman, deyə *bağırdım*: "Ana, bu nədir, ana..." (S.Rüstəm); **BANLAMAQ** (*məc.*) Bir də görürsən ki, olub heyvərə; Əlli yaşaq *banladı* birdən-birə (M.Ə.Sabir); **BAYĞIRMAQ** (*dial.*) Şirəli özünün son qüvvətini toplayıb *bayğırırdı* (M.Hüseyn); **BOĞAZ YIRTMAQ** (*fr.v.*) [Zaman:] Qardaşlar, burada oturub *boğaz yırtmaqdan* fayda yoxdur (Ə.Haqverdiyev); **CAR ÇƏKMƏK** *Car çəkir* çarxların çaxnaşıq səsi; Car çəkir, qışqırır nəhəng motorlar (S.Vurğun); **HAY SALMAQ** Udur lay-lay udur ekskavatorlar; *Hay salır*, qışqırır nəhəng motorlar (S.Vurğun); **QIŞQIRMAQ** Elə bil ki beş yaşlı oğlu Hüseyn bir oliylə anasının yanına suvaşıb, o biri olini atasının boynuna salaraq onları birbirinə çəkir, "buraxmıram" deyib *qışqırırdı* (M.İbrahimov); **NƏRƏ ÇƏKMƏK** (*bərk bağırmaq*) Cavanşir *nərə çəkdi* (M.Hüseyn).

ÇIĞIRTI *Çığırtı* küçə ilə bir oldu (Çəmənzəminli); **BAĞIRTI** Bu anda uşaqların *bağırtısı* otağı bürüdü (M.Hüseyn); **QIŞQIRTI** ..otrafı *qışqırtı* bürüdü (S.Vəliyev); **QIV** Bir az yaxşı dinlə, hey *qıva* bir bax (Ə.Cavad); **QİYYƏ** O biri otaqdan [Əlinin] arvadının *qiyyəsi* eşidildi (Y.Şirvan); **NƏRƏ** ..atlar kişnəyir, bahadır *nərələri* orşə qalxırdı (Anar).

çıxar(t)maq *bax* **1.** qovmaq; **2.** soyunmaq

1. ÇIXIŞ, MƏRUZƏ, NİTQ

2. ÇIXIŞ, ÇIXACAQ

3. ÇIXIŞ, İŞTİRAK

4. Çıxış *bax* aksiya **II**

1. ÇIXMAQ (*Günəş, Ay və s. haqqında*) Səhər hava tamam açıldı, gün *çıxdı* (H.Abbaszadə); **ÇIRTLAMAQ** [Əbdülrəhman:] Bala, indicə gün *çırtlayacaq* yola düşürsənmi? (G.Hüseynoğlu); **ÇIRTMAQ** Araba şəhərdən çıxarkən günəş yenicə *çırtır*, şərqi bürüyən iri, geniş küçələri ilə gedirdi (A.Şaiq); **DOĞMAQ** [Banıçiçək:] Oğul vay, qardaş vay, Beyrək vay! Ay kimi *doğdun*, gün kimi batdın (Anar); **TÜLU ETMƏK** İki ildən bəri görmədiyi doğma şəhərinə çatarkən səhər tezdən Aslanın poncorosinə düşən günəş yenicə *tülu edirdi* (M.Hüseyn).

2. ÇIXMAQ (*məth.*), **ÇAP OLUNMAQ, DƏRC OLUNMAQ**

3. ÇIXMAQ (*riyaz.*), **AZALTMAQ**

4. çıxmaq *bax* getmək **I**

çıl-çılpaq *bax* çılpaq **I**

1. ÇILPAQ Hər gecə də Beyrək qılıncı divardan götürüb sıyırır, *çılpaq* qızla öz arasına qoyurdu (Anar); **ANADANGƏLMƏ** (*tamam çılpaq*) (*məc.*) [Fatmansa:] Lap lüt, *anadangəlmə* (C.Cabbarlı); **ARİ** (*arx.*) Səfillər kimi Əşcar *ari* (M.Hadi); **ÇIL-ÇILPAQ** (*tamamilə lüt*) ..qızlarını *çıl-çılpaq* oynadanlar (R.Rza); **LİBASSIZ** Həqiqətən bir seyid qızı haman günü məşədinin evində *libassız* əyləşibmiş, o da məşədinin öz arvadı imiş (Ə.Haqverdiyev); **LÜT** (*tamam çılpaq*) [Adila:] Bilmirəm niyə özünə əziyyət verir, belə havada lap *lüt* də gəzə bilər (M.İbrahimov); **ÜRYAN** Baxtı *üryan* şəklinə; Utanmayırmı ata? (M.Rahim); **PALTARSIZ** [Oqtay:] İstəyirsən soyun, sənə *paltarsız* baxım (C.Cabbarlı); **YALIN** (*əsasən ayaq haqqında*) [Firəngiz:] Bəs, ayağın niyə *yalındır*, Köçəri? (B.Bayramov).

2. çılpaq *bax* yoxsul

3. çılpaq *bax* yarpaqsız

4. çılpaq *bax* boz **2**

çımxırmaq *bax* çəmkirmək

ÇINQIL (*xırda daş*) ..at *çınqıllar* üzərində büdrəyə-büdrəyə qalxırdı (S.Rəhimov); **ÇAQIL** *Çaqıl* daşlı çaylar; Çapayev çapa-çapa (S.Rüstəm).

çınqırıq *bax* zəng **1**

ÇIRAQ Hava qaraldıqdan sonra pristavın otaqlarında *çıraqlar* yandırdılar və qonaqlar məşğul oldular kart oynamağa (C.Məmmədquluzadə); **LAMPA** Rəfiqim üçüncü dəfə *lampanı* söndürüb yerinə girdi (S.S.Axundov).

çırpınmaq *bax* döyünmək

çırpıştırmaq *bax* oğurlamaq

çırpmaq *bax* döyünmək

çırtlamaq *bax* çıxmaq **1**

çırtmaq *bax* çıxmaq **1**

çibin *bax* milçək

ÇİÇƏK, GÜL Mən də heyran-heyran baxıram bu dəm: Çağırır düzlərin *çiçəyi, gülü*; Bilirsən heç səndə kimi görürəm? Göy gölü görürəm, ay ilmən gölü! (N.Xəzri); **XƏNDAN** (*kl.ed.*) Qönçə dəhani çəməndə *xəndan*; Gülməkdən onar açıldı dəndan (Xətayi); **ŞÜKUFƏ** (*kl.ed.*) Bəzəklənir, düzəklənir, bağın fəzası rənglənir; Yaşıllanır, həm allanır, *şükufələr* çiçəklənir (A.Səhhət).

1. ÇİÇƏKLƏ(N)MƏK (*gül haqqında*) [Qəndab:] Ağaclar *çiçəklənməyə* başladı (B.Bayramov); Bu günədək qış paltarından çıxmaq olmur, ağaclar *çiçəklənir*, bülbüllər oxumur (N.Nərimanov); **AÇILMAQ** Gül ilə həmzəban olubdu bülbül; *Açılıb* bənəfşə, yasəmən, sünbül (Q.Zakir). **ÇİÇƏK AÇMAQ** [Qəndab:] Alçamız *çiçək açdı* (B.Bayramov); **GÜL AÇMAQ** Bizim həyətdə qayısı, alma və armud ağacları *gül açmışdı* (M.İbrahimov); **GÜLLƏNMƏK** [Südabənin anası:] Yəqin indi oralarda badam *güllənir*, hə?.. (M.İbrahimov); **ŞÜKUFƏLƏNMƏK** *Şükufələnmiş* güllər nəsimin dəymәsindən ənib-qalxdıqca Gülsümün vidasına cavabən "Get, Allah səni xoşbəxt eləsin!" – deyirdilər (Ə.Haqverdiyev).

2. ÇİÇƏKLƏ(N)MƏK Dostusunuz ilk baharın; *Çiçəklənən* bu diyarın (S.Rüstəm); **TƏRƏQQİ ETMƏK** [Mirzə Mehdi xan:] Bunun çalışdığı odur ki, qüvvətlənsin, millət ayılsın, Vətən *tərəqqi etsin* (N.Nərimanov); **İNKİŞAF ETMƏK (ELƏMƏK).**

çiçəklik *bax* gülüstan

ÇİL Mənə xınalı, ayağına **ağ** sarıq bağlanmış *çil* kəklik lazımdır (Ə.Vəliyev); **XALLI** Həmin *xallı* ilan gözümdən uzaqlaşmırdı (Ə.Vəliyev).

çil-çıraq *bax* qəndil

ÇİLƏMƏK [Qız] hisli lampanın neftini bədəninə *çiləyib* özünü yandırdı (M.Hüseyn); **SƏPMƏK** [Ömərin] qüvvətli səsi: "hücum yoxdur, manevr yapırıq" – deməsi qaçmış bənizlərə qan *səpdi* (Çəmənzəminli).

çimçişmək *bax* **1.** iyrənmək; **2.** soksonmaq

ÇİMƏRLİK Bilgəh istirahət evinin qabağındakı *çimərlikdə* xeyli adam vardı (H.Abbaszadə); **PLYAJ** [Ramiz:] Müəllimə, Fəridə heç *plyaja* getməyindən demədi (M.İbrahimov).

çimir *bax* yuxu **1**

ÇİMMƏK Girdik suya sevincək; *Çimdik*, quma uzandıq; Atam söylədi, gedək; Bəsdir günəşdə yandıq (N.Xəzri); **QÜSL ETMƏK (ELƏMƏK)** (*din.*) Kişi məsələsindən arif idi. *Qüsl etdikdə* bədəninin hər bir yerinə su dəyməsini bilirdi (Çəmənzəminli); **YIXANMAQ** (*yüngülvari çimmək*) Dəniz kimi çalxandım; Şəfəqlərdə *yuxandım;* Al günəşlə əl-ələ; Çıxdıq ordan sahilə (A.Şaiq); **YUYUNMAQ** Rəfiqim *yuyunub*, camaşırını dəyişincə, yeddi qardaş anaları ilə bərabər onun otağını döşəyib, purjunlu çarpayısını qurarlar... (S.S.Axundov).

I ÇİN, ORAQ (*ot, zəmi və s. biçmək üçün alət: çin dişli, oraq dişsiz olur*) *Çini* yaxşı kəsəndə, zəmi dolaşıqsız olanda kişinin kefi göynən gedərdi (Q.Xəlilov); **ORAQ** Bir gün biçinin vaxtı çatar, onda *oraqlar;* Qalxıb-enərək tarlada şimşək kimi parlar (A.Şaiq).

II çin *bax* doğru **1**

III çin *bax* rütbə **1**

çinovnik *bax* məmur **1**

1. ÇİRK [Tağı:] Bərabər, mən deyəndə ki, Nikolay padşah çox zalım idi, onun zamanında dədəm yazığın köynəyinin boynu bərmaq qalınlığında *çirk* bağlamışdı, siz nə dedüz (M.İbrahimov); **KİR** Biri der. Nə gözəl pudra, boya; Şu gözəllik *kir* olur girsə suya (H.Cavid).

2. çirk *bax* irin

çirkin *bax* **1.** eybəcər; **2.** çirkli; **3.** murdar **1**

ÇİRKLİ Necə təmiz yuyursa *çirkli* köynəyimizi; Anamız "uşağına cücü deyməsin" deyə... (S.Rüstəm); **ÇİRKİN** [Fərhad:] Toxundurma o faxir libasını mənim bu *çirkin* paltarıma, çirklənər (C.Cabbarlı); **KİRLİ** [Feyzinin] *kirli*, dizi yamaqlı şalvarı, boynu, yaxası getmiş bir üst köynəyi, tükü seyrəlmiş qulaqlı papağı onu yəndəmsiz göstərirdi (B.Bayramov).

çisək *bax* çiskin

çisələmək *bax* çiskinləmək

ÇİSKİN (*narın, xırda yağış*) Hava tutulub qaralır, narın *çiskin* başlayır.. (S.Rəhimov); **ÇİSƏK** Payız gecəsidir; Yağış, yel, *çisək*.. (Ə.Cəmil).

ÇİSKİNLƏMƏK Bərk duman olduğu üçün *çiskinləyirdi* (Ə.Vəliyev); **ÇİSƏLƏMƏK** Gündüz hava tutqun olmuş, indi isə *çisələyirdi* (Ə.Vəliyev).

çiyrənmək *bax* iyrənmək

çobansüzgəci *bax* dazıotu

çocuq *bax* uşaq

çocuqluq *bax* uşaqlıq **1**

çocuq-mocuq *bax* uşaq-muşaq

çiv *bax* paz

ÇİYİN Koridorun başında duran bir dəstə tələbə içlərindən birini *çiyinlərinə* aldı.. (Çəmənzəminli); **UMUZ** Yun şalını *umuzundan* alıb kreslonun söykənəcəyinə buraxdı (Ə.Əbülhəsən).

ÇOĞAN (*bot.*); **KÖPÜKOTU** Belə bitkilərin qərənfilçiçəklilər fəsiləsinə aid olan *köpükotunun* (*çoğan*) cinsi növlərini göstərmək olar; **SABUNAĞACI** ... Bunu göərən ispanlar həmin bitkiyə (çoğana) "*sabunağacı*", yaxud da "yuyunmaq ağacı" adını verərək, ondan bir qədər öz vətənlərinə apardılar və tədqiqi ilə məşğul oldular.

ÇOX (*müxtəlif mənalarda*) Qayıqda *çox* adam gəlirdi (M.Hüseyn); **ARTIQ** Yun qırxımına hazırlıq, aqreqatların vəziyyəti, örüşlər, xamlar, xüsusən ferma işçilərinin güzəranı, dolanışığı onu daha *artıq* maraqlandırırdı (B.Bayramov); **BOL** Yavada su bol, isti *bol;* Məhsul nə doydurur, nə bəhərdən bəhərə çatır (R.Rza); **FÜZUN** (*kl.ed.*) Məndə Məcnundan *füzun* aşiqlik istedadı var (Füzuli); **XEYLİ** Rona yolda görüb onu eylədi; Yenə də, riqqətli, *xeyli* mükəddər (M.Rahim); **PƏK** Humay bu lövhədən maraqlanır *pək;* Aydın arxasınca fikirləşərək (S.Vurğun); **PÜR** Başdan dilə mi ki, dür gətirsin; Bir damən onunla *pür* gətirsin (Xətayi); **ZİYAD** Çərxi-fələk zülmü *ziyad* eyləmiş; Hicran məni gündə döyər, ağlaram (M.V.Vidadi); **ZİYADƏ** Xənnas babasının hüzurunda mənəviyyatı pozulmuş insanların ruhunu daha *ziyadə* açıb göstərmək fikri ilə hiddətli bir səslə: – İnsan, yaxşı seyr et, bunlar sənin bacıların və qardaşlarındır! – dedi (A.Şaiq);

ZƏNGİN Təbiət *zəngindir*, o, yoxsul deyil; Təbiət insana səxavətlidir.. (B.Vahabzadə).

ÇOXALMAQ [Nəbi:] Yoxsullar ürəkdən verib əl-ələ; Bizə qoşulsunlar, *çoxalaq*, artaq; Keçsin əlimizə bu ana torpaq (S.Rüstəm); **ARTMAQ** Menşeviklər, kadetlər xosunlaşır dostyana; Göbələklər artan kimi, hər gün *artır*, çoxalır (R.Rza); **ÇOXLAŞMAQ** [Qurbanəli:] Yarım aydan sonra çöl işlərini qurtararlar və suvaq düşər, onda şagirdlərin *çoxlaşar* (N.Nərimanov); **ZAİD OLMAQ** O açıldıqca qapanmaqda idi sənətimiz; Günbəgün *zaid olurdu* qəmimiz, möhnətimiz (M.Ə.Sabir); **BOLLAŞMAQ.**

ÇOXALTMAQ ..*Çoxalır* səhrada gedişgəliş də (S.Vurğun); **ARTIRMAQ** [Səlima:] Biz Qartalı dərədə onun nəslini *artırmalıyıq* (İ.Əfəndiyev); **BOLLAŞDIRMAQ** Kankan... su çıxarıb çörəyi *bollaşdırmaq*.. istəyirdi (S.Rəhimov).

çoxbilmiş *bax* hiyləgər

çoxbilmişlik *bax* hiyləgərlik

çoxdanışan *bax* naqqal

ÇOXLU (*həddən artıq çox*) Meşədə *çoxlu* heyvan və quş var idi (S.S.Axundov); **AĞILLI-BAŞLI** [Tarverdi:] Görüm o birisi sandıqda nə var. Amma böyük sandıqdır, yəqin ki, bunun içində *ağıllı-başlı* mal var (M.F.Axundzadə); **DƏRYA QƏDƏR** *Dərya qədər* dərdim var; Ona dərmanmı yetər? (Ə.Cavad); **BİR KİTAB** [Mürşüd:] İnci, axı mən evdə sənə *bir kitab* söz danışdım (M.Rahim); **BİR YIĞIN** Cavan oğlan birinci otaqda əyləşib, qabağındakı *bir yığın* kağızları birbəbir oxuyur, dəftərə yazırdı (Ə.Haqverdiyev); **BOL** Taxıl yaxşı bitmişdi, *bol* məhsul gözlənilir (M.İbrahimov); **BOLLU** Əvvəl – bir, sonra – iki, sonra – üç... onların kirayə xərci ilə *bollu* pul qazandığını deyirdilər (M.İbrahimov); **BOLLUCA** Bizim də *bolluca* ağcamız olar; Qapımız, bağımız, bağçamız olar (S.Vurğun); **ÇOXLUCA** [Məmmədhəsən əmi:] Xudayar bəy əmin [eşşəyi] aparacaq şəhərə, orada ona *çoxluca* arpa verəcək (C.Məmmədquluzadə).

1. ÇOXLUQ, BOLLUQ

2. çoxluq *bax* əksəriyyət

ÇOXMƏNALI (*sözlərin bir neçə məna bildirməsi*) *Çoxmənalı* sözlər bu və ya başqa bir əşyanın, hadisənin, prosesin, keyfiyyətin və s. adını ifadə edən müəyyən səs tərkiblərinin başqa bir əşyada, hadisədə, prosesdə, keyfiyyətdə olan oxşar əlamət və s. vəzifənin adını ifadə etməyə keçməsi ilə əmələ gəlir (N.Məmmədov, A.Axundov); **POLİSEMANTİK** Beləliklə, bir sözün ilk mənasından əmələ gələn başqa mənalar onun məna çalarlığı adlanır və belə sözə *çoxmənalı* (*polisemantik*) söz deyilir (S.Cəfərov).

ÇOXMƏNALILIQ (*dilç.*), **POLİSEMİYA** *Çoxmənalılıq* – sözün bir neçə mənada işlənə bilməsi deməkdir. R.A.Budaqov isə haqlı olaraq yazır: *Polisemiya* sözün forma və məzmun vəhdətini pozmur (M.A.Şirəliyev, Z.İ.Budaqova).

çoxyeyən *bax* qarınqulu

ÇOLAQ *Çolaq* ayağa daş dəyər (Ata. sözü); **AXSAQ** *Axsaq* eşşək yorğa gedər (Ata. sözü); **TAYTAQ** (*dial.*) Domirçi Mahmudun oğlu *taytaxdı* (ADDL); **TOPAL** *Topal* eşşəklə karvana qarışma (Ata. sözü).

çolma-çocuq *bax* uşaq-muşaq

çolpa *bax* beçə

ÇOMAQ Paltonun köhnəliyini sübut etmək üçün biçarə Paşa bəy bir *çomaq* götürüb, paltoya çırpdı, toz qalxıb, duman kimi ətrafı tutdu (Çəmənzəminli); **DƏYƏNƏK** [Qulu:] Əliqulu divandan elə qorxur, necə ki it *dəyənəkdən* (S.S.Axundov); **TOPPUZ** (*başı girdə çomaq*) Teymurun başına yenə də elə bil ağır bir *toppuz* endirirdilər (H.Seyidbəyli).

ÇOŞQA Üçüncüsünün əlində balaca bir *çoşqa* çır-çır çığırırdı (M.Hüseyn); **DONUZ BALASI** Müsəlmanlar qurban bayramında qoyun-quzu tədarük edən kimi, bunlar bayram süfrəsinə düzmək üçün *donuz balasını* və toyuqları büryan etməyə hazırlaşırlar (M.İbrahimov).

ÇOVDAR (*bot.*), **QARABUĞDA**

ÇOVĞUN (*küləkli qar və yağış*) Bundan sonra biz hər istirahət günü xizək gəzintisinə çıxırdıq. Qarda, *çovğunda* da gedirdik (Ə.Vəliyev); **BORAN** Başqa cür keçərdi həyatım qışda; *Boranda*, çovğunda, qarda, yağışda (S.Rüstəm); **BURAĞAN** Bürüyür ortalığı tül kimi bir incə duman; Qarı birdən sovurur göylərə müdhiş *burağan* (A.Şaiq); **FIRTINA** (*dənizə də aid olur*) Gəlib keçir başımızdan *fırtınalar*; Dilə düşür hər rüzgarın bir sövdası (S.Vurğun); **QASIRĞA, TUFAN** Mən əzəldən *tufanların* qoynunda bir ötən quşam; Fırtınalar, *qasırğalar* qucağında doğulmuşam (S.Vurğun).

çöhrə *bax* üz

1. ÇÖL [Mozalanbəy:] İçdiyim çayın pulunu verib, çıxdım *çölə* və mənimlə bərabər bir neçə nəfər çıxdı (Ə.Haqverdiyev); **BAYIR** Bunu deyib Hüsniyyə *bayıra* çıxdı və bir azdan sonra Yusif başqa qaraçılarla bərabər içəri girdi (S.S.Axundov); **DIŞARI** (*köhn.*) Katibin də huşundan getmiş bədənini meşin xalçanın üstündən götürüb *dışarı* çıxartdılar (M.S.Ordubadi); **EŞİK** Nökər çıxdı *eşiyə* (C.Məmmədquluzadə).

2. çöl *bax* səhra

3. çöl *bax* tarla

4. çöl *bax* düzəngah

çöldonuzu *bax* qaban

çöllü *bax* köçəbə

ÇÖLPİŞİYİ (*vəhşi pişik*) Meşədə onun ən yaxın dostu quşlar olduğu kimi, ən böyük düşməni də quşları tələf edən mal-qaraya soxulan canavar, tülkü, çaqqal, *çölpişiyi* və dovşan kimi ziyançı heyvanlar idi (A.Şaiq); **YAZIPİŞİYİ.**

çölsiçanı *bax* kəsəyən

ÇÖMÇƏ [İbad:] Heç bilmir harada bişib, elə deyir bir *çömçə* tök (C.Cabbarlı); **ABGƏRDƏN** [Salamov:] Küt oğlu küt, yenə başladı qrafinkə həzrətləri. Yox, bir *abgərdən* həzrətləri (C.Cabbarlı).

çönmək *bax* dönmək **1**

ÇÖR-ÇÖP Kiminin bu dəryada gördüyü *çör-çöp* olur; Kimi də dibindəki incilərə vurulur (B.Vahabzadə); **XƏS** (*kl.əd.*) Bənd olub nakəsə əl çəkmə bu Şaiqdən, aman; Nə rəvadır tuta gövhər yerini xar ilə *xəs* (A.Şaiq); **VƏLİM** Bir bağ *vəlim* tapammır biçarə yandıra; Möhtacdır özü və əyalı hərarət (M.Ə.Möcüz).

ÇÖRƏK [Əsgər bəy:] Yolda qarnın tutunca biz sənə *çörək* verrik (M.F.Axundzadə); **LOĞMA** Yemə namərd *loğmasın*, Seyyid (S.Ə.Şirvani); **ƏKMƏK** Qaldı əynimdə əski bir köynək; Tapmadım gündə bir yavan *əkmək* (M.S.Ordubadi); **ƏPPƏK** [Ziba xanım:] Sənin bacın xəsislikdən pendiri süşəyə qoyub çöldən *əppək* batırır, elə oldu ki, əlli-altmış tümənlik nimtənə sənin arvadına sovqat göndərdi? (M.F.Axundzadə); **ƏTMƏK** (*köhn.*) [Azər:] Hər əməkdən çıxıyorkən *ətmək*; Böylə arsızca dilənmək nə demək? (H.Cavid); **NAN** (*arx.*) Vətənim verdi mənə *namü*-nəmək; Vətəni, mənçə, unutmaq nə demək? (A.Səhhət); **PƏPƏ/ PƏPƏŞ** (*uşaq dilində*).

ÇÖRƏKÇİ Baqqalların tərəzilərinin çirkinə baxıb bəratül-qol yazmaq, hamamlara girib su hovuzlarına baş çəkmək, *çörəkçilərin* xəmir təknəsinə baxmaq... kimi işlər hamısı dilmancın vəzifəsi idi (M.S.Ordubadi); **ŞATIR** *Şatırsan*, bişirmək, satmaq karındır; Qazanc sənin deyil, sahibkarındır (M.Rahim); **ÇÖRƏKBİŞİRƏN.**

çörəkitirən *bax* nankor

1. ÇUBUQ, ŞÜY (*yarpaqsız düz budaq*)

2. çubuq *bax* qəlyan

çuğul *bax* xəbərçi **1**

çuğulçu *bax* xəbərçi **1**

çuğullamaq *bax* şeytanlamaq **1**

çuğulluq *bax* xəbərçilik **1**

ÇUĞUNDUR (*bostan bitkisi*) Bir yanda qırmızı şirin *çuğundur*; Yeko bir palıddan daha yoğundur (R.Rza); **PAZI** [Nataşa:] Bu gün sizə bir *pazı* şorbası bişirmişəm ki, bəyənəcəksiniz (A.Şaiq); **ZILX** (*dial.*) Kələmlə badımcan, pomidorla istiot, köklə *zılx*, kartofla boranı elə səliqə ilə əkilmişdi ki, baxdıqca baxmaq istəyirdim (Ə.Vəliyev).

1. ÇUXUR [Səid] sonra əli ilə yaxındakı dərə kimi geniş *çuxuru* göstərərək: – Bu geniş dərəni görürsünüz, keçmişdə bu dərədə bir neçə timsah bəslənirdi.. (A.Şaiq); **KALAFA** [Bayramın gündəliyindən] "Kəndə bir az qalmış atdan düşdüm, Ceyranı bombadan oyulmuş bir *kalafaya* çəkdim" (R.Rza); **QAZNAQ** Təpənin dibindəki bulağın üstünə endim, əl və üzümü yuyub *qaznağın* qırağında oturdum (Divanbəyoğlu).

2. çuxur *bax* dərə

çuma *bax* taun

ÇUST (*ayaq geyimi, dabansız ayaqqabı*) Bəzisinin oyununda pisdən-yaxşıdan köynəktuman və hətta ayağında *çust* da vardı (M.İbrahimov); **PAPIŞ** [Ağa Kərim:] Amma Ağa Salmana mənim təlimim lazım deyil. O özü şeytana *papış* tikir (M.F.Axundzadə); **ŞAP-ŞAP** [Oğlanın] bir ayağında uzunboğaz çəkmə vardı, o birində *şapşap* və şapşaplı ayağı topuğuna qədər cuna ilə sarınmışdı (H.Abbaszadə).

ÇUVALDUZ (*ucu yastı və ayrı iri iynə*) ..əlində *çuvalduz* çarığını köşələyən Salam kişi ayaq səsi eşitdi (Mir Cəlal); **QIYIQ** ...*Qıyıqlar* xarallara sancıldı (Ə.Vəliyev); **PALANDUZ.**

çün *bax* **çünki**

ÇÜNKİ *Çünki* övladi-vətənin cəhaləti məni çoxdan ayaqdan salmışdır (M.S.Ordubadi); **ÇÜN** (*kl.əd.*) [Ağa Kərim:] *Çün* Hacı Qafur ilə duz-çörək yemişdim, o xatirə gəldim ki, bu işdən Sokinə xanımı xəbərdar edim (M.F.Axundzadə); **ONA GÖRƏ Kİ** [Çərkəz:] Ona görə ki, sən bizim xəstələrə şəfa verirsən, *ona görə ki*, bizim camaata lazımlı adamsan, həm də ona görə ki, Xəlilin əmisi oğlusan... (İ.Məlikzadə); **ZİRA** (*köhn.*) [Tomson:] *Zira* kiçik xalqların müqəddəratı qeydinə qalmaq bizim tarixi vəzifəmizdir (Ə.Məmmədxanlı); **ZİRA Kİ** [Məhəmməd ağa:] *Zira ki*, Ömər oxuyub elm sahibi olubdur və onun kömökliyi sizə azmı olur? (N.Nərimanov).

Dd

dabanbasa *bax* tolosik

dabanbasaraq *bax* tolosik

dabanbasma *bax* tolosik

dabanlamaq *bax* izləmək **1**

I DAD, LƏZZƏT [Qayısı gilasa:] Yox sənin ətin; *Dadın, ləzzətin;* Quru sümükson; Ağaca yüksən (M.Seyidzadə); **TAM** O da mənim bəxtəvər vətənimin *tamıdır;* Eşqimizdən alıbdır öz otrini bu şərbət (M.Rahim).

II dad *bax* haray

dadaş *bax* qardaş

dad-fəryad *bax* fəryad, haray

dadlı *bax* ləzzətli, şirin

dadrəs *bax* kömökçi **1**

dadsız *bax* ləzzətsiz

I 1. DAĞ (*coğr.*) *Dağlarının* başı qardır; Ağ örpəyin buludlardır... (S.Vurğun); **KUH** (*kl.əd.*) Naləmdən oldu kül bu cahan içrə *kuhü* dost; Ey dil, neçin o türreyi-dildar yanmadı (A.Şaiq).

2. dağ *bax* yaylaq **1**

II dağ *bax* dərd **1**

dağıdılmaq *bax* talanmaq

1. DAĞILMAQ [İrakli:] Mənim də şəhərim *dağılıb*, adamlarım qırılıb (Çəmənzəminli); **TARAC OLMAQ** [Cahangir bəy:] Mal-dövlətim *tarac oldu* getdi, özüm də düşmüşəm bu günə (N.Vəzirov); **VİRANƏYƏ DÖNMƏK** [Mahmud:] Sevdiyim bağçam *viranəyə döndü* (Çəmənzəminli); **VİRANƏLƏNMƏK** Bir qəmzəsi qanlı, həramı yağı; Çapdı könlüm şəhrin, *viranələnmiş* (M.V.Vidadi); **YIXILMAQ, TAR-MAR OLMAQ** [Hacı Murad:] Evim *yıxıldı, tar-mar oldu* (S.S.Axundov).

2. dağılmaq *bax* didilmək

dağınıq *bax* **1.** uçuq **1**; **2.** nizamsız **2**

dağınıqlıq *bax* nizamsızlıq **1**

DAĞITMAQ [Azər:] Bağrım çatlayır, dünyanı *dağıdaram*, Zöhrə? (M.İbrahimov); **ALT-ÜST ETMƏK** Nə buldular İskəndərlər, Çingizlər; Cahanı titrədib *alt-üst etdilər* (H.Cavid); **DARMADAĞIN ETMƏK** Qızıl Arslan ... Hüsəməddin və Qütlüğün iyirmi minlik ordusunu *darmadağın edib* Qəzvin şəhərini işğal etmişdi (M.S.Ordubadi); **XARABAZARA DÖNDƏRMƏK** Çünki Ataboylar İraq və Bağdad qoşunlarının köməyi ilə Cənubi Azərbaycanı bir neçə günün içərisində *xarabazara döndərə* bilirlər (M.S.Ordubadi); **TAR-MAR ETMƏK (ELƏMƏK), XARABA QOYMAQ** (*qarğış kimi işlənir*) [Rüstəm bəy:] Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdunu *xaraba qoydum, tar-mar elədim*, evinə od vurdum, külünü havaya sovurdum (N.Vəzirov); **UÇURMAQ (UÇURTMAQ)** Anladım ki, bu həşarat heykəli *uçurtmaq* fikrinə düşmüşlər (S.S.Axundov); **VİRAN ETMƏK, VİRANƏ QOYMAQ** Şamaxıda pristav Cəbrayılov sahibsiz və fəqir bir müsəlman övrətinin evini *viran etdi* (C.Məmmədquluzadə); **YERLƏ YEKSAN ETMƏK** Vaxtı ilə uzaq və amansız bir zəlzələ böyük və gözəl bir şəhəri *yerlə yeksan etmişdi* (Ə.Məmmədxanlı); **YIXMAQ** [Hacı Mehdi:] Allah harada ikiövrətlilər var, hamısının evini *yıxsın*, hamısını mənim günümə salsın (Ə.Haqverdiyev).

DAHA (*bir daha*) Lakin mübarizədə; ... belə ağırlıq, *daha* artıq; bir həvəsə gətirir (R.Rza); **ARTIQ** Əlimdəki işləri yoluna qoya bilsəydim, *artıq* burada durmazdım (H.Cavid); **DƏXİ** (*köhn.*) Elə ki taxıldı burnuna çeşmək; Qocalıq əl verib, *dəxi* no etmək (M.V.Vidadi).

DAHİ, BÖYÜK (*ən yüksək dərəcəli bilik, zəka, ağıl sahibi*) *Dahilər* – hər sözü bir dağ, bir qala; Cahillər – dağıtmaq, yıxmaq "dahisi" (M.Araz); **DÜHA** Deyirlər: bir *düha* oddan-alovdan; Əzmlə çıxardı bəşəriyyəti (O.Sarıvəlli).

DAHİLİK [Qaraqaşlı:] Mənə hər normal böyümüş adamda potensial *dahilik* vardır (Ə.Kərim); **BÖYÜKLÜK** Ancaq Nəsiminin *böyüklüyü* ondadır ki, o, yalnız islam ehkamçılarının dar çərçivəsində deyil, sufizmin daha geniş sərhədlərinə də sığışa bil-

mirdi (Anar); **DÜHA** Füzuli öz *dühası* ilə Azərbaycana parlaq bir klassik ədəbiyyat verdi (C.Cabbarlı).

daxil *bax* kassa

daxildar *bax* kassir **2**

DAXİL [Xosrov:] *Daxilindəki* mübarizəni üzündən, gözündən oxuyuram (A.Şaiq); **BATİN** Zahirən çox sadəlövh görünən bu qızın *batində* bu qədər hiyləgər olduğuna Əlyarov heç vəchlə inana bilmirdi (M.Hüseyn); **İÇ** [Gülcalam:] Bos xalq nahaq demoyib ki, *içərim* özümü yandırır, çölüm özgəni (M.İbrahimov).

DAXİLƏN Vəliş *daxilən* gülür.. cavab vermoyib sözlərin hamısını eşitməyi qət edirdi (Ə.Vəliyev); **BATİNƏN** ..Qarabağ bəylori də istinadgahlarının yerlorindən oynadığını hiss edir, bununçün də *batinən* narahat olurdular (Ə.Vəliyev).

DAXMA (*daşdan, palçıqdan və s. tikilmiş təkotaqlı, alçaq, balaca ev, yaxud yer altında düzəldilmiş kiçik ihtiyat mənzil*) *Daxmada* sükut hökm də pozulmamışdı (M.Hüseyn); **DAM** [Şöhrəbanu xanım:] İkisi də Şərofnisənin *damında* yatırlar... (M.F.Axundzadə); **DƏYƏ** Çoban *dəyəsində* qonaq da qalır; Bu qəlbi dağlardan min ilham alır (B.Vahabzadə); **KOMA** Belə xəbər; bir *komaya; daxmaya* gəlsə; Günəş kimi işıq, sevinc verir hər kəsə (R.Rza); **KÜLƏ** (*köhn.*) Nəhrin qaynağına doğru baxarkən suyun ortasında bir dəyirmançı *külbəsinin* qara dalğalarla qırpışa-qırpışa aşağı doğru axıb goldiyini gördüm (A.Şaiq); **QAZMA** Gecə tonqal yanırdı; *Qazma* işıqlarırdı (M.Seyidzadə).

daim(a) *bax* həmişə

DAİMİ *Daimi* deyilik, nə siz, nə də mən (S.Vurğun); **BAQİ** Lakin yenə həmişəki kimi öz fikrində *baqi* qaldı (Çəmənzominli); **HƏMİŞƏLİK** [Qəmər:] Mən burada *həmişəlik* doktor işləməyəcəyəm (S.Rəhman); **ƏBƏDİ** (*bax*).

dair *bax* haqqında

DAİRƏVİ, GİRDƏ, DƏYİRMİ

daqqaqarın *bax* yekəqarın **1**

1 1. DAL (*dal tərəfdə olan*) Şöhörin Şapur küçəsinin qurtaracağında, Firdovsi adına orta məktəbin *dal* tərəfindədir (M.Hacıyev); **ARXA** Mən buradan şəhərin *arxa* tərəfindəki üfüqdən görünən dağın döşünə sopolonmiş Zəbərli kəndinin qırmızı evlərini görürəm (M.Hacıyev).

2. dal *bax* geri **1**

3. dal *bax* sağrı

4. dal *bax* arxa **1**

II dal *bax* budaq

dalaqotu *bax* gicitkən

dalandar *bax* süpürgəçi

dalaşqan *bax* davakar

DALAŞMAQ Bir gün Əşrəf məhəllə uşaqlarından biri ilə *dalaşarkən*, ağır bir əl qollarından yapışdı (A.Şaiq); **BURUNLAMAQ** (*dan.*) [Əbülhəsən bəy:] Bu sözdən sonra qarı bizdən uzaqlaşdı, bir çoxları ilə *burunlaşdı* (M.S.Ordubadi); **ÇARPIŞMAQ** [Əbülhəsən bəy:] Bunların *çarpışması* nəticəsində ikisindən birisi tələf olacaq... (M.S.Ordubadi); **DAVA ETMƏK (ELƏMƏ)** [İsmayıl bəy:] Mən burada *dava eləməyə* gəlməmişəm (N.Vəzirov); **DİDİŞMƏK** İki qartal dağın təpəsində... qəzəblə *didişirdi* (Ə.Sadıq); **DÖYÜŞMƏK, BOĞUŞMAQ** (*məc.*) [Kişi:] Tərbiyəsizlər! Nə üçün *boğuşursunuz?* (A.Şaiq); **SAVAŞMAQ** [Xan:] Yox, Novruzəli, gərək hamısını nağıl eliyəsən başdan axıra kimi; necə kağızı apardın, necə saldın qutuya və nə üstə urusla *savaşdın* (C.Məmmədquluzadə); **VURUŞMAQ** ...ortalıqda iki müsəlman bir-biri ilə bərk *vuruşur*, camaat nə qədər eyləyir bunları araləşdıra bilməyir (Ə.Haqverdiyev).

DALBADAL *Dalbadal* göndərdiyi məktubların hamısı cavabsız qalırdı (X.Hasilova); **ARAMSIZ** Səhərdən bəri *aramsız* atılan güllələr viyıltı ilə uçuşaraq harada isə yerə düşür... (M.Hüseyn); **ARASI KƏSİLMƏDƏN** *Arası kəsilmədən* çalınan zəngdən Cövdət diksinib gözlərini açdı (H.Abbaszadə); **BİLAARAM** Rza bütün günü *bilaaram* gah körük basar, gah dəmir döyərdi (M.İbrahimov); **BİR-BİRİNİN ARDINCA (DALINCA)** Daha Könül özünü saxlaya bilməyib, onun barəsində dürüst öyrəndiklərini *bir-birinin dalınca* üzünə vurdu (X.Hasilova); **PEYDƏRPEY** ... çomaqlar *peydərpey* enib qalxırdı (Çəmənzominli).

1. DALDA Əhmədlə yoldaşlarının dayandığı yer möhkəm və *dalda* idi (M.Hüseyn); **BÜKƏK** Quzular özünü daşların *bükəyinə*, hətta çadırlara təpirdi (B.Bayramov); **KÜLƏKTUTMAZ** ..mən öküzləri otarıb doyurdum, dərədə *küləktutmaz* bir yerə yığandan sonra yatmaq istədim (Q.Xəlilov).

2. dalda *bax* sığınacaq

3. dalda *bax* gizli **1**

daldalamaq *bax* gizlətmək **1**

daldalanacaq *bax* sığınacaq

DALĞA (*dəniz sahilində küləyin əsməsi ilə əmələ gələn qabarıq*) Xəzri Xəzəri tələtümə gətirmişdi. Oradan-buradan qalxan *dalğalar*, sahilə yaxınlaşdıqca daha da güclənirdi (H.Abbaszadə); **LƏPƏ** (*kiçik dalğa*) Bir-birini qovan körpə *ləpələrin* nəfəsilə; Əsəblərə lay-lay deyən könül açan nəğməsilə (S.Rüstəm); **MÖVC** Dərya konarında oyləş... *mövclərə* dərdini söylə (Ə.Haqverdiyev).

dalğadöyən *bax* ləpədöyən

1. DALĞALANMAQ Sənin kimi *dalğalanır* ürəyimdə sözüm, deməz! (S.Rüstəm); **LƏPƏLƏNMƏK** Günün axır şəfəqləri ahəstəcəsinə *ləpələnən* suya düşüb onda xüsusi gözəllik vücuda gətirirdi (T.Ş.Simurğ); **MÖVCLƏNMƏK** Düzlərdə əkilmiş taxıl nəsimin qabağında o yan-bu yana yatıb dərdyatək *mövclənirdi*.. (Ə.Haqverdiyev); **TƏLATÜMƏ GƏLMƏK** "Ura!" sədası fırtınadan *tələtümə gələn* bir dərya kimi insan izdihamını titrətdi (M.İbrahimov).

2. DALĞALANMAQ Başında *dalğalansa* üç boyalı bayrağı; O zaman zənn edərəm bütün cahan mənimdir (A.İldırım); **YELLƏNMƏK** *Yelləndikcə* kiçik yüyrük; Gedib dəyir bu ulduzdan o ulduza (X.Rza).

dalğavuran *bax* ləpədöyən

dalğıc *bax* üzgüçü

DALĞIN (*dərin fikirlərə qərq olmuş*) Zonci *dalğın*... Salon səssiz... Elə bil ki, bütün varlıq; Ona bu dəm qulaq asır (S.Vurğun); **FİKİRLİ** Tağı əmi məni *fikirli* görərək dedi: – Görürəm həm yorulmusan, həm də acmısan, bəlkə? (S.S.Axundov).

I dam *bax* **1.** daxma; **2.** tövlə; **3.** həbsxana

II dam *bax* tala **1**

damad *bax* yəzna

damaq *bax* kef **1**

damazlıq *bax* cinslik

DAMCI Yeno mayeləşib suya dönərik; Yeno *damcı* olub yerə enərik (A.Şaiq); **DAMLA** İki *damla* yaş uzun kirpiklərdən süzülüb yanağına düşdü (Ə.Qasımov); **GİLƏ** [Soldat:] Sənə demədim ki, bir *gilə* də su aparmaq olmaz! (S.Vəliyev); **QƏTRƏ** O dəryanın hər *qətrəsi*, bir sənəm incisidir; Hər damlası atəş olub ürəklərə isidir (B.Vahabzadə).

damcı-damcı *bax* damla-damla

dam-daş *bax* bina; ev **1**

damla *bax* damcı

DAMLA-DAMLA (*damcı halında*) Əsgər kimi and da içdin şəhid olmuş o qıza son; *Damla-damla* göz yaşları axıtmadın gözlərindən (S.Vurğun); **DAMCI-DAMCI** Yağış *damcı-damcı* yağır; Göz yaşları yanaqdan; *damcı-damcı* axır (R.Rza); **GİLƏ-GİLƏ** ...Bəlkə do yanaqlarında; *gilə-gilə* buz oldu (R.Rza); **QƏTRƏ-QƏTRƏ** *Qətrə-qətrə* yaş tökər, çeşmi-göhərbarım kimi (Xətayi).

damlamaq *bax* həbs etmək

damlanmaq *bax* tutulmaq **1**

dana *bax* alim **1**

danabaş *bax* kütbeyin

danə *bax* toxum **1**

danəndə *bax* bilici

danışdırmaq *bax* dindirmək

danişgədə *bax* institut

danışqan *bax* naqqal

1. DANIŞMAQ (*müxtəlif mənalarda*) O geconi Zəki Əhmədlə çox xoş keçirdilər. Yedilər, içdilər, müxtəlif mövzularda *danış-*

dilar (A.Şaiq); **BƏHS ETMƏK** Alma, palıd, şam ağacı hal ilə; *Eylədilər bəhs* bu minval ilə... (M.Ə.Sabir); **DƏRDLƏŞMƏK** (*dərdləri haqda danışmaq*) Marqarita, qarı ilə bir neçə saat *dərdləşdi* (Çəmənzəminli); **GÖFTGU ETMƏK** (*köhn.*) [Əziz bəy:] Buyur, Səkinə xanımın özü ilə *göftgu edə* bilərsən (M.F.Axundzadə); **QONUŞMAQ** Çünki müsəlmanca *qonuşmaq* mana; Eybdir! Öz eybimizi anlarıq! (M.Ə.Sabir); **MÜKALİMƏ ETMƏK** [Molla Həmid:] Bu üç gündə bəni-adəm ilə mülaqat və *mükalimə etmək* və bir tərəfə çıxmaq ona mümkün deyil (M.F.Axundzadə); **SÖHBƏT ETMƏK (ELƏMƏK)** Gəl ikimiz *söhbət edək*; Duraq üzbəri bəxtəvər (Vəli Miskinli).

2. DANIŞMAQ, ÇIXIŞ ETMƏK, NİTQ SÖYLƏMƏK

3. danışmaq *bax* söyləmək **2**

4. danışmaq *bax* dinmək

danqı *bax* it

DANLAQ Ana məzəmməti, ata *danlağı*; Ancaq məhəbbətdir, ancaq məhəbbət! (B.Vahabzadə); **QINAQ** Qorxmamışam dost görünən düşmənlərin *qınağından* (R.Rza); **MƏZƏMMƏT** Uşaqlara Xudayar bəyin *məzəmməti* tük qədər də kar eləmədi (C.Məmmədquluzadə); **SƏRKİ** Üzüm də bilmirəm nədir günahım; Başıma yer-göydən *sərkilər* yağır (S.Rüstəm); **SƏRZƏNİŞ** Məmməd bəy Ağabəyimin *sərzənişinin* mənasını anladı... (Çəmənzəminli); **TƏNBEH** Pərişan pis bir *tənbeh* eşidəcəyi duyğusu ilə anasının qoluna qısıldı (M.İbrahimov); **TÖHMƏT, TƏNƏ** [Səfa:] Siz məni el *tənəsindən*, dost-aşna *töhmətindən*, ana bədgümanlığından qurtardınız (Ə.Qasımov).

DANMAQ (*boynuna almamaq*) [Sultan Safoya:] *Danırsan* gözünün içinə qədər.. (S.Rəhimov); **GİZLƏMƏK** Lələ, səndən bir şey soruşacağam, məndən *gizləmə*, doğrusunu söylə (S.S.Axundov); **İNKAR ETMƏK** [Zəki:] Biz gənclərin üzərində onun çox faydalı təsiri vardır, bunu heç kim *inkar edə* bilməz (A.Şaiq).

1. DAR, ENSİZ Çaylardan adladıq, "İt yolu" adlanan *dar, ensiz*, daşlı-qayalı və çox ağır bir cığırla Murovun zirvəsinə qalxdıq (M.İbrahimov).

2. DAR Biri deyir: Azca *dardır* yerimiz (M.Rahim); **DARISQAL** *Darısqal* bir daxma var, qabağı ağaclıqdır (M.Seyidzadə).

3. DAR (*məc.*) (*vaxtın azlığı*) Ancaq indi, bu *dar* vaxtda söhbət açmağı lazım bilmədi (Mir Cəlal); **TƏNG** [Cəfər kişi:] Sağagün vaqon doldurduq, yük çox idi, taylar ağır, vaxt *təng* (M.İbrahimov).

1. DARAQ (*saçı daramaq üçün dişli alət*) [Qız] kəsik saçını *darağı* ilə düzəltdi... (M.Hüseyn); **ŞANƏ** (*köhn.*) Səba dost zülfünə *şanə* çəkəndə; Yayılar gərdənə ha bular, bular (Aşıq Ələsgər).

2. daraq *bax* şan **I**

3. daraq *bax* dırmıq

dargöz(lü) *bax* paxıl

dargözlülük *bax* paxıllıq

DARI (*birillik taxıl bitkisi və bu bitkinin dəni*) Cütçü babasan, buğdanı ver, *dari* yeyərsən; Su olmasa şığıl əridib qarı yeyərsən (M.Ə.Sabir); **ƏRZƏN** (*arx., kl.əd.*) Nə buğda, nə arpa çatdı səndən; Nə lobya, nə xud, nə paxla, *ərzən* (M.Ə.Sabir); **SULUF** [Hacı:] Qarışdırram onu toza, peyinə; Bir düyü, bir *suluf* vermərəm sənə (A.Səhhət).

1. DARIXMAQ *Darıxıram* indi çox, sıxır könlümü həsrət; Meşəni tərənnüm et (M.Rahim); **DARILMAQ** Amma Yavər *darılmırdı*. Mədinəyə arxayındı... (M.İbrahimov); **XİFƏT ELƏMƏK** [Qaraqaşlı:] ...ikisini də bir yerdə rədd eləmək lazımdır ki, ayrı düşüb *xiffət eləməsinlər* (Ə.Kərim); **KÜRLÜK ETMƏK** (*dan.*) [Qondab:] Mən yamanca *kürlük edir*, ağlayır, hər xırda sözdən, xüsusən yeməkdən küsürdüm (B.Bayramov); **QƏRİBÇİLİYİNİ ÇƏKMƏK** Səttarxan Əli dayını düşünür, onun və başqa dostlarının *qəribçiliyini çəkirdi* (A.Makulu).

2. darıxmaq *bax* qəribsəmək

darılmaq *bax* **1.** hirslənmək; **2.** darıxmaq **I**

darısqal *bax* **1.** dar **2**; **2.** darkeş

DARKEŞ (*həcmcə balacu*) [Dilaro:] Bağışlayın, evimiz *darkeşdir*, iki otağa sıxılıb qalmışıq (Çəmənzəminli); **DAR** (*dan.*) Əslinə baxsan, bu *dar* həyətdə nə günəşli bir yer, nə də tamaşalı bir şey vardı (Ə.Əbülhəsən); **DARISQAL** [Pyotr Anisimoviç:] Oğlunuz, gəlininiz gəlib, onsuz da evimiz *darısqaldır*, nöş mən də sizə bir yük olum (H.Abbaszadə).

darmacal *bax* tələsik

DARTMAQ [Fərasət] var gücü ilə Mirişin otoyindən yapışıb, evinə torof *dartdı* (Ə.İldırımoğlu); **ÇƏKMƏK** Firəngiz başını qaldırmadı, suya qoyduğu bənövşə dəstəsini bərni ilə qarışıq özünə tərəf *çəkdi* (B.Bayramov).

darülədəb *bax* məktəb

darülfünun *bax* universitet

darüşşəfa *bax* xəstəxana

DARVAZA (*həyət hasarında böyük qapı*) Dəmir *darvaza* gurultu ilə açılıb-örtüldü, maşın içəri salındı (X.Hasilova); **ALAQAPI** *Alaqapının* qabağına hasar dalındakı ağacdan sarı yarpaqlar tökülüb (Anar); **KÜÇƏ QAPISI** Rübaba qonağı *küçə qapısına* kimi ötürdü (H.Abbaszadə).

DASTAN (*irihəcmli əsər*) Ələsgərəm, tərifini; Düzürəm *dastana*, gözəl! (Aşıq Ələsgər); **EPOS** Məlumdur ki, dramaturgiya bir janr olaraq lirika və *eposa* nisbətən daha mürəkkəbdir (M.Arif); **POEMA** (*bax*).

DAŞ Torpağa həsrətəm; həsrətəm *daşa*, ağaca (R.Rza); **ƏLLƏMƏ** (*məh.*) [İsmayıl bəy:] Sözümə baxsan, bu məsələnin üstünə iri bir *əlləmə* qoy, bununla da qurtar (Ə.Vəliyev); **HƏCƏR** (*kl.əd.*) Abbas deyər salın şahın başına; Ərəbi-*həcər*, farsi-song, türkidaş ("Abbas və Gülgəz"); **SƏNG** (*kl.əd.*) *Səng* şikəst eylədi balü pərim; Banlamağın hasilini anladım (M.Ə.Sabir).

daşbaş *bax* gəlin

DAŞIMAQ (*bir yerdən başqa yerə aparmaq*) Gördülər bir qarınca bir məloxi; *Daşıyır* qarşısında sürət ilə (M.Ə.Sabir); **APARMAQ** Səhiyyəçilər yaralıları *aparırdılar* (Mir Cəlal).

daşınmaq *bax* köçmək **1**

DAŞ-QAŞ (*qiymətli daşlar*) [Aslan:] O cür qadına yaxınlaşıb görürsən ki, gözəlliyi də, oynində parıldayan *daş-qaş* da saxtadır (S.Rəhman); **CAVAHİR(AT)** *Cavahir* daima cavahir qalır; Torpağın üstündə, torpaq altında (M.Rahim); [Xumar:] Mənə nə *cavahirat* lazımdır, nə də pul (S.Rəhman); **GÖVHƏR** Həyata layiq olan ziynət – elm *gövhəridir*; Ki, böylə bir dirilik qabili-mənat deyil (M.Ə.Sabir); **LƏL-CAVAHİR(AT)** [Bəhlul:] Gördüm ki, bir küpə qızıl, bir küpə də *ləl-cavahir* (A.Şaiq).

daşqəlbli *bax* daşürəkli

1. DAŞMAQ, AŞIB TÖKÜLMƏK

2. daşmaq *bax* coşmaq **1**

DAŞÜRƏKLİ Yəni mən o qədər *daşürəkliyəm?*.. (M.Hüseyn); **DAŞQƏLBLİ** *Daşqəlbli* insanları neylərdin, ilahi! Bizdə bu soyuq qanları neylərdin ilahi! (M.Ə.Sabir); **QƏLBİDAŞ** Çalış ki, bir güllon çıxmasın boşa; Dəysin o faşistə, o *qəlbidaşa* (S.Rüstəm); **SƏNGDİL** (*köhn.*) Bir də məni vurma, aman, *səngdil*; Rəhm elə, nigarlayıram indi mən (M.Ə.Sabir).

1. dava *bax* **1.** müharibə; **2.** dava-dalaş

2. dava *bax* dərman **1**

DAVA-DALAŞ (*bir neçə şəxs, qonşu, qohum arasında olan narazılıq*) Ancaq kənddən *dava-dalaş*, söz-küy azalmır (M.S.Ordubadi); **ÇARPIŞMA** ..dalaşanları aralamaq qeyri-mümkün idi, *çarpışma* davam edirdi... (Çəmənzəminli); **DAVA** (*dan.*) *Dava* tozədən qızışdı; başlar yarılmaqda idi; saqqallar yolunurdu; söz evlərə düşürdü (Çəmənzəminli); **DAVA-ŞAVA** [Alo:] Axır ay Şamo, bu *dava-şavadan* heç başım çıxır ki! (S.Rəhimov); **DİDİŞMƏ** İki qardaş arasında olan *didişmələr* get-gedə uzandı (A.Şaiq); **QALMAQAL** Emalatxanada böyük bir *qalmaqal* qalxdı (M.S.Ordubadi); **QOVĞA** *Qovğa* sözi getdikcə yavıqlaşırdı (Çəmənzəminli); **VURHAVUR** (*əlbəyaxa olan dava*) [Kazım:] Ay Allahqulu, yaxşı ki, yaxamızı bu *vurhavurdan* qurtardın (Çəmənzəminli).

dava-dərman *bax* dərman **1**

davaxana *bax* aptek

DAVAKAR Arvad səsindən artıq *davakar*, hərzə kişi sosinə oxşayan bu səs Gülabətinə çox pis təsir etdi.. (M.İbrahimov); **DALAŞQAN, SAVAŞQAN** Ay *dalaşqan* sərçələr! Ay *savaşqan* sərçələr (M.Rzaquluzadə); **QALMAQALÇI** Bu müstəbid təbiətli adam eyni zamanda bir küçə *qalmaqalçısı* qədər ağzısöyüşlü, tərbiyəsiz idi (M.İbrahimov); **QALLI** Çoxlarını məhv elədi bu qovğalı, *qallı* dünya; Sultanlara qalmadı, yox, Nəsimiyə qaldı dünya (X.Rza).

DAVAMÇI (*bir işi davam etdirən*) Ulu Tolstoyun, böyük Puşkinin; Fikir *davamçısı*, məsləkdaşı... Hünərdir, şərəfdir yeni nəsil-çün (B.Vahabzadə); **VARİS** (*məc.*) [Qara] ənənələrin qulu deyil, həqiqi *varisidir* (R.Rza).

davamlı *bax* möhkəm **1, 2**

DAVAMSIZ, CƏƏNİ, KÖVRƏK, NAMÖHKƏM

DAVAMSIZLIQ, DƏYANƏTSİZLİK (*bax*), **NAMÖHKƏMLİK**

DAVAR Kənd yerində üç il dalbadal məhsul olmaması üzündən çox adam qapısındakı beş-üç *davar* satıb yemiş, i (B.Bayramov); **QOYUN-QUZU** Dırnağıyla bəzək vurub nəmli torpağa; *Qoyun-quzu* mələşərək, qalxır yaylağa (S.Rüstəm).

1. DAVASIZ, QALMAQALSIZ, MÜBAHİSƏSİZ

2. davasız *bax* dərmansız

dava-şava *bax* dava-dalaş

davat *bax* mürəkkəbqabı

DAVRANIŞ, HƏRƏKƏT Axır vaxtlar [Fatmanın] *hərəkətləri, davranışı* dəyişmişdi (H.Abbaszadə); **ƏMƏL** Sənə cəza verən *əməllərindir* (M.Rahim); **KİRDAR** Canım oda yandı, qoyma, gəldi; *Kirdarı* yamandı, qoyma, gəldi! (M.Ə.Sabir); **MÜAMİLƏ** Xədicənin mənə qarşı... bu *müamiləsindən* mütəəssir olmaya bilmədim (S.Hüseyn); **RƏFTAR** Nə gizlədim, doğrusu, mən bu soyuq *rəftarı*; Ey əşqimin soltanı, heç səndən gözləməzdim (M.Rahim); **MÜNASİBƏT.**

DAVRANMAQ Səfərin gəlməsi söhbətin mövzusunu tamamilə dəyişdi. Kazım da onun yanında ehtiyatla *davranırdı* (Çəmənzəminli); **DOLANMAQ** Güləndam Əhmədin həm arvadı, həm əmisi qızı idi.. Əmi qızı və əmi oğlu xeyli mehriban *dolanmaqda* idilər (Ə.Haqverdiyev); **RƏFTAR ETMƏK** On-on iki yaşına çatmamış uşaqların əksəriyyəti özünü yaxşı aparırdı, sakit oynayır, bir-birilə yaxşı *rəftar edirdi* (C.Cabbarlı).

1. DAYAQ, DİRƏK (*bir şeyi saxlamaq üçün altından vurulan tir və s.*) Tələbə diqqətlə baxdı və başa düşdü, görünür, bu iki *dirək* mövcud olmayanın *dayaqları* imiş... (Anar); Şirəli daxmanın *dirəyinə* qısıldı (M.Hüseyn); **SÜTUN** ...*Sütunların* da kölgəsi düşürdü (Anar).

2. dayaq *bax* havadar

DAYANACAQ (*nəqliyyat vasitələrinin dayanacaq yeri və sərnişinlərin minik üçün gözlədikləri yer*) Adilə bütün bunları hiss etmədən irəliləyir, özünü taksi *dayanacağına* çatdırmağa can atırdı (Ə.Qasımov); **DURACAQ** Avtobus yola düşhadüşdə Kərim dayı zor-güc özünü *duracağa* çatdırdı (M.İbrahimov); **DURUŞ** (*dan.*) Tramvay *duruşunda* təyyarə bığlı bir gənc; Zilləyib gözlərini bir qapıya səhərdən (S.Rüstəm).

dayandırmaq *bax* saxlamaq **1**

DAYANMADAN (*müxtəlif mənalarda*) O (Qəmər) *dayanmadan* yoxuşu yaralı ceyran kimi sıçrayır, oxlanmış maral kimi atılırdı (S.Rəhimov); **ARAMSIZ** [İlyas:] Mən gecələr... hisli çırağın işığında *aramsız* çalışırdım (M.Hüseyn); **BİRBAŞA** Lap *birbaşa* redaktorun yanına getdim (M.İbrahimov); **BİRNƏFƏSƏ** Zərif o axşam evlərinin qabağında ayrılıb pilləkəni *birnəfəsə* çıxdı (Ə.Kərim).

1. DAYANMAQ Maşın onlara çatanda *dayandı* (H.Abbaszadə); **AYAQ SAXLAMAQ** [Mədinə] ürəyinin xoş bir sevinclə döyündüyünü hiss edib *ayaq saxladı* (M.İb-

rahimov); **DURMAQ** [Mirzə Kazım:] *Durun! Dayanın!* (M.S.Ordubadi); **ƏYLƏNMƏK** [Qəndab:] Sürətlə qaçan maşın böyrümdə *əylənmədi* (B.Bayramov).

2. dayanmaq *bax* dözmək

dayday *bax* dayı **1**

dayə *bax* tərbiyəçi

1. DAYI (*anamın qardaşı*) [Aytəmiz:] Ələbələ, məktub kimi. Cəmi üç dəftərdir. *Dayıma* göndərmək istəyirdim (Ə.Qasımov); **DAYDAY** (*uşaq dilində*) Əkizlər gəlib dedilər ki, *dayday* işdən getməyib... (H.Abbaszadə); **ƏMİ** (*bax*).

2. dayı *bax* əmi **2**

dayıarvadı *bax* dayıdostu

dayıcanı *bax* dayıdostu

DAYIDOSTU [Aytəmiz:] Axı *dayıdostum* mənə kiçik cibləri olan kəmər düzəltmişdi (Ə.Qasımov); **DAYICANI** (*məh.*) Böyük xalaqızım da, *dayıcanım* da töküldülər mənim üstümə... (C.Məmmədquluzadə); **DAYIARVADI.**

daz *bax* dazbaş

DAZBAŞ (*başında tükü olmayan, başının tükü tökülmüş*) Direktor, nə direktor – yekəqarın, *dazbaş*, sallaqdodaq, Soltənətin atası yerində (H.Abbaszadə); **DAZ** [Mümtaz Mötəbərov] kollesinin düz ortasının *dazını* örtmək üçün yan tərəflərin saçını aşağıdan yuxarı daradı (M.Hüseyn); **KEÇƏL** [Vəli:] Bəli, bu *keçəl* Oruca ad-san çox lazımdır! (M.F.Axundzadə).

DAZI/DAZI OTU (*bot.*), **ÇOBANSÜZGƏCİ, QAXOTU, QOYUNQIRAN** Hələ qədim zamanlardan xalq arasında *daziotunun* (bu bitkiyə *qoyunqıran, çobansüzgəci, qaxotu* da deyilir) müalicə xassələri yaxşı məlum idi.

debarkader *bax* platforma **1**

dedikə *bax* olduqca

deh *bax* kənd

dehqan *bax* kəndli

deklarasiya *bax* bəyannamə

dekor *bax* bozək

deyr *bax* kilsə; monastır

DELFİN (*dənizdə yaşayan heyvan*) Bir anlıq dünyada yox olsa boşər; Məni *delfinlərin* yanına göndər (M.Araz); **YUNUSBALIĞI** [Səid:] Sizin xoşboxtliyiniz onda olmuşdur ki, timsah gölini suyun dibinə aparmamış, *yunusbalığı* köməyə çatmışdı (A.Şaiq).

1. DEMƏK Şəndə rentgenin nəticəsini nəzərdən keçirdi, biçaqlıq şey olmadığını *dedi* (B.Bayramov); **AYITMAQ** (*qəd.*) Olma məlul, *ayıtma* kim, bəndü hasar içindəyəm (Nəsimi); **BUYURMAQ** (*dan.*) [Cəfərqulu:] Səlim bəy doğru *buyurur* (S.S.Axundov); **ƏRZ ETMƏK (ELƏMƏK)** [Mümtaz Mötəbərov:] Bax, doktor, bunu lap düz *ərz elədin* (M.Hüseyn); **SÖYLƏMƏK** İndi anladınız nə *söyləmək* istəyiriz? (N.Nərimanov).

2. demək *bax* deməli

DEMƏLİ Mən sülhə səs verirəm; Dəyişirəm, *deməli*, əlimlə təbiəti (M.Rahim); **DEMƏK** [Kərəmov:] Ada, dəmirçi Musa, *demək* iki min beş yüz manatı almısan, qaçmaq istəyirsən?! (S.Rəhman).

demi *bax* qəlyan

depeşa *bax* teleqram

despotizm *bax* istibdad **1**

despotluq *bax* istibdad **1**

1. DEŞİK (*yıxılmış bir yer*) Onların bağında, gözümə ağac *deşiyində* qayrılmış bir alacəhrə yuvası sataşdı (S.S.Axundov); **DƏLİK** Dəmir qapılarsa *dəlik*, deşik, paslıdır; Allah bilir havaxtdan kədərlidir, yaslıdır?! (S.Rüstəm).

2. DEŞİK (*it, tülkü və s. yuvası*) ..İtimiz yuvaya nisbətən bir *deşik* qayırmışdı (C.Məmmədquluzadə); **DƏLİK** Gündüzlər istinin dərdindən [it] hamən *dəliyə* girib kölgələnirdi (C.Məmmədquluzadə).

DEŞMƏK Güləsərin etirazına fikir vermədən iynəni sapladı. Gəlinin qulağını *deşdi* (İ.Şıxlı); **DƏLMƏK** Onun qollarını ən azı iyirmi güllə *dəlib* keçmişdi (M.Hüseyn); **YIRTMAQ** Qulaqların pərdəsini *yırtır* vəhşi caz səsi; Meyxanəni topa tutur qadınların naz səsi (S.Rüstəm).

DETAL, HİSSƏ

devirmək *bax* yıxmaq **2**

deyəsən *bax* yəqin

deyicilik *bax* xəbərçilik

deyikli *bax* nişanlı

deyinmək *bax* donquldanmaq

deyişmə *bax* şeirləşmə

deyişmək *bax* şeirləşmək

dezertir *bax* fərari

1. DƏB (*geyim forması*) Mədinə tamahkar deyildi ki, deyəsən Yavər ona *dəbdə* olan bir paltar almaq və yaxud yayda hansı kurorta isə aparmaq üçün pul tapmağa cəhd edir, əldən-ayaqdan olur (M.İbrahimov); **MODA** [Sürəyyə:] Aylarla baş sındırırlar bir yeni *modanı* düzəldincə (Ə.Qasımov).

2. dəb *bax* adət **1**

dəbbə *bax* lovğa

DƏBDƏBƏ (*böyük, yaxud kiçik şənlik*) Bu şəhər içində görüb duyduğum o hissiyyat; Bütün o *dəbdəbələr*, həp o anlı, şanlı həyat (H.Cavid); **BÜSAT** Gəlsin məclisimə bu gün istiqbal; Görsün ki, qəlbimdə nə *büsat* vardır (S.Vurğun); **CAH-CALAL** Qoyunlar axşamdan kəsilib, soyutma olub *cahü cəlal* ilə, brovhabrov ilə düşürük yola (Ə.Haqverdiyev); **DƏM-DƏSGAH** Tələbə adam hansı otaqda *dəm-dəsgah* düzəldib oğluna belə bir ad qoya bilərdi? (S.Rəhimov); **DƏSGAH** (*böyük şənlik*) [Cabbar bəy:] Elə bu *dəsgahlardan* görünür ki, kişi böyük adamdır; doğru buyurursan (N.Vəzirov); **EHTİŞAM** İndi bayraq kimi ucaldır zaman; Vətən torpağının *ehtişamını* (S.Vurğun); **QURĞU** Zülümünü nümayan eylədin aşkar; *Qurğular* pozulub, sanlar itibdi (Aşıq Ələsgər); **TƏMTƏRAQ** Nə *təmtəraq*, nə zinət; Nə bu sayaq məziyyət; Ruhumu cəzb etməyir; Məni şərinlətməyir (M.Rahim); **TƏNTƏNƏ** Əlimdə ağ günlərin; Bəxtiyarlıq camıdır; Başladığım *təntənə;* İstiqlal bayramıdır (M.Rahim).

DƏBDƏBƏLİ Gürcü zadəganlarından biri tulumbaşı seçildi, *dəbdəbəli* ziyafət başlandı (Çəmənzəminli); **CAH-CALALLI** Gecə xanın evində *cah-calallı* bir məclis qurulmuş, sazandalar öz yerlərini tutmuşdular (Ə.Məmmədxanlı); **DƏM-DƏSGAHLI** Sazandası, xanəndəsi, plovu, içkisi, məzəsi, cehizi, başlığı öz qaydasında *dəm-dəsgahlı* bir toydu (Mir Cəlal); **DƏSGAHLI** Heydərovla Somayo... *dəsgahlı* bir toy elədilər (Mir Cəlal); **EHTİŞAMLI** Gecələrin zinətidir; *Ehtişamlı* axşamların; Bir dünyanın şöhrətidir, Göyündəki ağ şamların (H.Billuri); **MÜTƏNTƏN** (*köhn.*) [Cavad:] Məşhur fars şüərasının Qaaninin tar, rübab şeri bir ahəngi-digərinə təhziz etmiş həzin, *mütənən,* mütərra, ahəngdar nəğmələr icad edər şeri musiqi ilə məzc edir (A.Şaiq); **TƏMTƏRAQLI** ..mədəniyyət sarayı.. *təmtəraqlı* bir kaşanə kimi ucalmışdı (S.Rəhimov); **TƏNTƏNƏLİ** Arvadının sualı Bahaduru sevindirdi, bu o demək idi ki, uşağın ad gününü *təntənəli* keçirmək fikri ilə yavaşyavaş razılaşırdı (R.İbrahimbəyov).

DƏBƏ (*tib.*), **YIRTIQ, QRİJA** (*dan.*)

DƏBİLQƏ (*müharibə vaxtı başa qoyulan dəmir baş geyimi*) Qılınc və nizələrin əsər etmədiyi dəmir geyimlər və polad *dəbilqələr* ağır əmud zərbələrinin altında əzilərək bədənlərə yeriyirdi (M.S.Ordubadi); **KASKA** Zabitin *kaskası* on addım kənara dığırlandı (Mir Cəlal); **ŞLEM** İçəridə qızının *şlemli* əsgər nədənsə çox ərinə-ərinə cavab verdi (M.Hüseyn); **TASKÜLAH** Yolnan yeddi yaşında bir oğlan, ağ *taskülah* başında, göy qədək arxalıq əynində və ağ tuman, ayaq yalın, qabağına bir dəstə quzu qatıb və əlində şökə ilə bu quzuları vura-vura gəlir kəndə (C.Məmmədquluzadə).

dəbistan *bax* məktəb

dəcəl *bax* nadinc

dəcəllik *bax* nadinclik

1. DƏDƏ Hamı gözləyir ki, çıxsın ortaya; Yeni bir qəhrəman, müdrik bir *dədə* (X.Rza); **USTAD** Biz artıra bilmədik sözün qədrini, *ustad!* Əydik də qamış kimi sözün qəddini, *ustad!* (M.Araz).

2. dədə *bax* ata

dədə-baba *bax* ata-baba

DƏDƏ-BALA (*ata ilə oğul və ya qız*) [Molla:] Bunlar *dədə-bala* çıxdılar. Daha savaşmazlar (M.N.lot.); **ATA-BALA** [Hacı Murad:] İrəli gol əyləş. Bir az da *ata-bala* dordləşək (S.S.Axundov).

dədəli *bax* atalı

dədəlik *bax* atalıq

dədəmalı *bax* cehiz

dədəsiz *bax* atasız

dədəverdi *bax* cehiz

dəf *bax* qaval

dəfçalan *bax* qavalçı

DƏFƏ (*müxtəlif mənalarda*) Bir *dəfə* tarlada, bir *dəfə* evə dəvət edəndə, bir də indi (Ə.Qasımov); **AYAQ** (*dan.*) ..beş *ayaq* qayıtdıqları halda, yeddi dəfə xərəyi doldurub boşaldırdılar (Ə.Vəliyev); **BAŞ** [Abdulla] ayağa qalxdı, stolun arxasında bir-iki *baş* gəzindi... (B.Bayramov); **DÖNƏM** [Qəndab:] Məzahir iki *dönəm* qəsəbəyə qayıtdı... (B.Bayramov); **ƏL** (*adətən saylarda*) Bu əsnada yaxında dörd-beş *əl* şiddətli tapança atılır (H.Cavid); **KƏR(R)Ə** İranda ikinci *kərrə* Ələkbər yoldaşla tanış oldum (M.S.Ordubadi); Sonra telefon azından on *kərə* zəng çaldı (S.Qədirzadə); **QAT** [Qasid:] Düşmən bizdən on *qat* güclüdür (M.Hüseyn); **MƏRTƏBƏ** (*kl.əd.*) Ala gözlər nərgisi-məstanə tək şəhlalanır; Elə ki süzgünləşir, yüz *mərtəbə* zibalanır (M.P.Vaqif); **ÖYNƏ** Sizin kənddə çox az adam var ki, gündə iki *öynə* yemək yesin (M.Hacıyev); **PAY** [Həcər:] Mən Qəmərdən min *pay* gözəl idim... (Anar); **SƏFƏR** Bu *səfər* də Durnisə bir az fikirləşib, birdən gülümsündü... (Çəmənzəminli); **YOL** [Niyazəli:] Bir arvada iki *yol* kəbin kəsmək olmaz ki? (N.Nərimanov).

DƏFƏLƏRLƏ [İbrahim xan:] Mən *dəfələrlə* kömək verib, dardan qurtardığım İrakliyə tac gəlsin... (Çəmənzəminli); **DÖNƏ-DÖNƏ** *Dönə-dönə* imtahan etdi fələk dövranını; Onda mən bərəkslikdən özgə adət görmədim (M.P.Vaqif); **KƏRRAT** [Ömər:] Bu barədə də *kərrat* ilə mənə sifariş göndəriblər (N.Nərimanov); **MÜKƏRRƏR** (*köhn.*) Gördüm bu rübaiyi *mükərrər* (M.Ə.Sabir); **TƏKRARƏN** Kərimzadə.. Həmişəyevin fikrini *təkrarən* təsdiq elədi (B.Bayramov); **TƏKRAR-TƏKRAR** [Xan] Vaqifin Tiflisdən gətirdiyi xəbəri *təkrar-təkrar* xatirindən keçirib fikirləşdi (Çəmənzəminli).

dəfinə *bax* xəzinə **1**

DƏFTƏRÇƏ (*kiçik dəftər, qeyd dəftərçəsi*) [Mazarov:] Yox, Məlik *dəftərçəsinə* özgələrinə aid olan şeyləri qeyd edir (Anar); **BAYAZ/BƏYAZ** (*köhn.*) (şeir, yaxud mərsiyə dəftərçəsi) Sənə öz yurdundan, öz *bayazından;* Ancaq ayırdılar bir qəbir yeri (M.Rahim); İbrahim xanın qızı Sənəm xanım şeir maraqlısı olduğundan, Vaqifin hər bir şerini öz *bəyazına* köçürürmüş (Çəmənzəminli).

dəftərdar *bax* mühasib

dəftərdarlıq *bax* mühasiblik

dəhan *bax* ağız

DƏHLİZ Cövdət uşaqları *dəhlizə* ötürdü (H.Abbaszadə); **KORİDOR, QƏFƏXANA** (*arx.*) İkisinin arasındakı *koridorun* (*qəfəxana*) bir nəfərinə məxsus yığılırdı, o biri tərəfində də iri bir su küpü basdırılmışdı... (Çəmənzəminli).

dəhr *bax* **1.** dövr; **2.** dünya

dəhşətli *bax* qorxulu **1**

dəhyək *bax* vergi **1**

dəxi *bax* həmçinin; daha

DƏLƏ (*zool.*) O, *dələni* tanımadı.. (M.Rzaquluzadə); **SİNCAB** Külli miqdarda ovlanan xəzdorili heyvanlarımız arasında *sincab* çox mühüm yer tutur ("Zoologiya").

dələduz *bax* hiyləgər

dələduzluq *bax* hiyləgərlik

dələqarın *bax* qarınqulu

dələyən *bax* ağacdələn

1. DƏLİ (*ağlı və şüuru yerində olmayan*); **CÜNUN** (*kl.əd.*) Qeyso obəs vermə *cünun* namını; Görməyərək surəti-Leylasını (M.Ə.Sabir); **DƏLİ-DİVANƏ** [Cahangir bəy:] *Dəli-divanə* kimi gecə yarısından keçmiş, atlanıb gedirəm o otraflarda gəzirəm...

(N.Vəzirov); **DİVANƏ** Gah odsuz, alovsuz pərvanə oldum; Eşqinlə gülücək *divanə* oldum (M.Araz); **DİVANƏSƏR** (*kl.ed.*) Sonra gündən-günə *divanəsər* etdin məni son (A.Səhhət); **İPLƏMƏ** (*dan.*) [Forzəli:] Bu səfeh oğlu lap *ipləmə* imiş ki! (S.Rəhimov); **MƏCNUN** (*kl.ed.*) [Cahangir bəy:] Tamam el-oba mənim adımı *məcnun* qoyublar; olbatto, mən *divanəyəm*, horgah divanə olmasaydım, Səadətə tooşşüq yetirməzdim (N.Vəzirov).

2. dəli *bax* igid

dəlibaş *bax* dəlisov

dəli-divanə *bax* dəli **1**

dəli-dolu *bax* intizamsız; dəlisov

dəlik *bax* deşik **1, 2**

1. dəliqanlı *bax* **1.** yetkin; **2.** igid

dəliqanlılıq *bax* igidlik

dəli-qudurmuş *bax* azğın **1**

DƏLİL (*gerçəkliyi izah edən*) Materialdakı *dəlilləri* yoxlayıb saf-çürük etməklə namuslu foallarının, xüsusilə kolxozun aqronomu Çiçəyin və bir də Hosən kişinin Elsevərə çox köməyi dəydi (Ə.Qasımov); **BÜRHAN** (*kl.ed.*) [Şeyx Hadi:] Başqa dinlərdə bir çox insanlar; Hop sorar, hop arardı *bürhanlar* (H.Cavid); **DƏSTAVÜZ** Heç birisini tutmaq üçün əldə *dəstavüz* yoxdur (M.İbrahimov); **ƏSAS** [Musa:] Tutulması üçün heç bir *əsas* yoxdur (Ə.Vəliyev); **İSBAT** Dəlili, *isbatı* öz üzərindədir; İstər heç inanma, istərsə inan (O.Sarıvəlli); **SÜBUT** [Fəxrəddin:] Şahbaz, hirslənmək lazım deyil, mənə məntiqli *sübutlar* gətir (S.S.Axundov).

DƏLİLİK (*ağlı başından çıxmış adamın halı*) [Hacı Nayib:] Yəni hökim cənablarının ixtisası həmin *dəlilik* mərəzinin, ... rəxnə tapmalıdır (C.Məmmədquluzadə); **CÜNUNLUQ** Saysalar da bu işi bir dəlilik; Eybi yox, var bu *cünunluqda* bilik (Şöhriyar); **DİVANƏLİK** [Çingiz:] Yox, yox, mən sərsəri olmaram, *divanəlik* acızlər, zəiflər işidir (S.S.Axundov); **MƏCNUNLUQ** [Anjela:] Burax bu *məcnunluğu*; Allahını sevərsən (H.Cavid).

DƏLİLSİZ, BİDƏLİL, ƏSASSIZ, İSBATSIZ, SÜBUTSUZ

DƏLİSOV Ümumən o, çox *dəlisov* idi (M.İbrahimov); **DƏLİBAŞ** ...Sofor *dəlibaş* bir adam idi (S.S.Axundov); **DƏLİ-DOLU** Bolko deyəcəklər: səbri çatışmır; Bir az *dəli-dolu*, beyni də qandır (X.Rza); **DİVANƏTƏHƏR** [Vəzir:] Bir də ki, o *divanətəhər* adamdır... (A.Şaiq); **DƏLİTƏHƏR.**

1. DƏLLƏK [Nayıb Nadanov:] *Dəlləyəm.* Mənim ülgücümü heç kos işlədə bilməz. Qırxdığım üzə bir ay tük gəlmir (Ə.İldırımoğlu); **BƏRBƏR** ...Hər məhəllənin öz hamamı, məscidi, *bərbəri*, xəyyatı, başmaqçısı, bəqqalı, əllafı... (Ə.Cəfərzadə).

2. dəllək *bax* kişəçi

DƏLLƏKXANA Qaçay indicə baxıb gördü ki, ... *dəlləkxanada*, çayxanada olanların hamısı bura yığışmışdı (İ.Məlikzadə); **BƏRBƏRXANA** Odur bax, özüdür! *Bərbərxanadan;* Basıb yanlarını çıxdığı zaman... (S.Vurğun).

DƏLLƏKLİK, BƏRBƏRLİK

dəlmək *bax* deşmək

I. dəm *bax* **I.** dövr; **2.** an

II. dəm *bax* sorxoş

dəm-dəsgah *bax* dəbdəbə

dəm-dəsgahlı *bax* dəbdəbəli

dəmət *bax* güldəstə

dəmxana *bax* ev **1**

DƏMİR [Arvad] corabı yerə atıb *dəmir* maşanı götürdü və sobanın ağzını açıb közləri qarışdırdı (İ.Əfəndiyev); **AHƏN** (*kl.ed.*) Heç kimsəni eşq oduna düşmə sin; *Ahəni* ərdir, daşı yandırır (Aşıq Ələsgər).

dəmli *bax* sorxoş

dəmrovotu *bax* ziyilotu

dəndan *bax* diş

dəndə *bax* göyrüş

I. DƏNƏ Restoran tərəfə gedib gördüm qapının ağzında iki *dənə* samovar qoyublar, rəngləri qapqara (Ə.Haqverdiyev); **ƏDƏD** Həzrət çox fikrindən sonra yüz *ədəd* çubuğu topa bağlayıb bir dəfə arvadın belinə vurdu (Ə.Haqverdiyev); **NÜSXƏ** [Səfərəli:] Alyoşa, bu kağızlardan neçə *nüsxə* çap ediləcək? (H.Nəzərli).

2. dənə *bax* toxum **1**; **3.** çoyirdək; **4.** tum **1**

dəni *bax* əclaf

DƏNİZ Hava sakit... *Dəniz* şəffaf... Səhər dilbər...; Al günəşin şəfəqləri düşür suya (S.Vurğun); **BƏHR** (*köhn.*) Bir tərəfin *bəhri*-Xəzər; Yaşılbaş sonalar gəzər... (S.Vurğun); **DƏRYA** [Fikrət:] Elə bilirəm ki, Nefi daşlarındakı sivri qayalığın ucunda, *dəryanın* qırağında oturmuşam (M.İbrahimov).

DƏNİZÇİ *Dənizçilərin* gözü önündə nağılların, əfsanələrin təriflədiyi, böyük dastanların təsvirini zinətləndirən bir mələk oynayırdı (M.Hüseyn); **BƏHRİ** (*kl.ed.*) Çapuq *bəhri* olmaq gərək; Bir ümmana dəniz dolmaq gərək (Xətayi); **BƏHRİYYƏÇİ** (*köhn.*) *Bəhriyyəçilərdən* ibarət olan dəniz piyada batalyonu qəti hücumla düşməni təpədən vurub çıxardı (Ə.Əbülhəsən).

dər *bax* qapı **1**

dərban *bax* qapıçı **1**

dərbədər *bax* səfil, sərsəri

dərd *bax* **1.** xəstəlik; **2.** qəm

dərd-kədər *bax* qəm

dərd-qəm *bax* qəm

dərd-qəmli *bax* dərdli

dərdlənmək *bax* qəmlənmək

dərdləşmək *bax* danışmaq **1**

DƏRDLİ, QƏMLİ Zor-gücə bir zabil başladı pəsdən; Bu həzin, bu *qəmli*, bu *dərdli* səsdən (M.Rahim); **DƏRD ƏHLİ** Eşqdə bidərdlər eylər tooccüb halına; Yoxsa bu kişvərdə bir *dərd əhli* yoxdur, büləcəb (S.Ə.Şirvani); **DƏRDLİ-QƏMLİ** [Sonəm:] Ah, yazıq arvad öldü. Müsibətli öldü. *Dərdli-qəmli* öldü (S.S.Axundov); **DƏRDMƏND** (*köhn.*) Görünür ki, *dərdmənddi* (C.Məmmədquluzadə); **DƏRDNAK** (*köhn.*) Ta vücudum eşqiniz yolunda bulmuşdur həlak; Ayağın tozundan ayrı oldu canım *dərdnak* (Xətayi); **ƏHLİ-DƏRD** Müşküldü tab türreyi-tərrar qəhrinə; Rəhm eylər *əhli-dərdə* gəno gah-gah zülf (Q.Zakir); **QƏMLİ** (*bax*).

dərd-qəmli *bax* dərdli

dərdmənd *bax* dərdli

dərdnak *bax* dərdli

dərd-sər *bax* qəm

dərdsiz *bax* qəmsiz

DƏRƏ Maşın ağır-ağır olsa da, kiçik bir düzü ötdü, o qədər də dərin olmayan *dərəyə* endi (B.Bayramov); **ÇUXUR** Dəniz deyil, göl oldum; Axıb *çuxura* doldum (B.Vahabzadə); **QOBU** (*kiçik dərə*) [Mənsurə:] Üstünüzü niyə murdarlayırsınız! Atın yerə, *qobuda* yatar, ayılar öyrənmiş candır (B.Bayramov); **VADİ** (*uzun dərə, çuxur*) Godik qurtardıqdan sonra yenə *vadi* başladı (İ.Əfəndiyev).

1. DƏRƏBƏYİ (*tar.*), **TORPAQ SAHİBİ**

2. dərəbəyi *bax* feodal

dərəbəylik *bax* feodalizm

1. DƏRƏCƏ, KATEQORİYA, QRUP

2. DƏRƏCƏ, QRADUS (*hərarətin ölçü vahidi*)

3. dərəcə *bax* rütbə **1**; vəzifə **2**

dərgi *bax* jurnal

DƏRHAL [Vahid:] O mənə baxmadan, *dərhal* sualını döndərdi (B.Bayramov); **BİR ANDA** Bu xəbər *bir anda* ağalıq xidmətlərinə yayıldı (S.S.Axundov); **ƏLBƏƏL** İşarə edən tək gələr *əlbəəl* (Q.Zakir); **FİL-FÖVR** Süroyya "sandıq" sözünü eşitsək *fil-fövr* doyişilib, bir ayrı hala düşdü... (Çomən-zominli); **GÖZ YUMUB AÇINCA** *Göz yumub açınca* seylabə verərdim aləmi (Füzuli); **FÖVRİ, TƏCİLİ** (*bax*); **O DƏQİQƏ** ...*O dəqiqə* qaçır Reyhan (M.Dilbazi); **O SAAT** Əgər mən bilsəm ki, qardaşım casusdur, *o saat* onu yaxalayıb, verərəm hərbi tribunala (H.Nəzərli).

DƏRİ [Şahin:] Feyzi, indi başa düşdüm ki, qonaqlığa kosdiyin qoyunun *dərisini* niyə satmadın (B.Bayramov); **GÖN** (*iri heyvanların dərisi*) [Fikrət:] Elə tanıyırsan! Lap dabbağda *gönünü* görsən tanıyarsan (M.İbrahimov).

dəriçə *bax* taxça

1. DƏRMAN [Domatoğlu:] Bir *dərmanla* bu xəstəliyim müalicə edirsən, o birisə zərər olur (H.Abbaszadə); **DAVA** Tərs kimi bu tərəfdə Mirzə Mahmudun şagirdlərindən biri *dava* alıbdı (Çənənzənnilli); **DAVA-DƏRMAN** [Cavahir xanım:] İndi, elə bu saat Əşrəf *dava-dərman* gətirəcək (N.Vəzirov); **ƏCZA** *Mirzə əczani* alıb, bir qara xoruz da gətirib bağlamışdı və qabağına da bir qədər kişmiş qoymuşdu (Ə.Haqverdiyev); **ƏLAC** Firuzə xəstəm bir an gözdən qoymurdu, həkimin yazdığı *əlac* vaxtlı-vaxtında içirir və üstündə gecə-gündüz yatpaq kimi titrəyirdi (A.Şaiq); **HƏB** Bunların da müalicəsi bir müxəssəsə həbzə baxandan sonra cibləridən xəstəyə kimə, *həb* və iksirdən vermək olduğu (C.Məmmədquluzadə); **MƏLHƏM** (*dəriyə sürtmə dərman*) O yaşatmaq *məlhəmə* çevrilir; Sağaldar dərdi, mərəzi (M.Dilbazi)

2. dərman *bax* ilac **I**

dərmanxana *bax* aptek

DƏRMANSIZ, DAVASIZ [Cavahir:] Mən *davasız, dərmansız* sağaldım (M.Hüseyn); **BİDƏRMAN** (*kl.ad.*) Bir nəzər lilələbi-canano eylə, ey hakim; Çarəyi bu dərdi-*bidərmanə* eylə, ey hakim (Natəvan); **BİDƏVA** [Müəllim:] Nənəm də deyir: ...Ay *bidəva* dərdə düşmüş, bir cüt başmağı da mənə çox görürsən (Çənənzənnilli).

DƏRMƏK Əlinli gül olaydım, ollərinlə *dərdim* (M.Rahim); **DÜŞÜRMƏK** Adam var dolanar sobranı, düzü; Adam var, *düşürər* gülü, nərgizi ("Abbas və Gülgəz"); **ÜZMƏK** [Cahan:] Çənəndəki o güllərin; ən gözəlin *üzərəm* (Ü.Hacıbəyov)

darrəka *bax* **1.** düşüncə **1**; **2.** ağıl **I**

darrəkalı *bax* **1.** düşüncəli; **2.** şüurlu

darrəkasız *bax* düşüncəsiz

DƏRS Bah!.. Bu imiş *dərsi*-usuli-qədid?! Yo...x! Yo...x! Oğul, məktəbi-üxyandı bu! (M.Ə.Sabir); **TƏDRİS** ...bu... birsinifli məktəblərin *tədris* planını hazırlayan xüsusi komissiyanın protokoludur (C.Məmmədquluzadə); **TƏHSİL** *Təhsili*-ülum etmə ki, elm afəti-candır (M.Ə.Sabir).

DƏRSLİK ..Çeşnyayevskinin "Voton dili" *dərsliyi* də azərbaycanlılar üçün elə bir əhəmiyyətə malikdir (F.Köçərli); **DƏRS KİTABI** Buna görə də heç kəsin rəyini soruşmadan öz təşəbbüsünüzlə altı müəllim "İkinci il" adlı *dərs kitabı* tərtib etdik (S.S.Axundov).

1. DƏRVİŞ (*dinlə əlaqədar imama, peyğəmbərə həsr olunmuş qəsidələri avazla oxuyan adam*) [Xırda xanım:] Nurcahan, hələ bir az gözlə, görək tozə *dərviş* nə deyir (N.Vəzirov); **ABDAL** (*köhn.*) Hayqırıb söylədi: Çıx get, *abdal!* Şu böyük əmri küləklər daldal; Ötürək, səslənərək gəzdirdi (M.Müşfiq); **QƏLƏNDƏR** (*köhn.*) Tərəhhümə gəlib dedi *qələndər;* "Yox isə siminiz, zəriniz oyar"; Qənaət eylərəm düyüdən, yağdan; Nə var isə əsirgəmə qonaqdan (Q.Zakir).

2. dərviş *bax* yoxsul

dərya *bax* dəniz

DƏRYAZ (*ot, taxıl biçmək üçün uzun saplı alət*) Dən üzü quşlarla birgə oyanmaq; *Dəryaz* çala-çala şəhdə yuyunmaq (Şöhriyar); **KƏRƏNTİ** Öz yerlərində taxılı *kərənti* ilə, oraqla biçən, gödək taxılı çox vaxt yolub tərs-əvənd bağlayan, ulaqlara yüklədiyib xırmanlara daşıdan Vəliş indi görürdü ki, taxıla çın çəkirlər (Ə.Vəliyev); **KƏLƏNTƏ** (*dial.*)

DƏRZİ Xurcunlu kişi *dərzidən* soruşdu: Usta, onda səbah yeno Arbatəndən şəhərə gedəcəyəm (H.Abbaszadə); **XƏYYAT** Ağ alaçıq, əlvan çadır; Naxış vurubdu *xəyyat* (Aşıq Ələsgər).

dəsgah *bax* dəbdəbə

dəsgahlı *bax* dəbdəbəli

dəsgirə *bax* səbət **I**

1. DƏSMAL (*burun, göz silmək üçün parça, əl, cib yaylığı*) O, əlini salıb mənim cibimdən *dəsmalımı* çıxartdı, gözümün yaşını sildi (İ.Əfəndiyev); **MƏNDİL** [Sitaro:] Göz yaşımı *məndilimin* ucu ilə qurudaraq önümdəki yay kimi bətsiz-bənizsiz bir vücuda baxdım (A.Şaiq); **YAYLIQ** O yüyürüb mənə ütülənmiş, tər-təmiz əl *yaylığı* gətirərək cibimə qoydu (İ.Əfəndiyev).

2. dəsmal *bax* məhrəbə

I DƏST, KOMPLEKT

II dəst *bax* əl **I**

dəstar *bax* əmmamə

dəstavüz *bax* **1.** dəlil, sübut; **2.** bəhanə

I 1. DƏSTƏ (*bir neçə adamın bir yerdə olması*) Bu halda müsəlman qadınlarının *dəstəsi* gəlib keçirdi (S.S.Axundov); **FÖVC** (*köhn.*) [Ağa Məhəmməd şah Qacar:] Əli xanın qoşununun bir hissəsini azad elə, onlar və qalanın sair *fövclərə* paylaşınlar (Ə.Haqverdiyev); **YIĞIN** Dəftərxana qarşısında bir *yığın* kəndli vardı (M.Hüseyn); **QRUP.**

2. DƏSTƏ (*quldur dəstəsi*) Sonra da məlum oldu ki, *dəstə* kəndə basqın düzəldib.. (M.İbrahimov); **BANDA** Odur ki, Hitlerin *bandaları* qərbə tərəf qovuldüqca, dünya ədalətpərvər xalqları onlardan yaxa qurtarır (M.Hüseyn).

II dəstə *bax* dəstək **1**; sap **1**; mac

III dəstə *bax* **1.** tuşun **2**; **2.** karvan

DƏSTƏBAŞI (*hər hansı bir quldur və ya oğru dəstəsi başçısı*) Lakin *dəstəbaşı* arayə soxulan bu artıq adamı çıxarmaq istədi (Mir Cəlal); **ATAMAN** [Səlimə Şahlara:] *Ataman* gərək səbirli olsun (İ.Əfəndiyev).

DƏSTƏBƏDƏSTƏ Gəlsə də yanına *dəstəbədəstə;* Yatdı düz iki ay arxası üstə (B.Vahabzadə); **ALAY-ALAY** Gəlin *alay-alay*! Gəlin nəsillər; Hamımız bir nəfəs, bir ürək kimi (S.Vurğun); **BÖLÜK-BÖLÜK** [Əsgərlər] məktəbin həyətində dayandılar; *cərgə-cərgə, bölük-bölük* (İ.Şıxlı); **DƏSTƏ-DƏSTƏ** İsfəndiyar heç kimi görmürdü, hətta elə bil *dəstə-dəstə* qaçıb uzaqlaşan insanların asimana ucalan ağlaşma səslərini də eşitmişdi (M.Hüseyn); **QATAR-QATAR** *Qatar-qatar* olub qalxıb havaya; Nə çıxıbsız asimana, dumanlar! (M.V.Vidadi).

dəstə-dəstə *bax* dəstəbədəstə

I. DƏSTƏK (*bir şeyin tutulacaq yeri*) [Qənimət:] 100 min dinar qızıl, bir də *dəstəyi* mirvari ilə bəzənmiş bir qılınc (M.Hüseyn); **DƏSTƏ** [Alagöz:] Çalbayıra yollanıb Forzolini tapmaq, onun fikrini Qaragilədən

döndərmək, lozgi xəncərinin *dəstəsindən* yapışıb namusla ölmək! (S.Rəhimov); **DƏSTƏGİRƏ** Başıbəlalı muzdur naxlac çamadanın *dəstgirəsinə* yapışıb, Qanlıtəpə tərəfə üz qoydu (S.Qənizadə); **QƏBZƏ** (*köhn.*) Zakirin qətlinə bəsdir nigahım; Əl vurma *qəbzəyi*-xəncər istəmoz (Q.Zakir); **SAP** O, pristav qamçısının *sapını* çəkməsinin boğazına keçirdiyindən, addım atdıqca şallaq tovlanır, onun ağ bəndli şaşkasına dolaşırdı (S.Rəhimov); **TUTACAQ** (*bax*).

2. DƏSTƏK (*telefon aparatlarında*) Birdən telefon zəng vurdu. Adilə *dəstəyi* götürdü (Ə.Qasımov); **TRUBKA** Boxtiyar bir əli ilə bayraqdan yapışaraq, o biri əli ilə telefon *trubkasını* götürdü (M.Hüseyn).

DƏSTƏKLƏMƏK, ARXA DURMAQ, MÜDAFİƏ ETMƏK, TƏRƏFİNİ SAXLAMAQ

DƏSTƏKLİ (*dəstəyi olan*) [Qılınc:] Bu gümüş *dəstəkli* qılınc mənə çatar.. (M.Hüseyn); **QƏBZƏLİ** Belində *qəbzəli* xəncər olan bir kişi içəri girdi (İ.Əfəndiyev); **SAPLI** Qoca əlindəki uzun *saplı* beli havada oşdirə-oşdirə cavab verdi (M.Hüseyn).

dəstərxan *bax* süfrə

dəstgir *bax* **1.** köməkçi **1**; **2.** əsir **1**

dəstgirə *bax* dəstək **1**

1. DƏST-XƏTT, ƏLYAZISI (*bax*)

2. dəst-xətt *bax* savad

dəstlı *bax* ölüstü

dəstur *bax* **1.** tolimat; **2.** düstur **I**

dəsturüləməl *bax* tolimat

dəşt *bax* səhra

DƏYANƏT (*öz sözünün üstündə durma*) [Gülsüm:] Adamda gərək bir az *dəyanət* olsun (X.Hasilova); **DÖZÜM** [Buğac] öz gücünü, çevikliyini, bədəninin dözümünü sınayırdı (M.Rzaquluzadə); **İNAD** [Jeny:] Çünki mən qadın olsam da, yenə də məndə bir kişi *inadı* vardır (M.S.Ordubadi); **MƏTANƏT** Sobrim, *mətanətim* dağ ola, sındırar qəmin; Bu ayrılıq dağın qıracaqdır komor, ata! (Şöhriyar); **SƏBAT** Bizimdir yüksəliş, bizimdir

qanad; Bizimdir mətanət, bizimdir *səbat* (M.Müşfiq).

DƏYANƏTLİ (*öz sözünün üstündə duran*) [Həmid Balaca] *dəyanətli* adammış (H.Abbaszadə); **DÖZÜMLÜ** Doğrudan, onun qədər *dözümlü*, cofakeş məxluq yoxdur (S.Vəliyev); **MƏTANƏTLİ** Mənim xalqım... Torpağa bağlıdır özəldən; *Mətanətli, dözümlüdür*. Sınamışam mən (H.Billəri); **SƏBATLI, DÖNMƏZ** Sən *dönməz* balıqçısan; Yoldaşların *səbatlı* (M.Rahim); **DAVAMLI.**

dəyə *bax* daxma

dəyənək *bax* çomaq

dəyər *bax* qiymət

dəyər-dəyməzinə *bax* ucuz

dəyərli *bax* **1.** bahalı; **2.** ləyaqətli **1**

dəyişdirmək *bax* dəyişmək **1**

DƏYİŞİLMƏK (*başqa cür olmaq*) [Araz:] *Dəyişilmək* təbiətin qanunudur (A.Şaiq); **DƏYİŞMƏK** Onlar beş ilin ərzində *dəyişmişdilər* (M.Hüseyn).

1. DƏYİŞMƏK Sevgilim, camalını günə, ayə *dəyişmərəm!* (S.Rüstəm); **DƏYİŞDİRMƏK** Qaçay söhbətin səmtini *dəyişdirməyə* çalışdı (İ.Məlikzadə); **ƏVƏZ ETMƏK** Aylar keçdi, il oldu, *əvəz etdi* gün-günü; Zaman verdi hökmünü... (B.Vahabzadə); **MÜBADİLƏ ETMƏK.**

2. dəyişmək *bax* dəyişilmək

DƏYMƏDÜŞƏR (*tez inciyən, tez küsən adam*) [Comilə:] Yamanca *dəymədüşərsən* ha, sənin zarafat elə bil... (Ə.Qasımov); **KÜSƏYƏN** Axı sən küsəndə; Ay *küsəyənim*, Mənim küsü aşı; Bişirənim yox! (N.Xəzri).

1. DƏYMƏK Yavaş-yavaş *dəyər* bitər; Ləzzətli, dadlı meyvələr (A.Səhhət); **YETİŞMƏK** ..Şitillər böyüyər, bağım bağ olar, Meyvələr *yetişər*, kefim çağ olar (A.Şaiq).

2. dəymək *bax* yıxılmaq **1**

3. dəymək *bax* getmək **1**

4. dəymək *bax* gəlmək

5. dəymək *bax* sürtüşmək **1**

dəyməmiş *bax* kal

dəyyus *bax* binamus

dəyyusluq *bax* binamusluq

DƏVƏ Ağır çuval yüklənmiş *dəvələr* qatarla düzülüb, səbirli addımlarla gəlirdi (M.Hüseyn); **NƏR** (*erkək dəvə*) [Ortancıl qız:] Yaxşı addı... *nər*, yoni dovo, norbala, yoni dəvə balası ("Ağ atlı oğlan" nağılı); **ARVANA** (*bax*).

DƏVƏÇİ (*dəvəyə baxan adam, dəvə saxlayan; dəvənin başını çəkən adam*) [Kəndlilərdən biri:] Bizim qabağımızda iki-üç çarıqlı *dəvəçi* nə danışa bilocək? (C.Məmmədquluzadə); **SARBAN** Dəvəni *sarban* oyur (Ata. sözü); Sağ tərəf ağırdı solundan bir az; *Sariban* tayları etməkçin taraz.. (M.Rahim).

DƏYİŞƏK (*alt paltarı*) Rübabə oğlu üçün *dəyişək*, azuqə qoyub heybəsini bağladı (H.Abbaszadə); **ÇAMAŞIR** [Ev xanımı:] Qulluqçu *camaşır* ardınca getmişdir (T.Ş.Simurğ).

1. DƏZGAH (*tex.*) Fikri, düşüncəsi yeni *dəzgahdır*.. (M.Rahim); **STAN** ..bu *stanın* yüksək məhsuldarlığına və məhsulun ola keyfiyyətlə buraxılmasına nail olmağa imkan vermişdir (Qəzetlərdən).

2. dəzgah *bax* piştaxta

DIBIR, TƏKƏ (*erkək keçi*)

dıbırçallək *bax* kök **1**

dığ *bax* vərəm

dığlamaq *bax* vərəmləmək

dılğır *bax* **1.** qotur; **2.** səfil, səfeh

dırmaşmaq *bax* qalxmaq **2**

DIRMIQ, DARAQ, ÇƏNG (*kənd təsərrüfatı aləti*)

1. DIRNAQ Gözlərinin yaşları, *dırnaqları* ilə dartıb dağıldıqları yanaqlarının qanı sifətləri uzunu axırdı (Ə.Haqverdiyev); **CIRNAQ** Arvadının *cırnaqları* görünür ki, çox iti imiş (C.Məmmədquluzadə).

2. dırnaq *bax* caynaq

dışarı *bax* çöl **1**

diabet *bax* şəkər **1**

dibaçə *bax* müqəddimə

didar *bax* **1.** üz; **2.** görünüş

dildə *bax* göz **1**

1. DİDİK, DİDİLMİŞ (*yun haqqında*)

2. didik *bax* yırtıq **1 1**

didişmək *bax* dalaşmaq

DİFTONQ (*dilç.*), **CÜTAVAZLI** *Diftonqlar*, yaxud başqa sözlə, *cütavazlılar* mürəkkəb məxrəcli səslilərin xüsusi bir növünü təşkil edir (N.Məmmədov, A.Axundov "Dilçiliyə giriş").

dig *bax* golincik

digər *bax* başqa **1**

dik *bax* **1.** yoxuş; **2.** sıldırım

3. dikino; **4.** şəquli

dikəlmək *bax* qalxmaq **1**

dikəltmək *bax* qaldırmaq

DİKİLMƏK (*bir şeyə baxmaq*) ..oğlanın qara gözləri çiynimin üstündəki elana *dikilmişdi* (Ə.Babayeva); **DİRƏNMƏK** Gözlər qır rəngli torpağa *dirənir* (M.İbrahimov); **ZİLLƏNMƏK** ..qarəşın oğlanın gözləri mənə *zilləndi* (Ə.Babayeva).

DİKİNƏ, DİK, ƏMUDU (*dik halda*)

diklənmək *bax* qalxmaq **1**

dikmək *bax* zilləmək **1**

diksinmək *bax* **1.** iyrənmək; **2.** qorxmaq; **3.** soksonmək

diksiyə *bax* tələffüz

diktator *bax* hökmdar

diktatura *bax* hakimiyyət **1**

DİQQƏT, FİKİR, HUŞ (*bax*)

1 1. DİL (*dilç., ünsiyyət vasitəsi*), **LİSAN** (*köhn.*) Ancaq o şüfrə də ağız ləzzətim; Mənim öz *dilimdir*, öz *lisanımdır* (B.Vahabzadə); **ZƏBAN** Elmə gözənin küfrü *zəbanlarda* boyandır; Toxfirə nişandır (M.Ə.Sabir); **LƏHCƏ** (*köhn.*) Məcnunu deyərlər ohlidrak; Əşrarı lotifi *ləhcəsi* pak (Füzuli).

2. DİL (*anat.*), **ZƏBAN** (*kl.sd.*) (*ağız boşluğunda orqan*)

11 DİL (*mus.*), **KLAVİŞ** Bəstəkarın barmaqları dərhal pianonun şirmayı *dillərı* üzərində gəzdi. Könül məhnunun ilk misrasını demişdi ki, bəstəkar ollərini *klavişlərdən* çəkdi (X.Hüsifova).

111 dil *bax* ürək

IV dil *bax* **1.** üslub; **2.** nitq

dilara *bax* ürəkaçan

dilazar *bax* insafsız

dilazarlıq *bax* insafsızlıq

dilbəz *bax* ürəkaçan

dilbər *bax* gözəl

dilbəstə *bax* vurğun

dilbilməz *bax* qammaz

DİLBİR [Xudayar bəy Valiquluya:] Mən elə güman edirəm ki, anannan *dilbirəm* (C.Məmmədquluzadə); **HƏMZƏBAN** (*məc., kl.sd.*) Gül ilə *həmzəban* olubdu bülbül... (Q.Zakir); **HƏMFİKİR** (*bax*).

dilənvabı *bax* şifahi

DİLÇİ (*dilçilik elmi ilə məşğul olan adam*) Dilin inkişafı və təmizliyi məsələsi hər *dilçi* və yazıçının qarşısında duran ən mühüm və müqəddəs vəzifədir (A.Şaiq); **DİLŞÜNAS** (*köhn.*) Bundan əlavə, əlifbamızda olan nöqsanlardan başqa, ərəb dilini öyrənmək bizim üçün, *dilşünas* olmadığımıza görə, başqa bir çətinlik də törədir (M.F.Axundzadə); **FİLOLOQ** (Vilhelm fon Humbolt) tarixdə filosof, *filoloq*, dövlət xadimi... kimi məşhurdur (A.Qurbanov); **LİNQVİST** Azərbaycan! Azadlıq! Qoy bu iki kəlmənı öyrənsin dünyadakı; Sənin *linqvistlərin* (X.Rza); **LİSANÇI** (*köhn.*) Dünən imla qurultayı qapandı. Məşhur *lisançı* Abdulla Tağızadə toyuqların gülməsi gələn bir proje ilə ortalığa çıxdı (Ə.Haqverdiyev).

DİLÇİLİK, DİLŞÜNASLIQ, FİLOLOGİYA, LİNQVİSTİKA, LİSANİYYƏT (*dil haqqında elm*) Dilçilik anlayışını ifadə etmək üçün Azərbaycan dilində *dilçilik, dilşünaslıq, linqvistika* və dil haqqında elm terminlərindən istifadə olunur... dilçilik ədəbiyyatımızda *linqvistika* terminində də işlənilməsinə rast gəlirik (A.Qurbanov).

dilək *bax* arzu

diləmək *bax* arzulamaq, istəmək **1**

DİLƏNÇİ [Sultan:] Qoy hamısı yansın, balaları qapılara düşüb *dilənçi* olsun (S.Rəhimov); **GƏDA** (*məc.*) [Forman boy:] Əlimə çörəkçin baxan bir *gəda*; Salıb varlığımı bir yanar oda (S.Rüstəm); **SAİL** (*kl.ədb.*) *Sail*, qapıdan baxma bizo, pis göz atarsan! Çox qanqıma, durram, elə vurram ki, batarsan! (M.Ə.Sabir); **YOLÇU** [Beyrək:] Mən yurdsuz-yuvasız bir *yolçuyam* (Anar).

dilançipayı *bax* sədəqə

DİLƏNMƏK, DİLƏNÇİLİK ETMƏK, ƏL AÇMAQ, YOLÇULUQ ETMƏK

dilfirib *bax* məftunedici, cazibəli

dilfiruz *bax* ürəkaçan

dilgir *bax* dilxor

dilguşə *bax* ürəkaçan

DİLXOR [Məmməd:] Nə olub ə, Topal, bu *dilxor* vaxtımızda yenə nə gözünün qarası sıxırsan? (Ə.Qasımov); **DİLGİR** (*köhn.*) Qotur Səməddin sözlərini hamı istiğfar etdi, usta Ağabala isə *dilgir* olub dedi: – Qolot eləmə, məlun... (Çəmənzəminli); **MƏYUS** [Nemət] yorğun və *məyus* bir halda evə dönüb yatdı (Çəmənzəminli); **OVQATI TƏLX** Axşam xan *ovqatı təlx* evə qayıtdı (Çəmənzəminli); **PƏRT** Ayna xanım *pərt* kimi idi (M.Hüseyn).

DİLXORLUQ, KEFSİZLİK, OVQATTƏLXLİK

dilxoşluq *bax* **1.** şadlıq; **2.** zarafat, məzəq

diliacı *bax* acıdil

dilişirin *bax* şirindil(li)

dilkeş *bax* ürəkaçan

dilmanc *bax* **1.** tərcümoçi; **2.** vasitəçi

dilrüba *bax* **1.** ürəkaçan; **2.** gözəl

dilrübalıq *bax* gözəllik

dilsiz *bax* **1.** lal **1**; **2.** yazıq **1**

dilsiz-ağızsız *bax* yazıq **1**

dilşadlıq *bax* sevinc

dilşünas *bax* dilçi

dilşünaslıq *bax* dilçilik

dimağ *bax* beyin

I DİMDİK Qağayı *dimdiyini* suya vurub, oradan kiçik bir balıq çıxardı (S.Rəhimov); **QAĞA** [Piri Fani:] Sizlərdən hər biriniz özünüz üçün nə istəsəniz simurq *qağası* ilə dörb atar (S.S.Axundov).

II dimdik *bax* şax **1**

DİN Ər-arvad və *din* məsələsində Həsən köhnə ata-baba yolu ilə gedənlərdən idi (M.İbrahimov); **MƏZHƏB** [Molla Sadıq:] Camaat, hamınız sünnüsünüz, *məzhəbinizdən* dönməyin, şəkk eləməyin, sonra axirət dünyəsində cəhənnəm oduna yanarsınız (İ.Şıxlı).

dinc *bax* sakit **1**

dincəlmək *bax* istirahət

DİNCƏLMƏK [Adilə] bir qədər *dincələndən* sonra paltarını dəyişib redaksiyaya getdi (Ə.Qasımov); **DİNCİNİ ALMAQ** Napoleon əsgərlərindən biri demişdi: "Biz burada *dincimizi almaq* ümidində idik (M.Hüseyn); **İSTİRAHƏT ETMƏK** Həmzə bir az *istirahət edib* qalxdı (Ə.Qasımov); **NƏFƏSİNİ DƏRMƏK** [Həmid:] Əyləş, *nəfəsini dər*, sonra deyərsən görək nə oldu? (H.Abbaszadə); **RAHATLANMAQ** [Dəmirov] çarpayı üzərində oturub *rahatlandı* (S.Rəhimov); **YORĞUNLUĞUNU ALMAQ** [Müslim və Nəzakət] *yorğunluqlarını almaq* üçün yolun kənarındakı hamar bir daşın üstündə yanaşı oturdular (Ə.Yusifoğlu).

dinclik *bax* **1.** sülh **1**; **2.** əmin-amanlıq; **3.** istirahət

dinçi *bax* dindar

dinçilik *bax* dindarlıq

DİNDAR (*dinə, Allaha inanan, din xadimi*) Baş saçlı, ayaq çəkməli, mırt-mırt danışanlar; Din qədri bilib, möminü *dindar* olacaqdır!.. (M.Ə.Sabir); **AĞZIDUALI, MOLLAGUNƏ** (*köhn.*) Hacı Hüseyn həmişə təsbeh çevirən, *ağzıdualı, mollagunə* bir kişi idi (S.Rəhimov); **DİN ƏHLİ** *Din əhlinə* də köşf olur axırda müəmma; Dinsizliyi dinindən alırmış kişi zira (M.S.Ordubadi); **DİNÇİ** (Əbu Übeyd:) O, mübarizənin bu qədər uzun sürməsində yerli zənginlər və *dinçiləri* təqsirli görür ki, onlar Elxana maddi və mənəvi yardım göstərir (C.Cabbarlı); **DİNPƏRƏST** Mina xanım *dinpərəst*

fanatiklər kimi öz fəlsəfəsinə, öz qaydasına sadiq olduğundan həyatda başqa fəlsəfələri, başqa qaydaları görmürdü, görmək istəmirdi (M.İbrahimov); **DİNPƏRVƏR** (*köhn.*) Üləmayi-izami-*dinpərvər*; Füqərayi-qəyyuri-hər kişvər (M.Ə.Sabir); **MÖMİN** Tanı məni bəlo *mömin*; Bəlo dindar adam kimi (M.Rahim).

DİNDARLIQ, DİNÇİLİK, DİNPƏRƏSTLİK, DİNPƏRVƏRLİK, MÖMİNLİK

dindaş *bax* həmməzhəb

1. DİNDİRMƏK [Firat] məhkəmə zamanı şahidləri *dindirib*, onları dürüstləşdirmək istəyirdi... (H.Abbaszadə); **DANIŞDIRMAQ** Məhkəmə sədri... bir neçə şahidi də *danışdırdı* (M.Hüseyn); **İSTİNTAQ ETMƏK** Müdir tələbələri bir-bir kabinetə çağırıb *istintaq etdi* (A.Şaiq).

2. DİNDİRMƏK ...Yarı xəlvətdə gördüm; *Dindirmədim* dəyunca (*Bayatı*); **DANIŞDIRMAQ** [Baxış bəy] bəlkə də Növrəstəni *danışdırmaq*, bir ağzını yoxlamaq üçün gözləyirdi (Ə.Abbasov).

dingələn *bax* ting

dingi *bax* ting

DİNLƏMƏK İstər-istəmməz skamyanın arxasına söykənib bu lətif səsi *dinləməyə* başladı (M.Hüseyn); **EŞİTMƏK** *Eşidin*, nə deyir; "İki gün əvvəl; Niyə gecikmişdin? Bundan danış gəl!" (M.Rahim); **QULAQ ASMAQ** [Şahməmməd:] Mənə *qulaq as*... (S.Rüstəm); **QULAQ TUTMAQ** Ol sözə *tutma qulaq*, mən çəkdiyim əfqanə tut (Füzuli); **QULAQ VERMƏK** [Nisəbəyim xanım:] Həttə bir gün mən qapı dalından *qulaq verirdim* (M.S.Ordubadi); **GUŞ ELƏMƏK** (*köhn.*) Kağəz sənə ağ göstərir öz sinəyi-safin; *Guş eyləmə* lafin (M.Ə.Sabir); **GUŞ QILMAQ** (*köhn.*) *Guş qılginən* bir sədələrə... (C.Məmmədquluzadə); **MÜLTƏFİT OLMAQ** [Maral:] Mirzə, bir yanını yerə qoy, mənə yaxşı *mültəfit ol* (S.Rəhman).

DİNMƏK, DANIŞMAQ *Dinmə, danışma*, yat bala, sən deyən olmayıb hələ! (M.Ə.Sabir); **DİL AÇMAQ** İxtiyar *dil açıb* bu vaxt söhbədən: "Başqası deyilsəm, mən yalnız sizəm..." (S.Vurğun); **DİLƏ GƏLMƏK** Şəm *dilə gəldi* birdən; Şair, nə tez qocaldın sən? (S.Vurğun).

dinpərəst *bax* dindar

dinpərəstlik *bax* dindarlıq

dinpərvər *bax* dindar

dinpərvərlik *bax* dindarlıq

DİNSİZ (*dinə inanmayan, həm İsim, həm də sifət kimi*) Satırsan xaçpərəstə; Satırsan müsəlmana; *Dinsizə* də satırsan; Girsə əgər dükana (M.Rahim); **BABİ** (*məc.*) Dinü imanı danıb, yoldan azıbdır, *babidır* (M.Ə.Sabir); **BƏDƏTİQAD** ..Seyyid, o da sənin kimi *bədətiqaddır* (S.Ə.Şirvani); **BİDİN** [Ağa Bəşir:] Pərvərdigara, dünyada nəcə *bidin* adamlar yaradıbsan! (M.F.Axundzadə); **MOLTANI** (*dan.*) [Axund:] [Qızı] lap *moltaniya* da nikah etməyə hazıram (C.Cabbarlı); **MÜLHİD** (*köhn.*) ..ona kafir və *mülhid* namı verərkən ondan qaçmağa, onu təhqir etməyə başlamışlar (A.Şaiq); **MÜRTƏD, LƏMƏZHƏB** (*söyüş kimi də işlədilir*) [Korbolayı Həsən:] Bu da, bu *mürtəd* qızı, *ləməzhəb* qızı! (Çəmənzəminli); **FASİQ, KAFİR** (*bax*).

dir-dirrik *bax* avadanlıq

dirəxşan *bax* parlaq, işıqlı

dirək *bax* **1.** dayaq; **2.** kömək, havadar

dirəmək *bax* **1.** söykəmək; **2.** zillomək **II**

dirənmək *bax* **1.** söykənmək; **2.** dikilmək

DİRİ Ölülər elə bilirlər ki, *dirilər* həmişə halva yeyir (B.Bayramov); **CANLI** Ucalan heykəl *canlı* bir insan kimi görünürdü (S.Rəhimov); Mən də bir insanam, mən də *canlıyam*... (S.Vurğun); **DİRİGÖZLÜ** ..halbuki *dirigözlü* arvad ola (Ü.Hacıbəyov); **SAĞ** [Fatma:] Əgər anan *sağdırsa*, Allah ömrünü uzun elosin, yox vəfat eləyibsə, torpağı rahat olsun (H.Abbaszadə); **YAŞAR** Səni mütləq cahanda var sanıram; Bizim ilə səni *yaşar* sanıram (A.Şaiq); **ZİHƏYAT** [Aqşin:] Əmirəlmömin xəlifənin iradəsinə qarşı bir *zihəyat* dura bilməz. Ayrılın! (C.Cabbarlı); **ZİNDƏ** (*köhn.*) Hər zaman *zindəyəm*, hər

zaman gəncəm; Şəhləri mat edən canlı şəxsiyyətəm (A.Şaiq); **SALAMAT** (*bax*).

diribaş *bax* **1.** hazırcavab; **2.** zirək

diribaşlıq *bax* zirəklik

dirigözlü *bax* diri

dirilik *bax* **1.** varlıq **I**; **2.** yaşayış **I**

1. DİRİLMƏK, CANA GƏLMƏK, CANLANMAQ, DİRÇƏLMƏK

2. dirilmək *bax* xortlamaq

dirrik *bax* bostan

dirrikçi *bax* bostançı

distansiya *bax* məsafə

DİŞ Şah! – deyə o, gözəl *dişlərini* göstərərək qəhqəhə ilə güldü (İ.Əfəndiyev); **DƏNDAN** (*kl.əd.*) Conab əfəndi... bu neçə vaxtlarda tamah *dəndanın* gecə və gündüz tiz etməyə məşğul olub... (C.Məmmədquluzadə).

dişərmək *bax* cücərmək

dişləmək *bax* **1.** tutmaq **3**; **2.** çalmaq **II**

dişlökən *bax* soyuq **I**

ditdili *bax* ağcaqanad

I DİVAN (*oturmaq və yatmaq üçün yumşaq taxt*) [Gövhər xanım:] Sənəm, məni qaldır, *divanın* üstünə apar (S.S.Axundov); **KANAPE** Müdhəd əfəndi bihuş olaraq *kanapenin* üzərinə sərildi (Çəmənzəminli); **QƏNƏPƏ** (*köhn.*) İskəndər görüşüb, yumşaq *qənəpənin* üstündə oturdu (Çəmənzəminli); **SOFA** [Sitarə:] Artıq bir az özümü toplayaraq *sofanın* üzərinə oturdum (A.Şaiq).

II divan *bax* külliyyat

III divan *bax* məhkəmə

divan-dərə *bax* məhkəmə

divanə *bax* dəli **I**

divanəlik *bax* dəlilik

divanəsər *bax* dəli **I**

divanətəbər *bax* dəlisov

I DİVAR (*tikiliyə məxsus divar*) Gənc tüfəngini yerə qoyub, *divarın* dibində uzanmış Osmana yanaşdı, gülümsədi (Çəmənzəminli); **SƏDD** Qəzəb dalğaları aşdı həddini; Dağıdıb yağının çürük *səddini* (S.Rüstəm).

2. divar *bax* hasar

diyar *bax* ölkə

diyarşünas *bax* ölkəşünas

diyarşünaslıq *bax* ölkəşünaslıq

diyə *bax* qanbahası

diz-dizə *bax* üzbəüz

DODAQ *Dodağı* şəkərdir, göftarı şərbət; Nə fayda, eyləməz şirin məhəbbət (M.P.Vaqif); **LƏB** (*kl.əd., şair*) Ey dəhanı şəkər, *ləblərı* bada; Gül camalın eşq əhlinə ayinə (M.V.Vidadi).

1. DOĞMAQ [Yasəmən:] Baba, dönmüş taleyim burada da məni ərimin yanında xəcil etdi, qız *doğdu* (S.S.Axundov); **BALALAMAQ** (*heyvanlar haqqında*) Keçi o vaxt *balalayır* ki, balası pöhrəlikdə yarpaqlar arasında gizlənə bilsin (M.Aslan); **KÜÇÜKLƏMƏK** (*vulq.*) (*təhqir məqamında*) Qızı *küçüklәyəndə*, adam bilib subaylığım ilə 40 manat xərcə düşdüm (Mir Cəlal).

2. doğmaq *bax* çıxmaq **I**

doğmayan *bax* sonsuz **II**; qısır

1. DOĞRU [Cabbar bəy:] Elə bu dəsgahlardan görünür ki, kişi böyük adamdır; *doğru* buyurursunuz (N.Vəzirov); **ÇİN** (*arx.*) [Sənəm:] Vaxsey, evim yıxıldı, yuxum *çin* çıxdı (M.İbrahimov); **DÜRÜST** Daha Könül özünü saxlaya bilməyib, onun barəsində *dürüst* öyrəndiklərini bir-birinin dalınca üzünə vurdu (X.Hasilova); **DÜZ** (*dan.*) Onun dedikləri həmişə *düz* çıxırdı (M.İbrahimov); **DÜZGÜN** Lakin bu sualların heç birinə *düzgün* cavab vermək olmazdı (M.Hüseyn); **GERÇƏK** Ləbinə çeşməyi-heyvan dedilər, gerçək imiş (S.Ə.Şirvani); **HAQQ** Boğulmuş nə qədər *haqq* danışanlar (S.Vurğun); **HESABİ** (*dan.*) [Teymur ağa:] Bu *hesabi* sözdür.. (M.F.Axundzadə); **SƏHİH** [Vəli:] Bəli, bəli, ağa *səhih* buyurur... (F.Sadıqzadə).

2. doğru *bax* sarı **1**; tərəf **I**

DOĞRUDAN [Şahbaz:] Şərəfnisə, *doğrudan*, sən belə bədgüman olubmusan (M.F.Axundzadə); **CİDDƏN** (*köhn.*) Gözlənməyən ədnalığın icadına *ciddən*; Himmət edən insanlarına şükr, xudaya! (M.Ə.Sabir); **ƏLHƏQ** [Naçalnik:] *Əlhəq* böyük mərhəmətə layiq imişsən! (M.F.Axundzadə); **FİLHƏQİQƏ** (*köhn.*) *Filhəqiqə* bir mülahizə edək gərək... (C.Məmmədquluzadə); **GERÇƏKDƏN** Mən ölürəm çiçəkdən; Üzüm örtün milçəkdən; Yad gələr, ağı söylər; Anam ağlar *gerçəkdən* (Bayatı); **HƏQİQƏTƏN** [Bərbərzadə:] *Həqiqətən* onu görəndə bədənimdə bir ələtüm olur.. (S.Rəhman); **VAQİƏN** Amma Məhəmmədhəsən əmi *vaqiən* ağladı (C.Məmmədquluzadə).

doğruluq *bax* **1.** həqiqət, düzlük **I**; **2.** sədaqət

doğu *bax* gündoğan

DOĞULMAQ Səntyabrın 12-də 1887-ci ildə Şuşa şəhərində *doğulmuşam* (Çəmənzəminli); **ANADAN OLMAQ** (*fr.v.*) Vaqif Qazaxın Saatlı elində idi. XIII əsrin əvvəllərində Qıraq Salahlı kəndində *anadan olmuşdur* (Çəmənzəminli); **CAHANA GƏLMƏK** Gələndə Məhəmməd *gəldin cahana*; Gedəndə Məhəmməd Füzuli getdi, – dedilər (B.Vahabzadə); **DÜNYAYA GƏLMƏK** (*fr.v.*) O bizim dağların qoynunda *dünyaya gəlib*, orada böyüyüb... (M.İbrahimov); **TƏVƏLLÜD ETMƏK (TAPMAQ)** Böyük şairimiz [S.Ə.Şirvani] Şirvan şəhərində *təvəllüd etmişdir* (A.Şaiq); **MÜTƏVƏLLİD OLMAQ** (*köhn.*) [Mövlana Fələki Şirvani] Şamaxı şəhərində *mütəvəllüd olubdur* (S.Ə.Şirvani); **ZÜHUR OLMAQ** Necə ki, son *zühur oldun* anadan; Mən gülə bilmədim bu qəmxanadan (Molla Cümə).

1. DOKTOR, ELMLƏR DOKTORU

2. doktor *bax* həkim **1**

doktorluq *bax* həkimlik

DOL (*köhn.*) (*mal dərisindən və yaxud brezentdən tikilən maye qabı*) Yaxşı yadımdadır o *dol*, dağara; Horlənib neft çəkən gözübağlı at (M.Rahim); **TULUQ** ..O, dolamaçarxı horlədib *tuluqla* quyudan su çəkirdi (Çəmənzəminli).

DOLAB (*kitab, paltar, qab-qacaq, yığmaq üçün şkaf*) Könülün anası paltar *dolabını* açdı (X.Hasilova); **QARDEROB** (*paltar şkafı*) [Vəsfiyyə:] Bütün *qarderobum* onun aldığı paltarlarla doludur (R.Rza); **QƏFƏSƏ** Burada nə yoxdur?.. *Qəfəsələrdə* top-top çit, parça (Ə.Əbülhəsən); **ŞKAF** [Kitabpaylayan:] O qədər lazımlı kitablar var ki, ..bu *şkaflarda* (Ə.Haqverdiyev), Qafar.. *şkafdan* stol üstünə boşqab və çəngəl qoydu (Ə.Əbülhəsən); **RƏF** (*bax*).

dolaq *bax* patava

1. DOLAMAQ Qara oğlan isə gələn qadını açıqdan-açığa *dolamağa* çalışırdı (M.Hüseyn); **ƏLƏ SALMAQ** [Məsumə:] Sən məni *ələ salma* Firəngiz, intiqam almaq üçün göstərdiyin cidd-cəhd əbəsdir (B.Bayramov); **LAĞ ELƏMƏK (ETMƏK)** Sayalı o zaman .. tənəffüslərdə oğlanların papağını qoyar, kağızdan özünə bığ düzəldər, onabuna *lağ edərdi* (İ.Şıxlı); **SARIMAQ** [Fərəc:] Ay, sizi, İbiş müəllim. Mən özüm camaatı dolayıram, siz də indi məni *sarıyırsınız*, qoy oturmuşuq (Anar).

2. DOLAMAQ [Durna:] Çay başından gələrkən saçlarımı əllərinə *doladı*, kəndin içindən sürüdü (C.Cabbarlı); **SARIMAQ** O əllər.. cəhrə dolandırmaqdan, lülə *sarımaqdan* qabar olub.. (Ə.Əbülhəsən).

dolanacaq *bax* yaşayış **I**

dolandırmaq *bax* **1.** fırlatmaq **1**; **2.** saxlamaq **2**

dolanışacaq *bax* yaşayış **I**

dolanmaq *bax* **1.** fırlanmaq; **2.** gəzmək **1**; **3.** yaşamaq

1. DOLAŞIQ, ÇOX MÜRƏKKƏB, HƏLLƏM-QƏLLƏM, QARIŞIQ

2. DOLAŞIQ, ANLAŞILMAYAN, QARIŞIQ

3. dolaşıq *bax* pırtlaşıq

dolaşmaq *bax* **1.** pırtlaşmaq; **2.** gəzmək **1**; **3.** veyllənmək

dolay *bax* **1.** yol **1**; **2.** döngə

dolğun *bax* **1.** kök **1**; **2.** yetkin

1. DOLMAQ, BÜRÜMƏK, TUTMAQ (*hər tərəfə yayılıb tutmaq*)

2. dolmaq *bax* girmək **1, 3**

dolubədənli *bax* kök **I**

doluxmaq *bax* doluxsunmaq

DOLUXSUNMAQ Şondə körpəni bir də, iki də opdü, *doluxsundu*... (B.Bayramov); **AĞLAMSINMAQ** Kiçikbəyim *ağlamsınaraq* başmağı onun əlindən alıb, hasarın üstündə oturdu (Çəmənzəminli); **DOLMAQ** *O doldu*, qaş-qabağı... aşağı sallandı (S.Rəhimov); **DOLUXMAQ** Aqilin ürəyi həyatın bu canlı romanını dinləmək üçün çırpındı, özü isə duymadan *doluxdu* (S.Rəhimov); **GÖZLƏRİ YAŞARMAQ** Xasayın gözləri birdən-birə yaşardı, başını yerə dikdi (A.Şaiq).

doluvücudlu *bax* kök **I**

DOMBA (*göz haqqında*) Arçel dəniz köpüyünə bənzər *domba* gözlərini onların ağzına dikərək... məxsusi bir vəziyyət almışdı (A.Şaiq); **QABARIQ** O, ... yumru və *qabarıq* gözlərini rəqibinə zilləyərək, tez-tez hücumunu qaldırıb-salırdı (M.Hüseyn); **PƏRTDƏK** Murad iri, *pərtdək* gözlərini Vəlişlə Cavadın üzərində hərləyə-hərləyə dedi.. (Ə.Vəliyev).

I DON Yeni dəbdə tikilmiş *donun* ətəyində qırışlar vardı (H.Abbaszadə); **KAFTAN** (*köhn.*) Uzun pesilli yəhudilər, həsir şapkalı, tikmədi *kaftanlı* kəndlilər bazara doluşmuşdular (Çəmənzəminli).

II don *bax* **1.** şaxta **I**; **2.** buz **I**

donqa *bax* donqar

donqabel *bax* donqar

DONQAR (*belində donqası olan*) Yanşak dərəsi sıxıb yazığın suyunu çıxarıb, eləyib əyribel, *donqar* (M.İbrahimov); **DONQA** Bünyad.. *donqa* belini güclə sürüyürmüş kimi yavaş-yavaş yeriyən canının ardınca baxdı (Ə.Əbülhəsən); **QOZBEL** Neçə gündən sonra Fatmanisə palazı qonşusu Əsllal *qozbel* Pirquluya satıb, bir qoyun alıb qurban kəsdi (Ə.Haqverdiyev); **DONQABEL..**

DONQULDANMAQ (*dodaqaltı və ya öz-özünə nəraziliqla danışmaq*) Kepkalı oğlan Adilənin saatını açıb ata malı kimi cibinə qoydu və *donquldandı* (Ə.Qasımov); **DEYİNMƏK** [Qəmdəb] öz-özünə *deyindi* (B.Bayramov); **MIRILDANMAQ** Kəblə Novruzalı səsdən tanıyıb gəlib *mırıldandı* (H.Sarabski); **MIZILDANMAQ** Muxtar yenə də nəzərini çevirmədən *mızıldandı* (B.Bayramov); **SÖYLƏNMƏK** [Qəmdəb:] Bir başqası da onun sözünə qüvvət verib *söylədi* (B.Bayramov).

I DONLUQ, PALTARLIQ (parça)

II donluq *bax* maaş

1. DONMAQ (*su haqqında*) *Dondu* çaylar, bulaqlar; Qardan kürk geydi dağlar (Ə.Cəmil); **BUZ BAĞLAMAQ** Volqa çayı *buz bağlamışdı* (H.Abbaszadə); **BUZLAMAQ.**

2. DONMAQ (*təəccübdən, qorxudan və s.-dən tutulmaq*) *Dondu* yerində Nigar; Gülən maşınlar qəfil; Haray salıb dayandı (Ə.Kərim); **BUZLAMAQ** Təlio olduğu yerində *buzlayıb* qalmışdı (M.S.Ordubadi); **DONUXMAQ** Rəhim bəy təəccüblə *donuxdu* (M.Hüseyn).

3. donmaq *bax* üşümək

donos *bax* xəbər **I**

donosbaz *bax* xəbərçi **1**

donosbazlıq *bax* xəbərçilik

donosçu *bax* xəbərçi **1**

1. DONUXMAQ Rəmziyə *donuxub* qalmışdı (S.Hüseyn); **DİLİ TUTULMAQ** Qaraca qızın qorxudan *dili tutulub* cavab verə bilmədi (S.S.Axundov); **NİTQİ TUTULMAQ (QURUMAQ)** Çatıldı heyrətdən onun qaşları; Gözü dumanlandı, *nitqi tutuldu* (B.Vahabzadə).

2. donuxmaq *bax* donmaq **2**

dopu *bax* bəsti

dopdolu *bax* ağzıbağız

DOST (*başqa bir şəxslə yaxınlıq*) Əziz *dostum*, unutma, məni; Ayrılmaram bu sahildən (S.Rüstəm); **AŞNA** (*köhn.*) [Mozalanboy:] Təzə *aşnam* da aldığı qozetləri qatlayıb qoltuq cibinə qoyub, gedib bir kürsü üstündə əyləşdi (Ə.Haqverdiyev); **ARQADAŞ** Dostum, *arqadaşım*, yoldaşım, dinlə. Nə sayaq unudaq biz bu ağrını (S.Rüstəm); **HƏBİB** (*kl.ed.*) Güli-rüxsarinə qarşı, gözümdən axar qanlı su; *Həbibim* fəsli-güldür bu, axar sular bulanmazmı? (Füzuli); **ƏNİS** (*kl.ed.*) Bir *ənis* və arkadaş varsa, o da bos-

lodiyi yüksək ideal və yüksək fikirdən ibarət idi (A.Şaiq); **MUNİS** (*ürək dostu*) Ey mənim hörmətli oxucularım! Ey mənim *munislərim!* (C.Məmmədquluzadə); **RƏFİQ** (*köhn.*) *Rəfiqim* və bacısı palaz ilə döşənmiş otağa daxil olurlar (S.S.Axundov); **YAR, YOLDAŞ** Qoriblikdə yada düşər yanarkən; Aşna, *yoldaş, yar*, müsahib, ellər hey! (M.V.Vidadi);

DOSTLAŞMAQ Davudla *dostlaşmışdılar*, o ara-sıra icazə alıb şəhərə çıxanda Həmidi görməyə gəlirdi (H.Abbaszadə); **DOST OLMAQ** [Sarıtel:] Biz o vaxtdan *dost olduq* (M.Hüseyn); **AŞNALAŞMAQ.**

dostucan *bax* qovun

doşab *bax* bəkməz

DOVŞAN (*çöl heyvanı*) *Dovşana* bax, dovşana; *Dovşan* qaçdı bostana... (A.Şaiq); **XƏRGUŞ** (*kl.ed., arx.*) Bu yerdə həmir olur çu *xərguş;* Göydən uçamaz qanad çalıb quş (Xətayi).

doymaz *bax* acgöz(lü)

1. döl *bax* cins **1**, cinslik

2. döl *bax* maya **II**

döllənmək *bax* mayalanmaq

döllük *bax* cinslik

dönə-dönə *bax* dəfələrlə

dönəm *bax* dəfə

DÖNGƏ Ayaz qabaqda tez-tez gedirdi. Bir neçə *döngə* keçdikdən sonra bir xarabaya girdi (M.İbrahimov); **DÖNƏCƏK** Tarqova küçəsinin *dönəcəyində* rastımıza bir neçə avtomobil çıxdı (C.Məmmədquluzadə); **TİN** [Fikrət] küçənin *tinindəki* avtomat telefondan zəng çaldı (X.Hasilova).

1. DÖNMƏK (*gedərkən başqa tərəfə istiqamətini dəyişmək*) Davud gedə-gedə *dönüb* arxaya baxırdı, nigaran idi (H.Abbaszadə); **BURULMAQ** Onlar Firdovsi mehmanxanasının yanından sağa *buruldular* (M.İbrahimov); **ÇEVRİLMƏK** Şahin soso diksinib gözünü açdı, qeyri-adi səldiklə arxaya *çevrildi* (B.Bayramov); **ÇÖNMƏK** [Xudayar bəy] bir qədər gedib, *çöndü* sol küçəyə (C.Məmmədquluzadə).

2. dönmək *bax* qayıtmaq

dönməz *bax* doyanatlı

dönük *bax* **1.** vəfasız; **2.** xain **I**

dönüklük *bax* **1.** vəfasızlıq; **2.** xainlik **I**

1. DÖRDAYAQLI, DÖRDQIÇLI (*dörd ayağı olan*)

2. dördayaqlı *bax* heyvan **I**

dördbucaq(lı) *bax* dördküncə(lü)

DÖRDKÜNC(LÜ) Kərim dayı dönüb getmək istəyəndə "Azərbaycan qadını" yadına düşdü, çantadan çıxarıb ... *dördküncə* tumboçkanın üstünə qoydu.. (M.İbrahimov); **ÇARGÜL** Yan divarlardan birisində *çargül* rəngli pərdələr arxasında zərli çərçivəyə tutulmuş güzgülər vurulmuşdu.. (Çəmənzəminli); **DÖRDBUCAQ(LI)** O zaman Ağdam geniş *dördbucaq* şəklində tikilmiş bir karvansaradan ibarət idi (Çəmənzəminli); **KVADRAT** Otağın ortasında.. balaca *kvadrat* stol qoyulmuşdu (M.İbrahimov).

dördqıçlı *bax* dördayaqlı **1, 2**

1. DÖŞ Bənövşəyəm, bənövşə; Düşmüşəm dilə-dişə; Məni gəlinlər, qızlar; Dərib taxarlar *döşə* (Bayatı); **KÖKS** Mənim yaram deyilmi; Bu yazığın *köksünə;* İndi vurduğum yara? (B.Vahabzadə); **SİNƏ** [Dadaş Dadaşov] *sinəsini* stola söykəyib yerli-yersiz sözləri ağ kağıza muncuq kimi düzür (Ə.İldırımoğlu); **YAXA** Aşiqəm ya xam əldə; Öyrənir ya xam ol də; Tutdum hicran *yaxasın;* Gördüm öz yaxam əldə (Bayatı).

2. döş *bax* əmcək, məmə

3. döş *bax* yamac

döş-döşə *bax* əlbəyaxa

DÖŞƏKAĞI (*döşəyin üstünə sərilən ağ*) Gülnisə o biri otaqdan təzə *döşəkağı* gətirib, divar boyu qoyulmuş yeganə çarpayını rahladı (İ.Əfəndiyev); **AĞ** (*dan.*) [Firəngiz:] Əgər çirkli paltarın varsa yığışdır, yorğan-döşəyin *ağını* da çıxaracağam (B.Bayramov); **DÖŞƏKÜZÜ** Təzə *döşəküzü* gətirib bu dəm; Anam çarpayıda yer açdı mənə (Z.Xəlil); **MƏLƏFƏ** Gəlib gördülər ki, Mülayim kişini həyətdə daş qalağının yanında uzanıb, üstündə *məlafə* çəkiblər (H.Abbaszadə).

döşəküzü *bax* döşəkağı

döşəmək *bax* **1.** sərmək **1**; **2.** vurmaq **1**
döşənmək *bax* **1.** sərilmək **1**; **2.** uzanmaq **1**
döşlük *bax* önlük

1. DÖŞÜDOLU, DÖŞÜODLU *(ürəyi sözlə dolu olan)*; **ÜRƏYİDOLU**

2. döşüdolu *bax* igid

1. DÖVLƏT [Xeyrənsə:] Qazandığım əmək haqqının müqabilində *dövlət* mənə yardım verəcəkdir (Ə.İldırımoğlu); **HÖKUMƏT** [Xaco:] Atam Məhəmməd şah su yerinə qan axıdıb, başlar, təpələr, cəsədlərdən ibarət dağlar ucaldıb *hökumət* ələ keçirmiş, nə üçün? (A.Şaiq); **SƏLTƏNƏT** *(köhn.)* Bəli, atanın, atan kimilərin əlinə qılınc verən Nikolay siyasəti, çar *səltənətidir*... (A.Şaiq); **ÖLKƏ** Vətən daşı olmayandan; olmaz *ölkə* vətəndaşı... (B.Vahabzadə); **HAKİMİYYƏT.**

2. dövlət *bax* var **I**
dövlətlənmək *bax* varlanmaq
dövlətli *bax* varlı
dövlətmənd *bax* varlı

DÖVR Heç bir dövrdə humanizm israrla inkar edilmədiyi *dövrdə* olduğu qədər vacib və qüvvətli deyil (Anar); **DƏHR** *(kl.ed.)* Gör bu lətifeyi ki, bən *dəhri*-zəmanə sığmazam (Nəsimi); **DÖVRAN, ZƏMANƏ, ƏYYAM** [Vəliş:] Anacan, nə eləyəsən ki, *zəmanə* xarablaşıb, *dövran* tərsinə dönüb. *Əyyam* dəyişib... (Ə.Vəliyev); **ƏSR** [Heydər bəy:] Pərvərdigara, bu neco *əsrdir*, bu neco *zamanədir?* (M.F.Axundzadə); **DƏM** Ömrün nə gözəl *dəmləri* varmış (S.Rüstəm); **GÜN** [Heydər bəy:] Ah, keçən *günlər*, keçən dövrlər (M.F.Axundzadə); **VAXT** *Vaxt* deyirman; Ömür dən... Bir doyumluq möhlət umdum ömürdən (B.Vahabzadə).

dövran *bax* dövr, çağ **I**
dövrə *bax* ətraf **I**
döyçə *bax* çalaq
döyənək *bax* qabar

1. DÖYMƏK ..Havaxt deyindi, ərim ilə basıb *döyüdük* (Çəmənzəminli); **BUDAMAQ** *(məc.)* [Vidadi Vaqifə:] Əgər səni bu məzhəbdə görərlər; Yerbəyər *budayıb* əzər, ağlarsan (M.P.Vaqif); **ƏZİŞDİRMƏK** *(dan., məc.)* ..burdən oğlanlar geri dönüb Davudu *əzişdirərlər*, longidi... (H.Abbaszadə); **GOPAMAQ** [Məmmədli:] Bacıoğlu! ..O qədər *goparam* comdəyinə, şişib dama dönərsən (N.Vəzirov); **İSLATMAQ** *(məc., dan.)* Şair şeyxlər duyuq düşüb haman maralı lazımınca *islatdılar* (Ə.Haqverdiyev); **KÖTƏKLƏMƏK** Ərlə arvad arasında olan belə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq *kötəklərdi* (S.S.Axundov); **ŞAPPARLAMAQ** Bir də görürəm bir ağsaqqal cavan arvadının saçından yapışıb, çomaq ilə *şapparlayır* (Çəmənzəminli).

2. DÖYMƏK *(qapını və s.)* Fikrət divanda uzanmışdı ki, qapını *döydülər* (H.Abbaszadə); **DƏQQÜLBAB ETMƏK** Bir az vaxtdan sonra eşitdi ki, qapını *dəqqülbab edirlər*... (Ə.Haqverdiyev); **TAQQILDATMAQ** Molla Qafar.. qapıya yaxınlaşıb *taqqıldatdı* (S.Rohimov); **VURMAQ** Hələ şam yeməyi hazır olmadan, iki qız bir də anası qapını *vurub* içəri girdilər (M.S.Ordubadi).

DÖYÜNMƏK *(ürək və s. haqqında)* Ancaq ürəkləri adi qaydası ilə *döyünürdü* (S.Rohimov); **ATDANMAQ** [Hacı Murad:] Daha təşvişdən qurtardım. Gör üroyim neco *atdanır* (S.S.Axundov); **ÇIRPMAQ** Xasay qaçmışdı. Onun uşaq qəlbi sürətlə *çırpırdı* (A.Şaiq); **ÇIRPINMAQ** Vəzirovun ürəyi həyəcan və qəzəblə *çırpındı* (M.İbrahimov); **ƏSMƏK** Leyla, Zeynalı çağıranda oğlan yerindən dik qalxdı, *ürəyi əsdi* (B.Bayramov).

döyüş *bax* müharibə

DÖYÜŞÇÜ Dəstənin *döyüşçüləri* səhər tezdən, bizimkilər hücuma başlayanda, gözləmələrdən almanlar üzərinə atılmalı, meşədən keçib düşmənin atəş nöqtələrini susdurmalı idi (M.Hüseyn); **CƏNGAVƏR** Girdman *cəngavərləri* böyük meydanda döniz kimi dalğalanıb tolatümə gəldilər (M.Hüseyn); **MÜHARİB** *(köhn.)* Azərbaycanın mövqeyi və əhalisinin *müharib* olması Atabəy hökumətinin möhkəm edilməsi üçün əsas bir vasitə ola bilər (M.S.Ordubadi).

döyüşkən *bax* mübariz
döyüşmək *bax* **1.** vuruşmaq **1**; **2.** dalaşmaq

DÖZMƏK [Azər baba:] Artıq *dözməyirəm*, evimizə gol; övlad həsrətinə tablamaz ürək (S.Vurğun); **DAVAM GƏTİRMƏK** İstiyə-soyuğa *gətirib davam;* O köhlən atları çapdınız müdam (S.Rüstəm); **DAYANMAQ** [Hacı:] Nə gunə, əziyyətə *dayandıq* (C.Cabbarlı); **QATLAŞMAQ** *Qatlaşıb* dünyanın hər möhnətinə; Yeddi lay divarlı oğul böyütdü (B.Vahabzadə); **SƏBR ETMƏK (ELƏMƏK)** Get yuxuya, durma, a qardaş, hələ! Qovzama başın, çoculum, *səbr elə!* (M.Ə.Sabir); **TAB GƏTİRMƏK** Əzizinəm din barı; Danış barı, din barı; İgidə *tab gətirməz;* Yağı tikən min barı (Bayatı); **TABLAMAQ** Övlad həsrətinə *tablamaz* ürək (S.Vurğun); **TABLAŞMAQ** [Bayram:] ..bu dərdə neco *tablaşım* (M.F.Axundzadə); **TOXTAMAQ** Ağlayan şolaləyə ağlama dedim; *Toxta,* dayan bir an (H.Billuri); **ZƏHMƏTƏ (ƏZABA) QATLAŞMAQ** Vallah, belə bilsəydim ki, axırı belə olacaq, heç vaxt bu *zəhmətə qatlaşmazdım* (C.Məmmədquluzadə).

dözüm *bax* səbir **I**, dəyanət
dözümlü *bax* səbirli, dəyanətli
dözümsüz *bax* səbirsiz

DRAM *(teatr əsəri; ədəbiyyatın növlərindən biri)* O [S.Vurğun], ilk *dramını* yazanda da hər kəsdən əvvəl C.Cabbarlı ənənələrinə əsaslanmışdı (M.Arif); **PYES** *Pyes* zadəgan ailəsinə mənsub bir əyyaşın əhvali-ruhiyyəsini kəskin boyalarla təsvir edirdi (A.Şaiq); **TƏMSİL** Həmin məclisdə mərhum Mirzə Fətəlinin "Mərdi-Xəsis Hacı Qara" adlı *təmsili* oynanılırdı (C.Məmmədquluzadə); **TƏMSİLAT** *(köhn.)* Timsal üçün Axundovun beş komediyası hesab olunan "Sərgüzəşti-mərdi-xəsis" adlı *təmsilatı* ilə ki, başqa ibarə ilə "Hacı Qara" adlanır... (F.Köçərli).

DRAMATURQ *(dram əsəri yazan)* Dramaturq S.Vurğun səsləri içərisində C.Cabbarlı görkəmli yer tutur (M.Arif); **DRAMNƏVİS** Hər iki ədibin [N.Vəzirov və Ə.Haqverdiyev] və M.Fətəliyə peyrəvilik edən şair *dramnəvislərin* vücuda gətirdikləri əsərlər barəsində "Azərbaycan türklərinin ədəbiyyatı" adlı məcmuəsində müfəssəl məlumat verilir (F.Köçərli).

dramnəvis *bax* dramaturq

DUA [Övvəlinci azarlı:] *Dua* yazdırmaqdan yoruldum (C.Məmmədquluzadə); **PİTİK** [Kəndli:] Sən Allah, buna bir duadan, *pitikdən* yaz (M.N.lət.).

DUAÇI *(dua edən adam)* [Qoca:] Sənə *duaçı* ollam; Çok bu işə bir əncam (B.Vahabzadə); **DUAGU** [Vaqif:] Ömrünüzə *duagu* olar (Çəmənzəminli).

duxan *bax* meyxana **I**
duxi *bax* ətir **I**

1. DUMAN, ÇƏN, SİS Yenəmi arxalıq istəyirsən? Versənə *çən, duman, sis* deyəcəksən (M.Rahim).

2. duman *bax* tüstü
dumbul *bax* dümbək
duracaq *bax* dayanacaq

DURBİN Ordu komandanı əlindəki *durbinlə* Aslanın hər bir zərbəsini aydın görürdü (M.Hüseyn); **BİNOKL** [Əsgərlərdən biri:] Mayor bayaqdan *binoklla* sizə baxırdı (X.Hasilova).

1. DURĞUZMAQ, AYAĞA QALDIRMAQ, YERİNDƏN QALDIRMAQ

2. durğuzmaq *bax* oyatmaq

1. DURMAQ, AYAĞA QALXMAQ, YERİNDƏN QALXMAQ

2. durmaq *bax* ayılmaq **1**
3. durmaq *bax* dayanmaq **1**

DURUXMAQ, ÇAŞMAQ *(bax)*, **DÜŞÜNMƏK, FİKRƏ GETMƏK, SÖZ AXTARMAQ**

1. DURUŞ, DURMA, DURMA TƏRZİ

2. duruş *bax* dayanacaq

1. DUSTAQ [Serjant:] Əşi, *dustaq* apardığım yerdə durub yolun ortasında sənə izahat verməyəcəyəm ki... (İ.Əfəndiyev); **MƏHBUS** [Xacə Müfid:] *Məhbuslar* buradadır oğlum (M.S.Ordubadi); **ƏSİR** Xaqan qapıçıya işarə verdi: – *Əsiri* gətirin (Anar); **HƏBSƏ ALINAN** *Həbsə alınanların* hamısı öldürülmüşdü (M.S.Ordubadi).

2. dustaq *bax* həbsxana
dustaqxana *bax* həbsxana

duvaq *bax* rübənd
duvaqlı *bax* rübəndli
duyğu *bax* hiss
duyğusuz *bax* hissiz
1. DUYMAQ, BİLMƏK, HİSS ETMƏK
2. duymaq *bax* sezmək

I DUZ [Firəngiz:] Onu qandırarsan ki, burada camaata un lazımdır; *duz* lazımdır (B.Bayramov); **NƏMƏK** (*kl.əd., arx.*) Bağırmla, gözüm yazi evində; Çox oldu gözün, *nəmək* yedi, nan (Xətayi).
II duz *bax* düşənbə
duzaq *bax* tələ **1**
duzəx *bax* cəhənnəm

DUZQABI Ağappaq təmiz süfrə, duzla dolu *duzqabı*... Balaca samovar stolun üstündə dırıldayırdı (İ.Məlikzadə); **NƏMƏKDAN** Dedim ki, nankorsan, duz-çörək yedin; Həyat süfrəsində sındı *nəməkdan* (Şəhriyar).

1. DUZLU (*duzu çox olan*) Hind okeanı da *duzludur* (R.Rza); **ŞOR** Bulağın suyu *şor* idi (Çəmənzəminli).
2. duzlu *bax* xoşagələn

DUZSUZ Dəyirman ocağının daşına yapılan fətir *duzsuz* yoğrulduğundan şirin olardı (Ə.Vəliyev); **ŞİT** Duz alırlar; *Şit* bişməsin çörək (R.Rza).
dübarə *bax* təzədən
düçar *bax* mübtəla **1**
düdəmə *bax* mələz **2**
düdük *bax* tütək
düdükçalan *bax* tütəkçi
düdükçü *bax* tütəkçi
düha *bax* **1.** dahilik; **2.** dahi

DÜKAN (*mal, əmtəə satmaq üçün inzibati bina*) Nə etməli ki, [Aslanın] var-yoxunu topa tutdular, *dükanları*, evini Qızıl ordu qorarğahına çevirdilər... (M.Hüseyn); **MAĞAZA** [Sarıköynək:] *Mağazada* mən özümü saxlaya bilməyib qəhqəhə ilə güldüm (İ.Əfəndiyev); **MAQAZİN** (*dan.*).

DÜKANÇI Adilə Məmməd dayıya möhkəm çəkmişdi, *dükançıda* **sağ** yer qoymamışdı (Ə.Qasımov); **BAQQAL** *Baqqal* çəki daşının içini oydu, oydu; Alıcını çəkidə müdam aldatmaq üçün (B.Vahabzadə); **DÜKANDAR** (*köhn.*) [Səfa:] Məmməd dayı da belə tədbir gördü: divar qəzetinin acığına onu çayxanadan çıxartdırıb *dükandar* qoydu (Ə.Qasımov); **MAĞAZAÇI.**
dükandar *bax* dükançı
dülgər *bax* xarrat
dülgərxana *bax* xarratxana
dülgərlik *bax* xarratlıq
dümağ *bax* ağappaq

DÜMBƏK (*mus.*) [Əbdülhəsən bəy:] ..burada kamança, dəf, tar, *dümbək* və ney səsləri ucalırdı (M.S.Ordubadi); **DUMBUL** *Dumbul* əvvəl ağır, sonra sürətli templə çalınardı (H.Sarabski).
dümləmək *bax* içmək
dümük *bax* məşğuliyyət
dün *bax* dünən

DÜNƏN Bir başqası xəbər gətirdi ki, *dünən* gecə filan igidi ağaca bağlayıb, sonra da xəncərlə xingal kimi doğrayıblar (Ə.Cəfərzadə); **DÜN** (*kl.əd.*) *Dün* bu yerdə zəlzələlər, qiyamətlər qopardı (M.Müşfiq).

DÜNYA *Dünya* dediklərı – döyüş meydanı; Dənizlər qədərdir insanın qanı... (S.Vurğun); **AÇUN** (*qəd.*) Yenə ölgün sükuta batdı *açun* (C.Cabbarlı); **ALƏM** İllər, qərinələr keçirsə *aləm*; Yadımda saxlaram hər zaman səni (S.Vurğun); **CAHAN** *Cahanda* hər könül yüksəliş arar; Varlığın nə ilki, nə axırı var (S.Vurğun); **ÇƏRXİ-DÖVRAN** Üzəyində ağrı, gözündə həsrət; O lənət yağdırdı *çərxi-dövrana* (B.Vahabzadə); **ÇƏRXİ-FƏLƏK** (*köhn.*) Bu *çərxi-fələk* torsinə dövran edir indi.. (M.Ə.Sabir); **DƏHR** (*kl.əd.*) Dərk edə bilməzdim *dəhri*, varlığı; Heyran olmasaydım gözəlliyinə (B.Vahabzadə); **ƏRZ** (*məc.*) *Ərzin* iqbalın bizik düşünən (M.Rahim); **KAİNAT** Bütün *kainat* qar altında bitmiş kimi idi (Mir Cəlal); **KÜRƏYİ-ƏRZ** (*kl.əd.*) Azacıq sönərdi kini, qərəzi; Bir yumruq yapsaydı *kürreyi-ərzi*.. (M.Müşfiq); **YER KÜRƏSİ** Əngin bir boşluq içərisində sakin kimi görünən *yer kürəsi* qaranlıqlar içində dalğın-dalğın yuvarlanırdı

(A.Şaiq); **YER ÜZÜ** ..sənin ismü rəsmini baqi və *yer üzündə* məşhur olmağına ciddcəhd edərdi (C.Məmmədquluzadə).
dünyabaxışı *bax* dünyagörüşü
dünyagir *bax* tamahkar
dünyagirlik *bax* tamahkarlıq

DÜNYAGÖRÜŞÜ Gənc Cabbarlının *dünyagörüşündəki* məhdudluğu.. Kapitalizmlə apardığı mübarizədən kənarda qalması ilə izah etmək olar (M.Arif); **DÜNYABAXIŞI** Bu əsərlər müxtəlif janrlara, üsluba, müxtəlif dövrlərə aiddir, müxtəlif *dünyabaxışına* və dünyaduyumuna malik olan müəlliflərin qələm məhsuludur (Anar).
dürək *bax* mələz **2**
dürlü *bax* **1.** növ **1**; **2** cürbəcür
dürr *bax* inci
dürtmək *bax* soxmaq

DÜRTÜLMƏK [Sultan Aloya:] Haralısan? – dedi, – belə də qaban kimi içəriyə *dürtülürsən* (S.Rəhimov); **SOXULMAQ** Hər məclisi-alidə *soxulma* tez arayə; Sən dur ayaq üstə, demə söz ümarəyə (M.Ə.Sabir); **TƏPİLMƏK** Zəng bir də səslədi. Katibə tələsik içəri *tapildi* (Ə.Qasımov).
dürüst *bax* doğru **1**
dürüşt *bax* sərt **1**
düsər *bax* külüng

1. DÜSTUR (*riyaz.*), **FORMUL, DƏSTUR**
2. düstur *bax* üsul

DÜŞƏNBƏ (*həftənin 1-ci günü*) [Vəli:] Çatdığımız *düşənbə* günü kənddə böyük yanğın oldu (A.Şaiq); **BAZAR ERTƏSİ** [Cövdət:] Əgər barının hörülməsi qurtarmasa, onda *bazar ertəsi* səhər avtobusla gedəcəyəm... (H.Abbaszadə); **DUZ GÜNÜ** (*dan.*) İki gün sonra *duz günüdür* (Ə.Haqverdiyev).
düşərgah *bax* düşərgə **3**

1. DÜŞƏRGƏ (*hərbi*) Əsirlərı Çankoy *düşərgəsində* beş-on gündən çox saxlamadılar, partizan dəstələrinə qaçmasınlar deyə faşistləri nəzarət altında hara isə apardılar (S.Vəliyev); **LAGER** [Cəlil:] *Lagerdə* məndən savay bizimkilərdən beş-altı nəfər vardı... (H.Abbaszadə); **ORDUGAH** [Jirikov Qadunova:] Əmr ver, *ordugahdan* keçməyə kimsəni buraxmasınlar (A.Şaiq).
2. DÜŞƏRGƏ, LAGER (*yay zamanı məktəblilərin istirahət yeri*)
3. DÜŞƏRGƏ (*müvəqqəti yaşayış yeri, yurd, mənzil*) Təpənin başında isə təkəmseyrək qaraçı köçü və ya çoban *düşərgələri* görünürdü (Mir Cəlal); **MƏNZİLGAH** (*kl.əd.*) Nə bilsin bəhr halın ol ki, *mənzilgahı* sahildir (Füzuli); **DÜŞƏRGAH.**
düşkünləşmək *bax* arıqlamaq
düşmək *bax* **1.** yıxılmaq **1**; **2.** enmək

1. DÜŞMƏN (*birinə qarşı düşmənçilik bəsləyən, birinə pislik etmək istəyən*) [İzzət:] *Düşmən* nə qədər aciz olsa da; Məğrur olub, kiçik sanma dünyada (H.Cavid); **ƏDU(VV)** (*kl.əd.*) Əgər bütün bəşəriyyət *əduvvi*-canım ola; Ürək süqut etməz aldığı mətanətdən (C.Cabbarlı); **QAC** (*məh.*) Ölkəndə insanlar bir-birinə *qac;* Analar bir qarın çörəyə möhtac (S.Rüstəm); **QANLI** (*qan düşməni*) [Hatəmxan:] Biz qohum deyilik, *qanlıyıq* (S.Rəhimov); **QANLIQAÇAQ** (*qan düşməni*) [Bayram:] Mən özüm də *qanlıqaçaq* ollam (M.F.Axundzadə); **QANLIBIÇAQ** (*dan.*) Qaplan Balaca ilə *qanlıbıçaq* idi (H.Abbaszadə); **QƏNİM** [Nardaranlılar Rzaquluya:] ..Çopur Abdulla, Polonq Rzaqulu *qənimindi* (H.Abbaszadə); **MÜDDƏİ** (*kl.əd.*) [Əvvəlinci:] Bu hökmranların hamısı bir-birilə *müddəidir* (Ə.Haqverdiyev).

2. DÜŞMƏN (*müharibədə əks cəbhədə vuruşan adam, dövlət və s.*) *Düşmən* bütün cəbhə boyu ricət edirdi (M.Hüseyn); **ƏLEYHDAR, MÜDDƏİ** Gər sənə əfqanimi bihudə dərsə *müddəi* (Füzuli); **YAĞI** Sərxoş ordusuyla qudurmuş *yağı*; Vermərik düşmənə, biz bu torpağı (Ə.Cəmil).
3. düşmən *bax* müxalif
düşmənçilik *bax* ədavət

1. DÜŞÜNCƏ *Düşüncələr* yeni, duyğular yeni; Dəyişmiş dünyanın söhbəti, sazı (S.Vurğun); **DƏRRAKƏ** [Vaqif:] Bu *dərrakənin* sahibinə nə deyəsən? (Çəmənzəminli);

ANLAQ [Firudin:] [Azadi] artıq *anlaq* və təsəvvürə malikdir (M.İbrahimov); **İDRAK** Hakimimülkün keyimiş *idrakı* vəziyyəti dərk edəcək halda deyildi (M.İbrahimov); **QANACAQ** Amma mənim *qanacağıma* görə, sizin kitabınızda olan məlumat məhz Avropa və Rusiya mənbəyindən əxz olunmuşdur (C.Məmmədquluzadə); **ŞÜUR** [Alagöz] başını itirir, onun.. *şüuru* dolaşırdı (S.Rəhimov).

2. DÜŞÜNCƏ, FİKİR, XƏYAL, ZEHİN Boşərin vicdanı, eşqi, ürəyi, *zehni, düşüncəsi, fikri, xəyalı*.. (S.Vurğun).

3. düşüncə *bax* ağıl **I**

1. DÜŞÜNCƏLİ (*düşüncəsi olan*) ..Sizin Qotibə ilə olan rəftarınız *düşüncəli* bir hökmdarın rəftarı deyildi (M.S.Ordubadi); **AĞILLI** Tərlan *ağıllı* oğlunun hər kəlməsindən xoşlanırdı (M.Hüseyn); **DƏRRAKƏLİ** O oğlan yaşda səndən kiçikdir, amma qat-qat *dərrakəlidir* (S.Rəhman); **HUŞYAR** ..Özümdən artıq *huşyar* dostlarıma rast gəldim.. (C.Məmmədquluzadə); **ŞÜURLU** [Süleyman:] Xeyr, bəy, əsgər, ... çox ağıllı, yaraşıqlı və çox da *şüurlu* oğlandır (Ü.Hacıbəyov).

2. düşüncəli *bax* dalğın

DÜŞÜNCƏSİZ, AĞILSIZ, DƏRRAKƏSİZ, ŞÜURSUZ

1. DÜŞÜNMƏK, AĞLINA GƏTİRMƏK, XƏYALINA GƏTİRMƏK, TƏSƏVVÜR ETMƏK, ZƏNN ETMƏK

2. düşünmək *bax* fikirləşmək

3. düşünmək *bax* anlamaq

düşürmək *bax* **1.** salmaq; **2.** dərmək

DÜYÜ Məsumə *düyünün* axırıncı qismini də əsas barmaqları ilə sininin qırağına yayıb arıtladı (B.Bayramov); **BİRİNC** (*məh.*) Nə *birincin*, əgər nə yağın var; Şükr qıl, sağ əlin, ayağın var (S.Ə.Şirvani); **ÇƏLTİK** (*qabığı çıxarılmamış düyü*) *Çəltik* də gətir, arpa da, buğda da əkinçi! Yoxsa soyaram lap dərini, adə əkinçi! (M.Ə.Sabir).

I düyün *bax* toy, şənlik **I**

II düyün *bax* bənd **I 2**

1. DÜZ (*heç bir yerdə durmadan*) Ərizəni götürüb sevinə-sevinə *düz* pristavın üstünə getdi (M.Hüseyn); **BİRBAŞA** Yazıq muzdur qolu boynunda sınıqçıdan qayıdıb, *birbaşa* öz xozeyninin yanına gəldi (S.Qənizadə).

2. düz *bax* hamar

3. düz *bax* düzənlik

4. düz *bax* doğru **1**

düzəltmək *bax* qayırmaq **1**

düzən *bax* düzəngah

DÜZƏNGAH "Görüblər" əhvalatı Şehlidən ətraf kəndlərə, hətta qarlı hündür dağları aşaraq Qarabağın bozaq *düzəngahlarına* da çatdı (S.Rəhimov); **DÜZƏN** Yaşıl *düzəndə* bir kənd... kirəmitli daxmalar... Əziz qonaq gəlibdir tərəvətli ilk bahar (M.Rahim); **ARAN** [Qəndab:] Obamızın camaatı, yerindən-yurdundan əl çəkmiş kimi, heç şeyə məhəl qoymurdu, elliklə köçüb getmək, *aran* yerlərində məskən salıb əkib-biçmək haqqında düşünürdü (B.Bayramov); **ÇÖL** Mən şəhər ala qaranlıqdan *çöllərdə* işləmişdim (M.İbrahimov); **DÜZ** [Şahin:] Qarşıdakı *düzdən* keçib bələni aşanda bulağın üstünə enəcəyik (B.Bayramov); **DÜZƏNLİK** Görürəm çiçək açır Kür-Araz *düzənliyi* (Ə.Cəmil); **DÜZLÜK** [Araz Şeydaya:] Sizin bu mədənlərdə *düzlükdən* başqa bir şey var? (A.Şaiq); **QIR** (*köhn.*) Cənnət qoxan *qırlar*, əngin obalar; Bir atlasdır, yaşıl ucu görünməz (A.Şaiq); **YASTANA** Firəngiz sinə aşağı enəndə ceyran bulağının üstündəki *yastanaya* xeyli adam toplaşdığını gördü (B.Bayramov); **YASAMAL**.

düzənlik *bax* düzəngah

düzgün *bax* doğru **1**

düzgünlük *bax* düzlük **1**

düzqəlbli *bax* safürəkli

1. DÜZLÜK *Düzlük* xoşbəxtliyin açarıdır (Ata. sözü); **DOĞRULUQ** *Doğruluqla* dost qapısın dolan, gəl öz evindir (Ata. sözü); **DÜZGÜNLÜK, HƏQİQƏT** Belə çıxır ki, *həqiqət*, ədalət, *düzgünlük* – hamısı bir qoz.. (Anar).

2. düzlük *bax* düzəngah

dvoryan *bax* zadəgan

Ee

ecaz *bax* möcüzə

ecazkar *bax* möcüzəli

ehmal *bax* yavaş

ehmal-ehmal *bax* yavaş-yavaş

1. EHSAN (*ölmüş adamın adına, xatirəsinə verilən yemək*) Lakin o [Dursun], altı ay bundan əvvəl ölmüşdü, yası tutulmuş, *ehsanı* verilmişdi (A.Şaiq); **XEYRAT** *Xeyrat* halvasından qarın doymaz (Ata. sözü).

2. ehsan *bax* sədəqə

3. ehsan *bax* yaxşılıq

ehtimal *bax* **1.** yoqin; **2.** ümid

ehtiram *bax* hörmət

1. EHTİRAS (*cinsi əlaqə meyli*) Bu gün Hüsaməddinin qadına olan *ehtirasını* coşdurmaq və ona təslim olmamaq vəzifəsini sənə tapşırıram (M.S.Ordubadi); **ŞƏHVƏT** [Əmir:] Dünyada qadın və *şəhvət* olmazsa kişilərin qəlbindəki inad və müqavimoti heç bir qüvvə qıra bilməz (M.S.Ordubadi); **TEMPERAMENT** [Zoki:] Başdan-ayağa həyəcandır, *temperamentdir* (S.Rəhman); **NƏFS** Səbəb budur ki, arvadlar bunların [ərlərinin] təkcə *nəfsi*-heyvaniyyotlərinə qulluq edirlər və *nəfs* öləndən sonra daha cavanı evdə saxlamağa bir vasitə olmur (Çəmənzəminli).

2. ehtiras *bax* coşqunluq

3. ehtiras *bax* həvəs

1. EHTİRASLI Xan ayaq saxlayıb *ehtiraslı* baxışla [Tutubəyimi] süzdü (Çəmənzəminli); **HƏRİS, ŞƏHVƏTLİ, TEMPERAMENTLİ.**

2. ehtiraslı *bax* coşqun **2**; atəşin **1**

3. ehtiraslı *bax* həvəsli

ehtişam *bax* dəbdəbə

ehtişamlı *bax* dəbdəbəli

1. EHTİYAC (*bir şeyə olan tələb*) [Şakir:] Bildilər ki, bir şeyə *ehtiyacı* var, xahişsiz-filansız düzəldilər (M.İbrahimov); **HACƏT** [Dərzi Zöhraba:] Amma indi sənin geri qayıtmağına *hacət* yoxdur (S.Vəliyev); **ZƏRURƏT** Əlbəttə, bu yerləri yazın isti günlərində görmək Qəhrəman üçün daxili bir *zərurət* idi (S.Rəhimov); **TƏLƏBAT** (*bax*).

2. ehtiyac *bax* yoxsulluq

EHTİYAT ..Soriyyə xala yemək *ehtiyatının* tükənməyə başladığını hiss etdi (M.İbrahimov); **TƏDARÜK** [Süleyman:] ..gəl son bu qoca atanın sözünə qulaq as, bu həftə toy *tədarükünü* görüb səni evləndirək (M.Hüseyn); **HAZIRLIQ** İraq yerdən gəlirəm; Yar dərdindən ölürəm; Əyər mənim dostumsan; *Hazırlıq* gör, gəlirəm (Ə.Cavad).

EHTİYATLI (*öz hərəkətlərində, işində ehtiyat gözləyən*) [Polismeyster:] Adamlarımız onların arasında işləyirlər, ancaq onlar çox *ehtiyatlıdırlar* (C.Cabbarlı); **DİQQƏTLİ** Sizi bəklәmәkdən artıq yorulmuş; O qaynayan, axan *diqqətli* gözlər (M.Müşfiq); **EHTİYATKAR** Firidun onun [əmniyyənin] *ehtiyatkarlığına* heyrət edib, çölə çıxdı, qızılları ovcuna basdı (M.İbrahimov); **ÜSULLU** [Qara Hüseyn:] Ancaq bir müddət gərək *üsullu* dolanasan (S.S.Axundov); **SAYĞILI.**

ehtizaz *bax* titrəmə

ekskursiya *bax* səyahət

eksperiment *bax* təcrübə **1**

eqoist *bax* xudbin

eqoistlik *bax* xudbinlik

eqoizm *bax* xudbinlik

el *bax* **1.** xalq **1**; **2.** camaat; **3.** ölkə **1**; **4.** tayfa **1**

ELAN (*müxtəlif mənalarda*) Bu *elan* məclisin heç də istəyinə uyğun deyil (S.Rəhimov); **AFİŞA** (*tamaşa, konsert və s. haqqında divara vurulan elan*) O gün Həmidin uçmağa qanadı yox idi, şəhəri gəzir, küçələrə vurulmuş *afişalarına* uzaqdan baxırdı (H.Abbaszadə); **ANŞLAQ** (*teatrda, kinoda, sirkdə və s.-də biletin qurtardığını bildirən elan*) ..bəzən teatr tamaşaya iki gün qalmış *anşlaq* asmalı olur (Ə.Haqverdiyev); **ANONS** (*qabaqcadan yapışdırılmış elan*); **BİLDİRİŞ.**

elat *bax* **1.** camaat; **2.** köçəbə

elcarı *bax* elliklə

elçi *bax* **1.** səfir; **2.** nümayəndə; **3.** çapar **I**
eldaş *bax* eloğlu
ELEMENT, ÜNSÜR
ELLİKLƏ (*hamı bir yerdə*) [Qəndab:] Obamızın camaatı, yerindən-yurdundan əl çəkmiş kimi, heç şeyə məhəl qoymur, *elliklə* köçüb getmək, aran yerlərində məskən salıb əkib-biçmək haqqında düşünürdü... (B.Bayramov); **CƏMƏN** ..Kişi istəyir onu da gətirib kömeyə bu evin adamlarını *cəmən* qırsın (N.Vəzirov); **ELCARI** Yüzlərcə gözəl başqa vilayətdə də çoxdur; Amma bizim ölkə bütün – *elcarı* gözəldir (Ə.Vahid); **HAMILIQLA** [Məsədi Oruc:] İndi, söz yox, Allah qoysa, qayıdandan sonra biz *hamılıqnan* sən ilə görüşəcəyik (C.Məmmədquluzadə); **MƏCMUƏN, ÜMUMƏN.**
1. ELM, KAMAL, BİLİK (*bax*)
2. ELM, NƏZƏRİYYƏ
3. elm *bax* savad
elmli *bax* savadlı, bilikli
ELMSİZ, BİELM, SAVADSIZ (*bax*)
el-oba *bax* camaat
eloğlu *bax* həmyerli
el-ulus *bax* camaat
embrion *bax* maya **II**
enli *bax* geniş **1**
ENMƏK, DÜŞMƏK Firəngız kabinədən *düşdü*. Cəbrayıl da *endi* (B.Bayramov).
ENSİKLOPEDİYA (*böyük lüğət kitabı*) *Ensiklopediyanın* nəşri respublikamızın ictimai-siyasi və mədəni həyatında böyük hadisədir (ASE.), **QAMUS** (*köhn.*) Yaz! – deyərək beynimi yandıranda bu mövzu: Getdim, açdım *qamusu*: gördüm barı şəklini... (X.Rza).
ensiz *bax* dar **1**
EPİLOQ (*adəb., son, axır*) *Epiloq* çox zaman yazıçının əsərdə demək istədiklərini tamamlayır (C.Hacıyev); **XATİMƏ** Nizaminin mükafat aldığı kəndin nəhayət dərəcədə dəyərsiz olduğunu kitaba yazılmış *xatimədən* də anlamaq olur (M.S.Ordubadi); **NƏTİCƏ.**
epos *bax* dastan
er-gec *bax* əvvəl-axır

I ERKƏK (*erkək qoyun*) *Erkək* kəsib, ağır məclis quruldu (Aşıq Ələsgər); **QOÇ** *Qoç* döyüşünə *qoç* dözər (Ata. sözü).
II erkək *bax* kişi **1**
ertədən *bax* tezdən
eskalator *bax* pilləkən
eş *bax* yoldaş **1**
eşik *bax* çöl **1**
eşq *bax* **1.** məhəbbət **1**; **2.** arzu; həvəs
1. EŞQBAZLIQ, SEVİŞMƏ, AŞNABAZLIQ
2. eşqbazlıq *bax* vurğunluq
EŞQNAMƏ (*aşiqanə məktub, öz eşqi, məhəbbəti haqqında yalandan uzun-uzadı danışma*) [Göyərçin:] Bu yandan da xəlvətə salıb arvadına *eşqnamə* oxuyursan (M.İbrahimov); **MƏHƏBBƏTNAMƏ** [Vaqif:] Mirzə Camal, Rum soltanına yazılmış *məhəbbətnaməni* ver görüm! (Çəmənzəminli).
eşqsiz *bax* məhəbbətsiz
1. EŞİTMƏK Zərnigar, qardaşının hirsli səsini *eşitdi:* "Beşaçıları doldurub damın üstündə gözləyəcəyəm. Kimin hünəri varsa, oynatsın!" (İ.Şıxlı); **QULAĞI ÇALMAQ** Bu sözləri Şamonun *qulağı çaldı* (S.Rəhimov).
2. EŞİTMƏK, SÖZƏ BAXMAQ
3. eşitmək *bax* bilmək **2**
4. eşitmək *bax* dinləmək
eşşək *bax* **1.** ulaq; **2.** qanmaz
eşşəkqulaq *bax* uzunqulaq **I**
etibar *bax* inam; vəfa, sədaqət
1. ETİBARLI (*etibar edilməyə layiq*) [Muxtar:] Qorxmaz *etibarlı* oğlandır (Ə.Vəliyev); **ETİMADLI** Məktub Zəhir Bəlxinin ən *etimadlı* olan qulamı Bəsirə tapşırıldı (M.S.Ordubadi); **İNANILMIŞ** Babamı tutub əl-qolunu bağladılar, kəcavəyə mindirdilər, *inanılmış* adamlardan ibarət keşikçi qoydular.. ("Qabusnamə").
2. etibarlı *bax* nüfuzlu
3. etibarlı *bax* vəfalı
etibarlılıq *bax* vəfalılıq
etibarnamə *bax* vəkalətnamə

ETİBARSIZ (*etibarı olmayan*) Etibarı kəsib *etibarsız* yar; Əl qaldırıb özgə yarə yalvarır ("Lotif şah"); **BİETİBAR** [Nisə xanım:] Bəs olsa da, amma *bietibardır*.. (M.F.Axundzadə); **İPİQIRIQ** (*dan.*) Son demə iyrəncmiş *ipiqırığın:* Elə tərifi də tənqidi qədər (X.Rza); **ZATIQIRIQ** [Teyyub:] *Zatıqırıq* imiş də. Xətir-hörmət bilən, böyük-kiçik tanıyan deyilmiş (Anar); **KƏMETİBAR, VƏFASIZ** (*bax*).
etika *bax* oxlaq
ETİKET, YARLIQ
1. ETİQAD (*bir din və məzhəbə inanma*) Mən elə hacı tanıyıram ki, özünün heç bir zada *etiqadı* olmaya-olmaya Məkkəyə müşərrəf olur (Ə.Qəmküsar); **İMAN** Alıbsan əlimdən din-*imanımı;* Müştaq eyləyibson ay üzə, üzə (Aşıq Ələsgər); **İNAM** (*bax*).
2. etiqad *bax* əqidə **1**
etiqadlı *bax* əqidəli
etiqadsız *bax* əqidəsiz
etimad *bax* inam
etimadlı *bax* etibarlı **1**
ETİNASIZ (*fikir vermədən, diqqət yetirmədən*) Qadın olduqca vüqarlı və *etinasız* bir surətdə gedir və Fəxrəddinin onu təqib edibetməməsinə diqqət vermirdi (M.S.Ordubadi); **KƏMETİNA** Həmişə *kametina* Zeynal bu gecə hər şeyə diqqətlə baxıb, hər bir həniriyə məna verməyə başladı (Çəmənzəminli); **KƏMMƏHƏL** Xubların yaxşısı olmaz *kəmməhəl;* İşarə edən tək gəlir əlbəəl (Q.Zakir); **SAYĞISIZ** [Platon:] İştə gördünmü? *Sayğısız* budala! (H.Cavid).
ETİNASIZLIQ Dara qocanın *etinasızlığına* və heyvanın ona sığınmasına heyrət edərək hiddətlə: – Qoca! – deyir, – sən kimsən? (Çəmənzəminli); **KƏMETİNALIQ** [Molla Zeynala:] Sənin heç ixtiyarın yoxdur bu barədə *kəmetinalıq* eləyəsən (C.Məmmədquluzadə); **SAYMAZLIQ** Ağca qarıya ərinin bu *saymazlığı* elə ağır gəldi ki, o dözməyib yerində qaldı (Ə.Əbülhəsən); **KƏMMƏİHƏLLİK.**

ETİRAF (*boynuna alma, təsdiq etmə*) Ən böyük ürəklər qəlbin dililə; Ömrün son çağında *etiraf* yazmış (B.Vahabzadə); **İQRAR** Aşinalar ixtilatında sədaqət görmədim; Bioti *iqrarü* imanü dəyanət görmədim (M.P.Vaqif).
ETMƏK/ELƏMƏK Nə *etmişəm,* yarım məndən ayrıdır? (Qurbani); **QAYIRMAQ** [Mahmud:] Yetər, yaxşısanmı, kefin necədir, nə *qayırırsan,* nə *eləyirsən?* (N.Vəzirov); **QILMAQ** (*köhn.*) Vaqifin dərdini biləydi yarı; Dərdinə bir dərman *qılaydı,* barı (M.P.Vaqif); **TÖRƏTMƏK** Göyərçin keçən axşam *törətdiyi* hərəkətdən sonra Safo evini uçurub dağıtmağı.. qət etmişdi (S.Rəhimov); **TUTMAQ** [Çoban baba:] Ay Rüstəm; .. bu nə işdir *tutmusan?* (M.İbrahimov); **YAPMAQ** (*köhn.*) [İsmət:] Get, nə *yaparsan* yap, çəkil get, durma! (H.Cavid).
1. EV Bura Qəzənfərgilin *evi* idi (S.Vəliyev); **DAM-DAŞ** [Kiçik oğlanın] qabağına bir gözəl *dam-daş* çıxdı ("Üç şahzadə" nağılı); **DƏMXANA** (*köhn.*) Axşam oldu, gəldim mən *dəmxanama*... ("Aşıq Qərib"); **GORGAH** (*dan.*) [Gültəkin:] Harada ömrün xoş keçirsə, yuvan da, məskənin də, *gorgahın* da oradadır (Ə.Vəliyev); **XANƏ** (*dan.*) [Molla Qafar:] Mən ki, bu *xanənin* xeyirxahı olduğumu xudavənd özü bilir (S.Rəhimov); **XARABA** (*dan., öz evi*) [Çopur Abdulla:] Hara gedib. Əvvəl-axır o *xarabasına* qayıdacaq, ya yox (H.Abbaszadə); **VİLLA** (*dabdabəli ev*) Burada çox gözəl *villalar* tikilmiş, həyətlər, bağçalar səliqəyə salınmışdır (M.İbrahimov).
2. ev *bax* **1.** bina; **2.** mənzil; **3.** ailə
evaltı *bax* zirzəmi
EVLƏNDİRMƏK Sona xanımın bircə dərdi vardı, o da oğlunu *evləndirmək* idi (S.S.Axundov); **BAŞ-GÖZ ELƏMƏK** (*fr.v.*) [Dursun:] Axı bizim öhdimiz vardı, biz sizi *baş-göz eləmək* istəyirdik (Ə.Əbülhəsən).
EVLƏNMƏK [Rübaba:] Oğul sənin *evlənmək,* özünə ömür yoldaşı tapmaq vaxtın çatır (H.Abbaszadə); **AİLƏ QURMAQ** [Petya Həmidə:] O əyləncələrin axırı yox-

dur, özünə layiqli bir ömür yoldaşı seç, *ailə qur* (H.Abbaszadə); **ALMAQ** [Qəmsor:] [Şakir] kənddə dul arvad qoymadı, bir-bir *aldı*, boşadı (Ə.Yusifoğlu); **ARVAD ALMAQ** [Hacı Abdulla:] O, vaxtsız *arvad alıbdır* (N.Nərimanov); **HƏYAT QURMAQ** [Adilə Məhirəyo:] İndi isə düzünü de görüm, Camalla *həyat qurmağa* razısanmı? (Y.Şirvan); **QIZ ALMAQ** "Evlənmək" ilə "*qız almaq*" kəlmələrinin təfavütü yoxdur (Çəmənzəminli).

EVLİ (*evlənmiş, arvadı olan*) [Qafar Mansura:] Sənin oğuldan, qızdan nəyin var? Yəqin ki, *evlisən?* (H.Abbaszadə); **MÜTƏƏHHİL** (*arx.*) [Cavid:] *Mütəəhhil* olduğumu yazıb bildirmək istəyirdim, lakin nədənsə bir qüvvə məni mən edir (A.Şaiq); **BAŞIBAĞLI** (*məc.*)

EYBƏCƏR (*yaraşığı olmayan*) O, yerində titrəyir, əsir, ağzını əyir, *eybəcər* bir şəklə düşürdü (S.Rəhimov); **BƏDHEYBƏT** Talıbxanın gözündə Safə çirkin, *bədheybət* və bütün pisliklərlə dolu mazarat bir adam görünürdü (S.Rəhimov); **BƏDSİFƏT** Kitab da növ-növdür insanlar kimi; *Bədsifət*, acıdil olur bir çoxu (S.Vurğun); **BİÇİMSİZ** Qısaboylu, *biçimsiz* bir adam sol ayağını çəkə-çəkə içəri girdi (A.Şaiq); **BİRƏĞBƏT** [Mirzə Süleyman bəy:] ..Qapıdan girib çıxanda rəhmətlik atasının dalınca bir az deyinirdi və məzəmmət eləyirdi ki, niyə onun adı belə *birəğbət* imiş? (B.Talıblı); **ÇİRKİN** Qeysər sifətdən *çirkin* idi (M.Hüseyn); **ƏNTƏR** (*məc., çox eybəcər*) [Aytəmiz:] Qəssab Həsənin oğlu heç olmasa, adama oxşayır, *əntərin* biridir ki... (Ə.Qasımov); **İYRƏNC, İDBAR** (*çox çirkin*) Ağalar umuzundan; Tullayan zənci kimi; Yer üzünün yaramaz; *İdbar, iyrənci* kimi (M.Rahim); **KAFTAR** (*məc.*) [Bədircahan:] Sənin adın gələndə, a *kaftar*, Züleyxa xanımın qusmağı gəlir (N.Vəzirov); **QƏBİH** (*köhn.*) [Qazı Moşədi Məmmədvoliyo:] Gorək bizim xatirimizi mülahizə edib bunun toqsirindən keçəsən. Doğrudur, bu çox *qəbih* əməl tutub... (Ə.Haqverdiyev); **YARAŞIQSIZ** [Vahid:] Həncəri xanım, deyəsən geyimin necədirsə, tərpənişin də, danışığın da elədir: çolimsiz, *yaraşıqsız* (M.İbrahimov); **YÖNDƏMSİZ** Kirli, dizi yamaqlı şalvarı, boynu, yaxası getmiş köynəyi, tükü seyrəlmiş qulaqlı papağı onu [Feyzini] *yöndəmsiz* göstərirdi (B.Bayramov).

eyd *bax* bayram 1
eyi *bax* yaxşı 1
eyib *bax* nöqsan 1
eyilik *bax* yaxşılıq
eymənmək *bax* qorxmaq
eyn *bax* göz 1
eynək *bax* çeşmək
eynəkli *bax* çeşməkli
EYNİ, OXŞAR, TAY, BƏNZƏR
eyniləşdirmək *bax* oxşatmaq
eyniləşmək *bax* oxşamaq 1
eynilik *bax* oxşarlıq
eyniyyət *bax* oxşarlıq
eyş *bax* kef 1
eyş-işrət *bax* kef 1

EYVAN (*evin, otağın qabaq və yan tərəfində binaya bitişik olan yer*) Məcid əlində ov tüfəngi *eyvanda* görünür (H.Abbaszadə); **ARTIRMA** Gülabətin ancaq indi otaqla həyətin arasındakı balaca qaranlıq *artırmadakı* taxta kürsünü, üstündəki sabunlanmış paltarla dolu tası, yanındakı isti su buğlanan iri qazanı, yerdəki yuyulmamış paltarları gördü (M.İbrahimov); **BALKON** Ev sahibi *balkonda* stol qoyub, çay süfrəsi saldı (Mir Cəlal); **SEYVAN** *Seyvanın* qur ucada; Kor möhtac quru cada; Gülgözün göz yaşından; Qalmadı quru cada (Bayatı); **VERANDA** Qəmər *verandanı* səliqəyə saldıqca mahnının sözlərini təkrar edir (S.Rəhimov).

Ə

əbd *bax* qul 1 1
əbəçi *bax* mamaça
əbəd *bax* əbədi
əbədə *bax* əsla
əbədən *bax* əsla
ƏBƏDİ (*daimi mövcud olan, daimi yaşayan*) [Təlio:] Mənco *əbədi* qalan şey sevginin özü deyil, onun unudulmaz xatirələridir (M.S.Ordubadi); **ƏBƏD** Oxuyun, millətin nicatı olun; Ta *əbəd* baisi-həyatı olun (M.Ə.Sabir); **ƏBƏDİYYƏN** [Qızın] gözləri ilk baxışdan *əbədiyyən* hafizəmdə nəqş olunmuşdur (Ə.Məmmədxanlı); **HƏMİŞƏLİK** Onlar ya bu saat əbədi birləşməli, ya da ki, *həmişəlik* ayrılmalı idilər (Ə.Vəliyev); **ÖMÜRLÜK** [Eyvaz:] Başqası boşandığı adamla *ömürlük* düşmən olur... (B.Bayramov); **DAİMİ** (*bax*).
əbədiyyən *bax* əbədi
əbədiyyət *bax* əbədi
ƏBƏS, NAHAQ *Nahaqdır, əbəsdir* yalvarışların; Başqa bir dilbəro vermişəm könül (S.Rüstəm); **BİCA** [Sara:] Atam üçün qüssə edəcəyimdən qorxursansa, o da *bicadır* (C.Cabbarlı); **BİHUDƏ** Yasəmənin iztirabı *bihudə* deyilmiş... (S.S.Axundov); **BOŞ** *Boş* danışıqdan nə çıxar, ay bala? (M.Ə.Sabir); **BOŞ-BOŞUNA** Bu vəfasız ömür, bu coşqun dərə; Gərək *boş-boşuna* axıb getməsin (M.Müşfiq); **HAVAYI** (*dan.*) [Çingiz İldırım:] Yoxsa *havayı* danışıqlarla düşmən ifşa etmək mümkün olmaz (Ə.Vəliyev); **HƏDƏR** Fırıldaqlıq, hiylələr; Gördü *hədərdir, hədər* (B.Vahabzadə); **MƏNASIZ** (*məc.*) Nəyə gərək bilmirəm; Bu *mənasız* suallar?! (B.Vahabzadə); **YERSİZ** (*dan.*) Kamil burada da ona nəsihət verməyin *yersiz* olduğunu başa düşüb soruşdu: Niyə gülürsən? (Y.Şirvan).
əbəveyn *bax* valideyn
əbləğ *bax* ala-bula
əbləh *bax* səfeh
əbləhlik *bax* səfehlik
əbr *bax* bulud
əbru *bax* qaş 1

ƏCAİB (*çox qəribə, çox təəccüblü*) Sevda zirvələrindən; Bu *əcaib*, qəribə; Otağa endi Nigar (Ə.Kərim); **ƏCİBƏ** [Bəhram:] Bilmirəm necə *əcibədir*, yoqin səndə bir əfsun var ki, daima cəzb edir (C.Cabbarlı).
əcaibxana *bax* muzey
əcamir *bax* lotu-potu, oclaf
əcdad *bax* ata-baba
əcəba *bax* məgər
əcəl *bax* ölüm
əcibə *bax* əcaib
əcinnə *bax* cin

ƏCLAF (*həm isim, həm də sifət kimi*) [Nağı:] Ado, mən *əclaf*, gör kimin yanında kimin sözünü danışıram?! (M.İbrahimov); **ALÇAQ** (*məc.*) [Gülabətin:] ..Sən xainsən, adam satansan, *alçaqsan!* (M.İbrahimov); **DƏNİ** (*köhn.*) Böyüklərin işi deyil, deməli; *Dənidən* betərdir feli, əməli (Q.Zakir); **ƏCAMİR** (*köhn.*) [Soslor:] Hamısı babi, hamısı Qafqazın *əcamir*, ovbaşı, lotu-potulardır (M.S.Ordubadi); **ƏDNA** (*kl.əd.*) [Şeyx Hadi:] Səfil, *ədna!*.. (H.Cavid); **XƏBİS** [Həmid:] Həmişə *xəbislərin* axırı belə olur... (H.Abbaszadə); **NAMƏRD** [Ələkbər:] Özüm bura qayıtmaq istəmirdim ki, o *namərd* arvadı gözüm görməsin (B.Bayramov); **OĞRAŞ** (*dan.*) [Feyzi Muxtara:] Arvaddan qorxan *oğraş*, son ələsən, kölləni qarpız kimi şaqqalaram! (B.Bayramov); **RƏZİL** De mənə nə istəsən; Mən *rəziləm*, alçağam! (Ə.Kərim); **YARAMAZ** Sən yeri goldikco qamçıla şair; Duyğusuz, *yaramaz* yekəbaşları (M.Rahim).

ƏCLAFLIQ [Davud:] ..Sonin dalınca o vaxt adam saldırmasını boynuna almasa da, görərdi ki, *əclaflığından* çoxu xəbərdardır (H.Abbaszadə); **ALÇAQLIQ** (*məc.*) ..Sələm dünyada hər bir *alçaqlıq* edə bilər (M.İbrahimov); **XƏBİSLİK** [Murtuza Mötəbərov:] Doğma qardaşın *xəbisliyini* görəndə

olar da... (M.Hüseyn); **RƏZİLƏT** Şah qız oğurladır, *rəzalətə* bax!.. (M.Rahim); **RƏZİLLİK** [Firuz:] O ohvalatdan neçə il keçsə də, yadımdan çıxmır, yaşa dolduqca öz bağışlanmaz səhvimi, yox bunu səhv adlandırmaq olmaz, *rəzilliyimi* dərk edirəm (H.Abbaszadə).

1. ƏCNƏBİ (*başqa ölkənin vətəndaşı*) [Sədof:] Kişi *əcnəbilərin* haqsızlıqlarını görüb onlarla mübarizə aparır, mən də ona kömək edirdim (S.Vəliyev); **XARİCİ** *Xaricilər* nə bilsin ki, sən ərəb gəncisən; Ağlar bağıracaqlar ki, sən qarasan, zəncisən (M.Rahim).

2. əcnəbi *bax* xarici **1**

əcr *bax* **1.** qarşılıq; **2.** cəza

əcz *bax* acılık, zəiflik

əcza *bax* dərman **1**

əczaçı *bax* aptekçi

əczaxana *bax* aptek

1. ƏDA (*özünü aparma tərzi, hərəkət tərzi*) Bir zamanlar *ədası* yerə-göyə sığmayan, qadın nədir ki, ona da yalvarasan... (Ə.Qasımov); **FORS** (*dan.*) [Əhməd:] Aslan bəy hərgah bir kəsə bir qapik versə, onu *fors* üçün verir (N.Vəzirov); **FASON** (*məc.*).

2. əda *bax* naz **1**

ƏDABAZ Uşaqkən *ədabazdım;* Böyüdüm, xudbin oldum? (B.Vahabzadə); **ƏDALI** [Natiq] cib yaylığını çıxarıb ağız-burnunun suyunu, alnının tərini sildi, eyləşənlərə *ədalı* nəzər saldı, görkəmini ciddiləşdirdi.. (Ə.İldırımoğlu); **FORSLU** Ah, bu *forslu* xanım nə acıdildir!.. (M.Müşfiq); **TƏKƏŞ** [Göyərçin:] Hamısını da aparıb *təkəş* qardaşına yedirdir (S.Rəhimov).

ƏDALƏT Dünyada haqq və *ədalət* olmasına inanırdım (Çəmənzəminli); **ƏDL** Get, zülmündən qurtarıb məmləkət indi; Zülm ilə abad olan *adl* ilə bərbad oldu (B.Vahabzadə); **HAQQ-ƏDALƏT** Bir işıqlı dünya var; *Haqq-ədalət* dünyası (Ə.Cəmil); **HƏQQANİYYƏT** [Məhərrəm:] Mən *haqqaniyyət* tərəfdarıyam (C.Cabbarlı); **İNSAF** Ancaq *insaf* tələb edir ki, Mina xanımın bütün bunlara davam gətirdiyini, hətta çox zaman qalib çıxdığını da deyəsən (M.İbrahimov); **VİCDAN** Vətən torpağının qəhrəman oğlu; Sənin vicdanın da, qüvvətin də var (S.Vurğun).

ƏDALƏTLİ [Ərəstu:] Ey *ədalətli,* möhtərəm xaqan! Nə gərək bu döyüş, bu fitnə, bu qan? (A.Şaiq); **ADİL** Səbr elə, dərdə dəz, *adildir* qoni (M.Rahim); **İNSAFLI** [Vəli bəy:] Çox insaflı adamsan... (S.S.Axundov); **VİCDANLI** Həyat *vicdanlı* və namuslu adamı mübarizlər cərgəsinə çıxarmışdır (S.Rəhman).

ƏDALƏTSİZ (*ədalətə, haqqa və insafa riayət etməyən*) [Bağır:] İkimizik də, bir Süsən, bir mən. İki adama üç otaq, *ədalətsiz* olardı (Anar); **HAQSIZ** Anasının yaşlı gözləri, hər gün *haqsız* cəzalanması, ona (Səfərə) hər şeyi, hətta nişanlısı Zəhranı belə unutdurmuşdu (A.Şaiq); **NAHAQ** [Həmzə:] İndi guya biz *nahaq* danışırıq də? (C.Cabbarlı); **VİCDANSIZ** [Molla Tutu:] Fəqət ərinin *vicdansız* bir hərif olmağını da çox yaxşı bilir idi (N.Nərimanov); **İNSAFSIZ.**

ƏDALƏTSİZLİK Bu *ədalətsizlik* gərək Heybətin özünü qəzəbləndirəydi (M.Hüseyn); **HAQSIZLIQ** Onun [Əhmədin] qəlbində bütün bu *haqsızlığa* qarşı bir üsyan alovlandı (M.Hüseyn); **NAHAQLIQ** [Məhərrəm:] Bu *ədalətsizlik* deyilmi? *Nahaqlıq* deyilmi? (C.Cabbarlı); **İNSAFSIZLIQ.**

ədalı *bax* **1.** ədabaz; **2.** nazlı

ƏDAVƏT (*düşmənçilik hissi*) Yenidən başlanan bu *ədavət,* bir gün ara verdi (M.Hüseyn); **DÜŞMƏNÇİLİK** Ruhlarımızı, ürəklərimizi birləşməyə qoymayan ədavət, *düşmənçilik,* nifaq yaradan sədlər dağılacaq (M.İbrahimov); **XÜSUMƏT** (*köhn.*) [Bakı xanı:] Quba xanı və Alimərdəbə Qarabağ hökmdarı arasında baş vermiş *xüsumətin* bica... ümmoti islamə yarayamayan bir iş olduğunu... (Çəmənzəminli); **QANLILIQ** (*dan.*) Camaat arasında *qanlılıq* düşürdü (H.Sarabski); **QƏSD-QƏRƏZ** (*dan.*) [Odabaşı:] Mənimlə *qəsd-qərəzin* var (Ə.Haqverdiyev); **KİN** (*bax*); **ZİDDİYYƏT, ZİDLİK.**

ədəb *bax* tərbiyə **1**; qanacaq **1**

ədəbli *bax* qanacaqlı, tərbiyəli

ƏDƏBSİZ [Məsum Mürüvvətli:] Xahiş eləyirəm ki, haqsız yerə məni hörmətdən salan *ədəbsiz* qadını intizama dəvət eləyəsiniz (Ə.Vəliyev); **BİƏDƏB** [Reyhan:] Bunu da çıxart evdən, *biədəb* biqabiliyyət şeydir (M.İbrahimov); **NƏZAKƏTSİZ, TƏRBİYƏSİZ** (*bax*).

ƏDƏBSİZLİK [Töhrə:] Mən isə deyərdim, qurusun o dillər ki, *ədəbsizlik,* oxlaqsızlıq yayır... (M.İbrahimov); **BİƏDƏBLİK** [Bala Sultan:] Mən bu tövr *biədəbliyi* sizdən əsla gözləmirəm (C.Məmmədquluzadə); **HÖRMƏTSİZLİK** (*bax*); **NƏZAKƏTSİZLİK** (*bax*).

1. ədəd *bax* say **1**; **2.** rəqəm **4**

2. ədəd *bax* dənə **1**

ədəcə *bax* lupa

ədib *bax* yazıçı

ədl *bax* ədalət

ədna *bax* əclaf

ədu(vv) *bax* düşmən **1**

əfal *bax* fərsiz, bacarıqsız

əfkar *bax* fikir **2**; rəy **1**

1. ƏFSANƏ [Nizami:] ...Xalqımızın şüurunu yalnız məzhəb və təriqət mübahisələri ilə deyil, xalqların həyat və siyasət tarixini tərif edib *əfsanə* şəklinə salmaq vasitəsi ilə də korlamışlar (M.S.Ordubadi); **FANTAZİYA** Yadına Xürrəm müəllimin sözləri düşdü. "Nənələrin, xalaların barmaqlarında min sehr var, onların *fantaziyasına* adam mat qalır" (İ.Məlikzadə); **MİF** *Miflər,* əfsanələr və nağıllar məhz bu zəmində meydana gəlmişdir (M.Məmmədov).

2. əfsanə *bax* yalan

ƏFSANƏVİ (*əfsanəyə aid olan*) Qiyamət günü guya o qalxanda ayağa; Çubuqlar dönəcəkmiş *əfsanəvi* dayağa (M.Rahim); **ƏSATİRİ** Əcəb *əsatiri* musiqidir bu; Salır simfoniyası ürəyə qorxu (Şəhriyar); **FANTASTİK** Orada təbiət və cəmiyyət hadisələri *fantastik* formada şərh olunur və aydınlaşdırılır (M.C.Məmmədov); **MİFOLOJİ** Xalq poeziyamızda da bu ad başqa *mifoloji* və ədəbi obrazlarla bir sırada mətanət və igidlik rəmzi kimi daxil olmuşdur (Anar); **MİFİ, MİFİK.**

əfsəl *bax* lazımsız

əfsər *bax* **1.** zabit; **2.** tac **1**

əfsun *bax* cadu **1**

ƏFSUS(Kİ) *Əfsus* qocaldım, ağacım düşdü əlimdən (M.Ə.Sabir); **HEYİF(Kİ)** [Yolçu:] Ancaq *heyif ki,* kim olduğunu bilmirəm (S.Rəhimov); **HEYHAT** Xəlq dərlər ki, səfa çoxdu qorədə, *heyhat;* Bəs nədir bunca o geysuyi-müənbərdə sofa (S.Ə.Şirvani); **TƏƏSSÜF(Kİ)** [Firongiz:] *Təəssüf ki,* ona mənim nə gücüm çatar, nə də ixtiyarım (B.Bayramov).

ƏFV, BAĞIŞLAMA, GÜNAHINDAN KEÇMƏ, GÜZƏŞT ETMƏ

ƏFV-ÜMUMİ Bunu eşitmiş olan zəhmət kommunasının uşaqları gözlərini qorardan ayırmayıb çaşqın bir sevinc içində *əfvi-ümumi* maddələrini oxuyurdu (A.Şaiq); **AMNİSTİYA** [Bəhmən:] Darıxma, Xəlil. Üroyimə damıb ki, burdan tez çıxacaqsan. Görərsən, üzümüzo gələn bayramların birində hökumət *amnistiya* verəcək (İ.Məlikzadə).

əfyun *bax* tiryək

əfyunçu *bax* tiryəkçi

ƏGƏR *Əgər* görünməsə bulaq başında; Rahim yaz adını çeşmə daşında (M.Rahim); **GƏR** (*kl.əd.*) *Gər* boyandısa döyüşdə qana torpaq, qana yurd; Bir də yad tapdağı olmaz ana torpaq, ana yurd (S.Rüstəm); **HƏRGAH** (*köhn.*) [Cobi:] Sən eləsən *hərgah* bu söhbəti Bədirnisə xalam eşitsə, sonin bığında bir tük qoymaz qala (N.Vəzirov); **HƏYƏ** (*məh.*) *Həyə* gəlsə, mən də gedərəm (ADDL).

əgərçi *bax* hərçənd

əhali *bax* **1.** xalq **1**; **2.** sakin **1**

1. ƏHD (*təntənəli vəd; söz vermə*) [Teymur ağa:] Mənim hərgiz onun *əhdinə* etibarım yoxdur (M.F.Axundzadə); **ƏHD-PEYMAN** Ay qız, ay qız, amandı; Əlində zəfərandı; *Əhd-peyman* eləmişik; Bu gün vədən tamamdı (Bayatı); **İLQAR** Bivəfanın, müxənnəsin, nakəsin; Doğru sözün, düz *ilqarın* görmədim (M.P.Vaqif); **PEYMAN**

Nədən ləğv oldu *peymanlar:* Verildi odlu fərmanlar (M.Ə.Sabir).

2. əhd *bax* müqavilə

ƏHƏMİYYƏTLİ (*əhəmiyyəti olan*) Akademiya söbəsinin bu sahədəki təşəbbüsü çox *əhəmiyyətlidir,* ancaq gənc qüvvələrin hazırlanmasına ayrıca diqqət verilməlidir (Çəmənzəminli); **MÜHÜM** [Surxay:] Əslinə qalsa, Zalxa xala sizə bir *mühüm* söz demək istəyirik, amma qorxuruq (S.Rəhman).

əhl *bax* **1.** yiyə; **2.** sakin **I**

əhli-beyt *bax* ailə

əhli-dərd *bax* dərdli

əhli-əyal *bax* ailə

əhli-kamal *bax* ağıllı

əhli-kef *bax* kefçil

əhli-qələm *bax* savadlı

ƏHLİLƏŞDİRMƏK (*vəhşi heyvanı əl öyrətmək*) İnsan... vəhşi çəki balığının təbiətini dəyişdirmiş və onu *əhlilaşdirmişdir* ("Zoologiya"); **RAM ELƏMƏK** Kərim bir neçə ildən sonra onu [atı] tutub öyrətdi, özünə *ram elədi* (M.Hüseyn); **ƏLƏ ÖYRƏTMƏK.**

əhli-mərifət *bax* qanacaqlı

əhli-savad *bax* savadlı

əhli-sənət *bax* sənətkar **I**

əhli-ürfan *bax* ziyalı **I**

əhməq *bax* səfeh

əhməqlik *bax* səfehlik

əhmər *bax* al **I**

əhsən *bax* afərin

ƏHVAL Onlar bizim *əhvalımızı* soruşmağa başladılar (C.Məmmədquluzadə); **ƏHVALİ-RUHİYYƏ** [Yunis:] Biz onlara təsəlli verməliyik, *əhvali-ruhiyyələrini* qaldırmalıyıq (X.Həsilova); **HAL** Görür ərbabiqələm qayeyi-amalımızı: Məndən artıq yaza bilməkdə ikən *halımızı.* (M.Ə.Sabir); **KEF** [Şahqulu:] ..a kafir oğlu, bəyimizin *kefi* necədir? (N.Vəzirov); **MƏZAC** (*kl.əd.*) Həsən bəyin *məzacı* necədir? (A.Şaiq); **OVQAT** Kamil bu qənaətini bildirmək üçün Sabirovun yanına gələndə onun *ovqatını* çox təlx gördü (Y.Şirvan).

ƏHVALAT [Rasim:] Uşaqlıqdan atamdan eşitdiyim bir *əhvalat* yadıma düşdü (M.İbrahimov); **FƏQƏRƏ** (*köhn.*) Gülsabah gələndə bir neçə gün qabaq Muradla Göyçək arasında belə bir *fəqərə* olmuşdu (Ə.Vəliyev); **HADİSƏ** Bu *hadisədən* xatirə olmaq üçün poləngin dərisini soyub evə gətirdim (A.Şaiq); **QƏZA** Əgər bir kəsin belə bir *qəza* başına gəlsə, durmuyub gəlsin mənim yanıma (C.Məmmədquluzadə); **VAQİƏ** Dünya hadisələri... insanları hər gün yeni bir *vaqiə* qarşısında buraxardı (M.İbrahimov); **VƏQƏ** (*köhn.*) ...unudulmuş *vaqələri* hafizədən silinmiş nöqtələri zehnində canlandırmağa çalışıb, ondan bir xoşluq duyar, təsəlli tapar (Çəmənzəminli); **VÜQU** Bir qadın da... ətrafına *vüqu* bulan hər bir şeyə gözaltı baxıb diqqət yetirirdi (B.Talıblı).

əhvali-ruhiyyə *bax* əhval

ƏHVALLAŞMAQ Onlar *əhvallaşıb* dərdləşdilər (S.Rəhimov); **ƏHVALPÜRSAN OLMAQ** Biz də onlardan *əhvalpürsan olduq* (C.Məmmədquluzadə); **HAL-ƏHVAL TUTMAQ** Görüşdük. Köhnə dostlar kimi. Salamlaşdıq. *Hal-əhval tutduq* (C.Bağır); **XOŞ-BEŞ ETMƏK (ELƏMƏK)** Şirin-şirin görüşdülər, *xoş-beş etdilər* (Mir Cəlal).

əxəvi *bax* qardaş

əxəvizadə *bax* qardaşoğlu

əxi *bax* qardaş

ƏXLAQ (*mənəvi keyfiyyəti müəyyən edən etik normalar*) ..Nizaminin nəzmə çəkdiyi siyasətnaməsi isə bir *axlaq* dərsidir (M.S.Ordubadi); **AYAĞISÜRÜŞKƏN** (*dan.*) Naşad .. yeri göldikcə, Zeynalla yaxın dost olduğu halda, onun-bunun qulağına Mehribanın "*ayağısürüşkən* bir qadın" olduğunu söyləməkdən çəkinmirdi (S.Hüseyn); **ETİKA** (*axlaq normaları*) [Ziynət:] ...Biz *etika* dairəsində bir-birimizin ehtirasını saxlayan ərarvad olduq (B.Bayramov); **MƏNƏVİYYAT** (*yüksək axlaq*) Xənnas babasının hüzurunda *mənəviyyatı* pozulmuş insanların ruhunu daha ziyadə açıb göstərmək fikri ilə hiddətli bir səslə: – İnsan... (A.Şaiq); **TƏRBİYƏ** (*gözəl axlaq*) Bəzən cavanların *tərbiyəsi* ilə də məşğul olmaq lazım gəlir (H.Seyidbəyli).

1. ƏXLAQSIZ (*axlaqı pis*) [Altunbay:] O, dinsiz və *axlaqsız* bir şəfildir (C.Cabbarlı); **BƏDƏXLAQ** Oğurluqdan da *bədəxlaq* qumarbazlıqdır; Çünki bu firqədə onlar kimi cürət yoxdur (M.Ə.Sabir); **BƏDƏMƏL** Görəsən hansı *bədəməllərin* oduna yanırıq? (C.Məmmədquluzadə); **LƏVƏND** (*dan. adətən söyüş kimi işlənir*) [Usta Zeynal:] Niyə mümkün eliyə bilmirsən, ey *ləvənd?* (C.Məmmədquluzadə); **POZĞUN** [Səlimə:] Əlimdən çıxıb qaçdı, sən ağlına gətirməzsən ki, o nə qədər *pozğun* adam imiş... (Ə.Qasımov); **YAVA, FAHİŞƏ** (*bax*).

2. əxlaqsız *bax* tərbiyəsiz

ƏXLAQSIZLIQ [Məhəmməd:] ..odur ki, ölkəmizi *axlaqsızlıq* bürümüşdü (M.S.Ordubadi); **FİSQÜ-FİCUR** *Fisqü-ficur* həddən aşıb Şişədə; Erkəyi, dişisi yaman peşədə (Q.Zakir); **FİSQ** (*köhn.*) *Fisq* imiş ömrün tamam, ay barakallah sənə!.. (M.Ə.Sabir); **BƏDƏXLAQLIQ, FAHİŞƏLİK** (*bax*), **POZĞUNLUQ, YAVALIQ.**

əxtər *bax* ulduz

ƏJDAHA (*zool.*) (*mifologiyada nəhəng bir heyvan*) Ora minbir nərdivanlı quyu olmuş bir zaman; Hər nərdivanda yuxlayır bir *əjdaha,* bir ilan (A.Şaiq); **ƏJDƏR** O zülfün olsa əlimdə nə bakim *əjdərdən* (A.Şaiq).

əjdər *bax* əjdaha

əkin *bax* səpin

ƏKİNÇİ [Vəliş:] Mən ömrüm boyu *əkinçi* olmuşam (Ə.Vəliyev); **CÜTÇÜ** *Cütçü* babasan, buğdanı ver, darı yeyərsən.. (M.Ə.Sabir); **RƏNCBƏR** (*köhn.*) [Molla Xəlil] gərək adi bir *rəncbər* kimi xışın dəstəsindən yapışsın, əkinçiliyə başlasın (S.Hüseyn); **FƏLLAH** (*köhn.*) [Cəlalın] atası pambıq tarlasında *fəllah* idi (S.Vəliyev).

1. ƏKİNÇİLİK (*əkin əkib biçmə işi*) [Qarabirçək:] Dədən rəncbər, peşəsi *əkinçilik* (Ə.Vəliyev); **RƏNCBƏRLİK** [Rəhman:] Mənim atam Səfərəlinin elə bir parça yeri də olmamış, Həsənqulu ağaya *rəncbərlik* edərək min məşəqqət ilə öz ailəsinə çörək qazana bilmişdi (S.S.Axundov); **CÜTÇÜLÜK.**

2. ƏKİNÇİLİK Bu kəndin əhli *əkinçilik* və maldarlığa məşğul olardı (S.S.Axundov); **KƏND TƏSƏRRÜFATI** [Məlahət:] Bax, bizim zavod *kənd təsərrüfatı* maşınları üçün ehtiyat hissələri hazırlayır (Ş.Qurbanov); **ZİRAƏT** (*köhn.*) Kəndimdə *ziraətlə* də bir zad ola bilməz (Ə.Nəzmi).

ƏKİZ (*anadan cüt doğulan*), **QOŞA, CÜT**

əqd *bax* nikah

əqdəm *bax* əvvəl **I**

əqdəs *bax* müqəddəs

əqəliyyət *bax* azlıq

əkkas *bax* fotoqraf

I 1. ƏKMƏK Arada söz gəzirdi ki, bizim küçəmizdəki çinarları kökündən qoparıb, yerində söyüd ağacları *əkəcəklər* (M.Hüseyn); **BASDIRMAQ** Gül *basdırıb,* ağac əkən; Dünya görmüş bir qocadan; Soruşdum ki, son bilərsən; Kimindir bu tək məzar (S.Rüstəm).

2. əkmək *bax* səpmək **I**

II ƏKMƏK Bəyin fikrinə gəldi ki, aşnam məni *əkmək* istəyir (Mir Cəlal); **BAŞDAN ETMƏK** Fərzəlini *başdan etmək* üçün Kərbəlayı Həsəm xanla Hacı Sofiqulu kimi mötəbər adamların şahidliyini düzəltmək pis olmazdı (S.Rəhimov); **RƏDD ETMƏK** ..qonağı *rədd etmək* nanəciblik idi (C.Cabbarlı).

III əkmək *bax* çörək

əks *bax* **1.** zidd; **2.** fotoşəkil

ƏKSƏRİYYƏT Əmir Həşəmət özünü və Nəzmiyyəni *əksəriyyət* qazanmış fikrini ixtiyarına verməlidir (M.S.Ordubadi); **ÇOXLUQ** [Uğur:] Bizdə azlıq *çoxluğa* tabedir (İ.Əfəndiyev).

əks-həmlə *bax* əks-hücum

ƏKS-HÜCUM (*hücum edən düşmənə qarşı əks-hücum*) O ağır, qanlı ricətdən sonra, daha ağır, daha qanlı bir *əks-hücum* başlanmışdır (M.Hüseyn); **ƏKS-HƏMLƏ** Əzizboyov əsil ittihamı cavabsız qoyub *əks-həmləyə* keçdi (M.Hüseyn).

1. ƏKSİNƏ Bu barədə [Zeynal] açıq danışmaq istəməsə də, iradəsinin *əksinə* gedir, bir-bir açıb deyirdi (B.Bayramov); **BƏRƏKS** Dünya dağılsa da, pozub əlimlə; Şüurum yazana *bərəks* getməsəm (M.Rahim); **QARŞI** [Surxay:] öz dostuna *qarşı* ittihamkar mühakimələr yürüdürdü (İ.Əfəndiyev); **TƏRSİNƏ** Bu çərxi-fələk *tərsinə* dövran edir indi (M.Ə.Sabir).

2. ƏKSİNƏ (*devilənin və ya nəzərdə tutulanın tam tərsinə*) [Nizami:] *Əksinə*, dünya çox enişi-yoxuşludur (M.S.Ordubadi); **BİLƏKS** [Molək:] Lakin sizi ayırmaq deyil, *biləks*, əbədi bir eşqlə, sönməz bir məhəbbətlə qovuşdurmaq istərdim (H.Cavid); **TƏRSİNƏ** [Babakişi:] *Tərsinə*, bizdən çox Nikolayın yıxılmağına ... camaatı sevinir (S.Rəhimov); **ZİDDİNƏ** (*bax*).

1. ƏQİDƏ (*insanın mühit, həyat, varlıq haqqında düşüncə və inamı*); **ETİQAD** Bu *etiqada* baxmayaraq Pəri xalanın piyalə kimi açılmış kədərli qara gözlərinin dərinlərində bir intizarın qığılcımları yanırdı (M.İbrahimov); **MƏSLƏK** Bəzən *əqidə* də, *məslək* də, din də; Sonin atəşinə yanıb kül olur (B.Vahabzadə); **MƏZHƏB** (*köhn.*) [Molla Sadıq:] Camaat, hamınız sünnüsünüz, *məzhəbinizdən* dönməyin, şəkk eləməyin, sonra axirət dünyasında cəhənnəm oduna yanarsınız (İ.Şıxlı).

2. əqidə *bax* fikir **1**; rəy **1**

ƏQİDƏLİ, ETİQADLI, MƏSLƏKLİ

ƏQİDƏSİZ (*əqidəsi, məsləki olmayan*) [Kürd Əhməd] ...bir addım ötəzinə beş addım geri çəkilən *əqidəsiz*, etiqadsız adamlardandır (M.İbrahimov); **MƏSLƏKSİZ** Silək *məsləksizlərə*; ölkənin ayağından (X.Rza); **ETİQADSIZ.**

ƏQIQ (*qiymətli daş*) ...Hamısının barmağında qırmızı *əqiq* üzük parlayırdı (M.S.Ordubadi); **ŞƏVƏ** O gah fil sümüyü, gah da *şəvədəm*, Möhrələr göturüb qoyur deyəsən (Şəhriyar).

əql *bax* ağıl

ƏQLİ, ZƏHNİ, FİKRİ, MƏNƏVİ (*ağla məxsus olan, ağla əsaslanan*)

I ƏQRƏB (*saatda*) Divardakı saatın *əqrəbləri* isə tənbəl-tənbəl tərpənir, xarab olmuş kimi güclə hərlənirdi (Ə.Qasımov); **ŞÜMARƏ** (*köhn.*) Saatı çıxardım qoyum stolun üstünə ki, görüm, saatın *şümarələri* nə vaxt gəlib 3-ün üstündə duracaqdır... (C.Məmmədquluzadə).

II ƏQRƏB (*zool.*) (*zəhərli həşarat*) Birca saat gec gələndə bu gənc həkim otağa; Sanmışam ki, yerimişdir ilan, *əqrəb* yatağa (M.Rahim); **ÇƏNBƏRQUYRUQ.**

1. ƏL (*qolun biləkdən dırnaqlara qədər olan hissəsi*) *Əlində* körpəni oynadır qarı; Göstərir uzanan dilsiz yolları (S.Vurğun); **DƏST** (*ərx.*) Mənim sınıq könlüm ona indilər; Saqinin *dəstindən* bir cam al, istər (Aşıq Abdulla); **CƏNG** (*kl.əd.*) Kəndlilər bu xeyir işi alqışlayaraq anladılar ki, Hümmətolinin *cəngindən* qurtarmaq zamanı hələ gəlməmiş (S.S.Axundov); **PƏNCƏ** Keçdi *pəncəmizə* gözəl Qarabağ; Öpsün qılıncımı hər qaya, hər dağ (S.Vurğun).

2. ƏL (*nərddə, qumarda və s. oyunlarda*) [Nəbi Cəbiyo:] Son İap qarı qumarbaz imişsən. Onda mənlə bir *əl* qonçuna oynamaqda necəsən? (S.S.Axundov); **PARTİYA** [Covannı.] Sən apardın, Cavanşiro. Bir *partiya* da oynayaq? (H.Abbaszadə).

3. əl *bax* dəfə

1. ƏLA [Şeyx Hadi:] Sizin imanınızdan övladır; Haqq bilir, həm də min qat *əladır* (H.Cavid); **ÇOX GÖZƏL** [Fəxrəddin bəy:] *Çox gözəl* gecə keçib, get rahat ol (N.Vəzirov); **ÇOX YAXŞI** [Məstoli şah:] *Çox yaxşı*, indi mən bu saatda, xanım, sizin gözünüzün qabağında Parisin heykəlin bərpa edib, burada onu pozacağam (M.F.Axundzadə); **YAĞ KİMİ** (*məc. dan.*) [Sədr:] Sizin sağlığınıza, yoldaş Qaradağlı, işlər *yağ kimi* gedir (B.Bayramov).

2. əla *bax* beş

1. ƏLAC (*ağlabatan tədbir*) [Salamov:] Danışma, özünü ver dağ yoluna, ayrı *əlac* yoxdur (S.Rəhman); **ÇARƏ** Ağıllı adamlar seçib onun hüzuruna göndərək və dərdimizə *çarə* istəyək (S.S.Axundov); **DƏRMAN** (*məc.*) Oğlanı dərd apardı; *Dərmanı* qızda qaldı (Bayatı); **TƏDBİR, VASİTƏ.**

2. əlac *bax* dərman **1**; müalicə

3. əlac *bax* tədbir

ƏLACLI (*əlacı, dərmanı olan*); **ƏLACPƏZİR** (*köhn.*) [Mirzə Mahmud:] Azarım *əlacpəzir deyil* (Çomənzominli); **MÜALİCƏPƏZİR** ...Bunun da dərdi *müalicəpəzir* olan surətdə, o da öz məsləhətinizdir (C.Məmmədquluzadə); **MÜALİCƏ OLUNAN.**

əlacpəzir *bax* əlaclı

1. ƏLACSIZ (*əlacı olmayan*) Heç yerdə ədalət burdakı qədər gücsüz, *əlacsız* olmamışdı (Mir Cəlal); **LAƏLAC** Axırı *laəlac* qalıb, özündən, özgədən on-on beş manat tədarük edib, Məmmədhəsən omi bir ulağ aldı (C.Məmmədquluzadə); **BİƏLAC** [Cahangir bəy:] ...indi o ümidlərim də kəsilib, qalmışam naçar, *biəlac*... (N.Vəzirov); **ÇARƏSİZ** Mən susur, *çarəsiz* qalıb darıxa-darıxa Davuda qulaq asır, arabir də təəssüflə başımı tərpədirdim (H.Abbaszadə); **ÇARNAÇAR** [Porviz:] Biz *çar-naçar* gedib yatdıq (M.İbrahimov); **LABÜD** Axırı *labüd* qalıb dedim: – Canım, sabahadək gözlə, teleqram vurum, pul gəlsin (Ə.Haqverdiyev); **NAÇAR** Görürsən ki, bu günün *naçarı* neçə gündən sonra qeyri bir dərdə mübtəlanın qolundan tutub, əncəm üçün bu yerlərə sofa tapmağa gətiribdir (B.Bayramov); **NAƏLAC** [Kərbəlayı Məhəmmədvəli:] Çünki yolda sovqatımı əngələ saldılar, *naəlac* qalıb bu qəndi aldım ki, ağa özünə mürəbbə bişirtsin (N.Vəzirov).

2. əlacsız *bax* sağalmaz

1. ƏLAQƏ (*bir-biri ilə bağlılıq olma, münasibəti yaxınlıq*) [İlyas:] Rica edirəm, mənə olan *əlaqəniz* dostluq *əlaqəsi* çərçivəsindən kənara çıxmasın (M.S.Orduhadi); **İRTİBAT** Məruf bir zat Azərbaycana gəldi, qeyri-rəsmi bir *irtibat* yaratdı (M.İbrahimov); **MÜNASİBƏT** (*məc.*) Ancaq onların arasındakı *münasibət* salamlaşmaqdan uzağa getmədi (H.Abbaszadə); **RABİTƏ** O, Cənubi Azərbaycanda səfərbərlik etdi, çünki Şimalın Cənubla olan qardaşlıq *rabitələri* möhkəm deyildi (M.S.Ordubadi); **ÜNSİYYƏT** Nə bais oldu ki, tez kəsdi məndən *ünsiyyət*; Qərarü sobrü təvan etdi Natəvan tərkin (Natəvan).

2. ƏLAQƏ, CİNSİ YAXINLIQ

3. əlaqə *bax* rabitə **1**

4. əlaqə *bax* aidiyyət

ƏLAQƏDAR İşin mahiyyəti isə rusların Terek çayına körpü salıb, dağlardan yollar açıb, Tiflisə gəlməsi ilə *əlaqədar* idi (Çomənzominli); **VABƏSTƏ** Bu iş *vabəstədir* hop ittihadə; Deyil *vabəstə* ağrazü inadə (M.Hadi); **BAĞLI** [Səfərəli:] Ağa, xörəklərin yaxşı olmağı *bağlıdır* xorcə, xərc də *bağlıdır* nəqd pula (N.Vəzirov).

1. ƏLALTI (*əl altında işləyən, köməkçi işləri görən*) [Norgiz:] Sənin *əlaltın* öz işini yaxşı bilir (M.İbrahimov); **QUYRUQ** (*məc.*) [Zalxa:] Sən Salmanov da onunla olbirsən, sən Kərəmov da onların *quyruğusan* (S.Rəhman).

2. əlaltı *bax* xəlvətcə

1. ƏLAMƏT, ƏSƏR, İZ, QALIQ

2. əlamət *bax* nişanə

əlan *bax* indi(cə)

əlbəəl *bax* dərhal

əlbəttə *bax* əlbəttə **1**; yəqin

1. ƏLBƏTTƏ [Müsyö Jordan:] *Əlbəttə* sehrdir, mat qalmalı işdir... (M.F.Axundzadə); **ƏLBƏT** Demək olmaz dirilər tək yatıb, *əlbət* duracaq (M.Ə.Sabir); **HƏR HALDA.**

2. əlbəttə *bax* şübhəsiz **2**

ƏLBƏYAXA [Döyüşçülərdən biri:] Budur, bax, kəndə girən yolda *əlbəyaxa* döyüş başlandı... (M.Hüseyn); **DÖŞ-DÖŞƏ** [Mirhadi:] On səkkiz yaşında oğlan əjdahalarla *döş-döşə* gələn böyük pəhləvanın qabağında necə dursun? (H.Abbaszadə); **PƏNCƏ-PƏNCƏYƏ** Burda qədim babalar ayılarla, fillərlə; gəlmiş *pəncə-pəncəyə* (M.Rzaqulu-zadə).

əlbir *bax* birlikdə

əlborcu *bax* borc **I**

ƏLCƏK [Sona:] Çay hazır olanadək mən gələrəm, üzümə *əlcək* alacağam (N.Nərimanov); **ƏLLİK**.

əleyh *bax* zidd

əleyhdar *bax* müxalif, düşmən **2**

əleyhinə *bax* ziddinə

ələlxüsus *bax* xüsusilə

I ələm *bax* qəm

II ələm *bax* bayram

ələmdar *bax* bayraqdar

əlhal *bax* indi(cə)

əlhasil *bax* xülasə **1**

əlhəq *bax* doğrudan

ƏLHƏMDÜLLAH [Əşrəf bəy:] İndi *əlhəmdüllah* evi tamam elədim, bağ-bağça öz yolu ilə düzəlir (N.Vəzirov); **ALLAHA ŞÜKÜR** [Mahmud:] *Allaha şükür*, kefləri kökdür... (N.Vəzirov); **HƏMDÜLİLLAH** (*kl.əd.*) Şəhri-məlumunuzun vəzü qərarı necədir? – *Həmdülillah*, necə görmüşdüsə Nuh, oyləcədir! (M.Ə.Sabir).

əliaçıq *bax* səxavətli

əliaçıqlıq *bax* səxavət

əliəyri *bax* oğru

əliəyrilik *bax* oğurluq

ƏLİFBA [İra:] Həmid, əgər *alifbanı* öyrənmək meylin varsa dedi: – Mən sənə öyrədərəm (H.Abbaszadə); **ƏLİFBEY** (*köhn.*) [Göyərçin:] Qoy Qızqayıt işləsin, qoy hələ irəli getsin, o hələ *alifbeydir*, ona mən Quran çıxartdıracağam (S.Rəhimov); **HÜRUFAT** (*köhn.*) Sanki *hürufat* ilə düşmən bu! Dur qaçaq oğlum, baş-ayaq qandı bu! (M.Ə.Sabir); **YAZI.**

əlifbey *bax* əlifba

əlil *bax* şikəst

1. ƏLİMYANDI, ÇIXILMAZ VƏZİYYƏTDƏ, DARDA

2. əlimyandı *bax* təcili

əliuzun *bax* oğru

əliuzunluq *bax* oğurluq

əlqərəz *bax* xülasə **1**

əllamə *bax* **1.** bilici; **2.** alim **1**

əlləmə *bax* daş

əllik *bax* **1.** əlcək; **2.** qulp

ƏLÜSTÜ (*müxtəlif mənalarda*) Söz yox ki, *əlüstü* başa düşdü ki, qoca kişi elə qazının özüdür (C.Məmmədquluzadə); **ATÜSTÜ** *Atüstü* olsa da qısa bir söhbət; Dönür unudulmaz bir xatirəyə (S.Vurğun); **CƏLD** ...ağa bu sözləri eşitcək *cəld* bu qəndi aparıb qoydu yerinə və qayıdıb sağ əlini qoydu Xudayar bəyin çiyninə, sol əli ilə qapını göstərdi (C.Məmmədquluzadə); **DƏSTİ** Amma bu şəxs istəyən kimi Məhəmmədhəsən *dəsti* getdi eşşəyi çıxardıb gətirsin (C.Məmmədquluzadə); **İTİ** [Səmməd:] ..küçənin ortası ilə *iti* ötür (Çomənzəminli); **TEZ** [Xudayar bəy:] Muradbala, dur bu saat get Məşədi Əhməd dayına deyinən dədəm deyir bir *tez* Qasıməlini göndərsin bura, vacib iş var (C.Məmmədquluzadə); **YEYİN** [Qulam:] Durun bir nəfəsimi dərim. *Yeyin* gəlmişəm (C.Cabbarlı); **TƏLƏSİK** (*bax*).

əlvan *bax* rəngbərəng

ƏLVERİŞLİ [Kamil:] ..Məktubda göstərilən sahə üzüm bağı üçün ən *əlverişli* hesab etdiyim yerdir (Y.Şirvan); **MÜNASİB** Həmzə öz hərəkətini əsaslandırmaq üçün *münasib* məqam düşən kimi arvadına deyirdi... (Ə.Qasımov); **OPTİMAL.**

ƏLVİDA (*bir-birindən ayrılarkən söylənən sözlər: xudahafizləşmə*) [Şah Abbas:] *Əlvida*, ey şanım, şövkətim, izzətim, hörmətim! (A.Şaiq); **HƏLƏLİK** *Hələlik* deyirəm, təsəlli üçün; Əlvida demirəm, görüşəcəyik (N.Kəsəmənli); **XUDAHAFİZ** [Şükufə:] *Xudahafiz*, geconiz xeyrə qalsın... (Ə.Qasımov); **SAĞ OL(UN)** [Valideː] *Sağ olun* (H.Abbaszadə); **SAĞLIQLA QAL(IN)** [Mansur:] *Sağlıqla qalın*, Validə xanım (H.Abbaszadə).

əlyazısı *bax* əlyazma(sı)

ƏLYAZMA(SI), ƏLYAZISI, ORİJİNAL

ƏMCƏK Burla xatun *əmcəyini* bir sıxdı, südü gəlmədi, iki sıxdı südü gəlmədi, üçüncüdə qan qarışıq gəldi (Anar); **DÖŞ** [Rəmziyyə:] ...*döşünü* çıxarıb verdi, uşaq əmmədi, yenə də bərkdən ağlamağa başladı (A.Şaiq); **MƏMƏ** [Qadın:] *Məmələrindən* əmdiyi zəhərdir; Xəstə sənsən, xəstəlik səndən gəlir (A.Şaiq); **YELİN** (*yalnız heyvanlarda*) Tut qoyunun belini; Ələ gəlmir *yelini*; Bir doyunca görəydim; Onun sağan olini (Bayatı); **MƏMƏŞ** (*uşaq dilində*).

ƏMƏK İnsanın zinəti işdir, *əməkdir*; Onsuz nə yüksəliş, nə gələcək var (S.Rüstəm); **ZƏHMƏT** [Mənsumə:] İndi yaylaqlara sığmayan sürülər onun [Muxtarın] kimilərinin *zəhməti* ilə törəyib artıb (B.Bayramov); **RƏNC** (*kl.əd.*) [Qərib:] Gəl sən mənə izin ver, gedim öz elimin *rənci* ilə qırx kiso qızıl qazanım ("Aşıq Qərib").

ƏMƏKÇİ (*öz əməyi ilə dolanan*) Oldu döyüşlərin yaxın köməkçiləri; Böyük Vətən hərbində Bakı *əməkçiləri* (S.Rüstəm); **ZƏHMƏTKEŞ** Bununla belə o, *zəhmətkeş* adam idi (M.İbrahimov).

ƏMƏKGÜN (*əməyin hesablama vahidi*) [Qulu:] Deyirəm, Cimi, vicdanın olsun, elə elə ki, mən də sənə *əməkgün* yazanda utanıb tər tökməyim (İ.Əfəndiyev); **GÜN** (*dan.*) Xırda xala qızarmışdı. Bir *gün* zəhmət çəkib arıtdığı toxuma Mustafa *gün* yazmaq istəmirdi (Mir Cəlal).

ƏMƏKSEVƏN/ƏMƏKSEVƏR Ana sevsin, əzizləsin; *Əməksevən* balasını (M.Dilbazi); Xalqımı çox sevirəm, çox; Ona mənsub olduğum üçün yox; *Əməksevərdir* – ona görə... (H.Billuri); **İŞÇİL** [Kərim:] *İşçil* olmasına söz yoxdur (İ.Əfəndiyev); **İŞGÜZAR** [Sabirov:] O ki qaldı bu iki nəfər – *işgüzar*, sözəbaxan icraçı uşaqlardır (Y.Şirvan); **İŞLƏK** [Almaz:] Şərif çox yaxşı adam imiş ana... *İşlək*, çalışqan, xeyirxah (C.Cabbarlı); **İŞSEVƏN, ZƏHMƏTKEŞ** Nənəcan ağıllı, *işsevən*, *zəhmətkeş*, mehriban, qeyrətli bir arvad idi (N.Nərimanov); **ZƏHMƏTSEVƏN** Xalqın əksəriyyəti əməkçidir, *zəhmətsevəndir* (İ.Əfəndiyev).

I əməl *bax* **1.** iş **1**; **2.** hiylə; **3.** davranış

II əməl *bax* arzu

əməlbaz *bax* hiyləgər

əməlbazlıq *bax* hiyləgərlik

əmələ *bax* fəhlə; işçi **1**

1. ƏMƏZƏK, ARIQ (*süddən yanıq*), **CILIZ, ÖLGÜN, ZƏİF**

2. əməzək *bax* fərsiz

1. ƏMİ (*atanın qardaşı*) [Qəndab:] *Əmim* qollarımdan möhkəm yapışmasaydı, özümü maşından atacaqdım (B.Bayramov); **DAYI** (*bax*).

2. ƏMİ (*yaşlı kişiyə hörmətlə müraciət*) [Qorxmaz:] Vəliş *əmi*, deyəsən yemək xoşunuza gəlmədi (Ə.Voliyev); **DAYI** [Əsəd bəy:] Hayıf, hayıf, Dursun *dayı*, qocaldın (C.Cabbarlı); **LƏLƏ** [Çingiz:] Yox, Cəbi *lələ*, elə iş olmaz (S.S.Axundov).

əmiarvadı *bax* əmidostu

ƏMİDOSTU [Şahbaz:] *Əmidostu*, nə var, keyfin ola? (M.F.Axundzadə); **ƏMİARVADI** [Qəndab:] *Əmiarvadı* paltarlarımızı yamar, oyin-baş düzəldər, bununla da uşaqları sevindirərdi (B.Bayramov).

1. ƏMİN, ARXAYIN, QANE (*bir şeyə əmin olmuş*)

2. əmin *bax* arxayın **1**

ƏMİN-AMANLIQ, SÜLH Dünyada *sülh* var olsun; Bir də *əmin-amanlıq* (M.Rəhim); **ASAYİŞ, ƏMNİYYƏT** [Fəxrəddin:] Şəhər tamamilə *asayiş* və *əmniyyət* içindədir (M.S.Ordubadi); **DİNCLİK** Yaransın hər tərəfdə; *Dinclik*, əmin-amanlıq (R.Rza); **SAKİTLİK, AMAN, QORXUSUZLUQ.**

ƏMMAMƏ (*ruhanilərin başlarına sarıdıqları sarğı, çalma*) Seyid tərlədiyindən onun *əmmaməsini* başqa birisi əlində saxlamışdı (M.S.Ordubadi); **ÇALMA** "Bir ağ fil; bir də *çalması* ağ"; qoca hindli surətində (R.Rza); **DƏSTAR** (*köhn.*) Qafqazda no müsəlman dəxi muxtar olacaqdır; Başında no *dəstar*, no əfsar olacaqdır (Ə.Nəzmi); **SARIQ** Vur sazı döşünə, ey aşıq! Qalmamış no aba, no qəba, no *sarıq* (M.Müşfiq).

əmmamədar *bax* **1.** əmmaməli; **2.** ruhani

ƏMMAMƏLİ (*başında əmmamə olan*) Başı *əmmaməli* Seyid Molladan; Taətdə

övladır o qatmaqurşaq (Q.Zakir); **ÇALMALI** *Çalmalı* Seyidin son sözləri eşidildi (Mir Cəlal); **SARIQLI** Ezaz elə, ikram elə hər mollanümayə; Təqlid elə hər başı *sarıqlı* cühələyə (Ə.Qəmküsar).

əmmə *bax* bibi

ƏMMƏK [Şəndə:] Əmziyi ver, qoy doyunca *əmsin*, paltarını da dəyiş (B.Bayramov); **SORMAQ** Dilin *soran* baxmaz nabatə, qəndə; Ləbin *əmən* şəhdü şəkkər istəməz (Q.Zakir); **SÜMÜRMƏK** (*bax*).

əmniyyət *bax* əmin-amanlıq

1. ƏMR (*bir işin görülməsi üçün verilən hökm*) [Qacar:] Xeyr, fəzilətdən dəm vurma vəzir; Dayan bir qul kimi *əmrə* müntəzir (S.Vurğun); **BUYRUQ** [Vəzir:] *Buyruq* sizinkidir adil hökmdar; Sizdə fəzilət də, ədalət də var (S.Vurğun); **FƏRMAYİŞ** [Dərviş:] Xanım, bəndəyə görə nə *fərmayişiniz* var? (N.Vəzirov); **GÖSTƏRİŞ** Tapdıq qolunu çırmayıb göstəriş verməyə, özündən cavanları buyurmağa başladı (İ.Şıxlı); **HÖKM** Güləbətinə elə gəldi ki, bu fürsət təsadüfi deyil, göylərin *hökmüdür*, onun əlinə düşüb... (M.İbrahimov).

2. əmr *bax* sərəncam

ƏMTƏƏ (*iqt.*) [Ömər Lütfi:] Şəhərdə olan bütün *əmtəə*.. ixrac edilməlidir (H.Nəzərli); **MAL** [Əsgər bəy:] Hacı bu nə qədər *mal* ki bura tökübsən, heç bir qurum bundan qazanc varmı (M.F.Axundzadə).

əmud *bax* toppuz **1**

ənam *bax* hədiyyə

ənar *bax* nar

əncam *bax* **1.** son; **2.** tədbir, kömək

əncüm *bax* çalı

əndam *bax* **1.** bədən; **2.** boy **I**

əndamlı *bax* boy-buxunlu

əndaza *bax* meyar

əndazəsiz *bax* ölçüsüz

əndazəsizlik *bax* ölçüsüzlük

əndəlib *bax* bülbül

əndərmək *bax* calamaq **2**

əndişə *bax* **1.** qayğı, **2.** narahatlıq

ənənə *bax* adət **1**

ənfiyə *bax* burunotu

ƏNGƏL Lakin hələlik neft kəməri çəkən fəhlələr hər addımda böyük *əngəllərə* rast gəlirlər (M.Hüseyn); **MANEƏ** Hər gün, hər saat bir *maneə* çıxırdı (M.İbrahimov); **MÜMANİƏT** (*köhn.*) [Molla:] Sən o səbəbə şəriətdən çıxırsan ki, şəriətin umuruna *müməniət* qatırsan (C.Məmmədquluzadə); **ARİZƏ** (*köhn.*), **ÇƏTİNLİK, İLİŞİK** (*dan.*)

ƏNGƏLLİ, ARİZƏLİ, DOLAŞIQ, MANEƏLİ, MÜBAHİSƏLİ

əngənək *bax* ləyən

əngiboş *bax* naqqal

əngiboşluq *bax* naqqallıq

əngur *bax* üzüm

ənis *bax* dost

ənkəbut *bax* hörümçək

ənqa *bax* simurq

ənqaz *bax* xaraba **1**

ənqərib *bax* tezliklə

ƏNLİK (*üzə sürtülən al-qırmızı boya*) *Ənliyi*, kirşanı neylər camalın; Sən elə gözəlsən binadan, Pəri! (M.P.Vaqif); **BOYAQ** ...dodağına *boyaq* çəkən gəlinlərdən, oğlanlara qoşulub restoranlara gedən qızlardan acığı gəlirdi (Ə.Vəliyev); **KARMİN.**

ənva *bax* cürbəcür

əppək *bax* çörək

1. ƏR Mədinə əvvəl *ərinə*, sonra Rasimə baxdı (M.İbrahimov); **BAŞ YOLDAŞI** *Baş yoldaşı* nədir ha? – deyə bir qadın soruşdu (S.Rəhimov); **HƏYAT YOLDAŞI** [Məsmo:] ...*həyat yoldaşımdan* məhrum edilmişdim (S.Hüseyn); **KİŞİ** Xanım üzünü *kişisinə* çevirib, təbəssümlə: – Onu saxlamışam, – dedi (S.Vəliyev); **QOCA** [Xanpəri:] Onun cadusunda mən bir hikmət görmüşəm ki, əgər istəsə bu saatda məni *qocamdan* boşadar (M.F.Axundzadə); **ÖMÜR YOLDAŞI** [Anasız:] Evə məktub yazıb vəziyyətimi xəbər vermək istəmirdim ki, *ömür yoldaşım* qorxar, ürəyini qısar (Ə.Vəliyev); **SAHİB** (*köhn.*) [Məmmədbağır:] Sitarənin *sahibi* olmaqla bütün var-yoxuna sahib olacaqdı (S.Hüseyn); **ZÖVC** (*köhn.*) Proqramda daha

nələr var, – deyə *zövcü* sordu (Çəmənzəminli).

2. ər *bax* igid

ərazi *bax* torpaq **3**

ərbab *bax* yiyə

ərdəm *bax* hövsələ

ərdo *bax* qulyabanı

ərəmik *bax* **1.** qısır; **2.** sonsuz **II**

ərən *bax* **1.** igid; **2.** ər **1**

ər-ər *bax* **1.** sərv; **2.** ardıc

ərəzən *bax* gec

ərgən *bax* subay

ƏRİK (*meyvə və onun ağacı*) Üzü gülər, könlü şad; Fərəhlə dedi Polad: – *Ərik* yaxşı bəhərdir (M.Rahim); **QAYSI** [Hacı Kərim:] Görürsən ki, yenə süfrə hazırdır. Samovar qaynamaqda... südlü plov da domdə; *qaysısı*, xurması, kişmişi də öz qaydası ilə (S.Hüseyn).

ərincək *bax* tonbəl

ərincəklik *bax* tonbəllik

ƏRİZƏ (*bir arzu və ya xahiş, şikayət və s.*) O, böyük həyəcanla qələmi əlinə götürdü, əli əsə-əsə *ərizəni* imza etmək istərkən, başqa məktəbdən gəlmiş zarafatcıl bir müəllim bir dəfə asqırdı (S.S.Axundov); **ƏRZ-HAL** (*köhn.*) [Məşədi Qulam:] Birlikdə oxusunlar, zabitlərlə birlikdə müzakirə etsinlər və tez tədbir görsünlər, mənə də *ərz-hal* yazsınlar və mən isə dedim ki, "yerinə yetirərəm" (S.Rəhimov); **ŞİKAYƏT** [Qasıməli:] Xala, qlava Xudayar bəyin *şikayətinə* görə oğlun Vəliqulunu tutub qatdı dama (C.Məmmədquluzadə).

ƏRİZƏÇİ [Eşikağası:] Qədir bəy, *ərizəçiləri* növbətilə qabağa gətir (M.F.Axundzadə); **ARİZ** (*köhn.*) Hərə öz tələbatını ortalığa qoyub, hökumətə *ariz* olmuşdu (C.Məmmədquluzadə); **ƏRİZƏVERƏN** *Ərizəvərən* adam şəhərin kənarında bir evi kirayə götürüb orada yerləşmək istəyirdi (M.Hüseyn).

ərkəsöyün *bax* ərköyün

ərknaz *bax* naz

ƏRKÖYÜN [Azər:] Deməli, siz də bunu *ərköyün* böyütmüsünüz (M.İbrahimov); **ƏRKƏSÖYÜN** [Qəndam:] Yetim də olsam, *ərkəsöyün* böyümüşdüm (B.Bayramov); **HARIN** Yoxsul osir, varlı *harın;* Torpaq bəyin, mülkədarın (M.Rahim).

ərlik *bax* qəhrəmanlıq, igidlik

ərməğan *bax* hədiyyə

ərrə *bax* mişar

ərş *bax* göy **I**

ərus *bax* gəlin **1**

I ərz *bax* **1.** dünya; **2.** yer **1**

II ərz *bax* izhar

ərzaq *bax* azuqə

ərzən *bax* darı

ərz-hal *bax* ərizə

ƏSA (*yeriyərkən dirənmək üçün əldə tutulan ağac*) Birinci qocanın əlində qara qəhvəyi rəngdə əyriboyun *əsa* var (Q.Xəlilov); **AĞAC** (*dan.*) Əfsus qocaldım, *ağacım* düşdü əlimdən (M.Ə.Sabir); **ÇƏLİK** Mişa *çəliyini* arvadından alıb dikəldi.. (H.Abbaszadə); **ƏL AĞACI** [Həmid:] ...evdə yır-yığış eləyib, *əl ağacına* dirənə-dirənə gəlirdi köhnə dostu, saatsaz Davudun yanına (H.Abbaszadə); **QOĞA** (*məh.*) ..Hiddətlənib, əllərini çırpdı və *qoğasını* götürüb getdi (Çəmənzəminli).

1. ƏSARƏT Qurtaracaq dünyanı, *əsarətdən* o sanki (M.Rahim); **ƏSİRLİK** O, heç bir vaxt əcnəbi himayəsində qazanılan istiqlalın *əsirlikdən* ibarət olduğunu anlamır (M.S.Ordubadi); **KÖLƏLİK** Yetər, dedin – bu *köləlik* yaraşmayır adımıza (S.Rüstəm); **QULLUQ** (*bax*).

2. əsarət *bax* qəfəs

1. ƏSAS Səriyyə xalanın Qərənfilə müştəri gözü ilə baxmasının *əsas* səbəbi Bahadır idi (S.Rəhman); **ƏN MÜHÜM, ƏN ÜMDƏ, ƏN ZƏRURİ**

2. əsas *bax* bünövrə

3. əsas *bax* dəlil

əsassız *bax* **1.** dəlilsiz; **2.** yalan

ƏSATİR, MİFOLOGİYA

əsatiri *bax* əfsanəvi

ƏSƏB (*anat., fiziol.*) *Əsəb* və yorğunluq onu elə haldan salmışdı ki, kətilin üstündə otura bilmədi (S.Rəhman); **SİNİR** [Solmaz:]

Bütün *sinirlərim* kaman teli kimi inləyir (C.Cabbarlı); **NERV** (*dan.*) Burada Gülzarın artıq bütün *nervləri*, bütün illikləri parçalanıb, boğuq səslə inlədi.. (C.Cabbarlı).

əsabani *bax* əsəbi

ƏSƏBİ [Məsərrət:] Çox pis.. son dərəcə *əsəbi* və hiddətli bir adamdı (A.Şaiq); **ƏSƏBANİ** [Şeyx Yəhya:] Ağacan, nə üçün *əsəbani* olursan, bu nə işdir? (S.Hüseyn); **HİDDƏTLİ** *Hiddətli* halda içəri girən usta fəhlələrə dedi... (M.Hüseyn); **HİRSLİ** [Məşədi Qəzənfər:] Məşədi, sənin bu aşnaların nə *hirsli* adamlardır? (Ü.Hacıbəyov); **SİNİRLİ** [Dilbər:] Belə *sinirli* bir halda danışa bilmərəm (C.Cabbarlı).

ƏSƏBİLƏŞDİRMƏK Vəli kişinin sözləri Məllanı *əsəbiləşdirdi*... (M.İbrahimov); **DARIXDIRMAQ** [Körpənin] ağlaması da Gülarını *darıxdırır*, incidirdi (Ə.Vəliyev); **HÖVSƏLƏDƏN ÇIXMAQ** İndi çavuş öz hərəkəti ilə Talıb xan pristavı *hövsələdən çıxarırdı* (S.Rəhimov); **QANINI QARALTMAQ** (*fr.v.*) Mən heç kəsin *qanını qaraltmıram*... (M.İbrahimov); **ACIQLANDIRMAQ, HİRSLƏNDİRMƏK** (*bax*).

ƏSƏBİLƏŞMƏK [Zinyət:] Veysəl yanıma gəlmişdi, danışığından narazı olduğum, lap *əsəbiləşdim* (B.Bayramov); **HÖVSƏLƏDƏN ÇIXMAQ** Ay küçük! – deyə kişi *hövsələdən çıxdı*... (İ.Əfəndiyev); **SİNİRLƏNMƏK** (*dan.*) Möhsün, sakit ol, axı həkim sənə deyib ki, *sinirlənmək* olmaz (Çəmənzəminli); **HİRSLƏNMƏK** (*bax*).

əsal *bax* bal **1 1**

1. əsər *bax* təsir

2. əsər *bax* nişanə

ƏSGƏR (*orduda xidmət edən sıravi hərbi qulluqçu*) Bilsin ana torpaq, eşitsin Vətən; Müsəlləh *əsgərəm* mən də bu gündən (S.Vurğun); **HƏRBÇİ** Günorta zavodun qoca nəzarətçisi gəlib Həmidə dedi ki, səni bir nəfər *hərbçi* soruşur, qapıda dayanıb (H.Abbaszadə); **HƏRBİ QULLUQÇU** Rza xan ağ mərmər sarayın pillələrini qalxanda .. *hərbi qulluqçular* ayaqlarını cütləyib, özlərini qurudaraq, nəfəslərini içəri çəkmişdilər (M.İbrahimov); **HƏRBİYYƏÇİ** (*dial.*) ..özünün zahiri gör-görkəmi ilə zabitəli bir *hərbiyyəçi* kimi görünsün, ali hüquq təhsili almış olsa da, hərbi zahirlik kəsb etsin! (S.Rəhimov); **HƏRBİYYƏLİ** Üstüörtülü bir dam tapıb içəri girəndə *hərbiyyələrlə* dolu olduğunu gördü (Mir Cəlal); **QOŞUNADAMI** (*köhn.*) Sağ tərəfdə .. Cavanşir elinə mənsub *qoşunadamının* top otrafına yığılıb məşq etmələri onun diqqətini cəlb etdi (Çəmənzəminli); **SƏRBAZ** (*köhn.*) Vaqif yenə məsələni anladı; Ocaqqulu *sərbaz* düşüb müharibəyə sürüklənməsin deyə, başını götürüb qaçmağa, arvad-uşağını tərk etməyə məcbur olmuşdu (Çəmənzəminli); **SOLDAT** (*dan.*) Ac *soldat* öz nəfsinə; Bəzən olub əsir, qul (Ə.Cəmil).

ƏSGƏRLİK *Əsgərlikdən* sonra isə onlarla lap seyrək görüşürdü (R.İbrahimov); **HƏRBİ QULLUQ/XİDMƏT** Mişa yenə *hərbi qulluqdadı* (H.Abbaszadə); *Hərbi xidmətlə* heç bir əlaqəsi olmayan şəxsi kazarmaya nə üçün buraxmışlar? (H.Abbaszadə); **ƏSGƏRİ XİDMƏT** Deyirlər boynunda var sənin *əsgəri xidmət* (M.Rahim); **SOLDATLIQ, SƏRBAZLIQ** (*köhn.*).

ƏSGİ [Qulu:] ..Kəndir qırığı ilə, *əsgi* ilə, əlinə hər nə düşübdür, siçan kimi yuvasına yığıbdır (S.S.Axundov); **CINDA** [Həmid] daşları talvarın altına daşıdı və paslanmasın deyə *cında* ilə silib quruladı.. (H.Abbaszadə).

ƏSGİNAS (*köhn.*) *Əsginasım*, saz əsasım, dürr, mərcanım mənim! (Ə.Nozmi); **KAĞIZ PUL** Xəlilin atasından bir balaca, iki otaqdan ibarət ev və iyirmi iki manat *kağız pul* qalmışdı (Ə.Haqverdiyev).

əsgi-üsgü *bax* cır-cındır

1. ƏSİL *Əsil* al, çirkin olsun; Bədəsil gözəl alma (Ata. sözü); **ƏSİLLİ** Xotkar qızı, şah nəsilli; Ağır elli, xan *əsilli* ("Koroğlu"); **NƏCABƏTLİ** [Leyli:] İbn-Salam, sən *nəcabətlisən*, uca ruhlusan... (Ə.Məmmədxanlı).

2. əsil *bax* xalis **1**

əsilli *bax* **1.** əsil **1**; **2.** nəcib **1**

1. ƏSİLSİZ, UYDURMA, YALAN (*bax*)

2. əsilsiz *bax* nacins

əsilzadə *bax* **1.** zadəgan; **2.** nəcabətli

1. ƏSİR [Səlim bəy:] Bax, yenə əlimdə *əsirsən, əsir;* Duyuram, qorxudan ürəyin əsir (C.Cabbarlı); **DƏSTGİR** Allah qəsəm ki, mən fəqirəm; Köç-külfət əlində *dəstgirəm* (M.Ə.Sabir).

2. əsir *bax* qul **1 1**

3. əsir *bax* vurğun

4. əsir *bax* dustaq **1**

1. ƏSİRGƏMƏK, HİFZ ETMƏK, RƏHM ELƏMƏK, SAXLAMAQ

2. əsirgəmək *bax* qızırqanmaq

əsirlik *bax* **1.** əsarət **1**; **2.** həbsxana

əski *bax* **1.** köhnə **1**; **2.** keçmiş; **3.** qədim

1. ƏSKİK, ÇATIŞMAYAN, KƏM, NAQİS, NATAMAM

2. əskik *bax* nöqsanlı

əskiklik *bax* nöqsan **1**

1. əsil *bax* **1.** orijinal; **2.** həqiqi; **3.** təbii **1**

ƏSLA, QƏTİYYƏN Ondan ötrü ki, Xudayar bəyin evinə gələndən, Zeynəbin üzü *əsla, qətiyyən* gülmədi (C.Məmmədquluzadə); **DIRNAQ QƏDƏR** (*fr.v.*) [Mindilli:] Siz bu hadisələrə bir *dırnaq qədər* də fikir verməyin (S.Rəhman); **ƏBƏDA** ...Danabaş kəndini başa salıblar ki, *əbəda* uşkola uşaq göndərməsinlər (C.Məmmədquluzadə); **ƏBƏDƏN** Onlar nail olmayacaq arzusuna *əbədən* (S.Rüstəm); **HEÇ** Lakin *heç* sarsılmadı haman matəmdən şəhər (M.Rahim); **HEÇ VAXT** Şəriət evlənməkliyə *heç vaxt* mane olmuyubdu (C.Məmmədquluzadə); **HEÇ VƏDƏ** Belə olan surətdə Xudayar bəyin bu tövr hərəkətinə *heç vədə* pis deməək olmaz... (C.Məmmədquluzadə); **HEÇ ZAMAN** [Adilə:] ..Səni *heç zaman* bağışlaya bilmərəm, bəli, *heç zaman* (Ə.Qasımov); **HƏRGİZ** (*köhn.*) [Kazak:] *Hərgiz* bilmirəm ağa (M.F.Axundzadə); **QƏTA** [Molla Qafar:] Məgər ruhani istiqbal üçün xəlq edilmişdir, əsla və *qəta* (S.Rəhimov); **MÜTLƏQ** Mən Cahan mülkündə *mütləq* doğru halət görmədim (M.P.Vaqif); **HEÇ BİR ZAMAN.**

əsləhə *bax* silah

əsləhəli *bax* silahlı

1. ƏSMƏK, HƏRƏKƏTƏ GƏLMƏK (*külək haqqında*)

2. əsmək *bax* döyünmək

3. əsmək *bax* titrəmək

4. əsmək *bax* əzizləmək

əsmər *bax* qarayanız

əsnaf *bax* sənətkar **1**

1. ƏSR (*yüzillik dövr*) *Əsrlərdən* bəri, dərdinə qaldığım yerdir bu yerlər (M.Müşfiq); **QƏRİNƏ** (*33 illik bir dövr*) Keçsə *qərinələr*, keçsə min illər; Səni xatırlayır hörmətlə ellər (S.Rüstəm).

2. ƏSR (*hər hansı bir cəhətdən səciyyəvi olan dövr*), **EPOXA, TARİX, ZAMAN**

3. əsr *bax* dövr

ƏSRARLI Eşidəydin onların dərdini, möhnətini; Dinləyəydin meşənin *əsrarlı* söhbətini (M.Rahim); **ƏSRARƏNGİZ** [Rza:] ..bu şirin və ozablı dəqiqə dumanlı, *əsrarəngiz* qorxularla dolu gələcək qarşıda mənə bir qənimət görünürdü (M.İbrahimov); **SİRLİ** Osa mənə öyrədib tobiotin dilini; Onun *sirli* dilini, onun çətin dilini (B.Vahabzadə).

əssalam *bax* salam **1**

əşar *bax* şeir

əşirət *bax* qəbilə **1**

əşk *bax* sirişk

1. ƏTALƏT (*fiz.*), **İNERSİYA**

2. ətalət *bax* tənbəllik

ətalətli *bax* süst

1. ƏTİR, DUXU (*dan.*), **PARFÜM**

2. ətir *bax* qoxu

1. ƏTİRLİ Aşiqdir insan mənə; *Ətirli* reyhan mənə (M.Rahim); **MÜƏTTƏR** Əsməkdə nəsimi-xoş *müəttər;* Titrətdi yaşıl-yaşıl çəmənlər (A.Şaiq).

2. ətirli *bax* qoxulu

ətqanad *bax* yarasa

ətləənmək *bax* kökəlmək

ətmək *bax* çörək

1. ƏTRAF *Ətraf* kölgəli bir şəhər qədər işıqlı idi (H.Nəzərli); **DÖRD TƏRƏF** *Dörd tərəfi* ucsuz-bucaqsız dəniz... (A.İldırım); **DÖVRƏ** Binanın *dövrəsində* qarovul gəzirdi

(M.İbrahimov); **HƏNDƏVƏR** Keşikçilər [qulu] Çənlibelin *həndəvərində* görüb, tutub Koroğlunun yanına gətirdilər ("Koroğlu"); **YAN-YÖRƏ** İkram Qaratelin gözünə satəşmamaq üçün gözlərini *yan-yörəsinə* dolandırırdı (Ə.Əbülhəsən).

2. ətraf *bax* uc qar

3. ətraf *bax* civar

ƏTRAFLI [İsmayıl bəy:] Nərimanovun nə barədə danışdığını *ətraflı* müəyyənləşdir (Ə.Vəliyev); **MÜFƏSSƏL** Güləbətin ona *müfəssəl* məlumat verməyi artıq bildi (M.İbrahimov); **TƏFSİLƏN** [Xan] Nağıl elə *təfsilən*, yəni hamısını birbəbir (C.Məmmədquluzadə); **TƏFSİLLİ** Əsər çox *təfsilli* yazılmışdı (M.S.Ordubadi); **HƏRCƏHƏTLİ, GENİŞ, HƏRTƏRƏFLİ** (*bax*).

ətsiz *bax* arıq

əttökən *bax* cansıxıcı

əttövbə *bax* tövbə

əvət *bax* bəli

1. ƏVVƏL (*zaman etibarilə daha qabaq*) ..bu da gəldi ki, mən altmış il bundan *əvvəl* olan keyfiyyəti nəzm etmişəm (M.F.Axundzadə); **ƏQDƏM** (*daha əvvəl*) Onu iki il bundan *əqdəm* görən indi heç tanımaz (C.Məmmədquluzadə); **ƏZƏL** A kişi, bundan *əzəl* xalqda hörmət var idi (M.Ə.Sabir); **İRƏLİ** [İbad:] Üç gün bundan *irəli* iki yoldaşımız, Xaspolad və Qarabəkir, qazyonnu poçt üstə düşürlər, bir-iki güllə atan kimi igid çaparlar qoyub qaçırlar (S.S.Axundov); **QABAQ** Məmməd səhər yuxusuna xələl qatar, vaxtından da yarım saat *qabaq* gələrdi (M.İbrahimov); **MÜQƏDDƏM** [Nizami:] Məncə cənab qazi öz fikrini *müqəddəm* və müəxxər dedi (M.S.Ordubadi).

2. ƏVVƏL, BİRİNCİ DƏFƏ, İLK DƏFƏ

3. əvvəl *bax* əvvəla

ƏVVƏLA [Atabəy Qotibəyə:] *Əvvəla*, sənə məsləhət görürəm... (M.S.Ordubadi); **BİRİNCİ(Sİ)** [Atabəy Məhəmməd:] *Birincisi*, üsyan başçılarını göndərilən siyahı üzrə həbsə alıb hüzuruma göndərərsiniz (M.S.Ordubadi); **ƏVVƏL** [Dedim:] Sara bibi, *əvvəl* budur ki, Ağamalı oğluna verilən ərizə gərək latın əlifbası ilə yazılsın (Qantəmir); **ƏVVƏLƏN** [Sərofniso xanım:] *Əvvələn*, bu yalandır ki, deyirsən, kim bizlərdən mərifət ilə, qulluq ilə xoşbəxt olubdur? (M.F.Axundzadə).

ƏVVƏL-AXIR [Kamil:] Görürəm *əvvəl-axır* siz məni üzümçü edəcəksiniz (Y.Şirvan); **ER-GEC** [Ağsaçlı qadın Səyavuşa:] Quzum! *Er-gec* parlar adın cahanda (H.Cavid); **GEC-TEZ** [Nazlı:] Anacan, özünə toxtaqlıq ver. *Gec-tez* hamısı düzələcək (A.Şaiq).

ƏVVƏLCƏ Ata *əvvəlcə* böyük qazının görüşünə getdi (Ə.Vəliyev); **ƏZƏL** *Əzəl* bunu, sonra da o birisini min... ("Koroğlu"); **İBTİDA** Məşədi Allahverdi *ibtida* bir arvad aldı, gözəl, göyçək... (N.Nərimanov); **QABAQCA** [Kəblə Rəcəbli:] Kafir oğlu, bunu mənə *qabaqca* de, mən də əlimi murdarlamayım (Ə.Haqverdiyev).

ƏVVƏLCƏDƏN Bunlar hamısı *əvvəlcədən* hazırlanmış oyundur (M.İbrahimov); **BU BAŞDAN** Mən heyrət içindəyəm, deyim sizə *bu başdan* (S.Rüstəm); **İBTİDADAN** *İbtidadan* eləsəm şərh bu əhvalı əgər; Uzanıb pişeyi-söz, nəzm düşər tulani (S.Ə.Şirvani); **QABAQCADAN** Mən bir az tez gəldim ki, *qabaqcadan* sizi görüm (C.Cabbarlı); **QABAQDAN** Üç gün *qabaqdan* divarlara rəngli elanlar vurulmuşdu (Mir Cəlal).

əvvələn *bax* əvvəla

ƏVVƏLİNCİ *Əvvəlinci* məclis Nuxu şəhərində Hacı Kərim zərgərin evində vaqe olur (M.F.Axundzadə); **BİRİNCİ** *Birinci* məclis vaqe olur şəhərin hakimi Həzrət Əşrəfin idarəsində (C.Məmmədquluzadə); **İLK** Pambıq yığımının *ilk* günü tamam bir bayrama çevrilmişdi (İ.Əfəndiyev).

əyal *bax* **1.** ailə; **2.** arvad **I**

ƏYALƏT 1918-ci ilin yaz və yay fəsillərini İranın Gilan *əyalətində* keçirmişdim (S.Hüseyn); **MAHAL** Xandəmirov çapdı, çatdı *mahalı*; O kı tutub özün keçəl qurumsaq (Q.Zakir); **VİLAYƏT.**

əyan *bax* **1.** zadəgan; **2.** aşkar

1. ƏYİLMƏK *Əyilib* yeri nə qədər diqqətlə yoxladımsa da, heç bir iz görmədim (M.Rzaquluzadə); **SİNMƏK** (*dan.*) Xudayar bəy bir az *sinib* çəkildi konara (C.Məmmədquluzadə); **AŞAĞI QATLAŞMAQ, BELİNİ ƏYMƏK, QATLANMAQ**

2. ƏYİLMƏK (*ağırlıq nəticəsində*) ..tirlərin çoxusu *əyilibdir* (C.Məmmədquluzadə); **QATLANMAQ, SALLANMAQ**

3. ƏYİLMƏK [Talıbxan:] ..Heç göydəki Allahın da qabağında *əyilməmişəm!* (S.Rəhimov); **BAŞ ƏYMƏK, SƏCDƏ ETMƏK, SİTAYİŞ ETMƏK, TƏZİM ETMƏK**

əyilməz *bax* möhkəm **I**

əyin *bax* **1.** bədən; **2.** paltar

əyin-baş *bax* paltar

əyləmək *bax* saxlamaq **I**

əyləncə (*məc.*) *bax* oyuncaq

I ƏYLƏNDİRMƏK (*əyləncə ilə məşğul etmək*) [Qəndab:] Heç kəs məni saymayanda o [Məzahir], pəncərəmin ağzını kəsir, məni *əyləndirirdi* (B.Bayramov); **ƏYLƏTMƏK** *Əylətmədin* qəlbin əziz qonağın; Ölünco sinəmdən çəkilməz dağın (Molla Cümə).

II əyləndirmək *bax* dayandırmaq

I ƏYLƏNMƏK Qıpçaq Molik onlarla [qızlarla] *əylənirdi* (Anar); **DİLXOŞLUQ ETMƏK (ELƏMƏK), MƏZƏLƏNMƏK** (*dan.*).

II əylənmək *bax* dayanmaq **I**

əyləşmək *bax* oturmaq

əylətmək *bax* əyləndirmək **I**

əylik *bax* cüyür

1. əyri [Qaçayın] burnu bir qədər *əyri* idi (Ə.Vəliyev); **KƏC** Qoy börkünü *kəc* qaşının üstünə, fırılda (M.Ə.Sabir).

2. əyri *bax* çəpəki

3. əyri *bax* yalançı, fırıldaqçı

əyrimça *bax* üzük **I**

əyri-üyrü *bax* nahamar

əyyam *bax* dövr

əyyar *bax* **1.** hiyləgər; **2.** oğru

əyyarlıq *bax* **1.** hiyləgərlik; **2.** oğurluq

ƏYYAŞ (*vaxtını eyş-işrətlə, sərxoşluqla keçirən adam*) [Nailo:] Hələ əmmamədə qumarbazlar, *əyyaşlar* barəsində də tədbirlər nəzərdə tutulur (A.Şaiq); **BADƏPƏRƏST** (*köhn.*) [Aydın:] Nə gördü badədə bilməm ki, oldu *badəpərəst;* Lobin gülabına mötad gördüyün könlüm... (C.Cabbarlı); **XƏRABATİ** (*arx.*) Şikəstə Abbasam *xərabatiyəm;* Könül, heç görmədim abadan səni ("Abbas və Gülgoz"); **İÇKİ/ARAQ DÜŞKÜNÜ** Son əməlli-başlı bir adam *içki düşkününə* çevrilə bilərsən (C.Bağır); **İÇKİÇİ** Böyük, uzun məclislər qurmaq, gədə-güdənin şitşor danışıqları, möhtəris *içkiçilər* yaxın gəlməsin (B.Bayramov); **İÇKİPƏRƏST** Xalıqov özü o qədər də *içkipərəst* deyildi... (B.Bayramov); **MEYPƏRƏST** (*köhn.*) Vahid, deyirlər təzədən *meypərəst* olub; Xəlqə nişan verim özüm, aya, nələr kimi? (Ə.Vahid); **ŞƏRAB DÜŞKÜNÜ** Nə qədər *şərab düşkünü* orada-burada sülənir (H.Abbaszadə); **ŞƏRABXOR** ...bu ehtiraslı *şərabxor,* xanıma bağlanmışdır (S.Rəhimov); **ALKOQOLİK, ALKOQOLÇU, BADƏNUŞ** (*köhn.*)

ƏYYAŞLIQ [Səfurə:] Məcid nə vaxt *əyyaşlıqdan* əl çəkəcək? (H.Abbaszadə); **ALKOQOLİZM** [Nikolay:] O kı qaldı *alkoqolizm,* o, xamuşlar, xamlar üçündür, sizə, mənə heç dəxli yoxdur (Ş.Fərzəliyev); **ALKOQOLÇULUQ, ŞƏRABXORLUQ, MEYPƏRƏSTLİK.**

I ƏZA (*bədənin müəyyən bir hissəsi*) Toxda balacığım, qoy donmuş *əzamı* bir isidim, – deyə Vera üst paltarını çıxarıb bir mitil əski yorğana büründü.. (S.S.Axundov); **ÜZV** İnsanın heç bir *üzvündən* o qədər zərər insana yetişməz, nə qədər ki, dilindən yetişər (C.Məmmədquluzadə); **ORQAN.**

II əza *bax* əzab

III əza *bax* matəm

ƏZAB (*ruhi üzüntü keçirmə*) İztirablar, *əzablar* açarıdır arzunun.. (B.Vahabzadə); **BİDAD** Dul övrətə *bidad* elə, eytamə xəyanət; Xof etmə əcəldən (M.Ə.Sabir); **BOYUNDURUQ** (*məc.*) Qaçmaq bacarmayanlar hamısı orada-burada *boyunduruq* altında qırılırlar (Ə.Haqverdiyev); **ƏZA** Dəng eləmə cəmaəti, cəbrü *əzadan* əl götür

(C.Cabbarlı); **ƏZAB-ƏZİYYƏT** [Vəliş:] Sizin yolunuzda nə qədər *azab-əziyyət* çəksəm, heyfsilənməyəcəyəm (Ə.Vəliyev); **ƏZİYYƏT, ZİLLƏT** [Cahangir ağa:] Hamısı ac, çılpaq, *zillətdə, əziyyətdə,* fəryadları ələ qalmış (S.S.Axundov); **İŞGƏNCƏ, İZTİRAB** Süzdü Ağa Nazim qızı gözaltı; *İztirab, işgəncə,* əzab, həyəcan (Ə.Kürçaylı); **MƏŞƏQQƏT** Çünki, fəlakət və *məşəqqətlərlə* əldə etdiyi ixtisas sayəsində o, fəlakətlərə birdəfəlik vida etmiş olduğuna əmin idi (A.Şaiq); **MÖHNƏT, CÖVR, CƏFA** Doğrusu zillətindən, *cövründən, möhnətindən;* Əzabından, *cəfandan,* qəmindən, həsrətindən; Şikayətlər etmişəm, ey afət, günahkaram (M.Rahim); **ZƏLALƏT** (*kl.əd.*) Amma o millət ki, ümidini qılınca bağlayıb, həmişə *zəlalətdə* bulunubdur (N.Nərimanov); **ZÜLM** Bilxassə qadına qarşı olan *zülmün* həddihüdudu yox idi (Çəmənzəminli);

əzab-əziyyət *bax* əzab

ƏZABLI (*əzab və əziyyətlə dolu*) [Rza:] Mən indiyə kimi iyirmi iki bahar yola salmışdım, lakin heç birisi bu ilki qədər *əzablı,* bu ilki qədər cansıxıcı olmamışdı (M.İbrahimov); **CƏFALI** [Şahbaz bəy:] O, bir xəyaldır. Uzaqdan dadlı, nəşəli, yaxından zəhərli, *cəfalı,* bəlalı, ömrü puç edən bir şeydir (S.S.Axundov); **ƏZABVERİCİ** Artıq Məcidin sözləri [Nadir] üçün *əzabverici* olmayıb.. (B.Talıblı); **İZTİRABLI** ..*İztirablı* səsində elə dərin bir qəlb ağrısı vardı ki, ixtiyarsız atın başını qucaqları (R.Rza); **MƏŞƏQQƏTLİ** Bir il qədər *məşəqqətli* sürən bir neçə dəqiqə ərzində onun gözləri qaraldı.. (M.Hüseyn); **MÜŞƏVVƏŞ** [Şeyx Sədra:] Halım, eyvah pək *müşəvvəşdir* (H.Cavid);

ƏZİYYƏTLİ, İŞGƏNCƏLİ.

ƏZABSIZ, ƏZİYYƏTSİZ, CƏFASIZ

əzazil *bax* **1.** şeytan **1**; **2.** zalım

əzazillik *bax* zalımlıq

əzbər *bax* əzbərdən

ƏZBƏRDƏN (*əzbər olaraq*) İndi *əzbərdən* bilir... (M.İbrahimov); **ƏZBƏR** Sona... Bahadırın kağızını *əzbər* oxuyurdu (N.Nərimanov); **AĞIZDAN.**

əzəl *bax* əvvəl **1**

ƏZƏLƏ ..Qolunu gətirib *əzələlərini* göstərdi (Ə.Qasımov); **MUSKUL** (*dan.*) Yaşasın daş kimi *muskullarımız;* Yaşasın tökmə, dəmir qollarımız (M.Müşfiq).

1. ƏZƏMƏT Başında göy araxçın, duruşunda *əzəmət* (B.Vahabzadə); **BÖYÜKLÜK** Dağlar, sizdəki bu *böyüklük, vüqar;* Nə olur bir zaman olsaydı məndə (S.Vurğun); **CALAL** Payızın zəmhəri qoyur virana; Dağılır üstündən *calalı,* dağlar! (Aşıq Ələsgər); **VÜQAR** (*məc.*) Rahim vəsf eyləyir *vüqarınızı;* Yetirsin səsini dağlara dağlar (M.Rahim); **CƏBƏRUT** (*köhn.*).

2. əzəmət *bax* dəbdəbə

ƏZƏMƏTLİ Təyyarəmiz başdan-başa qarla örtülmüş bu *əzəmətli* şəhər üzərində uçur (M.Hüseyn); **BÖYÜK** Həmin insanlar; *böyük* binalar diqqətlə bax! (S.Vurğun); **MƏĞRUR** [Attal:] Hər yerə at sürdü bu *məğrur* dünya; Duz ilə, çörəklə çıxdı qarşıya (A.Şaiq); **MONUMENTAL** Küçənin böyük bir hissəsini tutmuş çoxmərtəbəli və çoxgüşəli *monumental* bir binaya yaxınlaşdıqda mən yoldaşları sevindirirəm (M.İbrahimov); **MÖHTƏŞƏM** Onun [Moskvanın] geniş küçələri, qədim binaları, Kreml hasarları, yenə əvvəlki kimi *möhtəşəmdir* (M.Hüseyn).

əzgin *bax* yorğun, üzgün, süst

əzginlik *bax* yorğunluq, süstlük

əzişdirmək *bax* döymək **1**

əziyyət *bax* **1.** əzab; **2.** zəhmət

əziyyətli *bax* əzablı

əziyyətsiz *bax* **1.** əzabsız; rahat **1**

əziz *bax* sevimli **1**; mehriban **2**

1. ƏZİZLƏMƏK, ƏRKÖYÜN BÖYÜTMƏK, ƏSMƏK (*həddindən artıq əzizləmək*), **İSTƏMƏK**

2. əzizləmək *bax* oxşamaq **II**

1. ƏZM, QƏTİ QƏRAR, QƏTİ NİYYƏT

2. əzm *bax* cəsarət

əzmə *bax* bülöv

əzmli *bax* cəsarətli

1. ƏZVAY (*bitki*), **ALOE, SABUR**

2. əzvay *bax* acıdil

Ff

face *bax* faciəli

1. FACİƏ (*ədəb.*) Bu pyes Nərimanov yoldaş tərəfindən yazılmış "Nadir şah" adlı *facia* idi (Ə.Haqverdiyev); **TRAGEDİYA** Bu dövrdə Şekspir özünün ən məşhur *tragediyalarını,* o cümlədən "Hamlet", "Otello", "Kral Lir", "Maqbet" və "Antonio və Kleopatra" əsərlərini yazmışdır (M.Arif).

2. facia *bax* fəlakət

FACİƏLİ Ulduzun bu *faciəli* halında da bəzi dillər rahat oturmurdu (M.İbrahimov); **FACE** [Əbülhəsən bəy:] O, Təbrizdə baş verən bu hadisəni və imperator hökumətinə qarşı bu ədəbsizliyi, xüsusən cənab Smirnovun *face* ölümünü eşidərkən, sizə başsağlığı vermək və bəyani təəssüf etmək üçün gəlmişdir (M.S.Ordubadi); **FƏCİ** Bu *fəci* xəbəri hər kəs həyəcan içində bir-birinə pıçıldadı (Ə.Haqverdiyev); **FACİƏVİ** Ərtoğrulun cənazə qalıqları da atasının türbəsi yanına keçirilsin, burada basdırılsın, *faciəvi* həyat keşməkeşlərilə bir-birindən ayrı düşmüş ata və oğul ölümsüzlük mənzilində əbədi qovuşsunlar (Anar); **AĞLAMALI.**

faciəvi *bax* faciəli

1. fağır *bax* yoxsul

2. fağır *bax* yazıq **1**

fağır-yağır *bax* yazıq-yazıq

FAHİŞƏ (*axlaq pozğunluğu ilə məşğul olan qadın*) [Əhmədː] Burax getsin, iki dostun arasını vuran bir *fahişə* bizə lazım deyil, – dedi (A.Şaiq); **ƏXLAQI POZĞUN** [Mirzə Mahmud:] Çirkli, üfunətli, çirkin və *əxlaqı pozğun* bir qıza nəfsim yetdi (Çəmənzəminli); **ƏXLAQSIZ QADIN** Culfanın hər tərəfindən toplanmış on beş nəfərə qədər *əxlaqsız qadın* dəhlizin bir başında saxlanmışdı, zabitlər isə qılınclarını çəkib yenə də qadın tələb edirlər (M.S.Ordubadi); **QƏHBƏ** (*dan.*) [Vəliş:] *Qəhbə* bizi əngələ salacaq... (Ə.Vəliyev); **LƏKTƏ** (*kl.əd.*) [Şərəfnisə xanım Gülçöhrəyə:] İtil cəhənnəmə, *ləktə* əl çəkməz, qoymaz işimi tutam (M.F.Axundzadə); **LOTU** [Pəsi] Dərələrin *lotusu* ondan-bundan tutduğunu mənim sümüyümə calamaq, evimə haram qatmaq istəyir, – deyə özünü yerə çırpırdı (S.Rəhimov); **POZĞUN** [Əbülhəsən bəy:] Biz artıq sevgi, işvə, qəmzə, vüsal, məhəbbət, ayrılıq və sairə kimi şeylərdən Şümşad xanımla açıq-açığına danışır və önünü Təbrizin *pozğun,* qaraçı qadınlarına oxşadırdı (M.S.Ordubadi); **YAVA** [Cavanlar:] Bu *yava* matışqanı haraya aparırsan, qoy bir qədər biz ilə gəzsin, – deyə onların özünü alırlar (S.S.Axundov); **ZƏNQƏHBƏ** [Mahmud xan:] Bu əmri sənə hansı köpək oğlu verib? Sənə hansı *zənqəhbə* tapşırıb.. (M.S.Ordubadi); **ZİNAKAR** Dərsəm ki, *zinakarlərin* qeyrəti olmaz; Olmazmı mənim işbu sözüm eyni həqiqət?! (M.Ə.Sabir).

FAHİŞƏXANA (*fahişələrin məşğul olduğu yer*) [Əbülhəsən bəy:] Sanki o, birinci kərə idi ki, bu *fahişəxanaya* düşmüşdü (M.S.Ordubadi); **LOTUXANA** [Hacı Əhməd:] Köpək oğlu, həzrətin məqamın *lotuxana* qayırmısan? (M.S.Ordubadi).

FAHİŞƏLİK (*qeyri-qanuni cinsi əlaqədə olma*) Hansı elə onların pəncələri uzandı; *fahişəlik,* xəyanət, aclıq, ölüm və çuma; Orda keçir hücuma (M.Rahim); **ƏXLAQ POZĞUNLUĞU** [İlyas:] Məhsəti xanımın hökumət əleyhinə olmasında, şeir və sənəti *əxlaq pozğunluğu* kimi təbir edən müqəssirdir (M.S.Ordubadi); **ƏXLAQSIZLIQ** İndi Zeynal belə düşünürdü ki, onun hörmət və nüfuzunun azalması və xidmətlərinin əlindən çıxması Mehribanın *əxlaqsızlığından* irəli gəlmişdi (S.Hüseyn); **FİSQ** *Fisq* imiş əmrin tamam, ay barakallah sənə!.. (M.Ə.Sabir); **FİSQÜ FİCUR** [Xətib:] Daşa basın! Dağıdın bu *fisqü ficurun* yuvasını (M.S.Ordubadi); **POZĞUNLUQ** [Xosrov:] Siz elə qanunlar düzəltmisiniz ki, onlar qan tökməyin, yoxsulluğun, *pozğunluğun* və fahişəliyin qarşısını almaqdan danışan əqidələri on illik həbs cəzası ilə təqib edir (M.İbrahimov); **ZİNA** [Rəbi:] İslam dininə, bir olan allaha qarşı üsyan qaldıran, xalq içində təbliğat aparıb, eli

dinsizliyə, *zinaya*, yolbasarlığa, üsyana çağıran sonsonmi? (C.Cabbarlı).

faqqı *bax* hiyləgər

faqqılıq *bax* hiyləgərlik

faktor *bax* amil

I I FAL [Mirzə Yəhya:] Bu çox uğurlu bir *fəldir*. Ondan istifadə etmək lazımdır (A.Şaiq); **RƏML** ..sobir, cadu, *rəml*, təbiri-xab, möcüz, meyit namazı.. (Çəmənzəminli).

2. fal *bax* bəxt **1**

II fal *bax* yumurta **1**

falabaxan *bax* falçı

FALÇI [Pəri xanım:] Falçı duanı yazıb buyurdu ki, gərək vəzirin başının üç buğda ağırı səməni qoyub füqəraya paylayasan (M.F.Axundzadə); **FALABAXAN** Amma siz deyirsiniz: Allaha da sitayiş edin, peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, *falabaxana*, tas qurana... bunların cümləsinə sitayiş edin! (C.Məmmədquluzadə); **RƏMMAL** İnanma gər desə *rəmmal* sirri-qeybə ağahəm (S.Ə.Şirvani); **RƏMLÇİ.**

falic *bax* iflic

famil *bax* familiya **3**

familiya *bax* **1.** nəsil **2.** ailə **3.** soyad; **4.** qohum-əqrəba

fanatik *bax* **1.** təəssübkeş **1**; **2.** mövhumatçı; **3.** əfsanəvi

fanatizm *bax* **1.** təəssübkeşlik **1**; **2.** mövhumatçılıq

FANİ O [Çərkəz], dünyanı *fani* hesab edir, insanlardakı vəfasızlığa acı-acı gülürdü (M.Hüseyn); **PUÇ** [Əhməd:] Ay bivəfa, *puç* dünya! (N.Vəzirov); **VƏFASIZ** (*məc.*) *Vəfasız* dünyanın mehri gedir könlündən, aldanma (Nəsimi).

fantastik *bax* **1.** xəyali; **2.** əfsanəvi

fantaziya *bax* **1.** xəyal **1**; **2.** əfsanə **1**

fanus *bax* fənər **1**

FARA (*nəqliyyatda*) [Şahin:] Gərək *faraları* qırmızı parça bağlana (B.Bayramov); **FƏNƏR** ..Avtomobil karvanlarının *fanarlarından* qopan işıqlar şəhərin küçələrində sel kimi axır.. (C.Əlibəyov).

farağat *bax* sakit **1**

farmasevt *bax* aptekçi

fasiq *bax* **1.** günahkar **1**; **2.** dinsiz; **3.** fitnəkar

1. FASİLƏ [Fəridə:] *Fasilədə* biz onu oyadıb yenə bir tikə kotlet verdik (M.İbrahimov); **ANTRAKT** (*teatrda, konsertdə*) Bizim operalarda hər bir opera üçün zəruri olan reçitativlər, oxuyanlar üçün ayrıca bitkin partiyalar, ansambl, *antraktlar* yox idi (Ü.Hacıbəyov); **PAUZA** Qısa *pauzadan* sonra Ceyran xala danışmağa başladı (İ.Əfəndiyev); **TƏNƏFFÜS** Cövdət *tənəffüs* qurtarmamış şöbəyə gəlib yerində oturdu (H.Abbaszadə).

2. FASİLƏ, MƏSAFƏ, ARA

fason *bax* **1.** ülgü; **2.** oda **1**

1. fatch *bax* işğalçı

2. FATEH (*tənt. məc.*), **FƏTHÇİ** (*mübariza, zəhmət yolu ilə bir şey əldə edən*)

fatmanənə *bax* qövsi-quzey

fauna *bax* heyvanat

FAYDA (*müxtəlif mənalarda*) [Hacı Qara:] Beş qızıl yüz qızıla *fayda* götürmərəm (M.F.Axundzadə); **XEYİR** [Hacı Qara:] Di söyləyin görüm, Hacı qadanızı alsın, yüz manat *xeyir* haradan yetişəcək? (M.F.Axundzadə); **MƏNFƏƏT** Yetişməmiş bir meyvəni dərməkdən *mənfəət* əvəzinə zərər və bəlkə də xəta əmələ gələr (S.S.Axundov); **MƏSRƏF** [Kərbəlayı Rəcəb:] Zəmanə cahilləri, hacı, şərlatanlıqdan sıvay bir şeyə *məsrəf* deyillər (N.Vəzirov); **SƏMƏR** [İblis:] Əfsus, nədamət sana verməz *səmər* əsla (H.Cavid); **SƏMƏRƏ** Əgər indi toxumlar yer üzərində qalsa, onlar tuluqlanıb donacaq, heç bir *səmərəsi* olmayacaq və fayda verməyəcəkdir (C.Cabbarlı); **SƏRFƏ** [Molla Nəsrəddin:] Mirzə Fərəc, əlifba məsələsi çoxdandır. Dəyişilməsi əski hökumətlərə *sərfə* deyil idi (S.S.Axundov).

FAYDALI (*müxtəlif mənalarda*) Sənət əsəri .. özündə yüksək və *faydalı* bir mənə daşımalıdır (M.Arif); **XEYİRLİ** [Direktor:] Mən ölüm, de görüm, bir stəkan al şərab *xeyirlidir*, yoxsa bir kinofilmə baxmaq?.. (Ə.İldırımoğlu); **MƏNFƏƏTLİ** [Yusif

Hümmətə:] Camaat üçün nə *mənfəətlidir*, gəlirlidir – onu əksin (B.Bayramov); **SƏMƏRƏLİ** Çox çəkmir ki, o [Abbas Sohhot], "hökim Abbasqulu" adı ilə məşhurlaşır, öz qayğıkeşliyi, tomonnasız *səmərəli* müalicələri, mehribanlığı ilə həmyerlilərinin sevimlisinə çevrilir (K.Talıbzadə); **SƏRFƏLİ** [Dərya:] ..adamın canına, ruhuna, əsəbinə bifayda mətləblərdən xali olsan *sərfəlidir* (B.Bayramov).

1. FAYDASIZ (*heç bir faydası olmayan*) [Rza:] Başqaları üçün işləməkdən, *faydasız* zəhmətdən ibarət olan gənc həyatıma mənə verən onun əşqini də mənə çox görürdülər (M.İbrahimov); **BARSIZ** (*məc.*) Kamal sahibləri mənsiz də barlı; Mən gərək barımı *barsıza* verim (X.Rza); **BİFAYDA** [Hatəmxan ağa:] O kitablara görə ki, Müsyö Jordan bu uzun qış onların məzmununu müttəsil bizə həkayət edibdir, doxi hamı zadı bu qərar ilə fərz eylə, *bifayda* Pariso getmək niyyətindən düş! (M.F.Axundzadə); **BİSƏMƏR** Toəssüf *hisəmərdir*, çün keçən keçdi, keçən keçdü; Ayıl bundan sonra qoyma keçə ömrün hədər, millət! (M.Ə.Möcüz); **HAVAYI** [Qulu:] Qulu heç vaxt *havayı* söz danışmamışdır (İ.Əfəndiyev); **XEYİRSİZ** Mənə *xeyirsiz* olduğuyçün bu kar; Ona bağlaram küfr adın zinhar (M.Ə.Sabir).

2. faydasız *bax* əbəs

feil *bax* **1.** iş **1**; **2.** hiylə

FEODAL (*iri torpaq sahibi*) Feodallar yıxmamış yurd, yıxmamış kənd qoymadı (M.S.Ordubadi); **DƏRƏBƏY(İ)** (*köhn.*) Burda şəhlar, *dərəbəylər*, xanlar; Şəni-şöhrət keçirən xaqanlar (S.Vurğun).

FEODALİZM (*tar.*) [David:] Horçəndi bəziləri kababı *feodalizm* dövrünün qalığı adlandırır (H.Abbaszadə); **DƏRƏBƏY(İ)-LİK** (*köhn.*) Bu dövr Azərbaycanda *dərəbəyliyin*, feodal dağınıqlığının ləğvi ilə sosiyyələnir (M.Arif).

fermaçı *bax* fermer **2**

fermaçılıq *bax* fermerlik **2**

1. FERMER, SAHİBKAR, TƏSƏRRÜFAT SAHİBİ

2. FERMER, FERMAÇI (*ferma icaraçi və ya sahibi*)

1. FERMERLİK, SAHİBKARLIQ, TƏSƏRRÜFAT SAHİBLİYİ

2. FERMERLİK, FERMAÇILIQ (*ferma sistemi*)

FƏAL Sona kimi bir neçə *fəal* gənclər içəri apardı (M.İbrahimov); **AKTİV** [Vahid:] Çünki bülbül *aktivdir*, gül passiv (M.İbrahimov); **ÇALIŞQAN** (*təhsildə və s.-də irəli gedən*) *Çalışqan* nəyə ol vursa, qızıl olar (Ata. sözü); **QABAQCIL** Bu pis adətə qarşı *qabaqcıl* yazıçılarımız da əsərlər yazmış və qan düşmənçiliyinin vəhşi mahiyyətini ifşa etmişlər (S.S.Axundov).

fəaliyyətsiz *bax* passiv

FƏALLAŞMAQ, AKTİVLƏŞMƏK

FƏALLIQ, AKTİVLİK, ÇALIŞQANLIQ, FƏALİYYƏT, QABAQCILLIQ

fəcl *bax* facioli

FƏDAİ (*inqilab yolunda canından keçən üsyançı*) Bir qəhrəman *fədaidən* söhbət açım mən (S.Vurğun); **MÜCAHİD** Qorxu bilmoz *mücahidlər*, bağrında yara; Atıldılar vuruşmalara vətən eşqilə (S.Rüstəm).

fəğan *bax* nalə, fəryad

FƏHLƏ Bəli, burda nəfəs alır *fəhlə*, mühəndis; Bərabərlik bəşəyidir bizim ölkəmiz (S.Rüstəm); **ƏMƏLƏ** (*köhn.*) ...bir şirkətlə müahidə bağlayıb *əmələ* sifəti ilə Fransaya göldim (Çəmənzəminli); **İŞÇİ** Mən *işçi* fırqəsi nümayəndəsiyəm (H.Nəzərli); **KARGƏR** (*kl.əd.*) Atam əllaf, babam dülgər idi; Qardaşım culfa, əmim *kargər* idi (M.Ə.Sabir); **PROLETAR** (*köhn.*) [Nina:] Əcəba hazırda min sökkiz yüz nəfərə qədər xalça fabrikası işçiləri mütəşəkkil *proletar* sayıla bilməzmi (M.S.Ordubadi).

fəhm *bax* idrak

fəxr *bax* iftixar

FƏQƏRƏ (*bel sümüyü, bel sütunu*) Məhəmmədhəsən əmi, söz yox, eliyə bilərdi ki, bu kişiyə qısaca cavab verib, heç ortalığa eşşək *fəqərəsi* gətirib söhbəti uzatmasın (C.Məmmədquluzadə); **ONURĞA.**

2. fəqərə *bax* əhvalat
3. fəqərə *bax* maddə **II**
fəqət *bax* amma
FƏLAKƏT (*bədbəxt hadisə*) [Əbülhəsən bəy:] Başına bir *fəlakət* gəlməmişdi ki (M.S.Ordubadi); **ACILIQ** (*məc.*) O, Alo ilə qabaq-qabağa oturub demi sümürdükləri halda bir-birinin üzünə baxarkən, bu *acılıqların* hamısı onların sifətlərində ifadə olunurdu (S.Rəhimov); **AFƏT** (*köhn.*) ...əkinçi həmişə başıbəlalı olur və az-az ittifaq düşür ki, onun əkini-tikininə bir yandan bir *afət* və bir bəla toxunmaya (C.Məmmədquluzadə); **BƏDBƏXTLİK** ...İndi isə vaxtımı iyirmi nəfər yetimlə keçirib, gələcək *bədbəxtliyi* gözləyirəm (M.S.Ordubadi); **BƏLA** Bir qətrə mübarək barmağının qanından çörəyə sürtüb naxoşa yedirdir; həmin saat *bəla* ondan rəf olur (Ə.Haqverdiyev); **FACİƏ** İki gün sonra məni daha artıq çaşdıran və *faciəyə* son qoyan bir hadisə vaqe oldu (M.İbrahimov); **XATA-BALA** (*dan.*) [Bayram:] Tarverdi axmaqdır, bu sözlərin hamısına inanacaq, sarsaqlıq edib özün salacaq *xatabalaya* (M.F.Axundzadə); **QİYAMƏT** (*məc.*) *Qiyamət* olacaq olsun, imam gələcək gəlsin, daha camaatın qabağını kəsməyin... (M.İbrahimov); **QOVĞA** (*köhn.*) [İnci:] Hökmran *qovğava* bais olmaram, alsın məni; Doğrasın ellər yolunda, zındana salsın məni (A.Şaiq); **MÜSİBƏT** [Fəxrəddin bəy:] Necə ki, atamın *müsibəti* bizi yandırır, elə də Rəşid bəyin ölümü atasını, qardaşını yandırır (N.Vəzirov).
fəllah *bax* əkinçi
1. FƏLSƏFƏ (*elm*); **FİLOSOFİYA** *Filosofiya* aləminə gəldikdə, qeyrilər dilənçiyə küçədə inanı verməyi nə üçün başa düşürlər düşsünlər... ancaq mənim bir balaca oğlum iki almasının birisini bir yetim uşağa verdi (C.Məmmədquluzadə); **HİKMƏT** (*köhn.*) Bixəbər olmuşuq şəriətdən; Başımız çıxmır elmi-*hikmətdən* (S.Ə.Şirvani).
2. FƏLSƏFƏ, FİLOSOFİYA (*metodoloji prinsiplər*)

fəlsəfəçi *bax* filosof
fənə *bax* pis
1. FƏND (*idm.*), **KOMBİNASİYA**
2. fənd *bax* hiylə
fəndbaz *bax* hiyləgər
fəndbazlıq *bax* hiyləgərlik
fəndgir *bax* hiyləgər
fəndgirlik *bax* hiyləgərlik
1. FƏNƏR (*dan. fanar*) Hava çox da qaranlıq deyildi və bununla belə əlimdəki *fənər* bir az da işıq salırdı (C.Məmmədquluzadə); **FANUS** (*köhn.*) *Fanusumu* dalanda yandırdılar verdilər əlimə... (C.Məmmədquluzadə).
2. fənər *bax* fara
fəraq *bax* ayrılıq
FƏRARİ (*əsgərlikdən və s.-dən qaçan*) [Nazir:] Bundan sonra *fərariləri* gizlədən bütün dağ kəndləri topa tutulacaq! (Ə.Məmmədxanlı); **DEZERTİR** [Məmməd:] Komendantlıqda mənim ordudan qaçıb *dezertir* olmağıma inanardılarmı? (H.Abbaszadə).
fərasətsiz *bax* fərsiz
fərd *bax* **1.** şəxs; **2.** xüsusi **1**; **3.** yalqız
fərdi *bax* şəxsi
fərəhləndirici *bax* ürəkaçan
fərəhləndirmək *bax* şadlandırmaq
fərəhlənmək *bax* şadlanmaq
fərəməz *bax* fərsiz
fərq *bax* təfavüt
FƏRQLƏNMƏK (*hənzəməmək, oxşamamaq*) Oğlun atadan, nəvənin babadan yaxşı cəhətdən *fərqlənməsi* o nəslin xoşbəxtliyidir (H.Abbaszadə); **SEÇİLMƏK** Çünki həyatda hər insanın öz yeri var, biri o birinə bənzəmir, nə ilə də ondan *seçilir* (H.Abbaszadə).
fərməyiş *bax* əmr **1**
fərsəng *bax* ağac **1**
FƏRSİZ (*əlindən iş gəlməyən*) [Gülbətin:] Məgər xanım, çox istədiyi böyük qızını demirəm, lap elə o *fərsiz* qızını.. işə getməyə qoyardı? (M.İbrahimov); **BİFƏR** Həmid də sanki şokildəki ana ilə danışır, üroyində ona "ay ana, mən *bifər* çıxdım, yarı yolda qolumu qoyub qayıtdım" deyirdi (H.Abbaszadə); **ƏFƏL** [İbişli:] Ada, o *əfəlin* biridir ki, kimdir onun adamı? (Anar); **ƏMƏZƏK** [Aslan:]

Əməzək arvad (S.Rəhman); **FƏRƏMƏZ** [Dilarə:] Ay *fərəməz*, belə bağlamazlar... (Anar); **YASSAR** [Rüstəm bəy:] Qorxma *yassar*, mərdanə ol... (N.Vəzirov); **YÖNSÜZ** [Hatəmxan:] *Yönsüz* oğul neylər ata malını (S.Rəhimov); **FƏRASƏTSİZ.**
FƏRYAD Badam xalanın *fəryadını* yalnız özü eşidirdi (M.Hüseyn); **AH-FƏRYAD** [Paşa bəy:] ..Bu qədər *ah-fəryad* eləməzdim (Ə.Vəliyev); **AH-NALƏ** O biri otaqda Səlimnaz arvadın *ah-naləsi* ucaldı (M.Hüseyn); **AH-ZAR** (*ahü zar*), **DAD-FƏRYAD** (dadü fəryad) Gör hesabın mən çəkdiyim azarın; Bu *dadü fəryadın*, bu *ahü zarın* (M.P.Vaqif); **FƏĞAN** [Abbas:] Gecə-gündüz qan ağlaram; Artıbdır *fəğanım* mənim ("Abbas və Gülgəz"); **VANƏFSA** (*köhn.*) Yol böyük *vanəfsa* səsi onları qamçı kimi qovurdu (Ə.Cəfərzadə); **VAVEYLA** Böyük bir *vaveyla* qopdu (A.Makulu); **NALƏ** (*bax*).
fərzənd *bax* övlad **1**
fəsadçı *bax* fitnəçi
fəsadçılıq *bax* fitnəçilik
fəsahət *bax* bolağət
1. FƏSİL (*ilin dörd fəslindən hər biri*) Yay *fəsli* girdikdə bacısına məktub yazıb hökimlərin qərarını ona bildirdi (S.S.Axundov); **MÖVSÜM** Yaz *mövsümü* çəməndə; Yasəməni açılmış? (M.Rahim).
2. FƏSİL, BAB 30 *babdan* (*fəsildən*) ibarət bu böyük əsərin kamil nüsxəsi itmişdir (M.Hacıyev); **BOY** (*dastanda*); **HİSSƏ.**
fəth *bax* **1.** işğal; **2.** qələbə
FƏVVARƏ Çarhovuzlarda *fəvvarələr* düzəldilmişdir (S.S.Axundov); **FONTAN** [Namiq qıza:] Bir saatdan sonra *fontanın* qabağında (Anar).
fic *bax* çəllək
1. FIR (*ağaclarda yumru şiş*) Palıd ağaclarının düyünləri və yumru *fırları* iroliyə doğru çıxırdı (S.Rəhimov); **MAZI** Ağacda var *mazılar;* Könlüm soni arzular.. (Bayatı).
2. fır *bax* şiş **I**
FIRIQ (*iş haqqında, pis*) [Valeh:] Sonra birdən yağış yenə başlar, işimiz *fırıq* olar (İ.Əfəndiyev); **XARAB** [Tarverdi:] Vay aman, atsa mənim işim *xarabdır!* (M.F.Axundzadə).
fırıldaq *bax* **1.** hiylə; **2.** fırıldaqçı
FIRILDAQÇI Bu elan bir dəstə *fırıldaqçını* şirnikdirir (H.Abbaszadə); **FIRILDAQ** [Fərrux Natiqə:] Ədə, sən başdan-ayağa *firıldaqmışsan* ki! (B.Bayramov); **JULİK** (*dan.*) [Minnətov:] Bəli, o, *julikdir* (R.Rza); **KAZİB** (*köhn.*) Məncə bu hökmü danan mürtəd, həm *kazibdir* (Ə.Qəmküsar); **LOTU** (*dan.*) [Mina:] O *lotular* olmasaydı, mən çoxdan pensiyanı alırdım.. (M.İbrahimov); **AFERİST, BİZNESMEN** (*məc.*), **ƏYRİ, HİYLƏGƏR** (*bax*); **HOQQABAZ** (*məc.*); **ZATIQIRIQ**
fırlandırmaq *bax* fırlatmaq **I**
1. FIRLANMAQ (*müxtəlif mənalarda*) [Pərviz:] ..cücələr pəncərə qabağına sıçrayır, yeşiyin ətrafında *fırlanır*.. (M.İbrahimov); **AYLANMAQ** [Rüstəm bəy:] Haradasan, oğul, belimi sındıran oğul? Yaraların yadıma düşəndə dünyavü-aləm başıma *aylanır*, bədənim od tutub yanır, başımdan tüstü çıxır... (N.Vəzirov); **DOLANMAQ** [Qurbanəli bəy] bir stəkan içib genə başladı *firlanmağa*, genə başladı *dolanmağa* (C.Məmmədquluzadə); **HƏRLƏNMƏK** Qoca ağacın dövrəsində *hərlənib* gövdəsinə yanaşdı.. (M.Rzaquluzadə).
2. fırlanmaq *bax* **1.** gəzinmək **1**; **2.** gəzişmək **1**
1. FIRLATMAQ Vaqif başını aşağı salıb barmağındakı oqiq üzüyü *firladırdı* (Çəmənzəminli); **HƏRLƏMƏK, FIRLAMAQ** ..harada və nə barədə söhbət düşsə, Çaydaşlı sözü *hərləyəcək, firlayacaq*, qətiyyət məsələsinə çıxaracaq (M.İbrahimov); **DOLANDIRMAQ, FIRLANDIRMAQ, HƏRLƏNDİRMƏK**
2. fırlatmaq *bax* tullamaq
fırtına *bax* tufan
fışqırtmaq *bax* çəkmək **3**
FIŞT(Q)IRIQ Çalınan çopikdən, *fiştırıq* səsindən qulaq batdı (H.Abbaszadə); [Qasım:] Hampaların *fişqırığına* oynayırsınız (İ.Əfəndiyev); **FİT** [Rəcəb:] Hər gün ana-

sından aldığı papirosları ciblərinə doldurub *fit* çala-çala böyük küçələrə gedirdi (A.Şaiq); **İSLIQ** Çınqıllı gədik hərdən sanki *ishq* çalır, "sizinlə işim yoxdur, keçin gedin" deyirdi (İ.Əfəndiyev).

FİDAN (*cavan budaq*) Bahərdə Abşeronun ədlu torpağından baş qaldıran qırmızı lalələrdən, yaşıl *fidanlardan*, payızda torpağa qarışan xəzan yarpaqlardan soruş... (Ə.Babayeva); **NİHAL** (*arx.*) Ey nəxləyi-vətən, əsəf olsun bu halına; Kim, bəxşi-tərbiyət edənin yox *nihalına*? (M.Ə.Sabir); **ZOĞ** Bu dediyimiz əvvəlinci iki yarpağın tən ortasından bir *zoğ* göyərməyə başladı (R.Əfəndiyev).

1. FİKİR, QƏNAƏT Belə bir *qənaət* var idi ki, artist mütləq suflyor altında getməlidir (S.Rəhman); **ƏQİDƏ** [Vəli:] Mənim *əqidəmcə*, duel haram bir əlamətdir (Ə.Haqverdiyev); **NÖQTEYİ-NƏZƏR** [İbrahim:] Doktor, papağın zərərini, kəsafətini bizdə ona bir "namus" və "müqəddəs" kimi baxılmağı və ekonomiya cəhtincə kəndliyə əlverişli olmadığını unudub, fəqət bir millətçilik *nöqteyi-nəzərdən* baxır (S.S.Axundov).

2. FİKİR Canıma olsun fəda bir də üzü gülməsə; Ta ki, o zehnindəki *fikirləri* silməsə (M.Ə.Sabir); **BAXIŞ** (*məc.*) Bu *baxışlar* Nadiri dəli edib çöllərə salır (Talıblı); **ƏFKAR** (*köhn.*) Yormuşdu bütün ruhumu, *əfkarımı* aləm (A.Şaiq); **QƏRAR** Heç bir təhlükə, heç bir qorxu [Firudini] *qərarından* döndərə bilmirdi (M.İbrahimov); **RƏVİYƏ** (*köhn.*) ..Mənim məram və *rəviyəmə* zidd olmuş və ölən hər bir kəsin öldürülməsini vacib bilmiş və bilirəm (M.İbrahimov).

3. fikir *bax* rəy **1**; ideya **1**

FİKİRLƏŞMƏK Qızıl Arslan da oturub bu məsələ üzərində *fikirləşdi*, həm də vəliəhdi gözləyirdi (M.S.Ordubadi); **DÜŞÜNMƏK** Bu sədən çıraq kimi gah yanır, gah sönürdüm; Dalıb neyin səsinə düşünür, *düşünürdüm* (B.Vahabzadə); **FİKRƏ CUMMAQ** Zeynəb qaranlıqda oturub, bu tövr *fikrə cumdu* (C.Məmmədquluzadə); **GÖTÜRQOY ETMƏK (ELƏMƏK)** Bütün əhvalatı o, dönə-dönə; *Götür-qoy eləyir* bir də dərindən... (B.Vahabzadə).

fikirli *bax* dalğın

fikriaçıq *bax* tərəqqipərvər

fikümla *bax* xülasə **1**

filfövr *bax* dərhal

filhal *bax* indi(cə)

filhaqiqə *bax* doğrudan

FİLİZ Ağacların, divarların qısa kölgələri ərimiş *filiz* kimi donub qalmışdı (A.Şaiq); **KÜLÇƏ.**

FİLM Rəngli "Arşın mal alan" *filminin* müəlliflləri daha texniki imkan və geniş ifadə vasitələrindən istifadə edə bildikləri üçün, rəng kimi yeni elementin zəngin təsir gücündən faydalana bildikləri üçün maraqlı, daha kamil əsər yaratmalı idilər (R.Rza); **KİNO** (*dan.*) Məndə, yalnız məndədir; Teatr, *kino*, futbol... (M.Rzaquluzadə); **KİNOFİLM** "Məşədi İbad" *kinofilminin* müvəffəqiyyət qazana bilmədiyi məhz Üzeyir sənətinin prinsiplərinə yad olan ələvələr, "təshihlər", dəyişmələrin acı nəticəsidir (R.Rza); **KİNOLENT, LENT** "Kənddə zavod" sənədli filmi məhz belə *kinolentlərdir*. Müsabiqənin qalibi olan, "Vavilon XX", "Ömrün tən yarısı", "Moskva göz yaşlarına inanmır", "Təsadüfi sərnişin" bədii *lentləri* "İşıq qabaqdadır" (Qəzetlərdən); **KİNOŞƏKİL** Əmiraslan baba.. belə *kinoşəkillərə* düşməyini, şöhrət qazanmağını istəyirdi (S.Rəhimov).

filməsəl *bax* məsələn

filologiya *bax* dilçilik

filoloq *bax* dilçi

FİLOSOF [Qətibə:] *Filosoflar* mənim bu fikrimi özləri üçün təhqir hesab etməsinlər (M.S.Ordubadi); **FƏLSƏFƏÇİ** [Qətibə:] Nə üçün də hikmətçilər, *fəlsəfəçilər* həyat dediyimiz bu mənalı varlığın nə olduğunu bilməlidirlər? (M.S.Ordubadi); **HƏKİM** (*kl.əd.*) O *həkimü* ədibü şair idi; Şeir fənnində xeyli mahir idi (S.Ə.Şirvani); **QƏLƏNDƏR** (*Şərqdə, dünyanın nemətlərinə inanmayıb, "həqiqəti" axtaran filosof*) (*köhn.*) Həm mən *qələndər* surətəm, fərdəm, mücərrəd təcri-

dəm; Oldum fəqirü həm gədа, həm mülkə sultan gəlmişəm (Nəsimi); **MÜTƏFƏKKİR** Lakin bu *mütəfəkkirlərin* çoxu materializmə bütöv bir dünyagörüşü kimi yiyələnə bilməmiş, dinə, idealizmə qarşı mübarizədə böyük tərəddüdlərə, ciddi büdrəmələrə və səhvlərə yol vermiş... mütərəqqi və materialistcəsinə səsləşən baxışlarını sistemləşdirə bilməmişdir (F.Qasımzadə).

filosofiya *bax* fəlsəfə

firavanlıq *bax* rifah

firiştə *bax* mələk **1**

firqə *bax* partiya **1**

firqəçi *bax* partiyaçı

firqət *bax* ayrılıq

fisq *bax* əxlaqsızlıq

fisqü fücur *bax* əxlaqsızlıq, fahişəlik

FİŞƏNG Axşamdan bəri heç bir yandan səs gəlmirdi. Yalnız arabir *fişəng* atılırdı (M.Hüseyn); **TARAQQA** Baybura böyük şənlik düzəltmişdi. Qavaldaş döyülürdü. *Taraqqalar* çatladılırdı (Anar).

fişəngbazlıq *bax* atəşbazlıq

1. FİT, SİQNAL

2. fit *bax* fıştırıq

fitil *bax* piltə

1. FİTNƏ Rəna bilməyirdi *fitnə*, iftira; Zil qara söyləyirdi qar kimi ağa (M.Rahim); **FƏSAD** Dedi: – Kim yol verdi belə *fasada?* (M.Rahim); **FİTNƏ-FƏSAD** [Məcid] çox *fitnə-fasad* sevən adamdır (B.Talıblı); **İNTRİQA** Bəylər də ona qarşı *intriqalar* çevirdilər... (Çəmənzəminli).

2. fitnə bax hiylə

fitnəçi *bax* fitnəkar

fitnəçilik *bax* fitnəkarlıq

fitnə-fəsad *bax* fitnə **1**

FİTNƏKAR (*fitnə törədən*) Ağcaqum çöllərində *fitnəkar* ingilislər; İnsan qanını soran canavar ingilislər... (S.Rüstəm); **ARAQARIŞDIRAN, PROVOKATOR** "*Provokator*" – "*araqarışdıran*", "xuliqan" – "yaxşını pis qələmə verən" mənasına tərcümə etsəniz "*provokatorlar*".. "xuliqanlar" yoqin ki, mütərcimlərdən şikayət edərlər, böylə "gözəl" sifətlərdən onları məhrum etmək insafdan kənardır, zənn ediriz (N.Nərimanov); **FASİQ** Dərlərsə əgər işbu səbəbdən mənə *fasiq*: Pək müftəxirəm mən də bu alicəlqəb ilə! (M.Ə.Sabir); **FƏSADÇI** [Baş nazir şəhə:] *Fəsadçıların* başında duran yalnız Süleyman Mirzə deyil (A.Makulu); **FİTNƏÇİ** ...*Fitnəçi* gözünü aynaya açıb baxırdı (M.S.Ordubadi); **İBLİS** (*məc.*) Yer üzündə nə xoyanət, nə də *iblis* qalacaqdır (S.Vurğun); **MÜFƏTTİN** (*arx.*) Mühərrirlər, *müfəttinlər* usanmazlar, utanmazlar; Yazarlar hərzələr, əfsanələr, həcvyanlar, insanlar! (M.Ə.Sabir); **ŞEYTAN** (*məc.*) *Şeytana* rast gəlməsən nə var ki (H.Nəzərli); **İĞTİŞAŞÇI, İNTRİQAÇI, İNTRİQAN.**

FİTNƏKARLIQ İblis kimi yerə batsın ölü ilə *fitnəkarlıq;* Həyat ilə zinət tapıb nəfəs alsın bütün varlıq (S.Vurğun); **FİTNƏÇİLİK** Qəhrəmanov – o bir bəyin oğludur; *Fitnəçilik* onun əsas yoludur (M.Müşfiq); **PROVOKASİYA** Vətəndən əlaqəsi kəsilmiş Celil, Parij mətbuatında dərc edilən *provokasiya* xəbərləri mütəlif edərkən mütəəssir olardı (S.S.Axundov); **FƏSADÇILIQ, İBLİSLİK.**

fitrət *bax* **1.** xilqət; **2.** xasiyyət

FİTRİ [Həzrət:] Doğrudur, *fitri* istedad çox lazımlı və gözəl bir keyfiyyətdir (M.Hüseyn); **ANADANGƏLMƏ** [Mürşüd:] Adamda gərək qanacaq *anadangəlmə* olsun (S.Rəhman); **TƏBİİ** Hüseyn öz *təbii* gözəlliyə malik səsinə hakim .. bir aktyor idi (S.Rəhman).

FLEYTA, YAN TÜTƏYİ Mən cavab verdim ki, bunlar *fleytadır*, yəni *yan tütəyi* (C.Məmmədquluzadə).

flora *bax* nəbatat **1**

fokus *bax* həqqa **1 1**

FOLKLOR, AĞIZ ƏDƏBİYYATI (*dan.*), **ŞİFAHİ ƏDƏBİYYAT, ŞİFAHİ XALQ YARADICILIĞI, XALQ ƏDƏBİYYATI**

FOLKLORÇU, FOLKLORŞÜNAS (*folklor mütəxəssisi*)

fontan *bax* fəvvarə

1. FORMA, QURULUŞ, STRUKTUR, TİP

2. FORMA, RƏSMİ GEYİM

3. forma *bax* ülgü

formal *bax* rəsmi

formalist *bax* rəsmiyyətçi

formalizm *bax* rəsmiyyətçilik

FORMASİYA (*siyasi*), **QURULUŞ, SİNİF**

FORMUL (*riyaz.*), **DÜSTUR**

fors *bax* əda **1**; iddia, lovğalıq

forslanmaq *bax* lovğalanmaq

forslu *bax* ədabaz; lovğa

fort *bax* qala **1**

forvard *bax* hücumçu **2**

foto *bax* fotoşəkil

1. FOTOQRAF Gənc qadın Lu De-sinin yaxınlığından ötüb keçərkən, o bir an gözlərini *fotoqrafa* zillədi, Lu De-sin diksindi (S.Vəliyev); **ƏKKAS** (*köhn.*) *Əkkas* gedəndən sonra evə bir matəm sükutu çökmüşdü (Ə.Hacızadə); **FOTOQRAFÇI** Şairanə bir ruha malik olan *fotoqrafçı* həqiqətən çox əmək sərf etmiş, mahir bir rəssam qədər canlı və qiymətli bir lövhə yaratmışdır (A.Şaiq); **ŞƏKİLÇƏKƏN** *Şəkilçəkən* ona iki gündən sonra saat on ikidə gəlməyi tapşırdı (B.Bayramov); **ŞƏKİLÇİ** Bilir mahir *şəkilçi*. Nə çəkir, nə düzəldir, Əndamına sözüm yox; Mərmər kimi gözəldir (M.Rahim).

2. fotoqraf *bax* fotoqrafiya **1**

fotoqrafçı *bax* fotoqraf **1**

fotoqrafxana *bax* fotoqrafiya **1**

1. FOTOQRAFİYA (*şəkil çəkmək və hazırlamaq üçün emalatxana*); **FOTOQRAF, FOTOQRAFXANA**

2. fotoqrafiya *bax* fotoşəkil

FOTOŞƏKİL (*aparatla çəkilmiş şəkil*) Redaksiya rəssamı *fotoşəkli* çox qaşıyıb düzəliş etdiyi üçün Salah özünə az oxşayırdı (H.Abbaszadə); **ƏKS** Bütün şəkillər də hamısı eyni biçimdə, eyni boyda idilər və burada da yalnız birco şəkil – ortadan asılmış gənc gülüş sifətli oğlanın *əksi* o birilərindən dəfələrlə iri idi (Anar); **FOTO** *Foto* tünd rəngli çərçivədə idi (Anar); **FOTOQRAFİYA** ...qız *fotoqrafiyalarını* seyr edib, gəlib oturdu (Çəmənzəminli); **ŞƏKİL** (*dan.*) [Zeynal:] Kişi *şəklin* xarab çıxdığını söylədi (B.Bayramov).

föhe *bax* söyüş

fövs *bax* **1.** camaat; **2.** dəstə **1 1**

1. FÖVQƏLADƏ O, əhmədin həmişəki kimi yox, olduqca *fövqəladə* bir şəraitdə, gözəl bir əsər yazdıqdan sonra görmək istəyirdi (M.Hüseyn); **AĞLAGƏLMƏZ** Hamı *ağlagəlməz*, nəhəng bir təkərin altına düşmüşdü, öz canının hayında idi (M.İbrahimov); **XARİQÜLADƏ** Mehriban Zeynaldan belə bir təklif eşidəcəyini təsəvvür etməmişdi.. Boşanmaq təklifi onun üçün *xariqüladə* bir şey idi (S.Hüseyn); **QEYRİ-ADİ** Qətibə onun gözlərinə baxdığı zaman onda *qeyri-adi* bir düşüncə doğduğunu dərhal hiss edərək qorxdu... (M.S.Ordubadi).

2. FÖVQƏLADƏ, NÖVBƏDƏNXARİC, NÖVBƏDƏNKƏNAR, TƏCİLİ

fövrən *bax* təcili, dərhal

fövri *bax* təcili

FÜRSƏT Yaxşı *fürsət* idi. Mordan kişi bu *fürsəti* əldən vermək istəmədi (X.Hasilova); **GİRƏVƏ** [Nadir:] Əlimə yaxşı *girəvə* düşüb, gör sənin isti aşına necə soyuq su qatıram, yoldaş Gülcamal (M.İbrahimov); **QƏNİMƏT** Bir belə .. şəxs ilə qohum olmaq elə bir *qənimətdir* ki, dünyada az-az adama qismət ola bilər (C.Məmmədquluzadə); **VƏSİLƏ** Şərh edəsən ona dərdi-dilimi; Bir *vəsilə* sala tarı görəsən (Q.Zakir).

füsun *bax* cadu **1**; sehr

füsunkar *bax* məftunedici

füzul *bax* naqqal

füzulluq *bax* naqqallıq

füzun *bax* çox

Gg

gahbagah *bax* arabir

gah-gah *bax* arabir

gap *bax* söhbət **1**

gapamaq *bax* döymək **1**

gaplamaq *bax* danışmaq

gar *bax* oxlov

gav *bax* öküz

gavur *bax* kafir

GEC (*qeyri-münasib vaxt*) [Könül] evdən çıxanda tapşırdı ki, ondan nigaran qalmasınlar. *Gec* qayıdacaq (X.Hasilova); **BİVAXT** Mordan şəhərə *bivaxt* döndü (Mir Cəlal); **ƏRƏZƏN** (*dial.*) Bu il pambıq *ərəzən* əkilib (ADDL); **VAXTSIZ** Qarış.. axşam evə *vaxtsız* qayıdırdı (Ə.Vəliyev).

GECƏ Şahsuvar *gecənin* qoynunda sakin; Qəlbində intiqam, gözlərində kin (S.Vurğun); **ŞƏB** (*kl.əd.*) Görür məclislər içrə şəmi, hər *şəb*, yar ağyarə; Onunçün yanmağın tərkin qılır bünyat pərvanə (Natəvan).

gecəgəzən *bax* yarasa

1. GECƏ-GÜNDÜZ, BÜTÜN GÜNÜ, GECƏ VƏ GÜNDÜZ, HƏMİŞƏ

2. gecə-gündüz *bax* gün **1 1**

gecəquşu *bax* yarasa

GECƏLƏMƏK (*bir yerdə axşamlayıb qalmaq*) [Qafar:] Meşənin dərinliyinə enər, ağacların altında *gecələyərdik* (H.Abbaszadə); **AXŞAMLAMAQ** Köçəri quş kimi hər yerə uçar; Harda *axşamlasa* orda da yaşar (S.Vurğun); **MƏNZİL ETMƏK** [Əbülhəsən bəy:] Mən Qulamoli adlı bir kişinin evində *mənzil etmişəm* (M.S.Ordubadi).

GECİKDİRMƏK [Xədicə:] Xoca Zığzığ da yenə məaşları *gecikdirir* (Anar); **LƏNGİTMƏK** [Mahmud bəy:] Həcəri alacaq... mənə bax kişi; Bu qədər *ləngitmək* olmaz bu işi (S.Rüstəm); **YUBANDIRMAQ** [Biqəm:] Yaxşı Xoca Zığzığ, maaşımızı *yubandırsan*, canın cəhənnəm, mənə bir üç manat əlbərcə ver (Anar); **YUBATMAQ** [Əbu Übeyd:] Otuz min əsgərdir. Bu gün gəlmiş, sabah cəbhəyə gedəcəkdir. Xilafətdəki daxili çəkişmələr məni on il *yubatdı* (C.Cabbarlı).

GECİKMƏK [Gülüş:] Ah, ata, son *gecikdin;* anam soni gözlədi (M.Hüseyn); **YUBANMAQ** [Sadovski:] Siz bunları cənab şahzadəyə yazmalısınız, onların Bakıya gəlmək üçün birco gün *yubanması* mədəniyyəti on illərcə geri atır (M.S.Ordubadi); **LƏNGİMƏK** [Şirin:] Rüstəm bəy həmişə müəyyən vaxta nəçə dəqiqə qalmış hazır olar, bəs, görəsən, bu gün niyə *ləngidi?* (Çəmənzəminli).

gec-tez *bax* əvvəl-axır

gen *bax* **1.** uzaq; **2.** geniş **1**

GENERAL (*hərbi rütbə*) Qaçdı arvad paltarında uzun bığlı *generallar* (S.Vurğun); **SƏRTİB** (*köhn.*) Onun bir gözündə.. sarhonlar, *sərtiblər*, xofiyyələr, zindanlar, neft konsersumu.. canlanırdı (M.İbrahimov).

1. GENİŞ [Kamil] enli və *geniş* bir küçəyə çatanda böyük evlərin birində bir neçə pəncərədən işıq gəldiyini gördü (Y.Şirvan); **ENLİ** Hafizəsində isə böyük *enli* bir küçə kimi yaşayırdı (M.İbrahimov); **GEN** Kölgəli *gen* küçə ilə bir qədər qədəndən sonra hambal girdi məhmanxananın dalına (C.Cabbarlı).

2. geniş *bax* ucsuz-bucaqsız

genosid *bax* soyqırımı

gerçək *bax* doğru **1**

gerçəkdən *bax* doğrudan

gerçəklik *bax* həqiqət

1. GETMƏK [Kərim baba:] Tüfəngimi götürüb *getdim* (A.Şaiq); **AZİM OLMAQ** (*kl.əd.*) Culfa yolu ilə Təbrizdən keçib, Nəcəfüləşrəf şəhərinə *azim olacaq* (C.Məmmədquluzadə); **ÇIXMAQ** Azər şəhərə *çıxdı* (Ə.Kərim); **DABAN ALMAQ** (*fr.v.*) [Qəndab:] Ancaq ayaqlarım getmir, qəhər məni boğurdu. Ayrı əlac yox idi. Asta-asta *daban aldım* (B.Bayramov); **DƏYMƏK** (*məc., dan.*) [Həmid:] Məhmanxanada yerimi öyrənib əvvəlcə limana *dəyəcəkdim* (H.Abbaszadə); **İRƏLİLƏMƏK** Və bir-birinin ardınca düzülmüş dörd maşın qaranlıqda ağır-ağır *irəliləyirdi* (İ.Əfəndiyev); **İTİLMƏK**

(*dan.*) [Əbdürrəhman bəy:] A gədə, Əbdürrəhim, sən atayın goru tez bir çubuq ver, durum *itilim* buradan (N.Vəzirov); **RƏDD OLMAQ** (*dan., vulq.*) Əl çək yaxamızdan, itil, idbar dilənçi! *Rədd ol* qapımdan, ağlama zar-zar dilənçi! (M.Ə.Sabir); **TƏRPƏNMƏK** [Nərgiz:] Tez ol ata, deyəsən anagilin dəstəsi *tərpənir*.. (Ə.Məmmədxanlı); **ÜZ QOYMAQ** Onlar yolun ortası ilə məhkəmə binasına sarı *üz qoydular* (H.Abbaszadə); **VARMAQ** Odur ki, bu ayrılıq çağında mən *varıram:* Atamın daxmasına tək səni aparıram (M.Rəhim); **YERİŞ ETMƏK** Bu sözlərdən sonra qalxdı və heç bir şey söyləməyib ev tərəfə *yeriş etdi* (N.Nərimanov); **YOL ALMAQ** Səhər tezdən biz Sabir sovxozuna *yol aldıq* (İ.Əfəndiyev); **YOL BAŞLAMAQ** Səba xanım Əfifəyə mehribancasına bir razılıq verdi; əlindən tutub yelkənə çıxardı və şəhərin qərb tərəfinə *yol başladılar* (M.S.Ordubadi); **YOL ETMƏK (ELƏMƏK)** [İlyas] qəmli bir halda qəbrin üzərindən qalxdı, qəbiristandan çıxıb Xanəgah kəndinə doğru *yol elədi* (M.S.Ordubadi); **YOLA DÜŞMƏK** ...Alo *yola düşdü* (S.Rəhimov); **YOLA DÜZƏLMƏK** Ayazlı, şaxtalı bir qış axşamı; Yeddi yoldaş olub, *yola düzəldik* (S.Vurğun); **YOLA RƏVAN OLMAQ** Şeylər furqona qoyulduqdan sonra rəfiqəm əlvida edərək furqona mindi və "sümsükut" orucunu tutub *yola rəvan oldu* (S.S.Axundov); **YOLLANMAQ** Zəhra çadrasız qapıdan çıxıb hara isə *yollandı* (M.İbrahimov); **YÖNƏLMƏK** [Qəmər] ..qıvrılıb açılan cığır ilə kəndə *yönəldi* (S.Rəhimov).

2. getmək *bax* yerimək

3. getmək *bax* ölmək

geyim *bax* paltar

geyimli *bax* paltarlı

geyinib-kecinmək *bax* bəzənmək

geyişmək *bax* gicişmək

gəbərmək *bax* ölmək

gəbərtmək *bax* öldürmək

gəcrəftar *bax* bədxasiyyət

gədə *bax* **1.** dilənçi, yoxsul; **2.** nökər

gədə *bax* **1.** oğlan; **2.** oğul; **3.** nökər

gədik *bax* aşırım

1. GƏLƏCƏK Boylanıram yaxın bir *gələcəyə* (S.Vurğun); **İSTİQBAL** [Nümayəndə:] Yaşasın Şərq qadını və onun parlaq *istiqbalı!* (Ə.Haqverdiyev).

GƏLƏCƏK ZAMAN (*qram.*); **İSTİQBAL** (*köhn.*)

2. gələcək *bax* tale **2**

1. GƏLİN (*toy edilib ərə gedən qız*) Salınıb gəl bizə, *gəlin;* Ağ üzündə siyah telin (Aşıq Abbas); **ƏRUS** (*kl.əd.*) Bu gün sən özünə gəlin gətirirsən, sən bu gün eyş-işrətdəsən.. (C.Məmmədquluzadə).

2. gəlin *bax* gəlincik

GƏLİNCİK Velosiped yarışına çıxan kimi, *gəlinciyini* çarpayı üstünə atan kim, hovuza qayıq salan kim... (Ə.Qasımov); **DİG** (*məh.*) Məsmə, sənin *digin* qızdır, gəl bir oğlan *digi* də qayıraq (A.Şaiq); **GƏLİN** ..Sən tək qızlar hələ *gəlin* oynadır (C.Məmmədquluzadə); **KUKLA** Kərim dayı professorun qəzetlərini çantadan çıxartmaq istəyəndə, kağıza bükülmüş iri *kuklanı* səkinin qırağına qoydu (M.İbrahimov); **BƏBƏ, GODUL.**

gəlintacı *bax* başlıq **1**

GƏLİR (*əldə əlavə edilən pul, qazanc*) [Dövlət bəy:] Ayda iki yüz min manat *gəlirim* var (C.Cabbarlı); **DAŞBAŞ** (*dan., nifr.*) (*ayrı yolla əldə edilən gəlir*) Bu sən öl, indi maşınlardadı *daşbaş,* yana dur; Yeri get, müştərimə eyləmə göz-qaş, yana dur! (Hüseyn Nadir); **KƏSB** İsmayılov .. öz *kəsbi* ilə özünü və ailəsini bir növ dolandırırdı (Ə.Haqverdiyev); **MƏDAXİL** Onun qabaqlarda ildə yarım milyon tək bircə neftdən *mədaxili* olardı (C.Məmmədquluzadə); **VARİDAT** (*bütün gəlir*) Bu vəzifələrin verdiyi imkanlardan nəinki istifadə edib varlana bilməmiş, hətta, atadanqalma az-çox *varidatını* da itirmişdi (M.İbrahimov).

GƏLMƏK Vəlişlə Qarabirçək dözə bilməyib Kübragilə *gəldilər* (Ə.Vəliyev); **AYAQ BASMAQ/QOYMAQ** [Vəzir məktubu oxuyur:] *Basma ayağını* bizim torpağa:

İlandan, əqrəbdən yar ola bilməz (S.Vurğun); **BUYURMAQ, QƏDƏM BASMAQ/QOYMAQ** Dün naz ilə *qədəm basanda* bağa; Şümşadü sonubər düşdü ayağa... (Q.Zakir); **DƏYMƏK** (*dan.*) [Qarı:] Sabah bir bura *day,* mənim sağımda bir qız yaşayır (S.Vəliyev); **TƏŞRİF GƏTİRMƏK/BUYURMAQ** Molla əmi, and olsun sənin canına, gəlmənəm; sən qabaqca bizə *təşrif gətirməsən,* mən sizə gəlmənəm (C.Məmmədquluzadə).

gəm *bax* vəl

gəmədə *bax* hamam

GƏMİ *Gəmi* cisrin altından üzüb keçdi, Bağdadın "Şəhər-Mənsur" deyilən hissəsinə yaxınlaşmağa başladılar (M.S.Ordubadi); **KƏŞTİ** (*köhn.*) Kəmali-yəs ilə məhrum olub bir yanda əyləşdim; Alıb bir *kəştiyə* doldurdular tay-tay hürriyyət (M.Ə.Sabir); **SƏFİNƏ** (*köhn.*) Ey vah!.. Ənqərib bu əmvacikibriya; Bir sahilə *səfinəmizi* zövq edərmi ya? (A.Şaiq).

GƏMİÇİ Bunun üçün də *gəmiçini* razı eləmək lazım gəlirdi (M.S.Ordubadi); **GƏMİ SÜRƏN** Əmrahın birinci güllosi, *gəmi sürəni* yıxdı (M.Hüseyn); **KƏŞTİBAN** (*arx.*) Oxurkən xətti məlum oldu *kəştibanı* qərq olmuş... (M.Ə.Sabir).

gəmik *bax* sümük

gənc *bax* cavan

gəncəfa *bax* qumar

gəncləşmək *bax* cavanlaşmaq

GƏNCLİK Keçdi *gənclivimdən,* ötdü bir bahar; Keçdiyim yollara baxdım bir daha (S.Vurğun); **BAHAR** (*məc., şair.*) Ömrün *bahar* çağı (ADİL); **BAHARISTAN** (*şair.*) Dəbistan bir *baharıstan,* onun əsmari ürfandır (M.Hadi); **CAHILLIQ** (*dan.*) [Qara kişi:] Sədrimizin nə vecinə? Kəhər atın belində *cahıllıq* eləyir (S.Rəhman); **CAVANLIQ** Sevgiyə qılınc çalan öz *cavanlıq* surəti; Eşqə düşmən ayrılıq... Dönüklüyün möhnəti (M.Rəhim); **ŞƏBAB** (*kl.əd.*) Ki, *şəbabın* üzü bir gün güləcək; Ağlayan gözləri oxşar siləcək (S.Vurğun).

gənəşik *bax* məsləhət **1**

gənəşikli *bax* məsləhətli

gənəşmək *bax* məsləhətləşmək

gər *bax* əgər

gərçi *bax* hərçənd

gərdan *bax* boyun

gərdənbənd *bax* boyunbağı **1**

gərdənlik *bax* boyunbağı **1**

gərəkli *bax* lazımlı

gərəksiz *bax* lazımsız

1. GƏRGİN (*iş, zəhmət və enerji tələb edən*) *Gərgin* işlə açırsan; Son zamanlar səhəri (M.Seyidzadə); **QIZĞIN** Bu *qızğın* fəaliyyət zamanı Yavər də, Mədinə də rəssamı unutmuş kimi idilər (M.İbrahimov); **İNTENSİV.**

2. GƏRGİN, AĞIR, ÇƏTİN (*vəziyyət haqqında*)

gərginləşmək *bax* ağırlaşmaq **2**

gərm *bax* məşğuliyyət

GƏRNƏŞMƏK [Gülbadam] heç bir şey söyləməyib bir az *gərnəşdi*.. (N.Nərimanov); **QACINMAQ.**

gəvələmək *bax* yemək **1**

gəvəş *bax* raxit

gəvəzə *bax* naqqal

gəvəzələmək *bax* naqqallamaq

gəzənə *bax* gicitkən

1. GƏZİNMƏK (*otaqda o baş-bu başa getmək*) Soltan bəy acıqlı-acıqlı ora-bura *gəzinir* (Ü.Hacıbəyov); **FIRLANMAQ** Gənc bir doktor daima [Yaqutun] başı yanında *firlanırdı* (Ə.Məmmədxanlı); **GƏZİŞMƏK** ..Hacı Xuduş otaqda o tərəf-bu tərəfə *gəzişir* (H.Nəzərli); **GƏZMƏK** Cavan bir general *gəzir* otaqda.. (M.Rəhim); **HƏRLƏNMƏK** Şübhanverdizadə *hərlənib* əlini zəngin düyməsinə dayadı.. (S.Rəhimov); **VAR-GƏL ELƏMƏK (ETMƏK)** Rəhimzadə papirosunu yerə çırpdı. Otaqda *var-gəl etməyə* başladı (M.Hüseyn).

2. gəzinmək *bax* gəzmək **1**

3. gəzinmək *bax* gəzişmək **1**

1. GƏZİŞMƏK (*açıq havada istirahət məqsədi ilə gəzmək*) [Əbülhəsən bəy:] Mən

Nina və konsulun qızları ilə birlikdə *gəzişdik* (M.S.Ordubadi); **FIRLANMAQ** [Qurban:] Heç, elə bazara çıxdım, bir az *firlandım*, qayıtdım (Ə.Haqverdiyev); **GƏZİNMƏK** Qüdrət sahildə nə qədər *gəzindiyini* bilmədi (M.Hüseyn); **SEYRƏ ÇIXMAQ** *Seyrə çıxar* uşaqlar; Göy çəməndə oynaqlar (A.Səhhət).

2. gəzişmək *bax* gəzinmək **1**

1. GƏZMƏK Nahar yeməyindən sonra onlar bir daha Mədain xərabələrini *gəzdilər*, sonra da Bağdada qayıtmaq üçün gəmiyə oturdular (M.S.Ordubadi); **DOLANMAQ** [Qəndab] asta-asta həyət-bacanı *dolanır*, bir kölgədə oturub Çingiz qağanın gətirdiyi yeni kitablarla dərdləşməyə başlayırdı (B.Bayramov); **DOLAŞMAQ** Onlar qayıdıb bir daha *dolaşdılar* (M.S.Ordubadi); **GƏZİNMƏK** Dağların döşündə *gəzinən* çoban; Dərdlənib neyini çaldığı zaman... (S.Vurğun); **GƏZİŞMƏK** Gəl çıxaq dağlara *gəzişək*, dalaq; Dövranımız kimi bəxtiyar olaq (M.Rahim); **GİRLƏNMƏK** Nəbi Naxçıvanda bir az *girlənib*. İsmayılın yerini öyrənməyə çalışırdı.. ("Qaçaq Nəbi"); **SEYR ETMƏK (ELƏMƏK)** Çıxalım Buzovnada küçük qayalıqlara; *Seyr edəlim* bir ara.. (M.Müşfiq).

2. GƏZMƏK [Sonubər:] Əlbəttə, bütün dünyanı *gəzmək*. görmək yaxşıdır (B.Bayramov); **SƏYAHƏTƏ ÇIXMAQ** [Gündüz Gülüşə:] Bax, baba, biz dünən məktəbdə uşaqlarla dünya *səyahətinə çıxmışdıq* (C.Cabbarlı).

3. gəzmək *bax* **1.** axtarmaq; **2.** gəzinmək **1**

gic *bax* səfeh, ağılsız

gicbaş *bax* gic

gicbəsər *bax* gic

GİCİŞMƏK Həmidin əli *gicişirdi*.. (H.Abbaszadə); **QARTDANMAQ** (*dan.*) Mirzə *qartdana-qartdana* soyunub yatdı (Çəmənzəminli); **AYIŞMAQ, GEYİŞMƏK, QAŞINMAQ.**

gicləşmək *bax* səfehləşmək

giclik *bax* səfehlik

gico *bax* girdab

GİLAS (*ağacı və meyvəsi*) El bilir bu gün; Məndən şöhrətli; Qədir-qiymətli; Meyvə tapılmaz; Adımdır *gilas* (M.Seyidzadə); **GİRAZ** (*ərz.*) [Sitarə:] Bizdən azacıq uzaq bir *giraz* ağacı altında oturdular (A.Şaiq).

GİLAVAR Yüngül və soyuq *gilavar* əsirdi (Y.Əzimzadə); **CƏNUB KÜLƏYİ** Otağa *cənub küləyinin* ilıq şüaları dolur, beləliklə, ev bir az daha qızırdı (Ə.Əbülhəsən).

GİLEY, ŞİKAYƏT Bir təbəssüm, bir gülüş; Min bir hekayət deyir; *Giley, şikayət* deyir (M.Rahim); **GİLEY-GÜZAR** [Vahabzadə:] Bilirdim ki, anam bu sözləri qatmaqda *giley-güzardan* qurtarmaq istəyir.. (C.Əlibəyov); **GİLEY-KÜSÜ** Danışdıqca Zeynəbin səsi titrəyirdi, bu titrəyişdə .. *giley-küsü* vardı (M.İbrahimov).

giley-güzar *bax* giley

giley-küsü *bax* giley

GİLEYLƏNMƏK Müsavat hökumətinin baş naziri Qarabağ general-qubernatorunun işindən bərk narazılıq eləyir, boylərdən *gileylənir*.. (Ə.Vəliyev); **AZAYLANMAQ** (*məh.*) [Ağsaqqallardan biri:] Yoxsa Safo *azaylansa* da bu qohumluqdan içi gülür.. (S.Rəhimov); **GİLEY-GÜZAR ELƏMƏK** [Mürşüd:] Sadıq, bizim arvad məndən çox *giley-güzar* elədi (S.Rəhimov); **ŞİKAYƏTLƏNMƏK** [Rəfiq:] ..ayaq üstə durmağa taqətim yoxdur, – deyərək rəfiqim *şikayətlənir* (S.S.Axundov); **NARAZILIQ ETMƏK/ELƏMƏK.**

gileyli *bax* narazı

1. GİLƏ, DƏNƏ (*üzüm giləsi*)

2. gilə *bax* damcı

gilə-gilə *bax* damcı-damcı

GİLƏNAR (*meyvə və ağacı*) Gülərüzlü qızların oydu başının tacı; Salamlayardı onu hər *gilənar* ağacı (M.Rahim); **ALBALI** Aslan bayaq yerə atdığı *albalı* budağını yaşıl otların arasından tapdı, iri-şirəli albalıları bir-bir yeməyə başladı (M.Hüseyn); **VİŞNƏ** (*dan.*) Hər ikisi əl-ələ, qol-qola verib çarhovuzun üstündən düşüb gəldilər *vişnə* ağacının altına ("Simanın nağılı"); **TURŞ GİLAS.**

giləndar *bax* həşiyə

gillətmək *bax* içmək

gir *bax* güc

girami *bax* sevimli **1**, oziz

giranbaha *bax* bahalı

giraz *bax* gilas

GİRDAB Yenədəmi kəndimizi yüz min dərə-təpələrə, yüz min quyulara, *girdablara* .. mübtəla etmək istəyirsiniz (N.Nərimanov); **BURULĞAN** De, azmı həyatın qasırğasında; Düşdü *burulğana*, tufana könlüm? (M.Rahim); **GİCO** (*dan.*).

1. GİRDƏ Bu, qulaqları kosik, iri quyruqlu, *girdə* başlı, boz bir köpək idi (Ə.Sadıq); **YUMRU** Surxay bu sözləri istehzalı bir təbəssümlə qarşıladı, onun *yumru* yanaqları qızardı.. (Çəmənzəminli); **YUVARLAQ** İki dağın arasından çıxıb, *yuvarlaq* daşlara toxunaraq gurultu və nərilti ilə axırdı (Çəmənzəminli).

2. girdə *bax* dairəvi

girdirmək *bax* soxmaq

girəcək *bax* **1.** qapı **1**; **2.** astana

girəvə *bax* fürsət

giriftar *bax* mübtəla **1**

giriftarlıq *bax* mübtəlalıq

1. GİRİŞ, DAXİL OLMA, GİRMƏ, İÇƏRİ KEÇMƏ

2. giriş *bax* müqəddimə

girişmək *bax* başlamaq

girləmək *bax* izləmək **1**

girlənmək *bax* **1.** gəzmək **1**; **2.** yaşamaq **2**

girli *bax* güclü

1. GİRMƏK İçəri altmış yaşlı, .. arıq bir qadın *girdi* (H.Abbaszadə); **AYAQ BASMAQ** [Ülfət:] Görürsən, yad qızı holo evə *ayaq basmamış*, gədənin saqqızını oğurlayıb (Mir Cəlal); **DAXİL OLMAQ** Biz həyətə *daxil olanda* nohəng köpək dartınıb daha da qəzəblə hürdü (İ.Əfəndiyev); **DOLMAQ** (*məc.*) Zəng vuruldu, qonaqlar zala *doldu* öz yerlərində oturdular (A.Şaiq); **İÇƏRİ KEÇMƏK** Boybura çadırına çatıb atdan düşdü, *içəri keçdi* (Anar); **KEÇMƏK** Qarı mən sarıdan arxayın olub, öz otağına *keçdi* (M.Hüseyn); **SOXULMAQ** (*zorla girmək*) Bir azdan jandarmlar evi ohatə etdilər. İçəriyə *soxulub* aramağa başladılar (S.S.Axundov); **TƏPİŞMƏK** (*məc.*) Onlar başılovlu Kolbiyevin kabinetinə *təpişdilər* (M.Hüseyn).

2. GİRMƏK (*ali və ya orta məktəbə*) [Natiq:] Mən bildir *girdim* institута.. (Anar); **DAXİL OLMAQ** [Qəndab:] Qoşobədə açılan fəhlə gəncləri məktəbinə *daxil olmuşdum* (B.Bayramov).

3. GİRMƏK (*yaşa dair*) [Vəzir:] Son də on dörd yaşına *girdiyin* zaman; Ərəb ölkəsinə göndərdi atan (A.Şaiq); **DOLMAQ** (*adətən yaşa, yaşına sözü ilə*) Elə mərd oğul ki, igid *yaşına dolanda* bütün kənd ananın adına oğlunun da adını qoymuşdu (Ə.Məmmədxanlı).

1. GİROV [Xudayar bəy:] Sən elə bir adam tap ki, mənə yeddi manat versin, mən onun yanında on yeddi manatlıq *girov* qoyum (C.Məmmədquluzadə); **RƏHN** (*köhn.*) [Hacı Vəli:] Evində iki otaq dolusu *rəhn* qoyulmuş şeyləri var idi (Çəmənzəminli); **ZALOQ** [Kərbəlayı Cəfər:] İndi hər kəsə gedim deyim mənə bir yeddi manat lazımdır, deyəcəklər gətir yanımda on yeddi manatlıq bir şey *zaloq* qoy (C.Məmmədquluzadə).

2. GİROV (*saxlanılan adam*) Bayandır xan [çapqınçıları] *girov* saxlamış, qıpçaqların əlini-qolunu bağlamışdı (M.Rzaquluzadə); **RƏHN** (*köhn.*), **ZALOQ.**

GİCİTKƏN, DALAQOTU, GƏZƏNƏ (*toxunarkən əli dalayan ot*)

GİRVƏNKƏ (*köhn.*) (400 *qrama bərabər çəki ölçüsü*) Tomas bir oturuma beş *girvənkə* turş alça, üstündən də üç *girvənkə* qıcqırmış qatıq içərdi (Çəmənzəminli); **İSTİL** ..Son orya sopmişdin bir *istil* darı; Ümidliydin ondan bir tağar olsun (Aşıq Ələsgər).

giryan *bax* ağlağan

giyah *bax* ot

giyəv *bax* yeznə

gizildəmək *bax* ağrımaq

1. GİZLƏT(M)ƏK Şeir *gizlətdiyin* çəkmələrinlə; Qozəblə əzmisən, kinlə əzmisən; Şanlı azadlığın düşmənlərini (M.Rahim); [Şərəfniso] ..cəld uşağa tərəf atıldı, balağına

büküb gizlədi.. (Ə.Cəfərzadə); **DALDALAMAQ** [Rüstəm:] O da soni soruşur, onu da *daldalamışıq* (İ.Əfəndiyev); **PÜNHAN ETMƏK** ..Qara buludlar kövkəbi-hürriyyət üzünü tutub onu yeno *pünhan etdi* (S.S.Axundov); **YAŞIRMAQ** (*kl.əd.*) Soni qamışlıqda *yaşıran* fələk; Əqlini başından çaşıran fələk... (M.V.Vidadi); **YAYINDIRMAQ** (*xəlvəti gizləmək*) [Qədim:] Balam, sənin atan qulplu qazanları dirigözlü *yayındırmazdı?* (S.Rəhimov).

2. gizlətmək *bax* danmaq

1. GİZLİ *Gizli* məbəonin yeri hazırlanmışdı (M.S.Ordubadi); **QEYRİ-LEQAL, KONSPİRATİV**

2. gizli *bax* məxfi

god *bax* çəllək

godul *bax* **1.** golincik; **2.** gödək **1**

goftar *bax* söz

gop *bax* **1.** yalan; **2.** uydurma

gopamaq *bax* **1.** goplamaq; **2.** dəymək **1**

GOPLAMAQ (*yalan danışmaq*) İçən kimi ağzına gələni danışır, böyük-kiçik bilmir, özünün keçmişki fəaliyyətindən ağızdolusu *goplayır* (Ə.Qasımov); **GOPA BASMAQ** [Sottar:] Gədə, – dedi, – çox *gopa basıb* uşaqları qorxuzma (A.Makulu); **GOPAMAQ** [Əhməd:] *Gopa*, başına dönüm, *gopa* (N.Vəzirov); **QOZQUR(T)MAQ** (*dan.*) [Divanbəyi Nəcəfə:] A kişi, sən nə *qozqurdursan* (M.F.Axundzadə); [Sonəndər:] A kişi, sən də çox *qozqurtma* ha! (C.Cabbarlı); **ŞİŞİRTMƏK** [Salman:] Yoldaş Şirzad çox tünd gedir, nöqsanları *şişirdir* (M.İbrahimov).

gor *bax* məzar

GORBAGOR (*ölmüş adam haqqında söyüş kimi işlənir*) [Padşah:] Bu gün-sabah *gorbagor* olacaq. Belə *gorbagorun* üstündə qanını qaraltmağa dəyərmi? (Anar); **TÜNBƏTÜN** [İzzət:] Dədən *tünbatün* düşsün Xudayar bəy! (C.Məmmədquluzadə).

GOREŞƏN İstər qəbiristanlıq xortdanla, *goreşənlə* dolu olsun! (B.Bayramov); **KAFTAR** [Pəri nənə:] ..Keçmişdə bizim qədim qışlağa bir *kaftar* dadanmışdı (S.Rəhimov); **QƏBİREŞƏN.**

gorgab *bax* **1.** məzar; **2.** ev **1**

I. GÖDƏK Sonra bir *gödək* kişi gəlib Həmidi apardı.. (H.Abbaszadə); **ALÇAQ** Heç yadımdan çıxmır, konsul özü bir uca adamdır, amma mən *alçaq* adamam (C.Məmmədquluzadə); **GODUL** (*məh.*) *Godul* adam çox bilər (ADDL); **GÖDƏKBOY(LU)** Qoca bir vücud vardı; *gödəkboy*, uzunburun.. (R.Rza).

2. gödək *bax* qısa **1**

gödəkboylu *bax* alçaqboy(lu); gödək **1**

gödən *bax* qarın **1**

gödənqulu *bax* qarınqulu

göftgu *bax* söhbət **1**

gömmək *bax* basdırmaq

gömrük *bax* **1.** rüsum; **2.** gömrükxana

GÖMRÜKXANA (*gömrük idarəsi*) *Gömrükxana* qarovullarının və qazaqların qorxusundan quş quşluğu ilə Arazın o tayına səkə bilmir (M.F.Axundzadə); **GÖMRÜK** [Hacı Qara:] ..on beş ildir padşah *gömrüyünə* ildə mən əlli tümən xeyir verirəm (M.F.Axundzadə).

gön *bax* dəri

GÖNDƏRMƏK Əkizlər gəlib dedilər ki, dayday işdən gəlməyib, dayıdostu dedi ki, gəlsə hal-holbot *göndərərəm* sizə (H.Abbaszadə); **İXRAC ETMƏK** (*xarica mal göndərmək*) [Ağalarov:] Çıxarılan neft ixrac etmək lazımdır (Ə.Məmmədxanlı); **YOLLAMAQ** Hətta yerli hissənin nəfəsli orkestrini də buraya *yollamışdılar* (M.Hüseyn); **YOLLATMAQ, YOLA SALMAQ** [Qız:] ..sonra Könüllə birgə çəkdirdikləri şəkli də zərfin içinə qoyub *yola saldı* (X.Hasilova).

gönüqalın *bax* qanmaz, kobud **2**

görk *bax* nümunə **1**

görkəm *bax* görünüş

görsətmək *bax* göstərmək **1**

GÖRÜNMƏK (*müxtəlif mənalarda*) [Vaqif:] Get, get, vəfasızsan bu dünya kimi; *Görünmə* gözümə bir röya kimi.. (S.Vurğun); **BƏLİRMƏK** Qadının dodaqlarından acı bir təbəssüm *bəlirdi* (S.Hüseyn); **ZÜHUR ELƏMƏK** ..biri də bax bu həyatimizdə təzə

zühur eləyən gur saçlı oğlan kimi, soruşsaydılar ki, hansını seçərsən, deyərdim ki, onu (H.Abbaszadə); **GÖZƏ SATAŞMAQ** (*fr.v.*); **ZAHİR OLMAQ.**

görünür *bax* yoqin

GÖRÜNÜŞ Muxtar bütün *görünüşü* ilə kişi idi (B.Bayramov); **DİDAR** (*kl.əd.*) Xandostu, amandı, qoyma goldi! *Didarı* yamandı, qoyma goldi! (M.Ə.Sabir); **GÖRKƏM** Balacaboylu Vəli muzdurlar komitəsinin sədri olandan *görkəmi* də dəyişmişdi, adı da (M.İbrahimov); **QIRIM** (*dan.*) [Sadıq:] Mən elə dünən *qırımından* gördüm ki, bu qan-qan deyir (Anar); **QİYAFƏT** [Bəhram:] Əvvəl sən belə deyildin, mən səndən qaçırdım, amma indi başqa bir *qiyafət* almışsan (C.Cabbarlı); **YÖNDƏM** (*dan.*) [İmamoğlu:] Qıraqlarında desən, yeno bir *yöndəmi* var! (S.Rəhimov); **YÖR-YÖNDƏM** [Pəsi:] Qadam sənin *yörünə-yöndəminə*.. (S.Rəhimov); **FASON** (*məc., dan.*); **KONFİQURASİYA, ZAHİR.**

göstəriş *bax* təlimat; məsləhət, əmr **1**

1. GÖSTƏRMƏK, GÖRSƏTMƏK

2. GÖSTƏRMƏK, NÜMAYİŞ ETDİRMƏK

3. GÖSTƏRMƏK, ƏKS ETDİRMƏK, TƏSVİR ETMƏK

1. GÖTÜRMƏK, ƏLİNƏ ALMAQ

2. GÖTÜRMƏK, QƏBUL ETMƏK

3. GÖTÜRMƏK, ÖZÜ İLƏ APARMAQ

4. GÖTÜRMƏK, ALMAQ

1. GÖTÜRÜLMƏK, LƏĞV EDİLMƏK

2. GÖTÜRÜLMƏK, QƏBUL OLUNMAQ

3. götürülmək *bax* qaçmaq **1**

gövdə *bax* bədən

gövhər *bax* daş-qaş

I GÖY Bu ilki pis, quru və isti bahar da, üroyimizdə toəssüf oyadaraq dağlara, dağların dalına, ol irişmoz fəzalar, uzaq *göylərə* çəkilirdi (M.İbrahimov); **ASİMAN** (*şair.*) Qatar-qatar olub qalxıb havaya; Nə çıxıbsız *asimana*, durnalar! (M.V.Vidadı); **ƏRŞ** (*şair.*) Sanıram min dəfə *ərşi* dolandı; Alovlu günəş də, soyuq qəmər də (Ə.Kürçaylı); **SƏMA** Boz sohrada, aydın *səmadu*, şəhərin göz qırpan tək-tək işıqları yanında görünən o sima artıq həyatda yox ikən, necə ola bilərdi ki, həm orada, həm də burada Aslanın gözünə görünsün (M.Hüseyn).

II göy *bax* **1** mavi; **2.** yaşıl

III göy *bax* xəsis

IV göy *bax* **1.** kal; **2.** göyərti **2**

göyçək *bax* gözəl **1**

göyçəkləşmək *bax* gözəlləşmək

göyçəklik *bax* gözəllik

GÖYƏRÇİN (*quş*) Sabahısı dediyi kimi Sofor ona iki *göyərçin* gətirdi (M.İbrahimov); **KƏBUTƏR** (*kl.əd.*) Bir mənzilə etdi zarı müztər; Bir damda gördü bir *kəbutər* (Füzuli); **SÜLH QUŞU** (*təşb.*) [Vahid:] *Göyərçin*, Göyərçin! Doğrudan son *sülh quşusan*, soadət quşusan (M.İbrahimov).

I. GÖYƏRTİ (*bitkilər, yaşıllıq, ot, ağaclar, yarpaqlar*) Hansı şeydir dəyişməyib dünyada; *Göyərti* də, heyvanat da, hava da (A.Səhhət); **GÖY-GÖYƏRTİ** Həyətlərdə ağac-ağac, *göy-göyərti* nədir, içməyə su da yoxdur (M.Rzaquluzadə).

2. GÖYƏRTİ (*yeyilən və xörəyə işlənən otlar*) Əzizə mizin üstünü yığışdırdı, *göyərti*, çörək... tavada toyuq çığırtması gətirdi (H.Abbaszadə); **GÖY-GÖYƏRTİ** Firəngiz *göy-göyərti*, toyuq ətini ıştahla yedi (B.Bayramov); **SƏBZİ** Yemək yeno də düyü, ət, toyuq, yumurta və *səbzilərdən* bişirilmiş Təbriz xörəkləri idi (M.S.Ordubadi); **SƏBZİYYAT** Yolun bir tərəfində müsəlmanlar, *səbziyyat* əkirdilər (Ə.Haqverdiyev); **GÖY** (*dan.*).

göy-göyərti *bax* göyərti

I GÖYLÜK, MAVİLİK

II GÖYLÜK, OTLUQ, YAŞILLIQ

III göylük *bax* xəsislik

GÖYNƏMƏK Könül onların üzünə baxanda üroyi *göynəyirdi* (X.Hasilova); **ACIŞMAQ** Professor bu dəfə də dostları ilə *acışan* gözlərini sildi (S.Rəhimov); **SIZILDAMAQ**

[Qəndab:] Uzun müddət çəkmə görməyən ayaqlarım dilə gəlmişdi, *sızıldayırdı* (B.Bayramov); **AĞRIMAQ** (*bax*).

GÖYRÜŞ, DƏNDƏ, VƏN Soruşdum: – Bəs Vənli dərədə heç *vən* (bizim meşələrdəki *göyrüş* ağacına *vən, dəndə* də deyilir) ağacı yoxdur.. (H.Əliyev).

göyümsov *bax* göyümtül

göyümtraq *bax* göyümtül

GÖYÜMTÜL (*göy rəngə çalan*) Otağın rəngi də dəyişdirilmişdi, əvvəl açıq-çəhrayı idi, indi *göyümtül* (Ə.Abbasov); **GÖYÜMTRAQ, MAVİMTRAQ** Titrəşən *mavimtraq* alovlar balaca Şirin üçün əfsanəvi bir aləm idi (İ.Əfəndiyev); **MAVİMSOV, GÖYÜMSOV.**

1. GÖZ Xumar-xumar baxmaq *göz* qaydasıdır; Lalə tək qızarmaq, üz qaydasıdır (M.P.Vaqif); **ÇEŞM** (*kl.ad., şair.*) Ey *çeşmimin* önündə mücəssəm, Vətən, Vətən! (A.Şaiq); **EYN** (*kl.ad.*) Mərdümə dedi ki, ikri-eynim; Kim səndən alır bu nuri *eynim* (Xətayi); **DİDƏ** (*kl.ad.*) Ağla, *didəm*, qanlı yaşın sel olsun; Söyləməyə gizli dərdin dil olsun (M.V.Vidadi).

2. GÖZ (*yarada*). **QASNAQ**

3. göz *bax* mənbə **1**

gözaydınlığı *bax* təbrik **1**

gözəgörünməz *bax* Allah **1**

1. GÖZƏL, GÖYÇƏK (*sifət cizgiləri, bədən tənasülü, qüsursuz*) Məşədi Allahverən ibtida bir arvad aldı, *gözəl, göyçək* (N.Nərimanov); **DİLBƏR** (*kl.ad., şair*) Mənim yarım bir əcaib *dilbərdir*. Üzü təzə güldür, zülfü ənbərdir (M.P.Vaqif); **DİLRÜBA** (*kl.ad., şair*) Bir yanda da gizlicə; Qırx *dilrüba*, qırx incə... (M.P.Vaqif); **GÖZƏL-GÖYÇƏK** [Gülbacı:] Səlim bəy *qaşəngdir, gözəl-göyçəkdir* (S.Rüstəm); **GÜL** (*mac., dan.*) Baxdı insan oğlu *gül* camalına (S.Vurğun); **GÜL KİMİ** (*dan.*) [Nazlı:] Minayə mın fırıldaq çevirib, alan yoxdur, qarıyıb evdə, di gəl Nazlı Qəmzəlinin *gül kimi* qardaşı oğlunu bəyənmir (Anar); **XUB** (*kl.ad.*) Vaqif səni sevdi *xublar* içində (M.P.Vaqif).

QƏŞƏNG Burda biz çox oturmuşuq yanaşı; Bir *qəşəng* qızla... onda kəlməbaşı; Demişik eşqdən, məhəbbətdən (S.Rüstəm); **QİYAMƏT** (*mac.*) [Mahirə:] *Qiyamət* oğlandı ha.. Qızlar həmişə *gözəl* oğlan axtarır (M.Hüseyn); **LƏTİF** Sonralar musiqi və rəqs zamanlarında çox zaman o *lətif* vücudu yanımda görürdüm (A.Şaiq); **MƏLƏK** (*məc., kl.ad.*); **PƏRİ** (*kl.ad., şair.*); Dönmüşəm *mələkdən*, tamam *pəridən;* Vaqifəm, sevmişəm təzə Fatimə (M.P.Vaqif); **RƏNA** (*şair.*) Kim bilir, yollarında ey *rəna!* Nə qədər, uf, boyun bükənlər var (A.Şaiq); **ŞƏKİL KİMİ** (*dan.*) [Biqəm:] Oğluvi deyirəm e, canımçün bir evin yaraşığıdır, *şəkil kimi* oğlandır (Anar); **VƏCİHƏ** (*köhn.*) [Mirzə Rəhim:] Doğrudan da xeyli *vəcihədir!* (M.S.Ordubadi); **YAXŞI** (*dan.*) [Məşədi Qulamhüseyn:] Özü kimi *yaxşı* bir arvadı da var, tez-tez məni qonaq çağırırlar (C.Məmmədquluzadə); **YARAŞIQLI** Universitetdə bir çox qızların ağlını yerindən oynadan bu *yaraşıqlı* oğlan ona heç xoş gəlmirdi (Ə.Qasımov); **ZİBA** (*kl.ad.*) Könlümdə o *ziba* sənəmin eşqü vüsalı; Etmişdi pərişan saçı tək fikrü xəyalı (A.Səhhət).

2. GÖZƏL (*xoşa gələn*) Baharın axır ayının *gözəl* gecələrinin biri idi (Ə.Haqverdiyev); **DİLBƏR** [Tamarin:] Buradakı dağlar, dərələr, çaylar nə qədər *dilbərdir*! (M.Hüseyn); **DİLRÜBA** [Şeyx Sənan:] Nə qədər *dilrüba* yaşıl təpələr (H.Cavid); **QƏŞƏNG** [Hüseyn:] ikimərtəbəli *qəşəng* bir evin qapısını qorxa-qorxa döydü (S.Rəhman); **QİYAMƏT** Oturub-durmağa *qiyamət* olur (M.P.Vaqif); **LƏTİF** ..Bu *lətif* səsi dinləməyə başladım (M.Hüseyn); **MƏLAHƏTLİ** (*səsə aid*) [Vahid:] ... qəmli səsi nə qədər *məlahətli* idi (B.Bayramov); **RƏNA** Gördüm ki, bir *rəna* çəmənlikdəyəm (A.Səhhət); **TƏRAVƏTLİ** Dünya necə də *təravətli* olmuşdu (X.Hasilova); **YAXŞI** [Mərdan:] *Yaxşı* səsi varsa, yol üzünə açıqdır (X.Hasilova).

gözəl-göyçək *bax* gözəl **1**

GÖZƏLLƏŞMƏK [Fərəc:] Əcəb *gözəlləşmisən*, Nazlıcan (Anar); **GÖYÇƏKLƏŞMƏK** [Fərəc:] Belə hüsn-camal olmaz, belə xətti-xal olmaz, hara belə *göyçəklaşmisən* (Anar); **QƏŞƏNGLƏŞMƏK** Sultanın gözlərində Nazlı olduqca *qəşənglaşmiş* və totuxlanmış göründü (S.Rəhimov); **ZİBALANMAQ** Ala gözlər nərgisi-məstanə tək şəhlalənir; Elə ki süzgünləşir, yüz mərtəbə *zibalənir* (M.P.Vaqif).

GÖZƏLLİK (*müxtəlif mənalarda*) *Gözəllik* bəxşişdir; Bəxşişlə öyünmək insan (B.Vahabzadə); **CAMAL** (*üz gözəlliyi*) Gözümdən çəkilmir xəyalın sənin; O şirin gözlərin, *camalın* sənin.. (R.Rza); **DİLRÜBALIQ** Gözün hörçənd sahirdir, həbibim, *dilrübalıqda* (Qövsi); **GÖYÇƏKLİK** Zülfün üzünü tutsa da, *göyçəkliyin* artır; Zülmət gecələr olmasa, aydın səhər olmaz! (Ə.Vahid); **HƏSƏNAT** (*kl.ad.*) [Molla İbrahimxəlil:] Mən deyiləm məgər bir təqva sevən və *həsənata* .. vaqif olmuşam (M.F.Axundzadə); **HÜSN** Xoş havalarda artırmanın başqa *hüsnü* vardı (Çəmənzəminli); **XUBLUQ** (*kl.ad.*) [Kərəm:] Camalın *xubluğu* mat elər şahı.. ("Əsli və Kərəm"); **QƏŞƏNGLİK, YARAŞIQ** [Cəmilənin] sıx qara saçları .. sifətinə bir *qəşənglik*, bir *yaraşıq* verir (S.Rəhimov); **LƏTAFƏT** [Bəhram:] Hanı sizin keçmiş *lətafətiniz?* (C.Cabbarlı); **MƏLAHƏT** Qızarmış yanaqları, uzun kirpikləri, iri gözlərinin süzgün baxışı [qadına] *məlahət* verirdi (T.Ş.Simürğ); **VƏCAHƏT** (*gözəl üz*) Qəmərin *vəcahəti* ala gözlərində özünü toplamış, onun süzgün baxışlarında özünə yuva salmışdı (S.Rəhimov); **YARAŞIQ** [Azər:] Bu *yaraşığın* isə səndən asılı olmayaraq yaranmışdır (Ə.Kərim); **ZİBALIQ** Səni *zibalıqda;* Görməyən göz gözdürmü? (Sarı Aşıq); **ZÖVQ** Nə xoş gəlib bu qış, bu qar; Qışın da başqa *zövqü* var (M.Dilbazi).

GÖZƏTÇİ Sonra məlum oldu ki, dəstə kəndə basqın düzəldib, kənd sovetinin *gözətçisini* lapdan yaxalayıb boğdular (M.İbrahimov); **KEŞİKÇİ** Girdman qalasının qoca *keşikçisi*, adəti üzrə yenə də geniş həyətdə gəzinir, arabir dayanıb ətrafı dinləyirdi (M.Hüseyn); **QAROVUL** Leytenant bir neçə mənbəqəyə əlavə *qarovul* təyin etdikdən sonra, tutulmuş adamı örtülü səngərə aparmağı əmr etdi (M.Hüseyn); **QAROVULÇU** [Balağa:] Hacı Zeynalabdin Tağıyevin keçmiş dəyirmanında *qarovulçuların* böyüyüdü (H.Abbaszadə); **QORUQÇU** (*tarla, meşə, bağ, bostan gözətçisi*) Bəşər daha heyvanlıqdan əl çəkib; *Qoruqçu* otlağa çopər çəkmosin! (A.Səhhət); **NƏZARƏTÇİ** Günorta zavodun qoca *nəzarətçisi* gəlib Həmidə dedi ki, səni bir nəfər hərbçi soruşur, qapıda dayanıb (H.Abbaszadə); **NİGAHBAN** (*kl.ad.*) Səndən ötrü bütün övladımı giryan edərəm; Qeyrətü şənimi hifzində *nigahban* edərəm (C.Cabbarlı); **PASİBAN** (*köhn.*) Qapımda *pasiban* möhnətdir nədən; Yazılıb qətlimə fərmanmı yoxsa? (M.Rahim).

gözətləmək *bax* gözləmək **1**

1. GÖZLƏMƏK (*müxtəlif mənalarda*) [İlyas:] Mən orizəmi geri alana qədər oradaca oturub *gözlədim* (M.Hüseyn); **BƏKLƏMƏK** Səni çoxdan arayıb həsrət ilə *bəklərdim;* Sənsiz afaq qaranlıq görünürdü gözümə (A.Səhhət); **GÖZƏTLƏMƏK** [Molla İbrahimxəlil:] Qabaqdakı iksirin müddətitəkmilinə qədər, yəni otuz bir gün *gözətləyib*, genə buraya qayıdarsınız (M.F.Axundzadə); **İNTİZARINDA OLMAQ.**

2. GÖZLƏMƏK, QEYDİNƏ QALMAQ, QORUMAQ

gözlənilmədən *bax* birdən

gözlük *bax* çeşmək

gözlüklü *bax* çeşmək

GÖZUCU Elsevər *gözucu* baxıb gördü ki, Səfanın şəklini lövhədən çıxarıb qoyublar konara (Ə.Qasımov); **QUŞBAXIŞI** *Quşbaxışı* bu adamları müqayisə etdim (Mir Cəlal); **ÖTƏRGİ** Faytonçu bu mənzərəyə *ötərgi* baxıb atları qamçıladı (M.Hüseyn); **ÖTƏRİ** ..Professor Əliş Cahandarov isə məqaləni *ötəri* gözdən keçirib.. (Y.Şirvan).

gözüac *bax* acgöz(lü)

gözüaçıq *bax* sayıq
gözüaçıqlıq *bax* sayıqlıq
gözüdoymaz *bax* acgöz(lü)
1. GUR. GÜCLÜ, ŞİDDƏTLİ
2. gur *bax* izdihamlı
3. gur *bax* sıx **3**
gusfənd *bax* qoyun **I**
guş *bax* quşaq
guşə *bax* künc

GUŞƏNİŞİN [Çəmbərkəndli:] *Guşənişin* olub qalmışam, işim-peşəm televizora baxmaqdı (H.Abbaszadə); **ASKET** ..Səlimə həyatda ona xoş gələn nə varsa onu götürməyə can atırmı? Məgər o *asketdirmi?* (İ.Əfəndiyev); **XANƏNİŞİN** (*köhn.*) Əhməd bundan da diltəng olub həmişəlik *xanənişin* olub altıyeddi sənə evindən çıxmadı (Ə.Haqverdiyev); **MÜNZƏVİ** [Əbülhəsən bəy:] ..katolik *münzəvilərinə* məxsus əski monastır çürük köhlələrin gözünə bənzəyən bacaları ilə qatarımıza baxırdı (M.S.Ordubadi); **TƏRKİ-DÜNYA** [Pərişan İntizarıyə:] Səni – *tərki-dünya* bir qocanı aclar qorxudur (Ə.Məmmədxanlı); **ZAHİD** (*məc.*) *Zahidin* bir barmağın kəsən dönüb biqədən qaçar (Nəsimi).

guşvarə *bax* sirğə

GUYA Zarafatla deyilsə də, Könül qulaqlarına vurur, ya da özünü elə göstərir ki, *guya* eşitmir (X.Həsilova); **ELƏ BİL Kİ** *Elə bil ki* hər gözü qan dolu bir çanaqdı.. (B.Vahabzadə); **SANKİ** Dalğalar nərilti ilə sahilə cumurdular, *sanki* Xəzər yatağından çıxacaqdı (H.Abbaszadə).

GÜC, QÜVVƏ(T) Həmzə ağır-ağır qalxdı, sanki dostlarından *güc, qüvvə* almaq istəyirmiş kimi stadiona yazıq-yazıq göz gəzdirdi (Ə.Qasımov); Əyəcək, bilirəm, məndədir *qüvvət.* Birlikdə can bulur hər qərib niyyət (S.Vurğun); **AMAN** Dad edib suzəni çəkdim əlimdən; Qoymadı canımda *aman* ayrılıq (Qoşma); **CƏBR** (*köhn.*) [Səadət xanım:] Əlac nədir .. hər zülmə, *cəbrə* tab eləyəm, ancaq Fəxrəddin salamat qalsın (N.Vəzirov); **GİR** ..Yalın ayaq çaparaq; Gəzəndə *öz girinə;* Cümdu döyüş yerinə (M.Rahim); **HAL** [Rəsul:] Anacan, dayanmağa *halım* yoxdur, gərək mən gedəm ("Aşıq Qərib"); **İXTİYAR** Qalmadı canımda *ixtiyar,* gəlin! (M.P.Vaqif); **İQTİDAR** Mən deyirəm ki, yox, azar, ay azar; Hələ yaratmağa *iqtidarım* var (M.Rahim); **KİRDAR** (*kl.ad.*) Canım oda yandı, qoyma, gəldi! *Kirdarı* yamandı, qoyma, gəldi! (M.Ə.Sabir); **QÜDRƏT** Şaxta qılıncını qoymuşdu qına; Yazın *qüdrətinə* təslim olur qış (S.Vurğun); **TAB** [Fəxrəddin:] Əvvəla ondan ötrü ki, dəxi hicrana *tabım* yoxdur, mənim Səadətdən uzaq düşməyə taqətim ola bilməz (N.Vəzirov); **TAB-TAVAN** (*kl.əd.*) Pul gedir, *tabü tavanın* da gedir; Üstəlik bir quru canın da gedir (M.Ə.Sabir); **TAQƏT** ..çünki yerimməyə ayaqlarımda *taqət* qalmamışdı (A.Şaiq); **ZOR** (*dan.*) [Aslan:] Xoşluqla razı olmadınız, xanım, mənim *zorum* da yox deyil, – dedi (M.Hüseyn).

güc-bəla *bax* güclə

GÜCLƏ (*müxtəlif mənalarda*) [Həmzə:] Heç vaxt olur ki, – deyə vəziyyətdən *güclə* çıxdı (Ə.Qasımov); **ÇƏTİNLİKLƏ** ..Abbas onu çox *çətinliklə* qucağına götürüb, bulağa tərəf aparmağa üz qoydu (S.S.Axundov); **CƏBRƏN** ..mən də gedib düşmən qızın götürdüm *cəbrən* və evimdə gəlin elədim (N.Vəzirov); **GÜC-BƏLA** Şamxal *güc-bəla* ilə ipi yulğun koluna dolayıb dayandı (İ.Şıxlı); **ÖLÜM-ZÜLÜM** Haman ayı; *Ölüm-zülüm* keçib çayı; Dik təpəni dırmaşanda.. (M.Rzaquluzadə); **ZORLA** (*bax*).

1. GÜCLƏNMƏK (*müxtəlif mənalarda*) Bir nəsildən o birinə keçdikcə o *güclənəcək,* işığını artıracaq.. (M.İbrahimov); **QƏVİ-LƏŞMƏK** ..Mətin bir hiss vücuduna yayıldı – fərəhləndi, *qəviləşdi*.. (Çəmənzəminli); **QÜVVƏTLƏNMƏK** Gecədən əsməyə başlayan yay küləyi yavaş-yavaş *qüvvətlənir* (M.Hüseyn); **QÜDRƏTLƏNMƏK.**

2. güclənmək *bax* şiddətlənmək

GÜCLÜ, QÜVVƏTLİ Qızıl Arslan Xarəzmşahın ordusun məmləkətdən çıxartmaq üçün Bustam, Cacərm və Nişabur tərəflərinə

olli mindən ibarət *qüvvətli* bir ordu göndərəndən sonra vəliəhdi Təbrizdə buraxıb *güclü* bir qoşunla Həmədana doğru irəliləməyə başladı (M.S.Ordubadi); **GİRLİ** Yəni o elə *girli* adamdır? (Ə.Əbülhəsən); **QƏVİ** Yazdı: "Tanımıram nə din, nə qanun"; Yazdı: "Düşmən *qəvi,* taleyim zəbun (B.Vahabzadə); **QÜDRƏTLİ** Birdən bəndini aşmış; *qüdrətli* bir sel kimi; Fırtınalı yel kimi.. (R.Rza); **ZORLU** (*çox güclü*) [Zübeydə:] Ağa Rzadan *zorlusan* ki, foryadı heç bir yerə çatmadı? (M.F.Axundzadə); **İQTİDARLI.**

GÜCSÜZ (*gücü, taqəti olmayan*) [Gülüş:] Görürsünüz ki, rəqibiniz nə qədər *gücsüzdür* (C.Cabbarlı); **BİTAQƏT** Belə gözəl düşə ay qabağına; Tamaşa eyləyən *bitaqət* olur (M.P.Vaqif); **QÜVVƏTSİZ** Lakin qızışmış köhlən at *qüvvətsiz* uşağa qulaq asmadı.. (S.S.Axundov); **NATƏVAN** (*kl.əd.*) Uğrunda tə ki, eşqin zorrə qılur dağları; Bu Xətayi xəstə andan *natəvan* olmuş durur (Xətayi); **TAQƏTSİZ** Lakin qızıl ölkəm üçün ən qiymətli olan bir şeyin qırılıb içimə düşdüyünü hiss edincə qollarım *taqətsiz* bir halda yanıma düşdü (A.Şaiq); **ZƏBUN** Qəhr pəncəsində eylənmiş *zəbun;* Qırılmış qanadı, qolu yoxsulun! (Ə.Cavad); **HALSIZ** (*bax*), **HEYSİZ, İQTİDARSIZ.**

güdmək *bax* pusmaq
gül *bax* çiçək
gülbərg *bax* ləçək **2**
gülbəsər *bax* xiyar
gülcamal *bax* gülüz(lü)

GÜLDAN Şair çiçəkləri qoyub *güldana;* Dedi: Bir əfsanə yadıma düşdü (B.Vahabzadə); **GÜLQABI** Mən xatirələrimi zərif büllur bir *gülqabı* kimi ehtiyatla, bütün varlığım, qəlbim, ruhum titrəyərək vətənə gətirdim (R.Rza).

GÜLDƏSTƏ (*gül, çiçək dəstəsi*) *Güldəstə* düzəltdim adına öz çəmənimdən.. (S.Rüstəm); **BUKET** Bu məchul *buketlərə* qanuni bir şey kimi baxdın, öz haqqın kimi baxdın (Q.Xəlilov); **DƏMƏT** Kənd cavanlarının çoxu bu gülşəndən *dəmət* bağladıqları çiçəklərlə məhəbbət aləmində xoşbəxt olmuşdu (M.Hüseyn).

GÜLƏRÜZ(LÜ) (*şən, mehriban adam haqqında*) Əşrəf hamının üzünə şən-şən gülər və hər kəsdə *gülərüz* görmək istərdi (A.Şaiq); [Nurəddin] həmişə deyib-danışan, *gülərüzlü* və mehriban bir uşaq olduğu halda, indi qəmgin və məyus olub məktəb yoldaşlarından kənar durdu (S.S.Axundov); **GÜLƏŞ** [Gülbəndən:] Cavan qocaya gedib. Ağıllı, dəlisov, *güləş* qaraqabağa (Ə.Cəfərzadə); **GÜLƏŞSİFƏT(Lİ)** İbrahim bəy orta yaşlı, *güləşsifət* oğlanı görəndə ixtiyarsız olaraq səksəndi (Ə.Vəliyev); **ÜZÜGÜLƏR** ..Gedib verib qol-qola *üzügülər,* mehriban; Həmin qız, həmin oğlan (M.Rahim); **GÜLƏŞQABAQ(LI), ŞƏNÜZ(LÜ)**

I GÜLƏŞ Kişilər dəm vurur pəhləvanlıqdan; *Güləşdən,* güllədən, ölümdən, qandan (S.Vurğun); **GÜLƏŞMƏ, QURŞAQTUTMA.**

II güləş *bax* gülərüz(lü)

GÜLƏŞÇİ Rumıniyanın sərbəst *güləşçiləri* Bakıya gələcəklər (Qəzetlərdən); **QURŞAQTUTAN** (*köhn.*) Hərdən İrandan, Ərdəbildən, Sarabdan nüfuzlu, adlı *qurşaqtutanlar* gəlirdi (H.Sarabski); **PƏHLƏVAN** [Mirhadi:] Bu kişi hakimdi, *pəhləvanların* güləşməsinə baxacaq ki, qayda-qanunu pozmasınlar (H.Abbaszadə).

gülaşqabaq(lı) *bax* gülərüz(lü)

GÜLƏŞMƏK [Həmid:] Qabaqlar məhəllə uşaqları ilə *güləşmişəm* (Ə.Abbasov); **QURŞAQ TUTMAQ/YAPIŞMAQ** [Boy:] Usta, zorxana çal, *qurşaq tutacam* bolşeviklə (İ.Əfəndiyev); **QURŞAQLAŞMAQ** Bələ-liklə [İsmayıl və Nifti] güclərini sınadıqdan sonra *qurşaqlaşdılar* (Ə.Abbasov); **SÜPÜRLƏŞMƏK** Uşaqlar torpaqdan sümüyü götürəndə, bir-birinə aman vermir, *süpürləşib* yerə yıxılırdılar (Çəmənzəminli).

gülaşsifət *bax* gülərüz(lü)
gülgü *bax* **1.** gülüş; **2.** satira
gülqabı *bax* güldan
güllənmək *bax* çiçəklənmək **1**

GÜLLÜK, ÇİÇƏKLİK [Vəzir:] Şərqilər oxuyan xınalı kəklik, Sizi qarşılayan *güllük, çiçəklik* (S.Vurğun); **BAĞÇA-BAĞ** İşlədikcə daha da; Çoxalır həvəslərı; Büründür *bağça-bağı.* Uşaqların səsləri (M.Rzaquluzadə); **BAHARISTAN** (*məc.*) Dəbistan bir *bəharistan,* onun əzhərı irfandır (M.Hadi); **BUSTAN** (*kl.ad.*) Neçin səndə var daim bir xozan; Haçan gül açarsan, ey *bustan?* (M.S.Ordubadi); **GÜLŞƏN** Rəqib elə *gülşəndə* səni seyr edən görsəm; Səni qızılgülə, əğyarı xarə bənzədirəm (M.Seyidzadə); **GÜLÜSTAN** Gözlərim yarı yenə bağda, *gülüstanda* görür (S.Rüstəm); **GÜLZAR** (*yaır.*) Seyrə çıx *gülzara,* bahar çağıdır; Çiçək ətir yayır, kədər dağıdır (M.Rahim); **GÜLZARLIQ** *Gülzarlıqla* alov arasında uca sədd çəkilmişdi, onu keçmək qabil deyildi (Çəmənzəminli).

GÜLMƏK Məhəmmədhəsən əmi özü də oğluna baxıb başladı *gülməyə* (C.Məmmədquluzadə); **DİŞLƏRİNİ AĞARTMAQ** (*təhbəsiz gülmək*) (*fr.v.*) İndi isə hörmətli bir tanış kimi mənə salam verir və *dişlərini ağardır* (M.S.Ordubadi); **HIRILDAMAQ** (*boş-boşuna gülmək*) Əhməd başladı *hırıldamağa* (C.Məmmədquluzadə); **İRİŞMƏK** (*boş-boşuna gülmək*) Fərman Əhmədin üzünə mənalı-mənalı baxıb *irişdi.* (Ə.Abbasov); **ŞAQQANAQ ÇƏKMƏK** (*ucadan gülmək*) İbrahim bəy *şaqqanaq çəkdi* (Ə.Vəliyev); **HIRTILDAMAQ** (*dan.*).

1. GÜLMƏLİ, GÜLÜŞDOĞURAN

2. gülməli *bax* məzəli **1**

gülrüxsar *bax* gülüzlü

gülşən *bax* güllük

GÜLÜMSƏMƏK (*dodaqaltı gülmək*) Könül üz-özünə *gülümsədi* (X.Hasilova); **QIMIŞMAQ** Ədhəm bu dəfə istehza ilə *qımışdı* (M.Hüseyn).

gülüstan *bax* güllük

GÜLÜŞ Qəmlənmişəm *gülüşün* bəzən yüksəlməyəndə (M.Rahim); **GÜLMƏ** Qoca sözünü bitirib güldü, lakin öskürək onun *gülməyini* yarımçıq kəsdi (Çəmənzəminli); **HIRILTI** (*boş-boşuna gülüş*) Xəbər verdilər ki, qız yelbeyindir bir qədər; *Hırıltıdır* peşəsi.. (M.Rahim); **QAQQANA** (*ucadan gülüş*) Pilləkəni titrətdi müşuluqçu qonşu qızın *qaqqanası* (R.Rza); **QƏHQƏHƏ** (*ucadan gülüş*) Ev sahibləri bu *qəhqəhədən* daha da acıqlandılar.. (Çəmənzəminli); **GÜLGÜ.**

GÜLÜZLÜ (*üzü gül kimi gözəl*) Nola saqqala yavuq gəlməsə bir *gülüzlü;* Kim qıyar ki, düşə gül yarpağı qanqal içinə (M.P.Vaqif); **GÜLCAMAL** Həsrətli gözlərim, bax *gülcamala;* Könlüm düşdü yenə yüz min xəyala (Molla Cümə); **GÜLRÜXSAR** (*kl.ad.*) Neçə etsin sənə rəğbət sənəmi-*gülrüxsar;* Abirudan mənı sən saldın, ey idbar (M.P.Vaqif); **GÜLYANAQ(LI)** Sənsən gözümdə solğun bağlarda yasəmənlər; Ey *gülyanaqlı* dilbər, sənsən gülüm, baharım (M.Seyidzadə).

gülyanaq(lı) *bax* gülərüzlü

gülzar *bax* güllük

gülzarlıq *bax* güllük

güman *bax* **1.** şübhə; **2.** ümid

gümrah *bax* **1.** sağlam; **2.** çevik **1**

gümüldəmək *bax* inildəmək

I 1. GÜN (*24 saatlıq müddət*) Bu minval ilə üç *gün* keçdi ("Koroğlu"); **GECƏ-GÜNDÜZ** Üç *gecə-gündüz* ki, Tapdıq yuxusuzdu (Ə.Əbülhəsən); **SUTKA** (*rus.*) Düz yeri bir yupyumru şey qapır; Həm də deyir, *sutkada* bir fırlanır (M.Ə.Sabir).

2. GÜN Qayət isti havalı bir *gün* idi (M.Hüseyn); **RUZ** Bu növ iş kim, oldu bədhal; Hər *ruz* mənə keçirdi bir sal (Xətayi).

3. gün *bax* yaşayış **1**; dövr

4. gün *bax* əməkgün

II gün *bax* günəş

GÜNAH [Mümtaz Mötəbərov:] Mənim *günahım* nədir? (M.Hüseyn); **BABAL** Dərin bir dəryadır şair xəyalı; Götürdüm boynuma şəri, *babalı* (R.Rza); **CÜRM** (*kl.ad.*) [Vəzir:] Sultan Mahmud Qəznəvi bu gunə *cürm* üçün müqərrəblərindən birisinin boynunu öz əlilə vurdu (M.F.Axundzadə); **İTTİHAM** Sən bu *ittihamı* öz üzərindən nə kimi bir sübutla götürə bilocəksən? (M.S.Ordubadi); **QƏBAHƏT** [Fikrət:] Şəxsən mən bunda bir *qəbahət* görmürəm (H.Abbaszadə); **QÜSUR** Gər sən idrak eyləməzsən, bil ki, səndədir *qüsur* (Nəsimi); **SUÇ** (*köhn.*) Nazlıya elə gəlirdi ki, onun bu işdə heç *suçu* yoxdur (M.Hüseyn); **TƏQSİR** Əslində *təqsiri* olmasa da Adilə özünü günahkar hesab edib dedi: – Bağışla, Həmzə, düzü, yadımdan çıxıb (Ə.Qasımov); **VƏBAL** (*dan.*) *Vəbalı* nağıl edənin boynuna, yaman-doğruluğuna zəmanət etmirəm (Ə.Haqverdiyev).

1. GÜNAHKAR *Günahkar* deyildi o qadın ancaq; Safdı zirvələrin təmiz qarı tək (A.Şaiq); **ASİ** (*köhn.*) Ərənlər bizə busudur; Yalan söyləyən *asidir* (Xətayi); **FAŞİQ** (*kl.ad.*) ...Cəllad hakimlər olmasa; Kor insanlar hər *fasiqi;* Kəndinə rəhbər bulmasa (H.Cavid); **GÜNAHLI** ..məni bağışla, mən *günahlıyam* (İ.Musəbəyov); **QÜSURLU** Mən ki, özümü belə işdə *qüsurlu* bilmirəm (M.İbrahimov); **MÜQƏSSİR** (*hüq.*) ..hesabdar bu dəfə özünü saxlaya bilmədi, bu işdə *müqəssir* olmadığını sübut etməyə çalışaraq tutula-tutula cavab verdi (M.Hüseyn); **SUÇLU** (*köhn.*) Heyvan kimi sərvətə satıldın; *Suçlu* kimi zindana atıldım (A.Şaiq); **TƏQSİRKAR** [Molla Qafar:] Əsla mən *təqsirkar* deyiləm, iş məscidin olmamağındadır (S.Rəhimov); **TƏQSİRLİ** Heç kimin həddi yoxdur Bədircahanı *təqsirli* tutsun (N.Vəzirov).

2. günahkar *bax* səhəbkar

3. günahkar *bax* müttəhim

GÜNAHLANDIRMAQ [Mədinə] ..darılmağa başlayanda ancaq özünü *günahlandırırdı* (M.İbrahimov); **İTTİHAM ETMƏK** [Şamxal] istəmirdi ki, Çorkoz onu qorxaqlıqda *ittiham etsin..* (İ.Şıxlı); **MÜQƏSSİR ELƏMƏK** [Cavad bəy:] Amma onu qanmır ki, Mikayılda taxsır yoxdur, zəmanə belə gətirib... Bu barədə o məni *müqəssir eləyir...* (N.Vəzirov); **TƏQSİRLƏNDİRMƏK** [Adilov:] O vaxt üstümə yaman düşdülər, məni çox şeydə *təqsirləndirdilər* (Y.Şirvan); **SUÇLANDIRMAQ.**

günahlı *bax* günahkar **1**

GÜNAHSIZ (*günahı olmayan*) [İsa:] Sizin hansınız *günahsızdır,* qoy onu daşqalaq etsin (C.Məmmədquluzadə); **BİGÜNAH** [Məstoli şah:] Bəs divlər, ifritələr nahaq yerə o qədər *bigünah* xalqın horokotinə bais olurlar.. (M.F.Axundzadə); **BİTƏQSİR** ..Çünki o biçarə *bitəqsirdir* və özü o vaxt heç burada olmayıb (N.Vəzirov); **MƏSUM** [Oqtay:] Yox, o, *məsum* bir çocuqdur (C.Cabbarlı); **TƏQSİRSİZ** Ona elə gəlirdi ki, gözlü olub *təqsirsiz* adamlara quyu qazmaq kimi alçaqlıqdan isə gözsüz olub onlara xidmət etmək yaxşıdır (S.Rəhimov); **SUÇSUZ, QƏBAHƏTSİZ.**

GÜNAHSIZLIQ (*heç bir günahı olmama*) [Surxay:] Halbuki onun bütün təqsiri sadəliyində və *günahsızlığındadır* (C.Cabbarlı); **MƏSUMLUQ** [Gültəkin:] Kaş üç ay bundan əvvəlki *məsumluğum,* vüqarım məndə olaydı.. (C.Cabbarlı); **BİGÜNAHLIQ, BİTƏQSİRLİK, SUÇSUZLUQ, TƏQSİRSİZLİK**

GÜNBATAN (*günbatan tərəf*) Biz ayrıldıq, həyətin ortasına qoldık, qapımız *günbatana* açılırdı (M.İbrahimov); **QƏRB** Vətən torpağının Şərqindən çıxıb; Bir gün günəş kimi *Qərbinə* çatdım (M.Dilbazi); **MƏĞRİB** (*köhn.*) Keçən vaxtlarda bir ucu məşriq, bir ucu *məğrib* olində idi (S.Rəhimov).

GÜNBƏZ Bu vaxt kişilərin içindən bir şəxs ayrılıb əlində bir daş, *günbəzə* tərəf gəldi... (N.Nərimanov); **QÜBBƏ** Eyvanın tavanı üç böyük *qübbədən* ibarət idi ki, bunların hər birisi beş sütun üzərində qurulmuşdu (M.S.Ordubadi); **TAĞ** Nəriman kənarda dayanıb, binanın *tağına* baxmaq fikrində idi (Mir Cəlal).

günçıxan *bax* gündoğan

GÜNDOĞAN (*dünyanın günçıxan tərəfi*); **DOĞU, GÜNÇIXAN, XAVƏR, MƏŞRİQ, ORİENT, ŞƏRQ** Azərbaycan mənə *gündoğan* deyir; Türklər – *doğu;* Farslar – *xavər;* Ərəblər – *məşriq;* Qərblər – *orient;* Mən – *Şərqəm;* Şöhrətimdə-şanımda, al

günəşlə şərikəm (X.Rza); Pəncərələri *günəşə* açılan üççarpayılı, işıqlı və isti paltarda ona yer tapıldı (M.İbrahimov).

GÜNDÜZ Yaşar ..gündüz bələdləyi yerə yönəldi (M.Rzaquluzadə); **RUZ** (*kl.ədd.*).

1. GÜNEY (*gün düşən yer*) Qayaları başbaşadır; *Güneyləri* tamaşadır... (S.Vurğun); **GÜNƏVƏR** Kəndin qarıları *günəvər* yerlərə çıxır, özlərini divarlara söykəyir, günə verir, qızınırdılar (S.Rəhimov).

2. güney *bax* cənub

GÜNƏŞ *Günəş* yenicə batmışdı (M.İbrahimov); **AFTAB** (*kl.ədd.*) Ey aləmi münəvvər edən cürmi *afitab*; Müşkatı-şölədir şəbəfruzi-mahtab (M.Hadi); **GÜN** *Gün* batsa da, hava hələ işıq idi (H.Abbaszadə); **XURŞİD** (*kl.ədd.*) Doğar *xurşudi*-hürriyyət, bütün azad olar aləm (M.Ə.Sabir); **MEHR** (*kl.ədd.*) Dilbəra, gül görmədim gülşəndə rüxsarın kimi; *Mehrü* mah olmaz fələk, yüzündə rüxsar kimi (Xətayi); **ŞƏMS** (*kl.ədd.*) Saçın rəngidir, çün

leylətülqədr; Comali-nuri-*şəmsi* xavərdir (Xətayi).

günəvər *bax* güney

günlük *bax* çətir

GÜNORTA *Günorta* azanı vaxtına o qədər qalmırdı (M.S.Ordubadi); **ZÖHR** [Mirzə Cəlil:] Rəhmətlik dayım bir gün elə naxoş oldu ki, heç durub otura bilmədi və odur ki, *zöhr* namazını da qıla bilmədi (Anar).

günüqara *bax* bədbəxt

günüqaralıq *bax* bədbəxtlik

gürz *bax* toppuz **1**

güvənmək *bax* **1.** arxalanmaq; **2.** ləvğalanmaq

güzəran *bax* yaşayış **1**

GÜZGÜ [Məşədi İbad] *güzgüyə* baxıb ora-burasını düzəltdi (Ü.Hacıbəyov); **AYNA** Niyə bəs böylə bərəldirsən, a qarc, gözünü; Yoxsa bu *ayinədə* əyri görürsən özünü? (M.Ə.Sabir).

güzlük *bax* səpin

Hh

habelə *bax* həmçinin

HAÇAN [Mina:] Bəs *haçan*, nə vaxtdır, inşallah, bu xeyir iş? (M.İbrahimov); **NƏ VAXT, NƏ ZAMAN** Səhər idarəyə gəldiyi dəqiqədən başı o qədər qarışır ki, vaxtın *nə zaman* keçdiyini, iş gününün *nə vaxt* qurtardığını bilməyib axşam evə qayıdır (M.İbrahimov).

hacət *bax* təlabat, ehtiyac **1**

HACILEYLƏK (*zool.*) Çinarın başında *hacileylək* yuva tikmişdi (Ə.Haqverdiyev); **LEYLƏK** *Leylək* hərçi istəyirdi yuvasına qayıtsın, vurub salırdılar (Ə.Haqverdiyev).

1. HADİSƏ [Şah:] Aya sizin rəyinizə görə mən nə qısm tədbir ilə bu *hadisəni* öz vücudumdan dəf edə bilərəm? (M.F.Axundzadə); **ƏHVALAT** Lazımdır *əhvalatı* təfsilən nəqil eləmək (C.Məmmədquluzadə); **İTTİFAQ** [Aslan:] Mən bu az ömrümdə nə qədər bədbəxt *ittifaqlar* görmüşəm (İ.Musabəyov); **KEYFİYYƏT** Səhər qızın atası, Hacı Əbdüləzimin dükanına gəlib *keyfiyyəti* söyləmişdi (Ə.Haqverdiyev); **QƏZAVÜ QƏDƏR** (*köhn.*) [Molla Nəsrəddin:] Mirzə Fərəc, başına çox *qəzavü qədər* gəlibdir (S.S.Axundov); **QƏZİYYƏ** (*təsadüfən başa gələn hadisə*) [Vəzir:] A kişi, bu gün başıma bir *qəziyyə* gəlibdir ki, heç fikrimdən keçməzdi (M.F.Axundzadə); **VAQİƏ** (*köhn.*) Cavan övrət oturduğu yerdə oturub dinməz-söyləməz *vaqiəyə* tamaşa eləyirdi (C.Məmmədquluzadə).

2. hadisə *bax* qəza

hafizə *bax* yaddaş

hafizəli *bax* yaddaşlı

1. HAKİM (*oyunu idarə edən şəxs*) [Mirməhdi:] Bu kişi *hakimdi*, pəhləvanların güləşməsinə baxacaq ki, qayda-qanunu pozmasınlar (H.Abbaszadə); **ARBİTR** [Mötəbərəvr:] Həmişə *arbitr* oldunuz, bəsdir (M.Hüseyn); **HƏKƏM** (*köhn.*) Camaat sakit durub tamaşa edirdi. Yalnız bir ağsaqqal qayəyə baxırdı. Bu, *hakəm* idi (Çəmənzəminli); **MÜNSİF** Axırı, bu iki qardaş cəzanə gəlib, bir ədalətli adamı *münsif* seçdilər (R.Əfəndiyev).

2. hakim *bax* padşah

1. HAKİMİYYƏT [Şamo:] Ancaq bu tüfəngləri hər iki tərəfdə içəri döndərsinlər, *hakimiyyət* bizlərin olsun (S.Rəhimov); **HÖKMRANLIQ** [Xosrov:] Nə gördüm bu dünyada mən; Nə verdi Xosrova bu *hökmranlıq* (S.Vurğun); **DİKTATURA, HÖKMRAN.**

2. hakimiyyət *bax* hökumət

hakimlik *bax* hökmdarlıq

I haqq *bax* **1.** doğru **1**; **2.** ixtiyar

II haqq *bax* Allah **1**

haqq-ədalət *bax* ədalət

haqq-hesab *bax* hesab **1**

HAQQINDA [İbrahim bəy:] Bağışlayın, İsmayıl *haqqında* bir neçə söz demək istəyirəm (Ə.Vəliyev); **BARƏSİNDƏ** İkinci xahişim odur ki, baş aqronom Məcid Əlyarov *barəsində* yazdığım əmri ləğv elə (M.Hüseyn); **DAİR** Bəlkə Tahirin ali təhsil almadığına *dair* deyilən sözlər nə məqsədlə isə uydurulmuş sadəcə bir bəhanə idi (M.Hüseyn); **XÜSUSDA** [Qazı:] Kitaba əndan ötrü baxıram ki, görək şəriət bu *xüsusda* nə buyurur (C.Məmmədquluzadə); **QARŞI** Şirmayının üzəyində nənəsinə *qarşı* zərrə qədər də şübhə oyanmırdı (M.Hüseyn).

haqlamaq *bax* çatmaq **I 1**

HAQSIZ Anasının yaşlı gözləri, hər gün *haqsız* cəzalanması ona Şəfərə) hər şeyi, hətta nişanlısı Zəhranı belə unutdurmuşdu (A.Şaiq); **BƏDBİHESAB** [Hacı Qurban:] ..mən və mənim oğlum *bədbihesab* işlərə qarışmamışıq.. (N.Vəzirov); **NAHAQ** [Həmzə:] İndi guya biz *nahaq* danışırıq də? (C.Cabbarlı); **BİHESAB, ƏDALƏTSİZ** (*bax*).

HAQSIZLIQ, ƏDALƏTSİZLİK (*bax*), **NAHAQLIQ**

hal *bax* **1.** vəziyyət **1**; **2.** əhval; **3.** güc

HALBUKİ [Pərviz:] Çünki, anam inanırdı ki, gündüzlər biz məktəbdə olanda həyətə

gələn olmur, cücələrin səsi də çıxmır, *halbuki* onlara toxunan olsa bir-birinə dəyərlər (M.İbrahimov); **VƏHOLONKİ** (*köhn.*) *Vəholonki* bunca zamanda edadiyyə məktəblərinin tamam şöbə və dərəcələrini itmama yetirib ali mədarisələrə və dəralfünunlara gedə bilərdilər.. (A.Şaiq).

halət *bax* vəziyyət **1**

halqa *bax* **1.** üzük **1**; **2.** hədəqə

HALSIZ [*müxtəlif mənalarda*] [Əşrəf] keçən həftə evə gedərkən xəstə anasını çox *halsız* görmüşdü (A.Şaiq); **BİHAL** Kərbəlayı Qulaməli hacının bu sözlərini eşidəndə *bihal* dizi üstə çökdü (Ə.Haqverdiyev); **BİHALƏT** [İkinci İrakli] *bihalət* yıxılır səndəlin üstünə (Ə.Haqverdiyev); **BİTAB** Biçarə [Məşədi Əsgər] qolunun ağrısından *bitab* düşüb.. (S.Qənizadə); **GÜCSÜZ** [Balaş:] Mən *gücsüz* qadını təkbaşına həyatın dəhşətləri içinə atdım (C.Cabbarlı); **TABSIZ** Sayalı əvvələo ürəyində onu asıb-kəsir, *"tabsız"*, hətta "qorxaq" deyə qarasına danışırdı (İ.Şıxlı); **TAQƏTSİZ** Firəngiz *taqətsiz* bir hərəkətlə başında əl gəzdirdi (B.Bayramov); **ÜZGÜN** (*bax*).

halsızlaşmaq *bax* zəifləmək

HALSIZLIQ Ah, istidən sıxılıram; *Halsızlıqdan* yıxılıram (M.Dilbazi); **BİHALLIQ** Mana bu zəfu *bihallıq*, sağınma, parlikdəndir (Q.Zakir); **BİTABLIQ** [Haris:] Niyə *bitabliq* edirsən, gələrlər. Tutaq ki, gəlmədilər, nə etmali? (C.Cabbarlı); **GÜCSÜZLÜK** *Gücsüzlükdən* özünü hamı günahkar bilir; Bu təhqirə dözməyi xalq özünə ar bilir (B.Vahabzadə); **TAQƏTSİZLİK** [Yusif] var qüvvəsi ilə çalışaraq süstlüyü, *taqətsizliyi* yaxına buraxmır (Ə.Hacızadə); **TABSIZLIQ.**

HAMAM (*çimmək üçün isti və soyuq suyu olan binə*) Bir gün bir bəladçı götürüb getdim *hamama* (C.Məmmədquluzadə); **HAMAMXANA** [Həmid] yuyunmaq üçün *hamamxanaya* keçəndə dəhlizdəki telefon zəng çaldı (H.Abbaszadə); **GƏRMABƏ** (*ərx.*) Hər gecə Qəzvinə sürür karvan; Sübhi də *germabədə* eylər məkan (M.Ə.Sabir).

HAMAMÇI (*hamamda paltar saxlayan xidmətçi*) Axırıncı hissəni, bu da muzd olsun deyə; Verdi baxıb mat qalan *hamamçıya* həddiyyə (M.Rahim); **CAMADAR** (*köhn.*) Usta Ağabala hamamdan çıxar-çıxmaz *camadar* hazır oldu (Ü.Hacıbəyov).

hamamxana *bax* hamam

HAMBAL Burda döngələrin yeri darısqal; Oturmuş palanın üstündə *hambal*... (S.Vurğun); **BARKƏŞ** (*köhn.*) Dördü qəm *barkəşiyəm*, köhnə peşənkəm sənə nə? (Aşıq Hüseyn); **YÜKÇÜ** [Rəis müavini:] Bu gün *yükçülər* briqadalarından birini dördüncü sahəyə göndərə bilməzsən ki? (H.Abbaszadə); **YÜKDAŞIYAN** Kişi qəhqəhə çəkib güldü. Necə yəni hambal – *yükdaşıyan?!* (Ş.Qurbanov).

1. HAMI [Cırtdan:] *Hamı* yatıb, mən oyağam! (M.Seyidzadə); **CÜMLƏ** [Çingiz:] Şükür olsun ki, gəlib *cümlənizi* sağ və salamat tapdım (S.S.Axundov); **HAMISI** Elə ki Yusif Sərracın dükanına bərabər oldular, *hamısı* dayandı (M.F.Axundzadə).

2. hamı *bax* bütün **1**

hamılıqla *bax* elliklə

hamısı *bax* hamı **1**

HAMİLƏ Ancaq o, *hamilə* olduğu üçün heç bir yana getməyəcəyini bilirdi (M.Hüseyn); **BOĞAZ** (*heyvanlara aid*) Əmniyyələr *boğaz* inəyi, eşşəyi və qoyunları tövlədən çıxardılar (M.İbrahimov); **BOYLU** *Boylusan*... Zaman da yaman dövr edir; Sən nə ilk anasan, nə də son ana (B.Vahabzadə); **BOYU DOLU** Səbanın qarnı gözümə bir cür dəydi, – deyə Qaraxan... arvadından soruşdu. *Boyu doludur*, dayna, – deyə arvad cavab verdi (S.Rəhimov); **İKİCANLI** (*evf.*) [Həmid] indi bildi ki, İra *ikicanlıdır* (H.Abbaszadə); **AĞIRAYAQ, QARNI BURNUNDA** (*dan.*)

haramxor *bax* müftəxor

haramzadə *bax* hıyləgər

1. HARAY, AMAN, DAD, DAD-FƏRYAD

2. haray *bax* kömək

3. haray *bax* hay-küy

haraylamaq *bax* çağırmaq **1**

1. HARIN, AZĞINLAŞMIŞ, TÜND

2. harın *bax* ərköyün; azğın **2**

HASAR Bir qədər gedib uzun bir *hasara* çatdıq (Y.Əzimzadə); **BARİ** Qaçay kərpic *barıya* çatdı (İ.Məlikzadə); **ÇƏPƏR** (*tikan şax-şəvəlirdən və s.-dən çəkilmiş hasar*) (*dan.*) [Xəlil:] Ağa, Hacı Rəsulun *çəpəri* tərəf adamımız yoxdur (N.Vəzirov); **DİVAR** Uca atın üstündə oturub kəndin alçaq *divarlarından* həyətin hamısını görürdüm (C.Məmmədquluzadə).

haşan-kaşan *bax* var **1**

HAŞİYƏ Kimi ..stullara oyləşmiş, kimi narahat halda ayaq üstə duraraq divara və ya pəncərə *haşiyəsinə* söykənmişdi (M.İbrahimov); **GİLƏNDAR** (*məh.*) Bizim xəlçənin gözəl *giləndarı* var (ADDL); **KÖBƏ** Qarı, cücə gözü çit tumanın *köbəsinə* düşmüş ..qara yaylığı qaldırıb burnunu sildi (S.Rəhimov); **QIRAQ** [Alo:] Mən bilirəm, əslən elə bunların hamısı bir bezin *qırağıdır* (S.Rəhimov); **YELƏN** Asılır ellərin divarlarından; *Yeləni* çiçəkli, güllü xalılar (O.Sarıvolli); **ZEH** Qapı divarın *zehinə* dəyib səsləndi (S.Rəhimov).

I hava *bax* iqlim **1**

II hava *bax* mahnı, melodiya **1**

HAVADAR Könlümdən keçəni duymadınsa da; Ömrümə, günümə *havadar* oldun (B.Vahabzadə); **ADAM** (*məc.*) [Mahnı:] Tək pulnan getmir e? Adamın gərək *adamı* olsun (Anar); **ARXA, DAYAQ** (*məc.*) Sən özün *arxasan*, özün *dayaqsan* (Ə.Kürçaylı); **DİRƏK** Dünya ümid bir *dirəkdir* (Füzuli); **MÜRİD** Alimü cahil, *müridi* mürşidi şagirdi pir; Nəfsi-əmmarə əlindo sərbəsər olmuş əsir (M.P.Vaqif); **YANÇI** (*məh.*) Mən sənə *yançıyam* ki, mənim üsdümə gələsən (ADDL); **TƏRƏFDAR** (*bax*).

1. HAVALANMAQ Bu sözləri deyib, İblis göy gurultusuna bənzər bir səslə qanadlarını açaraq *havalandı* (A.Şaiq); **HAVAYA QALXMAQ** Qatar-qatar olub *qalxıb havaya*; Nə çıxıbsız asimana, durnalar! (M.V.Vidadi); **UÇMAQ** (*bax*).

2. HAVALANMAQ Onlar *havalanıb* göyə güllə atırlar (S.Rəhman); **QUDURMAQ** Ədə, qardaş, vallah, sən *qudurubsan*.. (C.Məmmədquluzadə); **AĞLI BAŞINDAN OYNAMAQ, TUTMASI TUTMAQ.**

havaölçən *bax* barometr

havayı *bax* **1.** əbəs; **2.** müftə; **3.** faydasız **1**

havayıyeyən *bax* müftəxor

havlamaq *bax* hürmək

haydut *bax* soyğunçu

HAY-KÜY Yaylanın başından *hay-küy* səsi gəlirdi (Mir Cəlal); **ÇIĞIR-BAĞIR** Yel əsir, qar yağır, qaranlıq yağır; Nədir təbiətdə bu *çığır-bağır?!* (M.Müşfiq); **HARAY** Kənddə qulaqbatıran bir *haray* vardı (M.Hüseyn); **KÜY** [Səfər bəy:] Gedək aşağıda *küy* salaq (M.F.Axundzadə); **KÜY-KƏLƏK** [Hacı Mehdi:] ..gedib rus hökimi gətirmişəm, buyurur ki, qoymayın *küy-kələk* olsun (Ə.Haqverdiyev); **QAL** (*köhn.*) Vaqif ki, düşübdür əqlü kamaldan; Əksik olmaz başı qovğadan, *qaldan* (M.P.Vaqif); **QALMAQAL** Bir dava da başladın, *qalmaqal* etdin (M.P.Vaqif); **QIŞQIR-BAĞIR** ..Çopur Abdullanın adamları yerlərindən söz atıb *qışqır-bağır* salmağa, Həmidi çaşdırmağa çalışdılar (H.Abbaszadə); **QIŞQIRIQ** Bu qədər *qışqırığa* durdu qonum-qonşu tomam.. (M.Ə.Sabir).

HAY-KÜYÇÜ, KÜR, KÜY-KƏLƏKÇİ, KÜYÇÜ, QIŞQIRIQÇI

HAZIR (*bir işi icra etmək üçün lazım olan hər şeyi olan*) [Noriman:] Bir az xərclik verim, iyirmi bir ötər, iyirmi ikinci günü yanımızda *hazıram* (Ə.Vəliyev); **AMADƏ** (*köhn.*) Xərəyimdir həmişə *amadə*; Kim yaşar mən kimi dünyadə? (A.Səhhət); **KƏMƏRBƏSTƏ** Mənim soksən pəhləvanım – deyir daim *kəmərbəstə*; Yüz milyona dönər dəstə, sıralansa Araz üstə (X.Rza); **MÜNTƏZİR** Nə üçün tək gözirsən; Olmaya ki, bağçada birinə *müntəzirsən*? (M.Rahim).

HAZIRCAVAB [Davud:] Alo həmşəhərlim, vallah *hazırcavab* olmağınızdan xoşum gəlir (H.Abbaszadə); **DİRİBAŞ** [İskəndər

boy:] Xala, sən nə *diribaş* qarısan? (N.Vəzirov).

HAZIRDA, HAL-HAZIRDA, İNDİ HAZIRKI, HAL-HAZIRKI, İNDİKİ

1. HAZIRLAMAQ. ÖYRƏNMƏK (*dərsi və s.*)

2. hazırlamaq *bax* qayırmaq **1, 2**

hazırlıq *bax* tədarük

heç *bax* əsla

herpes *bax* uçuq **II**

1. HESAB. HAQQ-HESAB, HESABLAMA, SAYMA

2. hesab *bax* say

3. hesab *bax* bəre **I**

hesabdar *bax* mühasib

hesabdarlıq *bax* mühasiblik

hesabi *bax* doğru **I**

hesablamaq *bax* saymaq **I**

1. HESABLAŞMAQ, HAQQ-HESABI QURTARMAQ

2. hesablaşmaq *bax* qısas almaq

3. hesablaşmaq *bax* saymaq **2**

hesabsız *bax* saysız-hesabsız

heybə *bax* xurcun

HEYF (Kİ) Kür qırağının əcəb seyrəngahı var; Yaşılbaş sonası *həyif ki* yoxdur (M.P.Vaqif); **HEYHAT** [Gülüş:] O bu evdə zəncirli bir it kimi çırpınır, çalışırdı, lakin *heyhat*, kimin üçün, nə üçün? (C.Cabbarlı); **VAVEYLA** Məcnun köçür *vaveyla*; Qoparır evdə Leyla...; Fəqanlı, ahlı olur.. (M.Rahım); **ƏFSUS** (*bax*).

HEYFSİLƏNMƏK [Həmid:] Əmi, mən Abdulla Qəmbərovun tutulmasına *heyfsilənirəm* (H.Abbaszadə); **ACIMAQ** [Qəzənfər] dilxor olar, əməyinə *acıyardı* (Mir Cəlal); **VAYSINMAQ** İlyas təzə köynəyini geyinib, güzgünün önündə dayandı, üzünü saqqal basdığını görüb *vaysılandı* (Mir Cəlal); **YANIXMAQ** Alo xüsusən bərk *yanıxırdı* (S.Rəhimov); **YANMAQ** (*məc.*) *Yandı* əhvalına kənardan baxan; Doğdu üreklərdə min şəfqətli hiss (M.Rahım); **TƏƏSSÜFLƏNMƏK** (*bax*).

heyhat *bax* əfsus, heyf

1. HEYKƏL Heç gəlib *heykəlinə* də baxmayıb (S.Qədirzadə); **ABİDƏ** Bir də bu sadə *abidədən*, əbədiyyətə qovuşmuş vətən oğlunun heykəlindən... (Y.Əzimzadə); **BÜST** (*qurşaqdan yuxarı hissənin heykəli*) Fərman bir Tərlanın yazı stolundan bir qədər irəli qoyulmuş *büstə* təəccüblə baxdı (M.Hüseyn).

2. heykəl *bax* mücəssəmə **2**

heyran *bax* vurğun

heyranedici *bax* məftunedici

heyrətləndirmək *bax* təəccübləndirmək

heyrətlənmək *bax* təəccüblənmək

HEYSİYYƏT Başqalarından mərhəmət istəmək, öz *heysiyyətini* ayaqlar altına atmaq deməkdir (M.İbrahimov); **İZZƏTİ-NƏFS** Mənim bu sifarişim nə qədər səmimi olsa da, yenə də Fərhad bəyin *izzəti-nəfsinə* toxunmuşdu (Qantəmir); **QEYRƏT** Boyuna boy alım dağ zirvəsindən; Adına ad verim: *qeyrət* səngəri! (M.Araz); **MƏNLİK** [Rza:] Hələ mən heç kəsdən adamın *mənlik* duyğusunu alçaltmayan mərhəmət və şəfqət görməmişdim (M.İbrahimov).

heysiz *bax* yorğun, zəif; gücsüz

HEYVA Söyüddən bağ saldım, peyvəst eylədim; Almasın, *heyvasın*, narın görmədim (Aşıq Ələsgər); **SƏFƏRCƏL** (*kl.əd., arx.*) Ol cümleyi-müşkili edən həll; Adımı mənim qoyub *səfərcəl* (Füzuli).

1. HEYVAN [Ata:] Ey Allahın *heyvanı*, bizdən nə istəyirsən, çıx get.. (M.İbrahimov); **DÖRDAYAQLI** (*məc.*) Vəziyyət dəyişəndə dil tökər yağlı-yağlı; Eləsindən yaxşıdır bu dilsiz *dördayaqlı* (M.Rahim); **DÖRDQIÇLI** O qədr naloq yüklədilər arxama ələn; *Dördqıçlıya* çatsan, dağılar bir günə palan (M.S.Ordubadi).

2. heyvan *bax* gic

HEYVANAT, FAUNA, HEYVANLAR ALƏMİ

heyvanxana *bax* zoopark

heyvərə *bax* **1.** qanmaz; **2.** yöndəmsiz

heyz *bax* aybaşı

hə *bax* bəli

həb *bax* dərman **1**

həbib *bax* dost; sevgili

həbs *bax* həbsxana

HƏBS ETMƏK/ELƏMƏK [Sayadov:] Bizim müxbirlərdən birini *həbs etmişsiniz* (Ə.Qasımov); **DAMA BASMAQ** (*dan.*) [Səlim:] ..göz-qulaqda ol, səni *dama basacaqlar* (A.Şaiq); **DAMLAMAQ** (*dan.*) [Həmid:] Bir günahım olmayan yerdə məni *damlayırsan?!* (H.Abbaszadə); **DUSTAQ ETMƏK** [Yasavul naçalnikə:] Ağa, murovumuz əylisləri soyan quldurları tutub, tamam ipəkləri alıb, özlərini *dustaq edib* (M.F.Axundzadə); **HƏBSƏ ALMAQ** [Cahanbəxş:] Müctəhid tərəfindən polis nazirinə əmr var ki, səni öldürəni *həbsə almasın*. Görk üçün həbsə alsa da, bu qapıdan salıb, o biri qapıdan buraxsın (Ə.Haqverdiyev); **TUTMAQ** [Davud:] Əgər Balağanın çəkanın adamları *tutublarsa*, işi şuluqdu (H.Abbaszadə); **ZİNDANLAMAQ** (*köhn.*) Can alan, qan axıdanları *zindanlamışıq* (Ə.Nozmi).

HƏBSXANA [Ceyran:] Ümidvaram ki, bizim oğlumuz bir də *həbsxana* üzü görməyəcək (İ.Əfəndiyev); **AĞZIBİR** (*zar., dan.*) [Mümtaz Mötəbərov:] Yaxşı bunun üçün tutub səni *ağzıbirə* salsalar, onda bəs necə (M.Hüseyn); **DAM** (*məc.*) [Çiçək:] Deyir, təki məni məsuliyyətə cəlb edəydilər, lap tutub *dama* salaydılar (Ə.Qasımov); **DUSTAQ** [Qubernator:] *Dustaqdan* bir şey çıxmaz, burada qan lazımdır (C.Cabbarlı); **DUSTAQXANA** (*köhn.*) [Ana:] Nər kimi oğlu, işləyən vaxtı, atanın-ananın hayına çatan vaxtı *dustaqxana* küncündə yatıb qalıb (M.İbrahimov); **HƏBS** [Səba:] Yaxud da onu axtarmaq və tapmaq üçün getdikcə onun *həbsdə* olduğunu gözünüzə alın (M.S.Ordubadi); **QALA** (*köhn.*) *Qalada* yatmış idim; Top atdılar oyanmadım (Xalq mahnısı); **QAZAMAT** (*köhn.*) O, atasının illərlə çar *qazamatlarından* baxdığını anasından öyrənmişdi (S.Rəhimov); **QƏFƏS** (*məc.*) Gəlin, tez uçuraq o daş *qəfəsi;* Gülsün qadınlığın ağlayan səsi (S.Vurğun); **QODUQLUQ** (*zar., dan.*) [Həmid:] Pis söz üstə heç kimi *qoduqluğa* basmazlar (H.Abbaszadə); **MƏHBƏS** Nə xan vardı, nə xaqan, nə zülmkar, nə yoxsul; Nə *məhbəs*, nə əsarət, nə zəncir, nə kəniz, qul (M.Rahim); **NAVAXTA** (*köhn.*) [Polis yasavulu:] Yoxsa zamını olmasa, pristav göndərəcək *navaxta* (C.Məmmədquluzadə); **TÜRMƏ** (*dan.*) [Namiq:] Boş *türməyə* düşməkdən qorxmursan? (Anar); **ZİNDAN** (*qaranlıq həbsxana*) (*köhn.*) [Qotibə:] O məni dara çəkdirər, *zindanlarda* boğdurarsa, haqlıdır (M.S.Ordubadi); **ZİNDANXANA** (*köhn.*) *Zindanxanada* dar ağacı quruldu (Çəmənzəminli).

HƏCƏMƏT (*təbabətdə müalicə məqsədi ilə işlədilən əşya, qab, banka*) Molla Qasımın arvadı Zeynəb qarı da azarlılara zəli yapışdırmaqda böyük ixtisas sahibi olub, kəndin bir erkəyi, qadını, cavanı, qocası, uşağı yox idi ki, Zeynəb qarının *həcəmət* və zəlisini görməmiş olaydı (S.S.Axundov); **BADKEŞ** (*köhn.*) *Badkeş* qarı zəli kimi sümürür (ADDL); **KÜPƏ** [Namiq:] Nə kompres, nə rentgen, nə bellorino *küpə* salan.. (Anar).

həcər *bax* daş

həcv *bax* satira

hədd *bax* sərhəd

həddi-hesab *bax* miqdar

həddi-hüdud *bax* hüdud **I**

HƏDƏ Qorxma, Vahid, *hədə* eylərsə də, biganə sənə; Nuri-həqq, zülmət olan yerdə təcəlla eylər (Ə.Vahid); **HƏDƏ-QORXU** Hakim möhkəm durdu, o, karıxmadı; *Hədə-qorxudan* da bir şey çıxmadı (B.Vahabzadə); **HƏRBƏ** (*köhn.*) Yağı düşmənlər *hərbəsi;* Qaçırtmaz meydandan məni ("Koroğlu"); **TƏHDİD** Yenə də kaha onu əhatə edən *təhdidlərdən*, arası kəsilməyən təqiblərdən uçunurdu (S.Rəhman); **QORXU.**

HƏDƏF (*güllə, ox və s. ilə vurulmuş olan nöqtə*) Mümtaz Mötəbərovun gülləsi *hədəfə* dəydi (M.İbrahimov); **AMAC** (*kl.əd.*) Zamanlarca aləmə *amac* idin; Ərəblər əmudilə tarac idin (M.S.Ordubadi); **NİŞAN** Mən aşiq şanə tellər; Olubdu şanə tellər; Ürəyimin başını; Alıb *nişanə* tellər (Bayatı); **NİŞANGAH**

Mənim uca başım, enli üreyim; Tüfəng *nişangahım* sənsən, ey qalam! (S.Tahir).

HƏDƏQƏ (*göz çuxuru*) Çıxdı *hədəqəsindən*. Cahangirin gözləri (B.Vahabzadə); **HALQA** [Gülnaz] *halqasından* çıxmaqda olan ala gözlərini Firiduna dikib susdu (M.İbrahimov).

hədə-qorxu *bax* hədə

HƏDƏLƏMƏK Məmmədəlilər bir adam göndərib onu *hədələdilər* (M.Hüseyn); **QARA-QORXU GƏLMƏK** [Möhlətov:] İndidən bir *qara-qorxu gəlmək* lazımdır (Mir Cəlal); **QORXUTMAQ** [Heydər bəy:] Onu birdən çıxdı, *qorxutdum*, hamısı qaçdı getdi (M.F.Axundzadə); **YANIMAQ** (*dan.*) Elə bil o, kimi isə *yanırdı* (M.Hüseyn); **HƏDƏ GƏLMƏK**.

hədər *bax* əbəs

HƏDİYYƏ (*bağışlanan şey*) Həmidin taxta çamadanında, bir də üstündən qayışla sarılmış boğçasında xeyli *hədiyyə* vardı (H.Abbaszadə); **BƏXŞİŞ** [Leyla:] Məhəmməd, mənim də bir *bəxşişim* var. Hələ hazır deyil... (B.Vahabzadə); **BAĞBAŞI** (*köhnə məişətdə oğlanın öz adaxlısına göndərdiyi hədiyyə*) İçəri uzunsaqqal, iri burunlu bir kişi girdi, torpağa düşdü, təzim edib dərdini anlatdı: yüzbaşı ondan ilin bu vaxtında *bağbaşı* istəyirmiş (Çəmənzəminli); **BƏXŞEYİŞ** [Hatəmxan ağa:] Kraldan *bəxşeyiş* alar, il başında Qarabağda hazır olar, o vaxtadək biz də onun toy tədarükünə məşğul olluq, gələn kimi toyun başlarıq (M.F.Axundzadə); **ƏNAM** (*hökmdarlar tərəfindən verilən hədiyyə*) (*köhn.*) [İsmayıl bəy:] Hərgah bu deyilənlərə dürüst əməl eləsən, hökumətdən *ənam* alacaqsan (Ə.Vəliyev); **ƏRMƏĞAN** [Bəybura tacir:] Mənim oğlum böyüyüncə ona yaxşı-yaxşı *ərməğanlar* alıb gətirin (Anar); **XƏLƏT** (*hökmdarlar tərəfindən verilən hədiyyə*) (*köhn.*) [Xan:] Bir müxalif oxu gələr *xələtin* (M.Rahim); **MÜKAFAT** [Qızıl Arslan Əbubəkrə:] Səni mədh edənlərə *mükafat* vermə (M.S.Ordubadi); **PEŞKƏŞ** [İsmayıl bəy:] Şuşada oturan Xosrov bəy Soltanovun xüsusi göstərişi idi, hər kim Norimanovun yerini bilsə, özü ağırlığında qızıl *peşkəş* alacaqdır (Ə.Vəliyev); **SOVQAT** (*kiçik bağlamada olan hədiyyə*) Yasavul yüzbaşının *sovqatını* pristava çox məharətlə aparırdı (S.Rəhimov); **TÖHFƏ** [Məhəmməd:] Bizim eşqimizdən bir xatirə tək; Bu kiçik *töhfəni* alasan gərək (B.Vahabzadə).

1. HƏDSİZ [Qəndab:] *Hədsiz* sevincimə hədsiz bir kədər də qarışmışdı (B.Bayramov); **BİHƏDD** Söylədilər ofzun, dedilər *bihədd*: Tülkü eyləməyib iltiması rədd... (Q.Zakir).

2. hədsiz *bax* saysız-hesabsız

hədyan *bax* cəfəngiyat

həftəbazar *bax* bazar **1**

həkəm *bax* **1.** jüri; **2.** hakim **1**

1. HƏKİM Şəkər qapını cəld kilidləyib *həkimin* arxasınca getdi (B.Bayramov); **DOKTOR** (*dan.*) [Kərim:] Heç zəhmət çəkməyin, *doktor*, mən bu saat durub gedəcəyəm evimə... (M.İbrahimov); **LOĞMAN** (*əfsanəvi, çox bilikli həkim*) Bu yerlərin hər dərdini öz gözünlə göra-göra; Bir hal bilən *loğman* kimi dava yazdın bu dərdlərə (S.Vurğun); **TƏBİB** (*köhn.*) Hər üreyin ağrısını *təbib* kimi açıb bildin; Bir mehriban ana kimi dost üzünə baxıb güldün (S.Vurğun).

2. həkim *bax* filosof

həkimxana *bax* xəstəxana

HƏKİMLİK (*həkim sənəti*) [Fərhad:] Orada *həkimlik* oxuyub qurtaraq (Ə.Haqverdiyev); **DOKTORLUQ** [Akif:] Bu haman Zərifə xanımdır ki, mənim ilə Şvetsariyada *doktorluq* məktəbində oxuyurdu (M.S.Ordubadi); **TƏBABƏT** [Səhhət:] Bir qədər Tehranda və ətrafda *təbabət* etdikdən sonra vətəni əslisi olan Şamaxıya övdət etmişdi (A.Şaiq); **TƏBİBLİK** [Həkimbaşı:] Mən qırx beş ildir ki, *təbiblik* edirəm (Ə.Haqverdiyev).

HƏKKAK (*metal, daş və s. üzərində nəqşlər oyan sənətkar*) Bunlar sənətkarlar, daşyonanlar, *həkkaklar*, zərgərlər... idi (Ə.Cəfərzadə); **OYMAÇI, KALKOQRAF.**

HƏKKAKLIQ, KALKOQRAFİYA, OYMAÇILIQ

həqarət *bax* hörmətsizlik

HƏQİQƏT, DOĞRULUQ, GERÇƏKLİK, REALLIQ

həqiqətən *bax* doğrudan

HƏQİQİ [Kərəmov:] Mən dünyada iki həqiqətpərəst dost tapmışam, dünyada iki *həqiqi* insan var (S.Rəhman); **ƏSİL** O "Bir damcı" yazmışdın ha, *əsil* yol odur.. (Ə.Kərim); **REAL** Sevimli qadına, dünyəvi eşqin zövqünə .. həsr olunmuş şeirlər – hətta onların simvolik şərhi varsa da belə – canlı, *real* insan duyğularının somimiliyi ilə seçilir (Anar).

həqqaniyyət *bax* odalət

həlak *bax* ölüm

hələlik *bax* **1.** müvəqqəti; **2.** olvida

HƏLİM (*xasiyyətcə, təbiətcə dinc, sakit*) Ağca xanımın təbiəti çox *həlim* idi.. (S.S.Axundov); **MÜLAYİM** [İldırım:] Rəiyyətlə *mülayim* rəftar eləyəsiniz (Ə.Vəliyev); **YUMŞAQ** Qulağımın dibində Əlicanın *yumşaq*, həlim səsi cingildədi (V.Babanlı); **YUMŞAQXASİYYƏTLİ** [Kosaoğlu] Nəsihin *yumşaqxasiyyətli* olsa da, yeri gələndə sözündən dönmədiyini çoxdan bilirdi (İ.Məlikzadə).

HƏLİMLƏŞMƏK Nohayət xan *həlimləyməyə* başladı.. (Çəmənzəminli); **YUMŞALMAQ** Rüstəm bəy *yumşaldı* və Cəfərə baxaraq bir az da gülümsündü (Çəmənzəminli); **MÜLAYİMLƏŞMƏK** Sərhəng isə ağır bir izahat verməkdən qurtardığı üçün çox razı qaldı və daha da *mülayimləşdi* (M.İbrahimov).

həllam-qəllam *bax* **1.** hiylogər; **2.** dolaşıq **1**

həmail *bax* boyunbağı **1**

HƏMÇİNİN [Böyükxanım:] Pul lazımsa, gözüm üstə, hər nə lazımsa *həmçinin*, daha nə deyim (C.Cabbarlı); **DƏXİ** [Zalxa:] Axşama *dəxi* bir zad qalmayacaqdır (M.F.Axundzadə); **HABELƏ** Burada Azərbaycandan, *habelə* başqa respublikalardan gələnlər də var idi (Mir Cəlal).

həmdəm *bax* sirdaş

həmdin *bax* həmməzhəb

həmdunə *bax* meymun

həməqidə *bax* həmməslək

həmərsin *bax* itburnu

həmfikir *bax* həmməslək, həmrəy

həmhüdud *bax* həmsərhəd

həmxanə *bax* qonşu **1**

HƏMİŞƏ [Camal:] Belə cavanlardan ayrılıb, heç insafdır ki, kafedraya gedəsən. Dərs *həmişə* var (Y.Şirvan); **DAİM(A)** Xoş ol əbəveyno kim, bu minval; Hər *daim* olur cahanda xoşhal (M.Ə.Sabir); **HƏR VAXT** Bir də ki, Topuş belə sözləri birinci dəfə deyil, hər gün, *hər vaxt* eşidirdi (S.Rəhimov); **HƏR ZAMAN** [Əbülhəsən bəy:] *Hər zaman* səsini dinlərkən zövq duyduğum bu qızın indi hər bir kəlməsi, içərimdə ölüm xəbəri qədər acı təsirlər doğururdu (M.S.Ordubadi); **HƏRDƏM** Xəlqə ağzın sirrini *hərdəm* qılır izhar söz; Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz (Füzuli); **İLMÜDAM** Həsrətindən sızıldarsan sübhü şam; Cism xəstə, gözü yaşlı *ilmüdam* (Aşıq Nəbi); **MÜDAM** (*köhn.*) [Çingiz İldırım:] Nə qədər ki, kəndlinin üzərində çox nəzarətçi var, o *müdam* narahat olub narazılıq eləyəcək (Ə.Vəliyev); **PEYVƏSTƏ** (*kl.əd.*) Comalının gülünə nişi xar tapmadı ol; Ki hüsn bağına *peyvəstə* bağban mən idim (Natəvan).

həmişəlik *bax* **1.** əbədi, daimi; **2.** birdəfəlik

həmlə *bax* hücum

həmləvər *bax* hücumçu **1**

həmmənə sinonim

həmmərz *bax* həmsərhəd

HƏMMƏSLƏK (*məslək yoldaşı, məslək adamları*) [Əbülhəsən bəy:] O təhlükədən siz də, sizin sevgiliniz də, *həmməsləkiniz* Nina xanım da məhv ola bilər (M.S.Ordubadi); **HƏMƏQİDƏ** Rzaqulu xan ilə *həməqidə* olan müsyö Lui də.. İran səfirinə hazırlaşmaqda idi (M.S.Ordubadi); **HƏMFİKİR** Yavər özünə *həmfikir* tapmış kimi sevindi.. (M.İbrahimov); **MƏSLƏKDAŞ**

Kərim öz dostuna *məsləkdaşına:* Yaxşılıq istədi, yamanlıq oldu (B.Vahabzadə); **MƏSLƏK ADAMLARI** Bələdi, olbət ki, möhkəm *məslək adamlarıdırlar* (A.Şaiq); **MƏSLƏK YOLDAŞI** Yeddi zənci, yeddi dost, yeddi *məslək yoldaşı:* Yeddi həqiqətsevən, arzu, *dilək yoldaşı* (M.Rahim).

HƏMMƏZHƏB (*dinləri, məzhəbləri bir, eyni dindən olan*) [Molla İbrahimxəlil:] Həm sənin təvəssütün *həmməzhəblərin* barəsində məqbul oldu, həm mənim sözüm pozulmadı (M.F.Axundzadə); **DİNDAŞ** Sarı Çobanoğlu gözəl *dindaşın:* Nə çəkərsən son dərdü sər ağlarsan (M.V.Vidadi); **HƏMDİN.**

həmnişin *bax* həmsöhbət

HƏMRAH (*yol, səfər yoldaşı*) Söndürdü atam çırağını, ah! Bir qönçə, tikanla oldu *həmrah* (A.Şaiq); **HƏMSƏFƏR** Dedin ki, mənzilə məcnun yetişdi, mən gəldim; Toriqeşdə olmazmı *həmsəfər,* yarəb! (Qövsi).

həmraz *bax* sirdaş

HƏMRƏY [Əmiraslan ağa:] Hansınız mənimlə *həmrəydir,* buyursun, gözüm üstə yeri var (S.S.Axundov); **HƏMFİKİR** *Həmfikir,* həmdərd olaq, məskən salarsaq harda biz.. (Şəhriyar); **YEKDİL** [Molla Vəli:] Mən moizə elərəm, nəsihət elərəm. Hanı *yekdil,* yekcəhət bu yolda qan tökməyə amadə olar (Ə.Haqverdiyev).

həmsayə *bax* qonşu **1**

həmsəfər *bax* həmrah

HƏMSƏRHƏD Naxçıvan İranla *həmsərhəddir* (Anar); **HƏMHÜDUD** [İran] Qafqaz ilə *həmhüduddur* (M.S.Ordubadi); **HƏMMƏRZ** (*kl.əd.*).

həmsin *bax* həmyaşıd

HƏMSÖHBƏT [Connətəli ağa:] İndi biz ilan *həmsöhbət* olacaqdır (N.Vəzirov); **QULAQYOLDAŞI** (*dan.*) [Həmid] xoyalına gətirmirdi ki, Bakıya qayıdanda öz evində belə darıxacaq. Bəlkə də evdə bir *qulaqyoldaşı* olsaydı, o bu cür xiffət çəkməzdi (H.Abbaszadə); **MÜSAHİB** [Rəsam] həmişə diqqət və hörmətlə *müsahibinə* qulaq asır, adamın yaxşı cəhətlərini görür və sevinir, özü isə nəzakətlə danışır, yumşaq rəftar edir (M.İbrahimov); **HƏMNİŞİN** (*kl.əd.*) Qəm mərhələsində qalmışam fərd; Nə yar, nə *həmnişin,* nə həmdərd (Füzuli); **NƏDİM** Ağsaqqal, qoca nədim; çox dərdləri bilən həkim... (M.Seyidzadə).

həmşirə *bax* bacı

həmvətənli *bax* həmyerli

HƏMYAŞID [Fərhad] gön karxanasında işləyirdi. Arvadı isə uşaqların Gülobətinlə *həmyaşıd* olan qızının ixtiyarına buraxıb bütün günü xalça karxanasında keçirirdi (M.İbrahimov); **HƏMSİN** (*köhn.*) *Həmsinlərin* sofadə, bağda; Həmsərlərin çəmməndə, dağda (M.Ə.Sabir); **TAY-TUŞ** (*dan.*) Düşəndə yadıma öz *tayım-tuşum;* Nələr yaşayıram duyanlar bilir (M.Rahim); **YAŞDAŞ** Qubernatorla müavin *yaşdaş* idilər (Ə.Vəliyev); **YAŞID** Baxdı *yaşıdları* oynayıb gülür; Üzlərdən, gözlərdən sevinc tökülür (M.Rahim).

HƏMYERLİ (*bir yerdən olan*) [Camal:] O ancaq *həmyerlilərinə* qiymət verməyi bacarır (Y.Şirvan); **BİRELLİ** *Birelli* deyilik, üz-üzə gəlməyəcəyik? (M.F.Axundzadə); **ELDAŞ** Təyyarənin qanadı toxunur buludlara; *Eldaşlarımız* gəlir boşluğu yara-yara (R.Rza); **ELOĞLU** [Müəllim:] Mən olaram sədr, sənə də qoyaram ya müavin, ya da kı, baş zootexnik. Necədir, ürəyinə yatırmı, *eloğlu?!* (Ə.İldırımoğlu); **HƏMVƏTƏNLİ** [Xosrov:] Yüzdə beşini isə o qədər harınlaşdırır və qudurdur ki, onlar öz həmcinslərinə və *həmvətənlərinə* vəhşidən pis baxırlar (M.İbrahimov); **YERLİ** (*dan.*) [Fərız:] Müəllim, *yerlimizdir,* əlində nə ixtiyar desən var... (M.İbrahimov); **BİRYERLİ.**

həmzəban *bax* dilbər

həna *bax* xına

həncəri *bax* necə

həndəvər *bax* otraf **1**

hənək *bax* zarafat

hənəkçi *bax* zarafatcıl

hənəkləşmək *bax* zarafatlaşmaq

hənuz *bax* indi(cə)

həp *bax* bütün **1**

həpənd *bax* avara **1**

hərami *bax* soyğunçu

haramilik *bax* soyğunçuluq

1. HƏRARƏT (*tibdə və s.-də*) Ey mürgüləyən qəlbimə şiddətli *hərarət* (A.Şaiq); **İSTİ** Hökim övvəl onun başına baxdı, *istisini* yoxladı.. (Çəmənzominli); **İSTİLİK** Adətən şəfqət bacıları xəstənin *istiliyini* ölçərkən nəbzini də yoxlayır.. (Q.Xəlilov); **QIZDIRMA** [Turac:] Bir həftədir ki, uşağım *qızdırma* içində yanır (C.Cabbarlı); **TEMPERATUR.**

2. HƏRARƏT (*hava haqqında*) Bahar günəşinin *hərarəti* tək; Xoyalım dünyanı salama gəlir (S.Vurğun); **İSTİLİK, TEMPERATUR.**

3. hərarət *bax* mehribanlıq **1**

hərarətli *bax* isti **2**

HƏRARƏTÖLÇƏN Dostuma çay gətirdilər, mən *hərarətölçən* (C.Bağır); **TERMOMETR** Qalın bir az gül; Bir də həraəti 5 dərəcə qalxmış; *termometrin* civəsi (R.Rza); **QIZDIRMAÖLÇƏN.**

hərb *bax* müharibə

1. HƏRBÇİ [Nina:] Lakin o, bir *hərbçi* kimi davrandı, özünü öldürdü, təslim olmadı (M.S.Ordubadi); **HƏRBCU** (*köhn.*) *Hərbcu* olsam da mən sülhə tərəfdaram hənuz (M.S.Ordubadi); **MİLİTARİST.**

2. hərbçi *bax* əsgər

hərbcu *bax* hərbçi **1**

hərbiyyəçi *bax* əsgər

hərbiyyəli *bax* əsgər

hərcayi *bax* sərsəri, səfil

hərcəhətli *bax* otraflı, hərtərəfli

HƏRC-MƏRCLİK [Əmiraslan ağa:] Belə *hərc-mərclik* onun kimi dilsiz-ağızsız tələfə gedə bilərlər (S.S.Axundov); **ANARXİYA** [Səlimə:] Xeyr... Onda *anarxiya* olardı (İ.Əfəndiyev); **HƏRC-MƏRC** [Konsul:] Məmləkət məhv olur, *hərc-mərc* gündən-günə artır... (M.S.Ordubadi); **XAOS** ..Həyat, baş açılmaz bir *xaosa* çevrilocək.. (M.İbrahimov); **İĞTİŞAŞ** [Rizvan:] Cəbhələrdə vuruşan ordu və dənizçilər içərisində də *iğtişaş* var (A.Şaiq); **İXTİLAL** [Əbülhəsən bəy:] O deyir ki, biz iştirakiyun firqəsi kimi, dini mədəniyyətə zidd hesab etmirik, çünki osası din üzərində qurulmayan mədəniyyətin axırı *ixtilaldan* ibarətdir (M.S.Ordubadi); **QARĞAŞALIQ** Kəndə ikitirəlik; Bir də ki, *qarğaşalıq;* Salib, Pirəli etdi; Açıq-aydın paşalıq (M.Rahim); **QARIŞIQLIQ** Nə bilim, deyirlər ki, Zəncan tərəfdə *qarışıqlıqdır* (Mir Cəlal); **ŞULUQLUQ** [Cavan oğlan:] *Şuluqluqdan* qardaş qardaşı itirir (Mir Cəlal); **HƏRKİ-HƏRKİLİK** (*bax*); **HÖKUMƏTSİZLİK, NİZAMSIZLIQ.**

HƏRÇƏND *Hərçənd* Qarabağ buğdasının hamısı sürbəhət idi, çörəkləri sapsarı və yeməli idi.. (Ə.Vəliyev); **ƏGƏRÇİ** (*kl.əd.*) [Hatəmxan ağa:] *Əgərçi* Qarabağda başqa bir özgə yer görməmişəm (M.F.Axundzadə); **GƏRÇİ** (*kl.əd.*) Seyyida, eylə Şəki mülkünə əlbəttə rəvan; Bu qəzəl *gərçi* dəgil gövteyinakamə cavab (S.Ə.Şirvani).

hərbəndir *bax* asan

1. HƏRƏKƏT, TƏRPƏNİŞ

2. hərəkət *bax* davranış

hərəm *bax* arvad **1**

HƏRF [Rüstəm bəy:] "A" *hərfi* bəzi dillərdə qlasnı hərfdir.. (C.Məmmədquluzadə); **SÖVT** (*köhn.*) [Rüstəm bəy:] "A" *sövtü* millətlərin bəzisinin dilində çox işlənir, bəzisinin dilində az işlənir (C.Məmmədquluzadə).

hərgah *bax* əgər

hərgiz *bax* əsla

həris *bax* tamahkar; **2.** ehtiraslı **1**

hərislik *bax* tamahkarlıq

hərki-hərkilik *bax* özbaşınalıq, hərc-mərclik

hərləmək *bax* fırlatmaq **1**

hərləndirmək *bax* fırlatmaq **1**

hərlənmək *bax* **1.** fırlanmaq **1**; **2.** gəzişmək **1**

hərlətmək *bax* fırlatmaq **1**

HƏRRAC (*açıq satış*) [Qarabəy:] Onların sözlərinə uyub milləti *hərrac* bazarına qoymaq istəyən kommunistlərdə.. (Ə.Vəliyev); **AUKSİON** [Aydın:] *Auksionla* canlı bir qız

satılır: əli, ayağı, hətta ürəyi də var (C.Cabbarlı); **MÜZAYİDƏ** (*köhn.*)

HƏRTƏRƏFLİ (*müxtəlif mənalarda*) "Molla Nəsrəddin".. üfunət saçan həyat və ictimai əlaqələrin *hərtərəfli* .. tənqidçisidir (M.İbrahimov); **ƏTRAFLI** Bu haqda bir qədər *ətraflı* danışmağa dəyər.. (Ə.İldırımoğlu); **MÜFƏSSƏL** [Ələsgər:] [Əhvalatı] tamam *müfəssəl* mənə nağıl ediblər (Ə.Haqverdiyev); **MÜKƏMMƏL** [Kamil:] Mən ancaq bir sahənin torpağı haqqında *mükəmməl* məlumatı sizə verə bilərəm (Y.Şirvan); **TƏFSİLƏN** ..Məmməd əhvalatı başdan-ayağa *təfsilən* nəql elədi (E.Sultanov); **HƏRCƏHƏTLİ.**

hərzə *bax* **1.** naqqal; **2.** cəfəngiyat

hərzəgu *bax* naqqal

hərzəkar *bax* naqqal

hərzəçənə *bax* naqqal

həsb-hal *bax* söhbət **I**

həsəd *bax* paxıllıq

həsənat *bax* gözəllik

HƏŞƏRAT Puç olur: Haman ləzzət çəkən bədən axırda *həşərata* nəsib olur (N.Nərimanov); **CÜCÜ** Hər rəngə çalan cürbəcür *cücülər* otlara mərcan kimi sarılmışdı (S.S.Axundov).

həşir *bax* qiyamət **I**

həştad *bax* səksən

həvali *bax* civar

HƏVƏS (*müxtəlif mənalarda*) [Veysəl:] *Həvəsim* yoxdur.. (B.Bayramov); **EHTİRAS** Tükənməyən həvəsim; Yaratmaq *ehtirasım*. Arzumra dönük olmuş... (B.Vahabzadə); **KÖNÜL** [Nigar:] ..qızın *könlü* Yusifdədir (N.Nərimanov); **EŞQ** ..Əsgərlər hücum *eşqi* ilə çırpınırdılar (S.Vəliyev); **MARAQ** Tamaşaya *maraq*, sirkə axın azalmırdı (H.Abbaszadə); **MEYİL** Qaraca qızın özünün oynamağa *meyli* yox idi (S.S.Axundov); **MƏHƏBBƏT** ..müsəlmanların yekə papaqlara *məhəbbəti* o vədədən başlayıb.. (C.Məmmədquluzadə); **ŞÖVQ** [Tahirzadə:] Məsmə bacı, qızın oxumağa çox can atır, çox *şövqü* var (Mir Cəlal).

HƏVƏSKAR Yeni planlar tutulanda bəzi *həvəskar* gənclər pambıq sahəsini bir yarım artırmaq fikrini mənim başıma saldılar (M.İbrahimov); **HƏRİS** [Heydər bəy:] Amma buranın xalqı belə firəng çitinə *həriddir* (M.F.Axundzadə); **AZARKEŞ** (*bax*), **MEYİLLİ** (*bax*).

1. HƏVƏSLƏ (*müxtəlif mənalar*) Axı əzizə nə vaxtdan bəri ərinin elmi ad almasını elə *həvəslə* və intizarla gözləyirdi ki.. (H.Abbaszadə); **AĞIZDOLUSU** Səhəri gün bütün qəzetlər gənc müğənninin bu debütünü *ağızdolusu* tərifləyirdi (X.Hasilova); **MƏMNUNİYYƏTLƏ** [Fərəc Nazlıya:] Adı bu, famili bu, bir xeyli tərifləmişdi, dedi *məmnuniyyətlə* tanış olaram (Anar).

2. HƏVƏSLƏ Hamı hətta ayaq üstə duranlar da qalxıb axıra kimi onlara *həvəslə* tamaşa elədilər (H.Abbaszadə); **SEVƏSEVƏ O**, şeirləri masanın qutusunda *sevə-sevə* saxlayırdı (A.Şaiq); **ŞÖVQLƏ** Gərək canan yolunda keçsin aşiq *şövqlə* candan (Ə.Vahid).

3. HƏVƏSLƏ, SEVİNCƏK, SEVİNƏ-SEVİNƏ

HƏVƏSLƏNDİRMƏK Müəllim şairi bir az da *həvəsləndirmək* istədi (M.İbrahimov); **ŞİRNİKDİRMƏK** (*dan.*) [Aytəmiz:] Atası Tofiqi *şirniklərdirmişdi* ki, oğul onuncunu qurtarsan, sənə maşın alacağam (Ə.Qasımov); **ŞİRNİKLƏNDİRMƏK** Mir Hadinin sözləri Həmidi *şirniklərdirdi* (H.Abbaszadə); **MARAQ OYATMAQ, ŞÖVQLƏNDİRMƏK.**

HƏVƏSLİ, ŞÖVQLÜ

HƏVƏSSİZ [Prokuror] ..stəkan götürdü və *həvəssiz* bir-iki qurtum içib, nəlbəkiyə qoydu (H.Abbaszadə); **ÜRƏKSİZ** Allahqulu burada elə *ürəksiz* çıxmışdı (Ə.Əbülhəsən); **KÖNÜLSÜZ** Gülpəri çox *könülsüz* cavab verirdi (Ə.Vəliyev); **ARZUSUZ, İSTƏKSİZ, İSTƏMƏDƏN, MEYİLSİZ, ŞÖVQSÜZ.**

HƏYA, ABIR, NAMUS (*utanma hissi*) [Mələk:] Bax, bu dünya necə xarab olubdur.

Abır, həya, namus heç qalmayıbdır (A.Şaiq); **ABIR-HƏYA** [Solimo:] Adamda *abır-həya* da yaxşı şeydir, – deyə öz-özünü məzəmmət edirdi (İ.Əfəndiyev); **AR** Görər oğyar ilə varını, ölməz; İlahi, Seyyida bir *ar* gəlsin (S.Ə.Şirvani); **HƏYA-ABIR** [Həsən:] Mən *həya-abır* bilməyən arvadın ayağına getməmərəm (M.İbrahimov); **İSMƏT** [Gövhər xanım:] İndiyədək abır, *ismət* saxladıb məni (N.Vəzirov).

HƏYALI, ABIRLI Amma öz qohum-qardaşlarımızdan, *abırlı, həyalı* müsəlmanlarımızdan həya-ədəb eyləyib (Qantəmir); **ARLI** Molla ədalı, sofi kirdarlı; Mərsiyəxan qanlı, mürid *arlı* (M.Ə.Sabir); **İSMƏTLİ** Gülzarın namuslu və *ismətli* olduğu xüsusi bir tərzdə dillərdə dolaşırdı (C.Cabbarlı); **NAMUSLU** ..qadınlar Allaha yalvarıb, övlad dilərkən, Gülzar kimi pak və *namuslu* bir qız istərlərdi (C.Cabbarlı); **UTANCAQ** (*bax*).

həyan *bax* kömək

HƏYASIZ (*həyası, arı olmayan*) [Bığlı ağa:] Pah atonnan, nə *həyasız* arvadmış! (S.Vəliyev); **ABIRSIZ** (*dan.*) [Gülsüm:] O, *abırsız* adamdır, onlardan nə istəsən gözləmək olar (X.Hasilova); **ARSIZ** Bizi ən çox heyrətə salan, Sottorxanın evinin dağılmasına tamaşa üçün toplanan *arsızların* söhbəti idi (M.S.Ordubadi); **BİAR** (*köhn.*) Dikmə gözünü mətbəxə, *biar* dilənçi! Rədd ol qapımdan, ağlama zar-zar, dilənçi! (M.Ə.Sabir); **BİHƏYA** [Dilbər xanım:] *Bihəyanın* üzünə bax, üzünə! (N.Vəzirov); **LƏÇƏR** (*dan.*) [Fatimə xanım:] A qız! Sənin bu *laçər* qızın mənim üstümə oğurluq yaxır (N.Vəzirov); **LƏKTƏ** (*dan., köhn.*) [Sərofnisə xanım Gülçöhrəyə:] İtil cəhənnəmə, *ləktə* əl çəkməz.. (M.F.Axundzadə); **SİTAL** [Paşa:] Biz heç də, Sultan əfəndi, böylə *sital* qadının cahidliyinə ehtiyac duymuyoruz (S.Rəhimov); **UTANMAZ** [Qəndab:] *Utanmaz*, qanacaqsız, – deyə mən də onu təhqir elədim (B.Bayramov); **İSMƏTSİZ.**

HƏYASIZLIQ [Hacı Qafar:] Gördün ki, mən sənə əvvəldən bunların *həyasızlıqlarını* demədimmi (M.S.Ordubadi); **ABIRSIZLIQ** [Müqim bəy:] Qudurğanlıq, böyük-kiçik saymamaq, bu qaydada ağanın üzünə ağ olmaq, *həyasızlıq, abırsızlıq* eləmək (S.Rəhimov); **ARSIZLIQ** [Sibulya:] Əgər *arsızlığına* salmasaydım, çoxdan ölmüşdüm (S.Vəliyev); **BİHƏYALIQ** Əgər xan məndən bu *bihəyalığı* eşitsəydi, yoqin ki, xan kimi cuşa gələrdim (N.Vəzirov); **UTANMAZLIQ** [Hatəm:] Qarşında *utanmazlıq* edirəm, arvad gündə iki sərnic süd sağırdı (Ə.İldırımoğlu); **SIRTIQLIQ** Mayanın üzündə və gözlərində heç bir biclik, *sırtıqlıq* və ya bayağılıq yox idi (M.İbrahimov).

1. HƏYAT, VARLIQ *Həyata, varlığa* məftun oluram (S.Vurğun).

2. HƏYAT, ÖMÜR (*bax*)

3. həyat *bax* yaşayış **I**

həyatbəxş *bax* həyatverici

HƏYATVERİCİ İlk baharın yeni *həyatverici* günəşi özünün ilıq və munis şüasını ətrafa saçmaqla qışın bıqdırıcı və soyuq havasına qələbə çalmaqda idi (S.Hüseyn); **HƏYATBƏXŞ** Məhz qanacaqlı anaların və *həyatbəxş* mühitin dövlətindən onlar məhv olmadılar, özlərinə və millətlərinə əbədi ad qazandılar (Çəmənzəminli).

həyə *bax* əgər

HƏYƏCANLANMAQ, ARAMINI İTİRMƏK, HƏYƏCAN KEÇİRMƏK, HƏYƏCANA GƏLMƏK, NARAHAT OLMAQ, TƏŞVİŞƏ DÜŞMƏK

HƏYƏT [Aytəmiz:] Anamla söhbətdən oyanıb *həyəti* süpürür, güllərə su verirdik (Ə.Qasımov); **HƏYƏT-BACA** Baharın gəlməsilə çöl işlərinə çıxan, *həyət-bacanı* qaydaya salan, bağ-bağata qulluq edən, malqaraya baş qarışan kəndlilər çox zaman gündüzün nə vaxt qurtardığını, gecənin nə vaxt gəldiyini bilmirdi (M.İbrahimov); **QAPI** (*dan.*) [Rüstəm:] Gəl, bu cəlladın *qapısından* uzaqlaşaq (A.Şaiq); **QAPI-BACA** [Xurda xanım:] Bu saat otaqları təmiz süpürərsən, *qapı-bacanı* gül kimi elərsən (N.Vəzirov).

həyət-baca *bax* həyət

HƏZİN (*hüzn gətirən*) Kamançanın *həzin* səsləri ilə qarışıq bir qadın səsi də gəlirdi (M.S.Ordubadi); **HÜZNLÜ** Şamonun durna bulağı cığırında onunla qarşılaşması, onun Şamoya qısılaraq *hüznlü* ağlaması nə qədər xoş idi (S.Rəhimov); **İNİLTİLİ** Nəhayət, nənəsinin ardı-arası kəsilməyən *iniltili* çağırışı Cəmili yuxudan ayıltdı (S.Rəhimov); **QƏMGİN** Hər tərəfə *qəmgin* sükut çökmüşdü (M.Hüseyn); **YANIQLI** Qulağıma *yanıqlı* bir səs gəldi (R.Rza); **QƏMLİ** (*bax*).

həzz *bax* ləzzət **1**

hibrid *bax* mələz **2**

hibridləşdirmək *bax* mələzləşdirmək

hırıldamaq *bax* gülmək

hırıltı *bax* güləş

hırıltıdamaq *bax* gülmək

I. HİCAB (*din.*), **YAŞINMA**

2. hicab *bax* pərdə

hicr *bax* ayrılıq

hicran *bax* ayrılıq

HİDDƏT [Balağa:] Bu məğlubiyyət ona [Həmidə] pis təsir eləmişdi, hiddətindən bığlarını gəmirirdi (H.Abbaszadə); **ACIQ** Cəmil ... güləndə *acığından* Tahirin əlləri titrəməyə başladı (M.Hüseyn); **HİKKƏ** Bu gülüş, yamanca dəydi hədəfə; Dala da baxmadı o, *hikkəsindən* (B.Vahabzadə); **HİRS** Məmməd boyun qan beyninə vurdu. *Hirsindən* titrədi.. (Çəmənzəminli); **QEYZ** Pasi yırğalana-yırğalana *qeyz* və istehza ilə: "Mən neyləmişəm?" – dedi (S.Rəhimov); **QƏHƏR** [Qəndab:] Ancaq ayaqlarım getmir, *qəhər* məni boğurdu (B.Bayramov); **QƏHR** (*köhn.*) [Mirzə Rza:] Əcəba qorxursunuzmu *qəhri*-ilahidən? (C.Cabbarlı); **QƏZƏB** ..Həya və *qəzəbdən* boğular kimi olub söz tapa bilmədim (M.İbrahimov), **QIMIR** (*məh.*) Zöhrə xanım dayənin *qımırını* başa düşüb, başladı Tahir Mirzəni oyatmağa ("Tahir və Zöhrə"); **ÖFKƏ** (*dan.*)

HİDDƏTLƏNDİRMƏK Göyərçinin bütün ölçüləri ötüb-keçən, daha deyilməyən bicliyi.. Pasını.. *hiddətləndirdi* (S.Rəhimov); **ACIĞINI TUTDURMAQ** Görürdün, yol gedəndə [Səmədin] gözləri çənaqdan çıxıb oynayır, ..*acığını tutduram* döyməmiş olmurdu (Çəmənzəminli); **CİN ATINA MİNDİRMƏK** (*fr.v.*) Həmidin bugünkü məqaləsi Poladovu *cin atına mindirmişdi* (Ə.Qasımov); **CİNLƏTMƏK** (*bərk hirsləndirmək*) [Xala:] Ay bala, çoxi *cinlətmək* üçün elə deyirdi (Ə.Məmmədxanlı); **HİRSLƏNDİRMƏK** [Minnətov:] Məni *hirsləndirməyin*, mənim qəlbim xəstədir (R.Rza); **QƏZƏBLƏNDİRMƏK** [Usta:] Bu ədalətsizlik gərək Heybətin özünü *qəzəblənditəydi* (M.Hüseyn); **QIZIŞDIRMAQ** (*məc.*) Elman Rafiqi *qızışdırır*, Rafiq Ədhəmi sancır.. (Ə.Kərim); **ACIQLANDIRMAQ, ASİLƏNDİRMƏK, QEYZLƏNDİRMƏK.**

HİDDƏTLƏNMƏK Ata qızının *hiddətləndiyini* görüncə yavaş-yavaş səsini alçaldıb özünü toxdadı... (S.Rəhimov); **ACIĞI TUTMAQ** Uşaqlar içinə düşər gülüşmək, Sənin də *acığın tutar*, ağlarsan (M.P.Vaqif); **ACIQLANMAQ** (*dan.*) [Qəndab:] Qönçə üzümə baxmadan *acıqlandı*... (B.Bayramov); **AĞZI KÖPÜKLƏNMƏK** (*fr.v.*) Hikmət İsfahani o qədər acıqlanmışdı ki, daha nə deyiyini, nə danışdığını bilmirdi, *ağzı köpüklənir*, dodaqları titrəyirdi (M.İbrahimov); **COŞMAQ** (*məc.*) Bayaq ponçoronin qabağında dayanarkən onun [Forruxun] üroyini bir təkəyə döndərən qəzəb yenidən *coşdu* (İ.Məlikzadə); **CİN ATINA MİNMƏK** (*fr.v.*) Lakin Mina xanım daha da qızışdı, lap *cin atına mindi* (M.İbrahimov); **CİNİ TUTMAQ** [Hacı Mehdi:] Onun hərdənbir *cini tutur* (Ə.Haqverdiyev); **CİNLƏNMƏK** (*bərk hirslənmək*) Əllaf elə *cinlənmişdi* ki, səsi bazarı tutmuşdu (Mir Cəlal); **BAŞINDAN TÜSTÜ ÇIXMAQ** (*fr.v.*) Kiçikxanımı görəndə, Nərimanın vücudunu od düşdü, *başından tüstü çıxdı* (Mir Cəlal); **DARILMAQ** Sənsiz gördüm, məlokələrə *darıldım*; Endim yerə, qədəminə sarıldım (H.Cavid); **HİKKƏLƏNMƏK** Nə var, qaban? – Alo omi *hikkələndi* (S.Rəhimov); **HİRSLƏNMƏK** Cövdət Əzizdon artıq *hirsləndi*, heyrot və qəzəbdən dişini dişinə sıxdı (H.Abbaszadə); **İTƏ DÖNMƏK** (*fr.v.*) Mən tapdaram uşaqları, arvad *dönər itə* (M.Ə.Möcüz); **KÖPÜRMƏK** (*məc.*) [Şəkro:] Bizi məhv etdirəcəksən bir gün; Duysa knyaz *köpürüb* çıldıracaq (H.Cavid); **QEYZƏ GƏLMƏK** Ağalar elə bir *qeyzə gəldilər* ki, pulları çırpdılar biçarə Yusif ominin üzünə... (C.Məmmədquluzadə); **QEYZLƏNMƏK** Kondlilər qızışıb *qeyzlənərək*; Qarılar, qocalar qiyamət edər (S.Vurğun); **QƏZƏBİ TUTMAQ** Axı bizim təqsirimiz nədir ki, sənin bizə belə *qəzəbin tutur* (M.F.Axundzadə); **QƏZƏBLƏNMƏK** Bu sözlərdən professor doğrudan da *qəzəblənditəydi* (M.Hüseyn); **QƏZƏBNAK OLMAQ** Bu ittifaqdan sərxoş ağa artıq dərəcədə *qəzəbnak olaraq*, ikinci dəfə nökəri göndərdi ki, qızı yerdən qaldırıb gətirsin (S.S.Axundov); **QIZIŞMAQ** Heç *qızışma*, qışqırma da (M.S.Ordubadi); **QIZMAQ** (*məc.*) [Vahid:] Yaman *qızıb* gəlib üstümə, bilmirəm nə təhər başımdan eloyim (M.İbrahimov); **ÖZÜNDƏN ÇIXMAQ** (*fr.v.*) [Dilara:] *Çıxma özündən* son allah (Anar); **ÖFKƏLƏNMƏK** (*dan.*)

HİDDƏTLİ *Hiddətli* halda içəri girən usta fəhlələrə dedi.. (M.Hüseyn); **HİKKƏLİ** ..sanki bu adamların hamısı, hətta onunla acıqlı və *hikkəli* danışanlar da xoşuna gəlir, hamısına kömək etmək istəyir (M.İbrahimov); **HİRSLİ** Bunu deyib Hüseynqulu ağa qabağındakı boşqabi götürüb yerə çaxdı və *hirsli* yemək otağından çıxdı (S.S.Axundov); **QEYZLİ** Heydər əmi *qeyzli* çıxardı küçəyə və gəlib yapışardı qulaqlarımdan, qalxızardı göyə (C.Məmmədquluzadə); **ACIQLI** *Acıqlı* adam tez qocalar (Ata. sözü); **QƏZƏBLİ** [Kamil] ezamiyyətdən vaxtından qabaq və çox *qəzəbli* qayıtmışdı (X.Hasilova); **QƏZƏBNAK** Könlünü ayna tək eylədi pak; Bir söz desəm, olmayaydı *qəzəbnak* (M.P.Vaqif); **ÖFKƏLİ** (*dan.*) [Mühasib:] ..Kosanın bu cürə *öfkəli* hökm etməyindən bu teleqramı öyrənməyə daha da artıq maraqlandı (S.Rəhimov); **YELLİ** (*məc., dan.*).

hikkə *bax* **1.** lovğalıq, iddia; **2.** hiddət, acıq

hikkələnmək *bax* **1.** hiddətlənmək; **2.** iddialanmaq, lovğalanmaq

hikkəli *bax* **1.** hiddətli **2.** lovğa

1. HİKMƏT, DƏRİN FİKİR, MÜDRİK SÖZ

2. hikmət *bax* fəlsəfə **1**

3. hikmət *bax* sirr

HİLAL (*şair.*) (*bir-iki günlük ay*) Onun ehtiyacı yox idi həsb-halı; Nifrəti var oski ulduz, *hilala* (S.Vurğun); **AYPARA** Mən Ayam, Bir adım Ay; Bir adım *Ayparadır*.. (Ə.Cəmil); **MAHÇƏ** (*kl.əd.*)

himar *bax* ulaq

HİNDTOYUĞU (*ev quşu*) [Leyla:] Görnəcə də *hindtoyuğu* kimi özünü çəkir... (M.İbrahimov); **HİNDUŞKA** [İclasın sədri:] Camaatımız da mal-qoyun, dana, cücü, toyuq, *hinduşka* otindən bol-bol yeyib, feyzyab olar və burada əyləşənlərin ömrünə dua, atalarına dönə-dönə rəhmət oxuyarlar (Ə.İldırımoğlu); **LOŞ** Yəmomiş, içəmomiş sərxoş olaydım; Gah fərə, gah laçın, gah *loş* olaydım... (C.Cabbarlı).

hinduşka *bax* hindtoyuğu

hirs *bax* hiddət, acıq

hirsləndirmək *bax* hiddətləndirmək

hirslənmək *bax* hiddətlənmək

hirsli *bax* hiddətli

HİSS [Cövdət:] Səbir elə, qoy bir müddət keçsin, o *hisslərdən* uzaqlaşsın, baxarıq (H.Abbaszadə); **DUYĞU** [Səlimə:] Öz *duyğularımızı* bir məhbus kimi çox zaman qapalı saxlamağa bizi məcbur edən nədir? (İ.Əfəndiyev); **HİSSİYYAT** [Kamal:] *Hissiyyatı* tərbiyə edən, insanlarda eşq və ümid doğuran şairlərimizdir (A.Şaiq); **İNSTİNKT** Müslim qorxulu yuxular aləmindən sərt, amansız *instinktlər* aləmino daxil olurdu (Ə.Yusifoğlu).

1. HİSSƏ [Əmiraslan ağa:] Yerdə qalan üç *hissənin* birinin başında Muxtar bəy, o birinin başında Səlim bəy .. duracaqdır (S.S.Axundov); **QİSİM** [Əmiraslan ağa:] Bir *qismi* Mehrəli bəylə Pəricahanın ixtiyarında olub "Laçın yuvası"nı müdafiə edəcəkdir (S.S.Axundov); **QİSMƏT** Həmin hekayə iki *qismətdən* ibarətdir.. (C.Məmmədquluzadə); **QİTƏ** Yeni əlifbanın iki *qitədən* ibarət olan surətini və habelə Tehran əmirlərindən birinə göndərdiyim məktubun surətini sizə göndərirəm (M.F.Axundzadə); **YER** [Qoca:] Oğlum, bu dərə, bu torpağı iki *yerə* toqsim edir (S.S.Axundov).

2. HİSSƏ, FƏSİL

3. HİSSƏ, SERİYA

4. hissə *bax* cür

HİSSİZ [Qəmər:] Ey bunun eşqindən məcnun olan qardaşım, bu *hissiz*, qurumuş cəsədə bənd olmusan? (S.S.Axundov); **BİHİSS** (*köhn.*) Gövhərtac *bihiss* yıxılıb canını tapşırdı (Ə.Haqverdiyev); **DUYĞUSUZ** [Gülsabah:] Yürüşə gedən kütlənin isə dabanları və pəncələri dəmir kimi sinirsiz və *duyğusuz* olmalıdır (C.Cabbarlı).

HİYLƏ [Nailə:] Ey xalq, *hiyləni* bilirəm, yəni içki. qumar eşqi başına vurub, bizdən pul qoparmaq istəyirsən (A.Şaiq); **AL** (*kl.ad.*) (*köhn.*) Canım aldın mey üçün, saqi, içirin mənə qan; Dad əlindən ki, məni *al* ilə məğbun etdin (Füzuli); **BADALAQ** (*məc.*) Bir *badalaq* lazımdır, özü də çox balaca.. (N.Vəzirov); **BİCLİK, FƏND** Balağa ehtiyatlı tərpəndi. Bildiyi *fəndləri, bicliklərı* işə saldı (H.Abbaszadə); **ƏMƏL** (*məc.*) Əlbəttə, şeytan *əməlinə* qurşanan gərək axırda belə olsun (Ə.Haqverdiyev); **FEL** (*məc.*) Tanrının, Allahın sözünə baxar; Şeytanın *felinə* uymaz bu dünya (Z.Yaqub); **FIRILDAQ** (*dan.*) Üç ay keçdi... Nəhayət *fırıldaqlar*, hiylələr; Gördü, hədərdir, hədər (B.Vahabzadə); **HOQQA** (*məc.*) [Salamov:] ..bütün *hoqqalar* mədənlər üstündədir (C.Cabbarlı); **KƏLƏK** (*dan.*) [Reyhan:] Sən məni belə oxşayanda qorxuram; de görüm nə *kələyin* var? (M.İbrahimov); **MƏKR** Bu təndürüst simada elə bil məkrlə məhəbbətin, xəyanətlə sədaqətin vəhdətini gördü (B.Bayramov); **QURĞU** (*məc.*) [Hilal xanım:] Bir müddət sonra mənə aydın oldu ki, bu *qurğunu* quran, tapançanı evimizə atan sənin öz "dostun" imiş (B.Bayramov); **NÖMRƏ** Yox, balam, deyəsən *nömrəynən* bunu başa vermək olmayacaq (Ə.Əbülhəsən); **TƏLƏ** (*məc.*) [Səfo:] Demək bu dünyada qurulmuş minlərlə *tələlərdən* çıxmaq lazımdır (S.Rəhimov).

HİYLƏGƏR Dedi: – Rədd ol, *hiyləgər!* Lovğalanma bu qədər! (A.Şaiq); **BİC** Kəndlilər arasında belə bir söz gəzirdi ki, Şahbaz bəy *bic* adamdır... (M.İbrahimov); **BİCƏNGƏ(NƏ)** (*məh.*) [Dayıoğlu:] Amma elə ki *bicəngə* xalaoğlum başladı dayımı yamsılamağa və dayımın kimi dodaqlarını tərpətməyə, ... doğrusu, mən də gülməyə başladım (C.Məmmədquluzadə); **CÜVƏLLAĞI** [Həsən] yazıq türkəsaya adamdır, birdən keçər bir *cüvəllağının* əlinə, yıxar evimi, papağımı vurar yerə, ciyərim od tutub yanar, əlim bir yana çatmaz (M.İbrahimov); **ÇOXBİLMİŞ** (*dan.*) [Qəndab:] Yaxşı deyirlərmiş ki, yetim *çoxbilmiş* olur (B.Bayramov); **DƏLƏDUZ** [Malik:] Bunlar da o *dələduz* Malik ibn Səidin aşıqlarıdır (A.Şaiq); **ƏMƏLBAZ** Demək, bu *əməlbaz* arvad oturduğu yerdə ..qızını söz-sovdan qurtardı (S.Rəhimov); **ƏYYAR** *Əyyar* İbrahim Şiraza gələndən sonra Fərəc ixtisara düşən bir müəllim vəziyyətində qalmışdı (Qantəmir); **FAQQI** (*dial.*) Fatma çox *faqqı* arvaddı (ADDL); **FƏNDBAZ** (*dan.*) [Əhməd:] Zalımoğlu nə *fəndbazmış*, a gədə!.. (N.Vəzirov); **FIRILDAQÇI** [Zöhrə:] Anam *fırıldaqçı* adamları sevmir (M.İbrahimov); **FƏNDGİR** [Mircəlil Fətiyə:] Yaşa! *Fəndgir* oğlansan, – dedi. – İndi tapdığın çörəkdən bir tikə özün ye, birini də rəis müavininə nəzir elə (Ə.İldırımoğlu); **HARAMZADƏ** [Zəki:] Min cür fırıldaq işlətmiş bu qoşa *haramzadələr* indi məhkəmə kürsüsündə cüt oturmuşlar (Anar); **HƏLLƏM-QƏLLƏM** (*dan.*) [Xan:] Ay gədə, sən çox *həlləm-qəlləm*

adama oxşayırsan... (Çəmənzəminli); **HİYLƏBAZ** A *hiyləbaz* molla, sənin bu kələyini biz də duymuşuq (S.S.Axundov); **JULİK** (*dan.*) Hanı dükançı Hüseyn? Ədə, o yaman *julik*, yaman adam.. (A.Şaiq); **KƏLƏKBAZ** [Əsgər:] Halal olsun Süleyman, sən nə *kələkbazsan*, şeytan! (Ü.Hacıbəyov); **QURNAZ** (*köhn.*) [Oqtay:] -Təbiət *qurnaz* baqqallar kimi bizi aldadır (C.Cabbarlı); **LOTU** (*dan.*) [Qurbanoli bəy:] Amma beş-on il bundan irəli burada bir pristav vardı; çox *lotu* oğlan idi (C.Məmmədquluzadə); **MƏKRLİ** O, görünür, hiyləgər və *məkrli* düşmənindən intiqam almaq üçün sənətin ecazkar qüdrətini sınaqdan keçirmək istəyirdi (M.Hüseyn); **NADÜRÜST** [Qəmrar:] Hamımız deyirdik ki, bu *nadürüst* adamları başından elə, qulaq asmırdı (S.Rəhman); **ŞARLATAN** Bunlar da yaxşı adamlardır, amma *şarlatandırlar* (C.Məmmədquluzadə); **ŞEYTAN** (*məc., dan.*) [Səlimə:] Ax, necə *şeytandır*... hər kəsin ürəyinə girməyi necə bacarır (İ.Əfəndiyev); **TÜLƏK** (*dial.*) Nemət *tülək* adamdı (ADDL); **TÜLKÜ** (*məc., dan.*) Səfər *tülkü* olsa da axır tələyə düşdü; Olan olmuşdu artıq, ötən dəxi ötmüşdü (M.Rahim); **TÜLÜNGÜ** (*dial.*) Abbas lap *tülüngüdü* (ADDL); **VƏLƏDÜZZİNA** (*məh.*) [Xanpəri:] İtil buradan, *vələdüzzina!* (N.Vəzirov); **ZATIQIRIQ** (*dan.*) [Qarovulçu Həmidə:] İnanıram, qərdəşoğlu, Abdulla Qəmbərov *zatıqırıq* idi. *Zatıqırıqdan* hər nə desən gözləmək olar (H.Abbaszadə); **KAZİB** (*köhn.*).

HİYLƏGƏRLİK, TÜLKÜLÜK (*məc.*) Məhəbbət qıtlaşanda, səadət qıtlaşanda; *Hiyləgərlik, tülkülük* öz həddini aşanda (X.Rza); **BİCLİK** [Firuz:] Sən bir adamda *bicliyə*, hiyləyə bax a.. (H.Abbaszadə); **ÇOXBİLMİŞLİK** [Şirin:] Bu qızın *çoxbilmişliyindən* boyu çıxmır (B.Bayramov); **ƏYYARLIQ** [Qara Pəhləvan] odur ki, *əyyarlığa* başladı ("Koroğlu"); **FAQQILIQ** (*dial.*) Ay qız, özünü nə üçün *faqqılığa* qoyursan (ADDL); **HOQQABAZLIQ** (*məc.*) Oynadır əldə məzhəbi, dini; *Hoqqabazlıqda* xeyli kamildir (M.Ə.Möcüz); **KƏLƏKBAZLIQ** Ən nəhayət, çıxılmaz vəziyyət sərvəri *kələkbazlığa* məcbur edir (Ə.Sultanlı); **QURNAZLIQ** [Sitarə:] ..sadə bir qızın ürəyinin həqiqi sərairini *qurnazlıqlara*, bilməm nələrə həml etməyəcəksiniz, deyilmi? (A.Şaiq); **LOTULUQ** Düşdün *lotuluq* məşqinə, islamə uyuşma (M.Ə.Sabir); **NADÜRÜSTLÜK** [Cənnətəli ağa:] Qırışmal oğlan, *nadürüstlük* sənin özündədir (N.Vəzirov); **ƏMƏLBAZLIQ, FƏNDBAZLIQ, FƏNDGİRLİK, DƏLƏDUZLUQ.**

hizb *bax* partiya **I**

I 1. HOQQA [Bəhram:] Belədir işlər, Dilarə. İndi gərək son də bundan göz-qulaq olasan ki, yenə bir *hoqqa* çıxartmasın (Anar); **BAZİ** [Qaplan:] Məlik, səni yaxşı tanıyıram. De görüm bu nə *bazidir* (A.Şaiq); **FOKUS** [Tələbə] qəti əmin idi ki, bütün bu *fokusları* kimsə qəsdən düzəldib.. (Anar); **NÖMRƏ** (*məc.*) [Şahin:] Mənim orijinal bir *nömrəm* var, o da kasa rəqsidir (S.Rəhimov); **OYUN** [Səkinə:] Yazıq balam, gərək bütün bu *oyunlar* bizim başımıza gələydi (A.Şaiq).

2. hoqqa *bax* hiylə

II hoqqa *bax* qəlyan

1. HOQQABAZ [Nəbi:] Vəfalı oğlundan şübhə yaramaz! Yoqin yalan deyib sizə *hoqqabaz* (S.Rüstəm); **KOSA** *Kosanın* başında bir keçə papaq; Zınqırov da asıb lap kəlləsindən (S.Vurğun); **MƏZHƏKƏÇİ** [Mayor:] *Məzhəkəçi* dost, deyəsən ayaqların sözünə baxmır (R.Rza); **OYUNBAZ** [Muxtar:] Onu [Şahini] qovacağam. *Oyunbazın*, artistin birisi... (B.Bayramov); **TƏLXƏK** [Məsumə:] Burax onu getsin, *təlxəyin* birisidir, dilinə dil çatdıra bilməz (B.Bayramov).

2. hoqqabaz *bax* fırıldaqçı

1. HOQQABAZLIQ [Məsumə:] Yeniliyi sənin kimi astarından anlayanlar, gözəl adətənənənin əleyhinə olan hər cür *hoqqabazlığı*, hər cür ədəbazlığı yenilik adlandırırlar (B.Bayramov); **OYUNBAZLIQ** Və bundan sonra üzümüzə gələn – zəhmətkeşlər tərəfindən bu *oyunbazlıq*, mərsiyəbazlıq, şaxsey-

bazlıqların dəfninin növbəsi gərək olsun.. (C.Məmmədquluzadə); **TƏLXƏKLİK, MƏZHƏKƏÇİLİK.**

2. hoqqabazlıq *bax* hiyləgərlik

hop-hop *bax* şanapipik

HOPPANMAQ Sərçə yoldaşlarının sözlərindən utandı; Uçub budaqdan birbaş; Göl-məçəyə *hoppandı* (M.Rzaquluzadə); **ATIL-MAQ** Zərif geri *atıldı* (Ə.Kərim); **SIÇRA-MAQ** Ceyran yana *sıçradı*, buynuzlarını boynuna qısıb daha da bork *vazladı* (M.Rza-quluzadə); **VAZ ATMAQ** Budur qız get-mənə, ilk qatar gəlir, ürkərək *vaz atıb* qaçır dəvələr (S.Rüstəm).

horra *bax* yal **1**

HOSPİTAL [Könül] ikinci dəfə *hospi-tala* gedərkən .. mayoru gördü (X.Hasilova); **HƏRBİ XƏSTƏXANA** Lakin iki il əvvəl, Leyla *hərbi xəstəxanadan* buraya gələn gün-dən Abdulla qəribə hisslər keçirməyə .. baş-lamışdı (B.Bayramov); **LAZARET** [Fəxrəd-din:] İyun əksinqilabi üsyanda mən hərbi *lazaretdə*, həkimlik, bacım Tahirə isə şəfqət bacısı vəzifəsini ifa edirdi (S.S.Axundov).

HOVUZ (*su saxlanan nohur*) *Hovuz* su ilə doldu (X.Hasilova); **ÇARHOVUZ** [Qulu:] Ağa, bağçada *çarhovuza* su buraxmışdım (S.S.Axundov); **OVDAN** Yağış suyu bu *ov-dana* axırdı (C.Cabbarlı).

HÖCƏT [Piri baba:] Əlimərdan atası kimi təkəbbürlü, kinli, *höcət* qoçaq bir dəliqan-lıdır (S.S.Axundov); **İNAD** [Zabit:] Xeyr, cənab mayor, bu çox *inad* adamdır (R.Rza); **İNADÇI** Pavluşa, son *inadçısan*, – dedi (M.S.Ordubadi); **İNADKAR** Şair on *inadkar* bir çocuq kimi; Endi xəyalının dərinliyinə (S.Vurğun); **İNADLI** Mehriban *inadlı* bir qız idi (M.Hüseyn); **KƏC** [Qapıçı:] Yaxşı tanı-yıram *kac* əxistanı (M.Rahim); **TƏRS** (*məc.*) [Vəzir:] O müəllim çox *tərs* adamdır (R.Rza); **HÖCƏTÇİ, HÖCƏTKAR, İSRAR.**

höcətçi *bax* höcət

höcətkar *bax* höcət

HÖKM (*hüq.*), **QƏRAR**

hökm *bax* əmr **1**; sərəncam

HÖKMDAR (*tar.*) [Şapur:] Şahım.. unutma ki, *hökmdarsan* son (S.Vurğun); **CAHANDAR** (*kl.əd.*) Ərz eylədilər ki: "Ey *cahandar!* Məcnundan olubmusan xəbər-dar?" (Füzuli); **HÖKMRAN** [Fitnə:] Taxta sahib olan zaman; Çox gənc idi bu *hökmran* (A.Şaiq); **XOTKAR** Nə qızdan başlamısan? Guya bir *xotkarın* qızıdır! (S.Rəhimov); **DİKTATOR, PADŞAH** (*bax*).

HÖKMDARLIQ Padşah bu fikrə gələndə şairlik gözündə çox böyüdü, hətta *hökm-darlıqdan* da artıq göründü (M.İbrahimov); **AĞALIQ** Elə ziyalılarımızda da taqsır çox-dur. Onların içində *ağalıq* iddiasına düşən-lər, yerlilori öz evlərində rahat dolanmağa qoymaq istəməyənlər azdırmı? (İ.Şıxlı); **ALLAHLIQ** (*məc.*) [Safo:] Bu gödək adam-lar da dində üç dəfə *allahlıq* iddiasına düşür-lər (S.Rəhimov); **CAHANDARLIQ** Onun nəvazişatından və əql və fərasətindən və qideyi-*cahandarlığından* elçi və əmələ-si vəcd etdilər (M.F.Axundzadə); **HAKİM-LİK** Sultan sözü hərləyib özünün *hakimlik* dərəbəylik səltənətino qorxu salan mətləb üstünə gətirdi (S.Rəhimov); **HÖKMRAN-LIQ** [Xosrov:] Gözəl dost.. Nə gördüm bu dünyada mən; Nə verdi Xosrova bu *hökm-ranlıq* (S.Vurğun); **SƏLTƏNƏT** İbrahim xan Qarabağa qayıdanda qardaşı Mehrali bəylə arasında *səltənət* davası düşmüşdü (Çəmənzəminli); **SOLTANLIQ** [Çingiz:] Piri baba, eşitdim səni *sultanlıqdan* əzl edib-lər (S.S.Axundov).

HÖKMFƏRMA Hər tərəfdə bir qəbiris-tan sükutu *hökmfərma* idi (M.S.Ordubadi); **HÖKMRAN** Qış bütün səhərə *hökmran* olaraq hər tərəfi qalın ağ bir örtüyə sarımışdı (A.Şaiq).

HÖKMLÜ, HÖKMRAN, ƏMREDİCİ

hökmran *bax* **1.** hakimiyyət **1**; **2.** hökm-fərma; **3.** hökmlü

hökmranlıq *bax* hakimiyyət **1**

hökumət *bax* dövlət **1**

hökumətsizlik *bax* hərc-mərclik

HÖRMƏT, EHTİRAM (*müxtəlif məna-larda*) Bu ani, keçici *hörmət, ehtiram* hissi-dir, yoxsa başqa bir duyğudur? (Ə.Qasımov); **İKRAM** (*köhn.*) Xəlqin işi bizlərə *ikram* idi; Ax!.. necə kef çəkmoli əyyam idi! (M.Ə.Sa-bir); **İZZƏT, ŞÖVKƏT, ŞAN** Nəbati istə-məz sonsiz dünyanı; *İzzəti*, hörməti, *şövkəti, şani* (Nəbati); **NÜFUZ** [Vəzir:] Gəncədə onun [İlyasın] böyük *nüfuzu* vardır (M.S.Or-dubadi); **SAYĞI** Çəkil ordan, nə *saygı* bil-məz adam (H.Cavid); **URVAT** (*dan.*) Qəh-rəman oxuyandan qabaq Rüstəmin bu evdə heç olmasa *urvatı* vardı (S.Rəhimov); **İLTİ-FAT.**

HÖRMƏTLİ (*hörmətə layiq*) [Fəxrəd-din:] Hər nə qiymətə olursa olsun, bu xəlqi-də haman *hörmətli* qadın üçün hədiyyə alac-ağam (M.S.Ordubadi); **MÖHTƏRƏM** [Salar:] Sərdarın qonağı bizim də *möhtərəm* qonağımızdır (M.S.Ordubadi); **NÜFUZLU** [Məsmə:] ..Onlar kənddə *nüfuzlu*, kəramət sahibi seyidlər hesab olunurdular (S.Hüseyn); **URVATLI** [Qarakişi:] ..Ölüsü də *urvatlı* (B.Bayramov); **İZZƏTLİ, SAYĞILI.**

HÖRMƏTSİZ Görəydi o boyda xəfiyyə başçısı, Höccətullah xanın sağ əli Nüsrətul-lah bəy necə də *hörmətsiz*, şərəfsiz, bir növ, xəlvəti quyulandı, basdırırdı (S.Rəhimov); **BİHÖRMƏT** [Səadət xanım:] Bağışlayın, əgər məndən *bihörmət* iş baş vermişsə, üzr istəyirəm... (Mir Cəlal); **SAYĞISIZ** Zikir-siz mömini şeytan aldadar; *Sayğısız* iyidi düş-man aldadar.. (Aşıq Ələsgər); **URVATSIZ** Gör nə qədər *urvatsızıq* ki, Qoni bəyin evinin yanmasında da bizdən şübhələnirdi (Ə.Vəli-yev); **NÜFUZSUZ.**

HÖRMƏTSİZLİK Alo kişi nəhayət, Şamo tərəfindən bütün bu söhbəti özünə qarşı olmazın *hörmətsizlik* sayıb, onun öz qınından çıxan böyüklənməli kimi hesab edib pırçım-pırçım axan tər içində pişdi, pörtüb qızardı (S.Rəhimov); **BİEHTİRAMLIQ** Sabahı günü dükançılardan biri Kalniyyatın hüzuruna gəlib dedi ki, iğtişaş günündə sənə *biehtiramlıq* göstərən şəxsi mən bilirəm, mə-nim dükan qonşumdur, adı Məşədi Kazımdır, adam göndər, onu gətirtdir, cəzasına çatdır (R.Əfəndiyev); **BİHÖRMƏTÇİLİK** Burada nə kömək lazımdır, nə *bihörmətçilik*, nə də qeyri bir bəhanə (C.Məmmədquluzadə); **BİHÖRMƏTLİK** [Baba:] Xanım, başına dönüm, *bihörmətlik* olar, xəcalət çəkərəm (Çəmənzəminli); **EHTİRAMSIZLIQ** [Çin-giz:] Zöhrə xanım, siz ilə əlvida edərək yenə də rica edirəm ki, sizə etdiyim *ehtiramsız-lığı* qəlbinizdən çıxarasınız (S.S.Axundov); **ƏDƏBSİZLİK** Əmir Toxtamışın tədbir-lərilə razılaşmadı, o, xəlifənin məktubunu cavabsız qoymağı yenə Əmirəlmöminə qarşı *ədəbsizlik* hesab etdi (M.S.Ordubadi); **HƏ-QARƏT** [Əmir:] Əmirəlmöminin məktu-bunu cavabsız buraxmaq ona qarşı böyük *həqarətdir* (M.S.Ordubadi); **NƏZAKƏT-SİZLİK, SAYĞISIZLIQ.**

hörük *bax* saç **1**

HÖRÜMÇƏK (*zool.*) [İldırım:] Bircə bu bir-birinə *hörümçək* toru kimi bağlı tüfey-lilər nəslinə son qoya bilsəydim (A.Şaiq); **ƏNKƏBUT** (*kl.əd.*) Asıldım *ənkəbut* tək, ey dilaram; Müənbər türreyi-torrarə qarşı (Xətayi).

hövl *bax* qorxu

HÖVSƏLƏ [Fatma:] Ancaq bayırda gözlə-məyə səbrim, *hövsələm* çatmadı (H.Abbas-zadə); **ƏRDƏM** Səndən hərəkət, məndən bərəkət; Təki səndə *ərdəm* olsun (S.Rə-himov); **DÖZÜM, SƏBİR** (*bax*).

HÖVSƏLƏLİ, DÖZÜMLÜ, SƏBİRLİ (*bax*)

HÖVSƏLƏSİZ (*hövsələsi olmayan*) İşlər bərkə düşüncə, o bir neçə gün müxtəlif bə-hanələrlə başını daldalayıb, sonra gedəcək yeri, danışacaq bir adamı olmadığından *höv-sələsiz* qonşoro çıxmış, Fərzəliyə qoşulmuşdu (S.Rəhimov); **KƏMHÖVSƏLƏ** [İra:] Mi-şanın vəd verməsino baxma, o *kəmhövsə-*

İxt. adamla məşğul olmağa kirdarı çatmaz (H.Abbaszadə); **SƏBİRSİZ** (*bax*).

höyüş *bax* nom

höyüşlənmək *bax* nəmlənmək

höyüşlü *bax* nəmli

humanist *bax* insanpərvər

humanistlik *bax* insanpərvərlik

humanizm *bax* insanpərvərlik

HUŞ *Huş* başımdan çaşdı, dilim dolaşdı; Gözlərim sataşdı, buxağa düşdü (Aşıq Ələsgər); **HUŞ-BAŞ** Qəm yemə, yerindədir hər halda *huş-başımız* (M.Rahim); **FİKİR, DİQQƏT, YADDAŞ** (*bax*).

2. huş *bax* mürgü

huş-baş *bax* huş **1**

huşlu *bax* yaddaşlı

1. HUŞSUZ, BİHUŞ, YADDAŞSIZ

2. huşsuz *bax* bayğın

HUŞSUZLUQ, BİHUŞLUQ, YADDAŞSIZLIQ

huşyar *bax* **1.** sayıq; **2.** düşüncəli, dərrakəli

hübab *bax* köpük **1**

hücrə *bax* otaq

HÜCUM (*müxtəlif mənalarda*) "Dikdağ" səngəri isə vəziyyətdən *hücum* əmrini duymuşdu (S.Rəhimov); **BASQIN** (*gözlənilmədən edilən hücum*) [Sərdə yaşayan] ..dağlılar çöllüklərə nisbətən daha şücaətli olduqlarından, xəzərlər üzərinə *basqın* edərək, onları qarət edirdilər (A.Bakıxanov); **HƏMLƏ** (*köhn.*) [Varaz:] İlk *həmlədə* düşmən iki yüz, bizdən isə üç yüz igidin qanı Kür çayının sularını qırmızı rəngə boyadı (M.Hüseyn); **TƏCAVÜZ** (*başqasının torpağına, sahəsinə zorla edilən hücum*) Sultanın və paşanın atlıları "Bu gündə olmizdən gələni əsirgəməyin" ixtiyarını vermələri kəndi bir *təcavüz* nişangahına çevirmişdi (S.Rəhimov); **TƏƏRRÜZ** (*köhn.*) Siyasi cəhətdən isə iqtisadi şəkli etibarilə özlərindən irəli olmayan çinlilərin *təərrüzündən* qurtarmaq üçün islam orduları [Əmir Qutlunun sərkərdəliyi ilə] bir iltıcagah gördülər (A.Şaiq).

hücumavər *bax* hücumçu **1**

1. HÜCUMÇU (*hücum edən*) Yenə *hücumçular* hücuma keçir; Faşist soldatını ox kimi biçir (M.Rahim); **HÜCUMAVƏR** (*köhn.*) Xürüşan mövclər hər səmtdən yeksər *hücumavər;* Görüb əmvacı koştidən ucaldı: vay, hürriyyət! (M.Ə.Sabir); **HƏMLƏVƏR** Qovzadı yerdən başın od bədgühər; Oldu volinemotinə *həmləvər* (A.Sohhot).

2. HÜCUMÇU (*idm.*) Qapıçı qapı qabağında; *hücumçular,* qoruyucular; yarımı da, bütövü də torini silo-silo; qaçır belədən-belə (R.Rza); **FORVARD.**

hüd-hüd *bax* şanapipik

1. HÜDUD İnsan səbrinin də müəyyən *hüdudu* varmış (M.Hüseyn); **HƏDD-HÜDUD** Dəmirin və dəqiqə sevincinin *həddi-hüdudu* yox idi (Ə.Vəliyev); **SON.**

2. hüdud *bax* sərhəd

hüdudsuz *bax* ucsuz-bucaqsız

HÜQUQ [Ruzbeh:] Hətta, o qədər məharətli və yumşaq bir adamam ki, mənim şəxsi *hüquqlarımı* və ixtiyaratımı məhdudlaşdırıb öz xeyrinə istifadə edənlərə belə üroyimdə kin bəsləyə bilməmişəm (M.İbrahimov); **HƏDD** [Kərim Məşədi Qurbana:] Heç vaxt sənin *həddin* yoxdur ki, o qıza böyüklük edəsən! (M.F.Axundzadə); **İXTİYAR** ..kapitan onları başa saldı ki, özü arzu etsə də, buna *ixtiyarı* yoxdur (M.Rzaquluzadə); **İXTİYARAT** Bu gündən Əkbər hər bir *ixtiyarat* əlinə alıb Hacı Xəlil mərhumun məsnədində oyləşdi (Ə.Haqverdiyev); **SƏLAHİYYƏT** (*bax*).

hümmət *bax* səy

hülqum *bax* boğaz **1**

hülqumlanmaq *bax* boğazlanmaq

hündür *bax* **1.** uca **1**; **2.** ucaboy(lu)

hündürboy(lu) *bax* ucaboy(lu)

hündürdən *bax* ucadan

HÜNƏR, RƏŞADƏT Səadət, azadlıq, *rəşadət, hünər;* Bunlarla bərabər bəxtiyar bəşər (M.Rahim); **BACARIQ** [Ayxanım:] Heyifsən, görkəmin, *bacarığın,* qabiliyyətin

var, anımı iradən, ağlın... (M.İbrahimov); **KİŞİLİK** [Forhad:] Hər kəsdə azərbaycanlı qanı varsa, bu gecə *kişilik* göstərməlidir (Ə.Vəliyev); **MƏHARƏT** Xüsusən cavanlar, hoddi-büluğa, orgonliyə çatmayanlar da *öz məharətlərini* göstərməyə müvafiq dövr yay mövsümünü hesab edirlər (B.Bayramov); **ŞÜCAƏT, CƏSARƏT** [Vəzir:] Harun *şücaət* və *cəsarətdə* ad qazanmış bir pəhləvandır (Ü.Hacıbəyov).

HÜNƏRLİ Mikayılla İsmayıl kimin *hünərli* olmasını böyük qardaşlarına göstərmək üçün bəhsə girmişdilər (H.Abbaszadə); **HÜNƏRMƏND** (*kl.əd.*) Biz qoca qəfqazlı igid ərlərik; Cümlə *hünərməndlərik,* nərlərik (M.Ə.Sabir); **HÜNƏRVƏR** Nəzmü təlfdə *hünərvərsən;* Ya ki, bir şairi süxənvərsən (A.Sohhot); **CƏSARƏTLİ, CƏSUR, CÜRƏTLİ, İGİD** (*bax*), **QOÇAQ.**

hünərvər *bax* hünərli

hünü *bax* ağcaqanad

hürkmək *bax* qorxmaq

hürkü *bax* qorxu

HÜRMƏK (*itlərə aid*) Arabanın səsini eşidən itlər hər tərəfdən *hürməyə* başladılar

HÜZUR (T.Ş.Simürğ); **HAVLAMAQ** Bu nəhayətsiz, uzaq səhrada; Təpədən bir köpəyin *havlaması;* Onu diksindirdi (S.Rüstəm).

hürr *bax* azad

hürriyyət *bax* azadlıq

hürriyyətpərəst *bax* azadlıqsevən

hürriyyətpərvər *bax* azadlıqsevən

hürufat *bax* əlifba

HÜSN-RƏĞBƏT [Əbülhəsən bəy:] O, inqilaba qarşı ona görə *hüsn-rəğbət* bəsləyirdi ki, inqilabın Rusiya və İngiltərə əleyhinə işlədiyini görürdü (M.S.Ordubadi); **HÜSN-TƏVƏCCÜH** [Əbülhəsən bəy:] Lakin quru *hüsn-təvəccüh* bəsləmək inqilabçılıqdan çox uzaqdır (M.S.Ordubadi); **İLTİFAT** Qarı Aqilin ürək torpədən *iltifatına* qarşı indi heyran-heyran baxır (S.Rəhimov); **ÜLFƏT** Hökimlə xəstə arasında qəribə *ülfət* yaranmışdı (B.Bayramov); **XOŞ MÜNASİBƏT.**

hüsn-təvəccüh *bax* hüsn-rəğbət

hüzn *bax* qəm

hüznavər *bax* qəmli

hüznlü *bax* qəmli; həzin

hüzur *bax* ön

Xx

xab *bax* yuxu **I**

I xacə *bax* seyid

II xacə *bax* xədim

XAÇ (*xristianlarda sitayiş obyekti*) Talış xan .. "Georgi" *xaçını* döşünə taxıb .. getdi (C.Məmmədquluzadə); **SƏLİB** Bir çoxlarının başlarındakı *salib* qırılmış, bir qisimləri yanı üstə yerə yıxılmışdı (S.Hüseyn).

xaçpərəst *bax* xristian

xaçpərəstlik *bax* xristianlıq

xadimə *bax* xidmətçi **I**

xahər *bax* bacı

XAHİŞ Xanım pəncərədən bağçanı nura qərq eləmiş mülayim payız günəşinə baxıb bu *xahişin* səbəbini dərhal anladı.. (M.İbrahimov); **İLTİMAS** (*yazılı surətdə xahiş*) Odur ki, üzümü tuturam bizim evə tərəddüd edən övrətlərin savadlı ərlərinə və qardaşlarına və onlardan iltimas edirəm ki, mənim *iltimasımı* özləri oxuyandan sonra, onun məzmununu bizə gələn övrətlərə də yetirsinlər (C.Məmmədquluzadə); **MÜRACİƏT** Şöbə müdirinin *müraciətini* bir həftə təxirə uğratmışdısa da, yenə Zeynaldan bir xəbər çıxmamışdı (S.Hüseyn); **RİCA** [Qızıl Arslan:] Son *ricam* budur ki, Toğrula qarşı başladığım hazırlığın əsas məzmununu Azərbaycan xalqı arasında intişar etdirəsiniz (M.S.Ordubadi); **TƏMƏNNA** Mənim hörmətimdə, zarafatımda: Bir umu, *təmənna* hiyləsi yoxdur (M.Araz); **TƏVƏQQE** (*köhn.*) Hatəmxan isə papiros muzdunun yarısını özünə tənbəki haqqı götürər, yarısını Talıbxana verər, ağız açıb kişilərin *təvəqqesini* yerinə yetirərdi (S.Rəhimov).

XAHİŞ ETMƏK/ELƏMƏK [Vəliş:] Bəy, *xahiş eləyirəm* ağzınızı təmiz saxlayasınız (Ə.Vəliyev); **İLTİMAS ETMƏK** ..Onlardan *iltimas edirəm* ki, mənim iltimasımı özləri oxuyandan sonra, onun məzmununu bizə gələn övrətlərə də yetirsinlər (C.Məmmədquluzadə); **RİCA ELƏMƏK (ETMƏK)** Uşaqlardan biri .. mənim də onlarla iştirak etməyimi *rica etdi* (T.Ş.Simurğ); **TƏVƏQQE ETMƏK/ELƏMƏK** [Süleyman:] Mən səni xəbərdar edirəm və çox *təvəqqe edirəm* ki, ağalığınıza hüdud qoyasınız... (M.Hüseyn).

xahnaxah *bax* könülsüz, istər-istəməz

1. XAİN (*vətənində, xalqına xəyanət edən*) [Maral:] *Xainlər* başqalarını *xain* adlandırmasınlar (S.Rəhman); **İLAN** (*məc.*) [Sona:] Məni o qara *ilan* Kamran aldatdı (H.Nəzərli); **ADAMSATAN, DÖNÜK, XƏYANƏTÇİ, XƏYANƏTKAR, NAMƏRD** (*bax*), **SATQIN** (*bax*), **ŞTREYKBREXER**

2. xain *bax* paxıl

1. XAİNLİK [Fəxrəddin bəy:] Bunlar hamısı vəhşilikdən və nadanlıqdandır və həmçinin *xainlik*, göz götürməməklik (N.Vəzirov); **XƏYANƏT** [Gülobotin] konarda dayanıb baxırdı: "Heç olmasa bu çirkin *xəyanət* barədə .. qardaşını xəbərdar edə bilərdi!" (M.İbrahimov); **DÖNÜKLÜK, XƏYANƏTÇİLİK, XƏYANƏTKARLIQ, NAMƏRDLİK** (*bax*); **SATQINLIQ** (*bax*); **ŞTREYKBREXERLİK**

2. xainlik paxıllıq

xak *bax* torpaq **I**

xaqan *bax* padşah

xaqanlıq *bax* padşahlıq

XALAOĞLU [Məmiş:] Nənəyin, nənəmin goru haqqı, səni çox istəyirəm. Qoy öpüm, *xalaoğlu*, hamı elə bilir ki, Məmiş xoşbəxtdir... (B.Bayramov); **XALAUŞAĞI** Mənsurə Əbiş-Məmiş *xalauşağını* tanıdı (B.Bayramov); **XALAZADƏ** (*köhn.*) O belə bir cümlə yazmışdı: "Gördüm Rəcəb gəliyor, hansı ki, mənim *xalazadəmdir*", mən onu bu kağıza köçürəndə belə dəyişdirdim: "Gördüm bizim xalaoğlu, Rəcəb gəlir" (Qantəmir).

xalat *bax* xələt

xalauşağı *bax* xalaoğlu

xalazadə *bax* xalaoğlu

xalça *bax* xalı

XALI (*böyük xalça*) ..Döşəməyə gözəl *xalı* döşənmişdi (X.Hasilova); **XALÇA** [Bəhram:] Bəli. Şübhəsiz, İran *xalçasıdır* (Anar).

xali *bax* boş **I**

1. XALİS (*heç bir qarışığı olmayan*) [İskəndər bəy:] Xala, doğrudan da, bu *xalis* sudur (N.Vəzirov); **ƏSİL** [Vahid:] Bilirsən, Bənövşə, bu *əsil* brilyant deyil, öldəqayırmadır, sənə *əslini* alacağam (M.İbrahimov); **TƏMİZ** Faytonçu ev sahibinin *təmiz* rusca danışdığını görüb sevindi (İ.Şıxlı); **XAS.**

2. XALİS, ƏSİL, HƏQİQİ

1. XALQ [Gülsabah:] Söylə öz *xalqına* ki, sən də onun vurucu bir qolusan... (C.Cabbarlı); **EL** *El* bilir ki, son mənimsən; Yurdum, yuvam, məskənimsən.. (S.Vurğun); **KÜTLƏ** [Mirzə:] Mən axundlar üçün, savadlılar üçün yazıram, mən avam *kütlə* üçün yazıram, ona görə də mənim dilim sadə və avam üçün anlaşılan olsun (Ə.Haqverdiyev); **ƏHALİ.**

2. xalq *bax* camaat

xallı *bax* çil

XALTA (*itin boynuna bağlanan qayış, hulqa*) Aslanın boynuna *xalta* vurmazlar, balalarım, ancaq ona vurmuşdular (F.Sadıqzadə); **KƏMSİK** [Güloli:] ala iti *kəmsiyindən* açıb yanına aldı.. (S.Rəhimov).

1. XAM (*k.t.*), **ƏKİLMƏMİŞ** (*torpaq, yer*)

2. xam *bax* naşı

XAMA ..qeyri çay ilə və çaysız yemələ şeylər, yağlar, *xamalar*, qaymaqlar, quru yemişlər düzülmüşdü (C.Məmmədquluzadə); **SMETAN** (*rus.*) Vera *smetanı* təzəcə soyumuş isti kartofun üstünə tökdü qaşıqla əzir və yeyirdi (M.S.Ordubadi).

xamelyon *bax* buqələmun

xamə *bax* qələm **I**

xamlıq *bax* naşılıq

xamuşan *bax* sakitlik **I**

xamuşanlıq *bax* sakitlik **I**

xamuşluq *bax* sakitlik **I**

1. xanə (*mus.*) *bax* takt

2. xanə *bax* ev **I**

xanəndə *bax* müğənni

xanənişin *bax* gusənişin

1. XANIM (*hörmət və şərəf üçün qadınlara verilən ad*) Yelpazəli *xanım*, fraklı sərlər; Gülür toqquşduqca qədəh-qədəhə (S.Vurğun); **BANU** Açıldı başın, indi qıl öz dərdinə çarə; *Banu* hərəm oldun... (M.Ə.Sabir); **QIZ** (*dan.*) [Əbülhəsən bəy:] Zabitin birisi, namusu vəhşilər olində olan amerikalı *qıza* arasıkəsilmədən nitq söyləyir.. (M.S.Ordubadi); **MADAM** Bir gün Əkbər evə peşkəşsiz gələndə axşamadək *madam* onu dindirmirdi (Ə.Haqverdiyev); **MİSS** [Əbülhəsən bəy:] Mən *miss* Hanna ilə bu kimi mürəkkəb bir məsələ ətrafında mübahisəyə girmək istəmirdim (M.S.Ordubadi).

2. XANIM Çox səkmədi *xanım* böyük bir darvazanın önündə durdu (Çəmənzəminli); **XATUN/XATIN** [Mərsiyəxan:] Nəcibə *xatun* mənim sığəyə ehtiyacım yoxdur, şəhərimizdə həm əyalım, həm də sığə kənizlərim var, – deyə mərsiyəxan əsil fikrini gizlədərək xanımın məramını anlamaq istəyirdi (Çəmənzəminli).

3. xanım *bax* arvad **I**

xaniman *bax* mülk **I**

xanımböcəyi *bax* uçağan **2**

xaos *bax* hərc-mərclik

xap *bax* birdən

xar *bax* tikan

XARA (*parça*) Gün vurduqca ağacların yarpaqları rəngdən-rəngə düşür, *xara* parça kimi bir anda cürbəcür rəngə çalırdı (Ə.Vəliyev); **ALIŞDIM-YANDIM** (*köhn., dan.*) Bu da fikir eləyirdi ki, nə olardı, Allahın altında "*alışdım-yandım*" çəpkənim olaydı.. (Çəmənzəminli).

XARAB (*müxtəlif mənalarda*) Kiçik bir hissənin *xarab* olması işimizi iki-üç gün geri salır (Ə.Qasımov); **BƏRBAD** Şöbədə işlər çox *bərbad* idi (Ə.Qasımov); **PİS** (*bax*), **YARARSIZ** (*bax*).

1. XARABA İndi isə homin *xarabaların* yerində gözəl, hər nöqtəsində insan qəbiliy-

yəti hiss edilən bir bağçanın əlvan çiçəklori parlayıb gözümü qamaşdırırdı (M.Hüseyn); **ƏNQAZ** (*kl.əd.*) Kor gözüm, sil əllərim bir qövlü məhv etməkdədir; Bax onun *ənqazıdır* bu ahu-əfğan, bir utan! (H.Cavid); **XARABAXANA** Bakının Bibiheybətinə, Balaxanısına, Suraxanısına, daha bilmirəm hansı *xarabaxanasına* dolaşanlar, ...birco damla millət qanı olmadan danabaşlarımızla əl-ələ verib birləşəcəklər (S.Rəhimov); **VİRAN** Açdı mənə dərdli ağac; *Viran* bağın məlalını (M.Rahim); **VİRANƏ** Gəzirik binaları; Dolanbac yol, rızları; Dolaşır *viranəni;* Bir də Çili qızları (M.Rahim); **VİRANXANA** (*köhn.*) (*həzən evə də işlərədir*) [Qarı:] Öz *viranxananda* otur ... bu il taxılımız da yaxşıdır (M.Hüseyn).

2. xarəba *bax* ev **1**

xarəbaxana *bax* xarəba **1**; xarəbalıq **1**

1. XARABALIQ (*dağılmış yer*) Buna görə də təsadüfi deyil ki, indinin özündə də hasarın *xarabalıqlarının* içindən insan sümükləri tapılırdı (Ə.Hacızadə); **XARABAXANA** [Bəymənmməd:] O yel vurub, yemələr oynayan *xarabaxana?* (S.Rəhimov); **XARABAZAR** (*kl.əd.*) Pompey bir vaxt şəhərdi; İndi *xarabazardır;* Vulkan altında qalmış; Uzun tarixi vardır (M.Rahim); **XARABAZARLIQ** Xəyalımda bizim Şərq nağıllarında təsvir edilən *xarabazarlıqlar* canlandı (M.İbrahimov); **KALAFA** Kond yıxılsa, *kalafasından* məlum olar (Ata. sözü); **VİRANƏLİK** Lələn xəyali könlümə dolsa, əcəb deyil; Gizlin xəzinənin çoxu *viranəlikdədir* (Ə.Vahid).

2. xarabalıq *bax* küllük

xarabazar *bax* xarabalıq **1**

xarabazarlıq *bax* xarabalıq **1**

xarakter *bax* **1.** xasiyyət; **2.** surət **1**

xarakteristika *bax* xasiyyətnamə

XARAL (*böyük kisə*) Ancaq *xaralın* dibində bir az pambıq var (R.Rza); **BARDAN** Dərilib basılır xaşa *hardana;* Vaqona vurulur, gedir hər yana (Aşıq Vəli); **ÇUVAL** (*bax*).

1. XARİC, XARİCİ ÖLKƏ

2. xarİc *bax* bayır

1. XARİCİ, ƏCNƏBİ (*başqa ölkəyə, başqa xalqa mənsub olan; məsələn, xarici dillər, əcnəbi dillər*)

2. xarici *bax* zahiri

3. xarici *bax* əcnəbi **1**

xariqə *bax* möcüzə

xariqəli *bax* möcüzəli

xariqüladə *bax* fövqəladə **1**

XARRAT (*taxtadan daha zərif şeylər – döşəmə, tavan düzəldən usta*) Neyləyim dolana bilmirəm atam; Qolu gücdən düşən nasaz *xarratam* (M.Rahim); **DÜLGƏR** (*qapı, pəncərə, çərçivə və s. düzəldən usta*) [Xalid:] Mənim atam *dülgərdir...* (A.Şaiq); **NƏCCAR** (*kl.əd.*) [Xaqaninin] anası islamı qəbul etmiş bir xristian, atası Əli adlı bir *nəccar,* babası *nəccar* idi (A.Şaiq).

XARRATXANA, DÜLGƏRXANA (*xarrat emalatxanası*)

XARRATLIQ (*xarrat sənəti, peşəsi*) Onun əlindən nə desən gələrdi – *xarratlıq,* saatsazlıq.. (M.İbrahimov); **DÜLGƏRLİK** [Malik:] Məni emalatxanada heç bir sənətdə işlətməyəsən; çünki mən nə *dülgərlik,* nə bənnalıq ..heç bir iş bacarmıram (A.Şaiq); **NƏCCARLIQ.**

xəs *bax* **1.** moxsus; **2.** xalis **1**

XASİYYƏT [Pərviz:] Bu *xasiyyət* bir azar kimi mənim yaxamdan əl çəkmir (M.İbrahimov); **ADƏT** Sogrəşib sözünə etibar etmək; Bilməzəm, xublarda bu nə *adətdi* (Q.Zakir); **FİTRƏT** [Çopo Ceyniziə:] Deməli, başqa-başqa *fitrətə* malik olduğumuzdan bir-birimizi anlaya bilməyəcəyik (Çəmənzəminli); **XARAKTER** (*dan.*) [Pərviz:] Səfanın sözü açıq demeyi və *xarakterini* möhkəmlətmək qərarı mənim xoşuma gəlir (M.İbrahimov); **XİSLƏT** Yox, yox... O quşla var nisbətin sənin; Onun *xislətidir, xislətin* sənin (M.Rahim); **XOY** (*kl.əd.*) *Xoyu* məlaikdir, özü pərinaz; Cilvəsi qarıçqay, cıqqası şahbaz (M.P.Vaqif); **QILIQ** (*dan.*) (*yaxşı raftar*) [Tubu:] Arvadın gorək *qılığı* olsun. Sənin *qılığın* yoxdur, kişinin də gö-

zünə girə bilmirsən (Ə.Haqverdiyev); **MƏŞRƏB** (*ərz.*) [Əbülhəsən bəy:] ...onu əski hannalığından tamamilə ayırmaqda və yüngül, xoş *məşrəb* bir qadın etməkdə idi (M.S.Ordubadi); **TƏB** (*kl.əd.*) *Təbdə* sərtdir çü mülki-şimal; Xəlqinə tünd olur dəxi əhval (S.Ə.Şirvani); **TƏBİƏT** Qaraca qızın *təbiətində* inadcılıq vardı (S.S.Axundov); **PEŞƏ** (*dan.*).

XASİYYƏTNAMƏ ..Bu idarədən adi bir *xasiyyətnamə* və ya arayış almaq üçün günlərlə vaxt itirmək lazım gəlirdi (M.İbrahimov); **XARAKTERİSTİKA.**

XATA *bax* **1.** səhv; **2.** təhlükə

xata-bala *bax* təhlükə, fəlakət

xatakar *bax* təhlükəli

xatalı *bax* təhlükəli, cəncəl

I xatəm *bax* üzük **1**

II xatəm *bax* sonuncu

xatın *bax* arvad **1**; xatın **2**

XATIRLAMAQ [İlyas:] O günləri *xatırladıqca* üroyim partlayır, həyatımdan birdəfəlik əl çəkmək istəyirəm (M.Hüseyn); **ANMAQ** ...Keçən günləri ki, indi bu dəmlər; Dəli könül əbəs *anar,* ağlarsan (M.P.Vaqif); **YAD ETMƏK / ELƏMƏK** [Yelena:] Zəki arabir bizi *yad edir,* – dedi (A.Şaiq); **YADA SALMAQ** ...Ceyran bulağından qızlar içəndə; Saz tutub, söz qoşub, *yada sal* məni (S.Vurğun); **YADA GƏTİRMƏK.**

xatimə *bax* **1.** son; **2.** epiloq

xatircəm *bax* arxayın **1**

xatun *bax* xanım **2**

xeyir *bax* fayda; nəf

XEYİRXAH [Almaz Xanımnaza:] Şərif çox yaxşı adam imiş, ana... İşlək, çalışqan, *xeyirxah* (C.Cabbarlı); **LÜTFKAR** Məlayikədən gördüm *lütfkar* səni ("Lətif şah").

XEYİRXAHLIQ Fikrimi soruşanda elə belə də dedim; *Xeyirxahlıqdı* vallah-billah mənim məqsədim (R.Rza); **İLTİFAT** Çağır özgələri, göstər *iltifat;* De: "Nə əmr etsəniz, olan eylərəm" (M.Rahim); **KƏRAMƏT** ..Bolkə ağanın fəzilətinin *kəramət* və mərhəmətindən mənim həmşəhərlilərim bibəhrə qalmasınlar (C.Məmmədquluzadə); **LÜTFKARLIQ** *Lütfkarlıq* göstərib, .. ayrıca otaq veron mehmanxana sahibəsi Nərgizin gözündə yüksəldi (B.Bayramov).

XEYİRLİ (*xeyir verən*) [Molla Qurban:] *Xeyirli,* bərəkətli camaatdır.. (Ə.Haqverdiyev); **BARLI** Kamal sahiblori mənsiz də *barlı;* Mən gərək barımı barsıza verim (X.Rza); **KARLI** [Qədir:] Cibim boş, ümid yerim yox! Zəmanə şuluqluq ..bir *karlı* iş yox.. (Mir Cəlal); **QAZANCLI** [Hacı Qara:] Bundan sonra hərgiz dəxi belə *qazanclı* səfərdən geri qalmayacağam (M.F.Axundzadə); **GƏLİRLİ, MƏNFƏƏTLİ, FAYDALI** (*bax*).

xeyirsiz *bax* **1.** faydasız **1**; **2.** vecsiz

xeyli *bax* çox, çoxlu

xeymə *bax* alaçıq

XEYR (*inkarlıq bildirir*) *Xeyr,* o yanılmamışdı (B.Bayramov); **YOX** (*dan.*) [Rüstəm:] *Yox,* Qəzənfər Ələkbərovun övladlarıyıq (Anar).

xeyrat *bax* ehsan **1**

1. XƏBƏR, MƏLUMAT Bir çox arvadların .. bulağa gəlməsi yeni *məlumat* almaq, təzə *xəbərlər* öyrənmək marağından irəli gəlirdi (S.Rəhimov); **DONOS** (*dan.*) (*hökumət adamlarına verilən xəbər*) Müsəlmanların bədxahları hökumətə *donos* veriblər ki, ..çoxluca azuqə və tüfəng yığıblar (C.Məmmədquluzadə); **SALIQ** (*dial.*) *Salığını* almışam, gedif alajam (ADDL); **SORAQ** Dərələr, təpələr, dağlar aşaraq; Bizə gotirdiniz kəndlərdən *soraq* (S.Rüstəm); **ŞAYİƏ** (*yalan xəbər, məlumat*) [Rza:] Həmzə sənin qızla sevişdiyini bilib, hələ kənddə başqa *şayiələr* də gəzir (M.İbrahimov).

2. XƏBƏR (*dilç.*), **PREDİKAT** Bəlolıklə, hər bir cümlədə ..iki qütb müəyyənləşmişdi: mübtədа (subyekt) və *xəbər* (*predikat*) (N.Məmmədov).

1. XƏBƏRÇİ (*xəbərçilik edən*) [Qönçə Qəndabə:] *Xəbərçinin* biri, çəkil get! (B.Bayramov); **AĞZIDAĞINIQ** [Heydər bəy:] A kişi, bilmirəm hansı *ağzıdağınıq* naçalnikə məni nişan veribdir (M.F.Axundzadə);

ÇUĞUL Gəzir könülləri söz yaza-yaza; *Çuğul* xəbər verir bunu knyaza (S.Vurğun); **DONOSBAZ** Qeyrətli *donosbazlarımız* işi bacararkən; Tənbəl, dəli şeytanları neylərdin, ilahi!? (M.Ə.Sabir); **ADAMSATAN, ÇUĞULÇU.**

2. xəbərçi *bax* müjdəçi

XƏBƏRÇİLİK [Təchizat müdiri:] Doğrusu, *xəbərçilikdən* zəhləm gedir (M.Hüseyn); **ÇUĞULÇULUQ** Xubru olmaq üçün qoşlətən şahın dəllallarının *çuğulçuluğu* ilə atasından mütalibə olunub şahın hərəmxanasına daxil olmuşdu (M.F.Axundzadə); **DONOSBAZLIQ** [İvan bəy:] Hər halda donos, *donosbazlıq* yaxşı peşə deyil.. (N.Vəzirov); **ŞEYTANÇILIQ** Çox fikirdən sonra dedim: "Yenə vallah *şeytançılıq*, yenə xəbərçilik" (C.Məmmədquluzadə); **DEYİCİLİK** Mirzə Pəlad müəllimdən yaman *deyicilik* olduğunu ..bilməmişdi (S.Rəhimov).

XƏBƏRDAR (*hər şeydən xəbəri olan*) [Dovşan:] Dura bilmərəm, dadaş; Yanında var alabaş; *Xəbərdaram* işindən; Qurtarınaram dışından (A.Şaiq); **AGAH** İnanma gər gecə rəmmal sirri-qeybə *agaham*; Dəhanın, sirrinə yüz kərrə əczin etiraf eylər (S.Ə.Şirvani); **BAXƏBƏR** Dünyagörmüş adamlar, məmləkət gərdişindən *baxəbər* şəxslər belə bir qayda qoymuşlar (Çəmənzəminli); **BƏLƏD** [Fərman:] O, cəmi elmlərə *bələddirlər* (Ə.Haqverdiyev); **MÜXBİR** [Cahangir bəy:] Əhvalatdan *müxbirəm*, ərizələr sabah hazır olar (N.Vəzirov); **YETİK** Ələsgərəm, mən *yetiyəm* hər işə; Bir könül ki bir könüllə barışa (Aşıq Ələsgər); **MƏLUMATLI.**

XƏBƏRDARLIQ, CİDDİ GÖSTƏRİŞ

XƏBƏRDARLIQ, BİLDİRİŞ, MƏLUMAT

1. XƏBƏRSİZ (*xəbəri olmayan*) Bəzilərə də ya məsələdən *xəbərsiz* idi, ya da hələ heyrətdən qurtarmamışdı (M.İbrahimov); **BİXƏBƏR** İşdən *bixəbər* olan Polad Almazın axıdığı göz yaşından mütəəssir oldu (A.Şaiq); **QƏFİL** Tuturlar onları *qəfil* atəşə; Gözləyir dostları qalın bir meşə (M.Rahim).

2. xəbərsiz *bax* məlumatsız **1**

XƏBƏRSİZLİK, QƏFLƏT

xəbis *bax* əclaf

xəbislik *bax* əclaflıq

xəcalətləndirmək *bax* utandırmaq

xəcalətlənmək *bax* utanmaq

XƏCALƏTLİ (*xəcalət çəkən*) [Bənövşə xala:] *Xəcalətli* düşmənin olsun, qızım, sən də mənim balam (Ə.Qasımov); **XƏCİL** [Gülsənəm:] Çox sağ olun, yanınızda *xəcil*əm (A.Şaiq); **ŞƏRMƏNDƏ** [Molla İbrahimxəlil:] ..zahirən sizdən *şərməndə* olacağam (M.F.Axundzadə); **ŞƏRMSAR** Bu otaqda əyləşən möhtərəm vücudun yanında mən *şərmsar* olmuşam.. (C.Məmmədquluzadə); **ÜZÜQARA** Yarın özü qaradır; Qaşıgözü qaradır; Yoxsul qonaq istəmoz; Çünki *üzüqaradır* (Bayatı).

xəcil *bax* xəcalətli

xədəng *bax* ox **1**

XƏDİM Bu gedər-getməz bir *xədim* zənci göldi.. (Çəmənzəminli); **XACƏ** Yetirdi özünü *xacə* o saat; Baxdı təzə ovun üzünə mat-mat (B.Vahabzadə); **AXTA** (*bax*).

xəfi *bax* məxfi

xələf *bax* **1.** övlad **1**; **2.** vərəsə

1. XƏLƏT/XALAT [Qətibə] yata bilmədi, yatağından qalxıb *xələtini* üstünə saldı, otağın qabağındakı güllərin dibində oturdu (M.S.Ordubadi); **CÜBBƏ** (*köhn.*) [Vəzir:] Buyur, tez mənim qırmızı *cübbəmi* versinlər, kəhər atımı yəhərləsinlər, eşitdinmi? (M.F.Axundzadə); **LƏBBADƏ** (*köhn.*) Kamal istəyirdi ki, babası üçün təzə bir *ləbbadə* alsın (S.Vəliyev).

2. xələt *bax* hədiyyə

xəmrə *bax* maya **III**

xəncər *bax* qılınc

xəndan *bax* çiçək

xər *bax* ulaq

xərabat *bax* meyxana **1**

xərabati *bax* əyyaş

xərac *bax* vergi **1**

XƏRC (*işlənən, sərf olunan pul*) Ağarəhim bilmirdi ki, maşın nə qədər *xərc* apara-

caq (İ.Məlikzadə); **MƏXARİC** Kəlbəliyev ..nəzərdə tutulmuş *məxarici* bir neçə dəfə ucadan öz-özünə təkrar edib dayandı.. (M.İbrahimov); **MƏSRƏF** [Miss Hanna:] Horçənd *məsarif* ödənir, bir az artıq da qalır.. (M.S.Ordubadi); **SƏRF.**

XƏRCLƏMƏK [Xanım:] Harada xərcləyirsən, niyə *xərcləyirsən* .. bilmirik? (M.İbrahimov); **DAĞITMAQ** (*boş yerə xərcləmək, dan.*) Tahirin əlinə İran sikkəsi düşəndə *dağıtmayıb* cibində saxlayır (S.Rəhimov); **QOYMAQ** ..yazıb göstərdi ki, qonşulardan nə qədər pul borc alıb, bayram süfrəsinə *qoyublar* (S.Rəhimov); **MƏSARİF ETMƏK.**

XƏRÇƏNG (*zool.*), **QIRXAYAQ** (*dan.*) Bu çinovniklər qorxuram ki, sabah gəlib bunu desinlər ki, sabah badımcan dolması əvəzinə *qırxayaq* (*xərçəng*) şorabası içəsiniz (Ü.Hacıbəyov).

xərclik *bax* pul **1**

xərəzi *bax* xırdavat

xərguş *bax* dovşan

XƏRİTƏ (*yer səthinin kiçildilərək şərti işarələrlə təsviri*) İndi bilirəm: *xəritədə* rəngi ilə; bir-birindən ayrılır ölkələr (R.Rza); **ATLAS** (*albom və ya məcmuə şəklində tərtib edilmiş xəritə*) Kimisinin qoltuğunda jurnal, kitab, vəsiqə qovluğu, kimisinin əlində itilənmiş qələm, iki qatlanmış dəftər, coğrafiya *atlası*, cildi kirlənmiş proqram, rus, Azərbaycan dilində qəbul qaydaları... (Mir Cəlal); **CAHANNÜMA** (*köhn.*)

xəritəçəkən *bax* xəritəçi

XƏRİTƏÇİ, XƏRİTƏÇƏKƏN, XƏRİTƏŞÜNAS, KARTOQRAF

XƏRİTƏÇİLİK, XƏRİTƏŞÜNASLIQ, KARTOQRAFİYA

xəritəşünas *bax* xəritəçi

xəritəşünaslıq *bax* xəritəçilik

xəs *bax* çör-çöp

xəsarət *bax* ziyan

XƏSİS, SİMİC O yaxşı bilirdi ki, Feliçe *xəsis* deyil, onun *simic* adamlardan zəhləsi gedir (H.Abbaszadə); **BƏXİL** (*kl.ad.*) Tutma göz dövlətü monalından; Yemə loğma *baxil* malından (S.Ə.Şirvani); **GÖY** (*məc.*), **ZIQQI** (*çox xəsis*) Xalıqverdiyevə görə Mirzə Cəlil çox xəsis, *göy, ziqqı* adamdı (Ə.Vəliyev); **QAYIM** [Tarverdi:] Ay Zalxa nə *qayım* olubsan?! (M.F.Axundzadə); **MALINYEMƏZ** [Qulu:] Pulu götürüb belə xəsisə verir ki, sandığa doldurub gecə-gündüz keşiyini çəkir və mənim kimi bazburdulu oğlanı da ona nökər edir, yəni belə *malınyeməzin* malını yemək haramdır? (S.S.Axundov); **QƏPİK-PƏRƏST** (*dan.*), **BƏRK** (*dan.*).

XƏSİSLİK (*xəsis adamın xasiyyəti*) Pirverdi qənaətkarlıqla *xəsisliyi* bir-birindən ayırmırdı (A.Şaiq); **GÖYLÜK** (*dan.*) Boylık, *göylük*, soylık olan məclisdə; Qaç ki, orda xeyir-bərəkət olmaz (Aşıq Ələsgər); **QƏPİKPƏRƏSTLİK** (*dan.*) Halva demək ilə ağız şirin olmaz, *qəpikpərəstlik* bizim evimizi yıxıb, gecə-gündüz vaxt-bivaxt fikrimizi-zikrimiz qəpikdir (N.Vəzirov); **SİMİCLİK** [Faytonçu:] Sənin pulunun sayı-hesabı yoxdur, belə *simiclik* nəyə lazımdır? (Ə.Haqverdiyev).

XƏSTƏ Qoy *xəstə* olmasın mənim kimi heç kəs (M.Rahim); **AZARLI** (*dan.*) Belə olmasa hökmün başı ağrıyıb keyfi nasaz olar, heç bir yerə gedə bilməz, *azarlılar* da tökülüb qalardı (S.Rəhimov); **BİMAR** (*kl.ad.*) Gər dəysə soyuq, sancılanıb olsa da *bimar*; Hökm et gələ cindar (M.Ə.Sabir); **XARAB** (*məc., dan.*) [Həson:] Uşaq *xarabdır*, Zəhra, *xarabdır* (M.İbrahimov); **KEFSİZ** (*yüngül xəstə*) Məşədi Qulamhüseyn və Məşədi Heydər cavab verdilər ki, Sadığın *kefsiz* olmağını Naxçıvanda nə eşidiblər, nə də Cəfəri bazarda görüblər... (C.Məmmədquluzadə); **MƏRİZ** (*köhn.*) [Fərman:] Vaxta ki, sizin bircə sözünüz bir cavan *mərizi* ölümdən qurtaracaq, o sözü siz necə qəbul etməyirsiniz? (Ə.Haqverdiyev); **NAÇAQ** (*yüngül xəstə*) Dəxi də artırdı ğəm üstən ğəmin; Nə yaxşı yoxladı *naçaq* gözlərin (Q.Zakir); **NAXOŞ** [Nurcahan:] Həkim, başına dönüm, mənim nəvəm *naxoşdu*, Allahı sevərsən, məni bu

dəlinin əlindən qurtar gedim (N.Vəzirov); **NASAZ** (*xəstəhal*) Neyləyim dolana bilmirəm atam; Qolu gücdən düşən *nasaz* xarratam (M.Rahim); **SITMALI** (*köhn.*) *Sıtmalı* təbiət inlərdi yorğun; O coşqun dənizlər göl kimi durğun (A.Şaiq).

xəstəhal *bax* süst

xəstəhallıq *bax* süstlük

XƏSTƏXANA Zeynal baharın belə bir vaxtında *xəstəxanada* yatırdı (B.Bayramov); **AZARXANA** (*köhn.*) [Əhməd:] Əlavə deyirlər ki, öz rəiyyəti üçün mülkündə *azarxana* və məktəbxana açıbdır, həkim gətirib, mama gətirib (N.Vəzirov); **AZARLIXANA** (*köhn.*) [Əhməd:] *Azarlıxanadan* iynə yemiş it sifətində qayıtdı; sapsarı saralmış, güclə ayaq üstə dururdu (Çəmənzəminli); **BİMARISTAN** (*köhn.*) Dövlət tərəfindən hər yerdə zükur və ünas *bimaristanları* olurdu... (M.F.Axundzadə); **BİMARXANA** Açılsın ölkədə hər cür karxana; hər yerdə mədrəsə, yol, *bimarxana* (M.Rzaquluzadə); **DARÜŞŞƏFA** (*kl.ed.*) *Darüşşəfayi*-Tehranın get elə bir səyahətin; Mirzə Əbülhəsən xanın gör rəvişi-təbabətin (M.Ə.Sabir); **HƏKİMXANA** [Qətibə:] Yazıq və bədbəxt cariyəm, – deyərək onu yoxlamaq üçün *həkimxanaya* qaçdı (M.S.Ordubadi); **MƏRİZXANA** (*köhn.*) Bir *mərizxanaya* gətirilən azarlılara diqqət yetirirdim (Çəmənzəminli); **MÜALİCƏXANA** [Pyotr:] Bu gün Mina *müalicəxanaya* gedəndə qoşularsan ona, orda həkim sənə də baxar (H.Abbaszadə); **SAĞLAMLIQ OCAĞI** Ancaq onu da bilin ki, bura "xaraba" sözünə qətiyyən layiq olmayan *sağlamlıq ocağıdır*, minlərlə insana yenidən həyat verən şəfaxanadır (Q.Xəlilov); **ŞƏFAXANA** [Quşqar:] Yaxın illərdə şəhərimizin ətrafı və Xəzərimizin sahilləri kurort diyarı olacaq. İnstitutumuz böyüyəcək, şəhərimiz Şərqin ən gözəl *şəfaxanasına* dönəcək (Hidayət).

XƏSTƏLƏNMƏK Bu fikrə gəlib taleyi ilə barışdığı zaman Hüseyn bərk *xəstələndi* (M.İbrahimov); **AZARLAMAQ** (*dan.*) O yenə *azarlayıb* yatmışdı, kimsəni qəbul etmirdi (M.S.Ordubadi); **BAŞI YASTIĞA ENMƏK** (*ağır xəstələnmək*) Gec-tez *başı yastığa enəcək* (Q.Xəlilov); **BİMARLAŞMAQ** (*kl.ed.*) O bir quşdur, nəğməsi qəm; Şaxələrdə yuvası yox; Gündən-günə *bimarlaşır;* Dərmanı yox, davası yox (M.Rahim); **XƏSTƏ DÜŞMƏK** Bir il bəxtiyar yaşadıqdan sonra istəkli ori *xəstə düşüb* vəfat etdi (S.S.Axundov); **KEFSİZLƏ(Ş)MƏK** [Nərinc:] Lap yaxşı eləmisən, mənim gül balam, keç içəri, atanın da gözünə görün, bir az *kefsizləyib* (M.İbrahimov); **NAXOŞ OLMAQ** [Əbülfət ağa:] Yenə siz, axund, *naxoş olmasaydınız* gəlib bir çarə tapardınız (Çəmənzəminli); **NAXOŞLAMAQ** [Mötəbərov:] Düz deyirsiniz, axır vaxtlarda tez-tez *naxoşlayıram* (M.Hüseyn); **YORĞAN-DÖŞƏYƏ DÜŞMƏK** (*ağır xəstə olmaq*) [Qəndab:] *Yorğan-döşəyə düşdüm.* Mənim dərdimdən əmim arvadı işdən çıxmalı oldu (B.Bayramov); **NAÇAQLAMAQ, NASAZLAMAQ** (*azacıq xəstələnmək*).

XƏSTƏLİK Altı ay davam edən *xəstəlik* Fatmanın üzünü soldurdu (Çəmənzəminli); **AZAR** Mən deyirəm ki, yox *azar*, ay *azar;* Hələ yaratmağa iqtidarım var (M.Rahim); **AZAR-BEZAR** [Rübaba:] Bir *azar-bezarım* yoxdur, sənin fikrini çəkməkdən bu kökə düşmüşəm, ay bala! (H.Abbaszadə); **BİMARLIQ** (*kl.ed.*) Çokmə zəhmət, çək əlin todbiri-dərdimdən, təbib; Kim, deyil sən bildiyin mən çəkdiyim *bimarlıq* (Füzuli); **DƏRD** [Xəstə qadın:] Var pək çox...; *Dərdimizə* məhlək imiş, çarəsi yox... (H.Cavid); **İLLƏT** Bəs nə üçün indi o, hər şeyə biganədir? – Bunun *illəti* nədir (M.Rahim); **MƏRƏZ** (*köhn.*) Xudavəndi-aləm ittifaq buyurub *mərəzi* dəf etdi (Ə.Haqverdiyev); **NAXOŞLUQ** [Mümtaz Mötəbərov:] Bərk qrip olmuşam, yoldaş Adilov, – dedi, – istəmirəm ki, *naxoşluğum* yoldaşlara da sirayət elosin (M.Hüseyn); **NASAZLIQ** Balaca soyuqdəymə və başağrısı kimi çox xırda *nasazlıq* da var ki, bunları o, həkimsiz də müalicə edə bilər (Çəmənzəminli); **KEFSİZLİK.**

XƏŞİL Belə vaxtda bəziləri; Hələ isti otağında; ...*Xəşil* yeyir, yeyir, yatır (M.Rzaquluzadə); **SIYIQ** *Sıyıq* ilə yıxılan ev, aş bişir, viran olsun (Ata. sözü).

xətər *bax* **1.** ziyan; **2.** təhlükə

xətərli *bax* **1.** ziyanlı; **2.** təhlükəli

xətərnak *bax* təhlükəli

I XƏTT, YAZI [İlyas:] Bu *yazı* onun *yazısı* deyil, Sobanın öz *xəttidir* (M.S.Ordubadi); **DƏST-XƏTT** Sübhanverdizadə öz *dəst-xətti* ilə yazmağına baxmayaraq, bu kimi müxtəlif bəhanələrlə öz yazdığını pozmağı da bacarırdı (S.Rəhimov).

II XƏTT Kim olduğunu .. bilmədiyim bu qadını yalnız üzünün *xətləri*, hal və tövrilə öyrənmək istəyirdim (S.Hüseyn); **CİZGİ** Gözlərinin kənarlarından gicgahlarına doğru uzanan *cizgilər* onu gülümsər göstərirdi (M.Rzaquluzadə).

III xətt *bax* cızıq

XƏTTAT (*gözəl xətlə yazan adam*) Vaqif hamamdan sonra iki gün evdən çölə çıxmayıb, bir şeir Tiflisin və valinin mədhinə, bir ayrısını da vəliəhdə ithaf yazdı, üzü götürülmək üçün özü ilə gətirdiyi *xəttata* verdi (Çəmənzəminli); **XOŞXƏT, XOŞNƏVİS** (*köhn.*), **KALLİQRAF.**

XƏTTATLIQ, KALLİQRAFİYA (*gözəl xətlə yazma sənəti*)

1. XƏYAL Yenə alır Rəhimi qanadına *xəyallar* (Ə.Kürçaylı); **XƏYALƏT** Təyyarə səsi Aslanı *xəyalatdan* ayırdı (M.Hüseyn); **XƏYALPLOV** (*dan.*) [1-ci elçi] Gözünüz görsə də odlar, alovlar; Sizə şirin gəlir *xəyalplovlar* (S.Vurğun); **XÜLYA** O gün *xülya* deyil, qardaşlar, haqdır; O gündən görürəm o günləri mən (Ə.Kürçaylı); **KÖLGƏ** (*məc.*) Onları yaşadır bu xalq, bu ölkə; Onlar həqiqətdir, deyildir *kölgə!* (S.Rüstəm); **TƏXƏYYÜL** Rüxsarə o qədər *təxəyyül* aləminə qapılmışdı... (S.Rəhimov); **UTOPİYA** [Fəxrəddin:] Kommunizm *utopiyadır*, – deyə Şəhbaz mən ilə bəhs etdi (S.S.Axundov); **FANTAZİYA, MÖVHUMAT.**

2. xəyal *bax* düşüncə 2

xəyala(ə)t *bax* xəyal 1

xəyalçı *bax* xəyalpərəst

xəyalçılıq *bax* xəyalpərəstlik

XƏYALİ, FANTASTİK

XƏYALPƏRƏST O, çox *xəyalpərəst* olduğundan vətənini bambaşqa təsəvvür edirdi... (A.Şaiq); **XƏYALPƏRVƏR** Yavər və Rasim *xəyalpərvər* məktəb şagirdləri kimi bir-birini o qədər ürəkdən təqdir edərdi ki, Mədinə də istər-istəmoz həvəsə gəldi... (M.İbrahimov); **XÜLYAPƏRVƏR** Ətrafa çökən sükutu yalnız çayın *xülyapərvər* şırıltısı pozurdu (Çəmənzəminli); **XƏYALÇI, XÜLYAÇI, XÜLYAPƏRƏST, XÜLYAPƏRVƏR, UTOPİST**

XƏYALPƏRƏSTLİK, XƏYALÇILIQ, XƏYALPƏRVƏRLİK, XÜLYAÇILIQ, XÜLYAPƏRƏSTLİK, XÜLYAPƏRVƏRLİK, XÜLYAPƏRVƏRLİK, UTOPİZM

xəyalpərvər *bax* xəyalpərəst

xəyalpərvərlik *bax* xəyalpərəstlik

xəyalplov *bax* xəyal 1

xəyanət *bax* **1.** xainlik **1**; **2.** namərdlik

xəyanətçi *bax* **1.** xain **1**; **2.** satqınlıq

xəyanətkar *bax* xəyanətçi

xəyanətkarlıq *bax* xəyanətçilik

xəyyat *bax* dərzi

xəzan *bax* payız

1. XƏZİNƏ Kim bilir, bu dağların; Qatlarında nələr var?! Bəlkə qızıl yatağı; Sonsuz *xəzinələr* var (Ə.Comil); **DƏFİNƏ** Ədilo koşf edir hər *dəfinəni;* Bu sənət ilhama çağırır məni! (M.Rahim).

2. XƏZİNƏ (*tüfəngdə*) Həcər tüfəngi əlinə götürüb onun *xəzinəsini* açır, diqqətlə baxır.. (S.Rəhimov); **SANDIQ** Karl silahların çaxmağını, *sandığını* yoxlamaqla kifayətlənmirdi (Ə.Əbülhəsən); **MAĞAZA/MAQAZİN.**

XƏZRİ Poncəroni qəzəblə döyəcləyən *xəzri* onu şirin xəyal aləmindən yerə endirdi (Ə.Qasımov); **ŞİMAL KÜLƏYİ** Bakıda *şimal küləyi* çöldən edəndə ensiz, cılız pilla-

kənlə qurğunun damına qalxmaq lazım gəlirdi (ADİL).

XINA [İbrahim bəy:] İnandırıram, bəzilərı şadlıqlarından əllərinə *xına* qoyurlar (Ə.Vəliyev); **HƏNA** Təziyədən çıxanlar əllərinə *hənə* yaxıb qızartmışdı (M.S.Ordubadi).

I xır *bax* yiv **2**

II xır *bax* bostan

xırçı *bax* bostançı

xırda *bax* balaca

XIRDAÇI (*əhəmiyyətsiz və boş şeylərə əhəmiyyət verən*) [Zöhra:] Kişinin danışqanı ilə *xırdaçısı* arvadını vərəmlədib öldürər (Ə.Vəliyev); **PEDANT** [Səbinə:] Mənə elə gəlir ki, quru nitqlər, *pedant* rəsmiyyətçilik insanları ruhən şikəst edir (İ.Əfəndiyev); **VASVASİ** (*son dərəcə xırdaçı*).

XIRDAÇILIQ [Əmir:] Arvadın bütün hərəkətlərinə göz qoyub söz atıram. *Xırdaçılıq* da buradan irəli gəlir (Ə.Vəliyev); **VASVASILIQ** [Qəmər:] Mənə elə gəlir ki, sizin əsas xəstəliyiniz *vəsvəsilıqdır* (S.Rəhman); **PEDANTLIQ** [Səlimə:] Mənim, necə deyərlər, *pedantlıqdan* zəhləm gedir (İ.Əfəndiyev).

XIRDAVAT [Kişi:] Əldə *xırdavat* satmaqla üç yüz manat pul düzəldib buraya gəldim ki, mal alıb aparam (S.S.Axundov); **QALANTEREYA. XƏRƏZİ**.

XIRDAVATÇI [Cavanşir bəy:] Mənə *xırdavatçılar* süfrəsində pay lazım deyil (Ə.Məmmədxanlı); **QOLTUQÇU** (*köhn.*) *Qoltuqçu* malları açıb tökdü: gözəl firəng və İstanbul qumaşları şairi heyran qoydu (Çəmənzəminli); **QOLTUQFÜRUŞ** (*köhn.*).

XIRDAVATÇILIQ Əhil atam aralıqda *xırdavatçılıq* edərək artıq oziyyət ilə gündəlik çörəyimizi qazana bilirdi (S.S.Axundov); **QOLTUQÇULUQ** [Xəlil:] Mənim sənətim *qoltuqçuluqdu*.. (C.Məmmədquluzadə). **QOLTUQFÜRUŞLUQ** (*köhn.*) [Hacı Rəcəbli:] Bu da maraqalı Həmfədir ki, gündüz *qoltuqfüruşluq* edər, gecələr mənim yanımda olur (M.F.Axundzadə).

XIRNİK, XURMA (*ətli, şirin meyvə*)

xırpalamaq *bax* boğazlamaq

I xırsız *bax* oğru

II xırsız *bax* yivsiz

XIŞ (*köhn.*) (*yer şumlamaq üçün alət*) [Gülsənəm:] Sənin işin ancaq *xışdır*, kotandır.. (A.Şaiq); **CÛT** Var bu kənddə yenə elə yoxsullar: Nə *cütü* var, nə kotanı, nə kəli (A.Səhhət).

xışlamaq *bax* şumlamaq

xışma *bax* ovuc **2**

1. XİDMƏT, ƏSGƏRİ VƏZİFƏ

2. xidmət *bax* iş **2**

1. XİDMƏTÇİ (*müxtəlif mənalarda: saray xidmətçisi, ev xidmətçisi və s.*) Bir azdan sonra *xidmətçi* Nataşa olində qab-qacaq mətbəxə girdi (A.Şaiq); **CARİYƏ** *Cariyələr*, nökərlər düşdülər əl-ayağa; Hərəsi bir tərəfdən qulluq etdi qonağa (B.Vahabzadə); **XADİMƏ** *Xadimə* otağa keçəndə qapıdan kollektiv surətdə çölə hücum çəkən tüstü layları ilə bərabər moruzəçinin kallaşmış səsi eşidildi (Ş.Fərzəliyev); **XİDMƏTKAR** Sübh çox erkən oyanardı qarı; Durğuzar idi hamı *xidmətkarı* (A.Səhhət); **KƏNİZ** (*qıza aid*) Çaydır, dənizdir; Quldur, *kənizdir*; Balam hər nədir; Mənə ozizidir (Bayatı); **QULLUQÇU** [Maşo:] Bu *qulluqçuya* deyərsən körəyi də tez hazır etsin (N.Nərimanov); **NÖKƏR** (*oğlana aid*) [Hacı Kamyab:] Xan mən sizin kəmtərin *nökərinizəm*, qızım da kənizinizdir (Ə.Haqverdiyev); **QARABAŞ** (*bax*).

2. xidmətçi *bax* qulluqçu **1**

xidmətkar *bax* xidmətçi **1**

xilaf *bax* **1.** zidd; **2.** yalan

xilas *bax* qurtuluş

XİLQƏT Lakin üzünü yana çevirdimi, *xilqəti* dərhal dəyişilər, sanki o, başqa maska geyərdi (Y.Şirvan); **FİTRƏT** Ey mənim qəlbimi çalan afət! Həm həyat, həm şüur verən *fitrət!* (A.Şaiq); **YARADILIŞ** Dəyişmək - *yaradılışın*, təbiətin qanunudur (M.İbrahimov).

XİRƏLƏNMƏK Bu halı görüb *xirələndi* gözüm; Cəhənnəm qoşun, ölmüş idim özüm.

(M.Ə.Sabir); **QAMAŞMAQ** Bir bax, babaların ruhu ağlaşır; Alovdan, tüstüdən gözlər *qamaşır* (Şəhriyar).

XİRƏLƏTMƏK (*gözləri güclü işıq təsiri ilə görməz hala salmaq*) Gözünü *xirələdirmi* günəşin irfanın? (M.Ə.Sabir); **QAMAŞDIRMAQ** [Hacı Murad:] Adamların şəfəqi gözlərimi *qamaşdırır* (S.S.Axundov).

XİRTDƏK (*nəfəs yolunun yuxarı hissəsi*) Nə isə demək istədi, amma sözü lap *xirtdəyində* ilişib qaldı (M.Hüseyn); **ADƏM ALMASI** *Adəm alması* deyilən *xirtdək* sümüyündən heç bir əsər-əlamət görünmozdi (Ə.Əbülhəsən); **QIRTLAQ/BOĞAZ** (*bax*); **HÜLQUM** (*bax*).

xirtdəkləmək *bax* boğazlamaq

xislət *bax* xasiyyət

xitab *bax* müraciət **1**

xitabnamə *bax* müraciətnamə

xiyaban *bax* prospekt

XİYAR (*bostan bitkisi*) Palina İvanovna əlüstü kartof qızartdı, turşuya qoyulmuş *xiyar*, pomidor gətirdi (H.Abbaszadə); **GÜLBƏSƏR** Bostanların *gülbəsəri*, qarpızı; Çərçilərin ağ nabatı, saqqızı; İndi də var damağımda, dad verər.. (Şəhriyar); **YELPƏNƏK** (*dial.*) [Süleyman bəy:] Bir az da şoraba üçün *yelpənək* almışam, gedirəm (Ə.Haqverdiyev).

xoca *bax* tərbiyəçi; müəllim

xof *bax* qorxu

xoflandırmaq *bax* qorxutmaq **1**

xoflanmaq *bax* qorxmaq

xoflu *bax* qorxulu

xofsuz *bax* qorxusuz

xora *bax* yara **1**

XORTLAMAQ, DİRİLMƏK (*ölən adam haqqında*) [Kəndlilər:] Bizim etiqadlı mollamız, heç ölü də *xortlarmı*, ölən adam da *dirilərmi?* (S.S.Axundov).

XORUZ (*toyuğun erkəyi, toyuq cinsindən bəzi quşların erkəyi*) Bir gün səhər dan yeri ağaranda *xoruz* ağac başında ucadan banladı (A.Şaiq); **PƏRİDAR** (*arx.*) [Ahura Məzda:] Ən oziz heyvan *pəridardır*, çünki o, sabahın açılmasını xəbər verir (Çəmənzəminli).

xoruzbeçə *bax* beçə

XORUZLANMAQ [Uzun adam:] Ado, bunun *xoruzlanmağına* bax (Ə.Qasımov); **KƏKƏLƏNMƏK** [Şəhpəri:] Bura bax! Özün də mənim üstümə *kəkələnmə!* (B.Bayramov); **KİŞİLƏNMƏK** (*dan.*) [Güllü xanım Keçəl Xonduluya:] Ə, a keçəl qurumsax, arvad-uşağın üstünə nə *kişilənirsən?* (İ.Şıxlı); **QABARMAQ** Göyərçin ..cəld çıxaraq Maroya *qabardı* (S.Rəhimov); **ŞEŞƏLƏNMƏK** [Cahandar ağa oğluna:] Ə, qoduq, mənim üstümə *şeşələnirsən?* (İ.Şıxlı).

xoruzpipiyi *bax* pürrəng(i)

xoş *bax* **1.** yaxşı **1**; **2.** xoşagələn

XOŞAB Əndək-əndək maarif və modəniyyətin aşağı şaxələrindən şirin və *xoşab* meyvələrini daddıqda yuxarı şaxələrə əl atmaq təmənnasına düşürlər (A.Şaiq); **KOMPOT** [Aslanov] xörəkdən sonra çürbəcür çəroz yemək, yaxud *kompot* içmək heç arası yox idi (M.Hüseyn).

XOŞAGƏLƏN Lakin o demək idi, bütün tosadüflər *xoşagələn* və ürəkaçan olur (M.İbrahimov); **XOŞ** [Quşların] ..*xoş* avazları cütçünü həvəsə gətirdi (S.S.Axundov); **ÜRƏYƏYATAN** Səsi olmasa da avazı *ürəyəyatan* idi (İ.Əfəndiyev); **BƏYƏNİLƏN.**

XOŞBƏXT, BƏXTİYAR (*müxtəlif mənalarda*) Geniş bir küçəyə yollanır onlar; Xatirə *xoşbəxtdir*, Rüfət *bəxtiyar* (Ə.Küçəyli); **AĞBƏXT(Lİ)** Moşədi Püstə bacı sözü tozələyirdi: – *Ağbəxt* olasan! (H.Sarabski); **AĞGÜN(LÜ)** [Kiçikbəyim:] *Ağgünlü* olmuş, moni bu yaşımda gör gətirib haralara çıxarırsan (Çəmənzəminli); **BƏXTƏVƏR** [Nərıngül:] İndi *bəxtəvər* həyatın meyvələrini dadmışdı... (Ə.Vəliyev); **MƏSUD** Aslan yüzbaşının bu *məsud* doqiqələri çox sürətlə gəlib keçdi (M.Hüseyn); **MÜBARƏK** (*köhn.*) [İvan Petroviç:] Ey... Bu hansı *mübarəkin* yeridir... (A.Şaiq); **SƏADƏTLİ** ..yeno bülbül xoş noğməsi ilə onların *saadətli* günlərini alqışlayırlar (Çəmənzəminli); **TALELİ.**

XOŞBƏXTLİK Yerlərin, göylərin *xoşbəxtliyindən;* Onun kimi bir varisi var!

(S.Vurğun); **BƏXTƏVƏRLİK** [Vəliş] İbrahim boyin sözlərini yerinə yetirmək, məndən ötrü *bəxtəvərlikdir* (Ə.Vəliyev); **BƏXTİYARLIQ** Qızılgüllərin ətri elə bil ona [Məndana] bir dinclik, bir *bəxtiyarlıq* gətirdi (X.Hasilova); **NEMƏT** Doğrudan uşaqlıq bir gözəl *nemət* imiş ki, oldən çıxdı (C.Məmmədquluzadə); **SƏADƏT** [Səlimə:] *Öz səadəti* uğrunda neçə çarpışdığını, neçə mübarizə apardığını təfsilatı ilə söyləsin (İ.Əfəndiyev); **AĞBƏXTLİLİK, AĞGÜNLÜLÜK, MƏSUDLUQ, UĞUR.**

xoşəxlaq *bax* xoşrəftar

xoşhal *bax* şad

XOŞXASİYYƏT (*xasiyyəti gözəl olan*) O, füsunkar, şirindil, *xoşxasiyyət* bir qız idi (Y.Şirvan); **XOŞƏHVAL** Qəlbi məhəbbətli, *xoşəhval* kişi; Ağzı dualı, qoca bəqqal kişi! (M.Ə.Sabir); **XOŞMƏZAC** (*kl.sif.*) Bu yerin xəlqi cümlə zirək olur; xoşzaban, *xoşmizac* göycən olur (S.Ə.Şirvani); **MUNİS** Bir nəfər *munis* yoxkən yanında; Goldi hüzuruna axund aramla (M.Rahim); **MÜLAYİM** Qaçay fikirləşirdi ki, Sahibov onu hətta ölümə də göndərsə, o yenə bax belaca, təlasə-tələsə gedər. Axı rəis yumşaqürəkli, *mülayim*, qayğıkeş adamdır (İ.Məlikzadə).

xoşxət *bax* xəttat

XOŞQƏDƏM(Lİ) Oğul! Deyirəm ki, nə *xoşqədəmsən*. Doğulduğun gündən ağ günəyəm mən (S.Rüstəm); **AYAĞI YÜNGÜL** Əlbəttə, mələk kimi gözəl və pak bir xanım pis xəbər gətirməzdi. Gərək onun *ayağı yüngül*, uğurlu, açıq olaydı (M.İbrahimov); **YÜNGÜL AYAQ** [Kərbəlayı Mirzalı:] Doğrudan, Hümbəli, sən elə yaxşısan, *yüngül ayaqsan* (C.Məmmədquluzadə); **QƏDƏMLİ, AYAĞI XEYİRLİ.**

xoşqılıq *bax* xoşrəftar(lı)

1. XOŞLAMAQ Mən səni *xoşlayıram* ən gözəl şeir kimi (M.Rahim); **SEVMƏK** [Züleyxa:] Mən *sevirəm* o ad ilə sizə yalan deməyi (S.Rəhman); **XOŞU GƏLMƏK.**

2. xoşlamaq *bax* bəyənmək

xoşməzac *bax* xoşxasiyyət

xoşnəvis *bax* xəttat

xoşnud *bax* razı

xoşnudluq *bax* razılıq

XOŞRƏFTAR(LI) Fatma ağıllı, *xoşrəftar* bir adam idi (S.S.Axundov); **XOŞƏXLAQ** Səhhət xoşsima, xoşsöhbət, *xoşəxlaq* bir insan idi (A.Şaiq); **XOŞQILIQ** Gülər üzlü, şirin sözlü, *xoşqılıq*; Ləblərindən axar balı gözəlin (M.P.Vaqif); **QILIQLI** [Məhərrəm:] Sizlər nədənsə həyatın bütün mənasını yalnız bu ilan *qılıqlı* qadınlarda görürsünüz (A.Şaiq); **MEHRİBAN** *Mehriban* sevgilim qarşımda durdu; Yenə şairliyim başıma vurdu (M.Müşfiq); **XOŞXASİYYƏTLİ** (*bax*), **YOLAGEDƏN** (*bax*).

xoşru *bax* xoşxasiyyət(li)

XOŞSİFƏT(Lİ) (*gözəl üzü olan adam*) Beləliklə rəssam, Yavərin evində hörmətlə qarşılanan *xoşsifət* və xoşrəftar bir müsahibə çevrildi (M.İbrahimov); **XOŞSİMA** Maral gecə-gündüz pərvanə kimi bu *xoşsima* qocanın başına dolanırdı (A.Şaiq); **XOŞSURƏT** [Divanbəyi:] Oğlan, mənim sənə yazığım gəlir. Görünür ki, sən bir cavan *xoşsurət* oğlansan (M.F.Axundzadə); **XOŞÜZLÜ** Gecə boylu qadındır... ağrı çəkərək; *Xoşüzlü* bir uşaq kimi doğur səhəri... (S.Vurğun); **XOŞRU.**

xoşzəban *bax* şirindil(li)

xoşsima(lı) *bax* xoşsifət(li)

xoşsöhbət *bax* söhbətcil

xoşsurət(li) *bax* xoşsifət(li)

xoşüzlü *bax* xoşsifət(li)

xotkar *bax* hökmdar

xotuq *bax* qoduq

xoy *bax* xasiyyət

XÖRƏK [Adilə] mehmanxanaya gedib əl-üzünü yudu, yeməkxanaya düşüb *xörək* yedi, çay içdi, otağına qalxıb dincəlməyə başladı (Ə.Qasımov); **AŞ** Bəzi yerlərdə təsadüf olunur, *aşa*, ətə (M.Ə.Sabir); **BİŞ-DÜŞ** Oturub ac komasında atamın; *Biş-düşün* hazır edərdim anamın (M.Ə.Sabir); **BİŞMİŞ** Kişilərdən birisi Şərq xörəkləri, ikincisi Qərb *bişmişləri* hazırlayırdı (Ə.Vəliyev); **BOĞMA**

(*məc., dan.*) [Fatma xanım:] Get, *boğma* bişir, zəhər bişir.. yaxşımı?! (Çəmənzəminli); **BOĞMALIQ** (*vulq.*) Əlbəttə, Talıbxana cüzi bir *boğmalıq* vermək, bu var-yoxun hamısını verməkdən çox-çox asan idi (S.Rəhimov); **YEMƏK** (*dan.*) Gəncin anası yanaşı otaqda axşam üçün *yemək* hazır edib süfrəyə qoydu (S.S.Axundov).

xörəkbişirən *bax* aşpaz

XÖRƏKPAYLAYAN Üzü tüklü, xoyal pəjmürdə, göz kölgəli, cibdə comi-cümlətanı əlli manat... Hətta *xörəkpaylayanlar* belə bunu hiss etdilər (Ə.Qasımov); **KELNER** Şəhlər *kelneri* çağırıb bizdən soruşdu: "Kim nə istəyir?" (İ.Əfəndiyev); **OFİSİANT** *Ofisiant* oğlan dedi ki, yaxşı quzu ətindən tiko, qoyun ətindən lülə... (Qəzetlərdən); **YEMƏKPAYLAYAN** Baş mühəndis də ki, bir vaxt restoranlarda *yeməkpaylayan* işləyəndə, müştərilər onu barmaqla göstərirdilər və sair və ilaxır (Ə.İldırımoğlu).

xörək *bax* balaq

xiridar *bax* müştəri **1**

XRİSTİAN (*din.*) (*İsa dininə mənsub millət*) [Axund:] *Xristian* hara, müsəlman hara? Din ləkə vurmamış saf insanlara (M.Rahim); **XAÇPƏRƏST** [Hacı Əli:] Qız müsəlman deyil, *xaçpərəst* də deyil (M.S.Ordubadi); **İSƏVİ** (*köhn.*) [Papas:] Heç bir mümkünmü *isəvi* bir qız; Bir müsəlmana varsın? Anlamısınız?.. (H.Cavid).

XRİSTİANLIQ, XAÇPƏRƏSTLİK, İSƏVİLİK (*köhn.*)

xub *bax* **1.** yaxşı **1**; **2.** gözəl **1**

xubluq *bax* gözəllik

xuda *bax* Allah **1**

xudahafiz *bax* əlvida

XUDAHAFİZLƏŞMƏK (*görüşərkən ayrılmaq*) Balaca Mirhadi və Həmidə *xudahafizləşdi* (H.Abbaszadə); **XUDAHAFİZ ELƏMƏK** Mən *xudahafiz eləd*im və istədim uzaqlaşam (C.Məmmədquluzadə); **SALAMATLAŞMAQ** Birdən qalxıb *salamatlaşmadan* getdi (C.Bağır); **VİDALAŞMAQ** (*bax*).

XUDANƏKƏRDƏ [Şirin:] *Xudanəkərdə*, bir xanım cürət eləyib buna istədiyi şeyi verməyə.. (N.Vəzirov); **ALLAH ELƏMƏSİN** [Kiçik xanım:] *Allah eləməsin*, iraq candan! – deyə onun əlini sıxdı.. (Mir Cəlal); **İRAQ CANDAN** *İraq candan*, [uşaqlar] dilənçiyə oxşayırdılar (M.İbrahimov).

xudavənd *bax* Allah **1**

xudavəndi-aləm *bax* Allah **1**

XUDBİN *Xudbin* padşah məmləkətin abadlığını düşünüb bir iş başlamazdı (M.İbrahimov); **EQOİST** İlk baxışda qaradinmoz, bir qədər də rəsmi görünür. Hətta adama elə gəlir ki, o *eqoistdir* (İ.Şıxlı); **XUDPƏSƏND** [Səfurə:] Bu günahsız uşaqlar nə vaxta kimi *xudpəsənd* atanın əlində əsir-yesir olacaq? (H.Abbaszadə); **LOVĞA** (*bax*).

XUDBİNLİK Way cəhalət, way *xudbinlik*, siz neçə-neçə müsibətlərə baissiniz? (N.Vəzirov); **EQOİZM** [Osmanlı:] Altruizm? Bir onu deyə bilərəm ki, bu söz dilimizdən uzaqlaşmışdır. *Eqoizm* isə hər gün işlənir (Ə.Kərim); **XUDPƏSƏNDLİK** ..qürur və *xudpəsəndliyini* bir qat daha artırmış və özündən başqa kimsəni sevməmişdi (A.Şaiq); **EQOİSTLİK, LOVĞALIQ** (*bax*).

xudpəsənd *bax* xudbin

xudpəsəndlik *bax* xudbinlik

xun *bax* qan

xunxar *bax* zalım

xunxarlıq *bax* zalımlıq

xurafat *bax* mövhumat

xurafatçı *bax* mövhumatçı

XURCUN (*iri torba, kisə*) [Fərid:] Aç *xurcunu*, ver, ver mənim qalstukumu (M.İbrahimov); **HEYBƏ** Rübabə oğlu üçün dəyişək, azuqə qoyub *heybəsini* bağladı (H.Abbaszadə); **TER** *Terdəki* kərdiyar taxıl onların üzərinə səpələndi (S.Rəhimov).

1. XURMA Qayada ilan ötər; Bağdadda *xurma* bitər; Ay qız, elə sallanma; Cavanam, ağlım itər (Bayatı); **RÜTƏB** (*kl.sif.*) Nar öz sifətini vəsf etdi; Bağ içrə sosini *rütəb* eşitdi (Füzuli).

2. xurma *bax* xırnik

xurşid *bax* günəş

XURUŞ *(plov üçün ətdən, şabalıddan və s.-dən ayrıca bişirilmiş yemək)* [Əbülhəsən bəy] xörəyi iki əlli yeyirdi: Plovun *xuruşunu*, böyçünü bir-birinə qatmışdı (M.S.Ordubadi); **QARA, QARNİR, QİYMƏQOVURMA.**

xaşgəbar *bax* bayramyemişi

xülaseyi-kəlam *bax* xülasə **1**

1. XÜLASƏ *Xülasə*, tacirə kar oldu müşkül; Gördü ki, zor ilə müyəssər deyil (Q.Zakir); **ƏLHASİL** Bil ki məqsudə olarsan vasil, yerdə göydə nə isə *əlhasil* (A.Səhhət); **ƏL-QƏRƏZ** Tanımırsan məni bəs?! Sözünü de, *əlqərəz!* (B.Vahabzadə); **ƏLQİSSƏ** *Əlqissə*, çoxdu canını qurban edən, çocuq.. (M.Ə.Sabir); **FİLCÜMLƏ** Cahani cani qoy, *filcümlə*, getsin külli yoğmayə (Xətayi); **XÜLASEYİ-KƏLAM** *Xülaseyi-kəlam*, camaat bir vaxt gözünü açdı gördü ki, Xudayar bəy katdadı ki, katdadı (C.Məmmədquluzadə); **QƏRƏZ** [Məşədi İbad:] *Qərəz*, rəhmətlik çox gözəl kişi idi (Ü.Hacıbəyov); **MƏXLƏS** [Allahqulu:] *Məxləs*, bir neçə gün dağı-daşı acsusuz dolanıb bu tərəfə keçdim (Çəmənzəminli); **MÜXTƏSƏR** [Vəli:] *Müxtəsər*, getməliyik (M.İbrahimov); **NƏ BAŞINIZI AĞRIDIM** *Nə başınızı ağrıdım* tələbənin yazısın düzəltdim... (S.Rəhman); **UZUN SÖZÜN QISASI** [Əjdər:] *Uzun sözün qısası*, deyir apar məni Buzovnaya, iyirmi manat verirəm sənə (Anar).

2. xülasə *bax* nəticə

3. xülasə *bax* icmal **2**

xülya *bax* xəyal **1**

xülyaçı *bax* xülyapərəst

xülyaçılıq *bax* xülyapərəstlik

xülyapərəst *bax* xəyalpərəst

xülyapərəstlik *bax* xəyalpərəstlik

xülyapərvər *bax* xəyalpərəst

xülyapərvərlik *bax* xəyalpərəstlik

XÜMS *(din.)* *(varlıların yoxsullara verməli olduğu vergi)* Camaatın, xüsuson sərvətdarların *xümsü*, zəkat və fitrəsi ağanın mübarək əlilə paylanırdı (Ə.Haqverdiyev); **SEYİDMALI** [Seyidlər] cavab verdi ki, əlbət sizdən *seyidmalı* xahiş edəcəklər (C.Məmmədquluzadə).

xürrəm *bax* şad

xüsumət *bax* ədalət

xüsusda *bax* haqqında

xüsusən *bax* xüsusilə

1. XÜSUSİ *(ancaq bir şəxsə, bir şeyə məxsus olan)* Həmid bildi ki, məclis *xüsusi* onun şərəfinə düzəlib (H.Abbaszadə); **FƏRDİ** [Mister Ke:] ..bizim üçün *fərdi* təşəbbüs başlıca prinsipdir (M.Rzaquluzadə); **MƏXSUSİ** Qız evində boy üçün *məxsusi* bəy xonçası gəlir (R.Əfəndiyev).

2. xüsusi *bax* şəxsi

3. xüsusi *bax* əlahiddə

XÜSUSİLƏ Materialdakı dəlilləri ətraflı yoxlayıb saf-çürük etməkdə kəndin namuslu fəallarının, *xüsusilə* kolxozun aqronomu Çiçəyin və bir də Həsən kişinin Elsevərə çox köməyi dəydi (Ə.Qasımov); **ƏLƏLXÜSUS** *Ələlxüsus* balalar həddi-büluğa çatdıqda ana artıq lazım olmur (Çəmənzəminli); **XÜSUSƏN** *Xüsusən* Ramizə çay gətirmək, bilavasitə ona qulluq etmək qızcığaza ləzzət verirdi... (M.İbrahimov); **BİLXASSƏ** *(köhn.)*; **BAXÜSUS** *(köhn.)*; **MƏXSUSƏN.**

XÜSUSİYYƏT, CƏHƏT, XASSƏ. KEYFİYYƏT

XÜSUSİYYƏTÇİ, MÜLKİYYƏTÇİ. SAHİB

XÜSUSİYYƏTÇİLİK, MÜLKİYYƏTÇİLİK, SAHİBKARLIQ

İi

ianə(t) *bax* yardım

1. İBADƏT *(dini mahiyyətdə olan mərasim)* İldə bir yol gəlməyirsən; Göy məscidə *ibadətə?* (M.Rahim); **AYİN** Aldanmıram ki, doğrudur *ayinin*, ey omu! (M.Ə.Sabir); **ZİYARƏT** Zəvvar *ziyarətdən* qayıdanbaş namazını Araz qırağında qılmışdı.. (S.Rəhimov).

2. ibadət *bax* pərəstiş

İBADƏTÇİ *(ibadətlə məşğul olan adam)*; **ABİD** [Mərcan:] Xaqanım, tutmuş bir *abid* kişi (A.Şaiq); **ZAHİD** *Zahidi*-xudbin nə bilsin zövqünü eşq əhlinin (Füzuli).

ibadətgah *bax* məbədgah

ibadətxana *bax* məbədgah

ibarə *bax* **1.** söz; **2.** kəlam

iblis *bax* **1.** şeytan; **2.** fitnəkar

iblislik *bax* fitnəkarlıq

ibn *bax* oğul

ibrət *bax* nəsihət

ibrətamiz *bax* ibrətverici

İBRƏTVERİCİ *(ibrət verən)* Şəkillərin arasında *ibrətverici* və hikmətli şeirlər yazılmışdı (M.S.Ordubadi); **İBRƏTAMİZ** Korim dayı .. bizə yaxşı bir şey danış, *ibrətamiz* bir əhvalat nəql elə (M.İbrahimov).

ibtida *bax* başlanğıc

ibtidadan *bax* əvvəlcədən

1. İBTİDAİ [Sadıq:] *İbtidai* insanlar nə kef çəkirlərmiş, heyif deyil subaylıq? (S.S.Axundov); **QƏDİM** *Qədim* insanların, "Aralıq dənizinin incisi" adlandırdıqları gözəl iqlimli adada üç il əvvəl baş vermiş faciənin izlərinə indi də təsadüf edilir (Qəzetlərdən); **İLK, ƏVVƏL.**

2. İBTİDAİ, PRİMİTİV *(hələ mükəmməl olmayan, inkişaf etməmiş)*.

3. ibtidai *bax* başlanğıc **1**

icab *bax* tələbat

icad *bax* ixtira

icarə *bax* kirayə

icazə *bax* izin

icazəli *bax* izinli

icazəsiz *bax* izinsiz

icbari *bax* məcburi

İCLAS [Hacı Əhməd:] Balam, bəs bu *iclası* haçan başlayırsınız? (C.Cabbarlı); **CƏLƏSƏ** *(köhn.)* [Hacı Əli:] *Cələsəmizi* açmadan əvvəl sizə xoş bir xəbər vermək istəyirəm (A.Makulu); **MİTİNQ** *(kütləvi yığıncaq)* [Almaz:] Gəlib göröydin, elə bir *mitinq* düzəltmişdim ki... (C.Cabbarlı); **MÜŞAVİRƏ** Ancaq yolun ağrısı çıxmamış hələ candan; Mərkəzdə *müşavirə* çağırıldı, bu yandan (Ə.Cəmil); **YIĞINCAQ** [Aftil:] Görünür orada da *yığıncaq* varmış (C.Cabbarlı); **YIĞNAQ** İsti yay səhəri açılandan axşamacan cavan oğlan və qızların burada *yığnağı*, mübahisəsi, söhbəti, gəl-gedi kəsilmir (Mir Cəlal).

ictihad *bax* səy

iç *bax* **1.** daxil; **2.** özək; **3.** içalat

İÇALAT *(insan və heyvanlarda döş və qarın boşluğunda olan üzvlər)* Məşədi Şərif *içalatı* iri bir sobətə qoyub həyətə salladı (Ə.Vəliyev); **İÇ** [Saleh:] Gedək bizə, bir yerdə şam eləyək. *İç*-ciyər qovurtdurmuşam (H.Abbaszadə).

İÇKİ ..Ağaxan bəyin süfrəsində haram buyurulmuş *içkilər* olduğundan mərsiyəxanın xörəyi, yerləşdiyi otaqda ayrıca olaraq, ona çatdırılardı (S.Rəhimov); **KRUŞON** Fərəmozlə Xəlil köşklərin birində çiçəklə *kruşon* satırdılar (Çəmənzəminli); **NUŞ** *(köhn.)*.

içkiçi *bax* əyyaş

içkixana *bax* meyxana **1**

içkipərəst *bax* əyyaş

İÇMƏK [Həmzə:] Elə ki axşam çox *içdim*, arağı konyaka, konyakı çaxıra qarışdırdım, gəl mənim səhərki halıma bax (Ə.Qasımov); **BAŞINA ÇƏKMƏK** *(məc., dan.)* Bu sözləri deyəndən sonra Qurbanəli bəy çaxırı *çəkdi başına*.. (C.Məmmədquluzadə); **BƏDƏNƏ VURMAQ** *(dan.)* [Biqəm:] Çaxır olsa *vurardım bədənə* də, gicəm sənin üstünə atam (Anar); **BOĞAZINI YAŞLAMAQ/**

İSLATMAQ (*dan.*) [Qondab:] Bəsdir də, Məzahir, qanacağın olsun, yekə oğlansan, deyəsən yenə *boğazını yaşlamısan!* (B.Bayramov); **DÜMLƏMƏK** (*dan.*) [Aytəmiz:] Lap elə üz-gözü, qayırma başı, papiros çəkməyi, çaxır *dümləməyi* (Ə.Qasımov); **İÇƏRİ ÖTÜRMƏK** Ədhəm kişi qonağın tökdüyü araqı gətirib *içəri ötürdü*... (M.Hüseyn); **NUŞ ETMƏK** Ağalar mey *nuş edir*, danışır, gülüşürlər; bəlkə yaziq İrani yenidən bölüşürlər (M.Rahim); **VURMAQ** (*məc., dan.*) Hacı Qəmbər kirvə, Allah saxlasın, bağışla bir *az vurmuşam*, kefim kökdür... (N.Vəzirov); **YELLƏTMƏK** (*məh.*) [Məşədi Həsən:] Bu, Gəncə dildir, *yelletmək* içməyə deyirlər... (Ə.Haqverdiyev).

idbar *bax* **1.** eybəcər; **2.** bədbəxtlik **1**

1. İDDİA, FORS

2. iddia *bax* lovğalıq

3. iddia *bax* tələb

iddialanmaq *bax* lovğalanmaq

iddialı *bax* lovğa

iddialılıq *bax* lovğalıq

ideal *bax* məqsəd

ideologiya *bax* məfkurə

ideoloji *bax* məfkurəvi

1. İDEYA [Aslan:] Demək, sən çox kiçik qəlbli adammışsan. *İdeyan* da yeməkmiş (S.Vəliyev); **FİKİR** [Sərvər:] Doğru deyirsən, mən dünəndən bəridir ki, *fikirdəyəm* (Ü.Hacıbəyov); **QAYƏ** (*ən yüksək ideya*) İnsanlara bəxtiyarlıq, ağ gün, səadət! *Qayəmiz* budur ancaq (Ə.Sarıvəlli).

2. ideya *bax* işıqlıq **1**

3. ideya *bax* məfkurə, niyyət

İDXAL(AT), İMPORT (*xaricdən mal gətirilməsi*)

İDXALATÇI, İMPORTÇU (*xaricdən mal gətirən*)

idiot *bax* səfeh

idiotluq *bax* səfehlik

İDMAN Gündüzlər dərslərə, *idmana*, oynamağa və sair işlərə məşğul olaraq, belə məşəqqətin ağırlığını bir o qədər hiss eləməyirdim... (S.S.Axundov); **SPORT** (*dan.*) Olavə xanın *sporta* böyük həvəsi var imiş (Ə.Haqverdiyev).

İDMANÇI Ə özü *idmançı* olmasa da, idmanla çox maraqlanırdı (Ə.Qasımov); **SPORTÇU** (*dan.*) [Rocəb:] Mən sizlə zarafat eləyirdim, ... *sportçu* da pulla güləşərmi? (İ.Əfəndiyev).

1. İDRAK [Torgoldi:] Həyat elə bir hikmətdir ki, *idrakın* təxəyyüllü onu asanlıqla qavraya bilmir (Anar); **AĞIL, FƏHM, ŞÜUR** *Əqli, şüuru, fahmi* yox; İrzü həyadə səhmi yox (M.Ə.Sabir); **ANLAQ** [Firudin:] Artıq [Azadi] *anlaq* və təsəvvürə malikdir (M.İbrahimov); **BƏSİRƏT GÖZÜ** Leyk hanı səndə *bəsirət gözü*: Ta görəsən vəchidilarəsını? (M.Ə.Sabir); **DƏRRAKƏ** (*bax*).

2. idrak *bax* düşüncə **1**; ağıl **1**

İDRAKLI [Səməd:] *İdraklı*, rusca-azərbaycanca gözəl savadı (C.Cabbarlı); **BƏSİRƏTLİ, DÜŞÜNCƏLİ** (*bax*); **DƏRRAKƏLİ** (*bax*), **FƏHMLİ.**

İFLİC (*tib.*), **FALİC** (*köhn.*) Evlənmək dursun kənarda, bu azardan [Mahmud] divanə olub çöllərə düşə bilər, *falic* olar.. (Çəmənzəminli); **QARAVURĞUN** (*dan.*), **İNSULT.**

İfrazat *bax* nəcis

İFTİXAR (*öyünmə, fəxr etmə*) Mən elə axırdım bu qərar ilə; Şərəflə, izzətlə, *iftixar* ilə (M.Rahim); **FƏXR** *Faxri*, şöhrətxəsn Azərbaycanın; Şirvan torpağının qanıdır qanın (M.Rahim); **QÜRUR** Ağaboyim ağanın Vaqif ilə görüşməsi ona bir *qürur* vermişdi (Çəmənzəminli).

İftira *bax* böhtan

İftiraçı *bax* böhtançı

İGİD, QƏHRƏMAN Orda məğrur baxışında şimşəklər çaxan; İnqilabçı *qəhrəmanlar, igidlər* yatır (Ə.Cəmil); **ASLAN** (*məc.*) Bu dağlar qoynunda *aslan* yatmışdır; Burda Koroğlular at oynatmışdır (S.Vurğun); **BAHADIR** (*təht.*) Alp Aruz Oğuz *bahadırları* kimi azmandır, iridir... (Anar); **CƏSARƏTLİ** Yaşar *cəsarətli* olmağa çalışırdı (M.Rzaquluzadə); **CƏSUR, QOÇAQ** Dərhal Həmzə Gülöbətinin gözünə başqa cür

göründü – qəhrəman, *cəsur, qoçaq* (M.İbrahimov); **DƏLİ** (*məc.*) Dəmirçioğlu *dəlilərlə* dostlaşıb Koroğlunun arxası, köməyi oldu ("Koroğlu"); **DƏLİQANLI** İroliyə doğru şığıyan *dəliqanlı* və Girdman hökmdarı Varazın oğlu Cavanşir idi (M.Hüseyn); **DÖŞÜDOLU** (*dial.*) Somod *düşüdolu* oğuldu (ADDL); **ƏR** (*məc., köhn.*) Toriqot külünü Şah Əli seçdi; Şu dünyadan neçə yüz min *ər* keçdi (Xətayi); **ƏRƏN** (*köhn.*) *Ərənlər* bu yolda hazırdır, hazır; Müsahib lövhəni dəftərdən yazır (Xətayi); **QOÇ** (*məc.*) Sən ey nur şerinin *qoç* sərkərdəsi; Dönməz insanların azadlıq səsi! (M.Rahim); **QORXMAZ** Nəhayət, bəlli oldu ki, *qorxmaz* uşaq tüfəng ilə o tərəflərdə gəzirmiş (A.Şaiq); **MƏRD** Üçün, ey vətənin rüzgar qanadlı; Şahin təbiətli *mərd* oğulları! (Ə.Cəmil); **PƏHLƏVAN** [Məsumə:] Feyzi kimisi əziz olsun. Musa kimi *pəhləvan* ucuz?! (B.Bayramov); **RƏŞİD** (*köhn.*) [Heydər bəy:] Rus firəng çitini qadağan edibdir; heç kos qorxudan gedib gətirə bilmir: məgər handa *rəşid* və qoçaq adam cürət edib, bir yük, iki yük çıxarda bilər (M.F.Axundzadə); **ŞİR, PƏLƏNG** (*məc.*) Anadan doğulub Nəbi *şir, pələng* (M.Rahim); **ÜRƏKLİ** Qaraca qızı qızılğa götürən qaraçı arvadı Yasəmən iyirmi yaşında, gözəl, yumşaq təbiətli, şad, *ürəkli* bir qadın idi (S.S.Axundov); **RƏŞADƏTLİ.**

İGİDLİK [Tarverdi:] Heç bilirsənmi qoçaqlıq, *igidlik* nədir? (M.F.Axundzadə); **KİŞİLİK** Bədəlov taqımına demişdi: – Bax *kişilik* vaxtıdır; qırdığınızı qırın, olmadı əsir tutun (Ə.Əbülhəsən); **QOÇAQLIQ** Ancaq Rocəbin siması və *qoçaqlığı* Badamın xoşuna gəlirdi (A.Şaiq); **MƏRDLİK, RƏŞİDLİK** (*köhn.*) Sən bir zəif qız ola-ola nədən bu *rəşidlik, mərdlik* bulundu (N.Nərimanov); **PƏHLƏVANLIQ** Kişilər dəm vurur *pəhləvanlıqdan*; Güləşdən, güllədən, ölümdən, qandan (S.Vurğun); **RƏŞADƏT** Tüf sənə, həm sənin *rəşadətinə* (A.Səhhət); **ŞÜCAƏT** ...həm də şəmşirinə, *şücaətinə* (A.Səhhət); **BAHADIRLIQ, CƏSARƏT, CƏSURLUQ, DƏLİQANLILIQ, ƏRLİK** (*məc.*), **QƏHRƏMANLIQ** (*bax*).

iğtişaş *bax* şuluqluq **1**; hərc-mərclik

iğtişaşçı *bax* şuluqçu **1**; fitnəkar

ixlaskar *bax* sədaqətli

ixlaskarlıq *bax* sədaqət

ixlaskeş *bax* sədaqətli

ixlaskeşlik *bax* sədaqət

ixtilaf *bax* mübahisə **1**; ziddiyyət

ixtilaflı *bax* mübahisəli; ziddiyyətli

ixtilat *bax* hərc-mərclik, şuluqluq **1**

ixtilatçı *bax* şuluqçu **1**

ixtilat *bax* söhbət **1**

İXTİRA (*elm sahəsində və başqa sahədə bir şey tapma, açma və s.*) [Sultan:] Ya *ixtira*, ya da qeyri *ixtira*, sən özün soruşarsan, onlar da səni başa salarlar (S.Rəhimov); **İCAD** (*dan.*) [Mahmud:] İnsanın kosmik fəzalara uçmasında, elektron maşınların *icadında* necə böyük rol oynayır... (M.İbrahimov); **KƏŞF** Təbiidir ki, o bu *kəşflə* həmidən çox fəxr edir (M.Hüseyn).

İXTİRA ETMƏK, İCAD ETMƏK, KƏŞF ETMƏK

İXTİRAÇI, KƏŞŞAF (*köhn.*) (*ixtira edən*) Avropa və Amerika alim, *kəşşaf, ixtiraçı* və başqa namaz qılmayıb və şeytan əməllərinə rəvac verənləri tamamən yandırıb küllərini sovurdular (Çəmənzəminli).

ixtisas *bax* sənət

I ixtiyar(at) *bax* **1.** səlahiyyət; **2.** sərəncam; **3.** güc; **4.** hüquq

II ixtiyar *bax* qoca **1**

İXTİYARSIZ [Mədinə:] *İxtiyarsız* olaraq onu da, özünü də iztirablar girdabına atmışdı... (M.İbrahimov); **BİİXTİYAR** Dodaqları *biixtiyar* qımıldandı.. (A.Şaiq); **BİİLAİXTİYAR** Gözlərimdən *bilaixtiyar* yaşlar axırdı (N.Nərimanov); **QEYRİ-İXTİYARİ** Sarıtel *qeyri-ixtiyari* Məsuda tərəf çevrildi... (M.Hüseyn); **QEYRİ-İRADİ** Cuma .. *qeyri-iradi* geri çəkildi (Ə.Əbülhəsən); **İSTƏR-İSTƏMƏZ** (*bax*).

iki *bax* qoşa **1**; cüt **1**

ikicanlı *bax* hamilə; boğaz **II**

ikidirnaq(lı) *bax* cütdırnaq(lı)

İKİNDİ (*günün günorta ilə axşam arasındakı 2-ci vaxtı*) Səfalı atlıları kənddən çıxanda *ikindi* vaxtı idi (T.Ş.Simurğ); **İLKİNDİ** Mən hər *ilkindi* çağı üfüqlərə baxanda; Canlanırsan gözümdə, bir bənövşə yaxanda (R.Rza).

ikitirəlik *bax* nifaq

ikiüzlü *bax* riyakar

ikiüzlülük *bax* riyakarlıq

ikrah *bax* nifrət **1**

ikram *bax* təzim, hörmət

iqbal *bax* bəxt, tale

1. İQLİM [Aslan] buzlu-şaxtalı Rusiya *iqliminə* çoxdan öyrəşmişdi (M.Hüseyn); **AB-HAVA** Bu şəhəri birinci dəfə görən Qaraş gimnaziyada təhsil aldığı illərdə *ab-havaya* elə öyrənmişdi ki, nəfəs almayan vaxt zənn eləyirdi ki, ömrünün axırıdır (Ə.Vəliyev); **HAVA** (*dən.*) Ətrafı taladı, ceyran yuvası; Ruhları məst edir sərin *havası* (S.Vurğun).

2. iqlim *bax* ölkə

iqrar *bax* etiraf, sədaqət

1. İQTİDAR, SƏLAHİYYƏT (*bax*)

2. iqtidar *bax* güc

iqtidarlı *bax* **1.** güclü; **2.** bacarıqlı

iqtidarsız *bax* zəif **1**; gücsüz

İL Sentyabrın 12-də 1887-ci *ildə* Şuşa şəhərində doğulmuşam (Çəmənzəminli); **SƏNƏ** (*köhn.*) 1870-ci *sənənin* may ayının 4[17]-cü günündə Şuşa qəzasında təvəllüd etmişəm (Ə.Haqverdiyev).

ilahi *bax* Allah **1**

1. İLAN ..Qıvrılıb özünü günəşə verən zəhərli bir *ilan* atılıb Ağca xanımın çılpaq qolundan sancdı (S.S.Axundov); **MAR** (*kl.ad.*) Kələz ilan, əqrəb ilan, *mar* ilan; Ağzınadək qəbrin dolar, ağlarsan (M.P.Vaqif).

2. ilan *bax* xain **1**

İLANOYNADAN Dolanır bağrını *ilanoynadan*; Bir də ki, dərvişlər əlində kəşkül (M.Rahim); **OVSUNÇU** *Ovsunçular* əllərinə mar alı, Zənbur qonar, şaqaylıqdan bar alı (Aşıq Ələsgər); **SOFU.**

İLBƏİL Uşaqlar *ilbəil* böyüyüb bir yaşdan o birinə keçdikdə yenə yaşlarına müvafiq analarına möhtac olurlar (Çəmənzəminli); **İLDƏN-İLƏ** Cövrü zülmün yetirib itmamə; İşimiz pis gətirib *ildən-ilə* (Ə.Qəmküsar); **HƏR İL, İLAŞIRI.**

ildən-ilə *bax* ilbəil

ildönümü *bax* yubiley

İLDIRIM, ŞİMŞƏK *İldırımlar, şimşəklər* oynaşırdı köksümdə; Çılğın bir div nərəsi inləyirdi səsimdə (A.Şaiq); **SAİQƏ** (*arx.*) [Cavad:] Sanki səmada üzərimə *saiqələr* tökülür kimi olur (A.Şaiq).

ildönümü *bax* yubiley

1. İLĞIM (*puç ümid*) Kaş bu bir *xəyal*, bir *ilğım*, bir yuxu olaydı: ayılanda dərhal hamısını unudaydı (X.Hasilova); **XƏYAL** [Gülbətin] bunu hiss etdi və şirin dünyanın ancaq yuxu, ancaq *xəyal* olduğuna dərəni təəssüf duyğuları ilə köynəyi oyninə taxtb həyətə çıxdı (M.İbrahimov); **MİRAJ** Gülbətin, ay Gülbətin! – sədaları onu qəti olaraq xəyalından, yuxuda gördüyü aləmin *mirajından* ayırdı (M.İbrahimov); **SƏRAB** Lakin həsrət *sərab* kimi aldadıcı da olsa, intəhasız deyildi, saatlar ağır olsa da, yenə gəlib keçirdi (Çəmənzəminli).

2. İLĞIM, SƏRAB (*sakit və aydın havada çöldə su kimi görünən və işığın inikasından törəyən optik hadisə*)

İLHAM (*şairlikdə: bir şeydən təsirlənib ruhlanma, ruh coşqunluğu*) ..Güvənib *ilhamına;* Könül avazla qonur nəğmə bu el bayramına (S.Rüstəm); **TƏB** [Nizami:] Bir şairin *təbi* nə qədər işıqlı olursa olsun, saray içərisindən bir günəş kimi dünyaya işıq sala bilməz (M.S.Ordubadi).

İLHAMLANDIRMAQ ..Yenilik yaradan fəhlələri, kəndliləri və ziyalıları *ilhamlandırırdı* (M.Hüseyn); **QOL-QANAD VERMƏK** (*fr.v.*) Yarıb fəzaları bir şimşək kimi, *Qol-qanad verirsən* qəhrəmanlara (S.Vurğun); **QÜVVƏT VERMƏK** N.Nərimanovu ehtimal ki, gənc Vertərin iztirabları dərindən müəssir etmiş və yazıçının qələminə *qüvvət vermişdir* (M.Arif); **CUŞA GƏTİRMƏK, RUHLANDIRMAQ** (*bax*), **ŞÖVQLƏNDİRMƏK.**

İLHAMLANMAQ Düşünüb dərs alıbdır; Müdriklərin sözündən; Sənnmi *ilhamlanıb;* Rafael qaş-gözündən (M.Rahim); **EŞQƏ GƏLMƏK** Sordum: Nədən gözəl çoban; *Eşqə gəlib* ney çalırsan? (N.Rəfiboyli); **QƏŞŞ OLMAQ** Nə müqəddəs havası var .. hər an; Nəfəs aldıqda *qəşş olur* insan (H.Cavid); **QOL-QANADI AÇILMAQ** (*məc.*) [Hüseynqulu ağa:] Qoy bu qız ilə oynasın, atlansın, *qol-qanadı açılsın* (S.S.Axundov); **RUHLANMAQ** Kirayənişinin kəsmələsi varsa, sallaqxanada *ruhlanır..* (B.Bayramov); **İLHAMA GƏLMƏK, ŞÖVQLƏNMƏK.**

ilxı *bax* sürü

1. İLIQ [Şəbnəm bəyim] Nənəqızın tökdüyü *ilıq* su ilə əl-üzünü yumağa başladı (Ə.Cəfərzadə); **LİLVAN** Gözün içinə "çırtıq" çıxanda yağı dağ edib *lilvan* (*ilıq*) şəkildə gözə damızdırırlar (C.Məmmədov); **NƏ İSTİ, NƏ SOYUQ** Fəsillər *nə isti, nə soyuq* idi; İndi yay istidir, payızsa, soyuq (S.Tahir).

2. ilıq *bax* novazişli

1. İLİŞDİRMƏK, BƏND ETMƏK, TAXMAQ.

2. ilişdirmək *bax* vurmaq **1**

1. İLK *İlk* məhəbbətimiz də ilk qar kimi oldu (G.Hüseynoğlu); **BİRİNCİ** Çıxmaz xatirimdən bu *birinci* qar (M.Seyidzadə); **ƏVVƏLİNCİ** [Nazlı:] doğrudur, bir neçə adam bilir ki, Yusif ilə son *əvvəlinci* dəfə görüşməyirsən (N.Nərimanov); **BİRİNCİ** (*bax*).

2. ilk *bax* ibtidai **1**

ilkindi *bax* ikindi

ilqar *bax* əhd **1**

illət *bax* **1.** xəstəlik; **2.** arzu

illüstrasiya *bax* şəkil **1**

il-müdam *bax* həmişə

iltifat *bax* **1.** xeyirxahlıq; **2.** hörmət; mərhəmət; hüsn-rəğbət, rəhm

iltimas *bax* xahiş

iltizam *bax* vəd **1**

İMALƏ (*tib.*) ..Bu *imalə* təsir etməsə, o vaxt Qubadan molla Hacıbaba bizə yazdığı bu duanı hər sübh namazından sonra 140 mərtəbə oxusun.. (C.Məmmədquluzadə); **KLİZMA.**

iman *bax* **1.** inam; **2.** etiqad **1**

1. İMANLI (*dinə inamı olan*), **DİNDAR** (*bax*), **ƏHLİ-İMAN**

2. imanlı *bax* insaflı

1. İMANSIZ [Şirin Nurcahana:] Ay *imansız* qarı, son haman Nurcahan deyilsənmi ki, Nəzəroli bəyin qızının əvəzində Şahqulu bəyə öz qardaşın arvadın göstərdin, nə qədər onu yedin? (N.Vəzirov); **BƏDİMAN** Kafirə bax, gör nə *bədimandı* bu! Dur qaçaq, oğlum, baş-ayaq qandı bu! (M.Ə.Sabir); **BİİMAN** [Fatma xanım:] Bu zamananın gəlinləri belə otur kaftar, elə dur *biiman*, axıratsız! (N.Vəzirov); **KAFİR** (*bax*).

2. imansız *bax* insafsız; zalım

İMANSIZLIQ, BİİMANLIQ

İMARƏT (*böyük, gözəl ev, tikili*) Ağalıq evi təzə qayda ilə tikilmiş ikimərtəbə gənbol bir *imarət* idi (S.S.Axundov); **MÜLK** Hacı Rəcəblinin *mülkü* bir dağın döşündə tikilmiş, ..bir hektarlıq yeri tuturdu (Ə.Əbülhəsən). **SARAY** [Molla Cəfərqulu] ..uzun bir *saray* tikmişdi (N.Nərimanov).

imdad *bax* kömək

İMƏKLƏMƏK (*müxtəlif mənalarda*) O, yazıq anasının dalınca ağlaya-ağlaya *imələdi* (M.Hüseyn); **SÜRÜNMƏK** Yasavul düşündükcə tələsiyir, üzü yuxarı *sürünür*, mümkün qədər öz qisasını tez almaq üçün bacarığını işə salmaq istəyirdi (S.Rəhimov).

1. İMKAN (*hər hansı şərait daxilində bir işin həyata keçirilə bilməsi; mümkünlük*) Anası arada *imkan* tapıb, Vüqardan məktub gəlib-gəlmədiyini soruşdu (X.Hasilova); **AMAN** Taleyin ağır zərbələrindən göz açmağa *aman* tapmırdılar (H.Abbaszadə); **MACAL** [Hacı Qara:] Burnın qumaşı özgə qumaşdı, müştəri *macal* vermir, göydə götürür (M.F.Axundzadə).

2. İMKAN, QÜVVƏ, MÜMKÜN (*maddi vəsait, maddi güc*); **VƏSAİT**

İMKANSIZ, MÜMKÜNSÜZ (*imkanı olmayan*)

1. İMLA (*söyləyib başqasına yazdırma*), **DİKTAT, DİKTƏ**

2. imla *bax* orfoqrafiya

import *bax* idxal

importçu *bax* idxalçı

imsiləmək *bax* iyləmək

İMZA (*qol çəkmə*) Sözlər ona tanış idi. *İmza* qəlbində əbədi həkk olunmuşdu (Ə.Vəliyev); **QOL** [Balaxanım:] Nə yaxşı adamların *qolu* var. Fərzəli binəva, heç yazı-pozu bilirdi? (A.Şaiq).

İMZALAMAQ Nemət yazdı və sənədi *imzaladı* (Çəmənzəminli); **İMZA ATMAQ** [Mirzə Hüseyn:] Almısan, altından da *imza atmısan* (S.Rəhman); **İMZA QOYMAQ** [Qarri:] Bizim həmkarlar ittifaqı sədri hamısı protest yazıb *imza qoyublar*... (R.Rza); **QOL ÇƏKMƏK** Döyüldü, *qol çəkmədi* uydurulmuş yalana: Barmaqlığın dalında ömür sürdü mərdana (M.Rahim); **QOL QOYMAQ** (*dan.*) [Ohan:] Urus padşahına ərizə yazıblar ki, xan bizi belə eləyir. *Qol qoyub* göndəriblər (Çəmənzəminli); **QOLLAMAQ**.

İMZALATMAQ, İMZA ETDİRMƏK, QOL ÇƏKDİRMƏK, QOLLATMAQ.

İMZASIZ (*qol çəkilməmiş, altında imza, ad olmayan*) [Nataşa:] *İmzasız* məktubdur. Yəqin ağ qvardiyaçı yazıb (Ə.Məmmədxanlı); **ADSIZ** *Adsız* məktublar məni təhdid edirdi (Çəmənzəminli).

inad *bax* **1.** höcət; **2.** dəyanət

inadçı *bax* höcət

inadkar *bax* höcət

inadlı *bax* höcət

İNAM [Sona:] Məncə, *inam* məsələsində adamlar beş qisim olur (N.Nərimanov); **ETİBAR** [Sitarə:] Artıq, sənin *etibarını* görüb səndə dolanmaq istəmirəm (C.Cabbarlı); **ETİQAD** [Dilarədə] ədalətin, haqqın qələbə çalacağına möhkəm bir *etiqad* vardı! (M.İbrahimov); **ETİMAD** Mən itirməmişəm *etimadımı* (M.Rahim); **İMAN** (*dərin inam*) [Kərim xan:] Hələ də öz *imanında* möhkəm qalmaq istəyirdi (M.İbrahimov); **QAİLLİK** Əzizim, əgər mənim sözümə *qailliyin* olacaqsa, deyim (C.Məmmədquluzadə); **VƏFA** Bu dağlar kömürdəndi; Keçən gün ömürdəndi; Gözəldən *vəfa* umma; Ürəyi dəmirdəndi (Bayatı); **VÜSUQ** Xanın onlara hər xüsusda *vüsuqu* var idi (M.F.Axundzadə); **BAVƏR.**

1. İNANMAQ [Fərzəli:] Mən ki, bu kişiyə lap ürəkdən *inanıram* (S.Rəhimov); **BAVƏR ETMƏK** (*köhn.*) Ağanın xüsusi məvacibxor agentləri hər yeri dolanıb, belə xəbərləri buraxırdılar və avam xalq da bu agentlərin sözlərinə *bavər edirdilər* (Ə.Haqverdiyev); **BAVƏR QILMAQ** (*köhn.*) Məcnun ilə Leyli bərabər; Gər kim deyir isə, *qılma bavər* (Füzuli); **BEL BAĞLAMAQ** (*fr.v.*) Naçalniklərə, pristavlara, yasavullara *bel bağlamaq* olmaz (Ə.Haqverdiyev); **QAİL OLMAQ** [İsmayıl bəy:] İmama yas saxlayanların, peyğəmbərlərə inananların, Qurana *qail olanların* hamısı dar ağacından asılacaq (Ə.Vəliyev); **QIZMAQ** Hacı ilk dəfə bu məsələni ürəyi *qızan* adamlara açdı (Mir Cəlal); **QIZINMAQ** Bütün Təbrizdə sizdən başqa *qızınıb* etibar edəcəyim bir nəfər adam tanımıram (M.F.Axundzadə).

2. İNANMAQ Kəsiləcək yer üzündən, *inanıram* mən; Müsibətin ilan nəfəsi (S.Vurğun); **ƏMİN OLMAQ** (*tamamilə inanmaq*) Mina cavab verdi ki, *əmin olunuz*, əzizim! (İ.Musabəyov); **ÜMİD BAĞLAMAQ** [Şahmar:] ..gələcəyə *ümid bağlamaq* özü də pis deyil (B.Bayramov); **ÜMİDVAR OLMAQ** [Qədir] ailəsini yalnız Nəsirə *ümidvar olub* gedə bilərdi (S.Hüseyn).

3. İNANMAQ (*din.*), **ETİQAD ETMƏK, İMAN GƏTİRMƏK**

inayət *bax* rəhm

1. İNCƏ (*müxtəlif mənalarda*) [Əşrəf:] Hələ sağdan birinci qıza bax. Nə qədər *incə* və dilbərdir (A.Şaiq); **QƏŞƏNG** Batmış gör necə də *qəşəng* naxışlar vurub (İ.Əfəndiyev); **LƏTİF** [Bəy:] Çox razıyam, – deyib əyləşdi

və xanım da öz *lətif* əllərilə ona bir stəkan çay töküb verdi (Ə.Haqverdiyev); **NAZİK** (*məc.*) Ağ *nazik* əlinlə bir dəstə bağla; Tər buxaq altında düz bənövşəni (Qurbani); **NƏZAKƏTLİ** Böyük qız.. *nəzakətli* bir Kürdüstan gözəli olduğunu sübut edirdi (S.S.Axundov); **ZƏRİF** Məktubu oxuyarkən əlindən çıxardığı *zərif* yun əlcəkləri paltosunun cibinə soxdu (Ə.Əbülhəsən).

2. incə *bax* nazik **1**

İNCƏBEL(Lİ) (*beli nazik, incə*) Böyük qız, ucaboylu, *incəbelli*, iri qara gözlü, uzun qara saçlı, dodaqlarında müdam bir təbəssüm, nəzakətli bir Kürdüstan gözəli olduğunu sübut edirdi (S.S.Axundov); **NAZİKBEL(Lİ)** Ucaboy, *nazikbel*, ağzı yaşmaqlı bir arvad, qucağında dörd kərmə çıxıb cəld qayınatasının böyründə dayandı (Ə.Vəliyev); **NAZİKMİYAN.**

incəqəlbli *bax* ürəyiyumşaq

1. İNCƏLİK, ZƏRİFLİK [Vidadi:] Sən bu xalçadakı *incəliyə, zərifliyə*, rövnəqə bax! (S.Vəliyev); **LƏTİFLİK** Aşıq, *lətiflik* güftar iləndir; Əndəlibin meyli gülzar iləndir (Aşıq Pəri); **NAZİKLİK** *Naziklik* ilə qönçeyi-xəndanı edən yad; Etməzmi həya ləlidürəfşanını görcək (Füzuli); **NƏZAKƏT** Görməmişəm dilbər bu *nəzakətdə* (M.P.Vaqif).

2. incəlik *bax* naziklik **1**

İNCİ Dənizdə *inci* yox, səni gəzdim üzərək.. (M.Rahim); **DÜRR** [Bəhlul:] Ay ovçu, mənim qarnımda yumurta boyda bir *dürr* vardır ki, padşahın bütün xəzinəsinə dəyər (A.Şaiq); **LÖLÖ** (*kl.ad.*) Xətayi sözləri cəm etsün ol ay; Ki, xublar güşinə *lölə* gərəkdir (Xətayi); **MİRVARİ** [Qənimək:] 100 min dinar qızıl, bir də dəstəyi *mirvari* ilə bəzənmiş bir qılınc (M.Hüseyn).

İNCİK (*incimiş, küsmüş, ürəyi sınmış*) Tükəz qarı *incik* səsini ucaltdı (S.Rəhimov); **KÜSKÜN** Qız, bu *küskün* könlümü; Bircə sənsən güldürən (H.Cavid). **QIRIQ** (*məc.*) *Qırıq* könlümüz tək saz ad ağlardı (S.Rüstəm); **RƏNCİDƏ** Son günlər *rəncidə* görünən Çiçək dedi.. (Ə.Vəliyev); **RƏNCİDƏHAL** Lakin müvəkkil *rəncidəhal* gedirdi (B.Bayramov); **RƏNCİDƏXATİR** Belə şübhəli və bir az da *rəncidəxatir* xan durub darvazadan çıxdı (Çəmənzəminli); **SINIQ** (*məc.*) [Çingiz:] Çingizin golmiş məcnun tək məzarını qucub, yorğun ruhunu, *sınıq* qəlbini sənə təslim etsin (S.S.Axundov).

İNCİKLİK Şöbədə bir *inciklik* olanda həmişə əl-ayağa düşüb canfəşanlıq eləyən Qulam, nədənsə bu dəfə laqeydlik göstərirdi (H.Abbaszadə); **KÜSKÜNLÜK** [Sürəyyə] babasına qarşı bir *küskünlük* duyaraq kövrəldi.. (Ə.Məmmədxanlı); **RƏNCİDƏLİK** [Müstəntiq:] Paşa bəylə pristav Kamalın arasında inciklik, *rəncidəlik* vardırmı? (Ə.Vəliyev); **İNCİMƏ, KÜSMƏ, KÜSÜ.**

İNCİMƏK, RƏNCİDƏ OLMAQ Hələ heç bir kəs onun dilindən *inciyib* rəftarından *rəncidə* olmamışdır (B.Bayramov); **KÜSMƏK** (*bax*).

1. İNCİTMƏK [Vahid:] Bilirəm ata, mən sizi çox *incitmişəm* (M.İbrahimov); **BİDAD ELƏMƏK/ETMƏK** ..[Ağabala] danışırdı ki, qolçomaq tayfası kənddə *bidad eləyir* (S.Rəhimov); **ƏZİYYƏT VERMƏK** Əmisinə gəldikdə, o da Məlahətə başqa cür *əziyyət verirdi* (S.S.Axundov); **GÖZÜMÇIXDIYA SALMAQ** (*dan.*) [Nazlı:] İncidirlər də məni, *salıblar gözümçıxdıya*, bilirlər ki, dalımda adamın yoxdur (Anar); **ÖLDÜRMƏK** (*məc.*) *Öldürür* mən yazığı; Qəsdən qanım içir zalım.. (Aşıq Ələsgər); **SİTƏM ETMƏK (ELƏMƏK)** [Dayə:] Təzə arvad günüsündən hər gün ərinə bir söz deyir, əri yazıq arvada *sitəm* eləyirmiş (Çəmənzəminli); **ƏZAB VERMƏK, İZTİRAB VERMƏK, ZÜLM ELƏMƏK/ETMƏK.**

2. İNCİTMƏK (*yara haqqında*) [Həmid:] Hər əlinə bir iki pudluq götürdü, yarası daha onu çox *incitmirdi* (H.Abbaszadə); **AĞRITMAQ** Çarpanaq yaralarının yeri .. *ağrıtmırdı* (Ə.Əbülhəsən); **ƏZİYYƏT VERMƏK** [Pyotr Anisimoviç Həmid:] De görüm neçə son, yaran *əziyyət vermir* ki?.. (H.Abbaszadə).

3. incitmək *bax* küsdürmək

İNDİ(CƏ) [Sona xanım:] Mən *indi* gedəcəyəm! Dur gedək! (M.F.Axundzadə); **BU SAAT** [Fərəc İbişliyo:] Siz bir toxtayın, *bu saat* hamısını başa salarıq (Anar); **ƏLAN** Başqadır bu gecə Gorayın halı: – O öz kefindədir, dəmlidir *əlan* (S.Vurğun); **ƏLHAL** Düşdün niyə bos bu halə *alhal*? (M.Ə.Sabir); **FİLHAL** Ayda, yarım ayda çəkilib bir yerə xəlvət; Çəkdim nə qədər hər nə ki, *filhal* ağarıbdır (Q.Zakir); **HƏNUZ** (*köhn.*) [Gülbadam:] Namusumu təmiz saxlamaq üçün mən *hənuz* burada Qurana and içdim.. (N.Nərimanov).

indiki *bax* müasir, hazırkı

İNİLƏMƏK (*uğrıdan, əziyyətdən həzin səs çıxarmaq*) [Safo] *inildəyir*, gözlərini yerin altından bacaya dikir.. Allaha şikayətlənirdi (S.Rəhimov); **GÜMÜLDƏMƏK** İndi *gümüldəyib* sızlayıb hərdən; Şikayət etməyir öz taleyindən (S.Vurğun); **İNLƏMƏK** *İnlədikcə* azalmır; Dərdlərimiz daha da; Ürəkdə köz-köz olur (B.Vahabzadə); **ZIQQILDAMAQ** [Məhərrəm:] *Ziqqıldamaqdan* iş aşmaz (N.Vəzirov); **ZOQQULDAMAQ** Bəxti bu zaman *zoqquldayıb* ağlamışdı (S.Rəhimov); **ZARIMAQ** (*bax*).

İNİLTİ (*inildən səs*) Qulaqlarımda Qanqanın *inildəri*, çığırtıları, yalvarışları eşidilirdi (S.Hüseyn); **AH-ZAR** [Bayram:] Əvvəldən bir az uf-tuf elər, sonra çarəsi kəsilər, tək qəzaya verər, ancaq *ah-zar* ilə dərdə giriftar qallam (M.F.Axundzadə); **ZARILTI** Eşikağası keçərkən zindandan Zamanın *zarıltısını* eşitdi (Çəmənzəminli).

inkişaf *bax* tərəqqi

1. İNQİLAB (*siyasi*); **ÇEVRİLİŞ, DEVRİLİŞ**

2. inqilab *bax* dəyişiklik

İNQİLABÇI (*siyasi: azadlıq uğrunda vuruşan*) [Şahin] Köhnə *inqilabçıdır* (B.Bayramov); **MÜCAHİD** [Firəngiz:] Belə de, eşitmişəm, eşitmişəm Qədim azadlığı *mücahidlərindəndir* (B.Bayramov).

inləmək *bax* inildəmək

insaf *bax* **1.** rəhm; **2.** vicdan; **3.** ədalət

insaflı *bax* **1.** rəhmli; **2.** vicdanlı; **3.** ədalətli

1. İNSAFSIZ [Dövlət bəy:] Siz *insafsız*, Aydın xoşbəxt olduğu qədər mən bədbəxtəm (C.Cabbarlı); **BİİNSAF** Ömrümün bağçası döndü xəzələ; *Biinsaf*, bivəfa yar dedi, getdi (M.Rahim); **DİLAZAR** Dil vermə*z* idim mən sənə ey yari-*dilazar*.. (S.Ə.Şirvani); **NAİNSAF** [Fəxrəddin bəy:] Bitərbiyət, qanmaz, bihəya, yalançı .. *nainsaf*, bimürvət (N.Vəzirov); **ZALIM** (*bax*).

2. insafsız *bax* vicdansız; ədalətsiz

İNSAFSIZLIQ, BİİNSAFLIQ, DİLAZARLIQ, NAİNSAFLIQ, RƏHMSİZLİK, ZALIMLIQ (*bax*)

İNSAN Daşı belə körpünün mehribanlıq, məhəbbət; Dirəkləri vəfadır, bir də *insana* hörmət (M.Rahim); **ADAM** Vaxtsız xoruz olub, çıxırsan dama; Səsin gülünc gəlir qanan *adama* (S.Vurğun); **BƏNDƏ** (*köhn.*) Bizim tək günahkar *bəndələrə* nə qulaq quşqunu! (Ə.Haqverdiyev); **BƏNİ-ADƏM** [Molla Həmid:] Bu üç gündə *bəni-adəm* ilə mülaqat və mükalimə etmək və bir tərəfə çıxmaq ona mümkün deyil (M.F.Axundzadə); **BƏNİ-İNSAN** Bir tərəf qurd edibdi bağrını qan. Bir tərəfdən də xud *bəni-insan* (S.Ə.Şirvani); **BƏŞƏR** [Şair:] Qadın deyil, göydən enmiş bir pəri; Bu ruh, bu zövqdə *bəşər* tapılmaz (A.Şaiq); **CAN** Köç edib yaylağa ellər, obalar; Bulaqlar başına min bir *can* gəlir (Aşıq Şəmşir); **KƏS** (*dan.*) [Əhməd:] Aslan bəy horgah bir *kəsə* bir qəpik versə, onu fors üçün verir (N.Vəzirov); **VÜCUD** (*dan., isteh.*) [Məşədi Sottar:] Bu da bir tühaf *vücuddur*.. (Ə.Haqverdiyev).

insandanqaçan *bax* adamayovuşmaz

insangiriz *bax* adamayovuşmaz

İNSANİ (*insana aid*) [Yolçuzadə:] Məsələyə daha dərindən, daha *insani* yanaşmaq lazımdır (Ə.Kərim); **BƏŞƏRİ** Bu dövlət, quruluş, torpaq sənindir; Ən uca *bəşəri* diləyə hörmət (A.Şaiq).

insaniyyət *bax* **1.** insanlıq; **2.** insanpərvərlik

1. İNSANLIQ Bəşər belə körpülər ildənilə bol salır; *İnsanlıq* bu körpüdən ağ günlərə yol salır (S.Vurğun); **ADAMİYYƏT** Fitnələr kim faş olur, bilmom nə halətdən törər; Əql bavər eyləməz kim, *adamiyyətdən* törər (M.Ə.Sabir); **BƏŞƏRİYYƏT** Adam var ki, təmizdir, müqəddəsdir niyyəti; Ev tikir, yollar çəkir, sevir *bəşəriyyəti* (M.Rahim); **İNSANİYYƏT** [Əli:] Din bir əmri-vaqe olaraq, *insaniyyətlə* bərabər doğmuş və əsrlərdən bəri dolanbac tarix yollarında onu təqib edir (Çəmənzəminli).

2. insanlıq *bax* insanpərvərlik

İNSANPƏRVƏR (*insanları sevən, onlara məhəbbət bəsləyən*) [Meri:] Əlbəttə, biz *insanpərvərik*, biz anlayırıq ki... (R.Rza); **HUMANİST** [Tağı Zöhrəyo:] Bağışlıyuz, bərədər, mən eqoist deyilom, *humanistəm* və ona görə də siz gərək mənimlə gedəsüz (M.İbrahimov); **İNSANİYYƏTPƏRVƏR** ..Forman oxumuş olduğu üçün [Aslan] onu özündən daha mərhəmətli, *insaniyyətpərvər* və safdilədi edirdi (C.Cabbarlı); **İNSANSEVƏN(R).**

İNSANPƏRVƏRLİK (*insanı sevmə*) *insanpərvərlik* duyğuları həmişə otirli bir çiçəyi andıran "Əsli-Kərəm" dastanında da öz ifadəsini tapmışdır (M.İbrahimov); **HUMANİZM** *Humanizm* idealları vətəndaşı da, sənətkarı da həyata və həqiqətə tərəf çəkir (M.İbrahimov); **İNSANİYYƏTPƏRVƏRLİK** "Daima *insaniyyətpərvərlikdə* və qan qardaşlığına himmət göstərmənizi arzu edirik.." (Ə.Əbülhəsən); **HUMANİSTLİK, İNSANİYYƏT, İNSANSEVƏN(R)LİK.**

insansevən(r) *bax* insanpərvər

insansevən(r)lik *bax* insanpərvərlik

insansevməz *bax* adamayovuşmaz

1. İNSPEKTOR (*təhsil şöbələrində nəzarətçi*) Bu gün ... rayondan təftiş üçün məktəbə *inspektor* gəlmişdi (A.Şaiq); **NAZİR** (*köhn.*) Birdən qapı açıldı, məktəbin *naziri* (*inspektoru*) qızarmış bir halda .. elə çıxırdı ki, yoldaşlarımızdan bəziləri qorxularından ağlamağa başladı (T.Ş.Simürğ).

2. inspektor *bax* müavin

instinkt *bax* hiss

İNSTİTUT (*ali təhsil müəssisəsi*) Cövdət iki gün idi ki, *institutа* getmirdi (H.Abbaszadə); **DANİŞGƏDƏ** (*arx.*) [Doktor:] Böyük tənəffüsdə hamı bayıra çıxmışdı. Mən də səsli-küylü tələbələrin arasında *danişgədənin* həyətinə endim (F.Sadıqov); **ELM OCAĞI** (*fr.v.*) [Mühiddinli:] Dağılasan belə *elm ocağı*, olasan səhrayi-kəbir (Ə.Kərim).

İNSTRUMENTOVKA (*mus.*), **ORKESTROVKA** (*bir musiqi əsərini orkestrdə çalmaq üçün uyğunlaşdırma*)

insult *bax* iflic

İNŞAAT Biz də elə yaxındakı *inşaatdan* başlayaq.. (B.Bayramov); **TİKİNTİ** O [krançi], cürbəcür *tikinti* materialları ilə dolu iri domir yeşikləri havaya qaldırır, lazım olan yerə qoyurdu (Y.Əzimzadə).

İNŞALLAH [Əhməd:] Mən elə bu gün tokid edərəm, ərizələr tamam olar, *inşallah* iş də düzələr, arxayın ol.. (N.Vəzirov); **ALLAH QOYSA** [Cabbar bəy:] Həqiqət, elə belə də eləyəcəyəm, *Allah qoysa*.. (N.Vəzirov); **SAĞLIQ OLSUN.**

intensiv *bax* gərgin

internasional *bax* beynəlmiləl

intəha *bax* son

intəhasız *bax* sonsuz, nəhayətsiz

intəhasızlıq *bax* sonsuzluq

intiba *bax* təəssürat

İNTİBAH (*elm və mədəniyyətin oyanışı, yenidən yüksəlişi*) Hər şeydən əhəmiyyətlisi odur ki, nədən yazırsa yazsın, Şekspir *intibah* dövrünün oğlu olduğunu unutmur (M.Arif); **RENESSANS** Avropada intibah (*renessans*) dövrünün ən parlaq nümayəndələrindən olan Şekspir humanizmi, xalqiliyi, həyatsevərliyi ilə bütün xalqların, bütün qabaqcıl bəşəriyyətin qəlbinə hakim olmuşdur (C.Cabbarlı); **OYANIŞ, OYANMA.**

İNTİBAHNAMƏ (*təhlili mahiyyətdə çap edilmiş vərəqə*) [Miss Hanna:] Bugünkü *intibahnamələrdən* xəbərin vardırmı? (M.S.Ordubadi); **ŞƏBNAMƏ** (*köhn.*) Bir

çox müzakirədən sonra sabahdan *şəbnamələrin* nəşrinə şürа edilməsinə qərar verildi (M.S.Ordubadi); **VƏRƏQƏ** [Nina:] Nə cür olursa olsun *vərəqələr* sabah gecə şəhərə yayılmalıdır (M.S.Ordubadi).

İNTİQAM (*pislik edən şəxsdən heyfini, acığını çıxma*) Bu *intiqam* təkcə özünün deyil, bu ana qədər bədbəxt olmuş və gələcəkdə bədbəxt olacaq qızların *intiqamı* idi (M.İbrahimov); **BAC** (*məc.*) [Torlan xanım:] İşə bir bax. Gör kim kimdən *bac* alır! (Mir Cəlal); **QİSAS** De ki, yağılardan öc almayınca: *Qisas* qılıncımız qınına girməz (Ə.Cəmil); **ÖC** Dedi: – Qoy ildırım gücümü görsün; Südəmər uşağım, *öcümü* görsün (A.Şaiq); **HEYİF** (*məh.*).

İNTİQAM ALMAQ O, adamların arasından çıxaraq əmisi oğlunun *intiqamını almaq* istəyirsə də mümkün olmur (M.Hüseyn); **BAC ALMAQ** [Torlan xanım:] İşə bir bax. Gör kim kimdən *bac alır!* (Mir Cəlal); **HEYİF ALMAQ** [Yasavul:] Çopur Mirzə öz yolu ilə, ondan *heyfimi alaram* (S.Rəhimov); **QİSAS ALMAQ** [Yasavul:] Mən düşmənən bu cür *qisas alacağam*.. (S.Rəhimov); **ÖC ALMAQ** De ki: yağılardan *öc almayınca*; Qisas qılıncımız qınına girməz! (Ə.Cəmil); **HESABLAŞMAQ.**

intina *bax* təəssürat

1. İNTİZAM (*nizam və qayda*) Məktəb öz *intizamı*, dərs keyfiyyəti, ictimai-faydalı işləri ilə şöhrət qazanmağa başladı (S.Rəhimov); **ZABİTƏ** (*köhn.*) [Divanbəyli:] Barı bu işin şükranəsinə nizamə tabe olun; əgərçi heç nizamı və *zabitəni* anlamırsınız? (M.F.Axundzadə); **SƏLİQƏ** (*bax*).

2. intizam *bax* nizam **1**

İNTİZAMLI, SƏLİQƏLİ (*bax*), **ZABİTƏLİ**

1. İNTİZAMSIZ [Qoşqar:] Bilirsiniz ki, mən *intizamsız* adam deyiləm.. (İ.Hüseynov); **DƏLİ-DOLU** (*dan.*) Bu çərkəz oğlunun hünərdi yolu; Üçüncü gah qəmli, gah *dəli-dolu* (Ə.Kərim).

2. intizamsız *bax* nizamsız **2**

intizamsızlıq nizamsızlıq **1**

intonasiya *bax* tələffüz

intriqa *bax* fitnə **1**

intriqaçı *bax* fitnəkar

intriqan *bax* fitnəkar

İP Ax, neçə cüt corab Tiflis *ipindən* qəzet çap edənlərə bu zənanlar verərlər.. (N.Vəzirov); **QATMA** (*kəndir və yaxud yundan eşilmiş ip*) [Qarı:] Bu olsun nişan paltarı, – dedi, – indiyə kimi bir *qatma* da vermə yiblər ki.. (S.Rəhimov); **SAP** Çubuğun alt ucuna uzun *sap* bağlayıb pusquda durardıq (S.S.Axundov).

ipəkqurdu *bax* baramaqurdu

ipiqırıq *bax* etibarsız

İpləmə *bax* dəli **1**

irad *bax* nöqsan **1**

1. İRADƏ [Ayxanım:] Heyifsən, görkəmin, bacarığın, qabiliyyətin var, amma *iradən*, ağlın.. (M.İbrahimov); **QÜDRƏT** [Solmaz:] Ancaq unutma ki, mən ərlərdə qüvvət, *qüdrət* və cəsarəti sevirəm (C.Cabbarlı); **DÖZÜMLÜK, MÖHKƏMLİK.**

2. İRADƏ, DÖZÜM, MƏTANƏT, MƏTİN (*məc.*)

İRADƏLİ, DÖZÜMLÜ, MƏTANƏTLİ

iraq *bax* uzaq

iraqlaşdırmaq *bax* uzaqlaşdırmaq **1**

iraqlaşmaq *bax* uzaqlaşmaq

irəli *bax* əvvəl **1**

1. İRƏLİLƏMƏK, İRƏLİ GETMƏK, QABAĞA GETMƏK, YERİMƏK

2. İRƏLİLƏMƏK, İNKİŞAF ETMƏK, MÜVƏFFƏQİYYƏT QAZANMAQ, TƏRƏQQİ ETMƏK

3. irəliləmək *bax* getmək **1**

İRƏLİLƏYİŞ [Səlimə:] Mən sənin bu *irəliləyişində* əsil və böyük həyatın özəmətini, gözəlliyini duyuram (İ.Əfəndiyev); **İRƏLİLƏMƏ, DÖNÜŞ, TƏRƏQQİ** (*bax*).

iri *bax* böyük **1**

iriləşmək *bax* yekəlmək, böyümək **2**

irilmək *bax* yekəlmək

İRİN (*tib.*), **ÇİRK** (*yarada*)

İRİŞMƏK ..Moşədi bu gün adamların üzünə baxıb *irişir*, uzaqdan uca səslə salam verir.. (N.Nərimanov); **DİŞLƏRİNİ AĞARTMAQ** [Vahid:] Xeyr, gəlməyif, ay xanım, *dişlərini* niyə *ağardırsan*, yum ağzını! (M.İbrahimov); **GÜLMƏK** (*bax*).

irmaq *bax* çay

irs *bax* miras

irtibat *bax* əlaqə **1**

irticaçı *bax* mürtəce

İSBAT Tez verəsən bu sözlərin *isbatın;* Nədəndi binası abi-həyatın? (Aşıq Ələsgər); **SÜBUT** (*bax*).

İSBATLI, SÜBUTLU (*bax*)

isəvi *bax* xristian

isəvilik *bax* xristianlıq

isfəndan *bax* ağcaqayın

isim *bax* ad **1**

isinmək *bax* qızmaq **1**

isitmək *bax* qızdırmaq

İSLAHAT Qurultay prinsip etibarilə guya bizim *islahatımızla* razılaşdı, lakin formal cəhətdən .. islahı rədd etdi (S.S.Axundov); **DƏYİŞİKLİK** (*bax*), **REFORMA.**

İSLAHATÇI, REFORMATOR

islaq *bax* nəm

1. İSLAM (*islam dini*); **İSLAMİYYƏT, MÜSƏLMANLIQ**

2. islam *bax* müsəlman

islamiyyət *bax* islam **1**

islamlıq *bax* müsəlmanlıq **1**

1. İSLATMAQ, NƏMLƏTMƏK, YAŞ ETMƏK, YAŞLAMAQ

2. islatmaq *bax* döymək **1**

ismarış *bax* tapşırıq **1**

1. İSMARIŞ Padşah zənənino *ismarış* göndərir ki, hələ bir neçə vaxt qalsın orda.. (Nağı); **SİFARİŞ** Hər iki qonağın başı üstündə iki nəfər qız durub *sifarişləri* qəbul edirdi (M.S.Ordubadi); **MESAJ** (*mobil telefonla göndərilən ismarış*).

2. ismarış *bax* tapşırıq **1**

1. İSMARLAMAQ, MESAJ GÖNDƏRMƏK, SİFARİŞ GÖNDƏRMƏK

2. ismarlamaq *bax* tapşırmaq **1**

ismət *bax* namus, həya

ismətli *bax* namuslu, həyalı

ismətsiz *bax* namussuz, həyasız

ismi-şəb *bax* parol

israr *bax* təkid, höcət

İSTEDAD (*fitri zəka, fitri qabiliyyət*) [Vahid:] Sanki anam bu *istedadı* haradasa hifz eləyib ancaq və ancaq mənim üçün saxlamışdı (B.Bayramov); **QABİLİYYƏT** İnsanda *qabiliyyət* də gərək olsun, hamı oxuyan alim olmaz (C.Məmmədquluzadə); **TALANT** Qorkinin özünə yazdığı məktubunda onun əsas xassələrini belə xarakterizə edir: "Həqiqi *talantınız* var, şübhəsiz ki, böyük *talantdır*..." (Çəmənzəminli); **BACARIQ, DƏRRAKƏ.**

İSTEDADLI Bu *istedadlı* bəstəkar eyni zamanda bizim diqqətimizi bir yazıçı, bir dramaturq kimi cəlb edir (M.Arif); **İQTİDARLI** Lakin Süleyman Sani yalnız xalq müəllimi deyil, eyni zamanda dövrümüzün ən *iqtidarlı* və görkəmli yazıçılarından biri idi (M.Arif); **QABİLİYYƏTLİ** [Reyhan:] Bədbəxtlikdir ki, *qabiliyyətli* adamlar lazım olan yerdə biqabiliyyətlər otura, belə olsa cəmiyyət çürüyər ki... (M.İbrahimov); **MÜSTƏİD** (*köhn.*) [Oqtay:] O yaradacaq. O xariqələr yaratmağa *müstəiddir* (C.Cabbarlı); **TALANTLI** [Kəbirlinski:] Oğlum, – dedi, – sən cavansan, *talantlısan*, ağıllı, savadlısan (Anar); **DƏRRAKƏLİ, QABİL, ZƏBƏRDƏST, ZƏKALI** (*bax*).

İSTEDADSIZ (*istedadı olmayan*) [Meyster:] Tələbə *istedadsız* olanda, müəllim nə edə bilər (M.Hüseyn); **BİQABİLİYYƏT** [Reyhan:] Bədbəxtlikdir ki, qabiliyyətli adamlar lazım olan yerdə *biqabiliyyətlər* otura.. (M.İbrahimov); **QABİLİYYƏTSİZ** [Məsmo:] [Kor kişi] .. *qabiliyyətsiz* idi (S.Hüseyn); **BACARIQSIZ, TALANTSIZ.**

İSTEDADSIZLIQ [Modino:] Bu vasitə ilə do bəzilori *istedadsızlığını* gizlədir.. (M.İbrahimov); **BACARIQSIZLIQ** [Kor kişinin] ..yerişi gözsüzlüyünü, üzünün xətləri aciz və *bacarıqsızlığını* andırırdı (S.Hüseyn);

QABİLİYYƏTSİZLİK ..Çünki gözsüzlük onların zəhmətə *qabiliyyətsizliyini*, nəzir və niyazla, ianə və sədəqəyə daha artıq müştəhəq bulunduqlarını və bu sayədə modaxilləri artacağını düşünürdülər (S.Hüseyn); **TALANTSIZ.**

1. İSTEHSALAT, MƏHSULAT

2. istehsalat *bax* sənaye

istehza *bax* masqara

istək *bax* **1.** tələbat; **2.** arzu

istəkli *bax* **1.** sevgili **1**; **2.** sevimli **1**; **3.** məhriban **1**

istəksiz *bax* həvəssiz

istəmədən *bax* həvəssiz, könülsüz

1. İSTƏMƏK *İstəyir* cənnəti zahid bu qədər hiylə ilə.. (S.Ə.Şirvani); **DİLƏMƏK** [Qazan Beyrəyo:] Bu hünəri ki sən göstərdin, dilə məndən nə *dilərsən* (Anar).

2. istəmək *bax* sevmək **1**

3. istəmək *bax* arzulamaq

İSTƏR-İSTƏMƏZ Tello *istər-istəməz* Gülsənəmin qolundan yapışıb yerinə saldı (S.Rəhimov); **CANDƏRDİ** Allahqulu *candərdi* gülümsünərək dedi.. (Çəmənzəminli); **XAHİ-NƏXAHİ** (*kl.əd.*) Qoca it *xahi-naxahi* çıxmışdı qapıya.. (C.Məmmədquluzadə); **LABÜDDƏN** [Qulam xan:] Məni o qədər dəng elədin ki, axırda *labüddən* özümü bir bəlaya giriftar elədim (M.S.Ordubadi); **XAH-NAXAH, KÖNÜLSÜZ** (*bax*).

1. İSTİ, QAYNAR (*qaynadılmış su, süd və s.*) O [Gülniso], əlindəki qazanı *isti* su ilə yaxalayıb həyətə çıxdı: – Bismillah, – deyib *qaynar* suyu həyətə tulladı (Ə.Cəfərova).

2. İSTİ (*müxtəlif mənalarda*) Yayın *isti* günləri idi (S.S.Axundov); **BÜRKÜ** (*yalnız hava haqqında*) [Bostonkar:] Fikir verdinizmi, Mərdan kişi, bu gecə yamanca *bürkü* idi (X.Hasilova); **BÜRKÜLÜ** *Bürkülü* iyun günlərinin birini Murad Kür qırağındakı söyüdlükdə, özizi isti təcrübə tarlasında qarşıladı (Ə.Vəliyev); **HƏRARƏTLİ** Moldaviya torpağında günəş yay aylarında olduğu kimi hələ də *hərarətli* idi (X.Hasilova); **QAYNAR** Yay günəşi o gün *qaynar* bir ocağı andırırdı (M.Dilbazi); **QIZĞIN** Onun günəş qədər *qızğın* qoynunda, sevgi qədər oziz qucağında mənəvi hərarət və məhəbbət ola bilməzdi (A.Şaiq); **QIZMAR** *Qızmar* günəşin altında bütün günü pambığın alağını etmək Kamalı yormuşdu (S.Vəliyev); **SICAQ** Bəzən yazın *sıcaq* nəsimi kimi qəlbə bir təpərniş gətirər... (Ə.Cəfərzadə); **BOĞANAQ** İyul ayına məxsus *boğanaq* bir gün idi (A.Şaiq).

3. isti *bax* hərarət **1**

1. İSTİBDAD (*zorakılığa əsaslanan, zülmkarlığa əsaslanan idarə üsulu*) O zamanlar çocuq idim, təbiətin qoynunda; Tam asudə yaşar idim, tanımazdım *istibdad* (A.İldırım); **DESPOTİZM** Mirzə Rzanın maarifçilik təşəbbüslərinin şah *despotizmi* boğub məhv edir (M.Arif); **DESPOTLUQ.**

2. istibdad *bax* zülm

1. İSTİQBAL At və kəcavə ilə *istiqbala* gedənlərdən başqa piyada gedənlər də var idi (M.S.Ordubadi); **GÖRÜŞ** Qətibə Atabəyin *görüşünə* həddindən artıq bir təxirlə gəldi (M.S.Ordubadi); **QARŞILAMA.**

2. istiqbal *bax* gələcək **1**

istiqlal *bax* müstəqillik

istiqlaliyyət *bax* müstəqillik

istil *bax* girvənkə

istila *bax* işğal

istilaçı *bax* işğalçı

istilah *bax* termin

istilik *bax* hərarət **1, 2**

İSTİOT (*bostan bitkisi*) [Bonövşə:] Toyuq soyutmasıdır. Üstünə də qara *istiot* vurmuşam (Ə.Qasımov); **BİBƏR** Bakı yollarında okmişəm *bibər;* Sövdəgəri saldım diyarbədiyar ("Azərbaycan folkloru antologiyası").

İSTİRAHƏT (*müxtəlif mənalarda*) Ancaq hərgünkü kimi bu gün də səhər tezdən ta axşama qədər bir dəqiqə belə *istirahət* bilmədən olloşan bu adamları kəndin uşaqları tanıyırdılar (M.Hüseyn); **DİNCLİK** [Hokim:] Onun on yaxşı müalicəsi sakitlik və *dinclikdir* (A.Şaiq); **MƏZUNİYYƏT** Muxtar bir aylıq *məzuniyyətini* böyük şəhərdə keçirmək niyyətində idi (Çəmənzəminli); **RAHATLIQ**

Yaym istisində qışın qarında; *Rahatlıq* bilmədən yürür bu karvan (M.Müşfiq); **DİNCƏLİŞ.**

İSTİSMARÇI, PARAZİT (*məc.*)

1. İŞ Millət necə tarac olur olsun nə *işim* var?! Düşmənlərə möhtac olur olsun, nə *işim* var?! (M.Ə.Sabir); **ƏMƏL** Aparır yer üzünü işıqlı bir sabaha; ..arzuları, ..*əməlləri* (Ə.Cəmil); **FEL** (*köhn.*) Dadman şəkəri ki əsla neydir; Mey içmən əzən ki, *feli* qeydir (Xətayi); **KAR** (*köhn.*) Qoy mən tox olum, özgələr ilə nədi *karım;* Dünyavi cahan ac olur olsun, nə işim var! (M.Ə.Sabir); **KİRDAR** Ruzügəro qıl tamaşa, karə bax, *kirdarə* bax (M.P.Vaqif);

2. İŞ [Almaz:] Onları da biz *işə* çəkəcəyik (C.Cabbarlı); **XİDMƏT** *Xidmətində* əl ol üstədir, sağıcı, sanitar.. (R.Rza); **QULLUQ** [Mir Qasım:] İki il evə getmək mümkün olmadı. Yayda *qulluq* tapıb, Rusiyada qaldım (Anar); **VƏZİFƏ** (*rəsmi iş*) [Eynəkli kişi:] Mən indi *vəzifə* başındayam, qulluqdayam (Anar); **YER** (*dan.*) [Osmanlı:] Mənim *yerimdə* gözünüz var? (Ə.Kərim).

3. iş *bax* zəhmət **3**

işan *bax* ruhani

işarmaq *bax* **1.** işıldamaq **1**; **2.** parlamaq

İŞBAZ, BİZNESMEN, KOMMERSANT

İŞBACARAN, İŞGÜZAR, KARLI, TƏCRÜBƏLİ (*iş bilən*)

işçil *bax* əməksevən

1. İŞÇİ (*hər hansı bir müəssisədə, idarədə işləyən adam*) Qoçularla əlbir olan polis *işçiləri* özlərini görməməzliyə vurdular (A.Şaiq); **ƏMƏLƏ** (*köhn.*) ...Neçə nəfər polis *əmələsi* və qazaqlar daxil oldular (Ə.Haqverdiyev).

2. işçi *bax* fəhlə

3. işçi *bax* qulluqçu **1**

işgəncə *bax* əzab

işgəncəli *bax* əzablı

işgüzar *bax* **1.** işbacaran; **2.** əməksevən

İŞĞAL Azərbaycan Atabəylərinə məxsus torpaqlar tamamilə xarəzmlər, İraq və İranlıların *işğalı* altında idi (M.S.Ordubadi); **FƏTH** Özünü elə öyür ki, guya bütün *fəthləri* eləyən bu cənabi əfəndi idi (S.Rəhimov); **İSTİLA** [Aydın:] Mən elə bir dünya istəyirəm ki, orada millətlər azad, fərdlər azad, zəhmət azad, vicdan azad, hərəkət azad, bütün varlıq azad, *istila* zənciri yox, altun yox, şəşəo, dəbdəbə yox, fərman yox, hər kəs öz zəhmətinin, öz arzusunun quludur, bax belə! (C.Cabbarlı); **QƏSB** [Höccət əfəndi:] Onlar hamını dinsizliyə, *qəsbə,* zorakılığa çağırırlar! (S.Rəhimov); **ZƏBT.**

İŞĞALÇI (*bir yeri ələ keçirən, tutan*) [Qarəş] qədər və *işğalçı* Şah Qacarı lənətlə yad edirdi (Ə.Vəliyev); **CAHANGİR** (*böyük ölkələr istila edən*) [Elxan:] Mən üzümə bir din qalxanı çəkib *cahangirlərin* calladlığını qəbul edə bilmərəm (C.Cabbarlı); **FATEH** [İskəndər:] Ad-sanım dünyada bilinsin gərək! *Fatehlər* tarixdən silinsin gərək! (A.Şaiq); **QƏSBKAR** Yox qoymaram bir də sənî; *Qəsbkarlar* çoxsun dara! (M.Rahim); **İMPERİALİST, İSTİLAÇI.**

İŞĞALÇILIQ, CAHANGİRLİK, İMPERİALİZM, QASİB (*köhn.*), **QƏSBKARLIQ**

İŞIQ Baxışın qəlbimə *işıq,* nur çilər; Onunla dünyanı ağıl dərk edər (M.Ş.Vazeh); **NUR** Yavaş-yavaş o dərədən aydın bir *nur* parladı; Zülmət saçan çöllərə günəşə ismarladı (A.Şaiq); **ŞÖVQ** Ay kişi *şövq* salıb ayna qabağın (Aşıq Ələsgər); **ZİYA** Hətta, on illərlə işıq üzü görməyənlər, anadan kor doğulanlar Leylanın adını eşidib onun işıqdiyi xəstəxanaya gəlir.. gözlərinə *ziya* istəyirdilər (B.Bayramov); **PƏRTÖV** (*köhn.*).

İŞIQLANDIRMAQ Gəl bu yol, rizi; *İşıqlandıran;* Parlaq ulduz əl (M.Rahim); **AYDINLATMAQ** Qara simsarı süni təbəssüm işığı ilə *aydınlatmağa* çalışdı (M.İbrahimov); **İŞİQ SAÇMAQ/SALMAQ** Elə bil bu gümüşü duyğudan bir parçanı oridib dərənin dibinə axıdırdılar ki, orada gündüzlər gün işığında, gecələr ay nurunda parıldasın, dərinliklərə *işıq saçmış* olsun (B.Bayramov); **MÜNƏVVƏR ETMƏK/ELƏMƏK** Yoqin bil, ölərəm, şəbistanını; *Münəvvər etməsə*

camalın sənin (Aşıq Həsən); **NURA QƏRQ ETMƏK / ELƏMƏK** [Azor:] Bax, beşcə dəqiqə keçməyəcək evinizi *nura qərq eləyəcəyəm* (M.İbrahimov); **NURLANDIRMAQ** Gecələr də işıqlar bəzəyir otağımı; Ağaclarda lampalar *nurlandırır* bağımı (M.Rahim); **RÖVŞƏN ETMƏK** Əhvalı-şamı *rövşən edər* sübh arizə (Q.Zakir); **TABAN ETMƏK** Həqqi xəlqə bildirib dəfi-zəlalət etməli; Gün kimi *taban edib* pamalı-zülmət etməli (M.Ə.Sabir).

İŞIQÇI (*işıq düzəldən*) [Sənəm:] Eşitmişəm ki, Azərdən bənna olar, ev tikən olar, daha *işıqçı* yox (M.İbrahimov); **İŞIQQAYIRAN** [Sənəm:] Zəng elə, tez *işıqqayıranı* çağır (M.İbrahimov); **MONTYOR** (*dan.*) İndico işıqları xarab edəcəyəm, *montyor* çağırmaq bəhanəsi ilə gedib gədələri gətirərəm (M.İbrahimov).

1. İŞIQLANMAQ Mirzə Vahid sarğıya baxınca qırışlı çöhrəsi *işıqlandı* (H.Abbaszadə); **MÜNƏVVƏR OLMAQ** *Münəvvər olsun* aləmlər; Görünsün mahtab, oxqay! (Aşıq Saleh); **NURLANMAQ** ..Şəfəqilə *nurlanır* göyləri yurdumuzun (Mir Cəlal); **ZİYALANMAQ** Günəş çıxdı, *ziyalandı* yer üzü (A.Səhhot).

2. İŞIQLANMAQ İndi də kî saat dördədür, hələ də *işıqlanmayıb* (Ə.Haqverdiyev); **DAN YERİ SÖKÜLMƏK / AĞARMAQ / QIZARMAQ** Gecə öz pərdəsini yığıb gedir, *dan yeri sökülür* (M.İbrahimov); **SABAHIN GÖZÜ AÇILMAQ** *Açıldı* bir zaman *sabahın gözü;* Göründü dağlarda günəşin özü (S.Vurğun); **SƏHƏR AÇILMAQ** [Rübabə:] Hələ *sahər açılmağa* çox qalıb (H.Abbaszadə).

işıqlanmamış *bax* alaqaranlıq

İŞIQLI (*müxtəlif mənalarda*) Aparır yer üzünü *işıqlı* bir sabaha.. (Ə.Cəmil); **DİRƏXŞAN** (*kl.əd.*) Niyə xurşid atəşfəşandır? Niyə qürsi-qəmər *diraxşandır* (A.Səhhot); **MÜNƏVVƏR** (*arx.*) Gördü ki, çəmən yenə *münəvvər;* Zülfündən onun cahan müəttər (Xətayi); **NURLU** Doğrudan da bir an içində Sabahın bu *nurlu* çağında hava qapqaranlıq oldu (M.Rzaquluzadə); **PARLAQ** Ayın qaranlıq günlərində ulduzlar daha *parlaq* və oynaq görünür (Y.Şirvan); **RÖVŞƏN** (*kl.əd.*) Səninlə *rövşən* idi qəlbim, ey gözüm nuri! (Natəvan); **TABAN** (*arx.*) Xoş bula qaranqu gecələrdə; Gözünü tülui-mahi-*taban* (Xətayi); **ZİYALI** Mənim bağım, baharım; Fikri *ziyalı* oğlum (M.Ə.Sabir); **AYDIN.**

1. İŞIQSIZ [Bahadır:] Ancaq bu ulduz uzaq, soyuq və *işıqsız* olursa, təsəllidən çox qəlb ağrısı gətirir (R.Rza); **BİNUR** Nə rəng vardı, nə qan üzlərində, dəmbəstlə; Baxırdı xəlqə o *binur* gözlər həsrətlə (M.Ə.Möcüz); **NURSUZ.**

2. işıqsız *bax* qaranlıq

işıqucu *bax* işıqyeri

İŞIQYERİ (*ümid verən*) İkinci səbəb o idi ki, Mehdiqulunun umacağı vardı, *işıqyeri* görünürdü (Mir Cəlal); **İŞIQUCU** Qoca usta yalnız Tahirin deyil, *işıqucu* gördüyü hər bir şagirdinin üstündə mehriban bir ata kimi əsməyə çoxdan adət eləmişdi (M.Hüseyn).

1. İŞILDAMAQ, İŞARMAQ, İŞIQ VERMƏK

2. işıldamaq *bax* parlamaq

işlək *bax* əməksevən

1. İŞLƏMƏK [Rüstəm bəy:] Xeyr, Mehdi bəy, haqqı itirən adam deyiləm. Hamınız *işləmisiniz* (S.S.Axundov); **ÇALIŞMAQ** Son günlər hərdən vaxt tapdıqca tikinti yerinə gedir, görülən işlərə, yorulmaq bilmədən *çalışan* adamlara hey təmaşa eləyirdi (B.Bayramov); **İŞ GÖRMƏK** Altı yaşlı Ədalət də *iş görür*, kömək edirdi (Mir Cəlal); **ZƏHMƏT ÇƏKMƏK** *Zəhmət çəkməyən* rahətliyin qədrini bilməz (Ata.sözü).

2. İŞLƏMƏK, XİDMƏT GÖSTƏRMƏK

işrət *bax* kef 1

işsevən *bax* əməksevən

1. İŞSİZ (*heç bir işlə məşğul olmayan*) *İşsiz* gözə görünən bir Molla Cəfərqulunun oğlu idi (N.Nərimanov); **BİKAR** (*dan.*) [Əşrəf bəy:] Mənim işim belə düşübdür ki,

bir dəqiqə *bikar* otura bilmirəm (Ə.Məmmədxanlı); **BOŞ-BİKAR** [Məsmə:] Sənin nəyinə yaraşır gedib *boş-bikar* oturub çoroko höccələyəsən.. (Mir Cəlal).

2. işsiz *bax* veyil

iştibah *bax* şübhə

işvə *bax* naz

işvəkar *bax* nazlı

işvəli *bax* nazlı

İT Safə odun şələsini kahanın ağzında yerə atdı, küllükdə yatmış boz *it* yerindən qaçıb onun əl-ayağına sarmaşdı (S.Rəhimov); **DANQI** (*məh.*) [Safo:] Ay *danqı*, o yana!.. (S.Rəhimov); **KÖPƏK** Sonsuz Qayıb bu *köpəyi* övlad kimi sevirdi (S.S.Axundov); **QUDUZDƏYMİŞ** (*dan.*) [Şahqulu] dedi ki, gərək qara *köpəyin* ağzını yalayasan, o *quduzdəymiş* də yanına gedəndə mır-mır mırıldayır (N.Vəzirov); **QUYRUQBULAYAN** [Tarverdi:] Məhərrəmin ən beşindən sonra bu kənddə bir *quyruqbulayan* tapmazsan (Qantəmir).

İTBURNU (*qızılgül fəsiləsindən olan qırmızı meyvəli kol bitkisi*) Covanni neylon gödəkcəsini soyundu, yolun qırağındakı *itburnu* kolunun üstünə atıb, sürücünün yanında çömbəldi (H.Abbaszadə); **HƏMƏRSİN** Vəliş öz kəndlərini göz önünə gətirdi. *Həmərsin,* qızılgül kolları... (Ə.Vəliyev).

1. İTƏLƏMƏK [Ağca] ikiəlli Gəldiyevi *itələdi..* (Mir Cəlal); **TƏKANLAMAQ** ..Bu onu, o bunu *təkanlayır* (C.Məmmədquluzadə).

2. itələmək *bax* soxmaq

1. İTİ (*itiləmiş*) [Nizami:] Qılınc *iti* olmalıdır, lakin ehsan verdiyin dirhəmlərin şəfəqi qılınçların şəfəqindən də parlaq olmalıdır (M.S.Ordubadi); **BÜRRAN** (*kl.əd.*) Baxdıqca revolverinə əndamım olur süst; Bağrım yarılır xəncəri-*bürranını* görcək (M.Ə.Sabir); **KƏSƏRLİ** Ortadan *kəsərli*, qəbzəsi qanlı; İstərəm indidən çalhaçal ola! ("Koroğlu"); **KƏSKİN** Fikrim iti *kəskin* xəncər; Yer-göy məndən zağ-zağ əsər (M.Seyidzadə).

2. İTİ (*ucu şiş*) ..Yazı cihazının üstündə *iti* qələmlər görünürdü (M.Hüseyn); **SİVRİ** Buludlar qoynunda çıxan şimşəyin; *Sivri* qılınc kimi sıyrılır qından (S.Vurğun).

3. iti *bax* sürətlə

4. iti *bax* cəld, yeyin, tez 1; ölüstü

iti-iti *bax* tez-tez

itik *bax* itki 1

itilmək *bax* 1. getmək 1; 2 sürükmək

I ittifaq *bax* 1. birlik 1; 2. təşkilat 2

II ittifaq *bax* hadisə 1

I ittifaqən *bax* birdən, təsadüfən

II ittifaqən *bax* yəkdilliklə

ittihad *bax* birlik 1

İTTİHAM, GÜNAH (*bax*); **SUÇ**

İTTİHAMNAMƏ (*hüq.*); **TƏQSİRNAMƏ** (*ittiham vərəqəsi*)

I İY, MİL

II iy *bax* qoxu

İYLƏMƏK (*nəfəs çəkərək bir şeyin iyini bilmək*) *İyləyib-iyləyib* zülfi-ənbərin; Üzdən sonra buxağından öpəydim (M.P.Vaqif); **İMSİLƏMƏK** (*dial.*) Küləkdə ac it kimi vurnuxur; o küçədən bu küçəyə; Qapıları, divarları *imsiləyir* (R.Rza); **QOXULAMAQ** [Çingiz:] Buna "boydərən" deyirlər, onu kim *qoxulasa* boyu uzanar (B.Bayramov).

İYLƏNMƏK [Böyükxanım:] ..Sən o hovuzu görürsən, iki ay, üç ay təmizlənməyəndə, təzə su buraxmayanda *iylənir* (M.İbrahimov); **QOXUMAQ** Havalar istiləşdikcə fabrikin havası xarablaşır, çirkab suları küçələrə çıxır, *qoxuyur* (M.Rzaquluzadə); **ÜFUNƏTLƏNMƏK.**

iyli *bax* qoxulu

1. İYNƏ, MİLCİK

2. İYNƏ (*tib.*), **ŞPRİS**

1. İYNƏLƏMƏK, İYNƏ VURMAQ

2. iynələmək *bax* acılamaq

iyrənc *bax* eybəcər

İYRƏNMƏK *İyrənmişəm* ağzının suyundan; Qətran qoxusu gəlir buyundan (M.Ə.Sabir); **ÇİYRƏNMƏK** Çox vaxt adam yağlı plovdan *çiyrənər..* (S.Hüseyn); **ÇİMÇİŞMƏK, ÜRƏYİ GÖTÜRMƏMƏK** Həkim

yazdığı dərmanı anama çətinliklə içirirdim. *Çimçişirdi ..ürəyi götürmürdü* (Mir Cəlal); **DİKSİNMƏK.**

1. İZ (*müxtəlif mənalarda*) ..torpağın üzərində təzəcə eçyan *izləri* aydın görünürdü (M.Rzaquluzadə); **LƏPİR** *Ləpirlər* salaraq uzağa getdin: Bilib görmədiyin torpağa getdin (M.Rahim); **RƏD** (*dan.*) Çayın üstündə köhnə, dar bir körpü vardı, üstündə isə malqara *rəddindən* başqa heç bir tökər-filan izi görünmürdü (İ.Ofəndiyev).

2. iz *bax* nişanə 1

İZAH [Arif:] Artıq yetişir, anladım, *izahə nə* hacət (H.Cavid); **TƏFSİR** Bu avamlıqla belə hər sözü *təfsir* edərik (M.Ə.Sabir); **BƏYAN** Bir aləmdir o, təsvirə, *bəyanə* sığmaz (R.Rza); **KOMMENTARİYA, ŞƏRH.**

İZAH ETMƏK, BƏYAN ETMƏK, TƏFSİR ETMƏK, ŞƏRH ETMƏK.

İZAHAT, İFADƏ, MƏLUMAT

1. İZDİHAM *İzdiham* irəli axdıqca atlı kazakların hücumu daha da şiddətlənirdi (M.Hüseyn); **AXIN** Mən indi özümü bu *axından* ayrı təsəvvür etmirəm (M.Hüseyn); **QƏLƏBƏLİK** Böyük *qələbəlik* içində rüxsarə onların hər ikisini gözdən itirir (S.Rəhimov); **TÜNLÜK** ..istirahət günləri çox *tünlük* olur (M.Rzaquluzadə); **GÜR, BASIRIQ** (*bax*)

2. İzdiham *bax* camaat

İZDİHAMLI Yunis həyət qapısından şəhərin geniş, *izdihamlı* küçələrinə çıxdı (Mir Cəlal); **BASIRIQ** Mədənin qapısı çox *basırıq* idi (M.S.Ordubadi); **ÇOXADAMLI, İZDİHAM** (*bax*)

izdivac *bax* nikah

İZHAR, ƏRZ (*kl.ad.*) (*aşkar etmə*)

İZİN [Hacı:] Mən sənin ağandan *iznini* alaram (Ə.Haqverdiyev); **İCAZƏ** [Fəttah:] *İcazəni* mən alaram (B.Bəyramov); **MÜSAİDƏ** Qapıçı telefonla müdirdən *müsaidə* istəyib səyyarləri içəri buraxdı (Çəmənzəminli); **RÜSXƏT** (*kl.ad., köhn.*) İbrahim xanın qoşunu pusquda idi, tüfəng atmağa *rüsxət* verilməmişdi (Çəmənzəminli); **VİZA** (*xarici ölkəyə getmək, orada yaşamaq üçün pasporta qeyd edilən rəsmi icazə*) Miss Hannanın pasportuna Culfa jandarm polkovniki Straub *viza* etmişdi (M.S.Ordubadi).

İZİN ALMAQ, İCAZƏ ALMAQ, İZİN İSTƏMƏK, RÜSXƏT ALMAQ

İZİN VERMƏK, İCAZƏ VERMƏK, RÜSXƏT VERMƏK

İZİNLİ (*icazəsi olan*). **İCAZƏLİ, MÜRƏXXƏS, RÜSXƏTLİ**

İZİNSİZ (*icazəsi olmadan*) [İlyas:] Katibdən *izinsiz* masanın qarşısındakı kürsüdə oyləşdim (M.Hüseyn); **BİİZN,** Gələn həftə əkbər Rüstəmə xəbər verdi ki, axşam məclisi tərtib elədin və axşam anasından *büzn* evdən çıxıb [gəlsin] mehmanxanaya.. (Ə.Haqverdiyev); **İCAZƏSİZ** *İcazəsiz* ştabı tərk etməyin! (Ə.Mommədxanlı); **RÜSXƏTSİZ** [Psixiatr:] Mən sizdən çox üzr istəyirəm ki, *rüsxətsiz,* həm də gecənin bu vaxtında öz açarımla qapını açıb mənzilə girmişəm (Anar).

1. İZLƏMƏK Yerdə qalanları da Məmməd bəyin nökərləri *izləyib* qılıncından keçirirdi (Çəmənzəminli); **ARXASINCA DÜŞMƏK** Mədəd naharını qurtarıb qapıdan çıxdı. Kosa onun *arxasınca düşdü* (S.Rəhimov); **DABANLAMAQ** (*addım-addım izləmək*) Yüzlərlə adam bir-birini *dabanlayırdı* (S.Rəhimov); **GİRLƏMƏK** [Mindilli:] Zərifə, nə .. *girləmisən* məni? (S.Rəhimov). **TƏQİB ETMƏK/ELƏMƏK** [Həmid:] Bəyəm ancaq inqilabçıları *təqib* *eləyirlər?'* (H.Abbaszadə); **ARDINA DÜŞMƏK.**

2. izləmək *bax* pusmaq

iztirab *bax* əzab; təşviş

iztirablı *bax* əzablı; təşvişli

izzət *bax* hörmət, şərəf 1

izzəti-nəfs *bax* heysiyyət

izzətli *bax* hörmətli

izzətsiz *bax* hörmətsiz

Jj

jalə *bax* şeh

jokey *bax* minici

julik *bax* **1.** oğru; **2.** fırıldaqçı

JURNAL [Yavər və Mədinə] söhbət edir, radioya qulaq asır, balaca Leyla ilə oynayır, qəzet və *jurnal* oxuyurdular (M.İbrahimov); **MƏCMUƏ** [Cəlil] qəzet, *məcmuə* alıb bufetə girdi və yemyəo məşğul oldu (S.S.Axundov); **RİSALƏ** (*köhn.*) Tema – bir yazının, bir məqalənin ünvanıdır; məsələn, bir *risalənin* mövzusu yatalaq xəstəliyidir. Yatalaq xəstəliyi bu *risalənin* təmasıdır (C.Məmmədquluzadə); **DƏRGİ** Siz ey bu dünyanın söz *dərgiləri;* Dünyanın qəzetçi xəbərçiləri! (M.Araz).

jurnalçı *bax* jurnalist

JURNALİST [Elsevər:] Nə yaxşı, demoli, siz də *jurnalist* olmaq fikrindəsiniz (Ə.Qasımov); **JURNALÇI** (*dan.*) [Mina xanım:] *Jurnalçıya* bax! Ölmüşdü Mina xanım, bir də özünü qəzet-*jurnalçı* olinə vermə! (M.İbrahimov); **QƏZETÇİ** (*dan.*) Bu *qəzetçilər* deyilmi ki, salıb bizi bəlaya? (M.Ə.Sabir); **MÜHƏRRİR** (*köhn.*) [Əbülhəsən bəy:] Çox sevdiyim və *mühərrirlərini* tanımadığım "Səyahətnamə"nin insanı güldürə-güldürə ağladan mozmununu dərhal xəyalımdan keçirdim və ixtiyarsız olaraq gözlərim yaşardı (M.S.Ordubadi).

JÜRİ [Kamil:] Mən *jürinin* üzviyəm, konkursda iştirak edə bilmərəm (M.Hüseynov); **HƏKƏM** (*köhn.*) Yalnız bir ağsaqqal qaydaya baxırdı. Bu *hakəm* imiş (Çəmənzəminli); **MÜNSİFLƏR HEYƏTİ** Aşağıda, meydançanın yanında üstünə qırmızı örtük salınmış uzun stolun ətrafında *münsiflər heyəti* oyləşmişdi (Ə.Qasımov).

Kk

KABAB [Qəmər:] Zöhrə, dur, *kabab* hazırdır (S.S.Axundov); **ŞİŞLİK** Ov ətindən *şişlik* bişirmək üçün ətirli budaqlardan şişlər, ocaqlarda yaqut kimi qızaran közlər hazırlanmışdı (M.Rzaquluzadə); **TİKƏ-KABAB.**

1. KABİNET (*evdə olan iş otağı*) Mansur *kabinetinə* getdi (H.Abbaszadə); **İŞ OTAĞI** Muğandan qayıdıb *iş otağında;* "Muğan"ı yazanda tələsmədin sən.. (M.Araz); **YAZI OTAĞI** *Yazı otağıma,* iş otağıma; Yayılır ətri çiçəyin, gülün (O.Sarıvəlli).

2. KABİNET (*idarə və müəssisələrdə olan iş otağı*) [Əlibala:] Axı borular söhbətində mən də *kabinetdə* idim (H.Abbaszadə); **KABİNƏ** Gəl əyləş, ay ana! – Leyla öz *kabinəsini* göstərdi (B.Bayramov).

3. kabinet *bax* kabinə **2**

1. KABİNƏ (*minik maşınlarında kiçik otaq*) Şofer *kabinənin* qapısını açıb onu [Firəngizi] maşına dəvət etdi (B.Bayramov); **KABİNKA** Maşın onlara çatanda dayandı. *Kabinkanın* qapısı açıldı (H.Abbaszadə).

2. KABİNƏ (*hökuməti təşkil edən nazirlər heyəti*) [Hacı Səməd xanın] yerinə Tehran *kabinəsinin* məsləhəti ilə müavini Sərdar Rəşid təyin olundu (M.S.Ordubadi); **KABİNET** Atan *kabinetdə* nazirdi, gülüm; Mənim ürəyimin naziri deyil! (N.Kəsəmənli).

3. kabinə *bax* kabinet **2**

kabinka *bax* kabinə **1**

KABUS Bir gün bir saat olmur ki, onun ürəyini anlaşılmaz, sanki gözlənilmədən hardansa çıxıb gələrək başının üstünü alacaq bir *kabus* vahiməsi ilə qorxutmasın! (M.İbrahimov); **KÖLGƏ** (*məc.*) Bu qorxunc *kölgə* nədir? Bunu bilmək mahaldır, – intiqam pərisimi, yoxsa boş bir xəyaldır?! (M.Rzaquluzadə); **QARABASMA** İndi Həmid o zaman *qarabasmaya* nahaqdan gülməli bir uydurma kimi baxmasını etiraf etməyə məcbur idi (H.Abbaszadə); **TEYF** Oddan, sudan, dənizdən, ilandan qorxan da var; Həyuladən, *teyfdən,* xortdandan qorxan da var.. (X.Rza).

KAFE (*kiçik restoran*) *Kafelər* gəzməkdən yorulub əldən düşmüş avara adamların istirahət yeridir (C.Əlibəyov); **KAZİNO** Gedib *kazinoda* kef çəkir ori; Aşığın da yoxdur bundan xəbəri (M.Rahim).

kafe-restoran *bax* kafeşantan

KAFEŞANTAN (*açıq sahəsi olan restoran*) [Rüstəm:] O xanımları ki, mən Parisin *kafeşantanlarında* görmüşəm, sən görsən Məcnuna dönüb biyabanə düşərsən (Ə.Haqverdiyev); **ŞANTAN** Mən ömrümdə Parisin görməmişəm üzünü; Enməmişəm o vəhşi, çılğın *şantanlarına* (A.İldırım); **KAFE-RESTORAN.**

1. KAFİR Demə bu *kafir,* ol müsəlmandır; Hər kəsin elmi var, o insandır (S.Ə.Şirvani); **QEYRİ-MÜSƏLMAN** Mən yazıq neçə müddətdir ki, *qeyri-müsəlmanlar* kimi ancaq öz fikrimi çəkirdim, rahat, bir növ dolanırdım (N.Vəzirov).

2. KAFİR (*dinə inanmayan*) İndi beş ildir tamam dinimə əl qatmısız; Sevgili övladımı *kafirə* oxşatmısız (M.Ə.Sabir); **BABİ** (*məc.*) [Şeyx Nəsrullah:] Şeyx Əhməd, gəl gedək. Hələ bu *babi* çox söz danışacaq (C.Məmmədquluzadə); **DİNSİZ** [Molla Qafar:] Mənim məqsədim dini, islamı bu *dinsizlər* arasında inkişaf etməkdən ibarət idi (S.Rəhimov); **GAVUR** O müsəlmandır, *gavur* ola bilməz, – deyə Həmzət titrəyən dodaqlarını dişinə qısdı... (M.Hüseyn); **MÜRTƏD** (*söyüş kimi də işlədilir*) Ayğır olub indi dünənki daylar; Adətdir, *mürtədlər* connət haraylar (Ə.Cavad).

KAFİRLİK [Molla İbrahim Xəlil:] ..Mirzə Fətəli öz *kafirliyini* iqrar etdi (Ə.Haqverdiyev); **KÜFR** *Küfr* ilə baxdığın o rus torpağı; Dühalar veribdir başəriyyətə (M.Rahim); **DİNSİZLİK** (*bax*).

kaftan *bax* don **1**

kaftar *bax* **1.** goreşən; **2.** çirkin

1. KAĞIZ (*müxtəlif mənalarda*), **ARAYIŞ, İLTİZAMNAMƏ, SƏNƏD, TƏLİQƏ**

2. kağız *bax* məktub

kağızlaşmaq *bax* məktublaşmaq

kaha *bax* mağara

kahal *bax* tənbəl

kahallıq *bax* tənbəllik

kahin *bax* uzaqgörən

1. KAİNAT, YER-GÖY

2. kainat *bax* dünya

KAL [Vəliş:] Xam at qorxulu, *kal* meyvə zərərli, naşı adam karsız olur (Ə.Vəliyev); **YETİŞMƏMİŞ** [Doktor:] *Yetişməmiş* bir meyvəni dərməkdən mənfəət əvəzinə zərər və bəlkə də xəta gələ bilər (S.S.Axundov); **DƏYMƏMİŞ** [Gülsüm:] Arvadlar dünən ona çoxlu *dəyməmiş* ozgil yediriblər (X.Hasilova); **GÖY** (*dan.*) Ayton dedi: – Çiyələk; Eliş dedi: – *Göy* yemiş (M.Rzaquluzadə).

kalafa *bax* **1.** çuxur **1**; **2.** xarabalıq **1**

kalambur *bax* cinas

kalan *bax* varlı

kalendar *bax* təqvim

kalkoqraf *bax* həkkak

kalkoqrafiya *bax* həkkaklıq

kalliqraf *bax* xəttat

kalliqrafiya *bax* xəttatlıq

kam *bax* **1.** arzu; **2.** ləzzət **1**

kamal *bax* **1.** elm **1**; **2.** ağıl **1**; **3.** ləyaqət **1**

kamallı *bax* ağıllı

1. KAMAN Ürkmüsən ovçudan, tuta bilmirəm; Qorxma, yoxdu əldə *kaman,* yaxın gəl (Molla Cümə); **KAMANƏ** (*yalnız kamança yayı*) Əli – kəmanədir, *Kəmanə* – Əli; Çalır kamançanı *kamana* özü (Ə.Kərim); **YAY** Bir-birini qılınclayan kim, atla yel yetməz yel kimi keçib çomağı düşmənin topəsindən endirən kim, *yayı* çəkib oxu tuşlayan kim, kəmənd atıb çaparı yəhərindən dəbərdən kim... (Anar); **QÖVS, ZƏNBƏRƏK** (*köhn.*).

2. kaman *bax* kamança

KAMANÇA (*musiqi aləti*) *Kamançanın* simlərindən qopan yanıq havalar; İncəldikcə, hər kəs ondan acı bir həzz alıyor (M.Müşfiq); **KAMAN** Mən o köhnə *kamanı* yenə əlimə aldım; Eşqimlə, ilhamımla bir təzə cəngi çaldım (Ə.Cəmil).

kamanə *bax* kaman **1**

KAMİL, BİTKİN, QÜSURSUZ, NÖQSANSIZ

kamil təcrübəli

kanape *bax* divan **1**

kandar *bax* astana

kan *bax* quyu

KANKAN Həmidin atası *kankan* Murtuz Coratda quyu qazarkən boğulub ölmüşdü (H.Abbaszadə); **QUYUQAZAN** [Köhnə] Bakıda ümumiyyətlə peşəkarlar: bənna, xarrat, dəmirçi, *quyuqazan...* və sairə çox olardı (H.Sarabski); **QUYUÇU.**

kapital *bax* **1.** pul **1**; **2.** sərmayə

kapitalist *bax* sərmayəçi

KAPİTALİZM (*tar.*) *İctimai-iqtisadi quruluş*) *Kapitalizm* quruluşunda qadının tam azadlığı mümkün deyildi (M.Arif); **SƏRMAYƏDARLIQ** (*köhn.*) Xosrov *sərmayədarlıq* quruluşunun barışmaz və son dərəcə şüurlu düşmənlərindən idi (M.İbrahimov).

1. KAR, SAĞIR (*qulağı eşitməyən*) [Bala Sultan:] Məgər qulaqlarınız *kardır* (*sağırdır*)? Adama neçə dəfə sözü deyərlər? (C.Məmmədquluzadə).

2. kar *bax* iş **1**

3. kar *bax* təsir

karagələn *bax* karlı **1**

KARANDAŞ Çernil, qrafit, pero, *qarandaş;* İcad edəni olaydı şil, kaş! (M.Ə.Sabir); **QƏLƏMDAŞ** Haçan, haçan yerdə bir *qələmdaşın;* Görüb zorrə boyda işartısını; Tapıb üfürmədim söz çınqısını? (X.Rza); **QƏLƏM** Masa üstündə ucu qəddonmiş; Neçə *qələm,* neçə varaq kağız (R.Rza).

kargər *bax* fəhlə

kargüzar *bax* mirzə **1**

kargüzarlıq *bax* mirzəlik **1**

karıxdırmaq *bax* çaşdırmaq

karıxmaq *bax* çaşmaq

1. KARLI, YARALI Ağaclar müxtəlifdir, barlı, barsız olurlar; İnsanlarçın *yararlı, karlı,* karsız olurlar (M.Rahim); Bu davada onlardan on nəfərdən çox *karlı* adam ol-

muşdu... ("Qaçaq Nəbi"); **KARAGƏLƏN** Qədir paketin birisini açdı və dedi: [Bayram] *karagələn* adamdır (Ə.Vəliyev); **İŞƏYARAR.**

2. karlı *bax* xeyirli

3. karlı *bax* işbacaran

karmin *bax* ənlik

I. KARSIZ Bağçasız, barsız dağlar; Dumansız, qarsız dağlar; Mən sizə arxalandım; Siz olduz *karsız*, dağlar (Bayatı); **GƏRƏKSİZ** Bəhram məktubu büküb *gərəksiz* bir vəsiqə kimi kitabların üstünə tulladı (Ə.Vəliyev); **KARAGƏLMƏZ, LAZIMSIZ, YARARSIZ.**

2. karsız *bax* vecsiz

kartoqraf *bax* xəritəçi

kartoqrafiya *bax* xəritəçilik

KARVAN (*sıra ilə hərəkət edən heyvan, dəvə dəstəsi*) Dərhal Fəxrəddin və Ələddin dərhal çadırlardan çıxıb yaxınlaşmaqda olan *karvanı* istiqbal etdilər (M.S.Ordubadi); **DƏSTƏ** Bu *dəstə* Nizamidən .. idi (M.S.Ordubadi); **QAFİLƏ** [Hacı Qəmbər:] Sağ qulağım çağırır ki, vurulan *qafilə* sənindir, kirədar neçün ağlar? (N.Vəzirov).

karvançı *bax* sarban

karvanqıran *bax* Venera

karyerist *bax* şöhrətpərəst, vəzifəpərəst

kasamas *bax* qatıq

kasıb *bax* yoxsul

kasıbkarlıq *bax* yoxsulluq

kasıbla(ş)maq *bax* yoxsullaşmaq

kasıblıq *bax* yoxsulluq

kaska *bax* dəbilqə

kassa *bax* nimçə

KASSA Cəmiyyətimizin neçə ki, yazırsınız *kassası* olacaqdır (N.Nərimanov); **DAXIL** (*köhn.*) Mahmud *daxılın* üstündəki qamçını gördüsə, buna .. mona vermədi (M.Hüseyn).

I. KASSİR Əbiş axşam məktəbinin səkkizinci sinfini bitirib "Soyuztransın" avtobus stansiyasında *kassir* işləməyə başladı (B.Bayramov); **BİLET SATAN.**

2. KASSİR, DAXILDAR (*köhn.*), **VƏZNƏDAR** (*köhn.*)

kaşanə *bax* saray

kateqoriya *bax* dərəcə 1

katib *bax* mirzə 1; naib 1

katiblik *bax* mirzəlik 1

katta *bax* kondxuda

KAZARMA (*əsgəri hissələrin yaşaması üçün tikili*) *Kazarmanın* klubu ağzına kimi dolmuşdu (H.Abbaszadə); **QIŞLA** (*köhn.*) Şəhərə buraxılan qoşun bu gün öz *qışlalarına* çəkilmişdi (M.S.Ordubadi); **NİZAMİYYƏ** (*köhn.*) Nizamiyyot idarəsinin, *nizamiyyənin* və başqa hərbi məntəqələrin damına pulemyot qoyulmuşdu (F.Sadıqzadə).

kazib *bax* yalançı

kazino *bax* 1. kafe; 2. kefxana; 3. qumarxana

kecinmək *bax* bəzənmək

keçəl *bax* daz

keçici *bax* 1. yoluxucu; 2. ötəri

1. KEÇİD, ARA, ARALIQ

2. keçid *bax* bərə 1

I keçinmək *bax* yaşamaq 3

II keçinmək *bax* ölmək

KEÇİRİCİ (*elekt.*); **NAQİL, NƏQL**

keçirmək *bax* 1. taxmaq 1; 2. söndürmək

keçmək *bax* 1. sönmək; 2. girmək 1; 3. ötmək 1, 2

1. KEÇMİŞ (*gün, zaman, dövr*) *Keçmiş* əyyamda bizim kəndlərin bu cür bir günlük bəylərі çox olardı (M.Hüseyn); **ƏSKİ** O *əski* şairlər söylomiş yalan; Məni xəyal kimi ayağa salan; O coşqun dalğalı telin işidir (M.Müşfiq); **KEÇƏN** [Heydər bəy:] Ah, keçən günlər! *Keçən* dövrlər! (M.F.Axundzadə); **KÖHNƏ** *Köhnə* Azərbaycanın uzaq bir bucağında; Qoca Həsən dayının alçaq koması vardı (R.Rza); **MAZİ** Onu topiklədi *mazi*, məzara gömdü bu hal (A.Şaiq).

2. KEÇMİŞ, ƏVVƏLKİ, SABİQ (*bax*)

KEÇMİŞ ZAMAN (*qram.*); **MAZİ** (*köhn.*)

1. KEF (*xoş əyləncə*) Yay zamanı İsa bulağında *kef* üstündən qayıdanlardan qorunmaq çətin işdir (B.Bayramov); **CÜNBÜŞ** (*kl.ad.*) Bu sönüklük içində bir şuriş; Qarışıq bir gurultu, bir *cünbiş* (A.Şaiq); **DAMAQ** [Şahmar bəy:] Arvad al, qoy evdə evdarlıq etsin, sən də kefdə, *damaqda* ol! (S.S.Axundov); **EYŞ** Dövlətliləriz, məqsədimiz *eyşü* sofadır; Məhmanlarımız büsbütün ərbabi-qinadır (M.Ə.Sabir); **EYŞ-İŞRƏT** Əkbər ticarəti əldən buraxmışdı və işi ancaq *eyş-işrət* və qumar idi (Ə.Haqverdiyev); **İŞRƏT** Bir evdə *işrət* var, bir evdə qumar; Bir evdə göz yaşı, bir evdə qubar (M.Rahim); **KEF-DAMAQ** Hasara alınmış bu boş qəbirin; Ölüsü bəlkə də *kef-damaqdadır* (N.Kəsəmənli); **NƏŞƏ** Qəlbimizi yarpaq-yarpaq açan qızılgül kimi; Həyat dolsun, *nəşə* dolsun bu səmimi ocağa (S.Rüstəm); **ZÖVQ** Çalın, oxuyun! Biz də uzaqdan *zövqünüzdə* iştirak edərik (H.Cavid); **ZÖVQ-SƏFA** [Kərəm:] Gəl sürək dünyanın *zövq-səfasını* ("Əsli Kərəm").

2. KEF, ARZU, HƏVƏS, MEYİL

3. kef *bax* əhval

KEFCİL [Firuz:] ..canlara dəyən oğlandır, Ağarəfi. Deyib-gülən, *kefcil*, əliaçıq (Anar); **ƏHLİ-KEF** [Münirə:] Kim bilir, *əhli-kef* adamdır.. (A.Şaiq); **KEFÇİ** ...Teymur ağa həm moşhur *kefçi*, həm də nüfuzlu ..cavanlardan idi (M.S.Ordubadi); **LOTU** [Məşədi İbad:] [papağı] hərgah bələnçik qoysam, onda Şamaxı *lotusuna* oxşaram (Ü.Hacıbəyov).

kefçi *bax* kefcil

KEFXANA, KAZİNO, LOTUXANA

KEFLƏNMƏK Öldürdüyü donuzları .. verib əvəzinə şərab alar, içib *keflənər*, sonra da qadınlara sataşardı (M.Hüseyn); **BADƏNUŞ OLMAQ** Fatma xanım səmimi xeyirlər dilədi, "ura" çığıraraq təntənəli bir surətdə *badənuş oldular* (Çəmənzəminli); **NƏŞƏLƏNMƏK** [Xosrov:] İçək, *nəşələnək*, mehriban dostlar; Dünya mey üstündə tutmuşdur qərar! (S.Vurğun); **SƏRXOŞ OLMAQ** Səməd artıq *sərxoş olduğunu* .. hiss etdi (İ.Hüseynov).

kefli *bax* sərxoş

keflilik *bax* sərxoşluq

1. KEFSİZ (*əhvalı pozğun*) Əşrəf Əhmədin otağından *kefsiz* çıxdı (A.Şaiq); **BİDAMAQ** Yolu bir xeyli zaman *bidamaq* getdim (C.Məmmədquluzadə); **BİKEF** (*dan.*) [Əşrəf Əhmədə:] Yetim, görürəm çox *bikefsən*... (A.Şaiq); **DİLXOR** (*bax*).

2. kefsiz *bax* xəstə

kefsizləmək *bax* xəstələnmək

kefsizlik *bax* 1. xəstəlik; 2. dilxorluq

kelner *bax* xörəkpaylayan

kepka *bax* papaq

KEROSİN, AĞ NEFT

kerosinka *bax* pilotə

keşikçi *bax* gözətçi

keyfiyyət *bax* xüsusiyyət 2; hadisə 1

KEYFİYYƏTLİ, ƏLA, YAXŞI

kəbin *bax* nikah

kəbutər *bax* göyərçin

köc *bax* 1. çəpəki; 2. əyri 1; 3. höcət

KƏCAVƏ (*keçmişdə heyvan və dörd adam tərəfindən aparılan içərisində hökmdarlar, xanımlar və s. daşımaq üçün qurğu*) *Kəcavədə* xanımı; Aparırlar əl üstə; Adamlar baxır ona; Nifrətlə dəstə-dəstə (M.Rahim); **MƏHMİL** (*kl.əd.*) Cismimdəki bimar könül halısı, guya; Bir qəmzədə *məhmildən* asılmış cərəsimdir (Natəvan); **TAXT-RƏVAN** Qətibə başında qiymətli daşlar düzülmüş qızıl tac olduğu halda *taxt-rəvan* içində oturmuşdu (M.S.Ordubadi).

kəbin *bax* çəpgöz(lü)

kədər *bax* qəm

kədərlənmək *bax* qəmlənmək

kədərli *bax* qəmli

kədərsiz *bax* qəmsiz

KƏF (*bişən xörəkdə, mürəbbədə*) Mən əti doğrayıb qurtaranda Gülqədəm düyünün *kəfini* yığırdı (Ə.Vəliyev); **KÖPÜK** Salmanov mürəbbənin *köpüyünü* alırdı (Ə.Əbülhəsən).

kəfə *bax* ovuc 1

KƏFƏN, AĞ (*dan.*)

kəfşduz *bax* çəkməçi

KƏHKƏŞAN Könül dedikləri bir asimandır; Onun da günəşi, *kəhkəşanı var* (M.Rahim); **HACILAR YOLU** O deyərdi: "Bu ağaran – *hacıların yoludur;* Yeddiqardaş; ulduzların hamısından uludur" (M.Ra-

him); **MƏKKƏ YOLU** [Qarı] gecə aralığa gələn kimi yatmadı, ulduzlara baxdı, *"Məkkə yolu"*nu bir-bir ziyarət etdi (Mir Cəlal); **SÜDYOLU, AĞ YOL.**

KƏKİL (*saç haqqında*) Rəngbərəng geyinmiş qadınlar, uşaqlar, barmaqları xınalı, saqqalları səliqə ilə vurulmuş kişilər, birçəkləri və *kəkilləri* daranıb düzənmiş gənclər bir-birinə qarışmışdı (Çəmənzəminli); **CIĞA** [Zeynal] sonra Şəfiqənin *cığasından* ayrılıb qulaqlarının üstünə tökülən sığallı saçlarından dən-dən ağ tükləri gördü (İ.Məlikzadə); **CIQQA** Siyah zülfü dal gərdəndə bir qolac; Sona *cıqqası* tək ucları qıyqac (Q.Zakir).

kəkildaraq *bax* şanapipik

KƏKİLLİ, CIĞALI

kəklikotu *bax* kəkotu

KƏKOTU (*ot bitkisi*) Otaqdan *kəkotu* iyi gəlirdi, armudu stəkanda sarı kəkotu çayı buğlanırdı (H.Abbaszadə); **KƏKLİKOTU** Sərin hava *kəklikotu* ətrilə dolu idi (İ.Əfəndiyev).

KƏLAM, İBARƏ

kəlçə *bax* balaq

I. KƏLƏ Buzovların yarı maymaq, yarı şil; Görünür naxıra *kələ* düşübdür (O.Sarıvəlli); **BUĞA** ..Meydana gözləri qızmış bir *buğa* və bir erkək dəvə çıxartdılar (Anar).

2. kələ *bax* oynaş

kələbək *bax* kəpənək

kələf *bax* yumaq **II**

kələk *bax* hiylə

kələkbaz *bax* hiyləgər

kələkbazlıq *bax* hiyləgərlik

kələ-kötür *bax* **1.** nahamar; **2.** kobud **I**

kələntə *bax* dəryaz

kəlisa *bax* kilsə

kəllə *bax* baş **I**; topə **I**

kəlləmayallaq *bax* mayallaq

KƏLLƏPAÇA [Məmiş:] Nə danışırsan beçə balı, camış qaymağı, tut arağı, erkək toğlunun *kəllapaçasıynan* (H.Abbaszadə); **BAŞ-AYAQ** Ya üstümüzə şər atmağa, ya təzə vergilər istəməyə, ya da qarınlarını otarıb bizdən donuz *baş-ayağı* istəməyə gəlirlər, deyə onlar düşünür və qüssələnirdilər (S.Rəhimov).

kəlləsiz *bax* başsız **I**

kəlmə *bax* söz

kəmağıl *bax* ağılsız

kəmbaha *bax* ucuz

kəmcürət *bax* cəsarətsiz

kəmetibar *bax* etibarsız

kəmetina *bax* etinasız

kəmetinalıq *bax* etinasızlıq

I KƏMƏR, BORU (*neft, qaz kəməri*)

II kəmər *bax* toqqa

kəmərbənd *bax* qurşaq **I**

kəmərbəstə *bax* hazır

kəmərçin *bax* tuman

kəmhövsələ *bax* hövsələsiz

kəmməhəl *bax* etinasız

kəmməhəllik *bax* etinasızlıq

kəmsər *bax* səfeh, ağılsız

kəmsər-kəmsər *bax* axmaq-axmaq

kəmsik *bax* xalta

kəmşüur *bax* şüursuz **I**

kəmşüurluq *bax* şüursuzluq

kən *bax* tir **I**

kənar *bax* **1.** ucqar; **2.** sahil; **3.** qıraq **1**; **4.** yad **I**

KƏND (*yaşayış yeri*) *Kənd* iri, camaatı çox idi (Ə.Vəliyev); **AUL** (*Dağıstanda və Orta Asiyada kənd*) Həmzət də bəzi qonşuları kimi heç yana tərpənmədi, axşamüstü düşmənlər *aula* doluşdular (M.Hüseyn); **DEH** (*köhn.*) [Alo:] *Deh!* Bir şey olsun, di gəl bu camaat içində sən yükdən çıx! (S.Rəhimov); **KƏNDİSTAN** [Vaqif:] Xeyr, yanıldınız, ona dil verən; Gözilə dünyada alovlar görən; *Kəndistan* yeridir, bəli, kəndistan (S.Vurğun); **KÖY** (*köhn.*) [Sitarə:] Nərəyə olursa, uzaq, çox uzaq, hicra bir guşəyə, heç olmazsa *köyümüzə*... (A.Şaiq); **QƏRYƏ** (*köhn.*) [Molla:] Heç bir kəs bu ətraf *qəryələrdə*, elə də bütün mahalda mənim vərəqlədiyim kitabların adını da bilmir (S.Rəhimov); **OBA** (*kiçik kənd*) Vəliş qayıdıb yerinə girəndə *obada* xoruzlar səs-səsə verib banlaşırdılar (Ə.Vəliyev).

KƏNDXUDA (*köhn.*) (*keçmişdə kənd işlərinə baxan məmur*) *Kəndxudalar* göndərib oğlilə çox and eylədi; Etmədi bir sud hərçənd əhd-peyvənd eylədi (M.V.Vidadi); **KATTA** (*köhn.*) [Novruzəli:] Xan, and olsun sənin başına, bizi *katta* çox incidir (C.Məmmədquluzadə); **KOVXA** *Kovxa* atlanıb öz kəndini çapan kimi bu zayıllar da atlanıb bizi çapmağa başladılar (S.Rəhimov).

kəndirbaz *bax* canbaz

kəndirbazlıq *bax* canbazlıq

kəndistan *bax* kənd

KƏNDLİ *Kəndlilər* bu xeyir işi alqışlayaraq anladılar ki, Hümmətəlinin çəngindən qurtarmaq zamanı hələ gəlməmiş (S.S.Axundov); **DEHQAN** (*köhn.*) Bu xuruşlar, yeməklər *dehqanındır*. Bilirsən; içilən şərab deyil, al qanındır, bilirsən? (M.Rahim); **KÖYLÜ** Xoca tacir, *köylü* və sair; Alış-verişlə məşğuldurlar (H.Cavid).

kəniz *bax* **1.** qarabaş; **2.** xidmətçi **I**

KƏPƏNƏK (*zər qanadlı həşərat*) Çiçək altında bir kiçik *kapənək;* Düşüb əfsürdə, çırpınır bipər (A.Şaiq); **KƏLƏBƏK** [Sitarə:] Yainki, göz işlədikcə, çiçəklərlə bəzənmiş zümrüdin bir çəmənzar üzərində şatır münəqqəşpər bir *kələbək,* canlı bir çiçək kimi sevinə-sevinə, xəfif-xəfif, gurultularla, çiçək-çiçək dolaşır (A.Şaiq); **LÜLƏPƏR** (*dial.*) *Lüləpər* yerə qondi (ADDL); **PƏRVANƏ** Çəmənlərdə, seyrəngahlarda, çiçəklər gönçələrində gizlənmiş *pərvanələri* və arıları oyatdı (M.F.Axundzadə).

kəramət *bax* xeyirxahlıq

kərdi *bax* lək

kər(r)ə *bax* dəfə

kərənay *bax* şeypur

kərənayçı *bax* şeypurçu

kərənti *bax* dəryaz

KƏRPİC Biz *kərpici* kərpic üstə qoymadıq, lakin qeyrilərin səbəbinə bizim üçün bir divar hörüldü (N.Nərimanov); **AYIBALASI** (*məh.*) (*palçıq kərpic*) Çayın qurtaracağında *ayıbalasından* tikilmiş bir bina vardı (S.Rəhimov).

kərrat *bax* dəfələrlə

KƏRTƏNKƏLƏ, QAYAÇAPAN (*məc.*)

kəs *bax* şəxs, insan

kəsalət *bax* süstlük

kəsb *bax* **1.** gəlir; **2.** sənət

kəsbkar *bax* məşğuliyyət

kəsbkarlıq *bax* sənət

kəsəmət *bax* şərt

kəsən *bax* iti **1**

kəsərli *bax* iti **1**

kəsərsiz *bax* küt **1**

KƏSƏYƏN Naxanın düşdü fikrinə getsin; Pişiyin sənətin işlətsin; Pişiyə söylədi! – Bir fikrim var; *Kəsəyən* tutmağa məni də apar (R.Əfəndiyev); **ÇƏLSİÇANI, SİÇAN** (*bax*).

1. KƏSİF Döşəməni neftlə sildiklərindən hava ağırlaşmışdı. İçəridəki bu *kəsif* qoxu və ağır sükut adamı darıxdırırdı (İ.Şıxlı); **AĞIR** Həmid .. içəri girəndə əlaqaranlıq dəhlizdən burnuna *ağır* hava vurdu (H.Abbaszadə); **BOĞUCU** Gülür bığ altından Göray deyənə... Qaranlıq, *boğucu* bir yaz gecəsi... (S.Vurğun).

2. KƏSİF, TUTQUN, QƏLİZ, QATI

3. kəsif *bax* pinti

kəsimət *bax* şərt **1**

kəstanə *bax* şabalıd

kəşf *bax* ixtira

kəşşaf *bax* ixtiraçı

kəşti *bax* gəmi

kəştiban *bax* gəmiçi

KƏTİL (*söykənəcəyi olmayan stul*) [Həmid] köhnə *kətildə* əyləşib dincini alanda Mikayılla İsmayıl sevinə-sevinə həyətə çıxdı (H.Abbaszadə); **TABURET(KA)** [Gülgəz] kənarda *taburetkanın* üstündə əyləşib buğlanan suya tamaşa eləyə-eləyə xəyala getdi... (B.Bayramov).

KƏTMƏN Hektarçıynan düşdü bəhsə; Cərgə durdu *kətmən* vurdu; Ucaldı afərin səsi (Aşıq Əsəd); **TOXA** [Əzim] əlində ələq etdiyi əyri *toxanı* yerə qoydu (A.Şaiq).

kəzzab *bax* yalançı

kibr *bax* lovğa

KİBRİT Mən *kibrit* çəkib diqqətlə ona baxdım (M.İbrahimov); **ALIŞQAN** Salah *alışqanını* yandırıb işıqda saatına baxdı (H.Abbaszadə); **SPİÇKA** (*rus., dan.*) İkinci strajnik təkrar *spiçka* yandıraraq diqqət etdi (S.Rəhimov).

kibrli *bax* lovğa

KİÇİCİK, ÇOX BALACA, UFACIQ

kiçik *bax* balaca

kiçikyaşlı *bax* azyaşlı

kiçilmək *bax* balacalanmaq

kif *bax* sifilis

KİFAYƏTLƏNMƏK [Firəngiz:] Mən əgər məlumatla *kifayətlənsəydim*, iş-gücün bu vaxtında, bu qədər dolama yolda maşın çapmazdım (B.Bayramov); **İKTİFA ETMƏK** [Rüstəm bəy:] Hər ağ şara bir manat istəməyə haqqım var, onu dedim ki, hesabını itirmişəm, ona görə 80 manat *iktifa edirəm* (S.S.Axundov); **QANE OLMAQ** Leytenant xəyalında kapitanı dinləyir, onun dəlil və sübutları ilə *qane olmayaraq* ürəyində kəskinliklə danışırdı (Ə.Əbülhəsən); **QƏNAƏTLƏNMƏK** Atabəy bu məktubla da *qənaətlənmədi* (M.S.Ordubadi).

KİLİD [Əziz] qapını tələsik açıb Ramizin velosipedini dəhlizin divarına söykədi və tez *kilidi* bağladı, sanki kimsə onu təqib edirdi... (H.Abbaszadə); **QIFIL** Dördkünc balaca həyətin sol əlində mənzilin qapısı bağlı idi. Balaca girdə *qıfıl* vurulmuşdu (M.İbrahimov).

KİLİDLƏMƏK (*kilidlə bağlamaq*) Şəkər qapını cəld *kilidləyib* həkimin arxasınca getdi (B.Bayramov); **BAĞLAMAQ** [Növrəstə:] ...bir də görəcəksən, gəldi qapını *bağladı* (Ə.Haqverdiyev); **QIFILLAMAQ** [Səftər:] ..otaqdan çıxır, qapını örtür, *qıfıllayır*.. (Anar).

KİLİDLƏNMƏK, BAĞLANMAQ, QIFILLANMAQ

KİLİDLİ, QIFILLI, BAĞLI

kilo *bax* kiloqram

KİLOQRAM (*çəki ölçüsü: 1000 qram*) [Bəsti:] Şum zamanı hər hektar yerə yüz *kiloqram* azot və yüz kiloqram fosfor səpirik (Ə.Sadıq); **KİLO** 200 kiloqram çoxdur, 100 *kilo* eləyin (Q.Xəlilov).

KİLSƏ (*xristian məbədi, ibadətgahı*) Pavluşa ilə Ələsgər hamıdan qabaq gəlib *kilsənin* tinində durmuşlar (M.S.Ordubadi); **DEYR** (*kl.əd.*) [Hüseyn Xan:] ...Axırda yetişdik bir deyrə, rahiblər qaçmışdılar, *deyr* boş idi (Ə.Haqverdiyev); **KƏLİSA** (*köhn.*) Keçmişdən əsər var hələ; Uzaqda çalınır *kəlisə* zəngi (S.Vurğun); **MONASTIR.**

1. KİMSƏSİZ [Həkim] həm müalicə elədi, həm də *kimsəsiz* oğlanın kimsəsi oldu (B.Bayramov); **ADAMSIZ** Zavallı bu kənddə özü kimi qərib və *adamsız* idi (S.Hüseyn); **QƏRİB, BİKƏS** *Qərib* öldüm, *bikəs* öldüm, yad öldüm (M.V.Vidadi).

2. kimsəsiz tənha **1**

KİN, ƏDAVƏT Onda savadlı və bacarıqlı adamlara qarşı sönmək bilməyən bir *ədavət* yarandı. Bu *kin* ona özünəməxsus bir fəlsəfəyə əsaslanırdı (Y.Şirvan); **BÜĞZ** (*kl.əd.*) Beynimizdə yox ikən bir günə əsbabitəzad; Bu vətən övladına ariz olub *büğzü* inad.. (M.Ə.Sabir); **KÜDURƏT** [Xədicəyə] qarşı bəslədiyim *küdurəti* unutdum (M.Hüseyn); **NİFRƏT** *Nifrət!* Qan çanağı taclara *nifrət!* (S.Vurğun); **ACIQ** (*bax*).

kinayə *bax* **1.** istehza; **2.** masqara

1. KİNEMATOQRAF, SİNEMATOQRAF (*köhn.*) ..biz *sinematoqrafa* getdik, şəklə baxdıq (Çəmənzəminli).

2. kinematoqraf *bax* kinematoqrafiya

KİNEMATOQRAFİYA (*kino sənəti*) Dövlət milli *kinematoqrafiyanın* inkişafına xüsusi qayğı göstərir (Qəzetlərdən); **KİNO** Hələ 1927-1928-ci illərdə Cabbarlı *kino* sənəti ilə maraqlanmağa başlamışdır (M.Arif); **KİNEMATOQRAF.**

KİNLİ Gah kütləyə baxır, gah Soriyəyə... *Kinli* baxışlara gətirməyib tab; Əmr edir: "Susdurun, qurtarın!" – deyə (H.Billuri); **ACIQLI** [Əhməd:] Hər ikisi *acıqlı* baxışlarla Məhərrəm əmini süzdükdən sonra, həmin kişi dönərək: "Ey, qoca şeytan, küfr danışma, başını əzərəm!" – dedi (A.Şaiq); **HİDDƏTLİ** (*bax*).

kino *bax* **1.** kinematoqrafiya; **2.** kinoteatr; **3.** film

kinofilm *bax* film

kinolent *bax* film

kinoşəkil *bax* film

KİNOTEATR (*kino vermək üçün xüsusi bina*) Yarım saatdan sonra isə *kinoteatrda* "Dəfinələr adası" bədii filmi göstəriləcəkdi (H.Abbaszadə); **KİNO** [Şuşanın] məktəbləri, texnikumları, teatrı, *kinosu*, gözəl sanatoriləri, istirahət evləri, bir mədəni ocağı var!.. (Ə.Sadıq).

kiosk *bax* köşk **1**

kiparis *bax* sərv

kir *bax* çirk **1**

KİRAYƏ [Student:] Otaq buradamı *kirayə* verilir? (Çəmənzəminli); **İCARƏ** (*bir şeyin müəyyən müqabilində müvəqqəti olaraq istifadəyə verilməsi*) Tifil ikən baxdım ağa, qaraya; Qəmdən yük götürdüm mən *icarəyə* (Molla Cümə); **KİRƏ** Hacı Sultan .. iki evindən aldığı *kirələrin* sayəsində rahatlıqla keçinirdi (S.Hüseyn).

KİRAYƏÇİ [Xanım qulluqçuya:] Liza, daha bundan sonra evdə yalnız qaldıqda darıxmayacağıq; təzə *kirayəçi* öz ölkələrindən bizə nağıl edəcək.. (Çəmənzəminli); **KİRAYƏNİŞİN** Sərvinazın qışqırığına *kirayənişinlər* – naxçıvanlı qızlar da gəldilər (H.Abbaszadə); **KİRƏÇİ** Mirzə Qədir evindəki *kirəçilərdən* heç birini dışarı çıxara bilməyəcək (S.Hüseyn); **KİRƏKEŞ** (*köhn.*) [Gəmiçi:] Sözüm yoxdur, biz *kirəkeş* babayıq (M.Rzaquluzadə).

kirayənişin *bax* kirayəçi

kirdar *bax* **1.** iş **1**; **2.** güc; **3.** səbir **1**; **4.** davranış

kirdarsız *bax* **1.** bacarıqsız; **2.** səbirsiz

kirə *bax* kirayə

kiraçi *bax* kirayəçi

kirəkeş *bax* kirayəçi

kirimək *bax* sakitləşmək **1**; susmaq

kirli *bax* çirkli

KİRPİK Uzun *kirpikləri* yaşlara batmışdı (Çəmənzəminli); **PEYKAN** (*kl.əd.*) Əlhəzər yay qışın şux *peykanından;* Vurar yıxar, ötmək olmaz yanından (Q.Zakir).

kirşan *bax* pudra

kirşanlamaq *bax* pudralamaq

kirşanlanmaq *bax* pudralanmaq

kirşanlı *bax* pudralı

kisə *bax* **1.** torba; **2.** portmanat; **3.** cib

kisvət *bax* paltar

1. KİŞİ [Qətibə:] Sən elə bilirsən ki, *kişilər* yerə göydən nazil olan bir məlaikədir (M.S.Ordubadi); **BAŞIPAPAQLI** (*dan.*) Bir dəqiqədə məhəllənin bütün *başıpapaqlılarını* topladı (M.Hüseyn); **ERKƏK** (*köhn.*) Qadınların önündə bu gün geniş bir yol var; *Erkəklərlə* bir sırada o çalışar, çapalar (A.Şaiq); **MƏRD** Üç nəfər *mərd* sahibi – iyman; Üçü bir yerdə etdilər peyman (Q.Zakir).

2. kişi *bax* ər **1**

kişilənmək *bax* **1.** xoruzlanmaq; **2.** kişilənmək

KİŞİLƏŞMƏK (*yetkinləşmək*), **KİŞİLƏNMƏK**

kişilik *bax* **1.** mənəmlik **1**; **2.** igidlik; **3.** qeyrət **1**

KİŞMİŞ (*üzüm qurusu*); **MÖVÜC** Bəs mərmər *kişmişi*, qara *mövücü;* Badamı, püstəsi hanı bağların? (Ə.Cəmil).

kişvər *bax* ölkə **1**

kit *bax* balina

1. KİTABÇA (*balaca nazik kitab*) Bir əlində *kitabça*, bir əlində yasəmən; Məhəmməd asta-asta qayıdır mədrəsədən (B.Vahabzadə); **BROŞÜRA** Xeyli tər töküb axtarandan sonra iyirmi-otuz səhifəlik *broşüradan*zaddan bir şey tapır.. (V.Babanlı); **RİSALƏ** (*köhn.*) Çünki böyük bir məsələ barəsində fikir və rəyi iki *risalə* vasitəsilə bəyan etmək mümkün deyil idi (Çəmənzəminli).

2. kitabça *bax* bilet **2**

KİTABŞÜNAS, BİBLİOQRAF

KİTABŞÜNASLIQ, BİBLİOQRAFİYA, KİTABİYYAT

klassifikasiya *bax* təsnifat

klassifikator *bax* təsnifatçı

klaviş *bax* dil **11**

kley *bax* yapışqan

klizma *bax* imalə

KNYAZ (*köhn.*) (*vilayət hakimi*) Rəhima, cövr edir hər dəm mana bir naqolay *knyaz;* Gahi Tərxan, gah Cəfərqulu, gahi Xasay *knyaz* (Q.Zakir); **RACƏ** (*köhn.*) Misal üçün İngiltərəni götürəlim: Şərqin bir çox ölkələri İngiltərə müstəmləkəsidir, lakin ingilis əlində olan bütün ölkələrin öz sultanı, padşahı, əmiri, *racəsi,* mehrazəsi öz yerindədir (M.S.Ordubadi).

1. KOBUD Kərim tək qalanda hiss edirdi ki, o, Könülə qarşı *kobud* hərəkətdə olmuşdu (X.Hasilova); **KƏLƏ-KÖTÜR** Dəmirçioğlu baxdı ki, [Koroğlu] bir yekəpər, *kələ-kötür* adamdı.. ("Koroğlu"); **KÖNTÖY** [Həmidə:] Elə *köntöy* niyə cavab verirsən, qızım, özü də təzə il gecəsi (Anar); **QABA** (Xavər) Sən, bu *qaba* hərəkətində müqəssirsən (M.Hüseyn); **SƏRT** Həsən müəllim bərk əsəbiləşsə də, Paşa əmiyə hörmət etdiyindən bu dəfə də onunla *sərt* rəftar etmədi (A.Şaiq).

2. KOBUD, GÖNÜQALIN (*məc.*), **QANACAQSIZ, QALIN** (*məc.*), **QANMAZ** (*bax*)

KOBUDLUQ [Muxtarın] göyçək, iri gözlərində kişi zəhmi, qarabuğdayı sifətində yaraşıqlı bir sərtlik, *kobudluq* vardı (B.Bayramov); **KÖNTÖYLÜK** Yoldaş Fətullayevi .. bu tərəfin camaatının sərt və *köntöylüyünü* bilirdi (İ.Şıxlı); **QABALIQ** Yoldaşlarla söhbət etmək, yatarkən xoruldamaq sizcə *qabalıqdırmı?* (A.Şaiq).

kol-kos *bax* çalı

I koma *bax* qalaq

II koma daxma

kombinasiya *bax* fənd **1**

KOMEDİYA (*gülməli dram əsəri*) Qədim vaxtlarda *komediyanı* yunanlar gülüş üçün çıxardırlardı.. (N.Nərimanov); **MƏZHƏKƏ** [Aslan:] İkinci hissədə xalq teatrının artistləri sizə "Hamlet tələsi" adlı kiçik bir *məzhəkə* göstərəcəklər (M.İbrahimov); **DRAM** (*bax*).

komik *bax* məzəli **1**

kommentariya *bax* izah

kommersant *bax* işbaz; tacir

kommersiya *bax* ticarət

kommunikasiya *bax* **1.** rabitə **1**; **2.** ünsiyyət **1**

kommunist *bax* partiyaçı

KOMPAS (*gəmiçilikdə, hava nəqliyyatında uzaq bir yerə getmək üçün səmt təyin edən cihaz*) O, sağ tərəfdən bir durbin və sol tərəfdən balaca bir sumka asdığı kimi döşündə də bir bağlama *kompas* (qiblənüma) sallamışdı (M.S.Ordubadi); **QİBLƏNÜMA** (*köhn.*) [Turab:] ..gərək onda deyəsiniz ki, dənizə balıq ovuna çıxmışıq, *qiblənümamız* yoxdur, yolu azmışıq (H.Abbaszadə).

KOMPLEKT, DƏST

kompot *bax* xoşab

KOMPOZİSİYA ..bu əsərin orijinal *kompozisiyası,* son dərəcə bədii və bitkin obrazları vardır (M.Məmmədov); **QURULUŞ** "Antonio və Kleopatra" tamaşasının musiqisi də *quruluşun* şərtilik ünsürləri ilə zəngin realist üslubuna müvafiq olmalı idi (C.Cəfərov); **TƏRTİBAT** Məktubda qeyd olunduğu kimi, hər şeydən tamaşanın ümumi üslubu, quruluşu, *tərtibatı* öz təzəliyi, sadəliyi və gözəlliyi ilə diqqəti cəlb edir (M.Arif).

kompozitor *bax* bəstəkar

kompozitorluq *bax* bəstəkarlıq

konkurs *bax* müsabiqə

KONSERT [Anaqız:] Bir axşam klubda *konsert* verdik (Ə.Vəliyev); **MÜSAMİRƏ** (*köhn.*) O gün axşam *müsamirədən* çıxarkən Eldar bizimlə görüşüb ayrıldı (M.Hüseyn).

konspirativ *bax* gizli **1**

KONSTİTUSİYA (*hər hansı bir dövlətin, dövlət quruluşunun ali qanunu*) [Səlimə:] Yoxsa *Konstitusiyada* hüquqlarımız başqa başqadır? (İ.Əfəndiyev); **ƏSAS QANUN** [Qızıl Arslanın Atabəy Məhəmmədə göndərdiyi məktubdan:] Quranın *əsas qanun* götürüldüyü bir məmləkətdə ruhanilər hökumətin idarə işlərindən uzaqlaşdırmaq mümkün olmaz.. (M.S.Ordubadi); **QANUNİƏSASİ** (*köhn.*) Vermişdi atam gər sizə *qanuni-əsasi;* Bir molla kişiydi, var idi hilmi, həyası (M.Ə.Sabir); **MƏŞRUTƏ** (*tar., köhn.*) Həmin o *məşrutə* istəyən budu? (Mir Cəlal).

KONSULTASİYA, MƏSLƏHƏT

kontinent *bax* qitə **1**

kontrakt *bax* müqavilə

kontrol *bax* nəzarət

kontrolçu *bax* nəzarətçi **1**

kontrolsuz *bax* nəzarətsiz

kontrolyor *bax* kontrolçu

konvensiya *bax* müqavilə

konvert *bax* zərf

kopiya *bax* surət **2**

koppuş *bax* totuq

korazehin *bax* kütbeyin

koridor *bax* dəhliz

KORLAMAQ, XARAB ETMƏK/ELƏMƏK, ZAY ETMƏK/ELƏMƏK

KORREKTOR (*mətb., qəzetdə, kitabda, jurnalda və s.-də səhvlərin düzəldilməsini korrektura edən*) 1927–1937-ci illərdə Ə.Vahid əvvəlcə "Azəməşr"də *korrektor,* sonra isə "Kommunist" qəzeti redaksiyasında kütləvi işçi kimi çalışmışdır; **MÜSƏHHİH** (*köhn.*) Növbətçilər və *müsəhhihlər* səhifələri oxuyur, hər sözə, hər zərfə diqqət yetirirdilər (Ə.Qasımov).

KORREKTORLUQ, MÜSƏHHİHLİK

korrupsiya *bax* rüşvətxorluq

korş *bax* küt **1**

korşalmaq *bax* kütləşmək

koruxmaq *bax* sağalmaq

kos *bax* top

kosa *bax* hoqqabaz **1**

KOSMONAVT *Kosmonavtlar* uçub dönmüşlər geri; Uzaq göylə yaxın dost edib bizi (M.Rahim); **ASTRONAVT** (*ABŞ-da və bəzi ölkələrdə işlədilir*) Amerika *astronavtları* Yerətrafı orbitdə 84 gün – 1973-cü il noyabrın 16-dan 1974-cü il fevralın 8-dək qalmışlar (Qəzetlərdən).

KOSMONAVTİKA, ASTRONAVTİKA

kovxa *bax* kəndxuda, yasavul

köbə *bax* haşiyə

KÖÇƏBƏ Amma *köçəbə* tayfalar arasında ..qudalıq əvəzinə nişanbazlıq adəti vardır (R.Əfəndiyev); **BƏDƏVİ** [İxtiyar:] Oğlum, mədəni aləmi nifrətlə buraxdın; Gəldin şu cədəlsiz, *bədəvi* aləmə çıxdın (H.Cavid); **ÇÖLLÜ** Xoş keçmədi il *çöllüyə,* dehqanə, nə borcum? (M.Ə.Sabir); **ELAT** [Soltan:] Çoxdan buralara *elat* gəlmədiyi üçün kəklik çoxalıb (İ.Əfəndiyev); **KÖÇƏRİ** (*məc.*) Kürün sahili *köçərilərin* düşərgəsinə çevrilmişdi (İ.Şıxlı); **OBA** Hər il bu zaman yolun ətəklərinə qədər çadırlar, *obalar* düşərmiş (Mir Cəlal).

köçəri *bax* **1.** tərəkəmə; **2.** köçəbə

1. KÖÇMƏK (*köçüb başqa yerə getmək*) Sabahısı günü Ağca xanım anası ilə şəhərə *köçdü* (S.S.Axundov); **DAŞINMAQ** Student xanımla vidalaşaraq iki gündən sonra *daşınacağını* bildirdi (Çəmənzominli); **YIĞIŞMAQ** Bir həftədən sonra eşitdim ki, Xeyransanın talağını verib, *yığışıb* gedib İran vətəninə (C.Məmmədquluzadə).

2. KÖÇMƏK [Vəzir:] [Xan] ..mənə buyurdu ki, bir həftəyədək onun [Nisə xanımın] *köçmək* tədarükünü gör! (M.F.Axundzadə); **ƏRƏ GETMƏK** [Pəri:] Fəqət *ərə getmək* asanmı? (C.Cabbarlı).

3. köçmək *bax* ölmək

1. KÖÇÜRMƏK [Sənəm:] Qız ki, dingildədi, gərək *köçürəsən* getsin (M.İbrahimov); **ƏRƏ VERMƏK** [Sərvər:] Yox, mən eyləmirəm. Rüstəm bəy Gülnazı özgəsinə *ərə verir* (Ü.Hacıbəyov).

2. KÖÇÜRMƏK, SURƏTİNİ ÇIXARMAQ, ÜZÜNDƏN YAZMAQ

1. KÖHNƏ (*müxtəlif mənalarda*) Yalnız mənim sevgilimin mahnısını dinləyir; Bu yerlərdə *köhnə* həyat can çəkişir, inləyir (A.İldırım); **ƏSKİ** [Uşaqlar:] Hey sən, hey *əski* dünya, təslim ol! Sənə qarşı yürüş var (M.Müşfiq); **QƏDİM** (*məc.*) [Hacı Murad:] Məhərrəm bəy, ..*qədim* dostunuzu yadınıza saldınız (S.S.Axundov); **QƏDİMİ** [Davud:] Xarab olan *qədimi* saatımı dükana düzəltməyə gətirmişəm (H.Abbaszadə).

2. köhnə *bax* nimdaş

3. köhnə *bax* sabiq

4. köhnə *bax* arxaik

5. köhnə *bax* boyat

köhül *bax* mağara

I KÖK (*bədəncə ətli*) Bax, o *kök* oğlan Aslanzadə ilə bir yerdə işləyirdi (H.Abbaszadə); **CANTIRAQ** (*dial.*) *Pota* kişi gər ağacına bağlanmış xınayı, kök qoyunu açıb gətirdib Covanninin ayaqları altında yerə yıxdı, erkəyi kəsmək üçün rahatladı, böyürdən çıxan *cantıraq* bir oğlan ona kömək elədi (H.Abbaszadə); **DIBIRÇƏLLƏK** (*dial.*) *Dıburçəllək* adam bərk qaçmaz (ADDL); **DOLĞUN** Katibənin *dolğun* və şümal bədirları, düzgün əndamı, oynaq yerişi onun [Xələfin] xoşuna gəldi (Y.Şirvan); **DOLUBƏDƏNLİ** [Qara oğlan] ...kooperativ dükanının eşik divarına söykənmiş qısaboylu, *dolubədənli*, köhnə pencəyinin döşü iki yerindən yırtılmış qoca bir kişini göstərdi (M.Hüseyn); **DOLUVÜCUD(LU)** Xındırıstan bəylərinin ağıllısı, yaşlısı, savadlısı sayılan bu *doluvücud*, ortaboy, yaşı əllini haqlamış Məmmədbağır bəy soyuqqanlı dinləndi... (Ə.Vəliyev); **POTA** Kişi əyilib çiyni üstündən dalca gələn *pota* oğlanı göstərdi (H.Abbaszadə); **ŞİŞMAN** [Məsmə] alçaqboylu *şişman* bir qadın idi... (X.Hasilova); **TOSQUN** Həmid lənqər vura-vura yeriyən *tosqun* bir kişini saxladı (H.Abbaszadə); **TUMBUL** Sonra Gülüş yüyürüb gəldi. Balaca, *tumbul* qolları ilə Aslanın qıçlarına sarıldı (C.Cabbarlı); **YOĞUN** Bu zaman Xasayın anası Badam gəldi. Bu *yoğun* kişi gözləri ilə ona işarə etdisə, qadın barıt kimi açıldı (A.Şaiq);

II KÖK Balqabaq, çuğundur, *kök*, qarpız, yemiş; Yığdı torbasına, dəymiş, dəyməmiş (R.Rza); **YERKÖKÜ.**

III kök *bax* rişə

kökə *bax* qoğal

KÖKƏLMƏK [Firəngiz:] Yamanca *kökəlirsən*, Muxtar.. (B.Bayramov); **ƏTƏCANA GƏLMƏK** Qayıdıb gələndə qız həm *ətə-cana gəlmişdi*, həm də o qədər utancaq olmuşdu ki, söz deyəndə qızarırdı (Ə.Vəliyev); **ƏTLƏNMƏK** [Qız] arada o biri otağa keçib özünə də baxdı. *Ətlənmiş* çiyinni, qabarıq sinəsini görəndə təəccüb etdi (İ.Şıxlı); **ƏMƏLƏ GƏLMƏK** [Badam:] Nə danışırsan, a kişi, infarkt keçirməmisən?! Sonin *əmələ gəlməyin* üçün mən bacardığımı eləyirəm ki, gümrahlaşasan (H.Abbaszadə); **GÖBƏK BAĞLAMAQ** (*fr.v.*) Yağ salıb, *bağlayıb* cümlə *göbək* (S.Ə.Şirvani); **ŞİŞMƏK** (*məc.*) (*çox kökəlmək*) [Xacə Firuz:] Amma bunlar yeyib *şişirlər* (Ə.Haqverdiyev); **YAĞLANMAQ** (*məc., dan.*) ..bir cüt erkək o qədər *yağlanmışdı* ki, quyruqlarını çəkib apara bilmirdi (Ə.Vəliyev).

1. köks *bax* döş **I**

2. köks *bax* ürək

KÖKSÜZ (*kökü olmayan bitki, ağac və s.*) *Köksüz* ağacı becərməkmi olar? (N.Nərimanov); **RİŞƏSİZ** [Kazım:] Sərdar *rişəsiz* ağac kimi yerə sərildi (M.İbrahimov).

kölə *bax* qul **I 1**

kölelik *bax* **1.** qulluq **I**; **2.** əsarət **I**

1. KÖLGƏ Yenə o bağ olaydı sevdalar ölkəsində; O söyüd *kölgəsində;* İnci qumlar üstündə yenə verib baş-başa; Yayı vurardıq başa (M.Müşfiq); **KÖLGƏLİK** Bu arxları atan mən; Suyu suya qatan mən; *Kölgəlik* yada qaldı; Gün altında yatan mən (Bayatı); **SAYƏ** (*kl.əd.*) Gün tülu etmiş üfüqdən, arizi çün ayə, bax; Çotri-mişkini salıb xurşid üzrə *sayə* (Heyran xanım).

2. kölgə *bax* kabus, xəyal **I**

kölgəlik *bax* kölgə **I**

KÖMBƏ (*çörək növü*) Gərək bir *kömbə* də yeyim gedim! (N.Vəzirov); **QALAC** [Aytəmiz:] Heç bilirsiniz, dava vaxtı insanlar bir parça çörəkdən ötrü, bir loğma qara *qalacdan* ötrü neçə sifətə düşürdülər (Ə.Qasımov).

KÖMƏK (*müxtəlif mənalarda*) [Həcər xanım:] Doğrudur, orada gizli olmağımın sirrini gəlmişəm sənə açıb söyləyəm və səndən *kömək* istəyəm (S.S.Axundov); **AMAN** ...Hər zaman igidləri xofa salan gözləri indi Paşa xana xumar-xumar baxıb ondan *aman* gözləyir (S.S.Axundov); **ARXA** (*məc., dan.*) Dəmirçioğlu da sözünün üstündə durdu, dəlilərlə dostlaşıb Koroğlunun *arxası*, köməyi oldu ("Koroğlu"); **HARAY** (*dan.*) [Əhməd:] Əlacı bunları qırmaqdır, yoxsa divandan bizə *haray* çatmaz (N.Vəzirov); **HƏYAN** Camalla "nişanlısı" Mahirəyə *həyan* olmağı ondan xahiş etdi (Y.Şirvan); **İMDAD** O baxışlarda çırpınan ürəyim; Diləyir gözlərindən həcy *imdad* (A.Şaiq); **MƏDƏD** [Dəli Qöçər:] Vay, – dedi! *Mədəd!* – Dədə, kərəm elə, Allah eşqinə qapını aç çıxım (Anar); **DİRƏK** (*məc.*), **ƏNCAM.**

1. KÖMƏKÇİ [Cahangir bəy:] Hərgah o vəd elədiyi məbləğləri verməsə, baş üstə, mən də sizə *köməkçi* (N.Vəzirov); **DADRƏS** (*kl.əd.*) Məktəbə, sənətə artdı həvəsim; Kimsəsizdim, yox idi *dadrəsim* (Ə.Vahid); **DƏSTGİR** (*köhn.*) Deyirlər ki, cəmi füqəranın *dəstgiridir* (Ə.Haqverdiyev); **MƏDƏDÇİ** Həlimə xala ..övrət qonşularından özünə *mədədçi* çağırardı (C.Məmmədquluzadə); **MƏDƏDKAR** (*köhn.*) A çocuq, get, sənə haqq yar olsun; Cümlə halında *mədədkar* olsun (A.Səhhət); **YAVƏR** (*kl.əd.*) Dildadələrin dadrəsi, *yavəri* sənsən (Q.Zakir).

2. KÖMƏKÇİ [Cahangir bəy:] ..Baş üstə, mən də sizə *köməkçi* (N.Vəzirov); **ƏLALTI** [Nərgiz:] Sənin *alaltın* öz işini yaxşı bilir (M.İbrahimov); **QUYRUQ** (*məc.*) [Zalxa:] Sən Salmanov da onunla [Musa ilə] olbirsən, sən Kərəmov da onların *quyruğusan* (S.Rəhman); **MÜAVİN** (*bax*).

köntöy *bax* kobud **I**

köntöylük *bax* kobudluq

könül *bax* **1.** ürək; **2.** həvəs

könülaçan *bax* ürəkaçan

KÖNÜLLÜ [Könül:] Mən olduğum rayonlarda camaat cəbhəyə *könüllü* kömək eləyir (X.Hasilova); **QEYRİ-MƏCBURİ, ÖZ XOŞU İLƏ.**

KÖNÜLSÜZ ..Arvad sustalmış halda, *könülsüz* ayağa qalxır (H.Abbaszadə); **XAHNAXAH** Qoca *xahi-naxahi* çıxmışdı qapıya.. (C.Məmmədquluzadə); **İSTƏMƏDƏN, HƏVƏSSİZ** (*bax*), **ÜRƏKSİZ.**

köpək *bax* it

1. KÖPƏŞMƏK, SIZANAQ ƏMƏLƏ GƏLMƏK

2. köpəşmək *bax* köpmək **I**

1. KÖPMƏK, KÖPÜRMƏK, KÖPƏŞMƏK, QABARMAQ, ŞİŞMƏK (*bax*)

2. köpmək *bax* acımaq **II**

3. köpmək *bax* yatmaq **I**

1. KÖPÜK (*su üzərində olan qabarıq*) Gominin burnu suların hamar aynasını parçalaya-parçalaya irəlilədikcə arxasında uzun, əriyib yayılan *köpük* zolağı qoyurdu (H.Abbaszadə); **HÜBAB** (*kl.əd.*) Qəm dalğası hücuma keçən dəmdə qəlbimdə; Çeşmim kənarına yığışan bir *hübabə* bax! (A.Şaiq).

2. köpük *bax* kof

KÖPÜKLƏNMƏK Şalalələr qayalardan üzüaşağı gurlayıb axır, *köpüklənir* (M.İbrahimov); **KÖPÜRMƏK** [Nəbi:] Baxırdıq *köpürüb* axan sulara (S.Rüstəm).

köpükotu *bax* çoğan

köpürmək *bax* **1.** köpmək **I**; **2.** köpüklənmək; **3.** hiddətlənmək

KÖRFƏZ (*gəmilərin dayanacağı üçün münasib yer*) Qara dənizin dağ boyda dağları sahilə gəlir, Novorossiysk *körfəzindəki* gəmi sığınacağının daş hasarına toxunub parçalanırdı (R.Rza); **BUXTA** [Mansur] məhəccərə söykənib *buxtaya* tamaşa elədi (H.Abbaszadə); **LİMAN** Nukusda meydançası bizim polad quşların; Qumların dəryasında bir *limana* bənzəyir (S.Rüstəm).

körpə *bax* çağa

körpəlik *bax* uşaqlıq **I**

KÖRPÜ Qadın bu sözlərdən sonra vidalaşıb yelkəndən *körpüyə* çıxdı (M.S.Ordubadi); **CİSR** Gəmi *cisrin* altından üzüb keçdi.. (M.S.Ordubadi).

KÖŞƏK [Tural:] Dəvəcən böyümüşsən, *köşəkcə* ağlın yox (Anar); **DƏVƏ BALASI** İsveçrənin Bazel şəhərindəki zoparkda ağ *dəvə balası* doğulmuşdur. Köşək dünyaya gələrkən çox zəif idi (Qəzetlərdən).

1. KÖŞK Bəhmən bayaq institutun tinindəki *köşkdən* aldığı və evə gələndə avtobusda oxuduğu "İdman" qəzetini açdı, arasına üzüm, şaftalı yığdı ki, Qəni kişigilə apar-

sın (H.Abbaszadə); **BUDKA** (*dan.*) Bağın ayağındakı meydançada bir *budka* qoyulub, orada hər növ ürək sərinlədən içki, süd, qatıq və sair satırdılar (Ə.Haqverdiyev); **KİOSK** Adamlar qəzet *kiosku* qarşısında dayanıblar, su içir, papiros alır, trolleybus gözləyirlər (Anar).

2. köşk *bax* imarət
3. köşk *bax* talvar
kötəkləmək *bax* döymək **I**
kövdən *bax* səfeh
kövkəb *bax* ulduz
köy *bax* kənd
köylü *bax* kəndli
KRAXMAL, NİŞASTA
KRAXMALLAMAQ, NİŞASTALAMAQ
KRAXMALLI, NİŞASTALI

KRESLO (*qoltuqlu stul*) O, yanını *kreslosuna* möhkəm basaraq yerini daha da möhkəmləndirib kabinetinə göz gəzdirdi (Ə.Qasımov); **KÜRSÜ** Ziyafət məclisinin yuxarı başında üç boş *kürsü* qoyulmuşdu (M.S.Ordubadi); **SANDALYA/SƏNDƏL** (*köhn.*) ...Adəti üzrə məni dalı-dalı aparıb qoltuqlu *sandalyaya* oturtdu (M.S.Ordubadi).

krovat *bax* çarpayı
kruşon *bax* içki
kuđu *bax* balqabaq
kuh *bax* dağ **I 1**
kukla *bax* gəlincik
kuplet *bax* **1.** bənd **II**; **2.** meyxana **II**
kustar *bax* sənətkar **1**
kutlamaq *bax* yığmaq
kutlaşmaq *bax* yığışmaq **1**
kut *bax* topa
kutlaşmaq *bax* yığışmaq **1**
kuzə *bax* bardaq
kübar *bax* zadəgan

KÜÇƏ [Fəxri:] Axşamınız xeyir, *küçədə* işıqlar keçdi, dedim çətinlik çəkərsiniz (Ə.Babayeva); **SOQAQ** (*arx.*) Sərt, soyuq bir qış gecəsi... Səma bəyaz, yer bəyaz; Uğuldayan küləklərlə sarsılmada *soqaqlar* (M.Müşfiq).

KÜÇÜK İstifadə eləyib belə bir yaramazdan; Atmışdılar kənara *küçük* kimi bir azdan (M.Rahim); **ƏNİK** (*meh.*) İtin *əniyi* it olar (ADDL); **İT BALASI.**

KÜÇÜKLƏMƏK Qəssab Balakişinin qancığı bu axşam *küçükləmişdi*... Çəmənzəminli); **DOĞMAQ** (*bax*) **1**
küçüklənmək *bax* yaltaqlanmaq
küdurət *bax* **1.** qəm; **2.** kin
küdurətli *bax* qəmli
küfr *bax* allahsızlıq; kafirlik, dinsizlik
küfran *bax* nankorluq
kükrəmək *bax* coşmaq **1**
külah *bax* papaq
külbaş *bax* bədbəxt
külbə *bax* daxma
külçə *bax* filiz
külək *bax* yel **I**
KÜLƏKLİ, YELLİ
küləktutmaz *bax* dalda **1**
külfət *bax* **1.** ailə; **2.** arvad **1**
küll *bax* **1.** bütöv; **2.** bütün **1**
külli *bax* saysız-hesabsız

KÜLLİYYAT (*şair və yazıçının əsərlərinin toplusu*) Kəhrizli kəndinin təsərrüfat məsələləri haqqında Həmidə xanıma yazılmış bir sıra məktublar *külliyyata* salınmışdır (Ə.Mirəhmədov); **DİVAN** [Vaqif:] Elə, gecə-gündüz sən gətirən kitablara baxır, şairlərin *divanı* ilə vaxt keçirirəm (Çəmənzəminli).

külrəngi *bax* boz **1**

KÜLÜNG (*yer qazmaq üçün alət*) Bellər, *külüngləri* götürək, maşınlar tapaq, müəllimimizin dediyi Təbrizi yaradaq (M.İbrahimov); **QAZMADÜŞƏR** Əlisa yarızarafat, yarı ehtiyatla hərlənib *qazmadüşər*, bel, balta, kərki, mişar və qeyri karastı toplanmış anbara girdi (S.Rəhimov); **TİŞƏ** (*kl.əd.*) Naxunigəmli bizi Fərhadə nisbət etməyin; Kim, yıxar bir gündə yüz min Bisütunu *tişəmiz* (S.Ə.Şirvani); **DÜŞƏR** (*dial.*).

küm *bax* barama
kümçü *bax* baramaçı

kümdar *bax* baramaçı

KÜNC Uşaq bir *küncdə* boynunu burub oturmuşdu (M.İbrahimov); **BUCAQ** [Qəhrəman:] İndi mənim də fikrimə düşür ki, *bucaqda* bir arvad oturmuşdu, qucağında bir qundaq var idi (M.F.Axundzadə); **GUŞƏ** Beyrək zindanın bir *guşəsinə* qısılıb uzanmışdı (Anar); **ZAVİYƏ** Danışmamaq *zaviyədə* oturub Allahı çağırmaqdır (C.Məmmədquluzadə).

küpə *bax* bəsti
küpəgirən *bax* sehrbaz
I kür *bax* **1.** ağlağan; **2.** hay-küyçü
II kür *bax* tənbəl
I kürək *bax* bel **I**
II kürək *bax* arxa **1**
kürəkən *bax* yeznə
kürnuş *bax* təzim
kürreyi-ərz *bax* dünya

1. KÜRSÜ (*yığıncaqda nitq söyləmək üçün hündür yer*) Ona *kürsüyə* sinə gərdi; Danışmadı, susdu bir dəm; Çatıb qara qaşlarını, fikrə getdi o bir anlıq (S.Vurğun); **TRİBUNA** O su verdilər, xahiş edib uca yerə, *tribunaya* çıxartdılar (Mir Cəlal).

2. kürsü *bax* stul
3. kürsü *bax* kreslo

KÜSDÜRMƏK Söylədi: – Camaat, *küsdürdük* sizi (H.K.Sanılı); **İNCİTMƏK** ...Mollanı özümüzdən *incitmişik* (C.Məmmədquluzadə).

küsəyən *bax* dəymədüşər
küskün *bax* incik
küskünlük *bax* inciklik

KÜSMƏK Gündə yüz al eyləyən qəlbi-qəradan *küsmüşəm* (M.P.Vaqif); **İNCİMƏK** Neyləmişəm *inciyibsən;* Yenə ey gülbədən, məndən? (Q.Zakir); **QƏLBİ SINMAQ** *Qəlbin sınmasın,* nigaran da qalma (M.S.Ordubadi).

küstax *bax* tərbiyəsiz **2**
küstaxlıq *bax* tərbiyəsizlik

1. KÜT (*iti olmayan*) [Qulu:] Bu elə *kütdür* ki, heç yer də qazmaz (S.S.Axundov); **KƏSƏRSİZ** [Ana:] Dönüb olar *kəsərsiz* dəmir parçası (M.İbrahimov); **KORŞ** (*dial.*) Derik ki, balta *korşdu,* kəsmir ağacı (ADDL); **KƏSMƏYƏN.**

2. küt *bax* kütbeyin
kütbaş *bax* kütbeyin

KÜTBEYİN [Cəlil:] Haçandan bəri ayrı-ayrı *kütbeyin* idarə və təsərrüfat başçılarının əleyhinə danışmaq hökumət əleyhinə çıxmaq olub? (H.Abbaszadə); **DANABAŞ** (*məc.*) İşləri yaşdı, qoymayın! Lap *danabaşdı* qoymayın! (M.Ə.Sabir); **KORAZEHİN** [Qəndab:] Riyaziyyatda məndən də *korazehin* idi (B.Bayramov); **KÜT** [Mötəbərov:] Sən nə qədər *küt* adamsan, əşi? (M.Hüseyn); **MALBAŞ** (*məc.*) [Şəkərlinski:] Alışov, yandım, sən də bir söz de, ay *malbaş* (M.İbrahimov); **YELBEYİN** [Şamxal:] Sizin oğluvuz, maşallah, aspirantdır, kəllədir, mənimki lap *yelbeyinin* biridir (Anar); **BAŞIBOŞ, KÜTBAŞ.**

kütlə *bax* camaat, xalq **1**

KÜTLƏŞMƏK (*itiliyini itirmək*) Neçə vaxtdı ki, Gövhər qiymokeşi işlətmirdi, qiymokeş yaman *kütləşmişdi* (H.Seyidbəyli); **KORŞALAMAQ** *Korşalan* baltanı hər altmış-yetmiş metrdən bir çıxarmaq lazım gəldi (M.Hüseyn).

KÜTÜM (*balıq*) [İkinci bakılı:] Təzəcə bir araba *kütüm* balığı bazarın ortasında saxlayıb satırdılar ki, camaat da çox şirin alırdı (C.Məmmədquluzadə); **ZİYAD** Balıqların müxtəlif növləri və adları var: *ziyad* (kütüm); çapaq (leş); çəki (sazan)... ("Azərbaycan folkloru antologiyası").

küy *bax* hay-küy
küyçü *bax* hay-küyçü
küy-kələk *bax* hay-küy
küy-kələkçi *bax* hay-küyçü
kvadrat *bax* dördkünc(lü)
kvartal *bax* **1.** rüb; **2.** polis **1**

Qq

qaba *bax* **1.** kobud; **2.** qanacaqsız, mədəniyyətsiz

qabaqgörən *bax* tərəqqipərvər, uzaqgörən

I qabaq *bax* balqabaq

II qabaq *bax* **1.** əvvəl **1**; **2.** ön; **3.** üz

qabaqca *bax* əvvəlcə

qabaqcadan *bax* əvvəlcədən

1. QABAQCIL ..Kəndimizin bugünkü *qabaqcıl* adamlarının ürəyini döyündürən bu ehtiraslı duyğular müqəddəsdir (M.İbrahimov); **MÜTƏRƏQQİ** Orduda *mütərəqqi* zabitlər dəstəsi bir sıra müvəffəqiyyətsizliklərə uğrayıb.. (M.İbrahimov); **TƏRƏQQİPƏRVƏR** (*bax*).

2. QABAQCIL, ƏN FƏAL, ƏN ŞÜURLU

qabaqdan *bax* əvvəldən

QABAQ-QABAĞA (*iki nəfərin bir-birinin qarşısında olması*) O biri nümayəndələri oturmağa dəvət etdi, özü də gəlib Pəri xala ilə *qabaq-qabağa* əyləşdi (M.İbrahimov); **QABAQ-QARŞI** Güllü ..qoluçirməkli olduğu halda, oğlu ilə *qabaq-qarşı* durub danışırdı (Ə.Əbülhəsən); **QABAQ-QƏNŞƏR** [Aytəmiz:] Şəhərdə çox fikirləşdim, çox götür-qoy elədim ki, sənə ürəyimi açam, sənlə *qabaq-qənşər* oturub danışam (Ə.Qasımov); **RUBƏRU** (*kl.əd.*) Dün mənimlə *rubəru* buldu nigar, oldu rəqib.. (Xətayi); **ÜZBARI** Gəl ikimiz söhbət edək; Duraq üzbarı, bəxtəvər (Aşıq Vəli Miskinli); **ÜZBƏÜZ** (*bax*).

qabaq-qarşı *bax* qabaq-qabağa

qabaq-qənşər *bax* qabaq-qabağa, üzbəüz

QABAN (*vəhşi donuz*) Kənddən ..araba gətirib, *qabanın* cəmdəyini içinə yığıb, özüm də üstündə yola düşdüm (Ə.Haqverdiyev); **ÇÖLDONUZU** [Alo:] Bu da lap *çöldonuzu* kimi tük gətirmiş imiş (S.Rəhimov).

QABAR [Aytəmiz:] İstəyirəm öz çörəyimi yeyim. Əllərimin *qabarı* hesabına qazandığım halal çörəyi! (Ə.Qasımov); **DÖYƏNƏK** [Alo:] Canın üçün qocalıqdan elə zəhləm gedir ki, adı tutulanda deyəsən ayağımın *döyənəyini* tapdalayırlar (S.Rəhimov); **PİNƏ.**

qabarıq *bax* domba

I QABARMAQ, QABAR OLMAQ

II 1. QABARMAQ, QALXMAQ, YÜKSƏLMƏK

2. qabarmaq *bax* ürpərmək

3. qabarmaq *bax* acıqlanmaq **I**

qabil *bax* istedadlı, zəkalı

qabiliyyət *bax* **1.** istedad; **2.** ləyaqət **1**; **3.** bacarıq

qabiliyyətli *bax* **1.** istedadlı; **2.** ləyaqətli **1**; **3.** bacarıqlı

qabiliyyətsiz *bax* **1.** istedadsız; **2.** ləyaqətsiz; **3.** qanacaqsız

qabyalayan *bax* yaltaq

I qac *bax* düşmən **I**

II qac *bax* arx

qacınmaq *bax* gəməşmək

qaçaq *bax* soyğunçu

qaçaqlıq *bax* soyğunçuluq

qaçaraqlanmaq *bax* qaçmaq **I**

qaçışmaq *bax* ötüşmək **I**

1. QAÇMAQ [Tarverdi:] Barı *qaçım*, bəlkə evi yıxılmış tüfəngi mənə düzəldib atdı (M.F.Axundzadə); **CUMMAQ** (*dan. birdən qaçmaq*) [Könül:] Emin əvvəl sağa qaçdı, ardınca *cumdum* (S.Qədirzadə); **DABAN ALMAQ** (*fr.v.*) *Daban aldı* müxalifin qoşunu (M.Rəhim); **DABANINA TÜPÜRMƏK** (*fr.v.*), **ƏKİLMƏK** [Vəzir:] Gedib həmin şah tənbəlini alovdan çıxarırlar, o birisi görür ki, bu xına o biri xınadan deyil, durub *dabanına tüpürür*, bir baş *əkilir* (S.Rəhimov); **DIZIXMAQ** (*dan.*) [Balaxanım:] Bu siçanpişik padşahına bax sən allah, mənə eşqnamə oxuyur, *dızıx* buradan, çaqqal, mindirmə məni cin atına (Anar); **GÖTÜRÜLMƏK** (*sürətlə qaçmaq*) Qabaqca atılan bir qədər qaçaraq dayanır, o birisi gəlib çatdıqda yenidən *götürülürdü* (İ.Əfəndiyev); **SİVİŞQULUYA DƏM VERMƏK** (*fr.v.*) İblis də bundan istifadə edib, quyruğunu qısmış, yavaşca *sivişquluya dəm verdi* (Ə.Haqverdiyev); **SİVİŞMƏK** (*xəlvəti qaçmaq*) Bu fikirlə [Mötəbərov] kabinetinin dal qapısından *sivişib*, evinə yollandı.. (M.Hüseyn); **SÜRÜŞMƏK** (*məc.*) [Talıbov:] Sən mumla! Sən də *sürüş*.. (Y.Şirvan); **VAZIMAQ** (*dial.*) [Rüstəm bəy:] Əliqılınclı, qabağımdan dovşan tazı qabağından qaçan kimi *vazıyırdı* (N.Vəzirov); **YÜYÜRMƏK** [Könül:] Mən qollarımı geniş açaraq *yüyürdüm*, ona yetməyə can atdım (S.Qədirzadə); **QAÇARAQLANMAQ, QOPARAQLANMAQ.**

2. QAÇMAQ (*əsgərlikdən və ya vəzifədən*) [Vəzir:] Ordudan dağılıb *qaçan* da çoxdur (S.Vurğun); **FƏRARİLİK ETMƏK/ ELƏMƏK** [Molla Sadıq:] Bəylər də mən deyənə gəlmişlər, şəriət də bunu əmr edib, hifz bədəni vacib buyurmuş, bəla gəlməmiş, *fərari et* demiş (S.S.Axundov); **DEZERTİRLİK ETMƏK.**

QADA, BƏLA Qoçaqdan olubsan, qoçaq olgülan; *Qadadan, bəladan* qaçaq olgülan (Xəstə Qasım); **DƏRD** *Dərd* gedər, yeri boş qalmaz (Ata. sözü); **DƏRD-BƏLA** [Mila xala:] Allah səni bizə qulluqçu yox ey, *dərd-bəla* göndərib (Ə.Qasımov); **QADA-BALA** Qəb sınması el arasında *qada-balanın* izalə olması mənasında təfsir olunur (Çəmənzəminli); **FƏLAKƏT, MÜSİBƏT.**

qada-bəla *bax* qada

QADAĞAN (*icazə verilməyən bir şey*) [Qumru:] Hansı heyvanları, quşları haçan ovlamaq olar. Bəzilərini ümumiyyətlə ovlamaq *qadağandır*.. (Anar); **YASAQ** İranda qaçaq keçirilmiş çayın satılması *yasaq* idi (C.Məmmədquluzadə).

QADALI [Qazan xan:] A üzü qaralı, başı *qadalı;* Xatınları, oğul-uşağı nə deyə dustaq etdin! (M.Rzaquluzadə); **BƏLALI** O şair mədh edir min bir gülzarı; *Bəlalı* aşiqi, sevdalı yarı (S.Vurğun).

1. QADIN Ayrım qızı şişman bir *qadın* idi (A.Şaiq); **ARVAD** [Qulu Allahyara:] *Arvad* xeylağı ilə nə işiniz var? (Mir Cəlal); **ÖVRƏT** Zalda çox adam var idi: *övrət*, uşaq, kişi.. (Ə.Haqverdiyev); **ZƏNƏN** (*bəzən "zənən xeylağı" kimi də işlənir*) Camaat yer eylədilər, *zənənlər* gəlib oturdular (Aşıq Ələsgər).

2. qadın *bax* arvad **1**

qafa *bax* baş **1**

qafasız *bax* başsız **1**

qafilə *bax* karvan

I qağa *bax* qardaş

II qağa *bax* dimdik **I**

QAĞAYI (*zool.*) (*dəniz quşu*) Göy dənizim, ləpələrin qatar-qatar; Yoxsa qanad çalıb keçən *qağayılardır?* (R.Rza); **MARTI/ MARTI QUŞU** Dalğalardan bac alıram, əzizim, mənə baş əyəndə; *Martı* kimi yüksəlirəm fırtınalar göbəyində (A.Şaiq).

qahal *bax* ağıl **II**

qaxotu *bax* dazıotu

qaillik *bax* inam

qaim *bax* möhkəm **1**

qaqqa *bax* şirni

qaqqana *bax* gülüş

1. QALA Hava işıqlandıqca Girdman *qalasının* möhtəşəm bürcləri aydın görünməyə başlayırdı (M.Hüseyn); **FORT.**

2. qala *bax* həbsxana

3. qala *bax* şəhər

qalac *bax* kömbə

qalağan *bax* qanqal

QALAQ, KOMA, TOPA, YIĞIN (*bir yerə qalanmış şey*)

qalan *bax* cehiz

qalantereya *bax* xırdavat

qaldırım *bax* səki

QALDIRMAQ (*müxtəlif mənalarda*) At qabaq ollərini *qaldırdı* və az qaldı noxtanı Kərbolayı Tasının ollndən qoparsın (C.Məmmədquluzadə); **DİKƏLTMƏK** Ələsrəf yaxınlaşdı, Məmişin çiynindən tutub ayaq üstə *dikəltdi* (B.Bayramov); **QALXIZMAQ** At başını *qalxızıb* çəkildi bir tərəfə (C.Məmmədquluzadə); **QOVZAMAQ** Başımı *qovzayıb* yan-yörəmə baxdım (Çəmənzəminli).

QALXAN Cavanşir qabağındakı oğlana möhkəm bir zərbə endirərək, onun *qalxanını*

yarıya böldü (M.Hüseyn); **SİPƏR** ..Kəskin qılınca qarşı, başa əl *sipər* olmaz (Ə.Nəzmi).

qalxınmaq *bax* qalxmaq **1**

qalxızmaq *bax* qaldırmaq

1. QALXMAQ Həmzə bir-iki saat istirahət edib *qalxdı* (Ə.Qasımov); **DİKƏLMƏK** Həmzə pulları yığışdırıb *dikəldi*.. (Ə.Qasımov); **DİKLƏNMƏK** [Şeyx Nəsrullah] ..birdən *diklənib* çığırır (C.Məmmədquluzadə); **QALXINMAQ** Birdən rus qızı yerindən *qalxındı* (Ə.Məmmədxanlı); **AYAĞA DURMAQ.**

2. QALXMAQ, DIRMAŞMAQ, YUXARI QALXMAQ

3. qalxmaq *bax* sağalmaq

4. qalxmaq *bax* ucalmaq

1. QALIN (*müxtəlif mənalarda*) Səbrinin *qalın* dodaqlarına nisbətən çox yaraşıqlı görünən inci dişləri yenə parıldayırdı (M.Hüseyn); **YOĞUN** [Şahin] cavab gözləmədən öz maşınının arxasındakı *yoğun* zəncirin bir ucunu "Volqa"nın qabağındakı qarmağa ilişdirdi (B.Bayramov).

2. qalın *bax* kobud **1**

3. qalın *bax* sıx **1**

qalınlaşmaq *bax* **1.** yoğunlaşmaq **2; 2.** sıxlaşmaq

QALİB (*qələbə çalmış, zəfər çalan*) Qanad açdı üfüqlərdə *qalib* Vətən bayrağı (Ə.Cəmil); **MÜZƏFFƏR** (*tənt.*) *Müzəffər* ordumuz hər gün dənizlər, dağlar aşdıqca; Yerin qəlbində tufanlar, təlatümlər qopub çağlar (S.Vurğun).

qalibiyyət *bax* qələbə

qallı *bax* **1.** şıltaq; **2.** davakar

qalmaqal *bax* səs-küy; dava-şava; hay-küy

qalmaqalçı *bax* davakar

qalmaqallı *bax* concəl

QALSTUK Həmid *qalstukunu* taxıb, pencəyini geydi.. (H.Abbaszadə); **BOYUNBAĞI** (*köhn.*) [Musanın nəvəsi] ..ağ köynəyinin üstündən qara ipək *boyunbağısını* bağladı (Qantəmir).

qamaşdırmaq *bax* xırələtmək

qamaşmaq *bax* xirələnmək

qamçı *bax* şallaq

qamçılamaq *bax* şallaqlamaq

qamət *bax* **1.** boy **I**; **2.** bel **II 1**

qamətli *bax* boy-buxunlu

qamış *bax* qarğı

qamus *bax* ensiklopediya

QAN Maralın keçib göldiyi yerdə sarı yarpaqlar üzərində *qan* damlaları çilənirdi (M.Hüseyn); **XUN** (*kl.ad.*) Əmri-bari ilə onda pərdəyi-pürxun idik; Qətreyi-naçiz idik, müdğə uyuşmuş *xun* idik (Xətayi).

1. QANACAQ [Həmzə:] Adamda gərək *qanacaq* ola (Ə.Qasımov); **ƏDƏB** *Ədəbin* çox olsa, nəfsin də gödək; Sevəcək el soni bir el oğlu tək (Aşıq Əhməd); **MƏRİFƏT** Olmuş vətən günudə ləyali-cəhalətə; Zülmətə qarşı *mərifətim* mahtabdır (M.Hadi); **NƏZAKƏT** [Əbdüləli bəy:] İnsanın *nəzakəti* əsil-zatında olmalıdır (C.Cabbarlı); **TƏRBİYƏ** (*bax*).

2. qanacaq *bax* düşüncə

QANACAQLI [Haşım:] Tətil komitəsi soni *qanacaqlı* bir fəhlə hesab elədiyinə görə bu cür böyük bir işi də sənə tapşırıb (M.Hüseyn); **ƏDƏBLİ** [Hacı Nəsir:] Nurəddin *ədəbli*, tərbiyəli uşaqdır (S.S.Axundov); **ƏHLİ-MƏRİFƏT** Ləfz edirsən ifadə mənanı; Sərf edər *əhli-mərifət* anı (S.Ə.Şirvani); **MƏRİFƏTLİ** *Mərifətli* hər kəs bir cür anlayır, – deyə Şahin başını bulayıb uzaqlaşdı (B.Bayramov); **NƏZAKƏTLİ, TƏRBİYƏLİ** [Balaş:] ..Halbuki siz deyirsiniz ki, o *tərbiyəlidir, nəzakətlidir* (C.Cabbarlı).

QANACAQSIZ (*qanacağı olmayan*) Bunların özləri *qanacaqsız*, övladları daha də pis (Çəmənzominli); **BİMƏRİFƏT** İnsana şərəfboxş fəqət elmü hünərdir; *Bimərifət* adəm canı yox xüşk şəcərdir (M.Hadi); **ƏDƏBSİZ** Ədəbi *ədəbsizdən* öyrən (Ata sözü); **QABA** Feldşer çox uzunçu, lağlağı, həm də *qaba* bir adam idi (M.Hüseyn); **MƏRİFƏTSİZ, QABİLİYYƏTSİZ** Qoyma sinəm üstə eşqin gözlərin; *Qabiliyyətsiz, mərifətsiz* qızların; Yüzü bir dərdmənd dul

ola bilməz (Aşıq Ələsgər); **İNTİZAMSIZ, NƏZAKƏTSİZ, YEKƏBAŞ** (*məc., dan.*)

1. QANAD (*quşlarda və cücülərdə*) Duydum kəsmişdilər, bağrım qanadı; Kəsilərsə uçan quşun *qanadı* (M.Rahim); **PƏR** (*kl.ad. çox vaxt "balü pər"*) Döyüşdükcə qoca qartal; Qüvvət alır *balü pəri* (S.Vurğun).

2. qanad *bax* por **1**

3. qanad *bax* budaq

qanadlanmaq *bax* uçmaq **1**

QANBAHASI, DİYƏ (*köhn.*) (*cəza vermək əvəzinə qanbahası verib günahdan təmizlənmə*) Hökimlərin gəlir mənbələrindən birisi də ərəblər vaxtından qalan *diyə*, yəni *qanbahası* məsələsidir (M.S.Ordubadi).

qandal *bax* buxov

qandalaq *bax* qandal

qandalaqlamaq *bax* qandallamaq

qandalaqlı *bax* qandallı

qandallamaq *bax* buxovlamaq

qandallı *bax* buxovlu

qandırmaq *bax* anlatmaq

qancedici *bax* qənaətboxş

qanıqara *bax* port

qanıqaralıq *bax* portlik

QANIRMAQ Qüvvətli bir kəndli onun [Səmədin] sağ biləyini *qanırdı*, xəncəri dartıb əlindən aldı (M.Hüseyn); **BURMAQ** Gədələr Qədim dayının qollarını *burdular* (S.Rəhimov); **QARMAQ** Hətta utanmadan boylu qadının; Qollarını *qarıb*, gəzdi polislər (M.Rahim).

qanısoyuq *bax* adamayovuşmaz

qaniçən *bax* zalım

QANQAL (*bot.*) (*alaq bitkisi*) [Biqəm:] Adə dara-dara salma, Tərgəldi, Əlbət bu kişinin oğlu *qanqala* yaxşı bələddir də (Anar); **QALAĞAN** (*arx.*) [Eşşək] yedi *qalağını*, göldi saldı peyin; Ki, iyindən tutuldu başü beyin (S.Ə.Şirvani).

qanlı *bax* **1.** düşmən **1**; **2.** cani

qanlıbıçaq *bax* düşmən **1**

qanlıqaçaq *bax* düşmən **1**

qanlılıq *bax* ədavət

qanmaq *bax* anlamaq

QANMAZ (*burada qanacaqsız, dardüşüncəli mənasında*) [Talıbov:] *Qanmaz* döyülük, a yoldaş, savadımız da var, oxuyub başa düşürük! (Y.Şirvan); **ANLAMAZ** Zorbani-təorüz etdilər diraz; Söylədilər: "Bu nə işdi, *anlamaz*" (Q.Zakir); **DİLBİLMƏZ** [Dilbər:] Nu, nu, yaxşı dizinizi qoyun, nə qədər *dilbilməzsiniz* (C.Cabbarlı); **EŞŞƏK** (*məc., dan.*) [Qulu:] Görəsən, dünyada mənim kimi də *eşşək* adam olarmı? (N.Vəzirov); **GÖNÜQALIN** (*məc., dan.*) Gör yekəbaş, *gönüqalın* axmaq, malını nə günə salıb? (Mir Cəlal); **HEYVƏRƏ** (*dial.*) *Heyvərənin* sosindən ürküb otlamaz heyvan; Deyib, onu çomaqla hədələdi uzaqdan (M.Rahim); **YEKƏBAŞ** (*məc., dan.*) Son yeri göldikdə qamçıla, şair; Duyğusuz, yaramaz, *yekəbaşları* (M.Rahim); **ZIRI** Məmməd gördü ki, çoban *zırının* biridi, heç qanmır ("Müqüm şah"); **ZIRRAMA** (*dan.*) Deyə bilmirdilər ki, *zırrama*, axmaqdır, yoxsa bic tülkünün növəsidir (M.İbrahimov).

qanov *bax* arx

qanovuzu *bax* pürrəng(i)

qantarğa *bax* qapan **I**

qantökən *bax* cani

1. QANUN, QƏRAR, NİZAMNAMƏ

2. qanun *bax* üsul

QANUNİ Çünki bu adama qeyri-təbii və ağılsız görünən bu hadisələr o biri adama tamamilə *qanuni* və təbii görünür (M.İbrahimov); **ŞƏRİ** [Ağa Mərdan:] Amma sənin oğlun onun *şəri* varisidir (M.F.Axundzadə); **RƏSMİ** (*bax*).

qanuni-əsasi *bax* konstitusiya

QANUNİLƏŞDİRMƏK, RƏSMİLƏŞDİRMƏK

QANUNİLƏŞMƏK, RƏSMİLƏŞMƏK

QANUNSUZ (*qanundan kənar*) [Kəlbiyev:] Nə üçün mən bilməliyəm, *qanunsuz* bir şey var? (M.İbrahimov); **QEYRİ-QANUNİ** [Kəlbiyev öz-özünə:] Hər halda özünü xataya salan deyil, yoqin *qeyri-qanuni* bir şey var ki, özü vermoyib, monim icazomi istoyir (M.İbrahimov); **BİQANUN.**

qapağan *bax* qapan **2**

qapamaq *bax* yummaq

qapanmaq *bax* yumulmaq

I QAPAN (*böyük tərəzi*) Qapandibi adlanan böyük meydançada yüklər açılar, *qapanda* çəkilərdi (Çəmənzəminli); **QANTARĞA** (*köhn.*), **QAPAN-TƏRƏZİ, TƏRƏZİ** (*bax*).

II QAPAN *Qapan* it dişin göstərməz (Ata. sözü); **QAPAĞAN** (*tutan, dişləyən it*)

qapan-tərəzi *bax* qapan **I**

QAPAZ (*əl əvəzi ilə başa vurma*) [Şahqulu:] Qızlar qoşulurlar ona, sən öləsən mənə *qapaz*. yumruq.. (N.Vəzirov); **PƏMBƏCƏ** Əgər bir *pəmbəcə* vura sərimə; Xürdü xəmir olub dollam dərimə (Q.Zakir).

1. QAPI Həmzə anasının kənddə yaşadığını bilsə də, qapını bir-iki dəfə itələdi (Ə.Qasımov); **BAB** (*tənt., böyük qapı*) Məktəb nə demək? Ümmətə bir *babi*-səadət (M.Hadi); **DƏR** (*ərx.*) Xoşluq ilə açmasalar dərləri: Sağ qala *dərban* çətindir, çətin! (C.Cabbarlı); **GİRƏCƏK** Ziynət qayıtdı, *girəcəkdə* dayandı (B.Bayramov).

2. qapı *bax* həyət

qapı-bacа *bax* həyət

1. QAPIÇI (*binanın qapısında durub gözətçilik edən xidmətçi*) Xaqan *qapiçıya* işarə verdi: – Əsiri gətirin (Anar); **DƏRBAN** (*köhn.*) Bir sübh *dərban* şəhərin darvazasını açıb gördü ki, bir nəfər cavan dərviş yerə yıxılıb ahu-zar edir (Ə.Haqverdiyev).

2. QAPIÇI (*idm.*), **QOLKİPER**

qapılmaq *bax* uymaq **1**

qapışmaq *bax* boğuşmaq **1**

qaplan *bax* polenq **1**

1. QAPMAQ, DARTIB ALMAQ, QAMARLAMAQ

2. qapmaq *bax* oğurlamaq

3. qapmaq *bax* dişləmək **1**

4. qapmaq *bax* tutmaq **3**

I QARA (*rəng*) Qız cavan idi, *qara* saçlarına ağ çığır, tər sifətinə qırış düşməmişdi (B.Bayramov); **SİYAH** (*kl.əd.*) *Siyah* tellər gərdənində görünür, Könlüm kimi həsrətinlə sürünür (M.Rahim); **ŞƏVƏ** (*qapqara*) (*məc.*) Üzündə, *şəvə* saqqalının xətti pozulmuş, çənəsindəki ağ tükləri çoxalmışdı (S.Qədirzadə); **TAR** (*kl.əd.*) Könlümü qarət edir öylə ki, *tari*-zülfin (Natəvan).

II qara *bax* xuruş **1**

III qara *bax* zəncі

qarabasma *bax* kabus

QARABAŞ/QARAVAŞ (*köhn.*) (*qulluqçu qız, qadın*) Sultan Mahmud vüqarla, əzəmətlə oturmuş; Qabağında müntəzir *qarabaşları* durmuş (M.Rahim); **CARİYƏ** Qətibə taxt-rəvanda ayağını yerə qoyduğu zaman onu yüzlərlə könіz və *cariyə* aralığa aldı (M.S.Ordubadi); **QULLUQÇU** [Nurcahan:] Heç vermərsən də mən sənin *qulluqçunam* (N.Vəzirov).

qarabaxt *bax* bədbəxt

qarabəniz *bax* qarayanız

qarabuğda *bax* çovdar

qarabuğdayı *bax* qarayanız

qaradəban *bax* ağırayaq **1**

qarageymiş *bax* bədbəxt

qaragün *bax* bədbəxt

1. QARAQABAQ Kərəm az danışan və *qaraqabaq* idi (M.İbrahimov); **QAŞQABAQLI** [Sərxan] gələndə on *qaşqabaqlı* adamların belə dodağı qaçırdı (M.İbrahimov).

2. qaraqabaq *bax* qamısoyuq

qaraqışqırıq *bax* səs-küy

qaraquş *bax* qartal

qaralmaq *bax* sönmək

qarama *bax* palçıq

qaramalıq *bax* bataqlıq

QARAMTIL (*qaraya çalar rəng*), **QARAMTRAQ, QARASAYAQ, QARATƏHƏR**

1. QARANLIQ Uca, qorxunc qayalardan ilham alıb yazardım; *Qaranlıqlar* çökən zaman düz yolumu azardım (S.Vurğun); **İŞIQSIZ** İndi sanki o şəfəq süzüb gəlmiş uzağa. Keçib düşüb mükəmməl bu *işıqsız* otağa (M.Rahim); **MÜZLÜM** *Müzlüm* gecə, ətrafı bulud, çən bürüyərkən; Göz yaşlarının boşlədiyi ey gözəl ümid.. (A.Şaiq); **TAR** *Tar* gecələr şölə saçdı; Adın düşdü çox dastana (M.Rahim); **ZÜLMƏT** (*qatı qaranlıq*) *Zülmət* bürümüş köyü ..uğursuz; Göylərdə görünməyir bir ulduz (A.Şaiq); **ZÜLMƏTLİ** Aylı, ulduzlu bir günəşli bahar; Sonra *zülmətli* qış, qasırğalı qar (A.Şaiq).

2. qaranlıq *bax* anlaşılmaz

qarasayaq *bax* qaratoxor

qarasın *bax* qarayanız

qaratəhər *bax* qaramtıl

qaravəlli *bax* lotifo **I**

qaravurğun *bax* iflic

QARAYANIZ/QARAYAĞIZ Hamı dönşündə qəhrəmanlıq nişanını gəzdirən *qarayanız*, güləşişfətli bu yeni adama baxır (R.Rza); Babam saqqalı ağ; qaşları qalın; *qarayağız*, enli alın; bir kişiydi (R.Rza); **ƏSMƏR** [Yunisin] iti baxışları qonşusunun *əsmər* sifətinə zillədi (X.Hasilova); **QARABƏNİZ** Bunlar *qarabəniz* .. uzunsov çöhrəli qadınlardı (M.S.Ordubadi); **QARABUĞDAYI** ..o oğlan ki, bunun ürəyini bağlayıbdır, gödək boylu, *qarabuğdayı* cavan oğlandır.. (N.Nərimanov); **QARAŞIN** Sivri burnundan geniş, *qaraşın* alnında ağ keçid vardı (B.Bayramov).

qarayola *bax* çarpayı

QARDAŞ Bir qədər tərəddüddən sonra Gülsənəm yavaşca *qardaşına* yaxınlaşdı.. (S.Rəhimov); **BƏRADƏR** [Qazı:] *Bəradərim*, mənə sənin başın lazım deyil.. (C.Məmmədquluzadə); **DADAŞ** [Cəlal:] Vallah, *dadaş*, ağam gələndə deyəcəm ki, *dadaşım* iti küşkürürdü adamların üstünə (C.Məmmədquluzadə); **ƏXƏVİ** (*ərx.*) [Məşədi Rəhim:] Rəştdən öz *axəvim* Məşədi Kərim seçib göndərib (C.Məmmədquluzadə); **ƏXİ** (*kl.əd.*) [Bəhlul:] Yalan sözdür, ya *axi*, mən bu qədər məclislərdə olmuşam, sizi tərifləyən görməmişəm (A.Şaiq); **QAĞA** (*məh., böyük qardaş*) Xırda qardaş dayısına xəbər verdi ki, törə Sadığın qızı *qağamı* yoldan çıxarıb (Ə.Vəliyev).

QARDAŞOĞLU (*həm qardaşın oğlu, həm də müraciət formasında*) [Qoyun gətiren adam:] *Qardaşoğlu*, bağışla görək, amma

nöş məni aldadırsan? (Anar); **ƏXƏVİZADƏ** (*köhn.*) [Molla:] *Əxəvizadə*, no illot, conabınızın ismi-şərifinə lağlağı ləqəbi izafə artırırlar? (C.Məmmədquluzadə).

qarderob *bax* **1.** paltarasan **1**; **2.** dolab

qarderobçu *bax* paltarsaxlayan

qare *bax* oxucu

qarət *bax* soyğunçuluq

qarətçi *bax* soyğunçu

qarətkar *bax* soyğunçu

qargülləsi *bax* qartopu

qarğaşa *bax* səs-küy

qarğaşalıq *bax* hərc-mərclik

QARĞI [Alagöz:] [Qız] Forzəli tək *qarğı* kimi o yan-bu yana əsəndir (S.Rəhimov); **QAMIŞ** [İlyas:] Ayağımın altında əzilən *qamışların* şaqqıltısı qorxumu daha da artırırdı (M.Hüseyn).

QARĞIDALI (*uzun boştan bitkisi və onun dəni*) [Bağdagül bacı:] Bura bax, qızım, – dedi, – nədən danışırsan danış, amma *qarğıdalıdan* demə (İ.Əfəndiyev); **MƏKƏ, MƏKƏBUĞDASI, PEYĞƏMBƏRİ.**

QARĞIŞ (*birisinin haqqında pis arzu*) [Göyərçin:] O *qarğış* deyil, bu camaatın ağzına dil atmaqdır (S.Rəhimov); **BƏDDUA** Tərəf saxlasan, qarabağlılığı gözətləşən, *bədduadan* qorxsan, qulluq yaraşdıra bilməzsən (M.F.Axundzadə); **NİFRİN** [Paşa:] Qardaşlarım, *nifrin* tökməkdən, föhş eləməkdən iş aşmaz.. (N.Vəzirov); **YAMAN** Məhəmmədhəsən əmi Əhməddən eşşək necə olmağını soruşan kimi İzzət uca səslə onun üstünə qışqırıb başladı *yamanı* (C.Məmmədquluzadə); **QARĞIMA, LƏN, LƏNƏT**

QARĞIMAQ [Zöhrə:] Rica edirəm, ana, Azər barədə pis söz demə, ona *qarğıma* (M.İbrahimov); **QARĞAMAQ** Belə hallarda Mina xanım ona baxıb *qarğayır*.. (M.İbrahimov); **LƏNƏTLƏMƏK** *Lənətləyir*, od yağdırdı, yurdum hər yandan; Ölüm, – dedi.. (N.Rəfibəyli); **QARĞIŞ ELƏMƏK** [Güllü:] A qırmızı fətir, kimin qardaşına *qarğış eləyirsən?* (Ə.Haqverdiyev); **LƏNƏT OXUMAQ** [Kamil öz-özünə:] Lakin heç vaxt

mənə *lənət oxumadım* (Y.Şirvan); **NİFRİN ETMƏK** O, gözlərinin yaşını silərək kimə isə nalə, *nifrin etdi* (M.İbrahimov); **BOĞMALAMAQ** (*dan.*).

QARĞIŞÇI, BƏDDUAÇI (*qarğış edən adam*) [Qarı:] Demək, əzrayıl özü bəhanə ilə eşşəkdən itələyib yıxar, sonra da deyir ki, camaat ona *bədduaçı* olmasın. Əgər hamını açıqdan-açığa əzrayıl öldürsə, onda hamı əzrayıla *qarğışçı* olar.. (S.Rəhimov).

1. QARI (*qoca arvad*) [Safo Gülsənəmə:] *Qarı* arvaddır, səsini kəs! (S.Rəhimov); **QOCA** Maral .. bu xoşsima *qocanın* başına dolanırdı (A.Şaiq).

2. qarı *bax* arvad **1**

qarıçıqay *bax* torağay

qarıxdırmaq *bax* çaşdırmaq

qarıxmaq *bax* çaşmaq

1. QARIN [Əsgər bəy:] Sən bu səfər get, yolda *qarnın* tutunca biz sənə çörək verərik (M.F.Axundzadə); **BALAXƏNDƏK** (*məc., dan.*) Xan iki dəfə əlini uzadınca axund beş loğma götürüb, *balaxəndəyə* ötürdü (Ə.Haqverdiyev); **GÖDƏN** (*dan.*) ..Məni min fikrə salan bu *gödənimdir, gödənim* (Ə.Qəmküsar); **TULUQ** (*məc., dan.*) Konyakı çay kimi içirsən axşam; Dolur ağzınacan *tuluğun* tamam (S.Rüstəm).

2. qarın *bax* bətn

qarınaltı *bax* tapqır

qarınca *bax* qarışqa

QARINQULU (*həddindən artıq çox yemən adam*), **AC QURD** (*məc.*), **ACGÖDƏN** (*dan.*), **ACGÖZ(LÜ)** (*bax*), **ÇOXYEYƏN, DƏLƏQARIN** (*dan.*), **GÖDƏNQULU, QARINLI** (*dan.*), **YEKƏQARIN** (*məc.*), **YEYİMCİL**

qarınlı *bax* **1.** qarınqulu; **2.** yekəqarın **1**

qarışdırmaq *bax* qatmaq **2**

qarışıq-dolaşıq *bax* anlaşılmaz

qarışıqlıq *bax* hərc-mərclik

QARIŞQA (*kiçik cücü*) Dedi bir gün *qarışqaya* mülçək; Sən zirəksən və ya ki, mən *zirək*? (A.Sohbati); **QARINCA, MUR** (*kl.ad.*) (*Gördülər bir qarınca bir mələxi*; Daşıyır qarşısında sürət ilə; Dedilər: *Mura* bax ki, bunca yükü; Qaldırır bir zəif qüvvət ilə (M.Ə.Sabir).

QARLAŞMAQ (*bir-birinə qar atmaq*) Qız məktəbdən çıxanda hələ də yağırdı qar; Lakin çöldə qaçışıb *qarlaşırdı* uşaqlar (Ə.Cəmil); **QAR OYNAMAQ** Nə qoşəng qar yağıbdır, görün həyətə, bağa! Geyindirin, uşaqlar getsin *qar oynamağa* (Ə.Cəmil); **QARTOPU OYNAMAQ,**

I 1. QARMAQ, ASQI

2. qarmaq *bax* tilov

II qarmaq *bax* qanırmaq

qarma-qarışıq *bax* anlaşılmaz

QARMON (*musiqi aləti*) Küçədə evimizin qarşısındakı quyuluqda gözəl şərqilər söylərdilər, saz və *qarmon* çalırdı (Çəmənzəminli); **QARMOŞKA** (*dan.*) Qaqqıldaşıb gülənlər, *qarmoşka* çalıb oynayanlar, tar çalıb oxuyanlar bir-birinə qarışmışdı (M.Hüseyn).

qarmoşka *bax* qarmon

qarnıac *bax* **1.** ac **1**; **2.** yoxsul

qarnıaçıq *bax* yoxsul

qarnıboş *bax* ac **1**

qarnışişik *bax* yekəqarın **1**

qarnıyekə *bax* yekəqarın **1**

qarnıyoğun *bax* yekəqarın

qarnır *bax* xuruş

qarovul *bax* **1.** gözətçi; **2.** arpacıq

qarovulçu *bax* gözətçi

qarşı *bax* **1.** əksinə **1**; **2.** ön; **3.** üçün **1**; **4.** haqqında; **5.** zidd, ziddinə

qarşıdurma *bax* müxalifət

qarşılaşmaq *bax* rastlaşmaq

QARŞILIQ, ƏCR, MÜQABİL

I 1. QART, QOCA (*toyuq haqqında*)

2. qart *bax* qoca **1**

II qart *bax* bülöv

QARTAL (*yırtıcı quş*) *Qartalın* payıdır vüsətli uçuş (M.Rahim); **QARAQUŞ** Bu dağlar *qaraquş*, quzğunlar yurdu (A.Şaiq); **ÜQAB** (*kl.ad.*) Çığırma, yat, ay ac toyuq, yuxuda çoxca darı gör! Sus, ay yazıq, fozadəki *üqabı*-canşikarı gör! (M.Ə.Sabir); **BERKUT.**

qartdanmaq *bax* qaşınmaq

qartı *bax* yapıncı

QARTOPU (*uşaqların qardan düzəldib oynadıqları top*) Qar yağıb küçələri basmışdı. Uşaqların çoxu ..*qartopu* ata-ata məktəbə gedirdi (B.Bayramov); **QARGÜLLƏSİ** (*məh.*) [Oğul:] Həvəsim yox məscidə getməyə, neylim, a bacı; Qoy gedim küçədə *qargülləsi* oynum, a bacı (M.Ə.Möcüz).

qarun *bax* varlı

qasırğa *bax* tufan, boran

qasıb *bax* işğalçı

qasid *bax* çapar **1**

qasnaq *bax* **1.** göz; **2.** sağanaq

1. QAŞ (*gözün üstündə olan qövsvari tük xətti*) [Leylanın] hilali *qaşları* və iri, mavi gözləri, sol *qaşının* ucundan azca yuxarı gözmuncuğu kimi qapqara xalı var (B.Bayramov); **ƏBRU** (*kl.əd.*) Ey Xətayi, ahuyi-könlün şikar etməkliyə; Dəsti-qüdrət kim, soni *əbru* kaman etmiş durur (Xətayi).

2. QAŞ, ÜZÜK QAŞI *Qaşını* göstərəndə; İtir, yox olur gözdən; Ovcunda gizlədəndə; Çıxır gizli pərdədən; Bildi *üzük qaşıdır*; Onun gözdən itirən; Parıldayan daşıdır; Bu istəyə yetirən (A.Şaiq).

qaşınmaq *bax* gicişmək

qaşqabaq *bax* mısmırıq

qaşqabaqlı *bax* qaraqabaq **1**

1. QAT [Qüdrət:] ..Abşeronun çox yerində iyirmi beş *qatdan* neft götürə bilərik (M.Hüseyn); **TƏBƏQƏ, LAY** Lakin bu kirəli *təbəqə* o qədər də dərin deyildi. Kamil bilirdi ki, altında belə kiroc *layları* olan torpaq üzüm və taxıl bitkiləri üçün çox faydalıdır (Y.Şirvan).

2. qat *bax* mərtəbə **1**

3. qat *bax* dəfə

1. QATAR (*dəmiryol nəqliyyatı*) Uzaqlarda ağ tüstü buraxa-buraxa sürünən dəmiryol *qatarı* görünür.. (M.Hüseyn); **TİREN** (*ərx.*) Yolçunu sabaha bu gün yetirən; Yağsız, makinasız çalışan *tiren!* (S.Vurğun).

2. qatar *bax* patrondaş

3. qatar *bax* qafilə, sıra **1**; corgə

qatar-qatar *bax* dəstə-dəstə

1. QATI (*duru, sıyıq olmayan*); **QƏLİZ, MƏT**

2. qatı *bax* sıx **2**

QATIQ (*süd məhsulu*), **KASAMAS, KEFİR, YOĞURT**

qatırxana *bax* tövlə

qatil *bax* cani

qatlanmaq *bax* **1.** əyilmək; **2.** dözmək

qatlaşmaq *bax* dözmək

qatma *bax* ip

1. QATMAQ, BİRLƏŞDİRMƏK, QOŞMAQ

2. QATMAQ, QARIŞDIRMAQ

QAVAL (*üzərinə dəri çəkilmiş çalğı aləti*) O, ... *qavalı* yerə qoyub, özünə yarım stəkan konyak və qonaqlara dolu şərabdan töküb yaşladı... (C.Məmmədquluzadə); **DƏF** [Əbülhəsən bəy:] "Qaraçı məhəlləsi"nə girdiyimiz vaxt səslər tamamilə dəyişdi: burada kamança, *dəf* və ney səsləri ucalırdı (M.S.Ordubadi).

qavalçalan *bax* qavalçı

QAVALÇI, DƏFÇALAN, DƏFÇİ, QAVALÇALAN, QAVALVURAN

qavalvuran *bax* qavalçı

qavara *bax* boy **1**

qavramaq *bax* anlamaq

qayaqapan *bax* kərtənkələ

qayda *bax* **1.** nizam **1**; **2.** üsul; **3.** adət **1**

qayda-qanun *bax* nizam-intizam

qaydasız *bax* nizamsız **1**

qaydasızlıq *bax* nizamsızlıq **1**

qayə *bax* məqsəd; ideya **1**; məfkurə

qayət *bax* olduqca

QAYĞI ..qoca bostokarın sonsuz *qayğısı*, məni ruhlandıran mehriban danışığı ..mənə qol-qanad verirdi (B.Bayramov); **QEYD** [Pəri Cadu:] Cəmi dünyanın *qeydini* yadından çıxarırsan (Ə.Haqverdiyev); **ƏNDİŞƏ** ..Mənəm qalan həmin bu *əndişədə*; Zəmanə dolanıb, qovğaya bir bax! (Q.Zakir); **YÜK** (*məc.*) Gülsümün *yükü* və dərdi-qəmi gündən-günə artmaqda idi (Ə.Haqverdiyev); **QƏM** (*bax*).

QAYĞIKEŞ (*qayğı çəkən, qayğıya qalan*) Şagird üçün həyəcan keçirən *qayğıkeş* müəllim kimi ona göstəriş verirdi (H.Abbaszadə); **QEYDKEŞ** ..gözündə *qeydkeş* bir ifadə oyanıb, dərhal çəkildi (M.İbrahimov).

QAYĞIKEŞLİK. QEYDKEŞLİK

qayğılı *bax* qəmli

qayğısız *bax* **1.** qəmsiz; **2.** arxayın **1**

QAYIQ Günəş doğur... Ayna suya bulduların əksi düşür. Sahildəki qamışların, *qayıqların* rəqsi düşür (S.Rüstəm); **LODKA** Dəniz üzərində burada-orada bir çox yelkənli və yelkənsiz *lodkalar* görünürdü (T.Ş.Simurğ); **ZÖVRƏQ** (*arx.*) Svistok qışqırıb, koşti rəvan oldu, baxırdım mən; Hələ getməkdə idi *zövraqi*-dəryayi-hürriyyət (M.Ə.Sabir).

qayım *bax* **1.** zil **1**; **2.** xəsis

1. QAYIRMAQ. DÜZƏLTMƏK, HAZIRLAMAQ. YAPMAQ (*köhn.*)

2. QAYIRMAQ. EMAL ETMƏK, HAZIRLAMAQ. İSTEHSAL ETMƏK

3. qayırmaq *bax* etmək

qayış *bax* toqqa

qayışbaldır *bax* arıq

QAYITMAQ [Almaz:] Getmişəm, oxumuşam, yenə də *qayıdıb* bu kəndə, sizin aranıza gəlmişəm (C.Cabbarlı); **DÖNMƏK** [Qafar:] Göl heç olmasa meşənin içində bir az gəzək, sonra geri *dönərik* (H.Abbaszadə); **ÖVDƏT ETMƏK** (*köhn.*) [A.Səhhət] bir qədər Tehranda və ətrafda təbabət etdikdən sonra vətəm-aşlısı olan Şamaxıya *övdət etmişdi* (A.Şaiq).

I qaynaq *bax* bulaq

II qaynaq *bax* caynaq **1**

qaynar *bax* isti **1, 2**

qaysı *bax* ərik

qazaq *bax* süvari

qazamat *bax* həbsxana

QAZAN (*körək bişirmək üçün qab*) *Qazan* dibini yalama, toyunda qar yağar (Ata. sözü); **TAVA** Rübaba yağış suyu ilə dolan *tavanı*, təşti, ..yenə gətirib əvvəlki yerinə **qoydu** (H.Abbaszadə).

1. QAZANC (*qazanılan, əldə edilən şey*) [Sona xanım:] Əgər firəng malında belə *qazanc* var, dəxi pul yiyəsi səninlə niyə bölür (M.F.Axundzadə); **BƏRƏKƏT** *Bərəkət* hərəkətdədir (Ata. sözü); **KƏSB** [Kərbəlayı:] Bəli, zəhmətsiz *kəsb* haramdır (S.Rəhimov); **MƏNFƏƏT** Bu sözlər qardaşının, kəndlilərin ellikcə *mənfəətini*, xoşbəxtliyini istəyən insan olduğuna zəmanət tək şüuruna hökk olunmuşdu.. (Ə.Yusifoğlu).

2. QAZANC, MƏNFƏƏT, XEYİR

qazanclı *bax* mənfəətli

qazma *bax* daxma

qazmadüşər *bax* külüng

qaznaq *bax* çuxur **1**

qeyd *bax* qayğı

qeydkeş *bax* qayğıkeş

qeydkeşlik *bax* qayğıkeşlik

1. QEYRƏT, NAMUS [Rüstəm bəy:] Dünyada ömr eyləmə, eylədin *qeyrəti, namusu* əldən vermə, vəssalam (N.Vəzirov); **HƏMİYYƏT** Min elm deməkdənsə *həmiyyət* gərək olsun (M.Ə.Sabir); **KİŞİLİK** Müqim bəyin *kişiliyinə* toxunan bu atmacadan o, pul kimi qizardı (S.Rəhimov); **TƏPƏR** Adın varmış, *təpərin* yox (Ata. sözü).

2. qeyrət *bax* heysiyyət

3. qeyrət *bax* səy

QEYRƏTKEŞ, QEYRƏTÇƏKƏN, TƏƏSSÜBKEŞ

QEYRƏTKEŞLİK, TƏƏSSÜBKEŞLİK

QEYRƏTLİ Molla Nəcəfqulu özünü *qeyrətli* müsəlmanlardan hesab edirdi (N.Nərimanov); **QEYRƏTMƏND** (*köhn.*) Sənsən İranı eyləyən əhya; Yox sənin tək vücudi-*qeyrətmənd* (Ə.Qəmküsar); **QƏYUR** (*köhn.*) Doğrudan da, Aslan qayət *qəyur*, çalışqan bir uşaq idi (C.Cabbarlı); **PÜRQEYRƏT** (*köhn.*) Nə çoxdur səndə bahümmət; Qəni və sahibi sərvət; Şücaətli və *pürqeyrət* (Ə.Nəzmi); **TƏPƏRLİ** [Salman] ..özünü *təpərli* ..göstərirdi (M.İbrahimov); **QEYRƏTPƏRƏST. NAMUSLU** (*bax*).

qeyrətmənd *bax* qeyrətli

qeyrətpərəst *bax* qeyrətli

QEYRƏTSİZ [Naşad:] ..Zeynal namussuz, *qeyrətsiz* bir kişi deyildir (S.Hüseyn); **BİQEYRƏT** [Hacı Qənbər:] Sən məni lap *biqeyrət* elədin, sürün! (N.Vəzirov); **TƏPƏRSİZ, NAMUSSUZ** (*bax*).

QEYRƏTSİZLİK, BİQEYRƏTLİK, NAMUSSUZLUQ (*bax*)

qeyri *bax* **1.** başqa **1, 2**; **2.** yad **I**; **3.** savayı

qeyri-adi *bax* fövqəladə **1**

qeyri-fəal *bax* passiv

qeyri-həqiqi *bax* saxta **1**

qeyri-ixtiyari *bax* ixtiyarsız

qeyri-iradi *bax* ixtiyarsız

qeyri-qanuni *bax* **1.** qanunsuz; **2.** bic **I 1**

qeyri-leqal *bax* gizli **1**

qeyri-məcburi *bax* könüllü

qeyri-mədəni *bax* mədəniyyətsiz

QEYRİ-MÜMKÜN (*mümkün olmayan*) ..bir neçə il bir-birindən ayrı düşəcəklərdi, bu isə *qeyri-mümkün* bir imtahan görünürdü (S.S.Axundov); **NAMÜMKÜN** [Malik:] Ya xacə, mənim istədiyim *namümkün* bir şeydir (A.Şaiq); **MAHAL** *Mahaldır* eləmək bəylə nöycavan tərkin (Natəvan); **MÜMKÜNSÜZ, BİMÜMKÜN.**

qeyri-müntəzəm *bax* nizamsız **2**

qeyri-müntəzəmlik *bax* nizamsızlıq **1**

QEYRİ-ŞÜURİ [Şofer] *qeyri-şüuri* hərəkətlə qazı artıranda, ..bədüğür fikirdən ayrıldı, başını qaldırdı (B.Bayramov); **MEXANİKİ** (*məc.*) Softor dayı *mexaniki* bir hərəkətlə cığara kağızında çap olunmuş yemeklərin siyahısını götürdü (Anar); **DÜŞÜNMƏDƏN, FİKİRLƏŞMƏDƏN.**

qeyri-təbii *bax* süni

qeysər *bax* padşah

qeysərlik *bax* padşahlıq

qeyz *bax* acıq, hiddət

qeyzləndirmək *bax* hiddətləndirmək

qeyzlənmək *bax* hiddətlənmək

qeyzli *bax* hiddətli

qeyznak *bax* hiddətli

qəbahət *bax* günah, nöqsan **I**

qəbahətsiz *bax* günahsız

qəbalə *bax* qəbz

qəbih *bax* **1.** eybəcər; **2.** ləyaqətsiz

qəbil *bax* növ **1**

1. QƏBİLƏ İki başçı olmayanda mehriban; *Qəbilələr* qılınc, qalxan alardı (M.Rahim); **AŞİRƏT** (*köhn.*) Müxtəlif *aşiratlardan* toşəkkül etmiş və sorbəst həyata alışmış olan Azərbaycan xalqı dəxi islam boyunduruğu və ərəb hakimiyyoti altına qolaylıqla girmədi (A.Şaiq).

2. qəbilə *bax* tayfa **1**

qəbir *bax* məzar

qəbireşən *bax* goreşən

qəbiristan(lıq) *bax* məzarıstan

qəbuledici *bax* radio

QƏBZ (*sənəd, kağız*) [Ağabala:] Onda gərək qabaqca hamama gedim, yoxsa napak *qəbz* almaq olmaz! (Çəmənzəminli); **QƏBALƏ** (*köhn.*) Atabəy bu sözləri deyəndən sonra iki *qəbalə* çıxarıb Qətibə xatunun qarşısına qoydu (M.S.Ordubadi).

qəbzə *bax* dəstək **1**

qəbzəli *bax* dəstəkli

qəcələ *bax* sağsağan

qədd *bax* **1.** boy **I**; **2.** bel **II 1**

qəddar *bax* zalım

qəddarlıq *bax* zalımlıq

qədd-qamət *bax* boy **I**

qədd-qamətli *bax* boy-buxunlu

qədəh *bax* piyalə

qədəm *bax* **1.** ayaq **I 1**; **2.** addım

qədəm-qədəm *bax* addım-addım

qədəmli *bax* xoşqədəm(li)

I qədər *bax* miqdar

II qədər *bax* tək **1**

qədərsiz *bax* saysız-hesabsız

qədim *bax* ibtidai **1**; **2.** köhnə **1**; **3.** antik

qədimi *bax* köhnə **1**

qəhvəxana *bax* qəlyanaltıxana

qəfəxana *bax* dəhliz

1. QƏFƏS (*quşlar, heyvanlar üçün qurğu*) [Seyran:] ..dükan açıq olmasa mütləq içəri girəcək, olmasa vitrinin qabağında durub *qəfəslərdəki* ala-bəzək quşlara tamaşa edəcək (M.İbrahimov); **ƏSARƏT** (*məc.*) Könül bir

quşdur ki, sevməz *əsarət;* Daim çırpınır, istəyir hürriyyət (A.Səhhət); **QƏFƏSƏ.**

2. qəfəs *bax* hobxana

1. qəfəsə *bax* qəfəs **1**

2. qəfəsə *bax* dolab, rəf

qəfil *bax* xəbərsiz **1**

qəfildən *bax* birdən

1. QƏFLƏT, XƏBƏRSİZLİK

2. qəflət *bax* avamlıq

qəflətən *bax* qəfildən

qəhbə *bax* fahişə

qəbər *bax* hiddət

qəhət *bax* qıtlıq, az, qıt

qəhətlik *bax* qıtlıq, azlıq

qəhqəhə *bax* gülüş

qəhr *bax* hiddət

QƏHRƏMAN Bu gün alqış deyək *qəhrəmanlara* (O.Sarıvəlli); **İGİD** (*bax*).

qəhrəman *bax* şanlı **2**

QƏHRƏMANLIQ Yaşadır ayılmış bu insanlığı; Biz sizdən öyrəndik *qəhrəmanlığı* (S.Vurğun); **ƏRLİK** (*məc.*) [Qoca tacir Bamsı Beyrəyo:] İgid oğlan! Sən *ərlik* göstərdin, bizi ölümdən qurtardın.. (Anar); **BAHADIRLIQ** [Dəli Qoçər:] Mənim *bahadırlığım, igidliyim* Ruma, Şama gedib çatar (Anar); **İGİDLİK** (*bax*).

qəlb *bax* ürək

qəlbi *bax* uca **1**

qəlbidaş *bax* daşürəkli

qəlbiqara *bax* paxıl

qəlbiqaralıq *bax* paxıllıq

qəlbilənmək *bax* ucalmaq

qəlbilətmək *bax* ucaltmaq

qəlbinazik *bax* üroyiyuxa

QƏLƏBƏ (*döyüşmə, yarışda və s.-də üstün olma*) Hər bir övladının *qələbəsindən;* Boy alıb ömrünə gün qazanmısan (B.Vahabzadə); **FƏTH** [Mustafa xan:] Ümidini Allaha bağla, inşallah, *fəth* biz ilə olar (Ə.Haqverdiyev); **QALİBİYYƏT** Bu bayram mənimkidir, bu bayram bizimkidir; Bakı *qalibiyyəti* göstərən bir güzgüdür (S.Rüstəm); **TƏNTƏNƏ** (*məc.*) ..Sokinənin açıq *tantənəsi* Rüstəm kişini pərt etmişdi (M.İbrahimov); **ZƏFƏR** (*tənt.*) Dünyada açılan bütün yolların; Əvvəli qeyrətdir, axırı *zəfər* (B.Vahabzadə).

qələbəlik *bax* basabas, izdiham **1**

1. QƏLƏM (*yazmaq üçün alət*) Gəl *qələm* götürüb, qoşa söz tutaq.. (S.Vurğun); **XAMƏ** (*arx.*) Əqlimi puç etdi kitabət, yazı; *Xaməni* atdım, buraxıb kağızı (Ə.Nozmi); **LƏLƏK** (*köhn., məc.*) Odur, şair oturmuş balaca miz dalında; Quş *lələyi* olındə, bir dünya xoyalında (B.Vahabzadə).

2. qələm *bax* lolok **1**

3. qələm *bax* karandaş

qələmdan *bax* qələmqabı

1. QƏLƏMDAŞ, QRİFEL

2. qələmdaş *bax* karandaş

QƏLƏMQABI (*qələm qoymaq üçün qab*) Bu stolun üstündə cürbəcür qələm, *qələmqabı,* mürəkkəbqabı, mərmər suçokon, zəng və bu kimi şeylər vardı (Ə.Əbülhəsən); **QƏLƏMDAN** Bu əhvali-ruhiyyə ilə o [Vaqif], lələnı çağırıb, kağız və *qələmdan* istədi (Çəmənzəminli).

QƏLƏMUCU, PERO

qələndər *bax* **1.** dərviş **1**; **2.** sorsəri; **3.** filosof

qələt *bax* səhv

qəlız *bax* **1.** qatı **1**; **2.** çətin; **3.** anlaşılmaz; **4.** sıx **2**

qəllaş *bax* sorsəri

qəllə *bax* paxıl

qəlp *bax* **1.** saxta **1**; **2.** paxıl

QƏLYAN (*tənbəki çəkmək üçün cihaz*) Tez götürüb tiryakını at kişi! *Qəlyanını* çağla, xoruldat, kişi! (M.Ə.Sabir); **ÇUBUQ** Məhəmmədhəsən əmi təzədən kisəni cibindən çıxarıb, moşğul oldu *çubuğu* doldurmağa.. (C.Məmmədquluzadə); **DEMİ** (*məh.*) Qızım, – deyə gümrah bir kişi *demisini* tüstülədə-tüstülədə irəli yeridi, – mənim adım Həsəndir (Ə.Qasımov).

QƏLYANALTIXANA (*kiçik yeməkxana*); **BAR, QƏHVƏXANA**

QƏM Hər dördü matəmdən, *qəmdən* uçurdu; Xəstə xatirimdə bir həyat qurdu (S.Vurğun); **AĞIRLIQ** (*məc.*) [Balaş:] Gü-

lüşcan, mən böyük *ağırlıq* içindəyəm. Hər günüm bir cəhənnəm əzabıdır (C.Cabbarlı); **AĞRI** (*məc.*) Analar *ağrıda,* bacılar yasda; Qaragün tələfor qara libasda (Z.Yaqub); **BƏLA** *Bəladan* xali olmaz aləm içrə aşiqsadiq (S.Ə.Şirvani); **DƏRD, KƏDƏR** Onunla yox olardı qəmi, *kədəri, dərdi;* İndisə tərk edilmiş, rədd olunmuş bir ordi (Ə.Kürçaylı); **DƏRD-QƏM** Apardı çaylar məni; Ulduzlar, aylar məni; Yükün *dərd-qəm* yüküdü; Yordu bu taylar məni (Bayatı); **DƏRD-SƏR** Azmıdır insanın məgər *dərd-səri?* (B.Vahabzadə); **ƏLƏM** Dağılmaz könlündən fikrü *ələmlər* (M.P.Vaqif); **HÜZN** Qızın çöhrəsində bir *hüzn* vardı (H.Abbaszadə); **KÜDURƏT** Açsan gözünü, rəncü məşəqqət görəcəksən; Millətdə qəm, ümmətdə *küdurət* görəcəksən (M.Ə.Sabir); **QAYĞI** Heyif, ömür qısa, arzu genişdir; Kim bu *qaygı* ilə titrəməmişdi (M.Müşfiq); **QƏM-KƏDƏR** Onda yoqin deyərsən ki, ah, nə qəm, nə dərd, dünya beş gündür, beşi də qara, dərd və *qəm-kədər* (N.Vəzirov); **QƏM-QUBAR** Noldu, xanım, niyə qəndə çöhrənizə *qəm-qubar?* (Ə.Cəmil); **QƏM-QÜSSƏ** Sən mənim könlümə bahar gətirdin; *Qəm-qüssədən* özgə nə var gətirdin (S.Rüstəm); **QUBAR** (*məc.*) Keçər ürək dərdi, könül *qubarı* (N.Rəfibəyli); **QÜSSƏ** [Məryəmin] fikirdən, *qüssədən* az qalırdı üroyi partlasın (M.İbrahimov); **MƏLAL** Tutulur üroyim dərdə, *məlala;* Sıxılır sinəmin bir bucağına (M.Rahim).

qəmavər *bax* cansıxıcı

qəməlti *bax* biçaq

qəmər *bax* ay

qəmərüz(lü) *bax* ayüz(lü)

qəmgin *bax* qəmli

qəm-qubar *bax* qəm

qəm-qüssə *bax* qəm

QƏMLƏNMƏK Millətin dərdi ilə *qəmləndin;* Bulmadınmı dəva, xoromlondin? (A.Səhhət); **DƏRDLƏNMƏK** Goray boy *dərdlənir* qarlı dağ kimi (S.Vurğun); **QƏM ÇƏKMƏK** *Qəm çəkmə* bu qədər, divanə könül; Həmişə ruzigar böylə dər olmaz.. (Aşıq Qurbani); **QƏM YEMƏK** ..Heç *qəm yemə,* Nərimən; Unutma ki, belə getməz bu yaşayış, bu dövran (S.Rüstəm); **QƏMGİN OLMAQ** ..Piri kişi xeyli *qəmgin oldu..* (S.S.Axundov); **QUBARLANMAQ** Kişi *qubarlanıb* soldu büsbütün (M.Rahim); **QÜSSƏLƏNMƏK** Nədənsə Əhmədi isti yay günlərində sorçələrin cikkiltisinə qulaq asanda *qüssələnirdi* (İ.Şıxlı).

QƏMLİ *Qəmli* könlüm yenə şad oldu, ruxi-yari görüb; Arizində o məhin türreyitorrarı görüb (Ə.Vahid); **BİKEF** [Bədəl:] Yoldaşlar, daha bundan sonra məni *bikef* görməzsiniz (Ə.Haqverdiyev); **KƏDƏRLİ** *Kədərli* bir qəlbin yanıq fəğanı; Yandırar üroyi daşdan olanı (Ə.Cavad); **QƏMGİN** Qaraca qız da *qəmgin* idi (S.S.Axundov); **QƏMNAK** (*köhn.*) Bir nalə qılan nar dili-*qəmnakdan* özgə? (S.Ə.Şirvani); **QƏMZADƏ** (*köhn.*) Bozm əhli tikibdir sənə yeksər gözün, əmma; Gözlə məni, cana ki, füzun *qəmzadəyəm* mən (Q.Zakir); **QÜSSƏLİ** Molok ..fikirli və *qüssəli* idi (M.İbrahimov); **MƏHZUN** Bu axşam niyə belə *məhzunsan,* qəmlisən?.. (M.İbrahimov); **NAŞAD** (*kl.əd.*) Gəzər məcnun tək avarə mənim *naşad* könlüm (Natəvan); **QAYĞILI** Yol boyu uzanan işıq xətləri; Bakının *qayğılı* nəzərləridir (M.Araz); **QUBARLI** *Qubarlıydım* azca, süstdüm bir qədər (M.Rahim); **PƏRİŞAN** Niyə o, dalğın gedir, *pərişan* gedir (B.Vahabzadə); **DƏRDLİ** (*bax*).

qəmnak *bax* qəmli

QƏMSİZ, DƏRDSİZ (*heç bir qayğısı, qəmi olmayan*) ..Yurdumda baş qaldırıb göyərsin təzə bağlar; *Dərdsiz, qəmsiz* böyüsün bütün körpə balalar (M.Rahim); **BİQƏM** (*köhn.*) Layiq deyil sənə nakəsi-*biqəm;* Adam gərək ola adama həmdəm (M.P.Vaqif); **KƏDƏRSİZ** ..Aparacaq bizi; *Kədərsiz* bir dünyaya (R.Rza); **QAYĞISIZ** Bu *qayğısız* yaşamağı, ölqərəz; Bir şey ilə etmək olarmı əvəz? (A.Səhhət); **QÜSSƏSİZ** O qəmsiz, *qüssəsiz,* o xoşbəxt üzü; Mənim ilhamıma yaxındır, düzü.. (S.Vurğun).

qəmzadə *bax* qəmli
qəmzə *bax* naz
qəmzəli *bax* nazlı
qənaət *bax* fikir **1**

QƏNAƏTBƏXŞ, KİFAYƏTEDİCİ, QANEEDİCİ, QƏNAƏTLƏNDİRİCİ

qənaətlənmək *bax* kifayətlənmək
qənbərqulu *bax* cəncəl

QƏND Gəmi gəlir, long gəlir; İçi dolu *qənd* gəlir; Gəlin bir söz deyəndə; Qaynanaya dərd gəlir (Bayatı); **RAFİNAD** (*parça qənd*); **ŞƏKƏR** Kəsdiyim qızıl qovun; Şirindi *şəkər* kimi (M.Rahim).

qəndab *bax* şərbət
qənddan *bax* qəndqabı

QƏNDİL (*asma lampa*) Könlümdə fərəhdən *qəndillər* yanır; Tez keçib bir yanda sakit dayanır (Ə.Cəmil); **AVİZƏ** (*köhn.*) Onlar ..qızıl *avizələrlə* bəzənmiş böyük salona girdilər (M.S.Ordubadi); **ÇİLÇIRAQ** *Çilçıraqlarla* işıqlandırınq xanələri; Zalxalar daxmasına çökdü qaranlıq, bizə nə?! (M.Ə.Sabir); **LÜSTR.**

QƏNDQABI (*qənd qoymaq üçün qab*) Çox qədimdən qalmış və taleyin anlaşılmaz yolları ilə gəlib bura düşmüş çini *qəndqabı*, iri doğranmış qəndlə dolu idi (M.İbrahimov); **QƏNDDAN** Kərbəlayı qənd istədi. Durnisə *qənddanı* götürüb uzatdı (Çəmənzəminli).

qənəpə *bax* divan **I**
qəni *bax* varlı
qənim *bax* düşmən **I**
qənimət *bax* fürsət

QƏNNADI (*müxtəlif şirni məmulatı*) Xanım bir *qənnadı* mağazasına daxil oldu (Çəmənzəminli); **ŞİRNİYYAT** Bufetdə isə ən yaxşı restoranlarda gördüyünüz müxtəlif *şirniyyat*, içki, papiros tapa bilərsiniz (M.Hüseyn).

QƏPİK Sarıköynəklə mən bilirdik ki, oğlu Güllübəyim xalaya bir *qapik* də göndərmir (İ.Əfəndiyev); **QURUŞ** Mənim nəzərimdə başqalarından mərhəmət və şəfqət istəyən adamla, qapı-qapı gəzərək çörək diləyən, bir *quruş* üçün hər gələnə əl açan diləncı arasında heç bir fərq yoxdur (M.İbrahimov).

qəpikpərəst *bax* xəsis
qəpikpərəstlik *bax* xəsislik

I 1. QƏRAR (*müəyyən bir məsələni müzakirə etdikdən sonra çıxarılan nəticə*), **QƏRARNAMƏ, QƏTNAMƏ**

2. qərar *bax* qərardad
3. qərar *bax* fikir **2**

II qərar *bax* rahatlıq

QƏRARDAD, ƏMR, QƏRAR, SƏRƏNCAM

qərargah *bax* ştab
qərarnamə *bax* qərar **I 1**
qərarsız *bax* narahat

1. QƏRB (*coğr., cəhət*); **VEST, MƏĞRİB**

2. qərb *bax* günbatan

I qərəz *bax* məqsəd, niyyət

II qərəz *bax* xülasə **I**

qərib *bax* **1.** yazıq **1**; **2.** kimsəsiz; **3.** qəribə

QƏRİBƏ, ÇOX MARAQLI, QEYRİTƏBİİ (*bax*), **QƏRİB, TƏƏCCÜB**

QƏRİBSƏMƏK Mən də sizsiz *qəribsədim*, uçmaq istər ruhum daha (Ə.Cavad); **DARIXMAQ.**

qərinə *bax* əsr **1**
qərya *bax* kənd
qərz *bax* borc **1**
qəsb *bax* işğal
qəsbkar *bax* işğalçı, təcavüzkar
qəsbkarlıq *bax* təcavüzkarlıq
qəsd *bax* **1.** məqsəd; **2.** niyyət
qəsdçi *bax* terrorçu
qəsdçilik *bax* terrorçuluq

QƏSDƏN ..Pəri xala *qəsdən* ora-bura baxırdı ki, fikri bir az yayınsın.. (M.İbrahimov); **BƏRQƏSD** [Qarpızı] kəsirsən qıpqırmızı. Elə bil içinə *bərqəsd* bal töküblər (Ə.Vəliyev); **BİLƏ-BİLƏ** *Bilə-bilə* bu səfərdən dönən deyiləm... (Hidayət); **BİLƏRƏK-(DƏN)** [Ənvər:] Səni *bilərəkdən* böylə bir yanğına, böylə bir oda ata bilərmiyəm? (C.Cabbarlı).

qəsd-qərəz *bax* ədavət

qəsəm *bax* and
qəsidə *bax* mədhiyyə
qəsr *bax* saray
qəssabxana *bax* sallaqxana
qəşəng *bax* gözəl **1, 2**; inco **1**
qəşəngləşmək *bax* gözəlləşmək
qəşənglik *bax* gözəllik

QƏŞŞ (*bayılma*) Mən qorxudan bihuş olub yıxıldım; *Qəşş* aləmində bir tamaşa qıldım (A.Səhhət); **BAYĞINLIQ** Ayna onu sarmış ani bir *bayğınlıqdan* ayılaraq, ağacdan ayrıldı (Ə.Məmmədxanlı); **BİHUŞLUQ** Kiçik Lena *bihuşluqdan* ayıldı, gözlərini açdı (S.S.Axundov).

qəta *bax* qətiyyən, əsla
qətən *bax* qətiyyən
qətilik *bax* qətiyyət

QƏTİYYƏN Saçının qoxusundan, bədəninin ətrindən hiss etdi ki, onun qoynuna sığınan, həsrətini çəkdiyi doğma qızı Güləsərdir. O, *qətiyyən* dəyişməyib, yenə əvvəlki kimi atasına mehribandır (İ.Şıxlı); **QƏTA** Ahim etmoz heç əsər *qəta* sənə.. (Əmani); **QƏTƏN** Belə insan kimi danışmanı mən; Sanki unutmuşdum ol zaman *qətən* (A.Səhhət); **ƏSLA** (*bax*).

QƏTİYYƏT, CƏSARƏT (*bax*), **ƏZM, QƏTİLİK, SƏBAT**

qətlkar *bax* cani
qətnamə *bax* qərar **I 1**
qətrə *bax* damcı
qətrə-qətrə *bax* damla-damla
qəvi *bax* güclü
qəviləşmək *bax* güclənmək **I**
qəvvas *bax* üzgüçü
qəyyum (*məc.*) *bax* vəkil **1**
qəyyur *bax* qeyrətli

1. QƏZA Kamal *qəzaya* düçar olmuş qadını təcili yardım məntəqəsinə təhvil verdi (S.Vəliyev); **AVARİYA** Çünki yaxşı günün ehtiyatı pis günü yaxşı qarşılamağa, gözlənilməz *avariyaları*, ..təşvişə düşmədən qarşılamağa kömək edirdi (M.İbrahimov); **HADİSƏ.**

2. qəza *bax* tale **1**
3. qəza *bax* əhvalat

qəzavü-qədər *bax* **1.** tale **1**; **2.** hadisə **1**

QƏZET *Qəzetlərdə* onun barəsində məqalələrin çıxması, şəklinin çap olunması Həmidə ruh verdi (H.Abbaszadə); **CƏRİDƏ** (*köhn.*) [Qəzetçi:] Mən *cəridəm* dolmaq üçün mətləbi uzatmışam (M.Ə.Sabir); **RUZNAMƏ** (*köhn.*) Rzaqulu xanın bu ərizəsi o vaxtlar Tehranda çıxan rəsmi *ruznamə* olan "İran"nam *ruznamənin* heyəti-təhririyyəsi tərəfindən məsləhət görülmədi, ərizə geri qaytarıldı (M.S.Ordubadi).

qəzetçi *bax* jurnalist; müxbir **1**
qəzetxana *bax* redaksiya
qəzetpaylayan *bax* poçtalyon
qəzəb *bax* hiddət, acıq
qəzəbləndirmək *bax* hiddətləndirmək
qəzəblənmək *bax* hiddətlənmək
qəzəbli *bax* hiddətli
qəzəbnak *bax* hiddətli
qəziyyə *bax* hadisə **1**

QIÇ Başı, beyni, *qıçı*, qarnı sərasər; Ki olsun büsbütün insana bənzər (Ə.Qəmküsar); **AYAQ** ..əlbəttə, bığlı kişi aşağı düşməyəcək, çünki *ayaqlarının* ikisi də yoxdur (Elçin); **BACAQ** [O] sağ *bacağını* bükərək, dizini sandalyanın üstünə qoydu (Ə.Əbülhəsən); **QILÇA** [Zeynalın] ürəyi əsdi, *qılçaları* titrədi (B.Bayramov).

qıfıl *bax* kilid
qıfıllamaq *bax* **1.** kilidləmək; **2.** susmaq
qıfıllanmaq *bax* kilidlənmək
qıfıllı *bax* kilidli

QIĞILCIM (*od zərrələri*) [Həmidin] gürz əlində oyuncaq kimi idi, onu hər dəfə zindana zərbə vuranda kürədən çıxmış qızmar dəmirin *qığılcımları* bayram fişənginin *qığılcımları* kimi otrafa səpələnirdi.. (H.Abbaszadə); **ŞƏRƏR** (*kl.əd.*) Ahın *şərəri* etmoz əsər bir kəsə, Hop-hop; Bu od sənin ancaq alışan canın üçündür (M.Ə.Sabir); **ŞƏRARƏ** (*kl.əd.*) Oynatmaqdadır qəlbimi atəşli bir ahəng; Vulkan kimi püskürməkdə ətrafə *şərarə* (A.Şaiq).

qıl *bax* tük

qılaf *bax* qın **I**
qılça *bax* qıç
qılıq *bax* xasiyyət
qılıqlamaq *bax* tovlamaq
qılıqsız *bax* bədxasiyyət
QILINC (*kəsər silah növü*) [Qurbanəli bəy:] Allah düşmən qabağında sizin *qılıncınızı* kəskin etsin (C.Məmmədquluzadə); **XƏNCƏR** (*iri ağızlı qılınc*) Həmzə öz köhnə arvadını görər-görməz yerindən sıçradı və Əhmədin bu hərəkətini bəhanə edərək belindəki *xəncəri* sıyırdı (M.Hüseyn); **ŞƏMŞİR** (*köhn.*) Tüf sənə, həm sənin rəqsədənə; Həm də *şəmşirinə*, şücaətinə (A.Səhhət); **TİĞ** (*kl.əd.*) (*obrazlı təşbehlərdə də işlədilir*) Çox *tiğini*, gər var isə günahım; Öldür, gərdən mənim, ixtiyar sənin (Q.Zakir).
qılı *bax* tüklü
qımıldanmaq *bax* tərpənmək **I**
qımır *bax* hiddət
qımışmaq *bax* gülümsəmək
1. QIN (*xəncər, qılınc və s. silah qabı*) Fəxrəddin və Əlaəddinlərin qılıncları *qınında* paslandığı kimi, böyük Nizami də gözlərini əbədi olaraq yummuşdu (M.S.Ordubadi); **QILAF** Qütlüğ İnanc əlindəki piyaləni yerə çırpdı və qılıncını *qılafdan* çıxardı (M.S.Ordubadi).
2. QIN Bağa *qınından* çıxdı, *qınını* bəyənmədi (Ata. sözü); **ÇANAQ** Yüzlərlə Hindistan tısbağasının *çanağını* kəskül qəyırıb qoluna keçirən bu dilənçilərin hər biri bir cür qəsidə oxuyurdu (M.S.Ordubadi).
qınaq *bax* **1.** danlaq; **2.** töhmət; **3.** məzəmmət
qınamaq *bax* məzəmmətləmək
qınc *bax* naz
qıncanmaq *bax* nazlanmaq
I qır *bax* çal
II qır *bax* səhra, düzən
III qır *bax* naz
1. QIRAQ (*müxtəlif mənalarda: bir şeyin kənarı, yanı*) Yolun *qırağı* ilə xırdaca arx axırdı və arxın *qırağında* da bir nəfər qoca kişi çömbəlib saqqalının xınasını yuyurdu (Ə.Haqverdiyev); **KƏNAR** [Vaqif:] Dağların döşündən yollar çəkilsin; Yollar *kənarında* güllər əkilsin (S.Vurğun); **YAN** Qulu ..ehtiyatla quyunun *yanına* uzanıb diqqətlə baxdı (A.Şaiq).
2. qıraq *bax* sahil
3. qıraq *bax* yad **I 1**
4. qıraq *bax* uçqar
5. qıraq *bax* haşiyə
qırğın *bax* ölüm
qırxdilli *bax* riyakar
qırıq *bax* **1.** sınıq; **2.** incik
qırılmaq *bax* **1.** sınmaq; **2.** ölmək
qırılmaz *bax* sarsılmaz
qırma *bax* saçma **1**
qırmaq *bax* **1.** sındırmaq; **2.** öldürmək
qırmanc *bax* şallaq
qırmanclamaq *bax* şallaqlamaq
qırmızı *bax* al **I**
qırtlaq *bax* xırtdək
1. QISA [Səlimə:] Mən də saçlarımı, bu dəfə Bakıda son dəbə uyğun olaraq *qısa* vurdurmuşam (İ.Əfəndiyev); **GÖDƏK** (*bax*).
2. QISA [Dilmanc:] Adam sözü *qısa* deyər (C.Məmmədquluzadə); **MÜXTƏSƏR** () [Həbib], içəri girən Həmidi görüncə söhbətini *müxtəsər* eləyib dəstəyi asdı.. (H.Abbaszadə); **YIĞCAM, İCMALƏN** (*köhn.*).
qısaboy(lu) *bax* alçaqboy(lu)
QISIR İndi də otlık *qısır* inəklər kimi şişib kökəlmişdi (M.İbrahimov); **QISRAQ** [Beyrək:] And içmişəm *qısrağa* mindiyim yox (Anar); **ƏRƏMİK** *Ərəmik* inəkdən öküz olmaz (Ata. sözü); **DOĞMAYAN.**
qısqac *bax* məngənə
qısqınmaq *bax* utanmaq
qısraq *bax* qısır
QIŞ (*ilin ən soyuq fəsli*) [Qəndab:] Qarlı-çovğunlu *qışın* necə gəlib getdiyindən, yazın necə açıldığından xəbərim olmadı (B.Bayramov); **ZİMİSTAN** (*kl.əd.*) [Molla Fozloli:] Nə eybi var, hər gecənin bir səhəri və hər *zimistanın* bir baharı olar (C.Məmmədquluzadə).

qışqır-bağır *bax* hay-küy
qışqırıq *bax* hay-küy
qışqırmaq *bax* çığırmaq
qışqırtı *bax* çığırtı
qışla *bax* kazarma
QIT, QƏHƏT, AZ (*bax*)
QITLIQ, QƏHƏT, QƏHƏTLİK
qıvraq *bax* **1.** çevik; **2.** sağlam
qıvraqlıq *bax* **1.** çeviklik; **2.** sağlamlıq
qıvrıq *bax* qıvrım
QIVRIM (*saça dair*) [Mötəbərov:] ..divanın güzgüsü qabağında dayandı, qara *qıvrım* saçlarını daradı.. (M.Hüseyn); **BURUQ** Fermaya gedən arvad hey qızın başını sığallayır, onun *buruq* qara tellərini oxşayır və heç bir söz demirdi (M.İbrahimov); **QIVRILMIŞ** Kişininüz-gözünü *qıvrılmış* tük basmış, yanaqlarını və alnını sarı bir ləkə tutmuşdu (S.Rəhimov); **QIVRIQ.**
qıy *bax* çığırtı
qıyıq *bax* çuvalduz
qıyqac *bax* çəpəki
QIZ [Sevil:] Hə ..daş düşsün *qızın* olan gününə (C.Cabbarlı); **DÜXTƏR** (*arx.*) Var tamahım, doğrusu, bir *düxtərə;* Elçi də saldım Məşədi Səftərə (Ə.Nəzmi).
1. QIZARMAQ, ALLANMAQ, QIRMIZILAŞMAQ
2. qızarmaq *bax* utanmaq
qızartı *bax* şəfəq
1. QIZARTMAQ, QIRMIZILAŞDIRMAQ
2. qızartmaq *bax* utandırmaq
qızdırma *bax* hərarət **1**
1. QIZDIRMAQ Yasəmən çayın qırağında su *qızdırıb* paltar yuyurdu (S.S.Axundov); **İSİTMƏK** [Bayaz] axşamdan qalmış quzuqulağı dolmasını *isitdi* (Ə.Vəliyev); **QIZIŞDIRMAQ** *Qızışdırar* bahar ayı yerin, göyün havasını.. (A.Səhhət).
2. QIZDIRMAQ, HƏRARƏTİ QALXMAQ
qızdırmaölçən *bax* hərarətölçən
qızğın *bax* **1.** isti **2**; **2.** gərgin **1**; **3.** atəşin
1. QIZIL (*sarı rəngli qiymətli metal*) Gödəkboy, başının tükü tökülməyə üz qoymuş bir oğlan ötkəm-ötkəm danışdıqca qabaqdakı *qızıl* dişləri parıldayırdı (Ə.Vəliyev); **ALTUN** (*köhn.*) Nigara bir çox *altun* zinətlər və qiymətli daşlar gəldi (Çəmənzəminli); **SARI** (*dan.*) Təmiz vicdanı heç bir *sarı* ləkələyə bilməz (S.Rəhimov); **ZƏR** [Həmzə:] Ay-hay, yaxşı deyiblər ki, *zər* qədrini zərgər bilər (Ə.Qasımov).
2. qızıl *bax* al **I**
QIZILGÜL Nəcibəgilin həyətində meyvə ağacı yox idi. Mərhum atası həyətin bir başında *qızılgül*, yasəmən, akasiya ağacları basdırmışdı (H.Abbaszadə); **VƏRD** (*kl.əd.*) Demə hər surətdə bitəcrübə mərdüm göz ilə; *Bərg* hər növi ki, gülşəndə bitər vərd olmaz (M.V.Vidadi).
QIZIRQANMAQ (*verməyə əli gəlməmək*) [Davud:] Mən buna görə heç nəyə *qızırqanmıram*, camaatın sağlamlığı yolunda canımı qoyuram (H.Abbaszadə); **ƏSİRGƏMƏK** İndi məndən *əsirgəmə;* Gözəl gülüm, bir yarpağı; Biz sənin lə dostuq axı!.. (R.Rza); **HEYFİ GƏLMƏK, XƏSİSLİK ETMƏK.**
1. QIZIŞDIRMAQ, ALOVLANDIRMAQ (*közü üfürməklə*)
2. qızışdırmaq *bax* qızdırmaq **1**
3. qızışdırmaq *bax* hiddətləndirmək
qızlıq *bax* bəkarət
1. QIZMAQ Gün *qızmışdı*. Arxacda iri göy çibinlər vızıldaşırdı (İ.Şıxlı); **İSİNMƏK** ..havalar yavaş-yavaş *isinməyə* başlayır (S.Şamilov).
2. qızmaq *bax* hiddətlənmək, coşmaq **2**
3. qızmaq *bax* inanmaq **1**
qızmar *bax* isti **2**
qiblə *bax* conub
qiblənüma *bax* kompas
qibtə *bax* paxıllıq
qidalandırmaq *bax* yedirmək
QİRAƏT (*müəyyən qayda və üsul ilə oxuma*) Axşam vaxtı oraya adamlar cəm olub, söhbətə, *qiraətə*, musiqiyə məşğul olurlar (C.Məmmədquluzadə); **OXU** [Molla

Sadıq:] Bizim mürşidimiz, ceddinə qurban olduğum Seyid Nigarinindir. *Oxu* öyrən, başqalarını da başa sal, onun müridi ol.. (İ.Şıxlı); **MÜTALİƏ** Hidayət masa arxasında oturub, ciddi bir *mütaliəyə* dalmışdı (M.Hüseyn).

qiraətçi *bax* oxucu

QİRAƏTXANA 1896-cı ildə Əhmədbəy Şuşada ..birinci olaraq *qiraətxana* və kitabxana təşkil etdi.. (Cəmənzəminli); **QİRAƏT ZALI (SALONU)** *Qiraət zalında* Vahidin bir məsəsi vardı (Mir Cəlal); **OXU OTAĞI (ZALI)** Azər Russonun seçilmiş əsərlərini ..alıb *oxu otağına* keçdi (Ə.Kərim).

qisas *bax* intiqam

qisas almaq *bax* intiqam almaq

qisim *bax* **1.** hissə **1**; **2.** növ **1**

qismət *bax* **1.** tale **1**; **2.** hissə **1**; **3.** pay **1 1**; **4.** bəxt

1. QİTƏ (*Yer kürəsinin həm quru, həm də su olan hissəsi*) Nə yaxşı ki, insan ölü yetmir Günəşə: Yetə bilsə, min *qitəyə* parçalayacaq (M.Araz); **MATERİK, KONTİNENT** (*qurunun hissələrindən biri*) Yer kürəsində altı *materik* və ya *kontinent* vardır ("Materiklər coğrafiyası").

2. qitə *bax* ölkə

3. qitə *bax* hissə **1**

qiyafət *bax* **1.** paltar; **2.** görünüş

QİYAM Zəhir Bəlxı bütün bu tədbirlərlə razılaşsa belə, qoşunun Toğrul əleyhinə *qiyam* etməsilə razılaşa bilmirdi (M.S.Ordubadi); **BUNT, ŞURİŞ** Təvəqqəmizi *bunt (şuriş)* hesab edib, divana məlum etməyi xahiş elədi (N.Vəzirov); **ÜSYAN** Arası kəsilmədi nə *üsyanın*, nə qanın (Ə.Cəmil).

QİYAMÇI (*qiyam edən şəxs*) [Prokuror:] Baxşı da *qiyamçılar* təşkilatlarında iştirak etmişdir (C.Cabbarlı); **ÜSYANÇI** [İldırım:] Tülkiyə bax, kənddəki *üsyançıları* öyrənmək istəyir (A.Şaiq); **BUNTÇU**.

1. QİYAMƏT, MƏHŞƏR (*din.*) (*qiyamət günü*) Mənə mənca təvəhhüm çox vericən *rüzi-məhşərdən*. *Qiyamət* varmı, ey vaiz, fəraqı-yardən artıq? (M.V.Vidadi); **HƏŞ(İ)R** [Əmiraslan ağa:] Qoşqarından dağıstanlılar düşmənimiz bolşeviklərə elə bir toy tutmuşlar ki, ta *həşrədək* yadlarından çıxarmazlar (S.S.Axundov).

2. qiyamət *bax* fəlakət

3. qiyamət *bax* gözəl **1**, **2**

qiymaqovurma *bax* xuruş

QİYMƏT Çox ucuz *qiymətə* hər şey satıram.. (M.Ə.Sabir); **BAHA** Bu sandıqda yüz min dinar *bahasında* daş-qaş, cavahirat vardır (M.Hüseyn); **MALİYYƏT** (*dan.*) [Həsən:] A başımıza dönüm, [qoyunun] *maliyyəti* dörd abbasıdır (Ə.Haqverdiyev); **MƏZƏNNƏ** (*bazar qiyməti*) ..boş mənzil tapan kimi, *məzənnəyə* məhəl qoymadan, köçünü düşünür.. otağını ikiqat qiymətə sırıyır (B.Bayramov); **DƏYƏR**.

qiymətli *bax* bahalı

qiyyə *bax* çığırtı

qobu *bax* dərə

1. QOCA (*çox yaşlı*) O çox təəccüb elədi ki, həmin gördüyü *qoca* kişi əyləşib yuxarı başda döşəyin üstə (C.Məmmədquluzadə); **AĞSAQQAL** ..mən də onların ancaq *ağsaqqal* yoldaşıyam (C.Məmmədquluzadə); **AHIL** [Vaqif:] ..bir cahil, bir də mənim kimi *ahıl* yazıçı yazır.. (Cəmənzəminli); **BİR AYAĞI BURDA, BİR AYAĞI QƏBİRDƏ** (*fr.v.*) (*çox qoca*) [Əhmədin] arvadı Nabat xalanın qoca, *bir ayağı burda, bir ayağı qəbirdə* olduğu üçün Əhmədi varislər arasına daxil etmirdi (B.Talıblı); **İXTİYAR** *İxtiyar* qadın iki kərə gəlib naharın hazır olduğunu söylədi (M.S.Ordubadi); **QART** ..topa bığlı bir *qart* kişi longor vura-vura meydançaya çıxdı.. (H.Abbaszadə); **MÜSİNN** (*köhn.*) Hacı Xəlil, *müsinn* şəxs, həştad beş il dünyada ömür edəndən sonra, xudavəndi-aləmin əmrini yerinə yetirməkdə idi (Ə.Haqverdiyev); **PİR** *Pirə* ata dedim, cavana qardaş; Ana-bacı bildim qızı, gəlini (Aşıq Ələsgər); **SİNLİ** *Sinli* bir kişi dedi: – Belə çıxır ki, paraya doymə, bütövü kəsmə, doğra, doyunca ye.. (Ə.Vəliyev); **YAŞLI** Mənim yaşıdlarım bilmirəm nədən; Çox *yaşlı* görünür məndən... (B.Vahabzadə).

2. qoca *bax* ər **1**

3. qoca *bax* köhnə, qədim **1**

4. qoca *bax* nurani **1**

5. qoca *bax* ağbirçək **1**

QOCALMAQ Əfsus *qocaldım*, ağacım düşdü əlimdən (M.Ə.Sabir); **BELİ BÜKÜLMƏK** (*fr.v.*) Saqqal ağarıb, bel *bükülüb*, dinmə filani! Övqatın olub təlx (M.Ə.Sabir); **QARIMAQ** (*qadın haqqında*) Bu qırx ildə də *qarıdıqca* onun [Zibanın] qısqanclığı artırdı (S.Rəhimov); **YAŞLAŞ(N)MAQ** Doğrudan da, *yaşlandıqca* Qaraş və Porişan Rüstəmin ocağına unudulmaz bir sevinc, xoş bir şadlıq gətirmişdi (M.İbrahimov); **AHILLAŞMAQ**.

qoç *bax* **1.** erkək **1**; **2.** igid

qoçaq *bax* **1.** igid; **2.** zirək, bacarıqlı

qoçaqlıq *bax* **1.** igidlik; **2.** ziroklik

QODUQ (*eşşək balası*) [Səfərəli:] Qoduq yal gəmirməz; yal gəmirən *qoduqdan* daha nəcib bir heyvandır (S.Hüseyn); **SIPA** [Molla:] Ömrümüzdə bir dəfə ər-arvad deyə-gülə bir plov yeyəcəkdik, onda da qonşunun eşşəyi quyruqsuz *sıpa* doğdu (M.N.lot.); **XOTUQ**.

qoduqluq *bax* həbsxana

qoğa *bax* əsa

QOĞAL Güllü don tikərəm, alıb geyərsən; Sən də şirin-şirin *qoğal* yeyərsən (S.Vurğun); **KÖKƏ** Mayıl eyvanda *kökə* yeyirdi (Mir Cəlal).

QOXU (*həm ətir, həm də üfunət iyi*) Torpaq bahar *qoxusu* verirdi (M.İbrahimov); **İY, ƏTİR** (*xoş iy*) Bu doğma saçlardan ana *ətri* gəlirdi, onun öz anasının *iyi*... (H.Abbaszadə); **RAYİHƏ** Bürüdü *rayihə* bütün aləmi; Dedim: *Ətir* saçan dağda laləmi? (M.Rahim); **ÜFUNƏT** (*pis iy*) Ev bomboş və *üfunətlə* dolu idi (S.Rəhimov).

qoxulamaq *bax* iyləmək

QOXULU (*iyi, ətri olan*) Bənövşə *qoxulu* yardan ayrılan; Gündə yasa batar, günü zar olar (M.P.Vaqif); **İYLİ** Bülbül tək fəryadım çıxdı fələkə; Cənnət *iyli* gülzarı görəydim (M.P.Vaqif); **RAYİHƏDAR** Məktəbdəki qarayamız və arıq Mədinə nə qədər gözəlləşib, açılmış qızılgül kimi *rayihadar* olmuşdu (M.İbrahimov); **RAYİHƏLİ, ƏTİRLİ** (*xoş iyli*) Onu *ətirli* çiçəklər, *rayihəli* güllər belə qorxudurdu (M.Hüseyn).

1. QOXUMAQ (*müəyyən iy vermək*) Gül təki *qoxuya* nitqü nəfəsi; Zülfü ya bənövşə, ya səmən gərək (M.P.Vaqif); **ƏTİR SAÇMAQ** Yasəmənlər, bənövşələr; Gəlişinlə *ətir saçsın;* İydə, innab çiçək açsın (M.Rahim); **İY VERMƏK**.

qoxumaq *bax* iyləmək

1. QOL (*insan bədəninin bir üzvü*) O [Mustafa], küçəyə çıxdıqda, bir qarı onun *qolundan* tutdu (S.Vəliyev); **BAZU** (*kl.ad.*) Biləyi, *bazusu*, hər bəndi gözəl; Gərdəndə zülfünün kəməndi gözəl (M.P.Vaqif).

2. qol *bax* imza

3. qol *bax* budaq

qolay *bax* asan

qolaylaşdırmaq *bax* asanlaşdırmaq

qolazlamaq *bax* tullamaq

qolbağı *bax* qolbaq

qolbaq *bax* bilərzik

qol-budaq *bax* budaq

qollamaq *bax* imzalamaq

qoltuqçu *bax* xırdavatçı

qoltuqçuluq *bax* xırdavatçılıq

qoltuqfüruş *bax* qoltuqçu

qoltuqfüruşluq *bax* qoltuqçuluq

QONAQ *Qonaqlarım* dünyanın; İnsanları qədərdir (M.Rahim); **MEHMAN** [Tacir:] Alçaq, sən bilirsən ki, bunlar bizim *mehmanlarımızdır* (M.S.Ordubadi); **MÜSAFİR** Gecələr başına işıq saçar Ay; O yaşıl sinəndə *müsafirkən* ay (S.Rüstəm).

qonaqçı *bax* qonaqpərəst

qonaqlıq *bax* ziyafət

QONAQPƏRƏST (*qonağı sevən adam*) [Çiçək Elsevərə:] Göz doymasın, yaman *qonaqpərəstsiniz* (Ə.Qasımov); **QONAQÇIL** [Qulam dayı:] Məşədibəy *qonaqçıl* oğlandır (M.Hüseyn); **QONAQSEVƏN** [Afaq:] Elimiz-obamız *qonaqsevəndir*... (M.Hüseyn); **MEHMANDAR** Tiflisə çatar-çatmaz, İrakli xanın *mehmandarı* onları zadəganlardan biri-

nın evinə aparıb rahatladı (Çəmənzəminli); **QONAQPƏRVƏR, MEHMANPƏRƏST, MEHMANPƏRVƏR.**

QONAQPƏRƏSTLİK, QONAQCILLIQ, QONAQPƏRVƏRLİK, MEHMANDARLIQ, MEHMANPƏRƏSTLİK, MEHMANPƏRVƏRLİK

qonaqpərvər *bax* qonaqpərəst

qonaqpərvərlik *bax* qonaqpərəstlik

qonaqsever(n) *bax* qonaqpərəst

qonaqsevərlik *bax* qonaqpərəstlik

qondarx *bax* ayaqqabı

qondarma *bax* saxta **1**

qondarmaq *bax* uydurmaq

qonsə *bax* qursaq

1. QONŞU [Səməd:] *Qonşularımız* danışır ki, atam xoşxasiyyat, mülayimrəftar imiş (Ə.Vəliyev); **HƏMXANƏ** (*köhn.*) Batin üzündə yar ilə *həmxanəyəm* yenə (Xətayi); **HƏMSAYƏ** (*köhn.*) Anlar nə ata, nə ana, *həmsayə* bizim qız! Xandostu! Düşübdür yenə sevdayə bizim qız! (Ə.Nəzmi).

2. qonşu *bax* həmsərhəd

qonuşmaq *bax* danışmaq **1**

qoparaqlanmaq *bax* qaçmaq **1**

qoraba *bax* **1.** qorasuyu; **2.** sirişk

QORASUYU, ABQORA (*kal üzümün turş şirəsi*) ..Bu daşı Məsmə qarı dəfələrlə gəlib anadan alıb aparmışdı və bu yupyumru hamar, qara daşla dəfələrlə böyük bir teşt içində *abqora* üçün qora əzmişdi... (Ə.Məmmədxanlı); **QORABA.**

QORXAQ (*qorxu hissinə qapılan*) [Həsən:] Mən *qorxaq* deyiləm oğlum, düzü budur ki, bizim sədrimiz kor ilandır (Ə.Qasımov); **AĞCİYƏR** (*dan.*) [Şəkərlinski:] Yaman *ağciyərsən* Alışov, dovşan kimi bir şeysən (M.İbrahimov); **ÇƏKİNGƏN** Amma Nazlı Azərə qarşı bir qədər *çəkingən* idi (Ə.Kərim); **ÖDDƏK** (*məh.*) [Natalya:] Bu qız, lap ağ *öddək* olub ha.. (S.Rəhimov); **SƏRÇƏ ÜRƏKLİ** [Heybət:] Bu *sərçə ürəklidən* nə çıxar ki?! (S.Rəhimov); **ÜRƏKSİZ** (*məc., dan*) [Elxan:] Toxunma, Dönməz, ürək qırmaq *ürəksizlərin* işidir (C.Cabbarlı).

QORXMAQ Mən isə sözümdən dönə bilmirəm, yazmağa da *qorxuram* (M.İbrahimov); **BAĞRI YARILMAQ** [Heydər bəy:] Vallah, Hacı, səni tanımayan adam olsa, görəndə *bağrı yarılacaq* (M.F.Axundzadə); **BAK ETMƏK** (*kl.ad.*) Şimdi risvayi-cəhan oldum, nədən *bak eylərəm?* (M.Ə.Sabir); **CANINA ÜŞÜTMƏ DÜŞMƏK** (*fr.v.*) Bir anlığa Kəlbiyevin *canına üşütmə düşdü* (M.İbrahimov); **ÇƏKİNMƏK** (*dan.*) (*ehtiyat etməklə qorxmaq*) [Vaqif:] Xan məndən utanır, *çəkinir* bir az; Mən getsəm, qırğının hesabı olmaz (S.Vurğun); **DƏHŞƏTƏ GƏLMƏK** (*bark qorxmaq*) O, ürəyinə haradansa birdən-birə daman hissin təsirindən az qala *dəhşətə gəldi* (Ə.Qasımov); **DİKSİNMƏK** (*bir şeyin təsirindən qorxmaq*) [Bahadır] *diksinir* öz sosindən... (B.Vahabzadə); **EYMƏNMƏK** Əqrəbsiz saata baxanda adam nədənsə *eymənirdi*... (Anar); **HÖVL ETMƏK** ..Qoca birdən *hövl edib* tərpəndi (B.Bayramov); **HÜRKMƏK** (*həm insan, həm də heyvanlar haqqında*) Dəvələr *hürkərək* bir-birinə dəyib bütün yolu tuturdular (M.İbrahimov); [Fərman Mələyə:] Bilmirəm, sən məndən *hürkürsən* (M.İbrahimov); **XOFA DÜŞMƏK** Mən tamam ömrümdə ogər iki dəfə bərk *xofa düşmüşəm*.. (C.Məmmədquluzadə); **XOFLANMAQ** (*az qorxu hiss etmək*) Niyə özüm özümdən; Mən bu gün *xoflanıram?* (B.Vahabzadə); **QORXUYA DÜŞMƏK** Bu kənd hər atlı görəndə *qorxuya düşür*.. (S.Rəhimov); **ÜRƏK-GÖBƏYİ DÜŞMƏK** (*fr.v.*) [Nardaranlılar qışqıraraq:] Adə, ay evin tikilsin, neynirsən, *ürək-göbəyimiz düşdü* ki... (H.Abbaszadə); **VAHİMƏ BÜRÜMƏK** Tellini yenidən *vahimə bürüdü* (S.Hüseyn); **VAHİMƏLƏNMƏK** Cıdır düzünə çıxıb dərənin o tayına baxanda Qaraş *vahimələnirdi* (Ə.Vəliyev); **VAHİMƏYƏ DÜŞMƏK** Elsevərin başına gələn bu qəribə fikirdən *vahiməyə düşdü* (Ə.Qasımov); **VƏHMƏLƏNMƏK** [Ana] ..gurultudan *vəhmələnən* uşağının ağlar gözlərini öpərkən, başına ağır bir şey dəydi (Mir Cəlal).

qorxmaz *bax* igid

QORXU, VAHİMƏ Nə *qorxumuz* vardı, nə *vahiməmiz:* Ölüm yox, həyata inanırıq biz (Ə.Kürçaylı); **BAK** (*kl.ad.*) ...Can alsa da nə *bak*, o məxmur gözləri (A.Şaiq); **HƏDƏ, TƏHDİD** (*hədə-qorxu gəlmə*) Ancaq şirin sözlər, şirin vədələr; Təhqirlər, *təhdidlər*, min cür *hədələr* (B.Vahabzadə); **HÖVL** [Səfa:] Bəlkə də heç yatmayıblar, anam kimi canlarının *hövlündən* gözlərinə yuxu getməyib (Ə.Qasımov); **HÜRKÜ** Tanımıram qorxu, *hürkü* ("Koroğlu"); **XOF** Allah *xofu* onun qəlbində o qədər güclüdür ki, pərvərdigardan hətta kömək istəyir... (Anar); **VƏHM** Allah, Allah, nədir bu tufanlar?! Az qalır *vəhmdən* çıxa canlar (M.Ə.Sabir); **VƏHŞƏT** [Dərviş:] ..Səkinə xanım gecələr *vəhşət* ilə qalxıb yeri üstə oturub, öz-özünə danışırmı? (N.Vəzirov); **ZƏHM** Əlipaşanın *zəhmi* canına çökdü.. (Mir Cəlal).

QORXULU (*müxtəlif mənalarda*) Keçdi günlər, gecələr; *Qorxulu*, həyəcanlı (Ə.Cəmil); **BAĞIRYARAN** Çoban ..çomağı başına çırpdı və özü *bağıryaran* bir səslə qıy vurub, irəli şığıdı (M.Rzaquluzadə); **DƏHŞƏTLİ, QORXUNC** Tufanı andıran; O *dəhşətli, qorxunc;* İllərini hələ də; Lənətlə danlayıram (Ə.Cəmil); **XOFLU** Yaxşı deyiblər: xain *xoflu* olar (M.İbrahimov); **MƏHABƏTLİ** (*köhn.*) Bilmərn, bu dağlar, bu *məhabətli* fırtına.. (A.Şaiq); **MÜDHİŞ** Yox, sən rahatlık sevməyən atəşsən; Əriyəcək qəhrinlə *müdhiş* düşmən (A.Şaiq); **VAHİMƏLİ** [Qara bulud] yer üzünə *vahimə*li bir kölgə saldı (B.Bayramov); **VƏHMƏLİ** Evdə nəyinsə intizarını çəkən *vəhmə*li bir sükut vardı (Ə.Əbülhəsən); **VƏHŞƏTLİ** Eşitdikcə bu *vəhşətli* sözləri; Əsdi bədəni, qızardı gözləri (A.Səhhət).

1. QORXUNC Sağımız dağ, solumuz *qorxunc* uçurum, meşəlik, dağlıqdır (S.Rüstəm); **DƏHŞƏTLİ** Kambayev *dəhşətli* sonun yaxınlaşdığını görürdü (S.Rəhimov).

2. qorxunc *bax* qorxulu

QORXUSUZ (*heç bir şeydən qorxmayan*) Şığıyıb şimşək kimi qayalar arasından; *Qorxusuz* keçib gedir qüdrətli dağ qartalı (R.Rza); **BİBAK** (*kl.ad.*) Hər bir nəfəri bir işdə çalak; Hər digəri bir əməldə *bibak* (M.Ə.Sabir); **BİVAHİMƏ** [Vəzir:] Amma sənin qardaşın oğlu Teymur ağa gör necə səndən *bivahimədir* ki, günün günortasında mənim kimi kişinin evinə giribdir ki, övrətimə əl uzatsın (M.F.Axundzadə); **XOFSUZ, VAHİMƏSİZ.**

1. QORXUTMAQ (*müxtəlif mənalarda*) ..yaşıl otlar Nazlının nəzərində böyüyür, hərəsi bir adam kimi onu *qorxudurdu* (M.Hüseyn); **BUYNUZ GÖSTƏRMƏK** (*fr.v.*) (*məc.*) [Musa:] ..saya salmadılar. Mənə *buynuz göstərdilər* (B.Bayramov); **HƏDƏ-QORXU GƏLMƏK** [Əli:] Bura bax, mənə *hədə-qorxu gəlirsən* (Anar); **TƏPİNMƏK** Muxtar vəziyyəti belə görüb Feyziyə *təpindi* (B.Bayramov); **VAHİMƏLƏNDİRMƏK** Ümumiyyətlə, çoxdandır ki, xitabət kürsüsü Şamamanı *vahimələndirmirdi* (Ə.Əbülhəsən); **VAHİMƏYƏ SALMAQ** ..əcaib insanlar vəhşi heyvanlar şəklində görünür, onu *vahiməyə salırdı* (Ə.Qasımov); **XOFLANDIRMAQ, QARIN AĞRISINA SALMAQ** (*fr.v.*).

2. qorxutmaq *bax* hədələmək

qor-qoduq *bax* uşaq-muşaq

qoruqçu *bax* gözətçi

QORUMAQ Biz vətəni *qoruyacağıq,* bizim işimiz haqdır, biz qalib gələcəyik (R.Rza); **BƏKLƏMƏK** Müştəri yox, necə bir *bəklə*yim bazarı (Füzuli); **MÜHAFİZƏ ETMƏK** [Zeynal:] Hücuma keçən piyada qoşunu *mühafizə edirdim* (B.Bayramov); **KEŞİK ÇƏKMƏK, QORUQ ÇƏKMƏK.**

1. QOŞA [Könül:] Ana, bircə şey üroyimcə deyil. Gərək bu paltarda saçlarımı *qoşa* hörüm (X.Hasilova); **İKİ** [Könül] geyinib saçlarını soliqə ilə darayıb *iki* hördü (X.Hasilova); **CÜT** (*bax*).

2. qoşa *bax* birlikdə

qoşadırnaq(lı) *bax* cütdırnaq(lı)

qoşmaq *bax* qatmaq **I**

1. QOŞULMAQ, BİRLƏŞMƏK, QARIŞMAQ

2. QOŞULMAQ, QARIŞMAQ, MÜDAXİLƏ ETMƏK

3. QOŞULMAQ, YOLDAŞ OLMAQ

4. qoşulmaq *bax* başlamaq

QOŞUN (*hərbi qüvvə*) [Cavanşir:] Mən düşmən *qoşununu* dağıtdıqdan sonra onun sərkərdəsi ilə qarşılaşacağam (M.Hüseyn); **LƏŞKƏR** (*kl.əd.*) [Atlı:] Biz Qıpçaq Məliyin *ləşkərtiyik* (Anar); **ORDU** [Nizami:] Əvvəla, istiqlalı müdafiə üçün ölkənin rəqiblərinə qarşı mütəşəkkil və qüvvətli bir *ordu* lazımdır (M.S.Ordubadi).

qoşunadamı *bax* əsgər

QOTUR (*yoluxucu dəri xəstəliyi*) Bir əli ilə su töküb o biri əli ilə Talıbxan pristavın yekə *qotur* ayaqlarını yudu (S.Rəhimov); **DİLĞİR** (*dan.*) Sən qovdun kənddən elin kor, *dilğır* yabısını (S.Rüstəm).

qovlamaq *bax* qovmaq

qovğa *bax* **1.** dava-şava; **2.** fəlakət

QOVLUQ O [Müstəntiq] əsəbanə hərəkətlə döndü və *qovluqdan* bir kağız çıxarıb Xosrovun qabağına itələdi (M.İbrahimov); **PAPKA** [Həmzə:] Hə, yadıma düşdü, axşam arvada dedim ki, işlədiyim məqalələri götür *papkaya* qoy, yadından çıxıb (Ə.Qasımov).

QOVMAQ (*müxtəlif mənalarda*) Firuz bir neçə dəfə Həsəngilə gələrək Zöhrəni savadlandırmaq istəmişdi. Həsən isə ona mane olmuş, qapısından *qovmuşdu* (M.İbrahimov); **BAYIRA ATMAQ** (*fr.v.*) O katibi birdəfəlik *bayıra atmaq* lazımdır (S.Rəhimov); **ÇIXARMAQ** Sabah *işdən çıxarırlar*, qalaram başıma döyə-döyə (H.Nəzərli); **XARİC ETMƏK** (*məktəbdən və s. çıxarıb qovmaq*) ..Əmirasları məktəbdən *xaric etdilər* (S.S.Axundov); **QOVALAMAQ** Tazılar dovşanları *qovalayır*.. (M.Rzaquluzadə); **RƏDD ETMƏK** (*işdən qovmaq*) [Qaraqaşlı:] İkisini də bir yerdə *rədd etmək* lazımdır (Ə.Kərim); **UZAQLAŞDIRMAQ** Rəhim bəy .. al bu on manatı da qəndə, çaya ver, bu donuzu mənim qapımdan *uzaqlaşdır* (Ə.Haqverdiyev).

QOVUN Dünən nahar zamanı; Kəsdiyin qızıl *qovun;* Şirindi şəkər kimi (M.Rahim); **DOSTUCAN** Tağların üstündə sarı *dostucan;* Ağ, sarı, çil qarpız qıpqırmızı qan (H.K.Sanılı); **YEMİŞ** Çolpa, cücənin çığırtısı, quzu-toğlunun boğuq mələrtisi, boşaldılan yeşiklərin tıqqıltısı, bir də sarı *yemişin* iyi yaxın qonşulara çatırdı (B.Bayramov).

1. QOVUŞMAQ, ÇATMAQ, NAİL OLMAQ, YETİŞMƏK

2. qovuşmaq *bax* birləşmək

qovzamaq *bax* qaldırmaq

I QOYUN, GUSFƏND (*kl.əd.*)

II qoyun *bax* qucaq

qoyunqıran *bax* dazıotu

qoyun-quzu *bax* davar

QOZ (*bərk qabıqlı meyvə*) Gənc *qozları* yenə də bir yerə topladı... (A.Şaiq); **CÖVÜZ** (*danışıqda ceviz*) [Kəndli:] Çünki bu ovqat *cəviz* və ərik qurusu İrəvan səmtinə yaxşı pula gedir.. (C.Məmmədquluzadə).

qozbel *bax* donqar

qozdəstə *bax* tapança

qozqurdmaq *bax* goplamaq

QÖNÇƏ Körpə dalğalarla göz gəzdirirsən; *Qönçə* tək açmamış söz gəzdirirsən (S.Rüstəm); **BUTA** Sevgimin bağçasında açılanda *butalar:* Bildirdi öz fikrini analarla, atalar (M.Rahim).

qövl *bax* söz

qövm *bax* tayfa **1**

qövs *bax* kaman **1**

QÖVSİ-QUZEY (*yağışdan sonra göydə görünən rəngarəng yarımdairə şəkilli qurşaq*) Göy üzündə bir qoşəng; Tağ görünür yeddi rəng; Gözəl *qövsi-quzeylər;* Qəlbə verir fərəhlər (A.Səhhət); **GÖY QURŞAĞI** İrəlidə görünən böyük çayın sakit-sakit axan suları qızıl şüaları ilə əks edərək, *göy qurşağı* kimi rəng verib rəng alırdı (M.Hüseyn); **NƏNƏ QURŞAĞI** Bir toy xələti kimi; çiynimdən sallanıb *nənə qurşağı* (R.Rza); **FATMA-NƏNƏ, QARINƏNƏ ÖRKƏNİ (QURŞAĞI).**

qradus *bax* dərəcə **2**

QRAFİN (*uzunboğazlı su və ya şərab şüşəsi, qabı*) Uzunsov stolun üstündəki *qrafin* su ilə dolu idi, yanında stəkan da vardı (H.Abbaszadə); **SÜRAHİ** (*kl.əd.*) *Sürahi* solunda, badə sağında; Məzə qabağında, mey dodağında (Q.Zakir); **TÜNG** (*arx.*) Süfrənin üzərində *tünglər,* büllur və qızıl qablar, iri huzlu şərbətlə dolu rəflər qoyulmuşdu (M.S.Ordubadi).

qrija *bax* dəbə

qrim *bax* görünüş

QRİFEL, QƏLƏMDAŞ

QRİP (*tib.*) [Mümtaz Mötəbərov:] Bərk *qrip* olmuşam.. (M.Hüseyn); **TUMOV** (*dan.*) [Nəcəf bəy:] Qapını o qədər açıb vurdum ki, yel vurdu, general *tumov* oldu (Ə.Məmmədxanlı); **ZÖKƏM** [Əsgərlərdən biri] bu zabitlər *zökəm* tutanda min cür dava-dərman işlətdikləri halda, biz uzanıb öləndə heç kəs inanmır, – dedi. (S.Rəhimov).

qrup *bax* **1.** dəstə **I 1; 2.** dərəcə **1**

qubar *bax* **1.** torpaq **1; 2.** qəm

qubarlanmaq *bax* qəmlənmək

qubarlı *bax* qəmli

qubernat *bax* qubernator

QUBERNATOR [Pristav:] Cahandar ağa, mən sizi ağıllı adam hesab eləyirdim, bu nə sözdür, danışırsan? Bu mənim yox, *qubernatorun* əmridir (İ.Şıxlı); **QUBERNAT** *Qubernat* gələndə sıçradım qalxdım ("Qaçaq Nəbi"); **VALİ** Maşallah, gecə-gündüz *valimiz;* Çalır partapiyan, oynayır bilyard (Q.Zakir).

QUCAQ Kübra körpəni *qucağına* aldı (Ə.Vəliyev); **AĞUŞ** Gördüm övrət bir daşın dalında oyləşib, balaca qız da özünü onun *ağuşuna* qısıb... (Ə.Haqverdiyev); **QOYNUN** *Qoynunda* bəslənər gözəl diləklər; Layiqdir səcdəyə sənə mələklər (S.Vurğun).

QUCAQLAMAQ, BAĞRINA BASMAQ İlk dəfə məktəbdən gələndə; *bağrıma basmışam* səni; *qucaqlamışam* (R.Rza); **AĞUŞUNA ALMAQ/ÇƏKMƏK** Silah səslərinin gurultusu, pıçıltısı, pulemyot atəşinin şaqqıltısı kəndi öz *ağuşuna alıb* oridirdi (M.Hüseyn); **QUCMAQ** Hatəmxan sanki onun çılpaq bədənini *qucur,* saqqalını ona sürtürdü (S.Rəhimov).

QUCAQLAŞMAQ Gah-gah *qucaqlaşıb* köyüs-köyüsə; Görək ləbdən lozzət ikimiz belə (M.P.Vaqif); **QOL-BOYUN OLMAQ** Dur *qol-boyun olaq* fürsət var ikən; Nə qəm, nə qüssəyə batmaq çağıdı (Q.Zakir); **SARMAŞMAQ** Gəl *sarmaşaq,* Zakir mehmandır sənə (Q.Zakir).

qucmaq *bax* qucaqlamaq

qudurğan *bax* azğın **1**

qudurğanlıq *bax* azğınlıq

qudurmaq *bax* azğınlaşmaq

1. QUDURMUŞ (*quduz xəstəliyinə tutulmuş*) [Molla bacı:] Paxıllıqdan *qudurmuş* itə dönüb yan-yörəni dalayırsan (Çəmənzəminli); **QUDUZ** ..az qala onların hər birisi *quduz* it kimi yaralı qocanı dartıb dağıtmaq istəyirdi (S.Rəhimov).

2. qudurmuş *bax* azğın **1**

quduz *bax* **1.** qudurmuş **1; 2.** azğın **1**

quduzdəymiş *bax* it

I 1. QUL (*köhn.*) Cariyələr, qulamlar, *qullar* və qara könizlər belə bir gəncin qorxmaz bir adam olduğunu bildirdi (M.S.Ordubadi); **BƏNDƏ** (*köhn.*) [Rəşid:] Ey *bəndəm,* Nəsirqulu adlı *bəndəm* çoxdur, hansı Nəsirqulunu deyirsən? (A.Şaiq); **ƏBD** (*köhn.*) Şahın öz *əbdidir* insanları iranlıların! (M.Ə.Sabir); **ƏSİR** *Əsir* görmək, *qul* görmək istəmirəm vətəni (N.Rəfibəyli); **KÖLƏ** (*köhn.*) Elə bil ki, o, illər uzunu hansı bir qorxu hissinin*sə köləsi,* əsiri olmuşdu (Ə.Vəliyev); **QULAM** Dumanlı bir gündə səhər erkən saray *qulamlarından* biri Kazımın həyətinə girib artırmada hana toxuyan Telli ilə Gülnaza yanaşdı (Çəmənzəminli).

2. qul *bax* nökər

II qul *bax* qulyabanı

QULAQ (*insan və heyvanlarda eşitmə orqanı*) [Bahadır] leytenantın *qulağına* nə isə pıçıldadı (R.Rza); **GUŞ** (*arx., kl.əd.*) *Gu*şumda sırğadı, sinəmdə dağdı; Ağıllı unutmaz, necə ki sağdı (Aşıq Ələsgər).

qulaqburması *bax* cəza

qulaqyoldaşı *bax* həmsöhbət

qulam *bax* qul **I 1**
quldur *bax* soyğunçu
quldurluq *bax* soyğunçuluq
quli-biyaban *bax* qulyabanı
I QULLUQ (*qul olmuş adamın halı*) ..Yurdumuzda ağalığı və *qulluğu:* Ehtiyacı, yoxsulluğu; Həmişəlik boğmaq üçün (R.Rza); **KÖLƏLİK** ..öz varlığilə həyatdı, gələcəkdi; *Kölelik* dünyasına o dahi qələm çəkdi (S.Rüstəm); **BƏNDƏLİK** (*köhn.*).
II qulluq *bax* iş **2**
1. QULLUQÇU, İŞÇİ
2. qulluqçu *bax* xidmətçi **1**
QULP ..arvadlar danışa-danışa öz sənəklərini sısqa şırrana söykəyir, sənək dolunca əllərini *qulplarına* atır və qaldırırdılar (S.Rəhimov); **TUTACAQ** Sirat Əli qapının *tutacağında*.. baxdı (Ə.Əbülhəsən); **DƏSTƏK** (*bax*), **ƏLLİK.**
QULYABANI (*guya təklikdə adamın gözünə görünən vücud, xəyal*) [Şərəfnisə:] Ağlama... ağlama. Görmürsən div gəlib, *qulyabanı* gəlib bibivü, xalan qızını apardı, səni də aparar! (Ə.Cəfərzadə); **AL** Ərdo Məlik gəlir, odur. *Al* gəlir! (A.Səhhət); **ƏRDO** (*köhn.*) Qorxma oğlum! *Ərdo* yoxdur, yalandır; O ağaran su üzündə dumandır (A.Səhhət); **QULİ-BİYABAN** Seyr edirəm bərrü biyabanları; *Quli-biyaban* görürəm, qorxmuram (M.Ə.Sabir); **QUL.**
QUMAR (*pul və s. ilə oynanılan oyun*) [Səlim bəy:] Həmişə qış uzunu bikar qalanda oğlunla lopuqdan *qumar* oynayırdın (Ə.Haqverdiyev); **GƏNCƏFƏ** (*köhn.*) [Gəray:] Yox, inanma, eşitdin isə bunu; Oynadım mən də *gəncəfə* oyunu (A.Şaiq).
QUMARXANA [Süröyyanın] əri Səməd .. peşəsi neçə günlərlə dükana getməyib *qumarxanalarda*, pis yerlərdə eyş-işrətə məşğul olmaq idi (Çəmənzəminli); **KAZİNO** Küçələri rəng-rəng fanarlı; kafeli, *kazinolu* (R.Rza).
qumaş *bax* parça **1**
qumrov *bax* zınqırov
qumrovlu *bax* zınqırovlu
qundaq *bax* **1.** çağa; **2.** bələk
qundaqbağı *bax* bələkbağı
qundaqlamaq *bax* bələkləmək
qundaqlı *bax* bələkli
I qurd *bax* canavar **1**
II qurd *bax* baramaqurdu
QURDALAMAQ, ƏLLƏŞDİRMƏK, OYNATMAQ (*dan.*), **TƏRPƏTMƏK**
qurdlu *bax* paxıl
I QURĞU, MEXANİZM
II qurğu *bax* **1.** hiylə; **2.** dəbdəbə
1. QURMAQ, YARATMAQ
2. qurmaq *bax* tikmək
qurnaz *bax* hiyləgər
qurnazlıq *bax* hiyləgərlik
QURSAQ (*quşlarda və heyvanlarda məd*ə), **QONSƏ, MƏDƏ** (*bax*), **PƏTƏNƏK**
1. QURŞAQ [Mirzə Bağır:] Qırmızı *qurşağı* vardı, özünün də əlində uzun təsbehi olardı (Çəmənzəminli); **BELBAĞI** Belində gümüş körpülü *belbağı* ..qonşu oğlu yoldaşları ilə söhbətə gedirdi (H.Sarabski); **KƏMƏRBƏND** Oğlan gəlir enişdən; *Kəmərbəndi* gümüşdən; Yar ilə mərcimiz var; Mən dodaqdan, o dildən (Bayatı).
2. QURŞAQ [Molla Qafar] bunu deyərək *qurşağını* sarımağa başladı (S.Rəhimov); **BEL** Başın qülləbəsin, *belin* kəmərı; Hər birin bir yana atmaq çağıdı (Q.Zakir).
3. QURŞAQ, ÇƏNBƏR (*çəlləyin, binanın qurşağı və s.*)
qurşaqlaşmaq *bax* güləşmək
qurşaqtutan *bax* güləşçi
1. QURTARMAQ ..Qazmaçı bir neçə kəlmə ilə sözünü *qurtardı* (M.İbrahimov); **AXIRA ÇATDIRMAQ** [Azər:] Çünki sən, axı, başqasının işini *axıra çatdırmısan* (Ə.Kərim); **BAŞA VURMAQ** ..yenicə *başa vurduğu* elmi əsərin taleyini xəbər aldı (Ə.Babayeva); **BİTİRMƏK** Hacı .. yeməyini *bitirdikdən* sonra yenə öz otağına çəkilər, qapını içəridən bağlardı (A.Şaiq); **TAMAM ETMƏK** Nurəddin nağılı *tamam edib* Rəhimdən təvəqqe elədi ki, evlərinə, Baharın yanına göndərsin (S.S.Axundov); **TAMAMLAMAQ** Kosaoğlu səsini uzadıb sözünü mənalı bir tərzdə *tamamladı* (İ.Şıxlı); **SONA YETİRMƏK (ÇATDIRMAQ)** Hər kəs öz

işini *sona yetirdi;* Kimsə bu dünyada arzu qoymadı (M.Müşfiq); **YEKUN VURMAQ** [Bəxtiyar] ..söhbətinə *yekun vurdu* (A.Şaiq).
2. QURTARMAQ [Qulu:] ..dəxi işin *qurtardı;* bəxtin çəkdi.. (N.Vəzirov); **BAŞA ÇATMAQ** Mühəndis Haqverdizadənin bütün hazırlıq işləri *başa çatmışdı* (S.Rəhimov); **BİTMƏK** Orucluq müvəffəqiyyətlə *bitmişdi*) (S.Hüseyn); **SONA YETMƏK** Məclis *sona yetdi* (B.Bayramov); **BİTİRİLMƏK, SONA YETİRİLMƏK, TAMAM OLMAQ, TAMAMLANMAQ.**
3. qurtarmaq *bax* qurtulmaq
QURTULMAQ [Təpəgöz:] Oğlan, *qurtuldunmu?* – dedi (Anar); **AZAD OLMAQ** Arif çalışır ki, millət *azad olsun*.. (M.Ə.Sabir); **CANINI QURTARMAQ** ..Aslan kişi mətləbə dəxli olmayan müxtəsər bir cavabla *canını qurtarmaq* istədi (Ə.Vəliyev); **XİLAS OLMAQ** [Veysəl] tələdən nə cür *xilas olmaq* haqqında düşünərkən, qaranlıqdan kimsə soruşdu (Ə.Vəliyev); **QURTARMAQ** Torpağa sürtmüşdü üzün, həm gözün; *Qurtara* bilməzdi ölümdən özün (A.Səhhət); **NİCAT TAPMAQ.**
QURTULUŞ Kazım bildi ki, ona *qurtuluş* yoxdur (M.İbrahimov); **XİLAS** Qəm yeməyin, a qardaşlar; ..Yaxınlaşır *xilas* günü (S.Rüstəm); **XİLAS YOLU** Ağrılar gözümüzdən ələnər yaşdan keçir; Millətin *xilas yolu* bu gün savaşdan keçir (Z.Yaqub); **NİCAT** [Gülbadam:] Mən nifrət etdiyim məkandan balama *nicat* gözləməyirəm (N.Nərimanov); **AZADLIQ** (*bax*).
1. QURULDAMAQ, QUR-QUR ETMƏK/ELƏMƏK (*qurbağalar haqqında*)
2. quruldamaq *bax* curuldamaq
quruluş *bax* **1.** üsul-idarə; **2.** kompozisiya; **3.** formasiya
quruş *bax* qəpik
QUŞ *Quşlar* qayıdıb oxur tərənə; Şaxlarda tikirlər aşiyanə (A.Şaiq); **MÜRĞ** (*kl.ad.*) Nə ola Abbası yada salalar; Havada *mürğlər* qanad çalalar (Aşıq Abbas).
quşbaxışı *bax* gözucu
qutu *bax* yeşik
quylamaq *bax* basdırmaq **1**
1. QUYRUQ (*heyvanlarda arxada olan uzun və yaxud qısa hissə*) [Qızlar saçlarını] keçi *quyruğu* kimi qısaldır, özü də girir dar yubkanın içinə.. (M.İbrahimov); **İRTMƏK** *..irtməklərini* oynada-aynada, analarının dösünü ..əmişən quzular göy otun üstünə səpələnmişdilər (R.Rza).
2. quyruq *bax* əlaltı **1**
quyruqbulayan *bax* **1.** yaltaq; **2.** it
QUYU Zirvələr göylərin yeddi qatında; Dərələr min arşın *quyu* kimidir (Alış Kamal); **KAN** (*kl.ad.*) (*köhn.*) Düz deyil, hətta sipəhdarın işi; Məmləkətdə *kanə* bax, kənkanə bax (Ə.Nəzmi).
quyuçu *bax* kankan
quyuqazan *bax* kankan
QUZUQULAĞI (*bot.*) [Aqil baba:] *Quzuqulağı* enli yarpaq olur (Ə.Vəliyev); **TURŞƏNG** [Xanım Güləbətino:] Ancaq *turşəng* yadından çıxmasın, olsa bir dənə də daş kələm al (M.İbrahimov).
qübbə *bax* günbəz
qüddə *bax* vəzi
qüdrət *bax* **1.** güc; **2.** iradə
qüdrətlənmək *bax* güclənmək
qüdsi *bax* müqəddəs **2**
qüdsillik *bax* müqəddəslik **1**
qüdsiyyət *bax* qüdsilik
qürə *bax* püşk
qürrə *bax* lovğa
qürrələnmək *bax* lovğalanmaq
qürur *bax* iftixar
qürurlu *bax* vüqarlı
qüssə *bax* qəm
qüssələnmək *bax* qəmlənmək
qüssəli *bax* qəmli
qüssəsiz *bax* qəmsiz
qüsur *bax* **1.** nöqsan **1**, səhv; **2.** günah
qüsurlu *bax* **1.** nöqsanlı; **2.** günahkar **1**
qüsursuz *bax* nöqsansız
qüvvə(t) *bax* güc
qüvvətlənmək *bax* güclənmək
qüvvətli *bax* güclü

Ll

labüd *bax* **1.** mütləq; **2.** əlacsız **1**
laəlac *bax* əlacsız **1**
laf *bax* **1.** söhbət **1**; **2.** laqqırtı
lager *bax* düşərgə
lağbaz *bax* masqaraçı
lakey *bax* nökər
lakin *bax* amma

LAQEYD Fikrət hər şeyə *laqeyd* idi (X.Hasilova); **BAŞISOYUQ** (*məc., dan.*) [Xosrov:] Aldığını və eşitdiyini düşünməyəcək, çaşqın, *başısoyuq* adamlardan deyiləm (A.Şaiq); **BİPƏRVA** Demə məşuqə *biparvadı* şəmə kim, məlamətdən; Verib can şübhə tək, oldu vəfadan şad pərvanə (Natəvan); **LAÜBALI** (*köhn.*) Həmid salam verib, oteli soruşdu, kişi suala *laübalı* cavab verdi.. (Çəmənzəminli); **QEYDSİZ** O, çox *qeydsiz* adamdı (ADİL); **SAYĞISIZ** Zikirsiz mömini şeytan aldadar; *Sayğısız* iyidi düşmən alladar (Aşıq Ələsgər); **PƏRTÖV, SƏHLƏNKAR** (*bax*).

LAQEYDLİK İndi Həmidin *laqeydliyi* ona təhqir kimi gəldi (H.Abbaszadə); **BAŞISOYUQLUQ** Əhməd, işə *başısoyuqluq* göstərirsən (S.Rəhman); **SƏHLƏNKARLIQ** Guya Zeynal vəzifəsinə çox soyuq baxır, *..səhlənkarlıqdan* qalmırmış (S.Hüseyn); **LAÜBALILIQ, PƏRTÖVLÜK, SAYĞISIZLIQ.**

LAQQIRTI [Paşa:] Hansı xülya və boş *laqqırtı* (S.Rəhimov); **LAF** [Şeyx Sənan:] Başqa *laf* istəməm, xayır ..yalnız; Azacıq indi məndən ayrılmız (H.Cavid); **ÇƏRƏNÇİLİK** (*bax*).

1. LAL (*danışmaq qabiliyyətindən məhrum olma*) Siz, sız, ey kor və kar, *lal* insanlar (A.Şaiq); **BİZƏBAN** (*kl.ad.*) Can dövlətini bilir təmamət; Sən sanma onu ki, *bizəbandır* (Xətayi); **DİLSİZ** Məcid *dilsiz* kimi səssəmirsiz dayanmışdı (H.Abbaszadə).

2. LAL Araz, Kür, Arpaçay, *lal* axan Neva; Göygöl kimi gözəl göl mənimkidir (S.Rüstəm); **SAKİT** Eşitmişəm uzaqlardan; *Sakit* axan Arazları.. (S.Vurğun).

laləyanaq(lı) *bax* alyanaq(lı)
laməzbəb *bax* dinsiz
lampa *bax* çıraq
landşaft *bax* mənzərə **1**
lanə *bax* yuva **1**
lanset *bax* neştər **2**
lapatka *bax* bel **1**
lapdan *bax* birdən
laşə *bax* leş
laübalı *bax* laqeyd
laübalılıq *bax* laqeydlik

LAVAŞ Bişirdiyin *lavaş* qalxıb dağ olur; Səngəyin pambıqdan yumşaq olur (M.Rahim); **ÜLÜŞ** (*dial.*) Qonşumuz bizə bir *ülüş* halva verdi (ADDL); **YUXA** Yaşmaqlı bir arvad gətirib süfrə saldı, sac çörəyi, *yuxa*, pendir, şor, qatıq gətirdi (Çəmənzəminli).

I LAY, TAY (*qapı, pəncərə haqqında*)
II lay *bax* qat **1**
layələm *bax* avam
layəmut *bax* ölməz **1**

LAYİHƏ [Nazir:] Bir müddətdir ki, onun *layihəsi* ilə məşğul idim (C.Bağır); **PROYEKT** [Toğrul:] Yaşar bizə dedi ki, *proyekt* yandırmışdır (C.Cabbarlı).

LAYİQ [Urmuz:] Onun sevimli oğlu Cavanşir, indi Girdanın igid sərkərdəsi olmağa doğrudan da *layiqdir* (M.Hüseyn); **LAYİQLİ** [Petya Həmidə:] O əyləncələrin axırı yoxdu, özünə *layiqli* bir ömür yoldaşı seç, ailə qur (H.Abbaszadə); **MÜNASİB** Ancaq dövran tərsinə işləyir, Qarabəyin yerinə *münasib* adam qoyulmurdu (Ə.Vəliyev); **MÜSTƏHƏQ** O səbəbə ki, elm və bilik sahibinin yolunda çəkilən zəhmətlər həmişə vacib və *müstəhəqdir*.. (C.Məmmədquluzadə); **ŞAYƏSTƏ** İndi bir para səbəblərə görə ki, kəşfini mən sizə layiq görmüşəm, mən məcburam ki, səltənətdən əl çəkib təxtü tacı bir kimsəyə vagüzar edim ki, bu rütbəyə mən-

dən əlyar və *şayistədir* (M.F.Axundzadə); **RƏVA.**

layiqli *bax* layiq, ləyaqətli **1**

LAYİQSİZ, NALAYİQ, YARAŞIQSIZ (*layiq olmayan*)

lazaret *bax* hospital

LAZIMLI [Kitabpaylayan:] O qədər *lazımlı* kitab var ki... (Ə.Haqverdiyev); **ƏLZƏM** (*kl.ad.*) (*daha lazımlı*) [Şeyx Hadi:] Çünki pək güc deyildi *əlzami;* Həm qəbul etdi dini-islami (H.Cavid); **GƏRƏKLİ** [Yaşar:] Doğrudur, mən acıqlı idim, ..İmamyar yoldaş mənə dedi ki, yaxşı bax *gərəkli* kağız olmasın (C.Cabbarlı); **YARARLI** Ağaclar müxtəlifdir: barlı, barsız olurlar; İnsanlarçin *yararlı,* karlı, karsız olurlar (M.Rahim); **LÜZUMLU, MÜHÜM, VACİB, ZƏRURİ** (*ən lazımlı*).

LAZIMSIZ Softorin evində telefonu vardı, amma *lazımsız* bir qutu kimi bir qıraqda atılıb qalmışdı (Anar); **GƏRƏKSİZ** [Qəndab:] Özümü indiki kimi gücsüz, *gərəksiz* hiss etməmişdim (B.Bayramov); **LÜZUMSUZ** Bu gün heç kəs yediyi və geydiyi şeylərdən başqa artıq, *lüzumsuz* şeyləri toplamır (Çəmənzəminli); **ƏFZƏL, KARSIZ** (*bax*), **YARARSIZ.**

LEHMƏ O [Safo], hərdən qalxır, əl-qol çalır, *lehməyə* batır.. (S.Rəhimov); **ÇAMIR** Görürdün ördəklər *çamır* bir gölə; Soxub dimdiyini arayır qida (M.Müşfiq); **LEHMƏLİK** [Keçi] düz aşağıdakı *lehməliyə* düşmüşdü.. (Ə.Məmmədxanlı); **LİL, BATDAQ** Golinlərin balağı; Batır *lilə, batdağa* (A.Səhhət).

lehmalik *bax* lehmə
LEKSİK (*dilç.*), **LÜĞƏVİ**
LEKSİKA (*dilç.*), **LEKSİKON, LÜĞƏT EHTİYATI, LÜĞƏT TƏRKİBİ, LÜĞƏT, SÖZ EHTİYATI**
leksikoqraf *bax* lüğətçi
leksikoqrafiya *bax* lüğətçilik
leksikon *bax* **1.** leksika; **2.** lüğət **1**
leksiya *bax* mühazirə
lektor *bax* müharizəçi

I LENT [Qəndab:] Əmidostum mənə don tikdi, başımı yudu, saçlarımı darayıb *lent* bağladı, məni məktəbə yola saldı (B.Bayramov); **BANT** Saçlarına rəngarəng *bant* bağlamış, oyninə güllü paltar geymiş qızımı çiçəklərdən seçmək olmurdu (Y.Əzimzadə).

II lent *bax* film

LENTLİ Şəkildə *lentli,* kök, qaragöz bir qız uşağı oturub kitab oxuyurdu (Mir Cəlal); **BANTLI** Başı *bantlı* balaca qız hörükləri döşündən aşağı sallanmış anasının boynuna sarınmışdı (S.Rəhimov).

LEŞ (*ölmüş heyvan cəsədi*) Peyin qat, zibil qarışdır, heyvan *leşləri,* insan cənazələri basdır, torpaq iylənməz, torpaq xarab olmaz, torpaq pozulmaz (M.İbrahimov); **CƏMDƏK** Yolun üstündə qoxumuş bir köpək *cəmdəyi* düşmüşdü (M.S.Ordubadi); **LAŞƏ** (*kl.ad.*) [Molla:] Əti çox istəyirəm, leyk pulu ondan çox; Nola, quzğun kimi ta müftə qonam *laşə,* ətə (M.Ə.Sabir).

LEŞYEYƏN (*zool.*), **CƏMDƏKYEYƏN** (*yırtıcı quş*)
leyk *bax* amma
leylək *bax* hacıleylək
leysan *bax* nisyan
ləb *bax* dodaq
ləbbadə *bax* **1.** xələt **1**; **2.** aba **1**
ləbələb *bax* ağızbaağız

1. LƏÇƏK (*baş yaylığı*) Zərif *ləçəyini* açıb stulların birinin üstünə atdı (Ə.Kərim); **SƏRƏNDAZ** (*kl.ad.*) Çəkibdir üzünə siyah *sərəndaz:* Bulud arasından sanki mah baxır (M.P.Vaqif).

2. LƏÇƏK (*bot.*) ..Bircə çiçək qalıb, hamı çiçəklər; Onun qızıl rəngli *ləçəklərini;* Ya illər tökmüşdür, ya da küləklər (N.Xəzri); **GÜLBƏRG** Əzəl nəqqaşı yazargün cəmalın nəqşini, dammış; Qələmdən nöqteyi-ənbər bu *gülbərgi*-dilərəyə (Nəsimi); **GÜL YARPAĞI** *Gül yarpağına* bənzəyən ismət görürəm mən (M.Seyidzadə); **TEL** Qızılgüləm, qızılgül; Məni sevər hər könül; Qızıldandır hər *telim* (A.Şaiq).

laçər *bax* həyasız

ləfz *bax* söz

1. LƏHCƏ (*danışıq tərzi*) Nə təmiz, nə gözəl *ləhcə* ilə bu şeri buyurdunuz.. (N.Vəzirov); **DİALEKT.**

2. ləhcə *bax* dil **I 1**

ləhcəşünas *bax* dialektoloq

ləhcəşünaslıq *bax* dialektologiya

ləhləmək *bax* tövşümək

ləhm *bax* pay **I 1**

ləhzə *bax* an

lain *bax* məlun

LƏK (*tərəvəz və sairə əkmək üçün bostanda düzəldilmiş yer*) Sanma adicə bir əyləncədir bu: *Lələrin* içilə axan zaman su... (M.Rahim); **KƏRDİ** *Kərdinin* qırağına bir kom alaq otu yığılmışdı (H.Mehdiyev).

ləkəsiz *bax* təmiz

ləktə *bax* **1.** həyasız; **2.** fahişə

LƏQƏB, AYAMA (*bir adamın əsil adından başqa el tərəfindən ona verilən ikinci ad*) Buna görə də Şuşada *ləqəb-ayama* qoymaq bəlkə də həmin obrazlardan, həmin təsvirlərdən ənənə kimi qalmışdır (B.Bayramov); **TƏXƏLLÜS** (*nasir və şairlərin özləri üçün münasib bilib götürdükləri ad və ya familiya*) [Abbas Səhhət] Şamaxı şüarəsindən Sabir *təxəllüs* nam bir zatdan elmi-əruz və bədi oxunuşdur (A.Şaiq).

ləl-cəvahir(at) *bax* daş-qaş

lələ *bax* **1.** əmi **2. 2.** tərbiyəçi

1. LƏLƏK Onlar mənə salam deyə qanadından *lələk* atdı; Bunu quşlar özü atdı.. (S.Rüstəm); **QƏLƏM** Xoruzun boynunda, belində, qanadlarının və quyruğunun üstə, əyri bir rəngbərəng *qələmlər* var (H.Zərdabi); **YELƏK** Üç *yeləkli* qayım oxlar atırdı, dəmrəni düşürdü (Anar).

2. lələk *bax* qələm **I**

ləliməək *bax* yalvarmaq

lələyün *bax* acgözlü)

ləmə *bax* təf

ləmpə *bax* səqf

ləms *bax* süst

lən *bax* qarğış

lənət *bax* qarğış

lənətləmək *bax* qarğımaq

ləng *bax* yavaş

ləngimək *bax* gecikmək

ləngitmək *bax* gecikdirmək

I LƏPƏ, QOZ İÇİ [Usta Zeynal] Afərin şairə! – deyib qozun *ləpəsindən* birini ağzına qoydu (Ə.Haqverdiyev).

II ləpa *bax* dalğa

LƏPƏDÖYƏN (*dalğa çırpan sahil xətti*) Xəzər. *Ləpədöyəndə* qadın, başında xalça, Süzülür dörd yana, sanki xalı navalça (M.Rahim); **DALĞADÖYƏN, DALĞAVURAN.**

ləpələnmək *bax* dalğalanmaq **I**

ləpir *bax* iz **I**

ləşkər *bax* qoşun

lət *bax* süst

lətafət *bax* gözəllik

lətif *bax* **1.** gözəl; **2.** incə **I**

I LƏTİFƏ (*folk.*) (*gülməli, qəribə söz və ya kiçik həcmli hekayə*) Allahverənli Kalba Şirin kimi adamların söylənmiş olduqları *lətifələr* yalnız Şuşada deyil, Azərbaycanın hər guşəsində söylənilir (Çəmənzəminli); **ANEKTOD** Bir axşam bir molla çağırmışdılar, bütün gecəni oxlaqsız *anektodlar* söylədi (Çəmənzəminli); **QARAVƏLLİ** Ortaboylu, əsmər bənizli, daima gülərüzlü Firuzə məzəli zarafatları, incə *qaravəlliləri* ilə mənqanın həyatına hər gün yeni bir təravət gətirirdi (İ.Əfəndiyev); **MƏZHƏKƏ** ..Bir şəxsin ciddi qəzet və məcmuələrindən, o birisi *məzhəkə* və həzl jurnallarından ibarət olur (Çəmənzəminli).

II lətifə *bax* gözəl **I**

LƏTİFƏÇİ (*lətifə deyən*) Çox razıyam, siz həm gözəl, həm də çox mahir bir *lətifəçisiniz* (M.S.Ordubadi); **LƏTİFƏGU** [Dərviş Nakam] hər yerdə özünü şad, xürrəm, *lətifəgu* göstərdi (Ə.Haqverdiyev); **MƏZHƏKƏÇİ** ..Şərqin müdrik *məzhəkəçisi* olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər (F.Köçərli).

lətifəgu *bax* lətifəçi

lətiflik *bax* **1.** incəlik **1**; **2.** mülayimlik

ləvənd *bax* oxlaqsız **1**

1. LƏYAQƏT Baharın xasiyyətini, *ləyaqətini* və evdarlığını Rəhimə bəyənib evin əsl ixtiyarını ona verdi (S.S.Axundov); **QABİLİYYƏT, KAMAL** *Qabiliyyətdə*, mərifətdə, *kamalda;* Bu cahanda sənin kimi qız olmaz (Aşıq Əlosgər).

2. LƏYAQƏT, ƏHƏMİYYƏT, QƏDİR-QİYMƏT

1. LƏYAQƏTLİ ..Maşallah, artıq *ləyaqətli* adamsan (C.Məmmədquluzadə); **DƏYƏRLİ** (*məc.*) O, hər kəsdən *dəyərli,* igid, gözəl, sevimli.. (C.Cabbarlı); **HÖRMƏTLİ** ..çilingərlər ən *hörmətli* adam sayılır (A.Şaiq); **LAYİQLİ.**

2. ləyaqətli *bax* bacarıqlı

LƏYAQƏTSİZ Fağır ərlər və balalar da *ləyaqətsiz* paltar geyməyə məcbur olurlar (Çəmənzəminli); **BAMBILI** [Əbdürrəhman bəy:] Dəli sənin kimi olur ki, belə *bambılı* dərviş başına ip salıb dəli kimi oynadır (N.Vəzirov); **BİLAYİQ** [Zaman:] Mən heç vədə Qədimə *bilayiq* oğlan demərəm (Ə.Haqverdiyev); **BİLƏYAQƏT** Candan qeyri yox-dur özgə nigarım; O da ki, ziyadə *biləyaqətdi* (Q.Zakir); **QƏBİH** [Qazı:] Doğrudur, bu çox *qəbih* əməl tutub (Ə.Haqverdiyev); **NAQABİL** [Nurməhəmməd:] Bəlkə *naqabil* sözlər danışdım (M.İbrahimov); **NALAYİQ** O, ümidsiz qalınca; *Nalayiq* sözlər dedi; Cahangirin dalınca (B.Vahabzadə); **QABİLİYYƏTSİZ.**

LƏYƏN Rübaba yağış suyu ilə dolan tavanı, teşti, *ləyəni* aparıb boşaltdı, yenə gətirib övvəlki yerinə qoydu (H.Abbaszadə); **ÇANAQ** Bu müsabiqələrə alışmış baqqal ayaqlarını bir *çanaq* sərin suya qoyub, başına da islaq kətan salıb mürgü döyürdü – Tamas qaçmayacaqdı ki... (Çəmənzəminli); **ƏNGƏNƏK** (*saxsı ləyən*) Həyətin bir səmtində var idi *ənganək,* yanında çoxluca yuyulmuş paltar qalanmışdı.. (C.Məmmədquluzadə); **TAS** Gülənətin ancaq indi otaqda həyətin arasındakı balaca qaranlıq artırmadakı taxta kürsünü, üstündəki sabunlanmış paltarlarla dolu *tası,* yanındakı isti su buğlanan iri qazanı, yerdəki yuyulmamış paltarları gördü (M.İbrahimov); **VANNA** [Həkim:] Uşağın özü çox zəif və bədəni də çox çirklidir, ...həkəliyə nə hamama göndərmək, nə də *vannaya* salmaq olmaz (S.S.Axundov).

ləziz *bax* ləzzətli

1. LƏZZƏT [Vaqif Vidadiyo:] ..bu qəhvənin qoxusunda duyduğum bu bir ləhzəlik *ləzzət* dünyamın bütün əzabını unutdurdu (Çəmənzəminli); **HƏZZ** ..üzücü hüzn içində, yox, hamını *həzz* və ələmlə qarışıq sehrli bir zövq və nəşə içində buraxırdı (A.Şaiq); **KAM** Verdin gərəginco hər kəsə *kam* (Füzuli); **ZÖVQ** Gülü gör, bülbülü göz, *zövq* apar dünyadan (C.Cabbarlı).

2. ləzzət *bax* dad **I**

LƏZZƏTLİ (*dadlı, tamı olan*) ...yəni nə elə artıq *ləzzətli,* nə də elə artıq ləzzətsiz, yəni miyana (C.Məmmədquluzadə); **DADLI** Bəlkə [əmidostu] ömründə heç belə otirlisini, *dadlısını* yeməmişdi (S.Qədirzadə); **LƏZİZ** [Qəmər:] Gör bacın sənə badımcandan, pomidordan nə dürlü-dürlü *ləziz* xörəklər bişirəcəkdir (S.S.Axundov); **MƏCUN** (*dan.*) (*çox dadlı*) [Firəngiz:] Ağzının ləzzətini bilmirsən, bunun kababı *məcundur* (B.Bayramov); **TAMLI** Halal zəhmətlə bişən buğda çörəyimiz də; Heç vaxt belə otirli, belə *tamlı* olmayıb (Ə.Comili).

LƏZZƏTSİZ (*ləzzəti, dadı olmayan*) ..yəni nə elə artıq ləzzəti, nə elə də artıq *ləzzətsiz,* yəni miyana (C.Məmmədquluzadə); **BİLƏZZƏT** Olmasa qabil əgər dəhr cəfa verməz ona; Tərn *bilazzət* olanda neco dəndano deyər (M.V.Vidadi); **DADSIZ** *Dadsız,* duzsuz qonşuya qalsın (Ata. sözü); **TAMSIZ.**

lığ *bax* palçıq

libas *bax* paltar

libaslı *bax* paltarlı

libassız *bax* çılpaq **1**

lider *bax* rəhbər

liderlik *bax* rəhbərlik

liqa *bax* üz

I LİL (*yuyulmuş ağ paltara vurulan boyaq*); **SİNKA**

II lil *bax* lehmə

lilvan *bax* ilıq **1**

1. LİMAN Bu gün Bakı *limanında* xeyli qağayı sahil boyunca gəmilərin üstündə süzüb qıy vururdu (H.Abbaszadə); **PORT.**

2. liman *bax* körfəz

limonotu *bax* bədrənc

LİNG (*dəmir alət*) ..onlar da balta, bel, kürək, *ling* və qeyri alət götürüb dağı dağıtdılar və kövkəbi-hürriyyətin üzü açıldı (S.S.Axundov); **LOM** Bir anda hərə əlinə keçən külüng, bel və *lom* ilə evin divarına hücum çəkdi (Ə.Əbülhəsən).

linqvist *bax* dilçi

linqvistika *bax* dilçilik

linza *bax* lupa

lisan *bax* dil **I 1**

lisançı *bax* dilçi

lisanən *bax* şifahi

lisani *bax* şifahi

lisaniyyət *bax* dilçilik

LİSENZİYA, İCAZƏ, RAZILIQ (*xüsusi olaraq*)

lodka *bax* qayıq

1. LOĞMA Qorxmaz əyləşdi. Könülsüz-könülsüz bir *loğma* çörək kəsib əlinə aldı (Ə.Vəliyev); **TİKƏ** Vəlişin söz gülləsi hədəfindən yayındığına görə Qorxmaz *tikəni* çeynəyib uddu (Ə.Vəliyev).

2. loğma *bax* çörək

loğman *bax* həkim

LOKAL, YERLİ (*müəyyən yerdən kənara çıxmayan*)

lom *bax* ling

I loş *bax* hindtoyuğu

II loş *bax* süst

lopagödən(li) *bax* yekəqarın **1**

lotu *bax* **1.** fırıldıqçı; **2.** hıyləgər; **3.** kefcil; **4.** fahişə

lotuxana *bax* **1.** fahişəxana; **2.** kefxana

lotuluq *bax* hıyləgərlik

LOTU-POTU (*lotular, dələduzlar*) Bəlkə bu Firuzə salıb onu *lotu-potunun* cənginə (M.İbrahimov); **ƏCAMİR** (*arx.*) Oğru, *əcamir*, doluşa məscidə; Zəng vura, toy çala, şaxsey gedə (Ə.Qəmküsar); **OVBAŞ** (*köhn.*) Sədpərə dilin hər itinə pərəsi düşdü; Təqsim ola yoğma neco *ovbaş* arasında (Q.Zakir).

LOVĞA (*özünü öyən, özü haqqında yüksək fikirdə olan*) Faşizmin gözünə sancıldı bir ox; Sarsıtdı zərbəniz *lovğa* düşməni (R.Rza); **DƏBBƏ** (*dan.*) Bu bir belə qoyunquzu haradandır, – deyə *dəbbə* Zeynal Xanışdan soruşdu (İ.Əfəndiyev); **XUDPƏSƏND** *Xudpəsənd* xan bir zamanlar həmin bəylər, əyanlar qarşısında məğlubiyyətə düçar olduğunu hələ də həzm edə bilməmişdi (Ə.Məmmədxanlı); **İDDİALI** Naqis olsa belə oğlu, kamalı; Onu görərsiniz çox *iddialı* (S.Rüstəm); **KİBRLİ** [Qoca həkimin] təbəssümündəki acı və *kibrli* hal gənc qadını titrətdi (İ.Əfəndiyev); **QÜRRƏ** *Qürrəsindən* qurumuşdur, kasad keçir bazarı; Qurumsağın sifətindən kin tökülür sapsarı (S.Vurğun); **MÜTƏKƏBBİR** Firəngiz həmişəki kimi ciddi və *mütəkəbbir* idi (H.Seyidbəyli); **TƏKƏBBÜRLÜ** Məstəlibəy *təkəbbürlü* bir hərəkətlə üzü aşağı enib, ağ qarı tala-tala qızartmış, başları kəsik əliklərə baxdı (S.Rəhimov); **TƏŞƏXXÜSLÜ** Məhz qaragöz şəferin arxayın və *təşəxxüslü* cavabı Şahlarda anlaşılmaz bir vicdan rahatlığı doğurmuşdu (İ.Əfəndiyev); **YEKƏXANA** (*dial.*) Həji *yekəxana* adamdı (ADDL); **FORSLU** Fərəc bəy də atası kimi *forslu*, təşəxxüslü, paxıl, dargöz bir adam idi (Ə.Vəliyev); **HİKKƏLİ** [Qasım:] Mən fikirləşdim ki, sən çox *hikkəlisən*, sözündən dönən deyilsən (S.Vəliyev); **QAZLI** (*məc., dan.*); **QÜRRƏLİ, MƏĞRUR.**

LOVĞALAN(Ş)MAQ Baxıb görkəminə o günü-gündən; Özünə güvənir *lovğalanırdı* (B.Vahabzadə); Loğalaşıb, a görməmiş, çox da belə fırıldama; Tərbiyəsiz uşaq kimi boşboşuna hırıldama! (M.Ə.Sabir); **ÖZÜNÜ ÇƏKMƏK/DARTMAQ** Bu zaman yasavul *özünü çəkir*, Talıbxana səyləmərək bu işə heç bir əhəmiyyət vermədiyini Göyərçinə deyirdi (S.Rəhimov); **TƏŞƏXXÜS SATMAQ** [Rüstəm bəy:] Mən bir *təşəxxüs satmaqdan* ötrü Kərim xanın yurdun xarabə qoydum... (N.Vəzirov); **DİKBAŞLIQ ETMƏK/ELƏMƏK, FORSLANMAQ, GÜVƏNMƏK** (*dan.*), **HİKKƏLƏNMƏK,**

İDDİALANMAQ, QÜRRƏLƏNMƏK, MƏNƏM-MƏNƏM DEMƏK, TƏKƏBBÜRLƏNMƏK,TƏŞƏXXÜSLƏNMƏK, YEKƏXANALANMAQ, YEKƏXANALIQ ETMƏK/ELƏMƏK.

LOVĞALIQ Gərçi uzundursa mənim yarpağım; Yoxdu yenə *lovğalığım*, azmağım (A.Səhhət); **İDDİA** [Alışov:] Bir bunun *iddiasına* bax (M.İbrahimov); **KİBR** Aldanma zahidə, sanki, uludur; Qəlbi *kibrü* qürur ilə doludur (A.Şaiq); **QÜRUR** [Firudin:] Mən hələ heç bir *qürur* göstərməmişəm (M.İbrahimov); **TƏKƏBBÜR** Simasındakı bir an əvvəlki narazılıq və şikayəti kobud, cahil bir *təkəbbür* əvəz etmişdi (M.İbrahimov); **TƏKƏBBÜRLÜK, TƏŞƏXXÜSLÜK** Bu təğyirdən Nurəddin bir o qədər qəm çəkmirdi, çünki təbiətindən *təkəbbürlük, təşəxxüslük* əsla qoyulmamışdı (S.S.Axundov); **TƏŞƏXXÜS** Ancaq gənclik *təşəxxüsü*, lovğalıq [Polada] mane olur (Ə.Vəliyev); **YEKƏXANALIQ** [Valeh:] Elə düşünməyin ki, dilğır camışın nəfəsini kəsdiyim üçün indi *yekəxanalıq* edib daha şoferliyi bəyənmirdim (İ.Əfəndiyev); **YEKƏLİK** Mərd olan al geyso, *yekəlik* bilməz (Molla Cümə); **FORS, HİKKƏ, İDDİALILIQ, MƏĞRURLUQ, MƏNƏMLİK** (*bax*).

lölə *bax* inci

1. LÖVHƏ *Lövhə* qabağında qoca müəllimimiz; Durub baxır fərəhlə bizə, əlində kitab (Ə.Comil); **YAZI TAXTASI** Müəllim də ev tapşırıqlarını yoxlayanda bunu başa düşmüş, misalı həll etmək üçün Güləri *yazı taxtasına* çıxartmışdı (G.Hüseynoğlu).

2. lövhə *bax* rəsm, şəkil **1**

3. lövhə *bax* mənzərə **3**

LUPA (*böyüdücü şüşə*) İsa dayı *lupanı* Səməndərin üz-gözündə dolandırdı (B.Bayramov); **ƏDƏSƏ** [Eldar:] Bu *ədəsə* ilə oxunacaq dərəcədə xırda, zərif bir xətlə çığara kağızına yazılmış bir məktub idi (M.Rzaquluzadə); **ZƏRRƏBİN** (*köhn.*) Davud *zərrəbini* gözünə taxıb, daima dükanın sağ küncündə oturan Həmidlə danışa-danışa saat təmir eləməyə başladı (H.Abbaszadə); **MİKROSKOP** (*bax*).

lüğab *bax* tüpürcək

1. LÜĞƏT (*dilç.*) (*dildə olan sözlərin toplusundan ibarət kitab*) Atam bizə bir çərəkə, bir fars-türk *lüğəti* yazmışdı (Çəmənzəminli); **SÖZLÜK, LEKSİKON.**

2. lüğət *bax* leksika

LÜĞƏTÇİ (*dilç.*) (*lüğətçiliklə məşğul olan*), **LEKSİKOQRAF, LÜĞƏTŞÜNAS**

LÜĞƏTÇİLİK (*dilç.*), **LEKSİKOQRAFİYA, LÜĞƏTŞÜNASLIQ**

lüğətşünas *bax* lüğətçi

lüğətşünaslıq *bax* lüğətçilik

LÜĞƏVİ (*dilç.*), **LEKSİK**

lüləkabab *bax* kabab

lüləpər *bax* köpənək

lüləyin *bax* aftafa

lülqənbər *bax* sərxoş

lüstr *bax* qəndil

lüt *bax* **1.** çılpaq **1**; **2.** yoxsul

lütf *bax* mehribanlıq, mərhəmət

lütfkar *bax* xeyirxah

lütfkarlıq *bax* xeyirxahlıq

lüt-müt *bax* yoxsul

lüzumlu *bax* lazımlı

lüzumsuz *bax* **1.** lazımsız; **2.** artıq-əskik

Mm

MAARİF, BİLİK, TƏHSİL, SAVAD, ÜRFAN (*köhn.*)

MAARİFÇİ Mirzə Cəlilin doğulduğu Naxçıvan torpağı Azərbaycan mədəniyyətinə bir çox görkəmli şairlər, alimlər, memarlar, rəssamlar, *maarifçilər* vermişdir (Anar); **MAARİFPƏRVƏR** Üçüncü müsafir Məşədi Məmmədbağır əslən *maarifpərvər* bir şəxs idi.. (C.Məmmədquluzadə); **MAARİFPƏRƏST.**

MAARİFÇİLİK Mirzə Rzanın *maarifçilik* təşəbbüslərini şah despotizmi boğub məhv edir (M.Arif); **MAARİFPƏRVƏRLİK** Onun *maarifpərvərliyinə* bəzi cahil və nadan şəxslər başqa məna verirdi (A.Şaiq); **MAARİFPƏRƏSTLİK.**

MAARİFLƏNDİRMƏK, BİLİK VERMƏK, SAVADLANDIRMAQ, TƏHSİL VERMƏK, ZİYALANDIRMAQ (*məc.*)

MAARİFLƏNMƏK, BİLİK ƏLDƏ ETMƏK/QAZANMAQ, SAVADLANMAQ, TƏHSİL ALMAQ, ZİYALANMAQ (*məc.*)

maarifpərəst *bax* maarifçi

maarifpərəstlik *bax* maarifçilik

maarifpərvər *bax* maarifçi

maarifpərvərlik *bax* maarifçilik

MAAŞ Karxanada Həmzənin dərəcəsini və *maaşını* artırmaq barədə çoxdan bəslədikləri ümid gerçəkləşmişdi (M.İbrahimov); **AYLIQ** (*dan.*) [İbrahim bəy:] Mən mərc qoyub zavod tikdirmişəm, fəhlələr də işləyib *aylıq* alır, dolanır (Ə.Vəliyev); **DONLUQ** (*dan.*) [Pirqulu:] Onları işə götürməyincə, *donluğumuzu* artırmayınca və ölməcəyik, ya işləyəcəyik, vəssalam (C.Cabbarlı); **ƏMƏK HAQQI** ..*əmək haqlarının* bir hissəsi körpəlikdən müəssisəyə çalışmağa girənə qədər üzərlərinə qoyulan məsarifi ödəmək üçün götürüləcəkdir (M.S.Ordubadi); **MƏVACİB** [Ayna:] Asəf, nə əcəb, yoxsa təzə puldan sonra *məvacibin* artıb (M.Hüseyn); **ZƏHMƏT HAQQI** Səlim bəy isə *zəhmət haqqını* ikinci dəfə azaltmağı qərara aldı (H.Nəzərli).

MAC (*köhn.*); **DƏSTƏ** (*kotan, cüt dəstəsi*) [Alo:] İndi bu kor dəmir bu acı yerdən nə torpaq çıxaracaq ki, nə də bitə, – deyərək əlini cütün *macına* (*dəstəsinə*) atdı (S.Rəhimov).

1. MACAL, VAXT (*boş vaxt, asudə vaxt*) Necə deyərlər, iş vaxtı onun fikirləşməyə belə *macalı* olmurdu (Ə.Qasımov); Bircə saat belə *macalım* yoxdur; Bəzən *vaxt* tapanda gedirəm ki, mən; Bir az xəbər tutum yazıq Gülərdən (M.Rahim).

2. macal *bax* imkan **I**

1. MACƏRA [Nizami:] Bizim köməyimiz olmadan Qızıl Arslan Azərbaycan dövlətini Əmir İnanc qızı Qətibənin *macərasından* xilas edə bilməyəcəkdir (M.S.Ordubadi); **AVANTÜRA** [Əbülhəsən bəy:] Zira miss Hanna *avantüranı* sürətlə hiss edən, hissiyyata qapılmayan, bərkə düşərsə özünü müdafiə etməyi bacaran bir qızdı (M.S.Ordubadi); **FIRILDAQ** (*bax*).

2. macəra *bax* sərgüzəşt

3. macəra *bax* əhvalat

MACƏRAÇI O [Səba xanım], gözəl olduğu qədər də *macəraçı* və iftiraçı idi.. (M.S.Ordubadi); **AVANTÜRİST** [Şahsuvar:] İnsan nə qədər *avantürist* olmalıdır ki, belə işlər tutsun (İ.Əfəndiyev); **MACƏRACU** (*köhn.*); **AVANTÜRAÇI, FIRILDAQÇI** (*bax*).

macəracu *bax* macəraçı

maç *bax* öpüş

madam *bax* xanım **I**

MADAR (*bir valideynin yeganə övladı və yaxud bir qardaş*) Övladların üçüncüsü - üç bacının *madar* qardaşı idi (Ə.Vəliyev); **BİRCƏ** İsmayıl bəyin *bircə* qızı var idi (Ə.Vəliyev); **TƏKCƏ** [Muxtar:] Ana da *təkcə* balasına bu qədər rəhmsiz olarmı? (B.Bayramov).

I MADDƏ (*qanun məcəllələrinin, yaxud hər hansı bir mətnin, sənədin və s.-nin kiçik*

hissəsi) ..isbatlarından sonra ev komitəsinin müəyyən qanun *maddəsi* mucəbincə məsul olduğunu meydana çıxardı (Çəmənzəminli); **BƏND** Müştərilərə üzümüzü tutub, onlara etdiyimiz nəsihətlərin birinci *bəndi* budur.. (C.Məmmədquluzadə).

II maddə *bax* cisim; şey

MADDİ (*şüurdan asılı olmayaraq mövcud olan*) Axundov obyektiv *maddi* varlığın səbəbini ondan xaric ilahi qüvvədə deyil, onun özündə axtarmağı irəli sürmüş... (F.Qasımzadə); **CİSMANİ** *Cismani* və mənəvi qəti bədəsi altında Qərbin və Şərqin şairləri, mütəfəkkirləri müxtəlif cür hərəkət ediblər.. (Anar).

madər *bax* ana

madyan *bax* at

maəda *bax* savay(ı)

MAĞARA (*adətən ayı yuvası*) Gah xorxor xoruldayıb; gah diksinə-diksinə; ayı *mağarasında;* yuxulayırdı yenə (R.Rza); **KAHA** Bu zaman, yanvar ayı; gödəkquyruq boz ayı, *kahasında* yatmışdı (R.Rza); **KÖHÜL** Gülzar onu təqib edirdi. Bir *köhülə* (*mağaraya*) təsadüf etdilər (C.Cabbarlı); **ZAĞA** Hər bir *zağa,* hər qaya; Şahid olmuş kim bilir; Neçə qanlı qovğaya (M.Rzaquluzadə).

mağaza *bax* dükan

mağazaçı *bax* dükançı

mah *bax* ay

I MAHAL (*tar.*) [Nəcəf:] Ağa, son bir ağıllı adamsan ki, bu yekə *mahalı* sənə tapşırıblar (M.F.Axundzadə); **MƏHAL** (*kl.ad.*) Vəli, *məhaldır* ol həm, son olacaq qətil (Füzuli); **VİLAYƏT** Belə *vilayəti* dağıtsın tarı; Ziyadə moğşuşdur Araz kənarı (Q.Zakir).

II mahal *bax* qeyri-mümkün

mahcamal *bax* ayüzlü

mahir *bax* bacarıqlı

mahliqa *bax* ayüzlü

MAHNI Onlar içəri keçdilər və Yunis yeni yazdığı *mahnının* moşqinə başladı (X.Hasilova); **AHƏNG** (*köhn.*) Bəzi *ahənglərin* şad eyləyir; Qəlbi yatmışları naşad eyləyir (A.Səhhət); **HAVA** (*oyun havası*) Sonra o biri usta klarnetdə təzə *havalar* çaldı (M.Hüseyn); **NƏĞMƏ** Dağıldı musiqi – sazların səsi; Ya da ki, quşların vəhşi *nəğməsi...* (S.Vurğun); **ŞƏRQİ** (*köhn.*) Quşların *şərqisi* kosildi, onlar hara isə uzaqlara uçub getdilər (M.İbrahimov); **TƏRANƏ** Çal, çal! Azadlığın xoş *tələnəsi;* Hində, Himalaya, Çində yayılsın (S.Vurğun); **TÜRKÜ** (*köhn.*) O yerdə ki, quşlar oxur, söylənilir *türkülər;* Aydındır ki, o torpağın zəngin təbiəti var (S.Vurğun).

mahru *bax* ayüzlü

mahtab *bax* aylı

maxorka *bax* tənbəki

1. MAİL, MEYİLLİ

2. mail *bax* vurğun

MAKİNA (*köhn.*) (*yazı maşını*) [Hacı Səməd ağa:] Bunları *makinada* yazmaq lazım deyildi (M.S.Ordubadi); **MAŞIN** Norgiz çox iti işlər. Yazdığı zaman barmaqları yazı *maşınında* ləzgihəngi oynardı (S.S.Axundov); **MAŞINKA** ..qadının dalından küt *maşınka* çaqqıltısı eşidilirdi (İ.Hüseynov).

makintoş *bax* plaş

maksim *bax* pulemyot

maqazin *bax* **1.** mağaza; **2.** xozinə

MAQNİT ...Ehtiyac *maqnit* tək çəkib bu yerə; Conublu qardaşı, dərdli qardaşı (S.Rüstəm); **AHƏNRÜBA** (*köhn.*) Hiss edirdim ki, dəniz məni *ahənrüba* kimi özünə çəkir (Y.Əzimzadə); **DƏMİR ÇƏKƏN.**

maqnitofon *bax* səsyazan

mal *bax* **1.** əmtəə; **2.** parça; **3.** var **I**

malaçəkən *bax* malaçı

malaçı *bax* malakeş

MALAKEŞ (*suvaq çəkən adam, usta*) Yenə *malakeş* işləyirdi və pis də qazanmırdı (R.İbrahimbəyov); **SUVAQÇI** Susmasam da, mən az deyim; Boyaqçıdır, *suvaqçıdır;* Adına qoy rəngsaz deyim (M.Rahim); **MALAÇƏKƏN, MALAÇI.**

malbaş *bax* kütbeyin

mal-dövlət *bax* var **I**

malınyeməz *bax* xosis

malik *bax* **1.** mülkədar; **2.** yiyə

MALİKANƏ (*ağalıq yeri, mülkədar mülkü*) Demə burada yalnız zor-güc deyil, həm də hiylə işlətmək.. mülkədarların qırılmasının, *malikanələrin* odlanmasının qarşısını almaq lazımdır (S.Rəhimov); **MÜLK** [Şofer:] Yoxsa belə *mülkü* heç yüz minə tikmək olmaz (İ.Əfəndiyev); **MÜLKİYYƏT** (*bax*).

maliyyət *bax* qiymət

mal-mülk *bax* **1.** mülk **1**; **2.** var **I**

I mama *bax* mamaça

II mama *bax* ana

MAMAÇA Küçənin o tayı *mamaça* Xanxanımın idi (Çəmənzəminli); **MAMA** [Əhməd:] Əlavə deyirlər ki, öz rəiyyəti üçün mülkündə azarxana və məktəbxana açıbdır, hökim gətirib, *mama* gətirib (N.Vəzirov); **ƏBƏÇİ** (*məh.*) Pis *əbəçiyə* arvad tapşıran övladsız qalar (Ata. sözü).

mandal *bax* çəftə

mandarin *bax* naringi

manqo *bax* əngol

manqəli *bax* əngəlli

manqo *bax* müqəvva

manənd *bax* tay **I**

manufaktura *bax* parça **I**

manufakturaçı *bax* parçaçı

manifest *bax* boyannamə

mar *bax* ilan

maraq *bax* həvəs

maraqlı *bax* məzəli **2**

marıq *bax* pusqu

market *bax* bazar **I**

MARS (*planet*) [Eldar:] Ey sən də bilmirsən, Aydan gəlmisən, *Mərsdan* (Anar); **MƏRRİX** (*kl.ed.*) Məhvərimi ya pozuldu, məhşərimi qopdu bilməm? *Mərrixəmi* toxundu ölgün duran bu aləm? (A.Şaiq).

martı/martıquşu *bax* qağayı

masa *bax* stol

masabəyi *bax* tamada

masal *bax* nağıl **I**

masəva *bax* savayı

MASQARA (*ələ salma, lağa qoyma*) [Həmid:] Cold turpən, ay Fətəli, *masqaranın*

yeri deyil, gözümdən yuxu tökülür (H.Abbaszadə); **İSTEHZA** Amma Eldar forslu deyildi, xəstə və ifrat dərəcədə məğrur idi, sanki hamının nədənsə ona rişxənd, *istehza* edəcəyindən qorxmuş kimi yeganə dostu Aydından başqa heç kəsə yaxınlaşmırdı (Anar); **KİNAYƏ** [Gülsabah:] Mən bu *kinayələrlə* al bayraq qaldıranlardan deyiləm (C.Cabbarlı); **RİŞXƏND** O yerdə ki, xalq öz etirazını, narazılığını, qəzəbini gülüşlə, kinayə, *rişxənd*, məsqara ilə ifadə etmək istəyir; hakim-mütləqlərə lağa qoymaq tamarzısındadır.. (Anar); **ŞƏBƏDƏ** Yapdığı *şəbədələr* gizli deyil (H.Cavid).

MASQARAÇI, ADAMOYNADAN, LAĞBAZ, MASQARAAMIZ, MASQARABAZ, RİŞXƏNDÇİ(CİL), ŞƏBƏDƏBAZ

masqaraamiz *bax* masqaraçı

masqarabuz *bax* masqaraçı

masqura *bax* nimçə

maşallah *bax* aferin

maşın *bax* **1.** avtomobil; **2.** makina

maşınçı *bax* sürücü

maşinist *bax* sürücü

maşınka *bax* **1.** makina; **2.** pilotə

materik *bax* qitə **I**

MATERİYA (*fəls.*), **CİSM, MADDƏ**

MATƏM Bu *matəm* nə deyir Azərbaycana? Nə deyir oğlunu sevən bir ana? (S.Vurğun); **AĞLAŞMA** (*dan.*) [Əbdürrəhman bəy:] Arvad, bilirsən nə var, mən sənə çox məsləhət görürəm durub gedəsən bir *ağlaşmaya* orada zü tutasan bundan ötrü ki, bir böyük məşğuliyyət olub (N.Vəzirov); **ƏZA** Bir milləti eyd ikən, nədən bəs; Oldun füqəra *əzası*, novruz?! (M.Ə.Sabir); **TƏZİYƏ** [Qızıl Arslan:] Atabəyin faciənə ölümü bərəsində məktub aldığım zaman *təziyəmizdə* iştirak edə bilmədim (M.S.Ordubadı); **VAY** (*dan.*) [Vaqif:] Bizdən hər gün bir təzə xəbər var. ya toydur, ya *vay*, ortası yoxdur (Çəmənzəminli); **YAS (YƏS)** Oturmuşdu bir qoca: batıb qəm dəryasına; Qorxunc bir yuxu gəlir; bu amansız *yas* ona (R.Rza).

MAVİ (*rəng*) Adəti belə idi ki, dayaz baxışlı *mavi* gözlərini həmişə qabağındakı adamın çiyni üzərində məchul bir nöqtəyə zilədi (M.Hüseyn); **GÖY** Katib, təzəcə ütülənmiş *göy* mahud şalvarının cibindən gümüş qutusunu çıxarıb papiros götürdü (M.Hüseyn); **SƏMAVİ** O mavi gözlərini; *Səmavi* gözlərini; Görəcəyəm müttəsil (M.Rahim).

MAVİLİK, GÖYLÜK

MAVZOLEY *Mavzoleyin* mərmərinə işıq düşür, nur olonir... (S.Vurğun); **SƏRDABƏ** [Torxan:] ..şəhər qırağındakı yəhudi qızının *ərdabəsinə* gələrsən, o yerə ki, yəhudilərin ziyarətgahıdır (Ə.Məmmədxanlı); **TÜRBƏ** *Türbə* qəbirləri ədədimizin; Torpağa işləyən köklərimizdir (B.Vahabzadə).

I MAYA (*dişi dəvə*) Dəvə, *maya*, nər, Köşək; Göyləyirlər dalbadal (A.Səhhət); **ARVANA** Hacə buğurlar, dizi qara nərlər, gözəl *arvanalar*.. qoyun sürülərinin dalınca gəlirdi (Ə.Vəliyev); **NAQƏ** (*ərx.*) İbtidə xalq oldu küllü-kainat; İnsan *naqə* mindi, *naqə* nə mindi (Aşıq Ələsgər).

II MAYA (*biol.*) [Həmid:] ..çünki *mayası* fitnə-fəsad ilə yoğrulmuşdu (H.Abbaszadə); **DÖL** *Döl* üçün ayrılan xına quyruqlu qoçlar .. döyükmüş otrafa baxırdılar (S.Rəhimov); **TOXUM** [Alo:] Sən bu atın beloliyinə baxma, yaman girdarlı heyvandır, heyf ki, *toxumu* yoxdur (S.Rəhimov); **EMBRİON, RÜŞEYM.**

III 1. MAYA (*bəzi qidalarda qıcqırma maddə gətirən maddə*); **BALATI** (*dial.*) *Balatın* tomiz saxla (ADDL); **XƏMRƏ** *Xəmrəsi*, urvəsi xəmirsiz qalıb; Dünya düzəlmir ki, düzəlmir, baba! (M.Araz); **ACITMA.**

2. maya *bax* sərmayə

3. maya *bax* sobabkar

MAYALANMAQ Təmiz süddən *mayalanır*, doğulsun; Nete kimi, Oğuz kimi bir can, türk (Z.Yaqub); **DÖLLƏNMƏK.**

MAYALLAQ (*çox vaxt "aşmaq" sözü ilə işlədilir*) [Pişik] göydə *mayallaq aydı*; Qaçdı gedi o bağdan (M.Rzaquluzadə); **DOMBALAQ** [Odabaşı:] Bir para sarsaq-sarsaq

kitablarda yazırlar ki, .. yer *dombalaq aşır* (Ə.Haqverdiyev); **KƏLLƏMAYALLAQ** [Koxa:] Mən şərab içdikcə görünür ancaq; Dünya gözlərimə *kəlləmayallaq* (S.Rüstəm).

maygülü *bax* mixəkgülü

mayıf *bax* şikəst

MAYOR (*hərbi*), **YAVƏR** (*köhn.*)

MAZAQ (*vulq.*) Cavahir ayılandan sonra otaqdan orinin səsini eşitdi, şirin söhbət və *mazaq* davam edirdi (T.Ş.Simurğ); **MAZAQLAŞMA, OYNAŞMA, ZARAFAT** (*bax*).

MAZAQLAŞMAQ (*vulq.*) [Alışov:] Sən öz dərdini çək.. qızın Bonövşənin dərdini.. ..gecə-gündüz artistlə *mazaqlaşır* (M.İbrahimov); **DİLXOŞLUQ ETMƏK** [Qulam-mirzə] çarpayının kənarında oyləşir, [arvadı ilə] *dilxoşluq edir* (Çəmənzəminli); **ZOPU TƏPMƏK** (*dial.*) Kişi öydən çıxıf deyin, gənə öydə *zopu tapillar* (ADDL); **ZARAFATLAŞMAQ** (*bax*).

mazarat *bax* **1.** ziyan; **2.** mərdimazar

mazat *bax* naz

mazi *bax* fir **I**

mazi *bax* keçmiş; keçmiş zaman

MEDAL (*xidmətə görə fərqlənmə nişanı*) Sonunçün meyarı şöhrətin, şanın; No *medal*, nə də ki, tərif - yazıdır (M.Araz); **NİŞAN** İyirmi səkkiz sinnino yetişdikdə Sorbon dairülfünunun hüquq şöbəsindən qızıl *nişan* və iftixar ilə məzun olmuşdur (M.S.Ordubadi).

MEDİA, DÖVRİ MƏTBUAT, KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

meh *bax* yel **I**

mehman *bax* qonaq

mehmandar *bax* qonaqpərəst

MEHMANXANA [Gənc qadın:] Yox, orada heç rahat ola bilmərik. *Mehmanxanada* daha yaxşıdır (M.S.Ordubadi); **QONAQ EVİ** Durub geyindim, *qonaq evinin* qarşısındakı meydana çıxdım və yavaş-yavaş şəhər parkına tərəf getməyə başladım (Y.Əzimzadə); **MÜSAFİRXANA** (*köhn.*) [Yaşlı kişi:] Hacı Ramazan tapşırmışdı ki, Hacı Mirzə babanın *müsafirxanasına* düşüb orada mənzil tutsun (S.Hüseyn); **OTEL** [Adolf:] Düşdüyümüz

otelin nömrəsində Asiya xəritəsini açıb plan çəkməyə başladıq (S.S.Axundov).

MEHMANXANAÇI *Mehmanxanaçıya* dedim: "Bu nömrədə oyləşərəm, sonra əməlli nömrə boşlananda mənə xəbər verərsən" (Ə.Haqverdiyev); **MEHMANXANA SAHİBİ** *Mehmanxana sahibi* özü kimi çirkin və namusunu satan şəxsləri həmişə təbəssümlə qarşılardı (S.Vəliyev); **OTEL SAHİBİ** *Otel sahibi* xoş bir sima ilə Nemoti masaya dəvət etdi (Çəmənzəminli); **OTELÇİ** *Otelçiyə* bir neçə yüz frank borcum var idi (Çəmənzəminli).

mehmanpərəst *bax* qonaqpərəst

mehmanpərvər *bax* qonaqpərvər

1. mehr *bax* günəş

2. mehr *bax* məhəbbət **1**

1. MEHRİBAN *Mehriban* sevgilim qarşımda durdu (M.Müşfiq); **ŞƏFQƏTLİ** Kamal anasının *şəfqətli* gözlərinə... baxıb dinmədi (M.Rzaquluzadə); **XOŞRƏFTAR(LI)** (*bax*).

2. MEHRİBAN, ƏZİZ, İSTƏKLİ

3. mehriban *bax* nəvazişli

1. MEHRİBANLIQ Buzov təzəcə eydiyi əməklər Şərəfnisənin əlində mum kimi yumşalmışdı, qadın öz *mehribanlıq*, nəvaziş yağan səsilə aram-aram sağıcının əzalı mahnısını mızıldandıqca inək... balası üçün qorumaq istədiyi südü buraxırdı (Ə.Cəfərzadə); **LÜTF** Mehribansan, görürəm var mənə *lütfün*, kərəmin (M.Seyidzadə); **MƏHƏBBƏT** (Mehribanın) çocuqlarına qarşı bəslədiyi *məhəbbət* onu məcbur edirdi... (S.Hüseyn); **ŞƏFQƏT.**

2. mehribanlıq *bax* gülərüzlülük

MEHRİBANLIQLA (*xoş üzlə*) Dünən mehriban görüşüb ayrılmışdılar, bu gün səhər də eyni *mehribanlıqla* görüşmüşdülər (Anar); **MEHRİBANCA(SINA)** Səslər gah *mehribanca*: bir ana laylası tək; sığallayır, oxşayır (R.Rza); Ərəblinski artistlərə qayğılı, *mehribancasına* köməklik edər, onlara təkan verərdi (Ü.Hacıbəyov); **MEHRİBAN-MEHRİBAN** Ürəkdən ağlasam mən için-için; *Mehriban-mehriban* gülmə sən mənə (N.Xəzri); **NƏVAZİŞLƏ** Baxır *nəvazişlə* ulu dağlara; Özündən ixtiyar, mutlu dağlara; Çulğamış üzünü sirli bir hüzn (M.Müşfiq); **YUMŞAQLIQLA** [Mehriban] *yumşaqlıqla* cavab verdi (S.Hüseyn).

mehrsiz *bax* məhəbbətsiz

MEHTƏR [Şükür bəy:] *Mehtərə* dənən atları bayıra çəksin (A.Şaiq); **ATABAXAN** Qatil İraq qoşun dəstələrinin *atlara baxan* bir tövləçi imiş (M.S.Ordubadi).

mehvər *bax* ox **2**

mexaniki *bax* qeyri-şüuri

MELODİKLİK (*mus.*), **AHƏNGDARLIQ, AXICILIQ, GÖZƏLLİK, MELODİYA**

1. MELODİYA (*mus.*), **AHƏNG, HAVA**

2. melodiya *bax* melodiklik

MEMAR *Memarın* – şəhərquranın vəzifəsi təkcə öz müasirləri üçün deyil, gələcək nəsillərin yaşayışı üçün şərait yaratmaqdır (B.Bayramov); **ARXİTEKTOR** [Qasım:] Uşaqlar danışırdı axı... Deyir 15 ölkədən amerikanski *arxitektorlar* gəlir. Hə? (Anar).

MEMARLIQ Bu, Azərbaycan *memarlığının* ecazkar gözəllik aynasıdır (R.Rza); **ARXİTEKTURA** Müasir dünya *arxitekturasının* problemlərini, cərəyanlarını, imkanlarını Şövqü heç də Fuad Salahlıdan az bilmirdi (Anar).

merac *bax* nərdivan

mesaj *bax* ismarış **1**

MEŞƏ Sıx *meşələr* od tutaraq, qayalıqlar külə dönür (S.Vurğun); **ORMAN** (*köhn.*) Bu yanda səfalı qalın bir *orman*; Yaz olsun, qış olsun, gülür hər zaman (M.Müşfiq).

MEŞƏBƏYİ [Şahmar bəy:] Bir cavan oğlan ələ keçib, o deyir mən *meşəbəyi* Əşrəf bəyin adamıyam (N.Vəzirov); **MEŞƏÇİ** Hər ikisi müharibədə fəhlə batalyonunda iştirak edib, kəndə gələndən sonra öz əvvəlki peşələrini atıb *meşəçi* olmuşdu (Ə.Yusifoğlu); **MEŞƏ GÖZƏTÇİSİ/QAROVULÇUSU** [Rəis:] ..bu dünyada birinci *meşə gözətçisidir* ki, mənim üzümə ağ olur (Ə.Yusifoğlu).

[Cavan oğlan:] Meşə *qarovulçusuyam*, ağa! (N.Vəzirov).

meşəçi *bax* meşəbəyi

MEŞİN *Meşin* cildli quran adamların üzünü doğrudan da döndərmişdi (S.Rəhimov); **TUMAC** [Molla Qafar:] Əlini yaxasına atıb qara *tumac* cildli balaca kitabı çıxardı (S.Rəhimov).

METAFORA (*ədəb.*), **MƏCAZ**

METAFORİK (*ədəb.*), **MƏCAZİ**

metis *bax* mələzləşdirmək

metisləşdirmək *bax* mələzləşdirmək

metod *bax* üsul

METRO Uzaqlardan gəlib bu gün *metronuza* enib mən; Yer altında qapılara "açıl sezam" demədən (M.Rahim); **METROPOLİTEN.**

metropoliten *bax* metro

mey *bax* çaxır

MEYAR Düşdüm axı deyəsən çox ağır vəziyyətə; Niyə *meyar* edəydim indi bəs məhəbbətə? (M.Rahim); **ƏNDAZƏ** [Şamo] inqilabın *əndazəsini*... qavramağa başlayırdı (S.Rəhimov); **MİZAN** Dedim ki, mənim eşqim ölçülərə sığışmaz; Eşq hara, *mizan* hara? (M.Rahim); **ÖLÇÜ** *Ölçüylə* verilməyir məhəbbət insanlara (M.Rahim).

1. MEYDAN, SAHƏ, YER

2. MEYDAN, DÜZƏNLİK

meydança *bax* stadion

meygədə *bax* meyxana **1**

1 MEYXANA (*şərab içilən yer; şərabçı dükanı*) [Əbülhəsən bəy:] Nəhayət o, kefli halda *meyxanadan* çıxıb faytona oyləşər və yenə də faytonçuya: – Sür, yaxşı sür... – deyər (M.S.Ordubadi); **DUXAN, TRAKTİR** [Sofor:] *Traktirdə, duxanda*, podvalda; Kef elədim teatrda, ballarda (A.Sohhot); **İÇKİXANA, MEYGƏDƏ** (*köhn.*); **XƏRABAT** (*arx.*).

II MEYXANA [Dursun:] İlyasgil qapıları bağlayıb *meyxana* deyirlər (C.Cabbarlı); **KUPLET** ..*Kupleti* cavanlar bərkdən-bərkdən oxuyur, dağa-daşa səs salırdılar (Ə.Əbülhəsən).

MEYXOŞ (*nə tərş, nə şirin*) Acısı xeyli şirin, *meyxoşu*, dadlı olur (M.Rahim); **TURŞAŞİRİN** Meyvə, nə meyvə! Özü iri, rəngi al-qırmızı, dəri xoş, dadı *turşaşirin*, özü yumyumşaq (R.Əfəndiyev).

meyil *bax* **1.** həvəs; **2.** məhəbbət **1**

meyilli *bax* mail

meyilsiz *bax* həvəssiz **2**

MEYİT [Qarabirçək oğluna:] İsmayılbəyliyə getməli olsan, mənim *meytimin* üstündən adlayacaqsan (Ə.Vəliyev); **CƏNAZƏ** Peyin qat, zibil qarışdır, heyvan leşləri, insan *cənazələri* basdır, torpaq iylənməz... (M.İbrahimov); **CƏSƏD** ..camaat fəryad qoparaqopara *cəsədi* mədrəsəyə apardılar (A.Makulu); **NƏŞ** (*köhn.*) Əlabbasın *nəşini* evlərinə aparmaq çox xətalı idi (A.Şaiq); **ÖLÜ** *Ölü* dirilməz (Ata. sözü).

MEYİTXANA, MORQ, ÖLÜXANA

MEYMUN (*zool.*) [Ağa Zaman həkim:] Axır, neco eyloyim ağa? *Meymunu* yadımdan çıxara bilmirəm (M.F.Axundzadə); **HƏMDUNƏ** (*arx.*) (*böyük meymun*) [Molla Salman:] Ağa, tamam dağların heyvanatı meymun şəklinə, böyük *həmdunələr* sifətinə dönüb.. (M.F.Axundzadə).

MEYNƏ Əkdim sizi dünən özüm, *meynələr*; Üstünüzdə oldu gözüm, *meynələr* (S.Rüstəm); **TƏNƏK** Bizlərdə rayon yerində üzüm ağacına *tənək* deyərlər (H.Abbaszadə).

MEYNƏQURDU (*zool.*), **TƏNƏKQURDU** (*meynələrə ziyan vuran cücü, qurd*)

meyparəst *bax* əyyaş

meyparəstlik *bax* əyyaşlıq

MEYVƏ Çürüyüb zay olmasın, xarab olmasın deyə; Uzun zaman *meyvəni* ağacda saxlayırlar (M.Rahim); **BAR** Baxırsınız ağacda çiçəyə də, *bara* da; Baxırsınız, deməli, payıza, bəhərə də (M.Rahim); **BƏHRƏ** Yox, rəiyyətin dərisini soyub *bəhrə* adı ilə onun bütün məhsulunu əlindən almaq ... lazım idi (S.Rəhimov); **BƏHƏR** [Abdulla:] Bu olmadı, ağac *bəhər* verdikcə başını aşağı əyər (H.Abbaszadə).

meyvəli *bax* barlı **1**

meyvəsiz *bax* barsız **1**

məal *bax* məna

məbəd *bax* məbədgah

MƏBƏDGAH Çıraq tutdu qədim şəhər; Muradına, istəyino; Bir rus qızı heyran oldu; Arzuların *məbədgahı* ürəyino (M.Rahim); **İBADƏTGAH** [Tahirzadə] burada cüt minarələri ilə göylərə yüksələn *ibadətgahda,* zahidlər məclisində imtahan verməli idi (Mir Cəlal); **İBADƏTXANA** [Sönmər:] Aman, ağa, dağıtmayın *ibadətxanımızı* (C.Cabbarlı); **MƏBƏD** Əyilsin səcdənə ulduzlar, aylar; Əskilmiş *məbədlər,* yeni saraylar (S.Vurğun); **ATƏŞGAH** (*bax*).

MƏCAZ (*ədəb.*), **METAFORA**

MƏCAZİ (*ədəb.*) (*həqiqi mənada işlənməyən*) [Tərgəldi:] Fəqət mən *məcazi* mənada demişəm (Anar); **METAFORİK.**

MƏCBURİ, CƏBRİ, GÜCLƏ, İCBARİ, ZORLA

MƏCBURİYYƏT Evlənmək istəyən bir qədər peşkəş özü ilə gətirib, bəyin qulluğuna gedib ondan izn almaq *məcburiyyətində* idi (Ə.Haqverdiyev); **ZOR** Mənim yetim uşağa rəhmim gəlir, çünki o uşaq sahibsizdir və bu barədə dəxi mənə *zor* yoxdur (C.Məmmədquluzadə); **MƏCBURLUQ.**

məcburluq *bax* məcburiyyət

məccani *bax* müftə

MƏCƏLLƏ (*hüq.*), **QANUNNAMƏ**

1. MƏCHUL (*riyaz.*), **AXTARILAN, MƏLUM OLMAYAN**

2. məchul *bax* naməlum

1. MƏCLİS (*kef məclisi, eyş-işrət məclisi*) Məni qınamayın! Ağırdır, dostlar; Qatillər evində *məclis* keçirmək (S.Vurğun); **BƏZM** (*kl.ad.*) Sağərdir öpən lələn o xurşid camalın; *Bəzm* içrə şərabın tutular şişəyə qanı (S.Ə.Şirvani); **YIĞINCAQ** [Şərəfnisə xanım:] ..Parijdə qızlar, gəlinlər məclisdə, *yığıncaqda* üzüaçıq oturub-dururlar (M.F.Axundzadə); **YIĞNAQ** Xeyrin olsun bir kəs *yığnağındadır;* Onlar ilən zövqü işrət eylərsən (M.V.Vidadi); **QONAQLIQ, BƏZMGAH** (*tənt.*).

2. məclis *bax* parlament

3. məclis *bax* müşavirə, iclas

məcməyi *bax* sini

məcmuə *bax* jurnal

məcmuən *bax* elliklə

məcnun *bax* **1.** dəli **1**; **2.** vurğun

məcnunluq *bax* dəlilik

MƏCRA (*suyun axdığı yataq*) Sığışmayır bu *məcraya;* Mənim oynaq ləpələrim (M.Rahim); **YATAQ** Dağlar nərilti ilə sahilə cumurdular, sanki Xəzər *yatağından* çıxacaqdı (H.Abbaszadə).

məcruh *bax* **1.** yaralı; **2.** ləzzətli

1. MƏCUN, PASTA

2. məcun *bax* xəlitə

3. məcun *bax* ləzzətli

mədaxil *bax* gəlir

MƏDƏ (*anat.*) Bədbəxtlikdən il yarım bundan qabaq kişinin *mədəsində* xərçəng yarası tapıldı (M.İbrahimov); **QURSAQ** (*bax*).

mədəd *bax* kömək

mədədçi *bax* köməkçi **1**

mədədkar *bax* köməkçi **1**

MƏDƏN (*müxtəlif mənalarda*) Vahəb getdi *mədəndə* işləməyə (H.Abbaszadə); **ŞAXTA** Daş kömür yataqları tapılan yerlərdə "*şaxta*" deyilən dərin və geniş quyular qazıyırlar (A.Quliyev); **YATAQ** Geoloji əsaslara Yenikəndin altında zəngin neft *yatağı* olduğu güman edilirdi (M.Süleymanov).

mədəni *bax* mədəniyyətli

MƏDƏNİYYƏT Həqiqi *mədəniyyət* qabaqcıl şüur, hər şeydən əvvəl işin təşkilində, əməyin məhsuldarlığında özünü göstərir.. (M.İbrahimov); **NURANİYYƏT** Atam, qardaşım, Allah xatirinə belə nalayiq sözləri danışma, kənara qoy, güclə təzə-təzə bir balaca *nuraniyyət* görünür (N.Vəzirov); **TƏMƏDDÜN** (*köhn.*) Müsəlman tayfası indiyədək yabılıqda olub, nə maarif arpasından və nə *təmaddün* samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədək verilməyib (Ə.Haqverdiyev); **SİVİLİZASİYA** (*ən yüksək mədəniyyət*).

MƏDƏNİYYƏTLİ Onlar *mədəniyyətli* adamlardır (C.Məmmədquluzadə); **MƏDƏNİ** [İnci:] Sizin kimi *mədəni* adamın ağzından belə sözlər eşitmək məni təəccübləndirir (M.Rahim); **SİVİL** [Rüfət:] Mən gətirdim, gey! (Arxadan geyinib gəlirlər.) Şimdi biz tamamilə başqa bir adamıq.. Çünki biz şimdi *sivil* bir adamıq, nəinki bir əsgor (C.Cabbarlı); **MƏRİFƏTLİ.**

MƏDƏNİYYƏTSİZ [Şəlalə:] Aslan, *mədəniyyətsiz* olma (S.Rəhman); **QABA** [Feldşer] çox uzunçu, lağlağı, həm də *qaba* bir adam idi (M.Hüseyn); **QEYRİ-MƏDƏNİ** [Rafiq] *qeyri-mədəni* bir adamdır.. (Ə.Kərim); **VƏHŞİ** (*məc.*) Zeynal qızmış *vəhşi* bir baxışla Mehribana tərəf yüyürdü (S.Hüseyn); **MƏRİFƏTSİZ, TƏRBİYƏSİZ** (*bax*).

mədfən *bax* məzar

mədh *bax* **1.** tərif; **2.** mədhiyyə

MƏDHİYYƏ (*tərif məzmunlu şeir*) [Hərdəmxəyal:] Müsəlman ədibi və mühərriri əlinə qələm götürəndə *mədhiyyə* yazmasa, yoqin bicdir və atasından xəbəri yoxdur (Anar); **QƏSİDƏ** Hər ikisi (Füzuli və Nəfi) *qəsidələrində* digər sinif və saray şairləri kimi müəyyən bir sinfi ..sultanları, padşahları və digər saray əhlini mədh və sənə etmişdi (A.Şaiq); **MƏDİHƏ** (*kl.ad.*) Özü də [M.Ə.Sabir] bu mətləbə işarə buyurur: "Puldan ötrü yalan *mədihələr* yazmağa iqtidarım yox isə də, doğru həcv yazmaqda çox hünərliyəm" (A.Şaiq); **MƏDH, MƏDHNAMƏ.**

mədhnamə *bax* mədhiyyə

mədihə *bax* mədhiyyə

mədrəsə *bax* məktəb, mollaxana

MƏFHUM Qəbir *məfhumu* ilə düzəlmək *məfhumu* arasındakı ziddiyyət, siyasi dildə desək, bir növ barışmaz səciyyə daşıyır (M.Hüseyn); **ANLAYIŞ.**

MƏFKURƏ [Mərdan:] Bu sinif mühariboşi, *məfkurə* mübarizəsidir (S.S.Axundov); **İDEOLOGİYA** [M.F.Axundzadə] ...materialist dünyagörüşünü qabaqcıl ictimai-siyasi baxışlarla, mütərəqqi ideyalarla sıx vəhdətdə təbliğ edən filosof, islam *ideologiyası,* bütün dini mövhumat və cəlahətə qarşı yorulmadan və amansız mübarizə aparan dövtələb ateist olmuşdu (F.Qasımzadə); **İDEYA** Yeni Azərbaycan ədəbiyyatında demokratik *ideyalar* realizm üslubu ilə doğur (M.İbrahimov); **MƏSLƏK** *Məsləkim,* şüarım ucadan uca (S.Vurğun); **QAYƏ.**

MƏFKURƏVİ "Xanlar" pyesinin *məfkurəvi* və bədii qüdrəti ondadır ki, ilk səhnədən tamaşaçının diqqətini fəhlə sinfinə, onun tipik nümayəndəsi Xanlara cəlb edir (M.Arif); **İDEOLOJİ** Cavidin "İblis" faciəsini *ideoloji* cəhətdən tənqid edənlərə onun nə kimi təsir altında yazıldığını xatırlatmaq üçün şairin keçdiyi mühit bir fəlakəti yazmaq məcburiyyətindəyəm (A.Şaiq).

məfsəl *bax* bənd **I 1**

MƏFTİL, TEL ..O gülümsündü və qırıq *məftilin* telefon dəstəyini göstərdi. Biz kosmosda məhz bu cür telefonla qırıq *telli* telefonla, əlaqəsiz danışmağa cəhd edirdik (Anar); **SİM** Telefon *simləri* kəsilmişdi (M.S.Ordubadi).

məftun *bax* vurğun

MƏFTUNEDİCİ (*müxtəlif mənalarda*) Qızın *məftunedici* baxışları qarşısında tez sarsılır, qızarıb başını aşağı salır, bir də başını qaldırıb baxmağa cəsarəti çatmırdı (Ə.Qasımov); **DİLFİRİB** (*kl.ad.*) Billah ki, bu *dilfirib* mənzil öylə mənə verdi, rahəti-dil (Füzuli); **FÜSUNKAR** O [Məhirə] *füsunkar,* şirindil, xoşxasiyyət bir qız idi (Y.Şirvan); **VALEHEDİCİ** [Mehman] özünü güclü məntiqi, *valehedici* nitqi ilə hamını heyran etməyə başlayırdı (S.Rəhimov); **HEYRANEDİCİ, CAZİBƏDAR** (*bax*).

MƏGƏR (*sual, xatircəm olmamə və şübhə bildirən ara sözü*) Dürrə:] Anacan, *məgər* o, əvvəllərdə həbsdə olmuşdur? (S.Vəliyev); **BƏYƏM** (*dan.*) [Göyərçin:] *..bəyəm* bunu bir böyük-kiçiyə ganaşmazlarmı? (S.Rəhimov); **ƏCƏBA** [Bəhram:] *Əcəba,* mən öz əmimin evində xidmətçiyəmmi? (C.Cabbarlı).

MƏĞLUBEDİLMƏZ Çünki onda, yalnız qələbənin sirrini bilən dahi bir sərkər-

dənin, *məğlubedilməz* bir ordunun qüdrəti vardır (M.Hüseyn); **BASILMAZ** Bu *basılmaz* ordunun başında Qorez durur (S.Rüstəm); **YENİLMƏZ** Qəlbində Vətən oğlu, *yenilməz* ordu (S.Rüstəm); **MÖHKƏM, SARSILMAZ** (*bax*).

məğrib *bax* **1.** günbatan; **2.** qərb **1**

məğrur *bax* **1.** vüqarlı; **2.** özəmətli; **3.** lovğa

məğrurluq *bax* **1.** vüqar; **2.** lovğalıq

məhabətli *bax* qorxulu **1**

məhal *bax* mahal **1**

məharət *bax* hünər

məhbəs *bax* həbsxana

məhbub(ə) *bax* sevgili **1**

məhbus *bax* dustaq **1**

məhcub *bax* utancaq

məhdud *bax* az

1. MƏHƏBBƏT, EŞQ, SEVGİ (*sevişmə*) Qaraş Göyçəyə necə dil açsın? Yeni-yeni pardaqlanmağa başlayan qızılgül misallı *eşqə, məhabbətə, sevgiyə* necə arxa çevirsin (Ə.Vəliyev); **MEHR** Işıqlar yandırmısan mehrabında zəhmətin; Həyat verir insana qayğın, *mehrin,* şəfqətin (M.Rahim); **MEYİL** Mən sənə mayiləm, səndədir *meylim;* Demə səndən qeyri kəsdədir, ay qız! (M.P.Vaqif); **SEVDA** [Qəndab:] Mənə elə gəlirdi ki, əgər Çıngız qağa ilə Qönçənin *sevgisi* baş tutmasa, biz o mehriban insanı əbədi itirəcəyik (B.Bayramov).

2. məhəbbət *bax* mehribanlıq **1**

3. məhəbbət *bax* həvəs

4. məhəbbət *bax* təmas

məhəbbətnamə *bax* eşqnamə

MƏHƏBBƏTSİZ (*məhəbbətsiz, eşqi olmayan*) [Zinyət:] *Məhəbbətsiz* yaşamaq ölməmək üçün əlinə düşən hər şeyi yemək kimi bir şeydir (B.Bayramov); **BİMEHR** (*kl.əd.*) Qıldı məni həlak bu *bimehr* məhlar (S.Ə.Şirvani); **EŞQSİZ** Yaşamaz *eşqsiz,* ruhsuz sənətkar (S.Vurğun); **MEHRSİZ** Usandı *mehrsiz* əflak əlamanımdan; Hənuz eşitmədi ol yari-mehriban fəryad (Qövsi); **SEVDASIZ** [Vaqif:] Dünyanın sirrini görürəm ordan; Bir parça sümükdür *sevdasız* insan (S.Vurğun); **SEVGİSİZ** *Sevgisiz,* ilhamsız yaşaya bilməz; Sevən bir şairin qəhrəmanları (S.Vurğun); **İSTƏKSİZ.**

MƏHƏCCƏR [Mərziyə xala] *məhəccərə* dayaqlanıb ikinci mərtəbəyə əyildi (H.Abbaszadə); **SÜRAHİ** Vaqif başını artırmanın *sürahisindən* aşağı salayıb, sevincək bir səslə: – Ay camaat, – dedi, – xan bugünkü dustaqların təqsirini İmam Hüseynə bağışladı (Çəmənzəminli); **TƏKYƏ** (*köhn.*) Qərənfil bacı eyvanın *təkyəsinə* yaxınlaşaraq, səslədi (İ.Əfəndiyev); **TUTACAQ** Buruğa yalnız bir tərəfdən *tutacağı* olan ensiz bir körpü uzanmışdı (Y.Əzimzadə).

MƏHKƏMƏ [İnci:] *Məhkəmə*yə ona görə verilir ki, evsizsiniz, ev davası çəkirsiniz? (S.Rəhman); **DİVAN** (*köhn.*) [Abdulla:] İndiyədək bir dəfə də görməmişəm ki, *divanlarımız* işi haqqına kəssinlər (M.Hüseyn); **DİVAN-DƏRƏ** (*dan.*) Mən saç-birçəyimi *divan-dərə* qarşısında ağartmışam (Ə.Vəliyev); **MÜRAFİƏ** (*köhn.*) [Səkinə xanım:] Axır eşidibsən ki, qardaşım arvadı qardaşımdan qalan irsə müddoi çıxıb, məni *mürafiə*yə çağırır (M.F.Axundzadə); **SUD** (*köhn.*) [Koxa:] *Sud* gəlib, bacı, yazırlar, aşağı en (A.Şaiq).

1. MƏHKUM, CƏZALANMIŞ

2. məhkum *bax* dustaq **1**

3. məhkum *bax* tabe

məhkumiyyət *bax* tabelik

məhkumluq *bax* tabelik

məhmil *bax* köcavə

MƏHRƏBA Yunis nahardan sonra ayağa qalxıb ölüzyuyanın qabağına keçdi, əllərini yuyub, *məhrəba* ilə qurulaya-qurulaya dedi: – Könül xanım, bilirsən sənə niyə əziyyət vermişəm? (X.Hasilova); **DƏSMAL** Piri kişi Qaraca qıza *dəsmal* verdi. Qaraca qız da əlüzünü qurudub süfrəyə oturdu.. (S.S.Axundov); **ÜZSİLƏN** Gözəl çarpayı, üzyuyan, yazı stolu, iki skamya, ağ mərmərdən ibarət mürəkkəbqabı, *üzsilən,* üst köynəyi, ayaqqabı, idman şeyləri və bir çox başqa şeylər (A.Şaiq).

MƏHRUM Ruhnovaz gözəl deyil idi, nəşəli təbiətdən *məhrumdu* (M.F.Axundzadə); **ARİ** O soqaqlar ki, ruzi-fitrətdən; *Ari* idi bütün nəzafətdən (M.Ə.Sabir); **BİNƏSİB** [Zeynəb xanım:] On ildən artıq bu dövlət mənim olimdə idi. İndi gərək mən ondan *binəsib* olam? (M.F.Axundzadə); **NƏSİBSİZ.**

MƏHSUL Bu il bağlar bol *məhsul* gətirmişdi (H.Abbaszadə); **BAR** Ağac *bar* gətirmək üçün əkilir (C.Cabbarlı); **BƏHƏR** Nə cür gizlədəsən barı, *bəhəri?* Seyr elə bu qədər bar verənləri (X.Rza); **BƏHRƏ** Alı bir az əvvəl bostandan ilk *bəhrə* olaraq, iki araba qovun, qarpız dərib hazırlamışdı (A.Şaiq).

MƏHSULDAR Dağətəyi kəndinin yeri nə qədər səfalı, əkinəcəyi, biçinəcəyi nə qədər *məhsuldar* olsa da, onlar hamısı bir qarışa qədər belə ağalığın malı idi (S.Rəhimov); **BƏRƏKƏTLİ, MƏHSULLU** Sən ey viran qalan böyük incəsənət ocağı! Ukraynanın bol *məhsullu, bərəkətli* torpağı, geniş çöllori.. (C.Cabbarlı); **MƏHSULVERİCİ, MÜNBİT, VERİMLİ, YÜKSƏK MƏHSULLU.**

məhsullu *bax* barlı **1**; məhsuldar

məhsulsuz *bax* barsız **1**

məhşər *bax* qiyamət **1**

məxaric *bax* xərc

məxəs *bax* mənbə **2**

MƏXFİ [Qazı:] Bəli, bu iş gərək *məxfi* qala (C.Məmmədquluzadə); **GİZLİ** [Əhməd:] Yoxsa *gizli* iclasınız var? (A.Şaiq); **XƏFİ** (*köhn.*) Qəlbində *xəfi* sirrini bildikcə yazandır; Əyyari-zamandır (M.Ə.Sabir); **PÜNHAN** On gündən sonra Misir xan qızına Teymur xan namını verir və bu sirr *pünhan* qalmaq üçün həmin bu müqabilimizdəki qayanın döşündə bir köşk bina edib, orada sakin olub (S.S.Axundov).

məxləz *bax* xülasə **1**

MƏXRƏC (*dilç.*), **ARTİKULYASİYA** Fonetikada səslərin tələffüzü, fizioloji prosesi, daha doğrusu, səslərin *məxrəci* (*artikulyasiyası*) da öyrənilir (N.Məmmədov).

MƏXSUS (*aid olan*) Hərəsi bir vəzifə daşıyır, hərəsinin özünə *məxsus* tərcümeyi-halı, xüsusiyyəti, psixologiyası (C.Əlibəyov); **AİD** [Nadir bəy:] Mənçə, gözəllik zövqə *aid* bir meydir (H.Cavid); **XAS** Müharibə dövrünün adamlarına *xas* işgüzarlıqla dərhal motləbə keçdi (X.Hasilova); **MÜXTƏS** Bunların böyük bir qismi şərabın vəsfinə *müxtəs* kimidir (A.Şaiq); **MƏNSUB.**

məxsusən *bax* xüsusən

məxsusi *bax* xüsusi **1**

məişət *bax* yaşayış **1**

MƏKAN O mübarək *məkanı* çox sevirəm (A.Səhhət); **MƏQAM** Pişxidmətbaşı və Xaco Mübarək çıxdılar, hər birisi öz *məqamına* getdi (M.F.Axundzadə); **YURD** *Yurdumda* bir misilsiz bağban olacağam mən (M.Müşfiq).

məkə *bax* qarğıdalı

məkəbuğdası *bax* qarğıdalı

məkəs *bax* milçək

məkr *bax* hiylə

məkrli *bax* hiyləgər

MƏKTƏB (*təhsil ocağı*) Bunlara xüsusi təbiyə verilsə, bunlar üçün ləyaqətli *məktəblər* bina olunsa, kişilərə yol göstərməyə qadir olarlar (Çəmənzəminli); **DARÜLƏDƏB** (*kl.əd.*) *Darüləbabin* bilməliyiz qədrini, millət; Göstərməli ikmalına olduqca həmiyyət (M.Hadi); **DƏBİSTAN** (*köhn.*) (*ibtidai məktəb*) Eyləmərəm dinsiz öz əhfadımı! At çölə getsin, nə *dəbistandı* bu?! Dur qaçaq, oğlum, bəş-ayaq qandı bu! (M.Ə.Sabir); **MƏDRƏSƏ** (*köhn.*) (*dini məktəb*) Bir olində kitabça; bir olində yasəmən; Məhəmməd asta-asta qayıdır *mədrəsələn* (B.Vahabzadə); **MƏKTƏBXANA** (*köhn.*) [Cənnətəli ağa:] Əvvəl qoydum *məktəbxanaya,* üç gündən sonra qaçdı, dedi ki, oxumuram.. (N.Vəzirov).

məktəbxana *bax* məktəb

məktəbli *bax* şagird **1**

MƏKTUB [Vəzir:] Aldıq *məktubunu* Məhəmməd Qacar; Torlan oylağında sar ola bilməz... (S.Vurğun); **KAĞIZ** (*dan.*) Bu

əhvalatdan üç gün sonra Qaraş poçtdan *kağız* aldı (Ə.Vəliyev); **NAMƏ** Qaçaqlar sözü bir yerə qoydular, həmişəlik İranda qalmağı, bu məqsədlə *namə* göndərməyi qərara aldılar (M.Hüseyn).

MƏKTUBLAŞMAQ O, elmi-siyasi işlər üçün şairlə *məktublaşdı* (M.S.Ordubadi); **KAĞIZLAŞMAQ** [Əbdüləli:] Biz onunla *kağızlaşırdıq* (S.Rəhimov); **YAZIŞMAQ** Daimi bir-biri ilə [Vaqiflə Vidadi] *yazışır* və biri digərinə şerini göndərirdi (Çəmənzəminli).

məktubpaylayan *bax* poçtalyon

məkulat *bax* azuqə

məqam *bax* **1.** məkan; **2.** vaxt **1**; **3.** vəzifə **2**

məqbər *bax* məzar

məqbərə *bax* **1.** mavzoley; **2.** sərdabə; **3.** məzarıstan

məqbərəlik *bax* məzarıstan

MƏQSƏD O sadə gənc uzaqlardan, Şərq elindən qonaq gəlmiş; *Məqsədimiz* bu torpaqdan qüvvət alıb dönmək imiş (S.Vurğun); **AMAL** ..ölüm bizi Azərbaycanın səadəti yolundan, böyük *amalımız* yolundan döndərə bilməz (M.İbrahimov); **FİKİR** [Süleyman:] Yaxşı, xala, bəs sənin *fikrin*? (Ü.Hacıbəyov); **İDEAL** (*ən yüksək məqsəd*) Sonra mənim məqsədim, *idealım* və qəlbimdir (S.Rəhman); **QAYƏ** Böyüdükdə də ana həmin fikirdən daşınmaz: yenə *qayəsi* övlad olar (Çəmənzəminli); **QƏRƏZ** (*gizli məqsəd*) [Kərim:] Yəni bunu deməkdə *qərəzin* nədir? (M.F.Axundzadə); **QƏSD** [Zeynal:] *Qəsdim* instituta girməkdir (B.Bayramov); **MƏQSUD** *Məqsudum* bir mövzu ayırıb yazmaq idi (S.S.Axundov); **MƏRAM** [Molla Həmid:] Hələ buyurun görək zəhmət çəkməyinizdən qərəz məhz o cənabın ziyarətidir, ya başqa bir *məraminiz* dəxi var? (M.F.Axundzadə); **MƏTLƏB** [Vahabzadə:] Birdən elə bilərsiniz ki, sizə mühəndislik dərsi keçmək niyyətinə düşmüşəm, yox, *mətləbim* başqadır (S.Əlibəyov); **MURAD** Bu cür məktəbləri bina etməkdən dövlətin *muradı* bu idi ki, dəhət əhlinə savad öyrədib və bir para elmlər təlim edib, bir tövr gözünü açsın.. (C.Məmmədquluzadə); **NİYYƏT** *Niyyətin* hara, mənzilin də ora (Ata. sözü).

məqsədəuyğun *bax* ağlabatan

məqsud *bax* məqsəd

məlahət *bax* gözəllik

məlahətli *bax* cazibəli

məlaikə *bax* mələk **1**

məlal *bax* qəm

məlamət *bax* məzəmmət

mələfə *bax* döşəkağı

I. MƏLƏK (*dinə görə fövqəltəbii bir qüvvə*) [Şeyx:] *Mələklər*, hurilər, pərilər səni; Alıb qanadına gəzdirir səni (S.Vurğun); **FİRİŞTƏ** (*kl.əd.*) Bir soyu soylamaq gərək; Bir acı doylamaq gərək; Bir dildən söyləmək gərək; *Firiştələr* bilməz ola (Xətayi); **MƏLAİKƏ** [Molla:] ..mən indiyə kimi ..*mələikə* görməmişəm (M.N.İot.).

I. mələk *bax* gözəl **I**

mələkçöhrə(li) *bax* mələküz(lü)

MƏLƏKÜZLÜ (*şair.*) [Orxan:] Ah, gözəl çorkoz qızı, nazlı İsmət! *Mələküzlü* şeytan, incəbel afət! (H.Cavid); **MƏLƏKÇÖHRƏ(Lİ)** [Şakro:] Sən *mələkçöhrəli* bir şeytansan (H.Cavid); **MƏLƏKSİMA(LI)** O *mələksimalı*, şahbazbaxışlı; O dodağı ballım, ceyran yerişlim (S.Vurğun); **MƏLƏKSURƏT(Lİ).**

mələksima(lı) *bax* mələküz(lü)

mələksurət(li) *bax* mələküz(lü)

I. MƏLƏZ (*müxtəlif irqlərdən törəmiş*) **METİS**

2. MƏLƏZ (*müxtəlif cinslərdən törəmiş olan*), **DÜDƏMƏ, DÜRƏK, HİBRİD, METİS**

MƏLƏZLƏŞDİRMƏK, HİBRİDLƏŞDİRMƏK, METİSLƏŞDİRMƏK

məlhəm *bax* dərman **I**

məlik *bax* padşah

məliklik *bax* padşahlıq

MƏLUM Quşun gözəlliyini təsvir etməyə nə mövcud rənglər, nə *məlum* kəlmələr kifayət edər (M.Rzaquluzadə); **MƏRUF** Elm

afəti-can olduğu məşhuri-cəhandır; *Mərufi-zəmandır* (M.Ə.Sabir); **AŞKAR** (*bax*).

1. MƏLUMAT, BİLDİRİŞ, İZAHAT

2. məlumat *bax* xəbər, xəbərdarlıq **2**

1. MƏLUMATLI, BİLİKLİ, ELMLİ

2. məlumatlı *bax* xəbərdar

MƏLUMATSIZ, BİXƏBƏR, XƏBƏRSİZ

MƏLUN (*lənətə gəlmiş*) [Şah Abbas:] And olsun babalarımın ərvahına, bu *məlun* da bir tədbir göstərməsə, bu sarayı sallaqxanaya döndərəcəyəm! (A.Şaiq); **LƏİN** Bu isə pəs o *ləinin* də işi qullabidir; Dini imanı danıb, yoldan azıbdır, babıdır! (M.Ə.Sabir).

məmat *bax* ölüm

I məmə *bax* **1.** əmcək; **2.** yelin

II məmə *bax* ana

məməş *bax* məmə **I**

məmləkət *bax* ölkə **1**

məmnun *bax* razı

məmnuniyyət *bax* məmnunluq

MƏMNUNİYYƏTLƏ Aslan *məmnuniyyətlə* razı olub, Hacıdan xahiş elədi ki, pulsuz da xidmət etməyə hazırdır (C.Cabbarlı); **EHTİRAMLA** Dilbər, *ehtiramla*, mərhəmət ilə; Yanıma gəldiyin yadıma düşdü (Aşıq Dilgəm).

MİNNƏTDARLIQLA Aydın *minnətdarlıqla* [Gülqönçəyə] baxdı (H.Seyidbəyli); **MƏMNUNLUQLA** Vahid də bu gün xoş bir xatircəmlik, *məmnunluqla* evə qayıtdı (Mir Cəlal); **HƏVƏSLƏ** (*bax*), **SEVİNƏRƏK.**

MƏMNUNLUQ, XOŞHALLIQ, MƏMNUNİYYƏT, RAZILIQ, SEVİNC

məmnunluqla *bax* məmnuniyyətlə

I MƏMUR Qapıya catmamış bu yoxsul insan; Tez kəndin *məmuru* çatdı dalından (M.Rahim); **ÇİNOVNİK** (*köhn.*) Birdən görərlər deyə; Gah baxır *çinovnika;* gah da qapıya sarı; qalın qara pərdəyə (R.Rza).

II məmur *bax* abad

MƏNA [Nurməhəmməd:] O oqidədə olmasaydım nə bura gələrdim, nə də bundan sonra yaşamaqda bir *məna* tapardım (M.İbrahimov); **MƏAL** (*köhn.*) Odur göründü yenə sevgili gözəllərtək; Bəzər xəyalımı coşqun *məal* şəklində (A.Şaiq).

mənadar *bax* mənalı

MƏNALI (*mənası olan*) Satira *mənalı*, ciddi, qəzəbli və məhvedici bir gülüşdür (F.Qasımzadə); **MƏNİDAR** (*köhn.*) [Seyid Əzim] ..gənc ikən "Gülüstani-Sədi" kimi mühüm bir əsərin ən dilrüba və *mənidar* hekayələrini tərcüməyə müvəffəq olmuşdur (M.S.Ordubadi); **PÜRMƏNA** (*kl.əd.*) (*dərin mənalı*) Mənim ən sevdiyim bir lövhə, bir təsviri-*pürməna* (H.Cavid); **DOLĞUN** (*məc.*).

1. MƏNASIZ (*heç bir mənası olmayan*) [Ulduz:] Sən olmasaydın mənim həyatım *mənasız* olardı (M.İbrahimov); **BİMƏNA** Bu sözləri nə üçün *bimənа* danışırsan? (N.Vəzirov); **BOŞ** (*məc.*) *Boş* danışıqdan nə çıxar, ay balam? (M.Ə.Sabir); **BOŞ-BOŞ** [Cahan:] Balam *boş-boş* danışıqdan fayda yoxdur (Ə.Haqverdiyev); **BOŞ-BOŞUNA** Tərbiyəsiz uşaq kimi *boş-boşuna* hırıldama! (M.Ə.Sabir); **BİCA** [Müəllim:] Amma uşaq tayfasına o cür sözləri deməyiniz, bir az *bicadır* (C.Məmmədquluzadə); **QURU** (*məc.*) Sözləri əzbər, *quru* natiqləri; Kürsüyə qalxan görürəm, qorxmuram (R.Rza); **SAÇMA** [Məhərrəm] yenə arabir *saçma* sözlər söyləyirdi (A.Şaiq); **YERSİZ** Çox istərdim səbəbini biləm, amma soruşsa idim, *yersiz* düşərdi; yəni bica olardı (C.Məmmədquluzadə); **MƏZMUNSUZ.**

2. mənasız *bax* əbəs

I. MƏNBƏ (*coğr.*) Çayın *mənbəyi* yerdən çıxan bulaq, bataqlıq, göl ola bilər ("Coğrafiya"); **GÖZ** (*dan.*), **ÇAYBAŞI.**

2. MƏNBƏ (*elmi tədqiqatın əsaslandığı sənəd, əsər və s.*) Rus *mənbələrinə* gəldikdə bunlardan (bizim) tarixə aid bir çox mühüm şeyləri ixrac etmək olar (F.Ağazadə); **MƏXƏZ** [Nəsimi] ömrünün son anında dediyi məğrur sözlər doğrudan doğrudur. Və nəhayət tarixi sənəd – ərəb *məxəzi* də heç kəsdə şübhə doğurmur (Anar).

3. mənbə *bax* bulaq

məndil *bax* dəsmal **1**

MƏNƏMLİK, TƏKƏBBÜR *Mənəmlik, təkəbbür,* heç kəsi bəyənməmək, hamıya alçaq nəzərlə baxmaq – budur sənin ən böyük qüsurların (Ə.Vəliyev); **MƏNƏM-MƏNƏMLİK** Bolkə zabitəsi; harınlığı, *mənəm-mənəmliyi* (Anar); **LOVĞALIQ** (*bax*).

mənəm-mənəmlik *bax* mənəmlik

MƏNƏN, RUHƏN

mənəviyyat *bax* əxlaq

mənfəət *bax* **1.** fayda; **2.** qazanc **2**; **3.** nəf

mənfəətli *bax* faydalı

mənfəətsiz *bax* faydasız

MƏNGƏNƏ (*sıxıcı alət*) [Qocanın] gözləri dumanlandı, vücudu bir *mənganə* içində sıxılıb, üzərinə ildırımlar tökülən kimi oldu (A.Şaiq); **QISQAC** Brezent torbada müxtəlif alətlər; çəkic.. *qısqac* və s. vardır (Ə.Sadıq); **PRES, SIXAC.**

məngirləmək *bax* yiyələnmək

məni *bax* sperma

1. MƏNLİK Gülcahan xalanın sözləri onun *mənliyinə* çox toxunmuş, onda bir çox acı hiss və düşüncələr oyatmışdı (A.Şaiq); **KİŞİLİK** Müqim bəyin *kişiliyinə* toxunan bu atmacadan o, pul kimi qızardı (S.Rəhimov); **ŞƏXSİYYƏT.**

1. mənlik *bax* şərəf, heysiyyət

I MƏNSƏB (*coğr.*) Çayın digər çaya, gölə və ya dənizə töküldüyü yerə çayın *mənsəbi* deyilir ("Coğrafiya"); **QOVŞAQ** Ustadlar belə nəql edirlər ki, qədimlərdən baş Xudafərin körpüsü ilə Araz-Kür *qovşağı* arasında Araz boyu yeddi yüz yetmiş iki kənd yaşayırdı ("Qurbani"); **ÇAYAĞZI.**

II mənsəb *bax* vəzifəpərəst

mənsəbpərəst *bax* vəzifəpərəst

mənsəbpərəstlik *bax* vəzifəpərəstlik

mənsub *bax* məxsus, aid

MƏNSUBİYYƏT, AİDİYYƏT

məntiqsiz *bax* ağlabatmaz

1. MƏNZƏRƏ Mənsur ..otrafdakı *mənzərəyə* tamaşa eləyirdi (H.Abbaszadə); **AXAR-BAXAR** ..kəndin çox gözəl və qəşəng *axar-baxarı* vardı (Ə.Vəliyev); **LANDŞAFT** Kiprin .. *landşaftı* bir növ bizim Abşeron yarımadasını xatırladır (Qəzetlərdən); **GÖRKƏM, GÖRÜNÜŞ, PERSPEKTİV.**

2. MƏNZƏRƏ, PANORAMA (*mənzərə janrı*), **PEYZAJ**

3. MƏNZƏRƏ (*təbiəti əks etdirən şəkil*), **TƏSVİR, LÖVHƏ**

MƏNZƏRƏLİ Burası *mənzərəli* bir yer idi (S.Hüseyn); **AXAR-BAXARLI** Alaçığımız, ..atamın bəyəndiyi *axar-baxarlı* gözəl bir yerdə quruldu (A.Şaiq); **BEHİŞT** (*məc.*) Bir bağım var, səfalı, yaraşıqlı və *behişt* kimi bir yerdir (M.İbrahimov).

1. MƏNZİL Əşrəf yeni *mənzilini* nəzərdən keçirdikdən sonra yerini rahatlamaq istədi (İ.Şıxlı); **EV** [Mərcan bəy:] ..boşayacağam, təvəqqe edirəm ki, bu gün mənim *evimdən* çıxasan (Ü.Hacıbəyov); **MƏNZİLGAH** (*kl.əd.*) Nə bilsin bəhər halın ol ki, *mənzilgahı* sahildir (Füzuli).

2. mənzil *bax* məsafə

mənzilgah *bax* **1.** mənzil **1**; **2.** düşərgə 3

məram *bax* arzu, məqsəd

məramnamə *bax* proqram

MƏRASİM, TƏNTƏNƏ, RƏSM, ADƏT (*bax*)

mərd *bax* **1.** igid; **2.** kişi **1**

MƏRDİMAZAR (*başqasına zərər verən, pislik gətirən adam, söyüş kimi də işlədilir*) [Eynəkli qoca:] Nə olacaq, *mərdimazarın* biri kişiləri dolaşdırıb (M.Hüseyn); **MAZARAT** *Mazaratı* axtarmaq lazım deyil, o özü tapılır (S.Rəhimov).

MƏRDİMAZARLIQ (*birinə edilən pislik*) [Həmid:] Mən sizə *mərdimazarlıq* eləmişəm, Balağa qədəş (H.Abbaszadə); **PİSLİK** Heç vaxt unutmarıq yaxşılıqları; Amma *pislikləri* unudanlarıq (B.Vahabzadə); **ŞƏRARƏT** (*köhn.*) *Şərarətdən* çəkib əl, xeyrə mail olmayın bir dəm; Kəsin başlar, alın canlar, tökün min qanlar, insanlar! (M.Ə.Sabir).

mərdimgiriz *bax* adamayovuşmaz

mərəz *bax* xəstəlik

mərhəba *bax* afərin

mərhəmət *bax* rəhm

mərhəmətli *bax* rəhmli

MƏRHUM (*ölmüş, rəhmətə getmiş*) Qılıncımı tullayıb o andaca yerə mən; O *mərhumun* neyini taxdım onun yerindən! (B.Vahabzadə); **RƏHMƏTLİK** Qütb nəzəriyyəsi, yəni "biclər və axmaqlar" haqqındakı nəzəriyyə Mina xanıma inqilaba qədər böyük tacir olan *rəhmətlik* atasından keçmişdir (M.İbrahimov).

mərifət *bax* qanacaq **1**; tərbiyə **1**

mərifətli *bax* **1.** qanacaqlı, tərbiyəli; **2.** mədəniyyətli

mərifətsiz *bax* **1.** qanacaqsız; **2.** mədəniyyətsiz

məriz *bax* xəstə

mərizxana *bax* xəstəxana

1. MƏRKƏZ, ORTA

2. mərkəz *bax* paytaxt

mərrix *bax* mars

MƏRSİYƏ (*bir şəxsin ölümünə həsr edilmiş kədərli şeir*); **NÖVHƏ** Məhərrəmin birindən başlayaraq, onuna qədər davam edən imam təziyəsi, *mərsiyə, növhə,* dəstə təpmə, məhəllələr arasında adət şəkli almış dalaşmalardan sonra bütün bu həngamə aşura büsatı ilə bitirdi (Çəmənzəminli); **RÖVZƏ** Mey gətir. Saqi məni qurtar namazü *rövzədən* (Kişvəri).

mərsiyəçi *bax* mərsiyəxan

mərsiyəgu *bax* mərsiyəxan

MƏRSİYƏXAN (*mərsiyə oxuyan*) Dərviş, *mərsiyəxan* qananları da; Çıxara bilərdi doğru yolundan (M.Rahim); **RÖVZƏXAN** (*köhn.*) ...xüsusi seyid, *rövzəxan,* vaiz, mütrüb və dərviş fabrikləri tosis olunubdur (Ə.Haqverdiyev); **MƏRSİYƏÇİ, MƏRSİYƏGU, NÖVHƏXAN.**

1. MƏRTƏBƏ Liftlə beşinci *mərtəbəyə,* oradan da ensiz pilləkənlə taxtapuşa qalxdıq (S.Qədirzadə); **QAT** İmran üçüncü *qatdakı* sement döşəməli dəhlizi keçib Badam xalanın qapısını taqqıldatdı (Mir Cəlal).

2. mərtəbə *bax* rütbə

3. mərtəbə *bax* dəfə

4. mərtəbə *bax* vəzifə **2**

məruf *bax* məlum

MƏRUZƏ, ÇIXIŞ, NİTQ

məsa *bax* axşam

MƏSAFƏ Moskva ilə Berlin arasındakı *məsafə* yaxındır (M.Hüseyn); **MƏNZİL** Xəyalım dolanar gəzər; Gah Muğanı, gah Eldarı; *Mənzil* uzaq, ömür yarı! (S.Vurğun); **YOL** [Feyzulla] iki dayanacaq arasındakı *yolu* oturaq gəldi (Anar); **ARA, DİSTANSİYA.**

MƏSCİD (*din.*) *Məscid* bir guşə vermiş bu gün yenə fəllaha; O, qəlbini açaraq, dua edir Allaha (M.Rahim); **ALLAH EVİ** İnsanlar məscidə, "yer və göylərin yaradıcısı olan" *Allah evinə* yığışdılar (M.İbrahimov); **CAME** [Firuz:] Gəzdirdilər bizi – saraylar, məscidlər – onlar [türklər] *came* deyirlər (Anar).

MƏSƏL [Bahar:] Məşhur *məsəldir* deyərlər: "Su çanağı suda çatlar" (S.S.Axundov); **ATALAR SÖZÜ** Çünki adam elə axşam da xeyir tapa bilər, lap gecənin yarısı da xeyir tapa bilər. Umud sonra da fikirləşdi ki, bu sözlər Pirinin sözləri deyil, bunlar *atalar sözüdür,* atalar məsəlidir (İ.Məlikzadə); **TİMSAL** Məşədi Həsən əmi əlavə olaraq ..tam şivəsi ilə bir *timsal* da söylədi (S.Hüseyn); **MİSAL** *Misal* var deyirlər, əvvəl çuxurunu düzəlt, sonra get, at al (H.Abbaszadə); **ZƏRBİ-MƏSƏL** Məsələn, "heç kəs öz ayranına turş deməz" *zərbi-məsəli* səbəbsiz tərənməyibdir (N.Nərimanov).

MƏSƏLƏ [Qız] vacib bir *məsələ* ardınca gedənlər kimi gedirdi (Mir Cəlal); **MƏTLƏB** Bu sorğu-sualsız da onun üçün *mətləb* aydın idi (S.Rəhimov).

MƏSƏLƏN (*bir şeyin şərhinə dair misallar vermək üçün işlədilir*) [Qulamov:] *Məsələn,* deyirsən ki, zavod yüksək keyfiyyətli musiqili saatlar istehsal edə bilər... (Hidayət); **FİLMƏSƏL** (*köhn.*) İstəyirik bir iş açaq *filməsəl;* Söyləşirik bir-iki il laəqəl (M.Ə.Sabir); **MİSAL ÜÇÜN** [Şahmar:] Yoxsa deyirsən, *misal üçün,* ay Dərgah kişi, niyə bir ildə bu qədər az əmək günü almısan (İ.Əfəndiyev).

məsərrət *bax* sevinc

məskən *bax* vətən

1. MƏSLƏHƏT [Nurlu:] Həmid, atam yanımızda yoxdur, sən onun yaxın yoldaşısan, mən səndən vacib bir məsələdə *məsləhət* almağa gəlmişəm (H.Abbaszadə); **MƏŞVƏRƏT** Müayinə başlanır; Qızışır hakimlərin; *Məşvərəti,* söhbəti (B.Vahabzadə); **GƏNƏŞİK** (*dan.*), **GÖSTƏRİŞ.**

2. MƏSLƏHƏT, KONSULTASİYA

3. məsləhət *bax* göstəriş **1**

MƏSLƏHƏTÇİ [Mazarov:] Yox e, *məsləhətçi* kimi deyirəm (Anar); **MƏŞVƏRƏTÇİ** [Sərdar Zaman xan:] Şah dostlarını hələlik *məşvərətçi* sifətilə öz yanında saxlayır (A.Şaiq); **MÜŞAVİR** O özünü Talıbxanın arxasında aşılmaz bir dağ, basılmaz bir qala sayır və özünü uçastok hökumətinin misilsiz bir *müşaviri* hesab edirdi... (S.Rəhimov).

MƏSLƏHƏTLƏŞMƏK [Ulduz:] Qoyun bir az *məsləhətləşək,* fikir edək, deyib yola saldılar (M.İbrahimov); **GƏNƏŞMƏK** (*dan.*) Sərkər Cavadla Vəliş kişi tez-tez, hətta günaşırı "Kommunist Muxtarla" görüşür, Nərimanın dedikləri barədə bir-birinə *gənəşirdilər* (Ə.Vəliyev); **MƏŞVƏRƏTLƏŞMƏK** [Azər:] Ə, bunlar nə yaman *məşvərətləşirlər* (M.İbrahimov).

MƏSLƏHƏTLİ *Məsləhətli* don gen olar (Ata. sözü); **GƏNƏŞİKLİ** (*dan.*) *Gənəşikli* baş salamat olar (Ata. sözü).

məslək *bax* **1.** əqidə **1**; **2.** məfkurə
məsləkdaş *bax* həmməslək
məsləkli *bax* əqidəli
məsləksiz *bax* əqidəsiz
məsnəd *bax* taxt **1**
məsnun *bax* süni **1**
məsrəf *bax* **1.** xərc; **2.** xeyir, fayda
məsrur *bax* şad
məst *bax* sərxoş

MƏSTEDİCİ Bahar çiçəklərinin ətri təmiz səhər havasına qarışaraq çöllərə *məstedici* bir rayihə yayırdı (Ə.Qasımov); **BAYILDICI** O dalğın və müəmmalı gözlər gecənin sükutunu oxşayan müzəyyən və *bayıldıcı* bir ud zümzüməsini dinləyərək uyuyur (H.Cavid); **BİHUŞEDİCİ** [Rza:] Minarədən bütün varlığı uyudacaq bir layla kimi azançının həzin *bihuşedici* səsi eşidilirdi (M.İbrahimov); **KEFLƏNDİRİCİ, SƏRXOŞEDİCİ.**

məstlik *bax* sərxoşluq
məsud *bax* xoşbəxt
məsudluq *bax* xoşbəxtlik
məsul *bax* cavabdeh
məsuliyyət *bax* cavabdehlik
məsum *bax* günahsız
məsumluq *bax* günahsızlıq
məşəqqət *bax* əzab
məşəqqətli *bax* əzablı, çətin
məşğələ *bax* **1.** məşğuliyyət; **2.** dərs

MƏŞĞULİYYƏT (*iş-güc, məşğul olma və s.*) Axır ki, Mötəbərov özünə evdə *məşğuliyyət* tapdı (M.Hüseyn); **GƏRM** (*köhn.*) Saat ikidə, üçdə başlar *gərm* olandan sonra, proqramın ikinci maddəsinə şüru edib düşərdilər qapılara.. (Ə.Haqverdiyev); **KƏSBKAR** (*köhn.*) Yenə də xalqı torpağından, tarlasından, *kəsbkarından* ayırmaq lazım gələcəkdir (M.S.Ordubadi); **MƏŞĞƏLƏ** Bu *məşğələnin* mənim üçün böyük ləzzəti var (C.Məmmədquluzadə); **DÜMÛK** (*dan.*), **KƏSBKARLIQ.**

məşğuliyyətsiz *bax* bikar
məşhur *bax* adlı-sanlı

MƏŞHURLAŞMAQ [Hacıyev:] Sizi şəhərdə tanıyanlar çoxalır, getdikcə daha da *məşhurlaşırsınız* (H.Abbaszadə); **AD QAZANMAQ/ÇIXARMAQ** Otuz il qoymuşdu can balıqçı gəmisində; *Ad qazanmışdı* Qurban balıqçı gəmisində (S.Rüstəm); **ADI ÇIXMAQ** [Laçının] kənd uşaqları arasında *adı çıxmışdı* (M.Hüseyn); **MƏŞHUR OLMAQ** Həmid bircə saatın içində gəminin içində *məşhur olmuşdu* (H.Abbaszadə); **TANINMAQ.**

MƏŞQ (*müxtəlif mənalarda*) [Cavan fəhlə:] Başqası olsaydı güləşmə həvəskarı ilə *məşq* keçdiyi üçün hökumətdən haqq alırdı, o müftə eləyir (H.Abbaszadə); Onlar içəri keçdilər və Yunis yeni yazdığı mahnının *məşqinə* başladı (X.Hasilova); **TƏLİM** [Balağa] *təlim* verdiyi gənc pəhləvanları tamaşaçıların

hərarətlə qarşılaması onun ürəyindən idi, çox sevinirdi (H.Abbaszadə); **HAZIRLIQ, REPETİSİYA.**

məşrəb *bax* xasiyyət
məşriq *bax* gündoğan
məşrutə *bax* konstitusiya
məşşatə *bax* bəzəkçi **1**
məşuq(ə) *bax* sevgili **1**
məşuqəbaz *bax* arvadbaz
məşuqəbazlıq *bax* arvadbazlıq
məşum *bax* nəhs, uğursuz **1**
məşumluq *bax* uğursuzluq
məşvərət *bax* məsləhət **1**
məşvərətçi *bax* məsləhətçi
məşvərətlənmək *bax* məsləhətləşmək
mətanətli *bax* dəyanətli; iradəli

MƏTBƏƏ (*kitab, qəzet, jurnal və s. çap olunan müəssisə*) O [Davud] əmin idi ki, Balağa özü qəzetləri götürüb və *mətbəədən* onların hərəsindən birini görüb aparıb evə (H.Abbaszadə); **BASMAXANA** (*köhn.*) İran xalqı dünən *basmaxana* bina edib (M.S.Ordubadi); **ÇAPXANA** Yarı yoldan geri dönən Həmid yeyin-yeyin *çapxanaya* yollandı (H.Abbaszadə); **NƏŞRİYYAT** [Rəhimli:] Sənin əlindən tutub *nəşriyyata* gətirəndə düşünürdüm ki, iri, qara gözlərindən mərdlik, cəsarət yağır (M.İbrahimov); **TİPOQRAFİYA.**

MƏTBƏƏÇİ (*mətbəə işçisi*); **ÇAPÇI, NƏŞRİYYATÇI, TİPOQRAF**

MƏTBƏX Rübabə *mətbəxdə* nahar hazırlayırdı.. (H.Abbaszadə); **AŞPAZXANA** Korbəlayı Qasım və Əli üz qoydular *aşpazxanaya* sarı getməyə (C.Məmmədquluzadə).

MƏTBUAT, PRESS

mətin *bax* **1.** sarsılmaz; **2.** iradə
mətinli *bax* iradəli
mətləb *bax* **1.** məqsəd; **2.** məsələ
məva *bax* **1.** yurd; **2.** yuva **1**
məvacib *bax* maaş
məyus *bax* **1.** ümidsiz; **2.** dilxor
məzac *bax* əhval

MƏZAR, QƏBİR Qoca bir az gülümsədi; Sonra *qəbrə* baxıb dedi: – Qafil, özün bilməyirsən? Səninkidir o tək *məzar* (S.Vurğun); **GOR** [Əhməd:] Daha məndən əl çək. Bir rahat *gora* baş aparım (Ə.Haqverdiyev); **GORGAH** (*bir nəslin basdırıldığı qəbir*) [Budaq:] Atamın *gorgahı* bilinməz, nişangahından xəbəriniz olmazdı (Ə.Vəliyev); **QƏBİR EVİ, SON MƏNZİL/MƏSKƏN** Min-min insan seli gəlmiş "O mənimdir, mənim" – deyə; Füzulini *qəbr evinə – son məskənə* ötürməyə (B.Vahabzadə); [Şəfərdən dayı] ..arvadının *son məskəninə* tərəf addımlamağa başladı (Anar); **MƏDFƏN** (*kl.ad.*) Təbəssüm etsə də güllər, üzün gülməz bu gülşəndən; Dodaqsız qaldığın gündə gülərsən, yoni *mədfəndə* (M.Hadi); **TÜRBƏ** Hər *türbədən* bir qəhrəman; Sanki baxıb deyir bizə; Alovların arasından; Yollar açın eşqimizə (S.Vurğun); **MƏQBƏR** (*köhn.*).

MƏZARISTAN (*ölülərin basdırıldığı yer*) Gəldi *məzarıstana* vəsf etdiyi gözəllər (M.Rahim); **QƏBİRİSTAN** Onlar şənliyə döndülər. Ölən yoldaşı *qəbiristana* apardılar (M.Hüseyn); **QƏBİRİSTANLIQ** Yollar, izlər qaralır; *Qəbiristanlıq* boş qalır (B.Vahabzadə); **MƏQBƏRƏ** ..Təxt rəvan sürənlər birbaş surxab məhəllələrindəki şairlər *məqbərəsinə* tərəf gedirdilər (M.S.Ordubadi); **MƏQBƏRƏLİK** *Məqbərəlikdə* edirəm gah məkan; Qəbirdə xortdan görürəm, qorxuram (M.Ə.Sabir); **MƏZARLIQ** Aslan kimi nəzərlə; Göz yetirdi hər yana; Güllük, xarabaydı; *Məzarlıqdı* kənd tamam (M.Rzaquluzadə); **ÖLÜLƏR ÖLKƏSİ** (*təxl.*) Məzarıstan... Dəhşətlidir bu *ölülər ölkəsi* (B.Vahabzadə).

məzarlıq *bax* məzarıstan
məzə *bax* **1.** çərəz; **2.** naz
məzələnmək *bax* əylənmək **1**

1. MƏZƏLİ [Vahid] sonra da bir neçə belə *məzəli* söz deyib məni güldürdü (B.Bayramov); **GÜLMƏLİ** [Əli:] Burada *gülməli* nə var ki.. Lağ ilə dedim.. (H.Abbaszadə); **BAMƏZƏ, KOMİK.**

2. MƏZƏLİ [Vahid:] Anam iş yazdıranda o *məzəli,* mehriban bəstəkarların evini tanı-

mışdım (B.Bayramov); **DUZLU, NƏMƏKİ** *Duzlu* hekayətin, *nəməki* sözün; Pəçəndidə xülqü xuyun istərəm (Q.Zakir); **BAMƏZƏ, QƏRİBƏ, MARAQLI.**

MƏZƏMMƏT Bəs lazım olub çaqqal üçün bir tələ qurmaq; Ta dəf ola bu roncü *məzəmmət*. köpək oğlu! (S.Ə.Şirvani); **QINAQ** [Sevər:] Yazıq balam.. el *qınağından* qurtarmayacaq (A.Makulu); **MƏLAMƏT** Nədir yağdırılan *məlamət* daşı; Mənmi günahkaram, dövranmı yoxsa (M.Rahim); **SƏRKİ** Üzüm də bilirəm, nədir günahım; Başıma yer-yerdən *sərkilər* yağır (S.Rüstəm); **TƏNƏ** Unudub kötəkləri, *tənəni*, ağır yükü; Eşşək olmuş o gündən oyanların böyüyü (M.Rahim); **DANLAQ** (*bax*), **TƏNBEH.**

MƏZƏMMƏTLƏMƏK Pyotr Anisimoviç Həmidi *məzəmmətlədi* (H.Abbaszadə); **AYIBLAMAQ** [Həsən:] Xalq məni *ayıblasa* da, mən öz hissimi ayırıb satıram (A.Şaiq); **DANLAMAQ** [Cəbrayıl:] Sənin indi məni danladığınız kimi, mən də onu həmişə dostyana *danlayıram* (B.Bayramov); **QINAMAQ** [Cövdət:] Sən nahaq yerə professoru *qınayırsan*. Onda təqsir yoxdur (H.Abbaszadə); **TƏNƏLƏMƏK.**

məzənnə *bax* qiymət

məzhəb *bax* **1.** din; **2.** əqidə

məzhəkə *bax* **1.** lətifə **I**; **2.** komediya

məzhəkəçi *bax* lətifəçi; hoqqabaz **I**

məzhəkəçilik *bax* hoqqabazlıq

məzlum *bax* yazıq **I**

məzlum-məzlum *bax* yazıq-yazıq

1. MƏZMUN "Hekayəti-xırs-quldurbasan" komediyası istər həyatilik, istərsə də *məzmun* və səhnəlik cəhətindən o biri komediyalarına nisbətən heç də zəif olmadığı halda, tədqiqatçı və tədqiqçilərin diqqətini nədənsə çox az cəlb etmişdir (C.Cəfərov); **MÖVZU** "Sərgüzəşti-məndi-xəsis" komediyasının *mövzusu* qaçaq mal alverçiləri ilə əlaqədar olan bir hadisədən götürülmüşdür (F.Qasımzadə); **MÜNDƏRİCƏ** Tapdığın məktubu sadə, üslub və *məndəricə* etibarilə ..gülməli kağızdı (Ə.Əbülhəsən); **SÜJET** Axundzadə komediyaları haqqında yazılan tənqidlərdə göstərildiyi kimi, "Kimyagər"in *süjeti* həyatından alınmış bir fakt əsasında qurulmuşdur (C.Cəfərov).

2. məzmun *bax* məna

məzuniyyət *bax* istirahət

məzur *bax* üzrlü

mığmığa *bax* ağcaqanad

mıx *bax* mismar

mıxça *bax* mismar

mıxçalamaq *bax* mismarlamaq

mıxlamaq *bax* mismarlamaq

mırıldanmaq *bax* donquldanmaq

MISMIRIQ (*acıqlı adamda olan hal*) [Ana:] ..Ay qız, bir belə; *Mısmırıq* olarmı (M.Rahim); **QAŞQABAQ** Xudayar bəy *qaşqabaq* ilə cavab verdi (C.Məmmədquluzadə); **SIMSIRIQ.**

mızıldanmaq *bax* donquldanmaq

mif *bax* əfsanə

mifi *bax* əfsanəvi

mifik *bax* əfsanəvi

mifologiya *bax* əsatir

mifoloji *bax* əfsanəvi

MİXƏKGÜLÜ (*bot.*) Düzəltdiyim iri dəstədə məxməri gül, *mixəkgülü*, dağ çiçəyi, qızılgüldən tutmuş süsən zanbağa, nilufərə, Çin gülünə qədər hamısından var idi (Mir Cəlal); **SƏDBƏRG** (*kl.əd.*) Dili-sədpərəmi sən algilən ey namüsəlman kim; Bu gün ol laleyi *sədbərgi* dörd yandan dərən çoxdur (Qövsi); **ŞƏBBU** Xalq deyər hamı üçün *şəbbu* mənə; Fəxr üçün, əlbəttə, yetər bu mənə (A.Səhhət); **ŞƏBBUGÜLÜ, MAYGÜLÜ.**

MİKROB [Feldşer:] İndi buraya *mikrob* düşsə, nəticəsi pis olar (H.Abbaszadə); **BAKTERİYA.**

MİKROSKOP Kamil, böyük bir *mikroskop* dalında oturub, sovxoz ərazisindən götürülmüş üçüncü nümunəni, fauna qalıqlarını və izlərini öyrənirdi (Y.Şirvan); **ZƏRRƏBİN** O [Davud], gözündə *zərrəbin* iş görürdü (H.Abbaszadə).

MİQDAR Kəndin əhalisinin *miqdarı* olar təqribən iki yüz nəfər (C.Məmmədquluzadə); **HƏDD-HESAB** [Əfifə:] Ölən xəlifələrdən övlada miras qalan zənginliklərin *həddi-hesabı* yoxdur (M.S.Ordubadi); **SAY** Həmid cibinə əl atdı, nə qədər pulu vardısa *sayını* bilmirdi, hamısını çıxarıb uşaqlara uzatdı (H.Abbaszadə); **ƏDƏD, HESAB, KƏMİYYƏT, QƏDƏR.**

MİLÇƏK [Qarı:] Elə qızdır ki, üzünə *milçək* qonsa ayağının yeri qalar (M.S.Ordubadi); **ÇİBİN** Bu sözlərin bir *çibin* vızıltısı qədər Ağamürsələ təsiri olmamışdı (A.Şaiq); **MƏKƏS** (*kl.əd.*) Qəndü nəbati-Misrə edibdir məgər həvəs; Ləli-ləbin nikarə qonub bəxtəvər *məkəs* (S.Ə.Şirvani); **SİNƏK** (*dial.*) Nə ətin incidər, sənin insan; Nə dərin: mığmığı, *sinəkdən* qaç! (M.Ə.Möcüz).

miləmil *bax* zolaq-zolaq

milis *bax* **1.** polis **1**; **2.** polisiya

milisioner *bax* polis **1**

milisiya *bax* polisiya

militarist *bax* hərbçi **1**

MİLLƏT [Müqim bəy:] Əlbəttə, *milləti* qorumaq, onun malını, mülkünü saxlamaq üçün müvəqqəti də olsa ixtiyarat lazımdır! (S.Rəhimov); **VƏTƏN ÖVLADI** Əgər xanım qızlar kişi kimi meydana çıxmasalar, *vətən övladının* gələcəyə arxayın olmağı çətindir (C.Məmmədquluzadə); **XALQ** (*bax*), **MİLLİYYƏT.**

millətbaz *bax* millətçi

millətbazlıq *bax* millətçilik

MİLLƏTÇİ Mən onu ərz eləmək istəyirəm ki, hər bir *millətçi* eyni zamanda dinçidir.. (C.Məmmədquluzadə); **MİLLƏTBAZ** (*köhn.*) Adam lap ürəkdən.. *millətbaz* olsun, idealist, cofu olsun.. yenə Hacı Əliqulu ona lazım olur (Qantəmir); **MİLLƏTPƏRƏST** Günorta qız məktəbdən qayıdanda küçədə bir sürü *millətpərəst* kişilər durub, müzakirəyə məşğul idilər (Çəmənzəminli); **MİLLƏTPƏRVƏR.**

MİLLƏTÇİLİK Axır zamanlarda "*millətçilik*" sözləri tez-tez qəzet sütunlarında danışılmaqdadır (C.Məmmədquluzadə); **MİLLƏTBAZLIQ** Onda görəcəksən ki, *millətbazlıq* da yavaş-yavaş tərk olub, qoyub gedəcək işinə (C.Məmmədquluzadə); **MİLLƏTPƏRƏSTLİK** Budurmu müsəlmançılıq? Budurmu *millətpərəstlik?* (C.Məmmədquluzadə); **MİLLƏTPƏRVƏRLİK** ..Hacı kamalı-cəliqə və *millətpərvərliklə* iki barmaqlarını uzadıb, qızın yanağından tutub dedilər: Bərəkallah bala! (Çəmənzəminli); **ŞOVİNİZM** [İvanov:] Mən ..*şovinizminə* tüpürmək belə istəmirəm (C.Cabbarlı).

millətpərəst *bax* millətçi

millətpərəstlik *bax* millətçilik

millətpərvər *bax* millətçi

millətpərvərlik *bax* millətçilik

1. MİLLİYYƏT, MİLLİ MƏNSUBİYYƏT

2. milliyyət *bax* millət

mil-mil *bax* zolaq-zolaq

milyarder *bax* varlı

milyonçu *bax* varlı

milyoner *bax* varlı

minaatan *bax* minomyot

minasaçan *bax* minomyot

MİNBƏR (*məsciddə xütbə oxunan kürsü, yer*) Xətib isə birbaş xalqın cərgələrini yarıb *minbərə* çıxdı (M.S.Ordubadi); **TRİBUN** O zaman əlli-altmış nəfər qara çadralı qadın şöbənin salonundan çıxıb *tribunun* (*minbərin*) qabağında oturdu (S.S.Axundov).

1. MİNİCİ (*idm.*) (*cıdırda at çapan, at oynadan adam*) Əvvəllər mən elə bilirdim ki, o, yalnız birinci güllə atan və gözəl *minicidir* (İ.Əfəndiyev); **ATÇAPAN** Bolqarıstanın ən yaxşı *atçapanları* bu günlər səylə məşq edir (Qəzetlərdən); **JOKEY** Xeyli geridə qalır; Əvvəl-əvvəl göydəmir; *Jokey* şallaq da vurmur.. (Ə.Kərim); **CIDIRÇI.**

2. minici *bax* atlı

minik *bax* sərnişin

MİNMƏK (*ata, eşşəyə, dəvəyə və s.-yə*) Dəyirmançı bir qoca; *Minmiş* qara eşşəyə; Oğlu da arxasınca; Gedirdilər meşəyə (A.Şaiq); **SÜVAR OLMAQ** Mollalar ağ

əmmamələrini düzəldib ağ eşşəklərə *suvar oldular* (M.S.Ordubadi).

MİNNƏTDARLIQ [Həmid:] Mən Bakıda olmayanda siz anamgilə əl tutmusunuz, o, yaxşılıqlar üçün mənim və anamgilin *minnətdarlığını* qəbul eləyin.. (H.Abbaszadə); **ŞÜKRAN** Sən azad eylədin qədimdə hürriyyətpərəstanı; Sənə ləbrizi-*şükrandır* bütün əhrar, hürriyyət (M.Hadi); **ŞÜKÜR** Sənə min *şükür!* (Çəmənzəminli); **TƏŞƏKKÜR** Aydın *təşəkkür* dolu nəzərlə qıza baxdı (H.Seyidbəyli); **MƏMNUNLUQ** (*bax*).

MİNNƏTSİZ (*heç bir minnəti olmamaq*) Kəndin hər bir xeyir işində gedib *minnətsiz* kömək edirdi (T.Ş.Simurğ); **BİMİNNƏT** Cahan mümkündə, Seyyid, yoxdu bir *ehsanibiminnət;* Şikəstə xatirə səbr eyləyib, ol mumiyadən keç (S.Ə.Şirvani).

MİNOMYOT (*mina atan silah*) [Zeynal:] Top, *minomyot* mərmiləri dörd tərəfdən partlayıb toz-torpağı sovuşdurdu (B.Bayramov); **MİNASAÇAN** Düşmən.. top və *minasaçan* atəşini əsirgəmədi (Ə.Əbülhəsən); **MİNAATAN.**

minval *bax* üsul

miralay *bax* polkovnik

MİRAS (*övlada və qohuma qalan mal-mülk*) Dostlar! İçin yurdumun ətirli şərbətindən; Bu adət babalardan bizə *miras* qalıbdır (M.Rahim); **İRS** Bağışlayın, başağrısı olur, əmlakın bir hissəsi *irs* qalıbdır, qalanını ağa özü ələ gətirib (Ə.Haqverdiyev); **BABADANQALMA.**

mirqəzəb *bax* cəllad

mirvari *bax* inci

1. MİRZƏ [Nisə xanım:] Onun ağzı deyil mənim *mirzəmi* qovdura (M.F.Axundzadə); **KARGÜZAR** Yarın icraiyyə komitəsinin sədri idarədən bir *kargüzar* göndərmişdi (T.Ş.Simurğ); **KATİB** Atabəy öz *katibi* kiçik Buğanı çağırıb tapşırdı: – Həbsə alınan caniləri möhkəm saxlayın (M.S.Ordubadi).

2. mirzə *bax* müəllim

1. MİRZƏLİK [Hacı Həsən:] Divanxanalarda heç *mirzəliyə* də götürmürlər (C.Məmmədquluzadə); **KARGÜZARLIQ** [Əhməd:] ..gərək siz bu bəyə lazımınca kömək edəsiniz, işlərinə *kargüzarlıq* buyurasız (N.Vəzirov); **KATİBLİK** Kəndi məsləkimə neçin zidd gedim; Yaxşısı budur ki, *katiblik* edim (M.Müşfiq).

2. mirzəlik *bax* müəllimlik

1. MİSAL, MƏSƏLƏ (*riyaz.*)

2. misal *bax* nümunə

3. misal *bax* məsəl

miskin *bax* **1.** bədbəxt; **2.** bacarıqsız

misl *bax* tay **1**; oxşar

MİSMAR Göy üzünə mıxlanmış bir qızıl *mismar* kimi; Bəzən də parçalanmış qıpqırmızı nar kimi (S.Rüstəm); **MIX** Həmid çəkiclik *mıxı* yumruğu ilə vurub üç barmaq qalınlığında taxtanın o biri üzündən çıxardanda zaldakıların hamısı ayağa qalxıb onu alqışladı (H.Abbaszadə); **MIXÇA** (*balaca mismar*).

MİSMARLAMAQ [Camal] yeşiyin qapağını qoyub bərk-bərk *mismarladı* (Ə.Vəliyev); **MIXLAMAQ** Əl qaldırsa qulağından *mıxlayarsan* divara; Aşılarsan hər tin başı badamgözlü qızlara (S.Rüstəm); **MIXÇALAMAQ.**

misri *bax* yoluxucu

miss *bax* xanım **1**

missiya *bax* vəzifə **1**

mister *bax* cənab

MİŞAR Xasaya *mişar,* çəkic, rəndə, kiçik balta, burğu və bu kimi dülgər şeyləri bağışlandı (A.Şaiq); **BIÇQI** Kimi taxta rəndələyir, kimi çərçivə qayırır, kimi *bıçqı* ilə ağac kəsirdi (İ.Əfəndiyev); **ƏRRƏ** (*iki dəstəli mişar*) Kərki olub öz tərəfinə yonma, *ərrə* ol, iki tərəfə yon (Ata. sözü).

MİTİNQ (*siyasi*), **İCLAS** (*bax*), **YIĞINCAQ**

miyan *bax* **1.** arxa **1**; **2.** aralıq

miyançı *bax* vasitəçi

miyanə *bax* babat

miyanpur *bax* alaq

miz *bax* stol

mizan *bax* **1.** tərəzi; **2.** nizam **1**; **3.** meyar

mizan-tərəzi *bax* tərəzi

mizantrop *bax* adamayovuşmaz

mizanülhəva *bax* barometr

mizraq *bax* nizə

moda *bax* dəb **1**

MODABAZ [Aytəmiz:] Deməli, xaricdəki işsiz-gücsüz *modabazlar* nə çalsa, biz də onu oynamalıyıq, hə?! (Ə.Qasımov); **MODAPƏRƏST, MODAÇI, MODA DÜŞKÜNÜ.**

modaçı *bax* modabaz

modapərəst *bax* modabaz

modern *bax* müasir

modernizm *bax* müasirlik

1. MOİZƏ Gecə-gündüz Təbrizin məscidlərində *moizə* oxuyanlar, din xadimləri... əsrin bu təkamülünə qarşı bircə dəlil irəli sürürdülər... (M.İbrahimov); **VƏZ** Molla qabaqca bir uzun *vəz* başladı (Ə.Haqverdiyev).

2. moizə *bax* nəsihət

mollagunə *bax* dindar

MOLLAXANA (*dini elmlər məktəbi*) İkincisi *mollaxanada* oxumuş, həzrəti-İbrahimin oda atıldığını eşitmişdi (Çəmənzəminli); **MƏDRƏSƏ** [Vaqif:] Açılsın hər yerdə məktəb, *mədrəsə;* Balalar quş kimi versin səs-səsə (S.Vurğun); **MOLLA MƏKTƏBİ** Səkkiz yaşından *molla məktəbinə* davam edən əliqulu ərəb və fars dillərini öyrənmiş, 1894-cü ildə molla məktəbini buraxıb, zamanının görkəmli müəllimlərindən Mirzə Məmmədtağı Sidqi Səfərovun (1854-1903) yenicə açdığı üsuli-cədid məktəbinə daxil olmuşdur (A.Zamanov).

moltanı *bax* dinsiz

monarx *bax* padşah

monarxist *bax* padşahpərəst

monastır *bax* kilsə

MONOTEİZM (*fəls., din.*), **TƏKALLAHLILIQ** Bu dinlərdəki *monoteizm – təkallahlılıq* ideyası canlı və cansız xas olan xüsusiyyətlərin gerçəkliyi özündən təcrid olunmuş formada təsəvvür olunmasıdır (M.Ç.Məmmədov); **VƏHDANİYYƏT** (*kəlm.*).

montyor *bax* işıqçı

monumental *bax* əzəmətli

mor *bax* bənövşəyi

MORFOLOGİYA (*dilç.*) Qrammatikanın bir hissəsi olan *morfologiyada* sözlərin dəyilməsi, düzəldilməsi qaydaları öyrənilir (N.Məmmədov); **SƏRF** (*kəlm.*) Ədəbi dilin yoxluğundan əlavə indiyədək, türk Azərbaycan ləhcəsinin bir mükəmməl *sərfi* və nəhvi yoxdur (Ə.Haqverdiyev).

morq *bax* meyitxana

MÖCÜZƏ Soyuq səngərlərdə düşmən üzərinə hücum əmrini gözləyən əsgərləri qardan, şaxtadan qorumaq üçün onlar doğrudan da *möcüzə* yaradırdılar (X.Hasilova); **ECAZ** Müstəntirdir həqiqət ilə məcaz; Müdəric hər birindən bir *ecaz* (A.Səhhət); **XARİQƏ** [Eldar:] Mən, ilk baxışda nəzakətsiz görünən bu sadə insanların yaratdığı *xariqələri* gördükcə öz-özümə deyirdim... (M.Hüseyn).

MÖCÜZƏLİ (*çox qəribə*) [Nəsir Muradoliyə:] Yeni nəslin bu *möcüzəli* işinə necə baxırsan? (B.Bayramov); **ECAZKAR** Gülbətinin nəzəri qəribə, *ecazkar* sirlərlə dolu idi (M.İbrahimov).

1. MÖHKƏM, MƏTİN (*müxtəlif mənalarda*) Belə bir zamanda gərək səhhətin; Başdan *möhkəm* olsun, poladdan *matin* (Ə.Kürçaylı); **DAŞ KİMİ** (*dan., məc.*) Yaşasın *daş kimi* muskullarımız; Yaşasın tökmə, dəmir qollarımız (M.Müşfiq); **DAVAMLI** Soyuq su ilə yuyunmaqla bədənini bərkişdirən adamlar bir sıra soyuqdəymə xəstəliklərinə çox az tutulur, daha *davamlı* və möhkəm olurlar (Zərgərli); **ƏYİLMƏZ** (*şair.*) Mən *əyilməz* ata adı saxladım; Vicdanımı ovuclara sağmadım.. (M.Araz); **QAİM** (*kl.ad.*) ...Təzəcə dəyənək alıbsan ələ; *Qaim* tut ki, nagah düşər, ağlarsan (M.P.Vaqif); **POLAD KİMİ** (*məc., dan.*) [Ağalarov:] Ancaq mən o xəstəni sevirəm ki, ürəyi *polad kimi* olsun! (B.Bayramov).

2. MÖHKƏM, BƏRK, DAVAMLI, DÖZÜMLÜ, SƏRT

3. möhkəm *bax* sarsılmaz

möhlət *bax* vaxt **1**

möhnət *bax* əzab
möhtəkir *bax* alverçi
MÖHTƏRƏM [Salar:] Sərdarın qonağı bizim də *möhtərəm* qonağımızdır (M.S.Ordubadi); **ƏZİZ** [Salar:] Sərdarın *əziz* qonağı bizim də əziz qonağımızdır (M.S.Ordubadi); **HÖRMƏTLİ** (*bax*).
möhtəşəm *bax* əzəmətli
mömin *bax* dindar
möminlik *bax* dindarlıq
mötədil *bax* mülayim 1
mötədilləşmək *bax* mülayimləşmək 1
mövc *bax* dalğa
mövcələnmək *bax* dalğalanmaq 1
mövcudiyyət *bax* varlıq 1
MÖVHUMAT (*dini görüşlər*) [Həsən] ..keçmiş həyata möhkəm bağlı idi: *mövhumata* inanar, namaz qılmaq, oruc tutmaq kimi köhnə adətlərdən əl çəkməz, ictimai işlərdən kənarda gəzərdi (M.İbrahimov); **XURAFAT** Təbriz meydanında gələrək dilə; Başımı doldurma *xurafat* ilə (M.Rahim).
MÖVHUMATÇI (*mövhumata inanan*) Gün vardı ki, bu səhnədə *mövhumatçı* ədiblər; Şöhrətsiz adamlar, o müsavatçı ədiblər; Eylərdi tamaşaçılara pisliyi təbliğ, iblisliyi təbliğ (S.Rüstəm); **FANATİK** Mina xanım dinpərəst *fanatiklər* kimi öz fəlsəfəsinə, öz qaydasına sadiq olduğundan, həyatda başqa fəlsəfələri, başqa qaydaları görmürdü, görmək istəmirdi (M.İbrahimov); **MÖVHUMATPƏRƏST** [Xosrov:] Onlar olduqca mütəəssib, ənənəpərəst, *mövhumatpərəst* bir xalqdır (A.Şaiq); **XURAFATÇI.**
MÖVHUMATÇILIQ, FANATİZM, XURAFATÇILIQ
mövhumatpərəst *bax* mövhumatçı
mövhumatpərəstlik *bax* mövhumatçılıq
1. MÖVQE, ROL, VƏZİYYƏT
2. mövqe *bax* cəbhə
3. mövqe *bax* vəzifə 2
mövlud *bax* çağa
mövsüm *bax* fəsil 1
mövt *bax* ölüm
mövüc *bax* kişmiş

1. MÖVZU, TEMA *Tema* – bir yazının, bir məqalənin ünvanıdır; məsələn, bir risalənin *mövzusu* yatalaq xəstəliyidir. Yatalaq xəstəliyi bu risalənin *temasıdır* (C.Məmmədquluzadə).
2. mövzu *bax* məzmun 1
1. MUXTAR, MUXTARİYYƏTLİ (*muxtariyyət hüququ olan*)
2. muxtar *bax* müstəqil, azad
MUXTARİYYƏT, ÖZÜNÜİDARƏ
muxtariyyətli *bax* muxtar 1
mum *bax* şam 1
1. MUMLAMAQ, MUM SÜRTMƏK (ÇƏKMƏK)
2. mumlamaq *bax* susmaq
munis *bax* 1. dost; 2. xoşxasiyyət
mur *bax* qarışqa
murad *bax* arzu, məqsəd
1. MURDAR [Hacı Murad:] *Murdar* oğlunu görmək istəmirəm (S.S.Axundov); **ÇİRKİN** [Mirzə Mahmud:] Çirkli, üfunətli, *çirkin* və əxlaqı pozğun bir qıza alçaq nəfsim yetdi... (Çəmənzəminli); **NAPAK** [Səfər:] Nə etməli allah versin bəlasın; *Napak* qulun haq dinlər iddiasın (A.Səhhət); **NATƏMİZ.**
2. murdar *bax* pis
3. murdar *bax* rəzil
1. MURDARLAMAQ, ÇİRKLƏNDİRMƏK, MURDAR ETMƏK, NAPAK ETMƏK
2. murdarlamaq *bax* öldürmək
1. MURDARLIQ *Murdarlıq* ilə həp dolu əsvaqü məabir; Yağmurlu həvzələrdə dolaşmaq mütəəzir (A.Səhhət); **NATƏMİZLİK** Hacının kiçik həyəti, qaranlıq dalanı, su anbarı və küçənin *natəmizliyi* bizi çox darıxdırmışdı (A.Şaiq); **NƏCASƏT** (*köhn.*) [Mirzə Əsgər:] Çünki it özü murdardır və həm də ağzı *nacasətə* dəyir, ona görə də yağı işlətmək caiz deyil (N.Vəzirov); **ÇİRKİNLİK, NAPAKLIQ.**
2. murdarlıq *bax* rəzillik
MUSİQİ Rənglərin də *musiqi* kimi ahəngi var (R.Rza); **ÇALĞI** Çünki nə *çalğı* səsi gəlirdi, nə də deyib-gülən vardı (M.İbrahimov).
musiqibaz *bax* musiqipərəst

MUSİQİÇİ *Musiqiçilər* səhnədən düşüb lap yaxınlıqdakı stolun arxasında oturdular (İ.Məlikzadə); **ÇALANÇI** [Feyzulla:] Ya gərək xanəndə, *çalançı* olasan, ya aşıq, ya molla (Anar); **ÇALĞIÇI** (*bax*).
MUSİQİPƏRƏST Reyhan.. *musiqipərəst* olduğunu boynuna alır (Mir Cəlal); **MUSİQİBAZ** [Sədr] yaman *musiqibazdır* (İ.Əfəndiyev).
musqul *bax* əzələ
muş *bax* siçan
MUŞTULUQ (*şad xəbər*) Dədə-Qorqud çapa-çapa Bayat obasına gəldi. Uzaqdanuzağa: – *Muştuluq! Muştuluq!* – deyə qışqırdı (Anar); **BƏŞARƏT** (*kl.əd.*) Xəvfi-xətadə müztəribəm, var ümid, kim; Lütfən verə *bəşarəti*-əfvü əta mana (Xətayi); **MÜJDƏ** O bizə *müjdə* gətirmişdi (M.İbrahimov).
MUŞTULUQÇU Çalınan sözsüz nəğməni elə bil ilk bahar *muştuluqçu* novruzgülü bəstələmişdi (Ə.Kərim); **MÜJDƏÇİ** Çapar səadət *müjdəçisi* kimi qoşurdu (Çəmənzəminli).
MUŞTULUQLAMAQ [Məlikməmməd dərziyə:] Dur get padşahı *muştuluqla* ki, balaca oğlunu tapmışam (Nağıl); **MÜJDƏLƏMƏK** Məktub almasan da indi ey pəri! Bir gün *müjdələyər* uşaqlar səni (M.Rahim).
muy *bax* saç 1
MUZEY Adsız qəhrəmanın bu qılıncı *muzeyə* qoyulmalıdır (H.Abbaszadə); **ƏCAİBXANA** (*köhn.*) Bir sözlə, doqqaz kəndin *əcaibxanası*, qəzeti, telefon və teleqrafı idi (Mir Cəlal).
müadilə *bax* tənlik
müahidə *bax* müqavilə
müahidənamə *bax* müqavilə
MÜALİCƏ Həkimə imalə sərdarın sarayında böyük bir *müalicə* oldu (Ə.Haqverdiyev); **ÇARƏ** Həkim *çarə* düşünür; Həkim xəyala dalır (B.Vahabzadə); **ƏLAC** Eşq dərdinə xoşam, əl çək *əlacımdan*, təbib (B.Vahabzadə); **TƏDAVİ** (*köhn.*) [Qətibə:] Mən ikinci xəstənin *tədavisində* iştirak etməkdən ötrü birinci xəstə ilə danışmaq üçün gəlmişəm (M.S.Ordubadi).
müalicəxana *bax* xəstəxana
müalicəpəriz *bax* əlacsız
müalicəsiz *bax* əlacsız
müamilə *bax* 1. davranış; 2. sələm
müamiləçi *bax* sələmçi
MÜASİR Qoy *müasir* işıqlı və böyük şüşələrin qabağını pərdələr örtsün! (M.İbrahimov); **İNDİKİ** "Şərqin incisi" adlanan bu şəhərin təkcə zəngin tarixi keçmişi deyil, *indiki* həyatı və mədəniyyəti də çox maraqlıdır (H.Əliyev); **YENİ** [Rasim:] Necə ola bilər ki, xırda və sönük əsərə müasir və *yeni* deyəsən (M.İbrahimov); **ÇAĞDAŞ, HAZIRKI, MODERN.**
MÜASİRLİK, YENİLİK [Rasim:] Mövzunun dalında yatanlar, ağıllarına da gətirmirlər ki, həqiqi *müasirlik*, hər zaman əsil coşqun əsərlərin yaranmasına kömək etmişdir, həqiqi *müasirlikdə* həmişə bir əzəmət var, əsil *yenilik* həmişə gözəldir (M.İbrahimov); **MODERNİZM** *Modernizmin* heyranı fikirləşib dərindən; Yazdı, pozdu bir axşam, mənəm xalqa dost dedi (M.Rahim).
MÜAVİN Xosrov bəyin *müavini* Çingiz İldırım xəbəri eşitdi (Ə.Vəliyev); **KÖMƏKÇİ** Sən mənim *köməkçim* olacaqsan, – deyib müəllim Kərəmdən razı qaldı (M.İbrahimov); **İNSPEKTOR** (*köhn.*) Qori seminariyasında müsəlman şöbəsinə məşhur qeyrətli, həmiyyətli mühərrirlərimizdən Soltan Məcid Qənizadəni *inspektor* təyin etdi.. (N.Nərimanov).
müavinət *bax* yardım
1. MÜBAHİSƏ (*söz güləşdirmə*) Qayınatası və qayınanası *mübahisəyə* qarışaraq qızlarına arxa durub onun baş-beynini tökəcəklər (H.Abbaszadə); **BƏHS** Salonda səslər ucaldı, qızğın *bəhslər* başlandı (S.S.Axundov); **ÇƏK-ÇEVİR** Uzun *çək-çevirdən* sonra Azər oyunu apardığına özü də təəccübləndi (Ə.Kərim); **DEYİŞMƏ** Əşrəf *deyişmənin* belə uzanıb getməsindən darıxdı (A.Şaiq); **HÖCƏT** [Fəxrəddin bəy:] Aşkar işdir, burada bir *höcət* ola bilməz (N.Vəzirov); **İXTİLAF** [Rəhim bəy:] Məşədi bəylə *ixtilafını* biryolluq həll etmək bəhanəsi ilə qardaşı evinə getdi (M.Hüseyn).

2. MÜBAHİSƏ, POLEMİKA (*müəyyən məsələ haqqında mübahisə*)

3. MÜBAHİSƏ, ÇARPIŞMA ..xörəkdən sonra ortalığa bir dini *mübahisə* salardılar, mollalar camaata, camaat mollalara qarşardılar. Bəylər də kənardan tamaşa edib bu *çarpışmadan* həzz alardılar (Ə.Haqverdiyev); **MÜNAQİŞƏ** Bununla da ata-oğul arasındakı *münaqişə* bitdi, bir xarrat çağırıb pası təmizlənmiş təqqılbabı qapıya – Əhməd Şahbazlının göstərdiyi yerə bərkitdilər (H.Abbaszadə); **TOQQUŞMA** [Həcər xanım:] Şəmsinin fikrini anlayıram, o qorxur ki, yenə aralarında *toqquşma* ola (S.S.Axundov).

MÜBAHİSƏLİ (*mübahisəyə səbəb olan, mübahisə doğuran*) Mollanəsrəddinçilərlə füyuzatçılar arasında ilk nəzərə çarpan *mübahisəli* məsələlərdən biri dil məsələsi idi (M.İbrahimov); **İXTİLAFLI** [Oqtay:] Hansı Allah?! Çünki allahlıq məsələsi hələ aramızda *ixtilaflıdır* (C.Cabbarlı); **MÜNAQİŞƏLİ, ƏNGƏLLİ.**

mübarək *bax* **1.** xoşbəxt; **2.** uğurlu

mübarəkbadlıq *bax* təbrik **1**

MÜBARİZ [Naməlum adam Güləbətinə:] Mən səni *mübariz*, möhkəm ürəkli bir qız bilirəm (M.İbrahimov); **DÖYÜŞKƏN** O, Rüstəmi çox istəyirdi, onu illərin sınağından çıxmış *döyüşkən*, mərd bir adam kimi tanıyırdı (İ.Əfəndiyev); **DÖYÜŞƏN, MÜBARİZƏÇİ.**

1. MÜBARİZƏ, DÖYÜŞ (*bax*), **TOQQUŞMA, VURUŞMA**

2. MÜBARİZƏ (*idm.*); **İDMAN YARIŞI, YARIŞMA.**

3. mübarizə *bax* müharibə

mübəlliğ *bax* təbliğatçı

MÜBTƏDA (*qram.*) (*iki əsas cümlə üzvündən birincisi*) [Pərviz:] Cümlələrin gah xəbəri olurdu, *mübtədası* olmurdu, gah da *mübtədası* olurdu, xəbəri olmurdu (M.İbrahimov); **SUBYEKT** Bələləklə, hər bir cümlədə ..iki qütb müəyyənləşməlidir: *mübtəda* (*subyekt*) və xəbər (predikat) (N.Məmmədov).

1. MÜBTƏLA Atasının ürək xəstəliyinə *mübtəla* olduğunu eşidən Rövşənək xanım ərinin işdən qayıtmağını gözləyə bilməyib.. şəhərə yollanır (F.Kərimzadə); **ALUDƏ** Biz ol *aludəyi*-dərdik ki, cəmi mey dəvamızdır (S.Ə.Şirvani); **DÜÇAR** [Qurban:] Vay, bəlaya *düçar* olan canım vay... (N.Vəzirov); **GİRİFTAR** Çəngəlimə indi *giriftarsan;* Ta ki edirsən belə rəftar sən (S.Ə.Şirvani).

2. mübtəla *bax* vurğun

MÜBTƏLALIQ, ALUDƏLİK, DÜÇARLIQ, GİRİFTARLIQ

mücahid *bax* **1.** fədai; **2.** inqilabçı

MÜCƏRRƏD O [Mirzə Cəlil] heç zaman ümumi, *mücərrəd* problemlərlə maraqlanmamışdır, onu narahat edən məsələlər həmişə konkretdir (Anar); **ABSTRAKT.**

MÜCRÜ [Məhəmməd:] Eşqimdən nişanə saxla sən bunu; Deyə, o *mücrüdən* zər medalyonu; Çıxarıb istəyir taxa boynuna (B.Vahabzadə); **SANDIQÇA** [Əbülhəsən bəy:] O bunu deyərək balaca bir *sandıqça* gətirdi, oradan bir dəstə vəsiqə çıxardı (M.S.Ordubadi); **YAXDAN** (*məh.*) Hələ üstəlik, dəllək arvadının qiymətli boyunbağısı, qızıl suyuna çəkilmiş gümüş kəməri, bir də içi ağzınadək dolu *yaxdan* vardı (S.Rəhimov).

müctəhid *bax* ruhani

müdam *bax* həmişə

müddəi *bax* düşmən **1, 2**

müddəi-ümumi *bax* prokuror

müddət *bax* vaxt **1**

müdərris *bax* müəllim

müdərrislik *bax* müəllimlik

MÜDİR, BAŞÇI, DİREKTOR, RƏİS, NAÇALNİK

MÜDRİK (*hər şeyi dərk edən*) Abid kişi *müdrik* qocadır (C.Bağır); **AQİL** Murad cavan bir oğlandır, gur saçları qar kimi; Keşməkeşdə ağarımışdır *aqil* atalar kimi (M.Rahim); **DƏRİNDÜŞÜNCƏLİ.**

MÜƏLLİF Şəbehlər naməlum *müəlliflər* tərəfindən şeirlə yazılmış birpərdəli pyeslərdən ibarətdir (Ə.Haqverdiyev); **AVTOR** Bədbəxt yaranmışdır bəzi kitablar; Onun nemətindən turşuyur ağız; İçində hər şey var, bütün dünya var; *Avtorun* adıdır öz sözü

yalnız (S.Vurğun); **MÜSƏNNİF** (*köhn.*) O vaxt indi üsuli-cədid ilə yazılmış "Vətən dili" kitabçasının *müsənnifi*-mütəvəffisi Çemyayevski müsəlman şöbəsinin naziri idi (N.Nərimanov).

MÜƏLLİM (*məktəbdə hər hansı bir fəndən dərs deyən adam*) *Müəllim* uşaqlara keçdiyi dorsi dönə-dönə təkrar edirdi.. (M.İbrahimov); **MİRZƏ** (*köhn.*) [Cənnətəli ağa:] Sənin canın üçün, *mirzə,* nə qədər əlləşdim, oxumadı.. (N.Vəzirov); **PEDAQOQ, MÜDƏRRİS** (*köhn.*) Bu iki *pedaqoq* bir neçə dəqiqə bir-birinə pıçıldaşandan sonra Əbdülhəsənzadə Xəlili çağırdılar və *müdərris* Zəki əfəndi ona belə cavab verdi... (C.Məmmədquluzadə); **USTAD** (*məc.*) Ey yorulmaq bilməyən *ustadımız;* Yandı mövtünlə dili-naşadımız (A.Səhhət).

MÜƏLLİMLİK (*müəllim sənəti*) *Müəllimlik* – bu bir incəsənətdir (S.Vurğun); **MÜDƏRRİSLİK** (*köhn.*) On-on iki il bundan irəli Məşədi İrəvanda başına yeddi-səkkiz müsəlman uşağı yığıb *müdərrislik* elərdi (C.Məmmədquluzadə); **MİRZƏLİK** (*köhn.*) Xoş əqvamımdan birisi məni istedadsız bilərək öz yanına alıb rus qəvaidi-lisaniyyəsinə aşina etməyə çalışdı ki, bəlkə məni kənd *mirzəliyinə* qəbul eləsinlər (N.Vəzirov); **PEDAQOQLUQ.**

müəmma *bax* sirr

müəmmalı *bax* anlaşılmaz

müəttar *bax* ətirli **1**

müfəssəl *bax* hərtərəfli; ətraflı

müfəttin *bax* **1.** fitnəkar; **2.** şarlatan

MÜFƏTTİŞ, KONTROL, NƏZARƏT (*bax*); **TƏFTİŞÇİ**

MÜFLİS, BANKROT

MÜFTƏ [Əsgər bəy:] Əlbəttə, *müftə* mal harada idi (M.F.Axundzadə); **HAVAYI** Doşabı, bal, kərəsi, qəndi, çayı; Ət, düyü müftə, un ondan *havayı* (Ə.Vahid); **MƏCCANİ** (*köhn.*) Aldığı cüzi maaşla basdırdığı "Əkinçi" qəzetini ruhanilərə və köylülərə *məccani* olaraq göndərir və saçdığı toxumların məhsulunu səbirsiz boğlar durudu

müftəyeyən *bax* müftəxor

müfti *bax* ruhani

MÜĞƏNNİ İllərlə əvvəl olduğu kimi, nəfəsimizi çəkib, dərin bir sükut içində canlı Bülbülü, zəmanəmizin ən qüdrətli *müğənnilərindən* biri Bülbülü, nağməli Qarabağın qoynunda yetişmiş, təbiətin heyrətli sirri ilə Bülbülü dinləyə bilirik (R.Rza); **XANƏNDƏ** Bir qədər çəkmir ki, *xanəndə* qızın odlu baxışları yenə Həmzənin baxışları ilə qarşılaşır (Ə.Qasımov); **NƏĞMƏKAR** O, ürəyindəki gizlənib oxuyan gizli *nəğməkarını* səsinə həmahəng yeriyir, əylənirdi (Ə.Cəfərzadə); **OXUYAN** [Bəstəkar:] Necə deyim ey, a kişi, *oxuyan* olmaq istəyir (X.Hasilova).

müharibə *bax* müharibəçi

MÜHAFİZƏÇİ [Əbülhəsən bəy:] Sərdar özü mən oturduğum otağa, xidmətçi və *mühafizəçilər* isə başqa otağa qəbul olundu (M.S.Ordubadi); **MÜDAFİƏÇİ** ..hətta onun simasında fədakar *müdafiəçiləri* var (M.İbrahimov); **MÜHAFİZ** Xanın *mühafizləri,* bütün qohum-qardaşı; Düşündülər: – Axmasa bu torpağa göz yaşı; Ayaqyalınlar bizim başımıza çıxarlar (S.Rüstəm).

müharib *bax* döyüşçü

MÜHARİBƏ *Müharibə* gün çıxandan əvvəl başlandı (M.S.Ordubadi); **CƏNG** (*köhn.*) [Fəxrəddin bəy:] Dünyanın hər bir işi *cəngi*-moğlubədir; amma vəhşi nadanlıqda *cəng* etmək mümkün deyil (N.Vəzirov); **DAVA** Sən, ey Vətən *davasında* həlak olmuş əsgərlərin; Mərd qardaşı (Ə.Cəmil); **DÖYÜŞ** Böyük aşığın oxuduğu nəğmələri quşlar təkrar edərək, *döyüşə* gedən igidlərin başı üstə uçub, onları zəfərlərə, qələbələrə çağırarmış (R.Rza); **HƏRB** (*köhn.*) Görürsünüz tək əlliyəm, mənim bircə qolum vardır; Bu, vətandaş *hərbindəki* gənclıyımdən yadigardır (S.Rüstəm); **MÜBARİZƏ** Bir kərə Firdovsinin "Şahnamə"də təsvir etdiyi İran ilə Turan *mübarizəsini* nəzərə almalıdır (Çəmənzəminli); **VURUŞ** Taxta parçasında bu sözlər yazılmışdı: "Bu, ağ finlərlə davada Qızıl ulduz ordeni almış və alman faşistləri ilə *vuruşda* qəhrəmancasına ölmüş qızıl əsgər Bahadırın qəbridir" (R.Rza).

MÜHASİB [Şöraf:] Mən əvvəllərdə orada *mühasib* işləmişdim (M.Hüseyn); **BUXALTER** [Kəbirlinski:] Yoxsa bu *buxalter* yaman köpək oğlu adamdır (Anar); **DƏFTƏRDAR** (*köhn.*) [Qızıl Arslan:] Buna görə də mən Əmirəlmöminin həzrətlərindən rica edirəm: Həmədanda böyük siyasi cinayətlərlə məşğul olan hökumət *dəftərdarını* və Toğrulun dərbar vəzirini və bunlardan başqa da 18 nəfər məmləkət xəininin təcili surətdə Həmədana qaytarılmasına əmr versin (M.S.Ordubadi); **HESABDAR** Yalnız *hesabdarlar*, bir də texniki işçilər gəlmişdilər (M.Hüseyn).

MÜHASİBLİK Bazar ertəsi səhər saat 9-da yenə başlayırsan *mühasibliyə* (Anar); **HESABDARLIQ** Nərgiz Gəncədə *hesabdarlıq* kursunu qurtarıb ... işləyir (Ə.Vəliyev); **BUXALTERLİK, DƏFTƏRDARLIQ** (*köhn.*).

MÜHASİRƏ [Dmitri:] Odur, neçə gündən bəri *mühasirədəyik* (M.Hüseyn); **BLOKADA.**

MÜHAZİRƏ [O] *mühazirə* oxuduğu auditoriyaları nəzərdən keçirdi (C.Bağır); **LEKSİYA** Burada "Çaxotkanın mikrobları ilə mübarizə" barəsində professor Qazalin conablarının *leksiyası* var imiş (C.Məmmədquluzadə).

MÜHAZİRƏÇİ, LEKTOR

mühərrir *bax* **1.** jurnalist; **2.** redaktor

mühüm *bax* **1.** lazımlı; **2.** əhəmiyyətli

MÜXALİF, DÜŞMƏN ..inam və onun tərəfdarları meydanın bir guşəsində salınmış xalça üstündə oyləşirlər, "*müxalif*" adlanan *düşmən* tərəf isə təxt və kürsü üstündə otururlar (Ə.Haqverdiyev); **ƏLEYHDAR, RƏQİB, ZİDD** (*bax*).

MÜXALİFƏT (*zidd olma*) Müqim bəy milli müsavat hökumətinə arxalanmasa da *müxalifətdə* dayana bilməzdi (S.Rəhimov); **QARŞIDURMA, ƏKSİNƏ GETMƏ, MÜQAVİMƏT GÖSTƏRMƏ, MÜMANİƏT** (*köhn.*).

1. MÜXBİR [Ata:] Bir gün raykomdan zəng vurdular ki, Bakıdan *müxbir* gəlib (Ə.Qasımov); **QƏZETÇİ** (*köhn.*) Axırda iş o yerə çatıb ki, *qəzetçilər* də bu şəgirdinin [ağcaqanadların] söz-söhbətinə qoşulublar (Ə.İldırımoğlu); **QƏZETYAZAN** (*dan.*) [Ana:] Mən də dedim görəsən, gülməli artistlərdən biridir, demə o, *qəzetyazan* gədəymiş.. (Ə.Qasımov); **RUZNAMƏÇİ** (*köhn.*).

2. müxbir *bax* xəbərdar

müxənnəs *bax* namərd

müxənnəslik *bax* namərdlik

müxənnət *bax* namərd

müxənnətlik *bax* namərdlik

müxtəlif *bax* cürbəcür

müxtəlifrəngli *bax* cürbəcür

müxtəs *bax* məxsus

müxtəsər *bax* **1.** xülasə **1**; **2.** qısa **2**

müjdə *bax* müştuluq

müjdələmək *bax* müştuluqlamaq

1. MÜKAFAT Bəsti yüksək *mükafatları* aldıqdan sonra, sədr stolunun yanında üzümü salonda oturanlara tutub həyəcanla danışırdı (Ə.Sadıq); **PRİZ.**

2. mükafat *bax* hədiyyə

mükamilə *bax* dialoq, söhbət **1**

mükəmməl *bax* hərtərəfli

mükərrər *bax* dəfələrlə

MÜQAVİLƏ (*müxtəlif mənalarda*) [Qızıl Arslan:] O, bir tərəfdən Bağdad ilə Atabey Məhəmmədin əleyhinə saziş düzəltmiş, o biri tərəfdən də Xarəzmşah Təkiş xanla bir *müqavilə* düzəltmişdir (M.S.Ordubadi); **BAĞLAŞMA** Gördüyünüz kimi İngiltərə və Rusiya hökumətləri *bağlaşmaya* sadiq qalaraq İran demokratlarının inqilabını əzmək üçün içərisində boğmağa çalışdı və yenə də çalışacaqdır (M.S.Ordubadi); **ƏHD, ƏHDNAMƏ** Qardaşlıq *əhdini* yazmağa gəldim; Köhnə haqsızlığı pozmağa gəldim (H.Cavid); [Məşədi Kazımağa:] Dövlətimizin əcnəbilərlə bağladığı təhqiramiz *əhdnamə* buna imkan vermirdi (M.S.Ordubadi); **MÜAHİDƏ** (*köhn.*) [Xristofor:] Avtomobilə minib qaçdım, bir şirkətlə *müahidə* bağlayıb əmələ sifəti ilə Fransaya gəldim (Çəmənzəminli); **MÜAHİDƏNAMƏ** 1783-cü ilin iyun ayında Rusiya ilə Gürcüstan arasında bir *müahidənamə* bağlanıb.. (Çəmənzəminli); **MÜQAVİLƏNAMƏ** [Nina:] Doğrudanmı İngiltərə ilə Rusiya arasında mövcud olan 1907-ci il *müqavilənaməsi* İranın istiqlaliyyətini təmin edir (M.S.Ordubadi); **PAKT** Çatılı özünələrin buxovu qırmaq vaxtı; No marşalın planı, no Atlantika *paktı* (S.Rüstəm); **SAZİŞ** Rusiyanın bu təşəbbüsünü İngiltərə 1970-ci il *sazişi* əleyhinə çevrilmiş bir çıxış hesab edərək, etiraz edir (M.S.Ordubadi); **KONTRAKT, KONVENSİYA.**

müqavilənamə *bax* müqavilə

müqəddəm *bax* əvvəl **1**

müqəddərat *bax* tale **1, 2**

1. MÜQƏDDƏS Azadım, sev könüldən bu *müqəddəm* torpağı (S.Rüstəm); **ƏQDƏS** (*köhn.*) (*ən müqəddəs*) Çeynənildi millətin, neylim, hüquqi-*əqdəsi?!* (M.Ə.Sabir); **ƏN ƏZİZ** Dostluq, Əmək, Azadlıq; *ən əziz* nemət oldu (Ə.Cəmil).

2. MÜQƏDDƏS, QÜDSİ (*kl.əd.*), **NÖQSANSIZ, PAK, TƏMİZ** (*bax* **1**)

3. müqəddəs *bax* ziyarətgah

4. müqəddəs *bax* ülvi **1**

1. MÜQƏDDƏSLİK (*müxtəlif mənalarda*) Markiz professorda bir *müqəddəslik* görüb də onun otəyindən öpmək istəyirdi (N.Norimanov); **QÜDSİLİK** Qulam müəllim yaşaran gözlərini təsəvvürünə gətirir, burada bir ülvilik və *qüdsilik* görürdü (S.Rəhimov); **QÜDSİYYƏT** Qaldırıb eşqini bayraq kimi şair könlüm; Şeri, ülviyyəti, *qüdsiyyəti* cənanda görür (S.Rüstəm).

2. MÜQƏDDƏSLİK, PAKLIQ, TƏMİZLİK, ÜLVİLİK

MÜQƏDDİMƏ, BAŞLANĞIC Bu bizim mövzunun *müqəddiməsi, başlanğıcıdır* (Qantəmir); **GİRİŞ** Eynşteyn min doqquz yüz on səkkizinci ildə görkəmli alman fiziki Maks Plankın anadan olmasının altmış illiyi münasibətilə söylədiyi "Elmi tədqiqatın prinsipləri" adlı nitqin *girişində*ki sətirlərin altından qırmızı qələmlə xətt çəkmişdi (H.Abbaszadə); **PROLOQ** Əsərin ideyasını daha aydın ifadə etmək, tamaşaçıların şüuruna daha aktiv təsir göstərmək məqsədi ilə dramaturq pyesə *proloq* və epiloq yazmışdır... (C.Cəfərov); **ÖN SÖZ, DİBAÇƏ** (*kl.əd.*).

müqəssir *bax* **1.** günahkar **1**; **2.** müttəhim; **3.** cani

MÜQƏVVA (*insan həddi şəklində fiqur*) Ana uşaq vaxtından analığa həvəslənir, bir *müqəvvam* qumaşa büküb oynadır.. (Çəmənzəminli); **MANEKEN.**

1. MÜLAYİM (*coğr.*) (*hava haqqında*) Bu şəhərin qışı.. *mülayimdir* (S.Rəhimov); **MÖTƏDİL** [Cavanşir mahalının] havası *mötədil*, torpağı ziyadə bərəkətli və hər qisim məhsulat yetirəndir (F.Köçərli); **YUMŞAQ** Söykənim doğma yurdumun; Xofif, *yumşaq* küləyino (M.Araz); **XOŞ, NƏ İSTİ-NƏ SOYUQ.**

2. mülayim *bax* həlim

3. mülayim *bax* xoşrəftar

1. MÜLAYİMLƏŞMƏK (*coğr.*), **MÖTƏDİLLƏŞMƏK, MÜLAYİM OLMAQ, YUMŞALMAQ**

2. mülayimləşmək *bax* həlimləşmək

1. MÜLAYİMLİK. MÖTƏDİLLİK, LƏTİFLİK, YUMŞAQLIQ

2. mülayimlik *bax* həlimlik

mülhid *bax* dinsiz

1. MÜLK [Zərrintac:] Mən özümdən sonra yadigar qoymaq, atadanqalma vardövlətə, haşan-kaşanlı *mülkə* varis qoymaq istəyirəm (S.Rəhimov); **XANİMAN** [Gülbahar xanım:] Hürü nənə, gətir ayaqlarından öpüm ki, gedib atamın *xanimanına* doyəcəkdim.. (N.Vəzirov); **MÜLKİYYƏT, MALMÜLK.**

2. mülk *bax* məmləkət, ölkə **1**

3. mülk *bax* malikanə

4. mülk *bax* var **1**

MÜLKƏDAR (*köhn.*) Bəzi kəndlərdə bəylər və *mülkədarlar* yerləri öz əllərinə keçirib, kəndliləri əvvəlkindən daha artıq məcburiyyətlərinə görə bir neçə dairədə kəndli üsyanı qalxmışdı (M.Hüseyn); **MALİK** (*köhn.*) [Həsənxan:] Demək, elə sən də bizim kimi *maliksən*, ancaq hələ xırdasındansan... (F.Sadıqzadə); **AĞA.**

mülkiyyət *bax* mülk **1**

mümaniət *bax* əngəl, qarşıdurma

müməssil *bax* nümayəndə

mümkünsüz *bax* **1.** qeyri-mümkün; **2.** imkansız

münacat *bax* söhbət **1**

münafat *bax* ziddiyyət **1**

münafiq *bax* riyakar

MÜNAQİŞƏ, ÇƏKİŞMƏ, MÜBAHİSƏ (*bax*); **TOQQUŞMA**

münaqişəli *bax* mübahisəli

münasib *bax* əlverişli

münasibət *bax* əlaqə **1**

münbit *bax* məhsuldar

mündəricə *bax* məzmun **1**

mündəris *bax* yırtıq **1 1**

münəqqid *bax* tənqidçi

münəvvər *bax* **1.** rövşən; **2.** ziyalı **1**; **3.** işıqlı

münsif *bax* hakim

münşi *bax* **1.** yazıçı; **2.** naib **1**

müntəzir *bax* hazır

1. MÜRACİƏT [Bahadır bəy:] Biz ..ziyalılarına *müraciət* edə bilərik (C.Cabbarlı); **XİTAB** [Mirzə Rəhim:] *Xitab* yetişər, ey mənim bəndələrim.. (M.S.Ordubadi); **ÇAĞIRIŞ.**

2. müraciət *bax* xahiş

müraciətnamə *bax* bəyannamə

müraflə *bax* məhkəmə

MÜRDƏŞİR [Qarı:] *Mürdəşir* Səkinə nağıl eləyirdi ki, Güləndamın gicgahına qan sızılmışdı (Çəmənzəminli); **ÖLÜYUYAN** Faqət *ölünü yuyanlar* fikir edirlər; belə bir sağlam, ətli-canlı, əcaba, nə üçün bir gecənin ərzində belə tez ərisin? (N.Nərimanov)

mürəbbi *bax* tərbiyəçi

mürəbbiyə *bax* tərbiyəçi

müraxxəs *bax* izinli

1. MÜRƏKKƏB Molla Fərzəli qələmi *mürəkkəbə* batırıb yazmaq istədi (A.Şaiq); **ÇERNİL** (*dan.*) Qoyuram qənşərimə kağızımi, *çernilimi;* Gəlirəm yazmağa bir kolmə, – tutursan əlimi (M.Ə.Sabir).

2. mürəkkəb *bax* çətin

MÜRƏKKƏBQABI Sonra Ramiz *mürəkkəbqabına* su doldurub gətirdi, onun qabağına qoydu (M.İbrahimov); **DAVAT** (*köhn.*) Qələm tez-tez qələmdəndəki *davata* batırılıb kağızın üzərində dolaşır (Çəmənzəminli).

MÜRƏKKƏBLƏŞMƏK ..Onun vəziyyəti *mürəkkəbləşəcəkdi* (S.Rəhimov); **AĞIRLAŞMAQ** Obalar arana köçəndən sonra Gülyazın həyatı daha da *ağırlaşdı* (M.Hüseyn); **ÇƏTİNLƏŞMƏK** Çox *çətinləşdi* bu günlər yaşamaq dünyadə; Daha *müşkülləşəcək* bilməliyiz fərdadə (M.Hadi); **DƏRİNLƏŞMƏK** (*məc.*) [Şəmo:] Demək, belə?! – dedi, – məsələ *dərinləşir* (S.Rəhimov); **MÜŞKÜLLƏŞMƏK** [Cavad xan:] ..işlər *müşkülləşdi*, indi ölkənin nizamına nəzarət qılmaq bizə düşür (Çəmənzəminli).

MÜRƏTTİB (*məh.*) Qoca *mürəttib* kiçik bir işarəyə bənddi (M.Hüseyn); **HƏRF YIĞAN/DÜZƏN** [Balağa:] Atam naborşik, yəni *hərf yığan, mürəttib* idi (H.Abbaszadə).

MÜRGÜ Şahin soso diksindi, *mürgüdən* ayıldı.. (B.Bayramov); **HUŞ** Xəbəri quş apardı; Vətənə tuş apardı; Gözlədim yar keçəcək; Onda da huş apardı (Bayatı); **VARIYUXU.**

MÜRGÜLƏMƏK Ana dovşan gözüaçıq; Baxa-baxa *mürgüləyir* (M.Rzaquluzadə); **HUŞ APARMAQ** Arabir onu *huş aparırdı* (M.Rzaquluzadə); **HUŞA GETMƏK** ..Xasay *huşa getmişdi* (Ə.Vəliyev); **MÜRGÜ DÖYMƏK** Mirzə Mehrəli döşəkcənin üstündə uzanıb *mürgü döyür* (Çəmənzəminli).

mürğ *bax* quş

mürid *bax* **1.** şagird **1**; **2.** havadar

MÜRTƏCE Bu çayın o tayında azadlıqdan yox əsər; Qan-qan deyir dollara satılmış *mürtəcelər* (S.Rüstəm); **İRTİCAÇI** Lakin bu təşəbbüsümüz də *irticaçı* ziyalıların şiddətli hücumuna səbəb oldu (S.S.Axundov).

mürşid *bax* nəsihətçi

mürtəd *bax* allahsız **1**; dinsiz, kafir **2**

mürüvvət *bax* rəhm

MÜSABİQƏ (*mükafat və s. almaq üçün keçirilən yarış*) [Cahangir Reyhana:] Mən sizin yerinizə olsaydım maketi *müsabiqəyə* göndərərdim (İ.Əfəndiyev); **KONKURS** Uzağa niyə gedək, gəl sənə keçən ilki *konkursdan* deyim (S.Rüstəm); **TENDER, YARIŞ.**

müsafir *bax* **1.** səyyah, səyahətçi; **2.** qonaq

müsafirət *bax* səfər **1**

müsafirxana *bax* mehmanxana

müsahib *bax* həmsöhbət

MÜSAHİBƏ Bəs belə olan surətdə bir dəyənəklə bir tayfadan bu qədər cana qıymaq və həlak eyləmək nə səbəbdən xoşuna gəldi? – sualı, qarışqa ilə uşağın *müsahibəsinə* səbəb oldu (R.Əfəndiyev); **SÖHBƏT** Onu da hiss etdi ki, Rasim *söhbəti* ona qaytarmaq və Yavərin zəif yerinə toxunmaq fikrindən uzaqdır (M.İbrahimov).

müsamirə *bax* konsert

müsavat *bax* bərabərlik **1**

müsəhhih *bax* korrektor

müsəhhihlik *bax* korrektorluq

müsəlləh *bax* silahlı

müsəlləhlənmək *bax* silahlanmaq

MÜSƏLMAN (*islam dininə mənsub adam*) [Cəfər:] Mən yaxşı bilirəm ki, *müsəlmandır*, görmürsən, haqq deyib durur (M.İbrahimov); **İSLAM** [Əbülhəsən bəy:] Mollanın dediklərini Smirnova söylədim, *islam* olmasının səbəblərini söylədikcə mən də mollalara tərcümə edirdim (M.S.Ordubadi); **MÜSLİM** (*köhn.*) Nifrətə şayandı bu! Hörzövü hədyandı bu! *Müslimi* kafir qılan; Xaneyi-küfrandı bu! (M.Ə.Sabir).

müsəlmançılıq *bax* müsəlmanlıq **1**

1. MÜSƏLMANLIQ (*müsəlman dininə mənsub olma*) [Dilbər:] Siz özünüz xalqı *müsəlmanlığa* çağırırsınız.. (C.Cabbarlı); **İSLAMLIQ** Türklük, *islamlıq* iddiası ilə; Öz dilin bilmək istəyən yoxdur (A.Səhhət); **MÜSƏLMANÇILIQ** [Molla:] Bizim evimizi yıxan Avropadə təhsil tapmış cavanlarımızdır ki, *müsəlmançılığı* özlərindən qonar ediblər (Anar).

2. müsəlmanlıq *bax* islam **1**

müsənnif *bax* müəllif

müsibət *bax* fəlakət

müsinn *bax* qoca **1**

müslim *bax* müsəlman

MÜSTƏBİD, HAKİMİ-MÜTLƏQ, İSTİBDADÇI (*zalım hökmdar*)

müstəbid *bax* zalım

müstəhəq *bax* layiq

müstəid *bax* istedadlı

1. MÜSTƏQİL, AZAD (*bax*), **MUXTAR, SƏRBƏST, SUVEREN**

2. müstəqil *bax* öz-özünə

MÜSTƏQİLLİK, AZADLIQ (*bax*), **İSTİQLAL, İSTİQLALİYYƏT, SƏRBƏSTLİK, SUVERENLİK**

MÜSTƏNTİQ (*hüq.*) Günahları uğursuzdur; Qərarımız düzdü; *Müstəntiqə* vermək lazımdır işi (R.Rza); **SİLİSTÇİ** (*köhn.*) [Hacı Həsən:] Yapışıblar yaxamdan ki, Hacı, uşağına yazığın gəlsin, Allaha şükür, məqdurun var, qoy getsin dərs oxusun, gəlib bir qulluq sahibi olsun; incinər olsun, hökm olsun,

silisçi olsun, nə bilim nə zəhrimar olsun (C.Məmmədquluzadə).

müstəşriq *bax* şərqşünas

müşabiət *bax* oxşarlıq

müşairə *bax* şeirləşmə

müşavir *bax* məsləhətçi

müşavirə *bax* iclas

müşəvvəş *bax* əzabla

müşkül *bax* çətin

müşkülləşmək *bax* mürəkkəbləşmək

I MÜŞTƏRİ O hərdən tək-tük, büzməli arxalıq geymiş kiçik *müştərilərinə* şabalıd verib yola salır, tiyançıya bir qədər də çiy şabalıd tökür və müştəri səsləyir, malını tərifləyirdi (Ə.Cəfərzadə); **ALICI** Amma oğlanın qarşısında *alıcı* yox idi (Ə.Cəfərzadə); **XİRİDAR** (*kl.ed.*) Baş mühəndis kitab həvəskarı, qəzet *xiridarı*, jurnal tamarzısı idi (Ə.Vəliyev).

II müştəri *bax* yupiter **I**

mütaliə *bax* qiraət

mütaliəçi *bax* oxucu

mütarikə *bax* sülh **I**

mütə *bax* sığa

mütəəllim *bax* şagird **I**

mütəəssib *bax* təəssübkeş **I**

mütəəssiblik *bax* təəssübkeşlik **I**

mütəfəkkir *bax* filosof

mütəkəbbir *bax* lovğa

mütəkkə *bax* balış

mütəlla *bax* zərli

mütəntən *bax* təntənəli

mütəradif *bax* sinonim

mütərcim *bax* tərcüməçi

mütəraqqi *bax* qabaqcıl

müti *bax* tabe

mütilik *bax* tabelik

I. MÜTLƏQ [Adilə:] Zəng vuracağam, *mütləq* zəng vurub Elsevərlə ətraflı danışacağam (Ə.Qasımov); **ƏLBƏTTƏ, YƏQİN** Bir belə adamın içində *yəqin, əlbəttə* bədnəzər var olmasın (Q.Zakir); **LABÜD** ..bir əlbisəlik ipək parça *labüd* gedəcəkdir (R.Əfəndiyev); **ŞÜBHƏSİZ** *Şübhəsiz* baş əyər hər əmrimizə (A.Şaiq); **ƏLİF-ƏLBƏT, HƏR HALDA, HÖKMƏN, QEYD-ŞƏRTSİZ, SÖZSÜZ.**

2. mütləq *bax* əsla

MÜTTƏHİM (*hüq.*) Ehtiyac qalmasın məhkəmələrə: Həm *müttəhim* olaq, həm hakim olaq (B.Vahabzadə); **GÜNAHKAR** Budur indi dayanıb; *Günahkarın* önündə; Özü *günahkar* kimi (B.Vahabzadə); **MÜQƏSSİR** Bizim kinli prokuror; Nə qədər istəmiş ki; Hakim onun önündə; Dursun *müqəssir* kimi (B.Vahabzadə).

MÜVƏFFƏQİYYƏT [Müsyö Çujon:] Qəzetlərimizdə bu *müvəffəqiyyətləri* qeyd etmək ilə hökumətimizin fikrini onlara cəlb etməliyik ki, vaxtında qabağını almaq üçün tədbir və çarələr axtarsın (S.S.Axundov); **QABİLİYYƏT** *Qabiliyyət* qazanmaq istəyiriksə, biz burada pambığa artıq fikir verməliyik (Ə.Sadıq); **NAİLİYYƏT** Azərbaycan xalqı hər sahədə yeni və böyük *nailiyyətlər* əldə etmişdir (M.İbrahimov); **UĞUR** (*bax*).

MÜVƏKKİL, AGENT, OMBUDSMAN

MÜVƏKKİLLİK, AGENTLİK, OMBUDSMANLIQ

MÜVƏQQƏTİ Bəlkə o, kluba gəlmişdi ki, *müvəqqəti* də olsa dərdini unutsun, unuda bilmirdi (H.Abbaszadə); **ARİYƏTƏN** (*köhn.*) ..qibleyi-aləm *ariyətən* təxtü tacdan ol çəkir, ta ki, haman mücrimi ki, təxtə çıxacaqdır.. (M.F.Axundzadə); **HƏLƏLİK** [Adilə:] Ancaq bu *hələlik* məxfi saxlanılır (Y.Şirvan).

müvərrix *bax* tarixçi

müzayidə *bax* hərrac

müzəffər *bax* qalib

müzəyyən *bax* bəzəkli **I**

müzlüm *bax* qaranlıq

müztərib *bax* narahat, nigaran

müzür *bax* ziyanlı

Nn

NABƏLƏD, ÖZGƏ, TANINMAYAN, TANIŞ OLMAYAN, YAD

NACİNS (*əsli, zatı pis*) [Şamxal:] Elələrinə *nacins* deyərlər bizlərdə, professor (Anar); **BƏDCİNS** Bədnəzər qonşudan, *bədcins* yoldaşdan; Qədir bilənlərin iti yaxşıdır (Aşıq Hüseyn); **BƏDƏSİL** *Bədəsillər* ciyərimi dağlayır; Əsli olan məlhəm qoyub bağlayır (Molla Cümə); **BƏZZAT** Ax, bu uşaqlar necə *bəzzatdılar;* Lap deyəsən cin kimi bir zatdılar (M.Ə.Sabir); **ƏSİLSİZ** *Əsilsizdən* kömək gəlməz (Ata. sözü); **NANƏCİB** *Nanəcibdən* ağa olmaz, təkədən qoç (Ata. sözü); **ZATIQIRIQ.**

naçaq *bax* xəstə

naçaqlamaq *bax* xəstələnmək

naçalnik *bax* **1.** rəis; **2.** müdir

naçar *bax* əlacsız **I**

nadan *bax* avam

nadanlıq *bax* avamlıq

NADİNC Nadinc uşaqlar Molla Qasımın evinin yanından keçdikdə bağırırdılar (S.S.Axundov); **DƏCƏL** Məktəbdən çıxıb evlərinə gedəndə isə nizami onu [Mehribanı] başqa siniflərin *dəcəllərindən* qoruyardı (M.İbrahimov); **ŞULUQÇU** [Kəblə Bəybala:] Xatircəm ol, Əbdülqəni ağa, bizim uşaqlar *şuluqçu* deyillər (H.Abbaszadə); **ÜZLÜ** (*məc.*) Salıb sındıranda xeyli qab-qacaq; Deyərdin uşağım *üzlüdür, üzlü* (S.Rüstəm); **HƏYASIZ, SİTAL, ŞULUQ.**

NADİNCLİK [Rəfiq:] ..gərək bilmərrə *nadincliyi* atasan (S.S.Axundov); **DƏCƏLLİK** [Mehriban:] *Dəcəllikdən* əl çəksə, yaxşı şagird olar (M.İbrahimov); **ŞULUQLUQ.**

NADİR, UNİKAL

nadürüst *bax* hiyləgər

nadürüstlük *bax* hiyləgərlik

naəlac *bax* əlacsız **I**

nagahan *bax* birdən

I. NAĞIL Məclisin ortasında ayaq üstə durub, cürbəcür hərəkətlər yaparaq nə gözəl *nağıllar* söylədi (Çəmənzəminli); **HEKAYƏ** Təsəvvür ediniz, bir nağıl üç ay davam etdi, hər axşam da dərviş *hekayəsini* dadlı bir yerdə kəsib, bir maraq içində buraxırdı.. (Çəmənzəminli); **MASAL** Qışın oğlan zamanı; Ağca *masal* söylərsən (Ə.Cavad); **NƏQL** (*köhn.*) [Zübeydə:] Altmış min tümən *nəqlin* yaxşı yadıma saldın (M.F.Axundzadə); **RƏVAYƏT** Musiqi zövqü Hülakulərə təsir etmiş; Oxu tarixi, gör orda nə *rəvayətləri* var (Ə.Vahid).

2. nağıl *bax* uydurma

NAĞILBAZ, NAĞILSEVƏN

I. NAĞILÇI, NAĞILDANIŞAN, NAĞILDEYƏN

2. nağılçı *bax* naqqal

nahaq *bax* **1.** əbəs; **2.** haqsız, ədalətsiz

nahaqlıq *bax* haqsızlıq, ədalətsizlik

NAHAMAR *Nahamar* yolda maşın silkələnməyə başladı (X.Hasilova); **ƏYRİ-ÜYRÜ** Qarlı güneyin sinəsində *əyri-üyrü,* çalın-çarpaz cığırlar əmələ gəlirdi (B.Bayramov); **KƏLƏ-KÖTÜR** İri *kələ-kötür* ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasında yuxarı qalxdıqca təbiət və hava bütün başqalaşır (A.Şaiq).

NAHAR O ki qoyun padşahın *naharı;* Quzunu saxlarıq axşam iftarı (Q.Zakir); **GÜNORTA YEMƏYİ** ..karxanalarda fəhlələr *günorta yeməyinə* çıxmağa hazırlaşardı (M.İbrahimov).

naharsız *bax* ac **I**

nahiyə *bax* rayon

naxır *bax* sürü

NAXIŞ Sən ləzzət alan zaman; Əlvan *naxışlarından;* Mən də zövq alıb sənin; Xumar baxışlarından (M.Rahim); **ÇEŞNİ** [Şöbə müdiri:] Bilmirəm sən nə fikirdəsən, mərhumun *çeşnisi* ilə təxunan göbələrin bir çoxu mənim xoşuma gəlirdi (Ə.Vəliyev); **BUTA** O zərif *butaları;* Yazmaq olmaz kağıza (M.Seyidzadə).

NAXIŞLI (*naxışı olan*) Kitab.. bir cüt qırmızı dilim *naxışlı* çaynik çıxartdı (S.Rəhimov); **BƏZƏKLİ** Qaraş özünə məxsus şirin-şirin gülərək, cibindən çıxardığı yanları *bəzəkli* ağ dəsmalla gözünü sildi (M.İbrahimov).

naxoş *bax* xəstə

naxoşlamaq *bax* xəstələnmək

naxoşluq *bax* xəstəlik

I. NAİB (*tar.*) *Naib* onun kim olduğunu və nə üçün gəldiyi barəsində sual verməyə başladı (M.S.Ordubadi); **KATİB** Qapı birdən açılır; *Katib* girir içəri; Güllə kimi açılır; onun sözləri.. (R.Rza); **MÜNŞİ** ..özü də əyalətin qoltuğunda bircə otaqda bir *münşi* ilə əyləşirdi və ayda ikisi birlikdə ancaq yüz tümən dövlətdən hüquq alırdı (C.Məmmədquluzadə).

2. naib *bax* canişin

naibiyyət *bax* müvəffəqiyyət

nainsaf *bax* insafsız

nainsaflıq *bax* insafsızlıq

nakişi *bax* namərd

nakişilik *bax* namərdlik

naqabil *bax* ləyaqətsiz

naqə *bax* maya **I**

naqis *bax* **1.** əskik; **2.** nöqsanlı

NAQQAL [Attal:] Susdur bu *naqqalı* (A.Şaiq); **AĞZIGÖYÇƏK** (*dan.*) [İldırım:] Hansı *ağzıgöyçəklər* döl vaxtı mənim yanımda olub ki? (Ə.Vəliyev); **AĞZIQƏŞƏNG** (*dan.*) Bir para *ağzıqaşanglar* başlayıblar qəzetlərində yazmağa ki, gərək övrətlər oxusunlar, tərbiyə tapsınlar... cəmiyyət tərtib eləsinlər (C.Məmmədquluzadə); **BOŞBOĞAZ** [Səlim bəy:] De kimlər gizlədir o *boşboğazı* (S.Rüstəm); **ÇƏRƏNÇİ** [Gülcamal:] Doğrudan da nə pis olurmuş arvadın *çərənçisi* (M.İbrahimov); **COXDANIŞAN** [Rüstəm:] Ə, bu arvad nə *çoxdanışandır!* (Ə.Vəliyev); **DANIŞQAN** [Zəhra:] Kişinin *danışqanı* ilə xırdaçısı arvadını tez vərəmlədib öldürər... (Ə.Vəliyev); **FÜZUL** Sən qulaq as, əzizim, olma *füzul* (S.Ə.Şirvani); **GƏVƏZƏ** Sən demə bu yanşaq *gəvəzənin* biri imiş ("Kor-oğlu"); **HƏRZƏ** Kapitan *hərzə* adamlara məxsus bir ədə ilə gülümsədi (A.Makulu); **HƏRZƏGU** Vaxta firibinə *hərzaguların;* Aralıq vurmaqdı işi buların (Q.Zakir); **HƏRZƏKAR** Gecələr şairlə fəxr eləyir; *Hərzəkarın* birilə fəxr eləyir (S.Rüstəm); **NAĞILÇI** [Məşədi Rüstəm:] Sən nə *nağılçı* kişisən (R.Əfəndiyev); **UZUNÇU** [Nəsirov:] Canım, sən *uzunçu* adamsan? (S.Rəhman); **YANŞAQ** (*dan.*) [Bənövşə:] Yadında saxla, sənin kimi ağzını boşuna qoyan adamlara *yanşaq* deyərlər (M.İbrahimov); **ZƏVZƏK** Bütün dəlləklər kimi, bu dəllək də çox *zəvzək* idi, lakin hələ danışmırdı, söz torbasını açmağa bir bəhanə axtarırdı (Çəmənzəminli); **AĞZIBOŞ, ƏNGİBOŞ** (*dan.*), **HƏRZƏÇƏNƏ, OZAN** (*məc.*), **UZUNDANIŞAN.**

NAQQALLAMAQ, NAQQALLIQ ETMƏK Bağışlayasız çox *naqqallıq elədim,* gedim görüm qatırlarım necə oldu (N.Vəzirov); **BOŞBOĞAZLIQ ETMƏK/ELƏMƏK** [Pirvəli:] Bəlkə, mən yığıncaqlarda az *boşboğazlıq elədiyimə* görə günahkaram! (M.Hüseyn); **UZUN DANIŞMAQ** (*dan.*) [Müsəlman:] *Uzun danışma,* qurumsaq (C.Cabbarlı); **UZUNÇULUQ ELƏMƏK/ETMƏK** Bəy, həmməşə qulluğunuzda ölümə hazırıq! – deyə yasavul qısaca cavab verdi, ədəb gözləyib *uzunçuluq eləmədi* (S.Rəhimov); **ZƏVZƏMƏK** [Sərxoş:] Taxayım bir şu *zəvzəyən* hərifə (H.Cavid); **ÇƏRƏNLƏMƏK** (*bax*), **GƏVƏZƏLƏMƏK, ÜDÜLƏMƏK** (*dan.*).

NAQQALLIQ (*versiz danışıq, uzun danışıq*); **BOŞBOĞAZLIQ** [Dilaro:] Sənin bir əbləh prinsiplərin, bütün sənin bu *boşboğazlığın* – nə bilim düzgünlük buradan gəldi, ədalət oradan getdi.. (Anar); **ÇƏRƏNÇİLİK** [Paşa bəy Fərruxa:] ..daha *çərənçiliklə* məşğul olma (Ə.Vəliyev); **FÜZULLUQ** [Məstəli:] *Füzulluğu* burax, övları götürmək lazımdır (S.Rəhimov); **UZUNÇULUQ** Lakin Firəngizin bircə baxışı əyləşənlərin canını onun *uzunçuluğundan* qurtardı (B.Bayramov); **ZƏVZƏKLİK** "Yalançı xəstəni buraxın"

deyə; Yaman qəzəbləndi bu *zəvzəkliyə* (B.Vahabzadə); **AĞZIGÖYÇƏKLİK** (*dan.*), **AĞZIQƏŞƏNGLİK** (*dan.*), **ƏNGİBOŞLUQ** (*dan.*).

1. NAQQAŞ, NAXIŞÇI, NAXIŞVURAN

2. naqqaş *bax* rəssam

naqolay *bax* narahat

naqolaylıq *bax* narahatlıq

nalayiq *bax* layiqsiz, ləyaqətsiz

nam *bax* ad **I**

namdar *bax* adlı-sanlı

namə *bax* məktub

namehrəm *bax* yad **I**

NAMƏLUM (*məlum olmayan*) *Naməlum* adam ağayana hərəkətlə, tələsmədən qoltuq cibindən böyük bir portmanat çıxardı (M.İbrahimov); **MƏCHUL** Demək *məchul* qara günlərin xəbərçisi olan bu quşu nə vurmaq, nə də qovmaq olar (M.İbrahimov); **ADİBİLİNMƏZ, TANINMAZ, YAD.**

NAMƏRD *Namərdin* dünyada çox çəkdim bəhsin; Namusun, qeyrətin, arın görmədim (Aşıq Ələsgər); **MÜXƏNNƏT** Belə *müxənnətlərin* görən zaman üzünü; Eşidəndə rəngbərəng hiylə dolu sözünü; Nə qədər iyrənirsən (M.Rahim); **MÜXƏNNƏS** *Müxənnəsdə* səxa, nakəsdə kərəm; Namərdin cibində pul ola bilməz (Aşıq Ələsgər); **NAKİŞİ** [Mürsəl:] İlqarından dönən, adını pozan, verdiyi sözə əməl eləmiyən *nakişidir!* (Ə.Vəliyev); **ƏCLAF** (*bax*), **XAİN** (*bax*).

NAMƏRDLİK Bu eşq aləmində *namərdlik* olar.. (S.Vurğun); **XƏYANƏT** [Nüşabə:] Bir *xəyanət* deyə, haqqım vardı; Qəlbimi şübhə, tərəddüd sardı (A.Şaiq); **DÖNÜKLÜK, MÜXƏNNƏSLİK, MÜXƏNNƏTLİK, NAKİŞİLİK.**

namizəd *bax* nişanlı

namsız *bax* adsız **I**

NAMUS, AR, QEYRƏT Düz çıxmaz ilqarı, əhdi-peymanı; Hərcayidə *namus, qeyrət, ar* olmaz (Xəstə Qasım); **TƏƏSSÜB** [Qəmər:] Özgə qızı da olsa, yenə *təəssüb* sənin üstünə gələcək (M.İbrahimov); **İSMƏT, HƏYA** (*bax*).

NAMUSLU, İFFƏTLİ, İSMƏTLİ [Məlikməmməd:] Sənin kimi *iffətli, ismətli, namuslu* qıza Allah özü qeyb xozinəsindən yetirəcəkdir (R.Əfəndiyev); **ALNIAÇIQ** Axırıncı söz ağzından çıxmamış birçəkləri ağarmış, alnıaçıq, büzməmuş bir arvad qabağa yeriyib motal papaqlı əri ilə üzbəüz durdu (M.İbrahimov); **QEYRƏTLİ** Haşım *qeyrətli* və çalışqan adam olduğundan, bir gün rahat oturmurdu (B.Talıblı); **HƏYALI** (*bax*), **İSMƏTLİ.**

namussuz *bax* binamus

namussuzluq *bax* binamusluq

namümkün *bax* qeyri-mümkün

namütənahi *bax* nəhayət, sonsuz **I**

nan *bax* çörək

nanəcib *bax* **1.** nacins; **2.** nankor

NANKOR (*yaxşılıq bilməyən, duz-çörək itirən adam*) Bacın, qardaşındır, saxlayacaqsan; Canın da çıxacaq, *nankor* uşaqsan (M.Rahim); **ÇÖRƏKİTİRƏN** *Çörəkitirən* çörək tapmaz (Ata. sözü); **NAŞÜKÜR** Allaha bizmişik *naşükür* bəndə; Bir söz desəm dəxi qoymazlar kəndə (M.P.Vaqif); **NƏMƏKBƏHARAM** [Hacı Nəsir:] Ay *nəməkbəharam,* mən sənin kimi bir kasıb qızını dilənçilikdən qurtarıb özümə arvad etdim (S.S.Axundov); **NANƏCİB.**

NANKORLUQ (*yaxşılıq itirmə*) [Gülüş:] Səninki geniş qəlbinə mərhəmət nankorluqdur (C.Cabbarlı); **KÜFRAN** (*köhn.*) Nifrətə sayandı bu; ...Müslimi kafir qılan; Xaneyi-küfrandı bu! (M.Ə.Sabir); **NƏMƏKBƏHARAMLIQ** (*köhn.*) [Namaz:] Xeyr, *nəməkbəharamlıq* edirlər (M.F.Axundzadə); **NAŞÜKÜRLÜK.**

napak *bax* murdar **I**

napaklıq *bax* murdarlıq **I**

I NAR Süzüb bağlar barını; Heyvasını, *narını;* Al-yaşıla qatırdın.. (M.Rahim); **ƏNAR** (*kl.əd., arx.*) Qönçə dəhani çəməndə xəndan; Gülməkdən *ənar* açıldı dəndan (Xətayi).

II nar *bax* od

III nar *bax* cəhənnəm

NARAHAT (*rahatlığı olmayan*) Bununla belə, qız çox *narahat* idi (X.Hasilova); **ARAMSIZ** Həsən tramvay duracağında.. *aramsız* bir çırpıntısı ilə Dilarəni gözləyirdi (M.İbrahimov); **QƏRARSIZ** ..Qayınanasının ona ürək-dirək verməsino baxmayaraq, Durna *qərarsız* oldu (İ.Əfəndiyev); **MÜZTƏRİB** Buludlardan soruşmuşam; Bəs nə üçün *müztərihəm?* (M.Rahim); **NAQOLAY** [Rasim:] Namiq, ondan da betər Qumru özlərini *naqolay* hiss edirlər (Anar); **RAHATSIZ** [Nüşabə:] Məni *rahatsız* edir bu işlər (A.Şaiq).

narahatçılıq *bax* narahatlıq

NARAHATLIQ Əfruz bacının *narahatlığı* Mədədin *narahatlığını* daha da artırır (S.Rəhimov); **ƏNDİŞƏ** Firidun bir zaman parlaq ay işığında Gülnazgilin yatdığı sokiyo çıxdı, *əndişə* ilə dolu o keçəni xatırladı (M.İbrahimov); **İZTİRAB** Mehribanın qəlbinin *iztirablarını* ovunduracaq bir arqadaşa nə qədər ehtiyac vardır (S.Hüseyn); **NARAHATÇILIQ** Şamonu yenə də *narahatçılıq* götürüb üzməyə başladı (S.Rəhimov); **RAHATSIZLIQ** [Nəbi:] Vallah, mən nökər belə *rahatsızlığa* davam edo bilmərəm (S.S.Axundov); **NAQOLAYLIQ, TƏŞVİŞ** (*bax*).

NARAZI Talıbov *narazı* halda başını buladı (Y.Şirvan); **GİLEYLİ** Qarabəy dayana bilməyib *gileyli* halda danışdı (Ə.Vəliyev); **İNCİK** (*bax*).

1. NARAZILIQ [Qəmər:] Onlar tərəfindən bir qədər *narazılıq* oldu (S.S.Axundov); **DEYİNTİ** (*dial.*) Qulunun qaşqabağı yemən gedir, deyəsən *deyintişi* var (ADDL); **İNCİKLİK** Danışdıq, barışdıq mərhəmət ilo; *İnciklik* araya qatma, hayıfsan! (Aşıq Ələsgər); **OVQATTƏLXLİK** Səttarzadə ailədə sözsov, *ovqattəlxlik* görmüşdü (Mir Cəlal); **GİLEY** (*bax*).

2. narazılıq *bax* hiddət

NARGİLƏ [Gülabətin] gedib şüşəsi göy və narıncı naxışlarla bəzənmiş *nargilə* adlanan gözəl qəlyanı hazırladı və Hacının otağına apardı (M.İbrahimov); **SULU QƏLYAN** Taxtın üzərində oturub dibdo; *Sulu qəlyan* çəkir Sadiq, Katib də (M.Rahim).

NARIN, BALACA, XIRDA, TOZ KİMİ NARİNGİ (*meyvə*) Acıqlandı nar; Göstərdi vüqar; Dedi: "*Naringi*"; Burax cəfəngi! (M.Seyidzadə); **MANDARİN** Yağışlarda bağ otri, yağışlarda gül tozu; Hər dəmcida bir limon, bir *mandarin* qoxusu (X.Rza).

NARKOMAN, TİRYƏKÇİ (*bax*)

nasaz *bax* xəstə

nasazlamaq *bax* xəstələnmək

nasir *bax* yazıçı

nasiyə *bax* alın

NAŞI Səhnəyə ilk dəfə çıxan *naşı* artist kimi zal onu tutmuşdu (H.Abbaszadə); **BİTƏCRÜBƏ** [Mirzə Tağı:] Padşahım, siz cavan və *bitəcrübəsiniz,* ona görə də mən qibleyi-aləmin köməyilə zülmü dağıtmaq istəyirəm (C.Cabbarlı); **XAM** [Qəmər:] Ey qəlbimin sultanı Çingiz, Qəmərin şerinin mənasını anlamağa sən hələ *xamsan,* püxtə olmağa çox səfər gərək (S.S.Axundov); **SƏRİŞTƏSİZ** Bu, *səriştəsiz* bir adamın ilan ovlamağa meyil göstərməsi kimi təhlükəli riskə bənzəyirdi (B.Bayramov); **TƏCRÜBƏSİZ** Dünənə kimi ən adi və sıravi ustalardan fərqlənməyon bu *təcrübəsiz* gənc, ən sadə tənqidi qeydini deyəndə də dərhal tutarlı bir dəlil gətirir, çox vaxt da dediyi qüsuru düzəltməyin yolunu belə göstərirdi (M.Hüseyn).

NAŞILIQ İdrak ölümdən də intiqam alır; Mənim kimilərin *naşılığından;* Elm gör necə də xəcalət qalır (B.Vahabzadə); **BİTƏCRÜBƏLİK** [Mirzə Möhsün:] Ümumi-vəzarətin pişrəftində bəndeyi-kəminə tərəfindən *bitəcrübəlik* qeyri-mütəəvvirdir.. (M.F.Axundzadə); **TƏCRÜBƏSİZLİK** Alo əminin tərksilah olub buradan qoyub getməyində yenə də Alo kişinin deyil, öz gəncliyini, *təcrübəsizliyini* göz qabağına gətirib özünü müqəssir sayırdı (S.Rəhimov); **XAMLIQ, SƏRİŞTƏSİZLİK.**

naşükür *bax* nankor

naşükürlük *bax* nankorluq

NATAMAM (*sona çatmamış, tam olmayan*) Fəqot *natamamdır* o böyük kitab; Onun son varlığı hələ dümağdır (S.Vurğun); **ALAYARIMÇIQ** Həsənin bütün fikri təqib etdiyi qadında idi. Xasay *ala-yarımçıq* cavablar verirdi (A.Şaiq); **YARIMÇIQ** Dad *yarımçıq* əlindon (Ata. sözü); **YARI-YARIMÇIQ** [Yunis:] Mənim olan vəsaitim də *yarı-yarımçıqdır* (Mir Cəlal).

natəmiz *bax* murdar **1**

natəmizlik *bax* murdarlıq

natəvan *bax* zəif **1,** gücsüz

natəvanlıq *bax* zəiflik

natura *bax* təbiət **2**

natural *bax* təbii **1**

naümid *bax* ümidsiz

naümidlik *bax* ümidsizlik

navaxta *bax* həbsxana

NAZ, İŞVƏ, QƏMZƏ Belə *işvə,* belə *qəmzə,* belə *naz;* Belə qamət, belə gərdən olurmu? (Q.Zakir); **ƏDA** Qadan alım, ay qaragöz, səndo bu *əda* neçindir? (S.Ə.Şirvani); **ƏRKNAZ** Yer inciyib küsəndə onun başına zövqü var; Hərdənbir ortalıqda gərək *ərknaz* ola (Ə.Vahid); **MAZAT** (*dan.*) [Balaqız Gülnisəyə:] Nahaq yerə özünü *mazata* qoyma! (Ə.Haqverdiyev); **MƏZƏ** (*məc.*) [Dürrə] qızlara məxsus bir *məzə* ilə gülümsədi.. (S.Vəliyev); **ŞİVƏ** Der idim qamətinə sərv, voli, özgo imiş; Hərəkatü rəvişü *şivəvü* rəftar sana (Füzuli); **QINC, QIR** (*dan.*).

nazbalış *bax* balış

nazənin *bax* nazlı

1. NAZİK (*yalnız adam haqqında*) Xoş, ilıq bir hiss qızın *nazik* vücuduna yayıldı (Ə.Cəfərzadə); **İNCƏ** İndi iso üç-dörd gündən bir sarı güllü paltar ütülənir və Mədinənin *incə* belinə, girdə çiyinlərinə ayrı bir yaraşıq verirdi (M.İbrahimov); **ZƏRİF** [Əbdüləli bəy:] Qadın vücudu *zərif* yaranmışdır, odur ki, qədimlərdə qadınlar kəcavə ilo gəzirdilər (C.Cabbarlı).

2. NAZİK (*material*), **TÜNÜK** (*dan.*)

3. nazik *bax* incə **1**

NAZİKLİK, İNCƏLİK, ZƏRİFLİK

nazikbel(li) *bax* incəbel(li)

nazikmiyan *bax* incəbel(li)

1. NAZİR (*hökumət üzvü*) [Qoca neft sahibkarı:] Conab *nazir,* yaxşı olardı ki, general hozrotlərinə bu barədə heç olmasa bir balaca işarə vuraydınız (Ə.Mommədxanlı); **VƏKİL** (*köhn.*) [İldırım:] Bilmirəm, ancaq bu arqadaş böyük bir dövlət *vəkilidir* (C.Cabbarlı).

2. nazir *bax* inspektor **1**

nazlamaq *bax* oxşamaq **II**

NAZLANMAQ Buna görə Nazlı son zamanlar olduqca *nazlanır...* (S.Rəhimov); **ƏZİLİB-BÜZÜLMƏK** [Çorkəz] görürdü ki, qızı şuxluq edir. Zarafatlaşmaq, *əzilib-büzülmək* istəyir (İ.Şıxlı); **İŞVƏ SATMAQ** Maralın, ceyranın min *işvə satır;* Su göndər bu yerdə yanana dağlar (S.Vurğun); **QIR VERMƏK/SATMAQ** (*dan.*) Əyyar da, əzilo-əzilo darğaya *qır verirdi* ("Əyyar" nağılı); **NAZ ELƏMƏK/ETMƏK** [Həmzə:] *Naz eləyir,* özünü şirin salır (Ə.Qasımov); **NAZ SATMAQ** [Həmzə:] Qızların peşəsi *naz satmaqdır* (Ə.Qasımov); **QINCANMAQ.**

NAZLI, İŞVƏLİ Arabir *işvəli, nazlı* gözəllər; Çiçəkdən başına çələng toxuyur (M.Rahim); **ƏDALI** Mərhəmətsiz mələk, *ədalı* gözəl; Gör nə yandı bir vüsalo bədol (H.Cavid); **İŞVƏKAR** [Qızıl Arslan özözünə:] Müəyyən bir moqsədlə kişilərə yanaşan *işvəkar* qadın on möhkəm iradəli şəxslərə belə sevgini aşılaya bilər (M.S.Ordubadi); **QƏMZƏLİ** Yelena artıq böyümüş, gözəl, nazlı, *qəmzəli* bir qız olmuşdu (A.Şaiq); **NAZƏNİN** [Mərcan bəy:] Ey *nazənin* sonəm! Mən sənі görməmişdən sonə aşiqəm! (Ü.Hacıbəyov); **ŞİVƏLİ.**

NECƏ [Qazı:] Mən sənin üzünə baxan kimi yoqin etdim ki, sən *necə* adamsan (C.Məmmədquluzadə); **HƏNCƏRİ** (*dial.*) [Bənövşə:] Dilin *hancəri* dönür, elə de (M.İbrahimov); **NƏ CÜR** Quşlara nə qədər və *nə cür* ot vermoyi Tağı əmi mənə öyrətmişdi (S.S.Axundov); **NƏ TƏHƏR** (*dan.*) [Vəlisoltan:] A kişi, siz *nə təhər* adammış-

sınız? (C.Məmmədquluzadə); **NƏ SAYAQ** Bu necə yaraşıqdı, bu *nə sayaq* bədəndi? Qız vücudun nədəndir? (M.Rahim); **NƏ TÖVR** [Qazı:] Mən şəxsən üzünə baxan kimi bilirəm ki, *nə töv*r adamdır (C.Məmmədquluzadə).

NEFT *Neft* olmasa fabrik necə işlər? Neft olmasa gölməz vecə işlər! (M.Müşfiq); **QARA QIZIL** (*məc.*) *Qara qızıl*, ağ qızıl; Verən torpaq sizindir (M.Rzaquluzadə); **PETROLEUM, OYL.**

NEHRƏ, TULUQ (*yağ almaq üçün içində qatıq çalxanan qab; nehrə saxsı, yaxud da taxtadan düzəldilir, tuluq isə qoyun, yaxud keçi dərisindən hazırlanır*) Budur mənim ürək sözüm; *Nehrələrdə* çalxalanan; yağlarım da sizinkidir (M.Rahim); [Süd] qatıq halına gələndən sonra *nehrə*yə, yaxud *tuluğa* töküb çalxalayırlar (Ə.Vəliyev).

nemət *bax* **1.** rifah; **2.** xoşbəxtlik

nerv *bax* əsəb

1. NEŞTƏR (*arıda, əqrəbdə və s.-də*) ..xüsusi icazə olmaq üçün təşəbbüs istəyən tədbirlər isə *neştər* kimi onun sinəsini deşirdi.. (M.İbrahimov); **NİŞ** [Səba:] Mənim baxışlarım sübhün nəsimindən təmiz olsa belə, yaralı ürəklər üçün əqrəbin *nişindən* zərərlidir (M.S.Ordubadi); **SANCAQ** İndi dız-dız gələrlər; Lap dərimi dələrlər; Var iti bıçaqları; zəhərli *sancaqları* (R.Rza).

2. NEŞTƏR (*tib.*), **CƏRRAH BIÇAĞI, LANSET**

ney *bax* tütək

neyçalan *bax* tütəkçi

neyçi *bax* tütəkçi

NEYSAN (*niysan, aprel ayında yağan yağış*) Dağa qalxır dumanlar; Tez-tez yağır *neysanlar* (A.Səhhət); **ABİ-NİYSAN** [Kərbəlayı Qulamalı] ..qapının ağzında ayaq üstündə durub gözlərinin yaşını *abi-niysan* kimi ağ saqqalından axıdırdı (Ə.Haqverdiyev); **LEYSAN** Birdən *leysan* yağış başladı (H.Seyidbəyli); **YAZ YAĞIŞI/BAHAR YAĞIŞI** [Qəndab:] Gecə yağmış *yaz yağışından* sonra qalan gölməçələr gülən gözlər kimi işıldaşırdı (B.Bayramov).

nəbat *bax* bitki

1. NƏBATAT, BİTKİ, BİTKİ ALƏMİ, FLORA

2. nəbatat *bax* botanika

nəbatatçı *bax* botanik

nəbatatşünas *bax* botanik

nəbi *bax* peyğəmbər

NƏCABƏT [Şamxal:] Amma buna baxmayaraq, mən belə hesab edirəm ki, bizim millətin əsas cəhəti *nəcabətdir* (Anar); **ALİCƏNABLIQ** *Alicənablıq* əsri deyil, bizim bu əsrimiz! (S.Rüstəm); **NƏCİBLİK** [Maşo:] Mən Bahadırın *nəcibliyinə*, kəmalına ümid bağlayıb yəqin edirəm, birlikdə çarə tapılar (N.Nərimanov).

nəcabətli *bax* əsil **1**

nəcasət *bax* murdarlıq **1**

nəccar *bax* xarrat

nəccarlıq *bax* xarratlıq

1. NƏCİB [Dadaş Qəhrəmanov:] Əsil *nəcib* adamlar yalnız sənin kimi mərd hərəkət eləyə bilərlər (M.Hüseyn); **ALİCƏNAB** [İbrahim xan] özünü *alicənab* göstərmək üçün, bu fürsətdən istifadə edərək, arvadların buraxılmasını tapşırdı (Çəmənzəminli); **COMƏRD** ..xəsis olan mədənçilər saxlanc arvadlarına qarşı çox *comərd* və əliaçıq idilər (A.Şaiq); **ƏSİLLİ** Xotkar qızı, şahnəsilli; Ağır elli, xan *əsilli* ("Koroğlu").

2. nəcib *bax* təmiz **1**

nəciblik *bax* nəcabət

NƏCİS (*bədənin müəyyən üzvlərindən maddələrin çıxması*) [Kişi:] *Nəcis* quyusu bu tezliklə dolmaz (Çəmənzəminli); **İFRAZAT** İnsanın və heyvanın bədənindən bayıra çıxan şeylərdə (*ifrazatda*) həmişə mikroblar vardır (N.Nərimanov); **PEYİN** (*heyvan və quşlarda*) [Əliheydər:] *Peyin* içində ağnayan donquz kimi murdar olubsunuz (N.Vəzirov).

NƏÇİ [Kəbirlinski Salmana:] Bax, məsələn, sən *naçisan*. Hə, de görüm nəçisən? (Anar); **NƏKARƏ** [Miraxur:] Sən mənim canımı qurtardın, ay qonaq, indi de görüm, kimsən, *nəkarəsən* (Çəmənzəminli).

nədamət *bax* peşmançılıq

nədim *bax* həmsöhbət

NƏF (*müxtəlif mənalarda*) Zəhmətim çoxdu, hiç nəfim yox; Leyk həqqə ümidvarəm çox (S.Ə.Şirvani); Bugünkü teatrın iki *nəfi* var.. (N.Nərimanov); **XEYİR** Xəlil üç dəfə İran səfərinə gedib, hər dəfə bəqaidə *xeyir* edib qayıtdı (Ə.Haqverdiyev); **MƏNFƏƏT** Teatrımızın ikinci *mənfəəti* budur ki, bundan yığılan pul xərc olunacaq bu il müsəlman uşaqları üçün.. (N.Nərimanov); **QAZANC** (*bax*).

NƏFƏR Elə bu vaxt göz qoyuram sağımdakı bir nəfərə (S.Vurğun); **BAŞ** (*ailə üzvünə aid*) O biri ikigözlü mənzildə yeddi *baş* külfəti olan Fərhad əmi yaşayırdı (M.İbrahimov); **ŞƏXS** Birdən qapı hücumla açıldı və içəri ortaboylu, arıq bir *şəxs* girdi (Y.Şirvan).

nəfəs-nəfəsə *bax* üzbəüz

nəfs *bax* tamah

nəğmə *bax* mahnı

nəğməkar *bax* xanəndə

1. NƏHAYƏT Qızışır həkimlərin; Məşvərəti, söhbəti; Aydın olur *nəhayət;* Qızxanımın illəti (B.Vahabzadə); **AXIR Kİ** Axır ki, duman seyrəkləşdi (R.Rza).

2. nəhayət *bax* son

NƏHAYƏTSİZ [Nizami:] *Nəhayətsiz* heç bir şey yoxdur (M.S.Ordubadi); **BİİNTƏHA** [Muzdur] xüsusilə düşdüyü bəlalardan.. xilas olub, divan xatirəsindən qurtulmasını *biintəha şakir idi* (Qantəmir); **BİNƏHAYƏT** [Mənsur:] Məni əbədilik olaraq bəla dəryasının girdabi-*binəhayətinə* salıb cavan ömrünü, parlaq istiqbalını qəri-zülmati-məzarə yerləşdirmə! (C.Cabbarlı); **İNTƏHASIZ** Şirvan düzü *intəhasız* bir dəniz kimi görünürdü (Ə.Vəliyev); **NAMÜTƏNAHİ** [Nizami:] Dünyaya *namütənahi* deyənlər də yanılırlar (M.S.Ordubadi).

nəhayətsizlik *bax* sonsuzluq

nəhəng *bax* böyük **1**

nəhənglik *bax* böyüklük **1**

nəhr *bax* çay

NƏHS [Balağa:] *Nəhs* olsa da onların arasında on üçünü seçib götürdüm (H.Abbaszadə); **MƏŞUM** Hekayəmin qəhrəmanı yeni və *məşum* bir dövrün başlandığını bütün dəhşəti ilə duyub, qalstukunu bərkitdi (M.Hüseyn); **UĞURSUZ** (*bax*).

nəhv *bax* sintaksis

nəkarə *bax* nəçi

nəqahət *bax* süstlük

nəql *bax* **1.** nağıl **1**; **2.** keçirici

NƏLBƏKİ [Prokuror] ..stəkanı götürdü və həvəssiz bir-iki qurtum içib, *nəlbəkiyə* qoydu (H.Abbaszadə); **STƏKANALTI** [Fatma arvad] gümüş *stəkanaltılarını*.. dalbadal çıxarır (Mir Cəlal); **BÖLMƏ** (*məh.*).

NƏM Bəzən qoyur yerə öz qulağını; Dinləyir quyunun *nəm* torpağını (M.Rahim); **HÖYÜŞ** [Tububoyim:] Ana yer höyüşdür!.. (Çəmənzəminli); **İSLAQ** [Aslan bəylə Qəmər] şən qəhqəhələrlə *islaq* otların arasından çiyələk dərib yeyirdilər (A.Şaiq); **NƏMİŞ** Hər yer yumşaqdır, *nəmişdir* (M.Rzaquluzadə); **NƏMLİ** Bu *nəmli* torpaqlar olsa da yerim.. (S.Vurğun); **NƏMNAK** Kuyini xunabeyi-çeşmimlə *nəmnak* eylərəm; Kipriyimlə asitanın gərdini pak eylərəm (M.Ə.Sabir); **RÜTUBƏT** [Səlimə:] Lakin otaq *rütubət* olduğundan, havası dözülməz dərəcədə ağır idi (İ.Əfəndiyev); **RÜTUBƏTLİ** Payızın *rütubətli* havaları başlanmış olduğundan soyuqluq hiss olunurdu (T.Ş.Simurğ); **YAŞ** Yer *yaş* idi (Y.Şirvan); **HÖYÜŞLÜ, NƏMİŞLİ.**

nəmək *bax* duz **1**

nəməkbəhəram *bax* nankor

nəməkbəhəramlıq *bax* nankorluq

nəməkdan *bax* duzqabı

nəmi *bax* anbar

nəmiş *bax* nəmli

nəmişli *bax* nəmli

nəmli *bax* nəm

nəmnak *bax* nəm

namütənahi *bax* sonsuzluq **1**

nənə *bax* ana

nənəlik *bax* analıq **2**

nənni *bax* beşik

nər *bax* dəvə

NƏRD Gündüzlər onlar.. balaca klubunda şahmat, *nərd*, domino oynadı.. (M.İbrahimov); **NƏRDTAXTA** ..dur gedək onlara, həm bir *nərdtaxta* vuraq, həm də bu söhbəti deyək, o da yazsın jurnala (Qantəmir); **ŞEŞ-BEŞ** (*dan.*) [Fətəli:] ..kimi *şeş-beş*, kimi domino, şahmat oynayır (Z.Qarayev).

NƏRDİVAN Taxt-rəvanın dalısından *nərdivanı* götürüb yerə qoydular (M.S.Ordubadi); **MERAC** (*din.*) [Şeyx Sənan:] Bunu insanın ərşə *meracı*; Mən nəyim imdi? Canlı dar ağacı (H.Cavid); **PİLLƏKƏN** (*bax*).

nərdtaxta *bax* nərd

I nərə *bax* nərəbalığı

II nərə *bax* çığırtı

NƏRƏBALIĞI (*zool.*), **NƏRƏ** (*balıq növü*)

NƏRGİZ (*bot.*), **İLANQILINCI** *İlanqılıncı* burada qiymətli çiçək kimi satılırdı. Adını da dəyişdirib *nərgiz* qoyublar (Ə.Vəliyev); **NƏRGİZGÜLÜ** [Səlimə:] Nəhayət, ..qarlar altından baş qaldırmış çox kiçik bir *nərgizgülü* gördük (İ.Əfəndiyev).

nərgizgülü *bax* nərgiz

nəsəb *bax* nəsil

NƏSİHƏT Qızıl Arslan Əbubəkrə bu *nəsihətləri* verəndən sonra Təbrizə göndərdi (M.S.Ordubadi); **İBRƏT** [Ata:] Uşquladan çıxan zaman, hər yeri vurnuxan zaman; El sənə pis baxan zaman, *ibrətin* olmur, olmasın! (M.Ə.Sabir); **MOİZƏ** (*din.*) [Yusif şahın həvəxahları] müfəttinlər ilə müqabil durub nəsihət və *moizəyə* şüru etdilər (M.F.Axundzadə); **ÖYÜD** Görürəm ki, qəhrəmansan, sənə halaldır südüm; Qulağında yaxşı qalsın mənim sənə *öyüdüm* (S.Vurğun); **PƏND** (*köhn.*) Qərəz, ta mən sənə deyim. Əgər mənim *pəndimi* qəbul eləsən yığışdır-püstkələngi və qoy get Xorasana, Türküstana, ya bir özgə yerə (C.Məmmədquluzadə); **VƏZ** Molla Pirqulunun etdiyi *vəzindan* bir neçə söz danışmışıq (C.Məmmədquluzadə).

NƏSİHƏTÇİ (*öyüd, nəsihət verən*) [Hacı Mehdi Sənəmə:] Başımdan ağıl, ovqatımı tatx eləmə, hələ gəlib mənə bir *nəsihətçi* olacaq (Ə.Haqverdiyev), **MÜRŞİD** Gənc Nəsimi hürufilik təriqətinə və Nəiminin parlaq şəxsiyyətinə qəlbən bağlanır və Fəzlullahı özünə *mürşid* qəbul edir (Anar); **NƏSİHƏTVERİCİ** Qızıl Arslan *nəsihətverici* bir surətdə dedi.. (M.S.Ordubadi).

1. NƏSİL Əsrlər, qərinələr gəlib keçir, insan *nəsilləri* dəyişir.. (M.İbrahimov), **ÖVLAD** Qəhrəmandır onun azad *övladı*; Qafqazda məşhurdur onların adı (A.Səhhət); **ZÜRRİYYƏT** [Səlim boy:] ..Mirzonin, budur, saqqalı düşüb qurşağa, amma *zürriyyəti* yoxdur (Ə.Haqverdiyev).

2. NƏSİL [Boxtiyar:] Mənim bütün *nəslim* bəxtiyardır.. (M.Hüseyn); **NƏSƏB** Kərəm gəzdi lələsinə Əslini; Axtarmadı *nəsəbini*, əslini (Aşıq Hüseyn Cavan); **FAMİLİYA** Şükür öyrəndi ki, bu kənddə bir-birinə qanlı iki *familiya* vardır (S.Hüseyn); **SÜLALƏ** Dərvişlik peşəsinin əsasını səfəvilər *sülaləsindən* olan İran padşahı II Abbas qoymuşdu (Ə.Haqverdiyev); **TİRƏ** El bilir ki, onların törəməsi ilə bizim *tirə* əmiuşağı olublar (S.Rəhimov).

nəsim *bax* yel **I**

nəsnə *bax* şey

naş *bax* meyit

naşə *bax* kef **1**, sevinc

naşədar *bax* nəşəli **1**

1. NƏŞƏLƏNMƏK [Əbülhəsən boy:] Hələ dünyanın şadlığından ümidini kəsən bəzi xəstə və zəif ürəklər də vardır ki, onlar daima ağlamaqdan *naşələnir*, əyloncələrdən deyil, yas evlərində zövq aramağa çalışır (M.S.Ordubadi); **HƏZZ ALMAQ** Könül isə heç nəyə əhəmiyyət vermədən fəhlə qadınlarla söhbətdən *həzz alırdı* (X.Hasilova), **LƏZZƏT ALMAQ** Məhzun bir qəlb, şəhər günəşinin aləmə boxş etdiyi lətafətdən ziyadə, qürubun üfüqlər üzərində təsvir etdiyi məhzun lövhələrdən *ləzzət alır* (M.S.Ordubadi); **ZÖVQ ALMAQ** [Əbülhəsən boy:] İndi növbət sizindir, hər kəs nədən *zövq alırsa*, onu burada söyləməlidir (M.S.Ordubadi); **XUMARLANMAQ, ŞADLANMAQ** (*bax*).

2. nəşələnmək *bax* keflənmək

NƏŞƏLİ (*müxtəlif mənalarda*) Həmin gecə Zoki çox erkən qayıtdı. Həmişəki kimi *nəşəli* görünürdü (A.Şaiq); **NƏŞƏDAR** [Səba:] Çünki mənim musiqidən *nəşədar* olan səsim, qəmginlərin qulağında bayquş səsindən daha qəmlidir (M.S.Ordubadi); **ŞƏN** (*bax*).

2. nəşəli *bax* sərxoş

nəşriyyat *bax* mətbəə

nəşriyyatçı *bax* mətbəəçi

1. NƏTİCƏ, EPİLOQ (*bax*), **XÜLASƏ, YEKUN**

2. nəticə *bax* son

NƏVAZİŞ [Rəhim:] Qara gözlərinə isə, həsrət qalmışdım. Nəvaziş axtardım (M.Hüseyn); **OXŞAMA** İçindən *oxşama* səsi ucaldı. Şərəfnisə gəlinin oxşayırdı (Ə.Cəfərzadə); **NAZLAMA, ƏZİZLƏMƏ, OXŞAYIŞ.**

nəvazişkar *bax* nəvazişli

NƏVAZİŞLİ (*məhribanlıq edən*) [Muradın] sönmüş ruhuna yalnız Nigarın *nəvazişli* əli bir sıcaqlıq verə bilərdi (S.Hüseyn); **İLIQ** O, Zərifin *iliq*, xoşhallandırıcı baxışları altında yeriyirdi (Ə.Kərim); **MEHRİBAN** Mən səni çox *mehriban*, səmimi dindirirəm; Sən qırırsan könlümü bəzən, bəs bu nədəndir? (M.Rahim); **NƏVAZİŞKAR** [Oqtay:] O zaman mən də salona baxınca munis çöhrələr, *nəvazişkar* oynaq afətlər görəcəyəm ki, şux gözlərilə məni oxşayır (C.Cabbarlı).

nəzakət *bax* **1.** qanacaq **1**; tərbiyə **1**; **2.** zəriflik, incəlik **1**

nəzakətli *bax* **1.** qanacaqlı, tərbiyəli; **2.** zərif, incə **1**

nəzakətsiz *bax* qanacaqsız, tərbiyəsiz

NƏZARƏT (*müxtəlif mənalarda*) O, şəhər və rayonları ciddi *nəzarət* altına alarkən, əməkçilərin ümumi iclası Keşlə düzündə baş tutdu (M.S.Ordubadi); **KONTROL** [Bənövşə Vahidə:] Sənə ictimai *kontrol* yox, ictimai kötək lazımdır (M.İbrahimov); **TƏFTİŞ** Bürcəliyev açılmış qapıdan *təftiş* heyəti işləyən otağı dinlədi (S.Rəhimov); **YOXLAMA** [Zeyqəmov:] ..Böyük *yoxlama* gedir. Özü də mərkəzdəndir. Eşitdiyimə görə aftaritetni komissiyadır... (Ə.İldırımoğlu).

1. NƏZARƏTÇİ, KONTROLÇU, KONTROLYOR, MÜFƏTTİŞ (*bax*), **TƏFTİŞÇİ**

2. nəzarətçi *bax* gözətçi

NƏZARƏTSİZ Bostanı *nəzarətsiz* qoymağa Qaranın ürəyi gəlmirdi (Ə.Əbülhəsən); **BAXIMSIZ** Professor Şəndə Şamilova bu gün də çox ağır operasiya elədiyinə görə, halsız xəstəni *baxımsız* qoyub evə dönmədi (B.Bayramov); **BAŞLI-BAŞINA** (*dan.*) [Alo:] Elə bilirdi ki, bu şeylər hamısı bu dünyada *başlı-başınadır*, ya da ki, bir içim sudur (S.Rəhimov); **KONTROLSUZ.**

nəzər *bax* **1.** baxış **1**; **2.** bədbəxtlik **1**

NƏZİR Kəbla Şirin vəd etdiyi *nəziri* vermir (Çəmənzəminli); **QURBAN** [Oddamdı:] ..kim nə bacarırsa, nə qədər bacarırsa, nə qədər çox bacarırsa, müqəddəs adlara *qurban* gətirin (C.Cabbarlı); **NƏZİR-NİYAZ** [Məsmə:] Bütün qonşu kəndlərdən kor Seyid üçün *nəzir-niyaz* gəlirdi (S.Hüseyn).

nəzir-niyaz *bax* nəzir

nəzm *bax* şeir

nicat *bax* qurtuluş

nida *bax* səs **1**

NİFAQ (*iki tərəf arasında olan çəkişmə*) Yazıq Tamam bizim ailəyə öyrəşdiyindən ayrılmaq istəməyirmiş, lakin əmioğullarının aralarına *nifaq* düşməsinə səbəb olmamaq üçün anam onun getməyinə izin verir (S.S.Axundov); **İKİTİRƏLİK** Kənddə *ikitirəlik*; Bir də ki, qarğaşalıq; Sahib, Pirəli etdi; Açıq-aydın paşalıq (M.Rahim).

1. NİFRƏT, İKRAH [Qəndab:] Mən ona [Şirinə] baxdıqca sanki bu istehza *nifrətə* çevrilir, əminəm zərə gəlmiş bir adamın *ikrahını* ifadə edirdi (B.Bayramov); **TƏNƏFFÜR** (*ərz.*) [Sitarə:] Ah, mən bu adamı artıq görməyirəm, isminəm belə *tənəffür* edərəm yenə də sevirəm (A.Şaiq).

2. nifrət *bax* kin; lənət

nifrin *bax* qarğış

nigah *bax* baxış **1**

nigahban *bax* gözətçi

NİGARAN [Umur baba:] Bir şey tapmadılar, *nigaran*, səksəkə ilə çıxıb getdilər (H.Abbaszadə); **MÜZTƏRİB** Abdulla kişi *müztərib* və qəmgin səslə: – Qızı Həmzəyə verdilər, – dedi (M.Hüseyn); **NARAHAT** (*bax*).

NİGARANÇILIQ. NARAHATÇILIQ

nihal *bax* fidan

NİKAH Yalnız bunları qət etdikdən sonra *nikaha* razılıq verdilər (M.İbrahimov); **EVLƏNMƏ** O günün sabahı Şərifzadə və Qəmər xanımın şahidliyi ilə Zeynalın Mehribanla... *evlənməsi* zaqsda qeyd olundu (S.Hüseyn); **ƏQD** (*köhn.*) Filosof deyir: "*Əqdnikah*" vaxtında özünüzə sual verin, görün evləndiyiniz arvadla lap qocalanadək söhbət eləməyə qadir ola biləcəksinizmi?.. (Çəmənzəminli); **İZDİVAC** (*köhn.*) O, Qızıl Arslanın bu izdivacdan razı qalmayaraq toya düşmən gözü ilə baxmasından qorxurdu (M.S.Ordubadi); **KƏBİN** *Kəbin* əhvalatını bitirməkdən ötrü əvvəlcə mənim bu əqdim... qeyd olunmalı idi (S.S.Axundov).

NİKAHLANMAQ. KƏBİNİ KƏSİLMƏK

NİKAHLI, EVLİ, KƏBİNLİ

NİKAHSIZ, KƏBİNSİZ

nikbət *bax* badbəxtlik 1

NİKBİN *Nikbin* hisslər ürəyimi bürüyürdü (Çəmənzəminli); **OPTİMİST** Pyesdən sonra Qorki *optimist* adı ilə vidalaşa bilər (Çəmənzəminli).

NİKBİNLİK Onlar tez və asan qələbə çalır, çoxlu hakimanə sözlər danışır, nəsihət edir və sadəlövhəsinə yüngül *nikbinlik* göstərirlər (M.Arif); **OPTİMİZM** Firəngizdəki sakitlik, *optimizm* anamı toxtadırdı (B.Bayramov); **OPTİMİSTLİK.**

niqab *bax* rübəndi

niqablı *bax* rübəndli

NİMÇƏ [Əbülhəsən bəy:] Sonra bir *nimçə* xörək bəllərində, aşpazlar da getdi (M.S.Ordubadi); **BOŞQAB** [Sənəm:] Səni alan köpəkoğlu bir *boşqab* xörəksə istəyəcək, ya yox? (M.İbrahimov); **KASA** [Sənəm:] Heç olmasa *kasanı* sinidən ayır (M.İbrahimov); **MASQURA** *Masqurada* bir az pendir, bir az doşab vardı (C.Cabbarlı).

NİMDAŞ (*geyilmiş paltar və s.*) [Süreyya:] Ayıb deyil mən camaat içinə *nimdaş* paltarda çıxım? (Ə.Qasımov); **KÖHNƏ** [Aydın:] Anlayıram. Çoxusu da onun üçün örtürsən ki, paltarların *köhnədir* (C.Cabbarlı).

niş *bax* neştər 1

1. NİŞAN, AD, ADAX, DEYİK

2. nişan *bax* 1. nişanə; 2. nişangah; 3. medal

NİŞANBAZLIQ Mehtər Zamanın dünyə vecinə deyildi, olındəki dəsmalında sovqatı, ayağında çarığı şəhərin yavıqlığındakı kəndə *nişanbazlığa* gedirdi.. (Çəmənzəminli); **ADAXLIBAZLIQ** [Məşədi İbad:] Mən qorxdum *adaxlıbazlığa* gecə gələm (Ü.Hacıbəyov).

nişançı *bax* atıcı

NİŞANƏ Göyhər özünü küçəyə atdı, qızdan bir *nişanə* görmədi (Çəmənzəminli); **ƏSƏR, ƏLAMƏT** Onu səsləyib, etdim sonra yanıma diqqət; Heykəldən qalmayıbdır gördüm *əsər, əlamət* (M.Rahim); **ƏSƏRƏLAMƏT** İndi o meynədən *əsər-əlamət* belə qalmayıb (H.Abbaszadə); **İZ** Sinəmdə yer salıb o gündən bəri; Amansız övçunun yara *izləri* (M.Rahim); **NİŞAN** Əzabdan, iş-gəncədən, zindandan, köləlikdən; Qalmasın Yer üzündə bir *nişan* köləlikdən (S.Rüstəm).

NİŞANGAH, HƏDƏF, NİŞAN.

1. NİŞANLAMAQ [Dilarə:] Bəlkə ona elçi-zad getmişdik, *nişanlamışdıq* bəlkə? (Anar); **ADAXLAMAQ** [Rza:] Üç il olardı ki, atamgil onu mənə *adaxlamağa* hazırlaşırdılar.. (M.İbrahimov); **NİŞANLANDIRMAQ** [Qəndab:] Kənd camaatı mühəndisə xalam qızını çoxdan *nişanlandırıb*, çoxdan evləndirmişdi (B.Bayramov); **ADAXLANDIRMAQ, AD ELƏMƏK, NİŞAN TAXMAQ, ÜZÜK TAXMAQ.**

2. NİŞANLAMAQ, İŞARƏ QOYMAQ, NİŞAN QOYMAQ

3. nişanlamaq *bax* tuşlamaq

nişanlandırmaq *bax* nişanlamaq 1

NİŞANLANMAQ [Qəndab:] Çingiz qaçadan utandığım üçün ona Məzahirlə *nişanlanmağınız* barədə heç bir söz deməmişdim (B.Bayramov); **ADAXLANMAQ** Bu il *adaxlanmaq* və toy haqqında heç danışıq da ola bilməz (M.İbrahimov); **AD OLMAQ** [Şahbaz bəy:] Bəs nə üçün evlənmirsən? Özün bilirsən ki, o sənə *ad olubdur* (S.S.Axundov); **NİŞAN TAXILMAQ/QOYULMAQ, ÜZÜK TAXILMAQ.**

NİŞANLI [Həmidə qızına:] Veriliş qurtaran kimi *nişanlın* maşın tutub gələcək (Anar); **ADAXLI** Hamı bilirdi ki, o, Qəzənfərin *adaxlısıdır* (S.Vəliyev); **DEYİKLİ** Qız elə əvvəldən oğlumun *deyiklisiydi* (M.İbrahimov); **NAMİZƏD** (*köhn.*) [Cavad xan Fərhada:] İndi burada sən mənə namussuz deyirsən, namussuz sonsən ki, *namizədini* aparmışam (C.Cabbarlı).

NİŞASTA, KRAXMAL

NİŞASTALAMAQ, KRAXMALLAMAQ

NİŞASTALI, KRAXMALLI

1. NİTQ, DİL, DANIŞIQ (*danışma tərzi*)

2. NİTQ, ÇIXIŞ, MƏRUZƏ

NİYƏ, NƏ SƏBƏBƏ GÖRƏ, NƏ ÜÇÜN, NƏDƏN, NƏDƏN ÖTRÜ, NƏYƏ GÖRƏ

1. NİYYƏT, QƏSD, QƏRƏZ

2. niyyət *bax* arzu, məqsəd

1. NİZAM ..Hacı Məcid ofəndi Cümə məscid mədrəsəsinin *nizamını* pozdu (C.Məmmədquluzadə); **İNTİZAM** [Oğlan:] Bizim evimizdə *intizam* və ölçü altına girə biləcək bir şey yoxdur (M.S.Ordubadi); **QAYDA, MİZAN, TƏRTİB, ÜSUL.**

2. NİZAM, CƏRGƏ, SIRA, SƏF

NİZAM-İNTİZAM, QAYDA-QANUN

Axşamlar *nizam-intizama, qayda-qanuna* nəzarət etmək üçün sirkin qabağında milis nəfərləri gəzişir, növbə çəkirdilər (H.Abbaszadə); **NİZAM.**

nizamiyyə *bax* kazarma

1. NİZAMSIZ Goldiyev ay işığında *nizamsız*, adda-budda tikilmiş kənd evlərinin arasından.. keçdi (Mir Cəlal); **BİNİZAM** [Connətoli ağa:] ..amma onunla belə geno bir belə *binizam* ev olmaz (N.Vəzirov); **QAYDASIZ** Məhsulun *qaydasız* yığılması kolxoza böyük zərər vurur (Ə.Vəliyev); **PƏRTÖV** (*köhn.*), **SƏLİQƏSİZ.**

2. NİZAMSIZ *Nizamsız* ordunun mənası varmı? (S.Vurğun); **PƏRAKƏNDƏ** Qoşun dəstə-dəstə, *pərakəndə* bir halda gəlib keçirdi (Çəmənzəminli); **DAĞINIQ, İNTİZAMSIZ, QEYRİ-MÜNTƏZƏM.**

1. NİZAMSIZLIQ Və məhz onda arvadın danışığında, hərəkətində, *nizamsızlıq*, qeyri-adilik zühur elədi (Ə.Hacızadə); **BİƏNDAZƏLİK** ..hamısının evini tarac etdilər, ənva-ənva *biəndazəlik* və şərarət əmələ gətirdilər (M.F.Axundzadə); **DAĞINIQLIQ, İNTİZAMSIZLIQ, QAYDASIZLIQ, QEYRİ-MÜNTƏZƏMLİK, PƏRAKƏNDƏLİK.**

2. nizamsızlıq *bax* özbaşınalıq, hərcmərclik

NİZƏ ..başlar *nizəyə* taxılacaq, qan su yerinə axacaqdı (Çəmənzəminli); **CİDA** (*kl.əd.*) Tikmə nəmazını gözümə bir *cida* kimi; Göstər müamilədəki təyinin, ey əmu! (M.Ə.Sabir); **MİZRAQ** [Elxan:] Solmaz, öksüz könüllər tanısı, Solmaz, uğrunda gəzməmiş bir dağ, çarpışmamış bir meydan buraxmayan, öz sevimli qardaşının belə *mizrağına* köks gərən sevinci bir könül səndən nə istəyə bilər (C.Cabbarlı).

nobat *bax* növbə

NOXTA (*atda*) Əmiraslan Nurəddini ata mindirib *noxtanın* ucundan yapışdı (S.S.Axundov); **OVSAR** (*dəvədə*) Bu çinarın dövrəsi *ovsarları* bir-birinə bağlanan dəvə karvanlarının, at, ulaqla yükdaşıyan çarvadarların düşərgə yeri olmuşdu (S.Rəhimov).

NOXTALAMAQ (*ata aid*) [Alo] yabını *noxtalayıb* yekə toxum xurcununun yanına çəkdi (S.Rəhimov); **OVSARLAMAQ** (*də-*

vəyə aid) Dəvəni əvvəl *oyşarla*, sonra Allaha ismarla (Ata. sözü).

NORMAL, ADİ, TƏBİİ
NOVATOR, YENİLİKÇİ
NOVATORLUQ, YENİLİKÇİLİK
NOVRUZGÜLÜ, XƏDİCƏGÜLÜ

NÖKƏR [Aşıq Vəli:] Hər nə buyurursunuz *nökərinizəm* Vəli can ilən-baş ilən qulluğunuzda hazırdır (N.Vəzirov); **GƏDA** (*dan.*) Rəhmə gəlib, padşahım, deməzsən; Harda qalıb bu dərgahın *gədası* (Q.Zakir); **GƏDƏ** (*dan.*) [Sara bibi:] [Zeynəbin] atası Yumurta Heydər kim idi? Murad bəyin qapısının *gədəsi* deyilmiydi? (Qantəmir); **LAKEY** (*köhn.*) Burjuaziyanın *lakeyləri* Bakıda aclığın müdhiş əllərini Sovet hökumətinin əleyhinə qaldırmaq vaxtı yetişdiyini hiss etdi (M.S.Ordubadi); **XİDMƏTÇİ** (*bax*).

1. NÖQSAN (*çatışmayan cəhət*) Qeysər çirkinliyi özü üçün *nöqsan* saymır, hətta qadınlarla bu xüsusda söhbət edərkən, heç bir işdə gözəllərdən geri qalmadığını söyləyirdi (M.Hüseyn); **AYIB** Gərdənində, qamətində *ayıb* yox (M.P.Vaqif); **EYİB** Allaha şükür, lalə yanağında *eyib* yox; Dişində, dəhanında, dodağında *eyib* yox (M.P.Vaqif); **ƏSKİKLİK** [Əkbər] özündə bir *əskiklik* duyurdu (Mir Cəlal); **İRAD** O qızışdıqca öz-özünü alovlandırırdı, baş nazirin *iradlarına* qarşı çıxıb düşünə döyməyindən qalmırdı... (S.Rəhimov); **QÜSUR** Xoş saatda xoş gəlibdi cahana; Yoxdu gözəlliyə *qüsur*, bəhana.. (Aşıq Ələsgər); **QƏBAHƏT.**

2. nöqsan *bax* səhv

NÖQSANLI, EYİBLİ, QÜSURLU, NAQİS, SƏHVLİ, ƏSKİK
NÖQSANSIZ, BİNÖQSAN, EYİBSİZ, QÜSURSUZ, SƏHVSİZ

nöqteyi-nəzər *bax* fikir **1**

1. NÖMRƏ Birinci *nömrəni* hələlikdə, gələcəyə əl uzatmaq istəməyib bərayi-ehtiyat artıq yox, ancaq min ədəd çap etməyi qərara aldıq (C.Məmmədquluzadə); **ŞÜMARƏ** (*köhn.*) Təqlili-məxaric babətindən necə ki, keçən *şümarədə* ərz olunmuşdu, maliyyə idarəsindən sonra növbət nizamiyyəyə yetişəcəkdir.. (C.Məmmədquluzadə); **SAY.**

2. nömrə *bax* hoqqa **1 1**; hiylə

1. NÖV Tağı əminin iki *növ* ov quşu olardı (S.S.Axundov); **CÜR** Axırıncı çərşənbə gecəsi yeddi növ (*cür*) meyvə qurusu alıb boşqablara qoyur və dövrəsində kiçik şamlar yandırırdılar (A.Şaiq); **DÜRLÜ** [Bəhram:] Yox, mənim ürəyimdə başqa *dürlü* hisslər oyanır (C.Cabbarlı); **QƏBİL** Bizim mübarizə apardığımız əmir də bu *qəbil* adamlardandır (M.S.Ordubadi); **QİSİM/QİSM** Məlum şeydir ki, burada İsmayıl bəyin cavabı iki *qisim* ola bilərdi.. (C.Məmmədquluzadə); [Sona:] Mənco, inam məsələsində adamlar beş *qism* olur (N.Nərimanov).

2. növ *bax* çeşid

3. növ *bax* cins **2**

NÖVBƏ/NÖVBƏT [Vəli:] Getməliyik, *növbə* çatıb Azərbaycana (M.İbrahimov); [Əbülhəsən bəy:] ..Xoşu xanımla Hüsni xanımın siğə *növbəti* hələ yetişməmişdi (M.S.Ordubadi); **NOBAT** [Zeynal:] Biri deyir, *su nobatındır*, gələ bilmənəm, biri deyir dəyirmana dən aparacağam (C.Məmmədquluzadə); **SIRA.**

növbədənkənar *bax* fövqəladə **2**
növbənöv *bax* cürbəcür
növcavan *bax* cavan
növhə *bax* **1.** mərsiyə, ağı **1**
növhəxan *bax* mərsiyəxan
növ-növ *bax* cürbəcür
növrəstə *bax* yeniyetmə
nur *bax* işıq
nurlandırmaq *bax* işıqlandırmaq
nurlanmaq *bax* işıqlanmaq **1**
nurlu *bax* işıqlı
nursuz *bax* işıqsız **1**
nuş *bax* **1.** şirin; **2.** içki
nüdrətən *bax* **1.** arabir; **2.** gözlənmədən

1. NÜFUZ, AVTORİTET [Təhməz] bilirdi ki, məsələ Kəlbiyev üçün *nüfuz*, prestij, avtoritet məsələsidir (M.İbrahimov:

ZABİTƏ Xanporinin *zabitəsi* əksilir, inadı azalırdı (Ə.Voliyev).

2. nüfuz *bax* hörmət; ad-san

nüfuzlu *bax* hörmətli
nüfuzsuz *bax* hörmətsiz
nümayan *bax* aşkar

NÜMAYƏNDƏ Qızıl Arslanın bu sözündən sonra xəlifə öz *nümayəndələrini* göndərib Qızıl Arslanın nə şəraitlə sülh etmək istədiyini soruşdu (M.S.Ordubadi); **ELÇİ** [Allahyar] yuxarı dağ kəndlərinə getmiş və orada Mələyi görüb *elçi* düşmüşdü (İ.Şıxlı); **MÜMƏSSİL** (*köhn.*) Süleyman paşanın *müməssili* uzun-uzadı danışdı (Çəmənzəminli).

1. NÜMUNƏ [Adilə:] Gərək rayonun rəhbər işçilərinin qohumları daha yaxşı, daha təmiz işləsinlər, başqalarına *nümunə* olsunlar (Ə.Qasımov); **GÖRK** [Cəfərqulu:] O da yazır ki, hamının qabağında döyə-döyə öldürün, qoyun başqasına *görk* olsun (H.Mehdiyev); **MİSAL** Son bizim öz həyatımızı *misal* götürə bilərsən (M.S.Ordubadi); **ÖRNƏK** Ana tərbiyənin nə dərəcədə vacib olmağını gərək düşünsün. Özünü islah edib övladına *örnək* (sərnəşq) etsin (Çəmənzəminli); **TİMSAL** ..qüdrətin *timsalısan* son; Ölkənin dövləti, camalısan sən (N.Rəfibəyli).

2. NÜMUNƏ (*əyani misal, canlı şahid*) O zaman Tiflisdə Baş Maarif şöbəsinin tapşırığı ilə gürcü.. və Azərbaycan müəllimləri tərəfindən rusca yazılmış xalq ədəbiyyatı *nümunələri* kitab şəklində nəşr edilmişdi (A.Şaiq); **MİSAL, TİMSAL.**

nüsxə *bax* **1.** resept; **2.** dono **1**
nüsxəbənd *bax* reseptçi
nütfə *bax* sperma

Oo

1. OBA (*bir neçə evdən ibarət kiçik kənd*) [Divanbəyi:] Oğlan, *obanız* buradan nə qədər olar? (M.F.Axundzadə); **ŞENLİK** ...ilk nəfərləri *şenliyə* girən saata qədər onun alveri bütün kəndi öz pəncəsi altında əzirdi (M.Hüseyn); **KƏND** (*bax*).

2. oba *bax* köçəbə

obaşdan *bax* tezdən, alaqaranlıq

obraz *bax* surət I

OBRAZLI, CANLI, İFADƏLİ

1. OBYEKTİV [İmamqulu:] Gəlin *obyektiv* səbəblər axtarmayaq (M.İbrahimov); **REAL** Aşıq Ələsgər, Qaçaq Nəbi və Həcər isə, dastan və poeziya personajları olmaqla bərabər, .. dövrümüzün yaxın bir mənzilinə çatmış *real* şəxsiyyətdir (Anar).

2. obyektiv *bax* qərəzsiz

ocaq *bax* pir I

OD, ATƏŞ Sinəm başdan-başa *oddur, atəşdir*. Ömrüm səadətə əvvəldən eşdir (M.Rahim); **NAR** (*kl.ad.*) Arsız, qəmsiz nə gününə gülürsən?! Yandırarlar səni *narın* içində (Aşıq Ələsgər).

oda *bax* otaq

odlamaq *bax* alışdırmaq I

odlanmaq *bax* alışmaq I

1. ODLU, ALOVLU, ATƏŞİN (*odu olan*)

2. odlu *bax* atəşin I

OFİS, OTAQ, İDARƏ, KABİNET

ofisiant *bax* xörəkpaylayan

oğlaq *bax* çəpiş

OĞLAN [Divanbəyi:] *Oğlan*, mənim sənə yazığım gəlir (M.F.Axundzadə); **GƏDƏ** (*dan.*) [Naçalnik:] *A gədə*, doğrudan'de, səni buraxaram (M.F.Axundzadə).

oğraş *bax* oclaf

OĞRU *Oğrular* da qonşu evdən keçib, damın üstündə dolaşır, aşağı enməyə məqam gözləyir (Çəmənzəminli); **CİBGİR** (*cibdən oğurluq edən*) Böyüklərdən eşitdiklərimə əsasən oğrulara, yaranlara, *cibgirlərə*, adam öldürənlərə açıq nifrətlə baxardılar (M.İbrahimov); **ƏLİƏYRİ** (*dan.*) [Qarovulçu:] Bir-iki nəfər *əliəyri* ilə ələqəyə girib gecələr dəyirmandan unu tay-tay daşıyıb aparırmışlar (H.Abbaszadə); **ƏLİUZUN** [Mişa Homidə:] Neynək, sizdə də inqilab qələbə çalar, *əliuzunların* qollarını qanırıb dallarında möhkəm bağlayarlar (H.Abbaszadə); **ƏYYAR** *Əyyarlar* başladılar Dəmirçioğlunun üstünə bihuşdarı səpməyə ("Koroğlu"); **XIRSIZ** Sizcə *xırsızlara* lazımsa cəza; Dolmuşdur həp dünya; Öylə *xırsız* bilirmi; çaldığın milyonlarla.. (H.Cavid); **XƏSPUŞ** (*xırda oğru*) Qadın onu görmüşdü, gözdən qoymurdu, yanındakılara xəbərdarlıq elədi. "Ağız, ayıq olun, bu gedə *xəspuşa* oxşayır, bayaqdan buralarda gir-gir girlənir" (H.Abbaszadə).

OĞUL [Cabbar bəy:] Cahangir bəy mənim tamam var-yoxumu əlimdən alsın, başına dönüm, məni o namərd *oğlumdan* xilas etsin.. (N.Vəzirov); **GƏDƏ** (*dan.*) [Əbdürrəhim:] Xanım, doğrudur, mən özüm İskəndər bəyin *gədəsini* gördüm (N.Vəzirov); **İBN** (*köhn.*) [Şeyx Sənan:] *İbn* Məryəm asıldı dərə, fəqət, onu tənrarə varmıdır həzətə? (H.Cavid); **PƏSƏR** (*kl.ad.*) Bihörmət olubdur pədərə *pəsər* (Q.Zakir).

OĞURLAMAQ Mən... Mən onu özündən; *Oğurlamaq* istədim; O məni oğurladı (B.Vahabzadə); **APARMAQ** [Pristav:] Bu kasıb bədbəxtin öküzünü *aparıbsan*, binəvanı əli qoynunda qoyubsan (Ə.Haqverdiyev); **CİBLƏMƏK** (*cibdən oğurlamaq*) [Zalxa:] ..Mirzə Hüseyn yalançısan, oğrusan, iki min beş yüz manatı özün *cibləmisən* (S.Rəhman); **ÇALMAQ** (*dan.*) [Otel sahibi:] Üç min manat pulla bir qızıl saatını *çalıb* getmişdi (M.S.Ordubadi); **ÇIRPIŞDIRMAQ** [Aslan:] ..Sonra *çırpışdıracağam* (S.Rəhman); **QAPMAQ** Dedi: – Yorğan üçün imiş bu talaş; Yorğanı *qapdılar*, kəsildi savaş (M.Ə.Sabir); **VURMAQ** (*məc., dan.*) [Əhməd:] Sandıqçanı *vurmuşam*, içi dolu pul (N.Nərimanov).

OĞURLUQ ..o məni apardı inəyi göstərsin və onun *oğurluğu* barəsində məlumat versin (C.Məmmədquluzadə); **ƏLİƏYRİLİK** Sambalovun özünü *əliəyrilik* üstündə

işdən çıxartdılar (S.Rəhimov); **ƏLİUZUNLUQ** Demirəm, bəlkə bu axır vaxtlarda onlar bir qolçomaq tayfa ilə sayuz olduqlarına görə Kilid kəndinə *əliuzunluq* eləyələr (Ə.Qəmküsar); **ƏYYARLIQ** [Hacı Rəcəbli:] Bu qəzvinli Şeydadır ki, gündüz sərraflıq elər, gecə *əyyarlıq* (M.F.Axundzadə); **XIRSIZLIQ** Gördüyümüz bu hərif *xırsızlıqlar* yapardı (M.Rahim).

1. OX (*yaydan atılan ox və müxtəlif mənalarda*) Üç yelokli qayım *oxlar* atılırdı.. (Anar); **XƏDƏNG** (*kl.əd.*) Müjganın *xədəngi* bağrımı deşdi; Tutginən qolumdan, ürəyim keçdi.. (Molla Cümə); **TİR** (*kl.əd.*) Versəydi əgər dəstinə *tir* ilə kamanın; Seyd olmaz idim, mən doxi seydəfkən olurdun (S.Ə.Şirvani).

2. OX (*coğr.*), **MEHVƏR**

OXLOV (*xəmir yaymaq üçün alət*) Nabat *oxlovu* Köçərinin yanına çəkdi.. (B.Bayramov); **GAR** (*məh.*) *Garnan* bozdamac, çürək pişirmekçündur (ADDL); **VƏRDƏNƏ** Miyandarın işarəsinə riayət edərək, gənclər bir tərəfi nazik olan, *vərdənəyə* bənzər millərdən yapışıb oynatmağa başladılar (Çəmənzəminli).

I OXŞAMAQ Redaksiya rəssamı fotoşəkli çox qaşıyıb düzəliş etdiyi üçün silah özünə az *oxşayırdı* (H.Abbaszadə); **BƏNZƏMƏK** Bu səs, çağırışdan artıq oks-sodaya *bənzəyirdi* (M.Hüseyn); **ÇƏKMƏK** (*məc., dan.*) [Göyərçin:] Bunlar qalsa Cəbi də bunlara oxşayacaq. O, Safo babasına *çəkəcək* (S.Rəhimov); **EYNİLƏŞMƏK, BİR CÜR OLMAQ.**

II OXŞAMAQ [Aslanın] belə kövrəldiyini göran Gilo arvad nəvəsini qucağına alıb.. *oxşamağa* başladı (Ə.Vəliyev); **ƏZİZLƏMƏK** Bir-birinizi *əzizləyirsiniz*... (İ.Əfəndiyev); **NAZI İLƏ OYNAMAQ** [Güləndam:] O ata-ana ki uşağın *nazı ilə oynamır*, balaca cızığından çıxdı, qapazı vurur başına (H.Abbaszadə); **NAZLAMAQ** Üstünə bəzəkli yumşaq taftadan; Alafa çəkərdi, *nazlardı* səni (R.Rza); **NƏVAZİŞ ETMƏK** *Nəvaziş eylədim*, çox tutdum dilo; Əlimi çəkəndə o qaçdı məndən.. (H.Billuri); **SEVMƏK** Həqiqət ər və arvad Bahadıra nəinki bir eyib tapmırdılar, hətta onu *sevirdilər* (N.Nərimanov).

III oxşamaq *bax* sığallamaq

OXŞAR Yanılmaram, söyləsən çox qıza *oxşarın* var (M.Rahim); **BƏNZƏR** Sənin *bənzərin* ancaq sadə bir həyat olar (M.Rahim); **BƏRABƏR** Cümlə kəsdən artıq, *bərabəri* yox (M.P.Vaqif); **MİSL** [Hacı Murad:] Deyir ki, gorək elo toy eləyəm ki, *misli* bu şəhərimizdə olmamış ola (S.S.Axundov); **UYĞUN** (*bax*).

OXŞARLIQ *Oxşarlıq* düşmüşdü dünya payıma; *Oxşarlıq* üstündə qurdum işimi (S.Tahir); **BƏNZƏRLİK** Ona baxdıqca qürurlanıram; insan olduğuma; Həm kainata *bənzərliyimə;* həm quma.. (R.Rza); **BƏNZƏYİŞ** Doğrudan da, bir az övvol Elçəran oxuduğu o nəğmə ilə bülbülün nəğməsi arasında nə böyük bir *bənzəyiş* vardı?! (M.Rzaquluzadə); **EYNİYYƏT** Qoy bir *eyniyyəti* mən salım yada (M.Rahim); **EYNİLİK** Lakin yelləncək sürətlə qalxıb endikcə Veysin fikirlərində də elə bil *eynilik* artırdı (Ə.Əbülhəsən); **ŞƏBAHƏT** (*köhn.*) [Sitaro:] Zira bilsəniz Cavadano qədər *şəbahət* var idi (A.Şaiq); **MÜŞABİƏT** Füzuli Şah dağı, mən kiçik təpə; Varmı aramızda bir *müşabiət?..* (M.Rahim); **OXŞAMA.**

OXŞATMAQ Mən ürəkdən vurulmuşam bir qıza; *Oxşatmayın*, gəlin onu ulduza (M.Rahim); **BƏNZƏTMƏK** Bəziləri Naərani əbədi həyat bəxş edən ağaca *bənzədir* (Çəmənzəminli); **EYNİLƏŞDİRMƏK.**

oxu *bax* qiraət

OXUCU (*oxu ilə məşğul olan*) Bunu balta səsi sanma *oxucum!* O, yerin altına eyləyir hücum (M.Rahim); **QARE** (*köhn.*) ...Niyo bəs böylə bərəldirsən, a *qare*, gözünü; Yoxsa bu ayinədə əyri görürsən özünü?! (M.Ə.Sabir); **QİRAƏTÇİ** Məktəbimizin idman zalı böyük idi, bayram şənliyi orada keçirilirdi. Əvvəlcə musiqiçilər, *qiraətçilər* çıxdılar (H.Abbaszadə); **MÜTALİƏÇİ** Məmun isə ehtiraslı *mütaliəçi* idi (Ə.Məmmədxanlı); **OXUYAN** Bu təsəvvürdə olan *oxuyanlar* az deyil (N.Nərimanov).

1. OXUMAQ [Qəndab:] Çoxlu kitab *oxuyub* şirin-şirin danışdığımı, fərasətli poçtalyon olduğumu təriflədilər (B.Bayramov); **QİRAƏT ETMƏK** [Molla:] Səbahdan xudmani *qiraət* edərik (S.Rəhimov); **MÜTALİƏ ETMƏK** [Kamal] xüsusən neft quyularının səmərəli istismar üsullarından danışan kitabçaları yığıb saxlayır, ayrıca, diqqətlə *mütaliə edirdi* (M.İbrahimov).

2. OXUMAQ [Çocuqlar] əlifbadan başlayaraq yeddi il burada *oxuyurlar* (Çəmənzəminli); **TƏHSİL ALMAQ** [Gənc:] Orada bir neçə ilə *təhsil alıb* həkim olacağım, vətənim üçün mənfəətli bir üzv olacağam (S.S.Axundov); **TƏHSİL GÖRMƏK** Burada beş min çocuq *təhsil görür* (Çəmənzəminli).

3. OXUMAQ (*quşlar haqqında*) ..Günəş doğanda kənd bağlarında quşlar *oxumurdu* (Ə.Məmmədxanlı); **CƏH-CƏH VURMAQ** Quşlar, quşlar, a quşlar, Qaranquşlar, a quşlar, *Cəh-cəh vurun* burada.. (A.Şaiq); **ÖTMƏK** Bülbül cəh-cəh vurub gəlirdi dilə; *Ötürdü* saflığı o duya-duya (Ə.Kürçaylı); **ÖTÜŞMƏK** Gülüşür pəmbə al, bəyaz güllər; *Ötüşür* hər tərəfdə bülbüllər (H.Cavid).

4. oxumaq *bax* söyləmək **I**

5. oxumaq *bax* sezmək

oxumuş *bax* savadlı

oxuyan *bax* **1.** müğənni; **2.** oxucu; **3.** savadlı

OKEAN (*böyük dəniz*) Buna göl dedi; ona *okean* (R.Rza); **ÜMMAN** Yenə külək uğuldayır, çalxalanır *ümman* (Ə.Cəmil).

OLDUQCA Şəhər *olduqca* gözəl və zəngin idi (Ə.Cəfərova); **ÇOX** Hava *çox* isti idi (Çəmənzəminli); **DEDİKCƏ** [Qorxmaz:] 1947-ci ildə tərxis olunub qayıdanda *dedikcə* ağıllı və bikef idi (Ə.Vəliyev); **QAYƏT** (*köhn.*) Tükəzban *qayət* hirsli olaraq içəri daxil oldu (B.Talıblı); **SON DƏRƏCƏ** [Məsərrət] *son dərəcə* əsəbi və hiddətli bir adamdır (A.Şaiq).

OLMAQ Qonşu, yenə nə *olub?* – deyə soruşdum (S.Rüstəm); **BAŞ VERMƏK** [Konsul:] Son günlər bu küçə hadisələri çox tez-tez *baş verir* (M.S.Ordubadi); **BULUNMAQ** [Bahadır:] Xristian aləmində ruhanilər elmlərə düşmən olublarsa da padşahlar və dövlətlər ruhanilərlə müdam müharibədə *bulunublar* (N.Vəzirov).

olmaya *bax* bəlkə

OMBA Amma kənddən çıxıb bostanlar arasındakı cığıra təzəcə ayaq basmışdıq ki, anac bir dovşanın *ombasını* yuxarı ata-ata qabağımıza düşüb qaçdığını görmüşdük (Ə.Məmmədxanlı); **YANBIZ** Atların islanmış *yanbızları* parıldayırdı (İ.Şıxlı).

ombudsman *bax* müvəkkil

omda *bax* kəndxuda

ONLUQ (*on manat miqdarında olan*) Xidmətçi tərəddüdlə əllərini ovmaqda davam edərkən əşrəf onun ovcuna bir *onluq* basdı.. (A.Şaiq); **ÇERVON, ONMANATLIQ** Hacı Kərim Bəxtiyarın qarşısına səkkiz dənə *onmanatlıq çervon* saydı (S.Hüseyn).

onmanatlıq *bax* onluq

onurğa *bax* fəqərə **1**

OPERASİYA [Leyla:] Doktor Ağalarovla *operasiyaya* hazırlaşırıq (B.Bayramov); **CƏRRAHİYYƏ ƏMƏLİYYATI** *Cərrahiyyə əməliyyatı* aparmaq mümkün idi (B.Bayramov); **ƏMƏLİYYAT** [Dilarə:] Bıçaqlar təraşlanır; *Əməliyyat* başlanır (B.Vahabzadə).

optimal *bax* əlverişli

optimist *bax* nikbin

optimistlik *bax* optimizm

optimizm *bax* nikbinlik

oraq *bax* çin **1**

ordu *bax* qoşun

ordugah *bax* düşərgə **1**

ORFOQRAFİYA (*düzgün yazı qaydaları*) Hazırda *orfoqrafiya* qaydalarına əsasən edilən cüzi təshih nəzərə alınmazsa, müəllifin ifadə tərzi, indi geniş şəkildə istifadə olunmayan, lakin başa düşülən, köhnəlmiş və başqa dildən alınan sözlər olduğu kimi saxlanmışdır (Çəmənzəminli); **İMLA** (*köhn.*) Çün türki dilinin *imlası* xüsusunda bu anə qədər bir qaideyi-külliyyə mərqum olunmayıbdır (M.F.Axundzadə); **YAZI QAYDALARI.**

1. ORİJİNAL, ƏSL

2. orijinal *bax* əlyazma(sı)

orkestrovka *bax* instrumentovka

I 1. ORQAN, İDARƏ, TƏŞKİLAT

2. ORQAN, DÖVRİ NƏŞR, DÖVRİ MƏTBUAT

II ORQAN (*mus.*) *Orqanın* səslənməsi orkestrin səsinə maksimal dərəcədə yaxşıdır ("Elm və həyat"); **ƏRĞƏNUN** (*köhn.*) ..3 klavişli musiqi alətləri (*ərğənun*, qarmon, fısqarmoniya, bayan, akkordeon və sairə) (Ə.Bədəlbəyli).

III orqan *bax* əza **1**

ORQANİZM (*anat.*), **BƏDƏN** (*bax*)

orman *bax* meşə

1. ORTA (*bir şeyin tam mərkəzi, ortası*) Otağın *ortasında* bir səba vardı (S.Hüseyn); **VƏSƏT** (*köhn.*) Böyükxanım evin *vəsətində* döşək üstündə oyləşmişdi (M.S.Ordubadi); **GÖBƏK** (*məc., zar.*) ..işi o yerə gətirib çatdırdı ki, İstanbulun *göbəyindən* xoşkarın öz qızını da götürüb apardı ("Koroğlu"); **MƏRKƏZ.**

2. orta *bax* aralıq

ortabab *bax* **1.** ortayaşlı; **2.** babat

ortaq *bax* şərik

ORTAYAŞLI) Çayxana müdiri ..*ortayaşlı* bir kişi ilə danışırdı (Çəmənzəminli); **ORTABAB** Şərəf *ortabab*, qara və arıq övrətdi (C.Məmmədquluzadə).

OT Kürə enən cığırları *ot* basmış, kəndin üst tərəfindəki topələrin rəngi dəyişmişdi (İ.Şıxlı); **GİYAH** Əvvəlinci otaqda olvan fərşlər döşənib, qəribə gül və *giyah* ilə və quş şəkilləri ilə divarı və soqfi münəqqəş olmuşdu (M.F.Axundzadə).

OTAQ [Sarıköynək:] Mən *otaqda* heç bir şeyə nəzər salmamışdım (İ.Əfəndiyev); **HÜCRƏ** (*kiçik otaq*) Onların hamısı əvvəlcə bu *hücrəyə* girməyə məcbur idilər (M.S.Ordubadi); **ODA** Bu dəmdə istirahət evinin həkimi əlində qəzet, *odasından* çıxıb bağçaya gəldi (S.S.Axundov).

otel *bax* mehmanxana

otelçi *bax* mehmanxanaçı

otlaq *bax* örüş

OTURMAQ [Nəbi Cəbiyə:] Kürsünü çox *otur* (S.S.Axundov); **ƏYLƏŞMƏK** Sabahınız xeyir, çörək üstündən durmazlar, – deyə Firəngiz *əyləşmək* işarəsi verdisə də heç kəs oturmadı (B.Bayramov); **YANINI YERƏ QOYMAQ** Şamxal qoca kişi ilə salamlaşıb yanını *yerə qoymuşdu* (İ.Şıxlı).

OV Məstan xan acmışdı yenə; Düşdü bir gün *ov* fikrinə (A.Şaiq); **ŞİKAR** Boğulduqca dərə düşmüş o *şikar;* Maral kimi dil çıxarıb hayqırar (S.Vurğun); **SEYD** (*kl.əd.*) Bir patırtı pozar o nəşələrin; *Seyd*, səyyad ürkərək birdən (A.Şaiq).

OVÇU *Ovçu*, insaf elə keçmə bu düzdən! O çöllər qızını ayırma bizdən! (S.Vurğun); **SƏYYAD** Yenicə uçmağa qanadlandım; Onu zülm ilə qırdı bir *səyyad*.. (A.Şaiq); **ŞİKARÇI** ..yedəklərində tazı-tula gedən *şikarçılar*, nökərlər böyük bir yarımdairə təşkil etmişdilər (M.Rzaquluzadə).

OVÇULUQ Bu isə uşaqda *ovçuluq* həvəsini artırardı (S.S.Axundov); **SƏYYADLIQ, ŞİKARÇILIQ**

ovbaş *bax* lotu-potu

ovdan *bax* həvəz

ovxalamaq *bax* ovuşdurmaq

ovqat *bax* əhval

ovqattəlxlik *bax* dilxorluq, narazılıq **1**

OVLAQ (*ov yeri*) *Ovlaqdan* qarşıma bir tülkü çıxdı (M.Rahim); **SEYDGAH** Nəql edirlər ki, şahi-Nuşirvan; Oldu bir türfə *seydgahə* rəvan (S.Ə.Şirvani); **ŞİKARGAH** (*köhn.*) Döyüş arabası, atlı *şikargah;* Aslanı zübinlə vurur padişah (Şəhriyar).

OVLAMAQ [Piri baba:] Yasəmən, gör sənə nə kök qırqovul *ovlamışam* (S.S.Axundov); **SEYD ETMƏK** *Seyd etməyə* bu Şəiqi-dil xəstəni ol yar; Düşmür üzə xal zülfi-pərişan arasında (A.Şaiq).

ovma *bax* vəba

I OVMAQ, NARINLAŞDIRMAQ

II ovmaq *bax* ovuşdurmaq

ovşar *bax* noxta

ovşarlamaq *bax* noxtalamaq

ovsun *bax* **1.** sehr, cadu **1**; **2.** vəsvəsə **1**

ovsunçu *bax* **1.** sehrbaz; **2.** ilanoynadan

ovsunlamaq *bax* sehrləmək

ovsunlu *bax* sehrli

1. OVUC [Qurban:] Bir az qazırsan torpaqdan neft iyi gəlir. *Ovcuna* alıb sıxırsan, neft damcılayır (N.Vəzirov); **KƏFƏ** ..bir övrət çömbəlib və çənəsini hər iki əlinin *kəfəsinə* qoyub qaşqabaqla Əhmədin ağlamasına tamaşa edirdi (C.Məmmədquluzadə); **AYA, ƏLİN İÇİ.**

2. OVUC (*ovuc tutan qədər*), **XIŞMA**

OVUŞDURMAQ Kimisi dərs oxuyur, kimisi falaqqadan təzə çıxmış ayaqlarını *ovuşdurub* ağlayır.. (Ə.Haqverdiyev); **MASAJ ETMƏK/ELƏMƏK** Yanvarın 4-də C.Məmmədquluzadənin halı birdən-birə xarablaşdı. İynə vurdular, *masaj elədilər*, həkim çağırdılar (Anar); **OVXALAMAQ** Mələk söylə ilıq suda onun [Cahandar ağanın] ayağını *ovxalayıb* barmaqlarını şaqqıldatdı, dabanını qaşıdı (İ.Şıxlı); **OVMAQ** [Ağa Səttar:] Qaçsaq öldürərlər. Yaxşısı budur ki, Hacı Söhrab sancılansın, biz də duraq belini *ovaq* (R.Əfəndiyev); **PÜŞTMAL ETMƏK** Onu [Atabəyi] yatağına gətirib yuxulaması üçün *püştmal etdilər* (M.S.Ordubadi).

1. OYAQ [Yatmayan:] *Oyaq* qalıb yenə də; O, gecəni sübhəcən (B.Vahabzadə); **AYIQ** [Püstə:] Hər gecə Şaki teatra gələnə kimi *ayaq* qalıb, onun yeməyini hazır edərdi, sonra özü rahat olardı (S.S.Axundov); **BİDAR** (*kl.əd.*) *Bidar* olanın başı salamat ola, heyhat! (M.Ə.Sabir); **YUXUSUZ** *Yuxusuz* maral tək hərdən süzülüb; Axan gözlərinin sədəqəsi canım (Q.Zakir); **OYANIQ.**

2. oyaq *bax* sayıq

oyanmaq *bax* ayılmaq **1**

OYATMAQ (*yuxudan qaldırmaq*) [Pərviz:] Mən yavaşca Sofanın çiyninə toxunub *oyatdım* (M.İbrahimov); **AYAĞA QALDIRMAQ** Sarıl günəş rəngli bir al bayrağa; Səsinlə elləri qaldır ayağa (S.Vurğun); **AYILTMAQ** Yatmırsan özün indi də, neylim, hələ yatma; Mollalara yansın ürəyin, xəlqi *ayıltma* (M.Ə.Sabir); **BİDAR ETMƏK** (*kl.əd.*) ..yorğam çək başına yat, dəxi məni şirin yuxudan *bidar etmə!* (C.Məmmədquluzadə); **DURĞUZMAQ** (*dan.*) Üçcə gün ovvəl gec yatdığı yerdə ayağından dartıb *durğuzdular* (M.İbrahimov).

oymaçı *bax* həkkak

oymaçılıq *bax* həkkaklıq

1. OYNAMAQ Oğlanlar istədiklərі qızı dəvət edərək, bərabər *oynayırdılar* (A.Şaiq); **RƏQS ETMƏK/ELƏMƏK** Ballı bir dağ porisi kimi qollarını oynadaraq *rəqs edirdi* (A.Şaiq); **SINDIRMAQ** (*məc., dan.*) [Fatmansa:] Gör bir Atamoğlanın qızı nə *sındırır!* (C.Cabbarlı); **SÜZMƏK** (*məc., dan.*) [Çimnaz:] Qoy sənin toy gününün bir çatısın həlo; Onda *süzəcəyəm* bax, belə belə (S.Rüstəm).

2. OYNAMAQ (*nərd, domino, şahmat, kart və s. bu kimi oyunlar*) [Nəbi:] Bir belə də qumar *oynamaq* olarmı? Hər gün səhərə kimi oynayırlar (S.S.Axundov); **VURMAQ** (*məc., dan.*) ..dur gedək, onlara, həm bir nərdtaxta *vuraq*, həm də bu söhbəti deyək, o da yazsın jurnala (Qantəmir).

3. oynamaq *bax* əylənmək **1**

OYNAŞ (*qeyri-rəsmi arvad, yaxud kişi*) Səbəbi də bu idi ki, İbrahim bəy Gələbədin kəndində *oynaş* saxlayırdı (Ə.Vəliyev); **AŞNA** (*köhn.*) Hacının oğlu arvadından savay bir rus qızı da *aşnası* var idi (Ə.Haqverdiyev); **BUĞA, KƏLƏ** (*məc., vulq.*) Mələk olmasa, heç belə kələk olarmı? – dedi, – dalına bir o qədər *kələ, buğa* toplaya bilərmi? (S.Rəhimov); **ADAM** (*məc., vulq. dan.*).

oyun *bax* **1.** rəqs; **2.** hoqqa **1 1**

oyunbaz *bax* hoqqabaz **1**

oyunbazlıq *bax* hoqqabazlıq **1**

OYUNCAQ Lap elə bil bir *oyuncaq* avtomobil (M.Rzaquluzadə); **BAZİÇƏ** (*köhn.*) Uşaqlar kimi *baziçələrə* aldanaraq; Müsəlli olar, istər daha artıq yaşamaq (A.Səhhət); **ƏYLƏNCƏ** (*məc.*) [Vahid:] Qar, oyun. Şaxta baba, meydançalardakı ala-bozok yolkalar, *əyləncələr*, yaxşı paltarım hər şeyi yadımdan çıxartmışdım (B.Bayramov).

ozan *bax* aşıq

Öö

öe *bax* intiqam

öcəşmək *bax* satəşmaq

öddək *bax* qorxaq

1. ÖFKƏ [Ülkər:] Dipdinmoz oturduğumuz yerdə ciyəri yanmış, *öfkəsi* parçalanmış, gör başımıza nə oyun açdı (R.Rza); **AĞ CİYƏR** Hacı bir gecə gözünə *ağ ciyər* bağlayıb yatdı (Ə.Haqverdiyev).

2. öfkə *bax* hiddət

öfkələnmək *bax* hiddətlənmək

öfkəli *bax* **1.** qorxmaz; **2.** hiddətli

öksüz *bax* yetim

ÖKÜZ Atlar, *öküzlər* kotana güc verir; Gah yürüyür, gah yıxılır, gah durur (M.Ə.Sabir); **GAV** *Gavü* məhi üzünü tutdu göyə ağlayaraq; Dedi: – Yarəb, bu göyün işini et məndən iraq (Ə.Nəzmi).

ölçü *bax* **1.** meyar; **2.** vəzn **1**

ÖLÇÜSÜZ, BİÇİMSİZ, ƏNDAZƏSİZ İndi bizim evin quruluşu sənə olduqca *ölçüsüz, biçimsiz* və *əndazəsiz* görünür (M.S.Ordubadi); **BİƏNDAZƏ.**

ÖLÇÜSÜZLÜK, BİÇİMSİZLİK, BİƏNDAZƏLİK, ƏNDAZƏSİZLİK

ÖLDÜRMƏK [Natovan:] O, anamı *öldürmək* istəmirdi. Atamı öldürməyin (H.Abbaszadə); **AXIRINI ELƏMƏK** [Süleyman bəy:] Kimsən, a danışma, Yoxsa mənim *axırını eləməyə* gəlibsən? (Ə.Haqverdiyev); **BAŞINI ƏKMƏK** Xanın o biri arvadları sözü bir yerə qoyurlar ki, Hüsnübəyimin *başını əksinlər* (İ.Məlikzadə); **CANINI ALMAQ** (*fr.v.*) Qılıncsız, tüfəngsiz *alır canımı;* Kimsə bilmir, pünhan-pünhan öldürür (Aşıq Ələsgər); **CƏHƏNNƏMƏ VASİL ELƏMƏK/ETMƏK** Pomoşniklə yasavul geri qaçmaq istəyəndə qardaşların hərəsi qaçanın birisini *cəhənnəmə vasil elədi* (Ə.Vəliyev); **GƏBƏRTMƏK** (*dan.*) [İldırım:] Zalimlərdən birini *gəbərtdim!* (A.Şaiq); **HƏLAK ETMƏK** [Padşah:] ..sonunlo bir yerdə və axırda özümü *həlak edəcəyəm* (Ə.Haqverdiyev); **İŞİNİ BİTİRMƏK** (*dan.*) [Şükür bəy:] Bu gün müəllimin *işini bitirməlisən* (A.Şaiq); **QANINA QƏLTAN ETMƏK** ..qoçu Ağabalam belə bir qarı öz *qanına qəltan etmişdi* (S.Rəhimov); **QƏTL ELƏMƏK/ETMƏK** [Əmiraslan ağa:] Mən isə bu gün mənə xain olmuş ciyərparəmi bu xəncər ilə *qətl edəcəyəm* (S.S.Axundov); **QIRMAQ** (*dan.*) [Mahru:] Xalqı *qırdılar*, yenə də qırmağa hazırlaşırlar... (M.S.Ordubadi); **MƏHV ELƏMƏK/ETMƏK** [Firəngiz:] O [Muxtar] özünü *məhv edər*, biz də ömürlükcə bədnam olarıq (B.Bayramov); **MURDARLAMAQ** (*məc., dan.*) [Eyvaz:] Canımız üçün, kafir az qala məni *murdarlamışdı..* (Ə.Vəliyev); **SAĞ QOYMAMAQ** [Rəcəb Xasayə:] Ona uyduğunu bilsəm, inan ki, səni *sağ qoymaram* (A.Şaiq); **TORPAQ ALTINA YOLLAMAQ** (*dan.*) [Tükəz:] Əzrayılın yolu yumulsun ki, sənin kimi murdarı yer üzündə qoyub, gözəl cavanları *torpaq altına yollayır!* (M.F.Axundzadə).

ölgün *bax* **1.** zoif **2; 2.** süst

ölgünlük *bax* süstlük

1. ÖLKƏ [Vidadi:] Şairdir... qəlbi var, şirin sözü var; Böyük bir *ölkənin* onda gözü var (S.Vurğun); **DİYAR** Qürbət *diyarlarda* sorğordan gəzməkdən artıq cana doymuşdular (M.Hüseyn); **EL** Qarlı dağlar aşaraq; Çox *ellər* dolaşaraq; Dağlarda qurdum deyo; Goldim sizi görməyo (Ə.Kürçaylı); **İQLİM** (*kl.əd.*) Ya bu *iqlimdən* başın al get; Yoxsa başın götür, hüzuruna yet (Füzuli); **KİŞVƏR** (*köhn.*) Padşahi-mülk dinarü dirəm rüşvət verib; Fothi-*kişvər* qılmağa eylər mühəyya loşkəri (Füzuli); **QİTƏ** Qafqaz *qitəsidir* mənim vətənim.. (A.Səhhət); **MƏMLƏKƏT** [Siqətülislam:] Hər *məmləkətin* inqilab rəhbəri o *məmləkətin* özündən doğmalıdır (M.S.Ordubadi); **MÜLK** (*kl.əd.*) [Şapur:] Gözib dolandıqca dünya *mülkünü;* Qobrə dəfn edirik hər keçən günü (S.Vurğun); **VİLAYƏT** [Qurbanəli bəy:] Allah da buna

şahiddir ki, nə qədər bizim *vilayətdə* naçalniklər gəlib gedib, mən onların heç birini o qədər istəmömişəm (C.Məmmədquluzadə).

2. ölkə *bax* dövlət

ÖLKƏŞÜNAS, DİYARŞÜNAS

ÖLKƏŞÜNASLIQ, DİYARŞÜNASLIQ

ÖLMƏK İki il keçməmişdi [Məmmədhəsən əminin] anası *öldü* (C.Məmmədquluzadə); **ALLAH (TANRI) RƏHMƏTİNƏ GETMƏK** (*evf.*) Ərz eləyim qulluğuva. Elə ki bizim paxır qarı *Allah rəhmətinə getdi*, gördüm ki, dolana bilmirəm (N.Vəzirov); Binəva övrət xiffətindən naxoşluğa düşüb, bir neçə gün yatıb *tanrı rəhmətinə getdi* (Ə.Haqverdiyev); **CANI AĞZINDAN ÇIXMAQ** [Səlim bəy:] Toyuq yiyəsi də bir odun yarmadı böyründən, *canı* orada *ağzından çıxdı* (Ə.Haqverdiyev); **CANI ÇIXMAQ** (*dan.*) Bir də baxdım ki, bir nəfər qarabağlı xəncəri çəkib soxdu öz qarnına və o saat *canı çıxdı* (Ə.Haqverdiyev); **CANINI ƏZRAYILA TAPŞIRMAQ** Qılçaları qurumuş xan başının üstə polis paltosunu hiss etdikdə zəhərçək olub yerə yıxıldı və buradaca *canını əzrayıla tapşırdı* (Çəmənzəminli); **CANINI QURBAN VERMƏK** Azərbaycanlı sanitar Əhməd Heydərov adını bilmədiyi komandirin həyatını qoruyaraq öz *canını qurban verdi* (R.Rza); **CANINI TAPŞIRMAQ** Gövhərtac bihiss yıxılıb *canını tapşırdı* (Ə.Haqverdiyev); **CANINI TƏSLİM ETMƏK** ...İki dəqiqədən sonra *canını təslim etdi* (A.Şaiq); **CƏHƏNNƏMƏ VASİL OLMAQ** (*vulq.*) İkisi də qıl körpüsünün ortasına çatmamış uçub *cəhənnəmə vasil oldu* (Çəmənzəminli); **DÜNYADAN GETMƏK/KÖÇMƏK** *Köçdü bu dünyadan* sevimli Vahid; O, qəzəl mülkünün son hakimiydi (M.Rahim); **ƏBƏDİ YUXUYA GETMƏK** (*evf.*) *Əbədi yuxuya getdi* bir anda; Güllərin üstünə şehlər çiləndi (B.Vahabzadə); **GƏBƏRMƏK** (*vulq., dan.*) Qarayənd, Göytəpə, Eyvazxanbəyli... Xındırıstan bəylərindən bir çoxu susuz çöllərdə *gəbərdi* (Ə.Vəliyev); **GORBAGOR OLMAQ** (*lor u sõz*) [Padşah:] Bu gün-sabah *gorbagor olacaq* (Anar); **HƏLAK OLMAQ** [Mayor] cəbhədə *həlak olub* (X.Hasilova); **HƏMİŞƏLİK (ƏBƏDİ) GÖZLƏRİNİ YUMMAQ** (*evf.*) Bu sözlo köynoyi bağrına basmış, *həmişəlik gözlərini yummuşdu* (Ə.Haqverdiyev); **HƏYATA VİDA ETMƏK** (*evf.*) Dursunun goncliyinin ən azğın çağında atası Haqverdi bütün sərvətini ona buraxıb, *həyata vida etdi* (A.Şaiq); **HƏYATINI BİTİRMƏK** İsmət xanım... ölümün ağır pəncələri altında didilərək dərin bir köks çəkməsi ilə *həyatını bitirdi* (S.S.Axundov); **KEÇİNMƏK** Amma o, günahını başa düşməyib xəbərdəco *keçindi* (Ç.Hüseynov); **KÖÇMƏK** *Köçdü*, heyf oldu, gözəl; Vaqif dəxi düşməz ələ (M.P.Vaqif); **QIRILMAQ** [Süleyman Əfəndi:] Hamısı *qırıldı*, hamısı dağıldı, öz gözümlə gördüm (Ə.Haqverdiyev); **MƏHV OLMAQ** Berlinin ağzındakı son döyüşlərdən birində qərargahın yanında bomba partladı, binanı uçurub yerlə yeksan etdi, üç zabit *məhv oldu*... (M.İbrahimov); **MƏRHUM OLMAQ** [Sultan bəy:] Mənim də arvadım budur beş ildir ki, *mərhum olubdur* (Ü.Hacıbəyov); **ÖMRÜNÜ BAĞIŞLAMAQ** Anası onun iki ay qüssəsini eləyib, axırı bir dərdə mübtəla oldu və *ömrünü bağışladı* (C.Məmmədquluzadə); **ÖMRÜNÜ BAŞA VURMAQ** (*evf.*) [Mürvət qarı:] Cavanşir isə Rusiyadan, Qafqazdan gəlib *ömrünü* bizim torpaqda *başa vurdu* (H.Abbaszadə); **ÖMRÜNÜ BİTİRMƏK** Şair var ki, *ömrünü* Başlamamış *bitirdi* (Ə.Kərim); **RAHATLIĞA GETMƏK** (*məc.*) [Mirzə Mahmud:] Dirilməkdən ləzzət görmədim. *Rahatlığa gedirəm*. Mənim ölümümdə heç kəs müqəssir tutulmamalıdır (Çəmənzəminli); **RƏHMƏTƏ GETMƏK** [Malik:] Atamın adı Səid idi. Bir neçə ildir ki, *rəhmətə gedib* (A.Şaiq); **TƏLƏF OLMAQ** Ürəyimə damıb ki, oğlum *tələf olmayıb* (S.Rüstəm); **VƏFAT ETMƏK/ELƏMƏK** Altı ay xəstəxanada yatıb kişi *vəfat etdi* (M.İbrahimov).

1. ÖLMƏZ (*müxtəlif mənalarda*) Azərbaycan, mənim eşsiz yurdum oy!.. *Ölməz* eşqim, içimdəki dərdim oy! (A.İldırım); **ƏBƏDİ** [Firəngiz:] Mənə elə gəlir ki, yazıçı həkayəsində xalqımızın müdrik fəlsəfəsini ümumiləşdirmişdi: mərdlik, qeyrət və sədaqət sıldırımlardan da atılsa ölməzdir, *əbədidir*! (B.Bayramov); **CAVİD** (*kl.əd.*) Dünyada varsa dövləti-*cavid*; olmaz sevib-sevilməyən ömründə bəxtiyar (H.Cavid); **CAVİDANİ** (*kl.əd.*) *Cavidani* yaşayış ləzzəti-ruhanidir (M.Hadi); **LAYƏMUT** (*kl.əd.*) Necə çiçək? Ürəyimdə olan xəyallar tək; Pıçıldasın qoy olar ruhi-*layəmutun* üçün (A.Səhhət).

2. ölməz *bax* unudulmaz

ÖLMƏZLİK Xalqımız *ölməzliyini* böyük mübarizələrdə təcrübədən keçirdi (M.S.Ordubadi); **BƏQA** (*kl.ədˈ*) Seyyid elə bildim ki, *bəqa* suyunu içdim.. (S.Ə.Şirvani); **ÖLÜMSÜZLÜK** Bizdə, bilən bilir, bu səslər ən çox; Oyadır eşqini *ölümsüzlüyün* (M.Müşfiq); **ƏBƏDİLİK** (*bax*).

ölüxana *bax* meyitxana

ÖLÜM *Ölüm*, sağ görüb məni, atma mənə ponçoni; Mən ki çoxdan ölmüşəm, nələm aldatmış səni! (B.Vahabzadə); **ƏBƏDİ YUXU** Afaq dodaqlarında təbəssüm, ölüm adlanan *əbədi* bir *yuxu* içində idi (Ə.Məmmədxanlı); **ƏCƏL** [Fəxrəddin bəy:] O ki qaldı Səadətə, onu məndən bir *əcəl* ayıra bilər.. (N.Vəzirov); **HƏLAK** Ərinin *həlakından* sonra [Süreyya] istəyənlərə getməmiş, balasını ögey atalı eləməmişdi (Ə.Cəfərzadə); **İTİK** (*məc.*) Bu böyük *itik*, bu kədərli faciə (A.Şaiq); **İTKİ** (*məc.*) Bu böyük *itki* bütün Azərbaycanın qəlbini yandırdı (A.Şaiq); **QIRĞIN** Hitlerçilər *qırğın* müharibəsi aparmaq xəyalında idilər (M.Hüseyn); **MƏMAT** Kişi arvadı üzərində həqqi-həyata və *məmata* malik idi (Çəmənzəminli); **MÖVT** (*kl.ədˈ*) ...belə-belə pak qadınların məclisində yaşamaq iman ohlı üçün həmişəlik olacaq; nə azar tapacaqlar, nə *mövt* onları dərk edəcək (C.Məmmədquluzadə); **TƏLƏFAT** [İclas sədri:] Onun fəaliyyəti sayəsində, biz hər gün faşistlərin üzərinə hücuma keçir və azca *tələfatla* onların dəstələrini qırıb darmadağın edirdik (M.Hüseyn); **VAY** Öldür Ələsgəri qurtulsun canı; *Vay* xəbərin göndər qohum-qardaşa (Aşıq Ələsgər); **VƏFAT** [Bənövşə:] Anamın *vəfatından* sonra evlənməmişəm (M.İbrahimov).

ölümsüzlük *bax* ölməzlik

ölüm-zülüm *bax* güclo

ölüyuyan *bax* mürdəşir

ÖMÜR Dedi: *Ömür* xoş gələnlərə bağlıdır; Kim deyir ki, bağrım başı dağlıdır?! (M.Rahim); **HƏYAT** Əşrəf *həyatında* hələ heç bir qəhrəmanlıq eləməmişdir (S.Rəhman).

ömürlük *bax* əbədi

ÖN Bahadır, Bahadır!.. Bu gün *önümdə*; O adam deyilsən sən (B.Vahabzadə); **BƏRABƏR** Görcək anasın *bərabərində*; Yaş oynadı qəmli gözlərində (A.Səhhət); **HÜZUR** [Sultan:] Əgər o haçasaqqal naçalnikin qabağındakı kimi üstünün bu yaraq, şaqqatarını yerə töküb, qul kimi paşanın *hüzurunda* boynunu öküz kimi sallasan, daha özün bil! (S.Rəhimov); **QABAQ** Yavaş-yavaş dumduru göy *qabağının* və geniş üfüqlərin ozamətli mənzərəsi açılırdı (M.İbrahimov); **QARŞI** Baxınız, *qarşımı* tutmuş bir axın; Güclüdən güclü, dənizdən daşqın (M.Müşfiq).

öndər *bax* rəhbər

öndərlik *bax* rəhbərlik

ÖNLÜK O [Leyla], oynindəki xalatın üstündən müşəmbədən şəkilli *önlük* taxmışdı (M.İbrahimov); **DÖŞLÜK** (*dan.*) [Porviz:] Anam, tez işini yarımçıq qoyub *döşlüyünü* açdı, ollərini yuya-yuya atama dedi: – Başım elə qarışıb ki, vaxtın necə keçdiyini bilmərəmişəm (M.İbrahimov).

ÖPMƏK [Məmiş:] Qoy *öpüm*, xalaoğlu, hamı elə bilir ki, Məmiş xoşbəxtdir... (B.Bayramov); **BUSƏ ETMƏK** (*köln.*) Cəlil ağa isə Şəfiqoni və uşaqlarını *busə edib* rahat olmağa getdi (M.Musabəyov); **MAÇ ELƏMƏK** (*dan.*) Salam mənim ceyran qızım, gəl, gəl, bir səni *maç eləyim* (M.İbrahimov); **ÖPÜŞ ALMAQ** Mənə ömr eləyir deyəsən

könül; Dur bunun bir *öpüş al* yanağından (M.Rahim).

ÖPÜŞ [Aytəmiz:] Bəs bu camaat içində marçamarç *öpüş* nə üçündür? (Ə.Qasımov); **BUSƏ** (*kl.əd.*) [Qacar:] Deyirlər şirindir *busənin* dadı; O da kor bəxtimə qismət olmadı (S.Vurğun); **MAÇ** (*dan.*) [Koroğlu Nigara:] Nə durubsan xaçın kimi? *Maç* görmədim maçın kimi ("Koroğlu").

örnək *bax* nümunə **1**

ÖRÜŞ Axşam düşür, günəş qürub edir, sürülər *örüşdən* qayıdır... (B.Bayramov); **OTLAQ** Onun özünə məxsus meşəliyi, əkinçalın, *otlaq* sahəsi ən zəngin və geniş yer tuturdu (S.Rəhimov); **KÖVŞƏN** ..bir atlı çaparaq kəndin içindən çıxıb *köyşənə* sarı getməkdə idi (C.Məmmədquluzadə).

ÖSKÜRƏK [Ana Yasəməndən:] Dərman içməsən *öskürəyin* kəsməz... (Ə.Vəliyev); **ÖSKÜRMƏ** [Əvvəlinci azərb.:] Gecə səhərə kimi *öskürmə* qoymur yatım (C.Məmmədquluzadə); **ÖSKÜRTÜ** ..qonaqların *öskürtüsü* eşidilir (Ə.Vəliyev).

öskürtü *bax* öskürək

ötərgi *bax* gözucu

I ÖTƏRİ, KEÇİCİ, MÜVƏQQƏTİ (*yağış haqqında*)

II ötəri *bax* gözucu

I 1. ÖTMƏK [Qəndab:] Məzahir, qaz ver, o qabaqdakı maşını *öt*, qoyma irəli keçsin, – deyə səslədim (B.Bayramov); **GERİDƏ BURAXMAQ** [Ceyran] Bəli, – dedi, – bir il sonra məktəbi bitirincə, onu tamamilə *geridə buraxacağam* (S.Hüseyn); **KEÇMƏK** Kim ötdü, kim-kimi *keçdi*. Hektarçıynan düşdü bəhsi (Aşıq Əsəd); **QABAQLAMAQ** ..üçüncü dolaydan başıyuxarı iki atlı çapışır. Görək bunları hansı *qabaqlayacaq* (C.Məmmədquluzadə).

2. ÖTMƏK, KEÇİB GETMƏK, KEÇMƏK, ÖTÜB KEÇMƏK (*yanından getmək*)

II ötmək *bax* oxumaq **3**

ötrü *bax* üçün **1**

1. ÖTÜRMƏK Nurlu Həmidi qapıya kimi *ötürdü* (H.Abbaszadə); **MÜŞAYİƏT ETMƏK/ELƏMƏK** [Əbülhəsən bəy:] Hərgah bir bəla təsəbbüs olsaydı, oğlan səni evinə qədər *müşayiət eləməzdi* (M.S.Ordubadi); **YOLA SALMAQ** (*fr.v.*) O gəmi ilə mən də öz yaralı qardaşımı *yola saldım* (M.Hüseyn).

2. ötürmək *bax* yemək **1**

1. ÖTÜŞMƏK Yığılıb çantalara yerdənyemişdən; Yolda gah yüyürüb, gah *ötüşərdi* (S.Vurğun); **QAÇIŞMAQ** Uşaqlar ..oynayır, *qaçışırdılar* (A.Şaiq); **YARIŞMAQ** Uşaqlar.. sevinir və *yarışırdılar* (Mir Cəlal).

2. ötüşmək *bax* oxumaq **3**

ÖVLAD (*oğul, qız və s.*) Məşədi Allahverən ibtida bir arvad aldı, gözəl, göyçək, 30 il onunla gün keçirib *övladı* olmadı (N.Nərimanov); **FƏRZƏND** Dünyanı soyub, eyləyə hər gün səni xürsənd; Sağ ol, belə *fərzənd!* (M.Ə.Sabir); **XƏLƏF** Dərdim ki, gözəl *xələf* olarsan; Bir ailəyə şərəf olarsan (M.Ə.Sabir); **UŞAQ** [Veysəl:] *Uşağımız* yoxdur. Sonsuz olanda bəyəm dünya dağılar? (B.Bayramov); **VƏLƏD** (*köhn.*) Amandı, qoymayın övladınız azıb çıxa yoldan; Ola bu yaxşı *vələdlər* yaman bu boyda, bu boyda!.. (M.Ə.Sabir); **VƏLİƏHD** [Piri baba:] Sən də mənə *vəliəhd* olacaqsan (Mir Cəlal); **YAVRU** *Yavrusunu* atır ana; O quzğunun qucağına (S.Vurğun).

2. övlad *bax* nəsil **1**

ÖVLADSIZ London qəzetləri yazdı o zaman; Deməyin ki, qarı *övladsız* qaldı (S.Vurğun); **SONSUZ** Elm hökm eləyir indi hər yerə; Zülmətin bağrına işıq nəqş edir, *Sonsuz* qadınlara, ya orsizlərə; Naməlum kişidən övlad bəxş edir (B.Vahabzadə); **UŞAQSIZ** Mən onun ailəsiz, ərsiz, *uşaqsız* olduğunu zənn edirdim (S.Hüseyn); **ÇOCUQSUZ**

övrət *bax* arvad **1**; qadın **1**

övrətbaz *bax* arvadbaz

övrətbazlıq *bax* arvadbazlıq

övrət-uşaq *bax* ailə

övza *bax* vəziyyət **1**

öynə *bax* dəfə

öyrəncəli *bax* vərdişli

ÖYRƏNMƏK, BİLİK QAZANMAQ (ƏLDƏ ETMƏK), MƏNİMSƏMƏK

2. ÖYRƏNMƏK, XƏBƏR BİLMƏK, MƏLUMATLI OLMAQ

3. öyrənmək *bax* öyrəşmək **1, 2**

1. ÖYRƏŞMƏK Bir də Aslan buzlu-şaxtalı Rusiya iqliminə *öyrəşmişdi* (M.Hüseyn); **ADƏT ETMƏK/ELƏMƏK** Bəsti sürətlə və düzgün işləməyə *adət etmişdi* (Ə.Sadıq); **ADƏTKƏRDƏ OLMAQ** Bir-biri ilə dalaşıb boşanmağa məhz *adətkərdə olmuşam* (C.Məmmədquluzadə); **ALIŞMAQ** [Ayaz:] Axı mən sənə, o sehrli baxışlara xeyli vaxtdır *alışmışam* (A.Şaiq); **ÖYRƏNMƏK** Şaxta, çovğuna *öyrənib* canım (M.Rahim); **VƏRDİŞ ETMƏK/ELƏMƏK** Qızımın gözlərindən bu hərgünkü tələşlı sualı oxumağa *vərdiş etmiş* ana: – Yoxdur, qızım, – dedi (Ə.Məmmədxanlı).

2. ÖYRƏŞMƏK Yazıq Tamam bizim ailəyə *öyrəşdiyindən* ayrılmaq istəməyirmiş (S.S.Axundov); **İSİNİŞMƏK** Onun fikrincə müəmmalı olan bu qışa asta-asta *isinişirdi* (B.Bayramov); **ÖYRƏNMƏK** [Qönçə Çingizə:] Qəndab sizə yamanca *öyrənib*, darıxır (B.Bayramov).

öyüd *bax* nəsihət

1. ÖYÜNMƏK, DÖŞÜNƏ DÖYMƏK (*fr.v.*) Çox *döymə döşünə*, çox *öyünmə* son; Görürəm qəlbimin gözləriylə mən (S.Rüstəm); **FƏXR ETMƏK/ELƏMƏK** [Aşıq Vəli:] ...Xəz xirqəsinə su kimi axma; Qızıl eynəkləri *fəxr edib* taxma (N.Vəzirov); **İFTİXAR ETMƏK/ELƏMƏK** İranda xanım da avropalı bir həyat düzəltdiyi münasibəti ilə öz bacısı Ninanın yanında *iftixar edirdi* (M.S.Ordubadi); **ÖZÜNÜ ÖYMƏK** O, ancaq *özümü öyür* (Y.Şirvan).

2. öyünmək *bax* arxalanmaq

ÖZBAŞINALIQ Bəyəm dünya *özbaşınalıqdır?!* – deyə Safo ayağa qalxıb kahanın içində o baş-bu başa gəzindi (S.Rəhimov); **DƏRƏBƏY(İ)LİK** Ölkə *dərəbəylik* deyə xan-xanımı sanırsan?! (M.Ə.Sabir); **HƏRKİ-HƏRKİLİK** [İbişli:] İdarədə bir hərc-mərclik, bir *hərki-hərkilik* salsınlar ki, gəl görəsən (Anar); **BAŞLI-BAŞINALIQ.**

özək *bax* təşkilat **1**

özgə *bax* **1.** başqa **1**; savay; **3.** yad **1**

özül *bax* bünövrə

ÖZÜNÜİDARƏ (*siyasi*), **MUXTARİYYƏT**

Pp

padərşahi *bax* patriarxal

PADŞAH (*köhn.*) Xudbin *padşah* məmləkətin abadlığını düşünüb bir iş başlamazdı (M.İbrahimov); **ÇAR** (*qədim Rusiyada*) Alışdı üreyim kindən, qəzəbdən! Güllətək toxundu *çara* hər sözüm (S.Rüstəm); **HÖKMDAR** [Qacar Vaqifo:] Şair, *hökmdarın* hüzurundasan! (S.Vurğun); **XAQAN** Burada şahlar, dərəbəylər, xanlar, Şön-şöhrət keçirən *xaqanlar* (S.Vurğun); **QEYSƏR** [Axilles:] Gəlir Rum qeysəri, çox şəndir yenə. Bu gün də verəcək xələt, xəzinə (A.Şaiq); **MƏLİK** Vaqif düşüncəli: – Bunlar hamısı *mələklərin* işidir, – dedi (Çəmənzəminli); **SOLTAN/SULTAN** Toğrul, Əbubəkrin *sultan* elan olunduğunu və Naxçıvana böyük bir ordu yığdığını eşidərək həyəcana düşdü (M.S.Ordubadi); **ŞAH** [Teymur:] Dünyadan doymadı *şahların* gözü; Lap cana doymuşam bunlardan, düzü (S.Vurğun); **ŞƏHRİYAR** (*kl.ad.*) O söylədi: – Yaşasın *şəhriyari*-hürriyyət! (B.Vahabzadə); **TAC(İ)DAR** [İskəndər:] Fatehlər fatehi rumlu *tacdar*, Salam söylədikdən sonra, ey salar... (A.Şaiq); **MONARX.**

PADŞAHLIQ [Mirzə Yəhya:] Yox, Qurban, yox, *padşahlıq* mənim əlimdən gəlməz (A.Şaiq); **ÇARİZM** General formasında çəkilmiş Həcinin şəklində isə Bakı milyonçusu xalqı *çarizmə* satan bir sərvətdar kimi təqdid edirdi (A.Şaiq); **ÇARLIQ** Yox, nə Rusiyada çar quruluşu xoşaxoşluqla getmişdi, nə də *çarlıq* yıxılandan sonra bu ucqarlarda əmələ gələn "Milləti-hürriyyət" hökuməti xoşaxoşluqla getmək istəyir! (S.Rəhimov); **XAQANLIQ** [Çopo:] Okahayın bu hərəkətini *xaqanlıq* eşqinə düşməsi ilə mərbut götürürlər (Çəmənzəminli); **XANLIQ** [Şah:] Doğrusu, Mirzə Taqı, mən hələlik *xanlığın* ləğvinə razı ola bilmərəm (C.Cabbarlı); **ŞAHLIQ** [Şah Abbas:] Doloduz. Bilirəm, hamınızın üröyinizdən *şahlıq* keçirdi (A.Şaiq); **ŞƏHRİYARLIQ** [Elxan:] İki addımlığımızda Şirvan *şəhriyarlığı* da ona qarşı çarpışır (C.Cabbarlı); **HÖKMDARLIQ** (*bax*), **QEYSƏRLİK, MƏLİKLİK.**

PADŞAHPƏRƏST [Padşah tərəfdarı] Fəhlə nümayişlərinə qarşı çevrilmiş belə *padşahpərəst* çıxışlardan birinə Sabunçu məktəbindən, dərsdən qayıtdığım zaman rast gəldim (A.Şaiq); **ŞAHPƏRƏST** Fədailər dilirano ricət etdi dübarə; *Şahpərəstlər* şikəst tapıb, üz qoydular forarə (A.Sohhot); **MONARXİST.**

PAXIL Qısır rəqiblərindən qurtarmasın başını; *Paxıllar*, külüng alıb parçalayar daşını (M.Rahim); **DARGÖZ(LÜ)** Bir qurd kimi salsın yuva qəlbi də paxıllıq; *Dargöz* olasan, eldə sənə hörmət olarmı? (M.Seyidzadə); **QƏLBİQARA** Hər *qəlbiqara* nakəs ilə eyləmə ülfət (S.Ə.Şirvani); **QƏLP** ..dünyada *qəlp* adam çoxalıbdır (C.Məmmədquluzadə); **QURDLU** (*dan.*) [Qarı:] Bir də bu *qurdlu* adamlar həmişə namərd olurlar (S.Rəhimov); **BƏXİL, XAİN, ÜRƏYİQURDLU.**

PAXILLIQ Şair *paxıllıqdan* boğulan yaltaqları və padşahı süzüb başını buladı (M.İbrahimov); **BÜXL** (*köhn.*) [Laçın bəy:] Cəminin hərəkətləri olub yalan, *büxl*, şivə, müftəxorluq (N.Vəzirov); **DARGÖZLÜ-(LÜ)K** [Bülond:] Məni tərif etmələri onların *dargözlülüyündən* və uzağı görmədiklərindəndir (Ə.Əbülhəsən); **HƏSƏD** [Qondab:] Xalam qızının *həsədi* daha da artır (B.Bayramov); **QİBTƏ** [Qasım:] Xırdala görək, *qibtə* nə olan şeydir? (A.Şaiq); **XAİNLİK, QƏLBİQIRIQ.**

paxır *bax* pas

paxmel *bax* səhrəş

pak *bax* **1.** təmiz **1**; **2.** müqəddəs **2**

paket *bax* zərf

pakizə *bax* **1.** təmiz **1**; **2.** yaxşı

paklıq *bax* **1.** təmizlik **1**; **2.** müqəddəslik **2**

pakt *bax* müqavilə

1. PALANDUZ (*köhn.*); **PALANTİKƏN**

2. palanduz *bax* çuvalduz

PALÇIQ Bu yoxuşun başından at və ulaq endikcə *palçığı* da üstdən yenişə süpürüb aparırdı (S.Rəhimov); **BATAQ** Araba getmədi əsla qabağa; Deyəsən batmış idi bir *bataqa* (A.Səhhət); **BATDAQ** Yağışlı bir gün idi. *Batdaq* dizə çıxırdı (Mir Cəlal); **QARAMA** Bəhram ayağını üzəngiyə qoyub [atı] minmək istərkən yəhər çevrildi, o da böyrü üstə *qaramaya* yıxıldı (Ə.Vəliyev); **LİĞ** (*dial.*) Haravanı *liğa* salma (ADDL); **LİQQA** O, üstünü *liqqaya* bulıyır (ADDL); **ZİĞ** O [Safo], uzun ol ağacını iroliyə atıb addımlarını sulu *zığdan* qaldırmaq istərkən, hacı onun döşündən geri itələyərək: – Hara belə? – dedi (S.Rəhimov); **ZİĞ-ZIMRIQ** O [Safo], *zığzımrığa* bulanmış halda dağarcığını çiyninə götürmüş, evinə yetişcək özünü mitilin arasına salmışdı (S.Rəhimov).

PALTAR O, əyninə dar və qısa bir *paltar* geymişdi (M.S.Ordubadi); **ABIR** (*məc., dan.*) [Qurban:] Ə, bu nə paltardır, balam.. Bu *abırla* elə toya gedirsən (S.Rəhimov); **CAMAŞIR** [Çingiz:] Qəmər, cəld çamadanı içəridən gətir, kitablarımı qoy, *camaşırlarımı* gətir (S.S.Axundov); **ƏLBƏSƏ** (*köhn.*) Nazik *əlbəsələr* geyib gəlin kimi bəzənmiş qadınlar, yoğin ki, çar ordusunu qarşılamağa gedirdilər (M.S.Ordubadi); **ƏYİN** (*dan.*) [Şahinin] *əyni* nazik olsa da üşüməzdi (B.Bayramov); **ƏYİN-BAŞ** [Nurəngiz Səkinəyə:] Demiyə bilmirəm, özünə niyə bir *əyin-baş* almırsan? (Əfqan); **GEYİM** [Əbülhəsən bəy:] Bəs bu yeni *geyimin* qolları, döşləri, arxası və çiyinləri hanı? (M.S.Ordubadi); **KİSVƏT** (*kl.ad.*) Çün namoyə qıldı bir nəzərə; Can *kisvətin* etdi parə-parə (Füzuli); **QİYAFƏ** İndi o hərbi *qiyafədə*, serjant rütbəsində bir şəfqət bacısı idi (Ə.Məmmədxanlı); **QİYAFƏT** (*köhn.*) Zabitin əli qatığa batmışdı, bir nəfər avropalı *qiyafətində* olan yerli tacir zabitə yanaşdı, onun iranlı olduğu ancaq başındakı nazik və mahud börkündən anlaşılırdı (M.S.Ordubadi); **LİBAS** (*köhn.*) Sən ziyalısan, münəvvər bir kişisən, şükür tanrıya, siyasi adamsan, daha bu nə bisavad bəy *libasıdır* ki, geyinibsən? (S.Rəhimov); **RƏXT** (*köhn.*) İranda olur tonbəki, tiryək ilə ərzaq; Lənq olma, götür *rəxtivi* İrano, unutma! (C.Məmmədquluzadə); **ÜST-BAŞ** (*dan.*) [Solimo:] Nə qədər ağır dolansa da onların *üst-başını* həmişə təmiz saxlayırdı (M.Hüseyn).

1. PALTARAS(IL)AN (*paltar və ya başqa şeylər asmaq üçün alət*) Tamaşa qurtarandan sonra onlar *paltarasanın* qabağında adamların seyrolmasini xeyli gözləməli oldular (Ə.Kərim); **ASQI** Doktor cəsarətsiz bir halda içəri girdi, şapkasını asqıya atıb, salona daxil oldu (Çəmənzəminli); **ASILQAN** O, əsasını bir künco qoydu, silindrini *asılqana* keçirib, nəhayətsiz dərəcədə məhriban, gülər gözlərlə qızı süzdü (M.İbrahimov); **ASMA** (Məmməd) boz şinelini və gün bozartmış papağını çıxarıb koridordaki *asmadan* asdı (S.Rəhimov); **QAPMAQ** ..xidmətçi palları *qarmaqdan* çıxarıb ona verdi (S.S.Axundov); **QARDEROB.**

2. paltarasan *bax* paltarsaxlayan

paltarçı *bax* paltarsaxlayan

PALTARLI [Maşo Sonaya:] Bu da *paltarlı* yatıbdır (N.Nərimanov); **GEYİMLİ** Ağ *geyimli* pirani bir dərviş yol kənarında görünür (H.Cavid); **QİYAFƏLİ** Durub o zabit də baxır şəhərə; Hərbi *qiyafəli* bəyzadələrə (X.Rza); **LİBASLI** [Qəhrəman:] Qara *libaslı* bir kişi qapının qıfılını sındırmağa məşğul idi (H.Nəzərli).

PALTARSAXLAYAN (*ictimai yerlərdə gələnlərin paltarını saxlayan adam*) Bu vaxt oğlan ondan [Leyladan] ayrılıb *paltarsaxlayan* xidmətçinin yanına getdi.. (S.S.Axundov); **PALTARASAN** O, çamadanını *paltarasan* qadına tapşırıb yuxarı qalxdı (Ə.Kərim); **PALTARÇI** *Paltarçı* qız çıxarılan paltarları yuyanlara.. verdi (S.Hüseyn); **QARDEROBÇU.**

paltarsız *bax* çılpaq **1**

PAMAZI (*bir üzü xovlu isti pambıq parça*) [Ağa Kərim xan:] ..Mən heç ömrümdə azar görməmişəm, *pamazı* paltarın olur həmişə qalın (N.Vəzirov); **BAMBAZ(I), BUMAZE.**

PAMBIQ Məgər ..birinci olaraq iki əllə *pambıq* yığmağı təşəbbüs edən Bəsti deyildimi? (Ə.Sadıq); **AĞ QIZIL** (*məc.*) Qara qızıl, *ağ qızıl:* Verən torpaq sizindir (M.Rzaquluzadə); **PƏNBƏ** (*köhn., təşb.*) Yaranmış ağ *pənbə* dodağın sənin (A.Şaiq).

PAMBIQÇI (*əllə pambıq yığan adam*) [Bəsti:] Traktorçular və *pambıqçılar* tanış olduqları işlə məşğul olurlar.. (Ə.Sadıq); **PAMBIQYIĞAN** Ondan bir az aralı *pambıqyığan* Bayramın dayanıb ona baxdığını görür (R.Rza).

1. PAMBIQYIĞAN (*maşın. kombayn*) Aytəmiz *pambıqyığan* maşının sükanı arxasında əyləşib cərgələrarası ilə irəliləyir.. (Ə.Qasımov); **MAVİ GƏMİ** (*məc.*) O [Aytəmiz], ..*mavi gəmisini* ağ çiçəklər dənizinə sürdü (Ə.Qasımov).

2. pambıqyığan *bax* pambıqçı

panama *bax* şlyapa

panorama *bax* mənzərə **2**

papa *bax* ata

PAPAQ Kişilərin ikisinin də əynində yumşaq çuxa, başlarında *papaq* vardı (H.Abbaszadə); **BÖRK** (*köhn.*) [Xudayar bəy:] Kişi *börkü* başına nədən ötrü qoyur (C.Məmmədquluzadə); **KEPKA** Qara oğlan tez bulanmış boz *kepkasının* dalını qaldırıb boynunu qaşıdı... (M.Hüseyn); **KÜLAH** (*köhn.*) Qoyma *külahın* kəc, a bəy, aldatma cahanı.. (Ə.Qəmküsar); **ŞAPKA** İkisinin də əynində göy kombinezon, ayağında qalın çəkmə, başında boz *şapka* vardı (M.İbrahimov).

papış *bax* çust

PAPİROS [Əfəndi:] Təşəkkür edirəm, *əfəndim*, bən də *papiros* çəkmirəm (Ə.Haqverdiyev); **SİQARA** [Süleyman:] Buyurunuz, *əfəndim, siqara* çəkiniz (Ə.Haqverdiyev); **SİQARET** [Camal] ..bir *siqaret* yandırıb damağına qoydu (Y.Şirvan).

papka *bax* qovluq

I PARA, TİKƏ, PARÇA (*bir tikə*)

II para *bax* pul **1**

PARAD May bayramı, Bakı böyük, *parad* keçir, bax... (S.Vurğun); **RƏSMİ-KEÇİD** (*köhn.*) Bu gün *rəsmi-keçid* var; Tez toplanın, uşaqlar... (A.Şaiq).

parasız *bax* pulsuz **1**

parazit *bax* **1.** tüfeyli; **2.** müftəxor, istismarçı

PARÇ Qurban *parçla* su tökür, usta əllərini yuyur ləyənin içinə (C.Məmmədquluzadə); **TAYQULP** Mikayıl çəlləkdən *tayqulpla* su götürüb Həmidin əlinə tökürdü (H.Abbaszadə).

1. PARÇA [Hamı:] Ah, nə gözəl *parçadır.* Gülləri də qonçadır (Ü.Hacıbəyov); **ARŞINMALI** (*köhn.*) [Əsgər:] İndi görəsən qız bilsə ki, mən doğrudan da *arşınmalı* satıram, mənə gələrmi? (Ü.Hacıbəyov); **BƏZZAZİYYƏ** (*köhn.*) [Rüstəm:] Sən mənim məsləhətimə bax: bu dükanı bağla, bir ayrı *bəzzaziyyə* mağazası aç (Ə.Haqverdiyev); **QUMAŞ** (*köhn.*) [Hacı Qara:] Bunların *qumaşı* özgə qumaşdır (M.F.Axundzadə); **MAL** [Hacı Qara:] Heç kəs *malın* üzünə baxmır.. (M.F.Axundzadə); **MANUFAKTURA** (*köhn.*).

2. parça *bax* tikə

3. parça *bax* hissə **1**; para **1**

PARÇAÇI Yerdə qalan baqqal, əttar və *parçaçıdır* (Ə.Haqverdiyev); **BƏZZAZ** İki il bundan qabaq bu adam *bəzzaz* Hacı Əlinin dükanından iki top çit oğurlamışdı (C.Məmmədquluzadə); **MANUFAKTURAÇI.**

1. PARÇALAMAQ Hamısının ürəyində Safonu didmək, *parçalamaq* hissi var idi (S.Rəhimov); **DİDMƏK** Soyuq divarlarda güllə nişanı; *Didir,* parçalayır insan insanı (S.Vurğun); **PARÇA-PARÇA ETMƏK** [Paşa:] Mən istəyirəm ki, belə gözəlləri gördükdən sonra onları xəncər ilə *parça-parça edəm* (S.Rəhimov).

2. PARÇALAMAQ ..pələng üç inək *parçalamışdır* (A.Şaiq); **YIRTMAQ, DAĞITMAQ** (*vəhşicəsinə parçalamaq*) Bu yerə çün yetirdi qurd özünü; Tutdu *yırtdı, dağıtdı* o quzunu (A.Səhhət).

parəbizən *bax* uçağan **2**

parfüm *bax* ətir **1**

parıldamaq *bax* parlamaq

PARILTI ..ulduzların *parıltısından* başqa üfüqdə ayrı bir işıq görünmürdü (H.Abbaszadə); **BƏRQ.**

PARLAQ Həqiqətdə günəş xeyli *parlaq* idi (S.S.Axundov); **DİRƏXŞAN** Niyə xurşid atəşəfşandır? Niyə qürsi-qəmər *dirəxşandır?* (A.Səhhət); **ZAHİR** Tahir, *zahir* hünərlərin var; Bahir, *zahir* səmərlərin var (M.Ə.Sabir); **İŞIQLI, ŞƏFFAF** (*bax*).

PARLAMAQ [Əli:] Allahdan diləyim budur ki, sizin səadət günəşi Saratovda *parlasın* (Çəmənzəminli); **BƏRQ VURMAQ/VERMƏK** ..Günün şüası dərədən tədriclə mütəsaid olan dumanın üstündə *bərq vururdu* (M.F.Axundzadə); **İŞARMAQ** Sarmaşıq zoğu tək qıvrım sallanan; Buruq saçlarımdan *işarır* yağış (B.Vahabzadə); **PARILDAMAQ, İŞILDAMAQ** Lap elə bil, bir oyuncaq avtomobil; Var xırdaca dörd təkər; *Parıldayır* hər bir yeri, *işıldayır* (M.Rzaquluzadə).

parlaman *bax* parlament

PARLAMENT, MƏCLİS, MİLLİ MƏCLİS, PARLAMAN

PAROXOD *Paroxod* oldu göstiyi-yelkan; Özgə samanə düşdü xəlqi-cahan (S.Ə.Şirvani); **VAPOR** Bir *vapor* səslənərək titrərkən; Qamçılar beynimi bir duyğulu əl (M.Müşfiq); **BUXAR GƏMİSİ** (*köhn.*).

PAROL (*gecə gəzintiləri, gəzmələri*) [Əbülhəsən bəy:] Hər halda "Rəfizədə və Şümşad xanım da sadə adamlar deyilmiş, onlarda da hökumətin *parolu* varmış" deyərək düşündüm (M.S.Ordubadi); **İSMİ-ŞƏB, GECƏ GƏZMƏ** [Əbülhəsən bəy:] Qarşımızdan *gecə gəzmələri* göründü.. Gəzmələr mənə yaxınlaşırkən uzaqdan: – *İsmi-şəb!* – deyə səslədi.. Hərgah *ismi-şəb* yanımda olmasaydı, məni həbs edərək payi-çırağa aparacaqlar idi (M.S.Ordubadi).

parom *bax* bərə **1**

PAROVOZ *Parovozlar* çatışmır, camaat tökülüb qalıblar stansiyalarda (H.Abbaszadə); **BUXAR ARABASI** (*köhn.*) Saat on iki tamamda *buxar arabası* acıqlı ədəbə kimi Balaxanı tərəfdən gözlərini ağardaraq, nərə vurmağa başladı (S.M.Qənizadə).

PARTA Sentyabrın birində Mehriban ilk dəfə sinifdə, *parta* arxasında oturduğu gün müəllim özü onu yerindən tərpətdi (M.İbrahimov); **SKAMYA** Görürəm bir işıqlı; Sakit dərs otağıdır, oturmuş *skamyada* (Ə.Cəmil).

1. PARTİYA Azadlıq istəyən bütün ölkələr; Mənim *partiyama* xilaskar deyir (M.Rahim); **FİRQƏ** (*köhn.*) O [Əli] də anası olan *firqə* iclasında idi (M.Hüseyn); **HİZB** (*köhn.*) [Xanım:] Siyasi olmaq istəyir. *Hizb* düzəldir (M.İbrahimov).

2. partiya *bax* əl **2**

PARTİYAÇI [Talıbov:] Sovxozda *partiyaçılara* böyük ehtiyacımız var (Y.Şirvan); **FİRQƏÇİ** (*köhn.*) *Firqəçilərin* fikir və məqsədləri mənə çoxdan məlum idi (Ə.Vəliyev); **PARTİYA ÜZVÜ** Birincisi, *partiya üzvidürlər* (Y.Şirvan).

PAS Adətən üst-başı dəmir *pası* və yağdan çirklənmiş, paltarları yamaqlı olan fəhlələr yavaş-yavaş işə başlayır.. (M.İbrahimov); **PAXIR** Göydəki günəş də dərdlən yanıb qaralmış, boğulmuş *paxır* misə çevrilmişdir (Ə.Cəfərzadə); **CƏNG.**

pasiban *bax* gözətçi

PASPORT Nemət *pasportu* böyük bir sevinclə cibinə qoyub qalxdı (Çəmənzəminli); **BİLET** (*köhn.*) İrəvanda da deyirlər, vitse-konsulun köməkçisi *biletin* birinə İran rəiyyətindən düşəndə on manat alır (C.Məmmədquluzadə).

PASSİV, FƏALİYYƏTSİZ, QEYRİ-FƏAL, SÜST

PATAVA (*ayağa sarılan sarğı*) [Musa] yoğun baldırlarına boz *patava* dolar, iri ayaqlarına qıvraq çarıq geyərdi (B.Bayramov); **DOLAQ** [Döyüşçünün] şinəli, şalvarının dizləri, *dolağı,* çəkməsi başdan-başa palçıq içində idi (Ə.Vəliyev); **SARĞI.**

patriot *bax* vətənpərvər

PATRİARXAL (*kişilərin üstün olduğu ibtidai icma quruluşunun müəyyən dövrü*) *Patriarxal* nəsli icmaların məskənləri ilə yanaşı, ayrı-ayrı ailələrin məskənləri meydana çıxmışdı ("Azərbaycan tarixi"); **PƏDƏRŞAHİ** [Səlimo:] Şahlar cəlladlıq eləyir, şah-

ların dili ilə o sözləri *pədərşahi* dövrünün zalımı söyləyir (İ.Əfəndiyev).

PATRONDAŞ Kərəm tüfəngini qayaya söykədi, *patrondaşını* açıb, daşın üstünə qoydu... (M.Hüseyn); **QATAR** Qoçular, quldurlar *qatar* taxırlar; Fəqir-füqəraya yanyan baxırlar... (Aşıq Ələsgər).

pauza *bax* fasilə **1**

I 1. PAY, QİSMƏT Ziynət anasının *qismətini* göndərəndən sonra Veysəllə öz *payını* dəfələrlə isidib kənara qoymuşdu.. (B.Bayramov); **SƏHM** Əqli, şüuru, fəhmi yox; İrzü həyadə *səhmi* yox (M.Ə.Sabir).

2. pay *bax* bəxşiş **1**; sovqat

3. pay *bax* dəfə

II pay *bax* ayaq **I 1**

paybəstə *bax* buxovlu

PAYÇI. AKSİONER, SƏHMDAR

payəndaz *bax* ayaqaltı

PAYIZ *Payız* idi, yaşıl yarpaqların rəngi ölümə gülən və son dəqiqələrini keçirən bir xəstənin yanaqları kimi saralırdı (M.S.Ordubadi); **NƏZAN** *Xəzandır, xəzandır*, önümüz qarlı qış.. (M.Müşfiq); **SON BAHAR** (*şair.*) Ah, mən *son baharı* çox sevirəm; Sevirəm, *son baharı*, çox sevirəm (A.Şaiq).

PAYLAŞMAQ, BÖLÜŞMƏK

pay-piyada *bax* piyada

PAYTAXT, MƏRKƏZ Şirvan şahlığının hökumət quruluşundakı vərasət məsələsi ləğv olunduğu zamanı Şimali Azərbaycanın *mərkəzini* Şirvana köçürmək və oranı Azərbaycanın *paytaxtı* adlandırmaq mümkündür (M.S.Ordubadi); **BAŞ ŞƏHƏR.**

PAZ *Paz* çalınanlar, tez öldürülmələrini istəyirdilərsə də, qulaq asan yox idi (Çəmənzəminli); **ÇİV** Son vaxtlarda qapıda tökülüb sofan düyünlü-fırlı kötüklərə çıv çalmaq, onları yarıb-parçalamaq üçün yenə də Safo ailəsində gərəyə gəlirdi (S.Rəhimov).

pazı *bax* çuğundur

PEÇ Bir yekə otağın küncündə dəmir *peç* yanırdı (C.Məmmədquluzadə); **SOBA** [Qəndab:] *Sobanı* söküdüm, atam öləndən bəri bağlı qalan otağın qurumunu aldım (B.Bayramov).

pedaqoq *bax* müəllim

pedaqoqluq *bax* müəllimlik

pedant *bax* xırdaçı

pedantlıq *bax* xırdaçılıq

PENCƏR Böyük olanda nə olar, bıçağı götür, kətənin *pencərini* doğra (B.Bayramov); **TƏRƏ** *Tərə* yeyən də yaza çıxar, kərə yeyən də (Ata. sözü).

PENSİYA Məryəmin iki uşağına *pensiya* təyin etdilər (M.İbrahimov); **TƏQAÜD** [Ziynət:] Anam *təqaüdə* çıxanda sən varsan, mən varam (B.Bayramov).

PENSİYAÇI, TƏQAÜDÇÜ

pensne *bax* çeşmək

PERO, QƏLƏMUCU

perron *bax* platforma **1**

personaj *bax* surət **1**

peşə *bax* **1.** sənət; **2.** xasiyyət, vərdiş

1. PEŞƏKAR *Peşəkar* ovçular hər il dövlətə milyon manatlarla xeyir gətirən xoz-dən və min tonlarla ət təhvil verirlər (M.Rzaquluzadə); **PROFESSİONAL** 1880-ci ildə *professional* aktyorlar... Zaqafqaziya şəhərlərini dolaşaraq, yerli Azərbaycan ziyalılarının köməyi ilə Azərbaycan tamaşaları verir (Ə.Haqverdiyev).

2. peşəkar *bax* sənətkar

peşkəş *bax* hədiyyə

PEŞMANÇILIQ Bunun axırı *peşmançılıqdır*. – deyə İmamverdi qardaşını məzəmmət elədi (S.S.Axundov); **NƏDAMƏT** [Dərviş:] Fəzlədir, şeyxim öylə bir təhqir; Daha kafi... *Nədamət* əfv edilir (H.Cavid); **PEŞMANLIQ** [Qarı:] Adam bir dəfə peşman olar, iki dəfə olar... qadan alım, sonku *peşmanlıq* fayda verməz! (Çəmənzəminli).

peşmanlıq *bax* peşmançılıq

petrol *bax* benzin

petroleum *bax* neft

peydərpey *bax* dalbadal

PEYĞƏMBƏR Eşitmişdi ki, *peyğəmbərlər*, imam gəlib gediblər (N.Nərimanov); **NƏBİ** (*kl.ad.*) Şərm eylə *nəbidən*, utan xudadan; Usan tamaşadan, zövqü sofadan (Q.Zakir); **RƏSUL.**

peyğəmbəri *bax* qarğıdalı

peyin *bax* nəcis

peykan *bax* kirpik

peyman *bax* əhd **1**

peymanə *bax* **1.** piyalə; **2.** çaxır

peysər *bax* boyunardı

peyvənd *bax* calaq

peyvəndləmək *bax* calamaq **1**

peyvəstə *bax* həmişə

peyzaj *bax* mənzərə **2**

pədər *bax* ata

pəhləvan *bax* **1.** güləşçi; **2.** igid

pəhləvanlıq *bax* igidlik

pəjmürdə *bax* **1.** solğun; **2.** pərişan **1**

pək *bax* çox

1. PƏLƏNG (*zool., ən çox təşbehlərdə işlədilir*) Səfər cəld əlini mütəkkənin altına uzadıb xəncərini götürdü və yatağından *pələng* kimi sıçradı; onun bağırtısı ildırım kimi şəqqıldadı (Çəmənzəminli); **QAPLAN** Hər kəs... şəşqın bir həyəcan içində idən, on beş yaşlarında bir oğlan bir *qaplan* çevikliyi ilə meydana atılıb düz buğanın üstünə cumdu (M.Rzaquluzadə).

2. pələng *bax* igid

pəmbəcə *bax* qapaz

pənbə *bax* pambıq

pəncə *bax* əl **1**

1. PƏNCƏRƏ [Eldar:] Ə, Valeh mən ölüm gələn kimi bu *pəncərəni* açıb bizi dondurma (İ.Əfəndiyev); **AKUŞKA** (*dan., köhn.*) [Qərənfil:] Günün günorta çağı adamı qara basmaz. *Akuşkadan* görmüşəm (M.İbrahimov); **AYNA** *Aynası* örtülü evlər, otaqlar; Yandırıb sönməyən nurlu çıraqlar; Var olsun hər gələn tozə il, deyir (M.Rahim); **URUSU** (*köhn.*) Orada olmasa rəfdədir, rəfdə də olmasa *urusunun* yanındakı taxçadakı mücrünün dalısındadır, tez ol yüyür, qoçum (M.S.Ordubadi).

2. PƏNCƏRƏ, FASİLƏ (*məktəbdə dərslərarası olan boş vaxt*)

pənd *bax* nəsihət

pəpə *bax* çörək

pəpəş *bax* çörək

1. PƏR (*tex.*) Müəssisənin plastik sexi.. ventilyator *pərləri* də istehsal edir (ADİL); **QANAD** Budur, sağ tərəfdə bir təyyarə var; Onun *qanadından* topla vurublar (M.Rahim); **PƏRVANƏ** Növbə Kamala yetişəndə o, əlindəki modelin *pərvanəsini* buraxdı (M.Rzaquluzadə).

2. pər *bax* qanad **1**

1. PƏRAKƏNDƏ Arxacların qıraqlarından *pərakəndə* halda qurulmuş çadırlarda neft lampaları zəif-zəif şölələnirdi (B.Bayramov); **DAĞINIQ** Toğrul ordusu cəbbəxana və çadırlarını buraxıb *dağınıq* bir halda Xoy və Təbrizə tərəf çəkilmişdi (M.S.Ordubadi).

2. pərakəndə *bax* nizamsız **2**

pərakəndəlik *bax* nizamsızlıq **1**

pərçimləmək *bax* soxmaq

PƏRDƏ Qətibə və Dilşad pəncərənin qarşısından asılmış tonzif *pərdənin* dalında oturub Nizamini dinləmək istəyirdi (M.S.Ordubadi); **HİCAB** Gün təki yüzün cahanə olmuşdur, vəli; Bu əcəb kim bənddən daim *hicab* üstündədir (Xətayi).

pərdi *bax* tir **1**

pəri *bax* gözəl **1**

pəricamal(li) *bax* pərisifət

pəriçöhrə(li) *bax* pərisifət

pəridar *bax* xoruz

pəriru *bax* pərisifət

PƏRİSİFƏT (*təşb.*) Eşqin nədir cahanda sənin, ey *pərisifət;* Heyran durur fələkdə gözən mahtab ona (Xətayi); **PƏRİCAMAL(LI)** Məndən sovayo cövr eləməz ol *pəricamal;* Amcaq onun bu lütfinə mən çərək olmuşam (S.Ə.Şirvani); **PƏRİÇÖHRƏ(Lİ)** O *pəriçöhrəni* gördüm, könül heyran oldu; Düşdü eşq atəşinə qəlb evi, viran oldu (M.Seyidzadə); **PƏRİRU** Sənin dik nazənin görmündürür heç; *Pərirulərdə* dövran, ey pərivəş (Əmani); **PƏRİSİMA** Ey *pərisima,* sənin didarının müştaqiyəm (M.P.Vaqif).

pərisima *bax* pərisifət

1. PƏRİŞAN Gülsüm onun [Könülün] danışığından *pərişan* olduğunu dərhal duydu (X.Hasilova); **AŞÜFTƏ** Qurd dedi: – Çox-

çox yanıram halına; Xatirim *aşüftədir* əhvalına (A.Sohhət); **PƏRİŞANHAL** Gözləri qamaşdıran bu nurdan başlarını aşağı salıb *pərişanhal* oturmuşdular (S.S.Axundov); **POZĞUN** Əhvalım elə *pozğun* idi ki, yuxuzad məndən çox uzaq idi (C.Məmmədquluzadə); **AŞÜFTƏHAL, PƏJMÜRDƏ.**

2. pərişan *bax* qəmli

pərişanhal *bax* pərişan **I**

PƏRİŞANLIQ, AŞÜFTƏLİK, POZĞUNLUQ

PƏRQU (*qu quşunun yumşaq tükü*) Sən gah gedib oyna, gah da dərsə çalış; Otur dalındaca *pərqu* nazbalış (M.Rahim); **QU TÜKÜ** Soyuq küləklə bərabər içəri dolan qar, *qu tükü* kimi havada uçuşurdu (M.Hüseyn).

PƏRT (*utandırılmış, tutulmuş və s.*) Axşam Kərim evə qayıdanda Könülü *pərt* gördü (X.Hasilova); **QANIQARA** (*çox pərt*) Şaxtada tünd qızarmış Veysəl yenə *qanıqara* gəldi (B.Bayramov); **DİLXOR** (*bax*), **İNCİK.**

pərtdək *bax* domba

PƏRTLİK (*ruh düşkünlüyü*) [Mirhadi:] Balaca ədəbə kimi igidlərin kürəyini bir göz qırpımında qoyur yerə, əsil *pərtlik* o yıxılanda olar (H.Abbaszadə); **QANIQARALIQ** [Yusif:] Yox, Qəmər, bir də Camala rast gələni, *qanıqaralıq* olacaq (S.Rəhimov); **MƏYUSLUQ** Bu qadının çöhrəsində bir *məyusluq* görünürdü, onu gözləyən ac uşağına bir parça olsa da çörək tapmamışdı, kiçik qızcığazının yanına ölübəs gedirdi (S.S.Axundov).

I pərtəv *bax* işıq

II pərtəv *bax* nizamsız **1**; laqeyd

pərtəvlik *bax* nizamsızlıq; laqeydlik

pərvanə *bax* **1.** kəpənək; **2.** pər **I**

pərvərdigar *bax* Allah **I**

pərvin *bax* ülkər

PƏSDƏN Qəribəsöyib ərəbir; Uşaq oxuyur *pəsdən* (Ə.Kərim); **ASTADAN** Bu vaxt həyətdə uşaq, Oxuyurdu astadan (Ə.Kərim); **ALÇAQDAN, YAVAŞCADAN.**

pəsər *bax* oğul

paşov *bax* sidik

PƏTƏK (*arı pətəyi*) [Hüseynqulu ağa və Piri kişi] qızları götürüb arı *pətəklərinin* tamaşasına getdilər (S.S.Axundov); **SƏBƏT** [Piri kişi:] İndi onu tutub təzə arı *səbətlərinə* salmalıyıq (S.S.Axundov).

pətənək *bax* qursaq

payə *bax* töylə

PIRTLAŞIQ, DOLAŞIQ, QARIŞIQ

PIRTLAŞMAQ, DOLAŞMAQ, QARIŞMAQ

pianino *bax* piano

PİANO Bəstəkar da bağına qayıtdı. Yeni *piano* gecədən xeyli keçənədək susmaq bilmədi (X.Hasilova); **PİANİNO** [Almaz:] Çünki siz burada yox idiniz, *pianino* üçün kağızı mən yazmışam (C.Cabbarlı).

pik *bax* təpə **I**

PİLƏTƏ Soriyyə pilotənin üstündəki xörəyi qarışdırmağa getdi (M.Hüseyn); **MAŞİNKA** Rüstəm kişi .. maşinkanı yandırıb qazanı onun üstünə qoydu (M.İbrahimov); **KEROSİNKA.**

PİLLƏKƏN [Afət:] Gəl gedək, bu gün də, qadın pəhləvan; Qaldır o inəyi qırx *pilləkəndən* (A.Şaiq); **ESKALATOR** (*hərəkət edən pilləkən*) Biletlərimizi hərəkətedici pilləkənlər (*eskalator*) başında durmuş milisionerə göstərərək, ayaqlarımızı ilk pilləyə basırıq və pilləkən tez bizi götürüb gedir (Ə.Məmmədxanlı); **NƏRDİVAN** (*ağacdan, dəmirdən və s.-dən qayrılmış pilləkən*) Taxtərəvanın dalısından *nərdivanı* götürüb yerə qoydular (M.S.Ordubadi).

pilot *bax* təyyarəçi

1. PİLTƏ (*maşınkada, lampada*) Kiçik bir saxsı qabın içinə quyruq əridib tökür, *piltə* salıb yandırırdılar (A.Şaiq); **FİTİL** Arvad istər-istəməz maşınkaya sarı getdi, *fitilini* düzəldib aşağı çəkdi (S.Rəhman).

2. PİLTƏ (*partlayış işlərində*) [İsmayıl Türbətə:] Dinamitin *piltəsini* ki gördün?.. (C.Cabbarlı); **FİTİL** Alyoşa çantasında olan bütün qumbaralara *fitil* qoyaraq gözləməyə başladı (Ə.Əbülhəsən).

3. PİLTƏ (*tib.*) Cərrah Soforin yarasının *piltəsini* yenicə dəyişmişdi (Çəmənzəminli); **FİTİL, TAMPON.**

pinə *bax* **1.** yamaq; **2.** döyənək

pinəçi *bax* yamaqçı

PİNTİ (*natəmiz, çirkli, səliqəsiz adam haqqında*) Üz-gözündən rəng yağır *pinti* bir rəngsaz kimi (S.Rüstəm); **DABANIÇATLAQ** (*dan.*) Yerə kölgayı sərib, qızı onun üstündə gəzdirərdilər ki, görsünlər, kölgayı qırışmır ki, ..qırışmış olsa, *dabamçatlaqdır*, deyə almazdılar (R.Əfəndiyev); **KƏSİF, SƏLİQƏSİZ, NATƏMİZ.**

I PİR (*din.*) Bu cümə *pirə* gedən tək bir bunlar deyildilər (N.Nərimanov); **OCAQ** [Nənə:] Daha *ocaq* qalmayıb ki, torpağından bədəninə sürtülməsin, şəfa tapmır, bətnizi gül kimi solub (Çəmənzəminli).

II pir *bax* qoca **1**

PİS, BƏD, YAMAN (*müxtəlif mənalarda*) Of bu məstin nə fəlakətli, *yaman* haləti var; Nə kərih mənzəri, *bəd* surəti, *pis* adəti var (A.Səhhət); **AĞLAMALI** *Ağlamalı* günün axırətdədir; Hələ indi səndə nə var, ağlarsan (M.P.Vaqif); **BEŞBƏTƏR** (*dan.*) [Xədicə:] Az, mənim *beşbətər*, namala bir sir-sifəti ola (Anar); **BƏTƏR** (*köhn.*) [Cəlilov:] Bundan *bətər* vəhşilik təsəvvürümə gətirmirəm (H.Abbaszadə); **FƏNA** [Əbülhəsən bəy:] Özümü çox *fəna* hiss edirəm, rahatsızam (M.S.Ordubadi); **MURDAR** (*dan.*) Vay, Allah səni yox etsin, gör nə *murdar* səsi var, deyə Gülpəri qarğış elədi (S.S.Axundov); **YÖNSÜZ** [Hatəm xan:] *Yönsüz* oğul neylər ata malını (S.Rəhimov).

pisrəftar *bax* bədxasiyyət

pistolet *bax* tapança

pişikkeçməz *bax* sıx **1**

pişling *bax* badalaq **1**

pıştov *bax* tapança

piti *bax* bozbaş

pitik *bax* dua

PİVƏ Girdik pivəxanaya, iki stəkan *pivə* ilə bir nəlbəki noxud gətirdilər (Qantəmir); **ABCO** [Mübaşir Məmməd:] Mən bilirəm ki, Şiraz şərabı *abcodan* ləzzətlidir (M.İbrahimov); **ARPASUYU** (*dan.*) Çünki o, *arpasuyunu* övladından da çox istəyir (F.Mustafayev).

PİYADA İstəyirdi bu yerləri addım-addım, həm də torpağın ətrini duya-duya *piyada* gəzsin (S.Qədirzadə); **AYAQLA** Domiryol sərnişin vağzalı Mansurgildən uzaqda olsa da o, bu dəfə nə taksiyə minmiş, nə də metroya; evdən *ayaqla* gəlmişdi (H.Abbaszadə); **PAY-PİYADA** *Pay-piyada* keçəydim neçə obadan, eldən (Ə.Kürçaylı).

PİYALƏ Allahqulu *piyalələri* dodaqlarına yaxınlaşdırıb, bir qurtum aldı, həyəcan keçirən adam kimi, bir az düşünüb sözünə davam etdi (Çəmənzəminli); **AYAQ** (*kl.ad.*) Ta girib meyxanə içrə başıma çəkdin *ayaq* (S.Ə.Şirvani); **BADƏ** (*məc.*) Muxtar arvadının sağlığına neçə *badə* qaldıra bilər? (B.Bayramov); **BAKAL** [Camal:] Dostumuza bir *bakal*, bir də boşqab! (Y.Şirvan); **CAM** Dur saqi, ayağa, ver dolu *cam;* Bu səy ilə hasil olmadı kam (A.Şaiq); **QƏDƏH** Qonaqlar öz *qədəhlərini* Həmidin qədəhlərinə vurdular (B.Bayramov); **PEYMANƏ** (*kl.ad.*) Sındırma qəlbimi *peymanə* kimi (M.Rahim).

piyan *bax* sərxoş

PLANET Göründüyünüz... Aya, Marsa və ya başqa *planetlərə* ilk ayaq basanların birincisi bizim bu təyyarəçilər olacaqlar (Mir Cəlal); **SƏYYARƏ** Mənəm ilk xəbəri verən dünyaya; Uzaq *səyyarədən*, ulduzdan, Aydan (M.Rahim).

plantasiya *bax* tarla

PLAŞ [Zərif:] Azər, gedək, plaşımı sizin otaqda qoymaq istəyirəm (Ə.Kərim); **MAKİNTOŞ** (*köhn.*) Ədə, orda mənim *makintoşum* vardı. O, necə oldu? (S.Qədirzadə); **YAĞMURLUQ** [Sirat] evə gəlib silahlandı. *Yağmurluğu* aldı (Ə.Əbülhəsən).

PLATİN, AĞQIZIL

1. PLATFORMA (*qatar duran dəmiryolu dayanacağı*) Qoca fəhlə yaylığını çıxarıb gözlərini siləndə artıq qatar *platformadan* uzaqlaşmışdı (A.Şaiq); **PERRON** (*sərnişin-*

lərin duracaq yeri) *Perronda* adam çoxalmışdı (H.Abbaszadə); **DEBARKADER.**

PLOV [Səkinə:] Sənin plovuna *plov* çatmaz, Həmidə bacı (Anar); **AŞ** [Ana:] Bayram *aşıdır*, indicə Qönçəbəyim gətirdi (S.Qədirzadə).

plyaj *bax* çimərlik

poçtaçı *bax* poçtalyon

POÇTALYON Qoca *poçtalyondan* qəzet və jurnalları alaraq ildırım sürəti ilə yuxarı dırmaşıb sahiblərinə çatdırmaq onlara ləzzət verirdi (M.İbrahimov); **POÇTAÇI** Birdən qapı döyüldü və "Xəlil Abbasov" – deyə *poçtaçı* içəri bir məktub atdı (Çəmənzominli); **QƏZET/KAĞIZ PAYLAYAN** [Arvad:] Allahın *qəzetpaylayanı* da öz işini özü görmək istəmir (M.İbrahimov); **MƏKTUB-PAYLAYAN.**

podval *bax* zirzəmi

POEMA (*ədəb.*) "Xosrov və Şirin" poeması yüz illər ərzində bir sıra xalqların ədəbiyyatına təsir etmişdir.. (M.İbrahimov); **DASTAN** "Xosrov və Şirin" *dastanı* səlcuqilərin 14-cü və son hökmdarı Rükndin Toğrulun sifarişi ilə yazılmışdır.. (M.S.Ordubadi).

POETİK, ŞAİRANƏ, BƏDİİ

polimika *bax* mübahisə **2**

1. POLİS (*polis, milis işçisi*) ..şəhərin bir çox yerindən, *polislər* tərəfindən işçilərin güllələ tutulması xəbəri gəlib çatdı (S.S.Axundov); **AJAN** (*köhn.*) Bir az yaşlıları isə dustaq aparan ajanlar.. "Noşəhr"in qapılarına qədər *dustağı* müşayiət edərdilər (M.İbrahimov); **KVARTAL** (*köhn.*) Dolanır bazarı darğa, *kvartal;* Döyülür sifətlər, yolunur saqqal (Q.Zakir); **MİLİS** Heydərqulunun ömrü ilə *milislər* Qaraoğlanın meyitini öz atına sarıdılar (S.S.Axundov); **MİLİSİONER** [Biqəm Balaxanıma:] Səni alan gərək evində *milisioner* saxlasın (Anar).

2. polis *bax* polisiya

polisemantik *bax* çoxmənalı

polisemiya *bax* çoxmənalılıq

POLİSİYA, MİLİS, MİLİSİYA, POLİS (*polis idarəsi*)

POLİTEİZM (*fəls.*), **ÇOXALLAHLILIQ**

polk *bax* alay **1**

POLKOVNİK (*polk komandiri*) [Nazir Ağagülə:] Bu nədir, *polkovnik?* (Ə.Məmmədxanlı); **SƏRHƏNG** Onun bir gözündə Xosrovun arzu etdiyi dünya və xalq canlanırdısa, o biri gözündə.. əzablar, tacirlər.. *sərhənglər*, sərtiblər, xəfiyyələr.. canlanırdı (M.İbrahimov); **MİRALAY** (*köhn.*) Jandarm onbaşısı mərtəbəyə girdi, vəziyyəti jandarm *miralayına* xəbər verib yenə də bayıra çıxdı (M.S.Ordubadi).

port *bax* liman **1**

portfel *bax* çanta **1**

PORTMANAT (*pul qoymaq üçün kisə*) Nəməlum adam ağayana hərəkətlə, tələsmədən qoltuq cibindən böyük bir *portmanat* çıxardı (M.İbrahimov); **KİSƏ** [Qurban] *kisəsini* çıxarıb, iki şahı mollanın ovcuna sıxaraq: "Al, həmşəri!.." – deyə qalxdı (A.Şaiq); **PULQABI** Mən əlimi uzatdım cibimə, *pulqabımı* çıxartdım.. (C.Məmmədquluzadə).

portret *bax* şəkil **1**

postal *bax* ayaqqabı

1. POTA Qara qılı ayı öz *potalarını* buradan çıxarır, qabaqdakı seyrək palıdların dibinə çəkirdi (S.Rəhimov); **AYI BALASI (POTASI)** Mağara o qədər kiçik idi ki, *ayı potası* apaçıq görünürdü (A.Şaiq).

2. pota *bax* kök **I**, totuq

POZAN (*yazı, şəkil və s.-ni pozmaq üçün ləvazimat*) [Mehriban:] Niyə dəftəri çirkləndirirsən? – dedi və *pozan* ilə silməyə başladı (M.İbrahimov); **REZİN** [Göldiyevin] düz on yeddi gün qələm, xətkeş, pərgar, *rezin* əlindən düşmədi (Mir Cəlal); **REZİNKA.**

1. POZĞUN, POZULMUŞ

2. pozğun *bax* **1.** əxlaqsız **1**; fahişə; **2.** pərişan **1**

pozğunluq *bax* **1.** əxlaqsızlıq, fahişəlik; **2.** pərişanlıq

praktik *bax* təcrübəli

praktika *bax* təcrübə **3**

predikat *bax* xəbər **2**

PREFİKS (*qram.*), **ÖNŞƏKİLÇİ**

pres *bax* mənqənə

PRESS, MƏTBUAT

1. PREZİDENT, DÖVLƏT BAŞÇISI, HÖKUMƏT RƏHBƏRİ

2. PREZİDENT, BAŞÇI, RƏHBƏR, SƏDR

primitiv *bax* ibtidai **2**

prins *bax* şahzadə

PRİZ, MÜKAFAT

professional *bax* peşəkar

proklamasiya *bax* bəyannamə

PROKUROR Zaldakılar *prokurora* diqqətlə qulaq asırdılar (H.Abbaszadə); **MÜDDƏYİ-ÜMUMİ** (*köhn.*) [Xosrov:] Yenə kimdir çağıran, müstəntiqdir, *müddəyi-ümumidir*, ya kimdir? (M.İbrahimov).

PROQRAM, MƏRAMNAMƏ, PLATFORMA

proletar *bax* fəhlə

PROLETARİAT (*köhn.*) [Svetayev:] Lakin biz deyirik ki, inqilabı yalnız *proletariat* son qələbəyə çatdıra bilər (M.Hüseyn); **FƏHLƏ SİNFİ** [Almaz:] Bu ağır halda siz ancaq *fəhlə sinfinin* və şəhərin köməyi ilə, dəmir atlarla, dəmir qanadlarla çıxa bilərsiniz! (C.Cabbarlı).

proloq *bax* müqəddimə

PROSPEKT O, gecələr işləyib yorulanda hərdən küçə balkonuna çıxır, *prospektdən* gəlib-gedən adamlara, şütüyən maşınlara... tamaşa edirdi (H.Abbaszadə); **XİYABAN** (*köhn.*) Meydançа, Şahpur *xiyabanı*, örtülü bazara gedən küçələr adamla dolu idi (M.İbrahimov); **CADDƏ** (*köhn.*) Baxırsanmı.. *caddəsi* nə qədər gözəldir (C.Bağır).

PROTOKOL [Kərəmov:] Bunların hamısını *protokolda* bir-bir yazdırmışam (S.Rəhman); **BƏRATƏLQÖVL** (*köhn.*) [Pristav:] Mənə də əmr olunubdur ki, sizi danışdırıb, *bəratəlqövl* yazıb, silistçiyə göndərim (Ə.Haqverdiyev).

provizor *bax* aptekçi

provokasiya *bax* fitnəkarlıq

provokator *bax* fitnəkar

proyekt *bax* layihə

psixi *bax* ruhi

puç *bax* fani

puçur *bax* tumurcuq

PUDRA İlhamın günəşidir o ala gözün; *Pudra,* boya nədir bilməz ömründə üzün.. (S.Rüstəm); **AĞARTI** (*köhn.*) Bir oldə *ağartı*, birində daraq; Daranır üstündə muyu çeşmənin (Qoşma); **KİRŞAN** Ənliyi, *kirşanı* neylər camalın; Sən elə gözəlsən binadan, Pəri (M.P.Vaqif).

PUDRALAMAQ (*pudra vurmaq*) Xanım.. üzünü *pudralayırdı* (Çəmənzominli); **KİRŞANLAMAQ** Ay, İsmayılın məqbərəsi üzərindəki minarənin dalısına keçib üzünü *kirşanlamağa* başladığı zaman Hüsəmoddin də Səba xanımın hazırlatdırdığı atı minib Xarəzm məmləkətinə doğru qaçırdı (M.S.Ordubadi).

PUDRALANMAQ, KİRŞANLANMAQ

PUDRALI (*pudra vurulmuş*) [Sultan:] Biz tacirlərin *pudralı* uşaqları ilə deyil, Zəngəzurun çal kərələri ilə kəllə-kəlləyə vururuq (S.Rəhimov); **KİRŞANLI** Hüsəmoddin Qətibənin çadırına yaxımlaşdığı zaman Qətibə də çadırın pərdəsini qaldırıb qara buludlarla qucaqlaşan on dörd gecəlik ayın *kirşanlı* çöhrəsini seyr edirdi (M.S.Ordubadi).

1. PUL [Tükəz:] Uşaq aşıq yığan kimi, bu qədər *pulu* yığıb nə eləyəcəksən? (M.F.Axundzadə); **AĞCA** (*köhn.*) Bizim də bolluca ağcamız olar (S.Vurğun); **XƏRCLİK** (*dan.*) [Adilə:] Hələ hər ay anaya da *xərclik* göndərə bilərik (Ə.Qasımov); **KAPİTAL** (*dan.*) Əliyar bəy Tağıyevin *kapitalına* istinad edən kimi, Ağa bəy də milyoner Murtuza söykənirdi (Çəmənzominli); **PARA** [Qız:] Əmim *para* düşkünü, tamahkar bir adam olduğundan, məni belə bir zəngin adama vermək istəyirdi (S.Hüseyn); **ƏSGİNAS** (*bax*).

2. pul *bax* var-dövlət

3. pul *bax* pulcuq

pulagir *bax* pulpərəst

PULCUQ (*balıqların əksəriyyətinin üzərindəki pərəklər*) Xarı balığının bədəni sümük *pulcuqlarla* örtülmüşdür ("Zoologiya"); **AĞCA** Qumun üzərində sərilmiş balıqlar, öz *ağcalarını* parıldada-parıldada .. çapalayırdı (S.Rəhimov); **PUL.**

PULEMYOT [Zeynal:] Yaramı tamam unutdum. Yenidən *pulemyotun* yanına süründüm (B.Bayramov); **MAKSİM** Budur gözlənilmədən bir anda susdu "*maksim*"; Qırıldı bu üç dostun könül sazındakı sim (S.Rüstəm).

pulgir *bax* pulpərəst

pulgirlik *bax* pulpərəstlik

pulqabı *bax* portmanat

pullu *bax* varlı

PULPƏRƏST [Adilə:] Həmzə, sən canın *az pulpərəst* ol (Ə.Qasımov); **PULAGİR** (*dan.*) [Həsən bəy:] Rüstəm bəy *pulagir* adam deyildir (Ü.Hacıbəyov); **PULGİR** Xəsis və *pulgir* olan, qiymətli daş-qaşdan gözü doymayan rəhmətlik anası da bu fikirdə idi (M.İbrahimov).

PULPƏRƏSTLİK Bütün bu sözlər, bu hərəkətləri ilə Dursunu qənaətkarlığa və *pulpərəstliyə* alışdırmaq istəyirdi (A.Şaiq); **PULGİRLİK** [Qiyas:] O ki, qaldı qeyrət ... məgər qeyrət aləmi basıb yemək, əlivə keçəni qapışdırmaqdır, *pulgirlikdir?* (Anar); **PULAGİRLİK.**

1. PULSUZ (*pulu olmayan*) Fələ, özünü sən də bir insanmı sanırsan?! *Pulsuz* kişi insanlığı asanmı sanırsan?! (M.Ə.Sabir); **PARASIZ** (*köhn.*) Adəmi adəm eyləyən paradır; *Parasız* adəmin üzü qaradır! (M.Ə.Sabir).

2. pulsuz *bax* müftə

PUSQU "Pomoşnik İsfəndiyar" adlı şorgöz yasavul Qulamla birlikdə yüzbaşının yanına gedib məsləhəti-məşvərətdən sonra bu qərara gəldilər ki, Kür qırağında *pusquda* dayanıb qaçaqları tutsunlar (Ə.Vəliyev); **MARIQ** Özümü kolların içinə vurdum; Saatlar uzunu *marıqda* durdum (M.Rəhim); **BƏRƏ** Naşı ovçu *bərə* bəklər, əylənər; Marallar sayrışar yollara doğru (Qurbani).

PUSMAQ Axı onun nəyinə gərəkdir günahsız, zavallı adamları *pusub* yolunu kəssin, koldan çıxıb soyundursun? (M.İbrahimov); **DALINA DÜŞMƏK** [Şamama Cadu:] Bu gündən *düşürəm* onun *dalına* (Ə.Haqverdiyev); **GÜDMƏK** Bu fikirlə Həsən arvadını *güdməyi* qərara aldı (M.İbrahimov); **İZLƏMƏK** Üstü örtülü səbətlərdən şübhələnmiş polis xəfiyyəsi, uzaqdan-uzağa Qulam dayını *izləyirdi* (M.Hüseyn).

püfkürmək *bax* üfürmək

püfləmək *bax* üfürmək

pünhan *bax* məxfi

pür *bax* çox

pürqeyrət *bax* qeyrətli

pürqiymət *bax* bahalı

pürməna *bax* mənalı

PÜRRƏNG(İ) (*yaxşı dəmlənmiş çay*) [Topal:] Ay bacı, uduzana bir *pürrəng* çay (Ə.Qasımov); [Həmidə:] Bir stəkan *pürrəngi* çay süzüm sənə (Anar); **XORUZPİPİYİ** Üç yoldaş termosdan tökdüyümüz buğlanan tünd *xoruzpipiyi* çaydan içə-içə söhbət edirdik (M.Rzaquluzadə); **QANOVUZU** Şamama dəmdə olan ağ samovardan, qədimlərdə deyildiyi kimi, *qanovuzu* bir çay töküb gilənar mürəbbəsi ilə mənim qabağıma qoyur (İ.Əfəndiyev).

pürsəfa *bax* səfalı

pürvüqar *bax* vüqarlı

PÜŞK *Püşk* atmaq gərək, – deyib kim isə pıqqıldadı (M.İbrahimov); **ÇÖP** (*dan.*), **QÜRƏ** (*köhn.*) Uşaqlar iki dəstəyə ayrılırlar. *Qürə* (*çöp*) atırlar ("Azərbaycan folkloru antologiyası").

pyes *bax* dram

Rr

1. RABİTƏ, ƏLAQƏ, KOMMUNİKASİYA, TELEKOMMUNİKASİYA (*uzaq rabitə*), **TELERABİTƏ** (*uzaq rabitə*)

2. rabitə *bax* əlaqə **1**

race *bax* aid

racə *bax* knyaz

radar *bax* radiolokator

RADİO Ata və oğul nahardan sonra *radio* qabağında əyləşib verilişə qulaq asırdılar (Mir Cəlal); **QƏBULEDİCİ** ..Radioları qurun! Mən tez *qəbuledicini* işə saldım (Y.Əzimzadə); **RADİOQƏBULEDƏN** Bir gün bizim patefon; *radioqəbuledən;* bir də ki, televizor; mübahisə etdilər (M.Rzaquluzadə); **RADİOQƏBULEDİCİ** O [Həmzə], asta-asta gəlib *radioqəbuledicini* açdı (Ə.Qasımov); **RADİOTUTAN** Balaca stolun üstündə də telefon, *radiotutan* vardı (M.İbrahimov).

radioqəbuledici *bax* radio

RADİOLOKATOR (*Fəzadakı obyektlərin yerini radio dalğaları vasitəsilə müəyyən edən aparatlar*), **RADAR**

radiotutan *bax* radio

rah *bax* yol **1**

1. RAHAT, ASAN, ƏZİYYƏTSİZ

2. rahat *bax* asudə, arxayın **1**

rahatxana *bax* ayaqyolu

rahatlanmaq *bax* **1.** dincəlmək; **2.** sakitləşmək **2**

1. RAHATLIQ, ARAM, ASUDƏLİK, QAYĞISIZLIQ, QULAQ DİNCLİYİ, QƏRAR

2. rahatlıq *bax* istirahət

rahatsız *bax* narahat

rahatsızlıq *bax* narahatlıq

RAHİB (*din.*), **ABBAT**

RAHİBLİK (*din.*), **ABBATLIQ**

rasta *bax* çarsu(ı)

RASTLAŞMAQ [Kəbirlinski] bir dəfə həyatda vedrə ilə su daşıyırdı, Feyzullayla pilləkəndə *rastlaşdı* (Anar); **QABAQABAĞA GƏLMƏK** Qürbət bir şəhərin bazarında iki adam *qabaq-qabağa gəlib* birbirinə zənn ilə baxdılar (Çəmənzəminli); **QARŞILAŞMAQ** Firudin onlara [tələbələrə] fikir verməyib gəzmək istərkən Qurban Mərəndi ilə *qarşılaşdı* (M.İbrahimov); **RAST GƏLMƏK** Əbədiyyət pasportunu almısan son davada; Mən sənə *rast gəlirəm* Bakıda, Moskvada (S.Rüstəm); **ÜZ-ÜZƏ GƏLMƏK** Bir dəfə hətta, müsavat parlamentinə üzvlər seçilməyə hazırlıq apardığı zaman, partiyanın liderlərindən Məmmədəmin Rəsulzadə ilə *üz-üzə gəldik* (A.Şaiq).

rayihə *bax* qoxu

rayihədar *bax* qoxulu

rayihəli *bax* qoxulu

RAXİT (*tib.*); **GƏVƏŞ** (*dan.*)

RAYON O, şəhər və *rayonları* ciddi nəzarət altına alırkən, əməkçilərin ümumi iclası Keşlə düzündə baş tutdu (M.S.Ordubadi); **NAHİYƏ** (*köhn.*) Məni Püsyan *nahiyəsinin* firqə özəklərində mühazirə oxumağa göndərdilər (Ə.Vəliyev); **REGİON.**

RAZI *Razıyam* oğlum gedə qəbrə, – nə ki məktəbə! Məktəb adım çəkməyin, – mələləbdir, mələlə!.. (M.Ə.Sabir); **MƏMNUN** Neyləmişsən Molla Səfi, Bəybaba; *Məmnundu,* əzizim, bu qədər sondan (Q.Zakir); **XOŞNUD** (*kl.əd.*) [Fərman:] Bircə de görüm, əmim ağa ilə qohum olmaqdan *xoşnuddurmu?* (Ə.Haqverdiyev); **RİZAMƏND** (*kl.əd.*).

RAZILAŞMAQ Kişi yenə də başını buladı və guya əlacsız qalıb *razılaşdı*.. (H.Seyidbəyli); **ANLAŞMAQ** (*köhn.*) Bu asan iş deyildi; dəftərxanada bir məmurla *anlaşıb,* matrikuldakı rəsmin yerinə Bəhramın rəsmini qoymalı idi (Çəmənzəminli); **RAZI OLMAQ.**

RAZILIQ ..bir az fikirləşdi, *razılıq* işarəsi olaraq başını torpədi (M.Hüseyn); **XOŞNUDLUQ** *Xoşnudluğumdadır* nicatım; Ey, mənim cövhəri-həyatım! (Füzuli); **RİZA** [Qətibə:] Mən özüm *riza* verməsəydim, o məni heç kəsə ərə verə bilməzdi (M.S.Ordubadi); **RİZAMƏNDLİK** Mən iyirmi ildir

vilayət böyüklərinə qulluq edirəm. İyirmi *rizaməndlik* kağızım var (M.F.Axundzadə); **MƏMNUNLUQ** (*bax*).

real *bax* **1.** həqiqi; **2.** obyektiv **1**

reallıq *bax* həqiqət

REDAKSİYA Dedim *redaksiyada* oxuyuram, elə ki, boyəndilər, çap etməli oldular, gətirib Mina xanımı da tanış edərəm (M.İbrahimov); **QƏZETXANA** (*köhn.*) [Həsən:] Sən qanan budur ki, *qəzetxanada* işləyən adam gərək quzey qarı kimi təmiz olsun, polad kimi möhkəm, haqqı nahaqqa verməsin (Ə.Qasımov).

REDAKTOR Jurnalın təşəbbüskarı, təşkilatçısı və *redaktoru* C.Məmmədquluzadə "Molla Nəsrəddin" imzası ilə müntəzəm surətdə məqalələr dərc edirdi (M.İbrahimov); **MÜHƏRRİR** (*köhn.*) [Anri:] Doğrudur, *müharrir* belə yazını çap etməyəcəkdir (S.Vəliyev).

reforma *bax* islahat

region *bax* rayon

renessans *bax* intibah

repitisiya *bax* məşq

resenziya *bax* rəy **2**

resenziyaçı *bax* rəyçi

RESEPT Qapıdan içəri daxil olduqda Qulamdan başqa, qısaboylu, ortayaşlı, başında 60-70 manata dəyən bir papağı olan həkimi masa üzərində oturub, *resept* yazan gördü (S.S.Axundov); **NÜSXƏ** (*köhn.*) Həkimin *nüsxəsini* heç dərmanxanaya aparmadım (Mir Cəlal).

RESEPTÇİ, NÜSXƏBƏND (*köhn.*)

RESPUBLİKA [İvanov:] Hələ ki, bu yerlər onlarındır, bizim deyildir, Azərbaycan *Respublikasıdır* (C.Cabbarlı); **CÜMHURİYYƏT** [Balağa:] Bizim *cümhuriyyətin* adını başqa yerlərdə keçirilən yarışlarda namusla, ləyaqətlə ucaltmağa qadirdirlər (H.Abbaszadə).

restoran *bax* yeməkxana

REVMATİZM (*tib.*) Böyük oğlu İmran *revmatizmdən* yatırdı.. (Mir Cəlal); **YEL AZARI/XƏSTƏLİYİ** Ailəsi bir sahibkarın zirzəmisində yaşadığından uşaqlarının hamısı *yel azarına* tutulmuşdu (M.Hüseyn).

revolver *bax* tapança

REJİSSOR [Dursun:] Deyir mən *rejissoram* belə deyirəm (C.Cabbarlı); **ŞƏBİHGƏRDAN** (*köhn.*) Rejissor (yaxud *şəbihgərdan*) daim iştirak edənlər arasında gəzişərək, əlindəki əsa ilə hər kəsə öz çıxış vaxtını işarə edib bildirir (Ə.Haqverdiyev).

REJİSSORLUQ [Mazandaranski:] İndi nə *rejissorluğu* əlindən alan var, nə premyerliyini (C.Cabbarlı); **ŞƏBİHGƏRDANLIQ** (*köhn.*) Bu həngamə neçə əsr əvvəl İran tarixində təsadüf edilən *şəbihgərdanlıq* şəklində qalsaydı, etiraz edilməzdi (Çəmənzəminli).

rezin *bax* pozan

rezinka *bax* pozan

rəbb *bax* Allah **1**

rəd *bax* iz **1**

RƏF Həmid onun yaxasının düymələrini açdı, *rəfdən* bir kitab götürüb Pyotr Anisimoviçin üzünü yellədi (H.Abbaszadə); **DOLAB** Otaqda iki qədim kitab *dolabı* qoyulmuşdu (Y.Şirvan); **QƏFƏSƏ** Bu müddətdə sovxoz dülgərləri Kamilin çertyoju əsasında bir neçə dəzgah və *qəfəsə* düzəltdi (H.Abbaszadə); **LƏMƏ** Divana, kitab *ləmələrinə*, divardakı şəkillərə baxdı və nəhayət, gözlərini mənim gözümə dikib gülümsədi (M.İbrahimov).

rəfiq *bax* dost

RƏFİQƏ Dedim: – Hə... Sənin bir *rəfiqənə* söylədim ki, qoy desin (Ə.Kərim); **BACILIQ** [Güllü:] İndi, bu gün *bacılığım* gələcək, vallah, bilmirəm üzünə necə baxacağam (Ə.Haqverdiyev); **QIZ YOLDAŞI** O, evdə ağlaya-ağlaya qoyub gəldiyi anasını, *qız yoldaşını* xatırladı (M.Hüseyn).

rəftar *bax* davranış

RƏHBƏR (*müxtəlif mənalarda*) Başımın üstündə müqəddəs Quran; Sənə inanıram, ölkə *rəhbəri* (M.Araz); **BAŞÇI** Bəhmənin Musa kimilərdən zəhləsi gedirdi, tərslikdən o da gəlib düşmüşdü qruplarına, həm də üstlərinə *başçı* qoymuşdular (H.Abbaszadə); **BAŞ** (*dan.*) [Vahid:] Şəkərlinski böyüyü-

müzdür, *başımızdır* (M.İbrahimov); **BAŞBİLƏN** (*dan.*) Kankan Qeybəli öz dərrəkəsilə bildirdi ki, gərək belə bolşeviklərdən *başbilənləri*, yəni başçıları inqilabi arzuları yerinə yetirmək üçün, bolşevik idarələrində bərqərar və hökmdar olsunlar (S.Rəhimov); **SÜKANÇI** (*məc.*) [Almaz:] Bir də yoldaşlar, sovet sədri kənddə ictimai işlərin *sükançısı* olmalıdır (C.Cabbarlı); **LİDER, ÖNDƏR.**

RƏHBƏRLİK, BAŞÇILIQ, LİDERLİK, RƏYASƏT

RƏHM, İNSAF *Rəhm*, aman diləyən ahu tək yalvarırdı; Gözüm qızmışdı mənim, məndə *insafım* vardı (B.Vahabzadə); **AMAN** Ovçuda *aman* olur; Əlində kaman olur.. (Bayatı); **İLTİFAT** Kəsmə *iltifatın* qul Ələsgərdən (Aşıq Ələsgər); **İNAYƏT** (*kl.ad.*) [Mələk:] Yarəb, azacıq lütfü *inayət!* Qəhr olmada artıq bəşəriyyət (H.Cavid); **MƏRHƏMƏT** [Rza:] Heç kəsin *mərhəmətini* istəmirəm... (M.İbrahimov); **MÜRÜVVƏT** [Tarverdi:] Adamda rəhm, *mürüvvət* yaxşı şeydir (M.F.Axundzadə); **ŞƏFQƏT** [Nuxulular:] Bəli, ağa, ogor *şəfqətiniz* şamil olsa (M.F.Axundzadə); **TƏRƏHHÜM** (*kl.ad.*) Rəhm eylə, *tərəhhüm* çağıdır, xan, sənə qurban (A.Şaiq); **LÜTF.**

rəhman *bax* rəhmli

rəhmdil *bax* rəhmli

rəhmətlik *bax* mərhum

rəhmkar *bax* rəhmli

RƏHMLİ Molla Cəfərqulu *rəhmli* adam idi (N.Nərimanov); **RƏHMAN** (*kl.ad.*) Amma nə ərəbcə biliyormuş, pah atonnan; Göz doymamək üçün bunu hifz eləyə *rəhman* (M.Hadi); **MƏRHƏMƏTLİ** [Rüxsarə] axşamdan sübhə qədər... *mərhəmətli* əlini xəstənin başına qoymuşdu (S.Rəhimov); **RƏHMDİL** Hədə-qorxu ilə yox, həvəsləndirmək, ruhlandırmaq yolu ilə.. xanım *rəhmdil* və ağıllı arvad idi (M.İbrahimov); **RƏHMKAR** [Şah Abbas] çox *rəhmkar* şəhdir ("Qurbani"); **ŞƏFQƏTLİ** Qadın! Ey sevgilim, *şəfqətli* mələk! Bu qədər sobrü təhəmmül nə demək? (H.Cavid); **İNSAFLI.**

rəhmsiz *bax* zalım

rəhmsizlik *bax* zalımlıq

rəhn *bax* girov **2**

rəhnüma *bax* bələdçi

rəxt *bax* paltar

rəxtxab *bax* yorğan-döşək

1. RƏİS (*polis rəisi*) [Pirvəli:] Bəs sən *rəisimiz* deyilsən? (M.Hüseyn); **NAÇALNİK** İçəridə isə *naçalnikdən* başqa heç kəs yox idi (M.Hüseyn).

2. rəis *bax* müdir

rəiyyət *bax* vətəndaş

RƏQƏM, ƏDƏD, SAY

1. RƏQİB (*idm.*), **QARŞI TƏRƏF**

2. rəqib *bax* düşmən

RƏQS *Rəqsi* belə bitirmək Qaraca qızın adəti idi (S.S.Axundov); **OYUN** Dörd-beş şansonetka və orkestr hazır oldu. *Oyun* və çalğı başlandı (A.Şaiq); **RƏQSETMƏ, OYNAMA.**

rəml *bax* fal **1 1**

rəmlçi *bax* falçı

rəmmal *bax* rəmlçi

rəna *bax* gözəl **1, 2**

rənc *bax* zəhmət **3**, əmək

rəncbər *bax* **1.** əkinçi; **2.** cütçü

rəncbərlik *bax* əkinçilik **1**

rəncidə *bax* incik

rəncidəhal *bax* incik

rəncidəxatir *bax* incik

rəncidəlik *bax* inciklik

RƏNG, BOYA Saçıldı çöllərə min *rəng*, min *boya;* Sonalar göllərdə baş vurdu suya (A.Şaiq).

rəngarəng *bax* rəngbərəng

RƏNGBƏRƏNG Taxta divarları qəzet və jurnallardan kəsilmiş *rəngbərəng* şəkillərlə bəzədilmiş budkanın sağ küncündə, divara yaxın döşəmədə elektrik sobası qoyulmuşdur (M.Hüseyn); **ƏLVAN** Sevgi qəlbə əzizdir; *Əlvan* güllər içində (M.Rahim); **RƏNGARƏNG** [Molla İbrahimxəlil:] Gir çadıra, bir məcməyi içində üç *rəngarəng* balaca şüşə var.. (M.F.Axundzadə); **MÜXTƏLİFRƏNGLİ.**

rəs *bax* baş **2**
rəsm *bax* **1.** şəkil **1**; **2.** adət **1.** mərasim
rəsmçi *bax* rəssam
rəsmən *bax* rəsmi
RƏSMİ Onlar *rəsmi* olaraq evlənənləri müsəlman qadınlarına bir kəniz kimi baxır.. (A.Şaiq); **RƏSMƏN** [Mingəçevirə] *rəsmən* şəhər adı verilmişdi (Ə.Sadıq); **FORMAL, QANUNİ** (*bax*).
rəsmi-keçid *bax* parad
RƏSMİLƏŞDİRMƏK, QANUNİLƏŞDİRMƏK
RƏSMİLƏŞMƏK, QANUNİLƏŞMƏK
RƏSMİYYƏTÇİ [Məsərrət:] Evdə kiçik bir şey onu [ərini] hiddətləndirir, əsəbiləşdirir. Çox *rəsmiyyətçidir* (A.Şaiq); **BÜROKRAT** [Kərəmov:] Hərçənd bu saat qəbul saatı deyil, ancaq mən, *bürokrat* deyiləm (S.Rəhman); **FORMALİST, SÜRÜNDÜRMƏÇİ** (*lüzumsuz rəsmiyyətçi*).
RƏSMİYYƏTÇİLİK, FORMALİZM Mündəricəsiz, *rəsmiyyətçilik*, quru *formalizm*, ruhsuz, canlısıxıcı sözçülük.. bu sənətin mahiyyətinə ziddir (M.İbrahimov); **BÜROKRATLIQ** [Birinci katib:] ..rüşvətxorluq, pulgirlik və əyyaşbazlıq, *bürokratlıq* və yaltaqlıq getdikcə daha çox mövqelori zəbt edirdi (C.Əlibəyov); **BÜROKRATİZM, SÜRÜNDÜRMƏÇİLİK.**
RƏSSAM Qoca *rəssam* addımlayır səndələyərək; Gəlir asfalt döşəməli bir meydan üstə (S.Vurğun); **NAQQAŞ** Məcmuəmizin *naqqaşı* səni görən kimi gözəl surətini məcmuəmizə salıb.. məşhur olmağına cidd-cəhd edərdi (C.Məmmədquluzadə); **RƏNGKAR** Ukrayna *rəngkarlarının* çəkdiklori sənaye mənzərələri heyrətamiz dərəcədə poetikdir (Qəzetlərdən); **RƏSMÇİ.**
rəsul *bax* **1.** səfir; **2.** peyğəmbər
rəşadət *bax* hünər, igidlik
rəşadətli *bax* hünərli, igid, şanlı **2**
rəşid *bax* igid
rəşidlik *bax* igidlik
rəva *bax* layiq
rəvan *bax* səlis
rəvanboxş *bax* ürəkaçan
rəvanlıq *bax* səlislik
RƏVAYƏT, HEKAYƏT
rəviyə *bax* fikir **2**
1. RƏY [Varaz] Cavanşirə diqqətlə baxdı, sonra dönüb Cavahir xatunun *rəyini* bilmək istədi (M.Hüseyn); **ƏFKAR** [Əbülhəsən bəy:] Lakin onun göstərdiyi bəhanə ümumi *əfkarı* qane edərək qüvvətə malik deyildi (M.S.Ordubadi); **ƏQİDƏ** O [Homid] bu *əqidədə* idi ki, əgər Balağa həbs edilməsəydi, Firuz ustasının barəsində belə deməzdi (H.Abbaszadə); **FİKİR** Günün axırına qədəz [Adilə] geniş bir *fikir* yazıb müdirinə verdi (Y.Şirvan); **MÜLAHİZƏ** (*bax*).
2. RƏY [Əliş Cahangirov:] Əvvəla, buna [məqaləyə] gərək iki alim müsbət *rəy* versin.. (Y.Şirvan); **RESENZİYA** [Şəkinskic] Hər yetən gəlib mənə *resenziya* yazacaqdır (C.Cabbarlı).
rəyasət *bax* rəhbərlik; sədarət
RƏYÇİ, RESENZİYAÇI (*müəyyən sənə rəy yazan, rəy verən adam*)
rəzalət *bax* əclaflıq
rəzə *bax* çəftə
rəzil *bax* əclaf
rəzillik *bax* əclaflıq
rica *bax* xahiş
RİFAH, BOLLUQ, FİRAVANLIQ, NEMƏT
rikab *bax* üzəngi
risalə *bax* **1.** jurnal; **2.** kitabça **1**
risk *bax* cəsarət
riş *bax* saqqal
RİŞƏ (*ağacda*) Amma bağban kamalehtiyat ilə ətrafını qazıb, *rişələrinə* xələl gətirməyərək, bu cavan alma ağacını məşədən çıxardıb bağına köçürdü və rahat yerə basdırdı (R.Əfəndiyev); **KÖK** Şəlaləli çaylar, dəli bir hiddətlə iri daşları, *kökü* çürümüş ağacları yerindən qoparıb axıdırdı (M.Hüseyn).
rişəsiz *bax* köksüz
rişxənd *bax* məsxərə, istehza
riya *bax* riyakarlıq

RİYAKAR Dükan qonşuluğumuzda Hacı Məlik adlı *riyakar* bir sövdəgor vardı... (Çomənzəminli); **İKİÜZLÜ** (*dan.*) Hiyləgərlər, paxıllar və *ikiüzlülər* onun ətrafında toplanır (M.İbrahimov); **MÜNAFİQ** Dörd şey vardır connot yüzünü görməz; Bir münkir, *münafiq*, bir Yezid, qənnaz (Xətayi); **RİYALI** Fitnəli, *riyalıdır* yaltağın sifətləri (M.Rəhim); **QIRXDİLLİ** (*dan.*).
RİYAKARLIQ Çökür abidəsi qanlı çarlığın; Çökür məhkəməsi *riyakarlığın* (M.Müşfiq); **İKİÜZLÜLÜK** Ucadır bayrağı yalançıların; Hökm edir hər yanda *ikiüzlülük* (M.Rəhim); **RİYA** Burada nə *riya* var, nə böhtan, nə kin (B.Vahabzadə).
riyah *bax* riyakar
riza *bax* razılıq
rizamənd *bax* razı
rizaməndlik *bax* razılıq
rizvan (*məc.*) *bax* connot
rizq *bax* azuqə
rota *bax* bölük **1**
RÖVŞƏN (*müxtəlif mənalarda*) [Əzim Əsgəri:] On il əvvəl necə görmüşdüm, elədir. Üroyi təmiz, fikri *röyşən* (M.İbrahimov); **İŞIQLI** [Xosrovun] şüuru, *işıqlı* fikirləri, iradəsi və ciddiyyəti yüksək dərəcəli zabitlərin nəzərini ona çəkirdi (M.İbrahimov); **MÜNƏVVƏR** Gördü ki, yeno çəmən *münəvvər*; Zülfündən onun cahan müəttər (Xətayi); **AYDIN, NURLU, PARLAQ.**
röyza *bax* mərsiyə
röyzəxan *bax* mərsiyəxan
rüya *bax* **1.** yuxu; **2.** yuxugörmə
rubah *bax* tülkü **1**
rubəru *bax* qabaq-qabağa, üzbəüz
1. RUH (*din.*) [Nənəxanım:] A kişi, ..bir yerdə yeyək, cümə axşamıdır, elə ölülərimizin də *ruhu* şad gedər (Ə.Haqverdiyev); **CAN** Kərəm deyər: Haqq buyurdu ayəndə; *Can* hava quşudu, durmaz bun təndə ("Əsli və Kərəm").
2. RUH, DUYĞU, HƏVƏS
3. ruh *bax* ürək

RUHANİ (*din.*) [Əbülhəsən bəy] Mən onlara şiəliyin bu adətini anlatdım və oturanların əksəriyyətlə *ruhani* olduğunu söylədim (M.S.Ordubadi); **ƏMMAMƏDAR** (*məc.*) [Baş nazir:] Bu *əmmamədarlar* haqqından bədtərlərlər (A.Makulu); **İŞAN** (*köhn.*) Ədəbdən, elmdən gər feyziyab olsa əvamünnas; Düşər şənü şərəfdən mollalar, *işanlar*, insanlar! (M.Ə.Sabir); **MÜCTƏHİD** Seyidlərə, mollalara, *müctəhidlərə* ehsanlar və hədiyyələr göndərildi (M.S.Ordubadi); **MÜFTİ** (*baş ruhani*) [Molla:] "Molla Nəsrəddin" jurnalı əvvəldən başlayıb şeyxüislamı, *müftini* biabır eləyib, axır padşahlarımıza ol aparır (Anar).
RUHƏN, MƏNƏN
RUHİ Laçın heç vaxt bu gecəki kimi *ruhi* iztirab keçirməmişdi (M.Hüseyn); **MƏNƏVİ** Birinci katib vəzifəsindən sui-istifadə etmişdir.. rəyondə *mənəvi*-psixoloji mühit korlanmışdı.. (C.Əlibəyov); **PSİXİ.**
rux *bax* üz
ruxsar *bax* üz
rul *bax* sükan
ruz *bax* gün **1 2**; gündüz
ruzi *bax* azuqə
ruznamə *bax* qəzet
ruznaməçi *bax* müxbir **1**
RÜB, KVARTAL, ÜÇAYLIQ
RÜBƏND [Əbülhəsən bəy:] Hamının üzündə *rübənd* var (M.S.Ordubadi); **BÜRQƏ** (*köhn.*) Gümüş camalından götür *bürqəni*; Xublar yaşmmaz divanələrdən (Q.Zakir); **DUVAQ** (*etn.*) [Bəni Çiçək:] Ala yorğan içində sonunla dolaşmadım, dadlı damaq dadıb soruşmadım, al *duvağın* altında söyləşmədim (Anar); **NİQAB** (*köhn.*) A sevdiyim, aç *niqabın* üzündən; Məcnun tək Leylaları divanə qıl! (A.Səhhət); **ÖRTÜK** Ey canlı çiçək; *Örtüyü* at ruyunu göstər (M.Hadi).
RÜBƏNDLİ Başı çarşablı, üzü *rübəndli* Xorasan arvadları.. çörək tələb edirdilər (A.Şaiq); **DUVAQLI** Bir yandasa ağ eyvanlı təzə binalar; Ağ *duvaqlı* gəlin kimi gəndən

gülürdü (Ə.Cəmil); **NİQABLI** Qaranlıq düşəndə Alp Araz xarabalıqda qara *niqablı* bir adamla pıçıldaşırdı (Anar).

rüsxət *bax* izin

rüsxətli *bax* izinli

rüsxətsiz *bax* izinsiz

RÜSUM [Molla Həmid:] ..dərviş Abbasın öhdəsinə lüğərrədir ki, hər axşam bu xoruzu gətirib, haman gördüyünüz *rüsumu* cari edib bir təzə yerdə bağlasın (M.F.Axundzadə); **BAC** Koroğlu karvanın qabağını kəsdi, *bac* verməklərini söylədi ("Koroğlu"); **RÜSUMAT** Hələ İrana girdikləri dünəndir, gömrük *rüsumatını* tamamilə ləğv etmişdir (M.S.Ordubadi); **GÖMRÜK.**

rüsumat *bax* rüsum

rüsvayçılıq *bax* biabırçılıq

rüşeym *bax* maya **II**

RÜŞVƏT Fəqət bu nazirlərin, bu *rüşvətlərin* içində məlum və naməlum nazirlər də var (N.Nərimanov); **BIĞYAĞI** (*dan., zar.*) (*cüzi rüşvət*) Kəndlilər əvvəlcə əbdüləzəmin qapısında dayanıb, onunla haqq-hesab etməli idilər. Yəni ona "*bığyağı*" verməli idilər (H.Sarabski); **ŞAPKA** (*dan.*).

rüşvətçi *bax* rüşvətxor

rüşvətçilik *bax* rüşvətxorluq

RÜŞVƏTXOR, RÜŞVƏTÇİ (*rüşvət alan adam*)

RÜŞVƏTXORLUQ (*rüşvət alma*) [Birinci katib:] ..qohumbazlıq, meşşanlıq, *rüşvətxorluq* ..getdikcə daha çox mövqeləri zəbt edirdi (C.Əlibəyov); **KORRUPSİYA** (*qan rüşvətxorluq, külli miqdarda rüşvət alma*), **RÜŞVƏTÇİLİK, YEHAYE** (*məc.*) (*kütləvi rüşvətxorluq*).

1. RÜTBƏ [Əhməd Zəziyə:] Padşah bilsə sənə böyük *rütbə* verər (A.Şaiq); **ÇİN** Onların nə *çini*, nə rütbəsi var (B.Vahabzadə); **DƏRƏCƏ** Qoy işini görsün, ağa *dərəcə* alır, – deyib gözətçi laqeydcəsinə cavab verib çəkildi (M.İbrahimov); **TİTUL.**

2. rütbə *bax* vəzifə **2**

rütəb *bax* xurma **1**

rütubət *bax* nəm

rütubətli *bax* nəm

Ss

saat *bax* vaxt

SABAH Bu günün işini *sabaha* qoyma (Ata. sözü); **SƏHƏR** *Səhər* qızın atası Hacı Əbdüləzimin dükanına keçib keyfiyyəti söylədi (Ə.Haqverdiyev); **YARIN** (*köhn.*) *Yarın* icraiyyə komitəsinin sədri idarədən bir kargüzar göndərmişdi (T.Ş.Simurğ).

SABİQ On-on beş dəqiqə bələcə bir-birinin halını soruşub, *sabiq* dostların hərəsi hovuzun bir küncünə çəkildi (Çəmənzəminli); **KEÇMİŞ** [İnci:] Biz onların *keçmiş* arvadlarıyıq (S.Rəhman); **KÖHNƏ** [Gülşən Sərvərə:] Adam da *köhnə* dostunu bu cür xatırından çıxardarmı? (M.Hüseyn); **ƏVVƏLKİ.**

sabunağacı *bax* çoğan

sabur *bax* əzvay **1**

1. SAÇ Miss Hanna Hüsni xanımın *saçlarını* kəsdi, dəstə ilə yerə qoydu (M.S.Ordubadi); **BİRÇƏK** Əliqulu çəpərdən bir taxta qopardıb Sülüyə qolazladı və sonra *birçəyindən* tutub, qapaz döşədi (Çəmənzəminli); **HÖRÜK** [Vahid:] Gərək məndən çəkinməyəsən, mənə məhriban olasan. Yoxsa kələğayıma dəymə, *hörüyümə* əl vurma, yaxınıma gəlmə!.. (M.İbrahimov); **MUY** (*kl.əd.*) Məktəblilər içrə deyil az söhbəti-ruyin; Keyfiyyəti-*muyin* (M.Ə.Sabir); **ZÜLF** Dəyim gözləri süzgün; *Zülfü* pərişan kimi (M.Rahim).

2. saç *bax* tük

SAÇLAMAQ (*dalaşarkən saçdan yapışmaq*) Kərbəlayı Həsən yerindən sıçrayıb, arvadı *saçladı* və baş-göz deməyib, hər yerinə yumruqla döşədi (Çəmənzəminli); **BİRÇƏKLƏMƏK** Kərbəlayı Qurban bu sözləri eşitcək yüyürüb "köpək oğlunun dilinə bax!" – deyə-deyə Şaqqulunu *birçəklədi* (Çəmənzəminli).

1. SAÇMA *Saçmalar* yazıq dovşanın; Lap başına yaxın keçdi.. (M.Rzaquluzadə); **QIRMA** Atma *qırma* başqa küçələrə keçmişdi (S.S.Axundov).

2. saçma *bax* monasız **1**

sadalamaq *bax* saymaq **1**

SADƏ (*müxtəlif mənalarda*) Hər möhnətə dözən; *sadə* insanların; qayğı dolu sosidir bu (R.Rza); **ADİ** Bunlar *adi* sənətkardır.. (Ə.Cəfərzadə); **BƏSİT** [Azər:] Bir sözlə, adiləşməyəsən, bayaq radioda oxunan nəğmə kimi *bəsit* və aydın olmayasan (Ə.Kərim); **ASAN.**

sadədil *bax* sadəqəlb

SADƏQƏLB, SADƏLÖVH (*ürəyi sadə adam*) *Sadəlövh, sadəqəlb* insanlara ah.. (S.Vurğun); **SADƏDİL** Dini və adəti – mövhumata qərq olmuş *sadədil* məzlum kəndlilər, hər bir vergidən əvvəl bu müftəxorların torbalarını doldurardılar (S.S.Axundov); **SADƏÜRƏKLİ.**

SADƏLİK [Surxay:] Halbuki onun bütün təqsiri *sadəliyində* və günahsızlığındadır (C.Cabbarlı); **ADİLİK** Hər bir *adiliyə* yumub gözünü; Çalır, yırğalanır səs dəryasında (Ə.Kərim); **BƏSİTLİK.**

sadəlövh *bax* **1.** sadəqəlb; **2.** təvazökar

sadiq *bax* sədaqətli, vəfalı

sadiqlik *bax* sədaqət, vəfalılıq

1. saf *bax* sağlam

2. saf *bax* təmiz **1**

safdil *bax* safürəkli

safqəlb(li) *bax* safürəkli

saflıq *bax* təmizlik **1**

SAFÜRƏKLİ Hacı Səməd olli yaşında *safürəkli*, rəhmdil bir kişi idi (S.S.Axundov); **SAFDİL** Nazlının bu *safdil* mülahizələri Bəyimin gülümsəməsinə səbəb oldu (Çəmənzəminli); **SAFQƏLB(Lİ)** *Safqəlbli*, sadədil Sənəm, indi heç özümə də inanmıram (S.S.Axundov); **TƏMİZÜRƏKLİ** Həlimə nənə qılıqlı, *təmizürəkli*, qonaqsevən və mehriban bir qadın idi (A.Şaiq); **DÜZQƏLBLİ, ÜRƏYİTƏMİZ.**

I 1. SAĞ Baxdı sola, baxdı *sağa;* alt budağa, üst budağa (R.Rza); **SAĞ TƏRƏF** Firəngiz sinə aşağı enəndə *sağ tərəfə*. Ceyran bulağının üstündəki yasxanaya xeyli adam toplaşdığını gördü (B.Bayramov).

2. SAĞ Müəllim ..son siyasi hadisələrdən danışır, *sağları* tənqid edirdi (A.Şaiq); **MÜRTƏCE.**

II sağ *bax* **1.** diri, salamat **1**; **2.** sağlam

SAĞALMAQ (*xəstəlikdən sağalmaq*) [İnsanlıq:] Gözəl oğlum, mən susaram, kaş ki, sən; Dincəl, *sağal* (A.Şaiq); **KORUXMAQ** (*məh.*) Gəl iki gözümün ağı-qarası; *Koruxsun* qəlbimin bəlkə yarası (S.Rüstəm); **SƏHHƏT TAPMAQ** Ömründə azar bilmədiyindənmi, gənc olduğundanmı, Ruxsara xanım sağalacağına inanır, *sahhət tapıb* yataqdan duracağını artıq ümidlə gözləyirdi (T.Ş.Simürğ); **ŞƏFA TAPMAQ** Dedim: əl atmasa həkim bıçağa; Xəstə *şəfa tapıb* durmaz ayağa (M.Rahim); **YAXŞI OLMAQ** ..Cəmil ağanın başının ağrısı lap *yaxşı oldu* (İ.Musabəyov); **QALXMAQ** (*məc.*).

SAĞALMAZ (*sağalması mümkün olmayan*) [Zöhrə:] Ata can, əziz ana.. siz razı olarsınızmı, qızınız *sağalmaz* dərdə düşsün? (M.İbrahimov); **ƏLACSIZ** [Ulduz:] Biz *əlacsız* dərdə düşmüşük (M.İbrahimov); **ÇARƏSİZ** Necə çarə eyləsin; Bu *çarəsiz* xəstəyə (B.Vahabzadə); **MÜALİCƏSİZ, MÜALİCƏOLUNMAZ.**

SAĞALTMAQ (*xəstəlikdən qaytarmaq*) [Hesi:] Bunu [yaranı] Volodya adlı bir rus feldşeri *sağaltdı* (S.Rəhimov); **ŞƏFA VERMƏK** [İnsanlıq:] Dərdindən, ah, sayıqlayır, ey tanrı; Sən *şəfa ver!* (A.Şaiq); **HƏYATA QAYTARMAQ, SAĞLAMLAŞDIRMAQ.**

SAĞANAQ, ÇƏNBƏR, QASNAQ (*daf və bu kimi şeylərin dairəsi*)

sağır *bax* kar **1**

SAĞLAM (*müxtəlif mənalarda*) Danışıram, gülürəm; *Sağlam* bir insan kimi (M.Rahim); **BƏRK** [Ocaqverdi:] Bəy, bizim canişin *bərkdir* (Ə.Haqverdiyev); **GÜMRAH** (*dan.*) [Qəndab:] Özüm *gümrah*, yollarım genişdir, velosipedim də saz (B.Bayramov); **QIVRAQ** Nəzərəli əmi yaşlanmışdı. Ancaq *qıvraq* idi (Ə.Vəliyev); **SAF** Dəyişərəm, deməli, əlimlə təbiəti; Ürəyi *saf* duyğulu, təmiz bir insan kimi (M.Rahim); **SAĞ** Fələk ələsgər tək oda salmasın; Nə naxoşu belə, nə *sağı* belə (Aşıq Ələsgər); **SALAMAT** Ya dayələrin özündə azar olur, balalara sirayət edir, ya da ki, azarlı balaları dayəyə verirlər, onda düşür, sonra başqa *salamat* uşaqları da xarab edir (Çəmənzəminli); **SALİM** (*köhn.*) [Molla Qafar:] ..sihəti-bətən duası onun vücudunu nə dərəcədə *salim* saxlayıbdır? (S.Rəhimov); **TƏNDÜRÜST** Bu *təndürüst* simada elə bil məkrlə məhəbbətin, xəyanətlə sədaqətin vəhdətini gördü (B.Bayramov).

SAĞLAMLIQ [Davud:] Mən buna görə heç nəyə qızırqanmıram, camaatın *sağlamlığı* yolunda canımı qoyuram (H.Abbaszadə); **AFİYƏT** (*kl.əd.*) Ol bəzm idi *afiyət* bahar; Mən bülbülü-zari-biqərarı (Füzuli); **CANSAĞLIĞI** Bunların hamısı ötüşər, insana *cansağlığı* lazımdır (Ə.Haqverdiyev); **QIVRAQLIQ** (*dan.*) ..qoca Firuz bu gün hamını heyrətə salan, yaşına yaraşmayan elə bir *qıvraqlıqla* işə girişdi (Ə.Məmmədxanlı); **SAĞLIQ** *Sağlıq* istəsən – çox yemə (Ata. sözü); **SAZLIQ** (*dan.*) [Mişa:] Hər kəs öz bədəninin *sazlığını*, dözümünü hər hansı bir həkimdən dürüst bilir (H.Abbaszadə); **SƏHHƏT** [Gülüş:] Adam öz *sahhətinin* qayğısına özü qalmayanda... (Anar).

sağlıq *bax* **1.** sağlamlıq; **2.** tost

sağollaşmaq *bax* vidalaşmaq

SAĞSAĞAN (*zool.*) *Sağsağanlar* ağacların təpəsilə uça-uça; Haray çəkib çığırdılar (M.Rzaquluzadə); **QƏCƏLƏ** Yandı çün kuzələri, bomba kimi səsləndi kötük; Sərçə, qarğa, *qəcələ*, qırğı hərasan oldu (M.Ə.Möcüz).

sahib *bax* **1.** yiyə, sahibkar; **2.** ər **1**

SAHİBKAR Dedim ki mən, indi bizik *sahibkar* (R.Rza); **AĞA, HAKİM** İnsan bütün varlığının *ağasıdır, hakimidir* (M.İbrahimov); **FERMER** (*bax*), **SAHİB.**

SAHİBKARLIQ, AĞALIQ, FERMERLİK (*bax*), **SAHİBLİK**

sahiblik *bax* sahibkarlıq

SAHİBSİZ (*sahibi, yiyəsi olmayan*) Pristav.. uçastoku *sahibsiz* buraxaraq getmişdi (S.Rəhimov); **BAXIMSIZ** [Qəndab:] Bəzi

ailələr bu torpaqlardan əlini üzüb aran yerlərinə köçdüyü üçün həyət-bacaları sökülüb dağılmış, *baxımsız* ağaclar qurumuşdu (B.Bayramov); **BAŞSIZ** (*məc.*) Ayrım qızı Kərim babanın da getdiyini, naxırın *başsız* qaldığını bilmiş, ..özünü naxıra yetirmişdi (A.Şaiq); **BİSAHİB** [Sona xanım naçalnikə:] ..Məni *bisahib* qoyma! (M.F.Axundzadə); **YİYƏSİZ** [Ana:] Həmişə *yiyəsizin* başına dünya dar olar (Çəmənzəminli).

SAHİL (*dəniz, çay, göl və s.-nin kənarı*) *Sahildə* balıqçılar qayaların üstündə oturub dənizə tilov atmışdılar (H.Abbaszadə); **QIRAQ** Dəniz *qırağında* var yastı daxma; Gəl, ona məhrəm ol, biganə baxma (M.Rahim); **YAXA** Paris küçəsində, Nil *yaxasında*; Yenə al bayraqlı izdihamlar var (S.Vurğun); **KƏNAR** ..həyətdə bir müsəlman arvadı arxın *kənarında* qab yuyurdu (C.Məmmədquluzadə).

sahir *bax* sehrbaz

1. SAXLAMAQ (*hərəkətini kəsmək mənasında*) [Leytenant] elektrik fanarları ilə işıqlanmış küçənin ortasında motosikli *saxladı* (İ.Əfəndiyev); **DAYANDIRMAQ** Tapdıq Mayisi və onun əlindəki dəftərləri görən kimi maşının *dayandırdı* (Ə.Vəliyev); **ƏYLƏMƏK** "Salaməleyküm" səsi məni *əylədi* (A.Divanbəyoğlu).

2. SAXLAMAQ, DOLANDIRMAQ (*yaşamaq üçün hər şeylə təmin etmək*)

1. SAXTA [Qaplan:] Mən sənə *saxta* pasport taparam (A.Şaiq); **QƏLP** Gümüş tunc oldu, zərü zibam bez; *Qəlp* çıxır aldığım mal, qoca bəxtim! (Aşıq Ələsgər); **QONDARMA** Nina *qondarma* bir addır və bu adın altında tamamilə ayrı bir qız, bəlkə də bir neçə qız çalışır... (S.Rəhman); **QEYRİ-HƏQİQİ.**

2. saxta *bax* yalan

saiqə *bax* şimşək, ildırım

sail *bax* dilənçi

SAİT (*dilç.*) Dünya dillərində *saitlərin* miqdarı müxtəlifdir (N.Məmmədov); **SƏSLİ** Məlum olduğu üzrə, *səslilər* üçün ən mühüm şərt hava axınının olmasıdır (A.Axundov).

1. SAKİN (*müəyyən bir şəhərin, kəndin və s.-nin sakini*) Şahsuvar gecənin qoynunda *sakin;* Qəlbində intiqam, gözlərində kin (S.Vurğun); **ƏHALİ** Kəndin *əhalisinin* miqdarı olar təqribən iki yüz nəfər (C.Məmmədquluzadə); **ƏHL** (*kl.əd., köhn.*) Səhra mərdümünü şəhr *əhli* görcək; Yalvarıb, yapışıb oturdur çömmək (Q.Zakir).

2. sakin *bax* sakit **2**

1. SAKİT (*müxtəlif mənalarda*) [Qəhrəmanov:] Baxırsan ki, bir küncdə *sakit* oturub, kiminsə dalında gizlənib (M.Hüseyn); **BAŞIAŞAĞI, FAĞIR** [Səfər] *Fağır, başıaşağı* bir oğlandı (Ə.Haqverdiyev); **DİNC, FARAĞAT** Onları qabaqlayaraq *dinc, fərağat* oturmalarını əmr etmişdi (S.S.Axundov).

2. SAKİT, HƏRƏKƏTSİZ, SAKİN, SƏSSİZ

3. sakit *bax* lal **2**

4. sakit *bax* arxayın **1**

1. SAKİTLƏŞMƏK Müəllim bir qədər *sakitləşdikdən* sonra hamının eşidə biləcəyi bir yüksəklikdə son siyasi hadisələrdən danışır, sağların hərəkətlərini tənqid edirdi (A.Şaiq); **ACIĞI YATMAQ** (*fr.v.*) Ona görə də dərhal *acığı yatdı*.. (S.S.Axundov); **KİRİMƏK** [Paşa:] Nə olar, uşaq döyülər də, ağlar da, *kiriyər* də! (Mir Cəlal); **SAKİT OLMAQ** Bunlar axırda *sakit oldular* (S.S.Axundov); **TOXTAMAQ** [Fərəc:] Siz bir az *toxtayın*, biz hamısını başa salarıq (Anar).

2. SAKİTLƏŞMƏK, TƏSKİNLİK TAPMAQ, RAHATLANMAQ

1. SAKİTLİK, XAMUŞAN Dərə, təpə *sakitlikdir, xamuşan;* Yoxdur kənd içində bir nəfər insan (A.Səhhət); **XAMUŞANLIQ** Ətraf tamam *xamuşanlıq* idi (S.Qənizadə); **XAMUŞLUQ** ..yayın isti *xamuşluğunu* pozan ancaq minarələrdən gələn minacat səsi idi (B.Talıblı); **SƏSSİZLİK** Nə bir insan səsi; Nə bir ağac kölgəsi; Ancaq nəhayətsizlik; *səssizlik*.. (R.Rza); **SÜKUT** Meşədə dərin bir *sükut* vardı (M.Hüseyn).

2. sakitlik *bax* əmin-amanlıq

saqın *bax* uzaq

saqındırmaq *bax* uzaqlaşdırmaq **1**

SAQİ *Saqi*, tez ol mey ver bizə; Mey içində üzə-üzə; Səmalara səs salaq biz (M.Seyidzadə); **AYAQÇI** (*qəd.*) Cam içirən *ayaqçıya* döndü Füzuli; Şairlərə bir içim mey sondu Füzuli (H.Cavid); **ŞƏRABPAYLAYAN.**

SAQQAL [Mümtaz Mötəbərov:] *Saqqalım* yoxdur sözüm ötmür! (M.Hüseyn); **RİŞ** (*kl.əd.*) ..Qismətin olmur, olmasın!.. Başına eşqi dolmasın! *Rişini* Zalxa yolmasın! (M.Ə.Sabir).

SAQQIZ Kişinin papağını götürəndə gördük *saqqız* layiqincə suvanıb başına.. (Ə.Haqverdiyev); **ZAMAT** (*köhn.*) [Oğlan:] Atamın başına yapışdırdığın *zamat* qopmur (Ə.Haqverdiyev).

sal *bax* **bərə 1**

salçı *bax* **bərəçi**

1. SALAM [Qəndab:] *Salam*, ay etibarsız xalaqızı.. (B.Bayramov); **ƏSSALAM** (*köhn.*) Əssalam, ey əhaliyi-Qafqaz.. (S.Ə.Şirvani); **GÜNAYDIN** [Gülyaz:] Salam, usta baba, *günaydın*, qızlar!.. (M.Rzaquluzadə); **XOŞ GÖRDÜK** [Bəhmən:] Vay, *xoş gördük*, haradan belə? (S.Vurğun).

2. SALAM, TƏBRİK Vidadi ilə içəriyə girənlərin *salam, təbrik* və alqış səsləri eşidildi (Ə.Vəliyev); **SALAM-DUA** [Nurədin:] Məndən Bahara *salam-dua* yetir.. (S.S.Axundov).

SALAMAT [Səadət xanım:] Əlac nədir.. hər zülmə, cəbrə tab elərəm, ancaq Fəxrəddin *salamat* qalsın (N.Vəzirov); **ƏSƏN** (*qəd.*) Sağ *əsəndir* ol pəri-ru; Səndən eləmiş dili-bəri-ru (Xətayi); **SAĞ** [Xacə:] Padşah, nə qədər ki onlar *sağdır*, sizi hər an təhlükə gözləyir (A.Şaiq); **SAĞ-SALAMAT** [Umur bəy:] Bizim *sağ-salamat* qalmağımız kəfəni yırtıb çıxmaq kimidi (H.Abbaszadə); **SALİM** Tək-tək ayılan varsa da, həq-dadıma çatsın; Mən *salim* olum, cümlə cahan batsa da, batsın (M.Ə.Sabir); **SAĞLAM** (*bax*).

salamatlaşmaq *bax* xudahafizləşmək

salam-dua *bax* salam **2**

SALAMLAŞMAQ (*bir-birinə salam vermək*) Mənsur sürücü ilə *salamlaşıb* soruşdu: – Həmid Səfərovu götürdin? (H.Abbaszadə);

ƏL UZATMAQ/VERMƏK Müzəffər qabağa gəlib, utana-utana Bağıra *əl uzatdı* (İ.Məlikzadə); Əşrəfin gözü yaşardı. Uşaqlar *əl verib* bir-bir Kipiani ilə görüşdülər (İ.Şıxlı).

saleh *bax* yaxşı **1**

salıq *bax* xəbər **1**

salınmaq *bax* sərilmək **1**

salim *bax* sağlam, salamat

SALLAQXANA Xalıqov *sallaqxananın* bütün ənənəsini .. mühafizə etməklə bərabər, yenilik gətirmişdi (B.Bayramov); **QƏSSABXANA** İnsafca, hamballıqdan tərəqqi edib, palanını ulağın belinə qoyan Abbas nəinki *qəssabxanalara*, hətta ictimai-iaşə obyektlərinə.. əti vaxtlı-vaxtında çatdırırdı (B.Bayramov); **ƏT DÜKANI** [Firuzə:] İnstitutu atdı, getdi oldu qəssab. İndi də *at dükanının* müdiridir (Anar).

SALMA ..xanım kimi altı-yeddi stəkan *salma* çay içdiyini də yalan deyirəm (S.S.Axundov); **ŞİRİN ÇAY** *Şirin çayın* qəndiyəm; Zülflərin kəmənd iyəm; Aləm tufana getsə; Gözlərinin bəndiyəm (Bayatı).

1. SALMAQ, DÜŞÜRMƏK (*əlindən salmaq*)

2. salmaq *bax* **1.** tikmək **1**; **2.** soxmaq; **3.** sərmək **1**

salon *bax* zal

SAMİT (*dilç.*) Azərbaycan dilinin *samitləri* bir-birindən əsas küy yaradıcı orqana, küyyaratmanın növünə, tələffüzünə, gorginliyinə, səs tellərinin tələffüzündəki roluna görə fərqlənir ("Müasir Azərbaycan dili"); **SƏSSİZ** Qeyd edildiyi kimi, *səssizlər* tələffüz zamanı müxtəlif maneələrə rast gələn səslərdir (A.Axundov).

san *bax* **1.** say **1**; **2.** ad-san

sanballı *bax* ağır **1**

sancaq *bax* neştər **1**

SANCI (*kəskin ağrı*) O günün axşamı xəstə Eyvazın; Qəfil ürəyinin *sancısı* tutdu (B.Vahabzadə); **AĞRI** Elə güc gəldi ki, ona *ağrılar;* Günüzkü dərdini tamam unutdu (B.Vahabzadə); **SIZI** (*yüngül ağrı*) Bütün vücudumda bir qırıqlıq, bir *sızı* hiss edirəm

(A.Şaiq); **SIZILTI** (*yüngülvari ağrı*) İsfəndiyar bədəninin *sızıltısını* azaltmaq üçün böyrü üstə uzandı (M.Hüseyn); **ZOQQULTU** (*bərk ağrı*) [Bəyin] gicgahlarından qalxan *zoqqultu* ona əziyyət verirdi (Ə.Vəliyev).

sancılmaq *bax* batmaq **1, 4**

sancmaq *bax* **1.** çalmaq **II**; **2.** soxmaq; **3.** taxmaq; **4.** ağrımaq; **5.** acılamaq.

sandalya *bax* kreslo

sandıq *bax* xəzinə **2**

sandıqça *bax* mücrü

sanki *bax* guya

1. SANMAQ *Sanıram* hər yanda olsam mən yenə; Arzumun gözləri rast gələr sənə (M.Rahim); **GÜMAN ETMƏK/ELƏMƏK** Musa çəld özünü bayıra atdı. Müxbirin gəldiyini *güman etdi* (X.Hasilova); **ZƏNN ETMƏK/ELƏMƏK** [Nazlı] qızının çarpayıda üstü açıq uzandığını görəndə onu yatmış *zənn etdi*, əyilib üstünü örtdü... (Y.Şirvan).

2. sanmaq *bax* saymaq **I**

I SAP, İP

II sap *bax* dəstək **1**

SAPDIRMAQ [Oqtay:] Mən də onu *sapdırıram* (C.Cabbarlı); **AZDIRMAQ** [Qoyun gətirən adam:] A başına dönüm, məni niyə *azdırırsan?* (Anar); **YAYINDIRMAQ** Yanında bulunan qadınlar [Gülzarı] *yayındırmaq* və əyləndirmək üçün qrammofon oxudurlar (T.Ş.Simürğ); **ÇAŞDIRMAQ** (*bax*).

saplı *bax* dəstəkli

1. SARALMAQ, SARI OLMAQ, SARI RƏNG ALMAQ

2. saralmaq *bax* solmaq

SARAY (*padşah sarayı*) [Xacə:] ..bu *saray* məni elə dərdə salmayıb ki, mənə kəbin kəsə biləsiniz (A.Şaiq); **BARGAH** (*tənt.*) [Nurəli:] ..bir gün İsfahanda Şah Abbas öz *barigahında* əyləşib vəzirinə dedi: Ey vəzir, mənə bir yaxşı hekayət nağıl elə (C.Məmmədquluzadə); **İMARƏT** Mən bəzək vurmalıyam *imarətə* əlimlə; İftixar etməliyəm şadlanıb əməlimlə (M.Rahim); **KAŞANƏ** Ürəyindən vurdu, gözündən vurdu; Qabarlı əllərlə *kaşanə* qurdu (S.Rüstəm); **QƏSR** Tavanda çilçıraqlar, döşəmədə xalçalar; *Qəsrdəki* ziyafətə şəhlər belə əl çalar (B.Vahabzadə).

SARBAN (*dəvənin başını çəkən, karvan aparan*) Gedir, gedir qəm karvanı; ..*Sarban* baxır uzaqlara; Lənətləyir zamanını (M.Rahim); **KARVANÇI** Qızlar *karvançılardan* eşidirlər, bilirlər ki, canına qurban olduğum vətən torpağına sabah da olmasa, birisi gün çeşt vaxtı vida edəcək (Ə.Cəfərzadə).

SARĞI, BİNT, SARIQ.

1. SARI (*rəng*) Axşam yatmamış xanım Güləbətini özü ilə üzbəüz oturdub nazik *sarı* rəngli karandaşı və bir vərəq kağızı qabağına qoydu (M.İbrahimov); **ZƏRD** (*kl.əd.*) Əşkimi çöhreyi-*zərdimi* görüb qədr etməz; Mən eşitmişdim edər simü zər insanı əziz (Q.Zakir).

2. sarı *bax* tərəf **1**

3. sarı *bax* qızıl **1**

SARIKÖYNƏK (*zool.*) Mən ..alacəhrə, şeyda bülbül, *sarıköynək*, baltadimdik kimi oxuyan bağ quşlarını.. Tağı əminin vasitəsilə gördüm, öyrəndim (S.S.Axundov); **SARISANDAL** Bülbüllərin cəh-cəhi, qaranquşların oxumağı, iki qardaş "Yusif-Nəsif" quşunun bir-birini çağırmağı, *sarısandal* quşunun "Ayran çilov, südlü plov" deyib bağırması hər tərəfə səs salmış idi (R.Əfəndiyev).

sarıq *bax* **1.** sarğı; **2.** əmmamə

sarıqlı *bax* əmmaməli

sarılmaq *bax* sarmaşmaq **1**

1. SARIMAQ (*sarğı ilə bağlamaq*) Gedək həkimxanaya; Tez *sarıyım* yaranı (B.Vahabzadə); **BAĞLAMAQ** Döşümü süngüylə düşmən yaranda; Yenə sən, deyirəm *bağla* yaramı (M.Rahim).

2. sarımaq *bax* dolamaq

sarımsov *bax* sarımtıl

SARIMTIL (*sarı rənginə çalar*) [Məktubu] didik-didik olana qədər *sarımtıl* əsgər köynəyinin cibində gəzdirdiyi yadına düşdü (İ.Məlikzadə); **SARIMTRAQ** [Araz] ayılarkən... *sarımtraq* bir işıq zolağından səhər olduğunu bildi (A.Şaiq); **SARIMSOV, SARIYAÇALAR.**

sarımtraq *bax* sarımtıl

sarısəndəl *bax* sarıköynək

sarıyaçalar *bax* sarımtıl

sarmaq *bax* bürümək

1. SARMAŞMAQ, DOLANMAQ, SARILMAQ

2. sarmaşmaq *bax* qucaqlaşmaq

sarp *bax* sıldırım

sarsaq *bax* səfeh

sarsaqlamaq *bax* səfehləmək

sarsaqlıq *bax* səfehlik

SARSILMAZ, MÖHKƏM Yalnız bir fərqlə ki, bu gəminin ordusu daha *möhkəm* və daha *sarsılmazdır* (M.Hüseyn); **QIRILMAZ** [Toğrul] *qırılmaz* bir iradə qüvvəsi ilə və qəvi barmaqlarını sıxıb, eşidilən bir səslə – hər nə olursa olsun, səbat lazımdır, – dedi (H.Nəzərli); **MƏTİN** ..Döyünürsə inamla; Məğrur, *mətin* bir ürək (Ə.Cəmil); **YENİLMƏZ** Onun *yenilməz* adı birdir hər dildə, dostlar (S.Rüstəm); **YIXILMAZ** İpəkdir vicdanın, poladdır yaxan; *Yıxılmaz* dağlara dayanmış arxan (S.Vurğun).

SATAŞMAQ Onlar Şamoya *sataşmaq* üçün kənd arasında sözlər yayırdılar (S.Rəhimov); **ÖCƏŞMƏK** [Rzaqulu:] Qoy o məni yaxşı tanısın, mənə *öcəşməsin*, xətaya salmasın, hacı! (N.Vəzirov); **SÜRTÜŞMƏK** (*məc., dan.*) [Telli:] Min yol sənə demişəm, mənə *sürtüşmə*, xeyir aparmazsan (N.Vəzirov); **DOLAŞMAQ** (*məc.*), **QUYRUĞUNU BASMAQ/TAPDALAMAQ, SÖZ ATMAQ.**

SATİRA Oxucum, etiraf edirəm qəlbən; *Satira* gəlməyir mənim əlimdən (S.Vurğun); **GÜLGÜ** Tənqidi əsər istəhza, *gülgü* və məsxərə yolu ilə yazılır (C.Məmmədquluzadə); **HƏCV** (*köhn.*) Firənglərin böyük filosof şairi Volter on iki yaşında *həcv* yazırmış (Çəmənzəminli).

SATQIN *Satqınlar* əlləşdilər boğmağa gur səsini (M.Rahim); **ADAMSATAN, XAİN** (*bax*).

SATQINLIQ [Höccətullah:] Görünür onların millət *satqınlığı* öz həddini aşıb (S.Rəhimov); **XAİNLİK** (*bax*).

SAVAD [Çingiz Qəndaba:] Əmolli-başlı *savadın* var (B.Bayramov); **DƏST-XƏTT** (*məc.*) Üçü də cavab verdilər ki, *dəst-xətləri* yoxdu (C.Məmmədquluzadə); **ELM** (*dan.*) Hər kəsin *elmi* var o insandır (S.Ə.Şirvani); **YAZI** No yar-*yazı* bilir, yazıb göndərər; No deyən var o dildarə dərdimi (Q.Zakir); **YAZI-POZU** (*dan.*).

SAVADLANDIRMAQ, ELM ÖYRƏTMƏK, MAARİFLƏNDİRMƏK, TƏHSİL VERMƏK, YAZI-POZU ÖYRƏTMƏK (*dan.*)

SAVADLANMAQ, BİLİK QAZANMAQ, ELM ÖYRƏNMƏK, MAARİFLƏNMƏK, TƏHSİL ALMAQ

SAVADLI [Mirzə Polad:] Ona *savadlı*, kamallı xadimlər lazımdır (S.Rəhimov); **BASƏVAD** (*köhn.*) Amma hər kəs bu dillərin heç birinə *basəvad* deyil, yoqin ki, bilməyəcək nə deyirik (C.Məmmədquluzadə); **ELMLİ** Bunlar oxumuş, *elmli* olsaydı, hərəsi başına uşaq toplayıb onlara dərs deyərdilər, qazandıqları pulla özlərini saxlayardılar (Çəmənzəminli); **ƏHLİ-QƏLƏM** Jurnalın düşmənləri arasında başqa növ adamlar da *əhli-qələmlər* də var idi (Anar); **ƏHLİ-SAVAD** [Hacı Rəcəbli:] Xatircəm ol! Tamam *əhli-savaddırlar* (M.F.Axundzadə); **OXUMUŞ** *Oxumuş* qız da o zaman yox idi (S.S.Axundov); **OXUYAN** [Niyazbəyli:] Xülasə, nə deyim, bu *oxuyanların* işlən təəccübdür (N.Nərimanov);

SAVADSIZ Hər arvad evdarlığı bacarmaz, ələlxüsus *savadsız* və avam arvad (Çəmənzəminli); **BİSAVAD** Üçü də cavab verdilər ki, dəst-xətləri yoxdur, yəni *bisavad* adamdır (C.Məmmədquluzadə); **ELMSİZ** *Elmsiz* arvadın həmişə evi soliqəsiz olar, balaları tərbiyə tanımazlar.. (Çəmənzəminli).

SAVADSIZLIQ, BİSAVADLIQ

SAVAŞ [Gülşən:] Bir söz dedik, *savaş* demədik (Ə.Vəliyev); **DALAŞMA** Xanpəri ilə Mədərin *dalaşma* hadisəsi Gülşənin ürəyini bərk əzdi (Ə.Vəliyev); **DAVA-DALAŞ**

savaşqan *bax* davakar

savaşmaq *bax* **1.** dalaşmaq; **2.** döyüşmək **I**

SAVAY(I) [Xəlil:] Dükanda məndən *savayı* bir neçə kətdi də var idi (C.Məmmədquluzadə); **BAŞQA** [Uğur:] Səndən yaxşılıqdan *başqa* heç nə eşitməmişəm (İ.Əfəndiyev); **QEYRİ** Ey sevdiyim səndən *qeyri* kimim var?! (M.V.Vidadi); **MAĞDA** (*köhn.*) ..darülfünun yoldaşlarından *maəda*, mürəbbiyəsi olan Mariya da, böyük maneələr göstərməkdə idi (M.S.Ordubadi); **MASƏVA** (*kl.ad.*) [Qurbanoli:] Ondan *masəva* "doğrusunu demək, dörd-beş il bundan qabaq bir neçə ağaların uşaqları oxuyub.. (N.Nərimanov); **ÖZGƏ** [Axund:] Orada düyüdən savay, *özgə* şey yeməzlər (C.Məmmədquluzadə).

1. SAY ..onun məsləhətinə gedənlərin *sayı* çoxalırdı (M.İbrahimov); **SAN** Öyünmək istəyirsən... Millətin *sanıyla* yox; Siqləti, qüdrətilə fəxr eləmək gərəkdir (R.Rza); **ƏDƏD** ..Yəni müəllimlərimizin *ədədini* artırmağa olac edəcəkmi? (N.Nərimanov).

2. SAY, ƏDƏD, MİQDAR (*bax*), **TİRAJ**

3. say *bax* nömrə

4. say *bax* rəqəm

SAYA (*bir rəngdə olan*) *Saya* geldi gördünüz; Salam verdi aldınız; Alnı təpəl qusunu; Sayaçıya verdiniz (Bayatı); **BİRRƏNG** Bu şəkildə orta yaşlı, çatma qaşlı, qara bığlı bir kişi əks olunmuşdu, onun gen yaxalı pencəyi və *birrəng* qalstuku vardı (Anar); **YEKRƏNG, YEKNƏSƏQ** Hətta Atabəy elə düşünürdü ki, *yekrəng və yeknəsəq* libaslar da Atabəyə xidmət edən qadınlar üçün xüsusi olaraq tikdirilmişdir (M.S.Ordubadi).

sayə *bax* kölgə **I**

sayğı *bax* **1.** hörmət; **2.** sayıqlıq

sayğılı *bax* hörmətli

sayğısız *bax* **1.** hörmətsiz; **2.** etinasız; **3.** laqeyd

sayğısızlıq *bax* **1.** hörmətsizlik; **2.** etinasızlıq; **3.** laqeydlik

SAYIQ Çox *sayıq* yatan qarı bu səsə diksinərək qalxdı və qazını tanıdı (M.Hüseyn); **AYIQ** (*məc.*) [Məlik:] Boşir və Molla Hüsü barədə *ayıq* olmaq gərək, deyəsən biz onları çox özbaşına buraxmışıq (M.İbrahimov); **GÖZÜAÇIQ** (*dan.*) Gimnaziyada gizli fəaliyyət göstərən cavanlar ittifaqı hazırlıqlı, *gözüaçıq*, sinfi mənsubiyyət etibarilə yoxsul, yaxud fəhlə balalarını öz sıralarına da çəkib iş görürdü (Ə.Vəliyev); **HUŞYAR** (*kl.ad.*) [Ağa Kərim:] Mən onu Ağa Mərdanın bir para hiyləsindən başa sallam. İşdə *huşyar* olar, qəflət eləməz (M.F.Axundzadə).

SAYIQLIQ [Xosrov bəy Soltanov:] Həmişə ayıqlıqdan dəm vurub, *sayıqlıqdan* ağız dolusu danışan cənab İbrahim bəy harada, nə işlə məşğul olmuş ki, onun yaşadığı kənddə bu xoşagəlməz işlər baş verib? (Ə.Vəliyev); **AYIQLIQ** Bu *ayıqlığın* qabağında Cuma nə qayıra bilərdi (Ə.Əbülhəsən); **GÖZÜAÇIQLIQ** Buna görə də Məşallaha əmniyyət aşılanırdı.. daha artıq öz ərəbzəngilik təbiətinə sadiq olub, *gözüaçıqlığında*, inamında qalırdı (S.Rəhimov); **SAYĞI.**

1. SAYMAQ (*sayıb miqdarını müəyyən etmək*) Həmid.. Bakıya qayıtmaq üçün günlərini *sayırdı* (H.Abbaszadə); **HESABLAMAQ** (*məc.*) Mirhadı ha götür-qoy elədi, *hesabladı* ciblərində yetmiş manatdan artıq olmadı (H.Abbaszadə); **SADALAMAQ** [Xanpərvər bəyim:] Ay kişi, borcdan gələsi nə var ki, onun ucundan tutub bir belə *sadalayırsan?* (N.Vəzirov); **SANMAQ** [Yasəmən:] ..günlərimi *sanmışam* ki, yay fəsli haçan gələcəkdir.. (S.S.Axundov).

2. SAYMAQ [Göyərçin:] Əgər sən bu işləri açа bilsən, olbəttə səni *sayar* və irəliyə çəkib böyük qulluq sahibi edərlər (S.Rəhimov); **VECİNƏ ALMAQ** (*çox vaxt inkar kimi işlənir*) Bizim Həzi də belə şeyi *vecinə alan* deyil (S.Rəhimov); **ƏDD ETMƏK** Hətta Fərhad oxumuş olduğu üçün onu özündən daha mərhəmətli, insaniyyətpərvər və səfdil *ədd edirdi* (C.Cabbarlı); **HÖRMƏTİNİ GƏTİRMƏK.**

saymazcasına *bax* saymazyana

SAYMAZYANA [Qəndab:] Görünür ağlı bir şey kəsmədiyi üçün *saymazyana* ötüb

keçdi (B.Bayramov); **AĞAYANA** Naməlum adam *ağayana* hərəkətlə, tələsmədən qoltuq cibindən böyük bir portmanat çıxardı (M.İbrahimov); **SAYMAZCASINA.**

saysız *bax* saysız-hesabsız

SAYSIZ-HESABSIZ (*olduqca çox*) Bu dəhşətli uçurum idi, *saysız-hesabsız* istedadları diri-diri udub məhv edən, əzib kütləşdirən uçurum idi (M.İbrahimov); **BİŞÜMAR** (*kl.ad.*) Gör cəhalətdən nə şəklə düşdü vəziruzigar! Qətlü qarət *bişümarü* şəhrü qəhrə tarimar (M.Ə.Sabir); **HESABSIZ** Çoxlarına dünya olduqca dardı; Məhbəsdə çürüdü *hesabsız* insan... (S.Rüstəm); **HƏDSİZ** Var özgə vilayətdə tək-tək köpək oğlu; *Hədsizdi* bu viranədə, bişək, köpək oğlu (Q.Zakir); **QƏDƏRSİZ** Elə bil qumsallıqda birdən-birə *qədərsiz* göbələk baş qaldırmışdı (X.Hasilova); **SAYSIZ** Böyük pambıq tarlasında *saysız* adam var (R.Rza); **BİHESAB, HESABAGƏLMƏZ, KÜLLİ, SAYAGƏLMƏZ.**

sazaq *bax* şaxta **I**

sazan *bax* çəki **II**

sazəndə *bax* çalğıçı

saziş *bax* **1.** müqavilə; **2.** birlik **I**

sazlıq *bax* sağlamlıq

I. SEÇİLMƏK, ÜSTÜNLÜK ALMAQ

2. SEÇİLMƏK, GÖRÜNMƏK, NƏZƏRƏ ÇARPMAQ

3. seçilmək *bax* fərqlənmək

seçmək *bax* bəyənmək

sehr *bax* cadu **I**

SEHRBAZ *Sehrbaz* Obçina meydanında oyun göstərdiyi zaman yığılan pulları həmişə onunla yarı bölürdü (S.Vəliyev); **CADUGƏR** Padşah aləmin doğrudan da *cadugər* olduğunu düşünüb qorxusundan bir söz demədi, vəzirin isə qorxusundan ürəyi partladı (M.İbrahimov); **CADUKÜN** (*köhn.*) [Məstəli şah:] Ondan ötrü ki, onlar minbərə çıxıb aşkara xalqa vəz edirmişlər ki, *cadukünə* və sairə inanmayın (M.F.Axundzadə); **CİNDAR** Bu kənddə nə məscid, nə *cindar* vardı; Ayrı etiqadla şənlik yaşardı (M.Dilbazi); **OVSUNÇU** *Ovsunçuyam,* ovsun sallam hi mara; Bənna olsan, tərki axtar, him ara (Aşıq Ələsgər); **SAHİR** (*ərx.*) [Oqtay:] Sən də ey böyük *sahir,* söndür bu günəşləri, ay, ulduzları (C.Cabbarlı); **SEHRKAR** [Vahid:] Sən *sehrkarsan,* cadugərsən, kibernetik maşınsan (M.İbrahimov); **TİLSİMÇİ** (*nağıllarda*) *Tilsimçi* qoca üzüyü özü üçün götürüb (Nağıl); **CADUÇU.**

SEHRBAZLIQ Uşaqlıqda onun başından şairlik fikri keçmişdisə də, nəticədə *sehrbazlıq* ixtisasını qazanmışdı.. (S.Vəliyev); **CADUBAZLIQ** Yenə dualar, yenə *cadubazlıq* meydana gəldi (N.Norimanov); **CADUÇULUQ** Kahinlərin falçılığı, *caduçuluğu,* çox mütədavildir (F.Ağazadə); **CADUGƏRLİK** Müəllif [M.F.Axundzadə], xalqın müxtəlif cadugərlərə və *cadugərliyə* inanmasına gülürdü (Ə.Haqverdiyev); **SEHRKARLIQ** [Höccətullah:] *Sehrkarlığa* milləti öz sözünə aludə edibdir! (S.Rəhimov); **CİNDARLIQ.**

sehrkar *bax* sehrbaz

sehrkarlıq *bax* sehrbazlıq

SEHRLƏMƏK [Məzlum:] Skripka məni *sehrlədi..* (S.Vəliyev); **OVSUNLAMAQ** Elə bil onu [Könülü] *ovsunlamışdılar..* (X.Hasilova); **CADULAMAQ, TİLSİMLƏMƏK, TİLSİMƏ SALMAQ.**

SEHRLİ Çox dərdləri bilən həkim; Dedi: əgər *sehrli* nar; Yesə, bu xəstə sağalar (M.Seyidzadə); **TİLSİMLİ** [Şahlar] həmin nağılın qəhrəmanı insana əbədi həyat verən çiçəyi tapıb gətirməyə gedərkən üç *tilsimli* dağ aşmışdı (İ.Əfəndiyev); **CADULU, OVSUNLU.**

sekta *bax* təriqət

segment *bax* buğum **1**

semiçka *bax* tum **2**

ser *bax* cənab

SERİYA, HİSSƏ, SİLSİLƏ

SERTİFİKAT, SƏNƏD, VƏSİQƏ

sevda *bax* məhəbbət **1**

sevdalı *bax* vurğun

sevdasız *bax* məhəbbətsiz

sevə-sevə *bax* həvəslə **2**

sevgi *bax* məhəbbət **1**

1. SEVGİLİ, HƏBİB, NİGAR (*məc.*), **YAR** (*kl.ad.*) Nə müddətdir, gözüm rahindədir, yarım, sən səfa gəldin; *Həbibim, sevgilim, yarım, nigarım,* sən səfa gəldin (M.V.Vidadi); **CANAN** *Cananla* bir yerdə olduğum zaman; Hər günüm uzanıb bir ilə dönsün (M.Rahim); **İSTƏKLİ** [Fərman:] Mənə ancaq öz *istəklim* lazımdır (Ə.Haqverdiyev); **MƏHBUB** (*kl.ad.*) Bizim yanımızda bir "obrazovanni" müsəlman cavanı ilə Tamara adlı bir *məhbub* qız oturmuşdu (M.S.Ordubadi); **MƏHBUBƏ** (*kl.ad.*) Xanım, tutaq ki, sizin *məhbubənizlə* yad bir kişi gəzir. Onda nə edərsiniz? (Çəmənzəminli); **MƏŞUQ(Ə)** (*kl.ad., şair*) Şirin xəyalata meydan verib, Sitarə yenə *məşuqu* ilə ömür bağçasında gəzib dolanırdılar... (Çəmənzəminli); **VƏFADAR** (*kl.ad.*) Məhəbbət payidar olmaz; *Vəfadar* olmayan yerdə (M.V.Vidadi).

2. sevgili *bax* sevimli **1**

sevgisiz *bax* məhəbbətsiz

1. SEVİMLİ, ƏZİZ [Gülsüm qızına:] Ay qızım, *əziz* balam, belə mısmırıq töküb, göz yaşı axıtmaq da yaxşı deyil (X.Hasilova); **GİRAMİ** (*kl.ad.*) Demə Zakir, ki səni yar *girami* tutmaz (Q.Zakir); **İSTƏKLİ** Yazıq qızcığaz *istəkli* dostu Qaraca qızla görüşə bilmədi (S.S.Axundov); **SEVGİLİ** İndi beş ildir tamam dinimə əl qatmısız; *Sevgili* övladımı kafirə oxşatmısız (M.Ə.Sabir).

2. sevimli *bax* cazibəli

SEVİNC, FƏRƏH Hamının üzündə bir *sevinc,* şənlik, *fərəh* hiss olunurdu (S.Vəliyev); **NƏŞƏ** Muxtar qatı açılmamış xəbərlər söyləyib Cavadın *nəşəsini* artırdı (Ə.Vəliyev); **VƏCD** (*həddən artıq sevinc*) Sevincimin, *vəcdimin* çoxluğundan durub oynamaq istəyirdim (M.F.Axundzadə); **BƏHCƏT** Sürücünün şərqisində vətən sosi dinlənir; Gah ruhuma *bəhcət* verir, gah qəlbimə qəm gəlir (A.Səhhət); **MÜSƏRRƏM** (*kl.ad.*) [Şeyx Sənan:] Kədər, işkəncə var; *Müsərrəm* yox (H.Cavid); **SÜRUR** (*köhn.*) [Sitarə:] Fikrimin, qəlbimin *sürur,* həmşirəm Rəmziyyə! (A.Şaiq); **DİLŞADLIQ** Mən bu dudmanı həmişə abad və içində *dilşadlıq* görmüşəm (Ə.Haqverdiyev); **SEVİNMƏ, ŞADLIQ** (*bax*).

sevindirmək *bax* şadlandırmaq

sevinmək *bax* şadlanmaq

1. SEVMƏK [Bərbərzadə:] Mən onu *sevmişəm,* o da məni (S.Rəhman); **İSTƏMƏK, MƏHƏBBƏT YETİRMƏK, SEVDAYA DÜŞMƏK, VURULMAQ** (*bax*).

2. sevmək *bax* xoşlamaq **1**

3. sevmək *bax* oxşamaq **2**

seyd *bax* ovçu

seydgah *bax* ovlaq

seyf *bax* yay **I**

SEYİD (*ləqəb kimi seyidlərin adlarının əvvəlində işlədilir*) *Seyid* Səməd başını bir silkələdi.. (Ə.Haqverdiyev); **XACƏ** A.Səhhətin şeirlərindən biri "*Xacə* Hafiz" adlanır (N.Seyidəliyev).

seyidmalı *bax* xüms

seyvan *bax* eyvan

SEZMƏK Axır Könül onu da *sezmişdi* ki, Kərim onun filarmoniyada çıxış etməsindən də narazıdır (X.Hasilova); **HİSS ETMƏK** Həsən bunu açıq *hiss edirdi* (M.İbrahimov); **EHSAS ETMƏK** (*köhn.*) [Əbülhəsən bəy:] ..gözlərim bu qədər cinayəti görməkdən, beynim isə *ehsas etməkdən* və duymaqdan yorulmuşdu (M.S.Ordubadi); **DUYMAQ** Qazı çoxdan *duymuşdu* ki, bu kişi düşübdür (C.Məmmədquluzadə); **OXUMAQ** (*məc.*) ..mən də sənin gözlərində başqa şeylər *oxumuşdum* (Ə.Məmmədxanlı).

səadət *bax* xoşbəxtlik

səadətli *bax* xoşbəxt

səadətsiz *bax* bədbəxt

səadətsizlik *bax* bədbəxtlik **1**

səbat *bax* dəyanət, sədaqət

səbatlı *bax* dəyanətli

1. SƏBƏB, BAİS

2. səbəb *bax* səbəbkar

SƏBƏBKAR Göz kor, dil qıfıllı, qulaqlar da kar; Xeyr, sənət deyil buna *səbəbkar* (M.Rahim); **BAİS** [Səriyyə:] Bu işlərin də *baisi* Həmzə ilə anamdır (C.Cabbarlı); **BANİ**

Bu ədavətdə *bani* hansı idi və müqəssir hansı idi? (C.Məmmədquluzadə); **GÖBƏK** (*məc.*) [Süleyman:] Bütün bu işlərin *göbəyi* Təfiqdir (M.İbrahimov); **GÜNAHKAR** [Bəhlul:] ..Mənə aydın idi ki, anamla ayrılmağın əsil *günahkarı* atam olub (B.Bayramov); **SƏBƏB** *Səbəbin* evi dağılsın. Gəldilər camaatı başdan çıxartdılar (Ə.Haqverdiyev); **BAİSKAR.**

səbəbli *bax* üzrlü

1. SƏBƏBSİZ (*heç bir səbəb olmama*) Əlbəttə ki, onun [Bəxtiyarın] bu halı *səbəbsiz* deyildi (S.Hüseyn); **BİSƏBƏB** [Güldəstə:] *Bisəbəb*, bugünəh beş uşağın anasını at bayıra – axır nainsaf işdir... (N.Vəzirov); **BİLASƏBƏB** (*köhn.*).

2. səbəbsiz *bax* üzrsüz

1. SƏBƏT Piri kişi özü bir *səbət* götürdü və Qaraca qıza da bir cəvərən verdi (S.S.Axundov); **DƏSGİRƏ** (*dial.*) Gilası *dəsgirəyə* yığdım (ADDL).

2. səbət *bax* pətək

I SƏBİR, DÖZÜM, TƏHƏMMÜL *Səbr* gərəkdir! Əlbəttə Şamoda *səbr, təhəmmül, dözüm* var idi (S.Rəhimov); **HÖVSƏLƏ** [Nurəli:] Soltanağa, *hövsələm* yoxdur (C.Məmmədquluzadə); **KİRDAR** Anada o *kirdar* hanı, telefona gələ.. (Mir Cəlal); **SƏBİR-ARAM** *Səbrim-aramım* yox idi, çünki yoldaşları böyük təhlükə gözləyirdi (M.S.Ordubadi); **SƏBİR-QƏRAR** (*köhn.*) Ey sevdiyim, səndən cüda düşəli; No *səbrü-qərarım*, nə taqətim var (Q.Zakir).

II səbir *bax* aşqınq

səbir-aram *bax* səbir **I**

səbir-qərar *bax* səbir **I**

SƏBİRLİ, DÖZÜMLÜ Qaraca qız da Nurəddin kimi pis günə *dözümlü, səbirli* bir uşaqdır (S.S.Axundov); **TƏMKİNLİ, HÖVSƏLƏLİ** (*bax*).

SƏBİRSİZ (*səbri olmayan, dözümü olmayan*) [Müqim bəy:] O, Alagözün buxağını qıdıqladı. Yoxsa bizim *səbirsiz* xanım sənə toxunubdur? (S.Rəhimov); **ARAMSIZ** Həsən tramvay duracağında ..*aramsız* bir ürək çırpıntısı ilə Dilarəni gözləyirdi (M.İbrahimov); **DÖZÜMSÜZ** Püstəxanım həddindən artıq *dözümsüz* idi (M.Hüseyn); **KİRDARSIZ, TƏMKİNSİZ.**

səbziyyat *bax* göyərti **2**

səccadə *bax* canamaz

səda *bax* səs **1, 2**

SƏDAQƏT [Müqim bəy:] Mən sənin *sədaqətinə* inanıram, Ələmdar (S.Rəhimov); **DOĞRULUQ, VƏFA** [Vidadi:] Dünya dəyişilmiş, ohd, vəfa, sədaqət, *doğruluq* qalmamışdır (Çəmənzəminli); **ETİBAR** Biz yad olduq, indi səri-kuyində; Kimin vardır *etibarı* görəsən? (Q.Zakir); **İQRAR, DƏYANƏT** Aşinalər ixtilatında səadəm görmədim; Beyəti-*iqrari-imani-dəyanət* görmədim (M.P.Vaqif); **SADİQLİK** [Ağa Bəşir:] Ağa Cabbar, son mən axmağa de ki, bu mərtəbədə saf və *sadiqlik* olarmı ki, elə hər zada inanırsan? (M.F.Axundzadə); **SƏBAT** Bizimdir mətanət, bizimdir *səbat* (M.Müşfiq); **İXLASKARLIQ, İXLASKEŞLİK.**

sədaqətkar *bax* sədaqətli

sədaqətkarlıq *bax* sədaqətlilik

SƏDAQƏTLİ Dostluqda Sabir kimi *sədaqətli* insan az tapılar (A.Şaiq); **İXLASKEŞ** (*köhn.*) [Teymur ağa:] Bəylər və xalqın çoxusu mənim atamın yaxşılıqları sobəbinə mənə *ixlaskeşdir* (M.F.Axundzadə); **SADİQ** İndi isə Sona kimi çoxlu *sadiq* və möhkəm dostları vardır (M.İbrahimov); **İXLASKAR, SƏDAQƏTKAR, VƏFALI** (*bax*).

SƏDAQƏTLİLİK, SƏDAQƏTKARLIQ, VƏFALILIQ (*bax*)

sədaqətsiz *bax* vəfasız

sədaqətsizlik *bax* vəfasızlıq

SƏDARƏT, RƏYASƏT (*seçilmiş rəhbər orqan*)

sədbərg *bax* mixəkgülü

I. SƏDD, BƏND, DƏHNƏ

2. sədd *bax* divar **I**

SƏDƏQƏ [Adilə:] Dilənçi kimi *sədəqə* aldım (Ə.Qasımov); **DİLƏNÇİPAYI** Məlik Mədinənin qoca ataya *dilənçipayı* verib getdiyi o ağır dəqiqədə Xosrov artıq hər şeyi aydın dərk edən bir filosof kimi düşünməyə

başlamışdı (M.İbrahimov); **ALLAHPAYI** *Allahpayı* dilər, ağlar, zoqquldar; Axşamacan xırmanları dolaşar (A.Səhhət); **EHSAN** Şərqdə hər cümə axşamı məhbuslara *ehsan* gətirmək adət idi (M.S.Ordubadi).

1. SƏDR (*siyasi*), **SPİKER**

2. SƏDR, RƏHBƏR, BAŞÇI

saf *bax* sıra **1**

səfabəxş *bax* səfalı

SƏFALI Böyükdür qəzəbi də, dərdi də konqolunun; Torpağının ən gözəl; *Səfalı* güşələri (Ə.Comil); **BASƏFA** *Basəfa* yer idi; ələfzar idi (Q.Zakir); **SƏFABƏXŞ, PÜRSƏFA.**

səfarət *bax* səfirlik

səfarətxana *bax* səfirlik

SƏFEH [Mirzə Ələsgər:] O ki Softərqulu ağanın oğludur, o da *səfehin* birisidir (N.Vəzirov); **AĞILDAN KASIB** Eh, ay oğul, sən də məndən beşbetər *ağıldan kasıbsan*, ha!.. (M.Hüseyn); **AXMAQ** [Sadıq:] Deyən gərək, ay *axmaq*, nə üçün arvadın sözünə baxmırdın (S.Rəhimov); **BAŞIBOŞ** (*dan.*) [Sənəm:] Lap ondan da pisdir. Axmaqdır, *başıboşdur* (M.İbrahimov); **ƏBLƏH** (*köhn., kl.ad.*) Nola bir evdə qoyaydız qarabaş; Verməyəydiz məni bu *əbləhə* kaş! (M.Ə.Sabir); **ƏHMƏQ** (*kl.ad.*) [Molla İbrahimxəlil:] Qərib *əhməqsən*, sən nuxulları mənə tanıdırsan? (M.F.Axundzadə); **GİC** (*dan.*) [Şamaxı:] Mənə nə desə yaxşıdır, köpəkoğlu, deyir ay dədə, *gicəm* bəyəm olaçı olum, canıma qəfa basım (Anar); **GİCBAŞ** [Çimnaz:] *Gicbaş* arvad da Veysə necə tapşırıb, elə-elə gedib qızı istəyib (Ə.Əbülhəsən); **GİCBƏSƏR** (*dial.*) Bu *gicbəsərin* biridir (ADDL); **İDİOT** (*anadangəlmə səfeh*) [Rafi:] *İdiot*, bax buna deyorlər (Ə.Kərim); **KƏMSƏR** (*dial.*) Ay *kəmsər*, sənin moniynən nə işin var? (ADDL); **KÖVDƏN** (*köhn.*) [Vəzir Ağa Bəşirə:] Sən *kövdən*, bir mənim evimi, mənim nökərlərimi dolandıra bilmirsən! (M.F.Axundzadə); **SARSAQ** [Vəli Oruca:] Axmaq danışma, *sarsaq!* (M.F.Axundzadə); **ZIRRAMA** (*dan.*) [Talıbov:] No elədiyini başa düşürsənmi, ay *zırrama?!* (Y.Şirvan); **BAŞSIZ** (*məc.*); **DİLĞIR** (*dan.*).

SƏFEHLƏMƏK, AĞLINI İTİRMƏK, AXMAQLAMAQ, GİCLƏMƏK, GİCLƏŞMƏK, SARSAQLAMAQ

SƏFEHLİK, AXMAQLIQ, ƏBLƏHLİK, ƏHMƏQLİK, GİCLİK, İDİOTLUQ, SARSAQLIQ

I SƏFƏR Yeni yolçu uğur olsun *səfərin!* (A.Şaiq); **SƏYAHƏT** [Alman] ömrünün çoxunu Şərq aləminin *səyahətində* keçirmişdir (S.S.Axundov); **MUSAFİRƏT** (*köhn.*) [Dürrətülbağdad:] ..bu qısa *müsafirətdə* onun vaxtının xoş keçməsinə çalışıram (M.S.Ordubadi).

II səfər *bax* dəfə

səfərçəl *bax* heyva

SƏFİL, SƏRGƏRDAN Mən kiməm – dilənçi, *səfil, sərgərdan;* Votəni olindən çıxmış bir insan (Ə.Kürçaylı); **DƏRBƏDƏR** Səni sevməkdə haqlı bir şair; Edəcək dərdi *dərbədər*, gözəlim (S.Rüstəm); **DİLĞIR** (*məh.*) Nizami qoşunu da bir *dilğıra* tapşırıblar (S.Rəhimov); **HƏRCAYİ** [Sitaro:] Bilməm məni kimə həml etdi də? *Harcayi* soqaq qadınlarınamı (A.Şaiq); **SƏRSƏRİ** (*bax*).

səfinə *bax* gəmi

SƏFİR, ELÇİ Sormayodar siniflərinin *elçilərini-səfirlərini* dünya dəyirmi stolu arxasında oturdub, onlarla dövlət arasında, müvafiq şəkildə müqavilə bağlasınlar?! (S.Rəhimov); **RƏSUL** (*köhn.*) Dər, yeno sizo *rəsul* gəlmiş (Xotayi); **NÜMAYƏNDƏ.**

səfirxana *bax* səfirlik

SƏFİRLİK (*səfir və onun nümayəndələrinin yerləşdiyi bina*); **SƏFARƏT** (*köhn.*) Çar *səfarəti* qarşısında etiraz nümayişi düzəlmişdir (M.S.Ordubadi); **SƏFARƏTXANA** (*köhn.*) Eyni zamanda bura *səfarətxanalar* rayonudur (M.İbrahimov); **SƏFİRXANA** (*köhn.*).

səğır *bax* yetim

səhab *bax* bulud

səhba *bax* çaxır

səhər *bax* sabah
səhhət *bax* sağlamlıq
SƏHİFƏ Hər *səhifədə* hər gün; Neçə qələbə, zəfər; Neçə-neçə xoş xəbər.. (S.Vurğun); **VƏRƏQ** (*köhn.*) Bir yeni aləm var hər vərəqində (S.Vurğun).
səhih *bax* doğru **I**
səhl *bax* asan
səhlənkar *bax* laqeyd
səhlənkarlıq *bax* laqeydlik
I. SƏHM (*səhmdar cəmiyyətin üzvlərinə verilən qiymətli kağız*) Xarici banklar rus müəssisələri və banklarının böhran zamanı qiyməti xeyli aşağı düşmüş olan *səhmlərini* alır.. (ADİL); **AKSİYA** *Aksiyaların* birjada ucuzlaşdığını Aslan bəy öyrənmişdi (A.Şaiq).
2. səhm *bax* pay **I 1**
səhmdar *bax* payçı
SƏHRA Bəyaz çöllər bitib tükəndi, yaşıl düzənqahlar bitib tükəndi, sarı bir *səhra* başlandı (Anar); **BƏRR-BİYABAN** (*köhn.*) [Cahangir bəy:] Səadət, tək səndən ötrü xanımanımdan əl çəkib, *barr-biyabana* düşmüşəm (N.Vəzirov); **BİYABAN** (*köhn.*) Susuz bir *biyabanda* yol itirmiş kimi onun əlacı hər bir yerdən üzülmüşdü (Çəmənzəminli); **ÇÖL** Sağ *çöl*, sol çöl, arxa çöl, baxırsan, hər tərəf çöl; Ucsuz-bucaqsız çöllər qandan yaranma bir göl (S.Rüstəm); **DƏŞT** (*köhn.*) Naləmdə oldu kül bu cahan içrə kuhü *dəşt;* Ey dil, neçin o türreyi-dildar yanmadı (A.Şaiq); **QIR** (*köhn.*) Ucsuz-bucaqsız *qırlarda*, yaşıl yamaclı yaylaqlarda yaşamış, bir çox müxtəlif tarixi və ictimai inqilab və keşməkeşlərə şahid olan xalqın bədii yaradıcılığı da özü kimi... geniş və zəngindir (A.Şaiq); **VADİ** (*kl.ad.*) Səhralara tutdu seyl tək üz; *Vadilərə* açdı çeşmə tək göz (Füzuli); **YAZI** (*qəd.*) Bu zəfilə Qövsi *məni yazılara* salmaz; Gər mur dilin bilsə Süleymani-zəmanım (Qövsi).
SƏHV O vaxt Qeysər, fikrinin *səhv* anlaşıldığını duydu (M.Hüseyn); **XATA** (*dan.*) [Əli bəy:] O ki qaldı axund Molla İman, onun fikri başdan-ayağa yanlış və *xatadır* (S.S.Axundov); **QƏLƏT** (*dan.*) [Gülcamal:] Əə, yoxsa dalımca bir söz danışmısan, ya da siyasi *qələt* dartmısan (M.İbrahimov); **QÜSUR** Bəlolıklo səhv çox olduqca cəza da o qədər ağır olurdu. Uşaq başqa bir *qüsur* buraxmış olsa, o vaxt falaqqa işə düşürdü (S.S.Axundov); **YANLIŞ** [Adilo:] Son jurnalistikada ənənə məsələsini çox *yanlış* başa düşürsən (Ə.Qasımov); **NÖQSAN** (*bax*).
SƏXAVƏT [Məhərrəm:] ..hətta namus və qeyrətini yalnız bunlara fəda etmək böyük *səxavət* və mərdlik sayılır (A.Şaiq); **ƏLİAÇIQLIQ** Nəbinin igidliyi, *əliaçıqlığı* dillərdə dastan olur ("Qaçaq Nəbi"); **COMƏRDLİK.**
SƏXAVƏTLİ Larisa çox *səxavətli* bir qadın idi (M.Hüseyn); **COMƏRD, SƏXİ** (*kl.əd.*) [Vaqif:] Nə *saxi* və əli tinət idi (Çəmənzəminli); **ƏLİAÇIQ** [Dilənçilər] tanıdıqları ərbablardan kiminin xəsis və kiminin *əliaçıq* olduğunu yaxşı bilirdilər.. (Ə.Sadıq).
saxi *bax* səxavətli
SƏKİ Evimizin qapısı *səkiyə* açılırdı (M.İbrahimov); **QALDIRIM** (*köhn.*) Dalandar *qaldırımın* qarını təmizləyirdi, ona rast gəlib dayandılar, yavaş-yavaş onu [əsgəri] qavramağa başladılar (Çəmənzəminli).
səksəkə *bax* təşviş
SƏKSƏN [Umurun] iri olləri vardı və yaşı *səksəni* haqlasa da, qəddi əyilməmişdi (H.Abbaszadə); **HƏŞTAD** [Şəhla:] Dədəmin yaşı *həştaddan* keçdiyinə baxmayaraq atın üstünə qırğı kimi qalxır (M.İbrahimov).
SƏKSƏNMƏK, ÇİMÇİŞMƏK, DİKSİNMƏK
səqər *bax* cəhənnəm
SƏQF Guya ki, ağzına su alıb, qarqara eləyir, gözünü evin *səqfinə* dirəyib, deyəsən nərdi sayırdı (C.Məmmədquluzadə); **LƏMPƏ** (*dial.*) Düz stolun üstündən, ləmpədən asılmış onluq lampa şölələnirdi (B.Bayramov); **TAVAN** Yarışıq döşəmənin rəngi qopmuş və qaralmış, *tavanına* su hopmuş bu otaq Qurbanlıya can sıxıntısı verirdi (Çəmənzəminli).

SƏLAHİYYƏT Həmid kim idi və əlində hansı *səlahiyyət* vardı ki, ondan nəyisə xahiş eləsinlər, burada kimsə, nədəsə bir kömeyi dəysin (H.Abbaszadə); **İXTİYAR** İndi ki, hər bir *ixtiyar* bizdədir, – dedim (M.Hüseyn); **İQTİDAR** Getdi şənimiz, etibarımız, varmı rütbəmiz, *iqtidarımız?* (M.Ə.Sabir).
sələb *bax* tülkü **1**
SƏLƏM [Kərbalayı:] Əşi, ay molla, *səlam* hara, şoriət hara? (S.Rəhimov); **MÜAMİLƏ** İyirmi manat *müamiləsini* (*sələmini*) də əvvəlcədən çıxdı... (S.Hüseyn); **FAİZ** (*bax*).
SƏLƏMÇİ [Veys:] ..qoymayacaq ki, sən tacir, *sələmçi* Hacı Tağını itiləyib oturasan onun yerində (Ə.Əbülhəsən); **MÜAMİLƏÇİ** ..amma ona "nanıx oğlu" – deyən dükançı, *müamiləçi*, ya dəyirmançı.. və özünü müdafiə etməyi lazım bilməyirdi (T.Ş.Simürğ); **SƏLƏMXOR** Alo tərs baxışla *sələmxor* Məşədi Qulamı süzüb, əlavə etdi.. (S.Rəhimov).
sələmxor *bax* səlomçi
səlib *bax* xaç
SƏLİQƏ, NİZAM, SƏLİQƏ-SAHMAN, TƏMİZLİK
1. SƏLİQƏLİ, DİQQƏTLİ, TƏMİZ
2. SƏLİQƏLİ, NİZAMLI
SƏLİQƏLİLİK, TƏMİZLİK
səliqə-sahman *bax* səliqə
1. SƏLİQƏSİZ, PİNTİ
2. səliqəsiz *bax* nizamsız **1**
SƏLİS, AXICI Bütün müdərrislərimiz ondakı [Həsəndəki] *səlis, axıcı* natiqlik məharətinə qibtə edirdilər (İ.Əfəndiyev); **AXAR** Noldu söylədiyin *axar* qoşmalar; Andımı həsrətlə soni hər nigar! (S.Vurğun); **AYDIN, RƏVAN.**
SƏLİSLİK, AXARLIQ, AXICILIQ, AYDINLIQ, RƏVANLIQ
səltənət *bax* **1.** hökmdarlıq; **2.** dövlət **1**
səma *bax* göy **I**
səmavi *bax* mavi
səmənd *bax* at
səmər(ə) *bax* fayda
səmərəli *bax* faydalı
səmum *bax* yel **I**
sənə *bax* torif
SƏNAYE XIX əsrin sonlarına doğru Bakıda neft *sənayesi*, fabrik-zavodlar.. sürətlə inkişaf edirdi.. (A.Şaiq); **İSTEHSALAT** *İstehsalatda* usta sözü kosərli sözdür (Mir Cəlal).
sənə *bax* il
SƏNƏD, VƏSİQƏ, KAĞIZ (*dan.*)
sənək *bax* bardaq
SƏNƏT, PEŞƏ Tezliklə *peşə* yiyəsi, *sənət* sahibi olacaqlar (Ə.Vəliyev); **İXTİSAS** [Ənisənin] əmək bursasında bir *ixtisası* olmadığı üçün qeyd etməyirdilər (S.Hüseyn); **KƏSB** [Hacı Qara:] A qardaş, mən dinc, fərağət, *kəsb* əhliyəm (M.F.Axundzadə); **KƏSBKARLIQ** [Tacir Mocnuna:] Halal *kəsbkarlığım* oğurluq niyə olur (Ə.Məmmədxanlı).
1. SƏNƏTKAR Bunlar adi *sənətkarlar*, daşyonanlar, həkkaklar.. nəhayət, şair və alim idi (Ə.Cəfərzadə); **ƏHLİ-SƏNƏT** Ənbiyadər həm *əhli-sənət* idi; Adəmin sənəti ziraət idi (S.Ə.Şirvani); **ƏSNAF** ..indi tacir və *əsnaf* arasında da bu məktəbə həvəs oyanırdı (Çəmənzəminli); **KUSTAR** Zeynal ilə Əziz.. bir neçə nəfər *kustarı* da çağırmaq istəmişdilərsə də, Veys: – Olmaz! – deyib qəti etiraz etmişdi (Ə.Əbülhəsən); **PEŞƏKAR** Kəndli qızdır anam, bir *peşəkardır* babam (B.Vahabzadə).
2. sənətkar *bax* usta
səng *bax* daş
səngdil *bax* daşürəkli
SƏPİN (*toxum səpmə işi*) Pambıq *səpini* planı da pozula bilərdi (M.Hüseyn); **ƏKİN** Hələ Səriyyə özü *əkinə* gecikirdi (M.Hüseyn); **GÜZLÜK** (*payızlıq səpin*) [Alo:] Toxum çuvalda qaldı, yenə *güzlüyü* yazlığa dəyişib tərəkəmə tərpənəndə səpərdik.. (S.Rəhimov); **ZİRAƏT** (*köhn.*) Belə məlum oldu ki, keçən il bu vilayətin pambıq və arpabuğda *ziraəti* səlaqət imiş (C.Məmmədquluzadə).

1. SƏPMƏK, ƏKMƏK, BASDIRMAQ (*toxumu*)

2. səpmək *bax* çiləmək

sər *bax* baş **1**

sərasər *bax* başdan-başa

sərbaz *bax* əsgər

sərbazlıq *bax* əsgərlik

1. SƏRBƏST, ÇƏKİNMƏDƏN, SIXILMADAN, UTANMADAN

2. sərbəst *bax* **1.** müstəqil **1**; **2.** azad

sərbəstlik *bax* azadlıq

SƏRDABƏ, MAVZOLEY (*bax*), **MƏQBƏRƏ**

sərdar *bax* **1.** canişin; **2.** sərkərdə

sərələnmək *bax* **1.** uzanmaq **1**; **2.** yıxılmaq

1. SƏRƏNCAM Görünür keçmək üçün *sərəncam* verilmişdi (Y.Şirvan); **HÖKM, ƏMR** [Füzuli:] Ömür dastanımdır o gözəl pəri; *Hökm* onun hökmüdür, *əmr* onun əmridir (B.Vahabzadə); **QƏRAR.**

2. SƏRƏNCAM Ata və ana ona nəsihət verə-verə gətirib məşşatələrin *sərəncamına* verdilər (M.S.Ordubadi); **İXTİYAR** Odur ki, haman yer [Cəlilin] *ixtiyarında* idi (İ.Musabəyov).

sərəndaz *bax* **1.** ləçək **1**; **2.** çarpat

sərəsgər *bax* sərkərdə

I sərf *bax* xərc

II sərf *bax* morfologiya

sərfə *bax* fayda

sərfəli *bax* faydalı

SƏRGÜZƏŞT İlyas köksünü ötürdü, qəmli bir səslə öz *sərgüzəştini* söyləyirdi (M.Hüseyn); **MƏCƏRA** Mənim dərdim ayrıdır, xanım! – deyə başı *macəralar* görmüş, ilk sevgilisi Qayanı itirmiş Alagöz hıçqırıb ağladı (S.Rəhimov).

SƏRHƏD Onlar da hər bir ehtimala qarşı *sərhədlərdə* hazırlığa başlamışdılar (M.S.Ordubadi); **HÜDUD** O zaman ki, dünya bir məzhəb oldu; *Hüdud* boyu əsgər leşiylə doldu (H.Cavid); **HƏDD.**

sərhəng *bax* sərkərdə

SƏRXOŞ (*spirtli içki içmiş*) [Adilə:] Heç ayıb deyildimi, kəndə *sərxoş* gəlib, *sərxoş* da getdin (Ə.Qasımov); **BƏDMƏST** (*köhn.*), **PİYAN** (*dan.*) Bəli, doqquz ayın müddətində otuz doqquz nömrə məcmuə çıxartmışıq və bu otuz doqquz nömrənin içində yüz otuz çıxır için *piyan*, yəni *bədməst* müsəlman şəkli çəkmişik... (C.Məmmədquluzadə); **DƏM** (*məc., dan.*) [Firuzo:] Bağışla, bir az vurmuşam, bir balaca *dəm* kimiyəm (Anar); **DƏMLİ** [Fedya:] Zalım oğlu feldşer yenə bərk *dəmli* idi (Ə.Məmmədxanlı); **KEFLİ** Lakin *kefli*, ağlı başında olmayan adamla ağız-ağıza verməyin nə mənası vardır? (H.Abbaszadə); **LÜLQƏNBƏR** (*dan.*) [Bərbərzadə:] Mühəndislər qucaq-qucağa yatışıblar, özləri də *lülqənbər* (S.Rəhman); **MƏST** Üzün gördü peyda könül *məst* oldu; Nə hacət ki, həşr olunca ayinə (M.V.Vidadi); **PAXMEL** (*dan.*) [Motiş:] *Paxmeləm* sən öl, başım boşalmış çölloyə dönüb... (B.Bayramov); **SƏRMƏST** Neçin kəsdin sinəm üstən ayaqlar; Üzün göstər, *sərmast* olsun ayıqlar (M.V.Vidadi); **BAŞIDOLU** (*məc.*), **NƏŞƏLİ.**

SƏRXOŞLUQ Saqiya, mən ta əzəldən düşmənəm *sərxoşluğa*; Mey içib uçmaq nədir bilməz bu könül boşluğa (S.Rüstəm); **BƏDMƏSTLİK** Kim bilsin dünyada minlərcə məxluq *bədməstlik* mərəzindən qurtara bilməyib.. (C.Məmmədquluzadə); **KEFLİLİK** Pristav əlinin *kefliliyini* görüb, onu söyüb-saydıqdan sonra Cavda tərəf yönəldi (Çəmənzəminli); **MƏSTLİK** *Məstlikdir* səbəbi-hürmət gər sohbanım (S.Ə.Şirvani); **SƏRMƏSTLİK.**

I. SƏRİLMƏK, DÖŞƏNMƏK, SALINMAQ

2. sərilmək *bax* uzanmaq **1**

3. sərilmək *bax* yıxılmaq **1**

sərin *bax* soyuq **1**

sərişdə *bax* təcrübə **2**

sərişdəli *bax* təcrübəli

sərişdəsiz *bax* naşı

sərişdəsizlik *bax* naşılıq

sərgərdan *bax* səfil

SƏRKƏRDƏ Əyinlərinə demir geyim geymiş *sərkərdələr* öz dəstələri ilə bərabər küçələrə çıxmışdılar (M.S.Ordubadi); **QOŞUN BÖYÜYÜ/BAŞÇISI** [Sənəm:] ..Cahangir ağa Rusiyada *qoşun böyüyü* olubdur (S.S.Axundov); **SƏRDAR** (*köhn.*) [Nizami:] Siz bir qoşun *sərdarı*, mənsə yoxsul bir şair, bizim aramızda nə kimi məktublaşma ola bilər? (M.S.Ordubadi); **SƏRƏSGƏR** Soltan ömr etdi, ləşkər atlandı; Çıxdı fərman, *sərəsgər* atlandı (A.Səhhət); **SƏRHƏNG** Yominü yəsarımda *sərhənglər;* Nə sərhənglər – Rüstəmi-cənglər! (M.Ə.Sabir); **SƏRTİB** (*köhn.*) Gördüz ki, necə sizləri təqib elədim mən! Baqqal balasın ləşkərə *sərtib* elədim mən! (M.Ə.Sabir); **SİPƏHSALAR** (*köhn.*) Əmir İnanc *sipəhsalar* Hüsaməddini yanına çağırıb danışır... (M.S.Ordubadi); **KOMANDAN** (*bax*).

sərki *bax* danlaq, məzəmmət

SƏRLÖVHƏ (*qəzet, kitab və s.-də*) [Həmzə:] Yoldaş redaktor, bir tənqidi məktub var, ona *sərlövhə* fikirləşirəm (Ə.Qasımov); **BAŞLIQ** Povesto yazdığı bir "yüngülvari müqəddimə" göründüyü kimi müəllif bu *başlıq* altında keçən əsr Azərbaycan kəndi haqqında silsilə povestlər və hekayələr yazmaq fikrində imiş (Anar); **AD.**

SƏRMAYƏ [Məşədi Kazım:] Mənim nəinki qazancım, hətta *sərmayəm* də inqilab yolunda sərf oluna bilər (M.S.Ordubadi); **KAPİTAL** ..Bizim sərvət və *kapitalımızı*.. hökumoti çar hökumoti kimi mühafizə edə bilməz.. (A.Şaiq); **MAYA** [Ata:] Allaha şükür, əlimizdə çax-çux bir az *mayamız* var (Qantəmir).

SƏRMAYƏÇİ, KAPİTALİST, SƏRMAYƏDAR.

SƏRMAYƏÇİLİK, SƏRMAYƏDARLIQ

sərmayədar *bax* sərmayəçi

sərmayədarlıq *bax* sərmayəçilik; kapitalizm

1. SƏRMƏK [İkinci qonaq:] ..bağlamanı açır, çox zəngin bir xalının çıxarıb ortalığa *sərir*.. (Anar); **DÖŞƏMƏK** Anası yayda həyətə saldığı köhnə həsiri evə niyə *döşəyib?* (H.Abbaszadə); **SALMAQ** [Porviz:] Yerləri yumşaq olmaq üçün iki-üç qat büküb [torbanı] altlarına *saldım* (M.İbrahimov).

2. SƏRMƏK (*yuyulmuş paltarı və s.*) Götür əskiləri yu, əməlli *sər* (M.Rahim); **ASMAQ** (*dan.*).

3. sərmək *bax* yıxmaq **1**

sərməst *bax* sərxoş

sərməstlik *bax* sərxoşluq

SƏRNİŞİN *Sərnişinlər* yavaş-yavaş yerlərini tutdular (H.Abbaszadə); **MİNİK** Batumdan Tiflisə sürətlə hərəkət edən dəmir yol qatarı *miniklərlə* dolu idi (S.S.Axundov).

sərpa *bax* başdan-ayağa

SƏRSƏRİ ..dışarıda bir dəstə *sərsəri* durmuşdu (Çəmənzəminli); **ABDAL** (*kl.ad.*) Xətayiyəm bir halam; Əlif üstündə dalam; Sufiyəm təriqətdə; Həqiqətdə *abdalam* (Xətayi); **DƏRBƏDƏR** Biri orda *dərbədərdir*, daş üstünə baş qoyur (S.Rüstəm); **HƏRCAYİ** Bəlosi Mədinə kimi saf və təmiz ürəkli arvadın yox, *hərcayinin*, bədxasiyyətin olınə düşsə, kim bilir başına nə oyun açar (M.İbrahimov); **QƏLƏNDƏR** (*kl.əd.*) Çün dürri-*qələndəri* bəkuşəm; Yüz min tərəfə saçıldı xuşəm (Füzuli); **QƏLLAŞ** (*arx.*) Dost keçinib, yüzə gülən *qəllaşi;* Bahasıdır, satmaq gərək bir pula (Xətayi); **AVARA** (*bax*); **SƏFİL** (*bax*).

1. SƏRT Səfir gah *sərt* danışır; gah da mülayim, aram (R.Rza); **DÜRÜŞT** (*köhn.*) Bu son sənənin müddətində bircə dəfə də olsun aralarında nə inciklik və nə də *dürüşt* danışıq olmamışdı (Ə.Haqverdiyev); **TƏSİRLİ, KƏSKİN** (*məc.*), **QƏTİ.**

2. sərt *bax* möhkəm **2**; bərk **1**

3. sərt *bax* cod

4. sərt *bax* kobud **1**

sərtib *bax* **1.** sərkərdə; **2.** general; **3.** polkovnik

SƏRV (*bot.*) (*Cənubda bitən ağac*) Ucalır kökliyin, turacın səsi; Gözəldir söyüdün, *sərvin* kölgəsi (A.Şaiq); **ƏR-ƏR** (*köhn.*) ..bəlkə bu *ər-ər* ağacları da insanlar kimi hiss sahibidirlər (C.Məmmədquluzadə); **KİPARİS** *Kiparisin* palmanın; Əyildi budaqları.. (Ə.Kərim).

sərvaxt *bax* ayıq **1**

sərvboy(lu) *bax* ucaboy(lu)

sərvət *bax* var **1**

sərvətdar *bax* varlı

sərvətli *bax* varlı

sərzəniş *bax* danlaq

1. SƏS İzzət uca *səs* ilə onun üstünə çığırıb başladı yamanı (C.Məmmədquluzadə); **AVAZ** *Avazın* yaxşı gəlir, oxuduğun Quran olsa (Ata. sözü); **AVAZƏ** (*köhn.*) Ta ozəldən var mənim gușimdə eşq *avazəsi* (Xətayi); **NİDA** Sabahın bu ahəngdar musiqisini.. şeypur *nidaları* pozurdu (M.Rzaquluzadə); **SƏDA** [Məmmədhəsən:] İzzət, pəyədə axı mən bir ağlamaq *sədası* eşitdim, sən idin ağlayan? (C.Məmmədquluzadə); **SƏS-SƏDA** ..[Gecə yarısı] *səs-səda* kəsilir (M.S.Ordubadi); **SƏS-SƏMİR** Sonra *səs-səmir* kəsilib, kənd dərin bir sükuta qərq oldu (Çəmənzəminli); **SÖVT** (*köhn.*) Kərbəlayı Qulaməli Hacının bu sözlərini eşidəndə uca bir *səvt* ilə hönkürüb dizi üstə çökdü.. (Ə.Haqverdiyev); **ÜN** (*köhn.*) Səsim çatmır, *ünüm* yetmir deyəm: Ana! Ana! (R.Rza); **VƏHY** (*din., ilahi səs*) Hər nəfəsin bir ayə, *vəhyi*-müqəddəs kimi (Ə.Cavad); **AHƏNG** (*gözəl səs*) ..yaxında-uzaqda qayalardan tökülən suların şırıltısı birləşib xoş bir *ahəng* yaradırdı (İ.Əfəndiyev).

2. SƏS (*mus.*) [Xədicə:] ..mahnı oxuyub *səsini* mənə eşitdirdi (S.Hüseyn); **AHƏNG** (*məc.*) [Mirzə Valeh] bülbüllərin min bir nəğməsini dinləyir, axırda bir neçə beyt söyləyir, bu *ahəngə* qoşulurdu (S.Rəhimov); **AVAZ** Həkim özü yaxşıca *avaz* ilə oxuyurdu (C.Məmmədquluzadə); **SƏDA** Melodiyanın ilk *sədaları* təzə dilə gəlmişdi (Ə.Məmmədxanlı).

3. SƏS (*dilç.*), **SÖVT** (*köhn.*)

SƏS-KÜY Birdən koridorda *səs-küy* qopdu (M.S.Ordubadi); **ÇIĞIR-BAĞIR** [Maral:] Səs-küy salan mənəm, ya özüdü? *Çığır-bağırdan* qulaq tutulur ki.. (S.Rəhman); **QALMAQAL** Dışarıda isə *qalmaqal* qopmuşdu (M.Hüseyn); **QARAQIŞQIRIQ** Bağırdım səsim gəldi; – Nə *qaraqışqırıq* salmısan? (R.Rza); **QARĞAŞA** (*dan.*) Ondan sonra mənim *qarğaşam* daha da çoxaldı (B.Bayramov); **VƏLVƏLƏ** O gecəki *valvələdən* ancaq bunu görə bildim (A.Şaiq); **VUR-ÇATLASIN** Mən iclasa gedirəm, *vur-çatlasın,* qalmaqal.. (X.Rza); **HAY-KÜY** (*bax*).

səsləmək *bax* çağırmaq **1**

səsləndirmək *bax* çalmaq **1**

I SƏSLİ, SƏSLİ-KÜYLÜ, SƏS-KÜYLÜ

II səsli *bax* sait

səs-səda *bax* səs **1**

səs-səmir *bax* səs **1**

SƏSSİZ, DİNMƏZ, SAKİT, SƏSSİZ-SƏMİRSİZ, SƏSSİZCƏ

səssizlik *bax* sakitlik **1**

SƏSYAZAN (*cihaz*) O [Eldar], studiyanın qabağındakı otaqda – səsyazan *cihazlar* olan otaqda idi (Anar); **ÇALDIRAN** (*dan.*) [Qumru:] Çox sağ olsun... amma... amma.. mənim olsun da *çaldıranım* yoxdur (Anar); **MAQNİTOFON** [Qumru:] Aman Allah, gör neçə cür *maqnitofon* var (Anar).

SƏY (*müxtəlif mənalarda: can yandırma, çalışma və s.*) Lakin *səyləri* boşa çıxdı – uzun gedib-gəlmələr heç bir əməli nəticə vermədi (Çəmənzəminli); **CANFƏŞANLIQ** (*həddindən artıq can yandırma*) Amma, müəəssüf müəllimlərin çoxunda bu rəvış, bu hərəkət və bu *canfəşanlıq* müşahidə olunmur (F.Köçərli); **CƏHD** Fariz prokurorun əsassız olaraq özünə bəraət qazandırmaq *cəhdini* yersiz hesab edirdi (H.Abbaszadə); **ÇALIŞQANLIQ, CİDD-CƏHD** Bu qələbə məktəbdə uzun aylar boyu davam edən *cidd-cəhdin,* inadlı *çalışqanlığın* nəticəsi idi.

(M.Rzaquluzadə); **HÜMMƏT** Gopnan əməl aşmaz, işə qeyrət gərək olsun; Millət düyünün açmağa *hümmət* gərək olsun (M.Ə.Sabir); **İCTİHAD** (*köhn.*) [Şeyx Əbuzər:] Parlasın *ictihadınız* daim; Sizə əcr eyləsin ota qadir (H.Cavid); **SƏY** Şad yaşamaq *səydə,* qeyrətdədir (M.Ə.Sabir); **CANYANDIRANLIQ.**

SƏYAHƏT, TƏNƏZZÖH (*köhn.*) Mirzağa elmi *tənəzzöhlərə, səyahətlərə..* getməmişdi (S.Rəhimov); [Ülkər:] Sonra teatra, sirkə, uşaq bağçasına.. *tənəzzöh* təşkil edərik (A.Şaiq); **EKSKURSİYA** (*kollektiv səyahət*) Yunis boylananda Almazın uşaqları haraya isə *ekskursiyaya* apardığını gördü (Mir Cəlal); **SƏFƏR** (*bax*).

səyahətçi *bax* **1.** səyyah; **2.** turist

səyirtmək *bax* çapmaq **1**

SƏYLİ ..Maşallah, çox *səyli* uşaqdır!.. (Çəmənzəminli); **ÇALIŞQAN** Kamal uşaqlardan *çalışqan,* sözə baxan idi (M.İbrahimov); **CANYANDIRAN** [Məhərrəm bəy:] ..İmran kimi işləyən, *canyandıran* kömökçin var (S.S.Axundov); **CƏHDLİ.**

səyyad *bax* ovçu

səyyadlıq *bax* ovçuluq

SƏYYAH *Səyyahlar* fabriklərdən birini görmək istədilər (Çəmənzəminli); **MÜSAFİR** "Kursk" gəmisində gələn *müsafirlər* artıq hər tərəfi görürdülər (M.S.Ordubadi); **SƏYAHƏTÇİ** Müdir *səyahətçiləri* üçüncü otağa gətirdi (M.S.Ordubadi); **YOLÇU** Yeni *yolçu* uğur olsun səfərin; Yürü, yollar genişdir (A.Şaiq).

səyyarə *bax* planet

sıcaq *bax* isti **2**

sıçramaq *bax* hoppanmaq

SIĞALLAMAQ (*nəvaziş əlaməti olaraq əlini xəfifcə üstünə və başına sürtmək*) Əmir yenə də qızının başını sığallayaraq sual verdi (M.S.Ordubadi); **OXŞAMAQ** [Qəndab:] O mənə yaxınlaşdı, yenə də saçlarını *oxşadı* (B.Bayramov); **SİĞAMAQ** Gözlərini xoş bir yorğunluq oxşayır, *sığayır,* Azər isə oxuyurdu (Ə.Kərim); **TUMARLAMAQ** O [Əmir], yenə də Qətibənin saçlarını *tumarlayır,* onun başından öpür və onu nazlandırırdı (M.S.Ordubadi).

sığamaq *bax* sığallamaq

SIĞINACAQ [Turab:] Orada mənim bir dostum var, sənə öz yanında *sığınacaq* verər... (H.Abbaszadə); **DALDA** [Mahmud:] Bəy də beş-on nökərləri ilə *daldaya* girib camaatla atışır (Ə.Haqverdiyev); **DALDALANACAQ** O özünü ora-bura vurараq *daldalanacaq* axtararkən sel onu sürətlə irəli apardı (Y.Şirvan); **SIĞINCAQ** ...*Sığıncaq* axtarıb boz sərçələr də; Baharın nəfəsi qönçələrdədir (M.Rahim); **SIĞNAQ** *Sığnaqlara* qoşun göndərib, asıb-kəsmək əmri vermək istədi (Çəmənzəminli).

sığıncaq *bax* sığınacaq

sığnaq *bax* sığınacaq

1. SIX (*meşə, bağ haqqında*) ..*Six* meşələr od tutaraq, qayalıqlar külə dönür (S.Vurğun); **QALIN** Bu yanda səfalı *qalın* bir orman; Yaz olsun, qış olsun, gülür hər zaman (M.Müşfiq); **PİŞİKKEÇMƏZ** (*məc., dan.*) [Bəkir:] Aralıq da *pişikkeçməz* meşə (N.Vəzirov).

2. SIX Üstündə karvan yeriməz; *Sıxdır* dumanların, dağlar (S.Vurğun); **QATI** Alaçıqların bəri yanından nazik, lakin *qatı* çən zolağı uçub haraya isə gedirdi (M.Hüseyn); **QƏLİZ** Bir azdan sonra, uzaqdan *qəliz* toz dumanlarını.. pozaraq, kiçik bir dəstə göründü (M.S.Ordubadi); **QALIN.**

3. SIX (*saç, tük haqqında*) Ortaboylu, quru, arıq.. qısa, *sıx* kirpikləri arasında gözləri atəşböcəyi kimi parıldayırdı (A.Şaiq); **GUR** İndi Rüstəmin qara, *gur* saçları çoxdan seyrəkləşmiş və çallaşmışdı (M.İbrahimov).

sıxac *bax* məngənə

sıxılmaq *bax* utanmaq

1. SIXLAŞMAQ, KƏSİFLƏŞMƏK, QALINLAŞMAQ

2. SIXLAŞMAQ, SIX DAYANMAQ

SILDIRIM Məsələn, yerdən qaynayıb çıxan dumduru və buz kimi soyuq bulaq suyu,

qalın meşələr, axar çaylar, *sıldırım* qayalar, elə qayalar ki, ucunda durub aşağı baxanda adamın gözü qaralır (M.İbrahimov); **DİK** O gah qarşıdakı *dik* yoxuşa, gah da maşına baxıb ümidsiz halda mızıldandı (B.Bayramov); **SARP** Biz qaranlıq zindanları yırtaraq; Əzilən sinfimizin uğrunda; *Sarp* qayalar, qarlı dağlar yıxdıq (S.Vurğun); **YALÇIN** (*çox dik*) Öz üzü daş kimi sərt və sakit idisə də gözləri fırtınaya tutulmuş, *yalçın* qayaları döyöcləyən coşqun dənizə bənzəyirdi (Y.Şirvan).

sımsırıq *bax* qaşqabaq

sınamaq *bax* yoxlamaq 4

I. SINDIRMAQ [Namiq:] Hər Allahın verdiyi günü hökmən bir şey salıb *sındırasıdır* (Anar); **ÇİLİK-ÇİLİK ELƏMƏK/ETMƏK** [Qulluqçu] nə götürürdü, o saatca salıb, *çilik-çilik eləyirdi* (İ.Hüseynov); **QIRMAQ** Şıltaqlıqdan qışqırır; Vurub fincanı *qırır* (M.Seyidzadə).

2. SINDIRMAQ, QIRMAQ, QOPARTMAQ (*ağaca dair*)

sınıxmaq *bax* arıqlamaq

I. SINIQ, QIRIQ, SINMIŞ

2. sınıq *bax* incik

SINMAQ (*müxtəlif mənalarda*) Çay içilərsə, stəkanlar *sınır*, qədəhlər qırılır (N.Nərimanov); **QIRILMAQ** Eşidilməzsə əgər avazım; Yoxsa sınmışmı, *qırılmışmı* sazım?! (M.Müşfiq).

sıpa *bax* qoduq

1. SIRA Biletlərin hamısı birinci *sırada*, bir-birinin yanında idi (H.Abbaszadə); **CƏRGƏ** [Könül atasına:] Yadına gəlirmi, birinci *cərgədə* oturardı, həmişə də eyni yerdə, hər iki qolu sarıqlı (X.Hasilova); **QATAR** Sanki yamac üstündə durna *qatarı* süzür (M.Rzaquluzadə); **SƏF** (*quş qatarı*) Saqın gəzin, laçın gözü görməsin; Qorxuram *safnizi* poza, durnalar! (M.P.Vaqif).

2. SIRA (*coğr.*) *Sıra* dağlar, gen dərələr; Ürək açan mənzərələr (S.Vurğun); **SİLSİLƏ** (*məc.*).

3. sıra *bax* növbə

4. sıra *bax* nizam 2

SIRĞA [Vəsfiyyə:] Deyir Qəhrəmanov arvadına bir cüt *sırğa* alıb... (R.Rza); **GUŞVARƏ** (*kl.ad.*) [Cavad:] Ruhum uçmuş da bir qızın ruhu ilə birlikdə, könlümdə qulaqlarına *guşvarə* olaraq asılmışdır (A.Şaiq); **TANA** (*köhn.*) Barmağında xatəm, guşində *tana;* Girəh-girəh zülfün tökə gərdənə (M.P.Vaqif).

sırımaq *bax* tikmək 2

1. SIRTIQ [Hacı Qulu:] Əvvəldən də bu *sırtıq* muzdurdan gözüm su içmirdi (M.İbrahimov); **SİTAL** [Molik:] *Sital* uşağı sital, lap zəhləmi tökdünüz (Çəmənzəminli); **ÜZLÜ** (*məc.*) Deyərdin: – Uşağım *üzlüdür*, üzlü (S.Rüstəm); **UTANMAZ.**

2. sırtıq *bax* həyasız

3. sırtıq *bax* docəl

sırtıqlıq *bax* həyasızlıq

sısqa *bax* arıq

sıtmalı *bax* xəstə

I. SIYIQ, YARIDURU

2. sıyıq *bax* xəşil

sızı *bax* sancı

sızıldamaq *bax* **1.** göynəmək; **2.** zarımaq

sızıltı *bax* sancı

sızmaq *bax* axmaq **I**

SİÇAN [Pirverdi:] Elə bilək ki, bir-iki pud buğdamızı əkin yerində *siçan* aparıb yedi (Qantəmir); **MUŞ** (*kl.əd.*) *Muşlar* polonq olmaz, tülkülər aslan; Danalar meydanda kol ola bilməz (Aşıq Ələsgər); **KƏSƏYƏN** (*bax*).

SİDİK [Kamal] On iki il qabaq evlənməmişdi. Ətəyinə körpə *sidiyi* dammamışdı (Ə.Vəliyev); **BÖVL** (*köhn.*); **PƏŞOV** (*məh.*).

SİDİKLİK, SİDİK KİSƏSİ, MƏSANƏ (*kl.əd.*)

sifariş *bax* **1.** ismarış **1**; **2.** tapşırıq **1**

sifət *bax* üz

SİFİLİS (*tib.*) [Doktor:] Qorxmaq lazım deyil. Qulaq asın. Böyük ehtimal var ki, *sifilis* tutmusunuz (Çəmənzəminli); **KİF** (*köhn.*) Guya, xudanəkərdə *kif* azarlılarının ölməyi.

dirilməyi napak erliklərin olindədir (C.Məmmədquluzadə).

SİĞƏ (*müvəqqəti evlənmə, müvəqqəti kəbin*) ..həm də kömkeşinə işarə ilə başa salır ki, tək yata bilməz və *siğəyə* (müvəqqəti kəbinə) ehtiyacı var (N.Vəzirov); **MÜTƏ** [Qadın:] Ağa məni Xorasanın başqa qadınları kimi gündə neçə kişiyə *mütə* olan qadınlardan bilmə (C.Məmmədquluzadə).

siqar *bax* papiros

siqaret *bax* papiros

SİLAH Tələsirəm döyüşə olimdə *silah* (Ə.Cəmil); **ƏSLƏHƏ** Bunlar adi sənətkarlar, daşyonanlar.. *əslələ* ustaları, xəttatlar, nəhayət, şair və alimlər idi (Ə.Cəfərzadə); **YARAQ** Ancaq üçüncü otaq qədim *yaraqlar* və zinətli şeylərlə bəzənib Hüseynqulu ağa üçün açıq saxlanırdı (S.S.Axundov); **YAR-YARAQ** Öz yerində olsun gərək igidin *yar-yarağı*.. (S.Vurğun).

SİLAHLANMAQ Geyib əsgər paltarını *silahlandı* qəhrəman (S.Vurğun); **MÜSƏLƏHİLƏNMƏK** Burada proletariatın inqilabi mərkəzində inqilabi əsərluq – ustadlıq təlimi alıb *müsəlləhləşmişdi* (S.Rəhimov); **SİLAHA SARILMAQ** ..internasional xəzinə-havasına aludə olub uymasın, aldanmasın, sabahına gəlincə; milləti-müsavat tərəfindən *silaha sarılsınlar!* (S.Rəhimov); **YARAQLANMAQ** Bir nəfər yola salınanda bütün dəstə *yaraqlanır*, atlanır (M.Hüseyn).

SİLAHLI Bəs sən özün necə? – deyə komissar *silahlı* əsgərdən xəbər aldı (M.Hüseyn); **ƏSLƏHƏLİ** ..cümləsi əsbab və *əsləhəli* kiminin belində qəmə, kiminin əlində tüfəng.. (C.Məmmədquluzadə); **MÜSƏLLƏH** Bilsin ana torpaq, eşitsin Vətən; *Müsəlləh* əsgərəm mən də bu gündən (S.Vurğun); **YARAQLI** [Əmər] çərkəzi paltarda, çəkmədə, matraq, üstü *yaraqlı* içəri daxil olur və sevinir (N.Nərimanov); **YAR-YARAQLI** Budur *yar-yaraqlı* gəlir uzaqdan; Mənim igidlərim (M.Rahim).

SİLAHSIZ, YARAQSIZ

silindr *bax* şlyapa

silist *bax* istintaq

silistçi *bax* müstintiq

SİLK Əynindəki paltar solmuş, yıpranmış, qiyafəsindən hansı *silkə* mənsub olduğu belə seçilmirdi (Çəmənzəminli); **TƏBƏQƏ** [Pavluşa:] Bu meyxana yuxarı *təbəqə* üçün deyil (M.S.Ordubadi); **ZÜMRƏ** Nurməhəmmədin kübarlar *zümrəsinin* içindən çıxması, Xosrovun nifrət etdiyi bir sinfin övladı olması da onun haqqında yaxşı rəyini, ona olan inamını sarsıda bilməz (M.İbrahimov).

sill *bax* vərəm

sillə *bax* şillə

sillələmək *bax* şilləmək

silsilə *bax* **1.** zəncir 1; **2.** şəcərə; **3.** sıra 2; **4.** seriya

sim *bax* məftil

sima *bax* **1.** üz; **2.** şəxsiyyət

simic *bax* xəsis

simiclik *bax* xəsislik

SİMURQ (*əfsanəvi quş*) Oğlum, o dağ ilnəyən Qaf dağıdır; *Simurq* quşu daim orda yaşayır (A.Şaiq); **ƏNQA/ÜNQA** (*kl.əd.*) Səyyida, əhli-vəfa dərlər ki, bu aləmdə var; Adı var, lakin özü *ənqa* kimi nayabdır (S.Ə.Şirvani); **ZÜMRÜD** O, əfsanələrdən eşitdiyi *zümrüd* quşunun qanadları arasında oturub əlinə qılınc götürüb göyə qalxırdı (S.Rəhimov).

sincab *bax* dələ

sinematoqraf *bax* kinematoqraf

sinə *bax* **1.** köks **1**; **2.** döş 1

sinəgir *bax* təngnəfəs

sinəgirlik *bax* təngnəfəslik

sinək *bax* milçək

SİNİ Bu gədər-gətməz bir xədim zənci gəldi, bürünc *sinidə* mavi bir gülabdan gətirdi.. (Çəmənzəminli); **MƏCMƏYİ** [Səlimə:] Sonra Gülnisə xala zorla götürmüş olduğu əliyi içəri gətirib, sobanın qabağındakı mis *məcməyiyə* yıxdı (İ.Əfəndiyev).

1. SİNİF Meyster *sinfə* girəndə, nədənsə hamı gülüşərdi (M.Hüseyn); **DƏRS OTAĞI**

Görürəm bu işıqlı; Sakit *dərs otağıdır* (Ə.Cəmil); **AUDİTORİYA** (*ali məktəblərdə dərs otağı*).

2. sinif *bax* formasiya; cəmiyyət

sinir *bax* əsəb

sinirlənmək *bax* əsəbiləşmək

sinirli *bax* əsəbi

sinli *bax* qoca **1**

sinmək *bax* əyilmək **1**

sinn *bax* yaş **I**

SİNONİM (*dilç.*) (*mənaca eyni, yaxud bir-birinə yaxın olan sözlər*) *Sinonim* sözləri müəyyənləşdirmək üçün onlara semantik, qrammatik və üslubi cəhətdən yanaşmaq lazımdır ("Müasir Azərbaycan dili"); **HƏMMƏNA** Nəsimi əsərlərində Azərbaycan sözləri ilə *həmmənə* alınma sözlərinə müvazi işlənməsinin bəzi əlamətlərini nümayiş etdirən aşağıdakı misalları nəzərdən keçirək (Ə.Dəmirçizadə); **MÜTƏRADİF** (*ərx.*) ..çünki qafiyə xatirinə *mütəradif* ləfzlər və çoxlu təkrarlar əmələ gəlir.. (M.F.Axundzadə).

SİNTAKSİS (*qram.*) Bütün bu qrammatik hadisələr isə *sintaksisin* əhatə etdiyi sahədə fəaliyyət göstərir (N.Məmmədov, A.Axundov); **NƏHV** (*köhn.*) Ədəbi dilin yoxluğundan əlavə indiyədək, türk Azərbaycan ləhcəsinin bir mükəmməl sərfi və *nəhvi* yoxdur (Ə.Haqverdiyev).

sipəhsalar *bax* sərkərdə

sipər *bax* qalxan

1. SİRAT (*din.*) (*cəhənnəm üzərində qurulmuş körpü*) İsmi Pünhan, ərəsətin günündə; Ol hesab kitabı açmanam sənsiz; Yolunu gözlərəm *sirat* üstündə; Bir qədəm irəli basmanam sənsiz (Molla Cümə); **QIL KÖRPÜ** Qiyamətə gələnlərin hamısını, bir körpü var, onun üstündən keçməyə məcbur edirlər. Bu körpünün adına Püli-Sirat və bizim dildə "*Qıl körpü*" deyirlər (Ə.Haqverdiyev).

2. sirat *bax* yol **1**

sirayətedici *bax* yoluxucu

SİRDAŞ [Vaqif:] Gündüzlər oxşayır məni saraylar; Gecələr *sirdaşım* ulduzlar, aylar.. (S.Vurğun); **HƏMDƏM** [Vidadi:] Gedin aldadanmaz məni saraylar; Burda *həmdəmimdir* ulduzlar, aylar (S.Vurğun); **HƏMRAZ** (*kl.əd.*) Badi-səba, ogor düşsə güzəran; Söylə xəlvət o *həmraza* bir xəbər (M.P.Vaqif); **HƏMSİRR** [Nurəddinin] həmfikri, *həmsirri* ancaq kitablar olmuşdur (S.S.Axundov); **SİRR YOLDAŞI** [Həcər xanım:] Xeyr, səhv etdim, xidmətçim yox, sevgili bacım olmusan, *sirr yoldaşım* olmusan (S.S.Axundov).

SİRİŞK (*kl.əd.*) Bu müsibət məhşərində ol Dedunalı görün; Zəxmi-naxun, sinədə, üzdə *sirişk* alı görüm (M.V.Vidadi); **ƏŞK** (*kl.əd.*) Di yumma gözlərini, qoy görüm doyunca səni; Gözümdə cari edib *əşk*, həm rəvan, getmə! (Natəvan); **GÖZ YAŞI** *Göz yaşı* nəyə gərək; Yaşadı mərd, öldü mərd (Ə.Cəmil); **QORABA** (*məc.*) Gözündən töküləni *qorabanı* əlinin arxası ilə silərək qaşına və yanaqlarına yaydı.. (S.Rəhimov); **YAŞ** ..Qırmızı çil toyuq da Nisənin gözlərindən süzülən *yaş* gilələri kimi yuxudan-yuxuya keçmişdi.. (Elçin).

sirli *bax* **1.** əsrarlı; **2.** məxfi

SİRR [Ana:] Vallah bu *sirr* məni də çaşdırıb... (M.Hüseyn); **HİKMƏT** Biz ikilikdə bir-birimizdən bu əhvalatın sirrini soruşub düşünürdük ki, görəsən burada nə *hikmət* var ki, hacı birdən-birə, heç bizim xəbərimiz olmadan, belə bir işə qərar verib? (A.Şaiq); **MÜƏMMA** [Qəndab:] Onun [Çingizin] danışığında qəribə bir *müəmma* vardı (B.Bayramov).

sis *bax* duman **1**

sital *bax* **1.** sırtıq **1**, həyasız; **2.** nadinc

sitarə *bax* ulduz

sivil *bax* mədəniyyətli

sivilizasiya *bax* mədəniyyət

sivişmək *bax* qaçmaq **1**

sivri *bax* **1.** iti **2**; **2.** şiş **II**

siyah *bax* qara **1**

skamya *bax* parta

1. SKELET, SÜMÜK (*bütöv bədən sümüyü*)

2. skelet *bax* arıq

smetan *bax* xama

soba *bax* peç

sofa *bax* divan **1**

sofu *bax* **1.** vasvası; **2.** ilanoynadan

SOXMAQ (*müxtəlif mənalarda*) Dəstədən dikələn duman parçaları, göyün qaramtıl sifətinə çatmağa, özünü buludların içinə *soxmağa* çalışırdı (S.Rəhimov); **BASMAQ** Musa kişinin yalnız ağzına dəsmal *basdıqda* səsi eşidilməz oldu (M.İbrahimov); **DÜRTMƏK** Pası mırıldana-mırıldana əyildi, açılmış kağızı qatlayıb onun qoynuna *dürtdü* (S.Rəhimov); **PƏRÇİM ETMƏK** [Heybət:] Biz düşmənin yalın qılıncını öz əlindən qapıb, öz ürəyinə *parçim etməliyik* (S.Rəhimov); **SANCMAQ** [Vaqif:] Məmməd bəyin gözünü qan tutmuş imiş, xəncəri binəvanın ürəyinin başına *sancıb* gedib... (Çəmənzəminli); **TƏPMƏK** Qoca kişənin ağzını çözələyib cibinə *təpdi* (H.Abbaszadə); **BATIRMAQ, DÜRTÜŞDÜRMƏK, GİRDİRMƏK, İTƏLƏMƏK, PƏRÇİMLƏMƏK, SALMAQ, TIXAMAQ, YERLƏŞDİRMƏK.**

soxulmaq *bax* **1.** girmək **1**; **2.** dürtülmək

soqaq *bax* küçə

soldat *bax* **1.** əsgər; **2.** valet

soldatlıq *bax* əsgərlik

SOLĞUN Qız ara-sıra onun *solğun* bənizinə göz qoyurdu.. (X.Hasilova); **PƏJMÜRDƏ** Neçin görən o belə pərişan, *pəjmürdədir;* Nə düşünür, nə anır, üzündəki qəm nədir? (B.Vahabzadə); **RƏNGİ QAÇMIŞ** *Rəngi qaçmış* və güclə nəfəs alan qadın hərdənbir çocuqlara çəmkirirdi (Çəmənzəminli); **SOLUXMUŞ.**

SOLMAQ (*müxtəlif mənalarda*) ..Düşür yanağından ilıq incilər; *Solur* bənövşələr ömür bağında (M.Rahim); **AĞARMAQ, SARALMAQ** Bir dəqiqənin ərzində o *ağarır,* qaralır, bozarır, *saralır,* nə rəngə desəniz düşür (M.İbrahimov); **BOZARMAQ** Fotullayev nimdaş, rəngi *bozarmış* qara dəri pencəyini geyinmişdi (İ.Şıxlı); **RƏNGİ QAÇMAQ** [Səlimə:] Marqonun *rəngi qaçdı* və o mənə ani bir nəzər salaraq, gözlərini yerə dikdi (İ.Əfəndiyev); **SOLUXMAQ** Baxımsız qalanda *soluxar* çiçək (M.Rahim); **SOZALMAQ** [Əsgərlərdən biri:] Bu bir həftədir *sozalır* (S.Rəhimov).

soltan *bax* padşah, hökmdar

soltanlıq *bax* hökmdarlıq

soluxmaq *bax* solmaq

SON Bəs, dağlarda axan; O biri gəncin *sonu?!* (Ə.Cəmil); **AXIR** [Təlio:] Bilmirəm, mən bunu sevərsəm *axırı* necə olacaq? (M.S.Ordubadi); **AQİBƏT** Bəs axırı necə oldu?! *Aqibəti* budur, bu! (B.Vahabzadə); **AYAQ** (*məc.*) Sağ tərəfimizdə Azadlıq kəndinin meşəsinin *ayağı* görək olsun (T.Ş.Simurğ); **ƏNCAM** Qızıl Arslan Həmədanda götürüləcək işlərə *əncam* verəndən sonra bir daha Bağdada girdi (M.S.Ordubadi); **İNTƏHA** [Fərhad:] Zalımlar, barı axır nəfəsində ..ah, zülm, yetirin zülmü *intəhaya,* çəlladlar.. (C.Cabbarlı); **NƏHAYƏT** [Qətibə:] De görüm sən bu təhqirlərə *nəhayət* verəcəksənmi? (M.S.Ordubadi); **NƏTİCƏ** ...Əlbət ki, bunun bir *nəticəsi* olacaq, yoxsa bu işlər özbaşına deyil... (C.Məmmədquluzadə); **HƏDD** (*məc.*), **XATİMƏ.**

soncuq *bax* şıllaq

soncuqlamaq *bax* şıllaqlamaq

I SONSUZ (*sonu, həddi olmayan*) Onun iri gözləri *sonsuz* bir qəzəblə alışıb yandı (M.Hüseyn); **AQİBƏTSİZ** *Aqibətsiz* olan karvansaradır; Bilmirsən əvvəli, sonu haradır (M.Rahim); **NAMÜTƏNAHİ** (*köhn.*) [Nizami Qətibəyə:] Dünyaya *namütənahi* deyənlər də yanılırlar (M.S.Ordubadi); **İNTƏHASIZ, NƏHAYƏTSİZ** (*bax*).

II SONSUZ (*yalnız qadın haqqında: uşağı, övladı olmayan*) Sonra Tutu xala, mənim bu *sonsuz* mehriban xalam, ayağa qalxıb işığı yandırdı (Ə.Məmmədxanlı); **DOĞMAYAN** [Əhməd:] Bu iplər nəzir sahibləri tərəfindən

bağlanmış, beşiklər isə *doğmayan* qadınlar tərəfindən asılmışdır, – dedi (A.Şaiq); **ƏRƏMİK** (*məc.*) Arvadların xısınlaşmasına görə Maro yasavul Kolbalının *ərəmik* arvadı Göyərçinə uyuxmuşdu (S.Rəhimov).

III sonsuz *bax* övladsız

IV sonsuz *bax* ucsuz-bucaqsız

SONSUZLUQ (*sonu, axırı olmama*) ..Kainatın əzəməti və *sonsuzluğu* qarşısında insan ömrü heç nədir, çox zavallı görünür (M.İbrahimov); **İNTƏHASIZLIQ** Gözlərində *intəhasızlıq* qərq olub (Ə.Kərim); **ƏBƏDİYYƏT** Nəhayət, *əbədiyyət* qədər uzun görünən bir dəqiqə bitdi və qapını açdılar (S.Rəhman); **NƏHAYƏTSİZLİK** Lakin bu *nəhayətsizlik* ona ilham verməkdən artıq sarsıdıcı təsir edirdi (M.İbrahimov).

sonuncu *bax* axırıncı

soraq *bax* xəbət **I**

sorğu *bax* sual

sormaq *bax* soruşmaq **I**

SORT, NÖV

1. SORUŞMAQ [Zabit:] Siz iranlısınız? – deyə *soruşdu* (M.S.Ordubadi); **XƏBƏR ALMAQ** *Xəbər alsan* bu vilanın əhvalın; Bir özgədir keyfiyyəti-Qarabağ (Q.Zakir); **SORMAQ** Mənim söyləməyə gəlməyir dilim; Olub-keçənləri *sorma*, sevgilim (Ə.Cəmil); **SUAL ETMƏK** Bir neçə vaxt keçəndən sonra Qurbanqulu bibisindən, söhbət əsnasında adaxlısının necə olduğunu *sual edir*.. (T.Ş.Simurğ).

2. soruşmaq *bax* dindirmək

SOVET Onlar həmişə çörəkdən danışdıqları vaxt ac işçiləri *sovet* orzaq təşkilatlarının əleyhinə qaldırırlar (M.S.Ordubadi); **ŞURA** Şubay gecəyarısı dəvələri kənd *şura* idarəsinə gətirdi (M.Hüseyn).

SOVQAT Bizim bu ellərdə gözəl qayda var; Qardaş qardaşına *sovqat* aparar (M.Rahim); **BAĞLAMA** [Qoca tacir] sonra xurcundan bir *bağlama* çıxarıb Beyrəyə verdi (Anar); **PAY** ..*pay* göndərir; Uzaq Tallin şəhərinə (M.Dilbazi); **HƏDİYYƏ** (*bax*).

SOVXA (*sahibsiz mal, ölən şəxsdən qalmış şey, paltar*) [Hacı Qara:] Deyəsən ölətdən qırılanların *sovxasıdır* (M.F.Axundzadə); **ANDIR** (*dan.*) (*söyüş, qarğış yerində işlənir; bəzən "andıra qalmış" şəklində işlənir*) Dəftərin *andıra qalmış* sözünü; Eşidib, görməmiş idik üzünü (M.Ə.Sabir).

SOY [Şeyx Sənan:] Hanki *soydansınız*? Nə dindənsiniz? (H.Cavid); **CİNS, ƏSİL, ƏSİL-NƏSƏB, MƏNŞƏ, NƏSİL** (*bax*).

SOYAD, FAMİLİYA [Köhnə tanışlar] ..əl tutuşur, adlarını, *familiyalarını* deyirdilər (M.Hüseyn); **FAMİL** Qızın adı Adilə, *famili* Əhmədzadə idi (Ə.Qasımov).

SOYĞUNÇU Günəş yolçusuyam, *soyğunçu* gəlsə; Mən onun bağrını al-qan eylərəm (M.Rahim); **BANDİT** Cümə günü bütün *banditlər* öz dəstələri ilə ayı çınqılına toplandılar (Ə.Vəliyev); **BASQINÇI** ..Qıpçaq Məlik *basqınçı* köçəri tayfalardan birinin başçısı idi (Anar); **ÇAPQINÇI** ..bədbəxt hadisəmi üz vermiş, canına sui-qəsd edənmi olmuş, evimizi *çapqınçılarmı* basmış? (T.Ş.Simurğ); **HAYDUT** Ormanda *haydutlar* tərəfindən atılan guruşundan qorxmuş olan Rənaya: "Heç qorxma, yanımda həm silah var, həm də altun, əvət, nasıl da parlar" – deyə qürur göstərir (A.Şaiq); **HƏRAMİ** Oğru ol, *hərami* ol, doğruluğu əldən vermə (Ata. sözü); **QAÇAQ** Əbdülkərim indiki *qaçaqlara* bənzəməzdi (Ə.Haqverdiyev); **QARƏTÇİ** Çar jandarmeriyası və çar polisləri Bakı şəhərini *qarətçilərə*, quldurlara, adamöldürənlərə tapşırmışdı (M.S.Ordubadi); **QULDUR, YOLKƏSƏN** [Hacı Qara:] Mən *quldur* deyiləm, *yolkəsən* deyiləm (M.F.Axundzadə); **TALANÇI** [Yusif:] Padşah və onun *talançı* vəzirləri vaxtında Qəzvinin ətrafına su çəkdirsəydi, belə bahalıq olmazdı (A.Şaiq); **QARƏTKAR.**

SOYĞUNÇULUQ ..onlarda çox *soyğunçuluq* ittifaq düşərdi (S.S.Axundov); **BASQINÇILIQ** Ərəbistan çöllərində bir zaman: *Basqınçılıq*, soyğunçuluq olardı (M.Rahim);

ÇAPOVUL [Dayı:] İndi də özləri *çapovula* başlayıb.. (S.Rəhimov); **QAÇAQLIQ** [Bahadır:] Görünür, çoxusu açıqdan *qaçaqlıq* edir (N.Nərimanov); **QARƏT** Ərbablar düşmənimdir, son vermə*li qarətə*.. (M.Rahim); **TALANÇILIQ, QULDURLUQ** Ana, ollərində sövq etməsinmi; onu *quldurluğa, talançılığa* (S.Vurğun).

SOYQIRIMI, GENOSİD, QIRĞIN, MƏHVETMƏ

1. SOYMAQ Sanma səni öz halına qoyarlar; Əvvəl onlar səni diri *soyarlar* (M.P.Vaqif); **DƏRİDƏN ÇIXARMAQ.**

2. soymaq *bax* talamaq

1. SOYUQ (*su haqqında*) [Rübabə:] ..quyunun suyu *soyuqdur*.. (H.Abbaszadə); **BUZ, DİŞ GÖYNƏDƏN** ..həmin bu bulağın *buz* suyundan qurtum-qurtum içərdilər, *diş göynədən* sudan ləzzət alardılar (S.Rəhimov); **BUZLU** ..Sonra iskəncəbi ilə *buzlu* su içməyə və sonra qolyan xoruldadıb qu tükü balışlarda rahat olmağa nə tez qaçırsınız? (N.Nərimanov); **DİŞTÖKƏN** (*məc., dan.*) [Qondab:] ..bizim ala yaylaqlar, bizim *dişlərimiz* bulaqlarımız.. loğmandan da artıqdır (B.Bayramov); **SƏRİN** (*az soyuq*) *Sərin* çeşmələrin qaynayır gözü (N.Xəzri); **BUMBUZ** (*dan.*) (*lap soyuq*).

2. soyuq *bax* şaxta **I**

SOYUNMAQ [Anası Zərifə:] İkincisi, keç *soyun* (Ə.Kərim); **ÇIXARTMAQ** Nazlı.. ipək köynəyini *çıxartdı* (S.Rəhman); **PALTARINI ÇIXARMAQ** ..Domirçi Musa, *paltarını çıxarmadan* evdə şinelinə bürünüb yorğun bir halda yatırdı (M.Hüseyn).

1. SÖHBƏT [Mozalan bəy:] Amma iki nəfər müsəlmanın *söhbəti* bir tövr qulağıma çatırdı (Ə.Haqverdiyev); **BƏHS** Alma hirsləndi; Dedi: A qaysı; Burax boş *bəhsi* (M.Seyidzadə); **DANIŞIQ** [Mozalan bəy:] Bunların belə *danışığı* hərdənbir qulağıma çatırdı (Ə.Haqverdiyev); **DİALOQ** Üç il əvvəl olmuş bu *dialoq*, indi – "Geriyə yol yoxdur" filminə baxarkən.. hafizəsində parladı

(Ə.Cəfərzadə); **GAP** (*dan.*) [Kətxuda:] Ay oğul, *gapınızı* ucundan-qulağından eşitdim (M.Hüseyn); **GÖFTGU** (*kl.ad.*) [Qəhrəman yüzbaşı:] A kişi, siz allah, siz peyğəmbər, bu *göftgunu* boşlayın (C.Məmmədquluzadə); **HƏSB-HAL** Onun ehtiyacı yox *həsb-hala*; Nifrəti var əski ulduz, hilala (S.Vurğun); **İXTİLAT** (*köhn.*) *İxtilatın* şirin, sözün məzəli; Şəkər gülüşündən canlar təzəli (M.P.Vaqif); **LAF** (*köhn.*) Kağız sənə ağ göstərir öz sineyi-safın; Guş eyləmə *lafın* (M.Ə.Sabir); **MÜKALİMƏ** Xudayar bəy gördü ki, ata ilə oğulun *mükaliməsi* çox uzun çəkəcək.. (C.Məmmədquluzadə); **MÜNACAT** Sübh olacaq çavuşun *münacatı* kəndi əhatə eləyib gah o məhəllədən səsi gəlir, gah bu məhəllədən (C.Məmmədquluzadə).

2. söhbət *bax* müsahibə

SÖHBƏTCİL Qazalaqçı *söhbətcil*, məzəli kişi idi.. (H.Abbaszadə); **XOŞSÖHBƏT** Sohbət xoşsima, *xoşsöhbət*, xoşəxlaq bir insan idi (A.Şaiq).

sökük *bax* **1.** uçuq **I**; **2.** yırtıq **I 1**

SÖNDÜRMƏK (*işığı, peçi, ümumiyyətlə yanan şeyi*) ..*Söndürmək* üçün; Onu, sal buz ol! (M.Rahim); **KEÇİRMƏK** ..Gecə çırağını *keçirərdi* və dərhal da yuxu girdabına qərq olardı (Anar); **XAMUŞ ELƏMƏK** (*kl.ad., məc.*) Kəsdim öz əlimlə öz ayağım; *Xamuş elədim* mən öz çırağım (M.Ə.Sabir).

SÖNMƏK (*yanan şey haqqında*) Balağanın qolyanı *sönsə* də onu təzədən alışdırmadı.. (H.Abbaszadə); **XAMUŞ OLMAQ** (*kl.ad., köhn.*) Gah olur *xamuş*, gahi odlanır yerdən çıraq (Q.Təbrizi); **KEÇMƏK** [Foxri:] Axşamınız xeyir, küçədə işıqlar *keçdi*, dedim çətinlik çəkərsiniz (Ə.Babayeva); **QARALMAQ** Uzaqda fişənglər yanır, *qaralır*; Başımın üstündə güllə fit çalır (Ə.Cəmil).

sövdə *bax* alver

sövdəgər *bax* tacir; alverçi

söyt *bax* **1.** hərf; **2.** səs **1, 3**

SÖYKƏMƏK, DAYAMAQ, DİRƏMƏK

SÖYKƏNƏCƏK, DAYANACAQ, TƏKYƏ (*köhn.*)

SÖYKƏNMƏK, DİRƏNMƏK, DAYANMAQ

1. SÖYLƏMƏK [Mərdan] ..öz-özünə mahnı *söylayır*, gülümsəyir, bir yerdə otura bilmoyib otağa dolaşır, arabir güzgünün önündə durub, özünə tamaşa edirdi (Çəmənzəminli); **İFA ETMƏK** [Yunis:] Bolxo bir muğam *ifa edək* (X.Hasilova); **MAHNI OXUMAQ** [Könül] bu *mahnını oxuyub* qurtarandan sonra Yunis dinmədi (X.Hasilova); **ZƏNGULƏ VURMAQ.**

2. SÖYLƏMƏK Vera uşağını rahat etmək üçün çar babanın cah-calalından, odalotindən, rəiyyət üçün atalıq etməyindən *söyləyirdi* (S.S.Axundov); **DANIŞMAQ** [Sədr:] Başağrısı olsa da, sonə bir əhvalat *danışacağam* (Ə.Qasımov); **NAĞIL ETMƏK/ELƏMƏK** [Cabbar bəy:] Dilim gəlmir olan işin hamısını *nağıl eləyim* (N.Vəzirov); **NƏQL ETMƏK/ELƏMƏK** [Xırda:] Belə aydınlıq içində ol, imamın kamil olsun, *nəql elə* görüm nə var (N.Vəzirov).

3. söyləmək *bax* demək **I**

söylənmək *bax* donquldanmaq

SÖYÜŞ Bu da bir tərəfdən qarğış və *söyüşdən* döşədi (Çəmənzəminli); **FÖHŞ** (*köhn.*) [Hacı Qəmbər:] Nədən ötrü və nə cürət edib bu *föhşləri* mənə deyirsən, hə? (N.Vəzirov).

söyüşmək *bax* dalaşmaq

SÖZ Məhəmmədhəsən əmi bir *söz* demədi (C.Məmmədquluzadə); **GÖFTAR** (*kl.ad.*) Eşqin elə bir könlümə fənd elər; Danışdıqca göftarını qənd edər (M.P.Vaqif); **İBARƏ** (*boş söz*) *İbarələr* dolu kimi yağar onun ağzından (S.Vurğun); **KƏLMƏ** [Ana:] Ömrün boyu olin yazıda olsun, amma özüyün birco *kəlmən* də bu dünyada qalmasın... (B.Bayramov); **QÖVL** (*kl.ad.*) Mənəm-mənəm deyənlərin mənmə çox da *qövlünə* (M.Ə.Sabir); **LƏFZ** (*köhn.*) Arvad sözünü ifadə edən *ləfzlər* farsca və türkcə qadındır (Çəmənzəminli).

sözəbaxan *bax* üzüyola

sözlük *bax* lüğət **I**

sözükeçən *bax* ağsaqqal **I**

SPERMA/SPERMATOZOİD (*biol.*) (*kişi təmasül hüceyrəsi*) Odur ki, mayalanma zamanı X və Y xromosom daşıyan *spermatozoiddən* hansının yumurta hüceyrəsi ilə mayalanmasından asılı olaraq oğlan və ya qız uşaqları meydana gəlir ("Elm və həyat"); **MƏNİ** Xaliqi-ləmyəzəl-Allah; Məcüz nümayan eləyib; Görün bir qətrə *mənidən*; Nə cürə insan eləyib?! (Aşıq Ələsgər); **NÜTFƏ** (*köhn.*) [Zübeydə:] Nə təfavütü! *Nütfəsi* ki, əhli zələmə nütfəsidir (M.F.Axundzadə); **TOXUM** *Toxumun* əmələ gəlməsi bülluğ dövründən, yəni 15 yaşından başlayaraq 50-60 yaşadək davam edir.. ("İnsanın anatomiyası").

spiçka *bax* kibrit

SPİKER (*siyasi*), **SƏDR**

SPİRT, ALKOQOL

SPİRTLİ, ALKOQOLLU

SPİRTSİZ, ALKOQOLSUZ

sport *bax* idman

sportçu *bax* idmançı

STADİON (*futbol meydançası*) Moskva *stadionu*... hər tərəf dolu insan; Əyləşib sağ yanımda mənim bir qız, bir oğlan (M.Rahim); **MEYDAN(ÇA)** İlk dəqiqələrdən *meydançada* inadlı mübarizə başlandı (T.Bəhramov); **YAŞIL MEYDAN(ÇA)** Düzülərək sıraya ayaqlayıb otları; Komandalar yeriyir *yaşıl meydana* sarı (M.Rahim). Bir qayda olaraq, *yaşıl meydançalarda* çıxışlarını başa çatdırmış, lakin sevimli oyundan ayrılmaq istəməyən adamlar hakimlik fəaliyyətinə başlamaq fikrinə düşürlər (T.Bəhramov).

stan *bax* dəzgah **I**

stəkanaltı *bax* nəlbəki

stil *bax* üslub

stilistik *bax* üslubi

STİLİSTİKA (*dilç.*), **ÜSLUBİYYAT**

STİPENDİYA (*tələbələrə verilən pul*); **TƏQAÜD** Beş il *təqaüdlə* yaşamağa öyrəş-

miş tələbə üçün bu, əlbəttə, böyük maaş idi (Y.Şirvan).

STOL Bu müqayisədən özünün xeyrinə nəticə çıxaran Elsevər *stolun* arxasına keçib ürək döyüntülərı içərisində işləməyə başladı (Ə.Qasımov); **MASA** Hidayət *masanın* arxasında oturub, "ciddi" bir mütaliəyə dalmışdı (M.Hüseyn); **MİZ** (*köhn.*) Odur şair oturmuş balaca bir *mizin* dalında; Quş lələyi əlində, bir dünya xəyalında (B.Vahabzadə).

student *bax* tələbə

STUL Qapıçı yorğun-yorğun başını buladı, "yox" işarəsi verdi, böyründəki *stulda* oturdu (M.Hüseyn); **KÜRSÜ** Otağın bir başında bir böyük göy məlhəm örtülü stol, stolun dalında üç dənə *kürsü*, biri qıpayə, ikisi də üzvlər üçün qoyulub (Ə.Haqverdiyev).

SU Onun gözləri sobirsiz və iztirab ilə *su* arayırdı (S.S.Axundov); **AB** (*kl.əd.*) Nə *ab* ilə orda aldı dostomaz? (Aşıq Ələsgər); Bir çeşmə gərək önümdə pür *ab;* Ta bula ləbim onunla sirab (Xətayi); **CU** (*kl.əd.*) Gər, mehr qılırsa sərvi-dilcu; Bağinə həmişə bağlayım *cu* (Xətayi).

SUAL Belə ittifaqlarda lələ heç bir vaxt Büyümə söz qaytarmaz, *sual* vermozdi.. (Çəmənzəminli); **SORĞU** [Məsumə oğluna:] Haqq-hesabını qurtar, *sorğulara* cavab ver.. (B.Bayramov).

SUAYIRICI (*coğr.*), **AXAR-BAXAR**

subaşı bax ayaqyolu

SUBAY [Adilə:] Nə bilmək olar, *subay* oğlandır, bolxo özünün də üroyindən bəzi hisslər keçirmiş... (Ə.Qasımov); **ƏRGƏN** *Ərgən* və cavan igidlər bu toydan istifadə edərək bir şənlik və cıdır düzəltmək marağına düşdülər (S.Rəhimov); **EVLƏNMƏMİŞ.**

1. SUBYEKT (*qram.*), **MÜBTƏDA**

2. subyekt *bax* şəxs

sucuq *bax* bataqlıq

suç *bax* günah

suçlayan *bax* susopon

suçlu *bax* günahkar **I**

sud *bax* məhkəmə

suffiks *bax* şəkilçi **I**

suluf *bax* darı

sup *bax* şorba

1. SURƏT (*ədəb.*) Axundovun.. "Müsyö Jordan" komediyası, onun əsas *surətləri*, müəllifin Müsyö Jordana münasibəti haqqında xeyli yazılmışdır (C.Cəfərov); **XARAKTER** M.F.Axundzadə komediyaları böyük ictimai məsələləri əhatə edir, komik planda ictimai *xarakterlər* yaradan klassik komediya əsərləri idi (M.İbrahimov); **OBRAZ** M.F.Axundzadə öz pyeslərində mənfi *obrazlarla* yanaşı, bir qayda olaraq müsbət qəhrəmanlar da yaratmışdır (M.Məmmədov); **PERSONAJ** Cabbarlı öz *personajlarının* işini və vəzifəsini onların zəngin daxili aləmlərindən ayırmır.. (M.Arif); **TİP** Məsələn, Mirzə İbrahimovun Məmişov, Sabit Rəhmanın Kərəmov *tiplərini* alaq.. (M.Rahim).

2. SURƏT Miss Hanna bunu söylərkən telegramın *surətini* çıxardı (M.S.Ordubadi); **KOPİYA** [Miss Hanna:] ..telegramın Təbrizə göndərilən *kopiyasının* bir nüsxəsini elə keçirmişik (M.S.Ordubadi); **ÜZ** (*məc.*) [Bahadır:] Hər halda, kağızın *üzü* mənə (N.Nərimanov).

3. surət *bax* üz

4. surət *bax* şəkil **I**

sursat *bax* azuqə

SUSDURMAQ (*danışmağa qoymamaq*) ..Filan ayda, filan gündə; boğacaq nəfəsini; *Susduracaq* obodi bir sükut içində; torpaq, su, hava kimi adi olan səsini (R.Rza); **AĞZINI BAĞLAMAQ** (*fr.v.*) [Qənbərqulu:] Ağa, başına dönüm, bu necə ola bilər? Birdən-birə elin *ağzını bağlamaq* olmaz ki.. (B.Talıblı); **LAL ELƏMƏK** Bütün qəsirğaları *lal elə-sin*, susdursun (X.Rza).

SUSƏPƏN [Asəf] olindəki gül dibçəyinin torpağını boşaldıb, gübrə ilə qarışdırdı, təkrar doldurdu, kağız arasındakı şitillərdən birini ora basıb, *susəpənlə* suladı... (M.Hüseyn); **SUÇİLƏYƏN** Müsahibinin danışıq

tərzi, səsi və şivəsində qurbağaya nə isə bir bənzəyiş görən Nəcəfi gülmək tutdu, özünü zorla saxladı, süpürgəni və *suçiləyəni* alıb dükanın qarşısına çıxdı (Ə.Cəfərzadə).

SUSMAQ Qızdırma zamanı sayıqlayan adam qızdırması kəsəndə necə yorğun, əzgin, lal-dinməz düşürsə, Həmzə də bir müddət sonra *susdu*, saatlarla danışmadı, key kimi olub qaldı (M.İbrahimov); **AĞZINA SU ALMAQ** (*fr.v.*) [Veysəl Ziynətə:] Anan mənə qapını göstərir, sən də *ağzına su alırsan* (B.Bayramov); **AĞZINI AÇMAMAQ** Nailə ilə Kamil əmi də, demək olar ki, ağızlarını açmırdılar (M.İbrahimov); **DİNMƏMƏK** Lakin Gülcamal bir daha *dinmədi* (M.Hüseyn); **KİRİMƏK** (*dan.*) [Vahid:] Buna görə də sualı təkrar eləmədi, *kiridi* (B.Bayramov); **QIFILLAMAQ** (*dan.*) [Rüstəm bəy:] Ay qız, sən *qıfıllа*, sən danışma (Ü.Hacıbəyov); **LAL OLMAQ** Ləğv olma, ədəb gözlə bu məvadə, əkinçi; *Lal ol*, a balam, başlama fəryada, əkinçi! (M.Ə.Sabir); **MUMLAMAQ** (*məc.*) [Talıbov arvadına:] Sən *mumla* (Y.Şirvan); **SƏSİNİ KƏSMƏK** Biz qorxumuzdan *səsimizi kəsdik* (H.Abbaszadə);

sutka *bax* gün **II 1**

suvaqçı *bax* malakeş

suveren *bax* müstəqil **1**

suverenlik *bax* müstəqillik

SÜBH Tez durub *sübh* sağardım inəyi.. (M.Ə.Sabir); **SƏHƏRÇAĞI** [Ceyran:] Nəhayət, bir gün səhərçağı uşağımı alıb oraya getdim (S.Hüseyn); **SƏHƏR ERKƏN** Bir yay günü *səhər erkən*: İki yolçu eyni kənddən; Qəsəbəyə gedirdilər (T.Fikrət); **SƏHƏR TEZDƏN** *Səhər tezdən* suya gələn arvadlar, atını sulamağa enən cavanlar Mələyin çığırla dərədən çıxdığını görürdülər (İ.Şıxlı).

sübhdən *bax* alaqaranlıq, tezdən

sübut *bax* dəlil

sübutsuz *bax* dəlilsiz

südəmər *bax* çağa

südrəngi *bax* ağ **1**

südyolu *bax* ağyol

SÜFRƏ *Süfrə* hazır olanda Palina İvanovna da gəlib fərəh içində oğlunun böyründə oturdu (H.Abbaszadə); **DƏSTƏRXAN** Nabat, onların [iki kətənin] arasına kərə yağ qoyub nimçədə geri gətirdi. Firəngizin qabağına, *dəstərxanın* üstünə qoydu (B.Bayramov).

süfrəbəyi *bax* tamada

süjet *bax* təzmin **1**

SÜKAN (*nəqliyyatda*) O [Şahin], eyni əsəbilikdə üzünü *sükana* tərəf çevirdi (B.Bayramov); **RUL** (*dan.*) Şahin *rulun* arxasına keçdi (B.Bayramov).

sükançı *bax* **1.** sürücü; **2.** rəhbər

sükut *bax* sakitlik

sülalə *bax* **1.** xanədan **I**; **2.** nəsil **2**

sülənmək *bax* veyllənmək

1. SÜLH Satqınla salmış onu bu gün qanlı bir yola; Sən isə səsləyirsən *sülhə*, şanlı bir yola (S.Rüstəm); **BARIŞIQ** [Şamo:] Alo əmi, *barışıq* lazımdır (S.Rəhimov); **MÜTARİKƏ** (*köhn.*) (*müvəqqəti barışıq*) Bəhram şah bu nəsihətləri qəbul etdi, sülh və *mütarikə* hazırlıqları gedir (M.S.Ordubadi); **BARIŞ, BARIŞMA, DİNCLİK.**

2. sülh *bax* əmin-amanlıq

sülhpərvər *bax* sülhsevər(n)

SÜLHSEVƏR(N) Bir inam, bir qərar, bir əzm; get-gedə bərkiyir *sülhsevər* insanlarda (R.Rza); **SÜLHPƏRVƏR** Rüstəm bəy qan intiqamına həris olduğu halda, Fəxrəddin onun əksinə olaraq qan davasını aradan qaldırmağa çalışan *sülhpərvər* bir insandır (F.Qasımzadə).

sülük *bax* zəli

sümsü *bax* tütək

SÜMÜK O, yoluna güllər atar, sonsə ona güllələr; *Sümüyündən* ağ sarayda düzəldərsən pillələr (S.Rüstəm); **GƏMİK** [Cavad:] Bu gün zavallı zövcəm yatağıma yaklaşarak quru, *gəmik* əllərimi əlləri içində oxşayaraq "Quzum, Cavad, indi maşallah yaxşısan" - dedi (A.Şaiq).

SÜNBÜL Sonra sarı *sünbüllər* olaq tarlada zahir; Hey dalğalanar, sanki qızıl rəngli dənizdir (A.Şaiq); **BAŞAQ** (*yerə töküləп sünbül*) Mən onda *başaqlar* arasında yataram şad; Rahət olaram zövqlə, qəm-qüssədən azad (A.Şaiq).

1. SÜNİ (*müxtəlif mənalarda*) Fikrət *süni* gülümsədi, ancaq pərtliyi sovuşmamışdı (X.Hasilova); **MƏSNUİ** (*ərx.*) Nə masaj ilə, nə *məsnui*-tənəffüslə bunun; Bu nə dağ ilə olur dərdinə dərman, ölübə! (M.Ə.Sabir); **QEYRİ-TƏBİİ.**

2. SÜNİ, SAXTA, YALAN

SÜPÜRGƏ [Hacı Murad:] Bu *süpürgə* burada nə gəzir? (S.S.Axundov); **ÇALĞI** (*məh.*) (*həyət-baca üçün istifadə edilən süpürgə*).

SÜPÜRGƏÇİ Bir nəfər Firuzə adlı qadın vardı, o da *süpürgəçi* idi (H.Abbaszadə); **DALANDAR** [Nemət:] O günü gəlib, məni *dalandarın* yanında rüsvay edib.. (Çomənzəminli); **CARUBKEŞ** (*köhn.*) [Odabaşı:] Amma onun *carubkeşlərinin* hər süpürgəsinin altında neçə yüz qarışqa qırılırdı (Ə.Haqverdiyev).

süpürləşmək *bax* güləşmək

sürahi *bax* **1.** məhəccər; **2.** qrafin

SÜRƏT, TEMP [Gülsabah:] Həyat, hərəkət, *sürət, temp*, inqilab, son bunları görmürsən (C.Cabbarlı).

SÜRƏTLƏ Maşın *sürətlə* gedirdi (X.Hasilova); **BƏRK** Lakin qızışmış köhlən at qüvvətsiz uşağa qulaq asmadı və qaraltıdan ürküb daha *bərk* qaçmağa başladı (S.S.Axundov); **DABANBASMA** [Əli:] ..Deyir, uşaqları saxlaya bilmirəm, qaçan faşistləri *dabanbasma* qovurlar (R.Rza); **GÜLLƏ KİMİ** (*məc.*) Yaxınlaşıb, salam verdi, *güllə kimi* ötüb keçdi (Ə.Haqverdiyev); **İLDIRIM SÜRƏTİ İLƏ** Buludlar arxasında daldalanıb müəyyən fürsət gözləyən üç "M-109" birdən *ildırım sürəti ilə* şığıdı (Ə.Vəliyev); **İTİ, İLDIRIM KİMİ** O vaxt Qara köpək yola çıxdı.. qatarı *iti* gələn görüb *ildırım kimi* götürüldü (S.S.Axundov); Hüseyn pilləkənləri *ildırım kimi* yuxarı qalxdı (S.Rəhimov); **YEL KİMİ** Bir az keçmiş gördük ki, bir nəfər şəxs bir kürən atın belində *yel kimi* gəlir (Ə.Haqverdiyev); **YEYİN** [Qulam:] Durun bir nəfəsimi dərim. *Yeyin* gəlmişəm (C.Cabbarlı).

sürətli *bax* yeyin

sürəyya *bax* ülkər

1. SÜRMƏK, İDARƏ ETMƏK (*maşın və s.*)

2. sürmək *bax* şumlamaq

sürtünmək *bax* sürtüşmək **1**

1. SÜRTÜŞMƏK, DƏYMƏK, SÜRTÜNMƏK, TOXUNMAQ

2. sürtüşmək *bax* sataşmaq

sürur *bax* sevinc

SÜRÜ (*qoyun dəstəsi*) Dağdan enən *sürüdü*; Dağı duman bürüdü; Vəfasız yar yolunda; Cavan ömrüm çürüdü (Bayatı); **İLXI** (*at sürüsü*) [Porzad:] Əmim istərmi ki, məni özgəyə versin, atamdan qalan sürünü, *ilxını* özgəyə tapşırsın? (M.F.Axundzadə); **NAXIR** (*mal-qara sürüsü*) *Naxır* tozlu yollarla axışıb gəlirdi (Mir Cəlal).

SÜRÜCÜ Kabinkanın qapısını açıq qoymuş *sürücü* içəridən onlara baxıb gülümsəyirdi (H.Abbaszadə); **MAŞINÇI** (*dan.*) [Almaz:] Amma biz sizi traktorçu, *maşınçı*, aeroplançı eləmək istəyirik (C.Cabbarlı); **MAŞİNİST** (*adətən qatarları idarə edən sürücü*) Bakı dəmiryol *maşinisti* Aqati Davidoviç Pansiladze bir də köks dolusu nəfəs alır (C.Bağır); **ŞOFER** (*dan.*) Söhbətin şirin yerində əliqulunun *şoferi* haray-həşir salasala geri qayıtdı (Ə.Vəliyev); **SÜKANÇI** (*gəmiçilikdə*) *Sükançı* göstərin indi siz mənə; Gəlsin, dalğaları o, yara bilsin.. (B.Vahabzadə).

SÜRÜKMƏK (*söyüş mənasında*) [Umud:] *Sürük* buradan! (İ.Məlikzadə); **CƏHƏNNƏM OLMAQ** [Piri:] *Cəhənnəmə ol* buradan (İ.Məlikzadə); **İTİLMƏK** [Zəki əsəbi:] Bu saatca durun, ikiniz də *itilin* burdan, binamuslar.. (Anar); **RƏDD OLMAQ** [Xanpər-

vər bəyim:] Sən atanın goru qıxdır saqqalını, bir topuğu tüklü də qız al, *rədd ol* başımızdan (N.Vəzirov).

süründürməçi *bax* rəsmiyyətçi

süründürməçilik *bax* rəsmiyyətçilik

SÜRÜNDÜRMƏK, GET-GƏLƏ SALMAQ, LƏNGİTMƏK, YUBATMAQ

süs *bax* bəzək

süsləmək *bax* bəzəmək

süslü *bax* bəzəkli **1**

SÜST (*müxtəlif mənalarda*) [Həmzə:] Bütün günü *süst* oluram, elə bil xəstəyəm.. (Ə.Qasımov); **ƏTALƏTLİ** [Uzundərə] əski Şərqin tələsmək bilməyən *atalətli* ruhunu özündə saxladığı üçün maraqsız deyildi (S.Hüseyn); **ƏZGİN** Birinci dəfə olaraq əri ona [Mədinəyə] *əzgin* və zavallı göründü (M.İbrahimov); **XƏSTƏHAL** Eşitmiş *xəstəhaləm*, göndərib şux qəmzə peykanın (Q.Zakir); **LOŞ** Bəylər öküz kimi yatmışdı sərxoş; Paltarilə yerə sərilmişdi *loş* (M.Müşfiq); **ÖLGÜN** Dəhşətlidir bu xəstənin əhvalı; İnsanlığın *ölgün*, solğun idealı! (A.Şaiq); **LƏMS, LIRT** (*məc.*), **LƏT, PASSİV** (*bax*).

SÜSTLÜK [Yusif] var qüvvəsi ilə çalışaraq *süstlük* taqətsizliyi yaxına buraxmır.. (Ə.Hacızadə); **KƏSALƏT** Boğazıma qədər yorğana sarılaraq gəmiklərim qızındıqca nəşəli bir *kəsalət* içində gözlərimi qapayıb qulaqlarımın ucunda cınlayan həzin bir gurultunu dinləyirdi (A.Şaiq); **NƏQAHƏT** (*xəstəlikdən sonra olan süstlük*) [Əliqulu:] Ancaq ərbabın bir balaca *nəqahəti* var (S.S.Axundov); **ƏZGİNLİK, XƏSTƏHALLIQ, ÖLGÜNLÜK.**

sütun *bax* dayaq **1**

süvari *bax* atlı

süysün *bax* boynurdı

süzmək *bax* **1.** tökmək **1**; **2.** calamaq; **3.** oynamaq **1**; **4.** uçmaq **1**

Şş

ŞABALID (*ağacı və meyvəsi*) ..Ocağın dövrəsində döşəkçələrdə düzülüb oturardıq.. *şabalıd* qovurardıq (Çəmənzəminli); **KƏSTANƏ** [Muxtarla xanımı] ...yasəmən və *kəstanə* çiçəklərinin rayihəsi əhatə etdi (Çəmənzəminli).

ŞABALIDI (*rəng*) Fikrət *şabalıdı* saçlarını tumarlaya-tumarlaya Fatma arvaddan soruşdu.. (H.Abbaszadə); **KƏSTANƏ RƏNGLİ** [Xədicənin] nəzər-diqqətini cəlb edən bir işi vardısa, o da həddindən fəzlə gur *kəstanə rəngli* saçları idi (M.Hüseyn); **ŞABALID RƏNGLİ.**

şablon *bax* **1.** ülgü; **2.** bayağı

ŞAD (*əhvalı yaxşı*) Dərd bilmərəm, yas tutmaram, çox *şadam;* Mən də şair, sənin kimi azadam (M.Rahim); **ABAD** (*məc., kl.əd.*) Qarşıdan bir can yeridi; *Abad* könlümün evini; Eylədi viran, yeridi (Aşıq Ələsgər); **XƏNDAN** Döndü qəbiristandan; O şad, o xəndan; Xəyalı ulduzla, ayla öpüşdü (B.Vahabzadə); **XOŞHAL** ..buna o əsrin müsəlmanları *xoşhal* ola bilməzdilər.. (C.Məmmədquluzadə); **XÜRRƏM** (*köhn.*) [Musa:] Kimin ki, yarı var, ondan qəm olmaz; Kimin ki, yarı yoxdur, *xürrəm* olmaz (S.Rəhman); **MƏSRUR** ..şəhər hürr və *məsrur* idi (Çəmənzəminli); **ŞADMAN** (*kl.əd.*) Olmadı hiç *şadman*, əfsus! (Natəvan); **ŞADYANA** [Səlimə:] Mən istəyirəm ki, o da xoş, *şadyana* bir söz desin (İ.Əfəndiyev); **ŞƏN** [Axilles:] Gəlir Rum qeysəri, çox *şəndir* yenə; Bu gün də verəcək xələt, xəzinə (A.Şaiq).

ŞADLANDIRMAQ Məktub Hacımı həddindən artıq *şadlandırdı* (M.S.Ordubadi); **SEVİNDİRMƏK** [Bərbərzadə:] Mirzə sən məni *sevindirdin.* Otu görüm (S.Rəhman); **ŞAD ETMƏK/ELƏMƏK** Dodaqlardan təbəssüm – demək əsərdən aldığı zövq, nəşə qəlbini *şad etmiş* (S.S.Axundov); **ŞƏNLƏNDİRMƏK** Fəttah onu *şənləndirmək* üçün Molla Nəsrəddinin məzəli lətifələrindən danışdı.. (H.Abbaszadə); **ÜRƏYİNİ AÇMAQ** (*fr.v.*) Usta Murtuz xəstənin *ürəyini açmaq* üçün şirin söhbətlər elədi.. (Mir Cəlal).

ŞADLANMAQ Gəl ki, sən gələndə *şadlanır* ömür (S.Vurğun); **FƏRƏHLƏNMƏK** Sərvinaz qarı evə dönüb hər şeyi hazır görəndə *fərəhləndi* (B.Bayramov); **XOŞHAL OLMAQ** Molla bacı mütəəllimlərin təbrikindən çox *xoşhal olub* gülümsünürdü.. (Çəmənzəminli); **SEVİNMƏK** Əziz mehribanım çatdı məktubun; Nə qədər *sevindik* bilsən ürəkdən (M.Rahim); **ŞAD OLMAQ** Ələsgərəm *şad olmadım* dünyada... (Aşıq Ələsgər); **ŞƏNLƏNMƏK** Cavanlar dənizdə top-top oynayır, səs-küy sala-sala *şənlənirdi* (H.Abbaszadə); **VƏCDƏ GƏLMƏK** [Yavər:] "Bəh-bəh! Belə şeydən doymaq olmaz!" – deyib ürəkdən *vəcdə gəlirdi* (M.İbrahimov).

ŞADLIQ Evimə qucaq-qucaq; *Şadlıq* gətirən; Nə desəniz varımdır (M.Rahim); **FƏRƏH, SEVİNC** Hər şeydə *fərəh, sevinc*, təravət; Artıq oyanıb gülür təbiət (A.Şaiq); **ŞADYANALIQ** [Şamxal:] Əgər o görsəydi və bilsəydi ki, bu ailə düz iyirmi beş ildi necə bir şadlıq, *şadyanalıq* içində xoşbəxt, bəxtiyar yaşayır, onda deyərdi ki, bəli, cənnət bax belə imiş (Anar); **ŞƏNLİK** Belə inqilabi şadlıq-*şənlik* zamanında Kankan Teybəlinin qayğısı azalmaqdansa artırdı (S.Rəhimov); **DİLXOŞLUQ.**

şadman *bax* şad

şadyana *bax* şad

şadyanalıq *bax* şadlıq

1. ŞAGİRD Məktəbin .. mədəniyyət bürosu tərəfindən hər *şagirdə* ayrı-ayrı bəxşişlər verildi (A.Şaiq); **MƏKTƏBLİ** [Porviz:] Olmadı ki! – deyib atam başını buladı, – bəs siz necə *məktəblisiniz*, birdən işığınız xarab oldu, deməli, oturacaqsınız qaranlıqda, hə?! (M.İbrahimov); **MÜRİD** (*köhn.*) Ölümündən bir qədər qabaq Nəsiminin müəllimi Fəzlullah Nəimi *müridinə* Bakını tərk etməyi məsləhət görmüşdü (Anar); **MÜTƏƏLLİM**

(*köhn.*) Molla bacı *mütəəllimlərin* təbrikindən çox xoşhal olub gülümsünürdü.. (Çəmənzəminli).

2. ŞAGİRD (*usta köməkçisi*) [Qəndab:] Maşında yazan qadına *şagird* olmaq haqqında Çingiz qadağan elədiyi xahişdən də bir şey çıxmadı (B.Bayramov); **KARGƏR** (*köhn.*).

şah *bax* padşah

ŞAHDAMAR (*anat.*); **AORTA** (*ən böyük qan damarı*)

ŞAHƏNŞAH Hörmət eləmədin bir *şahənşaha;* Məzarın döndüsə ziyarətgaha (M.Rahim); **ŞAHLAR-ŞAHI** [Şapur:] O *şahlarşahıdır,* taxtı-tacı var; Ona yer üzünün ehtiyacı var.. (S.Vurğun).

şahlıq *bax* padşahlıq

ŞAHMAT [Həmid:] Bu saat çağırım gəlsin, söhbət eləyin, *şahmat* oynayım, uşaq da onacan yatar (Anar); **ŞƏTRƏNC** (*ərx.*) Oynamış sanki sənlə *şətranc:* Şahı çıxmış oradan, qalmış mat (A.Şaiq).

şahpərəst *bax* padşahpərəst

ŞAHZADƏ (*köhn.*) [Əziz bəy:] Bu saatda gedirəm *şahzadəyə* bu əhvalatı müfəssələn bildirəm (M.F.Axundzadə); **ŞAH OĞLU** [Şuriyə:] Doğrudan gözəldir.. vuruldum ona; Şah qızı layiqdir bir *şah oğluna* (S.Vurğun); **ŞAPUR** (*köhn.*) Sənətin fərhadları dağları çapan zaman; Vahimədən sarsılıb *şapurlar* diksinirlər (M.Rahim); **PRİNS.**

1. ŞAX, DİK, DİMDİK, DÜMDÜZ, DÜZ, SƏRRAST

2. şax *bax* budaq

şaxə *bax* budaq

I ŞAXTA Ancaq o yenə də dayanmış dimdik, sanki bir taxta; İşləmiş qanına bu quduz *şaxta* (S.Vurğun); **AYAZ** Gül rəngli havada toz, duman var; Dəhşətli soyuq, *ayaz,* boran var (A.Şaiq); **BÜRUDƏT** (*kl.əd.*) Tifillər şiddəti-*bürudətdən;* Ağlaşır zar-zar vəhşətdən (M.Ə.Sabir); **DON** Şaxtalı qışlarda ağacı həsirə bükmüşdü ki, *don* vurmasın (M.İbrahimov); **SAZAQ** Zərrintac xanımın tər yanaqları *sazaqdan* qızardı (S.Rəhimov); **SOYUQ** Alay-alay qəhrəmanlar canlarından keçərək; Qarlı, *soyuq* gecələrdə vuruşurlar sübhədək (Ə.Cəmil); **ZƏMHƏRİR** (*kl.əd.*) ..Son mövqeyi *zəmhərir* olacağını irəli sürürdü (Çəmənzəminli).

II şaxta *bax* mədən

ŞAİR (*şeir yazan yazıçı, şəxs*) İlk yaradıcılığa lirik şeirlərlə başlayan *şair* [S.Vurğun] gənc yaşlarında, əlbəttə, dramaturgiyadan çox uzaq idi (M.Arif); **SÖZ QOŞAN** (*məc., dan.*) Deyirlər *söz qoşandır,* neçə kitabı vardır; Yazdığını bir özü, yenə bir özü anlar (M.Rahim); **ŞEİR YAZAN/QOŞAN.**

ŞAİRANƏ, POETİK

şalban *bax* tir **I**

ŞALLAQ Yoldaşlarının yanına qayıdanda Vəzirovun üzündə *şallaq* izi vardı, gözləri isə gülürdü (M.İbrahimov); **QAMÇI** [1-ci kəndli:] Koxalar, əllərində *qamçı,* hamını buraya gəlməyə məcbur edirdi (A.Şaiq); **QIRMANC** (*uzun şallaq*) Bir nəfər adam irəlidə, biri ortada, üçüncüsü lap geridə dəvəyə minib, səssizcə, yırğalana-yırğalana gəlir, hərdən-bir *qırmancla* dəvələrin burnundan vururdular (M.Hüseyn); **TATARI** Bir tərəfdə bir atlı; Atları yel qanadlı; *Tatarısı* əlində; Patrondaşı belində (M.Rahim); **TAZİYANƏ** (*köhn.*) [Koroğlu] Qırata bir *taziyanə* vurdu ("Koroğlu").

ŞALLAQLAMAQ, QAMÇILAMAQ, QIRMANCLAMAQ, TATARILAMAQ (*şallaqla vurmaq*)

I ŞAM (*keçmişdə çıraq yerinə yandırılan yumşaq maye*) Dedim: çoxdan könül soraqındadır; Dedi: pərvanə *şam* fəraqındadır (M.Rahim); **MUM** [Sitarə:] Artıq axşam olmuş, *mumlar* yanmış, bəxtim kimi hər yeri həzin bir qaranlıq istila etmişdi (A.Şaiq); **ŞƏM** *Şəm* qürbilə təfaxür qılma ey pərvanə, kim; Xirməni-ömrün göyər bərqi-fənadən ənqərib (Füzuli).

II ŞAM (*axşam yeyilən xörək, yemək*) Anam qızarmış gözlərini silərək, *şam* hazırlayırdı (M.İbrahimov); **AXŞAM YEMƏYİ** Nina *axşam yeməyi* hazırlamışdı (M.S.Ordubadi).

III ŞAM, ŞAM AĞACI Alma, palıd, *şam ağacı* hal ilə; Eylədilər bəhsi bu minval ilə (M.Ə.Sabir).

I ŞAN, DARAQ (*bal şanı, arı şanı*)

II şan *bax* **1.** ad; **2.** şərəf **1**; **3.** hörmət

şana *bax* **1.** yaba; **2.** daraq **1**

ŞANAPİPİK (*quş*) Əbdül birinci maşını gətirəndə stansiyanın dağlarında oxuyan *şanapipiyi* xatırladı, sonra Cəfər müəllimi (M.Süleymanlı); **HOP-HOP** [Qəndab:] Mənim sarı *hop-hopum* yenə budaqda öz mahnısını oxuyurdu (B.Bayramov); **HÜT-HÜT** Quşların da qəziyyələri bu dəftərdə yazılmışdı. *Hüt-hüt* qız imiş, çayda çimirmiş, başını daradığı yerdə birdən qayınatası böyürdən çıxır, qız utanıb üzünü göyə tutur: "Ey Allah, məni quş elə, həyam özümdə qalsın" (Çəmənzəminli); **KƏKİLDARAQ** (*məh.*) Çöl quşları: ...bildirçin, şoğal, *kəkildaraq,* çəpərsərçəsi, muradquşu, kəklik, tutuquşu, qırğı, bülbül və s. ("Azərbaycan folkloru antologiyası"); **ŞİNƏBUB** Meynələrin altında hərlənən *şinəbublar;* Növbələşən kölgəyə, nura məftun olublar (X.Rza).

1. ŞANLI [Muxtar bəy:] Mənim nəslim *şanlı,* şərəfli Turanın cahangiri Teymur xanın nəslindəndir (S.S.Axundov); **ŞÖHRƏTLİ** Məlum şeydir ki, alimlərimiz və *şöhrətli* yazıçılarımızın çoxu Bakıdadırlar (C.Məmmədquluzadə); **ZİŞAN** (*kl.əd.*) Kişidən istənilən işdir, iş; Kim ki, iş yapdı, o *zişan* oldu (M.Ə.Sabir); **ŞƏRƏFLİ** (*bax*).

2. ŞANLI, CƏSUR, QƏHRƏMAN, RƏŞADƏTLİ

şans *bax* ümid

şantan *bax* kafeşantan

şapalaq *bax* şillə

şapalaqlamaq *bax* şilləmək

şapka *bax* **1.** papaq; **2.** rüşvət

şapparlamaq *bax* döymək **1**

şapşap *bax* çust

şapur *bax* şahzadə

şatır *bax* çörəkçi

ŞARLATAN, AVANTÜRİST, BİCHARAMZADƏ, MÜFƏTTİN [Qonaq:] De görüm, *şarlatanın* toçnı mənası nədir? Mən bu sorğuya heç əhəmiyyət vermədim, qulağım ardını qaşıya-qaşıya cavab verdim: *Şarlatanın* toçnu mənası şarlantadır. Dedi: Daha sonra? – *Bic-haramzadə.* Dedi: Ayrı bir söz yoxmu? – *Avantürist.* Dedi: Bu kafi deyil, başqa bir sözlə aydınlaşdır. – *Müfəttin...* Dedi: Bildiyimi də unutdurdun. Müfəttin nədir? Mənə də görüm bu söz türk sözüdür, yoxsa rus? (Qantəmir); **FIRILDAQÇI** (*bax*); **HİYLƏGƏR** (*bax*).

şayan *bax* layiq

şayəd *bax* bəlkə

şayəstə *bax* layiq

ŞAYİƏ Əmir İnancın evinə tezliklə hücum ediləcəyi *şayiələri* hər yerdə danışılırdı (M.S.Ordubadi); **DEDİ-QODU** Bununla da Qızıl Arslan ixtilafın həll olunduğunu və *dedi-qoduların* bitdiyini zənn edərək sevinirdi (M.S.Ordubadi); **XƏBƏR** (*bax*), **SÖZ-SÖHBƏT** (*dan.*).

ŞEH ...Mən desəm artıqdır, özün bilirsən; Lalə yarpağında *şeh*ə bənzəyir (M.Müşfiq); **JALƏ** Bitər çəməndə lalələr, əlində al piyalələr; Səhər zamanı dür kimi düşər, ot üstə *jalələr* (A.Səhhət); **ŞƏBNƏM** (*şair.*) Dönmə bir *şəbnəmə* yaz səhərində; Könül, günəş kimi parla yerində (M.Müşfiq).

ŞEİR (*ədəb.*) Xan zamanında Vaqif neçə vaxt Kür qırağında qalıb, təngişməyi və vətənə qayıtmaq arzusunu bu *şeirdə* yazıb (Ə.Haqverdiyev); **AŞAR** Şairəm, çünki vəzifəm budur *əşar* yazım (M.Ə.Sabir); **NƏZM** Burada mən kitabı genə əlimə aldım və açdım orta səhifələrini vərəqlədim. Hər yeri *nəzm* idi (Ə.Haqverdiyev); **POEZİYA, TAZİYANƏ** (*kiçik satirik şeir*).

ŞEİRLƏŞMƏ (*ədəb.*) Aşıq Pəri.. öz *şeirləşmələri* ilə Qarabağ müasirləri içərisində böyük şöhrət qazandı.. (F.Qasımzadə); **DEYİŞMƏ** Onun [Aşıq Pərinin] *deyişmələri,* hazırcavabcasına dediyi şeirlər diqqəti cəlb edirdi (F.Qasımzadə); **MÜŞAİRƏ** O, müasirləri ilə apardığı *müşairələrdə* aciz qalmır, çox zaman.. üstün gəlirdi (F.Qasımzadə); **BEYTLƏŞMƏ.**

ŞEİRLƏŞMƏK (*ədəb.*) Məhəmməd bəy Aşıq, Mirzəcan Mədətov, Mirzə Həsən Mirzə və başqaları onunla [Aşıq Pəri ilə] dostluq şəraitində *şeirləşirdilər* (F.Qasımzadə); **DEYİŞMƏK** Çox deyildir, bir az bundan irəli; Mirzəcanla *deyişmişdir* bir Pəri (Ə.Cavad); **BEYTLƏŞMƏK** [Abbas çobana:] Bir az keçəndən sonra dedi ki, icazə verin mənim bu şagirdlərim sizin şagirdlə *beytləşsin*.. ("Abbas və Gülgəz"); **BAĞLAŞMAQ.**

şenlik *bax* oba **1**

şeş-beş *bax* nərd

şəşpər *bax* toppuz **1**

ŞEY, NƏSNƏ Üç ayın parasını qabaqca alıb özümə lazım bəzi *nəsnələr* [*şeylər*] aldım (N.Vəzirov); **ZAD** Kişi, məlum *zaddı* ki, övrətdən güclü olar (C.Məmmədquluzadə); **CİSİM, MADDƏ.**

şeyda *bax* vurğun

şeydabaz *bax* arvadbaz

şeydabazlıq *bax* arvadbazlıq

ŞEYPUR (*mus.*) Birdən haradasa *şeypur* çalındı (M.Hüseyn); **KƏRƏNAY** Toğrulun öz oğlu və vəliəhdi Məlikşah ilə bərabər saray qapısından çıxaraq rəsmi-keçid meydanına gəlmək istədiyini təbillər və *kərənaylar* əhaliyə xəbər verdi (M.S.Ordubadi).

ŞEYPURÇU (*şeypur çalan musiqiçi*), **KƏRƏNAYÇI**

1. ŞEYTAN (*zool.*) [Hacı Murad:] Heç *şeytanın* da ağlına gəlməz ki, mən burada pul basdırmışam (S.S.Axundov); **ƏZAZİL** (*kl.əd.*) Əhsən-təqvimi inkar eylər imansız fəqih; Şol *əzazilin* ki, adın həq deyər, şeytan budur (Nəsimi); **İBLİS** Yığıncağa yaxınlaşıb gördüm; *İblis* ki, cəhənnəmin sədri-idarəsidir, bir uca taxtın üstünə çıxıb sağa və sola şıllaq atır (Ə.Haqverdiyev).

2. şeytan *bax* hiyləgər

3. şeytan *bax* fitnəkar, xəbərçi

şeytançılıq *bax* xəbərçilik

I ŞEYTANI, TOXUMTÖKMƏ

II şeytanı *bax* tətik

ŞEYTANLAMAQ İsmayıl Mikayılı *şeytanladı*... (H.Abbaszadə); **ÇUĞULLAMAQ** Yadımdadır, anası oğlunu gənclik həyəcanının, müctəhidi lənətləməsini pis nəticələrindən qorxaraq, ərinə onu *çuğullamış* və o gecə yoldaşım atasından bir neçə şillə almışdı (A.Şaiq); **XƏBƏRÇİLİK ELƏMƏK/ETMƏK, ŞEYTANÇILIQ ELƏMƏK.**

ŞEYTANSİFƏT, ŞEYTAN XASİYƏTİ, ŞEYTANA OXŞAR

şəb *bax* gecə

şəbab *bax* gənclik

şəbahət *bax* oxşarlıq

şəbbu *bax* mixəkgülü

şəbbugülü *bax* şəbbu

şəbədə *bax* masqara

şəbədəbaz *bax* masqarabaz

şəbih *bax* tamaşa

şəbihgərdan *bax* rejissor

şəbihgərdanlıq *bax* rejissorluq

ŞƏBİ-HİCRAN *Şəbi-hicran* yanar canım, tökər qan çeşmi-giryanım; Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı (Füzuli); **HİCRAN-ŞƏBİ** Gərçi üzündən ayrıyam, amma xəyalinə; *Hicran-şəbində* göyə baxıb, mahə şükr edim (Xətayi); **AYRILIQ GECƏSİ.**

şəbnəmə *bax* intibahnamə

şəbnəm *bax* şeh

şəbpərə *bax* yarasa

ŞƏCƏRƏ (*nəsil cədvəli, nəsil tarixi*) Hər ehtimala qarşı şəcərə düzəltmək lazımdır bu adam üçün, guya İran şahı Bəhram Çubinin nəslindəndir (Ə.Məmmədxanlı); **SİLSİLƏ** [Mehrəli bəy:] Ədil bəy, mənim *silsiləmdə*.. mehtər olmuş şəxs yoxdur (S.S.Axundov); **GENEALOGİYA.**

şəfaxana *bax* xəstəxana

ŞƏFƏQ (*gün çıxmamış görünən qızartı*) Xoruzlar banlayır, *şəfəqlər* qızarır, səhər açılırdı (M.İbrahimov); **QIZARTI** *Qızartı* artır, dan yeri açılır; Göy üzünə al alovlar saçılır (A.Səhhət); **ŞÖLƏ** [Xanımana:] Ey könül nəğmə kimi yerlərdə sürüşmə, *şölə* ol, göylərə yüksəl (A.Şaiq).

ŞƏFFAF Hava sakit... Dəniz *şəffaf*... Səhər dilbər...; Al günəşin şəfəqləri düşür suya (S.Vurğun); **AYNA** (*məc.*) Oğlum, Azad, gəl gözək paytaxtımızı; Mavi *ayna* sularda seyr edək baxtımızı (S.Rüstəm); **PARLAQ** [Vahid:] Su daha *parlaq*, onun üstündən keçən körpülər ağ barmağa taxılmış qanlı qızıl üzük kimi daha aydın görünürdü (B.Bayramov).

şəfqət *bax* **1.** rəhm; **2.** mehribanlıq **1**

şəfqətli *bax* rəhmli; mehriban **1**

şəgal *bax* çaqqal

şəhd *bax* bal **1 1**

şəhr *bax* şəhər

ŞƏHƏR *Şəhərə* gələn kimi; O fidanları əkdi (M.Seyidzadə); **QALA** (*köhn.*) [Əmiraslan ağa:] ..sabah *qala* alındıqdan sonra siz üsyançı bəylər güllə qabağına qoyulacaqsınız (S.S.Axundov); **ŞƏHR** (*köhn.*) Təng olsa əgər başuva ol büqeyi Təbriz; Çünki ora bir *şəhrdi* pürdərdü qəməngiz (C.Məmmədquluzadə).

şəhla *bax* ala **1**

şəhriyar *bax* padşah

şəhriyarlıq *bax* padşahlıq

şəhvət *bax* ehtiras **1**

şəhvətli *bax* ehtiraslı **1**; coşqun

ŞƏXS (*cəmiyyətdə ayrıca adam*) Aslan mərhəmətli və əxlaqı düzgün bir *şəxs* idi (C.Cabbarlı); **FƏRD** Hər bir *fərdin* istedadı kollektiv zəmində çiçəklənib meyvə verə bilər (S.Rəhimov); **KƏS** O *kəsləri* deyib gəlmişəm ki, mənim söhbətimi xoşlayıb.. (C.Məmmədquluzadə); **NƏFƏR** (*bax*), **SUBYEKT.**

ŞƏXSƏN (*şəxsən özü*) Mirhadi Ağabalanı *şəxsən* tanımırdı, adını çox eşitmişdi (H.Abbaszadə); **BİZZAT** (*arx.*) 1926-cı ilə qədər Mirzə Cəlili *bizzat* tanımazdım (Çəmənzəminli).

ŞƏXSİ (*müxtəlif mənalarda*) Budur, bu məclisə yığışanların hamısı öz *şəxsi* həyatlarını, hərəkətlərini təhlükə altına alaraq gəlmişdilər (S.Rəhman); **XÜSUSİ** O yaxşı bilirdi ki, yaşadığı ev *xüsusidir*, onu hökumətin hesabına təmir etmək olmaz (M.İbrahimov); **FƏRDİ.**

1. ŞƏXSİYYƏT (*özünə xas əlamət və xüsusiyyətləri olan şəxs*) [Qadın:] Şairlər nə qədər həssas *şəxsiyyət* imiş (M.S.Ordubadi); **SİMA** C.Məmmədquluzadə Azərbaycan klassik yazıçıları içərisində görkəmli və böyük *simalardan* biridir (M.İbrahimov); **FƏRDİYYƏT.**

2. ŞƏXSİYYƏT, FƏRDİYYƏT (*şəxsiyyəti müəyyən edən xüsusiyyətlərin məcmusu*)

3. şəxsiyyət *bax* mənlik

1. ŞƏKƏR (*tib.*), **DİABET, ŞƏKƏR XƏSTƏLİYİ**

2. şəkər *bax* qənd

1. ŞƏKİL Dedilər: "Sən də bir gözəl *şəkil* çək; Haşiyəsi xalı tək olsun gül-çiçək..." (S.Rüstəm); **İLLÜSTRASİYA** (*adətən kitabın, jurnalın mətninə dair şəkildir*) Jurnalın beşinci nömrəsində dərc olunmuş "Məclisi-ədəb" şəkli müsəlmanlarda, mütiliyin və tam sükutun nə qədər uca bir mərtəbədə tutulduğunu göstərən ən yaxşı *illüstrasiyadır* (F.Köçərli); **LÖVHƏ** (*mənzərə şəkli*) Kənd biçimli bir şəhərin; *Lövhəsini* çəkirəm mən (S.Vurğun); **PORTRET** Divara bir neçə məşhur artistin *portreti*.. vurulmuşdu (İ.Əfəndiyev); **RƏSM** [Pəricahan xanım:] Al, tam üç ildir ki, bu *rəsmi* ürəyim üstə sevə-sevə saxlamışam (S.S.Axundov); **TABLO** (*böyük rəsm*) Güldanın üzərində Bağdad həyatının cürbəcür *təbloları* var idi (M.S.Ordubadi).

2. şəkil *bax* fotoşəkil

şəkilçəkən *bax* fotoqraf **1**

1. ŞƏKİLÇİ (*qram.*), **AFFİKS, SUFFİKS**

2. şəkilçi *bax* fotoqraf **1**

şəkk *bax* şübhə

şəkk-şübhə *bax* şübhə

şəkləndirmək *bax* şübhələndirmək

şəklənmək *bax* şübhələnmək

şəkli *bax* şübhəli

şəksiz *bax* şübhəsiz

şəkva *bax* şikayət **1**

ŞƏLALƏ Haradasa lap yaxında tökülən *şəlalənin* şırıltısı eşidilirdi (İ.Əfəndiyev); **ŞIRRAN** (*dan.*) [Bədirxan baba:] ..mən Nuh

oyyamından vayda-qışda həmişə o *şırranda* çimmişəm (İ.Əfəndiyev); **ŞIRŞIR** (*kiçik şaləli*) O [Muxtar], bulağa endi, üzünə su çırpdı, başını *şırşıra* tutdu (B.Bayramov);

şəltə *bax* cır-cındır

şam *bax* şam **I**

şams *bax* günəş

şəxsiyyə *bax* çətir

şəmşir *bax* qılınc

şən *bax* şad

şənləndirmək *bax* **şadlandırmaq**

şənlənmək *bax* şadlanmaq

1. ŞƏNLİK O, içki həvəskarı deyildi, yalnız *şənlik* məclislərində dilinə şərab vururdu (H.Abbaszadə); **BAYRAM** Vəsli yar ilə yetişdi hamı *bayrama*, könül: Yetmədin dövləti-didar ilə sən kamə, könül (S.Ə.Şirvani); **DÜYÜN** Uzaq ellərdə yasdır, bizim ellərdə *düyün* (S.Rüstəm).

2. şənlik *bax* şadlıq

şənüz(lü) *bax* gülərüz(lü)

şər *bax* böhtan

şərab *bax* çaxır

şərabxor *bax* ayyaş

şərabxorluq *bax* ayyaşlıq

şərabpaylayan *bax* saqi

şərarə *bax* qığılcım

şərarət *bax* mərdimazarlıq

ŞƏRBƏT İlhamın bal dadan ilk *şərbətini*: Duymuşam gücünü, məharətini (M.Rahim); **QƏNDAB** Tokyolərdə çay və *qəndab* sel kimi axırdı (Ə.Haqverdiyev).

şərçi *bax* böhtançı

1. ŞƏRƏF, ŞAN, ŞÖHRƏT Yeniltməz bayraq kimi hər tərəfi gözəldir; Mənim *şərəfim, şanım, şöhrətim* Qız qalası (M.Rahim); **MƏNLİK** Aslan isə öz nəfsini saxlayan və *mənliyini* sevən adam idi (S.Vəliyev); **VÜQAR** Sən qaldıran zaman *vüqarını* ucaldıb; Dünyalar qədər qədim milliyəm, Qız qalası (M.Rahim).

2. şərəf *bax* hörmət

ŞƏRƏFLİ (*şərəf sahibi*), **ŞANLI** [Muxtar bəy:] Mənim nəslim *şanlı, şərəfli* Turanın cahangiri Teymur xanın nəslindəndir (S.S.Axundov); **MÜŞƏRRƏF** [Mirzə Hüseyn:] *Müşərrəf* oldular? Yaxşı ki, bu səfər tez qurtardı (S.Rəhman); **VÜQARLI.**

ŞƏRƏFSİZ Qan içməzsə, can almazsa *şərəfsizlər*; bu aydındır; Vətən odlanmaz odlarda ürək yanmaz, kabab olmaz (S.Rüstəm); **BİŞƏRƏF** Hər *bişərəfin* öpmə əlindən; Cəlladlara yalvarma; əyilmə; Süfrəndə ki, bol duz-çörəyin var (S.Rüstəm); **HEYSİYYATSIZ, MƏNLİKSİZ** [Forman] Mələyin hər şeyə dözdüyünü gördükdə *mənliksiz, heysiyyatsız* bir adam olduğunu düşündü (M.İbrahimov); **RƏZİL** (*bax*).

şərər *bax* qığılcım

şərh *bax* izah

şəri *bax* qanuni

ŞƏRİƏT (*din*), **QANUN** (*islam qanunları*)

ŞƏRİK Sabirov da bu təklifə *şərik* olduğunu bilirdi (Y.Şirvan); **ORTAQ** Dinləyərək üzləklərdən qopan odlu nəğmələri; Sən bir *ortaq* kəsilirsən olominə, tasasına (S.Rüstəm).

ŞƏRİKLİ [Alo:] ..nəyimiz *şərikli* düşüb? (S.Rəhimov); **MÜŞTƏRƏK** [Adilov:] Bu preparatları biz Cəbrayılovun laboratoriyası ilə *müştərək* hazırlamışıq (Y.Şirvan); **BİRGƏ, ORTAQLI.**

ŞƏRQ (*coğr.*), **GÜNDOĞAN** (*bax*)

şərqi *bax* mahnı

ŞƏRQŞÜNAS (*Şərq ölkələrini, onların tarix və filologiyasını öyrənməklə məşğul olan alim*) Avropa *şərqşünasları* bizim yazıçının [M.F.Axundovun] əsərləri ilə bu tərcüməsinin sayəsində tanış olurlar (Ə.Haqverdiyev); **MÜSTƏŞRİQ** Bir çox *müstəşriqlər* Mirzə Fətəlinin əsərlərinin tədqiqi və tərcüməsi ilə məşğul olmuşlar (Çəmənzəminli).

şərmanda *bax* **1.** xəcalətli; **2.** utancaq

şərmsar *bax* xəcalətli

1. ŞƏRT (*bir-biri ilə sıx bağlayan tərəflərdən hər hansı birinin irəli sürdüyü tələb, təklif*) [Səlim bəy:] Lakin təslim *şərtindən* bir şey yazmır (S.S.Axundov); **KƏSİMƏT** Qızqayıt çaylaq aşağı getdikcə öz *kəsimini*

haqqında fikirləşirdi: "Bəlkə göyərçin vermədi!.." (S.Rəhimov).

2. ŞƏRT, ƏSAS, ZƏMİN

ŞƏRTLƏŞMƏK [Qəndab:] *Şərtləşdik* ki, payızda mən qayıdan kimi toyumuzu eləyək (B.Bayramov); **BAĞLAŞMAQ** Bu sözləri Cəlildən eşidəndə, haman adam dedi ki, yaxşı mən razıyam, sabah gəl filan notariusun kontoruna orada *bağlaşaq* (İ.Musabəyov); **ŞƏRT BAĞLAMAQ** Axırı bu cür *şərt bağladılar*. Korbəlayı Cəfər Xudayar bəyə yeddi manat versin və eşşək qalsın onun ixtiyarında (C.Məmmədquluzadə); **ŞƏRT KƏSMƏK.**

şətranc *bax* şahmat

şəvə *bax* **1.** oğlaq; **2.** qara **1**

ŞİĞIMAQ (*böyük sürətlə enərək hədəfə hücum etmək*) Birdən fəşistlər ayağa qalxıb üstümə *şığıdılar* hər yandan (M.Hüseyn); **CUMMAQ** Birdən bir qara quzğun; Qanadlarını yumdu; Göydə uçub oynaşan; Göyərçinlərə *cumdu* (M.Rzaquluzadə); **HÜCUM ETMƏK/ÇƏKMƏK** [Qasid:] Sonra Cavanşir bir dəstə süvari çənginvərlərimizlə meşə tərəfdən düşmənin arxasına *hücum çəkdi* (M.Hüseyn).

ŞILLAQ, TƏPİK Uşaq atasına bir *təpik*, anasına bir *şıllaq* atıb qapıları bir-birinə çırparaq evdən çıxırdı (Çəmənzəminli); **SONCUQ** Bu halda, tərs kimi, öküzlərdən biri *soncuq* atmağa başladı.. (M.Hüseyn).

ŞILLAQLAMAQ, SONCUQLAMAQ, TƏPİKLƏMƏK, TƏPİK/ŞILLAQ/SONCUQ ATMAQ

ŞILTAQ Ata-anasının bircəsi olduğuna baxmayaraq, Ayaz *şıltaq* və ərköyün deyil, üzüyoladır, mülayimdir (M.İbrahimov); **QALLI** Ziba nimtənəli, tikmə köynəkli; Gözləri qəmzəli, *qallı* sənəm, gəl (Xəstə Qasım); **ŞİT** Yavər onun Mədinəyə dikilmiş gözlərini, *şit* hərəkətlərini görüb, bayağı, haqq-say itirən adam olduğunu duyurdu.. (M.İbrahimov).

şırran *bax* şəlalə

şır-şır *bax* şəlalə

şi *bax* borş

ŞİDDƏTLƏNMƏK, GÜCLƏNMƏK, QÜVVƏTLƏNMƏK, SƏRTLƏNMƏK (*müxtəlif mənalarda*)

ŞİDDƏTLİ, BƏRK, DƏHŞƏTLİ, GUR, GÜCLÜ

ŞİFAHİ Əli bəy haqqında *şifahi* və ya yazılı danışıqların neçə illik tarixi var (Mir Cəlal); **DİLCAVABI** O indi həmşəhərlisi Qulamrzanın mənzilinə gedib həm məktubu ona vermək, həm də *dilcavabı* bir-iki söz sifariş etmək istəyirdi (A.Şaiq); **AĞIZDAN, LİSANƏN, LİSANİ.**

şikar *bax* ov

şikarçı *bax* ovçu

şikarçılıq *bax* ovçuluq

şikargah *bax* ovlaq

1. ŞİKAYƏT Dedi: "Şairlərdən *şikayətim* var: Mənim çox qəribə həkayətim var" (M.Rahim); **GİLEY** Mənim günahım çox, sənin *gileyin*; Onların nəhayət zamanı deyil (Q.Zakir); **ŞƏKVA** (*kl.əd.*) Get, öz baxtından eylə indi *şəkva* (M.Ə.Sabir).

2. şikayət *bax* ərizə

ŞİKAYƏTLƏNMƏK Davud Həmidin toqdimini gözləmədi, özü Fottahla tanış oldu və nə üçün bu goldiyini deyib *şikayətləndi* (H.Abbaszadə); **DEYİNMƏK** [Jenya:] İndi yeno də İvanov golor, başlar *deyinməyə*.. (C.Cabbarli); **ŞİKAYƏT ETMƏK** [Qəndab:] İstədim xalamın yanına dönüb ona *şikayət edəm*, getmədim (B.Bayramov); **GİLEYLƏNMƏK** (*bax*).

ŞİKƏST [Seyyid:] Bundan əvvəl, hamı dərdlər, mərizlər, *şikəstlər*, məyublar onun qəbrindən dərdlərinə dərman alardılar (Ə.Haqverdiyev); **ƏLİL** Nəriman belə söhbətləri çox eşitdiyindən, göz qabağında Hacı Bayram kimi qansoran, minlərlə desyatin yer sahibi olan mülkədarları, yersiz-yurdsuz füqəraını, özünün kor *əlil* atasını gördüyündən gözləri açılıb, dərindən yuxudan ayılmış bir adam olmuşdu (Ə.Haqverdiyev); **MAYIF** [Hacı:] Kor olsun, topal olsun, *mayıf* olsun, övlad olsun! (Mir Cəlal); **ŞİL** *Şil* istəyir qüvvət alsın; Tərpənməyən dizlərinə; Kor yal-

varır işıq gəlsin; Zülmət çəkən gözlərinə (M.Rahim).

şikəstənəfəs *bax* təvazökar

şil *bax* şikəst

ŞİLLƏ Cövdətin qəzəblə vurduğu *şillə* Qulamı çarpayıdan yerə yıxdı (H.Abbaszadə); **ŞAPALAQ** Həsən *şapalaq* yemiş kimi qıpqırmızı qızardı (M.İbrahimov); **ŞİLLƏ** [Məcid:] Camal, əgər camaatın bu işdən xəbəri olmasaydı, öz oğlumun ağzına bir *şillə* vurardım, deyərdim, get otur yerində (İ.Əfəndiyev); **YELDAŞI** (*dan.*) Yadına düşdü sərxoş bir kapralın könlümə vurduğu şillə-*yeldaşı!* (R.Rza).

ŞİLƏLƏMƏK (*şillə ilə vurmaq*) Lalə Şirmayını yalnız bir dəfə özündən kiçik bir qızı döyüb ağlatdığı üçün bərk *şilələmişdi* (M.Hüseyn); **ŞİLLƏLƏMƏK** Gülnaz yerindən sıçrayıb durdu, mübaşir Məmmədi *şilələdi* (M.İbrahimov); **ŞAPALAQLAMAQ** Geysubəyim Manafı *şapalaqlamağa* başladı (Ə.Vəliyev).

ŞİMŞƏK Mən güclü olsaydım əgər; Məni *şimşək* çaxmazdı ki; Məndən yağış yağmazdı ki! (M.Seyidzadə); **BARİQƏ** (*kl.əd., şair.*) Ey *bariqələr,* zərbələr endir bu cahana! (A.Şaiq); **BƏRA, SAİQƏ** (*kl.əd.*) Dövrü zəmanədən nə gətirdin bizə xəbər! Hiddətli *bərq, saiqələrdən* nə var əsər? (A.Şaiq); **İLDIRIM** (*bax*).

şinəbub *bax* şanapipik

1. ŞİR (*zool.*) Qayıdıb *şir* baxdı məstanə; Gördü eşşək gəlir dilarana (A.Səhhət); **ASLAN/ARSLAN** Nagahan gördülər ki, bir *aslan;* Üz qoyub kənd sarı gəlir qərran (A.Səhhət).

2. şir *bax* igid

ŞİRİN (*müxtəlif mənalarda*) Acısı xeyli *şirin,* meyxoşu dadlı olur; Onunçün quş tək uçur, aşiq qanadlı olur (M.Rahim); **BAL** (*məc., dan.*) Ərini oxşayır *bal* sözlərilə; Süzgün baxışlarla, şux gözlərilə (M.Rahim); **BAL KİMİ** O vaxtlar bu sacın çörəyi *bal kimi* olardı (S.Rəhimov); **DADLI** [Piri baba:] Onun balı çox *dadlıdır* (S.S.Axundov); **QƏND** (*məc., dan.*) Üzünü bir dəfə görən bənd olur; Dost üçün hər zaman suyu *qənd* olur (M.Rahim); **NUŞ** (*kl.əd.*) Mən zəhr bildiyim məni-miskinə *nuş* imiş (Füzuli).

ŞİRİNDİL(Lİ) Sən bəlkə çox məhriban *şirindilli* gözəlsən (M.Rahim); **DİLİŞİRİN** [Vahid:] Ana, nə bir yerə getmək lazımdır, nə də soraqlaşmaq, gəl elə bu kəndçi qızını al mənə. Üzügülər, *dilişirin* (M.İbrahimov); **XOŞZƏBAN** Bu yerin xəlqi cümlə zirək olur; *Xoşzəban,* xoşmizacu göyçək olur (S.Ə.Şirvani); **ŞİRİNZƏBAN** "Buyurun oturun, haradan belə!"; Gəldi *şirinzəban* o bülbül dilə (M.Rahim).

şirinzəban *bax* şirindil(li)

ŞİRNİ Hətta uşaqlara *şirni* paylayanlar da olurlar (M.İbrahimov); **QAQQA** (*uşaq dilində*) Nazlı bala, göyçək uşaq; Yaxşı-yaxşı *qaqqa* verim mən sənə (A.Səhhət).

şirnikdirmək *bax* həvəsləndirmək

şirnikləndirmək *bax* şirnikdirmək

şirniyyat *bax* qənnadı

I ŞİŞ Səlmi yana çəkilməsəydi, yəqin ki, başında qoz boyda *şiş* əmələ gələcəkdi (M.İbrahimov); **FIR** Bu əsnada qardaşım Əbülhəsən xəstələndi, boğazına iri bir *fır* çıxdı (Çəmənzəminli); **UR.**

II ŞİŞ *Şiş* ucları buludlarla döyüşən; Dağlarında duzları var ölkəmin (C.Cabbarlı); **İTİ** ..[pişik] hiss etdi ki, *iti* caynaqlarını qabırğaya ilişdirdi (İ.Hüseynov); **SİVRİ** Zehnin, düşüncənin səyyar qanadı; *Sivri* bir ox kimi sancıldı yerə (S.Vurğun).

1. ŞİŞİRTMƏK, DOLDURMAQ (*üfürməklə*)

şişirtmək *bax* goplamaq

şişlik *bax* kabab

şişman *bax* kök **I**

şit *bax* **1.** duzsuz; **2.** şıltaq

şitil *bax* ting

şivə *bax* naz

şivəli *bax* nazlı

şkaf *bax* dolab

şlem *bax* dəbilqə

ŞLYAPA (*həsirdən toxunmuş papaq*) [Fikrət:] Kim istər – kolağayı bağlar, kim istər – *şlyapa* qoyar (M.İbrahimov); **PANAMA**

Ağayarın, ..həmişə qaşları üstünə oydiyi həsir *panaması* indi peysərinə aşmışdı (Ə.Əbülhəsən); **SİLİNDR** [Narınc xanım:] Dayanın, getməyin Səlmi xala! – deyib orta yaşlarında, olduqca avroposayağı geyinmiş, əlində əsa, qolunda sarı payız paltosu, başında *silindr* olan bir ağa onun qabağını kəsdi (M.İbrahimov).

şofer *bax* sürücü

şor *bax* **1.** duzlu **1**; **2.** şoran

şorakət *bax* şoran

ŞORAN (*torpağı duzlu, şorlu olan*) Kim isə orada torpaqların *şoran* və üzüm üçün əlverişsiz olması fikrini yaymışdır (Y.Şirvan); **ŞOR** *Şor* düzlərə böyük arxlar çəkilib.. (Aşıq Əhməd); **ŞORAKƏT** *Şorakət* yerdə bostan əksən, adı bostan olar, tağı tağ olmaz; tənbəl arvada boz inək versən, ayrarı bol olar, yağı yağ olmaz (Ata. sözü).

ŞORBA [Qurban:] Dur, *şorba* deyirdin, gətir görüm, heç yeyə biləcəyəmmi? (Ə.Haqverdiyev); **SUP** [Əsgər bəy:] Həzərat boşqablarınızı bir-bir verin *sup* töküm (Ə.Haqverdiyev).

şorgöz *bax* arvadbaz

şorgözlük *bax* arvadbazlıq

şorlatmaq *bax* tökmək **1**

şou *bax* tamaşa

şöhrət *bax* ad-san

şöhrətbaz *bax* şöhrətpərəst

şöhrətli *bax* adlı-sanlı; şanlı **1**

ŞÖHRƏTPƏRƏST (*şöhrət düşkünü*) O [Adilə], Camalın həmişə gücü çatmayan böyük şeylərdən yapışdığını və *şöhrətpərəst* olduğunu yaxşı bilirdi (Y.Şirvan); **KARYERİST** Ellər ona "aşıq" – deyə güldəstələr bağışlar; *Karyeristin* küt başına yağar odlu yağışlar (S.Vurğun); **ŞÖHRƏTBAZ** [İbrahim:] Bacarsan, bir-iki də minnətçi götür: o *şöhrətbazdır* (A.Şaiq); **ŞÖHRƏT DÜŞKÜNÜ** Bu ad-san, şöhrət düşkünü; Sığmaz imiş yerə, göyə (A.Şaiq); **ŞÖHRƏTSEVƏN.**

şöhrətsevən *bax* şöhrətpərəst

şölə *bax* şəfəq

şöməndüfər *bax* tramvay

şövkət *bax* calal, əzəmət; hörmət

şövq *bax* **1.** işıq; **2.** həvəs

şövqlə *bax* həvəslə

şövqləndirmək *bax* həvəsləndirmək

şövqlü *bax* həvəsli

şövqsüz *bax* həvəssiz

şpion *bax* casus

şpionluq *bax* casusluq

ŞTAB (*hərbi*) [Əsgər:] Müharibə başlanandan bəri mən bundan başqa yalnız birini *ştaba* gətirmişəm (M.Hüseyn); **QƏRARGAH** Onun səsinə *qərargah* rəisi də o biri qazmadan gəldi (X.Hasilova).

ştreykbrexer *bax* xain **1**

ştreykbrexerlik *bax* xainlik **1**

şuluq *bax* **1.** şuluqçu; **2.** nadinc

1. ŞULUQÇU O zaman Sofa *şuluqçu* oğlan idi, çox danışırdı, bir dəqiqə yerində rahat otura bilməzdi (M.İbrahimov); **İXTİLALÇI** [Əbu Übeyd:] Ölkənin bütün *ixtilalçı* ünsürləri əldən qaçırıldı (C.Cabbarlı); **ŞULUQ** [Bonövşə Vahidə:] Bəri bax, *şuluq* adama oxşayırsan (M.İbrahimov); **ŞURİŞÇİ** [Gülobətin:] Onlar isə Sevindik kimiləri *şurişçi,* allahsız adlandırırlar (C.Cabbarlı); **İĞTİŞAŞÇI.**

2. şuluqçu *bax* nadinc

1. ŞULUQLUQ [Çəpəl:] Bilmirəm kişinin başına nə gəldi bu *şuluqluqdan* (Mir Cəlal); **İĞTİŞAŞ** Hər yerdə *iğtişaş,* hər yerdə üsyan; Alovlu noğmələr ucalır göyə (S.Rüstəm); **HƏRC-MƏRCLİK** (*bax*), **İXTİLAL, ŞURİŞ.**

2. şuluqluq *bax* nadinclik

I şum *bax* pərşum

II şum *bax* uğursuz **1**

şumal *bax* **1.** uca **1**; **2.** ucaboy(lu)

ŞUMLAMAQ Çək *şumla* yeri, durma, kəlim çək! (A.Şaiq); **XIŞLAMAQ** (*köhnə məişətdə: xışla şumlamaq*) Qızdı günəş, aləmə verdi həyat; Qonşuların tarlasını *xışlayır;* Qan-tər içində hamısı işləyir; Zəhmətinizlə yaşayır kainat (A.Şaiq); **SÜRMƏK** Bu bir saatda; Minlərcə hektar; Xam torpaqları; *Sürdü* traktor (M.Rzaquluzadə).

şura *bax* sovet
şuriş *bax* **1.** şuluqluq **1**; **2.** qiyam
şurisçi *bax* şuluqçu **1**

ŞÜA Saatlar ötür, dənizin qoynundan boylanan günəşin *şüaları* yarpaqlar arasından süzülüb, "Sağlamlıq zolağı"nın yollarına sanki əlvan xalılar sərir (İ.Əzimzadə); **İŞIQ** Bununla belə, sərgiyə gələnlər yarpaqları, ləçəkləri günəş *işığından* bərq vuran güllərçiçəklər aləminə, könül oxşayan mənzərələr dünyasına düşmüşlər (Y.Əzimzadə); **SAÇAQ** (*məc.*) Günün *saçaqları* yayılır düzə; Çünki təsləm olur gecə gündüzə (S.Vurğun).

ŞÜBHƏ [Alxasov:] Bilmirəm o *şübhə* necə, haradan beynimə soxuldu (H.Abbaszadə); **GÜMAN** Mərd igid, könlünə gəlməsin *güman;* Düşmənlər əlindən çəkərlər aman! ("Koroğlu"); **İŞTİBAH** (*köhn.*) Oxucularımızı bu cür *iştibahlardan* çıxarmaqdan ötrü lazım bilirik bunu söyləmək ki, həmin mənzumənin müsənnifi Ordubad şairlərindən məşhur Fəqir vəfat edib təxminən iyirmi il bundan qabaq və həmin əhvalatı yazıb bəlkə otuz il bundan irəli (C.Məmmədquluzadə); **ŞƏKK** Gözümlə görəndən sonra məndə daha *şəkk* yeri qalmadı (Ə.Haqverdiyev); **ŞƏKK-ŞÜBHƏ** Qələbənin artıq *şəkk-şübhəsi* yox idi ki, bütün bunlar iblisane bir planın nəticələridir.. (Anar); **VƏSVƏSƏ** (*şübhə və tərəddüd*) Telli bir saata qədər bir taqım *vəsvəsələrlə* düşündü (S.Hüseyn); **ZƏNN** [Hacı:] Mənim səndən *zənnim* var idi (Ə.Haqverdiyev).

ŞÜBHƏLƏNDİRMƏK Digər tərəfdən Vaqifi *şübhələndirən* o idi ki, Burnaşov Gürcüstana bir nəzərlə, Qarabağa isə başqa bir nəzərlə baxırdı (Çəmənzəminli); **BƏDGÜMAN ETMƏK** Şəmi-vüsal xəlli gərək xanə qeyrdən; Şəmi keçirmə, saqın, *edər bədgüman* məni (Q.Zakir); **İŞTİBAHA SALMAQ** (*köhn.*) O ki qaldı Dilşadın məsələsinə, zənnimizcə, Fəxroddini *iştibaha salmaq* üçün Dilşadı həbsdən azad etməliyik (M.S.Ordubadi); **ŞƏKKƏ SALMAQ** Ancaq bir ittifaq onu *şəkkə saldı* (S.S.Axundov); **ŞÜBHƏYƏ SALMAQ** [Bəhram:] Elə *bax* bu mücərrəd söz kimi məni hər şeydən çox *şübhəyə salır*... (Anar); **ŞƏKLƏNDİRMƏK.**

ŞÜBHƏLƏNMƏK Ata oğlunu bu cür görəndə *şübhələndi* (Ə.Vəliyev); **BƏDGÜMAN OLMAQ** Ümumən zümrəsinə qarşı *bədgüman olan*... Qəhrəmani belə bir qızı xoşlayırdı (M.İbrahimov); **GÜMANA DÜŞMƏK** Kabinetdəki yeniliklərə diqqət yetirən bəzi adamlar bir-birindən *gümana düşərdilər* (B.Bayramov); **ŞƏKK ETMƏK** [Şagird:] İndi iki küp arasında *şəkk etmişik:* bilmirik siçan yağa düşüb, ya bala düşüb ölüb (Çəmənzəminli); **ŞƏKKƏ DÜŞMƏK** Hüseynqulu ağa əvvəl dostlarının sözünü zarafat hesab etdi, amma sonra özü də diqqət ilə baxdıqda *şəkkə düşdü* (S.S.Axundov); **ŞƏKLƏNMƏK** Qoca qədimuşağının... çayla qorxulu oyun oynadığını başa düşürdü və bu qorxulu oyunun günün birində faciə ilə bitəcəyindən *şəklənirdi* (Ə.Yusifoğlu); **ŞÜBHƏ ETMƏK/ ELƏMƏK** Onlar hələ nəyəsə ümid bəsləyir, Balağanın tezliklə evə qayıdacağına *şübhə eləmirdi* (H.Abbaszadə); **ŞÜBHƏYƏ DÜŞMƏK** [Həcər xanım:] Biz də onun dalınca getsək, *şübhəyə düşərlər* (S.S.Axundov).

ŞÜBHƏLİ [Sultan:] *Şübhəli* olan bir şeyə heç bir vaxt inanmaq olmaz (S.Rəhimov); **ŞƏKLİ.**

1. ŞÜBHƏSİZ [Gəray:] Beləliklə o tabe olsa bizə; *Şübhəsiz* baş əyər hər əmrimizə (A.Şaiq); **BİGÜMAN** (*kl.əd.*) Hansı qəmli könlü kim, sən edər olsan şadiman; O sənə, əlbəttə ki, bədguluq eylər *bigüman* (M.P.Vaqif); **BİLAŞÜBHƏ** (*köhn.*) ...bir para insana əziyyət yetirən mığmığa, milçəklər və sair həşərat olmasa idi, *bilaşübhə* onların təmamisi indiyə kimi oturaq olmuşdu (F.Köçərli); **BİŞƏK, BİŞÜBHƏ** [Molla Qafar:] *Bişək, bişübhə* elədir (S.Rəhimov); **ŞƏKSİZ** [Tərəkəmələr:] *Şəksiz* şoyatın yığnağına rast gəliblər (M.F.Axundzadə); **MÜTLƏQ** (*bax*).

2. ŞÜBHƏSİZ (*ara söz kimi*) [Koba:] Hə.. yerində dedi, *şübhəsiz,* Xanlar; Bütün mədənlərdə nizamsızlıq var (S.Vurğun).

ƏLBƏTTƏ Şah rəiyyətsiz ola, *əlbəttə,* şövkətdən düşər (S.Ə.Şirvani); **TƏBİİ.**

şücaət *bax* hünər, igidlik, cəsarət
şükran *bax* minnətdarlıq
şükufə *bax* çiçək
şükufələnmək *bax* çiçəklənmək **1**
şükümsüz *bax* üzrsüz **1**
şükür *bax* minnətdarlıq
şümarə *bax* **1.** əqrəb **1**; **2.** nömrə **1**

1. ŞÜŞƏ (*içinə maye tökmək üçün boğazı dar qab*) Ata-oğul *şüşədəki* arağı boşaltdı (H.Abbaszadə); **BUTULKA** (*dan.*) [Sarıköynək] sonra aralıq qapını açaraq o biri evin də işığını yandırdı, soyuducudan bir *butulka* şampanski, qara kürü, kolbasa, iki qədəh gətirib stolun üstünə düzdü (İ.Əfəndiyev).

2. ŞÜŞƏ Sürəkli alqış səslərindən pəncərələrin *şüşəsi* cingildədi (Ə.Babayeva); **AYNA** Elə bil ki, soyuqdan; Titrəyir göydə ulduz; *Aynalar* bağlayıb buz (Ə.Cəmil).

ŞÜŞƏBƏND *Şüşəbənddə* taxtanın üstündə yuyulmuş, hələ ütülənməmiş xeyli paltar yığılmışdır (H.Abbaszadə); **AYNABƏND** [Vahid:] Nəhayət, üz-gözünü turşudub [Əkbər] ayağa qalxdı. *Aynabənddə* bir neçə dəfə gəzindi (B.Bayramov).

ŞÜŞƏBƏNDLİ O, mərmər pilləkənlə ikinci mərtəbəyə qalxdı, *şüşəbəndli* qapıya yapışıb dayandı... (M.Hüseyn); **AYNABƏNDLİ** Yol onu balaca bir meydançaya çıxartdı, burada beş-altı ev vardı, hamısı da ikimərtəbəli, *aynabəndli* (R.İbrahimbəyov).

ŞÜUR Qarc, sözümü dərk elə, gər varsa *şüurun;* Fənnin var isə örtülcək cümlə qüsurun (M.Ə.Sabir); **DÜŞÜNCƏ** Celil Məmmədquluzadə xalqın həyat və *düşüncəsindəki* bütün mənfi cəhətləri tənqid edirdi (M.İbrahimov); **DƏRRAKƏ** [Vaqif:] Bu *dərrakənin* sahibinə nə deyəsən? (Çəmənzəminli); **ANLAQ, İDRAK** (*bax*) **1**

ŞÜURLU [Süleyman:] Çox ağıllı, yaraşıqlı və çox da *şüurlu* oğlandır (Ü.Hacıbəyov); **DƏRRAKƏLİ** [Uşaq Leonardo:] Axı, insanlar ağıllıdır, *dərrakəlidir* (R.Rza); **DÜŞÜNCƏLİ** [Vahid:] Gözəldir, təmizdir, *düşüncəlidir*... (M.İbrahimov); **ANLAQLI.**

1. ŞÜURSUZ *Şüursuz,* idraksız, gücsüz heyvanlar belə ac qalmırlar (M.İbrahimov); **BİŞÜUR** Siz, siz ey *bişüur* olan cühalə! İndi siz rahat oldunuzmu daha! (A.Şaiq); **KƏMŞÜUR** Olmalıyam mən qəyur dərdə nişan olmağa; Mən olmuşam *kəmşüur,* sahibi-şan olmağa (C.Cabbarlı); **ANLAQSIZ, DƏRRAKƏSİZ.**

2. şüursuz *bax* bayğın

ŞÜURSUZLUQ, ANLAQSIZLIQ, BİŞÜURLUQ, DƏRRAKƏSİZLİK, KƏMŞÜURLUQ

şüy *bax* çubuq **1**

Tt

tab *bax* **1.** güc; **2.** səbir **I**
tabaq *bax* toknə
taban *bax* işıqlı
TABE [Rəbi:] İnsan gücə *tabedir* (C.Cabbarlı); **ASILI** [Kamil öz-özünə:] O, ancaq özünü öyür; yüksək vəzifəli, *asılı* olduğu, bir də "yerli" dediyi adamları bəyənir.. (Y.Şirvan); **MƏHKUM** (*məc.*) Bakıda da qadınlar dörd divar arasında *məhkum*, məzlum.. halda yaşayırlar (H.Sarabski); **MÜTİ** [Yağlar:] Çoban sən də gəl bəri, baş endirib bağır bas, bizə *müti* ol (Anar).
TABELİK (*tabe olma*) [Mirzə Sadıq:] Şah sərdərəsmsiz qaldıqdan sonra türkmənlər, qarşılarına göndərilən Xorasan hakimi Həşəmətüddövləni məğlub edib, İran *tabeliyindən* çıxdılar (C.Cabbarlı); **ASILILIQ** Getdikcə Mirzə valeh bir *asılılıq*, bir məhkumluq hiss edirdi (S.Rəhimov); **MƏHKUMİYYƏT** Əbdülqədir bu gecə bükmüş polad dizini; Ərəb bu gün eşitmiş *məhkumiyyət* sözünü (M.Dilbazi); **MƏHKUMLUQ** [Aydın:] Nədir bu hakimlik? Nədir bu *məhkumluq?* (C.Cabbarlı); **MÜTİLİK** Müqim bəyin belə müti bir vəziyyətdə dayanmağı Zərrintacın xoşuna gəldi; çünki izafi danışığa yol vermədən öz sərəncamlarının yerinə yetirilməsindən hədsiz dərəcədə xoşlanan Zərrintac xanım bir hakimi-mütləq kimi belə bir *mütilikdən* xüsusi zövq alırdı (S.Rəhimov).
tablamaq *bax* dözmək
tablaşmaq *bax* dözmək
tablo *bax* şəkil 1
TABOR (*hərbi*), **BATALYON**
tabsız *bax* halsız
tab-tavan *bax* güc
taburet(ka) *bax* kətil
TABUT Sement döşəmə də, daş divar da; *Tabut* qapağı kimi örtülmüş qapılar da (R.Rza); **CƏNAZƏ** Müəllimin *cənazəsini* qoymaq üçün Tərlan dərs otaqlarından birini boşaltdırdı (Ə.Məmmədxanlı).

1. TAC (*padşahların başlarına qoyduqları papaq*) [Piri baba:] Sən də təzədən mənim başıma *tac* qoymaq istəyirsən (S.S.Axundov); **ƏFSƏR** Oldum vüsali-ruyinə şaiq, bu başıma; Qoydum cünunluq *əfsərini* mən əbəs-əbəs (A.Şaiq).
2. tac *bax* çolonq **I**
tacdar *bax* padşah
TACİR Bu həmin o *tacirlərin* karvanı idi, onları neçə il bundan qabaq Bəybura Ru elinə göndərmişdir... (Anar); **BAZİRGAN** (*köhn.*) Ağır yüklü dəvələr longor vura-vura addımlayırdı, *bazirganlar* da yorğun, yuxusuz idilər (Anar); **BƏZZAZ** (*köhn.*) Hacı Kərim Bakıda məşhur *bazzazlardan* idi (A.Şaiq); **SÖVDƏGƏR** (*köhn.*) [Maşo:] ..iki ovçu ovdan söhbət edirlər, *sövdəgərlər* alış-verişdən, iki arvad rast gəldilərsə, modadan, paltardan danışırlar (N.Nərimanov); **BİZNESMEN** (*evf.*), **KOMMERSANT.**
tağ *bax* günbəz
TAXÇA (*şey qoymaq üçün divarda xüsusi oyuq, yer*) *Taxçaya* əlvan üzlü yorğan-döşək yığılmışdı (H.Abbaszadə); **CAMAXATAN** [Səs:] Gədə qaçaraq yüyür evə, möhürüm qələmdandadır, qələmdan da *camaxatandadır* (M.S.Ordubadi); **DƏRİÇƏ** (*kiçik taxça*) [Odabaşı:] Divarlarda xırdaca *dəriçələr* var (Ə.Haqverdiyev).
TAXIL Yağmadı yağış, yandı *taxıl*, cümlə kül oldu (A.Şaiq); **ARPA-BUĞDA QƏLLƏ** (*köhn.*).
1. TAXMAQ [Əmiraslan ağa:] ..Cahangir səbah qırmızı bayrağını "Laçın yuvası"na *taxmaq* arzusundadır (S.S.Axundov); **SANCMAQ** [Koroğlu] duarnanın telindən bir dəstə kəsib Eyvazın papağına *sancdı* ("Koroğlu").
2. TAXMAQ (*sırğa, qolbaq, üzük*); **KEÇİRMƏK** [Əli Nazlıya:] Al hələlik bu təkqaşı, *tax* barmağına (üzüyü onun barmağına *keçirir*) (Anar).
3. TAXMAQ, BƏND ETMƏK, İLİŞDİRMƏK
1. TAXT (*köhn.*) (*Şahların oturduğu böyük kürsü*) [Mirzə Mülküm:] Nəsrəddin şah *taxtdan* salınmazsa, Müzəffərəddin Mirzə taxta çıxa bilməz (C.Cabbarlı); **MƏSNƏD** (*köhn.*) Bu gündən Əkbər hər bir ixtiyarı olinə alıb Hacı Xəlil mərhumun *məsnədində* oyləşdi (Ə.Haqverdiyev).
2. taxt *bax* çarpayı
taxt-rəvan *bax* kəcavə
taqət *bax* güc
taqətsiz *bax* gücsüz, halsız
taqətsizlik *bax* halsızlıq
1. TAQIM (*hərbi*) [Hacıyev:] ..neçə aydı ki, *taqımı* ilə məşğul olur, onu öyrədir, döyüşə hazırlayır (Ə.Əbülhəsən); **DƏSTƏ** Sərhədlərdən köhnə qoşunları götürüb yerlərinə təzə.. *dəstələrdən* təyin etməliyik (M.S.Ordubadi); **VZVOD** Fərhadın *vzvodu* xeyli iş görmüşdü (Ə.Vəliyev).
2. TAQIM ..Xəstələrin bir *taqımı* bağçada.. söhbət edirdilər (S.S.Axundov); **DƏSTƏ** Molla Nəbiqulu məktəb uşaqlarından bir *dəstə* düzəltdi (Ə.Haqverdiyev).
taqqıldatmaq *bax* döymək **2**
TALAMAQ (*müxtəlif mənalarda*) O əfsər ki, yurdunu; Görənlər bilir bunu; Viran qoyur, *talayır* (M.Rahim); **ÇAPIB-TALAMAQ** [Knyazlar:] Əhalini *çapıb-taladılar* (M.İbrahimov); **ÇAPMAQ** (*məc.*) Xandəmirov çaldı, *çapdı* mahalı; O ki tutub özün keçəl qurumsaq (Q.Zakir); **DAĞITMAQ** [Hacı:] Xarici bu fabriki *dağıtmaq* istəyir (M.S.Ordubadi); **QARƏT ETMƏK/ELƏMƏK** [Sitarə:] Sən də bizimlə gedək, qoy gəlib bu evləri *qarət etsinlər*, sən də müqabilə etmə! (C.Cabbarlı); **SOYMAQ** (*məc.*) [Tarverdi:] Vay aman, qələt elərəm, quldurluğa dəxi çıxmanam, heç kimi *soymaram* (M.F.Axundzadə); **TALAN ETMƏK** Xanın qardaşı oğlu o gün keçdi xanlığa; Əl atdı yamanlığa; *Talan etdi* sarayın dövlətini, varını (B.Vahabzadə); **YAĞMALAMAQ.**
talançı *bax* soyğunçu
talançılıq *bax* soyğunçuluq
TALANLAMAQ, DAĞIDILMAQ, QARƏT EDİLMƏK, TALAN EDİLMƏK, YAĞMALANMAQ
talant *bax* istedad
talantlı *bax* istedadlı
talantsız *bax* istedadsız
talantsızlıq *bax* istedadsızlıq
1. TALE [Tərxan:] Gəl görək, *taleyim* nə göstərəcək! (A.Şaiq); **FƏLƏK** (*məc.*) *Fələk* ayırdı məni cövr ilə cananımdan (Füzuli); **QƏZAVÜ QƏDƏR** [Kirman:] Pərdə altında hər *qəzavü qədər;* Mənə parlaq günəş kimi görünər (A.Şaiq); **QİSMƏT** Bizim *qismətimiz* göz yaşı deyil; Bizimdir yaşamaq, gülmək həvəsi (S.Vurğun); **MÜQƏDDƏRAT** Bu gecə bizim *müqəddəratımız* həll edilir (C.Cabbarlı); **ALIN YAZISI, BƏXT** (*bax*).
2. TALE [Ana] ..balalarının *taleyinin* necə olacağını fikir edib ağlayırdı (C.Cabbarlı); **GƏLƏCƏK** [Mirzə:] Ancaq uşaqlarımın *gələcəyinin* fikrini də mənim özümə vaqüzar ediniz (Ə.Haqverdiyev); **MÜQƏDDƏRAT** ..azadlığın *müqəddəratı* ancaq sabahkı müdafiomizdən asılıdır (A.Makulu).
taleli *bax* xoşbəxt
talesiz *bax* bədbəxt
talesizlik *bax* bədbəxtlik **1**
talibə *bax* tələbə
tallah *bax* vallah
TALVAR Könül açır üzüm bağı; Gəlin görün bizim bağı; *Talvarlarda* aşıb-daşır; Meyvələrin qol-budağı (M.Seyidzadə); **ÇARDAQ** Onları [alman soldatlarını] maraqlandıran heç nə tapmadılar. *Çardağa* da baxdılar. Ordan da bir şey çıxmadı (H.Abbaszadə); **KÖŞK** Beyrək sağına baxdı, soluna baxdı, dedi: Sarı donlu Selcan xatun *köşkdən* baxar, kimə baxsa eşqilə oda yaxar, sarı donlu qız eşqinə "hu" (Anar).
tam *bax* dad **I**
TAMADA (*toylarda və ziyafətlərdə məclisi idarə edən şəxs*) *Tamadanın* təklifi ilə hamı ayağa qalxdı (Ş.Qurbanov); **MASABƏYİ** [Xosrov bəy:] Bəylərin həftə qonaqlıqlarında *masabəyi* olubsunuzmu? (Ə.Vəliyev); **TULUMBAŞI** (*köhn.*) *Tulumbaşının* təklifinə riayət edərək çaxır buynuz qədəhlərə töküldü, çariçə Yekaterinanın şərəfinə

nitq söylənib, ayaq üstə içildi... (Çəmənzəminli); **SÜFRƏBƏYİ.**

TAMAH [Əliqulu:] Ağa, bayaq ərz etdim ki, mənim dünya malında *tamahım* yoxdur (S.S.Axundov); **NƏFS** [İskəndər:] Haqlısan, bəladı bu insan *nəfsi* (A.Şaiq); **TAMAHKARLIQ** (*bax*).

TAMAHKAR [Bayram:] Namaz bir *tamahkar*, şeytanfikir adamdır (M.F.Axundzadə); **ACGÖZ, HƏRİS** [Xosrov:] [Əzim Əsgər] *acgözdür, hərisdir*, başqalarından pay umur (M.İbrahimov); **NƏFSKAR** ..Sənin kimi *nəfskar*, dünyanı dörd olli tutan bir adamı briqadir saxlamaq olmaz (Ə.Vəliyev); **NƏFSPƏRƏST** Nə vaxta qədər biz biçarələr bu kimi *nəfspərəst* qoroz sahiblərinin əlində oyuncaq olacağıq (M.F.Axundzadə); **ARTIQTAMAH** (*çox tamahkar*), **AC** (*məc.*), **DÜNYAGİR** (*köhn.*), **MƏNFƏƏTPƏRƏST** (*bax*).

TAMAHKARLIQ Yasəmən ərinin *tamahkarlığını* bilirdi, ona görə Qaraca qızın gələcəkdə onlara böyük mənfəət verəcəyini söyləyirdi (S.S.Axundov); **ACGÖZLÜK** Bu qütbdə Əzim əsgərləri ehtiyacın pəncəsinə verib horlıyır, *acgözlüyə* sövq edən comiyyət, o biri qütbdə ya insan iztirablarına qarşı kar və kor olan cansızlar yetirir.. (M.İbrahimov); **ARTIQTAMAHLIQ** [Gülsənəm:] [Hümmətəli] *artıqtamahlıq* eləyib, vəssalam! (M.Hüseyn); **HƏRİSLİK** Doğrudan da vəhşi *hərislik*, qorxunc şübhə mərəzi Sultanın ürəyində kök salırdı (S.Rəhimov); **TAMAH** [Gülnisə:] *Tamah* və bəla məhəbbəti insanı hər bir şeyə vadar edər.. (C.Cabbarlı); **DÜNYAGİRLİK.**

tamam *bax* **1.** tamamilə; **2.** bütün **1**; **3.** büsbütün

tamamən *bax* tamamilə

TAMAMİLƏ Namuslu başına gələni *tamamilə* nağıl etməyə başladı (S.S.Axundov); **BAŞDAN-BAŞA** Yaxşılıq insanı bir sənət olsun. Dünya *başdan-başa* qoy cənnət olsun (S.Vurğun); **BİTTƏMAM** İndi onlar da ayılıb *bittəmam*. Qalmadı heç yerdə sənə ehtiram (M.Ə.Sabir); **BÜSBÜTÜN** İzdiham çoxalır, qohroman şəhər; *Büsbütün* ayağa qalxmışdır bu gün (S.Vurğun); **ÇİM** (*məh.*) Bazardan bir kilo ot aldım *çim* yağdı (ADDL); **TAMAMƏN** Avropa və Amerika alim, köşaf, ixtiraçı və başqa namaz qılmayıb və şeytan əməllərinə rəvac verənləri *tamamən* yandırıb küllərini sovurdular (Çəmənzəminli).

tamamlamaq *bax* qurtarmaq **1**

TAMAŞA (*teatr tamaşası*) *Tamaşada* iştirak edən "kütlə" həmişə bir nəfərdən ibarət olur (Ə.Haqverdiyev); **ŞƏBİH** *Şəbihlər* namolum müəlliflər tərəfindən şeirlə yazılmış birpərdəli pyeslərdən ibarətdir (Ə.Haqverdiyev); **ŞOU** (*əyləncəli tamaşa*).

tamlı *bax* ləzzətli

tampon *bax* piltə **3**

tamsız *bax* ləzzətsiz

tana *bax* sirğə

tanınmaq *bax* məşhurlaşmaq

tanınmış *bax* adlı-sanlı

TANIŞLIQ (*bir yeri tanıma; müxtəlif mənalarda*) [Məsmə:] Bizim bir-birimizlə rəsmi *tanışlığımız* yoxdu (S.Hüseyn); **BƏLƏDİYYƏT** Nəriman inqilab tarixinə, inqilabın nə olduğuna Mirzə Hüseynin söhbətlərindən lazımınca *bələdiyyət* yetirmişdi (Ə.Haqverdiyev); **BƏLƏDLİK** [Nəriman:] Döyüş işinə nəzəri cəhətdən o qədər *bələdliyim* yoxdur (Mir Cəlal).

tanqab *bax* var **I**

tanrı *bax* Allah **I**

TAPANÇA Şubay onları təəccüblə qarşılayıb, *tapançasını* çıxardıb, sağ əlinə aldı, atdan düşüb birinci dəvənin qabağını kəsdi (M.Hüseyn); **QOZDƏSTƏ** (*zar., dan.*) [Zeynal:] Bəlkə sən bu *qozdəstəni* çaypıraqlılara göstərmək istəyirsən? (Ə.Əbülhəsən); **PİSTOLET** Yaxından açılan güllə Həbibi yarpaq kimi silkələdi. *Pistolet* əlindən yerə düşdü (İ.Əfəndiyev); **PİŞTOV** (*dan., köhn.*) [Əbülhəsən bəy:] Bir pıştovu boşaldıb qaçdım, gördüm ki, dalımca gəlirlər, o biri *pıştovu* da boşaldıb aradan çıxdım (M.S.Ordubadi); **REVOLVER** İndi *revolverdi*, dönüm

başına; Nəqoh olur güllofəşan partapart (M.Ə.Sabir).

TAPDALAMAQ (*ayaq altına salıb əzmək*) O, qarşısında duran ərini ayağının altına salıb *tapdalamaq* istədi (M.Hüseyn); **AYAQLAMAQ** [Rza:] Ulduz mənim idi, onu məndən zorla, güclə alırlar, mənim namusumu *ayaqlayırlar* (M.İbrahimov); **BASDALAMAQ** [Şofer] lakin Xəlildən cavab almayıb, onu *basdalamaq* istəyirmiş kimi, maşını düz onun üstünə sürdü (M.Hüseyn); **BASMAQ** İlanın quyruğunu *basmasan* səni sancmaz (Ata. sözü); **CİĞNAMAQ** (*dial.*) [Məsumə:] Ağıllını dəli eləmək yaramaz. Dəli inək balasını *ciğnayır*... (B.Bayramov).

TAPILMAQ, BULUNMAQ (*kl.əd.*)

TAPQIR (*yəhərі və ya qaltağı bərkitmək üçün atın, eşşəyin, qatırın qarnı altından çəkilib bağlanan qayış*) Bəy ata yaxımlaşdı, əli ilə onun yalını tumarladı, qayışlarını yoxladı, soliqosiz görünən *tapqırını* düzəltdi (M.Hüseyn); **QARINALTI** [Padşah] atın *qarınaltısını* bərkidib yola başladı ("Ağ quş" nağılı); **YƏHƏRALTI.**

TAPMACA Tələbə hiss etdi ki, bu *tapmaca* deyəsən bir qədər qəliz açılacaq, ya bəlkə heç psixiatr özü də onun cavabını bilmədi (Anar); **BİLMƏCƏ** [Vaqif:] Bu dünya doğrudan bir *bilməcədir;* Qapıya qoymuram can möhnətini (S.Vurğun).

1. TAPŞIRIQ Hər addım başında bir *tapşırıqla;* Yazıq qızcığazı boş buraxmadı (M.Rahim); **İSMARİŞ** Aşıq sazla dediyi kimi, sözlə də Məhbub xanımın *ismarışını* Koroğluya yetirdi ("Koroğlu"); **SİFARİŞ** Kosa öz qohumu evində gecələmiş, Əsgərin *sifarişini* tədarük etmiş, indi də ağ bağlamada aparırdı (S.Rəhimov).

2. TAPŞIRIQ (*dərs tapşırığı*) Mən cəld *tapşırığın* qaralamasını həll edib, gizlicə arxamda oturan Gülşadə ötürürəm (H.Abbaszadə); **ÇALIŞMA.**

3. TAPŞIRIQ, GÖSTƏRİŞ, ƏMR

4. TAPŞIRIQ, VƏZİFƏ, İŞ

TAPŞIRMAQ [Xudayar bəy:] Eşşəyin sahibi sonə kimin yanında eşşək *tapşırıb* (C.Məmmədquluzadə); **HƏVALƏ ETMƏK** [Əmiraslan ağa:] Qohroman qızım, babalarımız yurdunun müdafiosini sonə *həvalə edib*.. (S.S.Axundov); **İSMARLAMAQ** [Ana:] Nə çox rayon mərkəzinə gəlib-gedən, *ismarlaram*, gətirərlər (M.İbrahimov); **VARGÜZAR ETMƏK** Hacı Səlim öz sağlığında cəmi pul və əmlakını öz arvadı Sonəm xanıma *vargüzar edibdir* (Ə.Haqverdiyev).

I tar *bax* qaranlıq **1**

II tar *bax* qara **1**

taraqqa *bax* fişəng

tarantul *bax* böv

taraz *bax* bərabər **1**

tarçalan *bax* tarçı

TARÇI *Tarçı* şura gələr tarı görəndə; Tülək tərlan cumar sarı görəndə (M.Rahim); **TARÇALAN** Qurban tozə-tozə əlinə tar almağa başladığı zamanlar Qarabağda *tarçalan* Sadıq yaşayırdı (İ.Əfəndiyev); **TARZƏN** O *tarzənin* vurduğu xanalardan dərhal hiss etdi ki, Qurban Primovdur (Ə.Qasımov).

TARİXÇİ (*köhn.*) Yaroslavski yoldaş *tarixçidir* (M.Hüseyn); **MÜVƏRRİX** Asiya böyük mütəfəkkirlərdən Rumi, böyük şair Nəvai, *müvərrix* Əbülqazi Bahadır xan, Şərqdə ovvəlinci rəsədxana müəssisi münəccim Uluğbəyi vermişdir (Ə.Haqverdiyev); **TARİXNƏVİS** [Şah Abbas:] Fərraş göndər, Sərdar Zaman xanı, Mirzə Yəhyanı, Möhsün xanı, *tarixnəvis* İskəndər bəyi, Mollabaşını hüzuruma çağırsın (A.Şaiq); **TARİXŞÜNAS.**

tarixnəvis *bax* tarixçi

tarixşünas *bax* tarixçi

TARLA (*əkin sahəsi*) Yağ, ey yağış, yağ; Sulansın çöl, bağ; Susuzdur *tarla;* İnəyimi sağ (A.Şaiq); **ÇÖL** *Çöldə* qızğın biçin gedirdi (S.Rəhman); **ƏKİN YERİ** O yanları su basmış, *əkin yerləri* görünməz olmuşdu (M.Hüseyn); **PLANTASİYA** (*çay, tütün əkin sahəsi*) Ağacların qalın gövdələri arasından yaşıl tütün *plantasiyası* görünür.. (H.Seyidbəyli);

ZƏMİ Muğan səhraları bir tamaşadır; Buğda *zəmiləri* qoşa-qoşadır (S.Vurğun).
tarzan *bax* tarçı
tas *bax* ləyən
tatarı *bax* şallaq
tatarılamaq *bax* şallaqlamaq
TAUN (*tib.*) [Səkinə:] Xeyr, vəba və *taun* haramzadə kişilərin nadürüstlüyündəndir (M.F.Axundzadə); **ÇUMA** (*taşbih kimi də işlənir*) Ellər dedi: "Qazılsın qoy Hitlerin məzarı: Faşizm bir *çumadır* – məhv edək bu azarı" (M.Rahim).
tava *bax* qazan
tavan *bax* səqf
tavana *bax* var **I**
tavanalı *bax* varlı
tavanasız *bax* yoxsul
I. TAY Xasay bir oğlandır, ona *tay* hanı? (S.Vurğun); **BAB** Qızını ver ona, odur sənə *bab* (S.Ə.Şirvani); **BƏNZƏR** Böyüksən qüvvətin çoxdur; Bu geniş ölkədə *bənzərin* yoxdur (R.Rza); **BƏRABƏR** Hikmətdə sənə heç kim *bərabər* ola bilməz (M.F.Axundzadə); **MANƏND** (*kl.əd.*) Evdə tapılır indi dəxi çay, plov, qənd; Kimdir sənə *manənd!* (M.Ə.Sabir); **MİSL** Toxucu qızların mahir əlləri; *Misli* görünməyən gülşən yaradıb (M.Rahim); **TUŞ** Hər adamın tayı, *tuşu*, babı var ("Qurbani"); **QƏNİR** (*dan.*), **ŞƏBİH.**
2. tay *bax* yaşıd
I. TAYFA (*kiçik xalq*) [Divan bəy camaata:] Dəxi vaxtdır inanasınız ki, siz vəhşi *tayfa* deyilsiniz (M.F.Axundzadə); **EL** Deyirlər ki, qədim zamanlarda bu torpaqda bir *el* yaşarmış (M.İbrahimov); **QƏBİLƏ** (*məc.*) Bütün xalqlar, *qəbilələr* od içindən çıxacaqdır.. (S.Vurğun); **QÖVM** Tarixdən qabaq "matriarxlar" deyilən zaman arvadlar asudə olub bir xeyli də imtiyaza malik idilər, böyük-böyük ailələrdən ibarət *qövmləri* idarə edən arvad idı və bunların cəmi ixtiyarı arvadların əlində idı (Çəmənzəminli); **URUQ.**
2. tayfa *bax* qohum-əqrəba
tayqulp *bax* parç
taytaq *bax* axsaq, çolaq
taytamaq *bax* axsamaq
tay-tuş *bax* həmyaşıd
tazarat *bax* ziyan
TAZI *Tazıya* tut deyir, dovşana qaç (Ata. sözü); **OV TULASI** [Rəcəb:] Oğlu da diribaşdır, yaxşı *ov tulasıdır* (A.Şaiq); **OV İTİ.**
taziyanə *bax* **1.** şeir; **2.** şallaq
I 1. TEL, SAÇ, TÜK
2. tel *bax* məftil
3. tel *bax* ləçək **2**
II tel *bax* teleqram
telegörüm *bax* televizor
telekommunikasiya *bax* rabitə **1**
TELEQRAM İstəyirsiniz *teleqram* pulunu mən qabaqca verim (N.Nərimanov); **TEL** [Hacı Salman:] Hacı əmin sənə qurban, bu *teli* bir oxu (N.Vəzirov); **DEPEŞA.**
telerabitə *bax* rabitə **1**
televiziya *bax* televizor
TELEVİZOR Bir gün bizim patefon: Radioqəbuledən; Bir də ki, *televizor;* Mübahisə etdilər; hərə dedi özündən.. (M.Rzaquluzadə); **TELEGÖRÜM** Stadionda neçə min futbolbazı; Neçə yüz min də *telegörümdə* baxır; radioda qulaq asır (R.Rza); **TELEVİZİYA** Çay nohrə tərəf axan kimi maddiləşmiş, sərhədlənib qalıbsa, məcraya salınmış *televiziya* vaxtı qaçılmaz bir ləbüdlüklə saat yeddiyə doğru axırı – düz saat 7.00-ə efirə çıxacaqdılar (Anar).
tema *bax* mövzu
temp *bax* sürət
temperament *bax* ehtiras **1**
temperamentli *bax* ehtiraslı **1**
temperatur *bax* hərarət **1, 2**
1. TENDER, MÜRACİƏT, TƏKLİF
2. tender *bax* müsabiqə
ter *bax* xurcun
TERMİN Bugünkü Azərbaycan dilində işlədilən *terminlərin* bir hissəsi də rus dilindən, rus dili vasitəsilə başqa dillərdən gəlmişdir... (N.Məmmədov, A.Axundov); **İSTİLAH** Fars dilinin təsiri sayəsində türk *istilahlarını* itirib, fars *istilahlarını* işlətməyə ehtiyac olmuşuq (Ə.Haqverdiyev).

termometr *bax* hərarətölçən
TERROR [Rüstəm bəy:] Mənim eşitdiyimə görə, – dedi, – Ağabəyin Qafqazdan getməsinin səbəbi "Difai" məsələsi olmuş, çünki "Difai" *terror* gücü ilə zənginlərdən pul tələb etməyə başlamışdı (Çəmənzəminli); **TƏDHİŞ** (*köhn.*).
TERRORÇU, QƏSDÇİ, TERRORİST, TƏDHİŞÇİ
TERRORÇULUQ, QƏSDÇİLİK, TƏDHİŞÇİLİK
terrorist *bax* terrorçu
teyf *bax* kabus
tez *bax* əlüstü, tocili
TEZDƏN, ERKƏN Kənddə səhər *erkən* oyanmağa adət etmiş Çiçək, Neft Daşlarında da *tezdən* durdu (Ə.Qasımov); **ERTƏ(DƏN)** Sübh *ertə* oyanardı qarı; Durğuzar idi hamı xidmətkarı (A.Səhhot); **OBAŞDAN** Elə bil, səhər *obaşdan* işə getməyəcək (Ə.Qasımov); **SÜBHDƏN** [Aytəmiz:] Anamla *sübhdən* oyanıb həyəti süpürür, güllərə su verirdik (Ə.Qasımov); **ALAQARANLIQ** (*bax*).
TEZLİKLƏ [Şahbaz:] Qəm etmə, yaran yüngül yaradır. *Tezliklə* sağalarsan.. (S.S.Axundov); **BİR AZDAN** *Bir azdan..* qayalıqların başı qıpqırmızı işığa qərq oldu (S.Rəhimov); **ƏNQƏRİB** Vaqifin ağlına, kəmalına, şir danışqılarına bənd olub həmişəlik yanında saxlayıb, *anqərib* vəzirlik mənsəbini ona verir (Ə.Haqverdiyev); **TEZ BİR ZAMANDA, YAXIN GÜNLƏRDƏ, YAXIN ZAMANDA.**
TEZ-TEZ Əmi bir az tənəffüs edək, – deyə Nərgiz *tez-tez* otaqdan çıxırdı (S.S.Axundov); **İTİ-İTİ** Tramvay sürətini artırdıqca [Tahirin] də fikri *iti-iti* işləməyə başlayırdı (M.Hüseyn); **YEYİN-YEYİN** İkisi də qoşuldular tez xizəyə; Başladılar *yeyin-yeyin* yerimə yə.. (M.Rzaquluzadə); **SÜRƏTLƏ** (*bax*).
təamxana *bax* yeməkxana
təb *bax* **1.** ilham; **2.** xasiyyət
təbabət *bax* **1.** tibb; **2.** həkimlik
təbəə *bax* vətəndaş
təbəqə *bax* **1.** silk; **2.** qat **1**
TƏBƏSSÜM [Mahironin] qaşqabağı sallanmışdı, dodaqlarını və gözlərini bəzəyən *təbəssüm* yox olmuşdu (Y.Şirvan); **GÜLÜMSƏMƏ** Bumaşov gülümsədi. Bu *gülümsəmə* onun həmin şərtə razı olmadığını aşkar büruzə verdi (Çəmənzəminli); **QIMIŞIQ** Lakin onun gözündə sevinc dolu bir işıq; Rəngsiz dodaqlarında mehriban bir *qımışıq* (R.Rza); **GÜLÜMSÜNMƏ.**
təbib *bax* həkim **1**
təbiblik *bax* həkimlik
1. TƏBİƏT, NATURA [Yavər:] Qoyun *təbiət* özü sizin həkiminiz olsun, latınlar deyərdi: *natura* sanat madikus-kurat yəni təbiət müalicə edir, təbabət müşahidə (M.İbrahimov).
2. təbiət *bax* xasiyyət
I. TƏBİİ, ƏSİL, HƏQİQİ (*süni əksi*), **NATURAL**
2. təbii *bax* fitri
3. təbii *bax* normal
4. təbii *bax* şübhəsiz **2**
TƏBİL O biri gün şəhərin məhəllələrində şeypur çalınıb, *təbil* vuruldu (Çəmənzəminli); **BARABAN** Həvəskarlar oyanıb qurtardıqdan sonra orkestrin *barabanı* çalanını ortaya çıxartdılar (M.Hüseyn); **TİMPAN** (*tar.*).
TƏBİLÇİ, BARABANÇI, TƏBİLÇALAN
TƏBLİĞATÇI *Təbliğatçı* qadın Zeynəbi bu cür öyrədirdi (Qantəmir); **MÜBƏLLİĞ** [Ocaqqulu:] ..Hər zaman sənin silahdan da ötkəm olan *mübəlliğ* dilin rəvandır (S.Rəhimov).
1. TƏBRİK [Qulamrza:] Bu gün hər yerdə *təbriklə* qarşılaşmışam (Çəmənzəminli); **GÖZAYDINLIĞI** [Qumral:] Biz ki evimizə çatdıq, qohum-qardaş, qonşular xəbər tutub *gözaydınlığa* gəldilər (A.Şaiq); **MÜBARƏKBADLIQ** Sizin toyunuzun *mübarəkbadlığı* da doğma övladlarımızın xeyir işi kimi bizə xoşdur (Mir Cəlal).
2. təbrik *bax* salam **2**
təcavüz *bax* **1.** hücum; **2.** zorakılıq

TƏCAVÜZKAR, QƏSBKAR, TƏCAVÜZÇÜ

TƏCAVÜZKARLIQ, QƏSBKARLIQ, TƏCAVÜZÇÜLÜK

TƏCİLİ (*müxtəlif mənalarda*) Düz buyurursan, usta, – dedim. – Tez olun, yığışın gedək, *təcili* tədbir görək (M.Hüseyn); **ƏLİMYANDI** Vəlişlo Muxtar gün batandan sonra Hindarxına çatanda eşitdilər ki, İbrahim bəy darğanı *əlimyandıda* axtarır (Ə.Vəliyev); **TƏLƏSİK** Bunun iki səbəbi vardı. Biri o idi ki, yığıncağımız çox *tələsik* və səsli-küylü olmuşdu, ikinci də Sofa ilə bu barədə çox danışmışıq (M.İbrahimov); **DƏRHAL, FÖVRƏN, FÖVRİ, O SAAT, TEZ, TƏXİRSİZ** (*bax*).

1. TƏCRÜBƏ (*elmi təcrübə, sınaq və s.*) [Toğrul:] Srağagün *təcrübə* aparır, mən də baxıram (C.Cabbarlı); **EKSPERİMENT** [Professor:] Bu *eksperimenti* mütləq bir də keçirmək lazımdır (H.Abbaszadə); **SINAQ** (*bax*).

2. TƏCRÜBƏ Dur *təcrübənizdən*.. danış.. (M.İbrahimov); **SƏRİŞTƏ** [Zübeydə:] Ticarətdə *səriştəsi* var, dövləti var (M.F.Axundzadə).

3. TƏCRÜBƏ, PRAKTİKA Bizim Müdhət sizin şöhrə *praktikaya* gəlir (C.Məmmədquluzadə).

TƏCRÜBƏLİ (*təcrübəsi olan adam*) [Vəliş:] *Təcrübəli* adamın səhvi az olur (Ə.Vəliyev); **BİŞKİN** Pirəli xeyli *bişkin;* Ehtiyatlı adamdı (M.Rahim); **BİŞMİŞ** Amma Mürsəl *bişmiş* adam idi (Anar); **KAMİL** Maşallah, nə yaxşı qabilsən; Bağçabanlıqda xeyli *kamilsən* (A.Səhhət); **PRAKTİK** Nalbənd Məşədi Qulu bir *praktik* kişi olduğu üçün arvadına deyərdi.. (T.Ş.Simurğ); **SƏRİŞTƏLİ.**

TƏCRÜBƏSİZ, NAŞI (*bax*), **SƏRİŞTƏSİZ**

TƏCRÜBƏSİZLİK, NAŞILIQ (*bax*), **SƏRİŞTƏSİZLİK**

tədarük *bax* ehtiyat

tədavi *bax* müalicə

TƏDBİR [Mahmud bəy:] İnan, baş tutarsa qurduğum *tədbir;* Adam sayılarsan, oqlinə vur bir (S.Rüstəm); **BİNAGÜZARLIQ** (*köhn.*) [Aslan bəy:] Sən dürüst arxayın ol və oğlunun barəsində *binagüzarlıq* nə tövr sənin kefin istəsə.. (N.Vəzirov); **ƏLAC** Dər: – Qanda bulum *əlacın,* ey yar? Kimdən yeto ehtiyacım, ey yar? (Xətayi); **ÇARƏ, ÇIXIŞ YOLU, ƏNCAM.**

tədhiş *bax* terror

tədhişçi *bax* terrorçu

tədhişçilik *bax* terrorçuluq

TƏDRİCƏN ..ciddi iztirablardan sonra Əbiş *tədricən* öz mühakiməsini itirmək üzrə idi (S.Rəhimov); **TƏDRİCİ** [Gülnisə:] İstəsəm bu saat hər ikisini evdən çıxarram, amma iş *tədrici* lazımdır (C.Cabbarlı); **TƏDRİCLƏ** [Solimə:] Və onların sayı *tədriclə* artırılır (İ.Əfəndiyev); **YAVAŞ-YAVAŞ** Əlbəttə, bu hisslər onun ürəyində anadangəlmə deyildi. Birdən-birə yox, *yavaş-yavaş,* tədriclə böyümüş, artmışdı (M.İbrahimov).

tədriclə *bax* tədricən

TƏDRİS Atamın özünəməxsus bir *tədris* üsulu var idi (Çəmənzəminli); **TƏLİM** Vah... bu imiş dərsi-üsuli-cədid?! Yoo...x! Yoo...x! Oğul, məktəbi-üsyandı bu! Molla deyil bundakı *təlim* edən! (M.Ə.Sabir); **DƏRS** (*bax*).

TƏƏCCÜBLƏNDİRMƏK [İnci:] Sizin kimi mədəni adamın ağzından belə sözlər eşitmək məni *təəccübləndirir* (S.Rəhman); **MÜTƏHƏYYİR ELƏMƏK/ETMƏK** Bu səda bizi lap *mütəhəyyir elədi* (C.Məmmədquluzadə); **HEYRƏTLƏNDİRMƏK, HEYRƏTƏ SALMAQ.**

TƏƏCCÜBLƏNMƏK Ceyran tez gəldi. Rəfiqəsini belə həyəcanlı görüb *təəccübləndi* (X.Hasilova); **HEYRƏTLƏNMƏK** [Bahadur:] Məni hara aparırsan? – *heyrətləndi* (R.İbrahimov); **TƏƏCCÜB ETMƏK/ELƏMƏK.**

təərrüz *bax* hücum

təəssüb *bax* **1.** qeyrətkeş; **2.** namus.

təəssübçü *bax* təəssübkeş

1. TƏƏSSÜBKEŞ [Leylək:] Göydəki bir tanrı bilir ki, mən neco *təəssübkeşəm,* özüm də bu qapıdakı sarv ağacı kimi nə təhər düzəm? (S.Rəhimov); **FANATİK** Onun ["Molla Nəsrəddin" jurnalı] ünvanına Qarabağ bəyləri və Dağıstan *fanatikləri* hədəli məktublar göndərirdilər (Anar); **MÜTƏƏSSİB** Ana *mütəəssib* deyil, nikbindir (Çəmənzəminli); **TƏƏSSÜBÇÜ.**

2. təəssübkeş *bax* qeyrətkeş

1. TƏƏSSÜBKEŞLİK, FANATİZM, MÜTƏƏSSİBLİK

2. təəssübkeşlik *bax* qeyrətkeşlik

TƏƏSSÜF, ƏFSUS (*bax*), **HEYF**

TƏƏSSÜRAT Arabir silinir izin şimaldan; Coşqun çaya dönür *təəssüratın* (M.Rahim); **İNTİBA** Lakin bu yalnız ilk *intibadır* (M.Hüseyn).

TƏFAVÜT [Porviz xan:] Bir də siz cənab nə üçün ağa ilə nökərə *təfavüt* qoymursunuz? (M.S.Ordubadi); **FƏRQ** Foqot ikisinin məhəbbətində bir az *fərq* var idi (N.Nərimanov).

təfsilən *bax* hərtərəfli; ətraflı

təfsilli *bax* ətraflı

təfsir *bax* izah

təftiş *bax* nəzarət

təftişçi *bax* **1.** nəzarətçi **1**; **2.** müfəttiş

təhdid *bax* **1.** hədə; **2.** qorxu

təhəmmül *bax* səbir **1**

təhər *bax* üsul

TƏHLİL, ANALİZ Şəmxor məmləkətinə göldikdə buranın torpağına gərək diqqət edək və bu torpaqdan bir az nümunə götürək və coğrafi, tarixi laboratoriyada o torpağın *təhlililə* məşğul olaq görək bizim bu *analiziniz* nəyi göstərir və nə nəticə verir (C.Məmmədquluzadə).

TƏHLÜKƏ [Xaco:] Padşah, nə qədər ki, onlar sağdır, sizi *təhlükə* gözləyir (A.Şaiq); **XATA** (*dan.*) [Kəndlilərdən biri:] Əgər əlimizdən *xata* da çıxsa, biz elə eləmərik ki, bir yad adam bizim işimizdən xəbərdar olmasın (C.Məmmədquluzadə); **XƏTƏR** Yaxşı ki, yolda xətər təxunmayıb (X.Hasilova); **UÇURUM** Yolumda zülmət var, *uçurumlar* var (Ə.Cavad); **VƏXAMƏT** (*köhn.*) [Sitaro:] Gün-gündən halım kəsbi-*vəxamət* edir (A.Şaiq); **VƏRTƏ** Boz at, səni sər tövlədə bağlaram; Əgər bizi bu *vərtədən* qurtarsan ("Qaçaq Nəbi"); **XATA-BALA, FACİƏ** (*bax*), **QƏZA** (*bax*).

TƏHLÜKƏLİ (*qorxusu olan, təhlükəli olan*) Onda bir arxayınlıq hasil olurdu. Çünki *təhlükəli* an keçmişdi (M.İbrahimov); **XATAKAR** Lakin çin nazirləri, kraliçənin yaxın adamları – acı meyvəli azman ağacın bu acı rişələri öz mövqelərini saxlamaq və onlar üçün əlverişli olan dövlət üsulunun təxunulmazlığını qorumaq məqsədilə imperatriçəni inandırmağa başladılar ki, *xatakar* şeytan onun oğlunu yoldan çıxartmışdır.. (C.Məmmədquluzadə); **XATALI** Görünür mən də nahaq yerə belə *xatalı* işə boyun qoymuşam (M.İbrahimov); **XƏTƏRLİ** [Porviz:] Lakin toyuq-cücə olan yerdə bu *xətərlidir,* ona görə də başqa tədbirlərə əl atırlar (M.İbrahimov); **XƏTƏRNAK** Qeyboli belə bir şübhəyə görə təfsilatı bilmək, bu şübhəli, *xətərnak* Tavakalı olduğu kimi görmək məqsədi ilə öz sorğu-sualından qalmırdı (S.Rəhimov).

TƏHRİK (*sözlə və ya başqa şirniklərdirici vasitələrlə birini bir iş görməyə vadar etmə, sövq etmə*) Lakin heç bir sənət insanı oxlaqın *təhrikindən* və oqidələrin təsirindən qurtara bilməz (M.İbrahimov); **TƏŞVİQ** Klassiklərimizin yaradıcılığı üzərində uzun illər tədqiqat aparmış akademik H.Araslı, görkəmli alim Ə.Seyidzadə, filoloji elmlər doktoru M.Quluzadə və başqalarının Nəsimiyə, onun poeziyasına, fəlsəfi görüşünə həsr edilmiş məqalə və kitabları ədəbiyyatşünaslığımızda gərəkli səhifələr kimi, Nəsimi irsinin təhlil-tədqiq və *təşviqində* mühüm töşəbbüslərdir (R.Rza).

təhriri *bax* yazılı

1. TƏHSİL, MAARİF, SAVAD

2. təhsil *bax* dərs

təxəllüs *bax* ləqəb

təxəyyül *bax* xəyal **1**

TƏXİRSİZ Fəxrəddin, əlahəzrətin bu şiddətli sualından heç də özünü itirmədi, çox *təxirsiz* bir surətdə verib dedi... (M.S.Ordubadi); **BİLATƏXİR** [Əşrəf bəy:] Təvəqqe eləyirəm, *bilatəxir* toşrif aparasız (N.Vəzirov); **DƏRHAL, İSTİ-İSTİ.**

təxminən *bax* təqribən

təxt-rəvan *bax* kəcavə

I tək *bax* **1.** təkcə; **2.** yalnız

II tək *bax* dib

təkanlamaq *bax* itələmək **1**

TƏKCƏ, ANCAQ, BİR, BİRCƏ, TƏK, YALNIZ, YEGANƏ

təkallahlılıq *bax* monoteizm

təkə *bax* dibir

təkəbbür *bax* **1.** mənəmlik; **2.** lovğalıq

təkəbbürlənmək *bax* lovğalanmaq

təkəbbürlü *bax* lovğa

təkəbbürlülük *bax* lovğalıq

TƏKƏR (*tex.*) Muncuqlanır, düzülür; soldatın alnında tor; Yerdən qopmayır *təkər* (R.Rza); **ÇARX** Qatar Biləcəri stansiyasından Bakıya hərəkət etdiyi zaman parovozun verdiyi fit, *çarxların* taqqıltısı onun qulaqlarında ən ahəngdar bir musiqi kimi səslənirdi (A.Şaiq).

təkəş *bax* ədabaz

TƏKİD Tellonun *təkidinə*, Alonun acıqlanmasına baxmayaraq, Gülsənəm özünü kənara çəkib dayandı (S.Rəhimov); **İSRAR** Ananın *israrına* baxmayaraq on gün evdən çölə çıxmadı (Çəmənzəminli).

təklik *bax* tənhalıq, yalqızlıq; birlik **2**

TƏKNƏ (*xəmir yoğurmaq üçün işlədilən dərin iri qab*) Telli durub *təknədən* bir təndır çörəyi çıxartdı (Çəmənzəminli); **TABAQ** Həmid yağlı barmaqlarını *tabağın* üstünə salınmış qar kimi ağ dəsmala sildi (H.Abbaszadə).

təkrar *bax* təzədən

I TƏKYƏ Odur ki, hər bir toya, təziyəyə, *təkyəyə* adam çağırmaq lazım olsa, bunu da Hacı Tağıya tapşırırlar (Ə.Haqverdiyev); **ZAVİYƏ** [Əli:] ...*zaviyələrə* gedər, rahiblərin həyatını öyrənməyə çalışardı (Çəmənzəminli).

II təkyə *bax* **1.** söykənəcək; **2.** məhəccər

təqaüd *bax* **1.** pensiya; **2.** stipendiya

təqaüdçü *bax* pensiyaçı

təqaza *bax* tələbat

TƏQRİBƏN *Təqribən* 200 il bundan əvvəl (1760-cı il) Ağa Məhəmməd şah Qacar (1742-1797) İran taxt-tacına sahib olan kimi iyirmi mindən artıq əhalisi olmayan Tehranı özünə paytaxt seçdi (M.Hüseyn); **TƏXMİNƏN** Aradan *təxminən* bir saat keçmiş günəşin son zərrələri üfüqdən qaib olduqda, qızıl inək darvazanın ağzında elə bir böyürtü salır ki, sanki imdad bəkləyən bir gomi bağırır (S.S.Axundov); **TƏXMİNİ OLARAQ, TƏQRİBİ OLARAQ.**

təqsir *bax* günah

təqsirkar *bax* günahkar **1**; təqsirli

təqsirləndirmək *bax* günahlandırmaq

TƏQSİRLİ, GÜNAHKAR (*bax*), **TƏQSİRKAR**

TƏQSİRNAMƏ, İTTİHAMNAMƏ

təqsirsiz *bax* günahsız

təqsirsizlik *bax* günahsızlıq

TƏQVİM O, qarşısındakı *təqvimə* baxıb əlavə etdi, bu gün ayın iyirmisidir (Ə.Qasımov); **KALENDAR** Divarımdan asılan *kalendardan* hər gecə; Bir döyüş və bir zəfər yarpağını cırıram (S.Rüstəm).

təlaş *bax* təşviş

təlatümlü *bax* coşqun **1**

1. TƏLƏ [Pərviz:] Atamın göstərdiyi kimi *tələ* düzəltdik (M.İbrahimov); **CƏLƏ** Sərçə tutmaq üçün heç *cələ* də lazım gəlmirdi (S.S.Axundov); **ÇƏRTMƏ** *Çərtməyə* düşdü alaqanad quşu; Çərtmə o saat elədi bənd quşu (R.Əfəndiyev); **DAM** (*kl.ad.*) Kimsə məni aldadamaz *dam* ilə (R.Əfəndiyev); **DUZAQ** Tülkü iki dəfə *duzağa* düşməz (Ata. sözü); **TOR** Bu sözü ağızda deyərkən, sonra; Qoflətən olub düşdü göyərçin *tora* (R.Əfəndiyev).

2. tələ *bax* hiylə

TƏLƏBAT, EHTİYAC [Şakir:] Bildilər ki, bir şeyə *ehtiyacı* var, xahişsiz-filansız düzəldilər (M.İbrahimov); **HACƏT** Sara cavabında; Cihaza nə *hacət*, sonin eşqini mən öz qəlbimlə ölçə bilərəm" – deyirdi (A.Şaiq); **İCAB(ATİYYƏT)** Lisanı zamanın *icabatiyyatından* olaraq əksi-sinif şairlərinin lisanı olmaqla bərabər, mənadakı qüvvət, hekayədəki "icad və hərəkət", hər şəxsi təbii lisanı ilə danışdırmaq, söylədikləri sözləri və eşitdiklori hərəkətləri ilə onun bütün övsafi-fariqəsini göstərərək bir tip yarada bilmək çox az sənətkara nəsib olmuş nemətlərdəndir (A.Şaiq); **İQTİZA** Hala məgər *iqtizayi* dövran; Oldur ki, ola o gonc pünhan (Füzuli); **İSTƏK** Mədinənin bu *istəyinə* baxmayaraq, nə Rasim tələsir, nə də Yavər onu buraxmaq istəyirdi (M.İbrahimov); **TƏQAZA** [Mostəli şah:] Əvvələn, o səbəbə ki, mən buyururam, ikinci o səbəbə ki, axmaqdırlar və təbiətlərinin *təqazasıdır* (M.F.Axundzadə); **İDDİA, TƏLƏB.**

TƏLƏBƏ (*ali və texnikumda oxuyan adam*) Əhməd *tələbə* vaxtı qruplarında olan yoldaşlarından heç nə ilə seçilmirdi (H.Abbaszadə); **STUDENT** (*köhn.*) *Studentik*, mey içib məst olarıq; Hər gecə bir qıza pəbəst olarıq (A.Səhhot); **TALİBƏ** (*qız tələbə*).

1. TƏLƏBKAR (*çox ciddi və tələbkar olan*) [Cövdət:] [Əkinçizadə] lakin çox *tələbkardır;* istəyir ki, dissertasiyam sanballı çıxsın (H.Abbaszadə); **CİDDİ** [Vahid:] Anam çox sərt, *ciddi* idi (B.Bayramov); **ZABİTƏLİ** Qız da nə isə başqa milis işçilərindən bir az seçilən bu *zabitəli* oğlana baxıb gülümsündü (H.Seyidbəyli).

2. tələbkar *bax* iddiaçı

tələfat *bax* ölüm

TƏLƏFFÜZ (*dilç.*) (*səsləri ağız vasitəsi ilə söz şəklinə salma; sözü demə tərzi*) Orta sıra səslilərinin *tələffüzü* zamanı dilin ön və arxa hissəsi sərt damağa doğru qalxır (N.Məmmədov, A.Axundov); **İNTONASİYA** *İntonasiya* cümlələrdə o qədər incə emosional münasibətlər yaradır ki, heç bir formal qrammatik vasitə həmin münasibətləri o şəkildə yarada bilməz (Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov); **DİKSİYA.**

TƏLƏSİK Muzdur Vəli *tələsik* qapıdan çıxdı, qaranlığın içində itdi (M.İbrahimov); **ATÜSTÜ** *Atüstü* olsa da qısa bir söhbət; Dönür unudulmaz bir xatirəyə (S.Vurğun); **AYAQÜSTÜ** [Bərbərzadə:] *Ayaqüstü* bura baş çəkib evə qayıtdım (S.Rəhman); **DABANBASA** Sənəm, səsəmi goldin? *Dabanbasamı* goldin? (A.Şaiq); **DABANBASARAQ** Kimi evə yüyürdü, kimi də *dabanbasaraq* küçəyə qaçırdı (S.Şamilov); **ƏLÜSTÜ** Bu cavabı verib, Məhəmmədhəsən əmi *əlüstü* getdi həyətə (C.Məmmədquluzadə); **DARMACAL** (*dan.*) (*çox tələsik*); **TƏCİLİ** (*bax*).

təlx *bax* acı

təlxək *bax* hoqqabaz **1**

təlxəklik *bax* hoqqabazlıq **1**

1. təlim *bax* tədris

2. təlim *bax* məşq

TƏLİMAT Müəllimlər onu məhəbbətlə qarşıladılar, Xasaya lazım olan *təlimatı* verdilər (A.Şaiq); **DƏSTUR** (*köhn.*) Sulduz xan konsuldan və Sərdar Rəşidin aldığı *dəstura* görə, müharibə zamanı Helminin dəstəsini arxadan vuracaq.. (M.S.Ordubadi); **DƏSTURÜLƏMƏL** (*köhn.*) Xavərnisə gah bayıra çıxır, gah evə daxil olurdu və işə məşğul olan arvadların söhbətində ara-sıra iştirak edir və bəzən onlara *dəsturüləmal* verirdi (T.Ş.Simürğ); **GÖSTƏRİŞ** [Əbülhəsənov:] Təlimatda, *göstərişdə* ayrı şeylər də yazılıb (Ə.Vəliyev); **TƏLİMNAMƏ** Direktor zəngi basıb, hesabdardan *təlimnaməni* istədi (Mir Cəlal).

təlimnamə *bax* təlimat

təll *bax* tənə **1**

TƏMAS (*qarşılıqlı münasibət*) Elsevərin halı pisləşdi. O, Adilənin *təmasından* daha da həyəcanlandı (Ə.Qasımov); **MƏHƏBBƏT** Ta Kərbəlayı Heydər ölən günə kimi bu rəfiqələrin *məhəbbəti* və rəfaqəti bir tük qədəri də pozulmadı (C.Məmmədquluzadə); **ÜNSİYYƏT** *Ünsiyyət* istəyən yolunu tapar; Məsləhət bilməz, olarıq çapar (M.Rahim).

təməddün *bax* mədəniyyət

təməl *bax* bünövrə

təməllüq *bax* yaltaqlıq

təmənna *bax* arzu; xahiş
təmassük *bax* veksel
1. TƏMİNAT, MADDİ VƏSAİT, YARDIM
2. təminat *bax* zəmanət
1. TƏMİZ, PAK (*müxtəlif mənalarda*) Fərman gözəl, qoçaq, iş bacaran və şəhərin cavanları arasında sayılan, yoldaşlıqda möhkəm, dost yolunda var-yoxundan keçən və atası kimi *təmiz, pak* qəlb bir oğlan idi (Ə.Haqverdiyev); **ARİ** (*köhn.*) [Nazlı:] ..adamın Allahı var, pis deyil, gül kimi təmiz uşaqdır, aydan *arı*, sudan duru (Anar); **ASİMANİ** (*göy kimi təmiz*) [Qətibə:] Çünki şair mənim qeyd etdiyim *asimani* və nümunəvi kişilərdəndir (M.S.Ordubadi); **LƏKƏSİZ** İndi mənim seçim bənzər bir *ləkəsiz* aynaya; Öz eybini görər gənclik yaxşı baxsa oraya (S.Rüstəm); **MÜQƏDDƏS** (*məc.*) Coşdu könlümdə *müqəddəs* əməlim (S.Rüstəm); **NƏCİB** (*məc.*) Bəsləyirəm mən səni *nəcib* əməllərimlə (S.Rüstəm); **PAKİZƏ** Aldanma, fəqirin olamaz oğlu, zəkası; Çün yoxdur onun sən kimi *pakizə* libası (M.Ə.Sabir); **SAF** Uca yaşıl dağların soyuq və *saf* bulaqlarından içən bu adam ürəyindəki kədərin tütəyin canlı dili ilə aləmə yaymaq istəyirdi (S.Rəhimov).
2. təmiz *bax* səliqəli
3. təmiz *bax* ülvi **2**
4. təmiz *bax* xalis **1**
1. TƏMİZLİK (*müxtəlif mənalarda*) Etiraf – cəsarət, etiraf – hünər; Etiraf – *təmizlik*, paklıq, ucalıq! (B.Vahabzadə); **PAKLIQ** [Mirzə Mahmud:] "Yanıram, tövbə və istiğfar eləyirəm, keçmişki *paklığımı* geri qaytara bilmirəm.." (Çəmənzəminli); **MÜQƏDDƏSLİK, SAFLIQ.**
2. təmizlik *bax* səliqəlilik
1. TƏMİZLƏMƏK Bir yanda da bəziləri tüfəngini silib *təmizləyir*, bəziləri də tüfənglərini başlarının altına qoyub uzanmışdı (S.Rəhimov); **PAK ELƏMƏK/ETMƏK** Məsumə hər şeyi ikiqat böyüdən eynəyinin altından baxıb düyünün içindəki sılıfı, xırdaca daşları aydın görür, diqqətlə arıtlayırdı.. (B.Bayramov); **TUMARLAMAQ** [Vahid:] O yenə də makinadan əl çəkə bilmir, hey ora-burasını *tumarlayırdı* (B.Bayramov).
2. TƏMİZLƏMƏK Güləbətin hacının otağını *təmizləyib* qurtaran kimi xanım ona tapşırıq verdi... (M.İbrahimov); **SİL-SÜPÜR ELƏMƏK/ETMƏK** [Qəndab] Sobanı söküdüm, atam öləndən bəri bağlı qalan otağın qurumunu aldım, *sil-süpür elədim* (B.Bayramov); **SAHMANLAMAQ, SƏLİQƏ YARATMAQ.**
təmizürəkli *bax* safürəkli
təmkin *bax* **1.** vüqar; **2.** səbir **I**
təmkinli *bax* **1.** vüqarlı; **2.** ciddi; **3.** səbirli
təmkinsiz *bax* səbirsiz
təmsil *bax* **1.** təşbeh; **2.** dram
təmsilat *bax* dram
təmtəraq *bax* dəbdəbə
təmtəraqlı *bax* dəbdəbəli
I tən *bax* bərabər **1, 2**
II tən *bax* bədən
tənbeh *bax* **1.** məzəmmət, danlaq; **2.** cəza
TƏNBƏKİ [Tağı:] İlanın zəhərindən başqaları öldüyü halda, ilan özü *tənbəkinin* qırından zəhərlənib tələf olur (S.S.Axundov); **TÜTÜN** [Balaca:] Qabaqlar *tütün*, tənbəki iyindən zəhləm gedirdi, indi qəlyan əlimdən düşmür (H.Abbaszadə); **MAXORKA** Həmid axşamlar ya Volqanın sahilində olur, ya da evlərinin qənşərində yığışıb *maxorka* fısqırda-fısqırda domino oynayan qonşu kişilərə tamaşa eləyirdi (H.Abbaszadə).
TƏNBƏL Çox yatma, dur, a *tənbəl*; Yatsan olar iş ongəl (A.Səhhət); **ATİL** (*köhn.*) Xatirindən sil o mövhumatı; Ki, edibdir səni tənbəl, *atil* (A.Səhhət); **ƏRİNCƏK** Şişman məmur uzun bir sükutdan sonra *ərincək* halda ağır-ağır sözə başladı (M.Hüseyn); **KAHAL** (*dan.*) [Qaragöz:] Elə bilirsiniz ki, müalicə işinə təkcə siz *kahalsınız* (Mir Cəlal); **KÜR.**
TƏNBƏLLİK [Prokuror:] Görünür hələ *tənbəllikdən* yaxamızı qurtara bilməmişik (B.Bayramov); **ƏTALƏT** [Firəngiz:] Bu *ətalət* heç vaxt özbaşına əl çəkib getməz (B.Bayramov); **KAHALLIQ** Demə fərraşların *kahallığından* yolda dustaqların biri əkilibmiş (M.N.lot.); **ATİLLİK, ƏRİNCƏKLİK.**
təndürüst *bax* sağlam
tənə *bax* danlaq, məzəmmət
tənələmək *bax* məzəmmətləmək
tənəffür *bax* nifrət **1**
1. TƏNƏFFÜS, NƏFƏSALMA, NƏFƏSVERMƏ
2. tənəffüs *bax* fasilə
tənək *bax* meynə
tənəkqurdu *bax* meynəqurdu
tənəzzöh *bax* səyahət
təng *bax* dar **3**
TƏNGNƏFƏSLİK (*tib.*), **ASTMA, SİNƏGİR, SİNƏGİRLİK**
1. TƏNHA Burda bir dalğalandı; Bir də *tənha* qayalar (Ə.Cəmil); **KİMSƏSİZ** Səməd.. *kimsəsiz* tarlalara baxdıqca üroyi sıxılırdı (İ.Hüseynov); **ADAMSIZ.**
2. tənha *bax* yalqız
TƏNHALIQ Burada bu *tənhalıq* içində də qara gözlər onu təqib edirdi (M.Hüseyn); **TƏKLİK** [Qoca:] *Təklik* yaman dərddi, Həmid, Allah heç bəndəsinə qismət eləməsin (H.Abbaszadə); **VƏHDƏT** Vadiyi-*vəhdət* həqiqətdə məqami-eşqdir (Füzuli); **YALQIZLIQ** [Tamarin:] Çünki mən bu nəğməni dinlərkən öz *yalqızlığımı* xatırlayıb sıxılıram (M.Hüseyn); **VƏHŞƏT.**
TƏNQİDÇİ Həmin bu məşhur *tənqidçi*, uzun müddət Səbrinin yazdığı əsərləri dinləyənlər üzünə həsrət qoydu... (M.Hüseyn); **MÜNƏQQİD** (*köhn.*) Böyük rus *münəqqidi* və filosofu Belinski deyərdi ki, naturadan yazmaq azdır və hər naturadan yazılan əsər sənət əsəri olmur... (M.İbrahimov).
TƏNLİK (*riyaz.*) Xətti *tənliklər* sistemini həll edib, araşdırmaq üçün ali əbrdə matrislər və determinantlar nəzəriyyəsindən geniş istifadə edilir (M.Əkbərov); **MÜADİLƏ** Ali dərəcəli *müadilələrin* qrafik vasitələrlə həll yollarını bura əlavə edib xüsusi cədvəllər hazırlayaraq bu kitabı xeyli təkmilləşdirdi (M.İbrahimov).
təntənə *bax* **1.** dəbdəbə; bayram **1**; **2.** qələbə
təntənəli *bax* dəbdəbəli
tənumənd *bax* boy-buxunlu
tənzif *bax* cuna
1. TƏPƏ Xəstə üçün *təpəsində* qar olur; Hər cür çiçək açır laləzar olur... (Aşıq Ələsgər); **BAŞ** Elə ki çən goldi qaraldı qaşı; Dumana qərq oldu dağların *başı* (Aşıq Ələsgər); **KƏLLƏ** Ay get-gedə qarşıdakı uca dağın *kəlləsinə* sancılıb gizlənməyə başlayırdı (H.Nəzərli); **TƏLL** (*ərz.*) [Coğərqulu xan:] Qardaş, buyur bu *təllin* üstünə çıx (Ə.Haqverdiyev); **ZİRVƏ** Dağsan ucadan-uca; Qartallar uça-uça; Süzüb *zirvənə* qonmaz (M.Rahim); **PİK** (*coğr.*) (*sivriuclu dağ zirvəsi*).
2. təpə *bax* baş **1**
təpəcik *bax* tirə
təpər *bax* qeyrət **1**
təpik *bax* şillaq
təpikləmək *bax* şillaqlamaq
1. TƏPİLMƏK, BELLƏNMƏK
2. təpilmək *bax* dürtülmək
təpinmək *bax* acıqlanmaq **1**; qəzəbtmaq **1**
1. TƏPİŞDİRMƏK, DOLDURMAQ (*əllə basaraq*)
2. təpişdirmək *bax* yemək **1**
təpişmək *bax* girmək **1**
I TƏPMƏK, BELLƏMƏK
II təpmək *bax* soxmaq
I TƏR, SU (*bədəndən axan su*)
II tər *bax* təzə
təranə *bax* mahnı
1. TƏRBİYƏ [Canpolad:] Çünki bu həyatın içərisində *tərbiyə* tapmış xalqı istismar etmək üçün çox çətindir (M.S.Ordubadi); **ƏDƏB** Hərəkətdə olur *ədəb* məlum; Qövlü göftardan olur məfhum (S.Ə.Şirvani); **NƏZAKƏT** Qayğı və nəzakət içərisində böyümüş zərif bədən ağır işlərə davam etmədi (T.Ş.Simuğ); **QANACAQ** (*bax*), **MƏRİFƏT.**
2. tərbiyə *bax* oxlaq
TƏRBİYƏÇİ Ağlı söz kəsəndən bəri ana nəvazişini *tərbiyəçilərdə* görən... Budaq... ata və ana haqqında düşünürdü (Ə.Vəliyev);

DAYƏ Odur ki, Ağaboyim səhərdən *dayəsindən* ayrılmamışdı (Çəmənzəminli); **XOCA** (*köhn.*) [Müəllim:] Birisinin *xocası* siz analar, o birisinin xocası biz müəllimlər (A.Şaiq); **LƏLƏ** (*köhn.*) Hacı Səmsam.. başqa mülkədarlar kimi oğlu üçün *lələ* saxlamırdı (A.Makulu); **MÜRƏBBİ** (*köhn.*) Ehtiyac onun beşiyi, səfalət onun *mürəbbisi*, bədbəxtlik onun nəsibi və həyat yoldaşıdır (M.İbrahimov); **MÜRƏBBİYƏ** (*köhn.*) Ağca xanım bu səs-küyə *mürəbbiyəsindən* izinsiz bayıra çıxdı (S.S.Axundov); **UŞAĞABAXAN** [Veysəl:] O *uşağabaxan* arvad buradadır, ya getdi? (B.Bayramov).

TƏRBİYƏLİ, NƏZAKƏTLİ [Balaş:] Halbuki siz deyirsiniz ki, o *tərbiyəlidir, nəzakətlidir* (C.Cabbarlı); **ƏDƏBLİ** Vaqiən Qasım əmi çox *ədəbli* və söz eşidəndi... (C.Məmmədquluzadə); **ƏDİB** (*kl.ad.*) Necə kim bir *ədibi*-mümtazın; Dərsi-hikmət ədası tərbiyədir (M.Ə.Sabir); **AĞILLI** (*məc.*) **ƏXLAQLI, QANACAQLI** (*bax*), **MƏRİFƏTLİ.**

TƏRBİYƏSİZ (*müxtəlif mənalarda*) Loğalanıb, a görməmiş, çox da belə fırıldama; *Tərbiyəsiz* uşaq kimi boş-boşuna hırıldama (M.Ə.Sabir); **BİTƏRBİYƏ** Amma İmamverdi Əmiraslanın oxumayıb belə *bitərbiyə* qalmasından artıq narazı idi.. (S.S.Axundov); **BİTƏRBİYƏT** Elmimiz kimsənə hünərsizdi; Elmi-*bitərbiyət* sərsərəsizdir (S.Ə.Şirvani); **ƏDƏBSİZ** Ey üzü qarə, füzul, *ədəbsiz*; Heç bildiniz nədir ədəb siz (Xətayi); **ƏXLAQSIZ** Səni sevdiyim üçün mənə axlaqsız deməyin nəzakətsizlikdir (M.S.Ordubadi); **NƏZAKƏTSİZ** Mən, ilk baxışda *nəzakətsiz* görünən bu sadə insanların yaratdığı xariqələri gördükcə öz-özümə deyirdim: "Yox, bütün dünyanı bəzəyən .. onlardır" (M.Hüseyn); **BİƏDƏB, KÜSTAX.**

TƏRBİYƏSİZLİK [Dilbər:] Özgə, özgə, belə sözlər demə *tərbiyəsizlikdir* (C.Cabbarlı); **BİTƏRBİYƏLİK** *Bitərbiyəlikdə* tiflimosum; Axırda olur səfilə məşum (M.Ə.Sabir); **BİƏDƏBLİK, ƏDƏBSİZLİK, ƏXLAQSIZLIQ, KÜSTAXLIQ, NƏZAKƏTSİZLİK.**

tərcüman *bax* tərcüməçi

TƏRCÜMEYİ-HAL [Qeysər öz-özünə:] Hidayətin *tərcümeyi-halı* oxunacaq, onun pəxırı açılacaq... (M.Hüseyn); **AVTOBİOQRAFİYA** [Qüdsinin] "Gülüstani-İrəm"ə olavə olaraq yazdığı *avtobioqrafiyasından* görürük ki, Qüdsi şerini divan şəklinə salmaq fikrində imiş, lakin bu iş yarımçıq qalmışdı (Çəmənzəminli); **BİOQRAFİYA.**

TƏRCÜMƏÇİ Son illərdə bizdə bacarıqlı *tərcüməçilər* dəstəsi yaranmışdır (M.Arif); **DİLMANC** (*köhn.*) Nəçornik onun [Məmmədhəsən əminin] üstünə çığırıb qovdu kənara və rusca atlılara dedi ki, içəridən *dilmancı* çağırsınlar (C.Məmmədquluzadə); **MÜTƏRCİM** Və saniyən, bir para əlfaz və idarələri cənab mütərcim eyni ilə rusdan türk lisanına tərcümə etmələri ilə əsil mənanı dolaşdırıb çətinə salıbdır və bir neçə yerlərdə kəlamdan əsla mənə çıxmayıb (F.Köçərli); **TƏRCÜMAN** (*köhn.*) Bilirdi xahişi *tərcümən* yenə; Əməl elədimi, istəklərinə (M.Rahim).

tərə *bax* pəncər

1. TƏRƏF Örtük altındakı maşınlardan biri səssiz-səmirsiz yerindən tərpəndi, dayanmış maşınların sırasından çıxıb tələbəyə *tərəf* yönəldi (Anar); **CƏHƏT** Kiçik bir tərəfrüat məsələnin bu qaranlıq *cəhətinə* də işıq saldığından onu sizə bildirməyiləm (M.İbrahimov); **DOĞRU** Yenə də ağır, amma zəhimli addımlarla stoluma yanaşdı, sağ əlini sıraqlı pencəyinin içindən çıxartdı, mənə *doğru* meyilləndi (M.Hüseyn); **SARI** Tələbə bu binaya *sarı* getdi (Anar); **YAN** O yana döndər məni; Bu yana döndər məni; Sol yanım yaralıdır; Sağ *yana* döndər məni ("Xalq məhnısı").

2. tərəf *bax* tərəfdar

TƏRƏFDAR (*birinin tərəfini saxlayan*) Bircə müdirə yaxın və *tərəfdar* hesab olunan mühasib Təhməz nə başını tərpətdi, nə dilini (M.İbrahimov); **TƏRƏF** [Fatma xala:]

Kasıbın nəyi var ki, ona *tərəf* olan da ola?! (Ə.Əbülhəsən); **HAVADAR** (*bax*), **TƏRƏFGİR, TƏRƏFKEŞ.**

TƏRƏFDARLIQ, HAVADARLIQ, TƏRƏFGİRLİK, TƏRƏFKEŞLİK

tərəfgir *bax* tərəfdar

tərəfgirlik *bax* tərəfdarlıq

tərəfkeş *bax* tərəfdar

tərəfkeşlik *bax* tərəfdarlıq

tərəhhüm *bax* rəhm

TƏRƏKƏMƏ Bir dəfə minarədən azan verirdi molla; *Tərəkəmə* gedirdi kənd yanındakı yolla (M.Rahim); **KÖÇƏRİ** Din nədir, məscid nədir bilməzdi bu *köçəri;* Ömrü çöldə keçərdi uzun illərdən bəri (M.Rahim).

TƏRƏQQİ O kəndin *tərəqqisi* uğrunda, .. daha varlı, daha mədəni həyat sürməsi uğrunda mübarizə aparmalıdır (Ə.Qasımov); **İNKİŞAF** Xalq təsərrüfatımızın ümumi *inkişafında* yaylaqlarımızın, kurortlarımızın iqtisadi əhəmiyyəti böyükdür (Ə.Vəliyev); **İRƏLİLƏMƏ** Xalq ədəbiyyatının dilində böyük bir *irəlilənə* görünürdü (M.İbrahimov); **İRƏLİLƏYİŞ** Altı ay çəkmədi, məktəbdə böyük bir *irəliləyiş* göründü (Mir Cəlal); **YÜKSƏLİŞ** Dünyada hər kənül *yüksəliş* arar; Varlığın nə ilki, nə axırı var (S.Vurğun).

TƏRƏQQİPƏRVƏR Bu acı həqiqətlərlə üz-üzə gələn Məhərrəm əmi faydalı işlər görmək məqsədi ilə inqilabçı *tərəqqipərvər* ziyalılara yaxınlaşmağa qərar verdi (A.Şaiq); **AÇIQFİKİRLİ** O zəkalı, *açıqfikirli* və cəsarətli bir adam idi (M.İbrahimov); **FİKRİAÇIQ** [Naşad:] Qonşunuz *fikriaçıq* ziyalı bir gəncdir? (S.Hüseyn); **QABAQCIL** Bu mübarizədə *qabaqcıl* fəhlələr də fəal iştirak edirdi (A.Şaiq); **QABAQGÖRƏN** Xalqın bütün açıqfikirli, *qabaqgörən* igid və namuslu oğulları yenilməz inqilabi bayraq altına toplaşaraq, alçaq düşmənlərlə öz mübarizəsini daha artıq gücləndirirdi (H.Sarabski); **MÜTƏRƏQQİ** (*bax*).

TƏRƏZİ Mən meyvəni uşaqların dağıtmasından qoruyur, *tərəzidə* meyvə çəkir, atama kömək edərdim (Q.Xəlilov); **MİZAN/MİZAN-TƏRƏZİ** (*din.*) [Dayə:] Qiyamət günü *mizan-tərəzi* qurulacaq, padşahı Allahın hüzuruna gətirəcəkdir, əcr verildikdə, göyün üzündə o nahaq qan çəkilib gedəcəkdir (Çəmənzəminli); **QAPAN** (*bax*).

TƏRİF [Əsgər:] *Tərifdə* soxavətini məndən əsirgəməyib (H.Abbaszadə); **MƏDH** (*kl.ad.*) Yaxşı tanıyıram Cahangiri mən; Xoşlanmaz heç zaman o *mədhlərdən* (B.Vahabzadə); **VƏSF** (*köhn.*) *Vəsfin* yayılıb mahala; Maşallah o xətti xala (Aşıq Ələsgər).

TƏRİFLƏMƏK [Qazalaqçı] Balağanı çox *tərifləndi* (H.Abbaszadə); **MƏDH/SƏNA ETMƏK** Nizami zamanının başqa şairləri kimi *mədh* və *səna etməkdən* çəkinərək şairlik və şerin qədrü qiymətini hər şeydən yüksək tutan bir şair olduğunu sözlərindəki vüqar və ciddiyyət dəlildir (A.Şaiq); **TƏRİF ELƏMƏK/ETMƏK** Bir ingilis xanımı; O gündən ballarda; Onu *tərif eləyir* (M.Rahim); **VƏSF ETMƏK** (*köhn.*) Edər vaiz mükərrər vəsf abi-kövsəri, amma (Q.Zakir); **ÖYMƏK.**

tərlq *bax* **1.** yol **1**; **2.** üsul

TƏRİQƏT (*din.*) Didir bir-birini *tərıqətlər*, nəsillər (B.Vahabzadə); **SEKTA.**

tərki-dünya *bax* guşənişin

TƏRLAN (*quş ovlamaq üçün əla öyrədilən ovçu quş*) Səhər irişincə min nəğmə urar; Şahbazı, *tərlanı* bizim dağların (S.Vurğun); **ALICI QUŞ** Dönüb cəbhəçilər *alıcı quşa;* Atılan güllələr getməyir boşa (M.Rahim); **BAZ** (*kl.ad.*) Dörd şey vardı ovu almış dəstinə; Bir şahin, bir doğan, bir əspir, bir *baz* (Xətayi).

TƏRPƏNMƏK (*yavaşca tərpənmək*) Qurbanəli boy yerindən heç *tərpənmədi* (C.Məmmədquluzadə); **QIMILDANMAQ** Pişik onun [Məstanın] sosini eşidəndə hər bir şeyi anlayırmış kimi, gözlərini ona zilləyir, yerindən *qımıldanmayaraq* diqqətlə dinləyirdi (M.Hüseyn); **YIRĞALANMAQ** "Savalan" beşik kimi *yırğalanırdı* (H.Abbaszadə); **HƏRƏKƏTƏ GƏLMƏK/BAŞLAMAQ.**

2. tərpənmək *bax* getmək 1

tərs *bax* höcət

TƏRSANƏ *Tərsanələr* yaradan, işıqlı evlər tikən: Bağ salan, şış dağlara tunellər, yollar çəkən.. (M.Rəhim); **VERF** ..Gəmi inşa edən *verf* ilə tanış olduq (Ə.Sadıq).

1. TƏRSİNƏ Diqqət edib, baxsan əgər dərsinə: Hər sözü təlim eləyir *tərsinə* (M.Ə.Sabir); **BAŞ-AYAQ** Ümumi yaşayış evindəki balaca otaqda səhər tezdən yuxudan qalxan cavanlar Cəmillə Tahiri bir çarpayıda *baş-ayaq* yatmış gördülər (M.Hüseyn).

2. tərsinə *bax* əksinə

tərtib *bax* **1.** tərtibat; **2.** nizam 1

1. TƏRTİBAT, TƏRTİB (*tərtib olunma*)

2. tərtibat *bax* kompozisiya

tərz *bax* üslub, üsul

təsak *bax* araqçın

TƏSƏLLİ Həmid Çopur Abdullanın tutulmasından müəyyən *təsəlli* tapsa da, onu burada görməməyinə təəssüf eləyirdi (H.Abbaszadə); **TƏSKİNLİK** Əgər bir nəfər bir çaydamı, dənizdəmi olsun, boğulub gözdən itsə, bu itiyi tapmaq ayrıca bir iztirabdır, hətta itiyin axtarış dərdindən xilas olmaq, istər-istəməz qəmli-kədərli də olsa yenə də bir *təskinlikdir* (S.Rəhimov); **OVUNDURMA, TƏSKİN.**

TƏSİSÇİ, BANİ

təskin *bax* təsəlli

təskinlik *bax* təsəlli

təskülah *bax* dəbilqə

TƏSNİFAT Türkiyədə dramaya dair *təsnifat* ancaq əbülhəmid sultanlığı zamanında aləmə gəlmış (Ə.Haqverdiyev); **KLASSİFİKASİYA, TƏSNİF.**

TƏSNİFATÇI, KLASSİFİKATOR (*təsnifat mütəxəssisi*)

təsvir *bax* mənzərə 3

TƏŞBEH, BƏNZƏTMƏ, OXŞATMA, TƏMSİL

2. TƏŞBEH (*ədəb.*), **TƏMSİL**

təşəxxüs *bax* lovğalıq

təşəxxüslənmək *bax* lovğalanmaq

təşəxxüslü *bax* lovğa

təşəkkür *bax* minnətdarlıq

1. TƏŞKİLAT (*partiya, həmkarlar və s. təşkilatı*) Nəhayət, Ərgünəş rayonunun partiya *təşkilatı* haqqında qəzetlər çap olunmuş qərardan hoqiqəti öyrənə bildim (C.Əliboyov); **ÖZƏK** (*köhn.*) Bir-iki aydan sonra altı-yeddi nəfərdən ibarət bir firqə *özəyi* təşkil etdi (Ə.Haqverdiyev).

2. TƏŞKİLAT [Muxtar:] Səbəb də bu oldu ki, Şuşa gimnaziyasında gizli cavanlar *təşkilatı* aşkara çıxarılıb (Ə.Vəliyev); **İTTİFAQ** [Murad:] Şuşa gimnaziyasında gizli işləyən cavanlar *ittifaqı* müsavat hökuməti əleyhinə yazılı şəkildə tələblər qoymuş (Ə.Vəliyev).

təşviq *bax* təbrik

TƏŞVİŞ Güləbətin onun səsindəki qorxu və *təşvişi* duyub dərhal sakit etməyə çalışdı (M.İbrahimov); **İZTİRAB** [Arif:] Sorma, heç sorma, Nazənin xavər; Məni məhv etdi *iztirabü* kədər (H.Cavid); **SƏKSƏKƏ** [Rübabə:] Bu iki pudluqlar bu həyətə gələni *saksəkə* içindəyəm, ay qadanızı alım, mənə yazığınız gəlsin (H.Abbaszadə); **TƏLAŞ** Və ikisinin də qorxu və *tələsdən* gözləri kəlləsinə çıxmışdı – sinələri dəmirçi körüyü kimi qalxıb-enirdi, ikisi də birdən dedi: – Qədeş, bilirsən nə olub? (H.Abbaszadə); **NARAHATLIQ** (*bax*).

TƏTİK (*odlu silahda*) O cani *tətiyi* çəkmişdi, bəli; Güllə açılmamışdı... (N.Xəzri); **ŞEYTANI** Hər ikisinin əli birdən tüfənglərin *şeytanını* çəkdi.. (S.Rəhimov).

TƏVAZÖKAR [Mədinə:] Xoşuma gələn odur ki, çox *təvazökardır* (M.İbrahimov); **SADƏLÖVH** Molla onun möcüzələrinə inanaraq öz dövlətini gümüşə dəyişmək üçün gətirən *sadəlövh*, avam əhalini əsli olmayan gümüşlə aldadıb talayır (Ə.Haqverdiyev); **TÜRKƏSAYA(Q)** (*dan.*) Yazıq *türkəsaya* adamdır, birdən keçər bir cüvəllağının olinə.. (M.İbrahimov); **ŞİKƏSTƏNƏFS** Bu adam nə həqirdir, nə *şikəstənəfsdir* (C.Məmmədquluzadə).

təvəqqe *bax* xahiş

TƏYYARƏ Biz *təyyarə* ilə göyə qalxdıq (M.Hüseyn); **AEROBUS** Sentyabrın 2-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanında "Azərbaycan Hava Yolları" Dövlət Konserni ilk dəfə olaraq yeni A-139 tipli sərnişin *aerobusunu* təhvil almışdır (Qəzetlərdən); **AEROPLAN** (*köhn.*) [Gülsüm:] *Aeroplam* deyirəm də, hər gün gələcək? (X.Hasilova); **HAVA GƏMİSİ** Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış *hava gəmisi* Azərbaycan Respublikasına mənsubdur (Qəzetlərdən); **UÇAQ** (*köhn.*) Dördmotorlu *uçaq!* Aeromeydan (R.Rza).

TƏYYARƏÇİ Təyyarəçi otrafı nəzərdən keçirdi: qaçışan buludlardan başqa bir şey görmədi (Çəmənzəminli); **AEROPLANÇI** (*köhn.*) [Almaz:] Amma biz sizi traktorçu, maşınçı, *aeroplançı* eləmək istəyirik (C.Cabarlı); **AVİATOR** *Aviatorlar* təzə təyyarənin önündə xatirə şəkli çəkdirdilər (Qəzetlərdən); **PİLOT** Kim isə yandan faşist *pilotunu* nişan aldı (M.Hüseyn).

1. TƏZAD, ANTİTEZA (*ədəb., dilç.*) Müəyyən bir cümlə və ifadə bir-birinin ziddi olan iki söz və ya fikri bir-biri ilə qarşılaşdırmağa *antiteza* (*təzad*) deyilir (A.Abdullayev).

2. təzad *bax* ziddiyyət 1

təzadlı *bax* ziddiyyətli

TƏZƏ [Usta:] Amma mənim üçün bu *təzə* bir şey deyil (M.Hüseyn); **CƏDİD** (*kl.əd.*) Vah!.. Bu imiş dərsi-üsuli-*cədid?!* Yo...x! Yo...x! Oğul, məktəbi üsyandı bu! (M.Ə.Sabir); **TƏR** İlk məhəbbətə salam; Uzaq dosta teleqram; Göndərilər təzə, *tər;* Bahar çiçəkləriylə (Ə.Cəmil); **YENİ** *Yeni* mahnılarla kim maraqlanmır?! (H.Abbaszadə).

TƏZƏDƏN Doğrudan da [söhbət] tükənirdi ki, bu vaxt Eldar gəldi və hər şey *təzədən* çözələndi (M.İbrahimov); **BİR DAHA** Yolçu *bir daha* xarabalığı gözdən keçirdi (Ə.Məmmədxanlı); **DÜBARƏ** Sən məni doğrasan da ney kimi para-para; Deməliyəm parçala, istəsən kos *dübarə* (M.Rəhim); **TƏKRAR** O [Könül], *təkrar* səhnəyə qayıdarkən yanaqlarında diktorun rəngli dodaqlarının izi qalmışdı (X.Hasilova); **YENƏ** [Hacı] sonra döşəkçəsi üzərində bardaş qurub lampanı titrək əlləri ilə yandırar, başı üstündəki köhnə İran sandığını açar, kiso-kiso pulları bir-bir çıxarıb sayar, qorxaq baxışlarla otrafı süzdükdən sonra kisələri *yenə* də bir-bir sandığa yerləşdirib ağzını bağlardı (A.Şaiq); **YENİDƏN** [Cövdət] qapını örtüb *yenidən* yataq otağına, arvadının yanına gəldi (H.Abbaszadə).

TƏZİM Xacə çıxıb bir az vaqtdən sonra ehzar olunan əşxas gəldilər və lazimeyi-*təzim* əmələ gətirib müntəziri-formayiş oldular (M.F.Axundzadə); **GÜRNUŞ** (*arx.*) Münəccimbaşı şahın hüzuruna daxil olub *gürnuşdan* sonra əl-əl üstə qabaqda durub dua və sənа etdi (M.F.Axundzadə); **İKRAM** Xolqin işi bizlərə *ikram* idi; Ax!.. neco keyf çəkmoli oyyam idi (M.Ə.Sabir); **BAŞ ENDİRMƏ, BAŞ ƏYMƏ.**

təziyə *bax* matəm

tıxamaq *bax* soxmaq

tıxmaq *bax* yemək 1

TINCIXMAQ ..İstidən ürəkləri *tıncıxanlar* da divarlara dalbadal tüpürüb canlarını rahat edirdilər (Çəmənzəminli); **NƏFƏSİ TƏNG OLMAQ, SIXILMAQ.**

TISBAĞA Bir *tısbağa*, bir kəsəyən, bir qarğa; Yoldaş olmuş idi bundan sabiqa (Q.Zakir); **BAĞA** *Bağalar* başlarını qırağa çəkib hərəkətsiz durmuşdular (A.Şaiq); **ÇANAQLIBAĞA** Girmişdi oqrəb bağa; Gəlib *çanaqlıbağa;* Əqrəblə sirdaş oldu; Dost oldu, qardaş oldu (M.Seyidzadə).

TİBB Arvad əsil yaranmasından *tibb* elminə məhtacdır (Çəmənzəminli); **TƏBABƏT** Düşməzdi önümdə dostum bu günə; O, lənət yağdırır, min dəfə lənət; *Təbabət* elminin gücsüzlüyünə (B.Vahabzadə).

TİBB BACISI Xəstəxananın işçiləri, *tibb bacıları* vaxt tapdıqca Zeynalla söhbət edər, ona istədiyi kitabı, qəzeti oxuyardılar (B.Bayramov); **SESTRA** (*dan.*) [Şəkər:] Doktor Qədirova, nə olar siz həkim, mən *sestra* olanda

(B.Bayramov); **ŞƏFQƏT BACISI** Mayor *şəfqət bacısına* nəzakotlə dedi.. (X.Hasilova).

TİCARƏT, BİZNES, KOMMERSİYA, ALVER (*bax*)

ticarətçi *bax* alverçi

tif *bax* yatalaq

tifil *bax* uşaq, çağa

tifillik *bax* uşaqlıq **I**

tiğ *bax* qılınc

TİKAN Mən çox xəcalət çəkdim; çünki xoyalıma gəldi ki, nökərimiz evi süpürəndə süpürgənin *tikanı* düşüb fərşin üstünə və batıb qonağın yumşaq yerinə (C.Məmmədquluzadə); **XAR** (*kl.ad.*) Qəlbimizdə eşqimiz vermiş əzəldən baş-başa; Yad, yaman gözlər bizim bağ-bağçanı *xar* bilməsin (S.Rüstəm).

1. TİKƏ, BÖLÜK, HİSSƏ, PARÇA

2. tikə *bax* loğma; para **1**

tikəkabab *bax* kabab

tikili *bax* bina

tikinti *bax* inşaat

1. TİKMƏK (*inşaata dair*) [Qardaş:] Tozlu küçələrin, palçıq evlərin hamısını söküb təzə evlər *tikəcəyik* (M.İbrahimov); **BİNA ETMƏK** [Qulu:] ..nəqd pul eləyib gedəsən ziyarətə, ovdan tikdirəsən, məscid *bina edəsən* fəqir-füqəraya?! (N.Vəzirov); **BİNA QOYMAQ** [Məşədi Əsgər:] ..gəmiçilik şirkəti *bina qoydu* (Qantəmir); **İNŞA ETMƏK/ELƏMƏK** [Qulam müəllim:] Qoy bu qızlarımızdan.. birisi də bizim bu dağlı məhəlləsində yeni-yeni binalar *inşa etsin* (S.Rəhimov); **QURMAQ** Bu axır vaxtlarda Qafqazın müsəlmanları gözlərini açıb başladılar hey bir ucdan məktəb binası *qurmağa* (C.Məmmədquluzadə); **SALMAQ** ..Nahiyənin rəhbərləri.. dərənin üstündən körpü *salırdılar* (Ə.Əbülhəsən); **YAPMAQ** (*köhn.*) Bir imarət *yapmağa* min ev yıxan memar tək (Füzuli).

2. TİKMƏK (*paltar və s.*) [Ballı:] Kişinin yaxasını niyə cırırsan. Axır təzəcə *tikmişam* (Çəmənzəminli); **SIRIMAQ** [Gülcahan:] Vay, yorğanı *sırıyanda* yaddan çıxıb [qayçı] içində qalıbdır (T.Ş.Simurğ).

TİLOV *Tilov* atılı gözlərini zilləyərək bir nöqtəyə; Balıq tutur, sevincindən o sığmayır yerə, göyə (S.Rüstəm); **QARMAQ** [Tağı:] Məmmədağanın balıq *qarmağı* burada qalmışdı (S.S.Axundov).

tilsim *bax* cadu **1**

tilsimçi *bax* sehrbaz

tilsimləmək *bax* sehrləmək

tilsimli *bax* sehrli

timpan *bax* təbil

timsal *bax* **1.** nümunə; **2.** məsəl

TİNG (*əşiləcək cavan ağac və s.*) [Nəbi:] Heç inana bilmirdim ki, çöp kimi qoyub getdiyim *ting* nəhəng orik ağacına çevrilmişdir (Mir Cəlal); **DİNGƏLƏN** Bu yaxınlarda harada alma ağacı var. Baxdılar ki, göz işlədikcə bir dənə *dingələn* də yoxdur (Nağıl); **ŞİTİL** [Əzim:] Bunun *şitillərini* qışda bir-bir əlimlə əkmişəm – dedi (A.Şaiq); **DİNGİL**

tip *bax* **1.** forma **1**; **2.** surət **1**

I TİR Xülasə kar xəlfə civardakı xırda evləri bir-bir satın alır, tələbələrinə uçurtdurur tir-taxtasını və damlını bizə daşıtdırırdı (Çəmənzəminli); **PƏRDİ** Evlərin taxtapuşundakı küləş töküldüyündən quru *pərdilər* artıq öküz qabırğaları kimi çıxmışdı (B.Bayramov); **ŞALBAN** Həmidin ağır *şalbanları* tək daşıması onun döşünə yatdı (H.Abbaszadə); **KƏN.**

II tir *bax* ox **1**

tiraj *bax* say **2**

tiren *bax* qatar **1**

I TİRƏ, TƏPƏCİK, TƏPƏLİK

II tirə *bax* nəsil **2**

TİRYƏK Gəncliyində uyaraq kefə, eyşişrətə; Qul olmuşdu *tiryəkə* sofalətə, şəhvətə (M.Rzaquluzadə); **ƏFYUN** Baba dərviş, yetər, bu əfsanə; Yetər, *əfyun* içirtdin insanə (S.Rüstəm).

TİRYƏKÇİ Hacı dik atıldı, elə bil ki, yuxuya getmiş *tiryəkçi* qəfil səs eşitdi (M.İbrahimov); **TİRYƏKİ** Mən cılız və *tiryəki* bir adamın səsinə oxşar bir səs eşitdim (M.İbrahimov); **ƏFYUNÇU, NARKOMAN** (*bax*), **TİRYƏKÇƏKƏN, TİRYƏKKEŞ** (*köhn.*).

tiryəki *bax* tiryəkçi

tiryəkkeş *bax* tiryəkçi

tişə *bax* külüng

TİTRƏMƏ (*dilç.*) Hər hansı bir səs elastik cismin *titrəməsi* və hava dalğalarının axını nəticəsində əmələ gəlir (N.Məmmədov, A.Axundov); **EHTİZAZ** Lakin bəzi səslərin teleffüzündə səs telləri gərgin vəziyyət alaraq bir-birinə daha çox yaxınlaşır, bunun nəticəsində də səs tellərinin *ehtizazı* əmələ gəlir (N.Məmmədov); **VİBRASİYA.**

TİTRƏMƏK (*müxtəlif mənalarda*) Axı on ildən bəri; *Titrəməyib*, əsməyib; Heç birində əlləri (B.Vahabzadə); **ƏSMƏK** Dünən qabağından o qız tələsdi; Keçdi şimşək kimi, ürəyim *əsdi* (M.İbrahimov); **ÜRPƏŞMƏK** Kamilin əti *ürpəşdi* (Y.Şirvan).

toxa *bax* kotmən

toxtamaq *bax* **1.** dözmək; **2.** sakitləşmək **1**

TOXUCU *Toxucu* qızların mahir əlləri; Misli görünməyən gülşən yaradıb (M.Rahim); **CULFA** (*köhn.*) Atam əllaf, babam dülgər idi; Qardaşım *culfa*, əmim kargər idi (M.Ə.Sabir); **ZƏRBAFTA** Yoxdur bəhrdə nə *zərbafta*, nə zərdə (Aşıq Abbas).

1. TOXUM Traktor gəlmişdir yeri sökməyə; Dırmıq çəkib, şuma *toxum* səpməyə (R.Əfəndiyev); **DANƏ** Bəslər, a kəlim, *dənələri* yer qucağında; Qalxar yaşıl otlar, göyərər hər bucağında (A.Şaiq).

2. toxum *bax* sperma

3. toxum *bax* tum **1**

4. toxum *bax* maya **II**

toxunmaq *bax* sürtüşmək **1**

tok *bax* cərəyan **2**

TOKAR, TORNAÇİ

TOQQA Safo qapının ağzına getdi və Alonun *toqqasından* yapışıb: – Çoxdan görüşmürük... (S.Rəhimov); **BANDAJ** (*idm., elastik kəmər*) İdmanda zədələnmə hallarının qarşısını almaq üçün on yaxşı qoruyucu vasitələr; sipərlərdən, maskalardan, *bandajlardan* istifadə edilməsindən, oynaqların bintlənməsindən ibarətdir (Babayev); **KƏMƏR** Çıxar oynindəki tozlu şineli; Qoy *kəmər* sıxmasın o incə beli (M.Rahim); **QAYIŞ** Qara oğlan sualın cavabını gecikdirməyindən qadın özünə doğru gələn adamlara ani bir nəzər fırladaraq hələ belindəki enli *qayışdan* əlini çıxarmamış qoca kişini diqqətlə gözdən keçirdi (M.Hüseyn).

1. TOQQUŞMAQ, BİR-BİRİNƏ DƏYMƏK/TOXUNMAQ

2. toqquşmaq *bax* vuruşmaq **1**

TOP (*oyun topu*) [Pərviz:] Bizimkilər hələ eləyib geri qayıdana kimi onların hücumçuları bizim müdafiə xəttini yarıb *topu* qapımızdan içəri keçirdilər (M.İbrahimov); **KOS** Bu zaman Nəcəfin *kosu* düz Zərifənin qabağına düşdü (S.Vəliyev); **KUY** (*köhn.*) [Mütərcim:] Sizin mərhum qardaşınız *kuy* və çövkən oyununda qalib gəldiyi üçün Dürrətülbağdad onu sevmişdi (M.S.Ordubadi).

topal *bax* çolaq

topçu *bax* zenitçi

toplamaq *bax* **1.** yığmaq; **2.** cəmləmək

toplanmaq *bax* yığışmaq **1**

toplaşmaq *bax* yığışmaq **1**

1. TOPPUZ (*köhn.*) Bu hədiyyələr bayraq, qılınc, xirqə, *toppuz*, tac və fərmandan ibarət idi (Çəmənzəminli); **ƏMUD** (*köhn.*) (*polad toppuz*) Koroğlu qanrılıb geriyə baxdı ki, görsün Giziroğlu uzaqdadı, yaxında bir də onu gördü ki, topəsinə bir *əmud* doydi ("Koroğlu"); **GÜRZ** Bu əcaib zəbanilər tutduqları insanları *gürzlə* şappalayıb odlu zəncirlərlə dağlayırdılar (Çəmənzəminli); **ŞEŞPƏR** (*altıdilli toppuz*) Giziroğlu Mustafa bəyin bir *şeşpəri* var idi ki, ucu haça ("Koroğlu").

2. toppuz *bax* çomaq

TORAĞAY (*zool.*) Tufan da qonağımdır; Göylərin şimşəyi də; Torlan da qonağımdır; *Torağay*, çəkçəki də (M.Rahim); **ALAQARANLIQ** Onu [Tanyanı] həbsxananın qalın divarları, *alaqaranlıq* koridorları sıxır, qaçıb qurtarmağa çarələr düşünürdü (A.Şaiq);

QARIÇQAY Xoyu məlaikdir, özü porinaz; Cilvəsi *qarıçqay*, cıqqası şahbaz (M.P.Vaqif).

TORAN *Toran* yavaş-yavaş qovuşur, qürubun sumağı boyaları tutqun polmələrə bürünürdü (Çəmənzominli); **YARIQARANLIQ** Lakin mən istəsəm də, istəməsəm də başımı aşağı salıb, bu cansıxan, *yarıqaranlıq* otaqda saatlarımı saya-saya çörək pulu qazanmalıyam (M.Hüseyn).

TORBA [Adolf:] Mən bir qara *torbadan* başqa heç bir əza görmədim (S.S.Axundov); **KİSƏ** Fikr eyləsin asan tutacaq səni; Xəyali-xam ilə atıb *kisəni* (Q.Zakir).

TORNAÇI, TOKAR

1. TORPAQ Dənizləri aşaram; *Torpaqda* da, suda da; Şən, fərəhli yaşaram (M.Dilbazi); **XAK** Ani-vahiddə xütteyi-Şirvan; Oldu, səd heyf, *xak* ilə yeksan (M.Ə.Sabir); **QUBAR** (*kl.əd.*) Bir gün düşərəm soyuq məzarə; Bir gün susaram dönüb *qubarə* (A.Şaiq); **ZƏMİN** Əhli-zəmanə qanına çox təşnədir, *zəmin*; Qanın kimin tökərsə fələk, ol zaman içər (Füzuli).

2. TORPAQ (*ərazi sahəsi*) [Heydər bəy:] Xofa düşməyə haqqımız var, çünki .. qanunda *torpaq* kəndlinindir (S.S.Axundov); **YER** [Azər baba:] *Yerimi* şumlayıb əkən də sənsən (S.Vurğun).

3. TORPAQ Burada hər qaya, hər qarış *torpaq*, hər ağac, hər daş onun köməyidir, havadarıdır (M.İbrahimov); **ƏRAZİ** Böyük-böyük torpaqlar, *ərazilər*, dəstə-dəstə adamlar, cürbəcür münasibətlər (C.Əlibəyov).

4. torpaq *bax* vətən

tosqun *bax* kök **1**

TOST (*içki məclisində deyilən söz*) Əhli-hal insanların keçib məclislərindən; Bəzən şeir oxudu, bəzən də ki, *tost* dedi (M.Rahim); **SAĞLIQ** Yüz *sağlıq* deyilir şərəfimizə; Düşmən can desə də düşməndir yenə... (S.Vurğun).

toşi *bax* ulaq

TOTUQ [İsfəndiyarın] *totuq* yanaqlarından az qala qan damırdı, amma xəstə idi, özü də çox bərk xəstə idi (M.Hüseyn); **KOPPUŞ** [Səlimə:] Mən yaxınlaşıb başı-gözü yaylıqla sarınmış Salatının yun əlcəkli balaca əllərindən tutaraq, isti evdən çıxdığı üçün qızarmış *koppuş* yanaqlarından öpdüm (İ.Əfəndiyev); **POTA** Birinci Çopur Abdullanın əminəvəsi Firuzla onun özü tək *pota* bir oğlan güləşdi (H.Abbaszadə); **YUMRU** *Yumru*, totuq uşaqlar qızıl taxtalarda qumaş yastıqlara söykənən möminlərə şərab paylayırdılar (Çəmənzominli).

TOVLAMAQ [Ağa Mərdan:] Gərək mən onları bura gətirib *tovlayam* ki, xilaf şəhadət etsinlər (M.F.Axundzadə); **DİLƏ TUTMAQ** [Hacı:] Sən get *dilə tut*, boynuna qoy (M.İbrahimov); **XOŞ DİLƏ GƏTİRMƏK** [Anaxanım:] Dörd-beş ildir onun qonşuluğunda oluram, ildə neçə qız tovlar, *xoş dilə gətirər*, sonra incidər, qaçırar, yenisini gətirər (Çəmənzominli); **QILIĞINA GİRMƏK** Və heç vaxt heç kimin *qılığına girməməyə* çalışmışdı... (Anar); **TOVLAŞDIRMAQ** [Göyərçin:] Hamısını öyrən, hamısını bil, onu *tovlaşdır*, çıx gəl (S.Rəhimov); **BAŞINI BİŞİRMƏK** (*fr.v.*), **ALDATMAQ** (*bax*), **QILIQLAMAQ.**

tovlaşdırmaq *bax* tovlamaq

TOY (*evlənmə mərasimi*) [Surxay:] Camaat, Musa dayının *toyu* qarışdı hamımızın *toyuna* (S.Rəhman); **DÜYÜN** *Düyün* oldu, bütün xublar yığıldı; Gəlmədi bir bizim gülbədən gəlin (M.P.Vaqif); **XEYİR İŞ** (*dan.*) [Qəndab:] Gözəldir, – deyə şəkli sinəmə sıxdım. *Xeyir iş* nə vaxtdır, Allah qoysa? (B.Bayramov); **TOY-DÜYÜN** [Sərçəcik:] Kimindir bu *toy-düyün* (M.Seyidzadə).

toy-düyün *bax* toy

töhfə *bax* hədiyyə

TÖHMƏT Burax, dostum, burax bu *töhmətləri!* (M.Müşfiq); **QINAQ, MƏZƏMMƏT** Ata ticarətə uyub qazanc gətirir, tacirlər mühiti isə getdikcə *qınağı, məzəmməti* artırır (Ə.Əbülhəsən); **DANLAQ** (*bax*).

1. TÖKMƏK Stol üzərindəki qrafindən stəkana su *töküb* içdim (A.Şaiq); **AXITMAQ** *Axıtdım* alnımın inci tərini; Yanmadım ömrümün iki ilinə.. (S.Vurğun); **SÜZMƏK** [Pyotr Anisimoviç] ..stol hazır olanda qədəhlərə araq *süzüb* sağlıq söylədi (H.Abbaszadə); **ŞORLATMAQ** [Qıpçaq Məlik:] ..qara başını kəsəcəm, alaca qanın *şorladacam*.. (Anar).

2. tökmək *bax* yağmaq

3. tökmək *bax* calamaq **2**

tökülmək *bax* axmaq **1**

TÖVBƏ (*etdiyi pis əməldən peşman olub bu işi təkrar etməyəcəyinə söz vermə*) [Tarverdi:] Vay aman, qələt elərəm, quldurluğa dəxi çıxmanam, heç kimi soymanam. *Tövbə* olsun, *tövbə, tövbə* (M.F.Axundzadə); **ƏTTÖVBƏ** Tövbə, *əttövbə*, xəta rahinə getdiklərimə (M.Ə.Sabir); **NASAQ** (*məh.*) *Nasaq* olsun mə, mən bı işi bir də görmərəm (ADDL).

TÖVLƏ (*mal-qara, qoyun-quzu, at-eşşək damı*) [Rza:] Mənə elə gəlirdi ki, evimiz də, qalağımız da, *tövləmiz* də uçulacaq, hamısı alt-üst olacaqdı... (M.İbrahimov); **DAM** O, birdən irəli sıçrayıb, olindəki tüfəngi yerə atdı, özü mal *damına* girdi (M.Hüseyn); **QATIRXANA** (*yalnız qatır üçün tövlə*) Bir nəfər qışqırdı: – Ağanın *qatırxanası* hər yerdən yaxşıdır... (A.Makulu); **PƏYƏ** [Övrət:] İzzət, doğrudan *pəyədə* ağlayan sən idin? (C.Məmmədquluzadə).

TÖVŞÜMƏK [Seyfulla:] Hə, əsgər bəy, demə ki, cavanam, amma *tövşüyürsən*... (Ə.Coforzadə); **LƏHLƏMƏK** (*heyvanlara aid*) Sultan ağzından qan tökülən yalquzaq kimi otağın içində *ləhləyirdi* (S.Rəhimov); **NƏFƏSİ TINCIXMAQ** [Həmzə:] Əlim işə çıxmır, *nəfəsim tıncıxır*, darıxıram... (Ə.Qasımov).

töycü *bax* vergi **1**

tragediya *bax* faciə **1**

traktir *bax* **1.** yeməkxana; **2.** meyxana **1**

TRAMVAY Trolleybus gözə dəymir, *tramvay* yox kimidir, avtobuslar da çox azdır, əsasən böyük şəhərlər arasında işləyir (M.İbrahimov); **ŞÖMƏNDÜFƏR** (*arx.*) Elektrik qüvvəsindən min bir cana gələrək; O hazırlar yer altında *şöməndüfər* yolları (S.Vurğun).

tribun *bax* minbər

tribuna *bax* kürsü **1**

trubka *bax* dəstək **2**

trümo *bax* bədənnüma

tualet *bax* **1.** bozək; **2.** ayaqyolu

TUFAN Qan içirəm, həzz alıram; Bu dünyanı mən salıram; Boranlara, *tufanlara* (S.Vurğun); **BURAĞAN** Bürüyür ortalığı tül kimi bir incə duman; Qarı birdən sovurur göylərə müdhiş *burağan* (A.Şaiq); **FIRTINA, QASIRĞA** Mən özəldən tufanların qoynunda bir ötən quşam; *Fırtınalar, qasırğalar* qucağında doğulmuşam (S.Vurğun); **BORAN** (*bax*).

tul *bax* uzun **2**

TULLAMAQ Xəstə qarını tutub; *Tulladılar* həyətə (M.Rzaquluzadə); **ATMAQ** Niso kömür qabını yerə *atıb* gəldi (Mir Cəlal); **FIRLATMAQ** Pası Cəbini qüvvətli əllərі ilə onun qucağından qurtarıb qarın içinə *firlatdı* (S.Rəhimov); **QOLAZLAMAQ** O da əlini rəfə atıb... köpək oğlu özünsən! – deyib korbəlayıya bir qazan salbası vurdu, korbəlayı da ona bir kəfgir *qolazladı* (Çəmənzominli); **VİZILDATMAQ** (*dan.*) Gənc əli ilə alnını tutaraq, yerindən sıçradı və digər əli ilə qadının başından o dəyirman çarxını alıb küçəyə *vızıldatdı* (A.Şaiq).

TULLANMAQ [Ata:] Kuçədə *tullan*, ey oğul, sənətin olmur, olmasın! (M.Ə.Sabir); **ATILMAQ** Azər yenə irəli *atıldı* (Ə.Kərim); **ATLANMAQ** Sənə elə bir meymun havası çalım ki, sıçrayıb dik *atlanasan* (S.S.Axundov); **HOPPANMAQ** (*bax*).

tuluq *bax* **1.** nehrə; **2.** dol; **3.** qarın **1**

tulumbaşı *bax* tamada

1. TUM (*meyvə dənəsinin içi*) Ərik yaxşı bəhərdir; *Tumu* şirin, şəkərdir (M.Rahim); **DƏNƏ** Arvad bir də *baxır* ki, molla iydələrin *dənəsini* də yeyir (M.N.lot.); **TOXUM.**

2. TUM Axır o [Rəcəb], bir taxta qutu hazırladı, mağazalardan konfet, *tum* və papiros alıb qutunun içinə qoydu (A.Şaiq);

SEMİÇKA (*dan.*) [Kərəmov:] Görürlər ki, camaat burada iş görür, *semiçka* çırtlamır (S.Rəhman).

tumac *bax* meşin

TUMAN (*qadın geyimi*) [Şair:] ..Onlar da əl-ayaqdan uzaq kənd-kəsəyə çəkilib, qarıların *tumanının* altında gizlənib, baş girləyirlər (Ə.Cəfərzadə); **KƏMƏRÇİN** (*beş çinli tuman*) Mütrüblər təzə *kəmərçin* geyir, saqilər piyalələr hazırlayır.. (M.S.Ordubadi); **YUBKA** Gətirib *yubka*, deyir at bayıra nimtənəni; Burnunu gizlətmə, örtmə kişi görcək çənəni (M.S.Ordubadi).

TUMAN-KÖYNƏK (*alt paltarı*) ..paltosunu çiyninə ataraq alt *tuman-köynəkdə* bayıra çıxan Bəndalı kişi bütün qədd-qaməti ilə qapı ağzında göründü (İ.Əfəndiyev); **ZİRCAMƏ** (*köhn.*) Kərbəlayi Həsən axşam bazardan qayıdanda paltarını soyunub şəbkülahını geyinib, *zircamədə* gəldi, süfrənin başında oturdu.. (Çəmənzəminli).

tumarlamaq *bax* **1.** sığallamaq; **2.** təmizləmək **1**

tumbul *bax* kök **1**

tumov *bax* qrip

TUMURCUQ Qovaq və alma ağacının *tumurcuqları* növbə ilə bir-birinin ardınca tək-tək yerləşir ("Botanika"); **BURC** (*dan.*) Ata acıqlandı, yolun qıraq-bucağına dönüb *burc* gəmirən öküzləri hoholadı (S.Rəhimov); **DÜYMƏÇƏ** Ağacın *düyməçələri* zoğluyuban yarpaq açır, Sonra alvan çiçəyi gör nə zərifanə gəlir (R.Əfəndiyev); **GÖZCÜK** Çay bitkisini çoxaltmaq üçün 3-4 *gözcüyü* olan birilik çubuqlardan istifadə etmək lazımdır (B.Talıblı); **PUÇUR.**

TURİST Alman *turistləri* arasında qanun halını almış belə bir qayda geniş yayılmışdır.. (H.Əliyev); **SƏYAHƏTÇİ** [Başir:] Bu fikir mənim deyil, bu günlərdə burada görüşdüyüm *səyahətçi* bir almanın düşüncəsidir.. (S.S.Axundov).

turşaşirin *bax* meyxoş

turşəng *bax* quzuqulağı

TUŞLAMAQ Dayan. Qaçma, vurdum – deyib yüyürdü; Tüfəngi *tuşladı*, çaxmağı çəkdi (R.Rza); **NİŞAN ALMAQ** Tələsdiyim üçün sərrast *nişan ala* bilmədi (H.Abbaszadə); **YÖNƏLTMƏK** Bir daşa sinə gərib, tüfəngimi [polonqo] tərəf *yönəltdim* (A.Şaiq).

I. TUTACAQ [Pəri nənə] ..qapını *tutacağından* çəkdi (S.Rəhimov); **TUTQAC** O ..əri olan otağın qapısında bir əli *tutqacda*.. durmuşdu (İ.Əfəndiyev).

2. tutacaq *bax* məhəccər

tutqac *bax* tutacaq **1**

tutqun *bax* **1.** boz **3**; tünd **3**

tutqunlaşmaq *bax* tündləşmək **1**; bozarmaq **1**

I. TUTMAQ [Pəricahan xanım:] Ordu başında durubdur, ədcadının yurdunu da *tutmaq* istəyir (S.S.Axundov); **FƏTH ETMƏK** (*zorla, silah gücünə tutmaq*) [Kimon:] Qorxma, tədhirə gəl, riza göstər; *Fəth edincə* bu ölkəni qeysər (A.Şaiq); **QAPSAMAQ** (*məh.*) *Qapsayıblar* yetimlərin obasın; Ev sahibi qovar zor olsa qonaq (Q.Zakir); **QƏSB ETMƏK** ..hətta bütün şimal oyalotlərini *qəsb etmək* istədikləri qəzetlərdə faş olunmalıdır (M.İbrahimov); **ZƏBT ETMƏK/ELƏMƏK** Güllücə kəndini düşmən *zəbt etdi* (S.S.Axundov); **ALMAQ, İSTİLA ETMƏK** (*zorla tutmaq*), **İŞĞAL ETMƏK.**

2. TUTMAQ Mustafa çavuş oyilib onun dal ətəyindən *tutdu* (S.Rəhimov); **YAPIŞMAQ** (*dan.*) [Yasavul:] Məndən *yapış* (S.Rəhimov); **SAXLAMAQ.**

3. TUTMAQ [Fatı:] Məni o azar dəymiş it *tutdu* (Ə.Abbasov); **DİŞLƏMƏK** Çeynədilər, *dişlədilər*, diddilər; Bir-birini al qana qərq etdilər (A.Səhhət); **QAPMAQ** İt quduranda, yiyəsini *qapar* (Ata. sözü).

4. tutmaq *bax* həbs etmək

I. TUTULMAQ Bir gün *tutuldu* atam; Buna dözərmi adam? (S.Rüstəm); **HƏBSƏ ALINMAQ** [Əbülhəsən bəy:] Bunların çarpışması nəticəsində ikisindən birisi tələf olacaq, digəri isə *həbsə alınacaq* (M.S.Ordubadi); **HƏBS EDİLMƏK** Yoldaşımın əmrilə

molla da *həbs edilib* müddə ümuminin ixtiyarına göndərildi (T.Ş.Simurğ); **YAXALANMAQ** Xain *yaxalandı* on nəhayət (H.Cavid); **DAMLANMAQ** [Kapitan:] Yoxsa son də *damlanmaq* istəyirsən? (İ.Əfəndiyev).

2. TUTULMAQ (*səsə aid*), **SƏSİ BATMAQ** Sədmeyi-songdən *batıbdı səsi* (M.Ə.Sabir).

1. TÜFEYLİ (*biol.*) (*başqa orqanizmin içində və ya üzərində yaşayıb onunla qidalanan bitki və ya heyvan*); **PARAZİT.**

2. tüfeyli *bax* müftəxor

tüfuliyyət *bax* uşaqlıq **1**

TÜK [Aydın:] Ay aman, bərk durun, *tük* qırıldı, dünya yıxıldı, ha-ha-ha! (C.Cabbarlı); **QIL** (*sərt tük*) Gecə deyərlər, onun [Fərzəlinin] boynu *qıldan* nazik idi (S.Rəhimov); **TEL** Koroğlu dumanın *telindən* bir dəstə kəsib, Eyvazın papağına sancdı ("Koroğlu").

TÜKLÜ Belə olsa *tüklü* baldırları görünər, yaşmaq düşdükdə onun nazik bığları qonşərə çıxar.. (S.Rəhimov); **QILLI** [Dursun] hər gün "of, bu *qıllı* meymundan yaxamı nə zaman qurtaracağam" – deyirdi (A.Şaiq).

1. TÜLKÜ Ovlaqda qarşıma bir *tülkü* çıxdı; Rəngi nə çox bozdu, nə çox açıqdı (M.Rahim); **SƏLƏB** (*köhn.*) Biri *sələb* var deyir; birisi iskəncəbi (M.Rahim); **RÜBAH** (*ərx.*) Rübah bir şoğal ilə bir biyabanda gedirdilər (S.Ə.Şirvani).

2. tülkü *bax* hiyləgər

tülküdurmaz(dan) *bax* alaqaranlıq

tülkülük *bax* hiyləgərlik

tülüngü *bax* hiyləgər

tünbətün *bax* gorbagor

1. TÜND (*xasiyyət haqqında*), **AĞIR, QƏLİZ**

2. TÜND (*maye haqqında*), **BƏRK, KƏSİF, KƏSKİN**

3. TÜND, TUTQUN (*rəng haqqında*)

1. TÜNDLƏŞMƏK, TUTQUNLAŞMAQ, QƏLİZLƏŞMƏK (*rəng haqqında*)

2. tündləşmək *bax* bozarmaq

tündxasiyyət(li) *bax* bədxasiyyət

tüng *bax* qrafin

tünlük *bax* basabas, izdiham **1**

tünük *bax* nazik **2**

TÜPÜRCƏK (*ağız suyu*) Bu cəzibeli monzərəni görərkən xoyalən bu ətləri lozətlə qovurdum .. yığın-yığın *tüpürcək* ağzını doldurdu (Çəmənzəminli); **LÜĞAB** Azalmaqda olan ağız *lüğabı* qurumağa üz qoymuş(du) (Ə.Vəliyev); **TÜPÜRÜK** [Göyərçin:] *Tüpürüklər* altında ölüb qara torpaqlara getmokdənsə, sofil, dilənçi kimi olsa da, yaşamaq lazımdır.. (S.Rəhimov).

TÜPÜRMƏK Hər kim gəlsə sənin kimi bu torpaqda öləcək; Cəmdəyinə yağış kimi *tüpürəcək* gələcək (S.Rüstəm); **ÇIRT ATMAQ** Salman kişi çubuğunu ağzından çıxarıb bir *çırt atır*.. (R.Rza).

tüpürük *bax* tüpürcək

türbə *bax* **1.** mavzoley; **2.** məzar

türkəçarə *bax* araqəkimi

türkəsaya(q) *bax* təvazökar

türkü *bax* mahnı

türmə *bax* həbsxana

TÜSTÜ Qızınmadıq istisinə, kor olduq *tüstüsünə* (Ata. sözü); **DUMAN** [Orxan:] Ey mavi göylər! Ey yaşıl ormanlar! Ey bacalardan yüksələn *dumanlar* (H.Cavid).

tütəəhhil *bax* evli

TÜTƏK Qəhrəmanlarla yeməkxana dolub ağzınadək; Biri çalmaqda qaval, digəri eşq ilə *tütək* (S.Rüstəm); **BALABAN** Hop-hop belə düşdü; İş müşgülə düşdü; Çünki belə düşdü; İndi *balabandır* (M.Ə.Sabir); **DÜDÜK** Axırda da elə oldu ki, dəxi az qalmışdı qiyamət qiyam eləsin və İsrafil *düdüyünü* istəyirdi yuxarı qalxızıb çalsın (C.Məmmədquluzadə); **NEY** [Səlma:] Bu *ney* səsi nə qədər gözəldir! (A.Şaiq); **SÜMSÜ** (*məh.*) (*qamış tütək*) ..*sümsü* qayırar, hələ bayatı şikəstəsi də ağzından düşməzdi (A.Şaiq).

TÜTƏKÇİ, BALABANÇI, DÜDÜKÇALAN, DÜDÜKÇÜ, NEYÇALAN, NEYÇİ, TÜTƏKÇALAN

tütün *bax* tənbəkic

Uu

1. UCA Amma [günəşin] şəfəqi qarşıdakı *uca* dağın başına düşmüşdü (S.S.Axundov); **ALİ** Hülaku xan paytaxtı Təbriz şəhərində *ali* bir imarət tikdirdi (A.Bakıxanov); **BOYLU** *Boylu* çinar budaq atmış, qol atmış (R.Rza); **BÜLƏND** (*kl.əd.*) Eylər azadələrin adını aləmdə *bülənd;* Sərv edərsə özün ol şiveyi-rəftarə fəda (Qövsi); **HÜNDÜR** Arıda olan *hündür* və silsilə dağlar başındakı səngərlərdən güllə səsləri artır... (S.Rəhimov); **QƏLBİ** (*dial.*) [Ağabala:] Dağ *qəlbidir,* – dedi, qarabağlı qızına sataşdı (Çəmənzəminli); **ŞUMAL** Tikildi divarlar, *şumal* diraqlar (M.Müşfiq); **YÜKSƏK** [Nəriman:] ..dünya üzündə ən *yüksək* bir zirvə, dərin bir ümmansınız, bütöv bir dünyasınız! (S.Rəhimov).

2. uca *bax* ucaboy(lu)

3. uca *bax* ülvi

4. uca *bax* zil I

UCABOYLU [Kərim:] Anam deyir ki, onların məktəbinə balacaboylu uşaqları qabaqda, *ucaboyluları* dalda oturdurdular, müəllimin yazdığını görək hamı görə (M.İbrahimov); **CAYDAQ** (*arıq, uzun*) [Tahir] holəlik, – deyə gülə-gülə uzun, *caydaq* qıza əl elədi.. (M.Hüseyn); **HÜNDÜR** [Camal] atası kimi *hündür,* enlikürək bir oğlandı (S.Vəliyev); **HÜNDÜRBOYLU** Ağ xalatlı, *hündürboylu,* göyəli bir gənc içəri girdi (Çəmənzəminli); **SƏRVBOYLU** (*şair.*) Hüsnünü yad eyləsəm, ay *sərvboylu* dilbərim; Firqətindən çeşmətək axar gözümdən yaşlar (Xətayi); **ŞUMAL** (*məc.*) Heybət qabaqdakı qıvrımsaçlı, qarayanız, *şumal* oğlana müraciət elədi (M.Hüseyn); **UCA** Heç yadımdan çıxmır, konsul özü bir *uca* adamdır.. (C.Məmmədquluzadə); **UZUN** *Uzun* motalpapaq bir çoban, Sərxanı heç saymır, ağlına gələni deyirdi (M.Hüseyn); **UZUNBOY(LU)** *Uzunboy,* ağbəniz, alagöz Gülhadanı qız ikən kənddə çox adam istəyirdi (N.Nərimanov); **UZUNDRAZ** (*dan.*) *Uzundraz* zabit [Vəzirovu] xüsusi salonda gözləyirdi (M.İbrahimov).

UCADAN Yolçuzado.. hərdən çox *ucadan* danışır (Ə.Kərim); **BƏRKDƏN** [Müsahib:] Çayı bir az da *bərkdən* desənə!.. (M.İbrahimov); **HÜNDÜRDƏN** Hamı *hündürdən* danışdığı üçün ağız deyəni qulaq eşitmirdi (B.Bayramov); **VAR SƏSLƏ** (*cox ucadan*) [Yolçuzado:] Pıçıltı sevgililər arasında ola bilər. Ucadan və ucadan! *Var səslə!* (Ə.Kərim); **ZİLDƏN.**

UCALMAQ (*müxtəlif mənalarda*) Neçə-neçə yeni bağ; Neçə misli olmayan; Aləmə işıq yayan; HES-lər *ucalacaqdır* (M.Rahim); **QƏLBİLƏNMƏK** Ay getdikcə *qəlbiləmir,* elə bil görünməz bir nərdivanla yuxarılara qalxır (Ə.Vəliyev); **YÜKSƏLMƏK, QALXMAQ** Doğrusu arxanca azı yüz kərə; Mən də *yüksəlirəm,* mən də *qalxıram* (M.Rahim).

UCALTMAQ Köhnə il, tarixin yolunda bizi; bir pillə, bir boy *ucaltdı* (R.Rza); **YÜKSƏLTMƏK** Vətən sevgisi, xalq məhəbbəti, övlad eşqi, qızğın ürək çırpıntısı bu qəhrəmanlardakı ülviliyi qat-qat ucaldır, nəcabəti *yüksəldir,* daxili gözəlliyi qüvvətləndirir (Ə.Vəliyev); **QƏLBİLƏTMƏK** (*dial.*).

UCQAR (*bir yerin ən uzaq, ən kənar hissəsi*) İndi müəyyən olurdu ki, kəndin *ucqarında,* yerin altında bir oyuq yer – kaha vardır (S.Rəhimov); **ƏTRAF** ..gecə də, gündüz də, yuxuda da *ətraf* obalarda ölüm fitvaları vermək, qan axıtmaq, qanla yaşamaq istəyirdi (S.Rəhimov); **KƏNAR** Onun öz ailəsi kəndin *kənarındakı* binada yerləşmişdi (S.Rəhimov); **QIRAQ** İndisə bu qoz ağacı nəinki *qıraq* kəndlərdə və hətta şəhərlərdə də şöhrət qazanmışdı (N.Nərimanov).

UCSUZ-BUCAQSIZ [Rza:] Biz əl-ələ verib bahar quşları kimi atıla-atıla, oxuya-oxuya *ucsuz-bucaqsız* çəmənlərə qaçdıq, şərqi deyən quşlara qoşulduq (M.İbrahimov); **BİHÜDUD** Dəryayi-*bihüdud* idi çərxi-zümürrüdün; Könlüm misalı mövczənü biqərar idi (M.Hadi); **BİPAYAN** (*köhn.*) Könül yenə bəhri-*bipayan* kimi; Səslənir çalxana-çalxana, dağlar! (S.Vurğun); **HÜDUDSUZ** *Hüdudsuz* mavilikdən torlan ayrılarını heç? (R.Rza); **UC-BUCAQSIZ** İnandığım ərənlərin birini; *Uc-bucaqsız* bir səhradan tapmışam (Ə.Cavad); **SONSUZ.**

UCUZ (*qiyməti az*) Çox *ucuz* qiymətə hər şey satıram; Ay alan! Məmləkəti-rey satıram! (M.Ə.Sabir); **DƏYƏR-DƏYMƏZİNƏ** [Əkiz:] Hər halda, o, bənnadır; Evin qiymətini bilir, *Dəyər-dəyməzinə* verməz (H.Abbaszadə); **KƏMBAHA** (*köhn.*).

uçaq *bax* təyyarə

1. UÇAĞDAN (*bot.*), **UÇAĞANOTU** (*ot bitki*)

2. UÇAĞAN (*zool.*), **XANIMBÖCƏYİ, PARƏBİZƏN** (*xallı böcək*)

3. UÇAĞAN, İTİ UÇAN

I 1. UÇMAQ (*quşlara aid*) Dağın baş tərəfinə yaxın bir yerdə qartallar *uçurdu* (Mir Cəlal); **QANADLANMAQ** Qırğı... dərhal *qanadlanaraq* Cəfər əminin çiyninə qondu (H.Nəzərli); **QANAD AÇMAQ** (*şair.*) Azadlığın böyük qəlbi qartal kimi *qanad açır* (S.Vurğun); **QANAD ÇALMAQ** Asta *qanad çalın* qafil tellori; Hayıfdır, salarsız düzə, durnalar (M.P.Vaqif); **SÜZMƏK** (*səssiz uçmaq*) Təsbeh kimi qatarımız düzərsiz; Havalanıb ərş üzündə *süzərsiz* (M.V.Vidadi).

2. UÇMAQ (*təyyarəyə aid*) *Uçur* dağıdaraq buludu lay-lay; Təyyarə göylərin yeddi qatında (B.Vahabzadə); **QANADLANMAQ** Təyyarə dairələr cızaraq yüksəklərə *qanadlandı* (Ə.Məmmədxanlı).

II 1. UÇMAQ, DAĞILMAQ, YIXILMAQ

2. uçmaq *bax* dağılmaq I

III uçmaq *bax* cənnət

I UÇUQ ...balaca kəndin *uçuq* evlərində səngər tutub pusquda durmuşdular (M.Hüseyn); **DAĞINIQ** *Dağınıq* və uçuq evləri görərkən.. yolçunun ürəyi sıxıldı (Ə.Məmmədxanlı); **SÖKÜK** Köhnə bir evciyəz görüm, içi toz, torpaq; *Sökük* divarları var hisli, paslı (S.Vurğun); **VİRAN** Açdı mənə dərdli ağac; *Viran* bağın məlalını (M.Rahim); **DAĞILMIŞ, UÇULMUŞ, YIXIQ.**

II UÇUQ, HERPES (*qızdırma və başqa səbəbdən dodaqlara çıxan qabarcıqlar*)

uçurmaq *bax* dağıtmaq

I. UÇURUM *Uçurumlardan* qalxan at fınxıraraq inləyə-inləyə addımlayırdı (S.Rəhimov); **SILDIRIM** [Koroğlu] atı vurub *sıldırımın* kənarına gəldi ("Koroğlu"); **VƏRTƏ** (*kl.əd.*) Qəm rahnümun oldu, mənimki belə düşdü! Dil *vərteyi*-xun oldu, mənimki belə düşdü! (M.Ə.Sabir); **YARĞAN** Abış hamıdan qabaqda gedir, bataq, su, *yarğan* olanda arxadaşlara xəbər verirdi (Mir Cəlal).

2. uçurum *bax* təhlükə

3. uçurum *bax* ziddiyyət I

I UDMAQ Qoca hülqumunda düyünlənən iri bir tikəni *udan* kimi oldu (M.Hüseyn); **HƏZM-RABEDƏN KEÇİRMƏK** ..plovu, halvanı, küncələri *həzm-rabedən keçirən* dövlətlilər və mollalar idi (H.Sarabski).

II UDMAQ Amma cütlər, doğrudan da dalbadal gəlir, bəzən özündən xeyli geri qalmış yoldaşı yenə *udurdu* (M.Hüseyn); **BASMAQ** (*güləşdə*) ..o *basdığı* uşaqlar tamam çolma-çocuq idilər.. (M.F.Axundzadə); **QALİB GƏLMƏK/ÇIXMAQ** [Sevinc:] Bu mübarizədə *qalib çıxmaq* üçün gərək ağlın iti olsun, qolun da güclü (Z.Xəlil); **QƏLƏBƏ ÇALMAQ/QAZANMAQ** [Dilarada] ədalətin, haqqın *qələbə çalacağına* möhkəm bir etiqad vardı (M.İbrahimov); **APARMAQ** (*məc.*) [Sərvinaz Firuzəyə:] Çəkişmirəm, *aparsam* da verməyəcəksən.. (İ.Əfəndiyev); **MƏĞLUB ETMƏK.**

1. UDUZMAQ [Xasay:] Düşmən qazaqlar, biz *uduzarıq* (R.Rza); **BAXTALAMAQ** (*müxtəlif mənalarda*) [Xortdan:] Sənin bankda nə qədər pulun var, hamısını *baxtaladı* (Ə.Haqverdiyev); **BASILMAQ** (*güləşdə*) Heç kəs onu tanımasa da, Həmid bu qədər camaatın qarşısında *basılmaq* istəmirdi (H.Abbaszadə); **MƏĞLUB OLMAQ** Tahirə də elə bil Baharın qarşısında *məğlub oldu* (B.Bayramov).

2. UDUZMAQ (*məc.*) Rüstəm bildi ki, işi *uduzub* (M.İbrahimov); **FÜRSƏTİ ƏLDƏN BURAXMAQ/VERMƏK** [Sona:] Biz indidən işə başlamasaq, *fürsəti əldən buraxarıq* (H.Nəzərli).

UĞRUNDA (*qoyma kimi; müxtəlif mənalarda*) [Səlimə] öz səadəti *uğrunda* necə çırpındığını.. təfsilatı ilə söylədi (İ.Əfəndiyev); **ÜÇÜN** Məhkəmə sədri *üçün* məsələ aydın idi (S.Hüseyn); **YOLUNDA** Dost *yolunda* bu dünyada; Başından keçdiyin varmı? ("Koroğlu"); **NAMİNƏ.**

uğur *bax* **1.** xoşbəxtlik; bəxt; **2.** nailiyyət

UĞURLU Əlbəttə, illərin *uğurlu*-uğursuz olması insanlardan, onların əməllərindən asılıdır (H.Abbaszadə); **MÜBARƏK** Gördüm nəzakətlə evimə girdi; *Mübarək* qədəmi səfa gətirdi (M.Rahim); **DÜŞƏRLİ, XEYİRLİ.**

1. UĞURSUZ Nə vaxtdır gözlərində hər şey donub buz olub; Elə bil ki, əzəldən dünya *uğursuz* olub (M.Rahim); **BƏDUĞUR** [Şofer] qeyri-şüuri hərəkətlə qazı artıranda, əzələni-axırını cəmləşdirə bilmədiyi *bəduğur* fikirdən ayıldı, başını qaldırdı (B.Bayramov); **MƏŞUM** [Maral:] İki sənə əvvəl böylə *məşum* qara günü kim xatırlardı? (H.Cavid); **ŞUM** (*kl.ad.*) [Zöhra Sonana:] Mən bilməm nədir bu taleyi-*şum!* (H.Cavid); **BƏDŞÜKÜM, NƏHS** (*bax*). **ŞÜKÜMSÜZ.**

2. uğursuz *bax* ayağıağır

UĞURSUZLUQ [Höccətullah:] Bəli, bala nazir, çox təəssüf ki, belə ələgəlməz *uğursuzluq* baş veribdir (S.Rəhimov); **BƏDUĞURLUQ** Nə isə, general gəyiminin bunca *bədüğurluğu* Höccətullah xanı az tərpətməmişdi; heç də ona yaxşı bir şey vəd etmirdi (S.Rəhimov); **MƏŞUMLUQ.**

ULAQ Bəli, Məhəmmədhəsən əmi bir *ulaq* aldı (C.Məmmədquluzadə); **EŞŞƏK** Dəyirmançı bir qoca; Minmiş qara *eşşəyə*; Oğlu da arxasınca; Gedirdilər meşəyə (A.Şaiq); **HİMAR** (*kl.ad.*) Əcəb alimnümayanın, əcəb cahil müridanın; Əcəb vəhşi və heyvanın, otuz milyon *himarın* var (Ə.Nəzmi); **XƏR** (*kl.ad.*) Yeddi-səkkiz ayda xamlamışdı *xər;* Qolları cəng olub qaldı, müxtəsər... (Q.Zakir); **TOŞİ** (*məh.*) [Gülbadam:] Oyan, dur gedək. Dədən səni *toşiyə* mindirəcəkdir.. (N.Nərimanov); **UZUNQULAQ** Çarvadarlar dolu xurcunu *uzunqulağın* belinə aşırar, özləri də üstündə yavaş-yavaş, tələsmədən bu kənddən o kəndə sürərdilər (M.İbrahimov).

ulas *bax* vəlos

ULDUZ [Mirzə Sədrəddin:] Ağzım, dilim qurusun, *ulduzlar* göstərir ki, yaxın zamanda padşahın vücuduna böyük bir bəla toxunacaq (A.Şaiq); **ƏXTƏR** (*kl.əd., şair*) Ulduzlar içində gözümə dəydi bir *əxtər;* Məftun olaraq sevdim onu, heyrətə daldım (A.Şaiq); **KÖVKƏB** (*kl.əd.*) Qədimdən gözlərim *kövkəb* kimidir (Xətayi); **SİTARƏ** Sonra başqa *sitarəyə* cəlb eləyir diqqəti; Söyləyir: "Boldur onun sahibinin dövləti" (M.Rahim).

umuz *bax* çiyin

UNİKAL, NADİR

union *bax* birlik **1**

UNİTAR, BİRLƏŞMİŞ, VAHİD

uniya *bax* birlik **1**

UNİVERSİTET Səmədullanın oğlu Fazil *universitetin* fizika fakültəsində oxuyurdu (Elçin); **DARÜLFÜNUN** (*köhn.*) 1921-ci sənənin noyabr ayından indiyədək Azərbaycan *darülfünununda* Azərbaycan ədəbiyyatı tarixini tədris etməkdəyəm (Ə.Haqverdiyev).

UNUDULMAQ, YADDAN ÇIXMAQ [Xanımların] ..öz ərləri ilə yorğan-döşəklərində necə davranmaqlarının özü də deyəsən *yaddan çıxırdı,* bəlkə də unudulurdu, yaxud unudulmağa başlayırdı (S.Rəhimov); **YADDAN ÇIXARILMAQ.**

UNUDULMAZ [İradə:] O ən *unudulmaz* anım idi (X.Hasilova); **SİLİNMƏZ** (*məc.*) [Bu hadisə] ..qəlbimdə elə *silinməz* nəqş bağlamışdır ki, sanki.. dünən vaqe olmuşdur (S.S.Axundov); **ÖLMƏZ** (*məc.*) Səndəki gözəllik *ölməz* nemətdir; İnsanlar sənətə gəlir səcdəyə (N.Rəfibəyli); **YADDAN ÇIXMAZ.**

unutqan *bax* yaddaşsız

unutqanlıq *bax* yaddaşsızlıq

UNUTMAQ [Sona:] Çoxunu, olbotto, *unutmuşam;* fəqət bunu çox sevdiyimdən unutmamışam (N.Nərimanov); **HUŞUNDAN ÇIXMAQ** Birdən qəbaqdan bir güllə açıldı... yıxıldım... Sonra nə oldu, *huşumdan çıxıb* (Çəmənzəminli); **YADDAN ÇIXAR(T)MAQ** Çox sağ olsunlar ki, Həmidi *yaddan çıxarmırlar* (H.Abbaszadə); **YADIRĞAMAQ** (*bax*).

upuzun *bax* uzun **1**

ur *bax* şiş **1**

uruq *bax* **1.** ailə; **2.** tayfa **1**

urusu *bax* poncərə **1**

urvat *bax* hörmət

urvatlı *bax* hörmətli

urvatsız *bax* hörmətsiz

usandırıcı *bax* bezikdirici

usandırmaq *bax* bezdirmək

usanmaq *bax* bezmək

USTA, SƏNƏTKAR Bunlar adi *sənətkarlar,* daşyonanlar, həkkaklar, zorğərlər, misgərlər, sərraclar, ələbaxa *ustaları,* xəttatlar, nəhayət, şair və alimlər idi (Ə.Cəfərzadə).

ustad *bax* **1.** dədə **1**; **2.** müəllim

UŞAQ *Uşaqların* hay-harayı bir-birinə qarışdı (B.Bayramov); **BALA** *Bala* baldan şirindir (Ata. sözü); **ÇOCUQ** (*köhn.*) Müəllim vicdanlı adamdı. O, *çocuqların* evinə gedir, ailə vəziyyəti ilə tanış olurdu (M.Hüseyn); **TİFİL** [Gülsüm:] Bəs o *tifillər* cəbhədə necə vuruşurlar? (X.Hasilova); **VƏLƏD** (*köhn.*) [Hatəm xan:] Pis *vələdin* üzü qara olsun, dillənə bilmirəm! (S.Rəhimov); **ÇAĞA** (*bax*), **KÖRPƏ** (*bax*), **ÖVLAD** (*bax*).

1. UŞAQLIQ ..amma bu günah hissində artıq bir *uşaqlıq* xatirəsinin iliqliği vardı.. (Elçin); **ÇOCUQLUQ** [Zöhra:] Məqsədimə çatdım. Dörd tərəfim *çocuqluqda* oynadığım yerlər (A.Şaiq); **KÖRPƏLİK** [Xacə Müfid:] Həkimlər və cərrahlar çağırdı, onların hamısı dedilər ki, bu iş ancaq *körpəlik* zamanında mümkündür (M.S.Ordubadi); **TÜFULİYƏT** ..hər bir dərdin həyatında dəxi *tüfuliyət,* gənclik, ərkəklik və ixtiyarlıq kimi müxtəlif dövrlər mövcuddur (A.Şaiq); **TİFİLLİK.**

2. uşaqlıq *bax* bətn

UŞAQ-MUŞAQ [Çıraq:] *Uşaq-muşaq* uduzanda, əlbəttə, dilxor olarsan (İ.Əfəndiyev); **ÇOCUQ-MOCUQ** [Qoç:] Bura *çocuq-mocuq* yeri deyil (H.Abbaszadə); **ÇOLMA-ÇOCUQ** [Vəzir:] Mən inkar etdim ki, Teymur ağada heç güc yoxdur; ogərçi oruc bayramında bir neçə uşaq basdı; amma olar tamam *çolma-çocuq* idilər (M.F.Axundzadə); **QOR-QODUQ** (*məc.*) [Safo:] Hər yerindən qalxan *qor-qoduq* əyninə bir bafta yapışdırıb, əlinə tüpürüb hərləyir.. (S.Rəhimov).

uşaqsız *bax* övladsız

UTANCAQ Kazım *utancaq* bir halda: – O nə sözdür ki, – dedi (Çəmənzəminli); **ANA UŞAĞI** (*məc.*) Dördillik məktəb həyatında özünü *ana uşağı* kimi aparan Səlim birdən-birə dəyişdi (M.Hüseyn); **BAŞIAŞAĞI** [Səfər] fəqir, *başıaşağı* oğlandı... (Ə.Haqverdiyev); **HƏYALI** Bir neçə müddət idi öz şəklini jurnalın arasında çəkirdin, *həyalı* cavanlar jurnalı qabaqlarına açan kimi gözləri sənə sataşanda həya təri basır, utanıb, büküb qoyurdular yerə (M.S.Ordubadi); **MƏHCUB** (*kl.əd.*) [Nəsrulla Salam:] Munis və *məhcub* xanımdır (M.S.Ordubadi); **ŞƏRMƏNDƏ** (*kl.əd.*) Mahü səyyarələr *şərməndədir* yüzümə baxmaqdan; Fələk övcində xurşidi həyada sərnigün görcək (Xətayi); **ARLI.**

UTANDIRMAQ Oğul fikirləşir, anasının dediklərі onu *utandırır..* (Ə.Vəliyev); **BAŞI AŞAĞI ETMƏK** (*fr.v.*) Yalnız teatr sevgisi onları dost-düşmən yanında xar eləyir, ata-ana yanında *başı aşağı edirdi* (S.Rəhimov); **XƏCALƏT VERMƏK** [Kamal:] Mənə çox *xəcalət verirsiniz* – demişdi (Y.Şirvan); **PƏRT ELƏMƏK** [Könül:] Heç yaxşı iş tutmadın, onların yanında məni *pərt elədin* (X.Hasilova); **XƏCALƏTLƏNDİRMƏK, QIZARTMAQ** (*məc.*).

utanıb-qızarmaq *bax* utanmaq

UTANMAQ, HƏYA ETMƏK/ELƏMƏK (*müxtəlif mənalarda*) Baxır, sanki söyləyir *h.rva et, utan* barı; Dünya alçalan görüb hər zaman saxtakarı (M.Rahim); **BAŞI AŞAĞI OLMAQ** [Pirverdi bəy:] Və bir dəfə olmayıb ki, mən dövlət yanında *başı aşağı olum* (C.Məmmədquluzadə); **ÇƏKİNMƏK** (*məc.*) [Qəndab:] Mən həm tutulduğumdan, həm də əmimdən *çəkindiyimə* görə şoferdən Məzahirin niyə qayıtmadığının səbəbini soruşa bilmirdim (B.Bayramov); **HƏYA ETMƏK** Bir-iki küçə dolandısa da Nurəddin *həya edib* bir kəsə ol uzada [dilənə] bilmədi (S.S.Axundov); **QIZARMAQ** (*məc.*) [Leyla:] Heç gözləməzdim. Şəkər, eyib olsun! – Leyla *qızardı* (B.Bayramov); **XƏCALƏT ÇƏKMƏK** [Şəkər:] Düzü budur ki, sizə verdiyim *əziyyət* üçün də sıxılıram, *xəcalət çəkirəm* (B.Bayramov); **UTANIB-QIZARMAQ** [Məmməd] qalxdı, *utanıb-qızararaq* sos gölən tərəfə getdi (Çəmənzəminli); **ARLANMAQ, XƏCALƏTLƏNMƏK, QISQINMAQ** (*dan.*), **SIXILMAQ** (*məc.*).

utanmaz *bax* həyasız
utanmazlıq *bax* həyasızlıq
utopiya *bax* xəyal I
utopizm *bax* xəyalpərəstlik
uyar(lı) *bax* uyğun
uydurma *bax* yalan

UYDURMAQ [Nazlı:] ..guya böyük vəzifə sahibi Xəspolədovu, bax həmin bu Fərəc *uydurub* (Anar); **QONDARMAQ** Mirzə özündən *qondarıb* başqa söz yazır (S.Rəhimov); **GOPLAMAQ** (*bax*); **ÖZÜNDƏN DÜZƏLTMƏK.**

UYĞUN, MÜNASİB, UYAR(LI)

1. UYMAQ *Uymayın* ötəri şöhrətə, ada (B.Vahabzadə); **QAPILMAQ** [Tütünçüoğlu] gənc olmasına baxmayaraq, başqaları kimi həlli müşkül olan arzulara *qapılmazdı* (M.S.Ordubadi).

2. uymaq *bax* uyulmaq I
3. uymaq *bax* aldanmaq

UYĞUNLUQ, AHƏNG, HƏMAHƏNGLİK, MÜNASİBLİK, MÜVAFİQLİK

uyqu *bax* yuxu
uyqulu *bax* yuxulu
uyqusuz *bax* yuxusuz
uyumaq *bax* yuxulamaq

UZAQ, İRAQ (*müxtəlif mənalarda*) [Şirin:] Eldən *uzaq* düşdüm, vətəndən *iraq*: Bir daş qəfəsdəyəm, üzəyim dustaq... (S.Vurğun); **ARALI** Düşmüsən ordudan uzaq, *aralı*: Özün ağır xəstə, ağır yaralı (S.Rüstəm); **CÜDA** (*kl.əd.*) Ey sevdiyim, səndən *cüda* düşəli; Nə səbrü qərarım, nə mərəmim var (Q.Zakir); **GEN** (*dan.*) [Adilə öz-özünə:] Elsevərdən mümkün qədər *gen* gəzmək lazımdır (Ə.Qasımov); **SAQIN** (*köhn.*) *Saqın* gəzin, laçın gözü görməsin; Qorxuram səfnizi poza, durnalar! (M.P.Vaqif).

UZAQGÖRƏN Yox, Yox! Orda *uzaqgörən* oyuqlar da var; Haqq, ədalət, sülh söyləyən dayaqlar da var (S.Rüstəm); **DURBİN** (*məc.*) Özünüz, şükür, *durbin* adamsınız (Mir Cəlal); **KAHİN** [Şapur:] Bir *kahinəm* mən; Dünyada sirr qaçmaz nəzərlərimdən (S.Vurğun); **QABAQGÖRƏN** Xalqın bütün açıqfikirli, *qabaqgörən*, igid və namuslu oğulları.. düşmənlərlə öz mübarizəsini daha artıq gücləndirdi(lər) (H.Sarabski); **UZAQGÖRÜCÜ** Onların arasında.. *uzaqgörücü* adamlar olmuşdur (M.İbrahimov).

uzaqgörücü *bax* uzaqgörən

1. UZAQLAŞDIRMAQ [Səlimə:] Soyuq otaq mənə soyuq bir tolğın edir, həyatda gözəl, cazibədar nə varsa məndən *uzaqlaşdırır* (İ.Əfəndiyev); **ARALAŞDIRMAQ** Hatəmxan sağ əli ilə mollanın döşündən yapışaraq bütün gücü ilə onu özündən *aralaşdırmağa* çalışdı (S.Rəhimov); **AYRI SALMAQ** Gəlin çox yormayın sevgilinizi; Fələk *ayrı saldı* deyəsən bizi (S.Vurğun); **DUR ETMƏK** Göz nurudur uyqu, onu *dur etmə* gözündən; Yol vermə məbada çıxa bir an sözündən (M.Ə.Sabir); **MƏN ETMƏK** [Cavad:] Müəllim olduğumu yazıb bitirmək istəyirdim, lakin nədənsə bir qüvvə məni *mən edir* (A.Şaiq); **SAQINDIRMAQ** [Əbülhəsən bəy:] Bunun müqabilində mən səni iki böyük şərəfsizlikdən və tarixi xəyanətlərdən *saqındırmağa* çalışıram (M.S.Ordubadi); **AYIRMAQ, İRAQLAŞDIRMAQ, KƏNARLAŞDIRMAQ** (*bax*).

2. uzaqlaşdırmaq *bax* qovmaq

UZAQLAŞMAQ Atlılar.. kənddən *uzaqlaşıb* meşəyə doğru getdilər (Ə.Qasımov); **ARALANMAQ** [Davud və Abdulla] klubdan yüz metrə kimi *aralanmışdılar* (H.Abbaszadə); **ARALAŞMAQ, AYRI DÜŞMƏK** *Ayrı düşmüş* vətənindən, elindən; Həmdərdindən *aralanmış* könlümü.. (M.V.Vidadi); **ARALI DÜŞMƏK** İstəkli dostumdan *aralı düşdüm* (Aşıq Ələsgər); **AYRILMAQ** Ayna ilə Ayaz küçədə bir-birindən *ayrıldılar* (Ə.Məmmədxanlı); **UZAŞMAQ** Qırıldı, qaçdı, qoymayın; Gözdən *uzaşdı*, qoymayın! (M.Ə.Sabir); **İRAQLAŞMAQ.**

1. UZANMAQ Sonra Cavanşir otağa girib elə çəkməli, şalvarlı da çarpayıda *uzandı* (Elçin); **BÖYRÜNÜ YERƏ VURMAQ** (*fr.v.*) *Böyrün yerə vurub* çoban dağ üstə; Hərdən deyir bir yanıqlı şikəstə (A.Səhhət); **DÖŞƏNMƏK** Nizami ..ağacın kölgəsinə *döşənib* axşama kimi yazırdı (M.Hüseyn); **SƏRƏLƏNMƏK** [Mehriban] qapının ağzında yerə *sərələndi* (S.Hüseyn); **SƏRİLMƏK** ..Xasay arxası üstə göy çəmənin üzərində *sərilmişdi* (Ə.Vəliyev).

2. UZANMAQ [Çingiz:] Buna "boymadərən" deyirlər, onu kim qoxulasa boyu *uzanır* (B.Bayramov); **BOY ATMAQ** Burda, bu ağacda hər oğlan, hər qız; Bir zaman *boy atıb* bir nər olacaq (S.Vurğun); **ÇAYDAQLAŞMAQ/CAYDAQLANMAQ.**

uzaşmaq *bax* uzaqlaşmaq

1. UZUN [Kəblə Bəybala] *uzun* kəhrəba təsbehini çeviro-çevirə Həmidə baxırdı (H.Abbaszadə); **UPUZUN** (*çox uzun*).

2. UZUN (*məc.*) (*tez başa gəlməyən*) [Qaraş Mayaya:] ..axı gəlin-qayınana işi *uzun* işdir (M.İbrahimov); **TUL** [Aslan bəy:] Mən sənə kömək etməyə hazıram.. Ancaq *tul* çokər (N.Vəzirov).

3. uzun *bax* uzunboy(lu)
4. uzun *bax* sürəkli
uzunboy(lu) *bax* ucaboy(lu)
uzunçu *bax* naqqal
uzunçuluq *bax* naqqallıq
uzundanışan *bax* uzunçu
uzundraz *bax* ucaboy(lu)

1. UZUNQULAQ (*qulaqları uzun olan, bəzən qulaqlı papağa da deyirlər*) [Osmanlı] ..tez *uzunqulaq* papağını çıxardı, boş əlini qulağına apardı (Ə.Kərim); **ÇƏPİŞQULAQ** ..iriburun, yumru çənə, *çəpişqulaq*, alagöz bu oğlanın suyu şirin idi (Ə.Vəliyev); **EŞŞƏKQULAQ** (*evf.*) [Molla Qafar:] ..Ay *eşşəkqulaq*, qaban baş, heç görmüsən yeriyon daş?.. (S.Vəliyev).

2. uzunqulaq *bax* ulaq

Üü

üçbucaq(lı) *bax* üçkünc(lü)
üçguşə(li) *bax* üçkünc(lü)
ÜÇKÜNC(LÜ) Onun böyründə duran qısaboy bir ləzgi əlindəki *üçkünc* kağızı Aslana uzatdı (M.Hüseyn); **ÜÇBUCAQ(LI), ÜÇGUŞƏ(Lİ).**

1. ÜÇÜN (*səbəb bildirir*) Gülsənəm yeköldikcə öz tapdığı yeməklərin ləzzətlisini qardaşı *üçün* gizlər, Şamo evə gəldikdə onun boynuna sarılar (S.Rəhimov); **BİNAƏN** (*köhn.*) Buna *binaən* boşamaq da istəmirdi (N.Nərimanov); **QARŞI** Bəs oxu bu şeri yarə qarşi; Bülbül kimi gülzarə *qarşi* (Xətayi); **ÖTRÜ** [Vəliş:] İbrahim bəyin sözlərini yerinə yetirmək, məndən *ötrü* bəxtəvərlikdir (Ə.Vəliyev).

2. ÜÇÜN (*məqsəd bildirir*) Bu, müştəri yığmaq *üçün* yalandan yazılmış sözlər deyildi.. (Elçin); **ÖTRÜ** [Sevər:] Qızları da göndərərəm ki, çöldən sənin üçün tac qayırmaqdan *ötrü* çiçək dərsinlər (C.Cabbarlı).

3. üçün *bax* uğrunda
üdüləmək *bax* naqqallamaq
üfləmək *bax* üfürmək
üfunət *bax* qoxu
üfunətlənmək *bax* iylənmək
ÜFÜRMƏK Veysəl qayıdıb əyləşdi; tumbanın gözünü çəkib papiros çıxardı, kibriti odlayanda Ziynət dərhal *üfürüb* keçirdi (B.Bayramov); **PÜFKÜRMƏK** Papiros tüstüsünü *püfkürərək* ağzından; O dalıb fikrə, baxır qurğuya heyran-heyran (S.Rüstəm); **PÜFLƏMƏK** [Mirzə Abbas:] Amma, hayıf və heyf, nə qədər *püflayirəm* tütək heç bir səs vermir (C.Məmmədquluzadə); **ÜFLƏMƏK** Güləbətin tüstüləyən, lakin heç cür alışmayan samovara yaxınlaşdı, dudkeşi götürüb bərk-bərk *üflədi*.. (M.İbrahimov).
üqab *bax* qartal
ülfət *bax* hüsn-rəğbət
1. ÜLGÜ, QƏLİB, ŞABLON
2. ÜLGÜ, BİÇİ(M), FASON, FORMA, MODEL, ÖLÇÜ (*paltarda, ayaqqabıda və s.-də*)
ülgüləmək *bax* biçmək **2**
ÜLKƏR (*astr.*) [Alı:] Axırda qar o qədər ucalmışdı ki, keçinin buynuzları *Ülkər* ulduzuna dəyirdi (Çəmənzəminli); **YEDDİQARDAŞ** O deyərdi: "Bu ağaran – hacıların yoludur; *Yeddiqardaş*, ulduzların hamısının yoludur" (M.Rahim); **PƏRVİN, SÜRƏYYA.**
ülüş *bax* lavaş
1. ÜLVİ Şəfqət! Nə *ülvisən*, şəfa səndədir; Ağır xəstələrə dava səndədir (M.Rahim); **MÜQƏDDƏS** (*məc.*) Coşdu könlümdə *müqəddəs* əməlim (S.Rüstəm); **UCA** (*məc.*) Gözəldir bir *uca* əməl bəsləyib; Bu əməl uğrunda qan-tərə batmaq (M.Müşfiq); **ALİ, YÜKSƏK.**
2. ÜLVİ, TƏMİZ, PAK
ÜMDƏ, BİRİNCİ, ƏN BAŞLICA, ƏN ƏSAS, ƏN MÜHÜM
ÜMİD [Meri:] Mən imza qoymuşam. Yeganə *ümidimiz* budur (R.Rza); **EHTİMAL** ..vaxta ki, bir-birinizdən ayrıldınız, sizin puç olmağınıza çox *ehtimal* var, necə ki, bu yerdə tökülən çubuqlar.. (N.Nərimanov); **GÜMAN** *Gümanım* budur ki, ola ziyadə; Günbəgündən etibarım yanında (Q.Zakir); **ŞANS.**
ÜMİDSİZ (*ümidini kəsmiş*) Kərəm ömründə bu qədər qəmgin və *ümidsiz* olmamışdı (M.Hüseyn); **MƏYUS** [Direktor] *məyus* nəzərlərlə Könülü süzüb, yanında durmuş adamlara, birinci növbədə, konferansye qıza müraciətlə dedi: – Salonu sakitləşdirin (X.Hasilova); **NAÜMİD** [Sevindik:] İnanın mənim sözlərimə, gələcək barədə *naümid* olmayın (M.Hüseyn).
ÜMİDSİZLİK, NAÜMİDLİK, MƏYUSLUQ
ümman *bax* okean
ümumbəşəri *bax* ümumxalq

ümumən *bax* elliklə
ÜMUMXALQ Avqust ayının 29-da Çokyakartada biz "Sekaten" adlanan *ümumxalq* bayramında iştirak etdik (M.İbrahimov); **ÜMUMBƏŞƏRİ** O günün həsrətilə yaşayır, o günü yaxınlaşdırmağa çalışırdıq ki, *ümumbəşəri* dostluq və qardaşlıq dövlətlərin də siyasətinə, axlaqına istiqamət verəcək, həyat tərzini müəyyən edəcək, heç kəs, heç kəsi hədələməyəcəkdir (M.İbrahimov).
ÜMUMİYYƏTLƏ (*ara söz kimi*) *Ümumiyyətlə*, elə bil ki, meyvələr get-gedə dadsızlaşırdı.. (Elçin); **BİLCÜMLƏ** Bir gün gələ bidar ola *bilcümlə* cəmaət; Təzviri-ibadətdən edə fərq bu millət (M.Ə.Sabir); **BİLÜMUM** Və bir də bu məktəblilər *bilümum*; Oxurlar kəmalınca ali ülum (M.Ə.Sabir).
ün *bax* səs **1**
ünqa *bax* ənqa
ünləmək *bax* çağırmaq **1**
1. ÜNSİYYƏT (*dilç.*), **ƏLAQƏ, RABİTƏ, KOMMUNİKASİYA**
2. ünsiyyət *bax* əlaqə **1**
3. ünsiyyət *bax* təmas
ÜNVAN [Gülsüm:] Adam da sürücü tayfasına *ünvan* verər (X.Hasilova); **ADRES** Bakıda *adreslərini* aldığı adamları görmək lazım idi (M.S.Ordubadi).
ÜRƏK Ağagül "aerodrom" papağını başından çıxarıb köhnə divanın üstünə çırpdı və *ürəyində* Yer üzündəki bütün pis adamlarçün, o cümlədən də, təbii ki, Zübeydəçün hansı söz lazımıydısa, o sözü də dedi (Elçin); **BAĞIR** Dedi: "Ömrüm xoş günlərlə bağlıdır; Kim deyir ki, *bağrım* başı dağlıdır?" (M.Rahim); **DİL** (*kl.ad.*) Müjdə ey *dil* ki, səni görməyə canan gəldi; Əlini çal ələ, can-can söylə ki, can gəldi (Nəbati); **KÖKS** (*məc.*) Çəkilib *köksümə* dağlar, düyünlər (Q.Zakir); **KÖNÜL** (*şair.*) Eşqə çırpınan *könül* diyarı; Məni çəkmişdi bir məzara sarı (A.Şaiq); **QƏLB** (*şair.*) *Qəlb* aralanmır, bədən üzvlərinin bir çoxu qoymurdu (Ə.Vəliyev); **RUH** (*məc.*) Qızdırmadan bədənim narahat olur, amma qızıl dükanlarından *ruhum* rahatsız olur (C.Məmmədquluzadə).
ÜRƏKAÇAN Axı, o [Fərid], ömründə bu qədər gözəl yerlər, *ürəkaçan* mənzərələr görməmişdi (M.İbrahimov); **DİLARA** (*kl.ad.*) Dəhanı gül-şəkər, zülfü *dilara;* Gibi, qoynu hilli, ey sənəm-sənəm (Nəbati); **DİLFİRUZ** (*arx.*) [Sitarə:] Ox, nə qədər də gözəl, sanki səmadan enmiş bir firiştəyi-hüsn, yaxud bir alihəyi-ləhndir ki, fəryadi-*dilfiruzi* yaşıllıqlar altında titrəyə-titrəyə bu qocaman ormanın göbəyinədək yayılır (A.Şaiq); **DİLGÜŞA** (*kl.ad.*) Niqabın üzdən aç, ey gül; Kim, olsun *dilgüşa* məclis (S.Ə.Şirvani); **DİLKEŞ** (*kl.ad.*) Ey camalı günəş, zülfləri *dilkeş;* Cana saldın atəş çıxanda sərxoş (M.P.Vaqif); **DİLRÜBA** (*şair.*) Azərşəhr, doğrudan da, Azərbaycanın *dilrüba* bir guşəsidir (M.İbrahimov); **KÖNÜLAÇAN** ...Hamı təzə paltarda, süfrəyə çörəz və səməni otu qoyulmuş, *könülaçan* söz danışır... (Çəmənzəminli); **DİLBAZ** (*kl.ad.*); **FƏRƏHLƏNDİRİCİ, RƏVANBƏXŞ** (*kl.ad.*).
ÜRƏKGETMƏ(Sİ) [Zöhra:] Axır zamanlarda [Çingiz] *ürəkgetmə* azarına düşübdür (S.S.Axundov); **ÜRƏKKEÇMƏ(Sİ)** *Ürəkkeçməsi* olanlar, baş ağrısına mübtəla olanlar, bir para xəstəliklərə tutulanlar hamısı Ağ Mollanın duası ilə mərəmlarına çatmaq istəyirlər (Ə.Haqverdiyev); **BAYĞINLIQ.**
ürəkkeçməsi *bax* ürəkgetməsi
ÜRƏKLƏNMƏK Sonra yavaş-yavaş *ürəklənib* yenə əvvəlki Mirzoppa kimi böyük-böyük danışmağa başladı.. (Elçin); **CÜRƏTLƏNMƏK** Hamı uşağa tərəf döndü, uşaq *cürətlənib* hərəkətə gəldi (Mir Cəlal); **RUHLANMAQ** Cahangir qoca atasının bu sözlərindən daha da *ruhlandı* (M.Hüseyn); **CƏSARƏTLƏNMƏK** (*bax*).
ürəkli *bax* **1.** cəsarətli; **2.** igid
ürəkotu *bax* bədrənc
ürəksiz *bax* **1.** qorxaq; **2.** könülsüz
ürəyəyatan *bax* xoşagələn

ürəyinazik *bax* ürəyiyumşaq
ürəyiincə *bax* ürəyiyuxa
ürəyitəmiz *bax* safürəkli
ürəyiyuxa *bax* ürəyiyumşaq

ÜRƏYİYUMŞAQ [Əbdülqadir:] Yox, bura mənim kimi *ürəyiyumşaq* adamın yeri deyil (Ə.Hacızadə); **İNCƏQƏLB(Lİ)** Mahirə *incəqəlbli*, təmiz, olduqca həssas bir qız idi (Y.Şirvan); **QƏLBİNAZİK** Özün çox *qəlbinaziksən*, hamını da elə bilirsən (M.S.Ordubadi); **RƏHMDİL** Mən sənin bir *rəhmdil* səyyadınam, gəl qoynuma.. (M.Müşfiq); **ÜRƏYİNAZİK** [Rəşid:] Hamı bilir ki, mən necə *ürəyinazik* adamam, heç qarışqaya da qəsd eləmərəm... (M.İbrahimbəyov); **YUXAÜRƏKLİ** [Nazlı:] Mən sən düşündüyün qədər də *yuxaürəkli* deyiləm (Ə.Kərim); **ÜRƏYİİNCƏ, ÜRƏYİYUXA.**

ürfan *bax* maarif

ÜRPƏRMƏK (*tük haqqında*), **BİZ-BİZ DURMAQ, DİKƏLMƏK, QABARMAQ, ÜRPƏŞMƏK**

ürpəşmək *bax* **1.** ürpərmək; **2.** titrəmək
üryan *bax* çılpaq **I**
ÜSLUB (*dilç.*), **STİL, TƏRZ, DİL**
ÜSLUBİ (*dilç.*), **STİLİSTİK** (*üslub bazımından*)
ÜSLUBİYYAT (*dilç.*), **STİLİSTİKA**
üst-baş *bax* paltar

ÜSUL (*müxtəlif mənalarda*) [Rüstəm bəy:] Bu *üsul* ilə nə qədər şər salmışam, özüm də hesabını itirmişəm (S.S.Axundov); **ÇƏM** (*dan.*) [Çingiz:] ...Bəri başdan mənə suyun yerini, evin-eşiyin *çəmini* öyrədin (C.Məmmədquluzadə); **DÜSTUR** Həmən bu *düstura* öyrənib də sən; Əli oğlu ər kimi tab et bəlaya (S.Vurğun); **QANUN** ...hər bişmişin öz *qanunu* və öz xəstiyyəti var (C.Məmmədquluzadə); **QAYDA** [Şahbaz bəy:] Gələn il bir özgə *qayda* ilə paltar geyəcəklər (M.F.Axundzadə); **MİNVAL** [Qarovulçu:] Bu *minvalla* hökumətin iki yüz otuz üç pud ununu oğurlayıblar (H.Abbaszadə); **SİSTEM** [Qubernator:] Yox, bu *sistemdir*, plandır (C.Cabbarlı); **TƏHƏR** [At:] ..bir də poladdan bir biçaq qayırtdırsın, sonra mən sənə *təhərini* deyərəm (Nağıl); **TƏRİQ** Axlıyev münaqişə *təriqi* ilə yazdığı sonrakı məqalələrində əsas yanlış fikrini bir az da dərinləşdirdi (M.İbrahimov); **TƏRZ** Arvad gözucu vuruğuyə baxıb, iri ağzının qalın dodaqlarını iyrənc bir *tərzdə* büzdü (H.Seyidbəyli); **VASİTƏ** Mirzə Səfər çəitmişdi ki, şeir yazmaq üçün iki *vasitə* lazımdır: xəlvət otaq və bir şüşə şərab (Ə.Haqverdiyev); **VƏCH** (*kl.əd.*) Elə asan *vəchlə* başa düşdülər ki, dəxi bu dildən başqa qeyri bir dil axtarmağa hacət qalmadı (C.Məmmədquluzadə); **VƏSİLƏ** [Mirzə Məhəmmədqulu:] Bu *vəsilə* ilə sizləri bəlkə qaranlıq aləmindən çıxardı (C.Məmmədquluzadə); **YOL** (*dan.*) [Hacər xanım:] Onda birca *yol* qaldı (S.S.Axundov); **METOD, TAKTİKA** (*bax*).

ÜSUL-İDARƏ (*dövlət quruluşu*) [Qızıl Arslan:] Torpaq quruluşu işlərini dəyişmək istəsək, hökumət və dövlət *üsul-idarəsini* dəyişməliyik (M.S.Ordubadi); **EHKAM** Lakin burada, bu *ehkamda* sinfi ayrı-seçkilik var idi; məzlum və zalım var idi; məhkum və hakim var idi (S.Rəhimov); **QURULUŞ** Dövlət *quruluşu* belədir, məmləkətdə qəyulmuş qanunların hamısı zəncirin halqası kimi bir-birinə bənd olubdur (M.S.Ordubadi).

üsyan *bax* qiyam
ÜSYANÇI, ASİ, QİYAMÇI (*bax*)

ÜŞÜMƏK Küçələrdə it soyuqdan zingildəyir, *üşüyür* (A.Səhhət); **DİŞİ DİŞİNƏ DƏYMƏK** [Nazlı əri Mirzə Çoporova:] ..özünə bir istica çul toxusaydın.. bir ocağı keçmiş yoxsul, yağışlı rüzgarda, həmin çuluna bürünərdin... nimdaş paltonun içində *dişin dişinə dəymədi!*.. (S.Rəhimov); **BUYUXMAQ, DONMAQ** (*bərk üşümək*), **VİCƏLƏNMƏK** (*yüngülvari üşümək*).

ÜZ Bu mənzərəni görən Cahangirin hiddətli *üzü* birdən şən bir təbəssümlə parladı, dodaqları açılaraq, şaqqıltılı bir qəhqəhə qopdu (Çəmənzəminli); **BƏNİZ** O zaman

bu gözəl çıraq kimi Leyla müəllimənin bütün üzünə işıq salır və solğun *bənizində* soyuq bir mehribanlıq görürdük (M.İbrahimov); **BƏT-BƏNİZ** [Tutuboyim:] Özü ikicanlı, zəif, xiffət eləməkdən *bət-bənizi* qaçıb (Çəmənzəminli); **CAMAL** Mən səni xoşlayıram ən gözəl şeir kimi; Görürəm *camalını*, mənə görünməsən də (M.Rahim); **ÇÖHRƏ** Nurlu yerində sakit otursa da, *çöhrəsi* gülürdü (H.Abbaszadə); **DİDAR** (*arx.*) Tale yarı yardan aralı saldı; Öksüz ruhum *didarə* həsrət qaldı (H.Cavid); **QABAQ** (*arx.*) Büllur buxaq, lalə yanaq, ay *qabaq*; Şahmar zülfü pərişanlar dolanır (Aşıq Əlosgor); **LİQA** (*kl.əd.*) Göstərdi mahi-ruzə üfüqdən *liqasını*; Çıxdı əzəncılar da obaşdan solasını (A.Səhhət); **RÜXSAR** (*kl.əd., şair.*) Ta ki, məni gördü ol qəlbi qara; Çıxdı yaşmağını o gül *rüxsarə* (M.P.Vaqif); **RÜ(U)X** (*kl.əd., şair.*) Xoti reyhanüdür gər kim, göyərmiş kövsər üstünə; Və ya *rüxundən* ayətdir oxunmuş bədr ilə ayə (Nəsimi); **SİFƏT** Qarşın sifətini çulğayan kədər o qədər qalınlaşdı ki, az qala ata oğlunun *sifətini* tanımamaq dərəcəsinə gəldi (Ə.Vəliyev); **SİMA** Əvvəlki şirin xəyallar və xoş ümidlər [Fikrətin] *simasını* örtdü (M.İbrahimov); **SURƏT** O saat Qaraoğlanın vahimələ, pırtlaq gözləri və çapıq *surəti* gözlərinin önündə dururdu (S.S.Axundov); **ÜZAR** (*arx.*) Hala da tülu etmədimi fəslibaharın?! Ey canlı çiçək, örtülü qalsınmı *üzarın?!* (M.Hadi); **VƏCH** (*kl.əd., şair.*) Leyk hanı səndə bəsirət gözü; Ta görəsən *vəchi*dilarəsimi?! (M.Ə.Sabir).

üzar *bax* yanaq, üz
üzbarı *bax* qabaq-qabağa
üzbəsurət *bax* üzbəüz

ÜZBƏÜZ Fikrət qadının qolundan yapışıb, ..dəyirmi stolun arxasında oyləşdirdi, özü də onunla *üzbəüz* oturdu (H.Abbaszadə); **DİZ-DİZƏ** Təbiət bizimlə durub *diz-dizə*; Başından keçəni danışır bizə (S.Vurğun); **QABAQ-QƏNŞƏR** [Vəliş:] Elə ki, *qabaq-qənşər* oturub şirin söhbətə başladıq.. (Ə.Vəliyev); **NƏFƏS-NƏFƏSƏ** Tahir [Lotifə ilə] *nəfəs-nəfəsə* dayandı (M.Hüseyn); **RUBƏRU** Dün mənimlə *rubəru* buldu nigar, oldu rəqib (Xətayi); **ÜZBƏSURƏT** Rəiyyət Vəliş Qarabağın məşhur mülkədarı İsmayıl boylə *üzbəsurət* oturub danışır (Ə.Vəliyev); **ÜZ-ÜZƏ** Bir azdan o, sədrlə *üz-üzə* dayanmışdı (X.Hasilova); **QABAQ-QABAĞA** (*bax*).

ÜZƏNGİ, RİKAB Abbas ohd eləmişdi ki, Gülgəz Pəriyə çatıb onu kocavəyə mindirəndə onun *üzəngisini* özü basıb ata mindirsin. Abbas sözünü qurtarıb Gülgəz Pərinin *rikabını* basıb, ata mindirdi ("Abbas və Gülgəz").

ÜZGÜÇÜ [Gimon:] *Üzgüçü* qorxusuz üzər həmişə (A.Şaiq); **DALĞIC** (*su keçirməyən paltarla su altında üzən üzgüçü*) Xilasetmə stansiyası heyətinin starşınası, 1-ci dərəcəli *dalğıc* Mixail Arzamaskin kursu dəyişib hadisə yerinə dalğaların istiqamətində yaxınlaşmağı əmr etdi (Qəzetlərdən); **QƏVVAS** (*köhn.*) *Qəvvas* olub o dəryada mən çox üzmək istədim (B.Vahabzadə); **ÜZÜCÜ** Horçəndi Yasəmən çox *üzücü* idi, amma bu iti axan, daşları və böyük kölləri yumalayan seldə üzmək mümkün deyildi (S.S.Axundov).

ÜZGÜN [Zakir] sonra *üzgün* bir halda cavab verdi (H.Seyidbəyli); **HALSIZ** [Mehriban] çox *halsız* idi (S.Hüseyn); **ÜZÜK** [Kərəm:] Dərdi qəm çəkirəm, üzüyəm, *üzük* ("Əsli və Kərəm"); **ƏZGİN, ƏZİNİK, YORĞUN** (*bax*).

I üzmək *bax* dərmək
II üzmək *bax* yormaq

ÜZRLÜ (*icazəli olan*) Ancaq yenib-qalxan döşünü əli ilə basaraq, qızışmış mühakimosini toplamaq, *üzrlü* bir bəhanə ilə içəri girmək üzərində dayandı (S.Rəhimov); **MƏZUR** [Şeyx Sənan:] Məni, şeyxim, bağışla, *məzurim*; Çünki moğrur, həm də mənvurim (H.Cavid); **SƏBƏBLİ.**

ÜZRSÜZ, BİÜZR, SƏBƏBSİZ
üzsilən *bax* möhrəbə

I üzücü *bax* üzgüçü
II üzücü *bax* yorucu
üzgülər *bax* gülərüz(lü)

1. ÜZÜK [Rübaba:] Sərvinaz xanım hörsünü verib, qızın barmağına *üzük* taxıb gediblər (H.Abbaszadə). **ƏYRİMÇƏ** (*dial.*) Səksən oxu *ayrımçadan* keçirdim; Heç kamımda arzumanım qalmadı ("Koroğlu"); **HALQA** Gözlərin sanki bu Göy göl kimidir; *Halqa* üstündəki zümrüd kimidir (M.Müşfiq); **XATƏM** (*köhn.*) Barmağında *xatəm*, belində kəmər; Telində güşvarə, duymə tamam zər (Q.Zakir). **BARMAQLIQ.**

2. üzük *bax* üzgün

ÜZÜQARA Əslində, lap əslində, Zübeydə bu dənizin yanında da *üzüqara* idi (Elçin); **XƏCALƏTLİ** (*bax*).

üzülmək *bax* yorulmaq

ÜZÜM Nə olar ki, bir səhər qapımızdan girəydin; Uzanıb o kəhrəba *üzümündən* verəydin (M.Rahim); **ƏNGUR** (*kl.əd.*) Nagəh səsini eşitdi *əngur*: Qeyzə xəlib oldu məsrur-məsrur (Füzuli).

ÜZÜYOLA Yerli-yersiz yox, ancaq yeri düşəndə fürsəti oldən vermədən qeyd edirdi ki, əsil olmağın və yaxşı oxlaqın birinci şərti elə budur ki, başaşağı, *üzüyola* olasan, söz ağızdan çıxan kimi yerinə yetirəsən (M.İbrahimov); **SÖZƏBAXAN** [Sabirov:] O ki qaldı bu iki nəfər işgüzar, *sözəbaxan*, icraçı uşaqlardır (Y.Şirvan); **YÖNLÜ** Ağıllı övlad, *yönlü* bala adamın qalxması üçün ən sehrli qanad deyilmi? (S.Rəhimov).

üzüyuxarı *bax* ağzıyuxarı
üz-üzə *bax* üzbəüz
üzv *bax* əza **I**

Vv

vabəstə *bax* əlaqədar
vadi *bax* **1.** dərə; **2.** səhra
VAHİD, BİR, TƏK, YEGANƏ, YALQIZ (*bax*)
1. VAHİDLİK, TƏKLİK
2. vahidlik *bax* birlik **2**
vahimə *bax* qorxu
vahimələndirmək *bax* qorxutmaq **I**
vahimələnmək *bax* qorxmaq
vahimәli *bax* qorxulu

I VAXT Yalnız ikicə gün *vaxtımız* qalmışdı (M.Hüseyn); **ÇAĞ** (*dial.*) Kölgədə keçmişdir uşaqlıq *çağım*; Ömrümün vahidi oldun, ey çinar (S.Rüstəm); **MƏQAM** Ayrılıq *məqamı* hamı pərişan; Qolunu boynuma salan yar hanı (Aşıq Məmməd); **MÖHLƏT** (*dan.*) [Ordu komandanı:] Mənə bir ay *möhlət* kifayətdir... (M.Hüseyn); **MÜDDƏT** (*bir işin görüldüyü zaman*) Yarış müqaviləsinin *müddəti* oktyabrın 30-da qurtarırdı (M.Hüseyn); **SAAT** .. mən.. bu cansıxan, yarıqaranlıq otaqda *saatlarımı* saya-saya çörəkpulu qazanmalıyam (M.Hüseyn); **VƏDƏ** Şəbanın *vədəsi* tamam oldu.. (Ə.Haqverdiyev); **ZAMAN** Aradan üç aya qədər bir *zaman* keçmişdi (S.Hüseyn).

2. vaxt *bax* dövr, çağ **I**
3. vaxt *bax* macal **I**
vaxtsız *bax* gec
vaqiə *bax* **1.** yuxugörmə; **2.** hadisə **I**; əhvalat
vaqiən *bax* doğrudan
valeh *bax* vurğun, məftun
valehedici *bax* məftunedici

VALET, SOLDAT (*kart oyununda*) [Mehdi bəy:] Qospoda, bu andan bizim aramızdan *valet, soldat* ləfzləri götürülür (S.S.Axundov).

1. VALİ (*köhn.*), **VİLAYƏT HAKİMİ**
2. vali *bax* qubernator
valid *bax* ata

VALİDEYN, ATA-ANA [Sofurə:] *Valideyn* övlad üçün fərəh, başucalığı olmalıdır. Uşaq *ata-anasına* baxanda sevinməlidir (H.Abbaszadə); **ƏBƏVEYN** (*kl.əd.*) Hər gün *əbəveyni* şad edirlər; Hörmətlərin izdiyad edirlər (M.Ə.Sabir).

validə *bax* ana

VALLAH, BİLLAH, TALLAH (*kimsəni inandırmaq üçün Allahın adı ilə bağlı and*) [Salman bəy:] *Vallah, billah, tallah* təngə gəlmişəm.. (N.Vəzirov); **ALLAHA AND OLSUN** [Vəli:] *Allaha and olsun*, əgər ayaq geri qoyarsan şeytanını çəkib qarnını tüstü ilə doldurram (M.F.Axundzadə).

vandal *bax* vəhşi **I**
vandalizm *bax* vəhşilik
vandallıq *bax* vəhşilik
vanəfsa *bax* fəryad
vanna *bax* ləyən
vapor *bax* paroxod

I VAR [Ağamürsəlin] ən böyük məqsədi atasının *varına* yiyələnmək.. idi (A.Şaiq); **DÖVLƏT** Xanın qardaşı oğlu o gün keçdi xanlığa; Əl atdı yamanlığa; Talan etdi sarayım *dövlətini*, varını (B.Vahabzadə); **HAŞAN-KAŞAN** (*məh.*) İmranın *haşan-kaşani* aşıf daşır (ADDL); **MAL** Divanədirlər *malını* bu yolda qoyanlar (M.Ə.Sabir); **MAL-DÖVLƏT** [Kərim:] Hər şeyimiz var. Mənə *mal-dövlət* lazım deyil, Könül lazımdır (X.Hasilova); **MAL-MÜLK** [Paşa bəy:] Bu qədər cah-calal, ad-san, şan-şöhrət, *mal-mülk* əldən çıxsa dözmək olarmı? (Ə.Vəliyev); **MÜLK** [Hacı Abdulla:] Qızın yaxşı cehizi, *mülkü* və maaşı var (N.Nərimanov); **SƏRVƏT** *Sərvət* gətsə qəm deyil, *sərvət* gələr yenə də (B.Vahabzadə); **TANQAH** Başı göra əsənlər, yırtmağa tələsənlər; *Tanqahının* üstündə əsim-əsim əsənlər (R.Rza); **TAVANA** Əlində qələmi, ev boş, ev soyuq; Bircə şam almağa *tavanası* yox (B.Vahabzadə); **VAR-DÖVLƏT** [Gülsənəm:] Kişi gecə-gündüz əlləşir, *..var-dövlətini* göz bəbəyi kimi qoruyur (M.Hüseyn); **VARİYYAT** Molla sonbeşik Salehdən bəri başdan xeyli

varlıyaz qoparıb evinə yollandı (S.Rəhimov); **VAR-YOX** [1-ci kəndli:] ..olmə bir az *var-yox* düşdü, neyləyəcəksən?.. (S.Rəhimov).

II var *bax* varlıq **I**

vardırmaq *bax* çatdırmaq

var-dövlət *bax* var **I**

varidat *bax* gəlir

varis *bax* vərəsə

variyyat *bax* var **I**

VARLANMAQ (*var-dövlət sahibi olmaq*) [Almaz:] Biz razı olmamalıyıq ki, başqa kəndlilər tərəqqi edib *varlandığı* halda, bizim kəndimiz geridə qalsın (C.Cabbarlı); **DÖVLƏTLƏNMƏK** [Mahmud bəy:] Kasıb dövlətlidən daha qəvidir; Qəm yemə, çox çəkmə *dövlətlənərsən* (S.Rüstəm); **KASIBLIĞIN DAŞINI ATMAQ** (*fr.v.*), **PULLANMAQ** (*dan.*), **VAR-DÖVLƏT SAHİBİ OLMAQ, ZƏNGİNLƏŞMƏK.**

VARLI (*var, dövləti çox olan, pullu*) [Ulduz:] Həmzəgil *varlıdır*, sizin heç şeyiniz yoxdur (M.İbrahimov); **DÖVLƏTLİ** Fəqir əhli qənilərlə mülaqat edə bilməz; *Dövlətlinin* insanlığın isbat edə bilməz (M.Ə.Sabir); **DÖVLƏTMƏND** Ağa Hüseyn bir *dövlətmənd* şəxs idi (Ə.Haqverdiyev); **KALAN** (*dan.*) [Əli:] Bildilər ki, *kalansan*, vəssalam, qurtardı getdi (Anar); **QARUN** (*çox varlı*) (*köhn.*) [Molla Salman:] Hacı Nuru, sənin qiyasına görə, mən görək *qarun* olaydım.. (M.F.Axundzadə). **QƏNİ** (*köhn.*) Deyir: "Böyük yaradan, aləm bilir *qənisən*" (M.Rahim). **MİLYARDER** [Nurəngiz:] Belə üzüyü mirdə *milyarder* Rokfellerin çuvıxası taxır.. (Ofqan); **MİLYONÇU** (*dan.*) (*çox pulu olan*) Milyonçu Ağa Musa ilə *milyonçu* Şəmsinin saxlancları geyimiş-kecinməkdə bir-birilə yarışa girmişdilər (A.Şaiq); **MİLYONER** (*dan.*) [Murtuz:] İndi Zaki, öz aramızdır sən də *milyoner* deyilsən də, dədədən sənə dövlət qalmayıb, meşədə xəzinə tapmamısan, movacibə baxırsan, külfətin də maşallah bir çoxu (Anar); **SƏRVƏTDAR** [Zaki Əyrəfə:] Sənin və atan Ağamürsəl kimi *sərvətdarların* daşqın və coşqun yaşadığına nədən hökm edirsən? (A.Şaiq); **SƏRVƏTLİ** ...*Sərvətlilər* qızlarını basdırırdılar (Çəmənzəminli); **TAVANALI** [Qorxmaz:] ..biz daha iri, *tavanalı* və güclü ..birləşməliyik (Ə.Vəliyev); **VARLI-HALLI** (*dan.*) Bu kişi *varlı-hallı* bir adam idi (Ə.Haqverdiyev); **VARLI-KARLI** (*dan.*) [Balağa:] Yarışı Əsəd adlı bir *varlı-karlı* kişi keçirirdi (H.Abbaszadə); **ZƏNGİN** (*çox varlı*) [Rəna:] Çünki son *zəngin* olduğun zaman yoxsul bir qızı atacaq və "səviyyəmiz bir deyil" – deyə zəngin bir qız axtaracaqsan (M.S.Ordubadi); **BAŞIƏTLİ** (*dan., zar.*), **PULLU** (*dan.*), **VARLI-DÖVLƏTLİ.**

varlı-hallı *bax* varlı

varlı-karlı *bax* varlı

1. VARLIQ, MÖVCUDİYYƏT Bəlkə lap ərlə arvad arasında belə bir münasibətin *varlığından, mövcudiyyətindən* də bixəbər idi (Ə.Cəfərzadə); **DİRİLİK** [Qədir:] Mən yeköləkdə adamın *diriliyini* danırlar (Mir Cəlal); **VAR** Ahü zar çəkməkdən yox olub *var*; Saf aynası tutub möhnət qubarı (Q.Zakir); **VÜCUD** Molla Xəlil işini bilən bir adam idi. Kəndlilər onun *vücudunu* özləri üçün bir nemət bilirdilər (M.Hüseyn).

2. varlıq *bax* bədən

3. varlıq *bax* güc

4. varlıq *bax* həyat

varmaq *bax* getmək **1**; çatmaq **I 1**

var-yox *bax* **1.** vur-tut; **2.** var **I**

vasitə *bax* **1.** vasitəçi; **2.** üsul

VASİTƏÇİ (*iki şəxs və ya tərəf arasında əlaqə düzəldən adam*) [Qəndab:] O gündən onların arasında *vasitəçi* oldum (B.Bayramov); **ARAÇI** Mahmud ..öz ürəyini soyutmaq istəyirdi. Lakin *araçılar* buna mane oldular (A.Makulu); **DİLMANC** (*məc.*) [Ağa Nəriman xana:] Bədircahan, bari sən *dilmanc* ol bizim aramızda (N.Vəzirov); **MİYANÇİ** Ey ortada *miyançı* şəklini alan hərif; Yetər, məni eylədin təbliğ və sandın zəif (S.Rüstəm); **VASİTƏ** [Molla:] Şamil xahiş etdi ki, mən *vasitə* olam və bəlkə Məşədi Məmmədəlini yumşaldam (C.Məmmədquluzadə).

VASİTƏÇİLİK (*arada vasitə olma*) [Azər:] Mənə heç kəsin *vasitəçiliyi* lazım deyil (M.İbrahimov); **MİYANÇILIQ** [Şirin:] Qocalandan sonra başladı əvvəl *miyançılığı* (N.Vəzirov); **VƏSATƏT** ..ancaq onun *vasatitlə* bir ayrı tacirdən böyük səlomlə pullanırıq (Çəmənzəminli); **ARAÇILIQ.**

1. VASVASI (*hər şeydən iyrənən*) ..hamı bilir ki, bizim sədrimiz hər adama ürək qızdıran deyil. *Vasvasının* biridir (İ.Əfəndiyev); **OVSUN.**

2. vasvası *bax* xırdaçı

veveyla *bax* fəryad

vay *bax* ölüm, matəm

vayıldamaq *bax* zarımaq

vaysınmaq *bax* heyfsilənmək

vazeh *bax* aşkar

vazımaq *bax* qaçmaq **1**

VECSİZ (*heç bir işə yaramayan*) ..Cavanşir bu saat dünyanın ən əbləh, kütbeyin və *vecsiz* adamı idi (Elçin); **BİKARA** Onu (padşahı) sustrəy və *bikara* bilirəm (M.F.Axundzadə); **BİVEC** [Gülcamal:] Gör nə qədər *bivecsiniz* ki, bir dəqiqənin içində məni gah elə görürsünüz, gah belə (M.İbrahimov); **XEYİRSİZ, KARSIZ** Mən hərdən oturub fikirləşirəm və bu əqidəyə gəlirəm ki, bizim çoxumuzu bədbəxt edəm *karsız*, vecsiz və *xeyirsiz* qohumlarımızdır (Ə.Vəliyev); **GƏRƏKSİZ, YARARSIZ.**

VECSİZLİK ..Cavanşir belə hiss etdi ki, bu bircə anın içində bu qədin onu.. tanıdı, əbləh vəziyyətini və *vecsizliyini*, heçliyini başa düşdü.. (Elçin); **BİVECLİK, XEYİRSİZLİK.**

VEKSEL (*bir şəxsə və ya idarəyə müəyyən müddətdə, müəyyən miqdarda pul verməli olan şəxs tərəfindən verilən iltizamnamə*) [Mirzə Möhsün:] Bacım, bu *vekseli* saxta bilirsinizsə, şəhər məhkəməsinə şikayət edin (A.Şaiq); **TƏMƏSSÜK** (*köhn.*) [Əşrəf bəy:] Yəqin hacının sizdə *təməssükü* var, çıxardın görək (N.Vəzirov).

VENERA (*planet, ulduz*), **AVRODİTA, ZÖHRƏ** [Tağı:] Bağışlayın, bərədər, bizdə *Zöhrə* ulduz adıdır. Romalılar ona *Venera*, yunanlar *Avrodita* deyərlər (M.İbrahimov); **KARVANQIRAN** Nə zamandır edirəm ulduzlara tamaşa; *Karvanqıran* ağarır, parıldayır rız kimi (M.Rahim).

ver-al *bax* alver

veranda *bax* eyvan

verf *bax* tərsanə

1. VERGİ (*müəssisələrdən, idarədən, əhalidən və s.-dən alınan məcburi dövlət rüsumu*) Sizdən bu il *vergi* almasın deyə; Dəymədim o qanlar axıdan bəyə (M.Rahim); **BAC** (*köhn.*) İrəvan xanlığı Gürcüstana daxil olub, İrakli xana *bac* verdi (Çəmənzəminli); **BAC-XƏRC** (*köhn.*) Kişi bütün dünyadan *bac-xərac* alır (C.Cabbarlı); **BİDƏH** (*köhn.*) [Fərhad:] Rəiyyət borcludur özü ac qala.. qazandığının yarısını *bidəhə* verə, qalanlarını da mənə (Ə.Haqverdiyev); **DƏHYEK** (*köhn.*) Bəy *dəhyek* alır, molla yığır xümsü, zəkatı (A.Səhhət); **XƏRAC** [Qacar:] Tutaq ki, məşriqdən məğribə qədər; Mənə *xərac* verdi bütün ölkələr (S.Vurğun); **TÖYCÜ** (*köhn.*) [Ulduz:] Evimizdəki cecimi, kilimi də satıb *töycü* vermöliyik (M.İbrahimov); **YASAQ** (*köhn.*) Xan və qalan feodallar "qara camaatdan" puldan, baldan və başqa məhsullardan *yasaq* (xərac) toplayırdılar ("Tarix"); **CİZYƏ.**

VEYL [Həmid:] ..arvadın könlünə dəymədi, *veyl* cavanlar kimi otaqda o böyrü, bu böyrü üstə uzanmaqla gündüzü axşam elədi (H.Abbaszadə); **AVARA** [Ağa:] Hərçi soy elədim qardaşım oğlunu *avara* yoldaşlarından.. çəkindirə bilmədim (M.Hüseyn); **BİKARA** İllər, aylar gəzirəm boş-boşuna, *bikarə;* Laubali yaşayış etdi məni avaro (A.Səhhət); **İŞSİZ** Küçələr və körpünün qarşısı *işsiz* camaatla dolmuşdu (M.S.Ordubadi).

VEYLLƏNMƏK (*boş-boşuna gəzmək*) [Əli:] Orada-burada *veyllənmisən*, birtəhər gəlib düzəlmisən bizim idarəyə (M.İbrahimov); **ARŞINLAMAQ** (*məc., dan.*) [Qadir:] Əlin şalvar cibində küçələri *arşınlayırsan* (Ə.Əbülhəsən); **AVARALANMAQ** [Veysəl:] Dünən bütün günü *avaralanmışam*, daha buna inandınızmı (B.Bayramov);

DOLAŞMAQ Alaxanın peşəsi yaxın obaları, kəndləri *dolaşmaq*.. idi (S.Rəhimov); **SÜLƏNMƏK** (*məc.*) Nə qədər şərab düşkünü orda-burda *sülənir* (H.Abbaszadə).

VƏBA (*tib.*) (*yoluxucu xəstəlik*) Bu da fikir etdi ki, bəlkə atasını *vəba* tutubdur (N.Nərimanov); **OVMA** (*dan.*).

vəbal *bax* günah

vəcahət *bax* gözəllik

vəcd *bax* sevinc

vəch *bax* **1.** üsul; **2.** üz

vəcihə *bax* gözəl **1**

1. VƏD [İbrahim Xəlil:] İyirmi put, onu da yəhudilər aparsınlar ki, mənim *vədim* xilaf olmasın (M.F.Axundzadə); **VƏDƏ** Hər zaman Zeynal onu.. quru və boş *vədələr* ilə dolandırırdı (M.Hüseyn); **İLTİZAM, ÖHDƏYƏ GÖTÜRMƏ, SÖZ VERMƏ.**

2. vəd *bax* vaxt **1**

vədə *bax* vaxt **1**

vəfa *bax* sədaqət, inam

vəfadar *bax* vəfalı, sevgili **1**

VƏFALI (*dostluqda, məhəbbətdə sadiq olan*) [Vaqif:] Düşüb-düşməyəli bu saraylara; Hələ rast gəlmədim *vəfalı* yara! (S.Vurğun); **SADİQ** [Rəhim:] İnsanlıqda, dostluqda *sadiq* olan adsız-şöhrətsiz oğullar var (M.İbrahimov); **VƏFADAR** (*köhn.*) Mərdlər ilə gəz ki, *vəfadar* olur; Nakəslərə yoldaş olan xar olur (M.P.Vaqif); **ETİBARLI, SƏDAQƏTLİ** (*bax*).

VƏFALILIQ, ETİBARLILIQ, SADİQLİK, VƏFADARLIQ

VƏFASIZ (*dostluqda, məhəbbətdə möhkəm olmayan*) [Vaqif Xuramana:] Get, get, *vəfasızsan* bu dünya kimi; Görünmə gözümə bir röya kimi (S.Vurğun); **BİVƏFA** [Vaqif Xuramana:] İtil gözlərimdən *bivəfa* yarım (S.Vurğun); **DÖNÜK** Aslan.. *dönük* fikirli və zəif iradəli adamları sevməzdi (M.İbrahimov); **ETİBARSIZ** Etibarı kəsib, *etibarsız* yar; Əl qaldırıb, özgə yara yalvarır ("Lətif şah"); **SƏDAQƏTSİZ/FANİ** (*bax*).

VƏFASIZLIQ Bu saat o yenə həyatın *vəfasızlığı* barədə düşünürdü.. (Elçin); **BİVƏFALIQ** [Mənsur Sitarəyə:] Gəl, gəl *bivəfalığı* tərk et (C.Cabbarlı); **DÖNÜKLÜK** [Əmiraslan ağa:] Yoxsa *dönüklük* olmuşdur? (S.S.Axundov); **ETİBARSIZLIQ** Kuyində bu *etibarsızlıq;* Bəsdir məni-mübtəlayi-zarə (Əmani); **SƏDAQƏTSİZLİK.**

vəfat *bax* ölüm

vəhdamiyyət *bax* monoteizm

vəhdət *bax* **1.** birlik **1**; **2.** tənhalıq

vəhm *bax* qorxu

vəhmələnmək *bax* qorxmaq

vəholanki *bax* halbuki

vəhşət *bax* **1.** vəhşilik; **2.** tənhalıq; **3.** qorxu

vəhşətli *bax* qorxulu **1**

1. VƏHŞİ (*müxtəlif mənalarda*) Can qurtarmaqçın *vəhşi;* Azğın yırtıcılardan.. (M.Rzaquluzadə); **AZĞIN, QUDUZ** O bizim tankçılardır; Bir anda qan uddurur; *Azğın, quduz* düşmənə (M.Seyidzadə); **BARBAR** Faşist *barbarlarını* narahat edən də bu deyilmi (M.Hüseyn); **CANAVAR** (*məc.*) Rəzil düşmən yaralanmış yırtıcı bir *canavardır* (S.Vurğun); **VANDAL.**

2. VƏHŞİ, İBTİDAİ

3. vəhşi *bax* yabanı **1**; cır

4. vəhşi *bax* yırtıcı **1**

5. vəhşi *bax* mədəniyyətsiz

VƏHŞİCƏSİNƏ (*vəhşi kimi*) Vətənpərvərlərin əlində olan rayonlar havadan *vəhşicəsinə* bombardman edilir və artilleriya atəşinə tutulurdu (ADİL); **CANAVARCASINA** (*məc.*) [Gülgün:] O öz orindən qaçdığı üçün *canavarcasına* doğrandı (C.Cabbarlı); **VƏHŞİYANƏ** Bu halda məscidin qapısından *vəhşiyanə* bir səs ilə, "ya cəddə" eşidildi (Ə.Haqverdiyev) **AMANSIZCASINA, AZĞINCASINA.**

VƏHŞİLİK [Zöhrə:] Adam döymək köhnəlikdir, *vəhşilikdir* (M.İbrahimov); **AZĞINLIQ** [Ekzüperi:] İşıqla zülmət arasında, insan ləyaqətiylə vəhşilik, *azğınlıq* arasında dava gedir (R.Rza); **BARBARLIQ** ..Vasilyevskaya qələminə daha möhkəm sarılmış murdar faşizm *barbarlığını* daha inadla xalqına tanıtdırmışdır (M.Hüseyn); **BƏRBƏRİYƏT** Bir əlac eylə ki, bu *bərbəriyyət* zəmanəsinin əlifbasında erab hüruf ilə mütəəssil yazılsın (M.F.Axundzadə); **CANAVARLIQ** (*məc.*) Onlar öz hərb şöhrətlərini artırmaq üçün *canavarlığa* qurşanırlar (S.Rəhimov); **VƏHŞƏT** [Məşədi bəy:] Bizdəki *vəhşətlərdən* xəbərin var (M.Hüseyn); **VƏHŞİYYƏT** Elmə, fənnə, idarəyə baxalım nifrət ilə; Uyalım fitnələrə əldəki *vəhşiyyət* ilə (M.Ə.Sabir); **BARBARİZM, QUDURĞANLIQ, VANDALİZM, VANDALLIQ.**

vəhşiyanə *bax* vəhşicəsinə

vəhşiyyət *bax* vəhşilik

vəhy *bax* səs **1**

vəxalət *bax* təhlükə

VƏKALƏTNAMƏ (*bir işi görmək üçün idarə, müəssisə tərəfindən verilən rəsmi sənəd*) Bir həftə keçdikdən sonra böyük bacı Pərinisanın əri öz arvadından və üç baldızından *vəkalətnamə* alıb Türküstana rəvan oldu (Ə.Haqverdiyev); **ETİBARNAMƏ** Körpüdə taxtanı buraxmaq üçün *etibarnamə* istəyirdilər (Mir Cəlal).

1. VƏKİL (*hüq.*) (*məhkəmədə tərəflərin əvəzində işi aparan şəxs*) Sağ yanda prokuror, sol yanda *vəkil;* Hakim işə baxır.. (B.Vahabzadə); **ADVOKAT** Bu məzmunda söylənən nitq uzun sürdü, *advokat* bir çox dəlil və isbatlardan sonra ev komitəsi rəisinin müəyyən qanun maddəsi mucəbincə məsul olduğunu meydana çıxardı (Çəmənzəminli); **QƏYYUM** (*məc.*) Uşaq mənimdir, baba, dəxli nədir sizlərə? Kim sizi *qəyyum* edib, hökm edəsiz bizlərə? (M.Ə.Sabir).

2. vəkil *bax* nazir **1**

3. vəkil *bax* deputat

vəqə *bax* əhvalat

VƏL (*köhn.*) (*xırmanda taxıl döymək üçün alət*) [Alo:] Bu dünyada əlindən min bir peşə gələrdi: qaşıq qayırmaq, anbar qurmaq, daraba salmaq, ..xirmən *vəli* dəcləmək, hər şey... hər şey.. (S.Rəhimov); **GƏM** (*dial.*) Mallar *gəm* sürürdülər (C.Məmmədquluzadə).

vələd *bax* uşaq, övlad **1**

vələdüzünə *bax* hiyləgər

VƏLƏS (*ağac*) [Aleksandr Qrossheym:] Fıstıq, *vələs* və qırmızı palıd meşəsi Qafqaz dağlarını uçqundan qoruyur (Ə.Yusifoğlu); **ULAS** Hər tərəfdən palıd və *ulas* ağacları bürümüş köhnə və uçuq tağbənd, böyründəki kiçik, dar və qaranlıq daxma, tağbəndin qabağındakı qaratikan kolu... (Ə.Vəliyev).

vəli *bax* amma

vəliəhd *bax* övlad **1**

vəlim *bax* çör-çöp

vəlvələ *bax* səs-küy

vən *bax* göyrüş

vərd *bax* qızılgül

vərdənə *bax* oxlov

VƏRDİŞ Dədə-babadan qalma bu *vərdiş* sizi olduqca qorxulu bir yola yuvarlaya bilər (Ə.Vəliyev); **ADƏT** [Firəngiz:] Belə-belə gəlib axırı çıxır yalançılığa, o da yaltaqlıq kimi düşür *adət* halına (B.Bayramov).

VƏRDİŞLİ (*bir şeyə vərdiş etmiş*) [Yılmar:] Taxılın içində biton alağa oxşayan Behbud lələnin sözünün başına ip salmayın. O *vərdişlidir* (Ə.Vəliyev); **ADƏTKƏRDƏ** [Naçalnik:] Bos sən kı, keflənməyə *adətkərdə* etmişsən, nə cürət eləyib mənim idarəmə qulluğa girdin (C.Məmmədquluzadə); **ÖYRƏNCƏLİ** [Mikayıl:] Mən indi əvvəlkindən də möhkəməm, məmə, qorxma orda bərkə-boşa, istiyə-soyuğa alışmışam, *öyrəncəliyəm* (H.Abbaszadə); **ALIŞQAN, ÖYRƏNCƏKLİ.**

1. VƏRƏQ (*kitab, dəftər vərəqi*) Axşam yatmamış xanım Güləbətini özü ilə üzbəüz oturdub nazik sarı rəngli karandaşı və bir *vərəq* kağızı qabağına qoydu (M.İbrahimov); **VƏRƏQPARƏ** (*köhn.*) Əqəllən mərhumun *vərəqparə* olaraq toz altında çürüməyə başlamış asari-bərğüzadəsini təb etdirərkən cəneyi-yövmi-vəfatını onunla qarşılamalıydıq (A.Şaiq); **YARPAQ** (*dan.*) [Rza kişi] kağızdan bir *yarpaq* götürüb içinə tənbəki tökdükdən sonra bükdü (Ə.Vəliyev); **BƏRQ** (*kl.ad.*).

2. vərəq *bax* yarpaq **1**

3. vərəq *bax* səhifə
vərəqə *bax* intibahnamə
vərəqpərə *bax* vərəq **1**

VƏRƏM (*tib.*) (*yoluxucu xəstəlik*) Həkimlər Məryəmi müayinə edib, o biri otağa keçdikləri zaman: "Sağalmağına ümid yoxdur, *vərəm* xəstəliyi sürətlə irəliləyir" sözlərini qapı arasından eşitmiş, içində bir şeyin qırıldığını hiss etmişdi (A.Şaiq); **DİĞ** Onda yaxşı olmazdımı *diğ* mərəzinə dair "Hava ilə müalicə" məqaləsini bir az gödərək yazaydınız (N.Nərimanov); **DİQQ** Bu Şərq təbabətinin musiqi ilə tədavi etməsi daha maraqlı idi... *Sill, diqq* və kif xəstəliklərinə çubi çini verərdilər (Çəmənzəminli); **SİLL** [Çiçək:] Sənin sifətini görən *sill* tapar, gərək kəffarə versin (N.Vəzirov).

1. VƏRƏMLƏMƏK (*tib., vərəm xəstəliyinə tutulmaq*) [Dursun:] Yazıq Gülsənəm acından, fikirdən *vərəmlədi*, – deyirdilər (A.Şaiq); **VƏRƏMLƏNMƏK** Millətin dərdi ilə qəmləndin; Bulmadınmı dəva, *vərəmləndin?* (A.Səhhət); **DİĞLAMAQ** *Dığlar* insan çıxmasa bu xaneyi-bərbaddən (M.Ə.Möcüz).

2. VƏRƏMLƏMƏK (*məc.*) Vaqif haqdan dilər lütfü kərəmlər; Belə yerdə qalan vallah *vərəmlər* (M.P.Vaqif); **DƏRDƏ DÜŞMƏK** Burda bir çoxu *düşəcək dərdə*.. (S.Vurğun); **DIĞLAMAQ** [Dilara:] Burada adam *dığlayar* ki.. (Ş.Qurbanov).

VƏRƏSƏ (*bir şəxsin ölümündən sonra, onun mülkünə sahib olan adam*) *Vərəsə* arasında dava vaqe olubdur (M.F.Axundzadə); **VARİS** Mollalar hazır olur dəfnimə əldə çərəkə; Səni *varislərimə* eyləyər onlar mərəkə (M.Ə.Sabir); **XƏLƏF.**

vərtə *bax* **1.** təhlükə; **2.** uçurum **1**

1. VƏSATƏT, RƏSMİ XAHİŞ

2. vəsatət *bax* vasitəçilik
vəsət *bax* orta **1**
vəsf *bax* tərif

VƏSİQƏ Gəlin məni incitməyin siz; Dedilər: Gücsüzdür bu *vəsiqəmiz* (B.Vahabzadə); **SƏNƏD** Axırda qət olundu ki, ..Vahidin *sənədlərini* yoxlatmaq direktora tapşırılsın (Mir Cəlal).

vəsilə *bax* **1.** bəhanə **1**; **2.** üsul; **3.** fürsət
vəsl *bax* vüsal
vəsvəsə *bax* şübhə

VƏTƏN (*adamın doğulub böyüdüyü yer, ölkə*) Qafqaz qitəsidir mənim *vətənim;* Simürğün sayəsində məskənim (A.Səhhət); **MƏSKƏN, YURD, YUVA** (*məc.*) El bilir ki, sən mənimsən; *Yurdum, yuvam, məskənimsən;* Anam, doğma vətənimsən! Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan! (S.Vurğun); **TORPAQ** (*məc.*) *Torpağın* eşqilə vurur ürəyi; Vətənə bağlıdır, qəlbi, diləyi (M.Rahim).

VƏTƏNDAŞ [Məhərrəm:] Ana dilini heç *vətəndaş* yaxşı bilməlidir (A.Şaiq); **TƏBƏƏ** Amerika *təabəsidir* göy məscidi gəzən adam (M.Rahim); **RƏİYYƏT** Lazım sənə indi min üqubət; Ta ibrət ala bütün *rəiyyət!* (M.Ə.Sabir).

vətənpərəst *bax* vətənpərvər
vətənpərəstlik *bax* vətənpərvərlik

VƏTƏNPƏRVƏR (*öz vətənini sevən*) Əsil *vətənpərvər* öz tarixinə bu sayaq laqeyd münasibət bəsləməz!.. (B.Bayramov); **VƏTƏNPƏRƏST** Zavallı Rzaqulu xanın, yaxud məşhur bir *vətənpərəstin* dəfnü kəfninə məşğul olub saat on iki radələri idi (M.S.Ordubadi); **PATRİOT** Bu sözləri ancaq xalqını qınamış bir qəlbə odlu bir ürəklə sevən *patriot* yaza bilərdi (Anar); **VƏTƏNSEVƏR.**

VƏTƏNPƏRVƏRLİK [Nurməhəmməd:] Lakin dediyiniz şərtlərə diqqət edin; *vətənpərvərlik* duyğuları ilə birləşmiş bir xalq! (M.İbrahimov); **VƏTƏNPƏRƏSTLİK** [Qadın:] Nəhayət, xəlifə onu vətənpərəstlikdə töhmətləndirdi, həbsə aldırdı (M.S.Ordubadi); **VƏTƏNSEVƏRLİK.**

vətənsevər *bax* vətənpərvər
vətənsevərlik *bax* vətənpərvərlik

VƏTƏNDAŞ, YURDSUZ (*vətəni olmayan*) Bülbülə ömr edirlər: Oxu gülsüz, çəmənsiz; Öz ana vətənində yaşa *yurdsuz, vətənsiz* (S.Rüstəm); **YURDSUZ-YUVASIZ.**

vəz *bax* **1.** vəziyyət **1**; **2.** moizə **1**; **3.** nəsihət

VƏZİ (*anat.*) Hər iki cinsin, cinsi *vəziləri* mənşə etibarı ilə cütdür (Z.M.Şaxtaxtinskaya); **QÜDDƏ.**

1. VƏZİFƏ (*bir şəxsin üzərinə qoyulan iş*) Buna görə də ailə sahibi olana qədər qeydinə qalmaq mənim *vəzifəmdir* (M.S.Ordubadi); **BORC** [Süleyman bəy:] Ağa, sən mənim atamsan və sənə hörmət eləmək mənim *borcumdur* (Ə.Haqverdiyev); **MİSSİYA.**

2. VƏZİFƏ (*rəsmi iş*); **MƏQAM** ..kənd müəllimliyi bir ali *məqamdır* (C.Məmmədquluzadə); **MƏNSƏB** (*böyük vəzifə*) Hər gün "afətə" göz-qaş atdı o; *Mənsəbi* gücünə at oynatdı o (B.Vahabzadə); **MƏRTƏBƏ** (*məc.*) [Hüsaməddin:] Qətibə mənim hansı bir *mərtəbəmə* aldanıb mənə ərə gəlməyə razı olacaqdır? (M.S.Ordubadi); **RÜTBƏ** Mənim nə *rütbəm* var, nə də mədənim (S.Vurğun); **MÖVQE.**

3. vəzifə *bax* iş **2**

VƏZİFƏPƏRƏST (*vəzifə, mənsəb sevən*), **KARYERİST** [Mirzəyev:] Mən *karyerist* deyiləm, dostum. Onsuz da vəzifəm çoxdur.. (Ə.Məmmədxanlı); **MƏNSƏBPƏRƏST** [Səs:] Dedi-qoduçuları, böhtançıları, intriqaçıları, *mənsəbpərəstləri* ifşa etməliyik (Anar).

VƏZİFƏPƏRƏSTLİK, KARYERİZM, MƏNSƏBPƏRƏSTLİK

1. VƏZİYYƏT Şərqdə törəyən *vəziyyət* təfsilatı ilə müzakirə olundu (Çəmənzəminli); **BABƏT** (*köhn.*) Zülf bir yana düşər, gərdən bir yana; Özün bilməz, bir özgə *babət* olur (M.P.Vaqif); **HAL** Bunların *halını* neçə min il bundan qabaqkı Roma, yunan və ya tövrat zamanın arvadlarının halı ilə müqayisə etsəniz, əlbəttə görərsiniz ki, bizimkilərin indiki halı onların keçmişindən fənadır (Çəmənzəminli); **HALƏT** (*köhn.*) [Bahadır:] Mən sizin əlinizi tutanda bu *halətdə* olurdum, yəni sizin qollarınızdakı hiss damarları sizin hissiyyatınızı mənə həzin-həzin söyləyirdi (N.Nərimanov); **ÖVZA** Bədirlənmiş ay qalxıb göyün bir qatında durub bu *övzaya* tamaşa edirdi (Ə.Haqverdiyev); **VƏZ** (*köhn.*) Bu vaxtdan məclisin *vəzi* dəyişib Hacı Qaranın evi nəzərə gəlir (M.F.Axundzadə).

2. vəziyyət *bax* mövqe

1. VƏZN (*ədəb.*) (*şeirdə, musiqidə ölçü*) [Adilə:] Hələ ifadə nöqsanlarını, qafiyə, *vəzn* xətalarını demirəm, yazılarında yenilik hiss edilmir (Ə.Qasımov); **BƏHR** [Məşədi:] Şerin üçüncü və beşinci bəndləri ayrı *bəhrdədir* (M.Hüseyn); **ÖLÇÜ.**

2. vəzn *bax* çəki **1**
vəznədar *bax* kassir **2**
vəznləmək *bax* çəkmək **1**
vəznli *bax* ağır **1**
vımpel *bax* bayraq
vışka *bax* buruq **1**
vızıldatmaq *bax* tullamaq

VİCDAN [Qacar:] Mənim *vicdanım* da, qəlbim də qandır; Dünya qan üstündə bir xanimandır (S.Vurğun); **İNSAF** Bəylərin bəyisən, xanların xanı; Unutma *insafi*, satma imanı.. (Aşıq Ələsgər); **ƏDALƏT** (*bax*).

VİCDANLI, İNSAFLI, ƏDALƏTLİ (*bax*)

VİCDANSIZ (*həm sifət, həm də isim kimi*) [Mirzə Sadıq:] ..nə sayaq hiyləgər və *vicdansızlar* tərəfindən əhatə olunduğunu sənə nağıl eləyim (C.Cabbarlı); **BİVİCDAN, İNSAFSIZ** Sərt oldu rəftarı o *insafsızın* (M.Rahim); **ƏDALƏTSİZ** (*bax*).

VİCDANSIZLIQ, BİVİCDANLIQ, İNSAFSIZLIQ, ƏDALƏTSİZLİK (*bax*)

vicə *bax* vicvicə
vicələnmək *bax* üşümək

VİCVİCƏ, ÜŞÜTMƏ, TİTRƏTMƏ (*bədəndə*), **VİCƏ**

VİDA Bu gecə Səttar xan bir *vida* ziyarəti vermişdi (M.S.Ordubadi); **AYRILIQ, AYRILMA, ƏLVİDA, XUDAHAFİZLƏŞMƏ.**

VİDALAŞMAQ Alman dərsi ləğv edildi. Biz meyster ilə *vidalaşdıq* (M.Hüseyn); **AYRILMAQ** Səba xanım Qətibədən *ayrı-*

lıb getmək istədikdə Qətibə xanım ipək dəsmala bağlanmış yüz dinar qızılı onun olinə tapşırdı (M.S.Ordubadi); **SAĞOLLAŞMAQ** Kərim Könüllə *sağollaşıb* getdi (X.Hasilova); **XUDAHAFİZLƏŞMƏK** (*bax*).

vilayət *bax* ölkə **I**; mahal **I**

villa *bax* ev **I**

viran *bax* uçuq **I**

viranə *bax* xaraba **I**

viranələnmək *bax* dağılmaq **I**

viranəlik *bax* xarabalıq **I**

viranxana *bax* xaraba **I**

vişnə *bax* gilənar

viza *bax* icazə

VULKAN ..foaliyyətdə olan ən uca *vulkan* Kamçatkadakı Klyuçevski sopkadır ("Fiziki coğrafiya"); **YANARDAĞ** Vezuvi adlı *yanardağın* lavası altında Qerkülazm və Pompey şəhərləri basdırılıb (F.Ağazadə).

vurçatlasın *bax* səs-küy

VURĞUN [Aytomiz:] Elçin Reyhanın *vurğunudur*, ..mən onların məhəbbətinə mane olmaq istəmirəm (M.Hüseyn); **ALUDƏ** Biz ol *aludəyi*-dərdik ki, cami-mey dəvamızdır (S.Ə.Şirvani); **AŞİQ** *Aşiq* baş qoymağa canan yolunda; Yeriyib meydana mərdanə gələr (M.Rahim); **BAĞLI** [Zalxa Tarverdiyo:] Bəlkə qız səni sevmir? Ürəyi özgəsinə *bağlıdır?* (M.F.Axundzadə); **BƏND** [Süleyman:] Əsgər mənə etibar edib elçiliyə göndəribdir, özü də qıza *banddir* (Ü.Hacıbəyov); **DİLBƏSTƏ** (*kl.əd.*) Bu nə *dilbəstə* olmaqdır pərilər zülfü xalinə (S.Ə.Şirvani); **ƏSİR** (*məc.*) Bir ahubaxışlı gözələ çoxdan *əsirəm*.. (Ə.Vahid); **HEYRAN** Bəzən tovuz kimi süzüb baxırsan; Yoxsa öz-özünə *heyransan*, nəsən? (M.Rahim); **MAİL** Deyildim mən sənə *mail;* Sən etdin əqlimi zail (Füzuli); **MƏCNUN** (*dəlicəsinə vurulmuş*) Niyə bu *məcnunu* etmiş fəramuş; Nədən ötrü olub bigana məndən? (Natəvan); **MƏFTUN** Firəngiz təbiətə *məftun* idi (B.Bayramov); **SEVDALI** Çəmən döşəyidir *sevdalı* yarım; Ona layla deyir səhər küləyi (S.Vurğun); **ŞEYDA** (*şair.: dəlicəsinə vurğun*) *Şeydayi* könül birlə cəmin demək olur kim; Bir tifi barıb arifi ürfədə ulaşmış (Əmani); **VALEH** (*kl.əd.*) Hamı bu halə *valehü* məftun; Nagahan hadis oldu bir yanğın (M.Ə.Sabir).

VURĞUNLUQ, EŞQBAZLIQ, HEYRANLIQ, MƏFTUNLUQ

vurhavur *bax* dava-dalaş

1. VURMAQ [Ərbab:] *Vur, vur* ki, gətirməyibdir arpa (M.Ə.Sabir); **DÖŞƏMƏK** (*məc.*) Fərraş sağa-sola *döşəyirdi* (Çəmənzəminli); **ENDİRMƏK** (*məc.*) Naznaz əlini qaldırıb Qaraşın təpəsinə *endirəndə* Qaraş onun biləyindən yapışıb sıxdı (M.İbrahimov); **İLİŞDİRMƏK** Həmidin əli gicişirdi, az qalırdı ki, Çopur Abdullaya yağlı bir şillə *ilişdirsin,* küçədəkilərdən ayıb idi (H.Abbaszadə); **YAPIŞDIRMAQ** (*məc., dan.*) Zalım da çəpərdən bir ağac qoparıb, Şükürün peysərinə *yapışdıranda* Şükür palaz kimi yerə sərildi (Çəmənzəminli); **ZƏRBƏ ENDİRMƏK** [Azər] özünü iroli verdi, rəqibə *zərbə endirəndə* ona elə goldi ki, həm özü, həm də rəqibi vurur və bundan zövq aldı (Ə.Kərim); **ZOLLAMAQ** Dəli şeytan deyir ki, bir dəyənək; Mollanın *zolla* başına, zirək (S.Ə.Şirvani).

2. vurmaq *bax* oğurlamaq

3. vurmaq *bax* sancmaq **I**

4. vurmaq *bax* döyünmək

5. vurmaq *bax* içmək

6. vurmaq *bax* döymək

7. vurmaq *bax* çalmaq **II**

VUR-TUT [Qiyas:] Maşını gecikdiriblər, mənim də cibimdə *vur-tut* bircə manat pulum var (Anar); **CƏMİ** Pyotr Anisimoviçgillə onların evləri arasında *cami* bircə tin vardı (H.Abbaszadə); **CƏMİ-CÜMLƏTANI** Sahildən *cəmi-cümlətanı* bircə kilometr uzaqda, yəni usta Pirvəlinin buruğunda işi dayandırmalı oldular (M.Hüseyn); **CÜMLƏTANI** *Cümlətanı* 11-12 qələm ələf və toxum, badyan, qulunçan kimi ədviyyat, bal və s. alıb, bir neçə gün həvəngdəstədə döyər və bundan həblər, yaxmalar qayırıb övladı olmayan, canı nasaz, beli ağrılı qadınları

müalicə edərdi (Ə.Cəfərzadə); **VAR-YOX** Müsəlman qəzetlərinin yolunda canü dildən çalışan *var-yox* Ağdaş vilayətində bircə nəfər şəxsdir (C.Məmmədquluzadə).

I VURULMAQ (*birinə, bir şeyə məhəbbət bağlamaq*) [Bənövşə:] Təəccüb edirəm, bunun nəyinə *vurulmusan?* (M.İbrahimov); **ALUDƏ OLMAQ** (*kl.əd.*) Nəriman uzaqdan-uzağa bu qıza *aludə oldu* ki, pəncərə günlər ilə örtülmədi (Mir Cəlal); **AŞİQ OLMAQ** [Nazlı:] *Aşiq olsan* da, ay dilbilməz, vurulasan bir qəlbdən min qəlbə (Anar); **AYAĞI YANMAQ** (*fr.v.*) [Şöhrəbanı xanım:] ..Şahbaz bəy Qarabağda oturduğu yerdə Paris qızlarına *ayağı yanıb*.. (M.F.Axundzadə); **BAĞLANMAQ** (*məc.*) Bütün bunlara görə Çiçək özü hiss etmədən Elsevərə *bağlanmışdı* (Ə.Qasımov); **BƏND OLMAQ** [Qaplan:] Görürəm, Qumrala yamanca *bənd olmusan* (A.Şaiq); **EŞQ YETİRMƏK** Bir neçə il ondan sonra Mirzə qonşunun qızına *eşq yetirib* anasını elçi göndərdi (Ə.Haqverdiyev); **MAİL OLMAQ** Bir ala gözlüyə *mail olmuşam;* Yarın qapısında sail olmuşam (Aşıq Rəcəb); **MƏFTUN OLMAQ** O, [Sona] Əşrəfə tamamilə *məftun olmuşdu* (A.Şaiq); **MƏHƏBBƏT BAĞLAMAQ** [Piri baba:] ..Amma atanın qıza elə *məhəbbət bağladığını* görmomişəm (S.S.Axundov); **UYMAQ** *Uyubsan* zalım xoryada; Dostdan konara gozon gözəl (Aşıq Əlosgər); **VALEH OLMAQ** [Bədircahan:] Ağa, o qədər sən-dən dedim ki... az qaldılar *valeh olalar* (N.Vəzirov); **SEVMƏK** (*bax*).

II vurulmaq *bax* döyülmək

vuruş *bax* **I.** müharibə; **2.** zərbə

1. VURUŞMAQ Alay-alay qəhrəmanlar canlarından keçərək; Qarlı soyuq gecələrdə *vuruşurlar* sübhədək (Ə.Comil); **DÖYÜŞMƏK** Bir gün yağı cəhd edərsə sülhü boğmağa; Məzarından qalxıb yenə *döyüşəcəksən!..* (S.Rüstəm); **ÇARPIŞMAQ** İrəlidə piyadalar *çarpışır* (H.Nəzərli); **SAVAŞMAQ** Dünənki hərb günündə də; *Savaşanda* ana torpaq.. (B.Vahabzadə); **MÜBARİZƏ APARMAQ, TOQQUŞMAQ.**

2. vuruşmaq *bax* dalaşmaq

vücud *bax* **1.** varlıq; **2.** insan; **3.** bədən

1. VÜQAR Deyir Məşədi bəy alnında *vüqar;* Onun ipək kimi təbiəti var (S.Vurğun); **AĞIRLIQ** [Südabənin] tərpənişində bir *ağırlıq,* bütün vücudunda bir müvazinət gözə çarpırdı (M.İbrahimov); **BAŞUCALIĞI** [Səfurə:] Valideyn övlad üçün fərəh, *başucalığı* olmalıdır (H.Abbaszadə); **CİDDİLİK, MƏĞRURLUQ, TƏMKİN.**

2. vüqar *bax* ozəmət **1**

3. vüqar *bax* şərəf

VÜQARLI Baş-başa qatılmış bu qoca dağlar; *Vüqarlı* qəlbim tək bu uca dağlar.. (S.Vurğun); **QÜRURLU** O, öz zindanını uçurtmuş bir məhbus, ölkəsini xilas etmək üçün ölümə gedən bir əsgər kimi *qürurlu* idi (M.İbrahimov); **MƏĞRUR** Qartallar, necə də *məğrurdur!* – deyib Fərid gözünü çəldən çəkib yoldaşına baxdı (M.İbrahimov); **PÜRVÜQAR** Bəs o kimdir, – o *pürvüqar?* (B.Vahabzadə); **TƏMKİNLİ** Yapıncılı kişi çox mülayim və *təmkinli* danışırdı (Ə.Vəliyev); **BAŞIUCA, ŞƏRƏFLİ** (*bax*).

vüqu *bax* əhvalat

VÜSAL (*şair.*) [Gülcamal:] Zöhrə xanım, məhəbbət elə bir oddur ki, hansı üroyə düşdü orada *vüsal* həsrətindən başqa bütün duyğuları yaxıb yandırır (M.İbrahimov); **VƏSL** Könlüm evi xərabtər oldu fəraqdan; *Vəslin* bu mülkü etmədi abad, ağlaram (Natəvan); **VÜSLƏT** [Əziz bəy:] Bu ümidlə ki, sənin *vüsalın* mənə müyəssər olacaq. İndi ki *vüslət* zamanı yaxınlaşıb, arzuma çatmaq ümidilə xoyalımı xoş edib aram tutmuşam, istəyirlər ki, genə məni bədbəxt etsinlər (M.F.Axundzadə).

vüslət *bax* vüsal

vüsuq *bax* inam

vzvod *bax* taqım **I**

Yy

YABA (*ot, küləş və başqa bu kimi şeyləri toplamaq, qaldırmaq və s. üçün işlənən alət*) Əllərində tüfənglər, əllərində *yabalar;* Ana vətən uğrunda bizim ulu babalar; Vaxtilə düşmənləri bu yollarla qovmuşlar (S.Rüstəm); **ŞANA** ..dadaşım da ətəyi ilə alnının tərini silib *şananı* götürdü və başladı küləşi çevirməyə (C.Məmmədquluzadə).

1. YABANI (*ağac, ot və s. haqqında*) Sanki başları üstə *yabanı* otlar bitmiş.. (M.Dilbazi); **VƏHŞİ** Tarladakı sarı sünbül; Çöllərdəki o *vəhşi* gül (S.Vurğun).

2. yabanı *bax* cır

YABI (*zəif, arıq at*) [Alo] *yabını* noxtalayıb yenə toxum xurcununun yanına çəkdi (S.Rəhimov); **ALAŞA** Hazırlaş, *alaşan* hardadır. Uşaqlara de ki, tutub gətirsin (M.Hüseyn).

I YAD (*məlum olmayan, tanınmayan*) [Adilə:] Pah atonnan, elə bil *yad* adamıq, qarışçı köçündən qırılıb qalmışıq (Ə.Qasımov); **BAŞQA** [Ramazan:] Adamın öz daxması *başqalarının* sarayından qiymətli görünür (M.Hüseyn); **BİGANƏ** Nə baxırsan oğrunoğrun; Mənə *biganələr* kimi (Xəstə Qasım); **KƏNAR** [Şamo:] *Kənar* adam yoxdur? – deyə soruşdu (S.Rəhimov); **QIRAQ** Stolun başında bir nəfər də olsun *qıraq* adam yox idi (M.S.Ordubadi); **NAMƏHRƏM** [Şölə-xanım:] Buyur görək, mən hansı *naməhrəmlərlə* aşnalıq edirəm (M.F.Axundzadə); **ÖZGƏ** Biri zəif, zərif, hər bir işdə *özgəyə* möhtac olduğu halda, o biri polad kimi sağlam bədənli.. bir uşaq idi (S.S.Axundov); **QEYRİ, BAŞQASI.**

II yad *bax* yaddaş

III yad *bax* naməlum

YADDAŞ Dolaşdıq tarlanı, bağçanı, bağı; Buyur, *yaddaşını* köməyə çağır (M.Araz); **HAFİZƏ** [Yusif:] O günlər hamısı bir-bir mənim *hafizəmdədir* (S.Rəhman); **ZEHİN** [Mişa:] Cavan oğlansan, *zehnin* itidi, tez qavrayarsan (H.Abbaszadə); **ZƏNN** [Zülfüqar:] *Zənnim* korlanıb, sizi yaxşı tanıya bilmədim (B.Bayramov); **AĞIL, HUŞ** (*bax*), **YAD.**

YADDAŞLI, HAFİZƏLİ, HUŞLU, ZEHİNLİ

YADDAŞSIZ, HUŞSUZ, UNUTQAN (*bax*)

YADDAŞSIZLIQ, HUŞSUZLUQ (*bax*), **UNUTQANLIQ**

1. YADİGAR Bu papağı Qaçaya böyük bacısı *yadigar* olaraq bağışlamışdı (M.S.Ordubadi); **HƏDİYYƏ** Onun divarları ələlvan naxış; Əsrdən-əsrə *hədiyyə* qalmış (S.Vurğun).

2. yadigar *bax* abidə **1**

yağı *bax* düşmən **2**

YAĞIŞ *Yağış* çoxdan kəsmişdi (Elçin); **BARAN** (*kl.əd.*) Əbr tək himməti töküb *baran;* Seyl tək qeyrəti edib cərəyan (M.Ə.Sabir); **YAĞMUR** Bir azdan sonra şiddətli *yağmur* yağmağa başladı (S.S.Axundov).

YAĞIŞLI ..*yağışlı* ruzgarda, həmin çuluna bürünərdin.. (S.Rəhimov); **YAĞMURLU** Bir axşam *yağmurlu* bir havada qapı döyüldü (Çəmənzəminli); **YAĞINTILI.**

yağlanmaq *bax* kökəlmək

yağmalamaq *bax* talamaq

yağmalanmaq *bax* talanmaq

yağmur *bax* yağış

yağmurlu *bax* yağışlı

YAĞMAQ (*qar, yağış haqqında*) Sulu qar *yağırdı* (Elçin); **TÖKMƏK** Yağış hələ *tökürdü* (H.Abbaszadə).

1. YAXA Məsum kişi arxalığının *yaxasını* düymələyə-düymələyə içəri girdi (Mir Cəlal); **GİRİBAN** (*kl.əd.*) Götür, tulla bir kənara çarqatı; *Giribandan* sinən ağı görünsün (Q.Zakir).

2. yaxa *bax* döş

3. yaxa *bax* yaxalıq

4. yaxa *bax* sahil

I 1. YAXALAMAQ Mustafa çavuş strajniklərlə qabağa keçib Alonu *yaxaladılar* (S.Rəhimov); **QAMARLAMAQ** [Mehralı:]

Müxtəsər, bankadan bizim çeklərlə pul alanda hərifləri *qamarladılar* (S.Rəhimov); **ƏLƏ KEÇİRMƏK, TUTMAQ** (*bax*).

2. yaxalamaq *bax* boğazlamaq

II yaxalamaq *bax* yumaq **I**

I yaxalanmaq *bax* tutulmaq **I**

II yaxalanmaq *bax* yuyunmaq

YAXALIQ Nərgiz kələğayısını əlinə almışdı, sinəsi açıq idi. Güllü şifon koftasının tünd-yaşıl *yaxalığı* ağ boynunu daha da gözəl göstərirdi (İ.Şıxlı); **YAXA** Əlləzoğlu qrafini götürüb *yaxasını,* dizlərini islada-islada su içdi (İ.Hüseynov).

yaxdan *bax* mücrü

YAXIN (*müxtəlif mənalarda*) *Yaxın* gəl, gözəl qız; *Yaxın* gəl bir az! (S.Vurğun); **YOVUQ** Nola saqqala *yovuq* gəlməsə bir gül üzlü; Kim qıyar ki, düşə gül yarpağı qanqal içinə (M.P.Vaqif).

yaxınlaşmaq *bax* yanaşmaq

yaxlaşmaq *bax* yanaşmaq

YAXMAC Kimisi *yaxmac* qayırır, ..kimisi yağla şorun qatışığından dürmək eləyib Qəmərin stokanının yanına qoyurdu (Ə.Vəliyev); **BUTERBROD** Xosrovbəyli ilə bufetə çıxdıq, o məni *buterbroda,* qəhvəyə qonaq elədi (Mir Cəlal); **YAXMA.**

1. YAXMAQ [Məşədi İbad:] Görünür ki, heyvan balası dəllək xınanı pis *yaxıbdır* (Ü.Hacıbəyov); **SÜRTMƏK** [Yusif:] Qara gəlin boynuna keçi piyi *sürtməklə* onun yerişini, gücünü artırmaq olmaz.. (B.Bayramov); **ÇƏKMƏK.**

2. yaxmaq *bax* yandırmaq

1. YAXŞI Mənim rəfiqim hər cəhətdən *yaxşı* bir insandır, lakin atalarımız: "Eyibsiz gözəl olmaz" demişdir (S.S.Axundov); **EYİ** (*köhn.*) Atalıq borcu *eyi* tərbiyənin qeyri deyil; Yoxsa bir işdədir insanlar ilə heyvanlar (M.Ə.Sabir); **XOŞ** (*dan.*) [Güləbətin:] ...Heç olmasa bunlar *xoş* bir gün görsünlər (M.İbrahimov); **XUB** (*kl.əd.*) *Xub* çəkilib qəddi-dallar; Ağ üzündə qara xallar (Aşıq Ələsgər); **PAKİZƏ, YAMAN** (*dan.*) Lakin cavanlığımı çox *yaman* keçirmişəm (N.Nərimanov); **SALEH** (*köhn.*) [Ağa Sottar:] Bəli, elə kişidən şəksiz *saleh* övlad qalacaqdır (M.F.Axundzadə); **YÖNLÜ** (*dial.*) Sən heç *yönlü* şey yersən ki, əməl eləsən (ADDL).

2. yaxşı *bax* gözəl **1, 2**

YAXŞILIQ [Forman:] Sənin barəndə *yaxşılıqdan* başqa bir fikrim yoxdur (M.İbrahimov); **EHSAN** (*kl.əd.*) Bu Xətayi xəstənin vergil muradın, ya ilah; Kim mənə lütf eylə *ehsan,* səndən özgə kimsə yox (Xətayi); **EYİLİK** (*köhn.*) [Aşıq Süleyman:] Fonalıq, *eyilik* bil nə deməkdir; Yarın adın dastan olur dillərdə (H.Cavid); **XEYİRXAHLIQ** (*bax*).

I YAL (*itə verilən yemək*) *Yalı* bol olanı, zəncir də saxlamaz (S.Rəhimov); **HORRA.**

II YAL (*atlarda*) Bəy ata yaxınlaşdı, əli ilə onun *yalını* tumarladı (M.Hüseyn); **YALMAN** Koxa atın *yalmanından* tutub ləngərlə qalxdı (S.Rəhimov).

III yal *bax* yamac, yoxuş

yalaq *bax* yaltaq

YALAN (*düz olmayan*) [Ovçu Qasım:] Mənim bu hekayətim *yalana* oxşayır, amma sizin üçün, sırf həqiqətdir (Ə.Haqverdiyev); **ALTDAN-ÜSTDƏN** (*dan.*) [Xan:] Düzünü de, görüm necə oldu? – dedi, bax birini *altdan-üstdən* desən, başın cəllad əlindədir (Çəmənzəminli); **BATİL** Həqqi *batil* eyləmişlər, işlənir cürmi-kəbir; Şeyxlər şəyyad, abidlər abusən kəmtərir (M.P.Vaqif); **BƏHANƏ** Kazak briqadası yüz cür *bəhanələrlə* bu vəzifənin ifasından boyun qaçırdı (M.S.Ordubadi); **ƏFSANƏ** Canım, sos-küy imiş, *əfsanə* imiş; Orda da görmədim nə insan, nə iş (S.Vurğun); **ƏSASSIZ** Onun verdiyi xəbərlərin bir çoxu *əsassız* xəbərlər idi (M.S.Ordubadi); **GOP** (*dan.*) *Gop*-gop kimi bifaidə əhli-qələm olma; Ol Başıqapazlı, vəli, Bidərdü qəm olma (M.Ə.Sabir); **XİLAF** [Əmir:] Zeyd, mənim sözüm əmir sözüdür; onda *xilaf* ola bilməz.. (Ü.Hacıbəyov); **KİZB** (*kl.əd.*) Munca kim, etdim tamaşa, sözlərə asdım qulaq; *Kizbü* böhtandan səvayi bir hekayət görmədim (M.P.Vaqif); **SAXTA** [Veysəl:] Mən *saxta* danışmağı öyrənmomişəm

(B.Bayramov); **UYDURMA** Düşünsək həyatı dərindən əgər; Bütün *uydurmadır* bu söylənənlər (S.Vurğun).

YALANÇI Ucadır bayrağı *yalançıların;* Hökm edir hər yanda ikiüzlülük (M.Rahim); **KAZİB** (*kl.əd.*) Bir mömin idim vel gəzən, əvvəlləri kasıb; Avarə, firildaqçı, hər iqvalidə *kazib* (Ə.Nəzmi); **KƏZZAB** (*kl.əd.*) [Molla:] ...məgər bu azdırmı, – dedi, – özü də rəis hüzurunda, *kəzzab!* (S.Rəhimov); **ƏYRİ** *Əyri* adamın bacarıqlı olmağı, düz adamın əfəlliyindən əmiyyət üçün daha qorxuludur (M.İbrahimov); **ADAMALDADAN.**

yalan-palan *bax* cəfəngiyat

yalçın *bax* sıldırım

yalın *bax* çılpaq **I**

yalınayaq *bax* ayaqyalın **I**

YALQIZ [Tarverdi:] Yenə mən *yalqız* gəldim (M.F.Axundzadə); **TƏK** [Şahin:] Qonşumuzda o qoca arvad *tək* yaşayırdı (B.Bayramov); **TƏNHA** [Kamil] bulvarda *tənha* bir kölgəlik seçib əyləşdi və dənizə tamaşa etməyə başladı (Y.Şirvan); **FƏRD** (*kl.əd.*) Ey tifli-sadə, gəzmə soqaqlarda boylə *fərd* (M.Ə.Sabir); **YALNIZ** [Xanım:] Liza, daha bundan sonra evdə *yalnız* qaldıqda darıxmayacağıq: təzə kirayəçi öz ölkələrindən bizə nağıl eyləyəcək, qəribə-qəribə şeylər eşidəcəyik (Çəmənzəminli); **VAHİD.**

YALQIZLIQ (*tək qalma*) [Forman] üzgözünü düzəltmiş, qızın *yalqızlığından* istifadə edərək buraya gəlmişdi (M.İbrahimov); **YALNIZLIQ** Bir gün acı bir sis o gülümsər üzü sardı: *Yalnızlığa* imrəndi, uzaqlaşdı bəşərdən (H.Cavid); **TƏKLİK** Üç ay *təklik* olacaq yaxın dostum, yoldaşım (M.Rahim); **TƏNHALIQ** (*bax*).

yalquzaq *bax* canavar **I**

yalman *bax* yal **II**

yalmanmaq *bax* yaltaqlanmaq

YALTAQ (*yaltaqlıq edən şəxs*) Sağında, solunda *yaltaq* kübarlar; Bir yanda Füzuli; bir yanda Leyla (B.Vahabzadə); **QABYALAYAN** (*dan.*) [Fərhad:] Kəs səsini, *qabyalayanın* biri! (Ə.Haqverdiyev); **YALAQ** [Qumru:] Getsin *yalaq* Səkinəni aldatsın (Mir Cəlal); **QUYRUQBULAYAN** (*dan.*).

YALTAQLANMAQ [Şəkərlinski:] *Yaltaqlanma* ona Alışov, peşman olarsan (M.İbrahimov); **QUYRUQ BULAMAQ** (*dan.*) [Ağa Məmdan:] İndi durum gedim məhkəmədə olan həşiyənişinləri püxtə və amadə edim ki, sabah müdafiə vaxtında baqədrilüzum *quyruq bulasınlar* (M.F.Axundzadə); **QILIQ ELƏMƏK** Ömər xan kimi bir dilavər ona *qılıq eləyir,* amma axmaq Məmmədhəsən dirsək göstərir.. (Çəmənzəminli); **YALMANMAQ** Bu anda boz tula sahibinə *yalmanmağa* başladı (M.Hüseyn); **KÜÇÜKLƏNMƏK, QODUQLANMAQ** (*dan.*), **YALTAQLIQ ELƏMƏK.**

YALTAQLIQ Dünyada *yaltaqlıq* nə olduğunu Mirzə bilməzdi (Ə.Haqverdiyev); **TƏMƏLLÜQ** (*köhn.*) [Əbülhəsən bəy:] Burada ancaq saxta təriflər eşidəcək və çirkin təzimlər, *təməllüq* və riyakarlıqlar görəcəyik (M.S.Ordubadi).

yalvarıb-yaxarmaq *bax* yalvarmaq

YALVARMAQ Acı-acı *yalvarır* pərvərdigara; Deyir bari oğlunun bəxti geyməsin qara (M.Rahim); **AYAĞINA/AYAQLARINA DÜŞMƏK** O, sevindiyindən xacə Müfidin əllərini öpür və *ayaqlarına düşmək* istəyirdi (Ə.Məmmədxanlı); **DUA ETMƏK** (*din.*) [Qoca neft sahibkarı:] *Dua edin* ağalar, *dua edin!* (Ə.Məmmədxanlı); **İLAN DİLİ ÇIXARMAQ** (*fr.v.*) [Güləndam:] Yusif bəy *ilan dili çıxardır...* Elə zarıyır, elə zarıyır, adamın yazığı gəlir... (N.Vəzirov); **LƏLİMƏK** (*dial.*) Çox *ləlidim,* yenə insafa gəlmədi (ADDL); **YALVARIB-YAXARMAQ** Ənvər *yalvarıb-yaxardı* (Ə.Vəliyev); **YALVAR-YAPIŞ ELƏMƏK** (*dan.*) Qəmər zindanbanı çağırıb *yalvar-yapış elədi* ("Nağıl").

YAMAC [Alo:] O biri şoriklər də ağzını tutub *yamaca,* sən də həmişə fikirdə, sükutdasan (S.Rəhimov); **DAĞ(IN) DÖŞÜ** Mən buradan şəhərin arxa tərəfindəki üfüqdən görünən *dağın döşünə* səpələnmiş Zəbərli

kəndinin qırmızı evlərini görürəm (M.Hacıyev); **DÖŞ** [Atlılar] diki çıxıb *döşə* çatdılar (Çəmənzəminli); **YAL** Hətəmxan ona.. yuxarıdakı *yalı* göstərdi (S.Rəhimov).

YAMAQ [Pinəçi Qafar:] Başını nə ağrıdım, hər çustun *yamağına* yüz min*dən* az almıram (M.F.Axundzadə); **PİNƏ** Otur evdə, atanın eylə *pinə* çul-çuxasını (C.Cabbarlı).

YAMAQÇI [Əntiqənin] ...anası da sağıncıdı, *yamaqçıdı* (Mir Cəlal); **PİNƏÇİ** [Feyzulla:] Olsaydı gedib *pinəçi,* ya qalayçı, ya da dəllək olardı (Anar).

I yaman *bax* **1.** pis; **2.** əzazil; **3.** qarğış

II yaman *bax* yaxşı **I**

YAMSILAMAQ (*başqasının danışığını eyni ilə təkrar etmək*) [Hacı:] Zəhrimar b b b baba! – deyib [Gülabətini] *yamsıladı..* (M.İbrahimov); **AĞZINI ƏYMƏK** (*məc.*) Sübhanverdizadə onun *ağzını əyə-əyə* söyləndi (S.Rəhimov); **TƏQLİD ETMƏK/ELƏMƏK** Forma məsələsinə gəldikdə, Cabbarlı Sabirin qüvvətli satirasının bəzi zahiri cəhətlərini almış, daha doğrusu, onları *təqlid etmişdir* (M.Arif); **TƏQLİDİNİ GƏTİRMƏK** [Tarverdi:] Bax, bax, mənim *təqlidimi gətirir* (M.F.Axundzadə).

yan *bax* **1.** tərəf **1**; **2.** qıraq **1**; **3.** böyür

YANAQ Sənubər heç nə demədi, birdənbirə *yanaqlarını* iki əli arasına alıb dəli kimi üz-gözünü örtməyə başladı (Elçin); **ARİZ** (*kl.əd.*) Qanadın altına qoyma başını, Tökmə gül *arizinə* göz yaşını (A.Səhhət); **ÜZAR** (*kl.əd.*) Gülşəni-ol nigara get, lələ lobü *üzarə bax* (A.Şaiq).

yanardağ *bax* vulkan

YANAŞMAQ (*bir şeyin, bir kəsin yanına gəlmək*) Alo kişi iroliyə yeriyib danışanlara *yanaşdı* və hündürdən söyləndi... (S.Rəhimov); **YAXINLAŞMAQ** Onlar kəndə *yaxınlaşmış,* yorğun atları yavaş-yavaş sürürdülər (M.Hüseyn); **YAN ALMAQ** Bu zaman qatar sürətini azaldıb fit verə-verə stansiyaya *yan aldı* (A.Şaiq); **YANLAMAQ** ...Müəllim tez Meracı *yanlayaraq* qabağa göndərdi (Ə.Vəliyev); **YAXLAŞMAQ** Ana! Əl çəkəsi deyilik səndən! Deyərək, öz oğlu *yaxlaşdı* ona (S.Vurğun); **YOVUQLAŞMAQ.**

yanbız *bax* omba

yandırıb-yaxmaq *bax* yandırmaq **I**

1. YANDIRMAQ, YAXMAQ (*çox ağır təsir etmək*) Bütün Azərbaycanı məlul-müşkül görürdüm; Dünyanı *yandırdı, yaxdı* şöhid qanı (Z.Yaqub); **YANDIRIB-YAXMAQ** Firqət odu məni *yandırıb-yaxar..* (Q.Zakir).

2. yandırmaq *bax* alışdırmaq **I**

yanıxmaq *bax* heyfsilənmək

yanıqlı *bax* həzin

yanılmaq *bax* çaşmaq

yanılmaq *bax* hədələmək

yanlamaq *bax* yanaşmaq

yanlış *bax* səhv

yanmaq *bax* **1.** alışmaq **I**; **2.** heyfsilənmək

yanşaq *bax* **1.** aşıq; **2.** naqqal

yanşamaq *bax* çərənləmək

yan-yörə *bax* otraf **1**

YAPINCI (*adətən çobanlar üçün uzun geyim*) Atlı yəhərin qaşındakı tüfəngin qundağını *yapıncının* altında gizlətmişdi (İ.Şıxlı); **CÜRCƏN(Ə)** Qoyun otaran çobanlar *cürcənələrini* başına salıb sürünün dövrəsində hərlənirdilər (Ə.Vəliyev); **QARTI** Dünya malından var: sicim, çatısı; Patavası, çuxası, həm *qartısı* (A.Şaiq).

1. YAPIŞDIRMAQ, YAPMAQ

2. yapışdırmaq *bax* vurmaq **I**

YAPIŞQAN *Yapışqan* kimi nəmli hava dalğalandı (M.İbrahimov); **KLEY** [Balaxanım:] Mağazada Be Ef *kleyi* tökülüb qalıb, al yapışdır (Anar).

1. YAPIŞMAQ, SUVAŞMAQ

2. yapışmaq *bax* tutmaq **2**

1. YAPMAQ, YAPIŞDIRMAQ

2. yapmaq *bax* etmək

3. yapmaq *bax* tikmək **1**, qayırmaq **I**

yar *bax* **1.** yoldaş **1**; dost; **2.** sevgili **1**

1. YARA [Foxrəddin bəy:] Hacı Murad, Xəlil necədir, *yarası* sağalıbdırmı? (N.Vəzirov); **XORA** (*dəri üstündə irinli xırda yaralar*) Bu plastır.. dərinin xroniki iltihabında yara və *xora* üzərinə qoymaq üçün işlənir

(ADİL); **ZƏXM** (*kl.ad.*) Bağrıma müjganın sancıldı tirü nizəsi; *Zəxmi*-sinəmdən töküldü üstü xanım rizəsi (M.P.Vaqif); **YARA-XORA.**

2. YARA Bilirmola bağrımdakı *yaranı*; Neco yaxmış mən tək günü qarani (M.P.Vaqif); **DAĞ** Salmanam gözünü bağrım yağına; Dözürsən bu ayrılıq *dağına* (M.P.Vaqif); **İZTİRAB.**

yaradılış *bax* xilqət

yara-xora *bax* yara **1**

yaraq *bax* silah

yaraqlanmaq *bax* silahlanmaq

yaraqlı *bax* silahlı

yaraqsız *bax* silahsız

YARALI (*yaralanmış, yara almış, yarası olan*) Qaraca Çoban bağlandığı ağacla birgə *yaralı* Qazanın başı üstündə dayandı (Anar); **MƏCRUH** (*kl.ad.*) Gül kimi cismlər hamı biruh; Əzilib baş bədən olub *məcruh* (M.Ə.Sabir); **ZƏXMDAR** (*kl.ad.*) Qəlbi məcruhi-vətən tək *zəxmdar* olmuş könül! (Ə.Nəzmi); **ZƏXMNAK** (*kl.ad.*).

yaramaz *bax* əclaf

yararlı *bax* **1.** karlı **1**; **2.** lazımlı

yararsız *bax* **1.** lazımsız; **2.** vecsiz; **3.** xarab

YARASA (*gecələr uçan məməli quş*) [Kamil:] Nataşa, günəşdən qaçan *yarasalardır*, evimizə dolmuşdur (A.Şaiq); **GECƏ-GƏZƏN** Gecə uçan quşlar; bayquş, yapalaq, *gecəgəzən* (yarasa, şəbpərə) və s... ("Azərbaycan folkloru antologiyası"); **GECƏ-QUŞU** *Gecəquşunun* hərəkəti uşağı məşğul edirdi (Çəmənzəminli); **ŞƏBPARƏ** (*kl.ad.*) Ey buludlar, sönük qara ləkələr; Uçuşan parça-parça *şəbpərələr* (A.Şaiq); **ƏTQANAD.**

yarəşiq *bax* gözəllik

yaraşıqlı *bax* gözəl **1**

yaraşıqsız *bax* eybəcər

1. YARAŞMAQ ..Qara yaylıq *yaraşır*; Yardan ayrı düşənə ("Azərbaycan folkloru antologiyası"); **TUTMAQ** (*məc.*) Gör nə qədər gözəl *tutur*; Gümüş tana siyah zülfü (Miskin Əli).

2. YARAŞMAQ, LAYİQ OLMAQ, UYMAQ, BİR-BİRİNƏ MÜNASİB OLMAQ, UYĞUN GƏLMƏK

1. YARATMAQ (*müxtəlif mənalarda*) ..ədəbiyyatın və incəsənətin inkişafı üçün də böyük imkanlar *yaratmışdı* (M.Arif); **XƏLQ ETMƏK** [Usta Zeynal:] Ümüdüvi bir Allaha bağla ki, yeri-göyü yox yerdən *xəlq edibdi* (C.Məmmədquluzadə).

2. YARATMAQ, TƏSİS ETMƏK, TƏŞKİL ETMƏK

3. YARATMAQ, YAZMAQ (*əsər və s. yaradıcılıqla məşğul olmaq*)

YARDIM (*maddi köməkdə*) Gəminin azuqə ehtiyatı bitmiş olduğundan, püşkah Qasım yoldaşları ilə bərabər 11 gün ac qalmış və təsadüfən oradan keçən bir gəmi *yardımı* ilə nicat tapmışlardı (T.Ş.Simürğ); **İANƏ** (*köhn.*) Yəni elə ki Sabir susdu, onun xoşahəng və lətif kəlamına üns tutmuş cavanlarımız ancaq indi təşvişə düşüb ona *ianə* toplamağa və müalico etdirməyə başladılar (A.Şaiq); **İANƏT** (*kl.ad.*) [Yusif şah:] Dullara və yetimlərə və şillərə və korlara *ianət* və himayət göstərilsin (M.F.Axundzadə); **MÜAVİNƏT** [Kiçik zabit:] Bir əsir iştə, düşman ələ belə; Yenə lazım müavinət edilə (H.Cavid); **KÖMƏK** (*bax*).

yarğan *bax* uçurum **1**

yarımqaranlıq *bax* toran

yarımsaqqal *bax* bakenbard

yarın *bax* sabah

1. YARIŞMAQ (*bir-biri ilə yarışa girmək*) Üfüq yavaş-yavaş ağarışırdı; Tarlada üç dəstə qız *yarışırdı* (S.Vurğun); **BƏHSƏ GİRMƏK/GƏLMƏK** Həmid sonra öyrəndi ki, qardaşları *bəhsə giriblər*, görsünlər müəllimin evə verdiyi misalı tez və səhvsiz həll eləyə bilər (H.Abbaszadə); Oğlanlar, qızlar, gəlinlər, Bir-birilə *bəhsə gəlir* (Aşıq Əli); **BƏHSİ DÜŞMƏK** Kim ötdü, kim-kimi keçdi; Hektarçıynan *düşdü bəhsi* (Aşıq Əsəd).

2. yarışmaq *bax* qaçışmaq

I YARLIQ, ETİKET

II yarlıq *bax* dostluq, yoldaşlıq

YARI(M)YUXULU (*tam ayıq olmayan*), **YUXULU, YARIMYOYAQ**

1. YARPAQ ...Ağaclar açsın çiçək; *Yarpağı* ləçək-ləçək (M.Ə.Sabir); **BƏRG** (*kl.ad.*) Bəli, gor gül budağinə toxunsa tünbadi-dəhr; Pərişan olsa gül *bərgi*, edər bülbül fəğan, ağlar (Natovan); **VƏRƏQ** Ağacların *vərəqləri* düşər xəzəl olar bütün (A.Səhhət).

2. yarpaq *bax* vərəq **1**

3. yarpaq *bax* bənd **II**

yar-yaraq *bax* silah

yar-yaraqlı *bax* silahlı

yas *bax* matəm

yasaq *bax* **1.** qadağan; **2.** vergi **1**

yasamal *bax* yastana

YASAVUL (*tar., köhn.*) Evə girən şəxs qlavanın *yasavulu* Qasımoli idi (C.Məmmədquluzadə); **KOVXA** *Kovxalar*, naiblər başlamış işə; Ölkəni salmışdı dərin təşvişə (A.Şaiq).

yassar *bax* fərsiz

YASTANA (*dağın, təpənin üstündə olan düz yer*) Nəbinin qoyun sürüsü arxacın üst tərəfindəki *yastanaya* toplanmışdı ("Qaçaq Nəbi"); **YASAMAL** Günəş odlu bir quş kimi üfüqdə sürətlə bir dövrə cızıb qərbdəki *yasamal* dalına endi (Ə.Məmmədxanlı); **DÜZƏNGAH** (*bax*).

yastıq *bax* balış

yastıqüzü *bax* balışüzü

I 1. YAŞ Şeyx Şəbanın *yaşı* altmışı addamışdı (Ə.Haqverdiyev); **SİNN** (*köhn.*) [Böyükxanım:] Qız tayfası səkkiz *sinnidə* kəbirdir (M.S.Ordubadi).

2. yaş *bax* gözyaşı

II yaş *bax* nəm, nəmli

yaşa *bax* aforin

1. YAŞAMAQ Bundan sonra necə *yaşamaq* lazımdır (M.İbrahimov); **GÜN SÜRMƏK** Başında bir noxtadır, dalında bir palan var; Sədaqətlə *gün sürüb*, yaltaqlıq bilməyirsən (M.Rahim); **KEÇİNMƏK** (*dan.*) [Qafar:] Ay Kərim baba, ayrım qızı ilə necə *keçinirsən?* (A.Şaiq); **ÖMÜR ELƏMƏK/SÜRMƏK** [Hacı Əhmod:] Doğrudur, biz avamıq, amma bu xaraba dünyada əlli il *ömür eləmişik* (C.Cabbarlı).

2. YAŞAMAQ, SAKİN OLMAQ 1825-ci ilə kimi Molla Ələsgər və Fətəli İranın Ərdobil oyalotində *yaşadılar* və həmin ildə təkrar Qafqaza gəlib Gəncə şəhərində *sakin oldular* (Ə.Haqverdiyev).

3. YAŞAMAQ Axı bilmirik hara gedəcəyik, necə *yaşayacağıq?* (M.Hüseyn); **DOLANMAQ** [Qardaşxan:] Başın üçün Sənəm xala, indi yaxşı *dolanırıq* (M.İbrahimov); **GİRLƏNMƏK** [Çimnaz] birtəhər *girlənən* ailəni artıq xərcə-borca düşməkdən qorumaq istəmişdi (Ə.Əbülhəsən); **GÜZƏRAN ETMƏK** Bu kəndin əhli əkinçiliklə və çarvadarlıqla *güzəran edərdi* (S.S.Axundov); **KEÇİNMƏK** [Məsmənin] maaşı da yaxşı imiş. Firavanlıq ilə *keçinir* imiş (S.Hüseyn).

yaşar *bax* diri

1. YAŞAYIŞ (*həyat tərzi*) Dilə gəlib qoca dedi: – Heç qəm yemə Nəriman; Unutma ki, belə getməz bu *yaşayış*, bu dövran (S.Rüstəm); **DİRİLİK** [Gülzar:] Sənsiz mənə *dirilik* yoxdur (S.S.Axundov); **DOLANIŞACAQ** [İmran:] Nə vaxtadək bizim *dolanışacağımız* belə gedəcəkdir? (Ə.Haqverdiyev); **GÜN** (*dan.*) [Güləbətin:] ..Heç olmasa bunlar xoş bir *gün* görsünlər (M.İbrahimov); **GÜN-GÜZƏRAN** Tələbə babaydıq, özümüz cavan; Ürəkdən razıydıq *gün-güzərandan* (S.Rüstəm); **GÜZƏRAN** Yavərin müəllimlik maaşı ilə *güzəranları* pis keçmirdi (M.İbrahimov); **HƏYAT** [Rza:] Bu nə *həyatdır*, bu nə yaşayışdır ki, siz dözürsünüz?! (M.İbrahimov); **ZİNDƏGANLIQ** [Kərbəlayı Eyvaz:] Bilmirəm *zindəganlığın* dərdini çəkim, yoxsa bunun (Çəmənzəminli); **DOLANACAQ, MƏİŞƏT.**

2. YAŞAYIŞ, HƏYAT TƏRZİ, YAŞAMA, YAŞAMAQ TƏRZİ

yaşdaş *bax* həmyaşıd

yaşıd *bax* həmyaşıd

YAŞIL *...yaşıl* çəmənlərə tamaşa elə-yəndə, görürsən ki, naxır üz qoyub kəndə gəlməyə (C.Məmmədquluzadə); **GÖY** Seyrə çıxır uşaqlar; *Göy* çəməndə oynaşar (A.Səhhət).

yaşırmaq *bax* gizlətmək **1**

yaşlamaq *bax* islatmaq **1**

yaşlaşmaq *bax* qocalmaq

yaşlı *bax* qoca **1**

yatacaq *bax* yorğan-döşək

1. yataq *bax* yorğan-döşək

2. yataq *bax* mədən

3. yataq *bax* məcra

YATALAQ (*infeksion xəstəlik*) İki ay *yatalaqdan* yatdım (Çəmənzəminli); **TİF** Hələ daha böyük əsərlər bəklədiyimiz Səhhət 1918-ci ildə sənədə 18 mart hadisəsində Şamaxıdan Gəncəyə qaçaraq orada *tif* (*yatalaq*) xəstəliyindən vəfat etdi (A.Şaiq).

1. YATMAQ Anası da *yatmışdı*, qardaşı da *yatmışdı* (Elçin); **BAŞINI YERƏ ATMAQ** (*fr.v.*) [Korbolayı:] ...sübh tezdən durub gedirəm kooperativə, axşam da yornuq gəlib *başımı atıram yerə* (Ə.Haqverdiyev); **ÇİMİR ELƏMƏK/ETMƏK** Gecəyarı olmuş, lakin qız *çimir* də *eləməmişdi* (B.Bayramov); **XAB ELƏMƏK/ETMƏK** (*kl.əd.*) Ayıl, oğlum, bu qədər *evləmə xab*; Dur götür qoltuğuna indi kitab (A.Səhhət); **KÖPMƏK** (*dan., zar.*) Dağa gedirsən, evini yığışdır apar, getmirsən, yum ağzını, *köp* yerində (Mir Cəlal); **YUXUYA GETMƏK** O, heç özü də bilmədi ki, necə *yuxuya getdi* (Elçin).

2. yatmaq *bax* çökmək **2**

3. yatmaq *bax* dayanmaq **2**

1. YAVA *Yava* itin *yava* küçüyü olar (Ata. sözü); **PİS, GƏZƏYƏN** (*məc.*)

2. yava *bax* axlaqsız **1**; fahişə

yavalıq *bax* axlaqsızlıq, fahişəlik

YAVAŞ (*müxtəlif mənalarda*) [Hilal oğluna:] Dermişəm ki, küçədə diqqətli ol, *yavaş* yeri (B.Bayramov); **AĞIR** (*dan.*) İçəri girdim *ağır* addımlarla balkona çıxdım (M.S.Ordubadi); **AHƏSTƏ** [İlyasov] bir az cəsarətsizlik hiss olunan *ahəstə* səslə əlavə etdi (Mir Cəlal); **ASTA** [Kərim] ayaqqabısını çıxarıb, *asta* addımlarla ona yaxınlaşdı və oyilib saçlarından, yanağından öpdü (X.Hasilova); **EHMAL** (*dial.*) Tünük zorfom, moni saqi əlindən gəlsə hüşyar et; Əgor *ehmal* edərsən bos xəbərdar ol, xəbərdar et! (Qövsi); **LƏNG** (*dan., dial.*) Çaxmaqdaşı bir-birinə vurub tiflikli qaytanı alışdırmaq istəyəndə zabit onun *ləng* tərpənməsindən xoşlanmadı (H.Abbaszadə); **ARAMLI.**

YAVAŞ-YAVAŞ Onlar kəndə yaxınlaşır, yorğun atları *yavaş-yavaş* sürürdülər (M.Hüseyn); **ADDIM-ADDIM** Atı *addım-addım* sürərək nəzərim itlərdə idi (S.S.Axundov); **AĞIR-AĞIR** Atdı beli bir neçəsi; Çıxıb getdi *ağır-ağır* (M.Rahim); **AHƏSTƏ-AHƏSTƏ** Paşa çavuşu kənara çəkib *ahəstə-ahəstə* danışırdı (S.Rəhimov); **ARAM-ARAM** Yoldaş Cəlilov, – Fikrət *aram-aram* sözləri uzada-uzada dedi: – İcazənizlə qoyun sizə bir də xatırladım... (H.Abbaszadə); **ARAMLA** Qaraca qız *aramla* geyinməyə başladı (S.S.Axundov); **ASTA-ASTA** [Çopur Abdulla] *asta-asta* dikəldi, gözlərindən qan damırdı (H.Abbaszadə); **EHMAL-EHMAL** Maro *ehmal-ehmal* onlara yaxınlaşdı (S.Rəhimov); **SAKİT-SAKİT** *Sakit-sakit* bir qədər də büzüşüb elə yaxın yeriyirdilər... (Ə.Kərim); **TƏLƏSMƏDƏN** *Tələsmədən* yaxşı xətlə yazdığım ərizənin sətirlərini sanki hecəbəhecə oxuyurdu (M.Hüseyn); **BALA-BALA** (*dan.*).

yavər *bax* **1.** köməkçi **1**; **2.** adyutant; **3.** mayor

yavru *bax* **1.** övlad **1**; **2.** bala **1**

I YAY (*ilin fəsillərindən biri*) **Keçən** *yay*, universitetin birinci kursundan ikinci kursa keçəndə tətil vaxtı, evdə onu qoymadılar bir yerə tək getməyə.. (Elçin); **SEYF** (*kl.əd.*).

II yay *bax* kaman **1**

1. YAYILMAQ Mirzənin ölməyinin xəbəri şəhərə *yayıldı* (Ə.Haqverdiyev); **AĞIZDAN-AĞIZA DOLAŞMAQ** (*fr.v.*) Qəmərin gözəlliyi *ağızdan-ağıza dolaşdı*.. (Çəmənzəminli).

2. yayılmaq *bax* genişlənmək

yayındırmaq *bax* **1.** sındırmaq; **2.** gizlətmək

YAYINMAQ (*xəlvəti getmək, qaçmaq*) [Tarverdi:] Vaxt ikən bir tərəfə *yayınım* (M.F.Axundzadə); **ARADAN ÇIXMAQ** O ..Sultan tərəfindən tutulmaq istənildiyi zaman qaçaraq *aradan çıxmışdı* (S.Rəhimov); **ƏKİLMƏK** (*məc.*) [Vahid] kağızları verib *əkilmək* istərkən bəstəkar dillondi.. (B.Bayramov); **QAÇMAQ** (*bax*), **SOVUŞMAQ.**

yaylıq *bax* dəsmal **1**

YAZ (*dörd fəsildən biri*) Dünya deyir: mən ikiyəm; Sağımda *yaz*, solumda qış (S.Vurğun); **BAHAR** (*şair.*) Yurdumuza *bahar* kimi gəldi aprel günləri; Doğma kəndlər, gur şəhərlər al qumaşa büründü (S.Rüstəm).

yazar *bax* yazıçı

yazı *bax* **1.** sahə; **2.** xətt; **3.** savad; **4.** əlifba

YAZIÇI [Şəfər:] Mən gedim *yazıçım* bura çağırım (S.Vəliyev); **ƏDİB** Şairlər, *ədiblər* Füzulini ötməyə deyil, bəlkə ona yetişməyə və var qüvvələri ilə öz əsərlərini Füzulinin əsərlərinə bənzətməyə və bələləkliə ədəbiyyatı qırıldığı nöqtəyə bənzətməyə və orada bərkitməyə çalışırdılar (C.Cabbarlı); **MÜNŞİ** (*köhn.*) Rusiyanın.. sevgili *münşisi* hesab olunan A.P.Çexovun bu iyul ayında vəfat etməsi.. qəzetlərdə dərc olunan fəqərələrdən görünür (F.Köçərli); **NASİR** Əziz dostum, dinlə məni, son *nasirsən*, mənsə şair; İzin ver, qoy gördüyümü təsvir edim sənə bir-bir (S.Rüstəm); **YAZAR.**

1. YAZIQ, FAĞİR [Hacı:] Qul oldunuz bir vaxt xana; *Yazıqsınız, fağırsınız;* Aldanmayın Natəvana (M.Rahim); **BAŞIDAŞLI** (*dan.*) Bir kəndə camaat ağlaşa-ağlaşa yüzbaşının yanına yıxılıb: "Bəs toxumluğu aparırsınız, biz *başıdaşlı* nə əkək?" – deyirdi (Çəmənzəminli); **BİÇARƏ** (*köhn.*) [Molla Səfi:] *Biçarə* kişinin övqatı təlx oldu (N.Vəzirov); **BİNƏVA** (*köhn.*) *Binəva* övrət xiffətindən naxoşluğa düşüb.. (Ə.Haqverdiyev); **DİLSİZ** (*məc.*) *Dilsizlər* hərə bir küncdə palçığa bulanmış, acılqlarından nalə edirlər (N.Nərimanov); **DİLSİZ-AĞIZSIZ** (*məc.*) Hər kəs *dilsiz-ağızsız*, bacarıqsız bir talibə zənn edirdi (S.Hüseyn); **MƏZLUM** [Xəlil:] Kaş bu yaradan öləydim, səni bu halətdə görməyəydim, yazıq ağa, *məzlum* ağa (N.Vəzirov); **ZAVALLI** Özünü unudubdur; Bu *zavallı* xəstənin; Nəbziylə yaşayır o (B.Vahabzadə); **ZƏLİL** Bu polad çiynimdən asılacaqdır; Zalimlər önündə olacaq *zəlil* (S.Rüstəm); **BƏDBƏXT** (*bax*), **QƏRİB.**

2. yazıq *bax* aciz

YAZIQ-YAZIQ [Maral] qalxmaq istəsə də bacarmır, çapalayıb buynuzunu yerə dəyir, taqətdən düşəndə isə ayaqlarını uzadıb *yazıq-yazıq* ətrafına boylanırdı (İ.Şıxlı); **FAĞİR-FAĞİR** [Əlican:] Niyə durub *fağır-fağır* baxırsan? (V.Babanlı); **QƏRİB-QƏRİB** *Qərib-qərib* durub biganələr tək; Soyuq-soyuq baxdıq divanələr tək (M.P.Vaqif); **MƏZLUM-MƏZLUM** [Səlimə:] Yemdən yaramayan heyvanlar adamın üzünə elə ac, *məzlum-məzlum* baxırdılar ki, yazığım gəlirdi (İ.Əfəndiyev).

YAZILI Yeriyib bir nəfər əfsər; Verdi qubernatora *yazılı* xəbər (H.Sanılı); **TƏHRİRİ** Katib Comilin yazdığı *təhriri* məlumata bir də nəzər salıb başını qaldırdı (Q.İlkin).

yazpişiyi *bax* çölpişiyi

yazışmaq *bax* məktublaşmaq

YAZMAQ Şairəm, çünki vəzifəm budur əşar *yazım;* Gördüyüm nikü bədi eyləyim izhar, yazım (M.Ə.Sabir); **QƏLƏM ÇALMAQ** İyirmi ildir ki, *qələm çalırsan;* Yerdən də, göydən də ilham alırsan (S.Vurğun); **QEYD ELƏMƏK/ETMƏK** [Səsləri:] Ağa, qoddino qurban olum, məni də o kağıza *qeyd elə* (M.S.Ordubadi); **RƏQƏM QILMAQ** Sən əgər söz vərəsən: "Qorxma, *qil* əhvali *rəqəm*"; Vəzi-halın yazılarsa zili-zilü bəmi bəm (M.Ə.Sabir); **TUTMAQ** (*məc.*) Əfruz nə məruzə üçün tezis *tutmağa*, nə də çıxış üçün qeyd eləməyə qabil deyil (M.Cəfər).

yeddiqardaş *bax* ülkər

YEDİRMƏK [Pirverdi] uşağı doyunca *yedirmir*.. (A.Şaiq); **BƏSLƏMƏK** Çəm edə-

cək tarlasının hasilin; *Bəsləyəcək* ailəsin, həm elin (M.Ə.Sabir); **YEDİZDİRMƏK** [Dilarə:] Yaxşı gedək mətbəxə, *yedizdirim* səni (Anar); **BOĞMALAMAQ** (*vulq.*), **QİDALANDIRMAQ, SAXLAMAQ** (*məc.*), **YEM VERMƏK** (*quşa, heyvana aid*), **YEMƏK VERMƏK.**

yedirtmək *bax* yedirmək

YEGANƏ İndi onun *yeganə* dostu çamadan idi (Ə.Kərim); **BİR** Əhməd ananın *bir* oğludur (Mir Cəlal); **BİRCƏ** [Mehri xanım:] Sən mənim *bircə* balamsan! (Ə.Haqverdiyev); **TƏKCƏ** [Dursun:] Bu Aydəmir mənim *təkcə* qardaşımın yoldaşıdır (C.Cabbarlı); **TƏK, VAHİD** (*bax*).

yehaye *bax* rüşvətxorluq

yekdil *bax* həmrəy

YEKDİLLİKLƏ, BİRGƏ, HƏMRƏYLİKLƏ, İTTİFAQDN

yekə *bax* böyük **I**

1. YEKƏBAŞ Pişik nə pişik!.. Ay dad!.. *Yekəbaş*, palazqulaq.. (M.Rzaquluzadə); **QABAN BAŞ** (*məc.*) [Molla Qafar:] Ay eşşək qulaq, *qaban baş*, heç görmüsən yeriyən daş?! (S.Rəhimov); **BAŞI YEKƏ, İRİBAŞ(LI).**

2. yekəbaş *bax* qanmaz

yekəxana *bax* lovğa

yekəxanalanmaq *bax* lovğalanmaq

yekəxanalıq *bax* lovğalıq

1. YEKƏQARIN (*qarnı haddindən artıq yekə, yoğun və s.*) Karvanın qabağı həyətə çatar-çatmaz *yekəqarın* və təcrübəli lələ hay-küylə çölə çıxıb qışqırdı.. (S.Rəhimov); **QARINLI** Ağayar.. yaşı təzəcə qırxı ötmüş *qarınlı* bir kişi idi.. (Ə.Əbülhəsən); **QARNIŞİŞİK** [Əmiraslan baba:] Bu kəndin *qarnışişik* Lələş adlı kəndxudası vardı (S.Rəhimov); **QARNIYOĞUN** Qəfəsin dalında bir *qarnıyoğun*.. oturub, yazıya məşğul idi (C.Məmmədquluzadə); **BOÇKAQARIN** (*dan.*), **DAQQAQARIN, İRİQARIN, QARNIYEKƏ, LOPAGÖDƏN(Lİ)** (*dan.*).

2. yekəqarın *bax* qarınqulu

yekəlik *bax* **1.** böyüklük **I**; **2.** lovğalıq

YEKƏLMƏK [Safo:] Axı Şamo körpəliyindən onun-bunun qapazı altında *yekəlibdir* (S.Rəhimov); **BÖYÜMƏK** Girdiman dağlarının təmiz havasında *böyümüş* bu qocanın, yetmiş yaşı vardısa da, hələ qocalıqdan şikayət etmirdi (M.Hüseyn); **İRİLƏŞMƏK, İRİLMƏK** [Fərmanın] ortaboylu nazik vücudu getdikcə *iriləşir*, bədənindəki uşaq kövrəkliyi daha az hiss olunurdu (Ə.Sadıq); **ZORBALAŞMAQ** (*dan., məc.*) Günlər keçdi, aylar keçdi, balaca Cəbi yavaş-yavaş boy atırdı, fəqət həmişə zəif, üzü küçük, başı isə günbəgün *zorbalaşırdı* (N.Nərimanov).

yeknəsəq *bax* **1.** saya; **2.** cansıxıcı

yekrəng *bax* **1.** saya; **2.** cansıxıcı

yeksər *bax* büsbütün

yekşənbə *bax* bazar **II**

I YEL Budur, asta-asta danışır qonaq; Elə bil *yel* əsir Muğan düzündə (B.Vahabzadə); **BAD** (*kl.ad.*) Hər səhər *bad* əsər, ariz cananə dəyər; Toxunur sərvə gəhi, gah gülüstanə dəyər (M.V.Vidadi); **KÜLƏK** Dinlə, ey qum çölü; dayan, ey *külək!* Qurtuluş istəyir döyünən ürək (S.Vurğun); **MEH** (*yüngül yel*) Hava buludlu idi, deyəsən yağış yağacaqdı. Həzin *meh* də əsirdi (M.İbrahimov); **NƏSİM** (*zəif səhər yeli*) Sanki su səpirdi sabah *nəsimi;* Onun iztirablı solğun üzünə (M.Dilbazi); **SƏMUM** (*sahralarda əsən isti yel*) *Səmum* səhranın qumlarını burulğan kimi havaya qaldırıb.. (Y.Əzimzadə).

II yel *bax* revmatizm

yelbeyin *bax* kütbeyin

yeldaşı *bax* şillə

yelək *bax* lələk **I**

yelən *bax* haşiyə

YELİN (*heyvanlarda: inəkdə, qoyunda, keçidə və s.*) Tut qoyunun belini; Elə gəlmir *yelini;* Bir doyunca görəydim; Onu sağan gəlini (Bayatı); **ƏMCƏK** [Bağır:] Səni elə südlü, elə yelinli inək eləyərəm ki, gündə səndən dörd sərinc süd sağarlar, *əmcəklərini* yara eləməsələr, əl çəkməzlər səndən... (İ.Məlikzadə); **MƏMƏ** Keçinin *məmələri*, elə bil ki, bulaqdı; südü sanki qaymaqdı (M.Rzaquluzadə).

1. YELLƏNMƏK, TƏRPƏNMƏK, YIRĞALANMAQ

2. yellənmək *bax* dalğalanmaq

1. YELLƏTMƏK, YELLƏNDİRMƏK

2. yellətmək *bax* içmək

1. YELLİ, KÜLƏKLİ

2. yelli *bax* yeyin

3. yelli *bax* hiddətli

yelpazə *bax* yelpik

yelpənək *bax* xiyar

yelpinc *bax* yelpik

YELPİK [Məlik:] O gözəl Münirə də əlində *yelpik* üzünü yelpikləyirdi (A.Şaiq); **YELPAZƏ** (*böyük yelpik*) Balkonun iki tərəfində duran xidmətçilər tavandan asılmış böyük *yelpazəyə* hərəkət verirdi (M.S.Ordubadi); **YELPİNC** Yelləyir körpə ağaclar bizi *yelpinc* sayağı (S.Rüstəm).

1. YEMƏK O, pəndir-çörək *yeyir*, baxanları həvəsə gətirirdi (Ə.Qasımov); **AŞIRMAQ** (*məc., dan.*) [Qonaqlar] sabah açılandan qalxıb bir cüt... toyuğun da çığırtmasını *aşırdılar* (S.Rəhimov); **BASMAQ** (*dan.*) Boynuyoğun mollalar, tacirlər, seyidlər.. hər gün gəlib yağlı plovdan *basırdılar* (Ə.Haqverdiyev); **GƏVƏLƏMƏK** (*könülsüz yemək*) Gecənin yarısı çörək *gəvələyək*.. (Ə.Kərim); **İÇƏRİ ÖTÜRMƏK** (*məc., dan.*) Qulunun iştahası çox idisə də, axırda olacı kəsilib, rəngsiz dodaqlarını aralayıb, dolmanı *içəri ötürdü* (Çəmənzəminli); **QARNINI OTARMAQ** (*dan., zar.*) "Talıbxan, eşitdiyimə görə kəndlərdə veyllənib *qarnını otarırsan*..." (S.Rəhimov); **QURŞAĞIN/TOQQANIN ALTINI BƏRKİTMƏK** (*dan.*) [Cahangir bəy:] Xəlil, sən də gəl otur, bir az *qurşağının altını bərkit*, balam! (N.Vəzirov); [Məmməd:] Girdim restorana ki, *toqqanın altını bərkidim* (Ə.Qasımov); **ÖTÜRMƏK** (*məc.*) Kərbəlayi Həsən ucadan "bismillah" çəkib dolmanın birini buğlana-buğlana *ötürdü* (Çəmənzəminli); **TƏPİŞDİRMƏK** (*məc.*) Varis qarşısındakı soyuq şorbanı təpişdirərkən qızı gözucu süzdü (A.Şaiq); **TIXMAQ** (*dan.*) [Əsli:] ..Amma, beş adamın payını *tıxır* (İ.Məlikzadə); **ZƏHRİMARLANMAQ** (*dan., vulq.*) [Ata:] Gəl, axmaq balası, naharını *zəhrimarlan* (Ə.Haqverdiyev); **ZƏQQUMLANMAQ** (*dan., vulq.*) [Qurbanəli:] Acından öldüm ki, bir az əppəkdən-zaddan ver, *zəqqumlanaq* (N.Nərimanov); **AĞILANMAQ** (*vulq.*), **BOĞMALANMAQ** (*vulq., acgözlüklə yemək*).

2. yemək *bax* xörək

YEMƏKXANA Binanın alt mərtəbəsində olan geniş *yeməkxanada* stollar qoyulmuş, üstləri təmiz, ağ süfrələrlə örtülmüşdü (S.Rəhimov); **AŞXANA** Bu gün Kamal mədənin birmərtəbəli balaca *aşxanasında* oturub nahar edirdi (M.İbrahimov); **RESTORAN** Dayan, girmə içəri! Gəlmə *restorama*, tez ol qayıt, dön geri! (M.Rahim); **TƏAMXANA** (*köhn.*) ...ayaqyalın küçələrə salanlara bir xəstəxana, bir darülxeyrat *təamxanası* bina etməkdən baş qaçırdıb da, yenədəmi "millət", "insaniyyət" sözlərini ağzınıza alıb çeynəyəcəksiniz? (N.Nərimanov); **TRAKTİR** (*köhn.*) [Səfər:] *Traktirdə*, duxanda podvallarda; Kef elədim teatrda, ballarda (A.Səhhət).

yemiş *bax* qovun

yemsək *bax* axsaq

yemsəmək *bax* axsamaq

yenə *bax* təzədən

yengiyetişmiş *bax* yeniyetmə

yeni *bax* təzə, müasir

yenidən *bax* təzədən

1. YENİLİK, YENİ XƏBƏR

2. YENİLİK, YENİ (TƏZƏ) BİR ŞEY

3. YENİLİK, DƏYİŞİKLİK

4. yenilik *bax* müasirlik

yenilikçi *bax* novator

yenilikçilik *bax* novatorluq

yenilməz *bax* **1.** məğlubedilməz; **2.** sarsılmaz

YENİYETMƏ (*gənclik yaşına (14-17) ayaq qoymuş oğlan və qız*) Burada ahıl qadınlardan tutmuş yeniyetmə qızlaradək hər nəslin nümayəndəsinə rast gəlmək olardı (X.Hasilova); **NÖVRƏSTƏ** (*köhn.*) [İskon-

dər bəy:] Xala, sən də diribaş qarısan? Məncə nə verərsən sənə elə bir dava verim ki, *növrəstə* cavan olasan (N.Vəzirov); **YENGİYETİŞMİŞ** [Zibaxanım:] Sənə demədimmi, kişi, bu olli yaşında *yengiyetişmiş* qız almaq sənə yaraşmaz? (M.F.Axundzadə); **CAVAN** (*bax*).

1. YER, ƏRZ, YER KÜRƏSİ (*səma müqabili*)

2. yer *bax* torpaq **2**

3. yer *bax* iş **2**

4. yer *bax* yorğan-döşək

1. YERİMƏK Maşın yenicə *yerimə*yə hazırlanırdı.. (Ə.Vəliyev); **HƏRƏKƏT ETMƏK, HƏRƏKƏTƏ GƏLMƏK.**

2. yerimək *bax* addımlamaq

yerkökü *bax* kök **II**

yerli *bax* **1.** həmyerli; **2.** lokal

1. YERSİZ, EVSİZ-EŞİKSİZ (*yeri, məkanı olmayan*). **MƏSKƏNSİZ, YERSİZ-YURDSUZ**

2. yersiz *bax* **1.** əbəs; **2.** mənasız **1**

yertərpənmə *bax* zəlzələ

yertitrəmə *bax* zəlzələ

YEŞİK (*müxtəlif mənalarda*) [Sonubər] ...arakəsmədəki pəncərə sürahisinin altındakı karton *yeşiyə* çəkib altı-yeddi kartof, bir-iki soğan götürdü.. (Elçin); **QUTU** [Kərim] bu fikirlə qəzetləri *qutuya* saldı.. (M.İbrahimov).

yetik *bax* **1.** xəbərdar; **2.** yetkin

YETİM *Yetim* qız da, şahzadə oğlan da çıxıb getdi işinin dalınca.. (Elçin); **ATA-ANASIZ** [Hacı Murad:] Budur on iki ildir ki, *ata-anasız* yetimi öz oğlum kimi bəsləyib, paltar, çörək verib, bu boya çatdırmışam (S.S.Axundov); **ÖKSÜZ** Bilməm bu dağlar, bu məhabətli fırtına; *Öksüz* bu milləti çıxararmı o bir yana? (A.Şaiq); **SƏĞİR** (*həddibüluğa çatmamış yetim*) Xudayar bəyin qəsdi Zeynəbin və *sağirlə*rin var-yoxuna, puluna və mülkünə sahib olub, Zeynəbi çölə ötürmək idi (C.Məmmədquluzadə).

yetirmək *bax* çatdırmaq

YETİŞDİRMƏK (*bostan bitkisi, meyvə və tərəvəz haqqında*) ...respublikamızın alimləri iriyarpaqlı yaxşı ipək verən zərif tut ağacları *yetişdirmişlər* (Axundov); **BECƏRMƏK** Salman kişi Daşlıca ağzında bostan *becərirdi* (Mir Cəlal); **BİTİRMƏK** Kənarıçeşmimə sancıldı oxlanan ney tək; Sudan qəmiş *bitirən* Kür kənarına bənzər (S.Ə.Şirvani).

yetişmək *bax* **1.** dəymək **1**; **2.** çatdırmaq; **3.** çatmaq **I 1**; **4.** yetkinləşmək.

yetişməmiş *bax* kal

YETKİN, DƏLİQANLI, DOLĞUN, HƏDD-BÜLUĞA ÇATMIŞ, YETİK

YETKİNLƏŞMƏK, YETİŞMƏK Çünki Sənəm *yetişmişdi*, istəyəni də yox idi... (Çəmənzəminli); **BİĞİNIN YERİ YENİCƏ TƏRLƏMƏK** (*dan.*) *Biğının yeri yenicə tərləyən* Kərim, ilk vaxtlardan hər cür ağırlığa dözməyə və qaydı çəkməyə başlamışdı (S.Rəhimov); **HƏDDƏ YETİŞMƏK** Sən də *yetişibsən* o *hədd*ə məgər; Beyninə bayatı uyar, ağlarsan! (M.P.Vaqif); **HƏDDİBÜLUĞA ÇATMAQ/YETMƏK** [Mərcan bəy:] Mənə qəyyum lazım deyil: Allaha şükür, *həddi-büluğa çatmışam*, əqlim başımdadır (Ü.Hacıbəyov).

YEYİN [Aslan] canındakı üşütməni unudub *yeyin* addımlarla şəhərə qayıtdı (M.Hüseyn); **BECİD** (*dan., zar.*) [Şövkət:] Əyləş, dincini al, Kərim dayı, niyə belə *becid* yerimisən, lap ürəyin ağzına gəlir ki... (M.İbrahimov); **CƏLD** Xavər ərinin üzünə belə baxmayıb evdən çıxdı, *cəld* addımlarla yüyürüb getdi (B.Bayramov); **ÇEVİK** Usta *çevik* addımlarla perrona çıxdı (M.Hüseyn); **İTİ** [Qəndab:] Qönçə idi. *İti* addımlarla yeriyirdi (B.Bayramov); **SÜRƏTLİ** (*çox yeyin*) Tahirzadə *sürətli* addımlarla qabağa keçəndə hamı susdu (Mir Cəlal); **YELLİ** (*dan.*) [Biqəm:] Pah atonnan, zalım balası gör nə *yelli* gəlir (Anar); **ƏLÜSTÜ** (*bax*), **SÜRƏTLƏ** (*bax*).

1. YEYİNTİ, İSRAF

2. yeyinti *bax* azuqə

yeyin-yeyin *bax* tez-tez

YEZNƏ (*bacının əri*) Əmisi oğlanları saysız, *yeznələri*, tanış və dostları hesabsız idilər

(Ə.Vəliyev); **DAMAD** (*kl.əd.*) Oxudaq gözləri açılmamış əhfalımızı; Görmüşəm elm oxumuş heyvərə *damadımızı* (M.Ə.Sabir); **GİYƏV** (*dial.*) Güləndamın anası toyuğu götürüb acıqla *giyəvina*: – Məni ağbirçək vaxtımda ələ salıb oynadırsan (Ə.Haqverdiyev); **KÜRƏKƏN** İbrahim bəyin göstərişi ilə çox çəkmədi Vəliş, oğlu Qaraş, arvadı Qarabirçək, *kürəkəni* Qorxmaz, darğa həyətində cəm oldular (Ə.Vəliyev).

yəhəraltı *bax* tapqır

YƏHUDİ (*İsrail millətİ*) [İmamqulu bəy:] Qabaqcadan satıb *yəhudiyə, hər desyatini iki min manata*.. (N.Vəzirov); **CUHUD** [Molla Həmid:] ..bunlar hamı müsəlmandırlar, bunların tərcihi məlun *cuhudlara* vacibdir (M.F.Axundzadə).

YƏQİN (*ara söz kimi işlənir*) [Tarverdi:] Ey, *yəqin*, bu adam da quldurluğa çıxıbdır.. (S.Hüseyn); **DEYƏSƏN** Uşağın dalısında, *deyəsən*, odun şələsi vardı (Mir Cəlal); **EHTİMAL** *Ehtimal*, hər kəs də belə təsəvvür edirdi (S.Hüseyn); **ƏLBƏT** [Səlimə:] *Əlbət*, odunu satılmır nədi, kəsdirib bazarı ac-susuz (Ə.Haqverdiyev); **GÖRÜNÜR** *Görünür*, bizim fəhlələr hələ də natiqlərə qiymət verə bilmirlər (H.Nəzərli); **OLA BİLSİN Kİ.**

yəmin *bax* and

yəzdan *bax* Allah **I**

yığın *bax* **1.** qalaq; **2.** dəstə **I 1**

yığılmaq *bax* yığışmaq **1**

yığıncaq *bax* **1.** iclas; **2.** mitinq; **3.** məclis **I**; **4.** ziyafət

1. YIĞIŞDIRMAQ Səfərlə Tanrıverdi Qurbanın paltarını *yığışdırıb* götürərkən arasından yerə bir məktub düşdü (A.Şaiq); **YIĞMAQ.**

2. YIĞIŞDIRMAQ Odur ki, [arvad] evi *yığışdırıb*, adəti üzrə yatağına uzandı (Çəmənzəminli); **SƏLİQƏYƏ SALMAQ** Mülayim ev-eşiyi *səliqəyə salmış*, yığışdırmış, böyük bir qonaqlıq tədarük görmüşdü (B.Bayramov); **SİL-SÜPÜR ETMƏK, SİLİB-SÜPÜRMƏK.**

1. YIĞIŞMAQ [Pərviz:] Bu zaman başqa uşaqlar da başımıza *yığışdılar* (M.İbrahimov); **BİRİKMƏK** Sanki Nərimanın sözləri onun təsəvvüründə *birikib* qalan dumanları dağıtdırdı (Mir Cəlal); **CƏM OLMAQ** Dalğalanır, müjdə verən qonum-qonşu *cəm olur*; Başlanılan sorğu-sual, şirin məclis qurulur (M.Rahim); **KUTLAŞMAQ** Uşaqlar bir az da *kutlaşıb* nə olacağına baxırdılar (İ.Hüseynov); **TOPLANMAQ** Güllə səsinə adamlar *toplandı* (M.İbrahimov); **TOPLAŞMAQ** Gecələr qadınlar, uşaqlar otağımıza yığılıb buxarının başına *toplaşırdılar* (S.S.Axundov); **YIĞILMAQ** Yenə pəncərəni salıb, ocağın qırağına *yığılardıq* – dumana qarşı tədbirlər lazım idi (Çəmənzəminli).

2. yığışmaq *bax* köçmək **1**

YIĞMAQ [Vəli:] Sən, Tarverdi tez onları [sandıqları] sındır, içinin şeylərini bir yerə *yığ* (S.S.Axundov); **TOPLAMAQ** Gəlinlərqızlar da dağılıb düzə; Pambıq *toplayırıq* durub üz-üzə (S.Vurğun); **CƏMLƏMƏK, BİRİKDİRMƏK** (*yavaş-yavaş toplamaq*), **KUTLAMAQ.**

yığnaq *bax* iclas

yıxanmaq *bax* **1.** yuyunmaq; **2.** çimmək

1. YIXILMAQ Adilə müvazinətini saxlaya bilməyib divanın üstünə *yıxıldı* (Ə.Qasımov); **DƏYMƏK** Bir gün səhər-səhər Gülnaz; Yol gedərkən saymaz-saymaz; Sürüşərək birdən-birə; Üzü üstə *dəydi* yerə (M.Seyidzadə); **DÜŞMƏK** Dərsə gedən bir uşaq; Çıxdı buz üstə qoçaq; Sürüşdü birdən-birə; *Düşdü* üz üstə yerə (M.Ə.Sabir); **SƏRƏLƏNMƏK** Elə bu vaxt bulvardan qayıdan Mümtaz Mötəbərov qardaşların duz kimi yaladıqlarını görəndə, dümağ ağardı və qəfildən qapının kənarında üzüüstə dəşəməyə *sərələndi*... (M.Hüseyn); **SƏRİLMƏK** Kor seyid üzü üstə yerə *sərildi* (S.Hüseyn).

2. yıxılmaq *bax* devrilmək

3. yıxılmaq *bax* dağılmaq **1**

yıxılmaz *bax* sarsılmaz

1. YIXMAQ (*güləşdə birinə qalib gəlmək*) [Balağa:] Hamı elə təsəvvür edir ki, mən səni Nardaranda yıxa bilərdim, özüm

yıxmadım, gonc olduğun üçün rəhmim gəldi (H.Abbaszadə); **SƏRMƏK** Onu [qarını] *sərdilər* yerə (M.Rzaquluzadə); **KÜRƏYİNİ YERƏ VURMAQ/QOYMAQ** [Həmid:] Tək o demir, hamı danışır ki, kim Çopur Abdulların *kürəyini yerə vurarsa*, tezliklə pəhləvanı aradan götürürlər (H.Abbaszadə); **BASMAQ.**

2. YIXMAQ Bir gündə *yıxdıq* çarı; Çoxdan əlimizdədir; Səadətin açarı (M.Rahim); **DEVİRMƏK** ...Üç yüz illik Romanovlar; Səltənətini *deviran*; milyonlarla həyat verən; İşıq verən insan odur (R.Rza).

3. yıxmaq *bax* dağıtmaq

yırğalanmaq *bax* **1.** torpənmək **1**; **2.** yellənmək **1**

1. YIRTICI O, qızını *yırtıcı* bir canavar pəncəsindən zorla almış kimi idi (M.Hüseyn); **ALICI** (*yalnız quş haqqında*) Yolun ortasına bir nal qırığı düşmüşdü. Kiçikboyim uzaqdan bunu gördü; çapa-çapa yaxınlaşdıqda, *alıcı* quş süqəti ilə enib, nalı qaldırdı (Çəmənzəminli); **VƏHŞİ** Neçə-neçə qarlı qış gecələrində o, sinəsini bu qayalar sıxıb ovun bərəsinə gəlməsini gözləmiş, hətta *vəhşi* heyvanlarla da vuruşmalı olmuşdur (M.İbrahimov).

2. yırtıcı *bax* zalım

I 1. YIRTIQ (*köhnəlib dağılmış*) Haradasan ay qız? *Yırtıq* corabları tikirəm ana (M.Rahim); **MÜNDƏRİS** (*arx.*) ..iki sahibsiz uşaq, biri səkkiz, biri altı yaşında, *mündəris* və çirkin paltarda (C.Məmmədquluzadə); **DİDİK, SÖKÜK.**

2. yırtıq *bax* deşik **I**

II yırtıq *bax* dəbə

yırtmaq *bax* **1.** deşmək; **2.** parçalamaq **2**

1. YİV, OYUQ

2. YİV (*tüfəngdə*), **XIR**

YİVSİZ, XIRSIZ

YİYƏ O zaman ayrılanda nə təhər oldusa, Durmuş xali yer *yiyəsi* oldu (Mir Cəlal); **AĞA** (*köhn.*) İnsan bütün varlığının *ağasıdır*, hakimidir (M.İbrahimov); **ƏHL** (*adətən tərkiblərdə işlədilir*) Dərd *əhliyam*, qəm hərfini qanaram (M.P.Vaqif); **ƏRBAB** (*köhn.*) Əmlak bizimdirsə, əyalət də bizimdir; Divan bizim, *ərbabi*-hökumət də bizimdir (M.Ə.Sabir); **MALİK** (*köhn.*) Qarnını qabağa verib saymazyana hovuzların, çadırların qabağından ötüb keçər, tanış *maliklər* və tacirlərlə yüngülcə salamlaşar, dodaqlarında ağır təbəssüm, iri başını yırğalaya-yırğalaya uzaqlaşardı... (F.Sadıqzadə); **SAHİB** [Qızlar] qız vaxtı dədələrinə "ağa" deyərdilər, arvad olduqda ərlərini "sahib" adlandırırlar (Çəmənzəminli).

YİYƏLƏNMƏK [Durmuş:] Qoy böyük qardaş bağa *yiyələnsin* (Mir Cəlal); **MƏNGİRLƏMƏK** [Tahir:] Keçən səfər idarəyə ev verəndə də hamısını özünüz *məngirlədiniz* (Anar); **SAHİB OLMAQ** [Qadın] içərisində yaşadığı evə *sahib oldu* (S.S.Axundov); **SAHİBLƏNMƏK** Qiymətli kamana *sahiblənmək* üçün hər kəs qüvvətini sınadı (M.S.Ordubadi); **AĞALANMAQ** (*qeyri-qanuni yolla sahib olmaq*).

yiyəsiz *bax* sahibsiz

yoğun *bax* **1.** kök **I**; **2.** qalın **1**

YOĞUNLAŞMAQ (*müxtəlif mənalarda*) [Qafar:] Görürsən mən necə *yoğunlaşmışam* (H.Abbaszadə); **QALINLAŞMAQ** Zorxana Milinin başı nazik idi, lakin getdikcə *qalınlaşırdı* (H.Sarabski); **ŞİŞMƏK** (*məc.*) Elə ki taxıldı burnuna çeşmək; Qocalıq əl verib, dəxi nə *şişmək* (M.P.Vaqif); **KÖKƏLMƏK** (*bax*), **YOĞUNUMAQ, ZIRPILAŞMAQ.**

yoğurt *bax* qatıq

yox *bax* xeyr

1. YOXLAMAQ, İMTAHAN ETMƏK/ELƏMƏK Yenidən istədi *etsin imtahan*; Kükrəyib dedi: – Ey igid qəhrəman; Bir bəla kəsildən dərdli başıma (A.Şaiq).

2. YOXLAMAQ [Vahid:] Məmməd dayıya neçə dəfə dedi ki, əşi, ölkə dərəbəylik deyil, belə olmaz axı, gəlib *yoxlarlar* biabır olarıq (Ə.Qasımov); **ARAŞDIRMAQ** [Xəfiyyələr] Küçədə gedən arvadların bağlamalarını.. *araşdırırdılar* (M.S.Ordubadi); **TƏFTİŞ ETMƏK/ELƏMƏK** [Qətibə] hər

saat onun səhhətini soruşur, sarayının intizamını *yoxlayır*, xidmətçilərin kimliyi və təmizliyinin keyfiyyətini *təftiş edir* və oğlunun qeydinə qalan bir ana kimi hərəkət edirdi (M.S.Ordubadi).

3. YOXLAMAQ Babasil xəstəliyi guya iki xassəyə də istinad edə bilərmiş. Bunun üçün xəstəni *yoxlayırlar* (Çəmənzəminli); **MÜAYİNƏ ETMƏK** Onu həkimlər *müayinə etdilər* (B.Bayramov); **MÜAYİNƏDƏN KEÇİRMƏK** Təcili yardıma gedən həkim onu *müayinədən keçirdi* (M.Hüseyn).

4. YOXLAMAQ, SINAMAQ, SINAQDAN KEÇİRMƏK, TƏCRÜBƏDƏN KEÇİRMƏK

5. yoxlamaq *bax* yoluxmaq **I**

1. YOXSA [Sərvər:] Yaz mən deyəni, *yoxsa* beynini toz eyləyərəm (Ü.Hacıbəyov); **ƏKS SURƏTDƏ** [Müəllim:] *Əks surətdə* rəftarım tamamilə başqa cür olacaqdır (C.Cabbarlı); **ƏKS TƏQDİRDƏ.**

2. yoxsa *bax* bəlkə

YOXSUL Çərkəz *yoxsul* bir adam idi (M.Hüseyn); **AC** (*məc., dan.*) [Mordan:] ...Mən qızımı elə *aclara* verə bilmərəm (A.Şaiq); **AYAQYALIN** (*məc.*) Bir də görürsən getdi.. əsil-nəcaboti, adı-sanı bilinməyən bir *ayaqyalının* qızını aldı gotirdi evinə (Əfqan); **BİÇİZ** (*köhn.*) Sonra [şah] üzün hərəmlərə tutub xitab elədi: – Mən əfradi-nasdan bir fağır və *biçiz* kimsəyəm (M.F.Axundzadə); **BİNƏVA** Yadə salın soyuqda yatan *binəvaları* (M.Ə.Möcüz); **ÇILPAQ** (*məc., dan.*) [Leyla:] Xalq acdır, *çılpaqlar*, yemək axtarır (M.S.Ordubadi); **DƏRVİŞ** (*məc.*) [Kərimxan:] Nə rəhmət olacaq, *dərvişin* olanından (M.İbrahimov); **FAĞIR/FƏQİR** Moşğuldular buxarı kənarında işrətə; Əmma *fəqirlər* soyuq evlərdə titriri (M.Ə.Möcüz); **GƏDA** (*köhn.*) Şah ola, *gəda* ola, divanə, ya əhli nizam; Etməmiş məqsudinə aləmdə heç ərbabi-nam (M.V.Vidadi); **KASİB** [Xosrov:] *Kasıbı* isə *kasıb* olduğuna görə hər addım başı söyür, təhqir edirlər, ona alçaq nəzərlə baxırlar (M.İbrahimov); **KASİB-KUSUB** (*yoxsullar*) [Əmiraslan ağa:] O, nizami qoşun deyil, olsiz-ayaqsız, aciz, *kasıb-kusublardan* toplanmış dəstədir (S.S.Axundov); **QARNIAÇIQ** (*məc., təhqir kimi işlədilir*) [Hatəmxan:] Bab olmayan bir *qarnıaçıqla* qohum olmaq mənim işim deyildir (S.Rəhimov); **LÜT** (*məc.*) Getdi oldən qızıllarım, getdi; *Lütəm* artıq bütün varım getdi (S.Rüstəm); **LÜT-MÜT** (*məc.*) Ey mənim yolçu, dilənçi, *lüt-müt* qardaşlarım! (C.Məmmədquluzadə); **YOLUQ** (*məc.*) *Yoluğun* nəyi var, suluğa nə versin? (Ata. sözü); **TAVANASIZ.**

YOXSULLAŞMAQ [Xaqani:] Şamaxı bazarı zəngin bazardır; Əfsus, *yoxsullaşır* get-gedə bir az (M.Rahim); **ƏLİ AŞAĞI DÜŞMƏK** [Şərəf xanım:] Uşaqlar artıbdır. Kişinin də *əli aşağı düşmüşdür* (S.S.Axundov); **KASİB DÜŞMƏK** [Hacı Mehdi:] İndi, fələyin beli sınsın, çarxı tərs döndü, *kasıb düşdük* (Ə.Haqverdiyev); **KASIBLA(Ş)MAQ** [İlyas:] Bir az *kasıbladıq* (M.Hüseyn); **LÜTLƏŞMƏK** (*məc.*) Onlar varlanmaq əvəzinə daha da *lütləşir*.. (M.Hüseyn).

YOXSULLUQ [Safo:] *Yoxsulluğun* üzü qara olsun (S.Rəhimov); **BİÇİZLİK** [Ağa Mərdan:] Çün sərbəz taifəsi *biçizlikdən* bir növ firqeyi-suala daxildir (M.F.Axundzadə); **BİNƏVALIQ** Ərz eylədi rəfiq *binəvalıq;* Evev gözib eylədi gədalıq (Füzuli); **EHTİYAC** Şiroli də başqaları kimi yoxsulluq, *ehtiyac* içində böyümüşdü (M.Hüseyn); **KASIBÇILIQ** *Kasıbçılıq* [Tükəzban] üçün çətin bir şey deyildi (B.Talıblı); **KASIBKARLIQ** [Qarı:] Başınızı salıb, damınızın altında *kasıbkarlığa* qurşanın (Çəmənzəminli); **KASIBLIQ** *Kasıblığın* evi yıxılsın!.. (C.Məmmədquluzadə); **SƏFALƏT** Sıxdı pəncəsində *səfalət* səni; Lakin yaşadacaq məhəbbət səni (S.Rüstəm); **SIXINTI** O, qəlbini sıxan acı *sıxıntıların*, ruhunu qaraldan həyəcanların, ..qara xülyaların ağır pəncəsi altında çırpınırdı (A.Şaiq); **ÜSRƏT** İndi onlar [Safonun ailəsi] *üsrət* ilə keçinir, ehtiyac içərisində dolanırdılar (S.Rəhimov).

YOXUŞ (*yolun dağa, təpəyə qalxan hissəsi*) Duzlu göldən sonra topuğacan quma bata-bata *yoxuşu* qalxıb yenə də sal qayaların üstünə çıxdılar (Elçin); **DİK** Qalxdığımız yoxuş, endiyimiz *dik*.. (D.Nəsib); **YAL** Maşın balaca bir *yalı* aşdı (Q.Xəlilov).

1. YOL O qarlı düzlərə baxıb yanırdı; Yolçular getdikcə *yol* uzanırdı (S.Vurğun); **CIĞIR** (*kiçik yol*) [Qəmər] ..dəndənəli sənəyindən yapışıb kürəyinə atdı, uzun qumral saçı ilə tırmaclaya-tırmaclaya, qıvrılıb açılan *cığır* ilə kəndə yönəldi (S.Rəhimov); **DOLAY** (*əyri-üyrü, dolama yol*) Qardaşım! Görürəm dağlardan keçən; yaşıl *dolaylarda* ayaq izləri (S.Vurğun); **RAH** (*kl.əd.*) Bu *rahdan* etmək olmaz ikrah.. (Füzuli); **SİRAT** (*köhn.*) Zülmət gecələrdə saçaraq nurini sansız: Azmışlara hey göstərir o doğru *sirat*ı (A.Şaiq); **TƏRİQ** (*köhn.*) Zülmətə sövq edən cühəla rəhnümaləri; Düzd-*təriq*-rast olan hər gecnümaləri (Ə.Nəzmi); **YOLAĞA** (*kiçik və dar yol*) [Vəliş] azca baxandan sonra *yolağaya* tərəf ayaq götürdü, üzüaşağı xeyli gedib sola buruldu (Ə.Vəliyev).

2. yol *bax* üsul

3. yol *bax* dəfə

4. yol *bax* məsafə

yolagetməz *bax* bədxasiyyət

yolağa *bax* yol **1**

yolçu *bax* **1.** səyyah; **2.** dilənçi

1. YOLDAŞ Qız deyir ki: "Gözəldir; Çobana *yoldaş* olmaq; Xana həmdəm olunca; Xoşdur qara daş olmaq" (M.Rahim); **ARQADAŞ** (*köhn.*) Bu *arqadaş* böyük bir dövlət vəkilidir (C.Cabbarlı); **CUR** Üzündə ağ rübəndi, ayağında çaxçuru; Yanında öz həmdəmi, din yoldaşı, öz *curu* (M.Rahim); **EŞ** (*köhn.*) Çılğın *eşlər* çəkildi lojalara; Pərdələrdən duyuldu qəhqəhələr (H.Cavid); **YAR** ...Sakit axan Arazları; Sınamışam dostu, *yarı* (S.Vurğun); **DOST** (*bax*).

2. YOLDAŞ Əvvəl *yoldaş*, sonra yol (Məsəl); **YOL YOLDAŞI** Ürküb qaçır dağ döşündən bir sürü ceyran; *Yol yoldaşı* alır həmən onları nişan (S.Rüstəm); **CIĞIRDAŞ.**

3. yoldaş *bax* arvad **1**; ər

yolgöstərən *bax* bələdçi

yolkəsən *bax* soyğunçu

yollanmaq *bax* getmək **1**

yolla(t)maq *bax* göndərmək

I YOLUXMAQ (*birinin halını bilmək üçün yanına getmək*) Mirzə Məhdi həkimbaşı həftədə iki-üç dəfə onu *yoluxurdu* (Ə.Haqverdiyev); **BAŞ ÇƏKMƏK** [Naməlum adam:] Sizə *baş çəkməyi* özümə borc bildim (M.İbrahimov); **BAŞ VURMAQ** [Pəsi] Cəbini yəhərli atın qucağına alaraq, kənddə evlərinə *baş vurmağa* gəlmişdi (S.Rəhimov); **DƏYMƏK** (*məc.*) Axşamüstü xəstəyə *dəyənlərin* gələn vaxtı qapı döyülmədi (R.Rza); **YOXLAMAQ.**

II YOLUXMAQ (*mikrob, azar*), **KEÇMƏK, SİRAYƏT ETMƏK**

YOLUXUCU (*tib.*) (*hər hansı bir xəstəliyin keçməsi*) Ancaq onu bilirəm ki, yaman *yoluxucu* xəstəlikdir.. (Ş.Fərzəliyev); **MİSRİ** Yazırsan bu naxoşluq *misri* naxoşluq kimi bir şeydir.. (C.Məmmədquluzadə); **YOLUXMA** O, özünün sağlam olduğunu və böyük diqqət nəticəsində özünü *yoluxma* xəstəliklərdən qoruya bildiyini iddia edirdi (M.S.Ordubadi); **KEÇİCİ, SİRAYƏTEDİCİ.**

YORĞAN-DÖŞƏK İndi Anna evində təzə *yorğan-döşəkdə* uzanıb xoyala dalmışdı (M.Hüseyn); **BƏSTƏR** (*kl.əd.*) [Əvam:] Anlamam hərgiz, cəhalət *bəstərində* yatmışam (M.Ə.Sabir); **RƏXTXAB** (*kl.əd.*) Rzaqulu xan *rəxtxab* içində hər tərəfə dönür, hər səmtə hərəkət edir, sızıldayır, Böyükxanım da başının üstündə əyləşib deyir: Kişi, Allaha bax! (M.S.Ordubadi); **YATACAQ** Gülsüm qarı yuxudan gülə-gülə ayılıb *yatacağın* üstə oturdu (Çəmənzəminli); **YATAQ** [Qətibə] yata bilmədi, *yatağından* qalxıb xələti üstünə saldı... (M.S.Ordubadi); **YER** (*məc.*) [Vahid:] *yerin* içində oturub, yuxudan tamam ayılmaq üçün neçə dəfə kirpiklərini çaldı (Mir Cəlal).

YORĞUN (*yorulmuş halda*) İşdən sonra *yorğun* bir halda evə qayıtdıqda ev kişilər üçün gərək bir dincəlmək məkanı ola

(Çəmənzəminli); **HEYSİZ** [Göyərçin:] Ax, *heysiz* qarı, kirdarsız qarı! (S.Rəhimov); **ÜZGÜN** [Zakir] sonra *üzgün* bir halda cavab verdi (H.Seyidbəyli); **YORNUQ** [Korbəlayı:] ...axşam da *yornuq* gəlib başımı atıram yerə (Ə.Haqverdiyev); **ƏZGİN** [Həmid] yaman *əzgin* idi (H.Abbaszadə); **HALSIZ** (*bax*).

YORMAQ [Balağa:] Səni bərk *yordu*, zərəri yoxdur, bunun sənə faydası var (H.Abbaszadə); **ƏLDƏN SALMAQ** [Qəndab:] Əmim mənə çox baxıb, çox düşündükdən sonra birdən dillədi: – Səni *əldən salan* kitabdır, bir də geconin yarısına qədər nağıl danışmaq (B.Bayramov); **GÜCDƏN SALMAQ, TABDAN SALMAQ, TAQƏTDƏN SALMAQ, ÜZMƏK.**

yornuq *bax* yorğun

YORUCU, AĞIR, ƏZİYYƏTLİ, ÜZÜCÜ

YORULMAQ [Zübeydə:] Ağagül, qadası, *yorulmuşam* yaman.. (Elçin); **AYAQDAN DÜŞMƏK** (*fr.v.*) Yardan xali görüb bəzmi *ayaqdan düşdüm* (S.Ə.Şirvani); **ƏLDƏN DÜŞMƏK** (*dan.*) [Səkinə:] Yazıq balam, lap *əldən düşdü* (A.Şaiq); **ƏLDƏN-DİLDƏN DÜŞMƏK** (*fr.v.*) [Qəndab:] ..Şirin dayı, özüm də lap *əldən-dildən düşmüşəm* (B.Bayramov); **GÜCDƏN DÜŞMƏK** Qızım, torpaq da insan kimi yorulur, *gücdən düşür*, gərək ona qulluq eləyəsən... (M.İbrahimov); **TABDAN DÜŞMƏK** (*fr.v.*) [Odunçuoğlu] *tabdan düşmüş* halda.. uzaqlaşmağa başladı (Ə.Məmmədxanlı); **ÜZÜLMƏK** (*məc., dan.*) [Qurban Qəndaba:] Sən yorularsan, *üzülərsən* (B.Bayramov); **NƏFƏSİ KƏSİLMƏK** (*fr.v.*).

yovuqlaşmaq *bax* yaxınlaşmaq

yöndəm *bax* görünüş

1. YÖNDƏMSİZ, BƏDƏNDAM (*köhn.*), **BƏDHEYBƏT, EYBƏCƏR** (*bax*); **HEYVƏRƏ, NATARAZ, YEKƏ** (*dan.*); **ZORBA**

2. YÖNDƏMSİZ, NAQOLAY, NARAHAT, KOBUD

yönəlmək *bax* getmək **1**

yönəltmək *bax* tuşlamaq

yönlü *bax* **1.** yaxşı **1**; **2.** üzüyola

yönsüz *bax* **1.** pis; **2.** fərsiz

yör-yöndəm *bax* görünüş

yubandırmaq *bax* gecikdirmək

yubanmaq *bax* gecikmək

yubatmaq *bax* gecikdirmək

YUBİLEY (*bir hadisənin və yaxud bir şəxsin fəaliyyətinin illiyi*) Taqorun yubileyi köhnə dostun, dünyanın ən qədim xalqlarından biri olan hind xalqının dahi ədibinin, böyük insanpərvər bir mütəfəkkirin *yubileyidir* (M.Arif); **İLDÖNÜMÜ** (*hər hansı bir tarixi və başqa hadisədən daha bir il keçdiyi gün*) Mixail Qradov anasının ölümünün *ildönümü* münasibətilə komandanlıqdan icazə alıb gəlmişdi (H.Abbaszadə).

yubka *bax* tuman

yuxa *bax* lavaş

1. YUXU [Mərdan:] Düz deyirsiniz Yunis müəllim, yayda *yuxum* elə bil orşə çəkilir (X.Hasilova); **ÇİMİR** (*dan., az müddətli yatmaq*) [Səmədağa:] Dəymə, hələ vaxta var. Qoy bir *çimir* də yatsın (Ə.Mustafayev); **XAB** (*kl.əd.*) Batmışdı tərə o *xab* içində; Birdən durub iztirab içində (A.Şaiq); **RÖYA** *Röyadə* mən keçən gecə eylərkən ahu-zar (H.Cavid); **UYQU** (*köhn.*) Yanaşar bəstəriətfala ana; *Uyqudan* yavrusu istər oyana (A.Səhhət).

2. yuxu *bax* yuxugörmə

YUXUGÖRMƏ (*yatarkən yuxuda görülən şey, hadisə*) Yuxu və *yuxugörmə* haqqında çox danışmaq olar (Qəzetlərdən); **RÖYA** Guya mən onun faciəsini *röyada* görmüşəm, əslində isə o sağdır, salamatdır (S.Qədirzadə); **VAQİƏ** Məhəmmədhəsən əmi yatıb bir *vaqiə* gördü.. (C.Məmmədquluzadə); **YUXU** [Sənubər] hərdən qalxırdı, hərdən enirdi və yuxuda özü də bilmirdi ki, bu *yuxudur*.. (Elçin).

YUXULAMAQ Bahadır artıq yatırdı. Anya da tez *yuxuladı* (R.İbrahimbəyov); **UYUMAQ** *Uyuyuruq* rahat-rahat, uyuyuruq xumar-xumar (M.Müşfiq); **YUXU APARMAQ** (*fr.v.*) Birdən onu [Maratı] *yuxu apardı* (M.Hüseyn); **MÜRGÜLƏMƏK** (*bax*), **YATMAQ** (*bax*).

YUXULU (*yatmış halda*) Kəramət uşaqlarını ancaq yatdıqları yerdə, *yuxulu* olduqları halda oxşayar, öpərdi (Ə.Əbülhəsən); **UYQULU** (*köhn.*) Dideyi-bəxtim oyanmaz, nə ağır *uyquludur* (Füzuli).

YUXUSUZ (*yatmadan*) [Safo:] Yazıq *yuxusuz* idi, amma getdi.. (S.Rəhimov); **BİXAB** (*kl.əd.*) Bu Xətayi gözü səyyarətək *bixabdır* (Xətayi); **UYQUSUZ** Bəzimiz uyqulu, bəzimiz *uyqusuz*.. (M.Müşfiq).

I YUMAQ (*paltar və s. haqqında*) Paltarı *yuyub* qurtaranda ananın ürəyinə birdən qəribə bir həvəs gəldi.. (M.İbrahimov); **SUYA ÇƏKMƏK** (*ikinci dəfə yumaq*) Güləbətin köynəyi topçiyib yerinə qoyaraq anasına kömək edirdi: yuyulmuş paltarları *suya çəkib* həyətin ortasından asılmış ipə sərirdi (M.İbrahimov); **YAXALAMAQ** (*yüngülvari yumaq*).

II YUMAQ (*top kimi sarınmış sap*) Yerdən bir qara *yumaq*, bir də quru budaq kölgəsi (R.Rza); **KƏLƏF** ..bir şüşə sirkə, bir-iki *kələf* yezd ipliyi, bir pud ağ neft.. (Ə.Haqverdiyev).

YUMMAQ (*göz haqqında*) Aslan yorğanı başına çəkdi, gözlərini bərk-bərk *yumdu* (M.Hüseyn); **QAPAMAQ.**

yumru *bax* **1.** girdə **1**; **2.** totuq

yumşaq *bax* **1.** həlim; **2.** mülayim **1**

yumşaqxasiyyətli *bax* həlim

yumşaqlıq *bax* həlimlik

yumşalmaq *bax* həlimləşmək

YUMULMAQ (*müxtəlif mənalarda: əsasən göz haqqında*) Əvvəlcə [Güləbətinin] gözləri *yumulmağa* başladı (M.İbrahimov); **QAPANMAQ** Elə bil düşdüyü bəlanı qanır; Yenidən gözləri yenə *qapanır* (A.Səhhət).

yunusbalığı *bax* delfin

yurd *bax* vətən

1. YUVA Bir quş səhər ertə bağça-bağda; Çör-çöp daşıyıb *yuva* tikirdi (A.Şaiq); **AŞİYAN(Ə)** (*kl.əd., şair*) Bülbüli-zərəm ki, hüsnün gülşənidir məskənim; Həlqeyi-zülfin şikonci *aşiyanımdır* mənim (Xətayi); **LANƏ** (*kl.əd.*) Ölər, qalar bir-iki viranəsi; O da olar bayquşlar *lanəsi* (A.Səhhət); **MƏVA** (*kl.əd., məc.*) Həm gözəl, həm yeyin tik ruhumun *məvasını;* Əldən-ayaqdan düşən qəlbimin sevdasını (M.Müşfiq).

2. yuva *bax* vətən

yuvaraq *bax* girdə **1**

YUYUNMAQ Müsafirlər frençlərini çıxarıb, *yuyunmağa* başladılar (Çəmənzəminli); **YIXANMAQ** Gündəki vaxtında yatağından durdu, *yıxanıb* qurtaran kimi qapı açıldı (M.S.Ordubadi); **ÇİMMƏK** (*bax*), **ƏL-ÜZÜNÜ YUMAQ, YAXALANMAQ** (*dan.*).

1. YÜK (*daşınmaq, aparılmaq üçün hər cür şey*) [Yasavul:] Ağa, murov bir qaçaqçı da *yük* ilə tutub göndəriblər (M.F.Axundzadə); **BAQAJ** [Gülpəri] ..yaxındakı və *baqajdakı* şeyləri daşıyıb, ikinci klas salonunda yığdırdı (S.S.Axundov); **BAR** (*kl.əd.*) Gəmü möhnət yükün yoxdur cahanda çəkməyən, əmma; Şikəstə Zakirin çərxi-fələk *barın* giran tutmuş (Q.Zakir).

2. YÜK, AĞIRLIQ, HƏML

3. yük *bax* qayğı **1**

yükçü *bax* hambal

yükdaşıyan *bax* hambal

YÜKLƏMƏK (*dalına yük vurmaq*) Mağıl keçən vaxtlar dəvə karvanları düşürdü yola, ticarət malını *yükləyirdik* dəvələrə (C.Məmmədquluzadə); **ÇATMAQ** Hər birinə ağır taylar *çatdılar;* Bizləyə-bizləyə köçə qatdılar (Q.Zakir).

yüksək *bax* **1.** uca **1**; **2.** ülvi **1**

yüksəliş *bax* tərəqqi

yüksəlmək *bax* ucalmaq

yüksəltmək *bax* ucaltmaq

yüngülayaq *bax* xoşqədəm(li)

yüyürmək *bax* qaçmaq **1**

yüyürük *bax* beşik

yüzillik *bax* əsr **1**

Zz

ZABİT (*ordu və donanmada komanda heyətinə mənsub olan şəxs*) [Heybət:] *Zabitlər* əsgərləri döyüb söyürlər (S.Rəhimov); **ƏFSƏR** (*köhn.*) Gözəl-gözəl xanımlar *əfsərlərlə* qol-qola verib gəzirdilər və söhbət edirdilər (Ə.Haqverdiyev).

zabitə *bax* **1.** intizam **1**; **2.** nüfuz

zabitəli *bax* **1.** tələbkar **1**; **2.** intizamlı

zabitəsiz *bax* intizamsız

zad *bax* şey

ZADƏGAN (*hakim sinfin yüksək təbəqəsi*) Çünki Bağdadda dul qadınlar və öz ərlərindən intiqam almaq istəyən *zadəgan* qadınların görüb istədikləri adamlarla tanış olaraq evlərinə dəvət etməsini Fəxrəddin hələ Gəncədə ikən eşitmişdi (M.S.Ordubadi); **ARİSTOKRAT** Siz bugünkü başı yarılan, lakin başının deyil, beş şahılıq qatığın qeydinə qalan baqqalı, bir də zabitə yaltaqlanan şəhər *aristokratını* misal götürə bilərsiniz (M.S.Ordubadi); **DVORYAN** (*tar.*) Bəylər, ağalar, *dvoryanlar* hamısı ikiqat olub gələnlərə baş əyirlər (Ə.Haqverdiyev); **ƏSİLZADƏ** (*köhn.*) [Smirnov:] Siz *əsilzadəsinizmi?* (M.S.Ordubadi); **ƏYAN** (*köhn.*) Məktublar dalbadal axdı saraya; *Əyanlar* aldılar xanı araya (B.Vahabzadə); **KÜBAR** (*köhn.*) [Müdir:] Bağdad *kübarlarının* hərəmxanalarında mütləq məzhəkəçi qızlardan olmalıdır (M.S.Ordubadi); **AĞA** (*bax*).

zağa *bax* mağara

zahid *bax* **1.** ibadətçi; **2.** güşənişin

zahir *bax* **1.** aşkar; **2.** parlaq; **3.** görünüş

ZAL Baxır *zala,* salona; Nə o bilir, nə də biz; bu baxış nə baxışdı (Z.Yaqub); **SALON** *Salon* heyrət içindədir... Sükut edir başdanbaşa (S.Vurğun).

ZALIM [Tağı:] Bəradər, mən deyəndə ki, .. padşah *zalım* idi, onun zamanında dədəm yazığın köynəyinin boynu barmaq qalınlığında çirk bağlamışdı, siz nə dedüz? (M.İbrahimov); **ALLAHSIZ** (*məc., dan.*) Sonra da "*allahsızın*" biridir, Cəbrayıl xəbər gotirib ki, qanı halaldır – deyirdilər (M.İbrahimov); **AMANSIZ** Sinəmdə yer salıb o gündən bəri; *Amansız* ovçunun yara izləri (M.Rahim); **BAŞKƏSƏN** (*dan.*) [Əjdər:] O biri tərəfdən, deyir, cavan, bığburma sağlam oğlandır, gəl ki, *başkəsəndir* (Anar); **BİMƏRHƏMƏT** *Bimərhəmət* əyanlarına şükr, xudaya! Bu sahibi-milyonlarına şükr, xudaya! (M.Ə.Sabir); **BİRƏHM** [Cabbar bəy:] Əhmod bəy, bilmirsən necə zalımdırlar, *birəhmdirlər*... (N.Vəzirov); **CƏFAKAR** Yox böylə iki dilli, yaman üzlü *cəfakar;* Bir zərrə utanmaz (M.Ə.Sabir); **CƏLLAD** (*məc.*) [Rüstəm:] Gəl bu *cəlladın* qapısından uzaqlaşaq (A.Şaiq); **ƏZAZİL** [Səsləri:] Deyirlər Zəki müəllim *əzazildir* (Anar); **ƏZRAİL** (*məc.*) [Qurban:] Amma onu çox *əzrail* arvad söyləyirlər (Ə.Haqverdiyev); **XUNXAR** (*kl.əd.*) *Xunxar* olan əfradi-bəni-növünə daim; Bu vəhşiyü gurranlarına şükr, xudaya! (M.Ə.Sabir); **İMANSIZ** (*məc.*) [Yunis:] ..o, Yaqutun anası necə *imansız* arvaddır... (Ə.Məmmədxanlı); **İNSAFSIZ** *İnsafsız,* avam bir adam olan əmim arvadı iri mis səhəngi çiyninə verib səhərdən axşama qədər... mənə su daşıtdırardı (İ.Əfəndiyev); **QANİÇƏN** [Nüsabə:] Heç inanmaq olarmı bu *qaniçənə?* (A.Şaiq); **QANSIZ** (*məc.*) Nə *qansız* adamsan, a kişi! (Mir Cəlal); **QƏDDAR** [Səlimə:] Ən *qəddar* insanların da qəlbində vicdan əzabı doğuran bir düha məharətdən məhrum ola bilməzdi... (M.Hüseyn); **MƏRHƏMƏTSİZ** [Solmaz:] Sus, Altun bəy, *mərhəmətsiz!* (C.Cabbarlı); **MÜSTƏBİD** (*köhn.*) İbrahim xan da *müstəbid* idi, xalqa olmazın zülm edirdi.. (Çəmənzəminli); **RƏHMSİZ** [Muxtar:] Ana da təkcə balasına bu qədər *rəhmsiz* olarmı? (B.Bayramov); **SİTƏMKAR** [Hacı Qəmbər:] Əlavə mən deyirəm ki, özizim, qoy gedim bu tiği-*sitəmkarı* oxlatdırım (N.Vəzirov); **YAMAN** Dostuna dost, düş-

məninə *yamanam* (Aşıq Əziz); **YIRTICI** (*məc.*) [Səlməz:] O çox *yırtıcıdır* (C.Cabbarlı); **ZÜLMKAR** [Bəhlul:] Sizin *zülmkar* olduğunuz hamının bildiyi, danışdığı köhnə və məlum bir şeydir (A.Şaiq); **ƏZAZİL** (*məc.*).

ZALIMLIQ (*zülm etmə, əziyyət vermə*) [Nadir:] Siz özünüz bizim ilə qonşu olan Rəhim xanın *zalımlığını* və onunla bərabər nə qədər qüvvətli olduğunu bilirsiniz (C.Cabbarlı); **BİRƏHMLİK** [Hacı Nuru:] Görərsiniz ki, o vaxt ləzgilər nə qədər sizin babalarımızın başına gətiriblər, nə *birəhmlik* onların haqqında ediblər (M.F.Axundzadə); **CƏLLADLIQ** [Səlimə] Belə də *cəlladlıq* olar?! (İ.Əfəndiyev); **İNSAFSIZLIQ** [Səlimə:] Əgər mən bu *insafsızlığın* qabağını ala bilmirdimsə, başqa neyləyə bilərdim? (İ.Əfəndiyev); **QANSIZLIQ** (*məc.*) [Qərib:] Bu nə işdir, bu nə ədavətdir, bu nə *qansızlıqdır* (Mir Cəlal); **QƏDDARLIQ** [Məsimov:] Canlı insana qəsd etmək, arvadına güllə atmaq! Bu ən böyük *qəddarlıqdır* (H.Abbaszadə); **AMANSIZLIQ, DAŞÜRƏKLİLİK, ƏZAZİLLİK** (*məc.*), **XUNXARLIQ, MƏRHƏMƏTSİZLİK, MÜSTƏZADLIQ, RƏHMSİZLİK, SİTƏMKARLIQ, YIRTICILIQ** (*məc.*), **ZÜLMKARLIQ**

zaloq *bax* girov **I**

zaman *bax* **1.** vaxt **1**; **2.** çağ **I**

zamat *bax* saqqız

ZAMİN (*zamanət verən adam*) Mən *zaminəm* ki, olmaya bir illət ilə fövt (S.Ə.Şirvani); **ZAMİNKAR, ZƏMANƏTÇİ, ZƏMANƏTKAR.**

zaminkar *bax* zamin

zaminlik *bax* zamanət

ZARAFAT, HƏNƏK Girdi *zarafata* xeyli sevinəcək; Axı, insanları şux saxlar *hənək* (M.Rahim); *Hənək-hənək*, axırı dəyənək (Ata. sözü); **DİLXOŞLUQ** (*dan.*), **MAZAQ** (*vulq.*) (*adətən kişi ilə qadın arasında*).

ZARAFATCIL Fəhlələr Eldarı *zarafatcıl* bir adam kimi tanıyırdılar (S.Vəliyev); **BAMƏZƏ** O çox *bamәzə* qoca idi, zarafat etməyi və lətifə söyləməyi çox sevirdi (M.S.Ordubadi); **DEYİB-GÜLƏN** Əslində Həmzə qaraqabaq deyildi, hamı onu zarafatcıl, *deyib-gülən* bir adam kimi tanıyırdı (Ə.Qasımov); **HƏMƏKİ** (*dial.*) Usman çox *həməki* adamdı (ADDL); **HƏNƏKÇİ.**

ZARAFATLA [Cövdət:] Ramizi görüncə qımışdı və barmağını silkələyib *zarafatla* onu hədələdi (H.Abbaszadə); **ZARAFATYANA** Hə, qoçaq, bir pillə yuxarı ilə necəsən? – deyib [mədən müdiri] *zarafatyana* soruşdu (M.İbrahimov).

ZARAFATLAŞMAQ [Fərzəli:] Hücum, yəni *zarafatlaşma*, – deyə Fərzəli onun çənəsini qaldırdı (S.Rəhimov); **ZARAFAT ETMƏK** O çox bamәzə qoca idi, *zarafat etməyi* və lətifə söyləməyi çox sevirdi (M.S.Ordubadi); **DİLXOŞLUQ ETMƏK** [Qulammirzə] çarpayının kənarında əyləşib, *dilxoşluq edir* (Çəmənzəminli); **HƏNƏKLƏŞMƏK, MAZAQLAŞMAQ** (*bax*).

ZARAFATSIZ (*zarafat olmadan, həqiqətən*) [Ferma müdiri:] İndi gəl, *zarafatsız*, özümüzü yoxlayaq (Ə.Vəliyev); **BİZARAFAT** *Bizarafat* deyirəm ki, hər kəs rastıma gəlir, – hamısını yavaş-yavaş dinə soyumuş görürəm (C.Məmmədquluzadə); **CİDDİ** Doğrudan, ona nə olub? – deyə Könül yenə *ciddi* bir tərzdə **soruşdu** (Ə.Qasımov).

zarafatyana *bax* **zarafatla**

zarıldamaq *bax* **1.** zarımaq; **2.** ağlamaq

zarıltı *bax* inilti

ZARIMAQ Safo kişi *zarıdı*. – Nə istəyirsiniz? (S.Rəhimov); **SIZILDAMAQ** [Zöhrə:] Mən də indidən yapışım başımdan, başlayım *sızıldamağa* (M.İbrahimov); **VAYILDAMAQ** [Alo yasavula:] Əyə, salam, niyə *vayıldayırsan*.. (S.Rəhimov); **ZARILDAMAQ** Məlahət *zarıldayırdı* (S.S.Axundov); **ZIQQILDAMAQ** Məmmədhüseynin arxası yerə dəyəndə.. *ziqqıldadı* və qışqırdı (Mir Cəlal); **İNİLDƏMƏK** (*bax*).

zatıqırıq *bax* **1.** nacins, **2.** fırıldaqçı

zaval *bax* ziyan

zavallı *bax* yazıq **I**

zaviyə *bax* **1.** künc; **2.** tökyə **I**

zeh *bax* haşiyə

zehin *bax* **1.** düşüncə **2**; **2.** yaddaş

zehinli *bax* yaddaşlı

ZENİTÇİ (*hərbi*) [Könül:] Nə olacaq, gələn kimi *zenitçilərimiz* onu qovacaq (X.Hasilova); **TOPÇU** Cahangir acıqlandı. Üzünü *topçulara* tutaraq amirano bir səslə: "Atəş!" – deyə bağırdı (A.Şaiq).

zəban *bax* dil **I**

zəbərdəst *bax* istedad

zəbt *bax* işğal

zəbun *bax* zəif **I**

zəbunluq *bax* zəiflik

zəf *bax* zəiflik

zəfər *bax* qələbə

ZƏHƏR Qaraca qız Pəricahan xanımdan bunu eşitcək, Ağca xanımın qolundan *zəhəri* sorub yerə tökməyə başladı (S.S.Axundov); **AĞI/AĞU** Şeir bağçasından çiçək dərdilər; O, şərbət istədi, *ağu* verdilər (M.Rahim); **ZƏHR** (*kl.əd.*) Məcnun Leyla deyib bu dağı bilər; İçən *zəhrin* dadın budağı bilər (Aşıq Ələsgər).

ZƏHƏRLƏMƏK [Tağı əmi:] İlan çaldıqda pərdələr yırtılıb zəhər yaralının qanına qarışır, onu *zəhərləyib* öldürür (S.S.Axundov); **MƏSMUM ETMƏK** (*köhn.*) [M.Ə.Sabir] yaxın dostlarından birinə yazmış olduğu məktubunda "Dünyadan, həyatımdan bizaram, bərədər, yoqin et ki, şərən məsul olmasaydım, özümü *məsmum edər* və dünyanın əzabından xilas olardım..." (A.Şaiq); **AĞILAMAQ, AĞULAMAQ, ZƏHƏR VERMƏK.**

1. ZƏHƏRLƏNMƏK [Tağı əmi:] ...ilan özü tonbəkinin qırından *zəhərlənib* tələf olur (S.S.Axundov); **AĞULANMAQ** Ver şəfa ləbindən, yazığam mənə; Zəhri-fərağınla *ağulanmışam* (Q.Zakir); **AĞILANMAQ.**

2. zəhərlənmək *bax* yemək **I**

zəhərləyici *bax* zəhərli

ZƏHƏRLİ (*zəhəri olan*) Gördüm bağ salanları; Xallı kəpənəkləri, *zəhərli* ilanları (M.Rahim); **ACILI** Qoca arvad kişi ilə *acılı* ilan kimi dik qalxdılar... (Divanboyoğlu); **AĞULU** Gözümün yaşın ki, saldım içdigim sudur mana; Bağrımın qanın ki, gördüm *ağulu* aşımdır ol (Xətayi); **ZƏHƏRLƏYİCİ** [Con:] Yeni xəbər, yeni raket, yeni *zəhərləyici* maddələr (R.Rza).

zəhləaparan *bax* bezikdirici

zəhlətökən *bax* bezikdirici

zəhlətökücü *bax* bezikdirici

zəhm *bax* qorxu

1. ZƏHMƏT [Həkim:] Nə *zəhmət*; borcumuzdur, ay ata (B.Vahabzadə); **ƏZİYYƏT** [Mirzə Cavad:] Ay balam, nahaq yenə bu *əziyyət* nə lazımdır, niyə özünü incidirsən? (Ə.Hanverdiyev); **NARAHATLIQ** ..sərnişinlər heç bir *narahatlıq* hiss etmir(dilər) (M.İbrahimov).

2. ZƏHMƏT, ƏZİYYƏT (*ağır iş, ağır zəhmət*) Məgər... minlərlo qızlar bundan da yüz qat artıq *zəhmətə*, ağırlığa, *əziyyətə* dözməyə hazır deyildir? (M.İbrahimov); **CƏFA** [Molla İbrahimxəlil:] ...siz mənim əməyimi və *cəfamı* zaye etmək fikrindəsiniz (M.F.Axundzadə); **ZİLLƏT** Andıqca Bakıdakı keçmiş dərdi, *zilləti*... (S.Rüstəm).

3. ZƏHMƏT, İŞ [Gülbadam] *işdən, zəhmətdən* qorxmazdı.. (N.Nərimanov); **RƏNC** Yox, yox olinizin *zəncidir* bunlar; Sizin bağbanlıqda təcrübəniz var (Ə.Kürçaylı).

4. zəhmət *bax* əmək

zəhmətkeş *bax* **1.** əməkçi; **2.** əməksevən

zəhmətsevən *bax* əməksevən

zəhmətsevər *bax* əməksevən, əməkçi

zəhr *bax* zəhər

zəhrimarlanmaq *bax* yemək **I**

zəxm *bax* yara **I**

zəxmdar *bax* yaralı

zəxmnak *bax* yaralı

1. ZƏİF [Azər:] Nağı kimi *zəif* adamları eləyir yalançı, ikiüzlü, qorxaq, yaltaq (M.İbrahimov); **ACİZ** Padşah düşməni *aciz* say-

madığı kimi, arslan ürəkli olub mətbəx pişiyindən qorxmamalıdır (M.S.Ordubadi); **NATƏVAN** *(kl.ad.)* Ol bələdir kim, mənim mərhəm bitirməz yarəmi; Yoxsa kim, hər *natəvanin* dərdi dərmanıncadır (Qövsi); **ZƏBUN** Zira könlüm həvəslərin pəncəsində *zəbundur*; Qurtarmıram nə etməli? Bir çarəsiz cünubur (A.Səhhət); **HEYSİZ, İQTİDARSIZ.**

2. ZƏİF, ÖLGÜN *(məc.) (işıq haqqında)* ...Kənd daxmasını andıran bir evin qapısında *ölgün* bir işıq göründü. Bu *zəif* işıq bəzən qapının ağzında vurnuxub; dar palçıqlı küçəyə batıb qalırdı (M.Hüseyn).

3. zəif *bax* arıq

1. ZƏİFLƏMƏK, ƏLDƏN DÜŞMƏK, GÜCDƏN DÜŞMƏK, HALSIZLAŞMAQ, QÜVVƏDƏN DÜŞMƏK, TAQƏTDƏN DÜŞMƏK

2. zəifləmək *bax* arıqlamaq

ZƏİFLİK *(zəif adamın halı)* [Firəngiz:] Qadın üçün qadın *zəifliyindən* yaxa qurtarmaq qeyri-mümkün məsələ imiş... (B.Bayramov); **ACİZLİK** [Nizami:] Ümidsiz olmaq *acizlikdir*... (M.Hüseyn); **ƏCZ** *(kl.ad.)* Soruşursan: – Nədir bu *əczü* sükut? – Məni hüsnündür eyləyən məbhut (A.Şaiq); **NATƏVANLIQ** *(kl.ad.)* Ömr ötdüvü yetdi *natəvanlıq*; Qalmadı ümidi-kamrani (Əmani); **ZƏBUNLUQ** Aslanın qızarmış gözlərində olan məhzunluq və *zəbunluq* əlaməti Hacını da qəmgin edirdi (C.Cabbarlı); **ZƏF** *(kl.ad.)* Lakin insan ağlının məhdudluğunu duyaraq *zəfimdən* kədərlənirdim (Çəmənzəminli).

ZƏKA *(tez anlama, dərk etmə)* [Məhsəti:] ...Nizamını dağlar qədər özəmətli göstərən də onun *zəkasıdır* (M.Hüseyn); **ZƏKAVƏT** Qəmnak gözlərində görün bir *zəkavətin*, Məhzun çöhrəsində görün qəm əlamətin (C.Cabbarlı); **AĞIL** *(bax)*.

ZƏKALI *(hər şeyi tez qavrayan) Zəkalı* adamdı. Hər dəfə eşitdiyi söz həmişəlik hafizəsində qalırdı (S.Rəhman); **QABİL** Adam var ki, yüz sözdən bir məna duymağa *qabil* deyildi (Ə.Abbasov); **ZƏKİ** *(köhn.)* [Mirzə Sadıq:] Oğlan *zəki* bir cavana bənzəyirdi (C.Cabbarlı); **FƏHMLİ, ZEHİNLİ** *(bax)*, **ZƏKAVƏTLİ.**

zəkavət *bax* zəka

zəkavətli *bax* zəkalı

zəki *bax* zəkalı

zəqqumlanmaq *bax* yemək **1**

zəlalət *bax* əzab

1. ZƏLİ *(qansorucu halqavari qurdlar sinfi)* Molla Kazımın arvadı Zeynəb qarı da azarlılara *zəli* yapışdırmaqda böyük ixtisas sahibi olub... (S.S.Axundov); **SÜLÜK.**

2. ZƏLİ Bu əmrdə hakimi-vilayətlər şəbihdirlər *zəlilərə* ki, qan sorub şişdikdə sahibi onları sıxır, tamam sorduqları qanı qusurlar (M.F.Axundzadə); **SÜLÜK** *(məc.)* *(başqasını amansızcasına istismar edən)* Çar hökumətindən qalma üç töhfə... zəhmətkeşlərin sabiq *sülükləri*, yeni məişətin üfunətli mikrobları.. (S.S.Axundov).

zəlil *bax* yazıq **1**

ZƏLZƏLƏ Usta Zeynal yaşadığı şəhərdə tez-tez *zəlzələ* olardı (S.S.Axundov); **YERTƏRPƏNMƏ, YERTİTRƏMƏ.**

zəmanə *bax* dövr

ZƏMANƏT *(zamin olma)* [Əbdüləli bəy:] Balaş, sizin təməssükün vaxtı dünən qurtarmışdır. Çünki **mən** *zəmanət* vermişəm (C.Cabbarlı); **TƏMİNAT** Hər kəs Əmirin *təminatına* inanaraq fitnədən və fəsaddan əl götürəcəyinə inanırdı (M.S.Ordubadi); **ZAMİNLİK** [Sona xanım:] **Sənin** *zaminliyin* hər kəsin zaminliyindən etibarlıdır (M.F.Axundzadə); **ZAMİNKARLIQ, ZƏMANƏTÇİLİK.**

zəmanətçi *bax* zamin

zəmanətçilik *bax* zəmanət

zəmanətkar *bax* zamin

zəmbərir *bax* şaxta **1**

zəmi *bax* tarla

zəmin *bax* torpaq **1**

zənbərək *bax* kaman **1**

zənbur *bax* arı **1**

ZƏNCİ *(qara dərili adam) Zənci* ağ gün istəyir votoninə, elinə (M.Rahim); **QARA** *(məc.) Qaralar* təhqir edib guya bir ağ qadını; Namuslu adamları salıb şərə, böhtana (M.Rahim).

1. ZƏNCİR Kəndlinin cavan oğlu şiddətli surətdə dəli oldu, hətta onu *zəncir* ilə bağlamağa məcbur olurlar (S.S.Axundov); **SİLSİLƏ** *(köhn.)*.

2. zəncir *bax* buxov

zəncirli *bax* buxovlu

zənəx *bax* çənə

zənən *bax* arvad **1**; qadın **1**

1. ZƏNG *(müxtəlif mənalarda)* Arası kəsilmədən çalınan zəngdən Cövdət diksinib gözlərini açdı (H.Abbaszadə); **ÇINQIRIQ** *(köhn.)* Birdən-birə qapının *çınqırığı* vuruldu (A.Şaiq); **ZİL** *(köhn.)* [Əşrəf] onları qürur ilə dinlədikdən sonra masa üzərindəki *zili* basdı (A.Şaiq).

2. zəng *bax* zınqırov

zəngin *bax* **1.** varlı; **2.** çox

zənginləşmək *bax* varlanmaq

zənn *bax* **1.** yaddaş; **2.** şübhə

zər *bax* qızıl **1**

zərbaf(t) *bax* toxucu

ZƏRBƏ, VURUŞ

zərbi-məsəl *bax* məsəl

zərd *bax* sarı **1**

zərər *bax* ziyan

zərərli *bax* ziyanlı

zərərsiz *bax* ziyansız

zərərverici(lər) *bax* ziyanverici(lər)

ZƏRF [Qız] sonra Könüllə birgə çəkdirdikləri şəkli də *zərfin* içərisinə qoyub yola saldı (X.Hasilova); **KONVERT** Tərlan *konverti* cibindən çıxartdı, tez açıb məktubu oxumağa başladı (M.Hüseyn); **PAKET** [Əşrəf:] Asəfin *paketini* götürdüm, yarım aylıq maaşdan əlavə 60 manat da qoydu ha!.. (M.Hüseyn).

zərif *bax* **1.** incə **1**; **2.** nazik **1**; **3.** arıq

zəriflik *bax* incəlik

ZƏRLİ *(qızıl suyuna çəkilmiş, qızılla bəzədilmiş)* Çıxdı gəzintiyə bir sal içində; Əynində yaxası *zərli* nimtənə (M.Rahim); **QIZILLI** [Əminə] ...ətəyi *qızıllı*, qoşəng al faydan kofta geymiş, başına da heyratı kələgəyi örtmüşdü (Ə.Əbülhəsən); **MÜTƏLLA** *(köhn.)* Sərraf yüz bəzəsə səngi-siyahi; Üzdə *mütəlladır*, ləl ola bilməz (Aşıq Ələsgər); **ZƏRRİN** [Aşıq Vəli:] Qızıl eynəkləri fəxr edib taxma; Mübahat eyləmə *zərrin* əbayə (N.Vəzirov).

zərli-zibalı *bax* bəzəkli **1**

zərrəbin *bax* mikroskop, lupa

zərrin *bax* zərli

zərurət *bax* ehtiyac **1**

zəruri *bax* lazımlı

ZƏVVAR *Zəvvar* ziyarətdən qayıdan baş sübh namazına Araz qırağına düşmüşdü (S.Rəhimov); **ZİYARƏTÇİ** [Yanardağ:] Ey Hindistandan, İrandan, Çindən dünyanın bütün kəçilməz, varılmaz bucaqlarından gəlmiş müqəddəs odlara tapınan, pak, təmiz və təmiz vicdanlı *ziyarətçilər* (C.Cabbarlı).

zəvzək *bax* naqqal

zəvzəmək *bax* naqqallamaq, çərənləmək

zığ *bax* palçıq

zığ-zımırıq *bax* palçıq

zıqqı *bax* xəsis

zıqqıldamaq *bax* inildəmək, zarımaq

zılx *bax* çuğundur

ZINQIROV Karvan gedir yol boyu uzanıb qatar-qatar; Yeridikcə dəvələr, səslənən *zınqırovlar*... (B.Vahabzadə); **CƏRƏS** *(kl.ad.)* Cismimdəki bimar könül haləsi, guya; Bir qəmzədə məhməldən asılmış *cərəsim* (Natəvan); **QUMROV** Keçi yırğalandıqca boynundakı iri yumru *qumrov* da səslənirdi (Ə.Vəliyev); **ZƏNG** Düzlərdə yük heyvanlarının boynundan asılmış *zənglərin*.. səsindən başqa bir şey eşidilmirdi (M.S.Ordubadi).

ZINQIROVLU Keçdi mızraqlı döyüşlər, qanlar; *Zınqırovlu* dəvələr, karvanlar (S.Vurğun); **QUMROVLU** Şişbuynuz, boynu *qum-*

rəvlu ala erkəc həmişə sürünün qabağınca gedir, qoyunlara bələdçilik edirdi (Ə.Vəliyev).

zırı *bax* **1.** böyük **1**; **2.** qanmaz

zırpı *bax* böyük **1**

zırpılaşmaq *bax* yoğunlaşmaq

zırpılıq *bax* böyüklük **1**

zırrama *bax* səfeh, qanmaz

ziba *bax* **1.** bəzəkli **1**; **2.** gözəl **1**

zibalanmaq *bax* **1.** gözəlləşmək; **2.** bəzənmək

zibalı *bax* bəzəkli **1**

zibalıq *bax* gözəllik

ZİDD (*başqasına əks olan, düz gəlməyən*) [Miko:] Sevdimalı əmi və başqaları bu tədbirlərə yenə də *zidd* çıxsa, onda ciddi danışmaq lazımdır (İ.Əfəndiyev); **QARŞI** [Nazlı:] Deməli, dilbir olmusunuz, mənə *qarşı* blok yaratmısınız (Anar); **ANTAQONİST, ƏKS, ƏLEYH, MÜXALİF** (*bax*).

ZİDDİNƏ [Qaçay:] Mən belə davaların *ziddinəyəm* (S.Rəhimov); **BƏRƏKS(İNƏ)** [Göyərçin:] O kimdir elə hökumətin *bərəksinə* gedən? (S.Rəhimov); **ƏKSİNƏ** Tamam da sənin *əksinə* gedir (S.S.Axundov); **ƏLEYHİNƏ** [Əlibala:] Mən orada bu İmamqulunun ağzından Kamalın təklifi *əleyhinə* bir kəlmə də söz eşitmədim (M.İbrahimov); **QARŞI** Surxay öz dostuna *qarşı* ittihamkar mühakimələr yürüdürdü (İ.Əfəndiyev).

1. ZİDDİYYƏT C.Məmmədquluzadə varlığa realist münasibət bəsləyən, həyatı dərindən görən, onun *ziddiyyətləri*, çırpıntıları və rəzalətləri ilə dərk edən bir sənətkar idi (M.İbrahimov); **BƏRƏKSLİK** Dönə-dönə imtahan etdim fələk dövranını; Onda mən *bərəkslıklər*, özgə adət görmədim (M.P.Vaqif); **İXTİLAF** (*fikir ayrılığı nəticəsində doğan ziddiyyət*) Bəs nədəndir ki, başqa kişilərlə başqa arvadlar arasında *ixtilaf* yoxdur? (M.S.Ordubadi); **MÜNAFAT** (*kl.ad.*) Fəqr ilə ğına əhlinə kim verdi müsavat? Mənadə də, surətdə də var bunda *münafat* (M.Ə.Sabir); **TƏZAD** Burmayın boynunuzu mübarizə günündə; Sizi düşündürən bu *təzadlar* önündə (S.Rüstəm); **UÇURUM** [Rəşad Naşad] or ilə arvad arasındakı *uçurumu* dərinləşdirirdi (M.Hüseyn); **ANTAQONİZM, ZİDLİK.**

2. ziddiyyət *bax* ədavət

ZİDDİYYƏTLİ, İXTİLAFLI, TƏZADLI

zidlik *bax* **1.** ziddiyyət; **2.** ədavət

zihəyat *bax* diri

ziqiymət *bax* bahalı

1. ZİL (*zildən, ucadan çıxan səs*) Olmasa da uşağın; Yaxşı səsi, *zil* səsi; Amma çox maraqlıdır (Ə.Kərim); **QAYIM** (*köhn.*) Xudayar bəy *qayım* səslə cavab verdi (C.Məmmədquluzadə); **UCA** Müəzzin *uca* səslə azan verirdi (Çəmənzəminli); **YÜKSƏK.**

2. zil *bax* zəng **1**

zildən *bax* ucadan

I ZİLLƏMƏK (*gözlərini bir nöqtəyə, harasa diqqətlə baxmaq*) İlyas gözünü yerə *zilləmişdi* (M.Hüseyn); **DİKMƏK** Bir an düşündü, sonra gözlərini qarının üzünə *dikdi*... (M.Hüseyn); **DİRƏMƏK** Pavluşa sözlərini bitirib gözlərini Sergey Vasilinin gözünə *dirədi* (M.Hüseyn).

II ZİLLƏMƏK, ZİLƏ ÇƏKMƏK (*səsi zilə qaldırmaq*)

zillənmək *bax* dikilmək

zillət *bax* **1.** əzab; **2.** zəhmət **2**

zimistan *bax* qış

zina *bax* fahişəlik

zinakar *bax* fahişə

zindan *bax* həbsxana

zindanxana *bax* həbsxana

zindanlamaq *bax* həbs etmək

zində *bax* diri

zinət *bax* bəzək

zinətləndirmək *bax* bəzəmək

zinətli *bax* bəzəkli

zinqəhbə *bax* fahişə

zira *bax* çünki

zirab *bax* ayaqyolu

ziraət *bax* **1.** səpin; **2.** əkinçilik **2**

zircamə *bax* tuman-köynək

ZİREH Bütün qan və ölüm yayan *zirehlərdən*, güllələrdən daha möhkəm bir şey var, o da.. insanın iradəsi, qayəsi, əməli... ölməz həqiqətidir (R.Rza); **DƏMİR GEYİM** Qılınc və nizələrin əsər etdiyi *dəmir geyimlər* və polad dəbilqələr ağır əmud zərbələrindən özülərək bədənlərə yeriyirdi (M.S.Ordubadi).

ZİRƏK ..sədri də davadan çıxıb ad qazanmış *zirək* və bacarıqlı bir oğlandır (M.Rzaquluzadə); **CƏLD** [Qəhrəman yüzbaşı:] Ədə, *cəld* tərponişin!.. (C.Məmmədquluzadə); **ÇEVİK** Nurəddin özünə görə bilikli, *çevik* bir uşaqdır (S.S.Axundov); **DİRİBAŞ** Oğlu *diribaşdır*, yaxşı ov tulasıdır (A.Şaiq); **QOÇAQ** *Qoçaq* Aytən, ovçu Eliş; Doğma bacı-qardaşdılar (M.Rzaquluzadə); **ODALOV** (*məc.*) [Minnətov:] Hələ Şeydanı demirsən, *od-alovdur*, zalım oğlunun qızı (R.Rza); **BACARIQLI** (*bax*).

ZİRƏKLİK, DİRİBAŞLIQ *Diribaşlığı*, xoş xasiyyəti ucundan çox çəkmədi ki, [Alxan] pillə-pillə qalxdı (Ə.Vəliyev); **CƏLDLİK** [Əkbər] .. özündə belə *cəldlik*, cəsarət və möhkəmlik hiss etməmişdi (Mir Cəlal); **ÇEVİKLİK** [Buğac] öz gücünü, *çevikliyini*, bədəninin dözümünü sınayırdı (M.Rzaquluzadə); **QOÇAQLIQ** Cahanın *qoçaqlığım* ondan bil ki, bu yaşında üç-dörd ayın içində savadlandı (Ə.Haqverdiyev); **HÜNƏR** (*bax*), **QIVRAQLIQ.**

zirvə *bax* təpə **1**

ZİRZƏMİ (*yer altında olan ev, anbar və s.*) Bu halda *zirzəminin* qapısı açıldı (M.Hüseyn); **PODVAL** (*dan.*) [Rus yoldaş:] Bizi xüsusi evin *podvalında* yerləşdirmişdilər (M.Hüseyn); **EVALTI** (*köhn.*).

zişan *bax* şanlı **1**

zivər *bax* bəzək

ziya *bax* işıq

ziyad *bax* **1.** kütüm; **2.** çox

ziyadə *bax* çox

ZİYAFƏT (*tənt.*) (*böyük qonaqlıq*) Bu *ziyafəti* Fransadan gəlmiş bir dəstə jurnalistin şərəfinə düzəltmişdilər (M.İbrahimov); **BANKET** [Balaxanım:] Nə olub? *Banketdi?* (Anar); **QONAQLIQ** Nazlı xanım o gün böyük bir *qonaqlıq* düzəltmişdi (Y.Şirvan); **YIĞINCAQ** [Şərəfnisə xanım:] Müsyö Jordan beynimə salıbdır ki, Parisdə qızlar, gəlinlər məclislərdə, *yığıncaqlarda* üzü açıq oturub-dururlar (M.F.Axundzadə).

1. ziyalandırmaq *bax* işıqlandırmaq

2. ziyalandırmaq *bax* maariflendirmək

1. ziyalanmaq *bax* işıqlanmaq **1**

2. ziyalanmaq *bax* maarifllənmək

1. ZİYALI (*elm, texnika, mədəniyyət sahəsində təhsilə, xüsusi biliyə malik olan adam*) Gördü fikir verən yox əsla onun sözünə; Dedi: "Bunlar xalq deyil, beş-altı *ziyalıdır*.." (M.Rahim); **ƏHLİ-ÜRFAN** (*kl.əd.*) Uş Xətayi, sözlərindən *əhli-ürfan* utanır; Cahilü nadan rəşbü namüsolman mənfəil (Xətayi); **MÜNƏVVƏR** (*köhn.*) Bu dil *münəvvər* bir adamın düşüncələrini ifadə etməkdən acizdir (Çəmənzəminli); **ELMLI** (*bax*), **SAVADLI** (*bax*).

2. ziyalı *bax* işıqlı

ZİYAN [Pərviz:] ..atam kənd rayonlarında onun təsərrüfata vurduğu *ziyandan*, .. danışdı, dedi ki, adətən siçovul görünən yerlərə zəhərli buğda tökürlər (M.İbrahimov); **XƏSARƏT** [Zakirov:] Qəribədir, axşam mən bağı gəzəndə hasarda heç bir *xəsarət* görmədim (Ə.Məmmədxanlı); **XƏTƏR** *Xətər* görməyəsən heç zaman, qardaş! (S.Rüstəm); **MAZARAT** (*dan.*) Dövlətlidən xeyir [olmaz]; kordan *mazarat* (Ata. sözü); **RƏXNƏ** [Məstəli şah:] Amma olar ki, işdən o qorxsun, ağlına *rəxnə* yetişsin, ya azarlasın, ya çolaq olsun... (M.F.Axundzadə); **ZAVAL** Bu körpəcə meynəni qoru hər bir *zavaldan* (S.Rüstəm); **ZƏRƏR** [Dəmətoğlu:] Bir dərmanla bu xəstəliyini müalicə edirsən, o birinə *zərər* olur (H.Abbaszadə).

ziyanəvər *bax* ziyanverici

ziyançı *bax* ziyanverici

ziyankar *bax* ziyanverici, ziyanlı

ZİYANLI (*müxtəlif mənalarda*) Mən onun qəsdən *ziyanlı* bir addım atdığına inanmıram (M.Hüseyn); **MÜZÜR** Hələ bəziləri [Nasəd əfəndinin] alçaq, *müzür* bir şəxsiyyət olduğunu söyləyirdilər (S.Hüseyn); **ZƏRƏRLİ** [Alp Arslan:] Mən paytaxtı *zərərli* ünsürlərdən təmizlədiyim zaman Qotibəni də oğlunun yanına, Rey şəhərinə göndərmişdim (M.S.Ordubadi); **ZİYANKAR** [Kərim baba:] ..qara buludu görürsünüzmü? Çox *ziyankar* buluddur (A.Şaiq); **XƏTƏRLİ, ZİYANVERƏN.**

ZİYANSIZ, ZƏRƏRSİZ (*zərəri, ziyanı olmayan*)

ziyanverən *bax* ziyanverici, ziyanlı

ZİYANVERİCİ(LƏR) Onu deyim ki, tarlalarımızdan əl-ayaq çəkilən kimi torpağı ikiyaruslu kotanla 38-40 santimetr dərinlikdə şumlamağı, beləliklə torpaqda qalan pambıq *ziyanvericilərini* məhv etməyi nəzərdə tutmuşuq (Qəzetlərdən); **ZƏRƏRVERİCİ-(LƏR)** *Zərərvericilərə* qarşı mübarizə işini isə daim nəzarət altında saxlamışıq (Qəzetlərdən); **ZİYANÇI** (*dan.*) [Pərviz:] Yaman *ziyançıdır*, bunu harada gördünüz, məhv edin!.. (M.İbrahimov); **ZİYANƏVƏR** *Ziyanəvər* tülkü xain oğrudur; Öldür, dua elər ərsiz qarılar (M.Rahim); **ZİYANKAR** [Bəhlul:] Yox, xəlifə, mən ədalət və həqiqət aşiqiyəm, kim olursa olsun, əyriləri, *ziyankarları* islah etməyə çalışıram (A.Şaiq), **ZİYANVERƏN** Abşeronda çoxdan kökü kəsilmiş canavar, tülkü, çaqqal kimi *ziyanverən* heyvanlar haradansa peyda olub (M.Rzaquluzadə).

ziyarət *bax* ibadət 1

ziyarətçi *bax* zəvvar

ZİYARƏTGAH (*ziyarət yeri*) Hörmət eləmədim bir şahənşaha; Məzarın döndüsə *ziyarətgaha* (M.Rahim); **ZİYARƏTXANA** Ortada böyük günbəzə oxşayan bir *ziyarətxana* tikmişdilər (M.Hüseyn).

ziyarətxana *bax* ziyarətgah

ZİYİLOTU, DƏMROVOTU (*bot.*) *Ziyilotu* və ya *dəmrovotu* köhnə daş divarlarda meşə kənarlarında, əkinlərdə və zibilli yerlərdə bitən və narıncı süd şirəsi olan çoxillik otdur (M.Qasımov).

zoğ *bax* fidan

zoqquldamaq *bax* 1. ağrımaq; 2. inildəmək

zoqqultu *bax* sancı

zolaqlı *bax* zolaq-zolaq

ZOLAQ-ZOLAQ (*zolaqlar şəklində*) [Zeynal] *zolaq-zolaq* xəstəxana pijamasının yaxası altında yavaş-yavaş barmaqlarını tərpətdi (B.Bayramov); **MİLƏMİL** Özbək qardaş "Raxmat, raxmat" deyə-deyə *miləmil* xələti onun çiyninə saldı (Ə.Babayeva); **MİL-MİL** ...Şahpələng bahalı şal parçadan *mil-mil* qara şalvarı onun üstünə atdı (M.İbrahimov); **ZOLAQLI** Əziz çimmək paltarında uzanıb başını qırmızı *zolaqlı* çətirin kölgəsində gizlədərək bədənini günə verirdi (H.Abbaszadə); **ZOL-ZOL** [Aytəmiz:] Dərsdən gələn kimi dəlixana paltarına oxşayan *zol-zol* şalvarı geyirsən oyninə, əlinə bir kitab alıb yayılırsan divanın üstünə (Ə.Qasımov).

zollamaq *bax* vurmaq 1

zol-zol *bax* zolaq-zolaq

zontik *bax* çətir

ZOOPARK (*heyvanlara məxsus zooloji bağ*) Atası Musanı *zooparka* aparmışdı (S.Vəliyev); **HEYVANXANA** [Qanbay:] Mən heyvanları çox sevirəm, hər gün *heyvanxanaya*, sirkə getsəm, yenə doymaram (A.Şaiq); **HEYVANAT PARKI, ZOOLOJİ PARK.**

zor *bax* 1. güc; 2. məcburiyyət

zorakı *bax* zorla

ZORAKILIQ, TƏCAVÜZ, TƏZYİQ

zorba *bax* böyük 1

zorbalaşmaq *bax* yekəlmək

zorbalıq *bax* böyüklük 1

zor-bəla *bax* zorla

zor-güc *bax* zorla

ZORLA Adilə dilinin ucuna gəlmiş "heç siz də görünmürsünüz" sözlərin *zorla* saxladı (Ə.Qasımov); **ZORAKI** [Qubernator:] Budur, kişinin mülkünü *zorakı* saldırıb öz adına ki, nə var, iş bilmişəm... (C.Cabbarlı); **ZOR-BƏLA İLƏ** Universitetə qızıl medalla gəlmiş Camalla Mahirə *zor-bəla ilə* kafi, Kamil isə ələ qiymətlər aldı (Y.Şirvan); **ZOR-GÜC** Kamil müəllim sinfi *zor-güc* sakit etdi... (A.Şaiq).

1. ZORLAMAQ, MƏCBUR ETMƏK, VADAR ETMƏK

2. ZORLAMAQ, BAŞINA PİSLİK GƏTİRMƏK, NAMUSUNA TƏCAVÜZ ETMƏK, NAMUSUNA TOXUNMAQ

3. ZORLAMAQ, GÜC ELƏMƏK, GÜC GƏLMƏK

zöhr *bax* günorta

zöhrə *bax* Venera

zökəm *bax* qrip

zöve *bax* ər 1

zövcə *bax* arvad 1

zövq *bax* 1. kef 1; 2. gözəllik; 3. ləzzət 1

zövq-səfa *bax* kef 1

zövrəq *bax* qayıq

zülf *bax* saç 1

zülm *bax* əzab

zülmət *bax* qaranlıq 1

zülmətli *bax* qaranlıq

zülmkar *bax* zalım

zülmkarlıq *bax* zalımlıq

zümrə *bax* silk

zümrüd *bax* simurq

züriyyət *bax* 1. nəsil 1; 2. övlad 1

MÜNDƏRİCAT

Ön söz 5
Lüğətin quruluşu 7
Şərti ixtisarlar 9

Aa 11
Bb 37
Cc 64
Çç 73
Dd 85
Ee 111
Əə 115
Ff 131
Gg 139
Hh 153
Xx 172
İi 185
Jj 201
Kk 202
Qq 216
Ll 240
Mm 246
Nn 275
Oo 288
Öö 293
Pp 298
Rr 309
Ss 315
Şş 343
Tt 354
Uu 376
Üü 382
Vv 387
Yy 396
Zz 413

AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜĞƏTİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul: *Əziz Gülaliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 13.12.2006. Çapa imzalanmışdır 15.05.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26,5. Ofset çap üsulu.
Tirajı 10000. Sifariş 65.

DÜST 5773-90, DÜST 4.482-87

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.

Ш163
А 99

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il
tarixli sərəncamı ilə nəşr olunur.

